რიაზუს-სალიჰინ

არაბული ტექსტი და თარგმანი



1

იმამ ნევევი

TBİLİSİ - 2021

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაცით.

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin Elmi Şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

Kitabın orijinal adı:

Riyazus-Salihin

Müəllif:

İmam NƏVƏVİ

Anadolu türkcəsini hazırlayanlar:

Prof. Dr. Yaşar KANDEMİR

Prof. Dr. İsmail Lütfi ÇAKAN

Prof. Dr. Raşit KÜÇÜK

Nəşrə Hazırlayan:

t.f.d Abbas QURBANOV

Hacı BƏKİROĞLU

Azərbaycan türkcəsinə uyğunlaşdıran:

Nurlan MƏMMƏDZADƏ

Bədii redaktorlar:

t.f.d Abbas QURBANOV

Əziz SULTANOV

Ramazan QORADAYEV

Dizayn:

Nicat QƏRİBOV

Elsevər ƏHMƏDOV

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის.

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə təşkilatına təşəkkür edir.

Esma Oniani st, Tbilisi Georgia, #23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E-mail: info.amag77@gmail.com

رِيَاضُ الصَّالِحِينَ

Riyazus Salihin

Ərəbcə mətni və tərcüməsi

1

İMAM NƏVƏVİ

Gürcüstan Nəşri Üçün

Ön Söz

Bizi insan olaraq yaradan, saysız-hesabsız nemətləri ilə təchiz edən, ən böyük nemət olan Həzrət Muhammədə ümmət olma bəxtiyarlığına qovuşduran Allah-Təalaya sonsuz həmd-sənalar olsun! Rəbbimizə layiqli qul olmağın yolunu göstərən, bizim üçün *"üsveyi-həsənə"* - ən gözəl örnək olan Fəxri-Kainat Muhammməd Mustafaya salətu-salam olsun!

Dinin əsas hədəfi gözəl insan yetişdirmək, insanı layiq olduğu şərəfli məqama yüksəltməkdir. Allah-Təala bunun üçün bizə ilahi kitablar, o cümlədən həmin kitabların canlı nümunəsi olan peyğəmbərlər göndərmişdir. Kamil insan olmaq istəyən Rəbbindən nazil olana qulaq verməli, vəhyi bizə çatdırmaqla vəzifəli peyğəmbərə tabe olmalıdır. Səhabədən Sad bin Hişam bir gün möminlərin anası Həzrət Aişədən Rəsulullahın əxlaqı barədə soruşduqda bu cavabı almışdı: *"Onun əxlaqı Quran idi"*. (Müslim, 746; Əbu Davud, 1342) Deməli, Rəsulullah canlı Quran, onun sünnəsi də bizim üçün yol bələdçisidir. Əlbəttə ki, Quranı doğru anlamaq üçün Rəsulullahın həyatına baxmaq şərtdir. Allah Rəsulunun həyatını öyrənməyin yolu siyər elmindən və hədisi-şərifləri öyrənməkdən keçir. Hədisi-şəriflər Həzrət Peyğəmbərin gözəl əxlaqından nümunələr ehtiva etməklə yanaşı, vəhyə tabe olan Fəxri-Kainatın (s.ə.s) tövsiyələrinin də məcmusudur. Elə bir islami elm sahəsi yoxdur ki, hədisi-şəriflərdən bəhrələnməsin. Xülasə, Quranı doğru anlamaq, Rəsulullahı tanımaq və kamil insan olmaq üçün İslam dinində müstəsna yeri olan hədisi-şərifləri oxumaq lazımdır.

Həzrət Peyğəmbərin mübarək sözlərinin məcmusunu təşkil edən saysız-hesabsız hədis kitabları mövcuddur. Şübhə yoxdur ki, hər biri bir-birindən dəyərli olan bu əsərlər uzun illərdən bəri müsəlmanların yoluna işıq tutmaq vəzifəsini layiqincə həyata keçirmişdir. İmam Nəvəvinin qələmə aldığı və əsasən əməllərin fəzilətindən bəhs edən, İslam əxlaqına zidd olan bir sıra əməlləri yasaqlayan, bir sözlə gündəlik həyatda riayət etməli olduğumuz əmr və qadağaları özündə əks etdirən bu hədis kitabı bütün dünya müsəlmanları tərəfindən birmənalı olaraq

sevilərək oxunan bir əsərə, hər bir inanclı insanın stolüstü kitabına çevrilmişdir. Bir çox dilə tərcümə edilmiş, şərhlər yazılmış, söhbət və vəz məclislərinin əvəzolunmaz vəsaitinə çevrilmişdir. Biz də bu çalışmamızla son illərdə qələmə alınan bir çox "Riyazus-Salihin" tərcümə və şərhini araşdırdıq. Bu çalışmalar arasında qardaş Türkiyənin Erkam Yayınları tərəfindən nəşr olunan və İpəkyolu Nəşriyyatı tərəfindən Azərbaycan türkcəsinə tərcümə edilən "Riyazus-Salihin" əsəri tərəfimizdən bəyənildi və məhz onun əsasında nəşr etdirilərək siz dəyərli oxucularımıza təqdim etmək qərarına gəldik.

Bu kitabda Allah Rəsulunun mübarək kəlamları oxuculara ən gözəl və başadüşülən üslubda çatdırmağa çalışılmışdır. Hədisi-şəriflərin Anadolu türkcəsindəki tərcüməsi ilə yanaşı ərəbcə mətnləri də verilmişdir. Bəzi hədislərdə yer alan və oxucu tərəfindən anlaşılması çətin olan müəyyən ifadələrin qısa şərhi verilmiş və hər biri xüsusi qeydlərdə izah edilmişdir.

Belə bir əsərin ərsəyə gəlməsində və siz dəyərli oxuculara çatdırılmasında əvəzsiz rolu olan t.f.d Abbas QURBANOV, Hacı BƏKİROĞLU, Nurlan MƏMMƏDZADƏ və kitabda əməyi keçən digər çalışanlara təşəkkür edirik.

Həmçinin kitabın Anadolu türkcəsinə tərcüməsi üzərində çalışan dəyərli hocalarımız Prof. Dr. M. Yaşar KANDEMİR, Prof. Dr. İsmail Lütfi ÇAKAN, Prof. Dr. Raşit KÜÇÜK, o cümlədən bizə verdikləri dəstəyə görə Erkam Yayınlarına təşəkkürü özümüzə borc bilirik. Bu əsərin hərbirimiz üçün sədəqeyi-cariyə olmasını, hədisi-şəriflərin həyatımıza işıq tutmasını təmənna edirik. Müvəffəqiyyət Allahdandır!

Bütün Gürcüstan Müsəlmanları İdarəsinin

Şərqi Gürcüstan Müftiliyinin Elmi Şura Heyəti

I

HƏDİS – SÜNNƏ

Gözəl dinimizin iki əsas qaynağı var. Bunlar uca kitabımız **Qurani-Kərim** və Həzrət Peyğəmbərin **Sünnə**sidir.

Dünya İslam dinini Qurani-Kərim və Hz. Peyğəmbərin şəxsiyyəti ilə müstəsna həyat tərzi olan sünnəsindən ibarət bir bütün olaraq tanıdı. Hz. Peyğəmbərin vəfatından sonra İslam dini **Kitab** və **Sünnə**nin ortaya qoyduğu əsaslar çərçivəsində anlaşılaraq yaşanmağa çalışılmışdır.

Birinci xəlifə Hz. Əbu Bəkr dövründə Quran ayələri toplandı. Sünnənin əzbərlənməsi və yazaraq toplanması şəxsən Hz. Peyğəmbərin izni ilə onun zamanında başlamışdır. 150 il ərzində tamamən yazılı hala gətirilən sünnə hicrətin II əsri, xüsusilə 3-cü əsrdə böyük hədis kitablarında cəm edildi. **Bu gün hədis kitablarında gördüyümüz həmin yazılı mətnlər sünnə sənədi olaraq hədis adı ilə tanındı.**

Hədis

Hədis termin olaraq **Hz. Peyğəmbərin sözü, feli, əshabı tərəfindən edildiyini görüb etiraz etmədiyi davranışlar (təqrir) və onun yaradılışı və ya xasiyyəti ilə əlaqəli hər bir məlumat** deməkdir. Hədis, Hz. Peyğəmbərdən eşidən səhabədən başlayaraq onu rəvayət edənlərin adlarının yazıldığı *sənəd* ilə Hz. Peyğəmbərin söz, fel və ya təsdiqinin yazıldığı *mətn*dən ibarətdir. Yəni hədis dedikdə sənəd və mətndən ibarət yazılı əsər başa düşülür. Ancaq **Riyazus-Salihin**də hədis mətnlərinin asanlıqla oxunması və öyrənilməsi üçün səhabə xaric digər ravilər, yəni hədisin sənəd hissəsi müəllif Nəvəvi tərəfindən qaldırılmışdır.

Hədis elminin hədəfi Hz. Peyğəmbərin hədislərini başqa sözlərlə qarışdırılmaqdan, dəyişdirilməkdən, pozulmaqdan və iftiraya məruz qalmaqdan elmi üsullarla qorumaqdır. Başqa ifadə ilə Hz. Peyğəmbərin demədiyi sözü ona dedirtməmək, etmədiyi bir işi ona etdirməməkdir. Bu, sünnəni mayasındakı paklığı ilə mühafizə etməkdir.

Hədis elminin inkişafı "təbliğ vəzifəsi" və **"Hz. Peyğəmbərə yalan istinad etməməyə diqqət"** prinsiplərinin həssas ölçülərlə həyata keçirilməsinə bağlıdır. Bu xüsusda ilk və ən mühüm cəhdlər Hz. Peyğəmbərin ən xeyirli nəsil kimi vəsifləndirdiyi əshabi-kirama aiddir.

Səhabə, müsəlman olaraq Hz. Peyğəmbəri görən və həmin imanla ölən adama deyilir. Əshab səhabə sözünün cəm formasıdır. Hər hansı bir səhabə ilə görüşmə fürsəti əldə edən adama da **tabei** deyilir.

Sünnə

Sünnə lüğətdə "yol" deməkdir. Yolun yaxşısına da, pisinə də sünnə deyilir. Bir sözlə "gözəl yol" mənasına gəlir. Qurani-Kərimdə bu söz davam edən adət, kainatın nizamındakı qanunlar, gedilən yol mənasında işlənir. Bir də "sünnətullah" termini işlənir. Bu, Allahın qoyduğu qaydalar, cəmiyyətlərin həyatında müşahidə olunan inkişaf, tənəzzül və hətta yox olmada keçərli olan ilahi qanunlar deməkdir.

Termin olaraq **sünnə, Hz. Peyğəmbərin söz, fel və təqrirləri ilə İslamı yaşayaraq şərh etməsidir.** Bu mənada sünnə hədisdən daha əhatəlidir. Odur ki, **"Sizə iki şey qoyub gedirəm. Onlardan möhkəm yapışdığınız müddətdə yoldan çıxmazsınız: Allahın kitabı və Rəsulunun sünnəsi"** (Malik, Muvatta, Qədər 3) hədisində də bu mənanı açıq-aydın görürük. Bu gün hədis deyəndə sünnə, sünnə deyəndə hədis başa düşülür.

İlk dövrlərdə hədisin Hz. Peyğəmbərin sözlərini, sünnənin isə fel və davranışlarını ifadə etmək üçün işlənməsi, hədisin sünnədən fərqli olduğunu ifadə etmək üçün kifayət deyil. Bu birlik əsla sünnəyə özündən olmayan bir şeyi qarışdırmaq mənasına gəlməz. Müstəşriqlərin bu istiqamətdə irəli sürdüyü iddiaları ciddiyə almamaq lazımdır. Onsuz da **sünnə hədis kitablarında oxuduğumuz hədis mətnləri deyil, onların mənalarıdır.**

Sünnə Quranı şərh etdiyi üçün dəlillərin sadalanmasında Qurani-Kərimdən sonra gələn ikinci əsasdır. Quran tilavət olunan vəhy, sünnə isə oxunan vəhydir. Hədis də rəvayət edilən sünnədir. Hədis kitablarımız sünnənin yazılı mətnləri ilə doludur. Bu mətnlərin keyfiyyətinə görə fərqli və xüsusi terminlərlə ifadə edilməsi və müxtəlif hökmlərə bağlanması elmi mövzudur. Bu keyfiyyət və terminlər Hədis Üsulu Elminin predmetidir.

Peyğəmbər və Sünnə ehtiyacı

Bütün peyğəmbərlər Allahın əmr və qadağalarını Onun qullarına çatdırmaq və onlara doğru yolu göstərməklə vəzifələndirilmiş **hidayət elçiləri**dir. Peyğəmbərlər bu müqəddəs elçilik vəzifələrini layiqincə yerinə yetirməyə çalışmışlar. Bizim Peyğəmbərimiz Muhammməd səllallahu əleyhi və səlləm də ümmətinə Allah-Təalanın istədiyi kimi yaşamaları üçün lazım məlumatları əyani şəkildə edərək göstərmişdir. Bütün peyğəmbərlər kimi bizim peyğəmbərimizin də iki əsas vəzifəsi vardır: **təbliğ və bəyan.**

"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) **təbliğ et. Əgər** (bunu) **etməsən,** (Allahın) **risalətini** (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini**) yerinə yetirmiş olmazsan".** (əl-Maidə, 67) **Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni** (hökmləri, halal-haramı) **izah edəsən"** (ən-Nəhl, 44)

Hz. Peyğəmbər vəhy yolu ilə Allahdan aldığı Quran ayələrini vəzifəsinin gərəyi olaraq sadəcə insanlara çatdırmaqla kifayətlənmir, eyni zamanda onları açıqlayıb şərh edirdi. Onun əsl vəzifəsi təbliğ etdiklərini açıqlayıb izah etmək idi. Burada qeyd etməliyik ki, Peyğəmbərimizin vəzifəsi **aləmşümul** olduğu üçün verdiyi izahlar da buna uyğun xarakter daşıyırdı. Yəni sünnə **Quranın aləmşümul** səviyyədə Hz. Peyğəmbər tərəfindən izahı mənasına gəlirdi.

Belə bir sual yarana bilər. Müqəddəs kitabımız Qurani-Kərimin **qüsursuz, qaneedici və açıq-aydın** olmasına, dinimizin də kamil mənada tamamlanmasına baxmayaraq sünnənin ifadə etdiyi bu izah və şərhə həqiqətən ehtiyac varmı? Bu bir gerçəkdir ki, həqiqətən uca kitabımız kifayət qədər açıq və qaneedicidir. Lakin onun bu xüsusiyyətinə rəğmən hədəf kütləsi olan insanların anlayış səviyyəsi müxtəlif olduğuna görə onu hər kəsin doğru anlayıb qavraması mümkün deyil.

Digər tərəfdən, məsul olmaq üçün eşitmək deyil, anlamaq da lazımdır. İnsanları anlamadıqları şeydən məsul tutmaq doğru deyil. Ona görə də kimin nəyi anlaması şərtdirsə, ona həmin şeyi anlatmaq lazımdır. Ən yaxşı, ən gözəl, ən doğru və ən qənaətbəxş izahatı da əlbəttə ki, Quran ayələrini gətirən və təbliğ edən Peyğəmbər edəcəkdir. Peyğəmbərin izahatları heç bir zaman Quranın nöqsan, yetərsiz və qapalı olduğu mənasına gəlməz. **"Allaha qul olmaq"**dan başqa vəzifəsi olmayan insanlar yalnız bu izahatlar sayəsində Allaha necə qulluq edəcəklərini öyrənəcəklər. Bu səbəblə **sünnəsiz bir müsəlmanlıq təsəvvür etmək mümkün** deyil.

Həyatın ilahi iradə istiqamətində formalaşması xüsusunda Sünnə Quran ilə birlikdə, onun yanında yer alaraq birinci dərəcəli vəzifəni daşıyır.

Bu mənada Qurani-Kərimdə belə buyurulur:

"Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin". (əl-Həşr, 7)

"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın". (Ali-İmran, 31)

"Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"** (əl-Əhzab, 21)

"Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!" (ən-Nisa, 59)

"Amma, xeyr! (Ya Rəsulum!) **Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim** (münsif) **təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə,** (həqiqi surətdə) **iman gətirmiş olmazlar".** (ən-Nisa, 65)

"Sən (onunla insanları) **düz yola yönəldirsən".** (əş-Şura, 52)

"Onun (Allahın, yaxud Peyğəmbərin) **əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, yaxud düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər!"** (ən-Nur, 63)

"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur". (ən-Nisa, 80)

Hz. Peyğəmbər belə buyurur:

"...Kim mənim sünnəmdən (həyat tərzimdən) üz döndərərsə, məndən deyil". (Buxari, Nikah 1; Müslim, Nikah 5)

"Dinin əldən çıxması sünnənin tərki ilə başlayar. Kəndirin lif-lif qopub parçalanması kimi din də sünnənin bir-bir tərk edilməsi ilə ortadan qalxar". (Darimi, Müqəddimə 16)

Bu ayə və hədislər müsəlmanların sünnəyə sarılaraq və ondan ayrılmadan çalışmaq surəti ilə müsəlman şəxsiyyətini qoruya biləcəklərini göstərir. Yəni ümmət sünnə ilə var, onunla yaşayar. Sünnədən ayrılmaqla assimilyasiya başlayar.

Sünnənin mənbəyi

Qurani-Kərim həm ləfzi, həm də mənası ilə vəhy olduğu üçün ona *vəhyi-mətluv* (oxunan vəhy) deyilir. Sünnə isə bir növ vəhyin məal və məfhumu olduğuna görə vəhy sayılır. Lakin ləfzən vəhy keyfiyyəti daşımır. Bu səbəbələ də *vəhyi-qeyri-mətluv* (tilavət olunmayan vəhy) adlanır.

Həzrət Peyğəmbər vəhy, üstün bəşəri ağıl və nəbəvi ağıl, yaxud da peyğəmbərlik təcrübəsi (mələkeyi-nübüvvət) adlanan üç yolla elm əldə etmək imkanına sahibdir. Bu mövqeyi səbəbi ilə o, başqalarının dərk edə bilmədiyi bir sıra ilahi həqiqətləri qavrayıb ən münasib şəkildə ifadə edərək, eyni zamanda öz həyatında tətbiq edərək insanlara şərh edir. Sünnənin aliliyi, başqalarının şərhlərindən üstünlüyü buradan qaynaqlanır.

Sünnənin dindəki yeri

Hz. Muhammədin peyğəmbərliyinin başlanğıcından vəfatına qədər Qurandan xaric söylədiyi hər sözü və ya hər hərəkəti sünnə daxilində yerini almışdır. Bu söz və fellərin ümmət üçün ümumi hökm qoyması ilə xüsusi adamlara və ya şəxsinə aid olması arasında heç bir fərq yoxdur. Həmçinin onun felinin yaradılışla əlaqəli olub-olmaması da nəticəni dəyişdirməz. Bütün bunlar nəticədə fərqli hökmlərə bağlansa da, *"Peyğəmbərin ortaya qoyduğu söz və fellər"* olaraq *"sünnə"*nin əhatəsinə daxildir. Bəzisinə vacib, bəzisinə məndub, bəzisinə məkruh və s. deyilməsi, bəzisinin bütün ümmətə, bəzisinin də yalnız bir sıra insanlara aid olması başqa mövzudur.

Bütün müsəlmanlar sünnənin dəlil olmasında yekdilliklə eyni fikirdədirlər. Yəni sünnənin dində dəlil olmadığını söyləyən heç bir qrup və ya insan yoxdur.

Digər tərəfdən Kitabın Sünnədən üstün olması məsələsində də heç bir fikir ayrılığı yoxdur. Zira Kitab ləfz olaraq Allah tərəfindən endirilmiş, ibadətlərdə oxunması əmr edilmiş, bütün bəşəriyyətin ən kiçik surəsinin bənzərini gətirməkdən aciz qaldığı ilahi bəyandır. Sünnə isə bu vəsfləri daşımır. Bu nöqyeti-nəzərdən baxdıqda əlbəttə ki, dəlillərin ardıcıllığında Qurandan sonra gəlməlidir.

Quranda sünnənin hüquqi dəlil olduğunu göstərən ayələr də mövcuddur. Nəticə olaraq Quran və Sünnə bir-birini dəstəkləyir. Dində dəlil olduqları da eyni dərəcədə qətidir.

Sünnənin Quran qarşısında üç vəzifəsi vardır: təkid, təfsir, təşri.

Təkid (gücləndirmə): Sünnə hər hansı bir hökmə Quran kimi dəlalət edir, yəni hər cəhətdən Quranın hökmünə münasib bəyan ifadə edir.

Məsələn, **"Namazı qılın, zəkatı verin", "Ey iman gətirənlər, oruc sizə fərz qılındı", "Kəbəyə getmə imkanı olanların həcc etməsi Allahın insanlar üzərindəki haqqıdır"** ayələrində qətiyyətlə ifadə edilən İslamın şərtlərini *"İslam beş təməl üzərində qurulmuşdur"* (Buxari, İman 1, 2; Müslim, İman 19-22) hədisi –tətbiqata dair heç bir izahat vermədən- sadəcə hökm baxımından bəyan edir. Həmçinin **"Mallarınızı aranızda haqsız yerə yeməyin"** (əl-Bəqərə, 188) ayəsi ilə *"Heç bir müsəlmanın malı öz razılığı olmadan halal deyil"* (Əbu Davud, Mənasik 56) hədisi bir-biri ilə ahəng təşkil edərək eyni mənaya gəlir.

Təfsir və ya bəyan: Sünnə Qurani-Kərimdə yer alan hər hansı bir hökmü müəyyən cəhətdən izah edir. Buna ümumi mənada qısa təmas edilmiş **(mücməl)** hökmlərlə, çətin başa düşülən **(müşkül)** hökmlərin açıqlanması, mütləq hökmlərin müəyyən şərtlərə bağlanması **(təqyid),** ümumi hökmlərin xüsusiləşdirilməsi **(təxsis)** deyilir. Məsələn, namaz və zəkatın tətbiqatı xüsusunda məsələyə aydınlıq gətirən hədislər, həmçinin **"ağ sap qara sapdan seçilənə qədər"** (əl-Bəqərə, 187) ayəsindəki ağ və qara sapdan məqsədin gündüzün aydınlığı ilə gecənin qaranlığı olduğunu ifadə edən hədislər, həmçinin **"İman gətirib imanlarını zülmə qatışdırmayanlar"** (əl-Ənam, 82) ayəsindəki zülmdən məqsədin *"şirk"* olduğunu bildirən hədis sünnənin bu xüsusiyyətini ortaya qoyur.

Sünnənin bu iki xüsusiyyəti (təkid və təfsir) haqqında İslam alimləri arasında heç bir fikir ayrılığı yoxdur.

Təşri (qanun qoymaq): Quranın hökm vermədiyi hər hansı bir mövzuda sünnənin hökm verməsidir. Alimlər bu mövzu ətrafında mübahisə ediblər. Bəzi alimlər deyirlər ki, "Allah-Təala Peyğəmbərə itaəti fərz qılıb və Peyğəmbərin ilahi rizaya uyğun hərəkət edəcəyini bildiyi üçün Kitabda hökm verilməyən məsələlər barəsində Peyğəmbərə hökm vermək səlahiyyəti tanımışdır". Bəziləri də bu fikirdədir ki, "Heç bir sünnə yoxdur ki, mütləq Quranda onun əsli olmasın. Namazın necə qılınacağını göstərən sünnənin namazın qılınmasını əmr edən ayəyə əsaslandığı kimi digər məsələlərdəki təşri sünnələr də mütləq surətdə bir ayəyə əsaslanır. Peyğəmbər nəyi halal və ya haram edibsə, onları Allah tərəfindən açıqlama olduğu üçün ortaya qoymuşdur".

Bir sıra alimlər isə belə deyirlər ki, "Peyğəmbərin sünnə olaraq ortaya qoyduğu hər şey onun qəlbinə Allah tərəfindən ilham olunan hikmətdən ibarətdir. Peyğəmbərin qəlbinə qoyulan şey onun sünnəsini təşkil edir".

Bu fikirlər sünnənin başlı-başına hökm verəcəyi haqda yekdillik ifadə edir. Sadəcə olaraq Peyğəmbərin verdiyi hökmü birbaşa Allahın yardımına əsaslanaraq, yoxsa ona vəhy edilərək və ya qəlbinə gələn ilhamla ortaya çıxdığı xüsusunda ixtilaf vardır. Fikirlərin müxtəlifliyi məhz bu dəyərləndirmə və ifadə üzərindədir.

Belə bir sual yarana bilər: Kitabda olmayan bir hökmü sünnənin müəyyən etməsi Kitaba müxalifət mənasına gəlməzmi? Sualın cavabı:

Kitaba edilən əlavə bu üç halda mümkündür:

1. Həmin mövzu Rəsulullah səllallahu əleyhi və səlləm tərəfindən ortaya qoyulmamış olar.

2. Mövcud olan bir hökmü ortadan qaldırar, yəni nəsx edər. (Ancaq sünnə mütəvatir olarsa, bu ehtimal ola bilər)

3. Hökmü müəyyən bir məsələyə təxsis edici (muxəssis) ola bilər.

Bu nə deməkdir? Yəni Kitab üzərinə əlavə -əgər belə bir şey varsa- ya hökmü ortadan qaldırıcı (nasix) və ya bir məsələylə məhdudlaşdırıcı (muxəssis) olmalıdır. Bu iki halda da diqqət edərsək, iki xüsus var:

a) Kitabın (yəni ayənin) bəyanı (izahı).

b) Kitabın izah vermədiyi bir məsələdəki hökmü təkbaşına izah etməsi.

Burada bir xüsusa da diqqət edilməlidir. Nəbi səllallahu əleyhi və səlləm hər hansı bir hökmün təbliği məsələsində xətaya düşməkdən qorunmuşdur. Bu hökm istər vəhyi-mətluv, istərsə də vəhyi-qeyri-mətluv olsun. İstər müstəqil hökm qoysun, istər bəyan edici, istərsə də təyid edici olsun, xətadan qorunmaq baxımından fərq yoxdur. Hətta bütün şəriət vəhyi-qeyri-mətluv, yəni sünnə olaraq göndərilsəydi, yenə də xətaya düşməkdən qorunar, təbliği də bağlayıcı olardı. Necə ki, peyğəmbər olaraq göndərilməyin şərtləri arasında mütləq kitab endirilmə şərti yoxdur. Digər tərəfdən Allah-Təalanın peyğəmbərinə kitabında endirmədiyi bir hökmü təbliğ etməsinə hər hansı bir mane yoxdur. Çünki **"(Allah) gördüyü işlər barəsində sorğu-sual olunmaz"** . (əl-Ənbiya, 23)

Sünnənin aidiyyatı

Sünnə hər cəhəti ilə bağlayıcıdır. Peyğəmbərə tabe olmağı, onun verdiyi hökmlə razılaşmağı, onun hökmü qarşısında möminlərə seçim haqqı tanınmadığını bildirən ayələr sünnənin müsəlmanların həyatındakı önəmini ortaya qoyur.

Lakin Hz. Peyğəmbərin müxtəlif vəsflərlə ortaya qoyduğu sünnənin bağlayıcılıq dərəcəsinin və çərçivəsinin eyni olmadığı da bir həqiqətdir. Hz. Peyğəmbər **risalət** (peyğəmbərlik), **ifta** (müftülük), **qəza** (hakimlik), **imamət** (dövlət rəhbərliyi) kimi vəsflərdə birindən hərəkət edir.

Risalət, yəni peyğəmbərlik vəsfi ilə ortaya qoyduğu sünnə ümumiyyətlə ayələri açıqlamaq (təfsir), müəyyən şərtə bağlamaq (təqyid), müəyyən şəxslərə xüsusiləşdirmə (təxsis), halal-haramı açıqlamaq, əqaid və əhkamı bəyan etmə məqsədi daşıyır. Bu növ sünnə ilahi əhkamın bəyan və təfsiri olduğu üçün hökmü qiyamətə qədər davam edəcəkdir. Çünki Hz. Peyğəmbər bu təbliğ və bəyan səlahiyyətində təbliğçi və **nəql edən** mövqeyindədir. Allah qatından ona bildirilən həqiqətləri nəql və bəyan etməkdədir. **Hz. Peyğəmbərin bu sifətlə ortaya qoyduğu səlahiyyətləri bütün ümmətə şamildir.**

İfta (müftilik) Allah-Təalanın hökmünü dəlillərdən çıxararaq dini sualları cavablamaq, Allah adına əhkamdan xəbər vermək, təbliğ və izah etməkdir. Hz. Peyğəmbər bu səlahiyyətində dəlillərə bağlıdır. **Bu yolla ortaya qoyduqları da ümmətə şamildir.**

Qəza (qazılıq) iki və ya daha çox adam arasında baş verən mübahisələrdə səbəb və dəlillərin meydana gətirdiyi qənaətə görə haqlı ilə haqsızı müəyyən etmək məqsədi ilə verdiyi hökmlərdir. Peyğəmbər burada yeni bir hökm ortaya qoyur.

Hz. Peyğəmbər hüzuruna gətirilən mübahisəli məsələlər xüsusunda ümumi qayda qoymaq üçün belə buyurmuşdur:

"Mənə şikayətlə gəlirsiniz, mən sadəcə olaraq bəşərəm. (Kimin haqlı olduğu xüsusunda) mənə vəhy gəlməyib. Vəhy gəlməyən məsələlərdə öz rəyimə görə hökm verirəm. Ola bilər ki, sizdən biri digərinə nisbətən dəlilini daha təsirli irəli sürər, mən də onu haqlı zənn edərək lehinə hökm verərəm. Hökmümdə kimə qardaşının haqqını versəm, əsla ona yaxın durmasın. Mən ona od parçası vermiş olaram". (Əhməd bin Hənbəl, Müsnəd VI, 307, 320; Buxari, Əhkam 20)

Hz. Peyğəmbərin qazılıq vəsfi ilə ortaya qoyduğu sünnə yalnız şikayətçi ilə müttəhimə aiddir. Lakin hökm verərkən istifadə etdiyi

metod, diqqətə aldığı əsaslar qazılıq və hüquq üsulunda bizə nümunə olmuşdur.

İmamət (idarəçilik) səlahiyyəti ilk üç vəsf və səlahiyyətdən fərqlənir. Burada icraedici güc mövcuddur. Digər tərəfdən peyğəmbərliyin dövlət rəhbərliyi tələb etmədiyi də bir gerçəkdir. Çünki bəzi peyğəmbərlərə hökmdarlıq verilməmiş, bəzilərinə isə verilmişdir. Həm hökmdar, həm də peyğəmbər olan Rəsulullahın bu iki vəsflə ortaya qoyduğu davranışlar bir-birindən fərqlənir.

Hz. Peyğəmbərin dövlət rəhbəri vəsfi ilə etdikləri həm digər dövlət rəhbərlərinə şamil edilməz, həm də dövrün dövlət rəhbəri izin vermədiyi müddətdə buna bənzər haqlar möminlər tərəfindən özbaşına əldə edilə bilməz. Qənimətlərin bölüşdürülməsi, dövlət malının münasib şəkildə istifadə olunması və xərclənməsi, cəzaların təyini, ordunun təşkili, torpaq, mədən, su kimi təbii ehtiyatların özəl şəxs və ya təşkilatların səlahiyyətinə verilməsi kimi xüsuslar bu cür səlahiyyətlər arasındadır. Rəhbər və ya təmsilçisi izin vermədiyi müddətdə bunların alınması, işlənməsi, icra edilməsi caiz deyil. Bu mövzulardakı səlahiyyətlər sonrakı rəhbər tərəfindən dəyişdirilə bilər. Məsələn, Hz. Osman üsyançıların üstünə əsgər göndərmədiyi halda Hz. Əli göndərmişdi.

Hz. Peyğəmbərin davranışları xüsusunda ən mühüm nüans onun bu və bu kimi hərəkətləri hansı vəsf ilə həyata keçirdiyidir.

Sünnənin bağlayıcılığı bir gerçəkdir. Cərəyan etdiyi mövzuya və əsaslandığı vəsfə görə fiqhi hökm baxımından (vacib, məndub, müstəhəb kimi) müxtəliflik göstərməsi onun əsas xüsusiyyətini (insanlara şamil olmasını) ortadan qaldırmaz, əksinə, tətbiqat sahəsinin və qiymət hökmünün açıq müəyyənləşdirilməsi mənasına gələr.

Sünnənin aləmşümul bütünlüyü

Bu bir gerçəkdir ki, sünnə bütün həyatı, yaxud həyatın bütün mərhələlərini hərtərəfli əhatə edir. Bu, **sünnənin aləmşümul bütünlüyüdür.**

"De: "Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki) **göylərin və yerin hökmü Onundur".** (əl-Əraf, 158) ayəsi və mövzuya aid digər ayələr İslamın universal din olduğunu elan edərkən eyni zamanda Hz. Peyğəmbərin elçiliyinin, nəticə etibarilə də sünnəsinin, həyat tərzinin universal xarakterini ortaya qoyur.

İslam təbliğinə müxatəb olan insanlar arasında müxtəlif cəhətlərdən fərqliliklərin olacağı təbiidir. Bu fərqliliklərə baxmayaraq hər bir insan

və ya cəmiyyət yatmaq, yeyib-içmək, ağlamaq, gülmək, alver etmək, xeyir iş görmək, öyrənmək və öyrətmək, xəstələnmək, müalicə almaq kimi həyatın bütün hallarında özlərinə nümunə götürəcəkləri bir rəhbərə möhtacdırlar. Bu ehtiyac ruhi və hissi sahələrdə və əlaqələrdə daha böyükdür.

Bütün cəmiyyətlərin ehtiyacını fərd, ailə, millət, ümmət və bəşəriyyət səviyyəsində və universal səviyyədə təmin etmək, formalaşdırmaq, etalonlaşdırmaq sünnənin məsuliyyət və xüsusiyyətidir. Allah-Təalanın Hz. Peyğəmbəri "ən gözəl örnək" kimi tanıtması, onun yaşayışında həyatın bütün şərtlərinə görə nümunə götürüləcək müxtəliflik və ahəng olduğunu göstərir. Səhabələr Hz. Peyğəmbərin həyatını və ondakı rəngarəngliyi "o peyğəmbərdir, bizdən fərqlidir" düşüncəsi ilə deyil, "onun həyatının bizə işıq tutan cəhətləri var, ondan nümunə götürməliyik" nöqteyi-nəzəri ilə qəbul etmişlər. Hz. Peyğəmbərin həyatını ciddi və obyektiv şəkildə araşdıran hər kəs nəticədə tarix boyu heç kimdə cəm olmayan, həyatın hər sahəsinə təsir edən üstün xüsusiyyətlərin Rəsuli-Əkrəmdə cəm olduğunu etiraf etmək məcburiyyətində qalmışdır.

Hz. Peyğəmbərin sünnəsinin universal xarakter daşıması onun əshabi-kiram tərəfindən dəyişdirilməsinə mane olmuşdur. Necə ki, Hz. Aişə: "Əgər qadınların yeni icad etdikləri halları Rəsulullah görsəydi, İsrail oğullarının qadınlarına qadağan olunduğu kimi onların məscidə getməsinə mane olardı" (Buxari, Azan 163) deməklə yanaşı nə özü belə bir şeyi qadağan edir, nə də xəlifələrdən belə bir qadağa qoymalarını istəyirdi. Çünki *"Allahın xanım bəndələrinin Allahın məscidlərinə getmələrinə mane olmayın!"* (Buxari, Cümə 13) hədisi-şərifi ona bu səlahiyyəti vermirdi.

Sünnəni universal bütünlük içində düşünmək və hər bir hərəkətimizdə onu istinad nöqtəsi kimi mənimsəmək bizi özlüyümüzdə qaneedici izahata gələ bilmədiyimiz sünnələri rədd etməkdən xilas edəcək. Hətta onların da keçərli olacağı bölgə və dövrlərin ola biləcəyi fikrinə gələcəyik.

Hz. Peyğəmbər bütün həyatı boyu söz və davranışları ilə Quranda bildirilən həqiqətləri izah etmişdir. Zöhrinin dediyi kimi: "Peyğəmbərlik Allah vergisidir. Rəsulun vəzifəsi təbliğ, bizimki isə təslimiyyətdir". (Bax. Bəğavi, Şərhus-sünnə, I, 217)

Nəticə olaraq bir daha vurğulamalı olsaq, sünnənin əsas xüsusiyyəti gerçəkçi olması, aləmşümulluq və tətbiq edilə bilməsidir. Əslində bunlar eyni zamanda İslamın xüsusiyyətləridir.

İslam ən son və ən mükəmməl din, Hz. Muhammməd də ən son peyğəmbərdir. Qiyamətə qədər keçərli olan Quran və onun birinci dərəcəli şərhi və feli nümunəsi olan sünnə bütün şərtlərdə yaşayan insanların problemlərinə həll yolları göstərmək və müsəlmanlar arasında əqidə və davranış birliyini təmin etməklə mükəlləfdir.

Eyni mövzuda müxtəlif məlumat və tətbiqat imkanları göstərən hədislərin bu nöqteyi-nəzərdən təbilik olduğu, sözünü etdiyimiz müxtəlifliklərin, yaxud seçim imkanlarının ümmət üçün tamamilə *rəhmət vəsiləsi* olduğu açıq-aydın ortadadır. Çünki İslam müəyyən bir bölgəyə və ya şəhər əhalisinə gəlməmişdir. İslam bütün bəşəriyyətə göndərilmişdir. Ona görə də gətirdiyi əsasların qiyamətə qədər dünyanın hər tərəfində tətbiq edilə bilməsi ona inananların hidayətləri baxımından həyati bir tələbdir.

Sünnənin qorunmuş olması

Allah-Təala Qurani-Kərimdə kafirlər istəməsə də nurunu tamamlayacağını bildirmişdir. (ət-Tövbə, 32) "Allahın nuru" qulları üçün seçdiyi, onları bundan məsul tutduğu və Rəsuluna vəhy etdiyi şəriətidir. Bu, həm Quranı, həm də Sünnəni əhatə edir.

Allah-Təala **"Şübhəsiz ki, Zikri Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!"** (əl-Hicr, 9) buyurmuşdur. Bu ayədə yer alan zikri Kitab və Sünnə kimi başa düşmək mümkündür. Zikr sözü Quran ilə təfsir edilməli olsa, bu təqdirdə ayədəki həsr ifadəsindən Quran xaricində heç nəyin qorunmayacağı, qoruma hökmünün yalnız Qurana şamil olduğu mənası çıxmaz. Çünki Allah-Təala Quranda, Quran xaricindəki başqa şeyləri də qoruyacağını bildirmişdir. Məsələn, Rəsulullahı insanların şərindən qoruyacağını bildirmiş və qorumuşdur. Həmçinin ərşi, göyləri və yeri qiyamətə qədər qoruyacaqdır. Ayədəki "ləhu" sözünün sonda gəlməsi həsr üçün deyil, ayələrin sonundakı ahəngə riayət etmək üçündür.

Quranın qorunması sünnənin də qorunmasını ehtiva edir. Çünki Sünnə Quranın şərhidir və onu kimlərinsə nəfsinə görə izah etməyinin qarşısını alır. Bu səbəblə Quranın qorunması sünnənin də qorunması deməkdir.

Sünnənin qorunması ümmətə, ümmətin alimlərinə həvalə edilmişdir. Yəni sadəcə Quran ilə Sünnənin qorunma formalarında fərq var. Bu həqiqət İslam alimlərinin hədis elmlərinin bütün sahələrindəki təqdirə layiq tətqiqatlarla özünü göstərir.

Sünnə tamamilə ümmət tərəfindən qorunmuşdur. Fərdləri tək-tək gözdən keçirdiyimiz zaman əlbəttə ki, onların bütün sünnəni əhatə edə bilmədikləri görülsə də, bütün ümmətə nəzər saldığımız zaman sünnədən heç nəyin əskilmədiyi aydın olacaqdır. Eynilə bir dil aliminin hər hansı bir dili tamamilə bilməsi mümkün olmasa da, həmin dildə danışan millətin o dildəki bütün sözləri bilməsi kimi. Yəni fərd olaraq bildikləri məhdud olsa da bütün alimləri sünnəni tamamilə əhatə etmişlər. Bu da sünnənin qorunduğunu göstərir.

Sünnənin qurtarıcı olması

Sünnədən istifadə edə bilmək üçün ilk növbədə onun "ən gözəl nümunə" olduğuna, yaşana bildiyinə, insana və onun ehtiyaclarına ən gözəl cavablar verdiyinə, önünə alternativ qoyduğuna inanmaq lazımdır. Çünki Hz. Peyğəmbər aləmlərə rəhmət və hidayət rəhbəri olaraq göndərilmişdir. Onun sünnəsi hidayətdə ola bilməyin çarələrini göstərir. Sünnənin qurtarıcı olduğundan şübhəyə düşmək Hz. Peyğəmbərin risalətinə qarşı çıxmaq mənasına gəlir. Necə ki, bir dəfə Abdullah bin Məsud belə xəbərdarlıq etmişdir: *"Nəbinizin sünnəsini tərk etdiyiniz zaman yoldan çıxarsınız"*.

"Sən onları doğru yola (islam dininə) **dəvət edirsən!"** (əl-Muminun, 73) və **"Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız"** (ən-Nur, 54) ayələri sünnənin qurtarıcı olduğunu ortaya qoyan Quran dəlilləridir.

Hz. Peyğəmbər də müxtəlif hədisi-şəriflərində öz mövqeyindən xəbər verərkən eyni zamanda ümmətin qurtuluşuna verdiyi töhfəni açıq şəkildə göz önünə sərir. Özünü oda atmağa çalışan kəpənək və pərvanələri qovub uzaqlaşdırmağa çalışan adam kimi olduğunu xatırladaraq *"Mən sizi belinizdəki bağdan tutub oda düşməkdən qurtarmağa çalışıram, siz isə əlimdən xilas olub özünüzü oda atmağa çalışırsınız"*, - buyurmuşdur. Bu kimi bir çox hədislərində də təmsil yolu ilə ümmətinin xilaskarı olduğunu dilə gətirmişdir.

Sünnəyə bağlı olanların xilas olduğu qətidir. Tabeun müfəssirlərindən Dəhhaq bin Müzahim nə gözəl ifadə etmişdir: "Cənnətlə sünnə eyni mövqedədir. Axirətdə cənnətə girən, dünyada isə sünnəyə sarılan qurtular". (Qurtubi, Təfsir XIII, 365) İmam Malik də sünnəni Nuh əleyhissalamın gəmisinə bənzətmiş və "Ona minən xilas olar, minməyən boğular", - demişdir. (Süyuti, Miftəhul-Cənnə, s. 53-54)

Sünnəyə qarşı etirazlar

İslam tarixində sünnəni qaynaq qəbul etməyib inkar edən hər hansı bir məzhəb olmamışdır. Sünnənin şəri dəlillərdən olduğunu hər bir məzhəb qəbul etmişdir. Lakin sünnəni qəbul etməklə birlikdə onun yazılı sənədi sayılan hədislərə zaman-zaman etiraz edən qruplar olmuşdur. Bu etirazların gərəyi kimi də Qurani-Kərimin ön plana çıxarıldığı göstərilmişdir. Məsələn, əshabi-kiramdan İmran bin Husayn radiyallahu anh Hz. Peyğəmbərin sünnəsindən danışarkən bir nəfər:

"Ey Əbu Nüceyd, bizə Qurandan danış", - demişdi. Bu zaman İmran:

"Sən və sənin kimilər Quran oxuyursunuz, elə deyilmi? Mənə namazdan, namazın içindəki əməllərdən danışa bilərsən? Mənə qızılın, inəyin, dəvənin və digər malların zəkatından nə deyə bilərsən? Lakin sən olmadığın vaxt mən Peyğəmbərlə birlikdə idim", - deyə sərt cavab vermişdi.

Sonra İmran həmin adama Hz. Peyğəmbərin zəkat barəsindəki izahatlarından söz açdı. O da:

"Məni əhya etdin, Allah da səni əhya etsin", - dedi.

Hadisəni nəql edən Həsən Bəsri həmin adamın sonradan müsəlmanların fəqihlərindən olduğunu deyir. (Hakim, əl-Müstədrək, I, 109-110)

Bu və bu kimi tək-tük hadisələrə ta qədimdən, yəni səhabə dövründən rast gəlinmişdir. İmam Şafei bu kimi fikirdə olanlarla mübahisə edib onlara cavab verən və susduran ilk müəlliflərdəndir. Ona görə də müasir dövrümüzdə modernistlər tərəfindən tənqidə məruz qalmışdır.

Uzun müddət səsləndirilməyən bu kimi etirazlar Qərb istismarının təsiri ilə son bir-iki əsrdə İslam dünyasında yenidən gündəmə gəlmişdir.

Misirdə Tövfiq Sidqi, Əhməd Əmin, İsmayıl Ədhəm və Əbu Rayyə kimi adamlar və müəyyən bir zaman ərzində də olsa onları dəstəkləyən bir neçə nəfər, Hindistanda Əhli-Quran Cəmiyyəti ətrafında toplaşan adamlar və onların digər İslam ölkələrindəki davamçıları indi yenidən "Quranla kifayətlənmə"yə dəvət edərək **"sünnəsiz İslam anlayışı"**nı qəbul etmişlər. Hər mövzuda ayə axtarmaqda, ayədən başqa özlərini bağlı hiss edəcəkləri başqa bir qəti dəlilin olmadığını irəli sürürlər.

Bu düşüncənin çatacağı son nöqtəni Əhli-Quran Cəmiyyətinin qurucusu Qulam Pərviz Əhmədin həyatında izləmək mümkündür. O, "Qurandan kənar hər hansı bir sözlə əməl edənlər –istərsə həmin söz Hz.

Peyğəmbərə aid və mütəvatir-səhih hədis olsun- **"Allahın endirdiyi ilə hökm etməyənlər kafirlərdir"** (əl-Maidə, 44) ayəsinin hökmünə girərlər" demək cürəti göstərmişdir. Bunun müqabilində dövrünün alimləri də onun küfrə düşdüyünə dair fətva vermişdirlər. (Məlumat üçün bax. Mübarəkfuri, Tuhfətul-Əhvəzi, VII, 425)

Bu misalla gedəcəyi son nöqtəsi bəlli olan bu cərəyanın təəssüf ki, gündəmə gətirilməsi, yeni yetişməkdə olan İslam şüurunun təməlini yaralayacaq təhlükəli bir addım olduğu açıq-aydın ortadadır.

Burada mövzu ilə əlaqəli iddiaların hamısını cavablayacaq imkanımız yoxdur. Lakin bunu söyləməliyik ki, Allah-Təalanın aramızdan seçdiyi peyğəmbərlər vasitəsi ilə əmr və qadağalarını bildirməsi acizlik və əskiklik olmadığı kimi sünnənin də varlığı Qurani-Kərimin nöqsan olduğu mənasına gəlmir. Vəhyi qəbul edib öyrənmək xüsusunda insanların peyğəmbərlərin vasitəçiliyinə ehtiyacı olduğu kimi, Quranı başa düşməkdə də Peyğəmbərin izahlarına, yəni sünnəyə bir o qədər ehtiyac var. Təbii və doğru olan da budur. Bunun xaricindəki iddilar nə adına irəli atılırsa atılsın, necə təqdim edilirsə edilsin, tamamilə səhvdir. Belə bir iddianın olacağı Hz. Peyğəmbər tərəfindən xəbər verilmiş, şəxsən onun tərəfindən də cavabı verilmişdir: *"Sizdən birinə əmr etdiyim və ya qadağan etdiyim bir şey söyləndikdə əsla dirsəkləndiyi yerdən "biz onu-bunu bilmirik, sadəcə Allahın kitabında gördüklərimizə tabe olarıq" dediyini görməyim!"* (Əbu Davud, Sünnə 5; Tirmizi, Elm 10; İbn Macə, Müqəddimə 2)

İslam ümmətinin şəxsiyyət və xarakterini formalaşdıran şərh Hz. Peyğəmbərin şərhi, yəni sünnəsidir. Bu səbəblə **sünnə İslamı anlamaq, qavramaq və yaşamaq xüsusunda vazkeçilməz ən doğru ölçü və izahdır.** Onun hədislərinə tuşlanan heç bir tənqid sünnədən uzaq qalmağı haqlı çıxartmaz. Başqa ifadə ilə nə sünnəsiz müsəlmanlıq olur, nə də sünnəyə rəğmən müsəlmanlıq...

Hədislər kəlmə-kəlmə olduğu kimi rəvayət edilmişdirmi?

Hədislərin Hz. Peyğəmbərin mübarək ağzından çıxdığı kimi kəlmə-kəlmə rəvayət edilib-edilmədiyi maraq doğurur. Bu suala qəti bir şəkildə bəli və ya xeyr demək mümkün deyil. Ləfzən rəvayət əsas olmaq şərti ilə "mənanın əksinin söylənməməsi" şərti ilə hədisin hədsiz dərəcə ciddi şərtlər altında mənası ilə rəvayət edilməsinə izin verilmişdir. Eyni hədisin müxtəlif rəvayətlərində görünən kəlmə dəyişiklikləri, təqdim və təxirlər həmin hədisin məna ilə rəvayət edildiyini göstərir. Bütün hədislərin eyni

sözlərlə rəvayət edildiyini düşünmək və tələb etmək sadəlövhlük və həqiqətdən uzaqlıqdır.

Digər tərəfdən hədislərin məna ilə rəvayətinin mümkün olması –mənanı doğru əks etdirmək şərti ilə- onların başqa dillərə tərcümə edilməsinin caiz olduğuna da dəlil sayılmışdır. Məna ilə hədis rəvayətinə izin verilməsinə rəğmən ilk müsəlman nəsillər hədisə qarşı necə diqqətli və həssas davranıblarsa, bu gün də tərcümələrdə həmin diqqət və həssaslığı göstərmək lazımdır. Hədisləri və hədis kitablarını necəgəldi, tələsik və gəlir əldə etmək naminə tərcümə və nəşr etmək bu cəhətdən böyük təhlükə daşıyır.

Onu da qeyd edək ki, məna ilə hədis rəvayətinə izin verilməsi hədislərin kitablarda cəm edilməsindən əvvəlki şifahi rəvayət dövrlərinə aiddir. Bu gün artıq heç kim məna ilə hədis nəql etmə iqtidarında deyil. Kitablarda yer alan sözlərdən birini seçərək onu işlətmək məcburiyyəti vardır.

Şifahi rəvayətə güvənmək olarmı?

Hədis tarixinin və sünnəyə aid mətnlərin başqa ümmətlərdə misli görülməmiş həssaslıq və dəqiq elmi üsullarla nəql edilməsi nədənsə Qərbin elm dairələrini narahat etmişdir. Şifahi nəqlə əsaslanan qədim mədəniyyətlərin bir kəlməsini də olsa fəda etmək istəməyən qərblilər şifahi rəvayətə güvənməyin imkansızlığını, beləliklə də başlanğıcda şifahi dönəm keçirən hədislərə bel bağlanmayacağını iddia edirlər.

Ta başlanğıcda doğru olaraq qeyd edilmiş və yaxşı mühafizə olunan yazılı vəsiqələrlə müqayisədə şifahi rəvayətin daha az əminlik tələqin etməsi düzdür. Ancaq bu, heç vaxt yazılı vəsiqələrin hər cür təhlükədən uzaq qaldığı mənasına gəlmir. Şifahi rəvayətlərlə bağlı əminliyi zədələyən ehtimallar qədər yazılı vəsiqələr üçün də bir çox ehtimal mövcuddur. Necə ki, günümüzdəki mətbuat orqanları bu məsələdəki təhlükənin ölçüsünü saxta sənəd hazırlamaq, vəsiqələrin təhrifi kimi hadisələrlə göstərərək demək olar ki, hər gün ictimaiyyətə səslənirlər.

Bu da öz növbəsində onu göstərir ki, əsas məsələ rəvayətin yazılı və ya şifahi olması deyil, həmin rəvayəti nəql edənlərin xarakteri, əqidəsi və intellektual səviyyəsidir. Çox mühüm sayılan bu nüansı diqqətdən yayındıraraq etibarı yazılı vəsiqəyə bağlamaq xətalı, mübahisə doğuran və böyük ehtimalla məqsədyönlü iddiadır.

Onu da qeyd etməliyik ki, hədislərin Hz. Peyğəmbər zamanından bəri şəxsən onun izni ilə yazılmağa çalışılması da tarixi bir faktdır. Üstəlik hər hansı bir hədis mətnindən əvvəl gələn və **"sənəd"** adlandırdığımız hədis mətninin rəvayət edildiyi raviləri göstərən bölüm bizim şifahi rəvayətlərimizin də hər zaman elmi üsullara uyğun olduğunu sübut edir.

İlk dövrdə yaşayan müsəlman nəsillərin hədisləri dinə sahib çıxmaq məqsəd və cəhdi ilə ən sağlam şəkildə müəyyənləşdirmələri və qorumaları da gözardı edilməyəcək başqa bir faktdır.

Hədisçilər sadəcə sənədlə məşğul olublar?

Hədislərin sənəd və mətn adlandırdığımız iki hissədən ibarət olduğunu qeyd etmişdik. Bu məlumatların həqiqətən Hz. Peyğəmbərə aid olduğunu öyrənmək üçün həmin məlumatları bizə çatdıranları araşdırmalıyıq. Başqa cür desək, hədis ravilərinin keyfiyyətini araşdırmaq məcburiyyətindəyik. Ravilər hər bir hədisin sənədində adları çəkilən adamlardır. Hədisçilər bu adamları ən kiçik xırdalığına qədər elmi üsullarla araşdıraraq verdikləri xəbər və rəvayət etdikləri hədislər mövzusunda qənaət sahibi olmağa və bu qənaətlərini xüsusi terminlərlə ifadə etməyə böyük əhəmiyyət veriblər. Yəni xəbər qaynaqlarını araşdıraraq həmin qaynaqlardan gələn xəbərlərin sağlamlıq dərəcəsini araşdırıblar. Bu sahədə həqiqətən də möhtəşəm elmi üsullar ortaya qoyublar. Ümumi olaraq hədisin keyfiyyətini açıqlamağı hədis mətninin sağlamlıq dərəcəsini müəyyənləşdirmək üçün kifayət görmüşlər. Bu mövzuda ciddi çalışmaların olduğuna diqqət çəkən bəziləri hədisçilərin sadəcə sənədlə məşğul olduğunu, onların mətnlə maraqlanmadığını irəli sürərək onları ittiham ediblər.

Hədisçilərin sənədə xüsusi əhəmiyyət verdikləri düzdür. Lakin bu o demək deyil ki, onlar hədis mətnləri ilə məşğul olmayıblar. Mətn tənqidi sahəsində də xüsusi elm qolları vardır. Məsələn, hədis mətnlərində keçən və çətin başa düşülən sözləri tətqiq edən qəribul-hədis elmi, hədislərin başa düşülməsini asanlaşdıran, hədislərin vürud səbəbini araşdıran elm, nasix-mənsux elmi, bir-birinə zidd kimi görünən hədsiləri tədqiq edən muxtəliful-hədis elmi, Allah-Təalanın sifətləri ilə əlaqəli sözləri əhatə edən hədisləri araşdıran müşkilul-hədis elmi birbaşa hədis mətni ilə əlaqəlidir. Həmçinin məqlub, müdrəc, münkər, musahhaf və muəllel kimi sənəd və mətn arasında müştərək işlənən termin və elmi ixtisaslar da mövcuddur.

Hədisçilər ilahi vəhyə müxatəb olan, cəvamiul-kəlim xüsusiyyətinə sahib bir Peyğəmbərin izahları ilə qarşı-qarşıya olduqlarını yaxşı bilirdilər. Bu kimi vəsflərə sahib olan Peyğəmbər müxtəlif səbəblərlə müasirlərinin anlaya bilmədiyi sözlər söyləyə, xəbərlər verə bilərdi. Buna mane olacaq heç nə yox idi. Qanun maddələri kimi lakonik sözlərlə hüquqi qaydalar qoya bilərdi. Sözləri məcazi məna ifadə edə bilərdi. Gələcəkdə kəşf ediləcək elmi bir həqiqətə işarə edə bilərdi.

Bütün bunlara görə hədisçilər digər insanların sözlərinə yönəltdikləri tənqidləri Hz. Peyğəmbərin hədislərinə yönəltməkdə ehtiyat etmiş, təmkinli davranmışdır. (Ətraflı məlumat üçün bax. Mustafa əs-Sibai, əs-Sünnə və Məkənətuhə fit-təşriil-İslami, s. 275-279)

Biz hədisin sənəd və mətnlərini araşdırma üsullarının tarixdə bənzərinə rastlanmadığı və bunun yalnız müsəlmanlara aid elmi üstünlük olduğu qənaətindəyik.

Nə qədər səhih hədis var?

Səhih hədislərin sayı barədə dəqiq bir söz söyləmək mümkün deyil. Səhih adı ilə yazılan hədis kitablarında olan hədislərlə, digər səhih hədis qaynaqlarındakı səhih hədislərin sayı təxminən iyirmi minə çatır. Ancaq unutmamaq lazımdır ki, səhih, həsən və zəif kimi terminlərlə anılan hədislər haqqında daima fərqli fikir irəli sürənlər ola bilər. Çünki bu dəyərləndirmələr araşdırmaya əsaslanan nisbi dəyərləndirmələrdir. Dövrümüzün kompüter texnologiyasından istifadə edərək "səhih" hökmü verilən hədisləri saymaq mümkündür. Böyük ehtimal ki, yaxın gələcəkdə bu məsələ ilə bağlı müəyyən rəqəmlər vermək mümkün olacaqdır.

Səhih hədislər yalnız Kutubi-Sittədə yer alır?

Çox vaxt hədislər "bu Kutubi-Sittədə varmı?" və ya "Bu hədis Buxarinin kitabında keçirmi?" yaxud da "Müslimin kitabında varmı?" cümləsi ilə araşdırılır. Bu kimi suallar əslində səhih hədislərin yalnız Kutubi-Sittədə və ya Buxari və Müslimin "əl-Camius-Sahih"lərində olduğu, bunlardan kənarda qalan hədis kitablarına etibar edilməyəcəyi qənaətindən qaynaqlanır. Bu, bir çoxlarının hər şeyi Qurani-Kərimdə axtarmasına bənzəyir. Kifayət qədər dini savadı olmayanlara hər hansı bir dini əsas xatırladıldıqda dərhal "Bu, Quranda varmı?" deyərək etiraz mənasına gələn sual verirlər. Hər şeyi Quranda axtarmaq yanlış olduğu kimi hədis adı ilə eşidilən hər sözü də mütləq surətdə Buxari və Müslimdə

tapmağa çalışmaq və ya Kutubi-Sittədə görmək istəmək də ən azından o qədər yanlışdır. Etibar olunacaq hər hədisin mütləq Buxari və Müslimdə olmasına inanmaq düşüncəsindən vaz keçmək lazımdır. Çünki Buxari də, Müslim də kitablarını bütün səhih hədisləri cəm etmək məqsədi ilə qələmə almayıblar. Kitablarında qeyd etdikləri hədislərin özlərinə görə "səhih" olmasına diqqət edib, lakin bütün səhihləri cəm etmək kimi bir fəaliyyət həyata keçirməmişlər.

Buxari və Müslim xaricində, hətta Kutubi-Sittə xaricində qalan digər hədis kitablarında da səhih hədislər yer alır.

Biz də bu əməyimizlə nəcib millətimizin sünnə sahəsində məlumatlanmasına xeyrimiz dəyəcəksə, özümüzü xoşbəxt hiss edərik. Çünki biz Quran və İslamın sünnədəki şərhlərlə doğru anlaşılacağına inanırıq. Bunun da yolu hədis kitablarından faydalanmaqdan keçir.

İslam alimləri keçmişdə hədis mətnlərini iri həcmli və müəyyən tərtibatlı kitablarda cəm etmiş, beləcə ümmətin istifadəsinə vermişlər. Xüsusilə hicri üçüncü və dördüncü əsr bu kimi fəaliyyətlərin geniş vüsət aldığı dövrdür. Sonrakı dövrlərdə bu kimi geniş həcmli hədis kitablarından seçmələr edərək müxtəlif məzmunlu və tərtibatlı hədis kitabları yazılmışdır. Hədis sahəsində sözün həqiqi mənasında borclu olduğumuz İmam Nəvəvi və onun *Riyazus-Salihin* adlı əsəri bu baxımdan xüsusi bir yerə və dəyərə sahibdir.

II

İMAM NƏVƏVİNİN HƏYATI

Adı Yəhya, atasının adı Şərəfdir. Künyəsi Əbu Zəkəriyyə, ləqəbi Muhyiddindir. Nəvaya nisbətlə Nəvəvi kimi tanınır. Əbu Zəkəriyyə Muhyiddin Yəhya bin Şərəf ən-Nəvəvi.

Nəvəvi hicri 631-ci ildə (miladi 1233) Suriyanın cənubunda yerləşən Nəva kəndində anadan olmuşdur. Həddi-büluğ yaşına çatmadan Qurani-Kərimi əzbərləmişdir. Ticarətlə məşğul olan atasının dükanında vaxt keçirməyi sevməz, yaşıdları ilə oyun oynamaqdan həzz almazdı.

Elmə olan marağı səbəbi ilə on səkkiz yaşında olanda atası onu Dəməşqin Rəvahiyyə mədrəsəsinə yerləşdirdi. Həmin tarixdən sonra Nəvəvi ömrünün qalan iyirmi yeddi ilini mədrəsədəki otağında keçirdi.

Həyatı boyu evlənmədi.

Ömrünü üç şeyə həsr etdi: elm, ibadət və zikr.

Həddən artıq təvazökar idi. Pal-paltara o qədər də əhəmiyyət verməzdi. Çiyninə atdığı qalın toxunuşlu pambıq arxalıq və başındakı kiçik əmmaməsi ilə onu görənlər Dəməşqə gəzməyə gələn nəvalı kəndli zənn edərdilər.

Yeyib-içməyə də o qədər əhəmiyyət verməzdi. Gündə bir dəfə gecə vaxtı sadəcə bir çeşid yemək yeyərdi. Nadir hallarda süfrəsində iki çeşid yemək olardı.

Ömrü boyu heç kimdən bir qəpik də olsa almadı. İşlədiyi mədrəsələrdən verilən maaşla kitab alar, sonra da həmin mədrəsəyə vəqf edərdi. Vəfatından on bir il əvvəl o dövrün ən böyük mədrəsəsi olan Əşrəfiyyə darul-hədisində müəllim kimi fəaliyyətə başlayanda artıq maaş da almadı. Atasının kənddən gətirdiyi ərzaq məhsulları ilə həyatını davam etdirdi.

Haqsızlığa boyun əyməyən, düz sözü deməkdən çəkinməyən, lazım gələndə dövlət adamlarına xəbərdarlıq etməkdən qorxmayan alim idi. Misirdə və Suriyada Məmlüklülər dövlətini quraraq on yeddi il səltənət sürən və xaçlılara qarşı mübarizəsi ilə ad çıxarmış I Baybarsa müxtəlif zamanlarda məktublar yazaraq əziyyət çəkən xalqı ağır vergilərlə incitməməsini tələb etmişdi.

Onu yaxından tanıyanlar vəli olduğuna inanırdılar. Dini yenidən canlandıran mənasına gələn **Muhyiddin** ləqəbi ilə çağırılmaqdan narahat olurdu. "Din hər zaman canlı və diridir, onu kiminsə canlandırmasına ehtiyac yoxdur" deyər və Muhyiddin deyənlərə haqqını halal etməyəcəyini söyləyərdi.

Tələbəlik illərindən az yatmağa vərdiş edən Nəvəvi yuxusu gələndə kitablara söykənib bir az yatmaqla kifayətlənərdi. Ona görə də qısa həyat sürməsinə baxmayaraq hədis və fiqh elmlərində əsrlər uzunu əllərdə gəzən bir çox əsər qələmə almışdır. Ən əhəmiyyətli əsərləri bunlardır:

Hədis sahəsində:

Riyazus-Salihin

əl-Minhac (Səhih-Müslimin şərhi)

əl-Əzkar (Hz. Peyğəmbərin dua və zikrlərini cəm etdiyi əsəri)

Fiqh sahəsində:

Ravzatut-Talibin (Eyni dövrdə yaşayan Rafinin əş-Şərhul-kəbir adlı məşhur əsərinin müxtəsəri. Onun bu əsəri üzərində qırxa yaxın şafei alim şərh, haşiyə, müxtəsər, təliq və təshih çalışmaları həyata keçirmişdir.)

Minhacut-Talibin (Bu əsər üzərində 40-dan artıq şərh yazılmış və başqa çalışmalar həyata keçirilmişdir.)

əl-Məcmu (Şafei alimi Əbu İshaq əş-Şirazinin əl-Muhəzzəb adlı əsərinin şərhi)

Quranla bağlı:

ət-Tibyan fi Adabi Hamələtil-Quran (Quran oxuyub əzbərləməyin fəziləti, Quranı öyrənən və öyrədən kəslərin tabe olacağı əsasları ehtiva edir)

III

RİYAZUS-SALİHİN

A. Yazılma məqsədi

Tam adı *Riyazus-Salihin min Hədisi Seyyidil-Mursəlin* olan bu əsər İmam Nəvəvinin qələmə aldığı əsərlər arasında xüsusi yerə sahibdir. Nəvəvi bu kitabı təxminən 40 yaşında qələmə almışdır. Ondan üç il əvvəl başqa bir məşhur əsəri olan əl-Əzkarı yazmışdır.

Böyük əhəmiyyəti olan bu kitabların ard-arda yazılmasının bəzi mühüm səbəbləri vardır. İslam ümməti Nəvəvinin yaşadığı VII (XIII) əsrdə bəzi hərc-mərclik və fitnələrlə qarşılaşdı. İslam coğrafiyası düşmənlər tərəfindən mühasirəyə alınmış, bir çox daxili və xarici problemlər baş qaldırmışdı. Bir tərəfdən vəhşicəsinə müsəlmanlara hücum edən xaçlı orduları, digər tərəfdən tatar axınları İslam dünyasını məngənə kimi sıxırdı.

İmam Nəvəvi alimlərin nə qədər böyük məsuliyyət daşıdığını bilirdi. Yaşadığı cəmiyyətə də İslam ümmətinə qarşı vəzifəsini yerinə yetirmək şüuru ilə hərəkət edirdi. Onun fikrinə görə ən doğru yolu tapmaq və həqiqəti əldə etmək üçün Allah-Təalanın kitabını və Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*in sünnəsini yaxşı öyrənmək və bu iki mənbədən möhkəm yapışmaq lazım idi.

Nəvəvi dinin həqiqətini və gözəlliklərini ortaya qoymağı, İslamın həyat, cihad, şəfqət, mərhəmət dini olduğunu bir daha göz önünə gətirməyi, təsəvvüf və zöhdü Quran və Sünnə işığında anlatmağı özünə borc bildi.

İmam Nəvəvi *Riyazus-Salihini* dindarlıq iddiasında olan bəziləri kimi insanları yanlış tanıdılan təsəvvüf və zöhd anlayışına, cihadı tərk etməyə, dünyadan üz çevirməyə dəvət etmək məqsədi ilə yazmadı. Əksinə, Allah-Təalanın razı qaldığı bir həyatı bütün ünsürləri ilə bilib

yaşamağa, düşmənlərlə cihada, cəmiyyətdə haqq-ədaləti hakim qılmağa, insanı Allaha yaxınlıq dərəcələrinin ən ali məqamına çıxartmağa, yaxşı əməlləri əmr etmək, pisliklərdən çəkindirmə məsələsində nəslərə və bu nəslərin tələb etdiyi həyat tərzinə bağlanmağa dəvət etmək üçün qələmə aldı. Riyazus-Salihin işıq üzü gördüyü gündən bu yana bütün İslam aləmində elm tələbələrinin, vaiz və xətiblərin, hədis oxumaq istəyən hər bir müsəlmanın əl kitabı oldu. Beləliklə bu gözəl əsər müəllifinin arzuladığı hədəfə çatdı.

B. Nəvəvinin Riyazus-salihini yazarkən diqqət etdiyi xüsuslar

İmam Nəvəvi bu kitabı yazarkən aşağıdakı xüsuslara diqqət etmişdir:

* Bu kitab insanlara dünya və axirət səadətini qazandıracaq, onları zahiri və batini ədəb qaydalarına yiyələndirəcək, yaxşıya və gözələ təşviq, pis və çirkindən uzaqlaşdıracaq səhih hədislərdən ibarət müxtəsər əsər olacaq

* Səhih hədis qaynaqları kimi şöhrət tapan kitablardan seçilmiş və mahiyyəti açıq, dəlaləti qəti olan hədisləri ehtiva edəcək.

* Mövzuların başında əlaqədar ayələrə yer veriləcək.

* Şərhə ehtiyac olan bəzi söz və terminlərin qısa izahı veriləcək.

* Hər bir hədisin altında hansı mənbədən götürüldüyü qeyd ediləcək.

* Xeyir əməllərə təşviq edən, pis əməllərdən çəkindirən hədislərin olmasına diqqət ediləcək.

* Hədislərin sənədində ravilərdən yalnız səhabənin adı qeyd olunacaq.

* Ehtiyac halında bəzi hədislərdən sonra həmin hədisin səhhətinə və ravilərin halına işarə ediləcək.

* Hədislərin mahiyyətinin dini və ictimai xüsusiyyət daşımasına diqqət ediləcək.

C. Tərtibi

Riyazus-Salihin 18 əsas bölümdən (kitabdan) və 372 hissədən (bab) ibarətdir. Bəzi alimlər kitab sayının iyirmi olduğunu deyərkən, bəziləri kitab adına yer vermir, sadəcə başlıqların adını qeyd edirlər. Bəzi kitablar bir neçə hədisdən ibarət olduğu halda, bəzisi yüzlərlə hədisi cəm edir.

D. Hədislərin mötəbərliyi

İmam Nəvəvi *Riyazus-Salihin*də qeyd etdiyi hədislərin əksəriyyətini Kutubi-Sittə adı ilə tanınan və sünni məzhəblərə görə ən səhih hədisləri ehtiva edən Buxari və Müslimin *Səhih*ləri ilə Əbu Davud, Tirmizi, Nəsai və İbn Macənin *Sünən*lərindən seçmişdir. Bunlardan əlavə çox az sayda hədsiləri də İmam Malikin *Muvatta*sından, Əbu Bəkr əl-Humeydinin *əl-Cəm Beynəs-Sahiheynindən*, Əhməd bin Hənbəlin *Müsnədindən*, Hakimin *Müstədrək*indən və Darimi ilə Darəqutninin *Sünən*lərindən seçmişdir.

Əbdülfəttah Əbu Quddə tədqiq nəticəsində deyil, sadəcə oxuyarkən Riyazus-Salihində zəifliyi qəti olan üç hədislə rastlaşdığını deyir. Nəsruddin əl-Əlbani nəşrə hazırladığı Riyazus-salihinnə yazdığı müqəddimədə müəllif Nəvəvinin səhih rəvayətlərdən ibarət kitab yazdığına dair ifadəsinin buradakı hədislərin böyük əksəriyyətinə şamil olduğunu, lakin bütün hədislərə aid olmadığını deyir. O, bu kitabda 55 zəif hədis olduğunu iddia edir. Riyazus-Salihinin ən gözəl nəşrlərindən birini hazırlayan Şüeyb əl-Arnaut da şəxsi tədqiqatları nəticəsində Nəvəvinin kitabda yalnız səhih və həsən hədislərə yer verdiyini, buna rəğmən sənəd baxımından 46 hədisin zəif olduğunu bildirir. Sonra isə belə deyir: "Riyazus-Salihində 46 zəif hədisin yer alması bu böyük kitabın dəyərini zədələməməklə yanaşı, bu qədər çox sayda səhih hədisi ehtiva edən əsərin şəninə də xələl gətirməz". Nəticə etibarilə zəifin də hədis olduğunu, bir çox növünün olduğunu, bəziləri ilə əməl edildiyini, **zəif**lə **mövzu** (uydurma) rəvayəti bir-birinə qarışdırmamalı olduğumuzu yaddan çıxarmamalıyıq.

Əsərdə yer alan hədislərin əksəriyyəti **"muttəfəqun aleyh"** rəvayətlərdir. Bizim fikrimizcə təkrar olunan hədislərin sayı 256 dır. Bəziləri bir neçə dəfə təkrarlanır. Əxlaq və ədəb kitabı olan *Riyazus-Salihinin* bu qədər üstün vəsfli hədisləri özündə cəm etməsi onun bənzər əsərlər arasında ilk cərgələri tutmasına zəmin hazırlayır.

E. Şərhləri

1. Dəlilul-Falihin li Turuqi "Riyazus-Salihin"

*Riyazus-Salihin*in çox mühüm olan bu şərhi Muhammməd bin Allan tərəfindən yazılmışdı. *Riyazus-Salihin*ə yazılan ilk şərhdir. Hicri 996-cı ildə (1588) Məkkədə anadan olan və 1057-ci ildə (1647) bu mübarək

torpaqlarda vəfat edən İbn Allan İmam Nəvəvinin əl-Əzkarını da şərh etmişdir.

İbn Allan Riyazus-Salihini klassik üsulla şərh etmişdir. Anlaşılması məchul olan sözləri və ifadələri izah etmiş, onların lüğət baxımından müxtəlif ifadələrini göstərmişdir. Qrammatik cəhətdən təhlil edərək hədis mətnlərinin başa düşülməsini asanlaşdırmışdır. Hədislərdən çıxan hökmləri ortaya qoyarkən öz məzhəbi olan şafeiliyi əsas götürmüşdür. İbn Allan hədisləri şərh edərkən əsasən *Səhih-Buxari*nin şərhçilərindən olan İbn Həcərin *Fəthul-bari*sindən, həmçinin Buxarinin digər şərhçisi Qastallaninin *İrşadus-sarisindən* və *Səhih-Müslim*in ən məşhur şərhlərindən biri olan İmam Nəvəvinin *əl-Minhacından* geniş istifadə etmişdir.

2. Şərhu Riyazus-Salihin

əl-Hüseyni Əbdülməcid Haşimin bu əsəri *Riyazus-Salihinin* qısa şərhindən ibarətdir. Başa düşülməsi çətin olan sözlər **"əl-luğa"** adı altında izah edilir. **"əl-məna"** adı altında da hədisin mahiyyəti qısa xülasə edilmişdir. Bəzi hədislərdən çıxacaq hökmlərə də işarə edilmişdir. Bu əsərin hazırlanmasında *Riyazus-Salihini* oxuyacaq tələbələrin nəzrədə tutulduğunu deyə bilərik.

3. Nüzhətul-Müttəqin Şərhu Riyazus-Salihin

Bu əsər Mustafa Səid əl-Hin, Mustafa əl-Buğa, Muhyiddin Məstu, Əli əş-Şorbaçı və Muhammməd Əmin Lütfidən ibarət beş nəfərlik heyət tərəfindən hazırlanmışdır. Riyazus-Salihinin qısa şərhlərindən biridir. İki cildlik bu kitab ilk dəfə hicri 1397-ci ildə (1977) Beyrutda nəşr olunmuş və bu günə qədər iyirmi beş dəfədən artıq çap olunmuşdur. Şərhçilər bu şərhlərinin müxtəsər və müasir təlim qaydalarına uyğun, təhsil ocaqlarında oxudula biləcək səviyyədə olduğunu, müəllim və tələbələrin hədisləri başa düşməsinə yardım edəcək keyfiyyət daşıdığını söyləyirlər.

4. Mənhalul-Varidin Şərhu Riyazus-Salihin

Mərhum Sübhi əs-Salihin (vəfatı: 1407 / 1986) əsəridir.

Əsər hər nə qədər *Riyazus-Salihin* şərhi kimi görünsə də, oxuyarkən sistemli və əmək məhsulu nəşr olduğunu ayırd etmək mümkündür. *Mənhəlul-Varidinin* ilk çapı 1970-ci ildə Beyrutda həyata keçirilmiş və bu günə qədər dəfələrlə nəşr edilmişdir.

F. Müxtəsərləri

1. *Riyazus-Salihinin* ilk müxtəsəri Yusuf bin İsmayıl ən-Nəbhani (vəfatı: 1350 / 1931) tərəfindən hazırlanmışdır. Əsər *Təhzibun-Nüfus fi Tərtibid-Durus* adlanır.

2. Saleh Əhməd Rza *Qutuf min Riyazis-Sünnə* (Dirasə Təhliyyə li Əhadis Muxtara min Kitabi Riyazis-Salihin) adlı əsərində *Riyazus-Salihindən* seçdiyi bəzi hədisləri elmi metodlara uyğun tərzdə incələyib dəyərləndirmişdir.

3. Muhammməd Əbdülhəmid Mirdad tərəfindən hazırlanan müxtəsər *İthaful-Muslimin fi Təshili İxtisari Riyazus-Salihin* adlanır. Müəllif bu ixtisarda müxtəlif bablarda yer alan ayələri şərh etmiş, seçdiyi hədislərin də qısa izahını vermişdir. Əsər Misirdə nəşr edilmişdir.

G. Tərcümələri

Riyazus-Salihinin Anadolu türkcəsinə bir neçə dəfə tərcümə edilmişdir. İlk dəfə Hasan Hüsnü Erdem (1 və 2-ci cildlər Qıvamuddin Burslan ilə birlikdə) tərəfindən tərcümə edilmiş və Diyanət İşləri Başqanlığı Nəşrlərində 3 cild halında nəşr edilmişdir. *Riyazus-Salihin* başqa dillərə də tərcümə edilmişdir. Əldə etdiyimiz məlumata görə ingilis dilinə iki dəfə tərcümə edilmişdir. Bunlardan biri Abdurrahman Shad tərəfindən iki cild halında tərcümə edilmişdir. (Lahur-Pakistan 1988) Digəri isə S. M. Madni Abbasi tərəfindən tərcümə edilən iki cild halında nəşr edilmiş əsərdir. Riyazus-Salihin fransız dilinə də tərcümə edilmişdir. Bunlardan biri Said Al-Lahama aid olub (Dar el-Fiker, Beyrouth – Liban, 1991) nəşr edilmişdir. Digər tərcümə isə Favzi Chaban tərəfindən edilmiş və (Dar al-Kutub al-Ilmiyah, Beyrouth – Liban bty.) iki cild halında nəşr edilmişdir.

MÜƏLLİFİN MÜQƏDDİMƏSİ

Bismilləhirrahmənirrahim

Tək və gözəgörünməz, sonsuz qüdrət sahibi, çox bağışlayan, könül əhlinə və bəsirət sahiblərinə xatırlatma, ağıl və fikir sahiblərinə ibrət olması üçün gecə ilə gündüzü bir-birinə qatan Allaha həmd olsun. Allah yaratdığı qulları arasından bəzilərini seçib bu dünyada zöhd əhli etdi. Onları əmr və qadağalarına riayət, davamlı düşünmə, öyüdə qulaq verib sapqınlıqdan uzaqlaşdırma, unutduqdan sonra xatırlatma və qəflətdən sonra xəbərdarlıq etmə keyfiyyətləri ilə təchiz etdi. Onları Allaha itaət və axirətə hazırlıq, qəzəbini cəlb edəcək işlərdən çəkinmək, zamanın və şərtlərin dəyişməsinə baxmayaraq gözəl hallarını qorumaq xüsusunda müvəffəq qıldı.

Ən ali, mükəmməl həmdlə Allaha həmd edirəm. Qullarına xeyli yaxşılıq edən və Kərim olan, onlara çox rəhm edən və Rəhim olan Allahdan başqa ilah olmadığına, Həzrət Muhammməd *səllallahu əleyhi və səlləm*in Onun qulu və rəsulu, sevimlisi və dostu olduğuna, doğru yola çatdırdığına, ən kamil dinə dəvət etdiyinə mütləq surətdə inanıram. Allahın salətu-salamı onun, bütün peyğəmbərlərin, hər birinin inanmış dostlarının və digər əməlisaleh insanların üzərinə olsun.

Allah-Təala belə buyurur: **"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım! Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm!"** (əz-Zariyat, 56-57) Bu ayə onların ibadət üçün yaradıldıqlarını açıq şəkildə ifadə edir. Belə olan təqdirdə onların yaradılış qayələrinə uyğun yaşamağa can atmalı, zöhd yolunu tutaraq dünyanın fani həzlərindən üz çevirməlidirlər. Çünki bu dünya fani yurddur, əbədi qalma yeri deyil. Dünya axirətə keçiş yeridir, əbədi səadət yurdu deyil. Ayrılıq yeridir, vətən deyil. Ona görə də dünya əhalisinin ən fərasətlisi Allaha gözəl qulluq edənlərdir. İnsanların ən ağıllısı zahidlər, dünyaya bağlı qalmayanlardır. Allah-Təala belə buyurur:

"Həqiqətən, (nemətləri, cah-cəlalı ilə fəxr etdiyiniz) **dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib** (əlvan çiçəklər və müxtəlif meyvələrlə) **bir-birinə qatışar. Nəhayət, yer üzü bəzəklənib süsləndiyi və sakinləri də** (onun məhsulunu, meyvəsini) **yığmağa qadir olduqlarını zənn etdikləri vaxt gecə, yaxud gündüz əmrimiz** (bəlamız) **gələr və Biz onu, dünən üzərində bol məhsul olmamış kimi,** (yolunub) **biçilmiş bir hala gətirərik. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik!"** (Yunus, 24) Bu mənada xeyli ayə var. Şair nə gözəl deyir:

Allahın son dərəcə anlayışlı, ağıllı və zəki qulları vardır
Onlar dünyanı tərk etdilər və fitnədən qorxdular.
Dünyaya baxıb bu həqiqəti dərk etdilər
Bura dirilər üçün əbədi vətən deyil.
Nəticədə dünyanı bir dəniz sanıb
Saleh əməlləri özlərinə gəmi etdilər.

Dünyanın halı, bizim halımız və yaradılış qayəmiz dediyim kimi olduğuna görə məsuliyyət daşıyan hər kəsin seçilmiş və xeyirli insanların izi ilə getməsi, kamil insanların yoluna girməsi şərtdir. Həmçinin qeyd etdiyim xüsuslarda hazırlıq görməsi, xəbərdarlıq etdiyim mövzulara diqqət etməsi lazımdır. Bunu əldə etmək üçün hər bir mükəlləfin girəcəyi ən doğru yol əvvəl və sonra gələnlərin seyyidi, öndə gedən və onları təqib edənlərin seçilmişi Peyğəmbər *səllallahu əleyhi və səlləm*in səhih hədisləri ilə ədəblənməkdir. Allahın salət və salamı onun və digər peyğəmbərlərinin üzərinə olsun. Allah-Təala belə buyurur: **"Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun"** (əl-Maidə, 2) Rəsulullah *səllallahu əleyhi və səlləm* səhih hədislərində belə buyurur: *"Bir qul din qardaşına yardım etdiyi müddətdə Allah da ona yardım edər".* (Müslim, Zikr 37-38; Əbu Davud, Ədəb 60; Tirmizi, Hüdud 3) *"Xeyirli bir işə öndərlik edən adama onu edən adam qədər savab vardır".* (Müslim, İmarə 133; Əbu Davud, Ədəb 115; Tirmizi, Elm 14) *"Hər kim doğru yola dəvət edərsə, ona tabe olanların savabı qədər savab alar. Bu, ona tabe olanların savabından heç nəyi azaltmaz".* (Müslim, Elm 16; Əbu Davud, Sünnə 6; Tirmizi, Elm 15) Hz. Peyğəmbər *səllallahu əleyhi və səlləm* Hz. Əliyə belə demişdir: *"Allaha and olsun ki, sənin vasitənlə bir nəfərin hidayətə gəlməsi dünya nemətlərinin ən qiymətlisinə sahib olmağından daha xeyirlidir".* (Buxari, Cihad 102, 143; Müslim, Fəzailus-Səhabə 34) Bütün bu əmrləri nəzərə alaraq sahibinə axirət yolunda azuqə olacaq,

batini və zahiri ədəbləri qazandıracaq, yaxşı əməllərə təşviq edəcək, bəd əməllərdən çəkindirəcək, Allah yolunda irəliləyənlərin ədəblərindən olan zöhdü, nəfs tərbiyəsini, əxlaqi gözəlliyi, qəlb təmizliyini, üzvləri günahdan qorumağı və yoldan çıxmalarına mane olmağı, bütün bunlarla yanaşı ariflərin məqsədlərini həyata keçirmələrini təmin edəcək səhih hədislərdən ibarət müxtəsər bir kitab hazırlamağı lazım bildim.

Bu əsərdə səhih hədislərin yer aldığı məşhur kitablardan, səhihliyi sabit olanlar xaricində heç bir hədis almamağa çalışdım. Hər mövzuya Qurani-Kərim ayələri ilə başlamağa çalışdım, mənası gizli olan və izaha ehtiyac gördüyüm sözləri şərh etdim. Hansı hədisin sonunda **"müttəfəqun aleyh"** yazmışamsa, bu, **"hədisi Buxari və Müslim müştərək rəvayət etmişdir"** deməkdir.

Bu kitab tamamlandıqdan sonra ona tabe olmağa çalışanları xeyirlərə sövq edəcəyini, pisliklərə və həlak edici davranışlara mane olacağını ümid edirəm. Bu kitabdan istifadə edəcək olan qardaşlarımın mənə, ata-anama, müəllimlərimə, dostlarıma və bütün müsəlmanlara duaçı olmasını istəyirəm. Mən Kərim olan Allaha arxalanıram. İşimi yalnız Ona həvalə edirəm, dayağım da yalnız Odur. Allah mənə yetər, O, nə gözəl vəkildir. Pis əməllərdən qaçmağa qüvvə, yaxşı əməl işləməyə qüdrət yalnız Əziz və Həkim olan Allahın yardımı ilədir.

MÜSƏLMANIN HƏYAT ÖLÇÜLƏRİ BÖLÜMÜ

İXLAS və NİYYƏT

BÜTÜN GİZLİ VƏ AŞKAR ƏMƏLLƏRDƏ, SÖZ VƏ HALLARDA XOŞ NİYYƏT VƏ İXLAS

Ayələr

1. "Halbuki onlara əmr edilmişdir ki, Allaha – dini yalnız Ona məxsus edərək, batildən haqqa (İslama) dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!" (əl-Beyyinə, 5)

وَمَآ اُمِرُوآ اِلَّا لِيَعْبُدُوا اللّٰهَ مُخْلِصِينَ لَهُ الدِّينَ حُنَفَآءَ وَيُقِيمُوا الصَّلٰوةَ وَ يُؤْتُوا الزَّكٰوةَ وَذٰلِكَ دِينُ الْقَيِّمَةِ .

2."Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir)**".** (əl-Həcc, 37)

لَنْ يَنَالَ اللّٰهَ لُحُومُهَا وَلَا دِمَآؤُهَا وَ لٰكِنْ يَنَالُهُ التَّقْوٰى مِنْكُمْ.

3. "De: "Ürəyinizdəkiləri gizli də saxlasanız, aşkara da çıxartsanız (fərqi yoxdur)**, Allah onu bilir".** (Ali-İmran, 29)

قُلْ اِنْ تُخْفُوا مَا فِي صُدُورِكُمْ اَوْ تُبْدُوهُ يَعْلَمْهُ اللّٰهُ .

Hədislər

١ ـ عَنْ اَمِيرِ الْمُؤْمِنِينَ اَبِي حَفْصٍ عُمَرَ بْنِ الْخَطَّابِ بْنِ نُفَيْلِ بْنِ عَبْدِ الْعُزَّى بْنِ رِيَاحِ بْنِ عَبْدِ اللّٰهِ بْنِ قُرْطِ بْنِ رَزَاحِ ابْنِ عَدِيِّ بْنِ كَعْبِ بْنِ لُؤَيِّ بْنِ غَالِبٍ الْقُرَشِيِّ الْعَدَوِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَال سَمِعْتُ رَسُولَ اللّٰهِ ﷺ يَقُولُ: «اِنَّمَا الْاَعْمَالُ بِالنِّيَّاتِ وَاِنَّمَا لِكُلِّ امْرِئٍ مَا نَوٰى . فَمَنْ كَانَتْ هِجْرَتُهُ اِلَى اللّٰهِ وَرَسُولِهِ فَهِجْرَتُهُ اِلَى اللّٰهِ وَرَسُولِهِ ، وَمَنْ كَانَتْ هِجْرَتُهُ لِدُنْيَا يُصِيبُهَا، اَوِ امْرَأَةٍ يَنْكِحُهَا فَهِجْرَتُهُ اِلَى مَا هَاجَرَ اِلَيْهِ». مُتَّفَقٌ عَلَى صِحَّتِهِ.

1. Möminlərin əmiri Əbu Hafs Ömər bin Xəttab *radiyallahu anh* deyir: Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitdim:

"Görülən işlər niyyətlərə görə dəyər qazanır. Hər kəs əməlinin qarşılığını niyyətinə görə alır. Kimin niyyəti Allah və Rəsuluna qovuşmaq, onlara hicrət etməkdirsə, qazanacağı savab da Allah və Rəsuluna hicrət savabıdır. Hər kim qazanacağı dünya malına, yaxud evlənəcəyi qadına qovuşmaq üçün yola çıxmışsa, onun da hicrəti hicrət etdiyi şeyə görə dəyər qazanır".

Buxari, Bədul-vəhy 1, İman 41, Nikah 5, Mənaqibul-ənsar 45, İtk 6, Əyman 23, Hiyəl 1; Müslim, İmarət 155. Həmçinin bax. Əbu Davud, Talaq 11; Tirmizi, Fəzailul-cihad 16; Nəsai, Təharət, 60, Talaq 24, Əyman 19; İbn Macə, Zöhd 26

❁

٢ ـ عَنْ اُمِّ الْمُؤْمِنِينَ اُمِّ عَبْدِ اللّٰهِ عَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَا قَالَتْ : قَال رَسُولُ اللّٰهِ ﷺ : «يَغْزُو جَيْشٌ الْكَعْبَةَ فَاِذَا كَانُوا بِبَيْدَاءَ مِنَ الْاَرْضِ يُخْسَفُ بِاَوَّلِهِمْ وَاٰخِرِهِمْ . قَالَتْ قُلْتُ : يَا رَسُولَ اللّٰهِ ، كَيْفَ يُخْسَفُ بِأَوَّلِهِمْ وَاٰخِرِهِمْ وَفِيهِمْ أَسْوَاقُهُمْ وَمَنْ لَيْسَ مِنْهُمْ ؟ قَالَ: «يُخْسَفُ بِاَوَّلِهِمْ وَاٰخِرِهِمْ ثُمَّ يُبْعَثُونَ عَلٰى نِيَّاتِهِمْ». مُتَّفَقٌ عَلَيْهِ.

2. Möminlərin anası Ümmü Abdullah[1] Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kəbəni yıxmaq üçün bir ordu yola çıxacaq, lakin səhranın bir yerinə çatanda həmin ordu tamamilə yerin dibinə batacaq."

Hz. Aişə deyir ki, Rəsulullah *səllallahu əleyhi və səlləmdən* soruşdum: Onların arasında ticarət məqsədi ilə və xoş niyyətlə yola çıxanlar olduğu halda nə üçün hamısı yerin dibinə batacaq?

Rəsulullah *səllallahu əleyhi və səlləm:*

"Hamısı birlikdə yerin dibinə batacaq, axirətdə isə dirildilərək niyyətlərinə görə hesaba çəkiləcəklər", - deyə buyurdu.

Buxari, Büyü 49, Həcc 49; Müslim, Fitən 4-6. Həmçinin bax. Tirmizi, Fitən 21; Nəsai, Mənasik 112; İbn Macə, Fitən 30

❁

٣ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَا قَالَتْ : قَال النَّبِيُّ ﷺ: «لَا هِجْرَةَ بَعْدَ الْفَتْحِ، وَلٰكِنْ جِهَادٌ وَنِيَّةٌ ؛ وَ اِذَا اسْتُنْفِرْتُمْ فَانْفِرُوا». مُتَّفَقٌ عَلَيْهِ.

3. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Məkkənin fəthindən sonra artıq hicrət yoxdur, lakin cihad və niyyət var. Allah yolunda cihada çağırıldığınız zaman dərhal səfərbər olun".[2]

Buxari, Mənaqibul-ənsar 45, Cihad 1, 27, 194; Müslim, Həcc 445, İmarət 85. Həmçinin bax. Tirmizi, Siyər 32; Nəsai, Beyət 15

❁

٤ ـ عَنْ أَبِي عَبْدِ اللّٰهِ جَابِرِ بْنِ عَبْدِ اللّٰهِ الْأَنْصَارِيِّ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: كُنَّا مَعَ النَّبِيِّ ﷺ فِي غَزَاةٍ فَقَالَ: «اِنَّ بِالْمَدِينَةِ لَرِجَالًا مَا سِرْتُمْ مَسِيرًا ، وَلَا قَطَعْتُمْ وَادِيًا ، اِلَّا كَانُوا مَعَكُمْ؛ حَبَسَهُمُ الْمَرَضُ». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ : { إِلاَّ شَرَكُوا فِي الْأَجْرِ }

---

1. Hz. Aişənin övladı olmasa da, Abdullahın anası mənasına gələn bu künyə ona ərəb adətlərinə görə Hz. Peyğəmbər tərəfindən verilmişdir. Abdullah Hz. Aişənin bacısı Əsmanın oğludur.

2. **"Məkkənin fəthindən sonra artıq hicrət yoxdur"** sözündən məqsəd Məkkədən hicrətin olmadığını ifadə etmək üçündür. Çünki Məkkə İslam yurdu olmuşdur.

4. Əbu Abdullah Cabir bin Abdullah əl-Ənsari *radiyallahu anhumə* belə deyir:

Bir dəfə Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə qəzvədə idik. O belə buyurdu:

"Xəstə olduqları üçün Mədinədə qalan elə insanlar var ki, siz məsafə qət etdikdə, yaxud bir vadidən keçdikdə onlar da sanki sizinlə birlikdədirlər".

Başqa bir rəvayətə görə isə:

"Savab qazanmaq xüsusunda sizinlə şərikdirlər", - deyə buyurdu.

Müslim, İmarə 159

❁

٥ ـ عَنْ اَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَـالَ رَجَعْنَا مِنْ غَزْوَةِ تَبُوكَ مَـعَ النَّبِيِّ ﷺ فَقَال: «اِنَّ اَقْـوَامًـا خَلْفَنَـا بِالْمَدِينَةِ مَـا سَلَكْنَا شِعْبًـا وَلَا وَادِيًـا اِلَّا وَهُمْ مَعَنَا ؛ حَبَسَهُمُ الْعُذْرُ» . رَوَاهُ الْبُخَارِيُّ .

5. Ənəs *radiyallahu anh* belə deyir:

Peyğəmbər *səllallahu əleyhi və səlləm*ilə birlikdə Təbuk qəzvəsindən qayıdarkən belə buyurdu:

"Mədinədə qalan elə insanlar var ki, hansısa dağ cığırına, bir vadiyə girdiyimiz zaman onlar da bizimlə birlikdə imiş kimi savab qazanırlar. Çünki onlar üzrlü səbəblərə görə bizimlə deyillər".

Buxari, Məğazi 81, Cihad 35. Həmçinin bax. Əbu Davud, Cihad 19; İbn Macə, Cihad 6

❁

٦ ـ عَنْ أَبِي يَزِيدَ مَعْنِ بْنِ يَزِيدَ بْنِ الْأَخْنَسِ رَضِيَ اللّٰهُ عَنْهُمْ هُوَ وَاَبُوهُ وَجَدُّهُ صَحَابِيُّونَ قَـالَ كَانَ اَبِي يَزِيدُ اَخْرَجَ دَنَانِيرَ يَتَصَدَّقُ بِهَا ، فَـوَضَعَهَا عِنْدَ رَجُلٍ فِي الْمَسْجِدِ ، فَجِئْتُ فَأَخَذْتُهَا فَأَتَيْتُهُ بِهَا . فَقَـالَ : وَاللّٰهِ مَا اِيَّاكَ اَرَدْتُ ، فَخَاصَمْتُهُ اِلَى رَسُولِ اللّٰـهِ ﷺ فَقَالَ: «لَكَ مَـا نَوَيْتَ يَا يَزِيدُ ، وَلَكَ مَا اَخَـذْتَ يَا مَعْنُ». رَوَاهُ الْبُخَارِيُّ .

6. Əbu Yezid Mə'n bin Yezid bin Əxnəs *radiyallahu anhum* (Mə'n, atası Yezid və babası Əxnəs səhabədir) belə deyir:

Atam Yezid sədəqə vermək üçün bir neçə dinar[3] götürüb onları Məscidi-Nəbəvidə oturan bir nəfərin yanına qoydu. Mən məscidə getdim, həmin pulu götürüb atama apardım.

Atam:

- Vallahi, mən o pulu sənin üçün qoymamışdım,- dedi. Mən də Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gedib məsələni ona danışdım.

Həzrət Peyğəmbər belə buyurdu:

- Yezid, sən niyyət etdiyin üçün sədəqə savabı qazandın. Mə'n, götürdüyün pul isə sənindir.

Buxari, Zəkat 15. Həmçinin bax. Darimi, Zəkat 14; Əhməd bin Hənbəl, Müsnəd III, 470

❁

٧ ـ عَنْ أَبِي إِسْحَاقَ سَعْـدِ بْنِ أَبِي وَقَّاصٍ مَالِكِ بْـنِ أُهَيْبِ بْنِ عَبْدِ مَنَافِ بْنِ زُهْرَةَ بْنِ كِلَابِ بْنِ مُرَّةَ بْنِ كَعْبِ بْنِ لُؤَيٍّ الْقُرَشِيِّ الزُّهْرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ ؛ أَحَدِ الْعَشَرَةِ الْمَشْهُودِ لَهُمْ بِالْجَنَّةِ رَضِيَ اللّٰهُ عَنْهُمْ قَالَ : جَـاءَنِي رَسُولُ اللّٰهِ ﷺ يَعُودُنِي عَـامَ حَجَّةَ الْوَدَاعِ مِنْ وَجَعٍ اشْتَـدَّ بِي ، فَقُلْتُ يَا رَسُولَ اللّٰهِ ، إِنِّي قَـدْ بَلَغَ بِي مِنَ الْوَجَعِ مَا تَرٰى وَأَنَا ذُو مَالٍ وَلَا يَرِثُنِي إِلَّا ابْنَةٌ لِي أَفَأَتَصَدَّقُ بِثُلُثَيْ مَالِي؟ قَالَ: لَا، قُلْتُ: فَـالشَّطْرُ يَا رَسُولَ اللّٰهِ ، فَقَـالَ: لَا ، قُلْتُ : فَـالثُّلُثُ يَارَسُولَ اللّٰهِ ، قَـالَ: وَالثُّلُثُ كَثِيرٌ اَوْ كَبِيرٌ إِنَّـكَ أَنْ تَذَرَ وَرَثَتَكَ أَغْنِيَـاءَ خَيْرٌ مِنْ أَنْ تَـذَرَهُمْ عَـالَةً يَتَكَفَّفُونَ النَّاسَ وَإِنَّكَ لَنْ تُنْفِقَ نَفَقَـةً تَبْتَغِي بِهَا وَجْهَ اللّٰهِ إِلَّا أُجِـرْتَ عَلَيْهَا حَتَّى مَا تَجْعَلُ فِي فِي امْرَأَتِكَ ، قَالَ : فَقُلْتُ: يَا رَسُـولَ اللّٰهِ أُخَلَّفُ بَعْدَ أَصْحَابِي ، قَالَ: «إِنَّكَ لَنْ تُخَلَّفَ فَتَعْمَلَ عَمَـلًا تَبْتَغِي بِهِ وَجْـهَ اللّٰهِ إِلَّا ازْدَدْتَ بِهِ دَرَجَةً وَرِفْعَـةً ،

3. Pul vahidi

وَلَعَلَّكَ أَنْ تُخَلَّفَ حَتَّى يَنْتَفِعَ بِكَ أَقْوَامٌ وَيُضَرَّ بِكَ اٰخَرُونَ . اَللّٰهُمَّ أَمْضِ لِاَصْحَابِي هِجْرَتَهُمْ ، وَلَا تَرُدَّهُمْ عَلٰى أَعْقَابِهِمْ ، لٰكِنِ الْبَائِسُ سَعْدُ بْنُ خَوْلَةَ » ، يَرْثِي لَهُ رَسُولُ اللّٰهِ ﷺ أَنْ مَاتَ بِمَكَّةَ . مُتَّفَقٌ عَلَيْهِ.

7. Cənnətlə müjdələnmiş on səhabədən biri olan Əbu İshaq Səd bin Əbu Vaqqas *radiyallahu anh* belə dedi:

Vida Həcci ərəfəsində (Məkkədə) ağır xəstəliyə yoluxmuşdum. Rəsulullah *səllallahu əleyhi və səlləm* ziyarətimə gəldi. Ondan soruşdum:

- Ya Rəsulallah, gördüyün kimi halım çox ağırdır. Var-dövlət sahibiyəm və qızımdan başqa varisim yoxdur. Malımın üçdə ikisini sədəqə verimmi?

Hz. Peyğəmbər:

- **Xeyr! -** dedi.

- Yarısını sədəqə verimmi? - deyə təkrar soruşdum. Yenə də:

- **Xeyr! -** dedi.

- Üçdə birinə nə deyirsən, ey Allahın Rəsulu? - dedikdə belə buyurdu:

- Üçdə birini paylaya bilərsən, amma o da çoxdur. Varislərini var-dövlət sahibi etməyin onları insanlara əl açmağa möhtac etməyindən xeyirlidir. Allahın rizasını düşünərək xərclədiklərinin, hətta yemək yeyərkən yoldaşının ağzına qoyduğun loğmaların savabını alacaqsan.

Səd bin Əbu Vaqqas sözünə belə davam etdi:

- Ya Rəsulallah, yoldaşlarım getdiyi halda, mən qalacağammı (burada öləcəyəmmi)? - deyə soruşdum.

- Xeyr, sən burada qalmayacaqsan. Allah rizası üçün gözəl əməllər işləyərək ucalacaqsan. Belə ümid edirəm ki, uzun illər yaşayacaqsan. Bir çoxları (möminlər) səndən faydalanacaq, bir çoxları da (kafirlər) zərər görəcək.

Allahım! Əshabımın (Məkkədən Mədinəyə) hicrətini tamamla! Onları geri qaytarıb hicrətlərini yarımçıq qoyma! Acınacaqlı halda olan Səd bin Havlədir,- deyə buyurdu.

Rəsulullah *səllallahu əleyhi və səlləm* bu sözləri ilə Səd bin Havlənin Məkkədə ölməyinə kədərləndiyini ifadə edirdi.

Buxari, Cənaiz 36, Vəsaya 2, Nəfəqat 1, Mərda 16, Dəavat 43, Fəraiz 6; Müslim, Vəsiyyət 5. Həmçinin bax. Əbu Davud, Vəsaya 3; Tirmizi, Vəsaya 1; Nəsai, Vəsaya 3; İbn Macə, Vəsaya 5

❁

٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ عَبْدِ الرَّحْمٰنِ بْنِ صَخْرٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَال: قَالَ رَسُولُ اللّٰهِ ﷺ «إِنَّ اللّٰهَ لَا يَنْظُرُ إِلَى أَجْسَامِكُمْ، وَلَا إِلٰى صُوَرِكُمْ وَلٰكِنْ يَنْظُرُ إِلٰى قُلُوبِكُمْ». رَوَاهُ مُسْلِمٌ .

8. Əbu Hüreyrə Əbdürrəhman bin Sahr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala sizin bədənlərinizə və simalarınıza deyil, qəlblərinizə baxar".

Müslim, Birr 33. Həmçinin bax. İbn Macə, Zöhd 9

❁

٩ ـ عَنْ أَبِي مُوسٰى عَبْدِ اللّٰهِ بْنِ قَيْسٍ الْأَشْعَرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: سُئِلَ رَسُولُ اللّٰهِ ﷺ عَنِ الرَّجُلِ يُقَاتِلُ شَجَاعَةً وَيُقَاتِلُ حَمِيَّةً وَيُقَاتِلُ رِيَاءً ، أَيُّ ذٰلِكَ فِي سَبِيلِ اللّٰهِ؟ فَقَالَ رَسُولُ اللّٰهِ ﷺ : «مَنْ قَاتَلَ لِتَكُونَ كَلِمَةُ اللّٰهِ هِيَ الْعُلْيَا فَهُوَ فِي سَبِيلِ اللّٰهِ» . مُتَّفَقٌ عَلَيْهِ.

9. Əbu Musa Abdullah bin Qays əl-Əşari *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmdən* soruşdular:

- Biri cəsarətli olduğunu göstərmək, başqa biri millətini qorumaq, digəri isə igid olduğunu göstərmək naminə döyüşənlərdən hansı Allah yolundadır?

Rəsulullah *səllallahu əleyhi və səlləm* bu cavabı verdi:

- Hər kim İslamın ucalması üçün döyüşərsə, o, Allah yolundadır.

Buxari, Elm 45, Cihad 15, Fərzul-xumus 10, Tövhid 28; Müslim, İmarə 150, 151. Həmçinin bax. Tirmizi, Fəzailul-Cihad 16; Nəsai, Cihad 21; İbn Macə, Cihad 13

❁

١٠ ـ عَنْ أَبِي بَكْرَةَ نُفَيْعِ بْنِ الْحَارِثِ الثَّقَفِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِذَا الْتَقَى الْمُسْلِمَانِ بِسَيْفَيْهِمَا فَالْقَاتِلُ وَالْمَقْتُولُ فِي النَّارِ»، قُلْتُ: يَارَسُولَ اللّٰهِ، هٰذَا الْقَاتِلُ فَمَا بَالُ الْمَقْتُولِ؟ قَالَ: «إِنَّهُ كَانَ حَرِيصًا عَلٰى قَتْلِ صَاحِبِهِ». مُتَّفَقٌ عَلَيْهِ.

10. Əbu Bəkrə Nüfey bin Haris əs-Səqafi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İki müsəlman bir-birinə qılınc çəkərsə, öldürən də, ölən də cəhənnəmlikdir".

Bu zaman mən soruşdum:

- Ya Rəsulallah, öldürəni bildik, bəs ölən nə üçün cəhənnəmlikdir?

Rəsulullah *səllallahu əleyhi və səlləm:*

- **Çünki o da yoldaşını öldürmək istəyirdi,**- deyə buyurdu.

Buxari, İman 22, Diyət 2, Fitən 10; Müslim, Qasəmə 33, Fitən 14, 15. Həmçinin bax. Əbu Davud, Fitən 5; Nəsai, Təhrim 29, Qasəmə 7; İbn Macə, Fitən 11

❁

١١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ ﷺ: «صَلاَةُ الرَّجُلِ فِي جَمَاعَةٍ تَزِيدُ عَلَى صَلاَتِهِ فِي سُوقِهِ وَبَيْتِهِ بِضْعًا وَعِشْرِينَ دَرَجَةً. وَذٰلِكَ أَنَّ اَحَدَهُمْ إِذَا تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ؛ ثُمَّ أَتَى الْمَسْجِدَ لاَ يُرِيدُ إِلَّا الصَّلاَةَ، لاَ يَنْهَزُهُ إِلَّا الصَّلاَةُ، لَمْ يَخْطُ خُطْوَةً إِلَّا رُفِعَ لَهُ بِهَا دَرَجَةٌ، وَحُطَّ عَنْهُ بِهَا خَطِيئَةٌ

حَتَّى يَدْخُلَ الْمَسْجِدَ، فَإِذَا دَخَلَ الْمَسْجِدَ كَانَ فِي الصَّلاَةِ مَا كَانَتِ الصَّلاَةُ هِيَ تَحْبِسُهُ وَالْمَلاَئِكَةُ يُصَلُّونَ عَلَى أَحَدِكُمْ ما دَامَ فِي مَجْلِسِهِ الَّذِي صَلَّى فِيهِ، يَقُولُونَ: اَللّٰهُمَّ ارْحَمْهُ، اَللّٰهُمَّ اغْفِرْ لَهُ، اَللّٰهُمَّ تُبْ عَلَيْهِ، مَالَمْ يُؤْذِ فِيهِ، مَا لَمْ يُحْدِثْ فِيهِ». مُتَّفَقٌ عَلَيْهِ.

11. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir nəfərin məsciddə camaatla qıldığı namaz iş yerində və evində qıldığı namazdan təxminən iyirmi qat daha savabdır. Hətta sizdən biri gözəl şəkildə dəstəmaz alar, heç bir başqa məqsədlə deyil, yalnız namaz qılmaq niyyəti ilə məscidə gələrsə, yol boyu atdığı hər addıma görə bir dərəcə yüksələr və bir günahı bağışlanar. Məscidə girdikdən sonra da namaz qılmaq üçün orada gözlədiyi müddət ərzində eynilə namaz qılırmış kimi savab qazanar. Sizdən biri namaz qıldığı yerdən ayrılana qədər, heç kimə əziyyət vermədiyi təqdirdə və dəstəmazını pozmadıqca mələklər onun üçün belə dua edərlər:

Allahım, ona mərhəmət et!

Allahım, onu bağışla!

Allahım, onun tövbəsini qəbul et!"

Buxari, Salət 78, Azan 30, Büyü 49; Müslim, Məsəcid 272. Həmçinin bax. Əbu Davud, Salət 48; İbn Macə, Məsəcid 14, 16, 19

❁

١٢ ـ عَنْ أَبِي الْعَبَّاسِ عَبْدِ اللّٰهِ بْنِ عَبَّاسِ بْنِ عَبْدِ الْمُطَّلِبِ رَضِيَ اللّٰهُ عَنْهُمَا عَنْ رَسُولِ اللّٰهِ ﷺ فِيما يَرْوِي عَنْ رَبِّهِ تَبَارَكَ وَتَعَالَى قَالَ: «إِنَّ اللّٰهَ كَتَبَ الْحَسَنَاتِ وَالسَّيِّئَاتِ ثُمَّ بَيَّنَ ذَلِكَ: فَمَنْ هَمَّ بِحَسَنَةٍ فَلَمْ يَعْمَلْهَا كَتَبَهَا اللّٰهُ تَبَارَكَ وَتَعَالَى عِنْدَهُ حَسَنَةً كَامِلَةً. وَإِنْ هَمَّ بِها فَعَمِلَهَا كَتَبَهَا اللّٰهُ عَشْرَ حَسَنَاتٍ إِلى سَبْعِ مِئَةِ ضِعْفٍ إِلَى أَضْعَافٍ كَثِيرَةٍ، وَإِنْ هَمَّ بِسَيِّئَةٍ فَلَمْ يَعْمَلْهَا كَتَبَهَا اللّٰهُ تَعَالَى عِنْدَهُ حَسَنَةً كَامِلَةً. وَإِنْ هَمَّ بِهَا فَعَمِلَهَا كَتَبَهَا اللّٰهُ سَيِّئَةً وَاحِدَةً» . مُتَّفَقٌ عَلَيْهِ.

12. Əbul-Abbas Abdullah bin Abbas bin Əbdülmüttəlib *radiyallahu anhumədən* nəql olunduğuna görə Rəsulullah *səllallahu əleyhi və səllə*m Allah-Təaladan rəvayət etdiyi bir hədisdə belə buyurdu:

"Allah-Təala yaxşılıq və pisliklərini təqdir edib yazdıqdan sonra onların pis və yaxşı olduğunu belə bildirdi:

Kim yaxşı bir əməl işləmək istəyər, lakin işləməzsə, Allah-Təala ona həmin əməli işləmiş kimi (savab) yazar.

Əgər yaxşı bir əməl işləmək istəyər, sonra da həmin əməli işləyərsə, Allah-Təala həmin əməli on mislindən yeddi yüz mislinə qədər, hətta qat-qat artığı ilə yazar.

Kim pis bir əməl işləmək istəyər, lakin bundan vaz keçərsə, Allah-Təala bu əməlini kamil bir yaxşılıq olaraq qeyd edər.

Lakin pis bir əməl işləmək istəyər, sonra da həmin əməli işləyərsə, Allah-Təala o əməli sadəcə bir günah olaraq yazar".

Buxari, Riqaq 31; Müslim, İman 207. Həmçinin bax. Buxari, Tövhid 35; Tirmizi, Təfsiri-surə (6), 10

❁

١٣ـ عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ عَبْدِ اللّٰهِ بْنِ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللّٰهِ ﷺ يَقُولُ: «اِنْطَلَقَ ثَلاَثَةُ نَفَرٍ مِمَّنْ كَانَ قَبْلَكُمْ حَتَّى اٰوَاهُمُ الْمَبِيتُ إِلَى غَارٍ فَدَخَلُوهُ، فَانْحَدَرَتْ صَخْرَةٌ مِنَ الْجَبَلِ فَسَدَّتْ عَلَيْهِمُ الْغَارَ. فَقَالُوا: إِنَّهُ لاَ يُنْجِيكُمْ مِنْ هَذِهِ الصَّخْرَةِ إِلَّا أَنْ تَدْعُوا اللّٰهَ تَعَالَى بِصَالِحِ أَعْمَالِكُمْ. قَالَ رَجُلٌ مِنْهُمْ: اَللّٰهُمَّ كَانَ لِي أَبَوَانِ شَيْخَانِ كَبِيرَانِ وَكُنْتُ لاَ أَغْبِقُ قَبْلَهُمَا أَهْلاً وَلاَ مَالاً، فَنَأَى بِي طَلَبُ الشَّجَرِ يَوْمًا فَلَمْ أُرِحْ عَلَيْهِمَا حَتَّى نَامَا، فَحَلَبْتُ لَهُمَا غَبُوقَهُمَا فَوَجَدْتُهُمَا نَائِمَيْنِ، فَكَرِهْتُ أَنْ أُوقِظَهُمَا وَأَنْ أَغْبِقَ قَبْلَهُمَا أَهْلاً أَوْ مَالاً، فَلَبِثْتُ والقَدَحُ عَلَى يَدِي أَنْتَظِرُ اسْتِيقَاظَهُمَا حَتَّى بَرِقَ الْفَجْرُ وَالصِّبْيَةُ يَتَضَاغَوْنَ عِنْدَ قَدَمَيَّ، فَاسْتَيْقَظَا فَشَرِبَا غَبُوقَهُمَا. اَللّٰهُمَّ إِنْ كُنْتُ فَعَلْتُ

ذَلِكَ ابْتِغَاءَ وَجْهِكَ فَفَـرِّجْ عَنَّا ما نَحْنُ فِيهِ مِنْ هَذِهِ الصَّخْرَةِ» ، فَـانْفَرَجَتْ شَيْئًا لاَ يَسْتَطِيعُونَ الْخُرُوجَ مِنْهُ. قَالَ الْآخَرُ: «اَللّٰهُمَّ إِنَّهُ كَانَتْ لِيَ ابْنَةُ عَمٍّ كَانَتْ أَحَبَّ النَّاسِ إِلَيَّ» وَفِي رِوَايَةٍ: «كُنْتُ أُحِبُّهَا كَأَشَدِّ مـا يُحِبُّ الرِّجالُ النِّساءَ، فَأَرَدْتُهَا عَلَى نَفْسِهَا فَـامْتَنَعَتْ مِنِّي حَتَّى أَلَمَّتْ بِهَا سَنَةٌ مِنَ السِّنِينَ فَجَاءَتْنِي فَـأَعْطَيْتُهَا عِشْرِينَ وَمِئَةَ دِينَارٍ عَلَى أَنْ تُخَلِّيَ بَيْنِي وَبَيْنَ نَفْسِهـا فَفَعَلَتْ، حَتَّى إِذَا قَدَرْتُ عَلَيْهَـا، وَفِي رِوَايَةٍ: «فَلَمَّا قَعَـدْتُ بَيْنَ رِجْلَيْهَـا قَـالَتِ: اتَّـقِ اللّٰهَ وَلاَ تَفُضَّ الْخَاتَمَ إِلَّا بِحَقِّـهِ، فَانْصَرَفْتُ عنْهَا وَهِيَ أَحَبُّ النَّاسِ إِلَيَّ وَتَرَكْتُ الذَّهَبَ الَّذِي أَعْطَيْتُهَا، اَللّٰهُمَّ إِنْ كُنْتُ فَعَلْتُ ذَلِكَ ابْتِغَاءَ وَجْهِكَ فَـافْرُجْ عَنَّا ما نَحْنُ فِيهِ» ، فَـانْفَرَجَتِ الصَّخْرَةُ غَيْرَ أَنَّهُمْ لاَ يَسْتَطِيعُونَ الْخُرُوجَ مِنْهَـا. وَقَالَ الثَّـالِثُ: «اَللّٰهُمَّ اسْتَأْجَـرْتُ أُجَرَاءَ وَأَعْطَيْتُهُمْ أَجْرَهُمْ غَيْرَ رَجُلٍ وَاحِدٍ تَرَكَ الَّذِي لَهُ وَذَهَبَ، فَثَمَّرْتُ أَجْرَهُ حَتَّى كَثُرَتْ مِنْهُ الْأَمْوَالُ فَجَاءَنِي بَعْدَ حِينٍ فَقَالَ: يَاعَبْدَ اللّٰهِ أَدِّ إِلَيَّ أَجْرِي فَقُلْتُ: كُلُّ مَاتَرَى مِنْ أَجْرِكَ: مِنَ الإِبِلِ وَالْبَقَرِ والْغَنَمِ والرَّقِيقِ. فَقَالَ: يَاعَبْدَ اللّٰهِ لاَ تَسْتَهْزِىءْ بِي! فَقُلْتُ: لاَ أَسْتَهْزِىءُ بِكَ، فَأَخَذَهُ كُلَّهُ فَاسْتَاقَهُ فَلَمْ يَتْرُكْ مِنْهُ شَيْئًا: اَللّٰهُمَّ إِنْ كُنْتُ فَعَلْتُ ذَلِكَ ابْتِغَاءَ وَجْهِكَ فَافْرُجْ عَنَّا مَا نَحْنُ فِيهِ!» فَانْفَرَجَتِ الصَّخْرَةُ فَخَرَجُوا يَمْشُونَ» .مُتَّفَقٌ عَلَيْهِ .

13. Əbu Əbdürrəhman Abdullah bin Ömər bin Xəttab *radiyallahu anhumədən* rəvayət edildiyinə görə, o, Rəsulullah *səllallahu əleyhi və səllə-min* belə dediyini eşitmişdir:

"Sizdən əvvəl yaşayan qövmlərdən üç nəfər səfərə çıxdı. Axşam düşəndə yatmaq üçün bir mağaraya girdilər. Dağdan qopan bir qaya mağaranın ağzını kəsdi. Bu zaman öz aralarında belə dedilər:

- Sizi işlədiyiniz yaxşı əməlləri dilə gətirərək Allaha dua etməkdən başqa heç nə bu qayadan xilas edə bilməz".

Onlardan biri:

- Allahım, mənim xeyli ixtiyar ata-anam vardı. Onları doyurmadan əhli-əyalıma və xidmətçilərimə heç nə yedirib-içirməzdim. Bir gün heyvanlarıma yem axtarmaq üçün evdən çıxdım, onlar yatana qədər də evə qayıda bilmədim. Evə gələn kimi heyvanları sağıb südünü ata-anama apardım, lakin ikisinin də yatdığını gördüm. Onları oyandırmaq istəmədim. Eyni zamanda onlardan əvvəl əhli-əyalıma və xidmətçilərimə də nə isə verməyə ürəyim gəlmədi. Əlimdə süd qabı olduğu halda dan yeri ağarana qədər oyanmalarını gözlədim. Uşaqlar acından ayağımın altında zarıyırdılar. Nəhayət, oyanıb südlərini içdilər.

Ey Rəbbim, əgər bu əməlimi Sənin rizanı qazanmaq üçün işləmişəmsə, başımıza bəla olan bu qayanı bizdən uzaqlaşdır! - deyərək Allaha yalvardı. Qaya bir az aralansa da, mağaradan çıxmaq mümkün deyildi.

Digəri sözə başladı:

- Allahım, bir əmim qızı vardı. Onu hamıdan çox sevirdim (başqa bir rəvayətdə: bir kişi bir qadını nə qədər sevə bilərsə, mən də onu elə sevirdim). Onunla olmaq istədim, lakin bundan imtina etdi. Bir neçə il sonra (şiddətli) qıtlıq baş verdi. Əmim qızı yanıma gəldi və 120 dinar qarşılığında onunla olmağı qəbul etdi. Ona sahib olacağım zaman (başqa bir rəvayətdə: cinsi əlaqəyə girəcəyim zaman) dedi ki: Allahdan qorx! Dinin qəbul etmədiyi yolla mənə sahib olma. Onu hamıdan çox sevsəm də, verdiyim dinarları almadan yanından uzaqlaşdım.

Allahım, əgər bu əməli Sənin rizanı qazanmaq üçün işləmişəmsə, bizi bu bəladan xilas et,- deyərək yalvardı. Qaya bir az da aralandı, amma yenə də mağaradan çıxmaq mümkün deyildi.

Üçüncü də:

- Allahım, bir vaxtlar muzdla işləyən işçilər tutdum. Pulunu almadan gedən biri xaric, hamısının muzdunu verdim. Əmək haqqını almadan gedən adamın pulunu sərmayə olaraq bir işə yatırdım. Həmin məbləğ böyük sərvətə çevrildi. Bir gün həmin adam yanıma gələrək:

- Ey Allahın qulu, əmək haqqımı ver! - dedi. Mən də:

- Gördüyün bu dəvələr, iribuynuzlu heyvanlar, qoyunlar və kölələr sənin əmək haqqın müqabilində ərsəyə gəldi,- dedim. O:

- Ey Allahın qulu, məni məsxərəyə qoyma! - dedi.

Onu məsxərəyə qoymadığımı (ciddi olduğumu) söylədim. O da hər şeyi götürdü, çıxıb getdi.

Ey Rəbbim, əgər bu əməlimi sırf Sənin razılığını qazanmaq üçün işləmişəmsə, bizi başımıza gələn bu bəladan xilas et,- deyə yalvardı. Mağaranın ağzını tutan qaya tamamən aralandı, onlar da çıxıb yollarına davam etdilər.

Buxari, Büyü 98, İcarə 12, Hars vəl-muzərəa 13, Ənbiya 53, Ədəb 5; Müslim, Zikr 100

TÖVBƏ

ALLAHDAN ƏFV İSTƏMƏK

Alimlərin fikrinə görə insan işlədiyi hər bir günaha tövbə etməlidir. İşlənən günah qul haqqı ilə əlaqəli deyilsə və yalnız Allaha qarşı işlənmişsə, bundan tövbə etməyin üç şərti var:

1. Həmin günahı tərk etmək.

2. Həmin günahın peşmançılığını çəkmək.

3. Bir daha günah etməməyə qərar vermək.

Əgər bu üç şərtdən biri olmazsa, tövbə qəbul olmaz.

İşlənən günah **qul haqq**ı ilə əlaqəlidirsə, bu zaman qeyd etdiyimiz üç şərtdən əlavə dördüncü şərt də tələb olunur. Bu da **qul haqqından** təmizlənməkdir. Qul haqqından xilas olmağın yolu isə belədir:

Sözügedən haqq mal və bu kimi maddi məsələ ilə bağlıdırsa, onu sahibinə qaytarmalıdır.

Əgər kiminsə zina etdiyini söyləyərək ona **iftira atdığı** üçün cəzaya layiqdirsə, haqq sahibinə özünü cəzalandırma səlahiyyəti verməli, yaxud da ondan bağışlamasını istəməlidir.

Əgər kiminsə **qeybətini** edərək qul haqqına girmişsə, həmin adamdan bağışlamasını istəməlidir.

İnsan işlədiyi hər günaha görə tövbə etməlidir. Günahlarının bəzisindən tövbə edərsə, əhli-sünnə alimlərinə görə yalnız həmin günahlara tövbə etmiş sayılar. Tövbə etmədiyi əməlləri günah olaraq qalar.

Qurani-Kərimdə keçən ayələr, hədisi-şəriflər və İslam alimləri tövbənin vacib olduğunu göstərir.

Ayələr

وَتُوبُوا اِلَى اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ .

1. "Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız!"
(ən-Nur, 31)

اِسْتَغْفِرُوا رَبَّكُمْ ثُمَّ تُوبُوا اِلَيْهِ .

2. "Və Rəbbinizdən bağışlanmağınızı diləyin. Sonra Ona tövbə edin!"
(Hud, 3)

يَا أَيُّهَا الَّذِينَ اٰمَنُوا تُوبُوا اِلَى اللَّهِ تَوْبَةً نَصُوحًا .

3. "Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən (bir daha günaha qayıtmamaq şərti ilə) **tövbə edin!"**
(ət-Təhrim, 8)

Hədislər

١٤ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللّٰهِ ﷺ يَقُولُ: «وَاللّٰهِ إِنِّي لَأَسْتَغْفِرُ اللّٰهَ وَأَتُوبُ إِلَيْهِ فِي الْيَوْمِ أَكْثَرَ مِنْ سَبْعِينَ مَرَّةً». رَوَاهُ الْبُخَارِيُّ .

14. Əbu Hüreyrə *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini söyləyir:

"Vallahi, mən hər gün Allahdan yetmiş dəfədən çox məni bağışlamasını istəyir və tövbə edirəm".

Buxari, Dəavat 3. Həmçinin bax. Tirmizi, Təfsiru surə (47); İbn Macə, Ədəb 57

١٥ـ عَنِ الْأَغَرِّ بْنِ يَسارٍ الْمُزَنِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ ﷺ: «يَا أَيُّهَا النَّاسُ تُوبُوا إِلَى اللّٰهِ وَاسْتَغْفِرُوهُ، فَإِنِّي أَتُوبُ فِي الْيَوْمِ مِئَةَ مَرَّةٍ». رَوَاهُ مُسْلِمٌ.

15. Əğar bin Yəsar əl-Muzəni *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ey insanlar, Allaha tövbə edin, ondan əfv istəyin. Mən də hər gün yüz dəfə ona tövbə edirəm".

Müslim, Zikr 42. Həmçinin bax. İbn Macə, Ədəb 57

❁

١٦ـ عَنْ أَبِي حَمْزَةَ أَنَسِ بْنِ مالِكٍ الأَنْصَارِيِّ خَادِمِ رَسُولِ اللّٰه ﷺ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قالَ رَسُولُ اللّٰهِ ﷺ: «لَلّٰهُ أَفْرَحُ بِتَوْبَةِ عَبْدِهِ مِنْ أَحَدِكُمْ سَقَطَ عَلَى بَعِيرِهِ وَقَدْ أَضَلَّهُ فِي أَرْضٍ فَلاَةٍ» . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ «لَلّٰهُ أَشَدُّ فَرَحًا بِتَوْبَةِ عَبْدِهِ حِينَ يَتُوبُ إِلَيْهِ مِنْ أَحَدِكُمْ كَانَ عَلَى رَاحِلَتِهِ بِأَرْضٍ فَلاَةٍ، فَانْفَلَتَتْ مِنْهُ وَعَلَيْهَا طَعَامُهُ وَشَرَابُهُ، فَأَيِسَ مِنْهَا فَأَتَى شَجَرَةً فَاضْطَجَعَ فِي ظِلِّهَا وَقَدْ أَيِسَ مِنْ رَاحِلَتِهِ. فَبَيْنَمَا هُوَ كَذَلِكَ إِذْ هُوَ بِهَا قَائِمَةً عِنْدَهُ، فَأَخَذَ بِخِطَامِهَا ثُمَّ قَالَ مِنْ شِدَّةِ الْفَرَحِ: اَللّٰهُمَّ أَنْتَ عَبْدِي وَأَنَا رَبُّكَ، أَخْطَأَ مِنْ شِدَّةِ الْفَرَحِ». مُتَّفَقٌ عَلَيْهِ .

16. Rəsulullah *səllallahu əleyhi və səlləmin* xidmətçisi olan Əbu Həmzə Ənəs bin Malik əl-Ənsari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bəndəsinin tövbə etməsinə görə Allahın sevinci sizdən birinin kimsəsiz səhrada itirmiş dəvəsini tapdıqda keçirdiyi sevinc hissindən daha çoxdur".

Buxari, Dəavat 4; Müslim, Tövbə 1, 7, 8.

Müslimdən gələn başqa bir rəvayət isə belədir:

"Hər hansı birinizin tövbə etməsi səbəbi ilə Allah-Təalanın duyduğu sevinc hissi ucsuz-bucaqsız səhrada gedərkən üstündəki azuqəsi ilə birlikdə dəvəsini əlindən qaçıran, xeyli axtardıqdan sonra dəvəni tapma ümidini itirərək bir ağacın kölgəsində uzanan, elə bu zaman dəvəsinin gəldiyini görüb ovsarından yapışan və sevincinin həddi-hüdudu olmadığı üçün nə dediyini bilməyərək: "Allahım, Sən mənim qulumsan, mən də Sənin rəbbin", - deyən adamın sevincindən daha çoxdur".

Müslim, Tövbə 7. Həmçinin bax. Tirmizi, Qiyamət 49, Dəavat 99; İbn Macə, Zöhd 30

❁

١٧ ـ عَنْ أَبِي مُوسَى عَبْدِ اللّٰهِ بْنِ قَيْسٍ الأَشْعَرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ اللّٰهَ تَعَالَى يَبْسُطُ يَدَهُ بِاللَّيْلِ لِيَتُوبَ مُسِيءُ النَّهَارِ، وَيَبْسُطُ يَدَهُ بِالنَّهَارِ لِيَتُوبَ مُسِيءُ اللَّيْلِ، حَتَّى تَطْلُعَ الشَّمْسُ مِنْ مَغْرِبِهَا». رَوَاهُ مُسْلِمٌ .

17. Əbu Musa Abdullah bin Qeys əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbiyyi-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala gündüz günah işləyənin tövbəsini qəbul etmək üçün gecə əlini (ona) **uzadar. Gecə günah işləyənin tövbəsini qəbul etmək üçün də gün uzunu əlini (ona) uzadar. Bu, günəşin batdığı yerdən doğacağı günə qədər davam edər".**

Müslim, Tövbə 31

❁

١٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ ﷺ: «مَنْ تَابَ قَبْلَ أَنْ تَطْلُعَ الشَّمْسُ مِنْ مَغْرِبِهَا تَابَ اللّٰهُ عَلَيْهِ». رَوَاهُ مُسْلِمٌ .

18. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim günəş məğribdən doğmazdan əvvəl[4] tövbə edərsə, Allah onun tövbəsini qəbul edər".

Müslim, Zikr 43

4. Günəşin məğribdən doğması qiyamət əlamətlərindəndir.

١٩ ـ عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ عَبْدِ اللّٰهِ بْنِ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللّٰهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ اللّٰهَ عَزَّ وَجَلَّ يَقْبَلُ تَوْبَةَ الْعَبْدِ مَا لَمْ يُغَرْغِرْ». رَوَاهُ التِّرْمِذِيُّ .

19. Əbu Əbdürrəhman Abdullah ibn Ömər ibn Xəttab *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qulunun can verənə qədər etdiyi tövbəsini Allah-Təala qəbul edər".

Tirmizi, Dəavat 98. Həmçinin bax. İbn Macə, Zöhd 30

❁

٢٠ ـ عَنْ زِرِّ بْنِ حُبَيْشٍ قَالَ: أَتَيْتُ صَفْوَانَ بْنَ عَسَّالٍ رَضِيَ اللّٰهُ عَنْهُ أَسْأَلُهُ عَنِ الْمَسْحِ عَلَى الْخُفَّيْنِ فَقَالَ: مَا جَاءَ بِكَ يَا زِرُّ ، فَقُلْتُ اِبْتِغَاءَ الْعِلْمِ فَقَالَ : «إِنَّ الْمَلَائِكَةَ تَضَعُ أَجْنِحَتَهَا لِطَالِبِ الْعِلْمِ رِضاً بِمَا يَطْلُبُ. فَقُلْتُ: إِنَّهُ قَدْ حَكَّ فِي صَدْرِي الْمَسْحُ عَلَى الْخُفَّيْنِ بَعْدَ الْغَائِطِ وَالْبَوْلِ، وَكُنْتَ امْرَأً مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ فَجِئْتُ أَسْأَلُكَ هَلْ سَمِعْتَهُ يَذْكُرُ فِي ذَلِكَ شَيْئًا؟ قَالَ: نَعَمْ، كَانَ يَأْمُرُنَا إِذَا كُنَّا سَفْرًا أَوْ مُسَافِرِينَ أَلَّا نَنْزِعَ خِفافَنَا ثَلَاثَةَ أَيَّامٍ وَلَيَالِيَهُنَّ إِلَّا مِنْ جَنابَةٍ، لَكِنْ مِنْ غَائِطٍ وَبَوْلٍ وَنَوْمٍ. فَقُلْتُ: هَلْ سَمِعْتَهُ يَذْكُرُ فِي الْهَوَى شَيْئًا؟ قَالَ: نَعَمْ، كُنَّا مَعَ رَسُولِ اللّٰهِ ﷺ فِي سَفَرٍ فَبَيْنَا نَحْنُ عِنْدَهُ إِذْ نَادَاهُ أَعْرَابِيٌّ بِصَوْتٍ لَهُ جَهْوَرِيٍّ: يَا مُحَمَّدُ! فَأَجَابَهُ رَسُولُ اللّٰهِ ﷺ نَحْواً مِنْ صَوْتِهِ هَاؤُمُ ، فَقُلْتُ لَهُ: وَيْحَكَ، اغْضُضْ مِنْ صَوْتِكَ، فَإِنَّكَ عِنْدَ النَّبِي ﷺ وقَدْ نُهِيتَ عَنْ هَذَا! فَقَالَ: وَاللّٰهِ لاَ أَغْضُضُ. قَالَ الْأَعْرَابِيُّ: الْمَرْءُ يُحِبُّ الْقَوْمَ وَلَمَّا يَلْحَقْ بِهِمْ؟ قَالَ النَّبِيُّ ﷺ: «الْمَرْءُ مَعَ مَنْ أَحَبَّ يَوْمَ الْقِيَامَةِ». فَمَا زَالَ يُحَدِّثُنَا حَتَّى ذَكَرَ بَابًا مِنَ الْمَغْرِبِ مَسِيرَةُ عَرْضِهِ، أَوْ يَسِيرُ الرَّاكِبُ فِي عَرْضِهِ اَرْبَعِينَ اَوْ سَبْعِينَ عَامًا». قَالَ سُفْيَانُ اَحَدُ

الرُّوَاةِ قِبَلَ الشَّامِ ، خَلَقَهُ اللّٰهُ تَعَالَى يَوْمَ خَلَقَ السَّمَوَاتِ وَالأَرْضَ مَفْتُوحًا لِلتَّوْبَةِ لاَ يُغْلَقُ حَتَّى تَطْلُعَ الشَّمْسُ مِنْهُ». رَوَاهُ التِّرْمِذِيُّ .

20. Zirr bin Hübeş belə deyir:

Məstlərin üstünə necə məsh ediləcəyi barədə sual vermək üçün Səvban bin Assal *radiyallahu anhın* yanına getmişdim. Məndən nə üçün gəldiyimi soruşdu. Mən də elm öyrənmək məqsədi ilə gəldiyimi söylədim. Belə dedi:

- Mələklərin elm öyrənənlərdən xoşu gəldiyi üçün onlara qanad gərərlər. Mən:

- Dəstəmaz pozulduqdan sonra məstlər üzərinə necə məsh ediləcəyi xüsusunda beynimdə müəyyən suallar yarandı. Sən də Həzrət Peyğəmbərin əshabından olduğuna görə bu barədə nə isə dediyini eşidib-eşitmədiyini soruşmağa gəldim,- dedim. Səvban:

- Bəli, eşitdim. Rəsuli-Əkrəm bizə səfərdə olanda məstləri üç gecə çıxartmamağımızı, dəstəmazımızı pozduqdan, hətta yatıb durandan sonra da məstlər üzərinə məsh etməyi, ancaq cünub olduqda məstləri çıxartmağı əmr etdi,- dedi.

- Onun **sevgi ilə bağlı** nə isə dediyini eşitdinmi? - deyə sual verdim.

- Bəli, eşitdim. Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə səfərə çıxmışdıq. Biz yanında ikən bir bədəvi kobud səslə:

- Ey Muhammməd,- deyərək qışqırdı.

Hz. Peyğəmbər onun səs tonuna yaxın tonda:

- **"Gəl görək", -** dedi.

Mən üzümü bədəviyə tutub:

- Vay sənin halına! Hz. Peyğəmbərin hüzurundasan. Səsini yüksəltmə! Onun hüzurunda yüksək səslə qışqırmağını Allah qadağan edir,- dedim.

Bədəvi:

- Allaha and olsun ki, səsimin tonunu aşağı salmaram,- dedi və Rəsuli-Əkrəmdən "Kimlərisə sevən, lakin onlarla birlikdə olacaq qədər yaxşı əməlləri olmayan insan haqqında nə deyə bilərsən?" - deyə soruşdu.

Hz. Peyğəmbər *səllallahu əleyhi və səlləm* buyurdu:

- "İnsan qiyamət günü sevdikləri ilə birlikdə olacaq".

Səvban bin Assal sözünə davam edərək belə deyir:

- Hz. Peyğəmbər bu haqda uzun-uzadı danışdı. Hətta söhbət əsnasında qərb tərəfdə bir qapıdan söz açdı. **"Qapının eni ayaqla qırx və ya yetmiş illik məsafə** (yaxud ravinin xatırladığına görə atlı olaraq qırx və ya yetmiş illik məsafə) **genişliyindədir".**

(Ravilərdən Süfyan bin Üyeynə həmin qapının Şam tərəflərdə olduğunu deyir).

"Allah göyləri və yeri yaratdığı gün bu qapını tövbə üçün açıq yaratmışdır. Günəş batdığı andan çıxana qədər həmin qapı bağlanmayacadır", - deyə buyurdu.

Tirmizi, Dəavat 98. Həmçinin bax. Tirmizi, Təharət 71; Nəsai, Təharət 97, 113; İbn Macə, Fitən 32

❁

٢١ ـ عَنْ أَبِي سَعِيدٍ سَعْدِ بْنِ مَالِكِ بْنِ سِنَانٍ الخُدْرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ نَبِيَّ اللَّهِ ﷺ قال: «كَانَ فِيمَنْ كَانَ قَبْلَكُمْ رَجُلٌ قَتَلَ تِسْعَةً وَتِسْعِينَ نَفْسًا ، فَسَأَلَ عَنْ أَعْلَمِ أَهْلِ الْأَرْضِ ؛ فَدُلَّ عَلَى رَاهِبٍ . فَأَتَاهُ فَقَالَ : إِنَّهُ قَتَلَ تِسْعَةً وَتِسْعِينَ نَفْسًا فَهَلْ لَهُ مِنْ تَوْبَةٍ ؟ فَقَالَ: لَا ، فَقَتَلَهُ فَكَمَّلَ بِهِ مِائَةً ، ثُمَّ سَأَلَ عَنْ أَعْلَمِ أَهْلِ الْأَرْضِ ، فَدُلَّ عَلَى رَجُلٍ عَالِمٍ فَقَالَ : إِنَّهُ قَتَلَ مِائَةَ نَفْسٍ فَهَلْ لَهُ مِنْ تَوْبَةٍ ؟ فَقَالَ: نَعَمْ ، وَمَنْ يَحُولُ بَيْنَهُ وَبَيْنَ التَّوْبَةِ ؟! انْطَلِقْ إِلَى أَرْضِ كَذَا وَكَذَا فَإِنَّ بِهَا أُنَاسًا يَعْبُدُونَ اللَّهَ تَعالَى فَاعْبُدِ اللَّهَ مَعَهُمْ ، وَلاَ تَرْجِعْ إِلَى أَرْضِكَ فَإِنَّها أَرْضُ سَوْءٍ ؛ فَانْطَلَقَ حَتَّى إِذَا نَصَفَ الطَّرِيقَ أَتَاهُ الْمَوْتُ فَاخْتَصَمَتْ فِيهِ مَلَائِكَةُ الرَّحْمَةِ وَمَلَائِكَةُ الْعَذَابِ . فَقَالَتْ مَلَائِكَةُ الرَّحْمَةِ : جَاءَ تَائِبًا مُقْبِلًا بِقَلْبِهِ إِلَى اللَّهِ تَعَالَى ؛ وَقَالَتْ مَلَائِكَةُ الْعَذَابِ : إِنَّهُ لَمْ يَعْمَلْ خَيرًا قَطُّ ؛

فَأَتَاهُمْ مَلَكٌ فِي صُورَةِ اٰدَمِيٍّ فَجَعَلُوهُ بَيْنَهُمْ أَيْ حَكَمًا فقالَ: قِيسُوا مَا بَيْنَ الْأَرْضَيْنِ فَإِلَى أَيَّتِهِمَا كَانَ أَدْنَى فَهُوَ لَهُ ، فَقَاسُوا فَوَجَدُوهُ أَدْنَى إِلَى الْأَرْضِ الَّتِي أَرَادَ ، فَقَبَضَتْهُ مَلَائِكَةُ الرَّحْمَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ فِي الصَّحِيحِ «فكَانَ إِلَى الْقَرْيَةِ الصَّالِحَةِ أَقْرَبَ بِشِبْرٍ فَجُعِلَ مِنْ أَهْلِهَا».

وَفِي رِوَايَةٍ فِي الصَّحِيحِ «فَأَوْحَى اللَّهُ تَعَالَى إِلَى هَذِهِ أَنْ تَبَاعَدِي وَإِلَى هَذِهِ أَنْ تَقَرَّبِي وَقالَ: قِيسُوا مَا بَيْنَهُمَا ، فَوَجَدُوهُ إِلَى هٰذِهِ أَقْرَبَ بِشِبْرٍ فَغُفِرَ لَهُ» .

وَفِي رِوَايَةٍ : { فَنَأَى بِصَدْرِهِ نَحْوَهَا }

21. Əbu Səid Sad bin Malik bin Sinan əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Keçmiş zamanda doxsan doqquz adamı qətl etmiş bir nəfər vardı. Həmin adam yer üzündəki ən böyük alimin kim olduğunu soruşdu. Ona belə bir rahib olduğunu söylədilər. O da rahibin yanına gedib:

- Doxsan doqquz nəfəri qətl etmişəm, tövbə etsəm, qəbul olar? - deyə soruşdu.

Rahib:

- Xeyr, qəbul olmaz,- dediyi üçün onu da öldürdü. Beləliklə öldürdüyü adamların sayı yüz oldu. Sonra yenə yer üzündəki ən böyük alimin kim olduğunu soruşdu. Ona başqa bir alimi tövsiyə etdilər. Həmin alimin yanına gedərək, yüz nəfəri öldürdüyünü, tövbəsinin qəbul olub-olmayacağını soruşdu.

Alim:

- Əlbəttə, qəbul olar. İnsanla tövbə arasına kim girə bilər? Sən filan yerə get. Orada Allaha ibadət edən insanlar var. Onlarla birlikdə Allaha ibadət et. Əsla indi yaşadığın yerə qayıtma. Çünki ora pis insanların yaşadığı yerdir,- dedi.

O da deyilən yerə getmək üçün yola çıxdı. Yarı yolda öldü.

Rəhmət mələkləri ilə əzab mələkləri onu kimin götürəcəyi üstündə mübahisə etməyə başladılar.

Rəhmət mələkləri:

- Bu adam tövbə edərək qəlbi ilə Allaha yönəldi və yola düşdü,- dedilər.

Əzab mələkləri isə:

- Bu adam ömrü boyu heç bir yaxşı əməl işləməyib,- dedilər.

Elə bu zaman yanlarına insan cildinə girmiş bir mələk gəldi. Mələklər onu öz aralarında hakim təyin etdilər.

Hakimlik edən mələk:

- Gəldiyi yerlə getdiyi yerin arasındakı məsafəni ölçün. Hansına daha yaxındırsa, oraya aiddir,- dedi.

Mələklər hər iki məsafəni ölçdülər. Getmək istədiyi yerin daha yaxın olduğunu gördülər. Beləliklə rəhmət mələkləri onu götürüb apardılar".

Buxari, Ənbiya 54; Müslim, Tövbə 46, 47, 48

Müslimin "Səhih"indəki başqa bir rəvayətə görə:

"Həmin adam yaxşı insanların yaşadığı kəndə bir qarış daha yaxın olduğu üçün oralı sayıldı".

Müslimin "Səhih"indəki başqa bir rəvayətə görə isə:

"Allah-Təala obiri kəndə uzaqlaşmasını, digər kəndə isə yaxınlaşmasını, mələklərə də iki məsafə arasını ölçmələrini əmr etdi. Beləliklə də onun yaxşılar yaşayan kəndə bir qarış daha yaxın olduğu göründü və günahları əfv olundu".

❁

٢٢ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ كَعْبِ بْنِ مَالِكٍ وَكَانَ قَائِدَ كَعْبٍ رَضِيَ اللّٰهُ عَنْهُ مِنْ بَنِيهِ حِينَ عَمِيَ قال: سَمِعْتُ كَعْبَ بْنَ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُ يُحَدِّثُ بِحَدِيثِهِ حِينَ

تَخَلَّفَ عَنْ رَسُولِ اللَّهِ ﷺ فِي غَزْوَةِ تَبُوكَ . قَال كَعْبٌ: لَمْ أَتَخَلَّفْ عَنْ رَسُولِ اللَّهِ ﷺ فِي غَزْوَةٍ غَزَاهَا قَطُّ إِلَّا فِي غَزْوَةِ تَبُوكَ ، غَيْرَ أَنِّي قَدْ تَخَلَّفْتُ فِي غَزْوَةِ بَدْرٍ ، وَلَمْ يُعَاتَبْ أَحَدٌ تَخَلَّفَ عَنْهُ ؛ إِنَّمَا خَرَجَ رَسُولُ اللَّهِ ﷺ وَالْمُسْلِمُونَ يُرِيدُونَ عِيرَ قُرَيْشٍ حَتَّى جَمَعَ اللَّهُ تعَالَى بَيْنَهُمْ وَبَيْنَ عَدُوِّهِمْ عَلَى غَيْرِ مِيعَادٍ. وَلَقَدْ شَهِدْتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ لَيْلَةَ الْعَقَبَةِ حِينَ تَوَاثَقْنَا عَلَى الإِسْلاَمِ ، وَمَا أُحِبُّ أَنَّ لِي بِهَا مَشْهَدَ بَدْرٍ وإِنْ كَانَتْ بَدْرٌ أَذْكَرَ فِي النَّاسِ مِنْهَا . وَكَانَ مِنْ خَبَرِي حِينَ تَخَلَّفْتُ عَنْ رَسُولِ اللَّهِ ﷺ فِي غَزْوَةِ تَبُوكَ أَنِّي لَمْ أَكُنْ قَطُّ أَقْوَى وَلاَ أَيْسَرَ مِنِّي حِينَ تَخَلَّفْتُ عَنْهُ فِي تِلْكَ الْغَزْوَةِ ، وَاللَّهِ مَا جَمَعْتُ قَبْلَهَا رَاحِلَتَيْنِ قَطُّ حَتَّى جَمَعْتُهُمَا فِي تِلْكَ الْغَزْوَةِ، وَلَمْ يَكُنْ رَسُولُ اللَّهِ ﷺ يُرِيدُ غَزْوَةً إِلَّا وَرَّى بِغَيْرِهَا، حَتَّى كَانَتْ تِلْكَ الْغَزْوَةُ فَغَزَاهَا رَسُولُ اللَّهِ ﷺ فِي حَرٍّ شَدِيدٍ؛ وَاسْتَقْبَلَ سَفَرًا بَعِيدًا وَمَفَازًا وَاسْتَقْبَلَ عَدَدًا كَثِيرًا ؛ فَجَلَّى لِلْمُسْلِمِينَ أَمْرَهُمْ لِيَتَأَهَّبُوا أُهْبَةَ غَزْوِهِمْ فَأَخْبَرَهُمْ بِوَجْهِهِمُ الَّذِي يُرِيدُ ؛ وَالْمُسْلِمُونَ مَعَ رَسُولِ اللَّهِ ﷺ كَثِيرٌ وَلاَ يَجْمَعُهُمْ كِتَابٌ حَافِظٌ : (يُرِيدُ بِذَلِكَ الدِّيوَانَ) قَالَ كَعْبٌ : فَقَلَّ رَجُلٌ يُرِيدُ أَنْ يَتَغَيَّبَ إِلَّا ظَنَّ أَنَّ ذَلِكَ سَيَخْفَى بِهِ مَالَمْ يَنْزِلْ فِيهِ وَحْيٌ مِنَ اللَّهِ، وَغَزَا رَسُولُ اللَّهِ ﷺ تِلْكَ الْغَزْوَةَ حِينَ طَابَتْ الثِّمَارُ وَالظِّلاَلُ ، فَأَنَا إِلَيْهَا أَصْعَرُ فَتَجَهَّزَ رَسُولُ اللَّهِ ﷺ وَالْمُسْلِمُونَ مَعَهُ وَطَفِقْتُ أَغْدُو لِكَيْ أَتَجَهَّزَ مَعَهُ فَأَرْجِعُ وَلَمْ أَقْضِ شَيْئًا وَأَقُولُ فِي نَفْسِي أَنَا قَادِرٌ عَلَى ذَلِكَ إِذَا أَرَدْتُ فَلَمْ يَزَلْ يَتَمَادَى بِي حَتَّى اسْتَمَرَّ بِالنَّاسِ الْجِدُّ فَأَصْبَحَ رَسُولُ اللَّهِ ﷺغَادِيًا وَالْمُسْلِمُونَ مَعَهُ وَلَمْ أَقْضِ مِنْ جِهَازِي شَيئًا ثُمَّ غَدَوْتُ فَرَجَعْتُ وَلَمْ أَقْضِ شَيْئًا فَلَمْ يَزَلْ ذَلِكَ يَتَمَادَى بِي حَتَّى أَسْرَعُوا وَتَفَارَطَ الْغَزْوُ فَهَمَمْتُ أَنْ أَرْتَحِلَ فَأُدْرِكَهُمْ فَيَا لَيْتَنِي فَعَلْتُ ثُمَّ لَمْ يُقَدَّرْ ذَلِكَ لِي ، فَطَفِقْتُ إِذَا

خَرَجْتُ فِي النَّاسِ بَعْدَ خُرُوجِ رَسُولِ اللَّهِ ﷺ يَحْزُنُنِي أَنِّي لَا أَرَى لِي أُسْوَةً ، إِلَّا رَجُلًا مَغْمُوصًا عَلَيْهِ فِي النِّفَاقِ أَوْ رَجُلًا مِمَّنْ عَذَرَ اللَّهُ تَعالَى مِنَ الضُّعَفَاءِ ، وَلَمْ يَذْكُرْنِي رَسُولُ اللَّهِ ﷺ حَتَّى بَلَغَ تَبُوكَ فَقَالَ وَهُوَ جَالِسٌ فِي الْقَوْمِ بِتَبُوكَ : «مَا فَعَلَ كَعْبُ بْنُ مَالِكٍ؟» فَقَالَ رَجُلٌ مِنْ بَنِي سَلَمَةَ : يا رَسُولَ اللَّهِ، حَبَسَهُ بُرْدَاهُ وَالنَّظَرُ فِي عِطْفَيْهِ . فَقَالَ لَهُ مُعَاذُ بنُ جَبَلٍ رَضِيَ اللّٰهُ عَنْهُ : بِئْسَ مَا قُلْتَ ! وَاللَّهِ يَا رَسُولَ اللَّهِ ، مَا عَلِمْنَا عَلَيْهِ إِلَّا خَيْرًا ، فَسَكَتَ رَسُولُ اللَّهِ ﷺ . فَبَيْنَا هُوَ عَلَى ذَلِكَ رَأَى رَجُلًا مُبِيضًا يَزُولُ بِهِ السَّرَابُ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : كُنْ أَبَا خَيْثَمَةَ، فَإِذَا هُوَ أَبُو خَيْثَمَةَ الْانْصَارِيُّ وَهُوَ الَّذِي تَصَدَّقَ بِصَاعِ التَّمْرِ حِينَ لَمَزَهُ الْمُنَافِقُونَ قَالَ كَعْبٌ : فَلَمَّا بَلَغَنِي أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَدْ تَوَجَّهَ قَافِلًا مِنْ تَبُوكَ حَضَرَنِي بَثِّي ، فَطَفِقْتُ أَتَذَكَّرُ الْكَذِبَ وَأَقُولُ : بِمَ أَخْرُجُ مِنْ سَخَطِهِ غَدًا ؟ وَأَسْتَعِينُ عَلَى ذَلِكَ بِكُلِّ ذِي رَأْيٍ مِنْ أَهْلِي، فَلَمَّا قِيلَ: إِنَّ رَسُولَ اللَّهِ ﷺ قَدْ أَظَلَّ قَادِمًا زَاحَ عَنِّي الْبَاطِلُ حَتَّى عَرَفْتُ أَنِّي لَمْ أَنْجُ مِنْهُ بِشَيْءٍ أَبَدًا ، فَأَجْمَعْتُ صِدْقَهُ ، وَأَصْبَحَ رَسُولُ اللَّهِ ﷺ قَادِمًا ، وَكَانَ إِذَا قَدِمَ مِنْ سَفَرٍ بَدَأَ بِالْمَسْجِدِ فَرَكَعَ فِيهِ رَكْعَتَيْنِ ثُمَّ جَلَسَ لِلنَّاسِ ، فَلَمَّا فَعَلَ ذَلِكَ جَاءَهُ الْمُخَلَّفُونَ يَعْتَذِرُونَ إِلَيْهِ وَيَحْلِفُونَ لَهُ ، وَكَانُوا بِضْعًا وَثَمَانِينَ رَجُلًا فَقَبِلَ مِنْهُمْ عَلَانِيَتَهُمْ ، وَبَايَعَهُمْ وَاسْتَغْفَرَ لَهُمْ وَوَكَّلَ سَرَائِرَهُمْ إِلَى اللَّهِ تَعَالَى حَتَّى جِئْتُ . فَلَمَّا سَلَّمْتُ تَبَسَّمَ تَبَسُّمَ الْمُغْضَبِ ثُمَّ قَالَ : تَعَالَ ، فَجِئْتُ أَمْشِي حَتَّى جَلَسْتُ بَيْنَ يَدَيْهِ فَقَالَ لِي : «مَا خَلَّفَكَ ؟ أَلَمْ تَكُنْ قَدِ ابْتَعْتَ ظَهْرَكَ» (قَالَ) قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، إِنِّي وَاللَّهِ لَوْ جَلَسْتُ عِنْدَ غَيْرِكَ مِنْ أَهْلِ الدُّنْيَا لَرَأَيْتُ أَنِّي سَأَخْرُجُ مِنْ سَخَطِهِ بِعُذْرٍ ؛ لَقَدْ أُعْطِيْتُ جَدَلًا وَلَكِنَّنِي وَاللَّهِ لَقَدْ عَلِمْتُ لَئِنْ حَدَّثْتُكَ الْيَوْمَ حَدِيثَ كَذِبٍ تَرْضَى بِهِ عَنِّي لَيُوشِكَنَّ اللهُ يُسْخِطُكَ

عَلَيَّ ، وَإِنْ حَدَّثْتُكَ حَدِيثَ صِدْقٍ تَجِدُ عَلَيَّ فِيهِ إِنِّي لأَرْجُو فِيهِ عُقْبَى اللَّهِ عَزَّ وَجَلَّ . وَاللَّهِ مَا كَانَ لِي مِنْ عُذْرٍ ، وَاللَّهِ مَا كُنْتُ قَطُّ أَقْوَى وَلَا أَيْسَرَ مِنِّي حِينَ تَخَلَّفْتُ عَنْكَ . (قَالَ) فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَمَّا هَذَا فَقَدْ صَدَقَ ، فَقُمْ حَتَّى يَقْضِيَ اللَّهُ فِيكَ» . وَسَارَ رِجَالٌ مِنْ بَنِي سَلَمَةَ فَاتَّبَعُونِي فَقَالُوا لِي: وَاللَّهِ مَا عَلِمْنَاكَ أَذْنَبْتَ ذَنْبًا قَبْلَ هَذَا . لَقَدْ عَجَزْتَ فِي أَنْ لَا تَكُونَ اعْتَذَرْتَ إِلَى رَسُولِ اللَّهِ ﷺ بِمَا اعْتَذَرَ بِهِ الْمُخَلَّفُونَ ، فَقَدْ كَانَ كَافِيَكَ ذَنْبَكَ اسْتِغْفَارُ رَسُولِ اللَّهِ ﷺ لَكَ . قَالَ : فَوَاللَّهِ مَا زَالُوا يُؤَنِّبُونَنِي حَتَّى أَرَدْتُ أَنْ أَرْجِعَ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَأُكَذِّبَ نَفْسِي ، ثُمَّ قُلْتُ لَهُمْ : هَلْ لَقِيَ هَذَا مَعِيَ مِنْ أَحَدٍ قَالُوا : نَعَمْ لَقِيَهُ مَعَكَ رَجُلَانِ قَالَا مِثْلَ مَا قُلْتَ ، وَقِيلَ لَهُمَا مِثْلَ مَا قِيلَ لَكَ . (قَالَ) قُلْتُ : مَنْ هُمَا ؟ قَالُوا : مُرَارَةُ بْنُ الرَّبِيعِ الْعَمْرِيُّ ، وَهِلَالُ بْنُ أُمَيَّةَ الْوَاقِفِيُّ ، (قَالَ) : فَذَكَرُوا لِي رَجُلَيْنِ صَالِحَيْنِ قَدْ شَهِدَا بَدْرًا فِيهِمَا أُسْوَةٌ . (قَالَ) فَمَضَيْتُ حِينَ ذَكَرُوهُمَا لِي . وَنَهَى رَسُولُ اللَّهِ ﷺ عَنْ كَلَامِنَا أَيُّهَا الثَّلَاثَةُ مِنْ بَيْنِ مَنْ تَخَلَّفَ عَنْهُ . (قال) فَاجْتَنَبَنَا النَّاسُ أَوْ قَالَ : تَغَيَّرُوا لَنَا حَتَّى تَنَكَّرَتْ لِي فِي نَفْسِي الْأَرْضُ ، فَمَا هِيَ بِالْأَرْضِ الَّتِي أَعْرِفُ ، فَلَبِثْنَا عَلَى ذَلِكَ خَمْسِينَ لَيْلَةً. فَأَمَّا صَاحِبَايَ فَاسْتَكَانَا وَقَعَدَا فِي بُيُوتِهِمَا يَبْكِيَانِ . وَأَمَّا أَنَا فَكُنْتُ أَشَبَّ الْقَوْمِ وَأَجْلَدَهُمْ ، فَكُنْتُ أَخْرُجُ فَأَشْهَدُ الصَّلَاةَ مَعَ الْمُسْلِمِينَ وَأَطُوفُ فِي الأَسْوَاقِ ، وَلَا يُكَلِّمُنِي أَحَدٌ ، وَأَتِي رَسُولَ اللَّهِ ﷺ فَأُسَلِّمُ عَلَيْهِ وَهُوَ فِي مَجْلِسِهِ بَعْدَ الصَّلَاةِ ، فَأَقُولُ فِي نَفْسِي : هَلْ حَرَّكَ شَفَتَيْهِ بِرَدِّ السَّلَامِ أَمْ لَا ؟ ثُمَّ أُصَلِّي قَرِيبًا مِنْهُ وَأُسَارِقُهُ النَّظَرَ ، فَإِذَا أَقْبَلْتُ عَلَى صَلَاتِي نَظَرَ إِلَيَّ وَإِذَا الْتَفَتُّ نَحْوَهُ أَعْرَضَ عَنِّي ، حَتَّى إِذَا طَالَ ذَلِكَ عَلَيَّ مِنْ جَفْوَةِ الْمُسْلِمِينَ مَشَيْتُ حَتَّى تَسَوَّرْتُ جِدَارَ حَائِطِ أَبِي قَتَادَةَ وَهُوَ ابْنُ عَمِّي

وَأَحَبُّ النَّاسِ إِلَيَّ فَسَلَّمْتُ عَلَيْهِ ، فَوَاللَّهِ مَا رَدَّ عَلَيَّ السَّلاَمَ ، فَقُلْتُ لَهُ : يَا أَبَا قَتَادَةَ أَنْشُدُكَ بِاللَّهِ هَلْ تَعْلَمُنِي أُحِبُّ اللَّهَ وَرَسُولَهُ ﷺ؟ فَسَكَتَ ، فَعُدْتُ فَنَاشَدْتُهُ ، فَسَكَتَ فَعُدْتُ فَنَاشَدْتُهُ . فَقَالَ : اَللَّهُ وَرَسُولُهُ أَعْلَمُ . فَفَاضَتْ عَيْنَايَ وَتَوَلَّيْتُ حَتَّى تَسَوَّرْتُ الْجِدَارَ ، فَبَيْنَا أَنَا أَمْشِي فِي سُوقِ الْمَدِينَةِ إِذَا نَبَطِيٌّ مِنْ نَبَطِ أَهْلِ الشَّامِ مِمَّنْ قَدِمَ بِالطَّعَامِ يَبِيعُهُ بِالْمَدِينَةِ يَقُولُ : مَنْ يَدُلُّ عَلَى كَعْبِ بْنِ مَالِكٍ ؟ فَطَفِقَ النَّاسُ يُشِيرُونَ لَهُ إِلَيَّ حَتَّى جَاءَنِي فَدَفَعَ إِلَيَّ كِتَابًا مِنْ مَلِكِ غَسَّانَ، وَكُنْتُ كَاتِبًا . فَقَرَأْتُهُ فَإِذَا فِيهِ : أَمَّا بَعْدُ فَإِنَّهُ قَدْ بَلَغَنَا أَنَّ صَاحِبَكَ قَدْ جَفَاكَ، وَلَمْ يَجْعَلْكَ اللَّهُ بِدَارِ هَوَانٍ وَلَا مَضْيَعَةٍ فَالْحَقْ بِنَا نُوَاسِيكَ . فَقُلْتُ حِينَ قَرَأْتُهَا : وَهَذِهِ أَيْضًا مِنَ الْبَلَاءِ! فَتَيَمَّمْتُ بِهَا التَّنُّورَ فَسَجَرْتُهَا ، حَتَّى إِذَا مَضَتْ أَرْبَعُونَ مِنَ الْخَمْسِينَ، وَاسْتَلْبَثَ الْوَحْيُ إِذَا رَسُولُ رَسُولِ اللَّهِ ﷺ يَأْتِينِي فَقَالَ : إِنَّ رَسُولَ اللَّهِ ﷺ يَأْمُرُكَ أَنْ تَعْتَزِلَ امْرَأَتَكَ ، فَقُلْتُ : أُطَلِّقُهَا أَمْ مَاذَا أَفْعَلُ؟ فَقَالَ : لَا بَلِ اعْتَزِلْهَا فَلَا تَقْرَبَنَّهَا . وَأَرْسَلَ إِلَى صَاحِبَيَّ بِمِثْلِ ذَلِكَ . فَقُلْتُ لامْرَأَتِي : الْحَقِي بِأَهْلِكِ فَكُونِي عِنْدَهُمْ حَتَّى يَقْضِيَ اللَّهُ فِي هَذَا الْأَمْرِ . فَجَاءَتِ امْرَأَةُ هِلَالِ بْنِ أُمَيَّةَ رَسُولَ اللَّهِ ﷺ فَقَالَتْ لَهُ يَا رَسُولَ اللَّهِ ، إِنَّ هِلَالَ بْنِ أُمَيَّةَ شَيْخٌ ضَائِعٌ لَيْسَ لَهُ خَادِمٌ فَهَلْ تَكْرَهُ أَنْ أَخْدُمَهُ ؟ : لَا وَلَكِنْ لَا يَقْرَبَنَّكِ . فَقَالَتْ : إِنَّهُ وَاللَّهِ مَا بِهِ مِنْ حَرَكَةٍ إِلَى شَيْءٍ ، وَوَاللَّهِ مَا زَالَ يَبْكِي مُنْذُ كَانَ مِنْ أَمْرِهِ مَا كَانَ إِلَى يَوْمِهِ هَذَا. فَقَالَ لِي بَعْضُ أَهْلِي : لَوِ اسْتَأْذَنْتَ رَسُولَ اللَّهِ ﷺ فِي امْرَأَتِكَ فَقَدْ أَذِنَ لِامْرَةِ هِلَالِ بْنِ أُمَيَّةَ أَنْ تَخْدُمَهُ . فَقُلْتُ : لَا أَسْتَأْذِنُ فِيهَا رَسُولَ اللَّهِ ﷺ وَمَا يُدْرِينِي مَاذَا يَقُولُ رَسُولُ اللَّهِ ﷺ إِذَا اسْتَأْذَنْتُهُ فِيهَا وَأَنَا رَجُلٌ شَابٌّ ، فَلَبِثْتُ بِذَلِكَ عَشْرَ لَيَالٍ ، فَكَمُلَ لَنَا خَمْسُونَ لَيْلَةً مِنْ حِينَ نُهِيَ عَنْ كَلَامِنَا ، ثُمَّ صَلَّيْتُ

صَلَاةَ الْفَجرِ صَبَاحَ خَمْسِينَ لَيْلَةً عَلَى ظَهْرِ بَيْتٍ مِنْ بُيُوتِنَا ، فَبَيْنَا أَنَا جَالِسٌ عَلَى الْحَالِ الَّتِي ذَكَرَ اللَّهُ تَعَالَى مِنَّا قَدْ ضَاقَتْ عَلَيَّ نَفْسِي وَضَاقَتْ عَلَيَّ الأَرْضُ بِمَا رَحُبَتْ ، سَمِعْتُ صَوْتَ صَارِخٍ أَوْفَى عَلَى سَلْعٍ يَقُولُ بِأَعْلَى صَوْتِهِ : يَا كَعْبَ بْنَ مَالِكٍ ، فَخَرَرْتُ سَاجِدًا وَعَرَفْتُ أَنَّهُ قَدْ جَاءَ فَرَجٌ . فَاٰذَنَ رَسُولُ اللَّهِ ﷺ النَّاسَ بِتَوْبَةِ اللَّهِ عَزَّ وَجَلَّ عَلَيْنَا حِينَ صَلَّى صَلَاةَ الْفَجْرِ ، فَذَهَبَ النَّاسُ يُبَشِّرُوننَا . فَذَهَبَ قِبَلَ صَاحِبَيَّ مُبَشِّرُونَ وَرَكَضَ إِلَيَّ رَجُلٌ فَرَسًا وَسَعَى سَاعٍ مِنْ أَسْلَمَ قِبَلِي وَأَوْفَى عَلَى الْجَبَلِ فَكَانَ الصَّوْتُ أَسْرَعَ مِنَ الْفَرَسِ ، فَلَمَّا جَاءَنِي الَّذِي سَمِعْتُ صَوْتَهُ يُبَشِّرُنِي نَزَعْتُ لَهُ ثَوْبِي فَكَسَوْتُهُمَا إِيَّاهُ بِبُشْرَاهُ ، وَاللَّهِ مَا أَمْلِكُ غَيْرَهُمَا يَوْمَئِذٍ ، وَاسْتَعَرْتُ ثَوْبَيْنِ فَلَبِسْتُهُمَا وَانْطَلَقْتُ أَتَأَمَّمُ رَسُولَ اللَّهِ ﷺ يَتَلَقَّانِي النَّاسُ فَوْجًا فَوْجًا يُهَنِّؤُونَنِي بِالتَّوْبَةِ وَيَقُولُونَ لِي : لِتَهْنِكَ تَوْبَةُ اللَّهِ عَلَيْكَ؛ حَتَّى دَخَلْتُ الْمَسْجِدَ فَإِذَا رَسُولُ اللَّهِ ﷺ جَالِسٌ حَوْلَهُ النَّاسُ ، فَقَامَ طَلْحَةُ بْنُ عُبَيْدِ اللَّهِ رَضِيَ اللّٰهُ عَنْهُ يُهَرْوِلُ حَتَّى صَافَحَنِي وَهَنَّأَنِي . وَاللَّهِ مَا قَامَ رَجُلٌ مِنَ الْمُهَاجِرِينَ غَيْرُهُ ، فَكَانَ كَعْبٌ لَا يَنْسَاهَا لِطَلْحَةَ . قَالَ كَعْبٌ : فَلَمَّا سَلَّمْتُ عَلَى رَسُولِ اللَّهِ ﷺ قَالَ وَهُوَ يَبْرُقُ وَجْهُهُ مِنَ السُّرُورِ : «أَبْشِرْ بِخَيْرِ يَوْمٍ مَرَّ عَلَيْكَ مُذْ وَلَدَتْكَ أُمُّكَ » . فَقُلْتُ : أَ مِنْ عِنْدِكَ يَا رَسُولَ اللَّهِ أَمْ مِنْ عِنْدِ اللَّهِ؟ قَالَ: «لَا بَلْ مِنْ عِنْدِ اللَّهِ عَزَّ وَجَلَّ »، وَكَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا سُرَّ اسْتَنَارَ وَجْهُهُ حَتَّى كَأَنَّ وَجْهَهُ قِطْعَةُ قَمَرٍ ، وَكُنَّا نَعْرِفُ ذَلِكَ مِنْهُ ، فَلَمَّا جَلَسْتُ بَيْنَ يَدَيْهِ قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، إِنَّ مِنْ تَوْبَتِي أَنْ أَخْلِعَ مِنْ مَالِي صَدَقَةً إِلَى اللَّهِ وَإِلَى رَسُولِهِ . فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَمْسِكْ عَلَيْكَ بَعْضَ مَالِكَ فَهُوَ خَيْرٌ لَكَ». فَقُلْتُ : إِنِّي أُمْسِكُ سَهْمِي الَّذِي بِخَيْبَرَ ، وَقُلْتُ : يَا رَسُولَ اللَّهِ ، إِنَّ اللَّهَ تَعَالَى

إِنَّمَا أَنْجَانِي بِالصِّدْقِ ، وَإِنَّ مِنْ تَوْبَتِي أَلَّا أُحَدِّثَ إِلَّا صِدْقًا مَا بَقِيْتُ ، فَوَاللَّهِ مَا عَلِمْتُ أَحَدًا مِنَ الْمُسْلِمِينَ أَبْلَاهُ اللَّهُ تَعَالَى فِي صِدْقِ الْحَدِيثِ مُنْذُ ذَكَرْتُ ذَلِكَ لِرَسُولِ اللَّهِ ﷺأَحْسَنَ مِمَّا أَبْلَانِيَ اللَّهُ تَعَالَى. وَاللَّهِ مَا تَعَمَّدْتُ كِذْبَةً مُنْذُ قُلْتُ ذَلِكَ لِرَسُولِ اللَّهِ ﷺ إِلَى يَوْمِي هَذَا . وَإِنِّي لَأَرْجُو أَنْ يَحْفَظَنِيَ اللَّهُ تَعَالَى فِيمَا بَقِيَ، قَالَ : فَأَنْزَلَ اللَّهُ تعالى : ﴿لَقَدْ تَابَ اللّٰهُ عَلَى النَّبِيِّ وَالْمُهَاجِرِينَ وَالْأَنْصَارِ الَّذِينَ اتَّبَعُوهُ فِي سَاعَةِ الْعُسْرَةِ﴾ حَتَّى بَلَغَ ﴿إِنَّهُ بِهِمْ رَؤُوفٌ رَحِيمٌ . وَعَلَى الثَّلٰثَةِ الَّذِينَ خُلِّفُوا حَتّٰى إِذَا ضَاقَتْ عَلَيْهِمُ الْأَرْضُ بِمَا رَحُبَتْ﴾ حَتَّى بَلَغَ﴿اتَّقُوا اللّٰهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ﴾. قَالَ كَعْبٌ : وَاللَّهِ مَا أَنْعَمَ اللَّهُ عَلَيَّ مِنْ نِعْمَةٍ

قَطُّ بَعْدَ إِذْ هَدَانِيَ اللَّهُ لِلْإِسْلَامِ أَعْظَمَ فِي نَفْسِي مِنْ صِدْقِي رَسُولَ اللَّهِ ﷺ أَلَّا أَكُونَ كَذَبْتُهُ ، فَأَهْلِكَ كَمَا هَلَكَ الَّذِينَ كَذَبُوا : فَإِنَّ اللَّهَ تَعَالَى قَالَ لِلَّذِينَ كَذَبُوا حِينَ أَنْزَلَ الْوَحْيَ شَرَّ مَا قَالَ لِأَحَدٍ فَقَالَ تَعَالَى : ﴿سَيَحْلِفُونَ بِاللّٰهِ لَكُمْ اِذَا انْقَلَبْتُمْ اِلَيْهِمْ لِتُعْرِضُوا عَنْهُمْ فَاَعْرِضُوا عَنْهُمْ اِنَّهُمْ رِجْسٌ وَمَأْوٰيهُمْ جَهَنَّمُ جَزَآءً بِمَا كَانُوا يَكْسِبُونَ ، يَحْلِفُونَ لَكُمْ لِتَرْضَوْا عَنْهُمْ فَاِنْ تَرْضَوْا عَنْهُمْ فَاِنَّ اللّٰهَ لَا يَرْضٰى عَنِ الْقَوْمِ الْفَاسِقِينَ﴾. قَالَ كَعْبٌ : كُنَّا خُلِّفْنَا أَيُّهَا الثَّلَاثَةُ عَنْ أَمْرِ أُولَئِكَ الَّذِينَ قَبِلَ مِنْهُمْ رَسُولُ اللَّهِ ﷺ حِينَ حَلَفُوا لَهُ ، فَبَايَعَهُمْ وَاسْتَغْفَرَ لَهُمْ وَأَرْجَأَ رَسُولُ اللَّهِ ﷺ أَمْرَنَا حَتَّى قَضَى اللَّهُ تَعَالَى فِيهِ بِذَلِكَ . قَالَ اللَّهُ تعالى ﴿وَعَلَى الثَّلٰثَةِ الَّذِينَ خُلِّفُوا﴾ وَلَيْسَ الَّذِي ذَكَرَ اللَّهُ مِمَّا خُلِّفْنَا تَخَلُّفَنَا عَنِ الْغَزْوِ وَإِنَّمَا هُوَ تَخْلِيفُهُ إِيَّانَا وَإِرْجَاؤُهُ أَمْرَنَا عَمَّنْ حَلَفَ لَهُ وَاعْتَذَرَ إِلَيْهِ فَقَبِلَ مِنْهُ . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ فِي غَزْوَةِ تَبُوكَ يَوْمَ الْخَمِيسِ ، وَكَانَ يُحِبُّ أَنْ يَخْرُجَ يَوْمَ الْخَمِيسِ .

وَفِي رِوَايَةٍ وَكَانَ لَا يَقْدُمُ مِنْ سَفَرٍ إِلَّا نَهَارًا فِي الضُّحَى ، فَإِذَا قَدِمَ بَدَأَ بِالْمَسْجِدِ فَصَلَّى فِيهِ رَكْعَتَيْنِ ثُمَّ جَلَسَ فِيهِ» .

❁

22. Kab bin Malik *radiyallahu anh* gözlərini itirdiyi vaxt onu əlindən tutaraq aparıb-gətirmə vəzifəsini öz üstünə götürən oğlu Abdullahdan rəvayət edildiyinə görə o belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə Təbuk Qəzvəsi səfərbərliyinə qatılmadığı üçün başına gələn hadisələri danışarkən Kab bin Malik *radiyallahu anhın* belə dediyini eşitdim:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* getdiyi döyüşlərdən yalnız Təbuk Qəzvəsində iştirak etməmişdim. Düzdür, Bədir döyüşündə də iştirak etməmişdim. Bədirdə iştirak etmədiyi üçün heç kimi qınamamışdılar. O vaxt Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə müsəlmanlar (döyüş üçün deyil) Qüreyş karvanını təqib etmək üçün yola çıxmışdılar. Nəhayət, Allah-Təala müsəlmanlarla düşmənləri aralarında heç bir qərar olmadığı halda qarşılaşdırdı. Halbuki mən Aqabə beyətinin[5] baş tutduğu gecə İslama yardım etmək üzrə söz verərkən Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanında idim. İnsanların gözündə hər nə qədər Bədir döyüşü Aqabədən daha məşhur olsa da, mən Bədirdə iştirak etməyi Əqəbədən üstün tutmaram.

Rəsulullah *səllallahu əleyhi və səlləmlə* birlikdə Təbuk Qəzvəsinə getməməyim belə oldu:

Mən iştirak etmədiyim bu qəzvə ərəfəsində o qədər zəngin oldum ki, ogünə qədər misli görülməmişdi. Vallahi, Təbuk Qəzvəsinə qədər heç vaxt iki dəvəm olmamışdı. Bu qəzvə ərəfəsində iki minik dəvəm vardı. Bir də Rəsulullah *səllallahu əleyhi və səlləm* döyüşə və ya qəzvəyə hazırlaşarkən hədəfi söyləməz, insanlar elə zənn edərdi ki, başqa yerə gedəcək. Lakin bu yürüş yayın istisində çox uzağa olacağı üçün, eyni

5. Aqabə beyəti Hz. Peyğəmbərin Mədinəyə hicrətindən əvvəl oraya hicrət etdikləri zaman özünü və digər müsəlmanları qoruyacaqlarına dair mədinəli müsəlmanlarla sözləşməsidir.

zamanda böyük düşmən gücü ilə qarşılaşılacağına görə Rəsuli-Əkrəm məsələni açdı. Döyüşə hazırlaşmaları üçün müsəlmanlara hara gedəcəklərini söylədi. Rəsulullahla birlikdə döyüşə gedəcək müsəlmanların sayı həddən artıq çox idi. Adlarını dəftərə yazmaq mümkün deyildi.

Kab sözünə belə davam etdi:

Döyüşə getməmək üçün gözdən itən adam haqqında ayə nazil olmadıqca işin gizli qalacağı zənn edilə bilərdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* bu qəzvəyə səfərbərliyi meyvələrin yetişdiyi, insanların kölgəlik axtardığı qızmar yay mövsümündə elan etmişdi. Mən də saydıqlarıma həddən artıq düşkün adam idim. Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə əshabı döyüş hazırlıqlarına başladılar. Mən də onlarla birlikdə döyüşə hazırlaşmaq adı ilə çıxır, lakin heç nə etmədən geri qayıdırdım. Öz-özümə "Nə vaxt olsa hazırlaşaram", - deyirdim. Beləliklə günlər gəlib keçdi. Hamı işinə ciddi yanaşdı və bir gün səhər erkəndən müsəlmanlar Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə yola çıxdılar. Mənsə hələ hazır deyildim. Yenə səhər evdən çıxdım, heç nə etmədən geri qayıtdım. Hər dəfə eyni şeyi edirdim. Hələ döyüş başlamamışdı, amma mücahidlər xeyli yol qət etmişdilər. Yola çıxıb onlara çatmaq istədim (kaş elə edəydim), amma bunu da edə bilmədim. Rəsulullah *səllallahu əleyhi və səlləm* gedəndən sonra camaatın arasına çıxanda məni ən çox kədərləndirən məsələ döyüşə getməyib geridə qalanların münafiqlər, yaxud da acizliklərinə görə orduya qatılmayanlar olduğunu görmək idi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* Təbuka çatana qədər adımı heç çəkməmişdi. Təbukda əshabı ilə birlikdə oturduğu zaman:

"- **Kab bin Malik nə etdi?" -** deyə soruşduqda Bəni-Səlimə qəbiləsindən bir nəfər:

- Ya Rəsulallah, libasına və sağına-soluna baxıb qürurlanması onu Mədinədə qalmağa vadar etdi,- cavabını vermişdi.

Bu zaman Muaz bin Cəbəl ona:

- Çox pis söz söylədin,- demiş, sonra da Hz. Peyğəmbərə baxaraq: "Ya Rəsulallah, biz onun haqqında ancaq yaxşı şeylər bilirik", demişdi. Rəsulullah *səllallahu əleyhi və səlləmsə* heç nə demədən sükut etmişdi. Bu əsnadaçox uzaqdan ağ paltarlar geyinmiş bir nəfərin gəldiyini görüb:

"- Bu Əbu Heysəmə olaydı", -demişdi. Yaxınlaşdığı zaman gələnin Əbu Heysəmə əl-Ənsari olduğunu görmüşlər.

Əbu Heysəmə (bir döyüşə səfərbərlik zamanı) bir ölçək xurma gətirdiyinə görə münafiqlər tərəfindən məsxərəyə qoyulan adamdır.

Kab sözlərinə belə davam etdi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* Təbukdan Mədinəyə hərəkət etdiyini öyrəndiyim zaman qüssə məni bürüdü. Deyəcəyim yalan barədə fikirləşməyə başladım. Öz-özümə "sabah onun qəzəbindən necə xilas olacağam", - dedim. Fikrinə dəyər verdiyim yaxınlarımdan ağıl almağa çalışdım. Rəsulullah *səllallahu əleyhi və səlləmin* gəlmək üzrə olduğunu dedikləri zaman beynimdəki pis fikirlər dağıldı. Onun əlindən heç cür xilas ola bilməyəcəyimi başa düşdüm. Hər şeyi olduğu kimi deməyə qərar verdim. Həzrət Peyğəmbər səhər vaxtı Mədinəyə gəldi. Səfərdən qayıdanda əvvəlcə Məscidi-Nəbəviyə gedərək iki rükət namaz qılar, sonra camaatın arasına qatılaraq oturardı. Yenə elə etdi. Bu zaman orduya qatılmayanlar hüzuruna gələrək nə üçün döyüşə getmədiklərini and içərək deməyə başladılar. Onların sayı səksəndən çox idi. Hz. Peyğəmbər onların üzrünü qəbul etdi, beyətlərini aldı. Allah-Təalaya dua edərək bağışlanmalarını dilədi və iç üzlərini Ona həvalə etdi. Sonda mən gəldim. Salam verdim, küskün-küskün gülümsədi, sonra:

"- Gəl!" -dedi.Mən də addımlayaraq yanına getdim və qarşısında oturdum. Məndən soruşdu:

"- Nə üçün döyüşə getmədin? Minik heyvanı almamışdın?" Mən bu cavabı verdim:

- Ya Rəsulallah, Allaha and olsun ki, səndən başqa kimin yanında olsaydım, irəli sürəcəyim səbəblərlə onun qəzəbindən xilas olardım. Çünki fikrimi insanlara qəbul etdirməyi yaxşı bacarıram. Lakin yenə and içirəm ki, bu gün sənə yalan deyərək könlünü qazansam da, sabah Haqq-Təala işin əslini sənə bildirəcək və sən məndən inciyəcəksən. Əgər düzünü desəm, mənə hirslənəcəksən. Amma mən düzünü deyəcəyəm. Allahdan işin xeyirlə nəticələnəcəyini gözləyirəm. Vallahi, döyüşə getməmək üçün heç bir üzrüm yox idi. Heç vaxt da bu döyüşdən geri qaldığım günlərdəki qədər güclü və varlı olmamışam.

Bu cavabdan sonra Hz. Peyğəmbər:

"- Bax, bu düzünü dedi. Haydı qalx, Allah-Təala sənin haqqında hökm verənə qədər gözlə!" - buyurdu. Mən ayağa qalxanda Bəni-Səlimədən bəzi adamlar yanıma gəlib:

- Vallahi, sənin daha əvvəl bir günah işlədiyini bilmirik. Orduya qatılmayanlar kimi heç bir üzr irəli sürmədin. Halbuki günahlarının bağışlanması üçün Peyğəmbər *səllallahu əleyhi və səlləmin* istiğfar etməsi kifayət idi, -dedilər.

Kab sözünə belə davam etdi:

Məni o qədər qınadılar ki, hətta Rəsulullahın yanına qayıdıb, bir az əvvəl dediklərimin yalan olduğunu söyləmək barəsində düşündüm. Sonra onlara:

- Mənə verilən cəza ilə cəzalandırılan başqa kimsə varmı? - deyə sorudum.

- Bəli. Sənin kimi cəzalandırılan iki nəfər də var,- dedilər. Onlar da sənin dediyini dedilər və eyni cavabı aldılar.

- Həmin iki nəfər kimdir? - deyə soruşdum.

- Biri Mürarə bin Rəbi əl-Amri, digəri isə Hilal bin Ümeyyə əl-Vaqifi,- deyərək hər ikisi Bədir döyüşündə iştirak edən iki nümunəvi şəxsin adını çəkdilər. Bu zaman mən geri qayıtmaq fikrindən daşınaraq yoluma davam etdim.

Rəsulullah *səllallahu əleyhi və səlləm* səfərbərliyə qatılmayanlardan yalnız üçümüzlə danışmağı qadağan etdi. Camaat bizimlə danışmadı və bizə qarşı rəftarları dəyişdi. Hətta mənə yer üzü dəyişmiş kimi gəldi. Sanki bura mənim yurdum deyildi. Bu minvalla əlli gün keçdi. İki dostum boynunu bükdü, ağlayaraq evdə oturdular. Mən isə onlardan daha gənc və dözümlü idim. Evdən çıxaraq camaatla namaza gedir, bazarda dolaşırdım. Lakin heç kim mənimlə danışmırdı. Namaz qılındıqdan sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* yerində oturarkən yanına gedib salam verirdim. Öz-özümə "görəsən, salamımı alarkən dodaqları tərpəndimi, yoxsa yox", - deyə sual verirdim. Sonra ona yaxın yerdə namaz qılar və hiss etdirmədən Rəsulullaha baxardım. Namaza başladığım zaman mənə tərəf çevrilər, ona baxdığım zaman da üzünü çevirərdi.

Müsəlmanların mənə qarşı sərt rəftarı uzun müddət davam etdikdə, ən çox sevdiyim adam, əmim oğlu Əbu Qatadənin bağçasına girib divardan içəri tullandım və salam verdim. Vallahi, salamımı almadı. Ondan:

- Ey Əbu Qatadə, Allaha and verərək soruşuram. Allahı və Rəsulunu nə qədər sevdiyimi bilmirsənmi? - deyə soruşdum. Heç bir cavab vermədi. And verərək bir daha soruşdum. Yenə cavab vermədi. Bir daha and verəndə:

- Allah və Rəsulu daha yaxşı bilir,- dedi. Bu cavab qarşısında gözlərimdən yaşlar töküldü. Geri qayıdıb divardan obiri tərəfə tullandım.

Bir gün Mədinə bazarında gəzirdim. Mədinəyə ərzaq malları satmaq üçün gələn şamlı bir kəndli:

- Kab bin Maliki mənə kim göstərər? - deyə soruşdu. Camaat məni göstərdi. Yanıma gələrək **Qəssan məlikin**dən gətirdiyi məktubu mənə uzatdı. Oxuyub-yaza bildiyimə görə məktubu açıb oxudum. Salam verdikdən sonra belə deyirdi:

- Eşitdiyimizə görə ağan səni incidir. Allah səni qiymətinin bilinmədiyi və haqqının tapdandığı bir yerdə yaşamağın üçün yaratmamışdır. Dərhal yanımıza gəl, səni izzətləndirək.

Məktubu oxuduqda "bu da başqa bir bəla" dedim. Dərhal oda atıb yandırdım.

Nəhayət, əlli gündən qırxı keçmiş, amma hələ vəhy gəlməmişdi. Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləmin* göndərdiyi bir nəfər gəldi və:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* sənə yoldaşından ayrı qalmağı əmr edir,- dedi.

- Onu boşayım, yoxsa necə? - deyə sual verdim.

- Xeyr, ondan ayrı duracaq, yanına yaxınlaşmayacaqsan,- dedi. Hz. Peyğəmbər digər iki dostuma da eyni əmri göndərdi. Xanımıma:

- Allah-Təala bu məsələ haqqında hökm verənə qədər ailənin yanına get və onların yanında qal,- dedim.

Hilal bin Ümeyyənin yoldaşı Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gedərək:

- Ya Rəsulallah, Hilal bin Ümeyyə çox yaşlıdır. Ona baxacaq xidmətçi də yoxdur. Ona xidmət etməyimdə hər hansı bir qəbahət görürsünüzmü? - deyə soruşdu. Hz. Peyğəmbər də:

- Xeyr, bir qəbahət görmürəm, amma qətiyyən sənə yaxınlaşmasın,- buyurdu. Qadın da belə deyir:

- Vallahi, onun qımıldamağa taqəti yoxdur. Allaha and olsun ki, başına bu iş gələndən elə hey ağlayır.

Kab sözünə belə davam etdi:

- Yaxınlarımdan biri mənə: Rəsulullah *səllallahu əleyhi və səlləmdən* yoldaşının sənə xidmət etməsi üçün izin alsan olmaz? Görürsənmi, Hilal bin Ümeyyəyə baxması üçün yoldaşına izin verdi,- dedi. Mən də cavabında: Xeyr, bu məsələdə Rəsulullah *səllallahu əleyhi və səlləmdən* izin

istəyə bilmərəm. Üstəlik gəncəm, izin istəsəm də Peyğəmbər *səllallahu əleyhi və səlləmin* mənə nə deyəcəyini bilmirəm,- dedim.

Beləcə on gün də gözlədim. Bizimlə danışmağın qadağan edildiyi gündən tam **əlli gün** keçmişdi. Əllinci gecənin səhəri evlərimizdən birinin damında sübh namazını qıldım. Allah-Təalanın (Qurani-Kərimdə) bizdən bəhs etdiyi kimi ürəyim sıxılmış, yer üzü geniş olmasına baxmayaraq mənə dar gəlməyə başlamışdı. Bu vəziyyətdə oturarkən Sel dağının təpəsində bir nəfərin var gücü ilə:

"Kab bin Malik, müjdə!" - deyərək qışqırdığını eşitdim. Məşəqqətdən qurtulma gününün gəldiyini anlayaraq dərhal səcdəyə qapandım.

Rəsulullah *səllallahu əleyhi və səlləm* sübh namazını qıldırdıqdan sonra Allah-Təalanın tövbəmizi qəbul etdiyini elan etmişdi. Camaat da bizə xoş xəbəri verməyə tələsmişdi. Digər iki dostuma da müjdəçilər getmişdi.Bunlardan biri mənə tərəf at çapmışdı.

Əsləm qəbiləsindən başqa bir adam qaçaraq Sel dağına çıxmış, onun səsi atlıdan əvvəl mənə çatmışdı. Səsini eşitdiyim müjdəçi yanıma gəlib məni təbrik edəndə əynimdəki paltarı çıxarıb ona (muştuluq) verdim. Allaha and olsun ki, o gün əynimə geyinəcək başqa paltarım da yox idi. Əmanət bir paltar tapıb əynimə geyindim. Peyğəmbər *səllallahu əleyhi və səlləmi* görmək üçün yola çıxdım. Qrup-qrup məni qarşılayan səhabələr tövbəmin qəbul edilməsi səbəbi ilə təbrik edir və "Allahın səni bağışlaması mübarək olsun", - deyirdilər.

Nəhayət, məscidə girdim. Rəsulullah *səllallahu əleyhi və səlləm* əshabının ortasında oturmuşdu. Talha bin Übeydullah dərhal ayağa qalxdı, qaçaraq yanıma gəldi, əlimi sıxıb məni təbrik etdi. Vallahi, ondan başqa mühacirlərdən heç kim ayağa qalxmadı.

Ravi deyir ki, Kab Talhanın bu davranışını heç vaxt unutmamışdır.

Kab sözünə belə davam etdi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmə* salam verdiyim vaxt sevincdən üzü parıldayaraq:

- **"Dünyaya gəldiyindən bəri yaşadığın bu ən xeyirli günün mübarək olsun!" -** deyə buyurdu. Mən də:

- Ya Rəsulallah, bu təbrik sənin tərəfindəndir, yoxsa Allah tərəfindən, - deyə soruşdum.

- “Mənim tərəfimdən deyil, Uca Allah tərəfindəndir”, - buyurdu. Peyğəmbər *səllallahu əleyhi və səlləm* sevindiyi zaman üzü parıldayar, ay parçasına bənzəyərdi. Biz də bu halından sevindiyini başa düşərdik.

Rəsuli-Əkrəmin qarşısında oturduğum zaman:

- Ya Rəsulallah, tövbəmin qəbul edilməsinə şükür olaraq bütün malımı Allah və Rəsulunun uğrunda kasıblara paylamaq istəyirəm,- dedim. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **“Malının bir hissəsini paylamayıb əlində saxlamağın sənin üçün daha xeyirli olar”, -** deyə buyurdu. Mən də:

- Xeybərin fəthində əlimə keçən malı saxlayıram,- dedikdən sonra sözümə belə davam etdim: “Ya Rəsulallah, düz danışdığıma görə Allah-Təala məni xilas etdi. Tövbəmin qəbul edilməsi səbəbi ilə artıq yaşadığım müddət ərzində düz danışacağam”.

Vallahi bunu Peyğəmbər *səllallahu əleyhi və səlləmə* dediyim gündən bəri düz sözlü olduğum üçün Allah-Təalanın heç kimi məndən daha gözəl mükafatlandırdığını bilmirəm. And olsun ki, Peyğəmbər *səllallahu əleyhi və səlləmə* o sözləri dediyim gündən bəri bilərək əsla yalan danışmamışam. Ömrümün qalan hissəsində də Allah-Təalanın məni yalan söyləməkdən qoruyacağını ümid edirəm.

Kab sözünün davamında belə dedi:

Bunun üzərinə Allah-Təala bu ayələri nazil etdi:

“Allah (müsəlmanlardan) **bir qisminin ürəyi** (şəkk-şübhəyə düşüb Peyğəmbərdən və cihaddan) **dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun arxasında gedən mühacirlərə və ənsara tövbə nəsib etdi. Sonra da onların tövbələrini qəbul buyurdu** (onları bağışladı). **Çünki O, həqiqətən, onlara qarşı çox şəfqətli, çox rəhimlidir.**

Həmçinin tövbələri (Allahın əmri gələnə qədər) **geri qalan üç nəfərin də** (tövbələrini qəbul etdi). **Belə ki, dünya onlara dar olmuş, ürəkləri** (qəm-qüssədən) **təngə gəlib sıxılmışdı. Onlar Allahdan** (Allahın əzabından) **yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir!**

Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) **doğru olanlarla olun!** (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!)**”** (Tövbə surəsi, 117-119)

Kab sözünə belə davam etdi:

Allaha and olsun ki, mən İslamla şərəfləndikdən sonra Allah-Təalanın mənə verdiyi ən böyük nemət Həzrət Peyğəmbərin hüzurunda düz danışmaq və yalan deyərək həlak olmamaqdır. Çünki Allah-Təala həmin yalan söyləyənlər haqqında vəhy nazil etdiyi zaman heç kimə demədiyi ağır sözləri söylədi və belə buyurdu:

"Yanlarına qayıtdığınız zaman onlardan vaz keçməniz (onları məzəmmət etməməniz) **üçün** (yalandan) **Allaha and içəcəklər. Siz də onlardan vaz keçin!** (Qoyun qiyamət günü əzabı daha şiddətli olacaq küfr və nifaqlarında davam etsinlər!) **Çünki onlar murdardırlar və qazandıqlarının** (qazandıqları günahların) **cəzası olaraq düşəcəkləri yer də Cəhənnəmdir! Onlardan razı olasınız deyə, qarşınızda** (Allaha) **and içəcəklər. Siz onlardan razı olsanız da, Allah fasiq bir tayfadan razı olmaz!"** (Tövbə surəsi, 95-96)

Kab belə davam etdi:

Biz üç yoldaşın bağışlanması Peyğəmbər *səllallahu əleyhi və səlləmin* andlarını qəbul edib beyətlərini aldığı və Allahdan əfv edilmələrini istədiyi kimsələrin bağışlanmasından (əlli gün) gecikmişdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* Allahın haqqımızda hökm verməsinə qədər bizə qarşı necə rəftar edəcəyini təxir etmişdi.

Nəhayət, Allah-Təala (dediyimiz kimi) hökmünü verdi. Allah-Təalanın "tövbələri geri qalan üç nəfərin" deyərək bəhs etdiyi bu geri qalmaq bizim döyüşdən geri qalmağımız deyildi. Bu, Hz. Peyğəmbərin yanına gəlib and içərək üzrlü səbəbləri olduğunu deyənlərin üzrlərini Peyğəmbər *səllallahu əleyhi və səlləmin* qəbul etməsi, bizə nə edəcəyini geriyə (sonraya) buraxması hadisəsidir.

Buxari, Məğazi, 79; Müslim, Tövbə 53. Həmçinin bax. Tirmizi, Təfsiru surə 9

Başqa bir rəvayət belədir:

"Rəsulullah *səllallahu əleyhi və səlləm* Təbuk Qəzvəsinə cümə axşamı günü çıxmışdı. Səfərə cümə axşamı günü çıxmağı sevərdi".

Buxari, Cihad 103

Digər bir rəvayətdə isə:

"Səfərdən mütləq gündüz duha vaxtı qayıdardı. Qayıdarkən də ilk işi məscidə gedib iki rükət namaz qılmaq, sonra da orada oturmaq olardı", - deyilir.

Müslim, Müsafirin 74; Əbu Davud, Cihad 166

٢٣ ـ عَنْ أَبِي نُجَيْدٍ عِمْرَانَ بْنِ الْحُصَيْنِ الْخُزَاعِيِّ رَضِيَ اللّٰهُ عَنْهُمَا أَنَّ امْرَأَةً مِنْ جُهَيْنَةَ أَتَتْ رَسُولَ اللَّهِ ﷺ وَهِيَ حُبْلَى مِنَ الزِّنَى فَقَالَتْ : يَا رَسُولَ اللَّهِ ، أَصَبْتُ حَدًّا فَأَقِمْهُ عَلَيَّ ، فَدَعَا نَبِيُّ اللَّهِ ﷺ وَلِيَّهَا فَقَالَ : أَحْسِنْ إِلَيْهَا ، فَإِذَا وَضَعَتْ فَأْتِنِي فَفَعَلَ فَأَمَرَ بِهَا نَبِيُّ اللَّهِ ﷺ فَشُدَّتْ عَلَيْهَا ثِيَابُهَا ثُمَّ أَمَرَ بِهَا فَرُجِمَتْ ثُمَّ صَلَّى عَلَيْهَا . فَقَالَ عُمَرُ : تُصَلِّي عَلَيْهَا يَا رَسُولَ اللَّهِ ، وَقَدْ زَنَتْ؟ قَالَ: لَقَدْ تَابَتْ تَوْبَةً لَوْ قُسِمَتْ بَيْنَ سَبْعِينَ مِنْ أَهْلِ الْمَدِينَةِ لَوَسِعَتْهُمْ . وَهَلْ وَجَدْتَ أَفْضَلَ مِنْ أَنْ جَادَتْ بِنَفْسِهَا لِلَّهِ عَزَّ وَجَلَّ». رَوَاهُ مُسْلِمٌ .

23. Əbu Nüceyd İmran bin Husayn əl-Hüzai *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Cüheynə qəbiləsindən zina edərək hamilə qalmış bir qadın Peyğəmbər *səllallahu əleyhi və səlləmin* hüzuruna gəldi və:

- Ya Rəsulallah, cəzaya layiq günah işlədim. Cəzamı ver,- dedi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* həmin qadının vəlisini çağırtdıraraq ona:

- **"Bu qadınla xoş rəftar et. Uşağını doğduqdan sonra yanıma gətir", -** buyurdu.

O, Rəsulullahın buyurduğuna əməl edərək uşağını dünyaya gətirdikdən sonra qadını gətirdi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* qadının paltarını üstünə yaxşı-yaxşı bağlamalarını əmr etdi. Möhkəm bağladılar. Sonra Rəsulullah *səllallahu əleyhi və səlləmin* əmri ilə daş-qalaq edilərək öldürüldü. Daha sonra Rəsuli-Əkrəm qadının cənazə namazını qıldı.

Hz. Ömər soruşdu:

- Ya Rəsulallah, zina edən bir qadının cənazə namazını qılırsan? Hz. Peyğəmbər belə buyurdu:

- **"O qadın elə tövbə etdi ki, əgər onun tövbəsi Mədinə əhalisindən yetmiş nəfər arasında bölünsəydi, hamısına kifayət edərdi. Sən Allah-Təalanın rizasını qazanmaq üçün can verməkdən daha üstün bir şeyin olduğunu bilirsənmi?"**

Müslim, Hudud 24. Həmçinin bax. Əbu Daavud, Hudud 24; Nəsai, Cənaiz, 64

٢٤ ـ عَنِ ابْنِ عَبَّاسٍ وَأَنَسِ بْنِ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُمْ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ : «لَوْ أَنَّ لِابْنِ اٰدَمَ وَادِيًا مِنْ ذَهَبٍ أَحَبَّ أَنْ يَكُونَ لَهُ وَادِيانِ ، وَلَنْ يَمْلَأَ فَاهُ اِلَّا التُّرَابُ وَيَتُوبُ اللَّهُ عَلَى مَنْ تَابَ» . مُتَّفَقٌ عَلَيْهِ.

24. İbn Abbas və Ənəs bin Malik *radiyallahu anhumdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsan oğlunun bir vadi dolusu qızılı olsa, ikinci vadisinin də olmasını istəyər. Onun ağzını torpaqdan başqa heç nə doldurmaz. Ancaq Allah tövbə edənin tövbəsini qəbul edər".

Buxari, Riqaq 10; Müslim, Zəkat 116-119; Həmçinin bax. Tirmizi, Zöhd 27; Mənaqib 32, 64; İbn Macə, Zöhd 27

❁

٢٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يَضْحَكُ اللَّهُ سُبْحَانَهُ وَتَعَالَى إِلَى رَجُلَيْنِ يَقْتُلُ اَحَدُهُمَا الْاٰخَرَ ، يَدْخُلَانِ الْجَنَّةَ ، يُقَاتِلُ هَذَا فِي سَبِيلِ اللَّهِ فَيُقْتَلُ ، ثُمَّ يَتُوبُ اللَّهُ عَلَى الْقَاتِلِ فَيُسْلِمُ فَيُسْتَشْهَدُ». مُتَّفَقٌ عَلَيْهِ .

25. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Biri digərini öldürən və hər ikisi də cənnətə girən iki nəfərdən Allah xoşnud olar. Bunlardan biri Allah yolunda döyüşərkən digəri tərəfindən öldürülər. Qatil olan da daha sonra tövbə edər, müsəlman olar, o da Allah yolunda döyüşərkən şəhid düşər".

Buxari, Cihad 28; Müslim, İmarə 128, 129; Həmçinin bax. Nəsai, Cihad 38; İbn Macə, Müqəddimə 13

SƏBİR

Ayələr

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا اصْبِرُوا وَصَابِرُوا .

1. "Ey iman gətirənlər! (Dində vacib olan hökmləri yerinə yetirməyin zəhmətinə, düçar olduğunuz bəlalara) **səbir edin,** (Allahın düşmənlərinə qələbə çalmaq uğrundakı müharibə və döyüşlərdə sizə üz verən müsibət və çətinliklərə) **dözün!"** (Ali-İmran, 200)

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِنْ الْخَوْفِ وَالْجُوعِ وَنَقْصٍ مِنَ الْاَمْوَالِ وَالْاَنْفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ.

2. "Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) **və məhsul qıtlığı ilə imtahan edərik.** (Ya Rəsulum! Belə imtahanlara) **səbir edən şəxslərə müjdə ver!"** (əl-Bəqərə, 155)

اِنَّمَا يُوَفَّى الصَّابِرُونَ اَجْرَهُمْ بِغَيْرِ حِسَابٍ .

3. "Yalnız (dünyada Allah yolunda çətinliklərə) **səbir edənlərə** (axirətdə) **saysız-hesabsız mükafat veriləcəkdir!"** (əz-Zumər, 10)

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا اسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلٰوةِ اِنَّ اللّٰهَ مَعَ الصَّابِرِينَ .

4. "Əlbəttə, hər kəs (pisliyə) **səbir edib** (qisası) **bağışlasa, (onun bu hərəkəti şəriətcə) çox bəyənilən əməllərdəndir!"** (əş-Şura, 43)

وَلَنَبْلُوَنَّكُمْ حَتّٰى نَعْلَمَ الْمُجَاهِدِينَ مِنْكُمْ وَالصَّابِرِينَ .

5. "Ey iman gətirənlər! Səbir və dua ilə (namazla Allahdan) **kömək diləyin. Çünki Allah səbir edənlərlədir** (onların dostudur)**".** (əl-Bəqərə, 153)

وَلَنَبْلُوَنَّكُمْ حَتّٰى نَعْلَمَ الْمُجَاهِدِينَ مِنْكُمْ وَالصَّابِرِينَ .

6. "And olsun ki, Biz içərinizdəki mücahidləri və (əziyyətlərə) **səbir edənləri ayırd edib bilmək** (ümmətə məlum etmək) **üçün sizi imtahana çəkəcək və sizə dair xəbərləri** (əməllərinizi) **də yoxlayacağıq".** (Muhammməd, 31)

Hədislər

٢٦ـ عَنْ أَبِي مَالِكٍ الْحَارِثِ بْنِ عَاصِمٍ الْأَشْعَرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ : «اَلطُّهُورُ شَطْرُ الإِيمَانِ وَالْحَمْدُ لِلَّهِ تَمْلَأُ الْمِيزَانَ ، وَسُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ تَمْلَاٰنِ أَوْ تَمْلَأُ مَا بَيْنَ السَّمَوَاتِ وَالأَرْضِ ، وَالصَّلَاةُ نُورٌ ، وَالصَّدَقَةُ بُرْهَانٌ ، وَالصَّبْرُ ضِيَاءٌ ، وَالْقُرْاٰنُ حُجَّةٌ لَكَ أَوْ عَلَيْكَ. كُلُّ النَّاسِ يَغْدُو فَبَائِعٌ نَفْسَهُ فَمُعْتِقُهَا أَوْ مُوبِقُهَا». رَوَاهُ مُسْلِمٌ .

26. Əbu Malik Haris bin Asim əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

"Təmizlik imanın yarısıdır. Əlhəmdulillah duası mizanı[6], sübhanallah və əlhəmdulillah sözləri isə yer ilə göyün arasını savabla doldurur. Namaz nurdur, sədəqə bürhandır, səbir ziyadır. Quran ya sənin lehinə, yaxud da əleyhinə dəlildir. Hər kəs səhər (bazara çıxar) **nəfsini satar. Kimisi onu azad edər, kimisi də həlak edər".**

Müslim, Təharət 1. Həmçinin bax. Tirmizi, Dəavat 86

❁

٢٧ ـ عَنْ أَبِي سَعِيدٍ سَعْدِ بْنِ مَالِكِ بْنِ سِنَانٍ الْخُدْرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُمَا، أَنَّ نَاسًا مِنَ الْأَنْصَارِ سَأَلُوا رَسُولَ اللَّهِ ﷺ فَأَعْطَاهُمْ ، ثُمَّ سَأَلُوهُ فَأَعْطَاهُمْ ، حَتَّى نَفِدَ مَا عِنْدَهُ فَقَالَ لَهُمْ حِينَ أَنْفَقَ كُلَّ شَيْءٍ بِيَدِهِ : « مَا يَكُنْ مِنْ خَيْرٍ فَلَنْ اَدَّخِرَهُ عَنْكُمْ ، وَمَنْ يَسْتَعْفِفْ يُعِفَّهُ اللَّهُ ، وَمَنْ يَسْتَغْنِ يُغْنِهِ اللَّهُ ، وَمَنْ يَتَصَبَّرْ يُصَبِّرْهُ اللَّهُ . وَمَا أُعْطِيَ اَحَدٌ عَطَاءً خَيْراً وَاَوْسَعَ مِنَ الصَّبْرِ» . مُتَّفَقٌ عَلَيْهِ.

27. Əbu Said Sad bin Malik bin Sinan əl-Xudri *radiyallahu anhumədən* nəql edildiyinə görə bir qrup mədinəli müsəlman Rəsulullah *səllallahu*

6. Qiyamət günü hər kəsin dünyada ikən işlədiyi yaxşı və pis əməllərinin çəkiləcəyi və dəyərləndiriləcəyi mənəvi tərəzi.

əleyhi və səlləmdən (onlara vermək üçün nə isə) istədilər. O da verdi. Sonra yenə istədilər. Rəsulullah *səllallahu əleyhi və səlləm* əlindəkilər qurtarana qədər verdi. Vermək üçün heç nə qalmayanda onlara belə buyurdu:

"Yanımda nə isə olsaydı, onu sizdən əsirgəmədən verərdim. Kim dilənməkdən çəkinər, iffətli davranarsa, Allah onun iffətini artırar. Kim toxgözlü olmaq istəyərsə, Allah onu başqalarına möhtac olmaqdan xilas edər. Hər kim səbir etməyə can atarsa, Allah ona səbir verər. Heç kimə səbirdən daha xeyirli və böyük əta bəxş edilməmişdir".

Buxari, Zəkat 50; Riqaq 20; Müslim, Zəkat 124. Həmçinin bax. Əbu Davud, Zəkat 28; Tirmizi, Birr 77; Nəsai, Zəkat 85

❁

٢٨ - عَنْ أَبِي يَحْيَى صُهَيْبِ بْنِ سِنَانٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ ﷺ: «عَجَبًا لِأَمْرِ الْمُؤْمِنِ ! إِنَّ أَمْرَهُ كُلَّهُ لَهُ خَيْرٌ وَلَيْسَ ذَلِكَ لِأَحَدٍ إِلَّا لِلْمُؤْمِنِ: إِنْ أَصَابَتْهُ سَرَّاءُ شَكَرَ فَكَانَ خَيْرًا لَهُ ، وَإِنْ أَصَابَتْهُ ضَرَّاءُ صَبَرَ فَكَانَ خَيْرًالَهُ » . رَوَاهُ مُسْلِمٌ .

28. Əbu Yəhya Süheyb bin Sinan *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Möminin halı təəccüb doğurur. Çünki onun hər halı xeyrinədir. Belə bir xüsusiyyət yalnız möminə xasdır. Sevinsə, şükür edər, bu onun xeyrinədir. Başına bir bəla gəlsə, səbir edər, bu da onun xeyrinədir".

Müslim, Zöhd 64

❁

٢٩ - عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: لَمَّا ثَقُلَ النَّبِيُّ ﷺ جَعَلَ يَتَغَشَّاهُ الْكَرْبُ فَقَالَتْ فَاطِمَةُ رَضِيَ اللّٰهُ عَنْهَا : وَاكَرْبَ أَبَتَاهُ ! فَقَالَ: «لَيْسَ عَلَى أَبِيكَ كَرْبٌ بَعْدَ الْيَوْمِ» فَلَمَّا مَاتَ قَالَتْ: «يَا أَبَتَاهُ ، أَجَابَ رَبًّا دَعَاهُ ، يَا أَبَتَاهُ جَنَّةُ الْفِرْدَوْسِ مَأْوَاهُ، يَا أَبَتَاهُ، إِلَى جِبْرِيلَ نَنْعَاهُ» فَلَمَّا دُفِنَ قَالَتْ فَاطِمَةُ رَضِيَ اللّٰهُ عَنْهَا : «أَطَابَتْ أَنْفُسُكُمْ أَنْ تَحْثُوا عَلَى رَسُولِ اللّٰهِ ﷺ التُّرَابَ ؟» . رَوَاهُ الْبُخَارِيُّ .

29. Ənəs bin Malik *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmin* xəstəliyi ağırlaşanda iztirabı artdı. Onun bu halını görən Fatimə *radiyallahu anhə*:

- Vay, atacan, necə də iztirab çəkirsən! - dedi. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- "(Qızım)**, bu gündən sonra atan əziyyət çəkməyəcək", -** buyurdu.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* vəfat etdikdən sonra bu səfər Fatimə *radiyallahu anhə*:

- Allahın dəvətini qəbul edib gedən atam, vay, məkanı Firdövs cənnəti olan atam, vay, qara xəbərini yalnız dostu Cəbrayılla bölüşəcəyimiz atam, vay,- deyərək ağladı.

Rəsulullah *səllallahu əleyhi və səlləmin* dəfnindən sonra da Hz. Fatimə kədərini belə dilə gətirdi:

"Rəsulullahın üstünə (tələm-tələsik) torpaq atmağa əliniz necə gəldi? Qəlbiniz buna necə razı oldu?"

Buxari, Məğazi 83. Həmçinin bax. İbn Macə, Cənaiz 65

❁

٣٠ ـ عَنْ أَبِي زَيْدٍ أُسَامَةَ بْنِ زَيْدِ بْنِ حَارِثَةَ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ وَحِبِّهِ وَابْنِ حِبِّهِ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: أَرْسَلَتْ بِنْتُ النَّبِيِّ ﷺ إِنَّ ابْنِي قَدْ احْتُضِرَ فَاشْهَدْنَا ، فَأَرْسَلَ يُقْرِئُ السَّلَامَ وَيَقُولُ : «إِنَّ لِلَّهِ مَا أَخَذَ وَلَهُ مَا أَعْطَى ، وَكُلُّ شَيْءٍ عِنْدَهُ بِأَجَلٍ مُسَمًّى ، فَلْتَصْبِرْ وَلْتَحْتَسِبْ» . فَأَرْسَلَتْ إِلَيْهِ تُقْسِمُ عَلَيْهِ لَيَأْتِيَنَّهَا . فَقَامَ وَمَعَهُ سَعْدُ بْنُ عُبَادَةَ ، وَمُعَاذُ بْنُ جَبَلٍ ، وَأُبَيُّ بْنُ كَعْبٍ ، وَزَيْدُ بْنُ ثَابِتٍ ، وَرِجَالٌ رَضِيَ اللّٰهُ عَنْهُمْ ، فَرُفِعَ إِلَى رَسُولِ اللَّهِ ﷺ الصَّبِيُّ فَأَقْعَدَهُ فِي حِجْرِهِ وَنَفْسُهُ تَقَعْقَعُ ، فَفَاضَتْ عَيْنَاهُ . فَقَالَ سَعْدٌ : يَا رَسُولَ اللَّهِ ، مَا هَذَا؟ فَقَالَ : «هَذِهِ رَحْمَةٌ جَعَلَهَا اللَّهُ تَعَالَى فِي قُلُوبِ عِبَادِهِ» .

وَفِي رِوَايَةٍ «فِي قُلُوبِ مَنْ شَاءَ مِنْ عِبَادِهِ ، وَإِنَّمَا يَرْحَمُ اللَّهُ مِنْ عِبَادِهِ الرُّحَمَاءَ» .

مُتَّفَقٌ عَلَيْهِ .

30. Rəsulullah *səllallahu əleyhi və səlləmin* azad etdiyi köləsi, dostu və dostunun oğlu olan Əbu Zeyd Usamə bin Zeyd bin Harisə *radiyallahu anhumədən* nəql edildiyinə görə belə demişdir:

Qızı (Zeynəb) Nəbi *səllallahu əleyhi və səlləmə* xəbər göndərdi:

- Oğlum ölmək üzrədir, lütfən bizə gəlin. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Alan da, verən də Allahdır. Onun qatında hər şeyin müəyyən bir vaxtı var. Səbir etsin və əcrini Allahdan gözləsin", -** buyuraraq qızına salam göndərdi.

Bu cavabdan sonra qızı Nəbi *səllallahu əleyhi və səlləmə*:

- Nə olar, mütləq gəlsin,- deyə yenidən xəbər göndərdi.

Bu dəfə Peyğəmbər *səllallahu əleyhi və səlləm* Sad bin Übadə, Muaz bin Cəbəl, Übeyy bin Kab, Zeyd bin Sabit və başqa səhabələrlə birlikdə qızının yanında getdi. Uşağı Hz. Peyğəmbərə verdilər, qucağına aldı. Zavallı uşaq çətinliklə nəfəs alırdı. Rəsulullah *səllallahu əleyhi və səlləmin* gözündən yaşlar axmağa başladı.

Bu hadisəni müşahidə edən Sad bin Übadə:

- Ey Allahın Rəsulu, bu nə haldır? - deyə soruşdu. Nəbi *səllallahu əleyhi və səlləm* də:

- **"Bu, Allahın qullarının qəlbinə qoyduğu mərhəmət duyğusudur", -** buyurdu.

Hədisin başqa rəvayətində Hz. Peyğəmbər **"Bu, Allahın (yalnız) istədiyi qullarının qəlbinə qoyduğu bir rəhmətdir. Zatən Allah yalnız mərhəmətli qullarına rəhmət edər", -** buyurmuşdur.

Buxari, Cənaiz 33; Müslim Cənaiz 11. Həmçinin bax. Buxari, Əymən 9, Mərda 9, Tövhid 25; Əbu Davud, Cənaiz 24; Nəsai, Cənaiz 22; İbn Macə, Cənaiz 53

❁

٣١ ـ عَنْ صُهَيْبٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ:«كان مَلِكٌ فِيمَنْ كَانَ قَبْلَكُمْ وَكَانَ لَهُ سَاحِرٌ فَلَمَّا كَبِرَ قَالَ لِلْمَلِكِ : إِنِّي قَدْ كَبِرْتُ فَابْعَثْ إِلَيَّ غُلاَمًا أُعَلِّمْهُ السِّحْرَ ؛ فَبَعَثَ إِلَيْهِ غُلاَمًا يُعَلِّمُهُ وَكَانَ فِي طَرِيقِهِ ـ إِذَا سَلَكَ ـ

رَاهِبٌ ، فَقَعَدَ إِلَيْهِ وَسَمِعَ كَلاَمَهُ فَأَعْجَبَهُ ، وَكَانَ إِذَا أَتَى السَّاحِرَ مَرَّ بِالرَّاهِبِ وَقَعَدَ إِلَيْهِ ، فَإِذَا أَتَى السَّاحِرَ ضَرَبَهُ ، فَشَكَا ذَلِكَ إِلَى الرَّاهِبِ فَقَالَ : إِذَا خَشِيتَ السَّاحِرَ فَقُلْ: حَبَسَنِي أَهْلِي وإِذَا خَشِيتَ أَهلَكَ فَقُلْ: حَبَسَنِي السَّاحِرُ فَبَيْنَمَا هُوَ عَلَى ذَلِكَ اِذْ أَتَى عَلَى دَابَّةٍ عَظِيمَةٍ قَدْ حَبَسَتِ النَّاسَ فَقَالَ: الْيَوْمَ أَعْلَمُ السَّاحرُ أَفْضَلُ أمِ الرَّاهبُ أفْضَلُ؟ فَأَخَذَ حَجَرًا فَقَالَ: اَللَّهُمَّ إِنْ كَانَ أَمْرُ الرَّاهِبِ أَحَبَّ إِلَيْكَ مِنْ أَمْرِ السَّاحِرِ فَاقْتُلْ هَذِهِ الدَّابَّةَ حَتَّى يَمْضِيَ النَّاسُ فَرَمَاهَا فَقَتَلَهَا وَمَضَى النَّاسُ ، فَأَتَى الرَّاهِبَ ، فَأَخْبَرَهُ . فَقَالَ لَهُ الرَّاهِبُ: أَيْ بُنَيَّ ، أَنْتَ الْيَوْمَ أَفْضَلُ مِنِّي ، قَدْ بَلَغَ مِنْ أَمْرِكَ مَا أَرَى . وَإِنَّكَ سَتُبْتَلَى ، فَإِنِ ابْتُلِيتَ فَلاَ تَدُلَّ عَلَيَّ. وَكَانَ الْغُلاَمُ يُبْرِئُ ٱلأَكْمَهَ وَٱلأَبْرَصَ ، وَيُدَاوِي النَّاسَ مِنْ سَائِرِ ٱلأَدْوَاءِ . فَسَمِعَ جَلِيسٌ لِلْمَلِكِ كَانَ قَدْ عَمِيَ فَأَتَاهُ بِهَدَايَا كَثِيرَةٍ فَقَالَ : مَا هٰهُنَا لَكَ أَجْمَعُ إِنْ أَنْتَ شَفَيْتَنِي فَقَالَ: إِنِّي لَا أَشْفِي أحدًا، إِنّما يَشْفي اللَّهُ تعالى، فإنْ اٰمَنْتَ باللَّه تعالى دَعَوْتُ اللَّهَ فَشَفَاكَ ، فاٰمَنَ بِاللَّهِ تَعَالَى فَشَفَاهُ اللَّهُ تَعَالَى ، فَأَتَى الْمَلِكَ فَجَلَسَ إِلَيْهِ كَمَا كَانَ يَجْلِسُ . فَقَالَ لَهُ الْمَلِكُ : مَنْ رَدَّ عَلَيْكَ بَصَرَكَ؟ قَالَ: رَبِّي قَالَ: أوَ لَكَ رَبٌّ غَيْرِي؟ قَالَ: رَبِّي وَرَبُّكَ اللَّهُ: فَأَخَذَهُ فَلَمْ يَزَلْ يُعَذِّبُهُ حَتَّى دَلَّ عَلَى الْغُلاَمِ ، فَجِيءَ بِالْغُلاَمِ فَقَالَ لَهُ الْمَلِكُ : أَي بُنَيَّ ، قَدْ بَلَغَ مِنْ سِحْرِكَ مَا تُبْرِئُ ٱلأَكْمَهَ وَٱلأَبْرَصَ ، وَتَفْعَلُ وَتَفْعَلُ! فَقَالَ: إِنِّي لاَ أَشْفِي أَحَدًا ؛ إِنَّمَا يَشْفِي اللهُ تَعالَى. فَأَخَذَهُ فَلَمْ يَزَلْ يُعَذِّبُهُ حَتَّى دَلَّ عَلَى الرَّاهِبِ ؛ فَجِيءَ بِالرَّاهِبِ فَقِيلَ لَهُ : ارْجِعْ عَنْ دِينِكَ ، فَأَبَى ، فَدَعَا بِالْمِنْشَارِ ، فَوُضِعَ الْمِنْشَارُ فِي مَفْرِقِ رَأْسِهِ فَشَقَّهُ حَتَّى وَقَعَ شِقَّاهُ ، ثُمَّ جِيءَ بِجَلِيسِ الْمَلِكِ فَقِيلَ لَهُ : ارْجِعْ عَنْ دِينِكَ ، فَأَبَى ، فَوُضِعَ الْمِنْشَارُ فِي مَفْرِقِ رَأْسِهِ ، فَشَقَّهُ بِهِ ، حَتَّى وَقَعَ شِقَّاهُ، ثُمَّ جِيءَ

بِالْغُلاَمِ فَقِيلَ لَهُ: ارْجِعْ عَنْ دِينِكَ ، فَأَبَى ، فَدَفَعَهُ إِلَى نَفَرٍ مِنْ أَصْحَابِهِ فَقَالَ: اذْهَبُوا بِهِ إِلَى جَبَلِ كَذَا وَكَذَا فاصْعَدُوا بِهِ الْجَبَلَ ، فَإِذَا بَلَغْتُمْ ذِرْوَتَهُ فَإِنْ رَجَعَ عَنْ دِينِهِ وَإِلَّا فاطْرَحُوهُ. فَذَهَبُوا بِه فَصَعَدُوا بِهِ الْجَبَلَ فَقَالَ: اَللَّهُمَّ اكْفِنِيهِم بِمَا شِئْتَ فَرَجَفَ بِهِمُ الْجَبَلُ ، فَسَقَطُوا وَجَاءَ يَمْشِي إِلَى الْمَلِكِ ، فَقَالَ لَهُ الْمَلِكُ : مَا فَعَلَ أَصْحَابُكَ؟ فَقَالَ: كَفَانِيهِمُ اللهُ تعالَى، فدَفَعَهُ إِلَى نَفَرٍ مِنْ أَصْحَابِهِ فَقَالَ: اذْهَبُوا بِهِ فاحْمِلُوهُ فِي قُرْقُورٍ وَتَوَسَّطُوا بِهِ الْبَحْرَ فَإِنْ رَجَعَ عَنْ دِينِهِ وَإِلَّا فاقْذِفُوهُ. فَذَهَبُوا بِهِ ، فَقَالَ: اللَّهُمَّ : اكْفِنِيهِمْ بِمَا شِئْتَ ، فانْكَفَأَتْ بِهِمُ السَّفِينَةُ فَغَرِقُوا ، وَجَاءَ يَمْشِي إِلَى الْمَلِكِ . فَقَالَ لَهُ الْمَلِكُ: مَافَعَلَ أَصْحَابُكَ؟ فقَالَ: كَفَانِيهِمُ اللَّهُ تَعَالَى. فَقَالَ لِلْمَلِكِ : إِنَّكَ لَسْتَ بِقَاتِلِي حَتَّى تَفْعَلَ مَا اٰمُرُكَ بِهِ . قَالَ : مَا هُوَ؟ قَالَ : تَجْمَعُ النَّاسَ فِي صَعِيدٍ وَاحِدٍ ، وَتَصْلُبُنِي عَلَى جِذْعٍ ، ثُمَّ خُذْ سَهْمًا مِنْ كِنَانَتِي ثُمَّ ضَعِ السَّهْمَ فِي كَبِدِ الْقَوْسِ ثُمَّ قُلْ: بِسْمِ اللَّهِ رَبِّ الْغُلاَمِ ، ثُمَّ ارْمِنِي فَإِنَّكَ إِذَا فَعَلْتَ ذَلِكَ قَتَلْتَنِي ، فَجَمَعَ النَّاسَ فِي صَعِيدٍ وَاحِدٍ وَصَلَبَهُ عَلَى جِذْعٍ ، ثُمَّ أَخَذَ سَهْمًا مِنْ كِنَانَتِهِ ، ثُمَّ وَضَعَ السَّهْمَ فِي كَبِدِ الْقَوْسِ ثُمَّ قَالَ: بِسْمِ اللهِ رَبِّ الْغُلاَمِ ، ثُمَّ رَمَاهُ فَوَقَعَ السَّهْمُ فِي صُدْغِهِ فَوَضَعَ يَدَهُ فِي صُدْغِهِ فَمَاتَ . فَقَالَ النَّاسُ: «اٰمَنَّا بِرَبِّ الْغُلاَمِ» فَأُتِيَ الْمَلِكُ فَقِيلَ لَهُ: أَرَأَيْتَ مَا كُنْتَ تَحْذَرُ قَدْ وَاللَّهِ نَزَلَ بِكَ حَذَرُكَ. قَدْ اٰمَنَ النَّاسُ. فَأَمَرَ بِالأُخْدُودِ بِأَفْوَاهِ السِّكَكِ فَخُدَّتْ وَأُضْرِمَ فِيهَا النِّيرَانُ وَقَالَ: مَنْ لَمْ يَرْجِعْ عَنْ دِينِهِ فَأَقْحِمُوهُ فِيهَا ، أَوْ قِيلَ لَهُ اقْتَحِمْ فَفَعَلُوا حَتَّى جَاءَتْ امْرَأَةٌ وَمَعَهَا صَبِيٌّ لَهَا ، فَتَقَاعَسَتْ أَنْ تَقَعَ فِيهَا، فَقَالَ لَهَا الْغُلاَمُ. يَا أُمَّهِ اصْبِرِي فَإِنَّكِ عَلَى الْحَقِّ». رَوَاهُ مُسْلِمٌ .

31. Suheyb Rumi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Sizdən əvvəl yaşayan ümmətlər içində bir kral, bir də sehrbazı vardı. Sehrbaz yaşlandığı zaman krala dedi:

- Mən artıq qocaldım, yanıma gənc bir adam göndər, ona sehrbazlığı öyrədim.

Kral da onun yanına gənc bir oğlan göndərdi. Gəncin yolunun üstündə bir rahib vardı. Gənc ona baş çəkdi, yanında (bir müddət) oturdu, dediklərini dinlədi və bəyəndi. Hər dəfə sehrbazın yanına gedəndə rahibə baş çəkər və bir az onunla vaxt keçirdərdi. Serhbaz gecikməyinin səbəbini soruşar və onu döyərdi. Gənc bu halı rahibə şikayət etdi. O da belə dedi:

- Sehrbazdan qorxanda gecikməyinin səbəbinin evdəkilər olduğunu, evdəkilərdən qorxanda da sehrbaza görə gecikdiyini de.

Gənc bu minvalla davam edərkən bir gün yolda insanların keçməsinə mane olan böyük və yırtıcı bir heyvanla qarşılaşdı. Öz-özünə: “Sehrbazın, yoxsa rahibin üstün olduğunu indi öyrənəcəyəm”, - deyərək yerdən bir daş götürdü və: “Ey Allahım, rahibin etdiklərini sehrbazın etdiklərindən daha çox sevirsənsə, bu heyvanı öldür ki, insanlar yollarına davam etsinlər”, -deyib daşı heyvana atdı. Heyvan öldü. Camaat da yoluna davam etdi. Sonra gənc rahibin yanına gəlib baş verənləri ona danışdı. Rahib:

- Ey gənc, artıq sən məndən daha üstünsən. Sən gördüyüm mərtəbəyə yüksəlmisən. Mənə elə gəlir ki, bu yaxınlarda bir bəlaya düçar olacaqsan. Elə bir şey olsa, əsla mənim olduğum yeri heç kimə demə! - dedi.

Gənc anadangəlmə korları, dəri xəstəliyinə tutulanları və digər xəstəlikləri sağaldırdı. Bu əsnada kralın kor olan bir yaxını bu barədə eşitdi və qiymətli hədiyyələrlə gəncin yanına getdi və belə dedi:

- Əgər məni sağaltsan bu gətirdiklərimin hamısı sənin olacaq,- dedi.

Gənc:

- Mən heç kimə şəfa vermirəm. Şəfanı yalnız Allah-Təala verir. Əgər Uca Allaha inansan, mən Ona dua edərəm, o da (istəyərsə) sənə şəfa verər,- dedi.

Həmin adam iman gətirdi, Allah-Təala da ona şəfa verdi. Əvvəlki kimi yenə kralın yanına gedib məclisdəki yerini tutdu. Kral gözünü kimin sağaltdığını soruşdu. O da:

- Rəbbim,- cavabını verdi.

Kral:

- Sənin məndən başqa rəbbin var? - deyərək özündən çıxdı.

O:

- Mənim də, sənin də rəbbin Allahdır,- dedi.

Qəzəblənən kral onu zindana saldı və gəncin yerini öyrənənə qədər işgəncə verdi. Nəhayət, o da gəncin yerini dedi. Gənci kralın hüzuruna gətirdilər. Kral ondan soruşdu:

- Ey gənc, deməli, sənin sehrbazlığın korları və dəri xəstələrini sağaldacaq dərəcəyə çatıb. Eşitdiyimə görə böyük işlər görürsən, elədir?

Gənc:

- Xeyr, mən heç kimə şəfa verə bilmərəm. Şəfanı verən Allahdır,- dedi.

Kral gənci həbs etdirdi və rahibin yerini deyənə qədər ona işgəncə verdi. Nəhayət, rahib gətirildi və dinindən dönməsini təklif etdilər. Rahib təklifi qəbul etmədi. Belə olan təqdirdə kral mişar gətizdirdi və rahibin başının ortasından iki yerə böldürdü. Rahibin bədəni iki yerə ayrılıb hərəsi bir tərəfə düşdü. Sonra kralın adamını gətirdilər. Ona da dinindən dönməsini təklif etdilər, amma qəbul etmədi. Kral onu da mişarla başının ortasından iki yerə böldürdü. Sonra gənci gətirdilər və "dinindən dön (yoxsa öləcəksən", -deyə hədə-qorxu gəldilər. Lakin gənc dinindən dönmədi. Kral gənci öz adamlarından bir qrupa verərək onları belə təlimatlandırdı:

- Bunu görünən dağın təpəsinə çıxardın, dinindən dönsə əla, dönməsə oradan aşağı yuvarlayın.

Gənci dağın təpəsinə çıxardılar.

Gənc:

"Allahım, məni bunların əlindən istədiyin kimi xilas et!" - deyə dua etdi. Dağ lərzəyə gəldi və kralın adamları aşağı yuvarlandılar. Gənc sağ-salamat kralın yanına qayıtdı. Kral yanındakılara nə olduğunu soruşdu.

Gənc:

- Allah məni onların əlindən qurtardı,- dedi.

Kral gənci adamlarından başqa bir qrupa təslim etdi və:

- Bunu Qurqur adlı gəmiyə mindirib dənizin ortasına aparın. Dinindən dönsə, əla, dönməsə dənizə atın, boğulsun,- dedi.

Gənci götürüb apardılar. O:

"Allahım, məni bunların əlindən istədiyin kimixilas et!" - deyə dua etdi.

Gəmi içindəkilərlə birlikdə batdı, hamısı boğuldu. Gənc sağ-salamat kralın yanına qayıtdı.

Kral onu gördükdə:

- Yanındakılara nə oldu? - deyə soruşdu.

Gənc:

- Allah məni onların əlindən qurtardı, -dedi və əlavə etdi:

- Sənə deyəcəklərimi etməsən məni öldürə bilməyəcəksən.

Kral soruşdu:

Nədir deyəcəklərin?

Gənc:

- Camaatı geniş bir meydana topla. Məni də xurma kötüyünə bağla. Sadağımdan bir ox götür, yayın tən ortasına qoy. Sonra "Gəncin rəbbinin adı ilə" de və at. Ancaq belə edərək məni öldürə bilərsən,- dedi.

Kral əhalini geniş bir meydana topladı. Gənci xurma kötüyünə bağladı. Sonra onun sadağından bir ox götürdü. "Gəncin rəbbinin adı ilə" deyib oxu atdı. Ox gəncin gicgahına dəydi. Gənc əlini gicgahına qoydu və oradaca öldü.

Bu mənzərə qarşısında əhali:

- Biz gəncin rəbbinə iman gətirdik,- dedi.

Vəziyyəti krala çatdıraraq:

- Gördünmü, qorxduğun başına gəldi, əhali iman gətirdi,- dedilər.

Kral küçələrin başında böyük xəndəklər qazılmasını əmr etdi. Xəndəklərdə tonqallar yandırıldı.

Kral:

- Bu yeni dindən dönməyən hər kəsi zorla tonqala atın (yaxud özlərini tonqala atmağa məcbur edin),- dedi.

Əmrini yerinə yetirdilər. Ən sonda qucağındakı uşağı ilə birlikdə bir qadın gəldi. Bir ara tonqala atılmaqda tərəddüd edər kimi oldu, səndələdi. Uşaq:

- "Anacan, səbir et, çünki sən haqq yoldasan!" - dedi (beləliklə anasını cəsarətləndirdi).

Müslim, Zöhd 73

❁

٣٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : مَرَّ النَّبِيُّ ﷺ عَلَى امْرَأَةٍ تَبْكِي عِنْدَ قَبْرٍ فَقَالَ: «اتَّقِي اللَّهَ وَاصْبِرِي» فَقَالَتْ : إِلَيْكَ عَنِّي ؛ فَإِنَّكَ لَمْ تُصَبْ بِمُصِيبَتِي ، وَلَمْ تَعْرِفْهُ ، فَقِيلَ لَهَا : إِنَّهُ النَّبِيُّ ﷺ فَأَتَتْ بَابَ النَّبِيِّ ﷺ فَلَمْ تَجِدْ عِنْدَهُ بَوَّابِينَ فَقَالَتْ : لَمْ أَعْرِفْكَ . فَقَالَ : «إِنَّمَا الصَّبْرُ عِنْدَ الصَّدْمَةِ الأُولَى». مُتَّفَقٌ عَلَيْهِ .

32. Əbəs bin Malikdən rəvayət olunduğuna görə Nəbi *səllallahu əleyhi və səlləm* övladının məzarı başında (şivənlə) ağlayan bir qadının yanından keçdi.

Ona:

- **"Allahdan qorx və səbir et!" -** buyrudu.

Qadın:

- Məndən uzaqlaş, mənim başıma gələn sənin başına gəlməyib,- dedi.

Qadın Hz. Peyğəmbəri tanımamışdı. Ona bu adamın Rəsulullah *səllallahu əleyhi və səlləm* olduğunu dedilər. Bunu eşidən kimi Peyğəmbər *səllallahu əleyhi və səlləmin* qapısına qaçdı, orada qapıçılar yox idi. (Üzrxahlıq etmək üçün Hz. Peyğəmbərə):

- Sizi tanıya bilmədim,- dedi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Səbir fəlakətlə qarşılaşdığın ilk anda ediləndir", -** buyurdu.

Buxari, Cənaiz 32, 43; Əhkam 11; Müslim, Cənaiz 14-15.
Həmçinin bax. Əbu Davud, Cənaiz 23; Tirmizi, Cənaiz 13; Nəsai, Cənaiz 22

٣٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ : «يَقُولُ اللَّهُ تَعَالَى : مَا لِعَبْدِي الْمُؤْمِنِ عِنْدِي جَزَاءٌ إِذَا قَبَضْتُ صَفِيَّهُ مِنْ أَهْلِ الدُّنْيَا ثُمَّ احْتَسَبَهُ إِلَّا الْجَنَّةَ». رَوَاهُ الْبُخَارِيُّ .

33. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* "Allah-Təala belə buyurdu", - demişdi:

"Dünyada sevdiyi bir dostunu aldığım zaman (səbir edib) əcrini Allahdan gözləyən mömin qulumun Mənim qatımda mükafatı cənnətdir".

Buxari, Riqaq 6

❁

٣٤ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَا أَنَّهَا سَأَلَتْ رَسُولَ اللَّهِ ﷺعَنِ الطَّاعُونِ ، فَأَخْبَرَهَا أَنَّهُ كَانَ عَذَابًا يَبْعَثُهُ اللَّهُ تَعَالَى عَلَى مَنْ يَشَاءُ ، فَجَعَلَهُ اللَّهُ تَعَالَى رَحْمَةً لِلْمُؤْمِنِينَ، فَلَيْسَ مِنْ عَبْدٍ يَقَعُ فِي الطَّاعُونِ فَيَمْكُثُ فِي بَلَدِهِ صَابِرًا مُحْتَسِبًا، يَعْلَمُ أَنَّهُ لَا يُصِيبُهُ إِلَّا مَا كَتَبَ اللَّهُ لَهُ، إِلَّا كَانَ لَهُ مِثْلُ أَجْرِ الشَّهِيدِ». رَوَاهُ الْبُخَارِيُّ .

34. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmdən* taun / vəba xəstəliyi haqqında soruşmuş, o da belə buyurmuşdu:

"Taun xəstəliyi Allah-Təalanın dilədiyi insanları cəzalandırdığı əzab növü idi. Allah onu möminlər üçün rəhmət qıldı. Ona görə də tauna yoluxan bir qul başına gələnə səbir edərək və əcrini Allahdan gözləyərək olduğu yerdə qalmağa davam edər və başına yalnız Allahın təqdir etdiyi şeyin gələcəyini bilərsə, ona şəhid savabı verilər".

Buxari, Tibb 31; Həmçinin bax. Buxari, Ənbiya 54; Qədər 15; Müslim, Salam 92-95

❁

٣٥ ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ : إِنَّ اللَّهَ عَزَّ وَجَلَّ قَالَ: إِذَا ابْتَلَيْتُ عَبْدِي بِحَبِيبَتَيْهِ فَصَبَرَ عَوَّضْتُهُ مِنْهُمَا الْجَنَّةَ». يُرِيدُ عَيْنَيْهِ. رَوَاهُ الْبُخَارِيُّ .

35. Ənəs bin Malik *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini demişdir:

"Allah-Təala buyurur ki, "qulumun iki gözünü kor edərək sınağa çəkdiyim zaman səbir edərsə, gözlərinin əvəzində ona cənnəti verərəm".

Buxari, Mərda 7; Həmçinin bax. Tirmizi, Zöhd 58

❁

٣٦ ـ عَنْ عَطَاءِ بْنِ أَبِي رَبَاحٍ قَالَ : قَالَ لِي ابْنُ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا : أَلَا أُرِيكَ امْرَأَةً مِنْ أَهْلِ الْجَنَّةِ؟ فَقُلْتُ : بَلَى . قَالَ : هَذِهِ الْمَرْأَةُ السَّوْدَاءُ أَتَتِ النَّبِيَّ ﷺ فَقَالَتْ: إِنِّي أُصْرَعُ وَإِنِّي أَتَكَشَّفُ فَادْعُ اللَّهَ تَعَالَى لِي قَالَ: إِنْ شِئْتِ صَبَرْتِ وَلَكِ الْجَنَّةُ ، وَإِنْ شِئْتِ دَعَوْتُ اللَّهَ تَعَالَى أَنْ يُعَافِيَكِ» فَقَالَتْ: أَصْبِرُ . فَقَالَت إِنِّي أَتَكَشَّفُ ، فَادْعُ اللَّهَ أَلَّا أَتَكَشَّفَ فَدَعَا لَهَا». مُتَّفَقٌ عَلَيْهِ .

36. Ata bin Əbi Rəbahdan belə dediyi rəvayət olunmuşdur:

Abdullah bin Abbas *radiyallahu anhumə* mənə:

- Sənə cənnətlik bir qadın göstərimmi? - dedi. Mən:

- Bəli, göstər,- dedim.

İbn Abbas belə dedi:

- O (iri cüssəli) qara qadını görürsən, bax həmin qadın (bir gün) Nəbi *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Mən sara xəstəliyindən (epilepsiyadan) əziyyət çəkirəm. Üst-başım açılır. Sağalmağım üçün Allaha dua edin,- dedi.

Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Əgər səbir edərsənsə, sənin üçün cənnət var. Amma yenə də istəyirsənsə, sənə şəfa verməsi üçün Allaha dua edim", -** buyurdu.

Bu cavabı alan qadın:

- Mən xəstəliyimə səbir edərəm. Ancaq sara (epilepsiya) tutduğu zaman üst-başımın açılmaması üçün dua edin,- dedi.

Nəbi *səllallahu əleyhi və səlləm* də ona dua etdi.

Buxari, Mərda 6; Müslim, Birr 54

❁

٣٧ ـ عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: كَأَنِّي أَنْظُرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ يَحْكِي نَبِيًّا مِنَ الْأَنْبِيَاءِ صَلَوَاتُ اللَّهِ وَسَلَامُهُ عَلَيْهِمْ، ضَرَبَهُ قَوْمُهُ فَأَدْمَوْهُ، وَهُوَ يَمْسَحُ الدَّمَ عَنْ وَجْهِهِ وَهُوَ يَقُولُ: اَللَّهُمَّ اغْفِرْ لِقَوْمِي فَإِنَّهُمْ لَا يَعْلَمُونَ». مُتَّفَقٌ عَلَيْهِ.

37. Əbu Əbdürrəhman Abdullah bin Məsud *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* göndərildiyi qövm tərəfindən döyülərək üzü qanadılan, bir tərəfdən üzünün qanını silən, digər tərəfdən də **"Ey Allahım qövmümü bağışla, çünki onlar bilmirlər"** deyən peyğəmbərlər haqqında söz açması hələ də gözümün önündədir.

Buxari, Ənbiya 54. Həmçinin bax. Buxari, Mürtəddin 5; Müslim, Cihad 104; İbn Macə, Fitən 23

❁

٣٨ ـ عَنْ أَبِي سَعِيدٍ وَأَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَا يُصِيبُ الْمُسْلِمَ مِنْ نَصَبٍ وَلَا وَصَبٍ وَلَا هَمٍّ وَلَا حَزَنٍ وَلَا أَذًى وَلَا غَمٍّ، حَتَّى الشَّوْكَةُ يُشَاكُهَا إِلَّا كَفَّرَ اللَّهُ بِهَا مِنْ خَطَايَاهُ». مُتَّفَقٌ عَلَيْهِ.

38. Əbu Səid və Əbu Hüreyrə *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Allah yorğunluq, davam edən xəstəlik, qüssə, kədər, sıxıntı və qəmdən tutmuş ayağına batan tikana qədər müsəlmanın başına gələn hər şeyi onun xətalarını bağışlamağa vəsilə edər”.

Buxari, Mərda 1, 3; Müslim, Birr 49

❁

٣٩ ـ عَنِ ابْنِ مَسْعُـــودٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَـالَ : دَخَلْـتُ عَلَى النَّبِيِّ ﷺ وَهُوَ يُوعَكُ، فَقُلْتُ : يَا رَسُـولَ اللَّهِ ، إِنَّكَ تُوعَكُ وَعْكًا شَدِيدًا . قَـالَ : «أَجَلْ إِنِّي أُوعَكُ كَمَا يُوعَكُ رَجُلَانِ مِنْكُمْ» قُلْتُ : ذَلِكَ أَنَّ لَكَ أَجْرَيْنِ؟ قَالَ: أَجَلْ ذَلِكَ كَذَلِكَ . مَا مِـنْ مُسْلِمٍ يُصِيبُهُ أَذًى ـ شَوْكَةٌ فَمَا فَوْقَهَـا ـ إِلَّا كَفَّرَ اللَّهُ بِهَا سَيِّئَاتِهِ ، وَحُطَّتْ عَنْهُ ذُنُوبُهُ كَمَا تَحُطُّ الشَّجَرَةُ وَرَقَهَا». مُتَّفَقٌ عَلَيْهِ .

39. Abdullah bin Məsud *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna getdim. Malyariya-ya tutulmuşdu.

- Ey Allahın Rəsulu, şiddətli malyariya qızdırmasına tutulmusu-nuz,- dedim.

- **“Bəli, sizdən iki nəfərin çəkə biləcəyi qədər iztirab çəkirəm”, -** buyurdu.

- (Hər halda) bu ikiqat savab qazanmağınız üçündür,- dedim.

- **“Bəli, elədir. Allah müsəlmanın ayağına batan tikan və ya başına gələn daha böyük əziyyət səbəbi ilə müsəlmanın günahlarını bağış-layar. Həmin müsəlmanın günahları ağac yarpaqları kimi tökülər”, -** buyurdu.

Buxari, Mərda 3, 13, 16; Müslim, Birr 45

❁

٤٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَـالَ : قَالَ رَسُـولُ اللَّهِ ﷺ: «مَنْ يُرِدِ اللَّهُ بِهِ خَيْرًا يُصِبْ مِنْهُ». رَوَاهُ الْبُخَارِيُّ .

40. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah xeyriniistədiyi qulunu müsibətə düçar edər".

Buxari, Mərda 1

❁

١٤ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَا يَتَمَنَّيَنَّ أَحَدُكُمُ الْمَوْتَ لِضُرٍّ أَصَابَهُ، فَإِنْ كَانَ لَا بُدَّ فَاعِلًا فَلْيَقُلْ: اَللَّهُمَّ أَحْيِنِي مَا كَانَتِ الْحَيَاةُ خَيْرًا لِي، وَتَوَفَّنِي إِذَا كَانَتِ الْوَفَاةُ خَيْرًا لِي». مُتَّفَقٌ عَلَيْهِ.

41. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən heç kim başına gələn bəlaya görə ölümü arzulamasın. Mütləq ölümü istəmək məcburiyyətində qalarsa, "Allahım, mənim üçün yaşamaq xeyirli olduğu müddətdə yaşat, ölüm xeyirli olduğu zaman da məni öldür", - desin".

(Buxari, Mərda 19, Dəavat 30; Müslim, Zikr 10, 13.
Həmçinin bax. Əbu Davud, Cənaiz 9; Nəsai, Cənaiz 1; İbn Macə, Zöhd 31)

❁

٤٢ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ خَبَّابِ بْنِ الْأَرَتِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: شَكَوْنَا إِلَى رَسُولِ اللَّهِ ﷺ وَهُوَ مُتَوَسِّدٌ بُرْدَةً لَهُ فِي ظِلِّ الْكَعْبَةِ فَقُلْنَا: أَلَا تَسْتَنْصِرُ لَنَا، أَلَا تَدْعُو لَنَا؟ فَقَالَ: «قَدْ كَانَ مَنْ قَبْلَكُمْ يُؤْخَذُ الرَّجُلُ فَيُحْفَرُ لَهُ فِي الْأَرْضِ، فَيُجْعَلُ فِيهَا، ثُمَّ يُؤْتَى بِالْمِنْشَارِ فَيُوضَعُ عَلَى رَأْسِهِ فَيُجْعَلُ نِصْفَيْنِ، وَيُمْشَطُ بِأَمْشَاطِ الْحَدِيدِ ـ مَا دُونَ لَحْمِهِ وَعَظْمِهِ ـ مَا يَصُدُّهُ ذَلِكَ عَنْ دِينِهِ، وَاللَّهِ لَيُتِمَّنَّ اللَّهُ هَذَا الْأَمْرَ حَتَّى يَسِيرَ الرَّاكِبُ مِنْ صَنْعَاءَ إِلَى حَضْرَمَوْتَ لَا يَخَافُ إِلَّا اللَّهَ وَالذِّئْبَ عَلَى غَنَمِهِ، وَلٰكِنَّكُمْ تَسْتَعْجِلُونَ». رَوَاهُ الْبُخَارِيُّ.

وفي رِوَايَةٍ: «وَهُوَ مُتَوَسِّدٌ بُرْدَةً وَقَدْ لَقِينَا مِنَ الْمُشْرِكِينَ شِدَّةً».

42. Əbu Abdullah Habbab bin Ərət *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* başının altına arxalığını qoyub Kəbənin kölgəsində istirahət edərkən (müşriklərin bizə etdiyi işgəncələrdən) şikayət etdik və:

- Allaha dua edib bizim üçün yardım istəməyəcəksinizmi? - dedik. Rəsulullah *səllallahu əleyhi və səlləm* bu cavabı verdi:

- **"Sizdən əvvəlki ümmətlərdə bir mömin yaxalanaraq qazılan çuxura qoyulardı. Sonra mişarla başdan-ayağa iki yerə parçalanar, əti və sümüyü dəmir dırmıqla sıyrılardı. Lakin bütün bunlar onu dinindən döndərməzdi. And içirəm ki, Allah mütləq surətdə dini hakim qılacaq. Hətta bir atlı təkbaşına Allahdan və sürüsünə canavarın hücum etməsindən başqa heç nədən qorxmayaraq Sənadan Hədramövtə qədər əmin-amanlıq içində gedəcəkdir. Sadəcə olaraq siz tələsirsiniz".**

Buxaridən gələn başqa bir rəvayətdə yuxarıdakı ifadə "Peyğəmbər *səllallahu əleyhi və səlləm* xirqəsinə bürünmüşdü. Biz müşriklərdən çox işgəncə görürdük" şəklindədir.

Buxari, Mənaqib 25.
Həmçinin bax. Buxari, İkrah 1, Mənaqibul-ənsar 29; Əbu Davud, Cihad 97.

❁

٤٣ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : لَمَّا كَانَ يَوْمُ حُنَيْنٍ اٰثَرَ رَسُولُ اللّٰهِ ﷺ نَاسًا فِي الْقِسْمَةِ ، فَأَعْطَى الْأَقْرَعَ بْنَ حَابِسٍ مِئَةً مِنَ الْإِبِلِ ، وَأَعْطَى عُيَيْنَةَ بْنَ حِصْنٍ مِثْلَ ذَلِكَ، وَأَعْطَى نَاسًا مِنْ أَشْرَافِ الْعَرَبِ وَاٰثَرَهُمْ يَوْمَئِذٍ فِي الْقِسْمَةِ. فَقَالَ رَجُلٌ : وَاللّٰهِ إِنَّ هَذِهِ قِسْمَةٌ مَا عُدِلَ فِيهَا ، وَمَا أُرِيدَ فِيهَا وَجْهُ اللّٰهِ . فَقُلْتُ : وَاللّٰهِ لَأُخْبِرَنَّ رَسُولَ اللّٰهِ ﷺ ، فَأَتَيْتُهُ فَأَخْبَرْتُهُ بِمَا قَالَ ، فَتَغَيَّرَ وَجْهُهُ حَتَّى كَانَ كَالصِّرْفِ . ثُمَّ قَالَ : فَمَنْ يَعْدِلُ إِذَا لَمْ يَعْدِلِ اللّٰهُ وَرَسُولُهُ؟ ثُمَّ قَالَ : يَرْحَمُ اللّٰهُ مُوسَى ، قَدْ أُوذِيَ بِأَكْثَرَ مِنْ هَذَا فَصَبَرَ . فَقُلْتُ : لَا جَرَمَ لَا أَرْفَعُ إِلَيْهِ بَعْدَهَا حَدِيثًا». مُتَّفَقٌ عَلَيْهِ .

43. Abdullah bin Məsud *radiyallahu anh* belə dedi:

Hüneyn döyüşündən əldə olunan qənimətləri bölüşdürərkən Rəsulullah *səllallahu əleyhi və səlləm* bəzilərinə digərlərindən çox verdi. Aqra bin Harisə yüz dəvə, Üyeynə bin Hısna da bir o qədər dəvə verdi. Adlı-sanlı ərəblərə də həmin gün pay bölüşdürərkən artıqlaması ilə verdi. Belə olan təqdirdə bir nəfər:

- Vallahi, bu ədalətli bölgü deyil. Burada Allahın rizasını görmürəm, -dedi.

Mən də:

- Allaha and içirəm ki, mən bunu Rəsulullaha söyləyəcəyəm, dedim. Gedib onun dediklərini söylədim.

Rəsulullah *səllallahu əleyhi və səlləmin* üzü (qəzəbindən) qıpqırmızı oldu. Sonra belə cavab verdi:

- **"Allah və Rəsulu da ədalətli olmadıqdan sonra heç kim ədalətə riayət etməz".**

Sonra sözünə belə davam etdi:

"Allah Musaya rəhmət etsin. O, bundan da ağır ittiham olunmuş və səbir etmişdi".

Mən (öz-özümə) bundan sonra başqasının sözünü Rəsulullaha çatdırmayacağıma söz verdim.

Buxari, Fərzul-xumus 19; Müslim, Zəkat, 140

❁

٤٤ ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا أَرَادَ اللَّهُ بِعَبْدِهِ الْخَيْرَ عَجَّلَ لَهُ الْعُقُوبَةَ فِي الدُّنْيَا ، وَإِذَا أَرَادَ اللَّهُ بِعَبْدِهِ الشَّرَّ أَمْسَكَ عَنْهُ بِذَنْبِهِ حَتَّى يُوَافِيَ بِهِ يَوْمَ الْقِيَامَةِ ». وَقَالَ النَّبِيُّ ﷺ : «إِنَّ عِظَمَ الْجَزَاءِ مَعَ عِظَمِ الْبَلَاءِ ، وَإِنَّ اللَّهَ تَعَالَى إِذَا أَحَبَّ قَوْمًا ابْتَلَاهُمْ ، فَمَنْ رَضِيَ فَلَهُ الرِّضَى وَمَنْ سَخِطَ فَلَهُ السُّخْطُ» رَوَاهُ التِّرْمِذِيُّ .

44. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Allah yaxşılığını istədiyi qulunun cəzasını dünyada verər. Pisliyini istədiyi qulunun cəzasını isə qiyamət günü günahını yüklənib gəlməsi üçün dünyada verməz”.

Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

“Mükafatın böyüklüyü bəlanın şiddəti nisbətindədir. Allah sevdiyi qövmü (toplumu) bəlaya düçar edər. Kim başına gələnə riza göstərərsə, Allah ondan razı olar. Kim riza göstərməzsə, Allahın qəzəbinə düçar olar”.

Tirmizi, Zöhd 57; Həmçinin bax. İbn Macə, Fitən 23

❁

٤٥ ـ وَعَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ: كَانَ ابْنٌ لِأَبِي طَلْحَةَ رَضِيَ اللّٰهُ عَنْهُ يَشْتَكِي، فَخَرَجَ أَبُو طَلْحَةَ فَقُبِضَ الصَّبِيُّ : فَلَمَّا رَجَعَ أَبُو طَلْحَةَ قَالَ : مَا فَعَلَ ابْنِي ؟ قَالَتْ أُمُّ سُلَيْمٍ وَهِيَ أُمُّ الصَّبِيِّ : هُوَ أَسْكَنُ مَا كَانَ ، فَقَرَّبَتْ لَهُ الْعَشَاءَ فَتَعَشَّى ، ثُمَّ أَصَابَ مِنْهَا فَلَمَّا فَرَغَ قَالَتْ: وَارُوا الصَّبِيَّ، فَلَمَّا أَصْبَحَ أَبُو طَلْحَةَ أَتَى رَسُولَ اللّٰهِ ﷺ فَأَخْبَرَهُ . فَقَالَ: «أَعَرَسْتُمُ اللَّيْلَةَ؟» قَالَ نَعَمْ . قَالَ : اَللّٰهُمَّ بَارِكْ لَهُمَا ، فَوَلَدَتْ غُلَامًا . فَقَالَ لِي أَبُو طَلْحَةَ : احْمِلْهُ حَتَّى تَأْتِيَ بِهِ النَّبِيَّ ﷺ وَبَعَثَ مَعَهُ بِتَمَرَاتٍ . فَقَالَ: «أَ مَعَهُ شَيْءٌ» قَالَ: نَعَمْ ، تَمَرَاتٌ ، فَأَخَذَهَا النَّبِيُّ ﷺ فَمَضَغَهَا ، ثُمَّ أَخَذَهَا مِنْ فِيهِ فَجَعَلَهَا فِي فِيِّ الصَّبِيِّ ، ثُمَّ حَنَّكَهُ وَسَمَّاهُ عَبْدَ اللّٰهِ . مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ لِلْبُخَارِيِّ : قَالَ ابْنُ عُيَيْنَةَ : فَقَالَ رَجُلٌ مِنَ الْأَنْصَارِ : فَرَأَيْتُ تِسْعَةَ أَوْلَادٍ كُلُّهُمْ قَدْ قَرَؤُوا الْقُرْاٰنَ ، يَعْنِي مِنْ أَوْلَادِ عَبْدِ اللّٰهِ الْمَوْلُودِ.

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ : مَاتَ ابْنٌ لِأَبِي طَلْحَةَ مِنْ أُمِّ سُلَيْمٍ ، فَقَالَتْ لِأَهْلِهَا : لَا تُحَدِّثُوا أَبَا طَلْحَةَ بِابْنِهِ حَتَّى أَكُونَ أَنَا أُحَدِّثُهُ ، فَجَاءَ فَتَقَرَّبَتْ إِلَيْهِ عَشَاءً فَأَكَلَ وَشَرِبَ ، ثُمَّ تَصَنَّعَتْ لَهُ أَحْسَنَ مَا كَانَتْ تَصَنَّعُ قَبْلَ ذَلِكَ فَوَقَعَ بِهَا ، فَلَمَّا أَنْ رَأَتْ أَنَّهُ قَدْ شَبِعَ وَأَصَابَ مِنْهَا قَالَتْ : يَا أَبَا طَلْحَةَ ، أَرَأَيْتَ لَوْ أَنَّ قَوْمًا أَعَارُوا

عَارِيَتَهُمْ أَهْلَ بَيْتٍ ، فَطَلَبُوا عَارِيَتَهُمْ ، أَ لَهُمْ أَنْ يَمْنَعُوهُمْ ؟ قَالَ : لَا ، فَقَالَتْ : فَاحْتَسِبِ ابْنَكَ ، قَالَ : فَغَضِبَ ثُمَّ قَالَ : تَرَكْتِنِي حَتَّى إِذَا تَلَطَّخْتُ ثُمَّ أَخْبَرْتِنِي بِابْنِي ، فَانْطَلَقَ حَتَّى أَتَى رَسُولَ اللَّهِ ﷺ فَأَخْبَرَهُ بِمَا كَانَ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «بَارَكَ اللَّهُ لَكُمَا فِي لَيْلَتِكُمَا » قَالَ : فَحَمَلَتْ ، (قَال) : وَكَانَ رَسُولُ اللَّهِ ﷺ فِي سَفَرٍ وهِيَ مَعَهُ ، وَكَانَ رَسُولُ اللَّهِ ﷺإِذَا أَتَى الْمَدِينَةَ مِنْ سَفَرٍ لَا يَطْرُقُهَاطُرُوقًا فَدَنَوْا مِنَ الْمَدِينَةِ فَضَرَبَهَا الْمَخَاضُ فَاحْتَبَسَ عَلَيْهَا أَبُو طَلْحَةَ ، وَانْطَلَقَ رَسُولُ اللَّهِ ﷺ (قَالَ) يَقُولُ أَبُو طَلْحَةَ : إِنَّكَ لَتَعْلَمُ يَا رَبِّ أَنَّهُ يُعْجِبُنِي أَنْ أَخْرُجَ مَعَ رَسُولِ اللَّهِ ﷺ إِذَا خَرَجَ ، وَأَدْخُلَ مَعَهُ إِذَا دَخَلَ ، وَقَدِ احْتَبَسْتُ بِمَا تَرَى !تَقُولُ أُمُّ سُلَيْمٍ : يَا أَبَا طَلْحَةَ ، مَا أَجِدُ الَّذِي كُنْتُ أَجِدُ ، اِنْطَلِقْ . فَانْطَلَقْنَا وَضَرَبَهَا الْمَخَاضُ حِينَ قَدِمَا فَوَلَدَتْ غُلَامًا . فَقَالَتْ لِي أُمِّي : يَا أَنَسُ ، لَا يُرْضِعُهُ أَحَدٌ حَتَّى تَغْدُوَ بِهِ عَلَى رَسُولِ اللَّهِ ﷺ ؛ فَلَمَّا أَصْبَحَ احْتَمَلْتُهُ فَانْطَلَقْتُ بِهِ إِلَى رَسُولِ اللَّهِ ﷺ . وَذَكَرَ تَمَامَ الْحَدِيثِ .

45. Ənəs bin Malik *radiyallahu anh* belə dedi:

Əbu Talha *radiyallahu anhın* xəstə bir oğlu vardı. Əbu Talhanın evdə olmadığı vaxt uşaq öldü. Evə qayıdanda:

- Oğlum necədir? - deyə soruşdu.

Uşağın anası Ümmü Süleym:

- O indi əvvəlkindən daha rahatdır, dedi. Axşam yeməyini hazırlayıb gətirdi. Əbu Talha yeməyini yedi, sonra da xanımı ilə yatdı. Sonra xanımı ona "uşağı dəfn edin", - dedi.

Əbu Talha səhər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına getdi və baş verənləri ona danışdı. Peyğəmbər *səllallahu əleyhi və səlləm* ondan soruşdu:

- **"Bu gecə cinsi əlaqədə oldunuzmu?"**

Əbu Talha:

- Bəli,- dedi. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Allahım, bu ikisi üçün mübarək et", -** deyə dua etdi.

(Vaxtı çatanda) Ümmü Süleym bir oğlan uşağı dünyaya gətirdi. Əbu Talha mənə:

- Uşağı Peyğəmbərin yanına apar, dedi və bir neçə xurma verdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Uşağın yanında nə isə var?" -** deyə soruşdu. Mən:

- Bəli, bir neçə xurma var,- dedim. Peyğəmbər *səllallahu əleyhi və səlləm* xurmaları ağzına qoyub çeynədi. Sonra çıxardıb körpənin ağzına qoydu və yavaşca damağını ovdu, adını Abdullah qoydu.

Buxari, Cənaiz 42; Əqiqə 1; Müslim, Ədəb 23; Fəzailus-səhabə 107

Buxarinin başqa bir rəvayətinə görə Süfyan bin Üyeynə "Ənsardan bir nəfər (İbayə bin Rifa) Abdullahın doqquz uşağını gördüyünü, hamısının da Quran oxuduğunu və mənasını başa düşdüyünü söyləmişdir".

Buxari, Cənaiz 42

Müslimin rəvayətində isə hadisə belə nəql olunur:

Əbu Talhanın Ümmü Süleymdən olan bir oğlu vəfat etdi. Ümmü Süleym evdəkilərə belə tapşırdı:

- Mən Əbu Talhaya xəbər verənə qədər heç biriniz oğlu haqqında bir söz söyləməyin. Sonra Əbu Talha evə gəldi. Ümmü Süleym axşam yeməyini gətirdi. Əbu Talha yeməyini yedi. Ümmü Süleym yeməkdən sonra əvvəlki günlərdə olduğundan daha gözəl bəzəndi. O da xanımı ilə yatağa girdi. Əbu Talhanın qarnının doyduğunu və rahatlandığını görən Ümmü Süleym ona:

- Ey Əbu Talha, hər hansı bir qövm bir ailəyə nə isə əmanət etsə, sonra da əmanətini istəsə, geri verməyə bilərlər? - dedi.

Əbu Talha:

- Xeyr, verməyə bilməzlər,- cavabını verdi.

Ümmü Süleym:

- Elə isə oğlunu geri alınmış bir əmanət bil,- dedi.

Əbu Talha hirslənərək:

- Madam ki, elədir, bəs nə üçün heç nə olmamış kimi hərəkət etdin? İndi də oğlum haqqında mənə xəbər verirsən, eləmi? -dedi. Dərhal Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına getdi vəbaş verənləri olduğu kimi ona xəbər verdi. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Allah keçən gecənizi sizin üçün bərəkətli etsin", -** buyurdu.

Ümmü Süleym hamilə qaldı.

Rəsulullah *səllallahu əleyhi və səlləm* bir səfərə çıxmışdı. Ümmü Süleym də həmin səfərdə iştirak edirdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* səfərdən qayıdanda Mədinəyə gecə vaxtı girməzdi. Mədinəyə yaxınlaşanda Ümmü Süleymin doğum sancıları tutdu. Bu səbəblə Əbu Talha onun yanında qaldı, Rəsulullah *səllallahu əleyhi və səlləm* yoluna davam etdi. Əbu Talha belə deməyə başladı:

- Ey Rəbbim, yaxşı bilirsən ki, mən Rəsulunla birlikdə Mədinədən çıxmaqdan və onunla birlikdə Mədinəyə girməkdən hədsiz dərəcə məmnun oluram. Lakin bu dəfə bildiyin səbəbə görə burada qalmalı oldum.

Bu zaman Ümmü Süleym:

- Əbu Talha, artıq sancım qalmadı, sən get,- dedi.

(Ənəs deyir ki) Biz yolumuza davam etdik. Mədinəyə çatdıqdan sonra yenə Ümmü Süleymin doğum sancısı tutdu və bir oğlan uşağı dünyaya gətirdi. Anam Ümmü Süleym mənə dedi ki:

- Ənəs, sən sabah bu uşağı Rəsulullaha aparmadan heç kim əmizdirməsin. Mən səhər uşağı götürüb Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna apardım. Rəsulullahın əlində dağlama aləti vardı. Məni görəndə:

- **Hər halda Ümmü Süleym uşağını dünyaya gətirdi**,- buyrudu.

- Bəli,- dedim. Dərhal əlindəki dağlama alətini bir kənara qoydu. Mən də körpəni onun qucağına verdim. Rəsulullah *səllallahu əleyhi və səlləm* bir dənə Mədinəyəxas acvə xurması istədi. Onu ağzında yaxşı-yaxşı çeynədi, sonra uşağın ağzına qoydu. Uşaq yalamağa başladı. Bunu görən Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Mədinəlilərin xurma sevgisinə baxın!" -** buyurdu. Uşağın üzünü sığalladı və onun adını Abdullah qoydu.

Müslim, Fəzailus-səhabə 107

٤٦ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰـهُ عَنْهُ أَنَّ رَسُـولَ اللَّهِ ﷺ قَـالَ : «لَيْسَ الشَّدِيدُ بِالصُّرَعَةِ ، إِنَّمَا الشَّدِيدُ الَّذي يَمْلِكُ نَفْسَهُ عِنْدَ الْغَضَبِ» . مُتَّفَقٌ عَلَيْهِ .

46. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əsil pəhləvan güləşdə qalib gələn deyil, qəzəbləndiyi zaman hirsini boğan kəsdir".

Buxari, Ədəb 76; Müslim, Birr 107-108

❁

٤٧ ـ عَنْ سُلَيْمَانَ بْنِ صُرَدٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : كُنْتُ جَالِسًا مَعَ النَّبِيِّ ﷺ وَرَجُلَانِ يَسْتَبَّـانِ ، وَأَحَدُهُمَا قَدِ احْمَرَّ وَجْهُهُ ، وَانْتَفَخَتْ أَوْدَاجُـهُ . فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : إِنِّي لَأَعْلَمُ كَلِمَةً لَوْ قَالَهَا لَذَهَبَ عَنْهُ مَا يَجِدُ ، لَوْ قَالَ : أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ ذَهَبَ عَنْهُ مَـا يَجِدُ . فَقَالُـوا لَهُ: إِنَّ النَّبِيَّ ﷺ قَالَ : تَعَـوَّذْ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ » . مُتَّفَقٌ عَلَيْهِ .

47. Süleyman bin Surad *radiyallahu anh* belə dedi:

Bir gün Nəbi *səllallahu əleyhi və səlləmin* yanında oturmuşdum. İki nəfər bir-birini söyürdü. Onlardan birinin üzü qəzəbindən qıpqırmızı olmuş, boynunun damarları şişib çölə çıxmışdı.

Bunu görən Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mən bir söz bilirəm, əgər bu adam həmin sözü söyləsə, hirsi soyuyar. Əgər o "əuzu billəhi minəş-şeytanir-racim - İlahi rəhmətdən qovulmuş şeytandan Allaha sığınıram" desə, bu halı keçib gedər".

Oradakılar Nəbi *səllallahu əleyhi və səlləmin* ona "ilahi rəhmətdən qovulmuş şeytandan Allaha sığın", - tövsiyəsini çatdırdılar.

Buxari, Bədul-xalq 11, Ədəb 44, 76; Müslim, Birr 109

❁

٤٨ـ عَنْ مُعَاذِ بْنِ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ : «مَنْ كَظَمَ غَيْظًا ، وَهُوَ قَادِرٌ عَلَى أَنْ يُنْفِذَهُ ، دَعَاهُ اللّٰهُ سُبْحَانَهُ وَتَعَالَى عَلَى رُؤُوسِ الْخَلَائِقِ يَوْمَ الْقِيَامَةِ حَتَّى يُخَيِّرَهُ مِنَ الْحُورِ الْعِينِ مَا شَاءَ» . رَوَاهُ أَبُو دَاوُودَ ، وَالتِّرْمِذِيُّ .

48. Muaz bin Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Gərəyini etməyə gücü çatdığı halda hirsini boğan kəsi Allah qiyamət günü hamının gözü qarşısında çağırar, onu hurilər arasında istədiyini seçməkdə sərbəst buraxar".

Əbu Davud, Ədəb 3; Tirmizi, Birr 74; Qiyamət 48. Həmçinin bax. İbn Macə, Zöhd 18

❁

٤٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ ، أَنَّ رَجُلًا قَالَ لِلنَّبِيِّ ﷺ أَوْصِنِي . قَالَ «لَا تَغْضَبْ » فَرَدَّدَ مِرَارًا ، قَالَ : «لَا تَغْضَبْ ». رَوَاهُ الْبُخَارِيُّ .

49. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir nəfər Nəbi *səllallahu əleyhi və səlləmə*:

- Mənə nəsihət et,- dedi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* də ona:

- **"Qəzəblənmə!" -** buyurdu.

Həmin adam istəyini bir neçə dəfə təkrar etdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* də (hər dəfə israrla):

- **"Qəzəblənmə!" -** buyurdu.

Buxari, Ədəb 76. Həmçinin bax. Tirmizi, Birr 73

❁

٥٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ ﷺ: «مَا يَزَالُ الْبَلَاءُ بِالْمُؤْمِنِ وَالْمُؤْمِنَةِ فِي نَفْسِهِ وَوَلَدِهِ وَمَالِهِ حَتَّى يَلْقَى اللّٰهَ تَعَالَى وَمَا عَلَيْهِ خَطِيئَةٌ ». رَوَاهُ التِّرْمِذِيُّ .

50. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

"Kişi və ya qadın mömin günahsız halda Allaha qovuşana qədər özündən, övlad-uşağından, malından bəla əskik olmaz".

Tirmizi, Zöhd 57

❁

٥١ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ : قَدِمَ عُيَيْنَةُ بْنُ حِصْنٍ فَنَزَلَ عَلَى ابْنِ أَخِيهِ الْحُرِّ بْنِ قَيْسٍ ، وَكَانَ مِنَ النَّفَرِ الَّذِينَ يُدْنِيهِمْ عُمَرُ رَضِيَ اللّٰهُ عَنْهُ ، وَكَانَ الْقُرَّاءُ أَصْحَابَ مَجْلِسِ عُمَرَ رَضِيَ اللّٰهُ عَنْهُ وَمُشَاوَرَتِهِ ـ كُهُولًا كَانُوا أَوْ شُبَّانًا ـ، فَقَالَ عُيَيْنَةُ لِابْنِ أَخِيهِ : يَا بْنَ أَخِي ، لَكَ وَجْهٌ عِنْدَ هَذَا الأَمِيرِ فَاسْتَأْذِنْ لِي عَلَيْهِ ، فَاسْتَأْذَنَ فَأَذِنَ لَهُ عُمَرُ . فَلَمَّا دَخَلَ قَالَ : هِيْ يَا بْنَ الْخَطَّابِ ، فَوَاللّٰهِ مَا تُعْطِينَا الْجَزْلَ ، وَلَا تَحْكُمُ فِينَا بِالْعَدْلِ ! فَغَضِبَ عُمَرُ رَضِيَ اللّٰهُ عَنْهُ حَتَّى هَمَّ أَنْ يُوقِعَ بِهِ . فَقَالَ لَهُ الْحُرُّ : يَا أَمِيرَ الْمُؤْمِنِينَ ، إِنَّ اللّٰهَ تَعَالَى قَالَ لِنَبِيِّهِ ﷺ: ﴿**خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ**﴾ وَإِنَّ هَذَا مِنَ الْجَاهِلِينَ ، وَاللّٰهِ مَا جَاوَزَهَا عُمَرُ حِينَ تَلَاهَا وَكَانَ وَقَّافًا عِنْدَ كِتَابِ اللّٰهِ تَعَالَى». رَوَاهُ الْبُخَارِيُّ.

51. Abdullah bin Abbas *radiyallahu anhumə* belə dedi:

Üyeynə bin Hısn Mədinəyə gəldi və qardaşı oğlu Hürr bin Qeysin qonağı oldu. Hürr Hz. Ömərin məşvərət məclisi üzvlərindən idi. Zatən, gənc-yaşlı bütün alimlər (qurra) Hz. Ömərin məşvərət məclisində idilər. Bu səbəblə Üyeynə qardaşı oğlu Hürr bin Qeysə:

- Qardaşoğlu, sənin dövlət rəisinin yanında xüsusi yerin var. Məni onunla görüşdür,- dedi.

Hürr Ömərdən izin aldı. Üyeynə Ömərin yanına girib:

- Ey Xəttab oğlu Ömər, Allaha and içirəm ki, bizə artıq heç nə vermirsən. Aramızda ədalətlə hökm etmirsən,- dedi.

Ömər qəzəbləndi, Üyeynəyə cəza vermək istədi.

Bu zaman Hürr:

- Ey möminlərin əmiri, Allah Peyğəmbərinə "əfv yolunu tut, yaxşılığı əmr et, cahilləri cəzalandırmaqdan daşın!" - buyurdu. Mənim əmim də cahillərdəndir,- dedi.

Allaha and olsun ki, Hürr bu ayəni oxuduqda Ömər Üyeynəni cəzalandırmaqdan daşındı. Zatən Ömər Allahın kitabına son dərəcə bağlı idi.

Buxari, Təfsiru-surə (7), 5, İtisam 2

❁

٥٢ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ قَالَ: «إِنَّهَا سَتَكُونُ بَعْدِي أَثَرَةٌ وَأُمُورٌ تُنْكِرُونَهَا ! قَالُوا : يَا رَسُولَ اللَّهِ ، فَمَا تَأْمُرُنَا ؟ قَالَ : تُؤَدُّونَ الْحَقَّ الَّذِي عَلَيْكُمْ ، وَتَسْأَلُونَ اللَّهَ الَّذِي لَكُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

52. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- "Şübhəsiz ki, məndən sonra tərəf saxlamaq və yadırğayacağınız bəzi işlərlə qarşılaşacaqsınız", - buyurdu. Əshabi-kiram:

- Ya Rəsulallah, o zaman necə hərəkət etməyimizi istəyirsiniz? - dedi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* də:

- "Siz üzərinizə düşən vəzifələri yerinə yetirər, öz haqqınızı isə Allahdan gözləyərsiniz", - buyurdu.

Buxari, Mənaqib 25; Fitən 2; Müslim, İmarə 45

❁

٥٣ ـ عَنْ أَبِي يَحْيَى أُسَيْدِ بْنِ خُضَيْرٍ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ رَجُلًا مِنَ الْأَنْصَارِ قَالَ يَا رَسُولَ اللَّهِ ، أَلَا تَسْتَعْمِلُنِي كَمَا اسْتَعْمَلْتَ فُلَانًا؟ فَقَالَ : «إِنَّكُمْ سَتَلْقَوْنَ بَعْدِي أَثَرَةً فَاصْبِرُوا حَتَّى تَلْقَوْنِي عَلَى الْحَوْضِ». مُتَّفَقٌ عَلَيْهِ .

53. Əbu Yəhya Üseyd bin Xudayr *radiyallahu anhdan* rəvayət edildiyinə görə mədinəlilərdən bir nəfər:

- Ey Allahın Rəsulu, məni də filankəs kimi vali təyin etməzsiniz? -dedi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Məndən sonra tərəf tutma hallarının şahidi olacaqsınız. Hovuzun başında mənə qovuşana qədər səbir edin!" -** buyurdu.

Buxari, Fitən 2, Mənaqibul-ənsar 8; Müslim, İmarə 48

٥٤ـ عَنْ أَبِي إِبْرَاهِيمَ عَبْدِ اللَّهِ بْنِ أَبِي أَوْفَى رَضِيَ اللّٰهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ فِي بَعْضِ أَيَّامِهِ الَّتِي لَقِيَ فِيهَا الْعَدُوَّ انْتَظَرَ حَتَّى إِذَا مَالَتِ الشَّمْسُ قَامَ فِيهِمْ فَقَالَ: «يَا أَيُّهَا النَّاسُ لاَ تَتَمَنَّوْا لِقَاءَ الْعَدُوِّ وَاسْأَلُوا اللّٰهَ الْعَافِيَةَ فَإِذَا لَقِيتُمُوهُمْ فَاصْبِرُوا وَاعْلَمُوا أَنَّ الْجَنَّةَ تَحْتَ ظِلاَلِ السُّيُوفِ، ثُمَّ قَالَ ﷺ: اَللّٰهُمَّ مُنْزِلَ الْكِتَابِ وَمُجْرِيَ السَّحَابِ وَهَازِمَ الأَحْزَابِ ، اِهْزِمْهُمْ وَانْصُرْنَا عَلَيْهِمْ». مُتَّفَقٌ عَلَيْهِ .

54. Əbu İbrahim Abdullah bin Əbu Əvfa *radiyallahu anhumədən* rəvayət edildiyinə görə döyüşlərdən birində Rəsulullah *səllallahu əleyhi və səlləm* günəşin təpə nöqtəsindən qərbə meyil etməsinə qədər gözlədi, sonra ayağa qalxdı və:

- "Ey müsəlmanlar, düşmənlə qarşılaşmağı arzulamayın, Allahdan afiyət istəyin. Lakin düşmənlə qarşılaşanda da səbir edin və bilin ki, cənnət qılıncların kölgəsi altındadır", - buyurdu. Sonra Nəbi *səllallahu əleyhi və səlləm* belə dua etdi:

"Ey Kitabı (Quranı) endirən, buludları göy üzündə üzdürən və düşmən səflərini darmadağın edən Allahım, bu düşməni pərişan et və bizi onlara qarşı müzəffər qıl!"

Buxari, Cihad 112; Müslim, Cihad 20

DOĞRU DANIŞMAQ

(SİDQ)

Ayələr

1. **"Ey iman gətirənlər! Allahdan qorxun və** (imanında, sözündə, işində) **doğru olanlarla olun!"** (ət-Tövbə, 119)

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا اتَّقُوا اللّٰهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ .

2. **"Allah doğru danışan kişilər və qadınlar üçün məğfirət (bağışlanma) və böyük bir mükafat** (Cənnət) **hazırlamışdır!"** (əl-Əhzab, 35)

وَالصَّادِقِينَ وَالصَّادِقَاتِ .

3. **"Allaha** (verdikləri vədə) **sadiq olsaydılar, sözsüz ki, onlar üçün daha yaxşı olardı!"** (Muhammməd, 21)

فَلَوْ صَدَقُوا اللَّهَ لَكَانَ خَيْرًا لَهُمْ .

Hədislər

٥٥ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ : «إِنَّ الصِّدْقَ يَهْدِي إِلَى الْبِرِّ وَإِنَّ الْبِرَّ يَهْدِي إِلَى الْجَنَّةِ ، وَإِنَّ الرَّجُلَ لَيَصْدُقُ حَتَّى يُكْتَبَ عِنْدَ اللَّهِ صِدِّيقًا ، وَإِنَّ الْكَذِبَ يَهْدِي إِلَى الْفُجُورِ ، وَإِ نَّ الْفُجُورَ يَهْدِي إِلَى النَّارِ ، وَإِنَّ الرَّجُلَ لَيَكْذِبُ حَتَّى يُكْتَبَ عِنْدَ اللَّهِ كَذَّابًا» . مُتَّفَقٌ عَلَيْهِ .

55. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Şübhəsiz ki, sözdə və işdə doğruluq xeyrə və yaxşılığın zirvəsinə istiqamətləndirir. Yaxşılıq isə cənnətə aparır. İnsan düz danışa-danışa Allah qatında siddiq (doğru sözlü) **olaraq yazılır. Yalançılıq yoldan çıxmağa** (fücura) **sürükləyir. Fücur isə cəhənnəmə aparır. İnsan yalan danışmağa adət etdikdə Allah qatında çox yalançı** (kəzzab) **yazılar”.**

(Buxari, Ədəb 69; Müslim, Birr 103-105. Həmçinin bax. Əbu Davud, Ədəb 80; Tirmizi, Birr 46; İbn Macə, Müqəddimə 7; Dua 5)

❁

٥٦ ـ عَنْ أَبِي مُحَمَّدٍ الْحَسَنِ بْنِ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ : حَفِظْتُ مِنْ رَسُولِ اللَّهِ ﷺ : «دَعْ مَا يُرِيبُكَ إِلَى مَا لَا يُرِيبُكَ ؛ فَإِنَّ الصِّدْقَ طُمَأْنِينَةٌ ، وَالْكَذِبَ رِيبَةٌ» . رَوَاهُ التِّرْمِذِيُّ .

56. Əbu Muhammməd Həsən bin Əli bin Əbu Talib *radiyallahu anhumə* belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

“Şübhəli olanı tərk et, şübhə verməyənə bax. Çünki qəlb (sözdə və işdə) doğrudan aram tapar, yalandan narahat olar”, dediyini eşitdim.

Tirmizi, Qiyamət 60

❁

٥٧ ـ عَنْ أَبِي سُفْيَانَ صَخْرِ بْنِ حَرْبٍ رَضِيَ اللّٰهُ عَنْهُ فِي حَدِيثِهِ الطَّوِيلِ فِي قِصَّةِ هِرَقْلَ ، قَالَ هِرَقْلُ : فَمَا ذَا يَأْمُرُكُمْ ـ يَعْنِي النَّبِيَّ ﷺ ـ قَالَ أَبُو سُفْيَانَ : قُلْتُ : يَقُولُ : اعْبُدُوا اللَّهَ وَحْدَهُ لَا تُشْرِكُوا بِهِ شَيْئًا ، وَاتْرُكُوا مَا يَقُولُ اٰبَاؤُكُمْ . وَيَأْمُرُنَا بِالصَّلَاةِ وَالصِّدْقِ ، وَالْعَفَافِ ، وَالصِّلَةِ» .مُتَّفَقٌ عَلَيْهِ .

57.Əbu Süfyan Səhr bin Hərb *radiyallahu anh* Bizans kralı Herakl ilə aralarında baş verən uzun söhbətdən söz açarkən belə dedi:

Herakl:

- O (Peyğəmbər olduğunu söyləyən) adam sizə nələri əmr edir? - deyə soruşdu. Mən də:

- Yalnız Allaha qulluq edin, Ona heç nəyi şərik qoşmayın. Ataларınızın iman etdik dedikləri şeyləri tərk edin,- deyir. Bizə namaz qılmağı, sözdə və işdə doğruluğu, iffətli yaşamağı və qohum-əqrəba ilə maraqlanmağı əmr edir,- dedim.

Buxari, Bədul-vəhy 6, Şəhadət 28; Müslim, Cihad 74

❁

٥٨ ـ عَنْ أَبِي ثَابِتٍ ، وَقِيلَ أَبِي سَعِيدٍ ، وَقِيلَ أَبِي الْوَلِيدِ ، سَهْلِ بْنِ حُنَيْفٍ ، وَهُوَ بَدْرِيٌّ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ : «مَنْ سَأَلَ اللَّهَ تَعَالَى الشَّهَادَةَ بِصِدْقٍ بَلَّغَهُ اللَّهُ مَنَازِلَ الشُّهَدَاءِ ، وَإِنْ مَاتَ عَلَى فِرَاشِهِ». مُتَّفَقٌ عَلَيْهِ .

58. Əbu Sabit, Əbu Səid və Əbu Vəlid künyələri ilə tanınan və Bədir mühacirlərindən olan Səhl bin Hüneyf *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah sidq ürəklə şəhid olmağı istəyən kəsi yatağında da ölsə şəhidlər mərtəbəsinə yüksəldər".

Müslim, İmarə 157. Həmçinin bax. İbn Macə, Cihad 15

٥٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ: «غَزَا نَبِيٌّ مِنَ الْأَنْبِيَاءِ صَلَوَاتُ اللَّهِ وَسَلَامُهُ عَلَيْهِمْ ، فَقَالَ لِقَوْمِهِ: لَا يَتْبَعَنِّي رَجُلٌ مَلَكَ بُضْعَ امْرَأَةٍ وَهُوَ يُرِيدُ أَنْ يَبْنِيَ بِهَا وَلَمَّا يَبْنِ بِهَا، وَلَا أَحَدٌ بَنَى بُيُوتًا لَمْ يَرْفَعْ سُقُوفَهَا، وَلَا أَحَدٌ اشْتَرَى غَنَمًا أَوْ خَلِفَاتٍ وَهُوَ يَنْتَظِرُ أَوْلَادَهَا . فَغَزَا فَدَنَا مِنَ الْقَرْيَةِ صَلَاةَ الْعَصْرِ أَوْ قَرِيبًا مِنْ ذَلِكَ ، فَقَالَ لِلشَّمْسِ : إِنَّكِ مَأْمُورَةٌ وَأَنَا مَأْمُورٌ، اَللَّهُمَّ احْبِسْهَا عَلَيْنَا ، فَحُبِسَتْ حَتَّى فَتَحَ اللَّهُ عَلَيْهِ ، فَجَمَعَ الْغَنَائِمَ فَجَاءَتْ ـ يَعْنِي النَّارَ ـ لِتَأْكُلَهَا فَلَمْ تَطْعَمْهَا ، فَقَالَ : إِنَّ فِيكُمْ غُلُولًا فَلْيُبَايِعْنِي

مِنْ كُلِّ قَبِيلَةٍ رَجُلٌ،فَلَزِقَتْ يَدُ رَجُلٍ بِيَدِهِ فَقَالَ:فِيكُمُ الْغُلُولُ.فَلْتُبَايِعْنِي قَبِيلَتُكَ، فَلَزِقَتْ يَدُ رَجُلَيْنِ أَوْ ثَلَاثَةٍ بِيَدِهِ فَقَالَ : فِيكُمُ الْغُلُولُ فَجَاؤُوا بِرَأْسٍ مِثْلِ رَأْسِ بَقَرَةٍ مِنَ الذَّهَبِ ، فَوَضَعَهَا فَجَاءَتِ النَّارُ فَأَكَلَتْهَا . فَلَمْ تَحِلَّ الْغَنَائِمُ لِأَحَدٍ قَبْلَنَا، ثُمَّ أَحَلَّ اللَّهُ لَنَا الْغَنَائِمَ لَمَّا رَأَى ضَعْفَنَا وَعَجْزَنَا فَأَحَلَّهَا لَنَا». مُتَّفَقٌ عَلَيْهِ .

59. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahın salət və salamı üzərlərinə olsun, əvvəlki peyğəmbərlərdən biri düşmənlə cihada çıxdı. (Yola düşməzdən əvvəl) ümmətinə belə səsləndi:

- Bir qadınla evləndiyi halda hələ onunla gərdəyə girməmiş olan, tikdiyi evin damını bitirməmiş olan, boğaz qoyun və ya dəvə alıb balalamasını gözləyən ardımca gəlməsin. Bu sözləri dedikdən sonra yola çıxdı. İkindi saatlarında (düşmən) yurduna çatdı. Günəşə xitab edərək:

- Sən də, mən də əmir quluyuq,- dedi, sonra:

-Allahım, onun batışını gecikdir,- deyə dua etdi.

Bunun üzərinə oranı fəth edənə qədər günəşin batması gecikdirildi. (Nəhayət) qənimətlər bir yerə toplandı. Onları yandırmaq üçün göydən alov düşdü, lakin yandırmadı. Belə olan təqdirdə Peyğəmbər:

- Aranızda qənimət maldan götürən var. Haydı hər qəbilədən bir təmsilçi əl uzadıb mənimlə beyət etsin,- dedi.

Müsafihə edərkən bir nəfərin əli Peyğəmbərin əlinə yapışdı. O zaman Peyğəmbər:

- Xəyanət edən sizdəndir. Sənin qəbilənə mənsub olanlar dərhal gəlib beyət etsinlər,- dedi.

Beyət zamanı iki və ya üç nəfərin əli Peyğəmbərin əlinə yapışdı. Bu dəfə onlara:

- Oğurlanan mal sizdədir,- dedi.

Həmin adamlar qızıldan düzəldilmiş inək başına oxşar bir kəllə gətirdilər. Peyğəmbər onu digər qənimət mallarının içinə qoydu. Alov hamısını yandırıb kül etdi. Çünki qənimət bizdən əvvəl heç bir peyğəm-

bərə (və ümmətinə) halal deyildi. Allah-Təala zəiflik və acizliyinizi bildiyi üçün onu sizə halal qıldı".

Buxari, Xumus 8; Müslim, Cihad 32

❁

٦٠ ـ عَنْ أَبِي خَالِدٍ حَكِيمِ بْنِ حِزَامٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : قَالَ رَسُولُ اللّٰهِ ﷺ «اَلْبَيِّعَانِ بِالْخِيَارِ مَا لَمْ يَتَفَرَّقَا ، فَإِنْ صَدَقَا وَبَيَّنَا بُورِكَ لَهُمَا فِي بَيْعِهِمَا ، وَإِنْ كَتَمَا وَكَذَبَا مُحِقَتْ بَرَكَةُ بَيْعِهِمَا». مُتَّفَقٌ عَلَيْهِ .

60. Əbu Xalid Hakim bin Hizam *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Satıcı və alıcı (söz kəsib) sövdələşməni bitirdikdən sonra bir-birindən ayrılmadan alveri pozub-pozmamaqda sərbəstdirlər. Əgər onların hər biri qarşılıqlı olaraq doğru danışar (mal və qiyməti olduğu kimi), açıqlayarsa, alver bərəkətli olar. Yox, əgər gizlədər və yalan bəyan edərlərsə, alverlərində bərəkət qalmaz".

Buxari, Büyu 19, 22, 43, 44, 46; Müslim, Büyu 47.
Həmçinin bax. Əbu Davud, Büyu 51; Tirmizi, Büyu 6, 26; Nəsai, Büyu 4, 8, 11

QULLARIN ALLAHIN NƏZARƏTİNDƏ OLMASI
(MÜRAQİBƏ)

Ayələr

اَلَّذِي يَرَاكَ حِينَ تَقُومُ وَتَقَلُّبَكَ فِي السَّاجِدِينَ .

1."O Allah ki, səni namaza duranda da görür, səcdə edənlər içində dolananda da". (əş-Şuəra, 218-219)

وَهُوَ مَعَكُمْ أَيْنَمَا كُنْتُمْ .

2."Siz harada olsanız, O sizinlədir". (əl-Hədid, 4)

إِنَّ اللَّهَ لاَ يَخْفَى عَلَيْهِ شَيْءٌ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاءِ

3. "Yerdə və göylərdə heç bir şey Allahdan gizli qalmaz". (Ali-İmran, 5)

إِنَّ رَبَّكَ لَبِالْمِرْصَادِ.

4."Şübhəsiz ki, Rəbbin (bəndələrinin bütün əməllərini) baxıb görür". (əl-Fəcr, 14)

يَعْلَمُ خَائِنَةَ الْأَعْيُنِ وَمَا تُخْفِي الصُّدُورُ .

5. "Allah gözlərin xəyanətini (xain gözləri) və ürəklərin gizlətdiyini biləndir!" (əl-Mömin, 19)

Hədislər

٦١ ـ عن عُمَرَ بنِ الخَطَّابِ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: «بَيْنَمَا نَحْنُ جُلُوسٌ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ ذاتَ يَوْمٍ إِذْ طَلَعَ عَلَيْنَا رَجُلٌ شَدِيدُ بَيَاضِ الثِّيَابِ شَدِيدُ سَوَادِ الشَّعْرِ ، لاَ يُرَى عَلَيْهِ أَثَرُ السَّفَرِ ، وَلاَ يَعْرِفُهُ مِنَّا أَحَدٌ، حَتَّى جَلَسَ إِلَى النَّبِيِّ ﷺ فَأَسْنَدَ رُكْبَتَيْهِ إِلَى رُكْبَتَيْهِ ، وَوَضَعَ كَفَّيْهِ عَلَى فَخِذَيْهِ وَقَالَ: يَا مُحَمَّدُ ، أَخْبِرنِي عَنِ الْإِسْلاَمِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : الإِسْلاَمُ أَنْ تَشْهَدَ أَنْ لاَ إِلَهَ إِلَّا اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ ، وَتُقِيمَ الصَّلاَةَ، وَتُؤْتِيَ الزَّكَاةَ، وَتَصُومَ رَمَضَانَ، وَتَحُجَّ الْبَيْتَ إِنِ اسْتَطَعْتَ إِلَيْهِ سَبِيلاً. قَالَ: صَدَقْتَ. فَعَجِبْنَا لَهُ يَسْأَلُهُ وَيُصَدِّقُهُ قَالَ: فَأَخْبِرْنِي عَنِ الْإِيمَانِ. قَالَ: أَنْ تُؤْمِنَ باللَّهِ، وَمَلاَئِكَتِهِ، وَكُتُبِهِ، وَرُسُلِهِ، وَالْيَوْمِ الْآخِرِ، وَتُؤْمِنَ بالْقَدَرِ خَيْرِهِ وَشَرِّهِ. قَالَ: صَدَقْتَ. قَالَ: فَأَخْبِرْنِي عَنِ الإِحْسَانِ. قالَ: أَنْ تَعْبُدَ اللَّهَ كَأَنَّكَ تَرَاهُ فإِنْ لَمْ تَكُنْ تَرَاهُ فإِنَّهُ يَرَاكَ. قَالَ: فَأَخْبِرْنِي عَنِ السَّاعَةِ.

قالَ: مَا الْمَسْؤُولُ عَنْهَا بِأَعْلَمَ مِنَ السَّائِلِ . قَالَ: فَأَخْبِرْنِي عَنْ أَمَارَاتِهَا. قَالَ: أَنْ تَلِدَ الأَمَةُ رَبَّتَها، وَأَنْ تَرَى الْحُفَاةَ الْعُرَاةَ الْعَالَةَ رِعَاءَ الشَّاءِ يَتَطَاوَلُونَ فِي الْبُنْيَانِ. ثُمَّ انْطَلَقَ فَلَبِثْتُ مَلِيّاً ثُمَّ قالَ: ياعُمَرُ ، أَتَدْرِي مَنِ السَّائِلُ؟ قُلْتُ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ. قَالَ: فإِنَّهُ جِبْرِيلُ أَتَاكُمْ يُعَلِّمُكُمْ دِينَكُمْ». رَوَاهُ مُسْلِمٌ .

61. Ömər bin Xəttab *radiyallahu anh* belə dedi:

Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzurunda ikən ağappaq paltarlı və qapqara saçlı, üstündə səfərdən gələn adamlaraxas əlamətlər olmayan, içimizdən heç kimin tanımadığı bir nəfər gəldi. Peyğəmbərin yanına yaxınlaşdı, qarşısında oturdu, dizlərini Peyğəmbərin dizlərinə dirədi, əllərini (öz) dizlərinin üstünə qoydu və:

- Ey Muhammməd, mənə İslamı izah et! - dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"İslam Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın rəsulu olduğuna şəhadət etmək, namazı dopdoğru qılmaq, zəkatı (kamil şəkildə) vermək, ramazan orucunu (əskiksiz) tutmaq, gücün çatarsa Kəbəni ziyarət etməkdir", -** buyurdu. O dedi:

- Düz söylədin. Onun həm sual verməsi, həm də təsdiqləməsi bizə qəribə gəldi. Sonra:

- İndi də mənə imanı izah et,- dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə inanmandır. Həmçinin qədərə, xeyrinə və şərinə iman etməndir", -** buyurdu.

Həmin adam yenə:

- Doğru söylədin,- deyə təsdiq etdi və:

- Yaxşı, bəs ehsan nədir, onu da izah et,- dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Ehsan Allaha onu görürmüş kimi qulluq etməkdir. Sən onu görməsən də, o mütləq səni görür", -** buyurdu.

Gələn adam yenə:

- Doğru söylədin, -dedi, sonra:

- Qiyamət nə zaman qopacaq? - deyə soruşdu.

Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Sual verilən bu barədə soruşandan daha məlumatlı deyil", -** cavabını verdi.

Adam:

- Elə isə əlamətlərini söylə,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Analaların özlərinə cariyə kimi rəftar edəcək uşaqlar dünyaya gətirməsi, ayaqyalın, başıaçıq, çılpaq qoyun çobanlarının yüksək və görkəmli binalar tikməkdə bir-biri ilə yarışmasıdır", -** buyurdu.

Gələn adam səssizcə çıxıb getdi. Mən bir müddət olduğum yerdə qaldım. Sonra Peyğəmbər *səllallahu əleyhi və səlləm* soruşdu:

- **"Ey Ömər, bilirsənmi sual verən kim idi?"**

Mən:

- Allah və Rəsulu bilir,- dedim.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Gələn Cəbrayıl idi, sizə dininizi öyrətməyə gəlmişdi", -** buyurdu.

Müslim, İman 1, 5. Həmçinin bax. Buxari, İman 37; Tirmizi, İman 4; Əbu Davud, Sünnə 16; Nəsai, İman 5, 6; İbn Macə, Müqəddimə, 9

❁

٦٢ـ عَنْ أَبِي ذَرٍّ جُنْدَبِ بْنِ جُنَادَةَ وَأَبِي عَبْدِ الرَّحْمٰنِ مُعَاذِ بْنِ جَبَلٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا عن رَسُولِ اللَّهِ ﷺ قَالَ: «اِتَّقِ اللَّهَ حَيْثُمَا كُنْتَ وَأَتْبِعِ السَّيِّئَةَ الْحَسَنَةَ تَمْحُهَا؛ وَخَالِقِ النَّاسَ بِخُلُقٍ حَسَنٍ». رَوَاهُ التِّرْمِذِيُّ .

62. Əbu Zərr Cundəb bin Cünadə və Əbu Əbdürrəhman Muaz bin Cəbəl *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Harada və necə olursan ol, Allahdan qorx.

Pis əməl işləsən, dərhal ardınca yaxşılıq et ki, işlədiyin pisliyi silib təmizləsin.

İnsanlarla yaxşı rəftar et!" Tirmizi, Birr 55

٦٣ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُما قَالَ: «كُنْتُ خَلْفَ النَّبِيِّ ﷺ يَوْمًا فَقَالَ: يَا غُلاَمُ إِنِّي أُعَلِّمُكَ كَلِمَاتٍ: اِحْفَظِ اللَّهَ يَحْفَظْكَ، اِحْفَظِ اللَّهَ تَجِدْهُ تُجَاهَكَ. إِذَا سَأَلْتَ فَاسْأَلِ اللَّهَ ، وإِذَا اسْتَعَنْتَ فَاسْتَعِنْ بِاللَّهِ . وَاعْلَمْ أَنَّ الْأُمَّةَ لَوِ اجْتَمَعَتْ عَلَى أَنْ يَنْفَعُوكَ بِشَيْءٍ لَمْ يَنْفَعُوكَ إِلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللّٰهُ لَكَ، وإِنِ اجْتَمَعُوا عَلَى أَنْ يَضُرُّوكَ بِشَيْءٍ لَمْ يَضُرُّوكَ إِلَّا بِشَيْءٍ قَدْ كَتَبَهُ اللَّهُ عَلَيْكَ، رُفِعَتِ الأَقْلاَمُ وَجَفَّتِ الصُّحُفُ». رَوَاهُ التِّرْمِذِيُّ .

وَفِي رِوَايَةِ غَيْرِ التِّرْمِذِيِّ «احْفَظِ اللَّه تَجِدْهُ أَمَامَكَ، تَعَرَّفْ إِلَى اللَّهِ فِي الرَّخَاءِ يَعْرِفْكَ فِي الشِّدَّةِ وَاعْلَمْ أَنَّ مَا أَخْطَأَكَ لَمْ يَكُنْ لِيُصِيبَكَ.وَمَا أَصَابَكَ لَمْ يَكُنْ لِيُخْطِئَكَ:وَاعْلَمْ أَنَّ النَّصْرَ مَعَ الصَّبْرِ وَأَنَّ الْفَرَجَ مَعَ الْكَرْبِ، وَأَنَّ مَعَ الْعُسْرِ يُسْرًا».

63. Abdullah bin Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə belə demişdir:

Bir gün Hz. Peyğəmbərin tərkinə minmişdim. Mənə:

"Oğlum, sənə bəzi qaydalar öyrədim", - dedi və belə buyurdu: **"Allahın buyuruqlarına riayət et ki, Allah da səni qorusun. Allahı(n rizasını) hər işdə ön planda tut, Allahı önündə taparsan. Nə isə istəyəcəyin zaman Allahdan istə! Yardım istəyəcəyin zaman Allahdan istə! Bilmiş ol ki, bütün ümmət toplaşıb sənə fayda verməyə çalışsa, Allahın sənin üçün yazdığı faydadan artığını verə bilməzlər. Həmçinin bütün insanlar sənə zərər verməyə qalxsalar, Allahın sənin haqqında təqdir etdiyi zərərdən artığını verə bilməzlər. Çünki artıq qədəri yazan qələm qaldırılmış, səhifələr qurumuşdur (Bundan sonra ilahi qədərdə hər hansı bir dəyişiklik baş verməsi mümkün deyil)".**

Tirmizi, Qiyamət 59

Tirmizidən başqa bir rəvayətdə də (Əhməd bin Hənbəl, Müsnəd I, 307) belə buyurulmuşdur: **"Allahın əmr və qadağalarına riayət et ki, Onu qarşında görəsən. Bolluq içində olarkən (əmrlərinə itaət edərək) Al-**

lahı tanı ki, dara düşdüyündə (qurtarmaq üçün) O da səni tanısın. Bil ki, sənin haqqında yazılmamış olan şey başına gəlməz. Sənə təqdir olunan da səni adlayıb başqasına getməz. Bil ki, zəfər səbirlə, sevinc kədərlə, asanlıq da çətinliklə birlikdədir".

❁

٦٤ـ عَنْ أَنسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: «إِنَّكُمْ لَتَعْمَلُونَ أَعْمَالاً هِيَ أَدَقُّ فِي أَعْيُنِكُمْ مِنَ الشَّعْرِ كُنَّا نَعُدُّهَا عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ مِنَ الْمُوبِقَاتِ». رَوَاهُ الْبُخَارِيُّ .

64. Ənəs bin Malik *radiyallahu anh* belə dedi:

"Siz tük qədər əhəmiyyət vermədiyiniz bəzi işlər görürsünüz, halbuki biz Rəsulullah *səllallahu əleyhi və səlləm* zamanında onları həlak edən böyük xətalardan sayardıq".

Buxari, Riqaq 32

❁

٦٥ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ اللَّهَ تعالى يَغَارُ، وَغَيْرَةُ اللَّهِ تَعَالَى أَنْ يَأْتِيَ الْمَرْءُ مَا حَرَّمَ اللَّهُ عَلَيْهِ». مُتَّفَقٌ عَلَيْهِ .

65. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala da qısqanır. Onu qısqandıran qulun ilahi yasaqları tapdamasıdır".

Buxari, Nikah 107; Müslim, Tövbə 36. Həmçinin bax. Tirmizi, Rada 14

❁

٦٦ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللهُ عنهُ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: «إِنَّ ثَلاَثَةً مِنْ بَنِي إِسْرَائِيلَ أَبْرَصَ وَأَقْرَعَ وَأَعْمَى أَرَادَ اللَّهُ أَنْ يَبْتَلِيَهُمْ ، فَبَعَثَ إِلَيْهِمْ مَلَكًا

فَأَتَى الأَبْرَصَ فَقَالَ: أَيُّ شَيْءٍ أَحَبُّ إِلَيْكَ؟ قَالَ: لَوْنٌ حَسَنٌ ، وَجِلْدٌ حَسَنٌ ، وَيَذْهَبُ عَنِّي الَّذي قَدْ قَذِرَنِي النَّاسُ ؛ فَمَسَحَهُ فَذَهَبَ عَنْهُ قَذَرُهُ وَأُعْطِيَ لَوْنًا حَسَنًا. فَقَالَ: فَأَيُّ الْمَالِ أَحَبُّ إِلَيْكَ؟ قَالَ الإِبِلُ ـ أَوْ قَالَ الْبَقَرُ ـ شَكَّ الرَّاوِي، فَأُعْطِيَ نَاقَةً عُشَرَاءَ فَقَالَ: بَارَكَ اللَّهُ لَكَ فِيهَا. فَأَتَى الأَقْرَعَ فَقَالَ: أَيُّ شَيْءٍ أَحَبُّ إِلَيْكَ؟ قَالَ: شَعْرٌ حَسَنٌ ، وَيَذْهَبُ عَنِّي هَذَا الَّذِي قَذِرَنِي النَّاسُ ، فَمَسَحَهُ فَذَهَبَ عَنْهُ وَأُعْطِيَ شَعْرًا حَسَنًا. قَالَ: فَأَيُّ الْمَالِ أَحَبُّ إِلَيْكَ؟ قَالَ: الْبَقَرُ ، فَأُعْطِيَ بَقَرَةً حَامِلاً قَالَ بَارَكَ اللَّهُ لَكَ فِيهَا. فَأَتَى الأَعْمَى فَقَالَ: أَيُّ شَيْءٍ أَحَبُّ إِلَيْكَ؟ قَالَ: أَنْ يَرُدَّ اللّهُ إِلَيَّ بَصَرِي فَأُبْصِرَ النَّاسَ فَمَسَحَهُ فَرَدَّ اللَّهُ إِلَيْهِ بَصَرَهُ. قَالَ: فَأَيُّ الْمَالِ أَحَبُّ إِلَيْكَ؟ قَالَ الْغَنَمُ فَأُعْطِيَ شَاةً وَالِدًا، فَأَنْتَجَ هَذَانِ وَوَلَّدَ هَذَا، فَكَانَ لِهَذَا وَادٍ مِنَ الإِبِلِ، وَلِهَذَا وَادٍ مِنَ الْبَقَرِ وَلِهَذَا وَادٍ مِنَ الْغَنَمِ، ثُمَّ إِنَّهُ أَتَى الأَبْرَصَ فِي صُورَتِهِ وَهَيْئَتِهِ فَقَالَ، رَجُلٌ مِسْكِينٌ قَدِ انْقَطَعَتْ بِيَ الْحِبَالُ فِي سَفَرِي فَلاَ بَلاَغَ لِيَ الْيَوْمَ إِلَّا بِاللّهِ ثُمَّ بِكَ، أَسْأَلُكَ بِالَّذِي أَعْطَاكَ اللَّوْنَ الْحَسَنَ وَالْجِلْدَ الْحَسَنَ وَالْمَالَ بَعِيرًا أَتَبَلَّغُ بِهِ فِي سَفَرِي، فَقَالَ: الْحُقُوقُ كَثِيرَةٌ. فَقَالَ: كَأَنِّي أَعْرِفُكَ، أَلَمْ تَكُنْ أَبْرَصَ يَقْذَرُكَ النَّاسُ فَقِيرًا فَأَعْطَاكَ اللّهُ!؟ فَقَالَ: إِنَّمَا وَرِثْتُ هَذَا المالَ كَابِرًا عَنْ كَابِرٍ فَقَالَ: إِنْ كُنْتَ كَاذِبًا فَصَيَّرَكَ اللّهُ إِلَى ما كُنْتَ. وَأَتَى الأَقْرَعَ فِي صُورَتِهِ وَهَيْئَتِهِ فَقَالَ لَهُ مِثْلَ مَا قَالَ لِهَذَا وَرَدَّ عَلَيْهِ مِثْلَ مَا رَدَّ هَذَا فَقَالَ: اِنْ كُنْتَ كَاذِبًا فَصَيَّرَكَ اللَّهُ إِلَى مَا كُنْتَ. وَأَتَى الأَعْمَى فِي صُورَتِهِ وَهَيْئَتِهِ فَقَالَ: رَجُلٌ مِسْكِينٌ وابْنُ سَبِيلٍ اِنْقَطَعَتْ بِيَ الْحِبَالُ فِي سَفَرِي فَلاَ بَلاَغَ لِيَ الْيَوْمَ إِلَّا باللَّهِ ثُمَّ بِكَ أَسْأَلُكَ بِالَّذِي رَدَّ عَلَيْكَ بَصَرَكَ شَاةً أَتَبَلَّغُ بِها فِي سَفَرِي؟ فَقَالَ: قَدْ كُنْتُ أَعْمَى فَرَدَّ اللَّهُ إِلَيَّ بَصَرِي فَخُذْ ما شِئْتَ وَدَعْ مَا

شِئْتَ فَوَاللَّهِ لاَ أَجْهَدُكَ الْيَوْمَ بِشَيْءٍ أَخَذْتَهُ لِلَّهِ عَزَّ وَجَلَّ. فَقَالَ: أَمْسِكْ مَالَكَ فإِنَّمَا ابْتُلِيتُمْ فَقَدْ رَضِيَ اللّٰهُ عَنْكَ وَسَخَطَ عَلَى صَاحِبَيْكَ» . مُتَّفَقٌ عَلَيْهِ .

66. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət olunduğuna görə o, Nəbi *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitmişdir:

"İsrail oğulları arasında biri ala rəngli (əbrəş), biri keçəl, biri də kor olan üç nəfər vardı. Allah-Təala onları sınağa çəkmək istədi və yanlarına bir mələk göndərdi.

Mələk dərisi ala rəngdə olan adamın yanına gəldi:

- Ən çox arzuladığın şey nədir? - dedi. Ala rəngli adam:

- Gözəl rəng, gözəl dəri və insanların iyrəndiyi bu halın məndən getməsi,- cavabını verdi. Mələk ona məsh çəkdi və xəstəliyi sağaldı, rəngi gözəlləşdi. Bu dəfə mələk:

- Ən çox hansı mala sahib olmağı arzulayırsan?" - sualını verdi. O:

- Dəvə (yaxud da inək),- dedi. Ona on aylıq boğaz dəvə verildi. Mələk:

- Allah bu dəvəni sənin üçün bərəkətli qılsın,- deyə dua etdi.

Sonra keçəlin yanına gəlib:

- Ən çox arzuladığın şey nədir? - deyə soruşdu. Keçəl:

- Gözəl saç və insanları məndən uzaqlaşdıran bu halın getməsi,- dedi. Mələk ona məsh çəkdi, keçəllikdən xilas oldu. Gur və gözəl saça sahib oldu. Mələk soruşdu:

- Ən çox sahib olmaq istəyidin mal nədir? O:

- İnək,- dedi. Ona da boğaz bir inək verildi. Mələk:

- Allah bunu sənin üçün bərəkətli qılsın,- deyə dua etdikdən sonra korun yanına gəldi və:

- Nə çox arzuladığın şey nədir? - dedi. Kor:

- Allahın gözlərimi mənə geri qaytarmasını və insanları görməyi çox istəyirəm,- cavabını verdi. Mələk (onun gözlərinə) məsh çəkdi. Allah gözlərini geri verdi. Bu dəfə mələk:

- Ən çox sahib olmaq istədiyin şey nədir? - dedi. O da:

- Qoyun,- cavabını verdi. Ona da boğaz bir qoyun verildi.

Dəvə, inək və qoyun balaladı. Birinin vadi dolusu dəvə sürüsü, birinin inək, digərininsə qoyun sürüsü oldu.

Daha sonra mələk ala rəngli adamın yanına onun əvvəlki qılığında gəldi və:

- Kasıbam, yoluma davam edəcək imkanım yoxdur. Getmək istədiyim yerə əvvəlcə Allahın, sonra sənin yardımınla çata bilərəm. Rəngini və cildini gözəlləşdirən Allah üçün səfərimi başa vura bilmək üçün bir dəvə istəyirəm,- dedi.

O isə:

- Mal veriləcək yer çoxdur,- dedi. Mələk:

- Elə bil səni tanıyıram. Sən insanların diksinib uzaq durduğu, kasıb olduğun halda Allahın varlandırdığı əbrəş deyilsən? - dedi. O isə:

- Bu mal mənə atalarımdan miras qaldı,- dedi. Mələk:

- Əgər yalan deyirsənsə, Allah səni əvvəlki halına qaytarsın,- dedi.

Sonra mələk keçəlin əvvəlki qılığına girib onun yanına getdi. Ona da əbrəşə söylədiklərini söylədi. Keçəl də əbrəş kimi cavab verdi. Mələk ona da:

- Yalan deyirsənsə, Allah səni əvvəlki halına qaytarsın,- dedi.

Bu dəfə korun qılığına girib onun yanına getdi:

- Yol üstündə olan kasıbam. Yoluma davam edəcək imkanım qalmadı. Bu gün əvvəlcə Allahın, sonra sənin köməyinlə yoluma davam edə bilərəm. Gözlərini sənə geri verən Allah üçün yoluma davam etmək üçün səndən bir qoyun istəyirəm,- dedi. Əvvəllər kor olan adam:

- Həqiqətən mən kor idim. Allah gözlərimi geri verdi. İstədiyini götür, istədiyinə dəymə. Allaha and içirəm ki, bu gün götürəcəyin heç nədə sənə mane olmayacağam,- dedi. Mələk:

- Malın sənin olsun. Bu sizin üçün imtahan idi. Allah səndən razı oldu, digər yoldaşlarına qəzəb etdi,- cavabını verdi (və oradan ayrıldı).

Buxari, Ənbiya 51; Müslim, Zöhd 10

٦٧ـ عَنْ أَبِي يَعْلَى شَدَّادِ بْنِ أَوْسٍ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «اَلْكَيِّسُ مَنْ دَانَ نَفْسَه وَعَمِلَ لِمَا بَعْدَ الْمَوْتِ، وَالْعَاجِزُ مَنْ أَتْبَعَ نَفْسَهُ هَوَاهَا وَتَمَنَّى عَلَى اللَّهِ الْأَمَانِيَّ». رَوَاهُ التِّرْمِذِيُّ .

67.Əbu Yalə Şəddad bin Övs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ağıllı adam nəfsinə hakim olan və ölümdən sonrası üçün çalışandır. Aciz insan isə nəfsini duyğularının ardınca salan və elə hey Allahdan istəyən (bunu kifayət görən)dir".

Tirmizi ,Qiyamət 25. Həmçinin bax. İbn Macə, Zöhd 31

❁

٦٨ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مِنْ حُسْنِ إِسْلَامِ الْمَرْءِ تَرْكُهُ مَا لاَ يَعْنِيهِ». رَوَاهُ التِّرْمِذِيُّ .

68. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Özünə aid olmayan şeyləri tərk etməsi insanın yaxşı müsəlman olmasındandır".

Tirmizi, Zöhd 11. Həmçinin bax. İbn Macə, Fitən 12

❁

٦٩ـ عَنْ عُمَرَ رَضِيَ اللّٰهُ عنه عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لاَ يُسْأَلُ الرَّجُلُ فِيمَ ضَرَبَ امْرَأَتَهُ». رَوَاهُ أَبُو دَ وُدَاوَغَيْرُهُ .

69. Ömər *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kişidən xanımını nə üçün döydüyünü soruşmazlar!"[7]

Əbu Davud, Nikah 42. Həmçinin bax. İbn Macə, Nikah 51

7. Bu hədis əvvəlki hədisi izah edir. Ər-arvad arasında baş verənlərin başqalarını əlaqədar etmədiyini bildirir.

TƏQVA

Ayələr

يَا أَيُّهَا الَّذِينَ اٰمَنُوا اتَّقُوا اللَّهَ حَقَّ تُقَاتِهِ.

1. "Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) **ölün!"** (Ali-İmran, 102)

فَاتَّقُوا اللَّهَ ما اسْتَطَعْتُمْ.

2. "Allahdan bacardığınız qədər qorxun". (ət-Təğabun, 16)

يا أَيُّهَا الَّذِينَ اٰمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلاً سَدِيدًا.

3. "Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!" (əl-Əhzab, 70)

وَمَنْ يَتَّقِ اللَّه يَجْعَلْ لَهُ مَخْرَجًا وَيَرْزُقْهُ مِنْ حَيْثُ لاَ يَحْتَسِبُ.

4. "Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) **bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər".** (Ət-Talaq, 2-3)

إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا وَيُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

5. "Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqı ayırd edən (bir nur) **verər** (dünyada və axirətdə çıxış yolu göstərər)**, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf** (mərhəmət) **sahibidir!"** (əl-Ənfal, 29)

Hədislər

٧٠ـ عن أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قِيلَ يَا رَسُولَ اللَّهِ، مَنْ أكرمُ الناسِ؟ قَالَ:«أَتْقَاهُمْ». فَقَالُوا: لَيْسَ عَنْ هَذَا نَسْأَلُكَ، قَالَ: «فَيُوسُفُ نَبِيُّ اللَّهِ ابْنُ نَبِيِّ اللَّهِ نَبِيِّ اللَّهِ ابْنِ خَلِيلِ اللَّهِ» قَالُوا: لَيْسَ عَنْ هَذَا نَسْأَلُكَ قَالَ:«فَعَنْ مَعَادِنِ الْعَرَبِ تَسْأَلُونِي؟ خِيَارُهُمْ فِي الْجَاهِلِيَّةِ خِيَارُهُمْ فِي الإِسْلاَمِ إِذَا فَقُهُوا» . مُتَّفَقٌ عَلَيْهِ .

70. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Bəzi insanlar Rəsulullah *səllallahu əleyhi və səlləmdən*:

- Ey Allahın Rəsulu, insanların ən xeyirlisi, şərəflisi kimdir? - deyə soruşdular.

Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Allahdan ən çox qorxanlardır", -** buyurdu.

- Ey Allahın Rəsulu, biz bunu soruşmuruq,- dedilər.

- **"Elə isə Allahın xəlili (İbrahim)in oğlu, Allahın nəbisi (İshaq) ın oğlu, Allahın nəbisi (Yaqub)un oğlu, Allahın nəbisi Yusufdur", -** buyurdu.

- Ey Allahın Rəsulu, biz bunu da soruşmuruq,- dedilər.

- **"Elə isə siz məndən ərəb qəbilələrini soruşursunuz. (Bilin ki) Cahiliyyə dövründə xeyirli (şərəfli) olanlar əgər dini hökmlərə yaxşı riayət etsələr İslamiyyət zamanında da xeyirlidirlər", -** buyurdu.

Buxari, Ənbiya 8, 14, 19, Mənaqib 1, Təfsiru surə (12), 2; Müslim, Fəzail 168

❁

٧١ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ الدُّنْيَا حُلْوَةٌ خَضِرَةٌ، وإِنَّ اللَّه مُسْتَخْلِفُكُمْ فِيهَا فَيَنْظُرَ كَيْفَ تَعْمَلُونَ، فَاتَّقُوا الدُّنْيَا وَاتَّقُوا النِّسَاءَ؛ فَإِنَّ أَوَّلَ فِتْنَةِ بَنِي إِسْرَائِيلَ كَانَتْ فِي النِّسَاءِ» . رَوَاهُ مُسْلِمٌ .

71. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dünya şirin, gözqamaşdıran və cazibədardır. Allah onu sizin istifadənizə verəcək və necə hərəkət edəcəyinizə baxacaqdır. Dünyaya aldanmaqdan çəkinin. Qadınlara qapılmaqdan qorunun. Çünki İsrail oğulları arasında ilk fitnə qadınların ucbatından çıxmışdır".

Müslim, Zikr 99. Həmçinin bax. Tirmizi, Fitən 26; İbn Macə, Fitən 19

❁

٧٢ ـ عنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ: «اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْهُدَى وَالتُّقَى وَالْعَفَافَ وَالْغِنَى». رَوَاهُ مُسْلِمٌ .

72. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə dua edərdi:

"Allahım, Səndən hidayət, təqva, iffət və könül zənginliyi istəyirəm".

Müslim, Zikr 72. Həmçinin bax. Tirmizi, Dəavat 72; İbn Macə, Dua 2

❁

٧٣ ـ عَنْ أَبِي طَرِيفٍ عَدِيِّ بْنِ حَاتِمٍ الطَّائِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ حَلَفَ عَلَى يَمِينٍ ثُمَّ رَأَى أَتْقَى لِلّٰهِ مِنْهَا فَلْيَأْتِ التَّقْوَى». رَوَاهُ مُسْلِمٌ .

73. Əbu Tarif Adiy bin Hatim ət-Tai *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitdiyini deyir:

"Bir işi görmək və ya görməmək barədə and içən, sonra da (andının) əksini təqvaya daha münasib görən kəs (andından dönüb) təqvaya yönəlsin!"

Müslim, Əyman 15

❁

٧٤ـ عَنْ أَبِي أُمَامَةَ صُدَيِّ بنِ عَجْلاَنَ الْبَاهِلِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَخْطُبُ فِي حَجَّةِ الْوَدَاعِ فَقَالَ: «اِتَّقُوا اللَّهَ ، وَصَلُّوا خَمْسَكُمْ ، وَصُومُوا شَهْرَكُمْ، وأَدُّوا زَكَاةَ أَمْوَالِكُمْ ، وَأَطِيعُوا أُمَرَاءَكُمْ تَدْخُلُوا جَنَّةَ رَبِّكُمْ». رَوَاهُ التِّرْمِذِيُّ .

74. Əbu Uməmə Südey bin Əclan əl-Bahili *radiyallahu anhdan* rəvayət edildiyinə görə "Rəsulullah *səllallahu əleyhi və səlləmi* Vida Xütbəsində belə buyurarkən dinlədim", - demişdir:

"Allahdan qorxun. Beş vaxt namazınızı qılın. Ramazan orucunuzu tutun. Mallarınızın zəkatını verin. İdarəçilərinizə itaət edin. (Belə edərsinizsə birbaşa) Rəbbinizin cənnətinə girərsiniz".

Tirmizi, Cümə 80

TƏRƏDDÜDSÜZ İMAN VƏ ALLAHA TAM BEL BAĞLAMAQ
(YƏQİN VƏ TƏVƏKKÜL)

Ayələr

وَلَمَّا رَأَى الْمُؤْمِنُونَ الْأَحْزَابَ قَالُوا هَذَا مَا وَعَدَنَا اللَّهُ وَرَسُولُهُ وَصَدَقَ اللَّهُ وَرَسُولُهُ وَمَا زَادَهُمْ إِلَّا إِيمَانًا وَتَسْلِيمًا .

1. "Möminlər (müttəfiqlərin) **ordu hissələrini gördükdə dedilər: "Bu, Allahın və Peyğəmbərinin bizə olan** (zəfər) **vədidir.** (Biz bununla imtahana çəkilirik. Əgər bu imtahandan yaxşı çıxsaq, zəfər çalacağıq, çünki Allah və Peyğəmbəri həqiqi möminlərə kafirlər üzərində qalib olmağı vəd etmişlər). **Allah və Peyğəmbəri düz buyurmuşlar!" Bu** (vəziyyət) **onların yalnız** (Allaha) **imanını və itaətini artırdı".** (əl-Əhzab, 22)

اَلَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُوا لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَانًا وَقَالُوا حَسْبُنَا اللَّهُ وَنِعْمَ الْوَكِيلُ فَانْقَلَبُوا بِنِعْمَةٍ مِنَ اللَّهِ وَفَضْلٍ لَمْ يَمْسَسْهُمْ سُوءٌ واتَّبَعُوا رِضْوَانَ اللَّهِ وَاللَّهُ ذُو فَضْلٍ عَظِيمٍ .

2. "O kəslər ki, xalq onlara: "Camaat sizə qarşı (qüvvə) **toplamışdır, onlardan qorxun!" - dedikdə,** (bu söz) **onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!" – deyə cavab verdilər. Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir".** (Ali-İmran, 173-174)

وَتَوَكَّلْ عَلَى الْحَيِّ الَّذِي لَا يَمُوتُ .

3. "Ölməz, həmişə diri olana (Allaha) bel bağla". (əl-Furqan, 58)

وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ .

4. " Möminlər yalnız Allaha təvəkkül etsinlər!" (İbrahim, 11)

فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ .

5. " Qəti qərara gəldikdə isə Allaha təvəkkül et!" (Ali-İmran, 159)

وَمَنْ يَتَوَكَّلْ عَلَى اللَّهِ فَهُوَ حَسْبُهُ .

6. " Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər". (ət-Talaq, 3)

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ اٰيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ .

7. "Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) **ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəblərinə təvəkkül edərlər".** (əl-Ənfal, 2)

Hədislər

٧٥ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «عُرِضَتْ عَلَيَّ الْأُمَمُ فَرَأَيْتُ النَّبِيَّ وَمَعَهُ الرُّهَيْطُ، والنَّبِيَّ وَمَعَهُ الرَّجُلُ وَالرَّجُلَانِ، وَالنَّبِيَّ لَيْسَ مَعَهُ أَحَدٌ ، إِذْ رُفِعَ لِي سَوَادٌ عَظِيمٌ ، فَظَنَنْتُ أَنَّهُمْ أُمَّتِي فَقِيلَ لِي: هَذَا مُوسَى وَقَوْمُهُ وَلٰكِنِ انْظُرْ إِلَى الْأُفُقِ فَنَظَرْتُ فَإِذَا سَوَادٌ عَظِيمٌ فَقِيلَ لِي : أُنْظُرْ إِلَى الْأُفُقِ الْاٰخَرِ ، فَإِذَا سَوَادٌ عَظِيمٌ ، فَقِيلَ لِيَ: هَذِهِ أُمَّتُكَ وَمَعَهُمْ سَبْعُونَ أَلْفًا يَدْخُلُونَ الْجَنَّةَ بِغَيْرِ حِسَابٍ وَلَا عَذَابٍ ، ثُمَّ نَهَضَ فَدَخَلَ مَنْزِلَهُ ، فَخَاضَ النَّاسُ فِي أُولَئِكَ الَّذِينَ يَدْخُلُونَ الْجَنَّةَ بِلَا حِسَابٍ وَلَا عَذَابٍ فَقَالَ بَعْضُهُم: فَلَعَلَّهُمُ الَّذِينَ صَحِبُوا رَسُولَ اللَّهِ ﷺ ، وَقَالَ بَعْضُهُمْ فَلَعَلَّهُمُ الَّذِينَ وُلِدُوا فِي الْإِسْلَامِ فَلَمْ يُشْرِكُوا بِاللَّهِ ـ وَذَكَرُوا أَشْيَاءَ ـ فَخَرَجَ عَلَيْهِمْ رَسُولُ اللّٰهِ ﷺ فَقَالَ: «مَا الَّذِي تَخُوضُونَ فِيهِ؟» فَأَخْبَرُوهُ ، فَقَالَ: «هُمُ الَّذِينَ لَا يَرْقُونَ ، وَلَا يَسْتَرْقُونَ ، وَلَا يَتَطَيَّرُونَ ، وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ». فَقَامَ عُكَّاشَةُ بْنُ مِحْصَنٍ فَقَالَ: ادْعُ اللَّهَ أَنْ يَجْعَلَنِي مِنْهُمْ ، فَقَالَ: «أَنْتَ مِنْهُمْ» ثُمَّ قَامَ رَجُلٌ اٰخَرُ فَقَالَ: اُدْعُ اللَّهَ أَنْ يجْعَلَنِي منْهُمْ ، فَقَالَ : «سَبَقَكَ بِهَا عُكَّاشَةُ». مُتَّفَقٌ عَلَيْهِ .

75. Abdullah bin Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"(Keçmiş) ümmətlər mənə göstərildi. Elə peyğəmbər gördüm ki, yanında üç-beş nəfərlik kiçik bir qrup vardı. Elə peyğəmbər gördüm ki, yanında bir-iki nəfər vardı. Elə peyğəmbər də gördüm ki, yanında heç kim yoxdu. Bu zaman qarşıma böyük bir izdiham çıxdı. Mənim

ümmətim olduğunu zənn etdim. Mənə dedilər ki, "Bunlar Musanın ümmətidir, sən üfüqə bax!" Baxanda çox böyük bir qaraltı gördüm. Digər üfüqə baxmamamı dedilər. Baxdım, o tərəfdə də böyük bir qaraltı gördüm. "Bax bunlar sənin ümmətindir. Aralarında hesabsız və əzabsız cənnətə gedəcək yetmiş min nəfər var", - dedilər".

(İbn Abbas deyir ki) Sözünün bu yerində Rəsulullah *səllallahu əleyhi və səlləm* qalxıb evinə getdi. Oradakı səhabələr hesabsız və əzabsız cənnətə girəcək yetmiş min nəfər haqqında müzakirə etməyə başladılar. Kimisi "onlar Peyğəmbərin söhbətində iştirak edənlərdir", dedi. Kimisi "Onlar İslam gəldikdən sonra doğulub şirkə bulaşmayanlardır", - dedi. Beləcə bir çox fikir yürüdənlər oldu.

Onlar bu məsələ ətrafında danışarkən Peyğəmbər *səllallahu əleyhi və səlləm* gəldi.

- Nə barədə danışırsınız? - deyə soruşdu.

- Hesabsız və əzabsız cənnətə girəcəklərin kim olacağı barədə danışırıq,- dedilər.

Bu zaman Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Onlar sehr etməyən, etdirməyən, uğursuzluğa inanmayan və Rəblərinə təvəkkül edənlərdir", -** buyurdu.

Ukkaşə bin Mihsan yerindən sıçradı və:

- Ya Rəsullah, məni də onlardan etməsi üçün Allaha dua et,- dedi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* də:

- **"Sən onlardansan", -** buyurdu. Sonra başqa bir nəfər ayağa qalxdı və:

- Məni də onlardan etməsi üçün dua et,- dedi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* bu dəfə:

- Fürəsti yaxalamaqda Ukkaşə səndən erkən davrandı,- buyurdu.

Buxari, Tibb 17, 42, Riqaq 50; Müslim, İman 374. Həmçinin bax. Tirmizi, Qiyamət 16

٧٦ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا أَيْضًا أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَقُولُ: «اَللّٰهُمَّ لَكَ أَسْلَمْتُ ، وَبِكَ اٰمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خَاصَمْتُ: اَللّٰهُمَّ أَعُوذُ بِعِزَّتِكَ؛ لَا إِلَهَ إِلَّا أَنْتَ أَنْ تُضِلَّنِي أَنْتَ الْحَيُّ الَّذِي لَا يَمُوتُ ، وَالْجِنُّ وَالْإِنْسُ يَمُوتُونَ». مُتَّفَقٌ عَلَيْهِ .

76. Yenə Abdullah bin Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* tez-tez belə deyərdi:

"Allahım, Sənə təslim oldum, mən Sənə inandım, Sənə arxalandım. Üzümü, könlümü Sənə çevirdim, Sənin köməyinlə düşmənlərlə mücadilə etdim.

Allahım, məni yoldan çıxarmandan yenə Sənə, Sənin böyüklüyünə sığınıram. Səndən başqa ilah yoxdur. Ölməyəcək (əbədi) diri olan yalnız Sənsən. Cinlər və insanlarsa ölümlüdürlər!"

Buxari, Təhəccüd 1, Tövhid 7, 8, 24, 36; Müslim, Müsafirin 199, 201, Zikr 67.
Həmçinin bax. Əbu Davud, Salət 119; Tirmizi, Dəavat 29;
Nəsai, Qiyamul-leyl 9; İbn Macə, İqamət 180

❁

٧٧ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا أَيْضًا قَالَ: حَسْبُنَا اللّٰهُ وَنِعْمَ الْوَكِيلُ قَالَهَا إِبْرَاهِيمُ ﷺ حِينَ أُلْقِيَ فِي النَّارِ، وَقَالَهَا مُحَمَّدٌ ﷺ حِينَ قَالُوا: ﴿إِنَّ النَّاسَ قَدْ جَمَعُوا لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَانًا وَقَالُوا حَسْبُنَا اللّٰهُ وَنِعْمَ الْوَكِيلُ﴾. رَوَاهُ الْبُخَارِيُّ.

وَفِي رِوَايَةٍ لَهُ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: كَانَ آخِرَ قَوْلِ إِبْرَاهِيمَ ﷺ حِينَ أُلْقِيَ فِي النَّارِ: حَسْبِيَ اللّٰهُ وَنِعْمَ الْوَكِيلُ.

77. Yenə Abdullah bin Abbas *radiyallahu anhumə* belə dedi:

"Allah bizə yetər, o nə gözəl vəkildir" sözünü İbrahim əleyhissalam oda atılarkən söyləmişdir. Muhammməd *səllallahu əleyhi və səlləm* də bu sözü "Müşriklər sizin üstünüzə gəlmək üçün toplaşdılar, başınızın çarəsinə baxın", - deyildikdə söyləmişdir. Necə ki, bu xəbər müsəlmanların imanını artırmış və bir ağızdan "Allah bizə yetər, o nə gözəl vəkildir", - demişdilər.

Buxarinin Abdullah bin Abbas *radiyallahu anhumədən* nəql etdiyi başqa bir rəvayətdə Abdullah belə deyir:

"Oda atılarkən İbrahim əleyhissalamın son sözü:
"Allah mənə yetər, o nə gözəl vəkildir" olmuşdur.

Buxari, Təfsiru surə (3) 13

٧٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «يَدْخُلُ الْجَنَّةَ أَقْوَامٌ أَفْئِدَتُهُمْ مِثْلُ أَفْئِدَةِ الطَّيْرِ». رَوَاهُ مُسْلِمٌ .

78. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cənnətə girəcək elə insanlar var ki, onların qəlbləri quş kimi (incə və arxayınlıq) içindədir".

Müslim, Cənnət 27. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd, II, 331

❁

٧٩ ـ عَنْ جَابِرٍ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّهُ غَزَا مَعَ رَسُولِ اللَّهِ ﷺ قِبَلَ نَجْدٍ ، فَلَمَّا قَفَلَ رَسُولُ اللَّهِ ﷺ قَفَلَ مَعَهُمْ فَأَدْرَكَتْهُمْ الْقَائِلَةُ فِي وَادٍ كَثِيرِ الْعِضَاهِ ، فَنَزَلَ رَسُولُ اللَّهِ ﷺ وَتَفَرَّقَ النَّاسُ يَسْتَظِلُّونَ بِالشَّجَرِ وَنَزَلَ رَسُولُ اللَّهِ ﷺ تَحْتَ سَمُرَةٍ، فَعَلَّقَ بِهَا سَيْفَهُ وَنِمْنَا نَوْمَةً، فَإِذَا رَسُولُ اللَّهِ ﷺ يدْعُونَا وَإِذَا عِنْدَهُ أَعْرَابِيٌّ، فَقَالَ: «إِنَّ هَذَا اخْتَرَطَ عَلَيَّ سَيْفِي، وأَنَا نَائِمٌ فاسْتَيْقَظْتُ وَهُوَ فِي يَدِهِ صَلْتًا ، قَالَ : مَنْ يَمْنَعُكَ مِنِّي؟ قُلْتُ: «اَللَّهُ ـ ثَلَاثًا ـ » وَلَمْ يُعَاقِبْهُ وَجَلَسَ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ «قَالَ جَابِرٌ. كُنَّا مَعَ رَسُولِ اللَّهِ ﷺ بِذَاتِ الرِّقَاعِ فَإِذَا أَتَيْنَا عَلَى شَجَرَةٍ ظَلِيلَةٍ تَرَكْنَاهَا لِرَسُولِ اللَّهِ ﷺ فَجَاءَ رَجُلٌ مِنَ الْمُشْرِكِينَ وَسَيْفُ رَسُولِ اللَّهِ ﷺ مُعَلَّقٌ بالشَّجَرَةِ ، فَاخْتَرَطَهُ فَقَالَ : تَخَافُنِي؟ قَالَ: لَا، فَقَالَ. فَمَنْ يَمْنَعُكَ مِنِّي؟ قَالَ: اَللَّهُ».

وَفِي رِوَايَةِ أَبِي بَكْرٍ الْإِسْمَاعِيلِيِّ فِي صَحِيحِهِ: «فقَالَ: مَنْ يَمْنَعُكَ مِنِّي؟ قَالَ: اَللَّهُ . فَسَقَطَ السَّيْفُ منْ يَدِهِ فَأَخَذَ رَسُولُ اللَّهِ ﷺ السَّيْفَ فَقَالَ: مَنْ يَمْنَعُكَ

مِنِّي؟ فَقَالَ: كُنْ خَيْرَ آخِذٍ. فَقَالَ: تَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَأَنِّي رَسُولُ اللَّهِ؟ قَالَ: لَا، وَلٰكِنِّي أُعَاهِدُكَ أَنْ لَا أُقَاتِلَكَ وَلَا أَكُونَ مَعَ قَوْمٍ يُقَاتِلُونَكَ ، فَخَلَّى سَبِيلَهُ ، فَأَتَى أَصْحَابَهُ فَقَالَ: جِئْتُكُمْ مِنْ عِنْدِ خَيْرِ النَّاسِ».

79. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* ilə birlikdə Nəcd tərəflərində bir qəzvədə iştirak etmişdi. Qayıdarkən Rəsulullahla birlikdə idi. Günorta vaxtı **ağaclıq** və kolluq bir vadiyə çatanda Rəsulullah *səllallahu əleyhi və səlləm* orada düşərgə salmış, mücahidlər ağaclıqda kölgələnmək üçün ətrafa dağılmışdılar. Rəsulullah *səllallahu əleyhi və səlləm* isə **səmurə** adlanan sıx yarpaqlı bir ağacın altında istirahətə çəkilmiş, qılıncını da ağacdan asmışdı.

(Cabir deyir ki) gözümüzə bir az yuxu getmişdi ki, Rəsulullahın bizi çağırdığını eşitdik və tez yanına qaçdıq. Bir də gördük ki, Rəsulullahın yanında (müşriklərdən olan) bir bədəvi var. Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Mən yuxuda ikən bu bədəvi qılıncımı götürübmüş. Oyananda qılıncım qınından sıyrılmış vəziyyətdə bunun əlində idi.** Mənə:

- Səni mənim əlimdən kim xilas edəcək? - dedi. Mən də üç dəfə:

- **"Allah", -** cavabını verdim.

(Cabir deyir ki) Rəsulullah onu cəzalandırmamışdı, yanında oturmuşdu.

Buxari, Cihad 84, 87, Məğazi 31, 32; Müslim, Fəzail 13, 14, Müsafirin 311

(Buxaridə keçən) başqa bir rəvayətdə (bax. Məğazi 31) Cabir *radiyallahu anh* belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə Zatur-Riqa adlanan qəzvədə idik. Kölgəli bir ağac tapanda onu Rəsulullah *səllallahu əleyhi və səlləm* üçün saxlamağa adət etmişdik. (Bu dəfə də elə etdik) Lakin müşriklərdən bir nəfər gələrək Rəsulullahın (ağacdan asılmış) qılıncını götürüb qınından çıxarmış və:

- Məndən qorxursanmı? - deyə səslənmişdi. Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Xeyr", -** demişdi. Müşrik:

- Bəs səni mənim əlimdən kim qurtaracaq,- dedikdə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Allah", -** buyurmuşdu.

Əbu Bəkr əl-İsmailinin "Səhih"ində yer alan rəvayətdə hadisənin bundan sonrakı hissəsi belə nəql olunur:

Müşrik:

- Səni mənim əlimdən kim xilas edəcək? - dedi.

Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Allah"** cavabını verdi. Bu zaman qılınc adamın əlindən düşdü. Rəsulullah *səllallahu əleyhi və səlləm* qılıncı götürdü və:

- **Bəs yaxşı, indi səni mənim əlimdən kim qurtaracaq? -** buyurdu. Müşrik:

- Cəza verərkən yaxşı cəzalandır,- dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Allahdan başqa ilah olmadığını və mənim Allahın elçisi olduğumu qəbul və etiraf edərsənmi?" -** dedi.

Müşrik:

- Xeyr, qəbul etmərəm. Ancaq sənin lə mücadilə etməməyə, sənin lə döyüşəcək hər hansı bir qrupun içində yer almamağa söz verərəm,- dedi.

Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* onu sərbəst buraxdı. O da yoldaşlarının yanına qayıtdı və onlara:

- Ən xeyirli adamın yanından gəlirəm,- dedi.

❁

٨٠ ـ عَنْ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «لَوْ أَنَّكُمْ تَتَوَكَّلُونَ عَلَى اللَّهِ حَقَّ تَوَكُّلِهِ لَرَزَقَكُمْ كَمَا يَرْزُقُ الطَّيْرَ تَغْدُو خِمَاصًا وَتَرُوحُ بِطَانًا». رَوَاهُ التِّرْمِذِيُّ .

80. Ömər bin Xəttab *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurarkən eşitdiyini deyir:

“Əgər siz Allaha layiqincə təvəkkül etsəydiniz, (Allah) quşları doyurduğu kimi sizə də ruzi verərdi. Quşlar səhər (yuvadan) qursaqları boş çıxdıqları halda axşam doymuş halda qayıdarlar”.

Tirmizi, Zöhd 33. Həmçinin bax. İbn Macə, Zöhd 14

❁

٨١ ـ عَنْ أَبِي عُمَارَةَ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَا فُلَانُ ، إِذَا أَوَيْتَ إِلَى فِرَاشِكَ فَقُلْ : اَللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ ، لَا مَلْجَأَ وَلَا مَنْجَا مِنْكَ إِلَّا إِلَيْكَ اٰمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ ؛ وَنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ ، فَإِنَّكَ إِنْ مِتَّ مِنْ لَيْلَتِكَ مِتَّ عَلَى الْفِطْرَةِ وَإِنْ أَصْبَحْتَ أَصَبْتَ خَيْرًا». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ فِي الصَّحِيحَيْنِ عَنِ الْبَرَاءِ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ : «إِذَا أَتَيْتَ مَضْجَعَكَ فَتَوَضَّأْ وُضُوءَكَ لِلصَّلَاةِ ، ثُمَّ اضْطَجِعْ عَلَى شِقِّكَ الْأَيْمَنِ ، وَقُلْ وَذَكَرَ نَحْوَهُ ثُمَّ قَالَ: وَاجْعَلْهُنَّ اٰخِرَ مَا تَقُولُ».

81. Əbu Ümarə Bəra bin Azib *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **“Ey filankəs, yatağına uzandığın zaman belə dua et:**

Allahım, özümü Sənə təslim etdim. Üzümü Sənə çevirdim. İşimi Sənə həvalə etdim, işimdə Sənə güvəndim. (Rizanı) istəyərək, (əzabından) qorxaraq Sənə arxalandım, Sənə sığındım. Sənə qarşı Səndən başqa sığınacaq yoxdur. Endirdiyin kitaba və göndərdiyin peyğəmbərə inandım.

Əgər bu duanı edib yatdığın halda gecə ölsən, iman üzrə ölərsən, ölməyib səhərə çıxsan, xeyrə qovuşarsan”.

Buxari, Vudu 75, Dəavat 6, 9; Müslim, Zikr 56-58. Həmçinin bax. Əbu Davud, Ədəb 98

Buxari və Müslimin “Səhih”lərində (göstərilən yerlərdə) həmçinin Bəra bin Azibdən rəvayət edildiyinə görə Bəra “Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyurdu”, - demişdir:

- **“Yatağına girəcəyin zaman namaz qılmaq üçün aldığın dəstəmaz kimi dəstəmaz al, sonra sağ tərəfin üstə uzan və** -yuxarıdakı duanı olduğu kimi zikr edərək- **belə dua et!”**Sonra da bunu əlavə etdi:

- **“Ən son sözün bu olsun!”**

❁

٨٢ ـ عَنْ أَبِي بَكْرِ الصِّدِّيقِ رَضِيَ اللّٰهُ عَنْهُ عَبْدِ اللَّهِ بنِ عُثْمَانَ بْنِ عَامِرِ بْنِ عُمَرَ بْنِ كَعْبِ بْنِ سَعْدِ بْنِ تَيْمِ بْنِ مُرَّةَ بْنِ كَعْبِ بْنِ لُؤَيِّ بْنِ غَالِبٍ الْقُرَشِيِّ التَّيْمِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ ـ وَهُوَ وأَبُوهُ وَأُمُّهُ صحَابَةٌ ـ رَضِيَ اللّٰهُ عَنْهُم ـ قَالَ: نَظَرْتُ إِلَى أَقْدَامِ الْمُشْرِكِينَ وَنَحْنُ فِي الْغَارِ وَهُمْ عَلَى رُؤُوسِنَا ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، لَوْ أَنَّ أَحَدَهُمْ نَظَرَ تَحْتَ قَدَمَيْهِ لَأَبْصَرَنَا. فَقَالَ: «مَا ظَنُّكَ يَا أَبَا بَكْرٍ بِاثْنَيْنِ اَللَّهُ ثَالِثُهُمَا». مُتَّفَقٌ عَلَيْهِ .

82. Əbu Bəkr əs-Siddiq, Abdullah bin Osman bin Amr bin Ömər bin Kab bin Sad bin Teym bin Murrə bin Kab bin Lüey bin Qalib əl-Quraşi ət-Teymi *radiyallahu anhdan* rəvayət edildiyinə görə (Allah onlardan razı olsun. Atası və anası da səhabədir) o belə demişdir:

(Hicrət səfərində) biz Rəsulullah ilə mağarada ikən başımızın üstündə gəzən müşriklərin ayaqlarını gördüm və:

- Ey Allahın elçisi, əgər onlardan biri əyilib aşağı baxsa, mütləq bizi görəcək,- dedim. Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- “Üçüncüləri Allah olan iki nəfəri sən nə zənn edirsən (və onlar haqqında nə düşünürsən), ey Əbu Bəkr?”

Buxari, Təfsiru surə (9), 9; Fəzailul-əshab 2; Müslim, Fəzailus-səhabə 1

❁

٨٣ ـ عَنْ أُمِّ الْمُؤْمِنِينَ أُمِّ سَلَمَةَ وَاسْمُهَا هِنْدُ بِنْتُ أَبِي أُمَيَّةَ حُذَيْفَةَ الْمَخْزُومِيَّةُ رَضِيَ اللّٰهُ عَنْهَا أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا خرَجَ مِنْ بَيْتِهِ. قَالَ: بِسْمِ اللَّهِ تَوَكَّلْتُ عَلَى اللَّهِ: اَللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ. أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ وَغَيْرُهُمَا .

83. Əsl adı Hind binti Əbu Ümeyyə Hüzeyfə əl-Məhzumiyyə olan Ümmü Sələmə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* evindən çıxarkən belə dua edərdi:

"Allahın adı ilə çıxıram, Allaha təvəkkül edirəm. Allahım düz yoldan çıxmaqdan, çıxarılmaqdan, xətaya düşməkdən və düşürülməkdən, haqsızlıq etməkdən, haqsızlığa uğramaqdan, cahillik etməkdən və cahillik edənlərlə qarşılaşmaqdan Sənə sığınıram".

Əbu Davud, Ədəb 103; Tirmizi, Dəavat 35; İbn Macə, Dua 18

❁

٨٤ ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ قَالَ ـ يَعْنِي إِذَا خَرَجَ مِنْ بَيْتِهِ ـ : بِسْمِ اللَّهِ تَوَكَّلْتُ عَلَى اللَّهِ ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ ، يُقَالُ لَهُ: هُدِيتَ وَكُفِيتَ وَوُقِيتَ، وَتَنَحَّى عَنْهُ الشَّيْطَانُ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ وَغَيْرُهُمَا .

زَادَ أَبُو دَاوُدَ: «فَيَقُولُ : ـ يَعْنِي الشَّيْطَانَ ـ لِشَيْطَانٍ اٰخَرَ : كَيْفَ لَكَ بِرَجُلٍ قَدْ هُدِيَ وَكُفِيَ وَوُقِيَ.»

84. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kim evindən çıxarkən:

"Allahın adı ilə çıxır, Allaha təvəkkül edirəm. Günahdan qaçacaq, ibadət edəcək güc-qüvvət yalnız Allahın yardımı ilədir" deyərsə, ona:

“Doğru yola istiqamətləndirildin, ehtiyacların qarşılandı, düşmənlərindən qorundun”, - deyə cavab verilər. Şeytan da o adamdan uzaqlaşdırılar”.

Əbu Davudun rəvayətində bu əlavə var:

Şeytan digər şeytana: Hidayət edilmiş, ehtiyacları qarşılanmış və qorunmuş adama sən nə edə bilərsən ki? - deyər.

Əbu Davud, Ədəb 103; Tirmizi, Dəavat 34

❁

٨٥ ـ وعَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: «كَانَ أَخَوَانِ عَلَى عَهْدِ النَّبِيِّ ﷺ وكَانَ أَحدُهُمَا يَأْتِي النَّبِيَّ ﷺ وَالْاٰخَرُ يَحْتَرِفُ، فَشَكَا الْمُحْتَرِفُ أَخَاهُ لِلنَّبِيِّ ﷺ فَقَالَ: «لَعَلَّكَ تُرْزَقُ بِهِ ». رَوَاهُ التِّرْمِذِيُّ .

85. Ənəs *radiyallahu anh* belə dedi:

“Nəbi *səllallahu əleyhi və səlləm* zamanında iki qardaş vardı. Onlardan biri (elm öyrənmək üçün) Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gedər, digəri isə (dolanışıqlarını təmin etmək üçün) işləyərdi. (Bir gün) işləyən qardaş Nəbi *səllallahu əleyhi və səlləmə* digərindən şikayət etdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* də belə buyurdu:

- **“Bəlkə də sən onun sayəsində iş tapır, ruzi ilə təmin olunursan”.**

Tirmizi, Zöhd 33

DOĞRULUQ
(İSTİQAMƏT)

Ayələr

فَاسْتَقِمْ كَمٰا أُمِرْتَ .

1. “Sənə əmr edildiyi kimi, düz (yolda) **ol”.** (Hud, 112)

إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا تَتَنَزَّلُ عَلَيْهِمُ الْمَلَائِكَةُ أَنْ لَا تَخَافُوا وَلَا تَحْزَنُوا وَأَبْشِرُوا بِالْجَنَّةِ الَّتِي كُنْتُمْ تُوعَدُونَ ، نَحْنُ أَوْلِيَاؤُكُمْ فِي الْحَيَوةِ الدُّنْيَا وَفِي الْاٰخِرَةِ وَلَكُمْ فِيهَا مَا تَشْتَهِي أَنْفُسُكُمْ وَلَكُمْ فِيهَا مَا تَدَّعُونَ نُزُلًا مِنْ غَفُورٍ رَحِيمٍ

2. "Şübhəsiz: "Rəbbimiz Allahdır!" – deyən, sonra da (sözündə) **düz olan kəslərə** (ölüm ayağında) **mələklər nazil olub (belə deyəcəklər): "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Bağışlayandan, rəhm edəndən** (Allahdan) **ruzi** (ziyafət) **olaraq!"** (Xalqı) **Allaha tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?!"** (əl-Fussilət, 30-32)

إِنَّ الذينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ أُولَئِكَ أَصْحَابُ الْجَنَّةِ خَالِدِينَ فِيهَا جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ.

3. "Şübhəsiz: "Rəbbimiz Allahdır!" – deyənlərin, sonra da (sözünün üstündə) **möhkəm duranların** (qiyamət günü) **heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməyəcəklər! Belələri cənnətlikdirlər, onlar** (dünyada) **etdikləri** (yaxşı) **əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar!"** (əl-Əhqaf, 13-14)

Hədislər

٨٦ ـ عَنْ أَبِي عَمْرٍو ـ وقِيلَ أَبِي عَمْرَةَ ـ سُفْيَانَ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهَ عَنْهُ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، قُلْ لِي فِي الْإِسْلَامِ قَوْلًا لَا أَسْأَلُ عَنْهُ أَحَدًا غَيْرَكَ. قَالَ: «قُلْ: اٰمَنْتُ بِاللَّهِ ، ثُمَّ اسْتَقِمْ». رَوَاهُ مُسْلِمٌ.

86. Əbu Amr (yaxud Əbu Amrə) Süfyan bin Abdullah *radiyallahu anh* belə dedi:

- Ya Rəsulallah, mənə İslamı elə izah et ki, onun haqqında bir daha səndən başqasına soruşmaq ehtiyacı hiss etməyim,- dedim.

Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

- **“Allaha inandım de, sonra da dümdüz** (istiqamət üzrə) **ol!”**

Müslim, İman 62. Həmçinin bax. Tirmizi, Zöhd 61; İbn Macə, Fitən 12

❁

٨٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «قَارِبُوا وَسَدِّدُوا، وَاعْلَمُوا أَنَّهُ لَنْ يَنْجُوَ أَحَدٌ مِنْكُمْ بِعَمَلِهِ» قَالُوا: وَلَا أَنْتَ يَا رَسُولَ اللَّهِ؟ قَالَ : «وَلَا أَنَا إِلَّا أَنْ يَتَغَمَّدَنِيَ اللَّهُ بِرَحْمَةٍ مِنْهُ وفَضْلٍ». رَوَاهُ مُسْلِمٌ .

87. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“(İşlərinizdə) **orta yolu tutun, dümdüz olun. Bunu bilin ki, heç biriniz əməli sayəsində qurtula bilməz”.** Soruşdular ki:

- Sən də qurtula bilməzsən, ey Allahın elçisi?

- (Bəli) **mən də qurtula bilmərəm. Əgər Allah rəhməti və kərəmi ilə məni bağışlasa, o başqa!”**

Müslim, Münafiqin 76, 78. Həmçinin bax. Buxari, Riqaq 18, Mərda 19; İbn Macə, Zöhd 20

TƏFƏKKÜR

UCA ALLAHIN YARATDIQLARININ BÖYÜKLÜYÜNÜ, DÜNYANIN SONU OLDUĞUNU, AXİRƏTİN DƏHŞƏTLİ HALLARINI, DÜNYA VƏ AXİRƏTİN DİGƏR HALLARINI, NƏFSİN NÖQSANLI OLDUĞUNU, ONU TƏMİZLƏMƏYİ VƏ DOĞRULUĞA İSTİQAMƏTLƏNDİRMƏYİ FİKİRLƏŞMƏK

Ayələr

إِنَّمَا أَعِظُكُمْ بِوَاحِدَةٍ أَنْ تَقُومُوا لِلَّهِ مَثْنَى وَفُرَادَى ثُمَّ تَتَفَكَّرُوا .

1. “De: “Mən sizə ancaq bir öyüd verəcəyəm. Allah xatirinə (məni dinlədikdən sonra məclisimdən) **iki-iki, bir-bir durun** (durub gedin)**, sonra da bir dərindən düşünün”.** (əs-Səba, 46)

إِنَّ فِي خَلْقِ السَّمَوَاتِ وَالْأَرْضِ واخْتِلَافِ اللَّيْلِ والنَّهَارِ لَاٰيَاتٍ لِأُولِي الْأَلْبَابِ
اَلَّذِينَ يَذْكُرُونَ اللَّهَ قِيَامًا وَقُعُودًا وَعَلَى جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمٰوَاتِ
وَالْأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَذَا بَاطِلًا سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ

2. "Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) **ağıl sahibləri üçün** (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) **dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, otu-randa da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər** (və deyərlər): **"Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əza-bından** (Özün) **qoru!"** (Ali-İmran, 190-191)

أَفَلَا يَنْظُرُونَ إِلَى الْإِبِلِ كَيْفَ خُلِقَتْ، وإِلَى السَّمَاءِ كَيْفَ رُفِعَتْ، وَإِلَى الْجِبَالِ
كَيْفَ نُصِبَتْ وَإِلَى الْأَرْضِ كَيْفَ سُطِحَتْ فَذَكِّرْ إِنَّمَا أَنْتَ مُذَكِّرٌ .

3. "Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göyə (baxmır-lar ki) **necə ucaldılmışdır? Dağlara** (baxmırlar ki) **necə dikəldilmişdir? Və yerə** (baxmırlar ki) **necə döşədilmişdir?** (Ya Peyğəmbər! Mənim bəndələrimə) **öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən!"**
(əl-Ğaşiyə, 17-21)

أَفَلَمْ يَسِيرُوا فِي الْأَرْضِ فَيَنْظُرُوا .

4. **"Məgər onlar yer üzünü dolaşıb özlərindən əvvəlkilərin aqi-bətinin necə olduğunu görmürlərmi?! Allah onları yerlə yeksan etdi. Kafirləri də buna bənzərləri (belə şeylər) gözləyir!"** (Muhammməd, 10)

XEYİRLİ İŞLƏRƏ CAN ATMAQ

XEYİRLİ İŞLƏRƏ TƏLƏSMƏK VƏ XEYRƏ YÖNƏLƏN İNSANI CİDDİ VƏ TƏRƏDDÜDSÜZ ŞƏKİLDƏ ONU İŞLƏMƏYƏ TƏŞVİQ ETMƏK

Ayələr

فَاسْتَبِقُوا الْخَيْرَاتِ .

1. "Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın!" (əl-Bəqərə, 148)

وَسَارِعُوا إِلَى مَغْفِرَةٍ مِنْ رَبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمٰوَاتُ وَالْأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ.

2. "Rəbbinizin məğfirətinə və genişliyi göylərlə yer üzü qədər olan, müttəqilər üçün hazırlanmış Cənnətə tələsin." (Ali-İmran, 133)

Hədislər

٨٨ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «بَادِرُوا بِالْأَعْمَالِ الصَّالِحَةِ ، فَسَتَكُونُ فِتَنٌ كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ يُصْبِحُ الرَّجُلُ مُؤْمِنًا وَيُمْسِي كافِرًا وَيُمْسِي مُؤْمِنًا ، ويُصْبِحُ كافِرًا ، يَبِيعُ دِينَهُ بِعَرَضٍ مِنَ الدُّنْيَا» . رَوَاهُ مُسْلِمٌ.

88. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Faydalı işlər görməyə tələsin. Yaxın gələcəkdə bəzi fitnələr qaranlıq gecə kimi hər tərəfi bürüyəcək. O zaman insan sabaha mömin kimi çıxar, kafir kimi gecələyər. Mömin kimi gecələyər, kafir kimi sabahlayar. Dinini azacıq dünyalıq qarşılığında satar".

Müslim, İman 186. Həmçinin bax. Tirmizi, Fitən 30, Zöhd 3; İbn Macə, İqamə 78

٨٩ ـ عَنْ أَبِي سِرْوَعَةَ ـ بِكَسْرِ السِّينِ الْمُهْمَلَةِ وفَتْحِهَا ـ عُقْبَةَ بْنِ الْحَارِثِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: صَلَّيْتُ وَرَاءَ النَّبِيِّ ﷺ بِالْمَدِينَةِ الْعَصْرَ فَسَلَّمَ، ثُمَّ قَامَ مُسْرِعًا فَتَخَطَّى رِقَابَ النَّاسِ إِلَى بَعْضِ حُجَرِ نِسَائِهِ، فَفَزِعَ النَّاسُ مِنْ سُرْعَتِهِ، فَخَرَجَ عَلَيْهِمْ فَرَأَى أَنَّهُمْ قَدْ عَجِبُوا مِنْ سُرْعَتِهِ. قَالَ: «ذَكَرْتُ شَيْئًا مِنْ تِبْرٍ عِنْدَنَا فَكَرِهْتُ أَنْ يَحْبِسَنِي فَأَمَرْتُ بِقِسْمَتِهِ». رَوَاهُ الْبُخَارِيُّ.

وَفِي رِوَايَةٍ لَهُ: «كُنْتُ خَلَّفْتُ فِي الْبَيْتِ تِبْرًا مِنَ الصَّدَقَةِ فَكَرِهْتُ أَنْ أُبَيِّتَهُ.

89. Əbu Sirvəa (və ya Sərvəa) Uqbə bin Haris *radiyallahu anh* belə dedi:

Bir dəfə Mədinədə Rəsulullah *səllallahu əleyhi və səlləmin* arxasında ikindi namazını qılmışdım. Rəsulullah salam verib namazı tamamladı və sürətlə yerindən qalxdı, səfləri yararaq xanımlarından birinin otağına getdi. Camaat Peyğəmbər *səllallahu əleyhi və səlləmin* bu tələşından narahat oldular. Peyğəmbər *səllallahu əleyhi və səlləm* tezliklə geri qayıtdı. Bu tələsik hərəkətindən səhabələrin narahat olduğunu görüb belə buyurdu:

"Otağımızda bir az qızıl -və ya gümüş- olduğunu xatırladım. Xeyrə tələsməkdə mənə əngəl olmasını istəmədim və dərhal paylanmasını əmr etdim".

Buxari, Azan 158, əl-Əməl fis-salət 18; Nəsai, Səhv 104

Buxarinin başqa bir rəvayətində bu ifadə belədir:

"Otaqda sədəqə (olaraq paylanacaq) bir az qızıl -və ya gümüş- qoymuşdum. Gecə onun evdə qalmasını uyğun görmədim".

Buxari, Zəkat 20

❁

٩٠ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَجُلٌ لِلنَّبِيِّ ﷺ يَوْمَ أُحُدٍ: أَرَأَيْتَ إِنْ قُتِلْتُ فَأَيْنَ أَنَا؟ قَالَ: «فِي الْجَنَّةِ». فَأَلْقَى تَمَرَاتٍ كُنَّ فِي يَدِهِ ثُمَّ قَاتَلَ حَتَّى قُتِلَ. مُتَّفَقٌ عَلَيْهِ.

90. Cabir *radiyallahu anh* belə dedi:

Uhud döyüşündə bir nəfər Nəbi *səllallahu əleyhi və səlləmdən*:

- Əgər öldürülsəm, hara gedəcəyəm? - deyə soruşdu.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* də:

- **"Cənnətə", -** cavabını verdi.

Bu cavabı alan həmin adam əlində yediyi xurmaları bir kənara atdı, döyüş meydanına daldı və şəhid olana qədər vuruşdu.

Buxari, Məğazi 17; Müslim, İmarə 143. Həmçinin bax. Nəsai, Cihad 31

❁

٩١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، أَيُّ الصَّدَقَةِ أَعْظَمُ أَجْرًا؟ قَالَ: «أَنْ تَصَدَّقَ وأَنْتَ صَحِيحٌ شَحِيحٌ تَخْشَى الْفَقْرَ وَتَأْمُلُ الْغِنَى ، وَلَا تُمْهِلْ حَتَّى إِذَا بَلَغَتِ الْحُلْقُومَ قُلْتَ لِفُلَانٍ كَذَا وَلِفُلَانٍ كَذَا وَقَدْ كَانَ لِفُلَانٍ» . مُتَّفَقٌ عَلَيْهِ.

91. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Bir nəfər Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəlib soruşdu:

- Ey Allahın elçisi, hansı sədəqənin savabı daha böyükdür?

Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Gücün-qüvvən yerində ikən, sağlam ikən, xəsisliyin canlı ikən, kasıblamaqdan tələş edərkən, daha da varlanmağı fikirləşərkən verdiyin sədəqənin savabı daha böyükdür. (Bu işi) can boğaza gəlib "filankəsə bu qədər", "filankəsə bu qədər" deyəcəyin günə gecikdirmə. Onsuz da o mal varislərdən ona-buna qalmışdır".

Buxari, Zəkat 11, Vəsaya 7; Müslim, Zəkat 92

❁

٩٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَخَذَ سَيْفًا يَوْمَ أُحُدٍ فَقَالَ:

«مَنْ يَأْخُذُ مِنِّي هَذَا؟» فَبَسَطُوا أَيْدِيَهُمْ، كُلُّ إِنْسَانٍ مِنْهُمْ يَقُولُ: أَنَا أَنَا. قَالَ: «فَمَنْ يَأْخُذُهُ بِحَقِّهِ؟» فَأَحْجَمَ الْقَوْمُ، فَقَالَ أَبُو دُجَانَةَ رَضِيَ اللَّهُ عَنْهُ: أَنَا آخُذُهُ بِحَقِّهِ، فَأَخَذَهُ فَفَلَقَ بِهِ هَامَ الْمُشْرِكِينَ . رَوَاهُ مُسْلِمٌ.

92. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Uhud döyüşündə əlinə bir qılınc alıb:

- **"Bunu məndən kim almaq istəyər?" -** deyə soruşdu.

Bütün mücahidlər əllərini uzadıb:

- "Mən, mən", - dedilər.

Bu dəfə Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Haqqını vermək şərti ilə onu kim alar?" -** buyurdu.

Bu zaman hər kəs duruxsundu. Lakin Əbu Dücanə *radiyallahu anh*:

- Mən haqqını vermək şərti ilə alıram! - deyib qılıncı aldı və onunla müşriklərin kəlləsini ikiyə ayırdı.

Müslim, Fəzailus-səhabə 128

❁

٩٣ـ عَنِ الزُّبَيْرِ بْنِ عَدِيٍّ قَالَ: أَتَيْنَا أَنَسَ بْنَ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُ فَشَكَوْنَا إِلَيْهِ مَا نَلْقَى مِنَ الْحَجَّاجِ. فَقَالَ: اصْبِرُوا، فَإِنَّهُ لَا يَأْتِي زَمَانٌ إِلَّا والَّذِي بَعْدَهُ شَرٌّ مِنْهُ حَتَّى تَلْقَوْا رَبَّكُمْ، سَمِعْتُهُ مِنْ نَبِيِّكُمْ ﷺ . رَوَاهُ الْبُخَارِيُّ.

93. Zübeyr bin Adiy belə dedi:

Ənəs bin Malik *radiyallahu anhın* yanına gedib Haccacın zülmündən şikayət etdik. Ənəs belə dedi:

- **"Rəbbinizə qovuşana qədər səbir edin. Çünki gələn hər bir gün keçən gündən daha pis olacaq. Mən bunu Peyğəmbərimizdən eşitdim".**

Buxari, Fitən 6

٩٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «بَادِرُوا بِالْأَعْمَالِ سَبْعًا: هَلْ تَنْتَظِرُونَ إِلَّا فَقْرًا مُنْسِيًا، أَوْ غِنًى مُطْغِيًا، أَوْ مَرَضًا مُفْسِدًا، أَوْ هَرَمًا مُفْنِدًا، أَوْ مَوْتًا مُجْهِزًا، أَوِ الدَّجَّالَ فَشَرُّ غَائِبٍ يُنْتَظَرُ، أَوِ السَّاعَةَ، فَالسَّاعَةُ أَدْهَى وأَمَرُّ» . رَوَاهُ التِّرْمِذِيُّ .

94. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yeddi (əngəlləyən) şey gəlmədən yaxşı işlər görməyə tələsin. Yoxsa həqiqətən unutduran kasıblıq, azdıran zənginlik, pərişan edən xəstəlik, nə dediyini bilməyən qocalıq, qəflətən gələn ölüm, gəlməsi gözlənənlərin ən şərlisi olan Dəccal, bəlası ən dəhşətli və ən acı olan qiyamətdən başqa nə isə gözlədiyinizi zənn edirsiniz?"

Tirmizi, Zöhd 3

❁

٩٥ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ يَوْمَ خَيْبَرَ: «لَأُعْطِيَنَّ هَذِهِ الرَّايَةَ رَجُلًا يُحِبُّ اللَّهَ وَرَسُولَهُ ، يَفْتَحُ اللَّهُ عَلَى يَدَيْهِ» قَالَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ : مَا أَحْبَبْتُ الْإِمَارَةَ إِلَّا يَوْمَئِذٍ، فَتَسَاوَرْتُ لَهَا رَجَاءَ أَنْ أُدْعَى لَهَا، فَدَعَا رَسُولُ اللَّهِ ﷺ عَلِيَّ ابْنَ أَبِي طَالِبٍ رَضِيَ اللَّهُ عَنْهُ فَأَعْطاهُ إِيَّاهَا وَقَالَ: «امْشِ وَلَا تَلْتَفِتْ حَتَّى يَفْتَحَ اللَّهُ عَلَيْكَ»، فَسَارَ عَلِيٌّ شَيْئًا ثُمَّ وَقَفَ وَلَمْ يَلْتَفِتْ فَصَرَخَ: يَا رَسُولَ اللَّهِ، عَلَى مَاذَا أُقَاتِلُ النَّاسَ؟ قَالَ: «قَاتِلْهُمْ حَتَّى يَشْهَدُوا أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ. فَإِذَا فَعَلُوا ذَلِكَ فَقَدْ مَنَعُوا مِنْكَ دِمَاءَهُمْ وَأَمْوَالَهُمْ إِلَّا بِحَقِّهَا. وَحِسَابُهُمْ عَلَى اللَّهِ». رَوَاهُ مُسْلِمٌ.

95. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Xeybər döyüşündə belə buyurdu:

“Bu bayrağı Allahı və Rəsulunu sevən, Allahın fəth nəsib edəcəyi bir igidə verəcəyəm”.

Ömər *radiyallahu anh* deyir ki, heç vaxt əmir olmağı ogünkü qədər arzulamamışdım. Əmirlik üçün məni çağıracağını ümid edərək özümü elə hey Rəsulullaha göstərməyə çalışırdım. Rəsulullah *səllallahu əleyhi və səlləm* Əli bin Əbu Talibi çağırdı, bayrağı ona təslim etdi və belə buyurdu:

- **“İrəlilə, Allah fəthi nəsib edənə qədər sağa-sola baxma!”**

Əli dərhal hərəkət etdi, sonra dayandı və arxasına çevrilmədən (gözünü hədəfdən ayırmadan) səsləndi:

- Ey Allahın elçisi, onlarla nə etmələri üçün vuruşum?

Peyğəmbər *səllallahu əleyhi və səlləm* buyurdu:

- **“Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın rəsulu olduğuna şəhadət etmələrinə qədər onlarla vuruş. Bunu etdikləri an -dinin qadağalarını tapdamadıqca- qanlarını və mallarını səndən qorumuş olarlar. Əsl hesabları Allaha aiddir”.**

Müslim, Fəzailus-səhabə 33. Həmçinin bax. Buxari, Fəzailul-əshab 9

MÜCAHİDƏ[8]

Ayələr

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا وَإِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ .

1. “Bizim uğrumuzda cihad edənləri öz yollarımıza (Bizə tərəf gətirib çıxardan behişt yollarına) **qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir!”** (əl-Ənkəbut, 69)

وَاعْبُدْ رَبَّكَ حَتَّى يَأْتِيَكَ الْيَقِينُ .

2. “Və sənə yəqin (ölüm) **gələnədək Rəbbinə ibadət et!”** (əl-Hicr, 99)

وَاذْكُرِ اسْمَ رَبِّكَ وَتَبَتَّلْ إِلَيْهِ تَبْتِيلًا .

8. Nəfsin istəklərinə qalib gəlmək üçün mübarizə aparmaq

3. "Rəbbinin adını zikr et və (hər şeyi buraxıb) **Ona tərəf yönəl".**
(əl-Muzzəmmil, 8)

فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ .

4. "Kim (dünyada) **zərrə qədər yaxşı iş görmüşdürsə, onu** (onun xeyrini) **görəcəkdir** (mükafatını alacaqdır)**".** (əz-Zilzal, 7)

وَمَا تُقَدِّمُوا لِأَنْفُسِكُمْ مِنْ خَيْرٍ تَجِدُوهُ عِنْدَ اللَّهِ هُوَ خَيْرًا وَأَعْظَمَ أَجْرًا .

5. "Özünüz üçün öncə (dünyada) **nə yaxşı iş görsəniz, Allah dərgahında onun daha xeyirli və daha böyük mükafatı olduğunu görəcəksiniz".** (əl-Muzzəmmil, 20)

وَمَا تُنْفِقُوا مِنْ خَيْرٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ .

6. "Sizin mallarınızdan (bunlara) **nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!"** (əl-Bəqərə, 273)

Hədislər

٩٦ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : إِنَّ اللَّهَ تَعَالَى قَالَ : مَنْ عَادَى لِي وَلِيًّا فَقَدْ اٰذَنْتُهُ بِالْحَرْبِ وَمَا تَقَرَّبَ إِلَيَّ عَبْدِي بِشَيْءٍ أَحَبَّ إِلَيَّ مِمَّا افْتَرَضْتُ عَلَيْهِ ، وَمَا يَزَالُ عَبْدِي يَتَقَرَّبُ إِلَيَّ بِالنَّوَافِلِ حَتَّى أُحِبَّهُ، فَإِذَا أَحْبَبْتُهُ كُنْتُ سَمْعَهُ الَّذِي يَسْمَعُ بِهِ، وَبَصَرَهُ الَّذِي يُبْصِرُ بِهِ، وَيَدَهُ الَّتِي يَبْطِشُ بِهَا، وَرِجْلَهُ الَّتِي يَمْشِي بِهَا، وَإِنْ سَأَلَنِي أَعْطَيْتُهُ ؛ وَلَئِنِ اسْتَعَاذَنِي لَأُعِيذَنَّهُ». رَوَاهُ الْبُخَارِيُّ .

96. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Allah-Təalanın belə buyurduğunu dedi:

"Hər kim (ixlas ilə Mənə qulluq edən) bir dostuma düşmənlik edərsə, Mən də ona hərb elan edərəm. Qulum ona fərz qıldığım şey-

lərdən daha sevimli hər hansı bir əməllə Mənə yaxınlaşa bilməz. Qulum (fərzlərdən əlavə) işlədiyi nafilə ibadətlərlə durmadan yaxınlaşar, nəhayət, Mən onu sevərəm. Qulumu sevdiyim zaman (sanki) onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən nə istəsə onu mütləq verərəm, Mənə sığınarsa, onu qoruyaram".

Buxari, Riqaq 38

❁

٩٧ ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ فِيمَا يَرْوِيهِ عَنْ رَبِّهِ عَزَّ وَجَلَّ قَالَ: «إِذَا تَقَرَّبَ الْعَبْدُ إِلَيَّ شِبْرًا تَقَرَّبْتُ إِلَيْهِ ذِرَاعًا، وَإِذَا تَقَرَّبَ إِلَيَّ ذِرَاعًا تَقَرَّبْتُ مِنْهُ بَاعًا وَإِذَا أَتَانِي يَمْشِي أَتَيْتُهُ هَرْوَلَةً». رَوَاهُ الْبُخَارِيُّ .

97. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləmin* Rəbbindən rəvayət etdiyi qüdsi bir hədisdə Allah-Təala belə buyurmuşdur:

"Qul(um) Mənə bir qarış yaxınlaşarsa, Mən ona bir arşın[9] yaxınlaşaram. O Mənə bir arşın yaxınlaşarsa, Mən ona bir qulac yaxınlaşaram. O Mənə yeriyərək gələrsə, mən ona qaçaraq gedərəm".

Buxari, Tövhid 50. Həmçinin bax. Müslim, Zikr 2, 3, 20-22; Tövbə q; Tirmizi, Dəavat 131; İbn Macə, Ədəb 58

❁

٩٨ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «نِعْمَتَانِ مَغْبُونٌ فِيهِمَا كَثِيرٌ مِنَ النَّاسِ: الصِّحَّةُ، وَالْفَرَاغُ». رَوَاهُ الْبُخَارِيُّ .

98. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İki nemət vardır ki, insanların əksəriyyəti onları dəyərləndirmək xüsusunda aldanmışdır: səhhət və boş vaxt".

Buxari, Riqaq 1. Həmçinin bax. Tirmizi, Zöhd 1; İbn Macə, Zöhd 15

9. Təxminən 68 santimetrə bərabər uzunluq vahidi. Bu kimi uzunluq vahidləri, yerimək və qaçmaq kimi ifadələr simvolik məna daşıyır.

٩٩ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَا أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُومُ مِنَ اللَّيْلِ حَتَّى تَتَفَطَّرَ قَدَمَاهُ فَقُلْتُ لَهُ: لِمَ تَصْنَعُ هَذَا يَا رَسُولَ اللَّهِ ، وَقَدْ غَفَرَ اللَّهُ لَكَ مَا تَقَدَّمَ مِنْ ذَنْبِكَ وَمَا تَأَخَّرَ، قَالَ: «أَفَلَا أُحِبُّ أَنْ أَكُونَ عَبْدًا شَكُورًا» . مُتَّفَقٌ عَلَيْهِ .

99. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* gecə ayaqları şişənə qədər namaz qılardı. Aişə deyir ki, ona:

- Nə üçün özünü bu qədər yorursan, ey Allahın Rəsulu? Halbuki Allah sənin keçmiş və gələcək xətalarını bağışlamışdır,- dedim.

- **"Şükür edən bir qul olmaq istəmərəmmi?" -** buyurdu.

Buxari, Təfsiru surə (48), 2; Müslim, Münafiqun 81; Həmçinin bax. Buxari, Təhəccüd 6, Riqaq 20; Müslim, Münafiqin 79-80; Tirmizi, Salət 187; Nəsai, Qiyamul-leyl 17; İbn Macə, İqamə 200

❁

١٠٠ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَا أَنَّهَا قَالَتْ: «كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذا دَخَلَ الْعَشْرُ أَحْيَا اللَّيْلَ وَأَيْقَظَ أَهْلَهُ وَجَدَّ وَشَدَّ الْمِئْزَرَ». مُتَّفَقٌ عَلَيْهِ .

100. Aişə *radiyallahu anhə* belə dedi:

"Ramazan ayının son on günü girəndə Rəsulullah *səllallahu əleyhi və səlləm* gecələri ibadətlə keçirər, ailəsini oyandırar, xanımları ilə münasibətdən uzaq durardı".

Buxari, Leylətul-qadr 5; Müslim, Etikaf 7. Həmçinin bax. Əbu Davud, Ramazan 1; Nəsai, Qiyamul-leyl 17; İbn Macə, Siyam 57

❁

١٠١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «الْمُؤْمِنُ الْقَوِيُّ خَيْرٌ وَأَحَبُّ إِلَى اللَّهِ مِنَ الْمُؤْمِنِ الضَّعِيفِ وَفِي كُلٍّ خَيْرٌ. اِحْرِصْ عَلَى مَا يَنْفَعُكَ، وَاسْتَعِنْ بِاللَّهِ وَلَا تَعْجَزْ. وَإِنْ أَصَابَكَ شَيْءٌ فَلَا تَقُلْ لَوْ أَنِّي فَعَلْتُ كَانَ

كَذَا وَكَذَا، وَلَكِنْ قُلْ: قَدَّرَ اللَّهُ، وَمَا شَاءَ فَعَلَ فَإِنَّ لَوْ تَفْتَحُ عَمَلَ الشَّيْطَانِ».

رَوَاهُ مُسْلِمٌ .

101. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Güclü-qüvvətli mömin (Allah qatında) zəif mömindən daha xeyirli və sevimlidir. (Bununla yanaşı) hər ikisində də xeyir vardır. Sən özün üçün faydalı olanı əldə etməyə çalış. Allahdan kömək istə və əsla acizlik göstərmə. Başına bir iş gələrsə, "belə etsəydim, elə olardı" deyib heyfslənmə. "Allahın yazdığı qədər belədir, O, istədiyini edər", - de. Çünki "əgər belə etsəydim" sözü şeytanı razı salacaq işlərin qapısını açar".

Müslim ,Qədər 34. Həmçinin bax. İbn Macə, Müqəddimə 10

❁

١٠٢- وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «حُجِبَتِ النَّارُ بِالشَّهَوَاتِ، وَحُجِبَتِ الْجَنَّةُ بِالْمَكَارِهِ». مُتَّفَقٌ عَلَيْهِ .

102. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cəhənnəm nəfsə xoş gələn şeylərlə əhatələnmiş, cənnət isə nəfsin istəmədiyi şeylərlə əhatə olunmuşdur".

Buxari, Riqaq 28; Müslim, Cənnət 1. Həmçinin bax. Əbu Davud, Sünnət 22; Tirmizi, Cənnət 21; Nəsai, Əyman 3

❁

١٠٣ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ حُذَيْفَةَ بْنِ الْيَمَانِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ : «صَلَّيْتُ مَعَ النَّبِيِّ ﷺ ذَاتَ لَيْلَةٍ ، فَٱفْتَتَحَ الْبَقَرَةَ ، فَقُلْتُ يَرْكَعُ عِنْدَ الْمِئَةِ ثُمَّ مَضَى . فَقُلْتُ : يُصَلِّي بِهَا فِي رَكْعَةٍ ، فَمَضَى ، فَقُلْتُ : يَرْكَعُ بِهَا . ثُمَّ ٱفْتَتَحَ النِّسَاءَ فَقَرَأَهَا ، ثُمَّ ٱفْتَتَحَ اٰلَ عِمْرَانَ فَقَرَأَهَا ، يَقْرَأُ مُتَرَسِّلًا إِذَا مَرَّ بِاٰيَةٍ فِيهَا تَسْبِيحٌ سَبَّحَ ، وَإِذَا مَرَّ

بِسُؤَالٍ سَأَلَ ، وَإِذَا مَرَّ بِتَعَوُّذٍ تَعَوَّذَ . ثُمَّ رَكَعَ فَجَعَلَ يَقُولُ: سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ، فَكَانَ رُكُوعُهُ نَحْوًا مِنْ قِيَامِهِ ، ثُمَّ قَالَ: سَمِعَ اللَّهُ لِمَنْ حَمِدَهُ ، رَبَّنَا لَكَ الْحَمْدُ: ثُمَّ قَامَ قِيَامًا طَوِيلًا قَرِيبًا مِمَّا رَكَعَ ، ثُمَّ سَجَدَ فَقَالَ: «سُبْحَانَ رَبِّيَ الْأَعْلَى» فَكَانَ سُجُودُهُ قَرِيبًا مِنْ قِيَامِهِ». رَوَاهُ مُسْلِمٌ .

103. Əbu Abdullah Hüzeyfə İbnul-Yəmən *radiyallahu anhumə* belə dedi:

"Bir gecə Peyğəmbər *səllallahu əleyhi və səlləmin* arxasında namaz qıldım. Bəqərə surəsini oxumağa başladı. Öz-özümə hər halda yüz ayə oxuduqdan sonra rüku edəcəyini fikirləşdim. O, yüz ayədən sonra da oxumağa davam etdi. Mən yenə öz-özümə bu surə ilə namazı bitirəcəyini fikirləşdim. O yenə davam etdi. Bu surəni oxuyub rüku edər, dedim, amma etmədi. Nisa surəsinə başladı, onu da oxudu.Sonra Ali-İmran surəsinə başladı, onu da oxudu. Ağır-ağır oxuyur, təsbih ayələri gələndə təsbih edir, dua ayəsi gələndə dua edir, istiazə ayəsi gələndə Allaha sığınırdı. Sonra rüku etdi. **"Sübhanə rabbiyəl-azim** (böyük olan rəbbimi nöqsan sifətlərdən uzaq tuturam)" deməyə başladı. Rükusu da demək olar ki, qiyamı qədər çəkdi. Sonra **"səmiallahu limən hamidəh, rabbənə ləkəl-hamd** (Allah özünə həmd edəni eşidir, həmd yalnız Sənədir, ey Rəbbimiz)", - dedi və qalxdı. Demək olar ki, rükudakı qədər uzun müddət ayaq üstə qaldı. Sonra səcdə etdi və **"sübhanə rabbiyəl-əla** (Uca Rəbbimizin hər cür nöqsandan uzaq olduğunu bilir və söyləyirəm)", - dedi. Səcdəsini də demək olar ki, qiyamı qədər uzatdı".

Müslim, Müsafirin, 203

١٠٤ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: صَلَّيْتُ مَعَ النَّبِيِّ ﷺ لَيْلَةً فَأَطَالَ الْقِيَامَ حَتَّى هَمَمْتُ بِأَمْرٍ سُوءٍ: قِيلَ: وَمَا هَمَمْتَ بِهِ؟ قَالَ. هَمَمْتُ أَنْ أَجْلِسَ وَأَدَعَهُ. مُتَّفَقٌ عَلَيْهِ .

104. İbn Məsud *radiyallahu anh* belə dedi:

Bir gecə Rəsulullah *səllallahu əleyhi və səlləmin* arxasında namaz qıldım. Qiyamda o qədər uzun müddət qaldı ki, ən sonda ürəyimdən naxoş bir hərəkət etməyi belə keçirdim.

- Nə etməyi fikirləşdin? - dedilər.

- Peyğəmbəri ayaq üstə qoyub oturmağı fikirləşdim,- dedi.

Buxari, Təhəccüd 9; Müslim, Müsafirin 204

❁

١٠٥ ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «يَتْبَعُ الْمَيِّتَ ثَلَاثَةٌ: أَهْلُهُ وَمَالُهُ وَعَمَلُهُ: فَيَرْجِعُ اثْنَانِ وَيَبْقَى وَاحِدٌ: يَرْجِعُ أَهْلُهُ وَمَالُهُ، وَيَبْقَى عَمَلُهُ» . مُتَّفَقٌ عَلَيْهِ .

105. Ənəs *radiyallahu anhdan* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğu rəvayət edilmişdir:

"Ölünü (qəbrə kimi) üç şey təqib edər: Ailəsi, malı və əməli. Bunlardan ikisi geri qayıdar, biri isə (onunla) qalar. Ailəsi və malı geri qayıdar, əməli (onunla) qalar".

Buxari, Riqaq 42; Müslim, Zöhd 5. Həmçinin bax. Tirmizi, Zöhd 46; Nəsai, Cənaiz 52

❁

١٠٦ ـ عَنْ ابْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «اَلْجَنَّةُ أَقْرَبُ إِلَى أَحَدِكُمْ مِنْ شِرَاكِ نَعْلِهِ وَالنَّارُ مِثْلُ ذَلِكَ» . مُتَّفَقٌ عَلَيْهِ .

106. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cənnət sizə ayaqqabınızın bağından daha yaxındır. Cəhənnəm də elədir".

Buxari, Riqaq 29

❁

١٠٧ـ عَنْ أَبِي فِرَاسٍ رَبِيعَةَ بْنِ كَعْبٍ الْأَسْلَمِيِّ خَادِمِ رَسُولِ اللَّهِ ﷺ، ومِنْ أَهْلِ الصُّفَّةِ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: «كُنْتُ أَبِيتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ فَأَتِيهِ بِوَضُوئِهِ وَحَاجَتِهِ فَقَالَ: «سَلْنِي» فَقُلْتُ: أَسْأَلُكَ مُرَافَقَتَكَ فِي الْجَنَّةِ. فَقَالَ: «أَوَ غَيْرَ ذَلِكَ؟» قُلْتُ: هُوَ ذَاكَ قَالَ: فَأَعِنِّي عَلَى نَفْسِكَ بِكَثْرَةِ السُّجُودِ» . رَوَاهُ مُسْلِمٌ .

107. Rəsulullahın xidmətçisi və əhli-suffədən[10] olan Əbu Firas Rəbia ibn Kab əl-Əsləmi *radiyallahu anh* belə dedi:

"Rəsulullah *səllallahu əleyhi və səlləmə* yaxın yerdə gecələyər, dəstəmaz suyunu gətirər və istədiyi digər işləri görərdim. Bir dəfə bunun qarşılığında mənə:

- **(Ürəyindən nə keçirsə məndən) istə", -** buyurdu. Mən:

- Cənnətdə sənin birlikdə olmaq istəyirəm. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **Başqa bir şey istəməzsən? -** buyurdu. Mən:

- İstəyim budur,- dedim. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Elə isə istəyinin həyata keçməsi üçün çox namaz qılaraq mənə yardım et!" -** buyurdu.

Müslim, Salət 226. Həmçinin bax. Əbu Davud, Tatavvu 22; Nəsai, Tətbiq 79

❁

١٠٨ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ وَيُقَالُ أَبُو عَبْدِ الرَّحْمَنِ ثَوْبَانَ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «عَلَيْكَ بِكَثْرَةِ السُّجُودِ؛ فَإِنَّكَ لَنْ تَسْجُدَ لِلَّهِ سَجْدَةً إِلَّا رَفَعَكَ اللَّهُ بِهَا دَرَجَةً، وَحَطَّ عَنْكَ بِهَا خَطِيئَةً».

رَوَاهُ مُسْلِمٌ .

108. Əbu Abdullah (və ya Əbu Əbdürrəhman) Səvban *radiyallahu anhdan* –hansı ki, Rəsulullahın azad etdiyi köləsidir- rəvayət edildiyinə görə "Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitdim", - demişdir:

"Çox səcdə etməyə çalış. Allah üçün etdiyin hər səcdənin qarşılığında Allah səni bir dərəcə yüksəldər və bir xətanı silər".

Müslim, Salət 225. Həmçinin bax. Tirmizi, Salət 169; Nəsai, Tətbiq 80

❁

10. Əhli-süffə Peyğəmbərimizin məscidinin yanındakı üstü örtülü, ətrafı açıq kölgəlikdə qalan və Peyğəmbərimizdən elm öyrənənkasıb səhabələrdir.

١٠٩ـ عَنْ أَبِي صَفْوَانَ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ الْأَسْلَمِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ:«خَيْرُ النَّاسِ مَنْ طَالَ عُمْرُهُ وَحَسُنَ عَمَلُهُ». رَوَاهُ التِّرْمِذِيُّ.

109. Əbu Səfvan Abdullah bin Busr əl-Əsləmi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanların ən xeyirlisi ömrü uzun, əməli gözəl olandır".

Tirmizi, Zöhd 21, 22

❁

١١٠ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: غَابَ عَمِّي أَنَسُ بْنُ النَّضْرِ رَضِيَ اللّٰهُ عَنْهُ عَنْ قِتَالِ بَدْرٍ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، غِبْتُ عَنْ أَوَّلِ قِتَالٍ قَاتَلْتَ الْمُشْرِكِينَ لَئِنِ اللَّهُ أَشْهَدَنِي قِتَالَ الْمُشْرِكِينَ لَيُرِيَنَّ اللَّهُ مَا أَصْنَعُ فَلَمَّا كَانَ يَوْمَ أُحُدٍ انْكَشَفَ الْمُسْلِمُونَ فَقَالَ: اَللّٰهُمَّ أَعْتَذِرُ إِلَيْكَ مِمَّا صَنَعَ هَؤُلَاءِ ـ يَعْنِي أَصْحَابَهُ ـ وَأَبْرَأُ إِلَيْكَ مِمَّا صَنَعَ هَؤُلَاءِ ـ يَعْنِي الْمُشْرِكِينَ ـ ثُمَّ تَقَدَّمَ فَاسْتَقْبَلَهُ سَعْدُ بْنُ مُعَاذٍ فَقَالَ: يَا سَعْدُ بْنُ مُعَاذٍ ، الْجَنَّةُ وَرَبِّ الْكَعْبَةِ إِنِّي أَجِدُ رِيحَهَا مِنْ دُونِ أُحُدٍ. قَالَ سَعْدٌ: فَمَا اسْتَطَعْتُ يَا رَسُولَ اللَّهِ مَا صَنَعَ! قَالَ أَنَسٌ: فَوَجَدْنَا بِهِ بِضْعًا وَثَمَانِينَ ضَرْبَةً بِالسَّيْفِ أَوْ طَعْنَةً بِرُمْحٍ أَوْ رَمْيَةً بِسَهْمٍ وَوَجَدْنَاهُ قَدْ قُتِلَ وَمَثَّلَ بِهِ الْمُشْرِكُونَ فَمَا عَرَفَهُ أَحَدٌ إِلَّا أُخْتُهُ بِبَنَانِهِ. قَالَ أَنَسٌ: كُنَّا نَرَى أَوْ نَظُنُّ أَنَّ هَذِهِ الْاٰيَةَ نَزَلَتْ فِيهِ وَفِي أَشْبَاهِهِ: ﴿**مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ**﴾ إِلَى اٰخِرِهَا . مُتَّفَقٌ عَلَيْهِ .

110. Ənəs *radiyallahu anh* belə dedi:

Əmim Ənəs bin Nadr *radiyallahu anh* Bədir döyüşündə iştirak etməmişdi. Bu, ona çox ağır gəldi. Bu səbəblə:

- "Ay Allahın Rəsulu, müşriklərə qarşı girəcəyin ilk müharibədə iştirak edə bilmədim. Əgər Allah-Təala müşriklərə qarşı bir döyüşdə məni (bundan) məhrum etməzsə, nələr edəcəyimi əlbəttə görəcəkdir", - dedi.

Sonra Uhud döyüşündə müsəlman səfləri dağılanda –yoldaşlarını qəsd edərək- “Rəbbim, bunların etdiklərinə görə üzr istəyirəm”, - dedi. Müşrikləri qəsd edərək də “Bunların etdiklərindən də uzaq olduğumu sənə ərz edirəm”, - deyərək irəlilədi. Sad bin Muaz ilə qarşılaşdı və:

- Ey Sad, cənnəti istəyirəm. Kəbənin Rəbbinə and içirəm ki, Uhudun ətəklərindən bəri o cənnətin qoxusunu alıram,- dedi. Sad (hadisəni nəql edərkən) “Mən onun etdiyini edə bilmədim, ya Rəsulullah”, - dedi.

Ənəs *radiyallahu anh* sözünə davam edərək belə dedi:

Əmimi şəhid olaraq tapdıq. Bədənində səksəndən çox qılınc, süngü və ox yarası vardı. Müşriklər bədən üzvlərini kəsmişdilər. Bu səbəblə heç kim onu tanıya bilmədi. Sadəcə bacısı barmağının ucundan tanıdı.

Ənəs dedi ki, biz bu ayənin əmim və əmim kimilər haqqında nazil olduğunu fikirləşirik:

“Möminlər içində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) **şəhid olmuş, kimisi də** (şəhid olmasını) **gözləyir. Onlar** (verdikləri sözü) **əsla dəyişməzlər”.** (əl-Əhzab, 23)

❁

١١١ ـ عَنْ أَبِي مَسْعُودٍ عُقْبَةَ بْنِ عَمْرٍو الأَنْصَارِيِّ الْبَدْرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : لَمَّا نَزَلَتْ اٰيَةُ الصَّدَقَةِ ، كُنَّا نُحَامِلُ عَلَى ظُهُورِنَا ، فَجَاءَ رَجُلٌ فَتَصَدَّقَ بِشَيْءٍ كَثِيرٍ فَقَالُوا : مُرَاءٍ . وَجَاءَ رَجُلٌ اٰخَرُ فَتَصَدَّقَ بِصَاعٍ فَقَالُوا : إِنَّ اللّٰهَ لَغَنِيٌّ عَنْ صَاعِ هَذَا ! فَنَزَلَتْ : ﴿اَلَّذِينَ يَلْمِزُونَ الْمُطَّوِّعِينَ مِنَ الْمُؤْمِنِينَ فِي الصَّدَقَاتِ وَالَّذِينَ لَا يَجِدُونَ اِلَّا جُهْدَهُمْ فَيَسْخَرُونَ مِنْهُمْ سَخِرَ اللّٰهُ مِنْهُمْ وَلَهُمْ عَذَابٌ اَلِيمٌ﴾ .مُتَّفَقٌ عَلَيْهِ .

111. Əbu Məsud Uqbə bin Amr əl-Ənsari əl-Bədri *radiyallahu anh* belə dedi:

Sədəqə ayəsi nazil olduqda belimizdə yük daşıyaraq (Hamballıq edərək) sədəqə verməyə başladıq. Bir nəfər gələrək xeyli sədəqə verdi. Münafiqlər “riyakarlıq edir”, - dedilər. Başqa biri gələrək bir ölçək xur-

ma gətirdi. Bu səfər də münafiqlər "Allahın bunun bir ölçək xurmasına ehtiyacı yoxdur", - dedilər. Bunun üzərinə **"Könüllü surətdə (bollu) sədəqə verən möminlərə tənə edənləri və güc-bəla ilə əllərinə düşəni təsəddüq edən kəsləri məsxərəyə qoyanları Allah Özü məsxərəyə qoyacaqdır. Onlar şiddətli bir əzaba düçar olacaqlar!"** (ət-Tövbə, 79) ayəsi nazil oldu.

Buxari, Zəkat 10; Müslim, Zəkat 72

❁

١١٢ـ عَنْ سَعِيدِ بْنِ عَبْدِ الْعَزِيزِ عَنْ رَبِيعَةَ بْنِ يَزِيدَ عَنْ أَبِي إِدْرِيسَ الْخَوْلَانِيِّ عَنْ أَبِي ذَرٍّ جُنْدَبِ بْنِ جُنَادَةَ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ فِيمَا يَرْوِي عَنِ اللَّهِ تَبَارَكَ وتَعَالَى أَنَّهُ قَالَ: «يَا عِبَادِي إِنِي حَرَّمْتُ الظُّلْمَ عَلَى نَفْسِي وَجَعَلْتُهُ بَيْنَكُمْ مُحَرَّمًا ، فَلَا تَظَالَمُوا. يَا عِبَادِي كُلُّكُمْ ضَالٌّ إِلَّا مَنْ هَدَيْتُهُ فَاسْتَهْدُونِي أَهْدِكُمْ، يَا عِبَادِي كُلُّكُمْ جَائِعٌ إِلَّا مَنْ أَطْعَمْتُهُ فَاسْتَطْعِمُونِي أُطْعِمْكُمْ، يَا عِبَادِي كُلُّكُمْ عَارٍ إِلَّا مَنْ كَسَوْتُهُ فَاسْتَكْسُونِي أَكْسُكُمْ، يَا عِبَادِي إِنَّكُمْ تُخْطِئُونَ بِاللَّيْلِ وَالنَّهَارِ وَأَنَا أَغْفِرُ الذُّنُوبَ جَمِيعًا فَاسْتَغْفِرُونِي أَغْفِرْ لَكُمْ، يَا عِبَادِي إِنَّكُمْ لَنْ تَبْلُغُوا ضُرِّي فَتَضُرُّونِي وَلَنْ تَبْلُغُوا نَفْعِي فَتَنْفَعُونِي. يَا عِبَادِي لَوْ أَنَّ أَوَّلَكُمْ وَاٰخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ كَانُوا عَلَى أَتْقَى قَلْبِ رَجُلٍ وَاحِدٍ مِنْكُمْ مَا زَادَ ذَلِكَ فِي مُلْكِي شَيْئًا، يَا عِبَادِي لَوْ أَنَّ أَوَّلَكُمْ وَاٰخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ كَانُوا عَلَى أَفْجَرِ قَلْبِ رَجُلٍ وَاحِدٍ مِنْكُمْ مَا نَقَصَ ذَلِكَ مِنْ مُلْكِي شَيْئًا، يَا عِبَادِي لَوْ أَنَّ أَوَّلَكُمْ وَاٰخِرَكُمْ وَإِنْسَكُمْ وَجِنَّكُمْ قَامُوا فِي صَعِيدٍ وَاحِدٍ فَسَأَلُونِي فَأَعْطَيْتُ كُلَّ إِنْسَانٍ مَسْأَلَتَهُ مَا نَقَصَ ذَلِكَ مِمَّا عِنْدِي إِلَّا كَمَا يَنْقُصُ الْمِخْيَطُ إِذَا أُدْخِلَ الْبَحْرَ، يَا عِبَادِي إِنَّمَا هِيَ أَعْمَالُكُمْ أُحْصِيهَا لَكُمْ ثُمَّ أُوَفِّيكُمْ إِيَّاهَا فَمَنْ وَجَدَ خَيْرًا فَلْيَحْمَدِ اللَّهَ وَمَنْ وَجَدَ غَيْرَ ذَلِكَ فَلَا يَلُومَنَّ إِلَّا نَفْسَهُ». قَالَ سَعِيدٌ : كَانَ أَبُو إِدْرِيسَ إِذَا حَدَّثَ بِهَذَا الْحَدِيثِ جَثَا عَلَى رُكْبَتَيْهِ . رَوَاهُ مُسْلِمٌ .

112. Səid bin Abduləzizin Rəbia bin Yeziddən, Rəbianın Əbu İdris əl-Həvlanidən, onun Əbu Zərr Cundəb bin Cünadə *radiyallahu anhdan*, Əbu Zərin Nəbi *səllallahu əleyhi və səlləmdən*, onun da Allah-Təaladan rəvayət etdiyinə görə belə demişdir:

"Ey qullarım, Mən zülm etməyi özümə haram qıldım. Onu sizin aranızda da haram qıldım. Artıq bir-birinizə zülm etməyin.

"Ey qullarım, Mənim doğru yola istiqamətləndirdiklərim xaricində hamınız yoldan çıxmısınız. Elə isə Məndən hidayət istəyin ki, sizi doğru yola yönəldim.

Ey qullarım, Mənim doydurduqlarım xaric, hamınız acsınız. Məndən qida istəyin ki, sizi doydurum.

Ey qullarım, Mənim geydirdiklərim xaric, hamınız çılpaqsınız. Məndən geyim istəyin ki, sizi geydirim.

Ey qullarım, gecə-gündüz günah işləyirsiniz. Bütün günahları əfv edən də yalnız Mənəm. Məndən əfv diləyin ki, sizi bağışlayım.

Ey qullarım, Mənə zərər vermək əlinizdən gəlməz ki, zərər verəsiniz. Mənə fayda verməyə gücünüz çatmaz ki, fayda verəsiniz.

Ey qullarım, əvvəliniz, axırınız, insanınız, cinləriniz ən təqvalı bir adamın qəlbinə və duyğularına sahib olsalar, bu, mənim mülkümdə heç nəyi artırmaz.

Ey qullarım, əvvəliniz, axırınız, insanınız, cinləriniz ən günahkar bir adamın qəlbinə və duyğularına sahib olsalar, bu mənim mülkümdən kiçicik də olsa heç nəyi azaltmaz.

Ey qullarım, əvvəliniz, axırınız, insanınız, cinləriniz bir yerə toplaşıb Məndən nə isə istəsələr, Mən də hər birinə istədiyini versəm, bu, Mənim mülkümdən ancaq dənizə batırılıb çıxarılan iynə dənizdən nə qədər su azaldarsa, o qədər azaldar. (yəni heç nəyi əskiltməz.)

Ey qullarım, budur sizin əməliniz. Onları sizin üçün saxlayar, sonra sizə geri verərəm. Artıq kim bir xeyir taparsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey taparsa, öz nəfsi xaricində heç kimi qınamasın".

Səid bin Abduləziz dedi ki, Əbu İdris əl-Həvlani bu hədisi rəvayət etdiyi zaman dizləri üstə çöküb qaldı.

Müslim, Birr 55

ÖMRÜN SONLARINDA XEYİR ƏMƏLLƏRİ ARTIRMAĞA TƏŞVİQ

Ayə

أَوَلَمْ نُعَمِّرْكُمْ مَا يَتَذَكَّرُ فِيهِ مَنْ تَذَكَّرَ وَجَاءَكُمُ النَّذِيرُ .

1. "Düşünəcək kimsənin düşünəcəyi qədər sizə ömür vermədikmi?! Hələ sizixəbərdaredən də gəldi". (əl-Fatir, 37)

Nəvəvi bu ayeyi-kəriməni belə izah edir:

Abdullah bin Abbas və məsələni tədqiq edən alimlərin fikrinə görə bu ayənin mənası "biz sizi altmış il yaşatmadıqmı?" deməkdir. Bir az sonra nəql edəcəyimiz hədisi-şərif də bu mənanı qüvvətləndirir.

Bəzilərinə görə "sizi on səkkiz il", bəzilərinə görə isə "qırx il yaşatmadıqmı?" deməkdir. Sonuncu izah Həsən Bəsri, əl-Kəlbi və Məsruqa aiddir. Həmçinin İbn Abbasın da bu fikirdə olduğu nəql edilmişdir.

Mədinəlilərin qırx yaşa çatandan sonra özlərini ibadətə verdikləri rəvayət edilmişdir. Bəziləri ayədə işarə edilən müddətin "həddi-büluğ yaşı" olduğunu demişlər. İbn Abbas və alimlərin böyük əksəriyyəti ayədə zikr olunan **"sizi xəbərdar edən"** ifadəsindən məqsədin Hz. Peyğəmbər olduğunu demişlər.

İkrimə, Süfyan bin Üyeynə və digərləri ayədəki "xəbərdar edən" sözünü "qocalıq" kimi izah etmişlər. Əslini Allah bilir.

Hədislər

١١٣- عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أَعْذَرَ اللّٰهُ إِلَى امْرِىءٍ أَخَّرَ أَجَلَهُ حتى بَلَغَ سِتِّينَ سَنَةً» . رَوَاهُ الْبُخَارِيُّ .

113. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət olunduğuna görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah altmış il ömür verdiyi adamın bəhanə gətirmə imkanını ortadan qaldırmışdır".[11] Buxari, Riqaq 5

11. Bu qədər yaşadıqdan sonra qiyamət günü vəzifələrimi yerinə yetirə bilmədim

١١٤ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا. قَالَ: كَانَ عُمَرُ رَضِيَ اللّٰهُ عَنْهُ يُدْخِلُنِي مَعَ أَشْياخِ بَدْرٍ ، فَكَأَنَّ بَعْضَهُمْ وَجَدَ فِي نَفْسِهِ فَقَالَ: لِمَ يَدْخُلُ هَذَا مَعَنَا وَلَنَا أَبْنَاءٌ مِثْلُهُ فَقَالَ عُمَرُ: إِنَّهُ مِنْ حَيْثُ عَلِمْتُمْ ، فَدَعَانِي ذَاتَ يَوْمٍ فَأَدْخَلَنِي مَعَهُمْ فَمَا رَأَيْتُ أَنَّهُ دَعَانِي يَوْمَئِذٍ إِلَّا لِيُرِيَهُمْ. قَالَ: مَا تَقُولُونَ فِي قَوْلِ اللّٰهِ: ﴿إِذَا جَاءَ نَصْرُ اللّٰهِ وَالْفَتْحُ﴾ فَقَالَ بَعْضُهُمْ: أُمِرْنَا نَحْمَدُ اللّٰهَ وَنَسْتَغْفِرُهُ إِذَا نَصَرَنَا وَفَتَحَ عَلَيْنَا ، وَسَكَتَ بَعْضُهُمْ فَلَمْ يَقُلْ شَيْئًا. فَقَالَ لِي: أَكَذَلِكَ تَقُولُ يَا ابْنَ عَبَّاسٍ؟ فَقُلْتُ: لَا، قَالَ فَمَا تَقُولُ؟ قُلْتُ: هُوَ أَجَلُ رَسُولِ اللّٰهِ ﷺ أَعْلَمَهُ لَهُ قَالَ: ﴿إِذَا جَاءَ نَصْرُ اللّٰهِ وَالْفَتْحُ﴾ وَذَلِكَ عَلَامَةُ أَجَلِكَ ﴿فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا﴾ فَقَالَ عُمَرُ رَضِيَ اللّٰهُ عَنْهُ: مَا أَعْلَمُ مِنْهَا إِلَّا مَا تَقُولُ.

رَوَاهُ الْبُخَارِيُّ .

114. İbn Abbas *radiyallahu anhumə* belə dedi:

Ömər *radiyallahu anh* Bədir döyüşündə iştirak edən səhabələrlə birlikdə məni də şura məclisinə daxil etdi. Səhabələrdən biri bunu qəbul edə bilmədi və Hz. Ömərə:

- Bu nə üçün bizimlə birlikdədir? Bizim onunla yaşıd uşaqlarımız var,- dedi. Hz. Ömər:

- Bildiyiniz bir səbəbə görə,- dedi. Bir gün məni yanına çağırdı və böyük səhabələrin məclisinə daxil etdi. Mənə elə gəlir ki, o gün mənim biliyimi və anlayışımı onlara göstərmək istəyirdi. Səhabələrdən:

- **"Allahın köməyi və sənə fəth gəldiyi zaman"** ayəsi ilə başlayan Nəsr surəsi haqqında nə düşünürsünüz? - deyə soruşdu. Bəzisi:

- Allahın köməyini gördükdə və fəth gerçəkləşdiyi zaman Ona həmd və istiğfar etməklə əmr olunuruq,- dedi. Bəzisi isə heç bir fikir bildirmədi. Bu dəfə Hz. Ömər mənə:

- Ey İbn Abbas, sən də bu fikirdəsən? - dedi. Mən:

- Xeyr,- dedim.

---

deyərək bəhanə gətirməsi qəbul edilməyəcəkdir.

- Bəs yaxşı, nə deyirsən? - deyə soruşdu. Mən də:

- Bu surə Hz. Peyğəmbərin əcəlinin ona bildirildiyini ifadə edir. **"Allahın köməyi və sənə fəth gəldiyi zaman"** – hansı ki, bu sənin əcəlinin gəldiyinin əlamətidir – **Rəbbini həmd ilə təsbih et, ondan bağışlanma dilə. Çünki o, tövbələri qəbul edəndir"** buyurulur,- dedim.

Hz. Ömər:

- Mən də bu surədən sənin dediyindən başqa heç nə anlamıram,- dedi.

Buxari, Təfsiru surə (110), 4; Mənaqib 25. Həmçinin bax. Tirmizi, Təfsiru surə (110), 1

❁

١١٥ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَا صَلَّى رَسُولُ اللَّهِ ﷺ صَلَاةً بَعْدَ أَنْ نَزَلَتْ عَلَيْهِ ﴿إِذَا جَاءَ نَصْرُ اللَّهِ وَالْفَتْحُ﴾ إِلَّا يَقُولُ فِيهَا «سُبْحَانَكَ رَبَّنَا وَبِحَمْدِكَ، اللَّهُمَّ اغْفِرْ لِي» . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ فِي الصَّحِيحَيْنِ عَنْهَا: كَانَ رَسُولُ اللَّهِ ﷺ يُكْثِرُ أَنْ يَقُولَ فِي رُكُوعِهِ وَسُجُودِه: سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ اللَّهُمَّ اغْفِرْ لِي، يَتَأَوَّلُ الْقُرْاٰنَ.

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ كَانَ رَسُولُ اللَّهِ ﷺ يُكْثِرُ أَنْ يَقُولَ قَبْلَ أَنْ يَمُوتَ: «سُبْحَانَكَ ٱللَّهُمَّ وَبِحَمْدِكَ أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ».

قَالَتْ عَائِشَةُ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، مَا هَذِه الْكَلِمَاتُ الَّتِي أَرَاكَ أَحْدَثْتَهَا تَقُولُهَا؟ قَالَ: جُعِلَتْ لِي عَلَامَةٌ فِي أُمَّتِي إِذَا رَأَيْتُهَا قُلْتُهَا ﴿إِذَا جَاءَ نَصْرُ اللَّهِ وَالْفَتْحُ﴾ إِلَى اٰخِرِ السُّورَةِ.

وَفِي رِوَايَةٍ لَهُ كَانَ رَسُولُ اللَّهِ ﷺ يُكْثِرُ مِن قَوْلِ: سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ أَسْتَغْفِرُ اللَّهَ وَأَتُوبُ إِلَيْهِ. قَالَتْ قُلْتُ: يَا رسُولَ اللَّهِ ، أَرَاكَ تُكْثِرُ مِنْ قَوْلِ سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ أَسْتَغْفِرُ اللَّهَ وَأَتُوبُ إِلَيْهِ؟ فَقَالَ: أَخْبَرَنِي رَبِّي أَنِّي سَأَرَى

عَلَامَةً فِي أُمَّتِي فَإِذَا رَأَيْتُهَا أَكْثَرْتُ مِنْ قَوْلِ: سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ أَسْتَغْفِرُ اللَّهَ وَأَتُوبُ إِلَيْهِ فَقَدْ رَأَيْتُهَا: ﴿إِذَا جَاءَ نَصْرُ اللَّهِ وَالْفَتْحُ﴾ فَتْحُ مَكَّةَ: ﴿وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا﴾.

115. Aişə *radiyallahu anhə* belə dedi:

"Allahın köməyi və fəth gəldiyi zaman" ayəsi nazil olduqdan sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* qıldığı hər namazda mütləq **"Ey Rəbbimiz Sənin hər cür nöqsandan uzaq olduğunu bilir və deyirəm, Səni həmd ilə anıram. Allahım, məni bağışla..."** deyirdi.

Buxari, Azan 123, 139; Məğazi 51, Təfsiru surə (110), 1; Müslim, Salət 219, 220

Buxarinin "Səhih"i (Azan 139, Təfsiru surə (110), 2) ilə Müslimin "Səhih"ində Aişə radiyallahu anədən rəvayət edilən başqa bir hədis isə belədir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* rüku və səcdələrində:

"Allahım, Sənin hər cür nöqsandan uzaq olduğunu bilir və söyləyirəm. Ey Rəbbimiz, Sənə həmd edirəm. Allahım, məni bağışla!" duasını tez-tez təkrarlayardı.

Hz. Aişə deyir ki;

- Ey Allahın Rəsulu təzəliklə deməyə başladığını eşitdiyim bu cümlələr nədir? - deyə soruşdum. Peyğəmbər *səllallahu əleyhi və səlləm* buyurdu:

- **"Ümmətimlə əlaqəli mənim üçün bir işarə təyin olunub. Onu gördüyüm zaman bu kəlmələri söyləyirəm. Bu işarə Nəsr surəsidir".**

Müslimin başqa bir rəvayətində (Salət 220) bu xüsus belə zikr olunur:

Rəsulullah *səllallahu əleyhi və səlləm* "Mən Allahın ona yaraşmayan sifətlərdən uzaq olduğunu deyir, Ona həmd edirəm" sözlərini tez-tez söyləməyə başlamışdı. Hz. Aişə deyir ki;

- Görürəm ki, "Sübhanallahi və bihamdihi, əstəğfirullahə və ətubu ileyh" sözlərini tez-tez söyləyirsən,- dedim.

Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Rəbbim mənə ümmətimin içində bir əlamət görəcəyimi bildirdi. Onu görəndən bəri***"sübhanallahi və bihamdihi əstəğfirullahə və ətubu ileyh"***sözünü çox söyləyirəm. Mən həmin əlaməti Məkkənin fəthinə işarə edən "Allahın köməyi yetişib, fəth gəldiyi zaman və insanların qrup-qrup Allahın dininə girdiklərini gördükdə Rəbbini həmdilə təsbih et və ondan məğfirət istə. Çünki Allah tövbələri çox qəbul edəndir" (məalındakı Nəsr) surəsində gördüm", -** buyurdu.

❁

١١٦ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: إِنَّ اللَّهَ عَزَّ وَجَلَّ تَابَعَ الْوَحْيَ عَلَى رَسُولِ اللَّهِ ﷺ قَبْلَ وَفَاتِهِ حَتَّى تُوُفِّيَ أَكْثَرَ مَا كَانَ الْوَحْيُ عليْهِ . مُتَّفَقٌ عَلَيْهِ .

116. Ənəs *radiyallahu anh* belə dedi:

"Allah-Təala Peyğəmbərin vəfatından əvvəl tez-tez vəhy göndərdi. Belə ki, Peyğəmbər *səllallahu əleyhi və səlləm* vəhyin ən çox nazil olduğu əsnada vəfat etdi".

Buxari, Fəzailul-Quran 1; Müslim, Təfsir 2

❁

١١٧ـ عَنْ جَابِرٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : قَالَ النَّبِيُّ ﷺ «يُبْعَثُ كُلُّ عَبْدٍ عَلَى مَا مَاتَ عَلَيْهِ» . رَوَاهُ مُسْلِمٌ .

117. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər bir qul öldüyü hal üzrə dirildilir".

Müslim, Cənnət 83

XEYRƏ APARAN YOLLARIN SAYSIZ-HESABSIZ OLMASI

Ayələr

وَمَا تَفْعَلُوا مِنْ خَيْرٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ .

1. "Şübhəsiz ki, Allah etdiyiniz xeyirli işi biləndir". (əl-Bəqərə, 215)

وَمَا تَفْعَلُوا مِنْ خَيْرٍ يَعْلَمْهُ اللَّهُ .

2. "Allah gördüyünüz hər bir yaxşı işi bilir". (əl-Bəqərə, 197)

فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ .

3. "Kim (dünyada) **zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir** (mükafatını alacaqdır)**".** (əz-Zilzal, 7)

مَنْ عَمِلَ صَالِحًا فَلِنَفْسِهِ .

4. "Kim yaxşı bir iş görsə, xeyri özünədir". (əl-Casiyə, 15)

Hədislər

١١٨ـ عَنْ أَبِي ذَرٍّ جُنْدَبِ بْنِ جُنَادَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ : قُلْتُ يَا رَسُولَ اللَّهِ، أَيُّ الْأَعْمَالِ أَفْضَل؟ قَالَ : «أَلْإِيمَانُ بِاللَّهِ ، وَجِهَادٌ فِي سَبِيلِهِ» . قُلْتُ أَيُّ الرِّقَابِ أَفْضَلُ؟ قَالَ : «أَنْفَسُهَا عِنْدَ أَهْلِهَا ، وَأَكْثَرُهَا ثَمَنًا» . قُلْتُ : فَإِنْ لَمْ أَفْعَلْ ؟ قَالَ: تُعِينُ صَانِعًا أَوْ تَصْنَعُ لِأَخْرَقَ . قُلْتُ : يَا رَسُولَ اللَّهِ ، أَرَأَيْتَ إِنْ ضَعُفْتُ عَنْ بَعْضِ الْعَمَلِ؟ قَالَ : تَكُفُّ شَرَّكَ عَنِ النَّاسِ، فَإِنَّهَا صَدَقَةٌ مِنْكَ عَلَى نَفْسِكَ» .مَتَّفَقٌ عَلَيْهِ .

118. Əbu Zərr Cundəb bin Cünadə *radiyallahu anh* belə dedi:

- Ey Allahın Rəsulu, hansı əməl daha üstündür? - deyə sual verdim.

- **"Allaha iman və Allah yolunda cihaddır", -** buyurdu. Mən:

- Hansı (əsir və ya) kölə(ni azad etmək) daha fəzilətlidir? - dedim.

- **"Sahiblərinə görə ən qiymətli və dəyəri ən yüksək olan", -** buyurdu.

- Bunları (cihad və kölə azad etməyi) edə bilməsəm? - dedim.

- **"Bir iş görənə kömək edərsən və ya işinin öhdəsindən gələ bilməyənin işini görərsən", -** buyurdu.

- Ey Allahın Rəsulu, bunlardan heç birinə gücüm çatmasa, onda necə? - dedim.

- **"İnsanlara zərər verməzsən. Çünki bu da özünə yaxşılıq etməndir", -** buyurdu.

Buxari, İtq 2; Müslim, İman 136

❁

١١٩ـ عَنْ أَبِي ذَرٍّ أَيْضًا رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: يُصْبِحُ عَلَى كُلِّ سُلَامَى مِنْ أَحَدِ كُمْ صَدَقَةٌ ، فَكُلُّ تَسْبِيحَةٍ صَدَقَةٌ ، وَكُلُّ تَحْمِيدَةٍ صَدَقَةٌ ، وَكُلُّ تَهْلِيلَةٍ صَدَقَةٌ ، وَكُلُّ تَكْبِيرَةٍ صَدَقَةٌ ، وَأَمْرٌ بِالْمَعْرُوفِ صَدَقَةٌ، وَنَهْيٌ عَنِ الْمُنْكَرِ صَدَقَةٌ، ويُجْزِىءُ مِنْ ذَلِكَ رَكْعَتَانِ يَرْكَعُهُمَا مِنَ الضُّحَى» . رَوَاهُ مُسْلِمٌ .

119. Yenə Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər birinizin bütün oynaqları (sümükləri) üçün bir sədəqə verməsi lazımdır. Ona görə hər təsbih[12] sədəqədir, hər həmd[13] sədəqədir, hər təhlil[14] sədəqədir, hər təkbir[15] sədəqədir. Yaxşılığı tövsiyə etmək sədəqədir, pislikdən uzaqlaşdırmaq sədəqədir. Qulun duha vaxtı qılacağı iki rükət duha namazı bütün bunlara əvəzdir".

Müslim, Müsafirin 84, Zəkat 56. Həmçinin bax. Buxari, Sülh 11, Cihad 72, 128; Əbu Davud, Tatavvu 12, Ədəb 160

12. Sübhanallah demək
13. Əlhəmdulillah demək
14. Lə iləhə illəllah demək
15. Allahu Əkbər demək

١٢٠ـ وَعَنْهُ قَالَ: قَالَ النَّبِيُّ ﷺ : «عُرِضَتْ عَلَيَّ أَعْمَالُ أُمَّتِي حَسَنُهَا وَسَيِّئُهَا فَوَجَدْتُ فِي مَحَاسِنِ أَعْمَالِهَا الْأَذَى يُمَاطُ عَنِ الطَّرِيقِ وَوَجَدْتُ فِي مَسَاوِىءِ أَعْمَالِهَا النُّخَاعَةَ تَكُونُ فِي الْمَسْجِدِ لَا تُدْفَنُ». رَوَاهُ مُسْلِمٌ .

120. Yenə Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ümmətimin pis-yaxşı bütün əməlləri mənə göstərildi. Yaxşı əmələrinin arasında yoldan keçənlərə əziyyət verən şeylərin yoldan qaldırılmasını da gördüm. Pis əməllərin arasında da məsciddə təmizlənmədən tərk edilmiş bəlğəmi gördüm".

Müslim, Məsacid 57. Həmçinin bax. İbn Macə, Ədəb 7

❁

١٢١ـ وَعَنْهُ أَنَّ نَاسًا قَالُوا: يَا رَسُولَ اللَّهِ : ذَهَبَ أَهْلُ الدُّثُورِ بِالْأُجُورِ يُصَلُّونَ كَمَا نُصَلِّي، وَيَصُومُونَ كَمَا نَصُومُ ، وَيَتَصَدَّقُونَ بِفُضُولِ أَمْوَالِهِمْ قَالَ: «أَوَلَيْسَ قَدْ جَعَلَ اللَّهُ لَكُمْ مَا تَصَدَّقُونَ بِهِ: إِنَّ بِكُلِّ تَسْبِيحَةٍ صَدَقَةً ، وَكُلِّ تَكْبِيرَةٍ صَدَقَةً ، وَكُلِّ تَحْمِيدَةٍ صَدَقَةً ، وَكُلِّ تَهْلِيلَةٍ صَدَقَةً ، وَأَمْرٌ بِالْمَعْرُوفِ صَدَقَةٌ ، وَنَهْيٌ عَنِ الْمُنْكَرِ صَدَقَةٌ ، وَفِي بُضْعِ أَحَدِكُمْ صَدَقَةٌ». قَالُوا: يَا رَسُولَ اللَّهِ، أَيَأْتِي أَحَدُنَا شَهْوَتَهُ وَيَكُونُ لَهُ فِيهَا أَجْرٌ؟ قَالَ:«أَرَأَيْتُمْ لَوْ وَضَعَهَا فِي حَرَامٍ أَكَانَ عَلَيْهِ وِزْرٌ؟ فَكَذَلِكَ إِذَا وَضَعَهَا فِي الْحَلَالِ كَانَ لَهُ أَجْرٌ». رَوَاهُ مُسْلِمٌ.

121. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir qrup insan:

- Ey Allahın Rəsulu, varlılar bütün savabları mənimsədilər. Bizim kimi namaz qılır, oruc tuturlar, üstəlik mallarının artığından da sədəqə verirlər,- dedilər. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Allahın sizi sədəqə verməkdən məhrum etdiyini fikirləşirsiniz? Hər təsbih sədəqə, hər təkbir sədəqə, hər təhmid sədəqə, hər təhlil sədəqədir. Yaxşılığı əmr etmək sədəqə, pislikdən çəkindirmək sədəqədir. Hətta (hər) birinizin xanımı ilə yatması da sədəqədir", -** buyurdu.

- Ey Allahın Rəsulu, cinsi istəyini təmin edənə bundan da savab var? - dedilər. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- "Bu istək və ehtiyacını haram yolla təmin etsəydi, günah qazanmayacaqdımı? Əlbəttə ki, halal və şəri yolla təmin etməsində də savab var", -buyurdu.

Müslim ,Zəkat 53; Məsacid 142

❁

١٢٢ـ وَعَنْهُ قَالَ: قَالَ لِيَ النَّبِيُّ ﷺ : «لَا تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئًا وَلَوْ أَنْ تَلْقَى أَخَاكَ بِوَجْهٍ طَلِيقٍ» . رَوَاهُ مُسْلِمٌ .

122. Əbu Zərr *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* mənə xitab edərək buyurdu:

"Din qardaşını gülər üzlə qarşılamaq kimi (sadə) bir yaxşılığı belə əsla kiçik görmə!"

Müslim, Birr 144. Həmçinin bax. Əbu Davud, Libas 25; Tirmizi, Ətimə 30

❁

١٢٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَ ضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «كُلُّ سُلَامَى مِنَ النَّاسِ عَلَيْهِ صَدَقَةٌ ، كُلَّ يَوْمٍ تَطْلُعُ فِيهِ الشَّمْسُ : تَعْدِلُ بَيْنَ الْإِثْنَيْنِ صَدَقَةٌ ، وَتُعِينُ الرَّجُلَ فِي دَابَّتِهِ فَتَحْمِلُهُ عَلَيْهَا أَوْ تَرْفَعُ لَهُ عَلَيْهَا مَتَاعَهُ صَدَقَةٌ ، وَالْكَلِمَةُ الطَّيِّبَةُ صَدَقَةٌ ، وَبِكُلِّ خَطْوَةٍ تَمْشِيهَا إِلَى الصَّلَاةِ صَدَقَةٌ ، وَتُمِيطُ الْأَذَى عَنِ الطَّرِيقِ صَدَقَةٌ». مَتَّفَقٌ عَلَيْهِ .

123. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanların hər bir oynaq sümüyü üçün hər günə bir sədəqə vermələri lazımdır. İki nəfər arasında ədalətli hökm verməyin sədəqədir. Miniyinə minmək istəyənə kömək etməyin, yaxud yükünü miniyinə yükləməyin sədəqədir. Gözəl söz sədəqədir. Namaz üçün məscidə gedərkən atdığın hər addım sədəqədir. Gəlib-keçənlərə əziyyət verən şeyləri yoldan kənarlaşdırmağın da sədəqədir".

Buxari, Sülh 11, Cihad 72, 128; Müslim, Zəkat 56. Həmçinin bax. Əbu Davud, Tatavvu 12, Ədəb 160

١٢٤ ـ وَرَوَاهُ مُسْلِمٌ أَيْضًا مِنْ رِوَايَةِ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّهُ خُلِقَ كُلُّ إِنْسَانٍ مِنْ بَنِي اٰدَمَ عَلَى سِتِّينَ وَثَلَثِمِائَةِ مَفْصِلٍ ، فَمَنْ كَبَّرَ اللَّهَ وَحَمِدَ اللَّهَ وَهَلَّلَ اللَّهَ وَسَبَّحَ اللَّهَ وَاسْتَغْفَرَ اللَّهَ وَعَزَلَ حَجَرًا عَنْ طَرِيقِ النَّاسِ، أَوْ شَوْكَةً أَوْ عَظْمًا عَنْ طَرِيقِ النَّاسِ ، أَوْ أَمَرَ بِمَعْرُوفٍ أَوْ نَهَى عَنْ مُنْكَرٍ، عَدَدَ تِلْكَ السِّتِّينَ وَالثَّلَاثِمِئَةِ السُّلَامَى فَإِنَّهُ يَمْشِي يَوْمَئِذٍ وَقَدْ زَحْزَحَ نَفْسَهُ عَنِ النَّارِ».

124. Eyni hədisin Müslimin Hz. Aişədən gələn rəvayətində Hz. Aişə *radiyallahu anhə* Rəsulullah*səllallahu əleyhi və səlləmin* belə buyurduğunu xəbər vermişdir:

"Bu bir həqiqətdir ki, insanın vücudunda 360 oynaq (və sümük) var. Kim bu sümüklərin sayı qədər Allahu əkbər, əlhəmdulilləh, lə iləhə illəllah deyər, Allahdan əfv diləyər, insanların yolu üstündən daş, tikan və ya sümük kimi (narahat edən) şeyləri qaldırar, yaxşılığı əmr edər və ya pislikdən çəkindirərsə, həmin günü özünü cəhənnəmdən uzaqlaşdırmış olaraq keçirər".

Müslim, Zəkat 54

❁

١٢٥ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ غَدَا إِلَى الْمَسْجِدِ أَوْ رَاحَ أَعَدَّ اللَّهُ لَهُ فِي الْجَنَّةِ نُزُلًا كُلَّمَا غَدَا أَوْ رَاحَ». مُتَّفَقٌ عَلَيْهِ .

125. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah səhər-axşam məscidə gedən adama hər gedişi üçün cənnətdə ikram hazırlayar".

Buxari, Azan 37; Müslim, Məsacid 285

❁

١٢٦ـ وَعَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَا نِسَاءَ الْمُسْلِمَاتِ ، لَا تَحْقِرَنَّ جَارَةٌ لِجَارَتِهَا وَلَوْ فِرْسِنَ شَاةٍ» .مُتَّفَقٌ عَلَيْهِ .

126. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ey mömin xanımlar, heç bir qadın bir qoyun ayağı da olsa qonşusuna verəcəyini kiçik gör(üb verməkdən çəkinmə)sin".

Buxari, Hibə 1, Ədəb 30; Müslim, Zəkat 90. Həmçinin bax. Tirmizi, Vəla 6

❁

١٢٧ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أَلْإِيمَانُ بِضْعٌ وَسَبْعُونَ أَوْ بِضْعٌ وَسِتُّونَ شُعْبَةً: فَأَفْضَلُهَا قَوْلُ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَأَدْنَاهَا إِمَاطَةُ الْأَذَى عَنِ الطَّرِيقِ؛ وَالْحَيَاءُ شُعْبَةٌ مِنَ الْإِيمَانِ». مُتَّفَقٌ عَلَيْهِ .

127. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İman yetmiş (və ya altmış) şöbədir. Ən fəzilətlisi "Allahdan başqa ilah yoxdur" demək, ən aşağısı isə əziyyət verən şeyləri yoldan qaldırmaqdır. Həya da imandan bir şöbədir".

Buxari, İman 3; Müslim, İman 58. Həmçinin bax. Əbu davud, Sünnət 14; Nəsai, İman 16; Tirmizi, İman 6; İbn Macə, Müqəddimə 9

❁

١٢٨ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ : «بَيْنَمَا رَجُلٌ يَمْشِي بِطَرِيقٍ ٱشْتَدَّ عَلَيْهِ الْعَطَشُ ، فَوَجَدَ بِئْرًا فَنَزَلَ فِيهَا فَشَرِبَ ، ثُمَّ خَرَجَ فَإِذَا كَلْبٌ يَلْهَثُ يَأْكُلُ الثَّرَى مِنَ الْعَطَشِ فَقَالَ الرَّجُلُ : لَقَدْ بَلَغَ هَذَا الْكَلْبَ مِنَ الْعَطَشِ مِثْلُ الَّذِي كَانَ قَدْ بَلَغَ مِنِّي فَنَزَلَ الْبِئْرَ فَمَلَأَ خُفَّهُ مَاءً ثُمَّ أَمْسَكَهُ بِفِيهِ حَتَّى رَقِيَ ، فَسَقَى الْكَلْبَ فَشَكَرَ اللَّهُ لَهُ فَغَفَرَ لَهُ» قَالُوا : يَا رَسُولَ اللَّهِ ، إِنَّ لَنَا فِي الْبَهَائِمِ أَجْرًا ؟ فَقَالَ : «فِي كُلِّ كَبِدٍ رَطْبَةٍ أَجْرٌ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِلْبُخَارِيِّ : «فَشَكَرَ اللَّهُ لَهُ فَغَفَرَ لَهُ فَأَدْخَلَهُ الْجَنَّةَ».

وَفِي رِوَايَةٍ لَهُمَا : «بَيْنَمَا كَلْبٌ يُطِيفُ بِرَكِيَّةٍ قَدْ كَادَ يَقْتُلُهُ الْعَطَشُ إِذْ رَأَتْهُ بَغِيٌّ مِنْ بَغَايَا بَنِي إِسْرَائِيلَ فَنَزَعَتْ مُوقَهَا فَاسْتَقَتْ لَهُ بِهِ ، فَسَقَتْهُ فَغُفِرَ لَهَا بِهِ» .

128. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Vaxtı ilə bir nəfər yolla gedərkən çox susadı. Bir quyu tapıb içinə girdi, oradan su götürüb çölə çıxdı. Bu zaman dili bir qarış çölə çıxmış, susuzluqdan nəm torpağı yalayan bir köpək gördü. Öz-özünə: "bu zavallı köpək də eynən mənim kimi çox susayıb", dedi və dərhal quyuya düşdü, məstinin içini su ilə doldurdu, məstini ağzı ilə tutaraq çölə çıxdı və köpəyə su verdi. Allah-Təala onun bu hərəkətindən razı qaldı və günahlarını bağışladı".**

Səhabələr:

- Ey Allahın Rəsulu, bizə heyvanlara görə də savab var? - dedilər. Rəsuli-Əkrəm:

- **"Hər bir canlıya görə savab var", -** buyurdu.

Buxari, Mülaqat 9, Məzalim 23, Ədəb 27; Müslim, Salam 153. Həmçinin bax. Əbu Davud, Cihad 44; İbn Macə, Ədəb 8

Buxarinin başqa bir rəvayətində **"Allah ondan razı qaldı və günahlarını bağışlayıb cənnətinə qoydu"** ifadəsi yer alır.

Buxari və Müslimin başqa bir rəvayətində isə belə deyilir:

"Susuzluqdan ölmək üzrə olan bir köpək su quyusunun ətrafında dolaşırdı. İsrail oğullarından fahişə bir qadın onu gördü, dərhal ayaqqabısını çıxartdı və onunla su götürüb köpəyə verdi. Bu səbəblə həmin qadın bağışlandı".

Buxari, Ənbiya 54; Müslim, Salam 155

❁

١٢٩ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَقَدْ رَأَيْتُ رَجُلًا يَتَقَلَّبُ فِي الْجَنَّةِ فِي شَجَرَةٍ قَطَعَهَا مِنْ ظَهْرِ الطَّرِيقِ كَانَتْ تُؤْذِي الْمُسْلِمِينَ» . رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ: «مَرَّ رَجُلٌ بِغُصْنِ شَجَرَةٍ عَلَى ظَهْرِ طَرِيقٍ فَقَالَ: «وَاللَّهِ لَأُنَحِّيَنَّ هَذَا عَنِ الْمُسْلِمِينَ لَا يُؤْذِيهِمْ فَأُدْخِلَ الْجَنَّةَ».

وَفِي رِوَايَةٍ لَهُمَا: «بَيْنَمَا رَجُلٌ يَمْشِي بِطَرِيقٍ وَجَدَ غُصْنَ شَوْكٍ عَلَى الطَّرِيقِ فأَخَّرَهُ فَشَكَرَ اللَّهُ لَهُ فَغَفَرَ لَهُ».

129. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yol üstündə müsəlmanlara narahatçılıq verən ağacı kəsən bir kişini cənnət nemətləri içində üzərkən gördüm".

Müslim, Birr 129

Başqa bir rəvayətdə (Müslim, Birr 128) belə buyurulur:

"Bir nəfər yolun üstündə ağac budağı gördü və "Allaha and içirəm ki, müsəlmanlara narahatçılıq verməməsi üçün bunu buradan qaldıracağam", - dedi (onu yoldan qaldırdı) və bu səbəblə cənnətə qoyuldu".

Buxari (Azan 32, Məzalim 28) və Müslimin (Birr 127, İmarə 164) müştərək bir rəvayətində də belə buyurulur:

"Bir nəfər yol ilə gedərkən qarşısına tikan budağı çıxdı və onu yoldan kənarlaşdırdı.Bu səbəblə Allah ondan razı qaldı və günahlarını bağışladı".

❁

١٣٠ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ ثُمَّ أَتَى الْجُمُعَةَ فَاسْتَمَعَ وَأَنْصَتَ غُفِرَ لَهُ مَا بَيْنَهُ وَبَيْنَ الْجُمُعَةِ وَزِيَادَةُ ثَلَاثَةِ أَيَّامٍ، وَمَنْ مَسَّ الْحَصَا فَقَدْ لَغَا» . رَوَاهُ مُسْلِمٌ .

130. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir adam gözəl dəstəmaz alar, cümə namazına gedər, səs salmadan xütbəyə qulaq asarsa iki cümə arasındakı və əlavə üç günlük günahları bağışlanar. Kim xütbə oxunarkən çınqıl daşları ilə oynayarsa, cümənin savabından məhrum qalar".

Müslim, Cümə 27. Həmçinin bax. Əbu Davud, Salət 203; Tirmizi, Cümə 5; İbn Macə, İqamə 62, 81

١٣١ـ وَعَنْهُ أَنَّ رَسُــولَ اللَّهِ ﷺ قَـالَ: «إِذَا تَوَضَّأَ الْعَبْـدُ الْمُسْلِمُ، أَوِ الْمُؤْمِنُ فَغَسَلَ وَجْهَهُ خَـرَجَ مِنْ وَجْهِهِ كُلُّ خَطِيئَةٍ نَظَرَ إِلَيْهَا بِعَيْنَيْـهِ مَعَ الْمَاءِ، أَو مَعَ اٰخِرِ قَطْرِ الْمَاءِ، فَإِذَا غَسَلَ يَدَيْهِ خَـرَجَ مِنْ يَدَيْهِ كُلُّ خَطِيئَةٍ كَانَ بَطَشَتْهَـا يَدَاهُ مَعَ الْمَاءِ، أَوْ مَعَ اٰخِرِ قَطْرِ الْمَاءِ حَتَّى يَخْرُجَ نَقِيًّا مِنَ الذُّنُوبِ، فَإِذَا غَسَلَ رِجْلَيْهِ خَرَجَتْ كُلُّ خَطِيئَةٍ مَشَتْهَا رِجْلَاهُ مَعَ الْمَاءِ أَوْ مَعَ اٰخِـرِ قَطْرِ الْمَاءِ حَتَّى يَخْرُجَ نَقِيًّا مِنَ الذُّنُوبِ» . رَوَاهُ مُسْلِمٌ .

131. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir müsəlman (və ya mömin) dəstəmaz aldığı zaman üzünü yuyarkən gözləri ilə işlədiyi günahlar dəstəmaz suyu (yaxud suyun son damlası) ilə tökülər. Əllərini yuyarkən əlləri ilə işlədiyi günahlar dəstəmaz suyu (yaxud suyun son damlası) ilə tökülər (ta ki, bütün günahlarından təmizlənər və tərtəmiz olar). Ayaqlarını yuyarkən ayaqları ilə işlədiyi günahları dəstəmaz suyu (yaxud suyun son damlası) ilə axıb gedər. Nəhayət, həmin müsəlman tamamilə günahlarından təmizlənmiş olar".

Müslim, Təharət 32. Həmçinin bax. Tirmizi, Təharət 2

❁

١٣٢ـ وَعَنْهُ عَنْ رَسُــولِ اللَّهِ ﷺ قَـالَ: «الصَّلَوَاتُ الْخَمْـسُ، وَالْجُمُعَـةُ إِلَى الْجُمُعَةِ، وَرَمَضَــانُ إِلَى رَمَضَانَ مُكَفِّـرَاتٌ لِمَا بَيْنَهُنَّ إِذَا اجْـتُنِبَتِ الْكَبَـائِرُ». رَوَاهُ مُسْلِمٌ .

132. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Böyük günahlardan uzaq durmaq şərti ilə beş vaxt namaz, iki cümə və iki Ramazan aralarında (işlənəcək kiçik) günahlara kəffarədir".

(Müslim, Təharət 16)

١٣٣ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَلَا أَدُلُّكُمْ عَلَى مَا يَمْحُوا اللَّهُ بِهِ الْخَطَايَا وَيَرْفَعُ بِهِ الدَّرَجَاتِ؟ قَالُوا: بَلَى يَا رَسُولَ اللَّهِ قَالَ: إِسْبَاغُ الْوُضُوءِ عَلَى الْمَكَارِهِ وَكَثْرَةُ الْخُطَا إِلَى الْمَسَاجِدِ، وَانْتِظَارُ الصَّلَاةِ بَعْدَ الصَّلَاةِ فَذَلِكُمُ الرِّبَاطُ». رَوَاهُ مُسْلِمٌ .

133. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

"Allah-Təalanın xətaları bağışlamasına və dərəcələri yüksəltməsinə səbəb olan yaxşı və xeyir əməlləri sizə izah edimmi?" - deyə soruşdu.

Əshabi-kiram:

- Bəli, (izah et) ey Allahın Rəsulu! - dedi. Hz. Peyğəmbər:

- **"Çətinliklə də olsa dəstəmazı tam almaq, məscidlərə gedən addımları artırmaq, namazdan sonra növbəti namazı gözləmək... Sizin ribatınız (sərhəddə növbə çəkməyiniz) bax budur", -** buyurdu.

Müslim, Təharət 41. Həmçinin bax. Tirmizi, Təharət 39; İbn Macə, Təharət 49, Məsacid 14

❁

١٣٤ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ صَلَّى الْبَرْدَيْنِ دَخَلَ الْجَنَّةَ». مُتَّفَقٌ عَلَيْهِ .

134. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim iki sərinlik namazını[16] qılarsa, cənnətə girmiş sayılar".

Buxari, Məvaqitus-salət 26; Müslim, Məsacid 215

❁

١٣٥ـ وَعَنْهُ قَالَ:قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا مَرِضَ الْعَبْدُ أَوْ سَافَرَ كُتِبَ لَهُ مِثْلُ مَا كَانَ يَعْمَلُ مُقِيمًا صَحِيحًا» . رَوَاهُ الْبُخَارِيُّ .

16. Sübh və ikindi namazlarını

135. Yenə Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim xəstələndiyi üçün və ya (cihad və xeyir məqsədi ilə) səfərə çıxması səbəbi ilə adət halına gətirdiyi nafilə ibadətlərini yerinə yetirə bilməzsə, ona sağlam vaxtlarında evində işlədiyi əməllərin savabı yazılar".

Buxari, Cihad 134

❁

١٣٦ـ عَنْ جَابِرٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ:قَالَ رَسُولُ اللَّهِ ﷺ «كُلُّ مَعْرُوفٍ صَدَقَةٌ» . رَوَاهُ الْبُخَارِيُّ .

136. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dinə uyğun olan hər bir gözəl iş sədəqədir".

Buxari, Ədəb 33; Müslim, Zəkat 53. Həmçinin bax. Əbu davud, Ədəb 60; Tirmizi, Birr 45

❁

١٣٧ـ وَعَنْهُ قَالَ:قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا مِنْ مُسْلِمٍ يَغْرِسُ غَرْسًا إِلَّا كَانَ مَا أُكِلَ مِنْهُ لَهُ صَدَقَةً ، وَمَا سُرِقَ مِنْهُ لَهُ صَدَقَةً ، وَلَا يَرْزَؤُهُ أَحَدٌ إِلَّا كَانَ لَهُ صَدَقَةً». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لَهُ : «فَلَا يَغْرِسُ الْمُسْلِمُ غَرْسًا ، فَيَأْكُلُ مِنْهُ إِنْسَانٌ وَلَا دَابَّةٌ وَلَا طَيْرٌ إِلَّا كَانَ لَهُ صَدَقَةً إِلَى يَوْمِ الْقِيَامَةِ» . رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لَهُ : « لَا يَغْرِسُ الْمُسْلِمُ غَرْسًا ، وَلَا يَزْرَعُ زَرْعًا ، فَيَأْكُلُ مِنْهُ إِنْسَانٌ وَلَا دَابَّةٌ وَلَا شَيْءٌ إِلَّا كَانَتْ لَهُ صَدَقَةً» .

137. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər hansı bir müsəlmanın əkdiyi ağacdan yeyilən meyvə onun üçün sədəqədir. Ondan oğurlanan da, tələf olunan da sədəqədir".

Müslim, Müsaqat 7

Müslimin başqa bir rəvayətində (Müsaqat 10) belə buyurulur:

"Müsəlman bir adam ağac əkər və ondan insan, heyvan, yaxud quş yeyərsə, yeyilənlər qiyamət gününə qədər həmin müsəlman üçün sədəqə olaraq yazılar".

Müslimin başqa bir rəvayətində (Müsaqat 9, 12) isə belə buyurulur:

"Bir müsəlman ağac və ya əkin əkər və ondan bir insan və ya qurd-quş yeyərsə, bu, həmin müsəlman üçün sədəqə olar".

Buxari (Hars 1, Ədəb 27) və Müslim bu sonuncu hədisi Ənəs bin Malikdən rəvayət etmişlər.

❁

١٣٨ـ وَعَنْهُ قَالَ: أَرَادَ بَنُو سَلِمَةَ أَنْ يَنْتَقِلُوا قُرْبَ الْمَسْجِدِ فَبَلَغَ ذَلِكَ رَسُولَ اللَّهِ ﷺ فَقَالَ لَهُمْ: «إِنَّهُ قَدْ بَلَغَنِي أَنَّكُمْ تُرِيدُونَ أَنْ تَنْتَقِلُوا قُرْبَ الْمَسْجِدِ؟ فَقَالُوا: نَعَمْ يَا رَسُولَ اللَّهِ ، قَدْ أَرَدْنَا ذَلِكَ فَقَالَ: «بَنِي سَلِمَةَ : دِيَارَكُمْ تُكْتَبْ اٰثَارُكُمْ ، دِيَارَكُمْ تُكْتَبْ اٰثَارُكُمْ». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ: «إِنَّ بِكُلِّ خَطْوَةٍ دَرَجَةً» . رَوَاهُ مُسْلِمٌ .

رَوَاهُ الْبُخَارِيُّ أَيْضًا بِمَعْنَاهُ مِنْ رِوَايَةِ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ

138. Cabir bin Abdullah *radiyallahu anh* belə dedi:

Səlimə oğulları Məscidi-Nəbəvinin yaxınlığına köç etmək istədilər. Məsələni Rəsulullah *səllallahu əleyhi və səlləmə* çatdıranda onlara:

- **"Eşitdiyimə görə məscidin yaxınlığına köçmək istəyirsiniz (elədirmi?)", -** deyə soruşdu. Onlar:

- Bəli, ey Allahın Rəsulu, belə bir işə niyyət etdik,- dedilər.

Bu cavabı alan Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Ey Səlimə oğulları, yerinizdə qalın ki, addımlarınız(ın savabı) yazılsın. Yerinizdə qalın ki, addımlarınız(ın savabı) yazılsın!" -** buyurdu.

Müslim, Məsacid 280. Həmçinin bax. Tirmizi, Təfsiru surə (36), 1

Başqa bir rəvayətdə (Müslim, Məsacid 279) Rəsulullah *səllallahu əleyhi və səlləm* **"Hər addım qarşılığında sizə bir dərəcə vardır", -** buyurmuşdur.

Buxari bu hədisi Ənəs bin Malikdən bu mənaya gələcək şəkildə rəvayət etmişdir. (bax. Azan 33; Fəzailul-Mədinə 11)

❁

١٣٩ـ عَنْ أَبِي الْمُنْذِرِ أُبَيِّ بْنِ كَعْبٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: كَانَ رَجُلٌ لَا أَعْلَمُ رَجُلًا أَبْعَدَ مِنْ الْمَسْجِدِ منْهُ ، وَكَانَ لَا تُخْطِئُهُ صَلَاةٌ فَقِيلَ لَهُ أو فَقُلْتُ لَهُ: لَوْ اشْتَرَيْتَ حِمَارًا تَرْكَبُهُ فِي الظَّلْمَاءِ وَفِي الرَّمْضَاءِ؟ فَقَالَ: مَا يَسُرُّنِي أَنَّ مَنْزِلِي إِلَى جَنْبِ الْمَسْجِدِ إِنِّي أُرِيدُ أَنْ يُكْتَبَ لِي مَمْشَايَ إِلَى الْمَسْجِدِ وَرُجُوعِي إِذَا رَجَعْتُ إِلَى أَهْلِي فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «قَدْ جَمَعَ اللَّهُ لَكَ ذَلِكَ كُلَّهُ». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ: «إِنَّ لَكَ مَا احْتَسَبْتَ».

139. Əbul-Munzir Übey bin Kab *radiyallahu anh* belə dedi:

Bir nəfər vardı, mən məscidə ondan daha uzaqda olan başqa bir adam tanımıram. Camaatla namazı əsla qaçırmazdı. Ona:

- Bir uzunqulaq alıb isti havada və qaranlıqda ona minsən (yaxşı olmazmı?),- dedilər (və ya mən dedim).

O, belə cavab verdi:

- Evimin məscidin düz yanında olması məni heç məmnun etməz. Çünki mən məscidə gediş və dönüşümün adıma (savab) yazılmasını istəyirəm.

Rəsulullah *səllallahu əleyhi və səlləm* də ona belə buyurdu:

- **"Allah bunların hamısının savabını sənin üçün topladı".**

Müslim, Məsacid 278

Eyni hədisin başqa bir rəvayətində Hz. Peyğəmbər:

"Allahdan gözlədiyin sənə verilmişdir", - buyurdu.

❁

١٤٠ـ عَنْ أَبِي مُحَمَّدٍ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَرْبَعُونَ خَصْلَةً أَعْلَاهَا مَنِيحَةُ الْعَنْزِ مَا مِنْ عَامِلٍ يَعْمَلُ بِخَصْلَةٍ مِنْهَا رَجَاءَ ثَوَابِهَا وَتَصْدِيقَ مَوْعُودِهَا إِلَّا أَدْخَلَهُ اللَّهُ بِهَا الْجَنَّةَ». رَوَاهُ الْبُخَارِيُّ.

140. Əbu Muhammməd Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qırx savab vardır ki, bunların ən üstünü bir nəfərə sağması üçün müəyyən müddətlik südlü bir keçi verməkdir. Kim savabını umaraq və haqqındakı vədlərə inanaraq bu qırx xeyirdən birini işləyərsə, Allah bu səbəblə onu cənnətə qoyar".

Buxari, Hibə 35. Həmçinin bax. Əbu Davud, Zəkat 42

❁

١٤١ـ عَنْ عَدِيِّ بْنِ حَاتِمٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ : سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «إِتَّقُوا النَّارَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ» . مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ لَهُمَا عَنْهُ قَالَ: قَال رَسُولُ اللَّهِ ﷺ: «مَا مِنْكُمْ مِنْ أَحَدٍ إِلَّا سَيُكَلِّمُهُ رَبُّهُ لَيْسَ بَيْنَهُ وَبَيْنَهُ تَرْجُمَانٌ: فَيَنْظُرُ أَيْمَنَ مِنْهُ فَلَا يَرَى إِلَّا مَاقَدَّمَ وَيَنْظُرُ أَشْأَمَ مِنْهُ فَلَا يَرَى إِلَّا مَا قَدَّمَ وَيَنْظُرُ بَيْنَ يَدَيْهِ فَلَا يَرَى إِلَّا النَّارَ تِلْقَاءَ وَجْهِهِ فَاتَّقُوا النَّارَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ ، فَمَنْ لَمْ يَجِدْ فَبِكَلِمَةٍ طَيِّبَةٍ».

141. Adiy bin Hatim *radiyallahu anhdan* rəvayət edildiyinə görə "Nəbi *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim", - demişdir:

"Yarım xurma ilə də olsa cəhənnəmdən özünüzü qoruyun!"

Buxari, Ədəb 34, Zəkat 10, Riqaq 51, Tövhid 36; Müslim, Zəkat 66-70. Həmçinin bax. Tirmizi, Qiyamət 1, Zöhd 37; Nəsai, Zəkat 63; İbn Macə, Müqəddimə 13, Zəkat 28

Buxari (Zəkat 10, Tövhid 24, 36) və Müslimin (Zəkat 67) Adiy bin Hatimdən gələn başqa bir rəvayətlərində Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah hər birinizlə tərcüməçisiz danışacaqdır. İnsan sağ tərəfinə baxacaq, axirətə göndərdiklərindən başqa heç nə görməyəcək. Soluna baxacaq, axirətə göndərdiklərindən başqa heç nə görməyəcək. Önünə baxacaq, qarşısında cəhənnəmdən başqa heç nə görməyəcək. Elə isə artıq bir xurmanın yarısı ilə də olsa özünüzü cəhənnəm alovundan qoruyun. Bunu da tapmayan gözəl bir sözlə özünü qorusun".

❁

١٤٢ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ ﷺ : «إِنَّ اللّٰهَ لَيَرْضَى عَنِ الْعَبْدِ أَنْ يَأْكُلَ الْأَكْلَةَ فَيَحْمَدُهُ عَلَيْهَا أو يَشْرَبُ الشَّرْبَةَ فَيَحْمَدُهُ عَلَيْهَا». رَوَاهُ مُسْلِمٌ .

142. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala yemək yedikdən və ya nə isə içdikdən sonra özünə həmd edən bəndəsindən razı qalar".

Müslim, Zikr 89. Həmçinin bax. Tirmizi, Ətimə 18

❁

١٤٣ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «عَلَى كُلِّ مُسْلِمٍ صَدَقَةٌ» قَالَ أَرَأَيْتَ إِنْ لَمْ يَجِدْ؟ قَالَ: «يَعْمَلُ بِيَدَيْهِ فَيَنْفَعُ نَفْسَهُ وَيَتَصَدَّقُ»، قَالَ: أَرَأَيْتَ إِنْ لَمْ يَسْتَطِعْ؟ قَالَ: «يُعِينُ ذَا الْحَاجَةِ الْمَلْهُوفَ» قَالَ: أَرَأَيْتَ إِنْ لَمْ يَسْتَطِعْ قَالَ: «يَأْمُرُ بِالْمَعْرُوفِ أَوِ الْخَيْرِ» قَالَ: أَرَأَيْتَ إِنْ لَمْ يَفْعَلْ؟ قَالَ: «يُمْسِكُ عَنِ الشَّرِّ فَإِنَّهَا صَدَقَةٌ». مُتَّفَقٌ عَلَيْهِ .

143. Əbu Musa (əl-Əşari) *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir dəfə Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Sədəqə vermək hər bir müsəlmanın borcudur", -** buyurdu.

- Sədəqə vermək üçün heç nə tapmasa, onda necə? - dedilər.

- **"Fəhləlik edər, həm özünə faydası toxunar, həm də sədəqə verər", -** buyurdu.

- Buna gücü çatmaz (və ya iş tapmazsa), onda necə? - dedilər.

- **"Darda qalana, ehtiyac sahibinə yardım edər", -** buyurdu.

- Buna da gücü çatmazsa? - dedilər.

- **"Yaxşılıq etməyi tövsiyə edər", -** buyurdu.

- Bunu da edə bilməsə? - dedilər.

- **"Pislik etməkdən uzaq durar. Bu da onun üçün sədəqədir", -** buyurdu.

Buxari, Zəkat 30, Ədəb 33; Müslim, Zəkat 55

ALLAHIN ƏMRLƏRİNƏ İTAƏTDƏ ÖLÇÜLÜ OLMAQ

Ayələr

طٰهٰ مَا أَنْزَلْنَا عَلَيْكَ الْقُرْاٰنَ لِتَشْقَى .

1. "Taha. Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik!"

(Taha, 1-2)

يُرِيدُ اللَّهُ بِكُمُ الْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ الْعُسْرَ .

2. "Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ".

(əl-Bəqərə, 185)

Hədislər

١٤٤ـ عَنْ عَـائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَـا أن النَّبِيَّ ﷺ دَخَلَ عَلَيْهَا وعِنْدَهَا امْـرَأَةٌ قَـالَ: «مَنْ هَذِهِ؟» قَـالَتْ: هَذِهِ فُـلَانَةُ تَذْكُـرُ مِنْ صَـلَاتِهَا قَـال: «مَـهْ عَلَيْكُمْ بِمَا تُطِيقُونَ: فَوَ اللَّهِ لَا يَمَلُّ اللَّهُ حَتَّى تَمَلُّوا» وَكَانَ أَحَبُّ الدِّينِ إِلَيْهِ مَا دَاوَمَ صَاحِبُهُ عَلَيْهِ. مُتَّفَقٌ عَلَيْهِ .

144. Aişə *radiyallahu anhənin* bildirdiyinə görə bir qadınla bərabər oturduqları vaxt Peyğəmbər *səllallahu əleyhi və səlləm* yanlarına girdi və:

- **"Bu qadın kimdir?" -** deyə soruşdu. Aişə anamız:

- Bu, filankəsdir,- dedikdən sonra onun çox namaz qılmasından söz açdı. Rəsuli-Əkrəm:

- **"Bunları sadalamağı burax, gücünüzün çatdığı qədər ibadət etsəniz, bu sizin üçün kifayətdir. Allaha and içirəm ki, siz bezib usanmadıqca Allah bezib usanmaz", -** buyurdu.

Rəsuli-Əkrəmin ən çox sevdiyi ibadət davamlı edilən ibadət idi.

Buxari, İman 32, Təhəccüd 18; Müslim, Müsafirin 221. Həmçinin bax. Nəsai, Qiyamul-leyl 17; İman 29

❁

١٤٥ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْـهُ قَـالَ: «جَـاءَ ثَلَاثَـةُ رَهْطٍ إِلَى بُيُـوتِ أَزْوَاجِ النَّبِيِّ ﷺ يَسْأَلُونَ عَنْ عِبَـادَةِ النَّبِيِّ ﷺ فَلَمَّا أُخْبِرُوا كَأَنَّهُمْ تَقَـالُّوهَا وَقَـالُوا: أَيْنَ نَحْنُ مِنَ النَّبِيِّ ﷺ وقَدْ غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِـهِ وَمَا تَأَخَّرَ. قَالَ أَحَدُهُمْ: أَمَّا أَنَا فَأُصَلِّي اللَّيْلَ أبدًا، وقَالَ الاٰخَرُ: وَأَنَا أَصُومُ الدَّهْرَ أَبَدًا ولَا أُفْطِرُ، وقَالَ الاٰخر: وَأَنَا أَعْتَزِلُ النِّسَاءَ فَلَا أَتَزَوَّجُ أَبَدًا، فَجَاءَ رَسُولُ اللّٰهِ ﷺ إِلَيْهِمْ فَقَالَ: أَنْتُمُ الَّذِينَ قُلْتُمْ كَـذَا وَكَـذَا؟ أَمَا وَاللَّهِ إِنِّي لَأَخْشَـاكُمْ لِلَّهِ وأَتْقَـاكُمْ لَهُ لَكِنِّي أَصُـومُ وَأُفْطِرُ وَأُصَلِّي وَأَرْقُدُ وَأَتَزَوَّجُ النِّسَاءَ فَمَنْ رَغِبَ عَنْ سُنَّتِي فَلَيْسَ مِنِّي». مُتَّفَقٌ عَلَيْهِ .

145. Ənəs bin Malik *radiyallahu anh* belə dedi:

Həzrət Peyğəmbərin nafilə ibadətlərini öyrənmək üçün üç səhabədən ibarət bir qrup Peyğəmbər xanımlarının evinə getdilər. Onlara Allah Rəsulunun ibadəti haqda məlumat verildikdə bunu az saydılar və:

- Allahın Rəsulu hara, biz hara? Onun keçmiş və gələcək günahları bağışlanmışdır, -dedilər. Aralarından biri:

- Mən ömrümün sonuna qədər gecələr yatmadan namaz qılacağam,- dedi. Digəri:

- Mən də ömrüm boyu gündüzlər oruc tutacağam və heç bir günümü orucsuz keçirməyəcəyəm,- dedi. Üçüncü səhabə isə:

- Mən də yaşadığım müddət ərzində qadınlardan uzaq duracaq, əsla evlənməyəcəyəm, deyə söz verdi. Bir müddət sonra Peyğəmbər *səllallahu əleyhi və səlləm* onların yanına gəldi və belə buyurdu:

- **"Belə-belə deyən sizsiniz? Sizə xəbərdarlıq edirəm. Allaha and içirəm ki, sizin Allahdan ən çox qorxanınız və Ona ən çox ehtiram göstərəniniz mənəm. Lakin mən bəzən oruc tuturam, bəzən tutmuram. Gecə həm namaz qılıram, həm də yatıram. Qadınlarla da evlənirəm. Mənim sünnəmdən üz çevirən kəs məndən deyildir".**

Buxari, Nikah 1; Müslim, Nikah 5. Həmçinin bax. Nəsai, Niklah 4

❁

١٤٦ـ عَنْ ابْنِ مَسْعُودٍ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «هَلَكَ الْمُتَنَطِّعُونَ». قَالَهَا ثَلَاثًا. رَوَاهُ مُسْلِمٌ .

146. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Söz və əməllərində irəli gedib həddi aşanlar həlak oldular". Rəsuli-Əkrəm bu sözü üç dəfə təkrarladı.

Müslim, Elm 7. Həmçinin bax. Əbu Davud, Sünnət 5

❁

١٤٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ : «إِنَّ الدِّينَ يُسْرٌ وَلَنْ يُشَادَّ الدِّينُ إِلَّا غَلَبَهُ فَسَدِّدُوا وَقَارِبُوا وَأَبْشِرُوا وَاسْتَعِينُوا بِالْغَدْوَةِ وَالرَّوْحَةِ وَشَيْءٍ مِنَ الدُّلْجَةِ». رَوَاهُ الْبُخَارِيُّ .

وَفِي رِوَايَةٍ لَهُ: «سَدِّدُوا وَقَارِبُوا وَاغْدُوا وَرُوحُوا، وَشَيْءٌ مِنَ الدُّلْجَةِ، الْقَصْدَ الْقَصْدَ تَبْلُغُوا».

147. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Din asanlıqdır. Dinin müəyyənləşdirdiyi əmr və qadağalarla kifayətlənməyibdaha artığını etməyə özünü məcbur edən kəs dinə məğlub olar. Elə isə orta yolu tutun, ən yaxşını etməyə çalışın, o zaman müjdələr sizə. Günün əvvəlindən, sonundan və bir az da gecədən faydalanın".

Buxari, İman 29. Həmçinin bax. Nəsai, İman 28.

Buxarinin başqa bir rəvayəti belədir:

"Orta yolu tutun, əməllərinizi kamil şəkildə etməyə və Allaha yaxın olmağa çalışın. Səhər, günorta və axşam arası çalışın. Bir az da gecədən faydalanın. Amandır tələsmədən, tələşsiz gedin ki, mənzilinizə, gedəcəyiniz hədəfə çatasınız".

Buxari, Rikak 18.

❁

١٤٨ـ عَنْ أَنَسٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: دَخَلَ النَّبِيُّ ﷺ الْمَسْجِدَ فَإِذَا حَبْلٌ مَمْدُودٌ بَيْنَ السَّارِيَتَيْنِ فَقَالَ: مَا هَذَا الْحَبْلُ؟ قَالُوا. هَذَا حَبْلٌ لِزَيْنَبَ فَإِذَا فَتَرَتْ تَعَلَّقَتْ بِهِ. فَقَالَ النَّبِيُّ ﷺ : «حُلُّوهُ لِيُصَلِّ أَحَدُكُمْ نَشَاطَهُ فَإِذَا فَتَرَ فَلْيَرْقُدْ». مُتَّفَقٌ عَلَيْهِ .

148. Ənəs *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* məscidə girmişdi. Gözünə iki dirək arasına uzadılmış ip dəydi.

- **"Bu ip nə üçündür?" -** deyə soruşanda səhabələr:

- Bu, Zeynəb binti Cəhşindir. Namazda ayaq üstə dayanmaqdan yorulanda ondan tutur,- dedilər. Bunun üzərinə Peyğəmbərimiz:

- **“Tez onu açın. Sizdən biri gümrah və istəkli olanda nafilə namaz qılsın. Yorğunluq hiss etdiyi zaman da uzanıb yatsın”, -** buyurdu.

Buxari, Təhəccüd 18; Müslim, Müsafirin 219. Həmçinin bax. Əbu Davud, Tatavvu 18; Nəsai, Qiyamul-leyl 17; İbn Macə, İqamə184

❁

١٤٩ـ عَنْ عَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا نَعَسَ أَحَدُكُمْ وَهُوَ يُصَلِّي فَلْيَرْقُدْ حَتَّى يَذْهَبَ عَنْهُ النَّوْمُ فَإِنَّهُ إِذَا صَلَّى وَهُوَ نَاعِسٌ لَا يَدْرِي لَعَلَّهُ يَذْهَبُ يَسْتَغْفِرُ فَيَسُبُّ نَفْسَهُ» . مُتَّفَقٌ عَلَيْهِ .

149. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Sizdən biri namaz qılarkən yuxunun ağırlığı çökərsə, bu halı keçənə qədər yatsın. Çünki yuxulu-yuxulu namaz qılan adam bəlkə də bilmədən istiğfar edib Allahdan bağışlanma diləyəcəyəm deyərkən özünə söyər, bəddua edər”.

Buxari, Vudu 53; Müslim, Müsafirin 222. Həmçinin bax. Əbu Davud, Tatavvu 18; Tirmizi, Məvaqit 146; Nəsai, Təharət 116; İbn Macə, İqamə 184

❁

١٥٠ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ جَابِرِ بْنِ سَمُرَةَ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: «كُنْتُ أُصَلِّي مَعَ النَّبِيِّ ﷺ الصَّلَوَاتِ فَكَانَتْ صَلَاتُهُ قَصْدًا وخُطْبَتُهُ قَصْدًا» . رَوَاهُ مُسْلِمٌ .

150. Əbu Abdullah Cabir bin Səmurə *radiyallahu anhumə* belə dedi:

“Namazlarımı Nəbi *səllallahu əleyhi və səlləm* ilə birlikdə qılardım. Onun namazı da, xütbəsi də orta uzunluqda idi”.

Müslim, Cümə 41-42. Həmçinin bax. Salət 223; Tirmizi, Cümə 12; Nəsai, Cümə 35; İbn Macə, İqamə 85

❁

١٥١ ـ عَنْ أَبِي جُحَيْفَةَ وَهْبِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: اٰخَى النَّبِيُّ ﷺ بَيْنَ سَلْمَانَ وَأَبِي الدَّرْدَاءِ ، فَزَارَ سَلْمَانُ أَبَا الدَّرْدَاءِ فَرَأَى أُمَّ الدَّرْدَاءِ مُتَبَذِّلَةً فَقَالَ لَهَا مَا شَأْنُكِ؟ قَالَتْ: أَخُوكَ أَبُو الدَّرْدَاءِ لَيْسَ لَهُ حَاجَةٌ فِي الدُّنْيَا فَجَاءَ أَبُو الدَّرْدَاءِ فَصَنَعَ لَهُ طَعَامًا فَقَالَ لَهُ: كُلْ فَإِنِّي صَائِمٌ . قَالَ: مَا أَنَا بِاٰكِلٍ حَتَّى تَأْكُلَ فَأَكَلَ فَلَمَّا كَانَ اللَّيْلُ ذَهَبَ أَبُو الدَّرْدَاءِ يَقُومُ . فَقَالَ لَهُ: نَمْ فَنَامَ . ثُمَّ ذَهَبَ يَقُومُ، فَقَالَ لَهُ : نَمْ . فَلَمَّا كَانَ اٰخِرُ اللَّيْلِ قَالَ سَلْمَانُ : قُمِ اٰلْاٰنَ . فَصَلَّيَا جَمِيعًا فَقَالَ لَهُ سَلْمَانُ : إِنَّ لِرَبِّكَ عَلَيْكَ حَقًّا ، وَإِنَّ لِنَفْسِكَ عَلَيْكَ حَقًّا، وَلِأَهْلِكَ عَلَيْكَ حَقًّا، فَأَعْطِ كُلَّ ذِي حَقٍّ حَقَّهُ ، فأَتَى النَّبِيَّ ﷺ فَذَكَرَ ذَلِكَ لَهُ ، فَقَالَ النَّبِيُّ ﷺ: «صَدَقَ سَلْمَانُ» . رَوَاهُ الْبُخَارِيُّ .

151. Əbu Cüheyfə Vəhb bin Abdullah *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* Salman Farisi ilə Əbu Dərdanı qardaş etmişdi. Bir gün Salman Farisi Əbu Dərdanı ziyarətə getmişdi. Bu zaman onun xanımı Ümmü Dərdanı olduqca köhnə paltarda gördü. Ondan:

- Bu nə haldır? - deyə soruşdu. Qadın:

- Qardaşın Əbu Dərda dünya malına əhəmiyyət vermir,- dedi. Bu əsnada Əbu Dərda evə gəldi və Salmanı hazırlatdığı yeməyə dəvət edib:

- Buyurun, yeməyinizi yeyin, mən orucluyam,- dedi. Salman:

- Sən yeməsən mən də yeməyəcəyəm, -cavabını verdi. Əbu Dərda süfrəyə oturub yemək məcburiyyətində qaldı. Gecə olanda Əbu Dərda təhəccüd namazı[17] qılmağa hazırlaşırdı ki, Salman ona:

- Yat,- dedi. Əbu Dərda yatdı, bir müddət sonra yenə qalxmaq istədi. Salman yenə:

- Yat, deyərək qalxmağına mane oldu. Gecənin sonuna yaxın Salman:

- İndi qalx, dedi və hər ikisi birlikdə namaz qıldılar. Sonra Salman Əbu Dərdaya belə dedi:

17. Təhəccüd namazı: Gecə savab qazanmaq məqsədi ilə qılınan namazdır

- Üzərində Rəbbinin haqqı var, nəfsinin haqqı var, ailənin haqqı var. Bütün haqq sahiblərinə haqqını ver.

Sonra Əbu Dərda Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gedib baş verənləri ona danışdı. Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Salman doğru deyib", -** buyurdu.

Buxari Savm 51, Ədəb 86

❁

١٥٢ـ عَنْ أَبِي مُحَمَّدٍ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: أُخْبِرَ النَّبِيُّ ﷺ أَنِّي أَقُولُ: وَاللَّهِ لَأَصُومَنَّ النَّهَارَ ، وَلَأَقُومَنَّ اللَّيْلَ مَا عِشْتُ . فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَنْتَ الَّذِي تَقُولُ ذَلِكَ؟» فَقُلْتُ لَهُ: قَدْ قُلْتُهُ بِأَبِي أَنْتَ وَأُمِّي يَا رَسُولَ اللَّه. قَالَ: فَإِنَّكَ لَا تَسْتَطِيعُ ذَلِكَ فَصُمْ وَأَفْطِرْ، وَنَمْ ، وَقُمْ، وَصُمْ مِنَ الشَّهْرِ ثَلَاثَةَ أَيَّامٍ ، فَإِنَّ الْحَسَنَةَ بِعَشْرِ أَمْثَالِهَا ، وَذَلِكَ مِثْلُ صِيَامِ الدَّهْرِ». قُلْتُ: فَإِنِّي أُطِيقُ أَفْضَلَ مِنْ ذَلِكَ قَالَ: «فَصُمْ يَوْمًا وَأَفْطِرْ يَوْمَيْنِ» قُلْتُ: فَإِنِّي أُطِيقُ أَفْضَلَ مِنْ ذَلِكَ قَالَ: «فَصُمْ يَوْمًا وَأَفْطِرْ يَوْمًا فَذَلِكَ صِيَامُ دَاوُدَ ﷺ وَهُوَ أَعْدَلُ الصِّيَامِ».

وَفِي رِوَايَةٍ: «هوَ أَفْضَلُ الصِّيَامِ فَقُلْتُ: فإِنِّي أُطِيقُ أَفْضَلَ مِنْ ذَلِكَ. فَقَالَ رَسُولُ اللّٰهِ ﷺ : «لَا أَفْضَلَ مِنْ ذَلِكَ» وَلَأَنْ أَكُونَ قَبِلْتُ الثَّلَاثَةَ الْأَيَّامَ الَّتِي قَالَ رَسُولُ اللَّهِ ﷺ أَحَبُّ إِلَيَّ مِنْ أَهْلِي وَمَالِي.

وَفِي رِوَايَةٍ: «أَلَمْ أُخْبَرْ أَنَّكَ تَصُومُ النَّهَارَ وَتَقُومُ اللَّيْلَ؟» قُلْتُ: بَلَى يَا رَسُولَ اللَّهِ ، قَالَ : «فَلَا تَفْعَلْ: صُمْ وَأَفْطِرْ، وَنَمْ وَقُمْ ، فَإِنَّ لِجَسَدِكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ لِعَيْنَيْكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ لِزَوْجِكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ لِزَوْرِكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ

بِحَسْبِكَ أَنْ تَصُومَ فِي كُلِّ شَهْرٍ ثَلَاثَةَ أَيَّامٍ فَإِنَّ لَكَ بِكُلِّ حَسَنَةٍ عَشْرَ أَمْثَالِهَا فَإِذَنْ ذَلِكَ صِيَامُ الدَّهْرِ». فَشَدَّدْتُ فَشُدِّدَ عَلَيَّ. قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، إِنِّي أَجِدُ قُوَّةً. قَالَ: «صُمْ صِيَامَ نَبِيِّ اللَّهِ دَاوُدَ وَلَا تَزِدْ عَلَيْهِ». قُلْتُ: وَمَا كَانَ صِيَامَ دَاوُدَ؟ قَالَ «نِصْفُ الدَّهْرِ» فَكَانَ عَبْدُ اللَّهِ يَقُولُ بَعْدَ مَا كَبِرَ: يَا لَيْتَنِي قَبِلْتُ رُخْصَةَ رَسُولِ اللَّهِ ﷺ .

وَفِي رِوَايَةٍ: «أَلَمْ أُخْبَرْ أَنَّكَ تَصُومُ الدَّهْرَ، وَتَقْرَأُ الْقُرْانَ كُلَّ لَيْلَةٍ؟» فَقُلْتُ: بَلَى يَا رَسُولَ اللَّهِ ، وَلَمْ أُرِدْ بِذَلِكَ إِلَّا الْخَيْرَ قَالَ: «فَصُمْ صَوْمَ نَبِيِّ اللَّهِ دَاوُدَ، فَإِنَّهُ كَانَ أَعْبَدَ النَّاسِ، وَاقْرَإِ الْقُرْانَ فِي كُلِّ شَهْرٍ» قُلْتُ: يَا نَبِيَّ اللَّهِ، إِنِّي أُطِيقُ أَفْضَلَ مِنْ ذَلِكَ؟ قَالَ: «فَاقْرَأْهُ فِي كُلِّ عِشْرِينَ» قُلْتُ: يَا نَبِيَّ اللَّهِ ، إِنِّي أُطِيقُ أَفْضَلَ مِنْ ذَلِكَ؟ قَالَ: «فَاقْرَأْهُ فِي كُلِّ عَشْرٍ» قُلْتُ: يَا نَبِيَّ اللَّهِ ، إِنِّي أُطِيقُ أَفْضَلَ مِنْ ذَلِكَ؟ قَالَ: «فَاقْرَأْهُ فِي كُلِّ سَبْعٍ وَلَا تَزِدْ عَلَى ذَلِكَ». فَشَدَّدْتُ فَشُدِّدَ عَلَيَّ وقَالَ لِيَ النَّبِيُّ ﷺ : «إِنَّكَ لَا تَدْرِي لَعَلَّكَ يَطُولُ بِكَ عُمُرٌ» قَالَ: فصِرْتُ إِلَى الَّذِي قَالَ لِي النَّبِيُّ فَلَمَّا كَبِرْتُ وَدِدْتُ أَنِّي كُنْتُ قَبِلْتُ رُخْصَةَ نَبِيِّ اللَّهِ ﷺ.

وَفِي رِوَايَةٍ «وَإِنَّ لِوَلَدِكَ عَلَيْكَ حَقًّا» وَفِي رِوَايَةٍ: «لَا صَامَ مَنْ صَامَ الأَبَدَ» ثَلَاثًا.

وَفِي رِوَايَةٍ «أَحَبُّ الصِّيَامِ إِلَى اللَّهِ تَعَالَى صِيَامُ دَاوُدَ وَأَحَبُّ الصَّلَاةِ إِلَى اللَّهِ تَعَالَى صَلَاةُ دَاوُدَ: كَانَ يَنَامُ نِصْفَ اللَّيْلِ وَيَقُومُ ثُلُثَهُ وَيَنَامُ سُدُسَهُ، وَكَانَ يَصُومُ يَوْمًا وَيُفْطِرُ يَوْمًا، وَلَا يَفِرُّ إِذَا لَاقَى».

وَفِي رِوَايَةٍ قَالَ: أَنْكَحَنِي أَبِي امْرَأَةً ذَاتَ حَسَبٍ وَكَانَ يَتَعَاهَدُ كَنَّتَهُ «أي امْرَأَةَ وَلَدِهِ» فَيَسْأَلُهَا عَنْ بَعْلِهَا فَتَقُولَ لَهُ: نِعْمَ الرَّجُلُ مِنْ رَجُلٍ لَمْ يَطَأْ لَنَا فِرَاشًا وَلَمْ

يُفَتِّشْ لَنَا كَنَفًا مُنْذَ أَتَيْنَاهُ. فَلَمَّا طَالَ ذَلِكَ عَلَيْـهِ ذَكَرَ ذَلِكَ لِلنَّبِي ﷺ فقَالَ: «اِلْقَنِي بِهِ» فَلَقِيتُهُ بَعْدُ فَقَالَ: «كَيْفَ تَصُومُ؟» قُلْتُ كُلَّ يَوْمٍ قَالَ: «وَكَيْفَ تَخْتِمُ؟» قُلْتُ: كُلَّ لَيْلَةٍ وَذَكَـرَ نَحْـوَ مَا سَبَقَ ـ وَكَـانَ يَقْـرَأُ عَلَى بَعْضِ أَهْلِهِ السُّبُعَ الَّذِي يَقْـرَؤُهُ يَعْـرِضُـهُ مِنَ النَّهَـارِ لِيَكُونَ أَخَفَّ عَلَيْـهِ بِاللَّيْلِ وَإِذَا أَرَادَ أَنْ يَتَقَـوَّى أَفْطَرَ أَيَّامًـا وَأَحْصَى وَصَامَ مِثْلَهُنَّ كَرَاهِيَةَ أَنْ يَتْرُكَ شَيْئًا فَارَقَ عَلَيْهِ النَّبِيَّ ﷺ .

152. Əbu Muhammməd Abdullah bin Amr bin As *radiyallahu anhumə* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləmə* mənim belə dediyimi xəbər etmişdilər:

"Allaha and olsun ki, ömrümün sonuna qədər gündüzlər oruc tutacaq, gecələri də ibadətlə oyaq keçirəcəyəm". Bunu eşidən Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə:

- **"Bunları deyən sənsən?" -** deyə soruşdu. Mən də ona:

- Atam-anam sənə fəda olsun, ey Allahın Rəsulu, bəli mən demişəm,- cavabını verdim. Belə buyurdu:

- **"Sənin buna gücün çatmaz. Həm oruc tut, həm də iftar et. Həm yat yuxunu al, həm də ibadət et. Hər ay üç gün oruc tut, çünki hər bir yaxşı əmələ on qat savab var. Bu isə bütün zamanı oruclu keçirmək kimidir".** Mən:

- Bundan daha artığını etməyə gücüm çatar,- dedim. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Elə isə bir gün oruc tut, iki gün tutma", -** buyurdu. Mən:

- Amma mən bundan artığını edə bilərəm,- dedim. Hz. Peyğəmbər:

- **"Elə isə bir gün oruc tut, bir gün tutma. Bu, Davud əleyhissalamın orucudur və orucların ən ölçülü olanı budur", -** buyurdu.

Başqa bir rəvayətdə **"bu orucların ən fəzilətlisidir"** olaraq keçir.

- Bundan daha fəzilətlisinə də gücüm çatar,- dedim. Peyğəmbərimiz:

- **"Bundan fəzilətlisi yoxdur", -** buyurdu.

Rəsulullah *səllallahu əleyhi və səlləmin* hər ay üç gün oruc tutmaq tövsiyəsini qəbul etmək mənim üçün ailəmdən və malımdan daha sevimli olacaqdı.

Başqa bir rəvayətə görə:

"Sənin gündüzləri oruclu, gecələri oyaq keçirdiyinin mənə xəbər verilmədiyinimi zənn edirsən?" - buyurmuşdu. Mən də:

- Əlbəttə, xəbər verilmişdir, ya Rəsulallah! - dedim. Bunun üzərinə:

- **"Elə etmə. Bəzən oruc tut, bəzən tutma. Gecə həm yat, həm də təhəccüdə qalx. Şübhəsiz ki, üzərində vücudunun haqqı var, iki gözünün haqqı var, xanımının haqqı var, ziyarətçilərinin haqqı var. Şübhəsiz ki, hər ayda üç gün oruc tutman sənə kifayətdir. Çünki sənin üçün hər bir yaxşı əməlin on misli qarşılığı var. Bu da bütün zamanının oruclu olması deməkdir"**. Abdullah deyir ki:

- Ya Rəsulallah, mən özümü güclü-qüvvətli görürəm,- dedim. Buyurdu ki:

- **"Onda Allahın nəbisi Davudun orucunu tut, bundan artığını etmə".**

- Davud orucu nədir? - deyə soruşdum.

- **"İlin yarısını oruclu keçirməkdir", -** buyurdu.

Abdullah yaşlanandan sonra tez-tez:

- Kaş, Allah Rəsulunun göstərdiyi asanlığı qəbul etmiş olaydım,- deyirdi.

Başqa bir rəvayət də belədir:

- **"Sənin bütün günləri oruclu keçirdiyindən və hər gecə Quranı başdan-ayağa oxuduğundan xəbərdar olmadığımı zənn edirsən?" -** dedi. Mən:

- Əlbəttə, xəbərdarsan, ey Allahın Rəsulu. Lakin mənim bundan məqsədim sadəcə olaraq Allahın rizasına nail olmaqdır,- dedim. Hz. Peyğəmbər:

- **"Allahın Nəbisi Davudun orucunu tut, çünki insanların ən çox ibadət edəni o idi.Ayda bir dəfə də Quranı xətm et!" -** buyurdu.

Mən isə:

- Ya Rəsulallah, bundan artığına gücüm çatar,- dedim. Peyğəmbərimiz:

- **"Elə isə iyirmi gündə bir xətm et", -** buyurdu. Mən yenə:

- Ya Rəsulallah, bundan daha artığını edə bilərəm,- dedim. O:

- **"Elə isə on gündə bir xətm et", -** buyurdu. Mən yenə:

- Bundan da artığına gücüm çatar, ya Nəbiyyallah! - deyə israr etdikdə:

- **"Elə isə yeddi gündə bir xətm et, daha bunun üstünə artırma", -** buyurdu. Mən artırdıqca əleyhimə artırıldı. Nəbi *səllallahu əleyhi və səlləm* mənə dedi ki:

- **"Şübhəsiz ki, sən bilmirsən, bəlkə ömrün uzun oldu?"**

Abdullah bin Amr deyir:

- Nəbi *səllallahu əleyhi və səlləmin* mənə dediyi yaşa çatdım və kaş, onun göstərdiyi asanlığı qəbul edəydim, deyə heyfsləndim.

Başqa bir rəvayətdə isə belədir:

"Sənin uşaqlarının da üzərində haqları var".

Digər bir rəvayətdə:

"Bütün zamanını oruclu keçirənin orucu yoxdur" sözünü üç dəfə təkrarladı.

Başqa bir rəvayətdə:

"Allaha ən sevimli oruc Davud əleyhissalamın orucudur. Allaha ən sevimli namaz da Davud əleyhissalamın namazıdır. Davud əleyhissalam gecənin yarısını oyaq keçirər, sonra üçdə birində namaza qalxar, altıda birində yenə yatardı. Bir gün oruc tutar, bir gün tutmazdı. Düşmənlə qarşılaşdığı zaman qaçmazdı".

Başqa bir rəvayət də belədir:

Abdullah belə demişdir:

Atam məni əsil-nəcabətli bir qadınla evləndirdi. Hərdən gəlininin yanına gedib məni soruşurmuş. O da deyirmiş ki:

- O necə də yaxşı kişidir, evinə gəldiyim gündən bəri yatağıma ayaq basmadı və mənimlə heç maraqlanmadı da.

Vəziyyətin bu şəkildə davam etdiyini görən atam olanları Nəbi *səllallahu əleyhi və səlləmə* danışdı. Peyğəmbərimiz:

- **"Onu mənimlə görüşdür", -** buyurdu. Sonra mən Rəsuli-Əkrəm ilə qarşılaşdım. Mənə:

- **"Necə oruc tutursan?" -** deyə soruşdu. Mən də:

- Hər gün, dedim. Sonra:

- **"Necə xətm edirsən?" -** dedi. Mən:

- Hər gecə,- cavabını verdim.

Abdullah bin Amr bir az əvvəl qeyd etdiyimiz dialoqa bənzər dialoqdan bəhs etdi. O, gecələr istirahət etmək üçün oxuduğu Quranın yeddidə birini gündüz ailə üzvlərindən birinə oxuyub dinlədirdi. Güclü və qüvvətli olmaq istədiyi zaman bir neçə gün oruc tutmazdı. Sonra oruc tutmadığı günləri sayar, Nəbi *səllallahu əleyhi və səlləmə* verdiyi sözdən dönməmək üçün tutmadığı günlərin orucunu qəza edərdi.

Buxari, Savm 55, 56, 57, Təhəccüd 7, Ənbiya 37, Nikah 89; Müslim, Siyam 181-193

❁

١٥٣ عَنْ أَبِي رِبْعِيٍّ حَنْظَلَةَ بْنِ الرَّبِيعِ الأُسَيْدِيِّ الكَاتِبِ أَحَدِ كُتَّابِ رَسُولِ اللَّهِ ﷺ قَالَ: لَقِيَنِي أَبُو بَكْرٍ رَضِيَ اللّٰهُ عَنْهُ فقَالَ: كَيْفَ أنتَ يَا حَنْظَلَةُ؟ قُلْتُ: نَافَقَ حَنْظَلَةُ! قَالَ: سُبْحَانَ اللَّهِ مَا تَقُولُ؟! قُلْتُ: نَكُونُ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ يُذَكِّرُنَا بِالْجَنَّةِ وَالنَّارِ كَأَنَّا رَأْيَ عَيْنٍ فَإِذَا خَرَجْنَا مِنْ عِنْدِ رَسُولِ اللَّهِ ﷺعَافَسْنَا الأَزْوَاجَ وَالْأَوْلَادَ وَالضَّيْعَاتِ نَسِينَا كَثِيرًا، قَالَ أَبُو بَكْرٍ رَضِيَ اللّٰهُ عَنْهُ : فَوَاللَّهِ ، إِنَّا لَنَلْقَى مِثْلَ هَذَا، فَانْطَلَقْتُ أَنَا وَأَبُو بَكْرٍ حَتَّى دخَلْنَا عَلَى رَسُولِ اللَّهِ ﷺفَقُلْتُ نَافَقَ حَنْظَلَةُ يَا رَسُولَ اللَّهِ ! فقَالَ رَسُولُ اللَّهِ ﷺ : «وَمَا ذَاكَ؟» قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، نَكُونُ عِنْدَكَ تُذَكِّرُنَا بِالنَّارِ وَالْجَنَّةِ كَأَنَّا رَأْيَ الْعَيْنِ فَإِذَا خَرَجْنَا مِنْ عِنْدِكَ عَافَسْنَا الْأَزْوَاجَ وَالْأَوْلَادَ والضَّيْعَاتِ نَسِينَا كَثِيرًا. فقَالَ رَسُولُ اللَّهِ ﷺ : «وَالَّذِي نَفْسِي بِيَدِهِ لَوْ تَدُومُونَ عَلَى مَا تَكُونُونَ عِنْدِي وَفِي الذِّكْرِ لَصَافَحَتْكُمُ الْمَلَائِكَةُ عَلَى فُرُشِكُمْ وَفِي طُرُقِكُمْ وَلَكِنْ يَا حَنْظَلَةُ سَاعَةً وَسَاعَةً » ثَلَاثَ مَرَّاتٍ . رَوَاهُ مُسْلِمٌ .

153. Rəsulullah *səllallahu əleyhi və səlləmin* vəhy katiblərindən Əbu Rəbi Hanzala bin Rəbi əl-Üseydi belə demişdir:

Əbu Bəkrlə qarşılaşdıq, məndən:

- Necəsən, ey Hanzala? - deyə soruşdu. Mən də:

- Hanzala münafiq oldu,- dedim. Əbu Bəkr:

- Sübhanallah, sən nə danışırsan? - dedi.

- Biz Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanında oluruq. Bizə cənnət və cəhənnəmdən bəhs edir, sanki gözlərimizlə görürmüş kimi oluruq. Onun hüzurundan ayrılıb ailəmizin yanına və işlərimizin başına qayıdanda çox şeyi unuduruq,- dedim.

Əbu Bəkr *radiyallahu anh* dedi ki:

- Allaha and olsun ki, biz də buna bənzər şeylərlə qarşılaşırıq.Əbu Bəkrlə birlikdə yola düşdük və Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna çıxdıq. Mən:

- Ya Rəsulallah, Hanzala münafiq oldu, dedim. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Bu nə sözdür?" -** dedi. Mən:

- Ya Rəsulallah, sənin yanında oluruq, bizə cənnət-cəhənnəmdən danışırsan, sanki oraları gözümüzlə görürük. Sənin hüzurundan çıxıb əhli-əyalımızın yanına və işlərimizin başına qayıdanda çoxumuz unuduruq,- dedim. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Nəfsimi gücü və qüdrəti ilə əlində tutan Allaha and içirəm ki, əgər siz mənim yanımda olduğunuz halınızı davam etdirib zikr üzrə ola bilsəydiniz, yatağınızda və yolunuz üzərində mələklər sizinlə salamlaşardılar. Lakin ey Hanzala bir saatınızı ibadətə, bir saatınızı da dünya işlərinə ayırın", -** buyurdu və bu sözü üç dəfə təkrarladı.

Müslim, Tövbə 12-13. Həmçinin bax. Tirmizi, Qiyamət 59

❁

١٥٤ عنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: بَيْنَمَا النَّبِيُّ ﷺ يَخْطُبُ إِذَا هُوَ بِرَجُلٍ قَائِمٍ فَسَأَلَ عَنْهُ فَقَالُوا: أَبُو إِسْرَائِيلَ نَذَرَ أَنْ يَقُومَ فِي الشَّمْسِ ، وَلَا يَقْعُدَ

وَلَا يَسْتَظِلَّ ، وَلَا يَتَكَلَّمَ ، وَيَصُومَ. فقَالَ النَّبِيُّ ﷺ «مُرُوهُ فَلْيَتَكَلَّمْ وَلْيَسْتَظِلَّ وَلْيَقْعُدْ وَلْيُتِمَّ صَوْمَهُ». رَوَاهُ الْبُخَارِيُّ .

154. Abdullah bin Abbas *radiyallahu anhumə* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* insanlara xitab edərkən ayaq üstə dayanan bir nəfər gördü və onun kim olduğunu soruşdu. Əshab:

- O, Əbu İsraildir. Özünügünəşin altında durmağa, oturmamağa, kölgədən istifadə etməməyə, susmağa və davamlı oruc tutmağa nəzir edib,- dedilər. Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Ona deyin, danışsın, kölgələnsin, otursun və orucunu tamamlasın", -** buyurdu.

Buxari, Əyman 31. Həmçinin bax. Əbu Davud, Əyman 19

İBADƏTDƏ VƏ XEYİR ƏMƏLLƏRDƏ DAVAMLILIQ PRİNSİPİ

Ayələr

أَلَمْ يَأْنِ لِلَّذِينَ آمَنُوا أَنْ تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ وَمَا نَزَلَ مِنَ الْحَقِّ وَلَا يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِنْ قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ .

1."İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) **üçün yumşalması vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr** (yəhudilər və xaçpərəstlər) **kimi olmasınlar. Onlarla** (öz peyğəmbərləri arasında) **uzun bir müddət keçmiş və** (öyüd-nəsihəti unutduqları üçün) **qəlbləri sərtləşmişdir. Onların çoxu (Allaha asi olan) fasiqlərdir!"** (əl-Hədid, 16)

وَقَفَّيْنَا بِعِيسَى ابْنِ مَرْيَمَ وَآتَيْنَاهُ الْإِنْجِيلَ وَجَعَلْنَا فِي قُلُوبِ الَّذِينَ اتَّبَعُوهُ رَأْفَةً وَرَحْمَةً وَرَهْبَانِيَّةً ابْتَدَعُوهَا مَا كَتَبْنَاهَا عَلَيْهِمْ إِلَّا ابْتِغَاءَ رِضْوَانِ اللَّهِ فَمَا رَعَوْهَا حَقَّ رِعَايَتِهَا .

2.“Sonra onların ardınca (Musa, İlyas, Davud, Süleyman, Yunis və başqa) **peyğəmbərlərimizi yolladıq.** (Onlardan sonra) **Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik** (tərki-dünyalıq) **icad etdilər. Biz onu** (rahibliyi) **onlara vacib buyurmamışdıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl (riayət) etmədilər** (İncili təhrif edib İsanı Allah bildilər, Muhammməd əleyhissəlamın peyğəmbərliyini dandılar). **Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə** (Allaha asi olan) **fasiqlərdir”.** (əl-Hədid, 27)

وَلَا تَكُونُوا كَالَّتِي نَقَضَتْ غَزْلَهَا مِنْ بَعْدِ قُوَّةٍ أَنْكَاثًا .

3.“Möhkəm əyirdiyi ipliyi sonradan qıran (təzədən açıb sökən) qadın kimi olmayın”. (ən-Nəhl, 92)

وَاعْبُدْ رَبَّكَ حَتَّى يَأْتِيَكَ الْيَقِينُ .

4.“Və sənə yəqin (ölüm) gələnədək Rəbbinə ibadət et!” (əl-Hicr, 99)

Hədislər

١٥٥ـ عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ نَامَ عَنْ حِزْبِهِ مِنَ اللَّيْلِ أَوْ عَنْ شَيْءٍ منهُ فَقَرَأَهُ مَا بَيْنَ صَلَاةِ الْفَجْرِ وَصَلَاةِ الظُّهْرِ كُتِبَ لَهُ كَأَنَّمَا قَرَأَهُ من اللَّيْلِ». رَوَاهُ مُسْلِمٌ .

155. Ömər bin Xəttab *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Bir adam gecələr oxuduğu zikr və duasını oxumadan və ya tamamlaya bilmədən yatarsa, sonra onu sübh namazı ilə günorta namazı arasında oxuyarsa, gecə oxumuş kimi savab qazanar”.

Müslim, Müsafirin 142. Həmçinin bax. Əbu Davud, tatvvu 19; Tirmizi, Cümə 56; Nəsai, Qiyamul-leyl 65; İbn Macə, İqamə 177

١٥٦ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ : «يَا عَبْدَ اللَّهِ ، لَا تَكُنْ مِثْلَ فُلَانٍ كَانَ يَقُومُ اللَّيْلَ فَتَرَكَ قِيَامَ اللَّيْلِ» .مُتَّفَقٌ عَلَيْهِ .

156. Abdullah bin Amr bin As *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə dedi:

"Ey Abdullah filankəs kimi olma, çünki o gecə ibadətinə davam etdiyi halda sonradan gecə ibadət etməyi tərk etdi".

Buxari, Təhəccüd 19; Müslim, Siyam 185

❁

١٥٧ـ عَنْ عَائِشَةَ رَضِيَ اللّٰهُ عَنْهَا قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا فَاتَتْهُ الصَّلَاةُ مِنَ اللَّيْلِ مِنْ وَجَعٍ أَوْ غَيْرِهِ صَلَّى مِنَ النَّهَارِ ثِنْتَيْ عَشْرَةَ رَكْعَةً. رَوَاهُ مُسْلِمٌ .

157. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ağrı, sancı və bu kimi səbəblərlə gecə namazına qalxa bilməyəndə ertəsi gün gündüz vaxtı on iki rükət namaz qılardı

Müslim, Müsafirin 140

SÜNNƏNİ QORUMAQ

SÜNNƏNİ VƏ SÜNNƏNİN QOYDUĞU QAYDALARI QORUMAQ

Ayələr

وَمَا اٰتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا .

1. " Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin". (əl-Həşr, 7)

وَمَا يَنْطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى .

2. "O, kefi istəyəni (havadan) **danışmır. Bu, ancaq** (Allah dərgahından) **nazil olan bir vəhydir".** (ən-Nəcm, 3-4)

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ .

3. "(Ya Rəsulum!) **De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın".** (Ali-İmran, 31)

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِمَنْ كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الاٰخِرَ .

4. "Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"** (əl-Əhzab, 21)

فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّى يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجًا مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا.

5. "Amma, xeyr! (Ya Rəsulum!) **Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim** (münsif) **təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə,** (həqiqi surətdə) **iman gətirmiş olmazlar".** (ən-Nisa, 65)

فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الاٰخِرِ .

6. " Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!" (ən-Nisa, 59)

مَنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللَّهَ .

7. "Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur". (ən-Nisa, 80)

وَإِنَّكَ لَتَهْدِي إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ صِرَاطِ اللَّهِ .

8. "Sən düz yola yönəldirsən. O Allahın yoluna ki, göylərdə və yerdə nə varsa (hamısı) **Onundur".** (əş-Şura, 52-53)

فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِ أَنْ تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ .

9. "Allahın elçisinin əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, yaxud düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər!" (ən-Nur, 63)

وَاذْكُرْنَ مَا يُتْلَى فِي بُيُوتِكُنَّ مِنْ اٰيَاتِ اللَّهِ وَالْحِكْمَةِ .

10. "Allahın evlərinizdə oxunan ayələrini (Quranı) **və hikməti** (Peyğəmbərin qoyduğu qayda-qanunu) **xatırlayın".** (əl-Əhzab, 34)

Hədislər

١٥٨ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «دَعُونِي مَا تَرَكْتُكُمْ: إِنَّمَا أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ كَثْرَةُ سُؤَالِهِمْ وَاخْتِلَافُهُمْ عَلَى أَنْبِيَائِهِمْ. فَإِذَا نَهَيْتُكُمْ عَنْ شَيْءٍ فاجْتَنِبُوهُ وَإِذَا أَمَرْتُكُمْ بِأَمْرٍ فَأْتُوا مِنْهُ مَا اسْتَطَعْتُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

158. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər hansı bir məsələni sizə əmr edib qadağan etmədiyim müddətdə siz də məni öz halıma buraxın. Sizdən əvvəlki ümmətləri çox sual vermələri və peyğəmbərlərinə qarşı münaqişəyə dalmaları həlak etdi. Sizə hər hansı bir şey qadağan etdiyim zaman qətiyyətlə ondan uzaqlaşın, bir şeyi əmr etdiyim zaman da gücünüz çatdığı qədər yerinə yetirməyə çalışın".

Buxari, İtisam 2; Müslim, Həcc 423, Fəzail 130-131. Həmçinin bax. Tirmizi, Elm 17; Nəsai, Həcc 1; İbn Macə, Müqəddimə 1

١٥٩- عَنْ أَبِي نَجِيحٍ الْعِرْبَاضِ بْنِ سَارِيَةَ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: «وَعَظَنَا رَسُولُ اللّٰهِ ﷺ مَوعِظَةً بَلِيغَةً وَجِلَتْ مِنْهَا الْقُلُوبُ وَذَرَفَتْ مِنْهَا الْعُيُونُ فقُلْنَا: يَا رَسُولَ اللَّهِ ، كَأَنَّهَا مَوْعِظَةُ مُوَدِّعٍ فَأَوْصِنَا قَالَ: «أُوصِيكُمْ بِتَقْوَى اللَّهِ وَالسَّمْعِ وَالطَّاعَةِ وَإِنْ تَأَمَّرَ عَلَيْكُمْ عَبْدٌ حَبَشِيٌّ، وَإِنَّهُ مَنْ يَعِشْ مِنْكُمْ فَسَيَرَى اِخْتِلَافًا كَثِيرًا. فَعَلَيْكُمْ بِسُنَّتِي وَسُنَّةِ الْخُلَفَاءِ الرَّاشِدِينَ الْمَهْدِيِّينَ عَضُّوا عَلَيْهَا بِالنَّوَاجِذِ، وَإِيَّاكُمْ وَمُحْدَثَاتِ الْأُمُورِ فَإِنَّ كُلَّ بِدْعَةٍ ضَلَالَةٌ». رَوَاهُ أَبُو دَاوُدَ .

159. Əbu Nəcih İrbaz bin Sariyə *radiyallahu anh* belə dedi:

"Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə çox təsirli bir öyüd verdi. Verdiyi öyüd səbəbi ilə qəlblər ürpərdi, gözlər yaşardı. Biz:

- Ey Allahın Rəsulu, bu öyüd sanki ayrılmaq üzrə olan bir adamın öyüdünə bənzəyir, elə isə bizə bir tövsiyə et,- dedik. Bunun üzərinə:

- **"Sizə Allaha çox ehtiram etməyi, başınıza həbəşli kölə təyin edilmiş olsa da ona qulaq asıb itaət etməyi tövsiyə edirəm. Məndən sonra sağ qalıb uzun ömür sürənlər xeyli ixtilaf görəcəklər. O zaman sizin borcunuz mənim sünnəmə və xüləfayi-raşidinin sünnəsinə sarılmaq olacaq. Bu sünnələrdən möhkəm yapışın. Sonradan ortaya çıxarılan bidətlərdən şiddətlə qaçın. Çünki hər bidət azğınlıqdır"**, buyurdu.

Əbu Davud, Sünnət 5; Tirmizi, Elm 6. Həmçinin bax. İbn Macə, Müqəddimə 6

❁

١٦٠- عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «كُلُّ أُمَّتِي يَدْخُلُونَ الْجَنَّةَ إِلَّا مَنْ أَبَى». قيلَ: وَمَنْ يَأْبَى ، يَا رَسُولَ اللَّهِ؟ قَالَ: «مَنْ أَطَاعَنِي دَخَلَ الْجَنَّةَ وَمَنْ عَصَانِي فَقَدْ أَبَى» . رَوَاهُ الْبُخَارِيُّ .

160. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

“İstəməyənlər xaric, bütün ümmətim cənnətə girəcək”, - buyurdu. Bu zaman:

- Ey Allahın elçisi cənnətə girməyi kim istəməz ki? - dedilər. Həzrət Peyğəmbər buyurdu:

- **“Mənə itaət edənlər cənnətə girərlər. Mənə qarşı gələnlər cənnəti istəməmiş sayılırlar”.**

Buxari, İtisam 2

❁

١٦١ـ عَنْ أَبِي مُسْلِمٍ وَقِيلَ أَبِي إِيَاسٍ سَلَمَةَ بْنِ عَمْرِو بْنِ الْأَكْوَعِ رَضِيَ اللّٰهُ عَنْهُ أَنَّ رَجُلًا أَكَلَ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ بِشِمَالِهِ فَقَالَ: «كُلْ بِيَمِينِكَ» قَالَ. لَا أَسْتَطِيعُ. قَالَ: «لَا اسْتَطَعْتَ» مَا مَنَعَهُ إِلَّا الْكِبْرُ فَمَا رَفَعَهَا إِلَى فِيهِ. رَوَاهُ مُسْلِمٌ .

161. Əbu Müslim (və ya Əbu İyas) Sələmə bin Amr bin Əkva *radiyallahu anhın* nəql etdiyinə görə bir nəfər Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləmin* yanında sol əli ilə yemək yeyirdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* ona:

- **“Sağ əlinlə ye”, -** buyurdu. O:

- Heç cür elə edə bilmirəm,- dedi. Bunun üzərinə Peyğəmbərimiz:

- **“Edə bilməz ol”, -** dedi.

Çünki onun Rəsuli-Əkrəmə qulaq asmaması lovğalığı səbəbi ilə idi. Bundan sonra əlini ağzına apara bilmədi.

Müslim, Əşribə 107. Həmçinin bax. Buxari, Ətimə 2; Əbu Davud, Ətimə 19; Tirmizi, Ətimə 47; İbn Macə, Ətimə 8

❁

١٦٢ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ النُّعْمَانِ بن بَشِيرٍ رَضِيَ اللّٰهُ عَنْهُما قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «لَتُسَوُّنَّ صُفُوفَكُمْ أَوْ لَيُخَالِفَنَّ اللَّهُ بَيْنَ وُجُوهِكُمْ». مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يُسَوِّي صُفُوفَنَا حَتَّى كَأَنَّمَا يُسَوِّي بِهَا الْقِدَاحَ حَتَّى إِذَا رَأَى أَنَّا قَدْ عَقَلْنَا عَنْهُ ثُمَّ خَرَجَ يَوْمًا فقَامَ حَتَّى كَادَ أَنْ يُكَبِّرَ

فَرَأَى رَجُلًا بَادِيًا صَدْرُهُ فَقَالَ: «عِبَادَ اللَّهِ ، لَتُسَوُّنَّ صُفُوفَكُمْ أَوْ لَيُخَالِفَنَّ اللَّهُ بَيْنَ وُجُوهِكُمْ».

162. Əbu Abdullah Numan bin Bəşir *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ya səflərinizi düzəldərsiniz, ya da Allah-Təala aranıza düşmənçilik, nifrət və qəlblərinizə anlaşılmazlıq qoyar, bir-birinizdən üz çevirərsiniz".

Buxari, Azan 71; Müslim, Salət 127. Həmçinin bax. Əbu Davud, Salət 93; Tirmizi, Məvaqit 53; İbm Macə, İqamə 50

Müslimin başqa bir rəvayəti belədir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* sanki oxları düzəldirmiş kimi səflərimizi düzəldirdi. Biz buna alışana qədər belə etməyə davam etdi. Bir gün namaza çıxdı və namaz qılacağı yerdə dayandı. Tam təkbir almaq üzrə ikən sinəsi səfdən önə çıxan bir adam gördü. Belə buyurdu:

"Ey Allahın qulları, ya səflərinizi düzəldin, ya da Allah-Təala aranıza düşmənçilik, nifrət və qəlblərinizə anlaşmazlıq qoyar, bir-birinizdən üz çevirərsiniz".

Müslim, Salət 128

❁

١٦٣ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: احْتَرَقَ بَيْتٌ بِالْمَدِينَةِ عَلَى أَهْلِهِ مِنَ اللَّيْلِ فَلَمَّا حُدِّثَ رَسُولُ اللّٰهِ ﷺ بِشَأْنِهِمْ، قَالَ: «إِنَّ هَذِهِ النَّارَ عَدُوٌّ لَكُمْ فَإِذَا نِمْتُمْ فَأَطْفِئُوهَا عَنْكُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

163. Əbu Musa *radiyallahu anh* belə dedi:

Mədinədə bir ev gecəliklə içindəkilərlə birlikdə yanmışdı. Hadisəni Peyğəmbərimizə xəbər verdikdə:

- **"Od sizin düşmənizdir. Yatarkən onu söndürün", -** buyurdu.

Buxari, İtisam 49; Müslim, Əşribə 101. Həmçinin bax. İbn Macə, Ədəb 46

١٦٤ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ مَثَلَ مَا بَعَثَنِي اللَّهُ بِهِ مِنَ الْهُدَى وَالْعِلْمِ كَمَثَلِ غَيْثٍ أَصَابَ أَرْضًا فَكَانَتْ مِنْهَا طَائِفَةٌ طَيِّبَةٌ: قَبِلَتِ الْمَاءَ فَأَنْبَتَتِ الْكَلَأَ والْعُشْبَ الْكَثِيرَ، وَكَانَ مِنْهَا أَجَادِبُ أَمْسَكَتِ الْمَاءَ فَنَفَعَ اللَّهُ بِهَا النَّاسَ فَشَرِبُوا مِنْهَا وَسَقَوْا وَزَرَعُوا، وَأَصَابَ طَائِفَةً مِنْهَا أُخْرَى إِنَّمَا هِيَ قِيعَانٌ لَا تُمْسِكُ مَاءً وَلَا تُنْبِتُ كَلَأً. فذَلِكَ مَثَلُ مَنْ فَقُهَ فِي دِينِ اللَّهِ وَنَفَعَهُ مَا بَعَثَنِي اللَّهُ بِهِ فَعَلِمَ وَعَلَّمَ ، وَمَثَلُ مَنْ لَمْ يَرْفَعْ بِذَلِكَ رَأْسًا ، وَلَمْ يَقْبَلْ هُدَى اللَّهِ الَّذِي أُرْسِلْتُ بِهِ» . مُتَّفَقٌ عَلَيْهِ .

164. Yenə Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahın mənimlə göndərdiyi din və elm yer üzünə bol yağan yağışa bənzəyir. Yağışın yağdığı yerin bir hissəsi münbit torpaqdır: yağış suyunu əmər, çayır və ot bitirər. Bir hissəsi də suyu əmməyib üstündə saxlayan quru yerdir. Allah burada toplanan sudan insanları faydalandırır. Həm özləri içər, həm də heyvanlarını sulayar, əkin işlərini də o su ilə görərlər. Yağışın yağdığı bir yer də var ki, yalçın və heç bir bitki bitirməyən qayalıq ərazidir. Nə suyu özündə saxlayar, nə də ot bitirər. Bu misal Allahın dinində anlayış sahibi olan və Allahın mənimlə göndərdiyi hidayət və elmin fayda verdiyi, onu həm öyrənən, həm də öyrədən kəslə başını qaldırıb buna qulaq asmayan, Allahın mənimlə göndərdiyi hidayəti qəbul etməyən adamın halına bənzəyir".

Buxari, Elm 20; Müslim, Fəzail 15

❁

١٦٥ـ عَنْ جَابِرٍ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَثَلِي وَمَثَلُكُمْ كَمَثَلِ رَجُلٍ أَوْقَدَ نَارًا فَجَعَلَ الْجَنَادِبُ وَالْفَرَاشُ يَقَعْنَ فِيهَا وَهُوَ يَذُبُّهُنَّ عَنْهَا وَأَنَا اٰخِذٌ بِحُجَزِكُمْ عَنِ النَّارِ وَأَنْتُمْ تُفْلِتُونَ مِنْ يَدَيَّ». رَوَاهُ مُسْلِمٌ .

165. Cabir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mənimlə sizin halınız tonqal qalayan, yandırdığı tonqala cırcırama və pərvanələrin düşdüyünü görüb onlara mane olmağa çalışan adamın halına bənzəyir. Mən sizi oddan qorumaq üçün qurşağınızdan tuturam, siz isə əlimdən xilas olmağa, özünüzü oda atmağa çalışırsınız".

Müslim, Fəzail 19. Həmçinin bax. Buxari, Riqaq 26; Tirmizi, Ədəb 82

❁

١٦٦ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَمَرَ بِلَعْقِ الْأَصَابِعِ وَالصَّحْفَةِ وَقَالَ: «إِنَّكُمْ لَا تَدْرُونَ فِي أَيِّهِ الْبَرَكَةُ» . رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لَهُ : «إِذَا وَقَعَتْ لُقْمَةُ أَحَدِكُمْ فَلْيَأْخُذْهَا فَلْيُمِطْ مَا كَانَ بِهَا مِنْ أَذًى وَلْيَأْكُلْهَا وَلَا يَدَعْهَا لِلشَّيْطَانِ ؛ وَلَا يَمْسَحْ يَدَهُ بِالْمِنْدِيلِ حَتَّى يَلْعَقَ أَصَابِعَهُ فَإِنَّهُ لَا يَدْرِي فِي أَيِّ طَعَامِهِ الْبَرَكَةُ».

وَفِي رِوَايَةٍ لَهُ: «إِنَّ الشَّيْطَانَ يَحْضُرُ أَحَدَكُمْ عِنْدَ كُلِّ شَيْءٍ مِنْ شَأْنِهِ حَتَّى يَحْضُرَهُ عِنْدَ طَعَامِهِ فَإِذَا سَقَطَتْ مِنْ أَحَدِكُمُ اللُّقْمَةُ فَلْيُمِطْ مَا كَانَ بِهَا مِنْ أَذًى فَلْيَأْكُلْهَا وَلَا يَدَعْهَا لِلشَّيْطَانِ».

166. Cabir *radiyallahu anhdan* rəvayət olunduğuna görə Rəsulullah *səllallahu əleyhi və səlləm* barmaqları yalamağı, yemək boşqabını sıyırmağı əmr etdi və:

"Həqiqətən bərəkətin hansında olduğunu bilməzsiniz", -buyurdu.

Müslimdən gələn başqa bir rəvayət belədir:

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən birinizin loğması yerə düşdükdə dərhal onu götürsün və üstünə yapışanları təmizləyib yesin. Onu şeytana saxlamasın. Barmaqlarını yalamadan əlini dəsmala silməsin. Çünki o, bərəkətin yeməyin hansı hissəsində olduğunu bilməz".

Müslimə aid başqa bri rəvayətsə belədir:

Peyğəmbərimiz belə buyurmuşdur:

“Şübhəsiz, şeytan sizin hər işinizdə hazır gözləyir. Hətta yemək yeyəcəyiniz zaman yanınızda dayanır. Sizdən birinin loğması yerə düşərsə, üstünə yapışanları təmizləyib yesin. Loğmasının şeytana qalmasına imkan verməsin”.

Müslim, Əşribə 133-135

❁

١٦٧ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا قَالَ: قَامَ فِينَا رَسُولُ اللَّهِ ﷺ بِمَوْعِظَةٍ فَقَالَ: «يَا أَيُّهَا النَّاسُ ، إِنَّكُمْ مَحْشُورُونَ إِلَى اللَّهِ تَعالَى حُفَاةً عُرَاةً غُرْلًا: ﴿كَمَا بَدَأْنَا أَوَّلَ خَلْقٍ نُعِيدُهُ وَعْدًا عَلَيْنَا إِنَّا كُنَّا فَاعِلِينَ﴾ أَلَا وَإِنَّ أَوَّلَ الْخَلَائِقِ يُكْسَى يَوْمَ الْقِيَامَةِ إِبْرَاهِيمُ ﷺ. أَلَا وَإِنَّهُ سَيُجَاءُ بِرِجَالٍ مِنْ أُمَّتِي، فَيُؤْخَذُ بِهِمْ ذَاتَ الشِّمَالِ، فَأَقُولُ: يَا رَبِّ ، أَصْحَابِي . فَيُقَالُ: إِنَّكَ لَا تَدْرِي مَا أَحْدَثُوا بَعْدَكَ ! فَأَقُولُ كَمَا قَالَ الْعَبْدُ الصَّالِحُ: ﴿وَكُنْتُ عَلَيْهِمْ شَهِيدًا مَا دُمْتُ فِيهِمْ﴾. إِلَى قوله: ﴿الْعَزِيزُ الْحَكِيمُ﴾ فَيُقَالُ لِي: إِنَّهُمْ لَمْ يَزَالُوا مُرْتَدِّينَ عَلَى أَعْقَابِهِمْ مُنْذُ فَارَقْتَهُمْ». مُتَّفَقٌ عَلَيْهِ.

167. İbn Abbas *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* vəz vermək üçün aramızdan doğrularaq qalxdı və belə buyurdu:

“Ey insanlar, şübhəsiz ki, siz ayaqyalın, çılpaq və sünnətsiz halda Allahın hüzurunda toplanacaqsınız. “O gün insanları ilk dəfə (yoxdan) **yaratdığımız kimi qaytarıb** (dirildib) **əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik”.** (əl-Ənbiya, 104) **Xəbəriniz olsun, qiyamət günü ilk geydiriləcək insan İbrahim əleyhissalamdır. Xəbəriniz olsun, ümmətimdən bəziləri sol tərəfə, cəhənnəm tərəfinə sövq ediləcəklər. Mən:**

- Ey Rəbbim, bunlar mənim əshabım, ümmətimdir,- deyəcəyəm. Bu zaman:

- Onların səndən sonra necə bidətlər çıxardığını, necə pis əməllər işlədiklərini bilmirsən,- deyiləcək. Bu zaman mən əməlisaleh qul İsa əleyhissalamın dediyi kimi deyəcəyəm:

"Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim (onları belə nalayiq hərəkətlər etməyə qoymurdum). **Sən məni aralarından alandan sonra vəfat etdirib onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən! Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən".** (əl-Maidə, 117-118)

Bu zaman mənə belə deyiləcək:

Doğrudan da onlar sən aralarından ayrıldıqdan bəri topuqları üstündə geri dönüb, dindarlıqdan dinsizliyə yönəlməyə davam etdilər".

Buxari, Ənbiya 8; Riqaq 45; Müslim, Cənnət 58. Həmçinin bax. Tirmizi, Qiyamət 3; Nəsai, Cənaiz 119

❁

١٦٨ ـ عَنْ أَبِي سَعِيدٍ عَبْدِ اللَّهِ بْنِ مُغَفَّلٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ عَنِ الْخَذْفِ وَقَالَ: «إِنَّهُ لاَ يَقْتُلُ الصَّيْدَ، وَلَا يَنْكَأُ الْعَدُوَّ، وَإِنَّهُ يَفْقَأُ الْعَيْنَ وَيَكْسِرُ السِّنَّ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: أَنَّ قَرِيبًا لابْنِ مُغَفَّلٍ خَذَفَ فَنَهَاهُ، وَقَالَ إِنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنِ الْخَذْفِ، وَقَالَ: «إِنَّهَا لاَ تَصِيدُ صَيدًا» ثُمَّ عَادَ فَقَالَ: أُحَدِّثُكَ أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنْهُ ثُمَّ عُدْتَ تَخْذِفُ! لاَ أُكَلِّمُكَ أَبَدًا.

168. Əbu Səid Abdullah bin Muğaffəl *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* sapand daşı atmağı qadağan etdi və:

"Sapand daşı ov ovlamaz, düşməni öldürməz. Sadəcə göz çıxardar və diş qırar", - buyurdu.

Buxari, Ədəb 122; Müslim, Sayd 54. Həmçinin bax. Əbu Davud, Ədəb 166; İbn Macə, Sayd 11

Müslimdən gələn başqa bir rəvayət belədir:

İbn Muğaffəlin yaxın adamlarından biri sapandla daş atmışdı. İbn Muğaffəl ona sapandla daş atmağın qadağan olduğunu dedi və bunları söylədi:

Şübhəsiz ki, Rəsulullah *səllallahu əleyhi və səlləm* sapandla daş atmağı qadağan etdi və:

- **"Bununla ov ovlanmır", -** buyurdu. Həmin adam sonra yenə sapandla daş atdıqda İbn Muğaffəl belə dedi:

- Mən sənə Rəsulullah *səllallahu əleyhi və səlləmin* qadağan etdiyini deyirəm, sən isə eyni işi görürsən. Əgər bunu bir daha etsən, əsla sənin-lə danışmayacağam.

Müslim, Sayd 56

١٦٩ ـ عَنْ عَـابِسِ بْنِ رَبِيعَـةَ قَـالَ: رَأَيْتُ عُمَـرَ بْنَ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ يُقَبِّلُ الْحَجَرَ، يَعْنِي الْأَسْوَدَ، وَيَقُولُ: أَعْلَمُ أَنَّكَ حَجَرٌ مَا تَنْفَعُ وَلاَ تَضُرُّ ، وَلَوْ لاَ أَنِّي رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ يُقَبِّلُكَ مَا قَبَّلْتُكَ. مُتَّفَقٌ عَلَيْهِ .

169. Abis bin Rəbiə belə dedi:

Ömər bin Xəttabın Həcərul-əsvədi öpdüyünü gördüm. O əsnada belə deyirdi:

Mən sənin daş olduğunu, heç bir fayda və zərər verməyəcəyini bilirəm. Əgər Rəsulullah *səllallahu əleyhi və səlləmin* səni öpdüyünü görməsəydim, mən də öpməzdim.

Buxari, Həcc 50; Müslim, Həcc 251

ALLAHIN HÖKMÜNƏ BOYUN ƏYMƏK

ALLAHIN HÖKMÜNƏ BOYUN ƏYMƏYİN QAÇILMAZ OLDUĞU, YAXŞILIĞA DƏVƏT EDİLƏN, PİSLİKDƏN ÇƏKİNDİRİLƏN ADAMIN DEYƏCƏKLƏRİ

Ayələr

فَـلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّى يُحَكِّمُـوكَ فِيمَا شَجَـرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجًا مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا.

1. "(Ya Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) **təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə,** (həqiqi surətdə) **iman gətirmiş olmazlar".** (ən-Nisa, 65)

إِنَّمَا كَانَ قَوْلَ الْمُؤْمِنِينَ إِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ أَنْ يَقُولُوا سَمِعْنَا وَأَطَعْنَا، وأُولَئِكَ هُمُ الْمُفْلِحُونَ.

2. "Aralarında hökm vermək üçün Allahın (kitabının) **və Peyğəmbərinin yanına çağırıldıqları zaman möminlərin sözü ancaq: "Eşitdik və itaət etdik!" – deməkdən ibarətdir. Nicat tapanlar da məhz onlardır!"** (ən-Nur, 51)

Hədislər

١٧٠ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّـهُ عَنْهُ قَـالَ: لَمَّا نَزَلَتْ عَلَى رَسُـولِ اللَّهِ ﷺ: **﴿لِلَّهِ مَا فِي السَّمَوَاتِ وَمَا فِي الْأَرْضِ وَإِنْ تُبْدُوا مَا فِي أَنْفُسِكُمْ أَوْ تُخْفُوهُ يُحَاسِبْكُمْ بِهِ اللَّهُ﴾** الْاٰيَةَ إِشْتَدَّ ذَلِكَ عَلَى أَصْحَابِ رَسُولِ اللَّهِ ﷺ فَأَتَوْا رَسُولَ اللَّهِ ﷺ ثُمَّ بَرَكُوا عَلَى الرُّكَبِ فَقَالُوا: أَيْ رَسُـولَ اللَّهِ ، كُلِّفْنَا مِنَ الْأَعْمَالِ مَا نُطِيقُ: الصَّلاَةَ وَالْجِهَـادَ وَالصِّيَامَ وَالصَّـدَقَةَ ، وَقَـدْ أُنْزِلَتْ عَلَيْكَ هَذِهِ الْاٰيَةُ وَلاَ نُطِيقُهَا. قَـالَ رَسُولُ اللَّهِ ﷺ: «أَتُرِيـدُونَ أَنْ تَقُولُوا كَمَا قَالَ أَهْلُ الْكِتَـابَيْنِ مِنْ قَبْلِكُمْ: سَمِعْنَا وَعَصَيْنَا؟ بَلْ قُولُوا: سَمِعْنَا وَأَطَعْنَا ، غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ». فَلَمَّا اقْتَرَأَهَا الْقَوْمُ وَذَلَّتْ بِهَا أَلْسِنَتُهُمْ أَنْزَلَ اللَّهُ تَعَالَى فِي إِثْرِهَا **﴿اٰمَنَ الرَّسُولُ بِمَا أُنْزِلَ إِلَيْهِ مِنْ رَبِّهِ وَالْمُؤْمِنُونَ كُلٌّ اٰمَنَ بِاللَّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِنْ رُسُلِهِ وَقَالُوا سَمِعْنَا وَأَطَعْنَا غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ﴾** فَلَمَّا فَعَلُوا ذَلِكَ نَسَخَهَا اللَّهُ تَعَالَى فَأَنْزَلَ اللَّهُ عَزَّ وَجَلَّ: **﴿لاَ يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلَّا وُسْعَهَا لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ رَبَّنَا لاَ تُؤَاخِذْنَا إِنْ نَسِينَا أَوْ أَخْطَأْنَا﴾** قَالَ: نَعَمْ **﴿رَبَّنَا وَلاَ تَحْمِلْ عَلَيْنَا إِصْرًا كَمَا حَمَلْتَهُ عَلَى الَّذِينَ مِنْ قَبْلِنَ﴾** قَالَ: نَعَمْ **﴿رَبَّنَا وَلاَ تُحَمِّلْنَا مَالاَ**

طَاقَةَ لَنَا بِهِ﴾ قَالَ: نَعَمْ ﴿وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا أَنْتَ مَوْلاَنَا فَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ﴾ قَالَ: نَعَمْ. رَوَاهُ مُسْلِمٌ.

170. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmə* **"Göylərdə və yerdə nə varsa, (hamısı) Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. (Allah) istədiyini bağışlar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir!"** (əl-Bəqərə, 284) ayəsi nazil olanda bu hal onun əshabına ağır gəldi. Səhabələr Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna gedərək diz çöküb belə dedilər:

- Ey Allahın Rəsulu, biz namaz, cihad, oruc və sədəqə kimi gücümüz çatan əməllərlə mükəlləf qılınmışıq. İndi isə sənə qəlbimizdən keçən şeylərdən də hesaba çəkiləcəyimizə dair ayə nazil oldu, buna gücümüz çatmır. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* belə dedi:

"Sizdən əvvəl kitab verilən yəhudi və xristianların dediyi kimi eşitdik və üsyan etdik demək istəyirsiniz? Sizi eşitdik və itaət etdik, ey Rəbbimiz, bizə məğfirət et, günahlarımızı bağışla, nəhayət dönüş yalnızsənədir, -deyin".

Səhabələr bu sözləri əzbərləyib dillərini ona alışdırdıqları zaman Allah-Təala bu ayəni nazil etdi:

"Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) **inanmış və möminlər də iman gətirmişlər.** (Onların) **hamısı Allaha, Onun mələklərinə, kitablarına və** (bütün) **peyğəmbərlərinə iman gətirərək dedilər: "Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq.** (Allahın hökmlərini) **eşitdik** (anladıq) **və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına** (hüzuruna) **qayıdacağıq!"** (əl-Bəqərə, 285)

Səhabələr nazil olan ayənin gərəyinə görə əməl edib bu sözü söyləməyə alışdıqda Allah-Təala əvvəlki ayənin hökmünü qaldırdı və bu ayəni nazil etdi:**"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir.** (Möminlər deyirlər:) **"Ey Rəbbimiz,** (bəzi tapşırıqlarını) **unutduqda və ya yanıldıqda bizi cəzalandırma!** Allah-Təala: **"Bəli" buyurdu. Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır**

yükləmə! Allah-Təala: **"Bəli" buyurdu. Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən** (mövlamızsan). **Kafirlərə qələbə çalmaqda bizə kömək et!"** (əl-Bəqərə, 286) Allah-Təala: **"Bəli"** buyurdu".

Müslim, İman 199

BİDƏTLƏRDƏN ÇƏKİNMƏK

BİDƏTLƏRDƏN VƏ DİNƏ ƏSASLANMAYAN SONRADAN MEYDANA ÇIXAN İŞLƏRDƏN ÇƏKİNMƏK

Ayələr

فَمَاذَا بَعْدَ الْحَقِّ إِلاَّ الضَّلاَلُ .

1. "Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?!" (Yunus, 32)

مَا فَرَّطْنَا فِي الْكِتابِ مِنْ شَيْءٍ .

2. "Biz Kitabda (Quranda) **heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik)".** (əl-Ənam, 38)

فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ .

3. "Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!" (ən-Nisa, 59)

وَأَنَّ هَذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ ، وَلاَ تَتَّبِعُوا السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَنْ سَبِيلِهِ.

4. "Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi (Allahın) **yolundan sapdıracaq yollara uymayın".** (əl-Ənam, 153)

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ .

5. "(Ya Rəsulum!) **De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın".** (Ali-İmran, 31)

Hədislər

١٧١ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ مِنْهُ فَهُوَ رَدٌّ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ «مَنْ عَمِلَ عَمَلاً لَيْسَ عَلَيْهِ أَمْرُنَا فَهُوَ رَدٌّ». مُتَّفَقٌ عَلَيْهِ .

171. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim bu dinimizdə ondan olmayan bir şey ortaya çıxardarsa, o qəbul edilməz".

Müslimin bir rəvayəti belədir:

"Kim bizim dinimizdə olmayan bir işi görərsə, o rədd edilmişdir, məqbul deyildir".

Buxari, Sülh 5; Müslim, Əqdiyyə 17, 18. Həmçinin bax. İbn Macə, Müqəddimə 2

❁

١٧٢ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا خَطَبَ احْمَرَّتْ عَيْنَاهُ، وَعَلاَ صَوْتُهُ، واشْتَدَّ غَضَبُهُ، حَتَّى كَأَنَّهُ مُنْذِرُ جَيْشٍ يَقُولُ: «صَبَّحَكُمْ وَمَسَّاكُمْ» وَيَقُولُ: «بُعِثْتُ أَنَا والسَّاعَةُ كَهَاتَيْنِ» وَيَقْرِنُ بَيْنَ أُصْبُعَيْهِ السَّبَّابَةِ وَالْوُسْطَى، وَيَقُولُ: «أَمَّا بَعْدُ، فَإِنَّ خَيْرَ الْحَدِيثِ كِتَابُ اللَّهِ، وَخَيْرَ الْهَدْيِ هَدْيُ مُحَمَّدٍ ﷺ، وَشَرَّ الْأُمُورِ مُحْدَثَاتُهَا، وَكُلَّ بِدْعَةٍ ضَلاَلَةٌ» ثُمَّ يَقُولُ: «أَنَا أَوْلَى بِكُلِّ مُؤْمِنٍ مِنْ نَفْسِهِ، مَنْ تَرَكَ مَالاً فَلأَهْلِهِ، وَمَنْ تَرَكَ دَيْنًا أَوْ ضَيَاعًا فَإِلَيَّ وَعَلَيَّ». رَوَاهُ مُسْلِمٌ .

172. Cabir *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* xütbə verdiyi zaman gözləri qızarar, səsi yüksələr, **"Düşmən səhər-axşam üstünüzə hücum edəcək, özünüzü qoruyun"** deyə ordusuna xəbərdarlıq edən sərkərdə kimi qəzəbi artar və şəhadət barmağı ilə orta barmağını birləşdirərək:

"Mənimlə qiyamətin arası bu iki barmağın arası qədər yaxınlaşdığı zaman peyğəmbər göndərildim" deyərdi. Sonra da sözlərinə belə davam edərdi:

"Bundan sonra deyəcəyim odur ki, ən xeyirli söz Allahın Kitabıdır. Yolların ən xeyirlisi Muhammədsəllallahu əleyhi və səlləmin yoludur. İşlərin ən pisi sonradan ortaya çıxarılmış bidətlərdir. Hər bidət azğınlıqdır". Sonra da belə buyurdu:

"Mən hər möminə öz nəfsindən daha yaxınam, daha üstünəm. Hər kim öldüyü zaman mal miras qoyarsa, o mal öz yaxınlarına aiddir. Lakin borc və ya yetimlər qoyub gedərsə, o borc mənə aiddir, yetimlərə baxmaq da mənim vəzifəmdir".

Müslim, Cümə 43. Həmçinin bax. İbn Macə, Müqəddimə 7

YAXŞI VƏ PİS CIĞIR AÇANLAR

Ayələr

وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا .

1. "Və o kəslər ki: "Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan (sənə itaət etməklə bizi sevindirib) **gözümüzün işığı** (bəbəyi) **olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam** (rəhbər) **et! – deyərlər".** (əl-Furqan, 74)

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا.

2. "Biz onları əmrimizlə (insanları) **doğru yola gətirən imamlar (rəhbərlər) etdik".** (əl-Ənbiya, 73)

Hədislər

١٧٣ـ عَنْ أَبِي عَمْرٍو جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنَّا فِي صَدْرِ النَّهَارِ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ فَجَاءَهُ قَوْمٌ عُرَاةٌ مُجْتَابِي النِّمَارِ أَوِ الْعَبَاءِ مُتَقَلِّدِي السُّيُوفِ، عَامَّتُهُمْ بَلْ كُلُّهُمْ مِنْ مُضَرَ فَتَمَعَّرَ وَجْهُ رَسُولِ اللَّهِ ﷺ لِمَا رَأَى بِهِمْ مِنَ الْفَاقَةِ فَدَخَلَ ثُمَّ خَرَجَ فَأَمَرَ بِلاَلًا فَأَذَّنَ وَأَقَامَ ثُمَّ صَلَّى ثُمَّ خَطَبَ فَقَالَ: ﴿يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ مِنْ نَفْسٍ وَاحِدَةٍ﴾ إِلَى اٰخِرِ الاٰيَةِ: ﴿إِنَّ اللَّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا﴾ وَالاٰيَةُ الأُخْرَى الَّتِي فِي اٰخِرِ الْحَشْرِ: ﴿يَا اَيُّهَا الَّذِينَ اَمَنُوا اتَّقُوا اللَّهَ وَلْتَنْظُرْ نَفْسٌ مَا قَدَّمَتْ لِغَدٍ﴾ تَصَدَّقَ رَجُلٌ مِنْ دِينَارِهِ مِنْ دِرْهَمِهِ مِنْ ثَوْبِهِ مِنْ صَاعِ بُرِّهِ مِنْ صَاعِ تَمْرِهِ حَتَّى قَالَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ، فَجَاءَ رَجُلٌ مِنَ الأَنْصَارِ بِصُرَّةٍ كَادَتْ كَفُّهُ تَعْجِزُ عَنْهَا بَلْ قَدْ عَجَزَتْ. ثُمَّ تَتَابَعَ النَّاسُ حَتَّى رَأَيْتُ كَوْمَيْنِ مِنْ طَعَامٍ وَثِيَابٍ حَتَّى رَأَيْتُ وَجْهَ رَسُولِ اللَّهِ ﷺ يَتَهَلَّلُ كَأَنَّهُ مُذْهَبَةٌ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ سَنَّ فِي الإِسْلاَمِ سُنَّةً حَسَنَةً فَلَهُ أَجْرُهَا وَأَجْرُ مَنْ عَمِلَ بِهَا بَعْدَهُ مِنْ غَيْرِ أَنْ يَنْقُصَ مِنْ أُجُورِهِمْ شَيْءٌ، وَمَنْ سَنَّ فِي الإِسْلاَمِ سُنَّةً سَيِّئَةً كَانَ عَلَيْهِ وِزْرُهَا وَوِزْرُ مَنْ عَمِلَ بِهَا مِنْ بَعْدِهِ مِنْ غَيْرِ أَنْ يَنْقُصَ مِنْ أَوْزَارِهِمْ شَيْءٌ». رَوَاهُ مُسْلِمٌ.

173. Əbu Amr Cərir bin Abdullah *radiyallahu anh* belə dedi:

Bir gün erkən saatlarda Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzurunda idik. O əsnada pələng dərisinə oxşar ala-bula naxışlı paltar geyinmiş və ya əbalarını kəsərək başlarından keçirmiş və qılınclarını qurşanmış əksəriyyəti və ya hamısı Mudar qəbiləsinə mənsub demək olar ki, çılpaq vəziyyətdə bir qrup gəldi. Onları bu dərəcə kasıb görən Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləmin* üzünün rəngi dəyişdi. Evə girdi, sonra çıxıb Bilala azan oxumasını əmr etdi, o da oxudu. Bilal qamət

gətirdi və Allah Rəsulu namaz qıldırdı. Daha sonra Peyğəmbər *səllallahu əleyhi və səlləm* bir xütbə oxudu və belə buyurdu:

"Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) **xəlq edən, ondan zövcəsini** (Həvvanı) **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!** (Adı ilə) **bir-birinizdən** (cürbəcür şeylər) **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"** (ən-Nisa, 1)

Sonra Həşr surəsinin sonundakı bu ayəni oxudu:

"Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə (axirət üçün özünə nə hazırladığına) **nəzər salsın".** (əl-Həşr, 18) Sonra da:

"Hər bir fərd qızılından, gümüşündən, paltarından, bir sa da olsa buğdasından, xurmasından sədəqə versin. Hətta yarım xurma da olsa sədəqə versin", - buyurdu.

Bu zaman ənsardan bir nəfər ağırlığı səbəbi ilə çətinliklə qaldırdığı, hətta qaldıra bilmədiyi bir torba gətirdi. Əhali bir-birinin ardınca sıraya düzülmüşdü. Nəhayət, iki topa ərzaq və paltar yığıldığını gördüm. Baxdım ki, Rəsulullah *səllallahu əleyhi və səlləmin* üzü gülür, sanki qızıl kimi parıldayırdı. Sonra Həzrət Peyğəmbər belə buyurdu:

"İslamda yaxşı cığır açan kəsə bunun savabı vardır. Həmin cığırla gedənlərin də savabından ona verilər. Lakin onların savabından heç nə azalmaz. Hər kim İslamda pis cığır açarsa, o adama da onun günahı var. Həmin cığırla gedənlərin günahından da pay alar. Lakin onların günahından da heç nə əskilməz".

Müslim, Zəkat 69. Həmçinin bax. Nəsai, Zəkat 64

❁

١٧٤ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ : «لَيْسَ مِنْ نَفْسٍ تُقْتَلُ ظُلْمًا إِلاَّ كَانَ عَلَى ابْنِ اٰدَمَ الْأَوَّلِ كِفْلٌ مِنْ دَمِهَا، لِأَنَّهُ كَانَ أَوَّلَ مَنْ سَنَّ الْقَتْلَ». مُتَّفَقٌ عَلَيْهِ .

174. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Haqsız yerə öldürülən hər kəsin qanından bir pay da Adəmin ilk oğluna ayrılar. Çünki o, adam öldürmə cığırını açan ilk insandır”.

Buxari, Ənbiya 1, Diyət 2, İtisam 15; Müslim, Qasamə 27. Həmçinin bax. Tirmizi, Elm 14; Nəsai, Təhrim 1; İbn Macə, Diyət 1

XEYRƏ ÖNDƏR OLMAQ

DOĞRULUQ VƏ YA AZĞINLIĞA DƏVƏT ETMƏK

Ayələr

وَادْعُ إِلَى رَبِّكَ .

1. **“**(İnsanları) **Rəbbinə** (ibadətə) **dəvət et”.** (əl-Qasas, 87)

أُدْعُ إِلَى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ .

2. **“** İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (İslama) dəvət et”. (ən-Nəhl, 125)

وَتَعَاوَنُوا عَلَى الْبِرِّ وَالتَّقْوَى .

3. **“Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun”.**
(əl-Maidə, 2)

وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ .

4. **“İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun!”**
(Ali-İmran, 104)

Hədislər

١٧٥ـ عَنْ أَبِي مَسْعُودٍ عُقْبَةَ بْنِ عَمْرٍو الْأَنْصَارِيِّ الْبَدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ دَلَّ عَلَى خَيْرٍ فَلَهُ مِثْلُ أَجْرِ فَاعِلِهِ». رَوَاهُ مُسْلِمٌ.

175. Bədr əhlindən və ənsardan olan Əbu Məsud Uqbə bin Amr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*belə buyurdu:

"Yaxşı bir əmələ öndərlik edən adama həmin yaxşılığı edənin əcri kimi savab vardır".

Müslim, İmarə 133. Həmçinin bax. Əbu Davud, Ədəb 115; Tirmizi, Elm 14

❁

١٧٦ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ دَعَا إِلَى هُدًى كَانَ لَهُ مِنَ الْأَجْرِ مِثْلُ أُجُورِ مَنْ تَبِعَهُ ، لَا يَنْقُصُ ذَلِكَ مِنْ أُجُورِهِمْ شَيْئًا، وَمَنْ دَعَا إِلَى ضَلَالَةٍ كَانَ عَلَيْهِ مِنَ الْإِثْمِ مِثْلُ اٰثَامِ مَنْ تَبِعَهُ، لاَ يَنْقُصُ ذَلِكَ مِنْ اٰثَامِهِمْ شَيْئًا». رَوَاهُ مُسْلِمٌ .

176. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanları doğru yola çağıran adama ona tabe olanların savabı qədər savab verilir. Bu, ona tabe olanların savablarından da heç nəyi azaltmaz. Başqalarını pis yola çağıran adama da ona tabe olanların günahı kimi günah yazılar. Ona tabe olanların günahlarından da heç nə əskilməz".

Müslim, Elm 16. Həmçinin bax. Əbu Davud, Sünnət 6; Tirmizi, Elm 15; İbn Macə, Müqəddimə 14

❁

١٧٧ـ عَنْ أَبِي الْعَبَّاسِ سَهْلِ بْنِ سَعْدٍ السَّاعِدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ يَوْمَ خَيْبَرَ: «لَأُعْطِيَنَّ هَذِهِ الرَّايَةَ غَدًا رَجُلاً يَفْتَحُ اللَّهُ عَلَى يَدَيْهِ،

يُحِبُّ اللَّهَ وَرَسُولَهُ وَيُحِبُّهُ اللَّهُ وَرَسُولُهُ». فَبَاتَ النَّاسُ يَدُوكُونَ لَيْلَتَهُمْ، أَيُّهُمْ يُعْطَاهَا. فَلَمَّا أَصْبَحَ النَّاسُ غَدَوْا عَلَى رَسُولِ اللَّهِ ﷺ كُلُّهُمْ يَرْجُو أَنْ يُعْطَاهَا، فَقَالَ: «أَيْنَ عَلِيُّ بْنُ أَبِي طَالِبٍ؟» فَقِيلَ: يَا رَسُولَ اللَّهِ ﷺ ، هُوَ يَشْتَكِي عَيْنَيْهِ. قَالَ: «فَأَرْسِلُوا إِلَيْهِ» فَأُتِيَ بِهِ فَبَصَقَ رَسُولُ اللَّهِ ﷺ فِي عَيْنَيْهِ، وَدَعَا لَهُ فَبَرِىءَ حَتَّى كَأَنْ لَمْ يَكُنْ بِهِ وَجَعٌ ، فَأَعْطَاهُ الرَّايَةَ. قَالَ عَلِيٌّ رَضِيَ اللَّهُ عَنْهُ: يَا رَسُولَ اللَّهِ، أُقَاتِلُهُمْ حَتَّى يَكُونُوا مِثْلَنَا؟ فَقَالَ:«انْفُذْ عَلَى رِسْلِكَ حَتَّى تَنْزِلَ بِسَاحَتِهِمْ، ثُمَّ ادْعُهُمْ إِلَى الْإِسْلاَمِ ، وَأَخْبِرْهُمْ بِمَا يَجِبُ عَلَيْهِمْ مِنْ حَقِّ اللَّهِ تَعَالَى فِيهِ . فَوَاللَّهِ لَأَنْ يَهْدِيَ اللَّهُ بِكَ رَجُلاً وَاحِدًا خَيْرٌ لَكَ مِنْ حُمْرِ النَّعَمِ». مُتَّفَقٌ عَلَيْهِ .

177. Əbul-Abbas Səhl bin Sad əs-Səidi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Xeybər döyüşü günü Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sabah bu bayrağı Allahın əliylə fəthi nəsib edəcəyi, Allah və Rəsulunu sevən, Allahın və Rəsulunun da sevdiyi bir nəfərə verəcəyəm."

Döyüşdə iştirak edənlər bayrağın aralarından kimə veriləcəyi barədə söhbət edərək gecəni keçirdilər. Səhər olanda bayrağın veriləcəyini ümid edərək bütün səhabələr Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləmin* hüzuruna qaçdılar. Hz. Peyğəmbər soruşdu:

- **"Əli bin Əbu Talib hardadır?"** Səhabələr:

- Ey Allahın Rəsulu, o, gözündən narahatdır,- dedilər.

Bunun üzərinə Peyğəmbərimiz:

- **"Bir nəfər göndərin, ona xəbər versin", -** buyurdu. Əlini gətirdilər. Rəsulullah *səllallahu əleyhi və səlləm* tüpürcəyi ilə onun gözlərini müalicə edərək dua buyurdu. Sanki heç gözü ağrımırdı. Peyğəmbər bayrağı ona verdi. Əli:

- Ya Rəsulallah, onlar da bizim kimi mömin olana qədərmi vuruşacağam? - dedi. Rəsuli-Əkrəm:

“Tələsmədən, təmkinlə yanlarına get, onları İslama dəvət et, tabe olacaqları ilahi öhdəlikləri xəbər ver. Allaha and içirəm ki, sənin vasitənlə Allahın bir nəfərə hidayət verməsi sənin üçün qırmızı dəvələrə sahib olmaqdan daha xeyirlidir”, - buyurdu.

Buxari, Fəzailus-səhabə 9; Müslim, Fəzailus-səhabə 34

❁

١٧٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ فَتًى مِنْ أَسْلَمَ ، قَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنِّي أُرِيدُ الْغَزْوَ وَلَيْسَ مَعِي مَا أَتَجَهَّزُ بِهِ. قَالَ: «ائْتِ فُلاَنًا ، قَدْ كَانَ تَجَهَّزَ فَمَرِضَ» فَأَتَاهُ فَقَالَ: إِنَّ رَسُولَ اللَّهِ ﷺ يُقْرِئُكَ السَّلاَمَ وَيَقُولُ: «أَعْطِنِي الَّذِي تَجَهَّزْتَ بِهِ». فَقَالَ: «يَا فُلاَنَةُ، أَعْطِيهِ الَّذِي تَجَهَّزْتُ بِهِ، وَلاَ تَحْبِسِي مِنْهُ شَيْئًا، فَوَاللَّهِ لاَ تَحْبِسِينَ مِنْهُ شَيْئًا فَيُبَارَكَ لَنَا فِيهِ». رَوَاهُ مُسْلِمٌ.

178. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Əsləm qəbiləsindən bir nəfər gənc belə dedi:

- Ey Allahın Rəsulu, mən döyüşdə iştirak etmək istəyirəm, lakin döyüş üçün lazımi sursatım yoxdur. Hz. Peyğəmbər:

- **“Filankəsin yanına get, o, hərbə getmək üçün hazırlanmışdı, lakin xəstələndi”, -** buyurdu. Gənc onun yanına getdi və:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* sənə salam deyir və döyüş üçün hazırladığın sursatları mənə verməni söyləyir,- dedi. Bunun üzərinə xanımına:

- Xanım, hazırladığım döyüş sursatının hamısını bu gəncə ver, heç nəyi əsirgəmə. Allah haqqı üçün onlardan heç nəyi əsirgəmə ki, bərəkətə nail olaq,- dedi.

Müslim, İmarə 134

YAXŞILIQ VƏ TƏQVADA YARDIMLAŞMAQ

Ayələr

وَتَعَاوَنُوا عَلَى الْبِرِّ وَالتَّقْوَى .

1. "Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun".
(əl-Maidə, 2)

وَالْعَصْرِ إِنَّ الْإِنْسَانَ لَفِي خُسْرٍ إِلَّا الَّذِينَ اٰمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ.

2. "Zamana and olsun ki, İnsan (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbiri tövsiyə edən kimsələrdən başqa!" (əl-Əsr, 1-3)

Hədislər

١٧٩ـ عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ جَهَّزَ غَازِيًا فِي سَبِيلِ اللَّهِ فَقَدْ غَزَا، وَمَنْ خَلَفَ غَازِيًا فِي أَهْلِهِ بِخَيْرٍ فَقَدْ غَزَا». مُتَّفَقٌ عَلَيْهِ.

179. Əbu Əbdürrəhman Zeyd bir Xalid əl-Cüheyni *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim Allah yolunda cihada gedəcək bir qazini təchiz edər, cihad üçün lazım olan ehtiyaclarını qarşılayarsa, cihada getmiş kimi savab qazanar. Cihada gedən qazinin qoyub getdiyi ailəsinə yaxşı baxıb onların ehtiyaclarını qarşılayan adam da sanki cihad etmiş kimi savab qazanar".

Buxari, Cihad 38; Müslim, İmarə 135-136. Həmçinin bax. Əbu Davud, Cihad 20; Tirmizi, Fəzailul-cihad 6; Nəsai, Cihad 44

١٨٠ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَعَثَ بَعْثًا إِلَى بَنِي لِحْيَانَ مِنْ هُذَيْلٍ فَقَالَ: «لِيَنْبَعِثْ مِنْ كُلِّ رَجُلَيْنِ أَحَدُهُمَا، وَالْأَجْرُ بَيْنَهُمَا». رَوَاهُ مُسْلِمٌ .

180. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Hüzeyl qəbiləsinin Lihyan oğulları üzərinə ordu göndərmək istədi. Bu səbəblə belə buyurdu:

"İki kişidən biri cihada getsin. Qazanılacaq savab ikisi arasında müştərəkdir".

Müslim, İmarə 137

❁

١٨٢ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ: «الْخَازِنُ الْمُسْلِمُ الْأَمِينُ الَّذِي يُنَفِّذُ مَا أُمِرَ بِهِ ، فَيُعْطِيهِ كَامِلاً مُوَفَّرًا طَيِّبَةً بِهِ نَفْسُهُ، فَيَدْفَعُهُ إِلَى الَّذِي أُمِرَ لَهُ بِهِ ، أَحَدُ الْمُتَصَدِّقَيْنِ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ «الَّذِي يُعْطِي مَا أُمِرَ بِهِ» .

181. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Ravha adlanan yerdə bir dəvə karvanına rastladı.

- **"Kimsiniz", -** deyə soruşdu. Onlar:

- Biz müsəlmanıq, sən kimsən? - dedilər.

Həzrət Peyğəmbər:

- **"Mən Allahın Rəsuluyam", -** dedi. Aralarından bir qadın kiçik bir uşağı Peyğəmbərimizə tərəf qaldıraraq:

- Bu uşağın həcci olarmı? - deyə soruşdu. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Bəli, üstəlik sənə də savab var", -** buyurdu.

Müslim, Həcc 409. Həmçinin bax. Əbu Davud, Mənasik 7

١٨٢ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ:
«الْخَازِنُ الْمُسْلِمُ الْأَمِينُ الَّذِي يُنَفِّذُ مَا أُمِرَ بِهِ ، فَيُعْطِيهِ كَامِلاً مُوَفَّرًا طَيِّبَةً بِهِ نَفْسُهُ،
فَيَدْفَعُهُ إِلَى الَّذِي أُمِرَ لَهُ بِهِ ، أَحَدُ الْمُتَصَدِّقَيْنِ». مُتَّفَقٌ عَلَيْهِ .
وَفِي رِوَايَةٍ «الَّذِي يُعْطِي مَا أُمِرَ بِهِ» .

182. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* buyurdu:

"Əmin olan müsəlman xəzinədar o kəsdir ki, ona əmr ediləni kamil şəkildə, nöqsansız və könül xoşluğu ilə yerinə yetirə, (əmanəti) istənilən adama verə. Məhz belə bir adam sədəqə verən iki nəfərdən biridir".

Buxari, Vəkalət 16; Müslim, Zəkat 79. Həmçinin bax. Buxari, Zəkat 25, İcarə 1; Nəsai, Zəkat 67

Başqa bir rəvayətdə **"əmr ediləni verən"** buyurulur.

Əbu Davud, Zəkat 43; Nəsai, Zəkat 67

NƏSİHƏT

Ayələr

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ.

1. "Həqiqətən, möminlər (dində) **qardaşdırlar".** (əl-Hucurat, 10)

وَأَنْصَحُ لَكُمْ.

2. "Mən sizə öyüd-nəsihət verir, yaxşılığınızı istəyirəm".

(əl-Əraf, 62)

وَأَنَا لَكُمْ نَاصِحٌ أَمِينٌ.

3. "Mən sizə doğru məsləhət verənəm". (əl-Əraf, 68)

Hədislər

١٨٣ـ عَنْ أَبِي رُقَيَّةَ تَمِيمِ بْنِ أَوْسٍ الدَّارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «الدِّينُ النَّصِيحَةُ» قُلْنَا لِمَنْ؟ قَالَ: «لِلَّهِ وَلِكِتَابِهِ وَلِرَسُولِهِ وَلِأَئِمَّةِ الْمُسْلِمِينَ وَعَامَّتِهِمْ». رَوَاهُ مُسْلِمٌ .

183. Abu Rüqəyyə Təmim bin Övs əd-Dari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm*:

"Din nəsihətdir", - buyurdu. Biz ondan:

- Kimin üçün nəsihətdir? - deyə soruşduq. Həzrət Peyğəmbər:

- **"Allah, Kitabı, Rəsulu, möminlərin idarəçiləri və bütün müsəlmanlar üçün nəsihətdir", -** buyurdu.

Müslim, İman 95. Həmçinin bax. Buxari, İman 42; Əbu Davud, Ədəb 59; Tirmizi, Birr 17; Nəsai, Beyət 31

❁

١٨٤ـ عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ: قَالَ بَايَعْتُ رَسُولَ اللَّهِ ﷺ عَلَى إِقَامِ الصَّلاَةِ ، وَإِيتَاءِ الزَّكَاةِ ، وَالنُّصْحِ لِكُلِّ مُسْلِمٍ. مُتَّفَقٌ عَلَيْهِ .

184. Cərir bin Abdullah *radiyallahu anh* belə dedi:

Namazı tam qılmaq, zəkatı haqqı ilə vermək, hər bir müsəlmana nəsihət etmək, dürüst davranmaq üzrə Rəsulullah *səllallahu əleyhi və səlləmə* beyət etdim.

Buxari, İman 42, Məvaqit 3, Zəkat 2; Müslim, İman 97-98. Həmçinin bax. Nəsai, Beyət 6, 17

١٨٥ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « لاَ يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى يُحِبَّ لأَخِيهِ مَا يُحِبُّ لِنَفْسِهِ» . مُتَّفَقٌ عَلَيْهِ .

185. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən biri özü üçün arzulayıb istədiyini din qardaşı üçün də arzu edib istəmədikcə həqiqi mənada iman etmiş olmaz".

Buxari, İman 7; Müslim, İman 71-72. Həmçinin bax. Tirmizi, Qiyamət 59; Nəsai, İman 19, 33; İbn Macə, Müqəddimə 9

YAXŞILIĞI ƏMR ETMƏK, PİSLİKDƏN ÇƏKİNDİRMƏK

Ayələr

وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَأُولَئِكَ هُمُ الْمُفْلِحُونَ .

1. "İçərinizdə (insanları) **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun!"**

(Ali-İmran, 104)

كُنْتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنْكَرِ.

2. "(Ey müsəlmanlar!) **Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz,** (onlara) **yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiniz".** (Ali-İmran, 110)

خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ

3. "Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!" (əl-Əraf, 199)

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاءُ بَعْضٍ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ.

4. "Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar). **Onlar** (insanlara) **yaxşı işlər görməyi əmr edər, pis işləri yasaqlayarlar".**

(ət-Tövbə, 71)

لُعِنَ الَّذِينَ كَفَرُوا مِنْ بَنِي إِسْرَائِيلَ عَلَى لِسَانِ دَاوُودَ وَعِيْسَى بْنِ مَرْيَمَ ذَلِكَ بِمَا عَصَوْا وَكَانُوا يَعْتَدُونَ كَانُوا لاَ يَتَنَاهَوْنَ عَنْ مُنْكَرٍ فَعَلُوهُ لَبِئْسَ مَاكَانُوا يَفْعَلُونَ.

5. "İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu. Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi. Onlar etdikləri pis əməldən əl çəkmirdilər (və ya onlar bir-birini etdikləri pis əməldən çəkindirmirdilər). Onların gördükləri iş necə də pis idi!"

(əl-Maidə, 78-79)

وَقُلِ الْحَقُّ مِنْ رَبِّكُمْ فَمَنْ شَاءَ فَلْيُؤْمِنْ وَمَنْ شَاءَ فَلْيَكْفُرْ.

6. "Və de: "Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)**".** (əl-Kəhf, 29)

فَاصْدَعْ بِمَا تُؤْمَرُ.

7. "(Ya Rəsulum!) **Sənə əmr olunanı** (Quranı) **açıq-aşkar təbliğ et".**

(əl-Hicr, 94)

أَنْجَيْنَا الَّذِينَ يَنْهَوْنَ عَنِ السُّوءِ وَأَخَذْنَا الَّذِينَ ظَلَمُوا بِعَذَابٍ بَئِيسٍ بِمَا كَانُوا يَفْسُقُونَ.

8. "Biz pislikdən çəkindirənlərə nicat verdik, zülm edənləri isə itaətdən çıxdıqları, günah işlətdikləri üçün şiddətli bir əzabla məhv etdik".

(əl-Əraf, 165)

Hədislər

١٨٦ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ رَأَى مِنْكُمْ مُنْكَرًا فَلْيُغَيِّرْهُ بِيَدِهِ ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِلِسَانِهِ ، فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِقَلْبِهِ ، وَذَلِكَ أَضْعَفُ الْإِيمَانِ». رَوَاهُ مُسْلِمٌ .

186. Əbu Səid əl-Xudri *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini dedi:

"Kim bir pislik görərsə, onu əli ilə dəyişdirsin. Əgər əli ilə düzəltməyə gücü çatmasa, dili ilə dəyişdirsin. Dili ilə dəyişdirməyə də gücü çatmazsa, qəlbi ilə düzəltməyə çalışsın ki, bu da imanın ən zəif dərəcəsidir".[18]

Müslim, İman 78. Həmçinin bax. Tirmizi, Fitən 11; Nəsai, İman 17

❁

١٨٧ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَا مِنْ نَبِيٍّ بَعَثَهُ اللَّهُ فِي أُمَّةٍ قَبْلِي إِلاَّ كَانَ لَهُ مِنْ أُمَّتِهِ حَوَارِيُّونَ وَأَصْحَابٌ يَأْخُذُونَ بِسُنَّتِهِ وَيَقْتَدُونَ بِأَمْرِهِ ، ثُمَّ إِنَّهَا تَخْلُفُ مِنْ بَعْدِهِمْ خُلُوفٌ يَقُولُونَ مَا لاَ يَفْعَلُونَ ، وَيَفْعَلُونَ مَا لاَ يُؤْمَرُونَ ، فَمَنْ جَاهَدَهُمْ بِيَدِهِ فَهُوَ مُؤْمِنٌ ، وَمَنْ جَاهَدَهُمْ بِقَلْبِهِ فَهُوَ مُؤْمِنٌ ، وَمَنْ جَاهَدَهُمْ بِلِسَانِهِ فَهُوَ مُؤْمِنٌ ، وَلَيْسَ وَرَاءَ ذَلِكَ مِنَ الْإِيمَانِ حَبَّةُ خَرْدَلٍ» . رَوَاهُ مُسْلِمٌ .

187. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təalanın məndən əvvəl yaşayan hər bir ümmətə göndərdiyi peyğəmbərlərin öz ümməti içində sünnəsinə sarılan və əmrinə itaət edən ixlaslı və seçilmiş yaxın çevrəsi və əshabı vardı. Bu səmimi ətraf və əshabından sonra etmədiklərini söyləyən və əmr olunmadıqlarını edən kəslər onların yerini tutdu. Bu kimi adamlara qarşı əli ilə

18. Müsəlman pisliyə qarşı laqeyid qala bilməz. Düzəltmə imkanı olarsa müdaxilə edər buna gücü çatmazsa qəlbində həmin əməmlə nifrət hissi keçirər.

cihad edən mömindir, dili ilə cihad edən mömindir, qəlbi ilə cihad edən də mömindir. Bu qədəri də olmayan adamda xardal dənəsi ağırlığında da olsa iman yoxdur".

Müslim, İman 80

❁

١٨٨ـ عَنْ أَبِي الْوَلِيدِ عُبَادَةَ بْنِ الصَّامِتِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: «بَايَعْنَا رَسُولَ اللَّهِ ﷺ عَلَى السَّمْعِ وَالطَّاعَةِ فِي الْعُسْرِ وَالْيُسْرِ ، وَالْمَنْشَطِ وَالْمَكْرَهِ ، وَعَلَى أَثَرَةٍ عَلَيْنَا ، وَعَلَى أَلاَّ نُنَازِعَ الْأَمْرَ أَهْلَهُ ـ إِلاَّ أَنْ تَرَوْا كُفْرًا بَوَاحًا عِنْدَكُمْ مِنَ اللَّهِ تَعَالَى فِيهِ بُرْهَانٌ ـ وَعَلَى أَنْ نَقُولَ بِالْحَقِّ أَيْنَمَا كُنَّا ، لاَ نَخَافُ فِي اللَّهِ لَوْمَةَ لاَئِمٍ». مُتَّفَقٌ عَلَيْهِ .

188. Əbul-Vəlid Ubadə bin Samit *radiyallahu anh* belə dedi:

Biz Rəsulullah *səllallahu əleyhi və səlləmə* çətin və rahat anlarımızda, sevincli və kədərli anlarda, başqaları bizə tərcih olunduğu zamanlarda ona qulaq asıb itaət etməyə, açıq-aşkar dindən çıxdıqlarını göstərən bir əməl işləmədikcə dövləti idarə edənlərin işlərinə qarışmamağa, harda olmağımıza baxmayaraq haqqı deyəcəyimizə və Allah üçün heç bir qınayanın qınağından qorxmayacağımıza dair beyət etdik.

Buxari, Əhkam 42; Müslim, İmarə 41. Həmçinin bax. Nəsai, Beyət 1, 2, 3; İbn Macə, Cihad 41

❁

١٨٩ ـ عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَثَلُ الْقَائِمِ فِي حُدُودِ اللَّهِ وَالْوَاقِعِ فِيهَا كَمَثَلِ قَوْمٍ اسْتَهَمُوا عَلَى سَفِينَةٍ فَصَارَ بَعْضُهُمْ أَعْلاَهَا، وَبَعْضُهُمْ أَسْفَلَهَا. وَكَانَ الَّذِينَ فِي أَسْفَلِهَا إِذَا اسْتَقَوْا مِنَ الْمَاءِ مَرُّوا عَلَى مَنْ فَوْقَهُمْ فَقَالُوا : لَوْ أَنَّا خَرَقْنَا فِي نَصِيبِنَا خَرْقًا وَلَمْ نُؤْذِ مَنْ فَوْقَنَا! فَإِنْ تَرَكُوهُمْ وَمَا أَرَادُوا هَلَكُوا جَمِيعًا ، وَإِنْ أَخَذُوا عَلَى أَيْدِيهِمْ نَجَوْا ، وَنَجَوْا جَمِيعًا». رَوَاهُ الْبُخَارِيُّ .

189. Numan bin Bəşir *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahın çəkdiyi sərhədləri aşmadan orada dayananlarla bu sərhədləri aşanlar bir gəmiyə minmək üçün püşk atan bir qrupa bənzəyirlər. Onların bir hissəsi gəminin üst qatına, bir hissəsi isə alt qatına yerləşmişdir. Aşağı qatdakılar su götürmək üçün üst qatdakıların yanından keçməli olurdular. Alt qatda oturanlar:

Öz tərəfimizə düşən hissədən bir dəlik açsaq, üst qatdakılara da əziyyət verməmiş olarıq,- dedilər.

Əgər üst qatda səyahət edənlər onların bu istəklərinə mane olmasalar, hamısı birlikdə suda bataraq həlak olarlar. Əgər buna əngəl olarlarsa, həm özlərini, həm də onları xilas etmiş olarlar".

Buxari, Şirkət 6; Şəhadət 30. Həmçinin bax. Tirmizi, Fitən 12

❁

١٩٠ـ عَنْ أُمِّ الْمُؤْمِنِينَ أُمِّ سَلَمَةَ هِنْدٍ بِنْتِ أَبِي أُمَيَّةَ حُذَيْفَةَ رَضِيَ اللَّهُ عَنْهَا ، عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ: «إِنَّهُ يُسْتَعْمَلُ عَلَيْكُمْ أُمَرَاءُ فَتَعْرِفُونَ وَتُنْكِرُونَ ، فَمَنْ كَرِهَ فَقَدْ بَرِىءَ ، وَمَنْ أَنْكَرَ فَقَدْ سَلِمَ ، وَلَكِنْ مَنْ رَضِيَ وَتَابَعَ ». قَالُوا: يَا رَسُولَ اللَّهِ، أَلاَ نُقَاتِلُهُمْ ؟ قَالَ : «لاَ ، مَا أَقَامُوا فِيكُمُ الصَّلاَةَ» . رَوَاهُ مُسْلِمٌ .

190. Möminlərin anası Ümmü Sələmə Hind binti Əbu Ümeyyə Hüzeyfə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizin başınıza bəzi əmirlər, idarəçilər təyin olunacaqdır. Onların dinə münasib olanişlərini xoş qarşılayar, münasib olmayanlarını isə xoş qarşılamaz, tənqid edərsiniz. Hər kim (bu kimi əməllərini) xoş qarşılamaz, kərih görərsə, günahlardan qorunmuş olar. Hər kim tənqid edər, onların pis əməllərinə mane olmağa çalışarsa, qurtuluşa nail olar. Lakin kim xoşnud olar, onlara tabe olarsa, üsyan etmiş olar". Bu zaman səhabələr:

- Ya Rəsulallah, onlarla vuruşmayaqmı? - deyə soruşdular.

Həzrət Peyğəmbər belə buyurdu:

- **"Aranızda namaz qıldıqları müddətdə yox".**

Müslim, İmarə 63

١٩١ـ عَنْ أُمِّ الْمُؤْمِنِينَ أُمِّ الْحَكَمِ زَيْنَبَ بِنْتِ جَحْشٍ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ النَّبِيَّ ﷺ دَخَلَ عَلَيْهَا فَزِعًا يَقُولُ: «لاَ إِلَهَ إِلاَّ اللَّهُ. وَيْلٌ لِلْعَرَبِ مِنْ شَرٍّ قَدِ اقْتَرَبَ، فُتِحَ الْيَوْمَ مِنْ رَدْمِ يَأْجُوجَ وَمَأْجوجَ مِثْلُ هَذِهِ». وَحَلَّقَ بِأُصْبُعَيْهِ الْإِبْهَامِ وَالَّتِي تَلِيهَا .فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، أَنَهْلِكُ وَفِينَا الصَّالِحُونَ؟ قَالَ: «نَعَمْ إِذَا كَثُرَ الْخَبَثُ» .مُتَّفَقٌ عَلَيْهِ .

191. Möminlərin anası Ümmü Hakəm Zeynəb binti Cəhş *radiyallahu anhənin* nəql etdiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* qorxudan titrəyərək yanına gəldi və:

"Allahdan başqa ilah yoxdu. Yaxınlaşan şər səbəbi ilə vay ərəbin halına! Bu gün Yəcucvə Məcucun səddindən bu qədər yer açıldı", - buyurdu və baş barmağı ilə şəhadət barmağını birləşdirərək halqa tutdu. Bu zaman mən:

- Ey Allahın Rəsulu aramızda yaxşılar olduğu halda həlak olarıqmı? - dedim Rəsulu-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Pislik və günahlar çoxaldığı vaxt bəli", -** buyurdu.

Buxari, Fitən 4, 28; Müslim, Fitən 1. Həmçinin bax. Buxari, Ənbiya 7, Mənaqib 25; Əbu Davud, Fitən 1; Tirmizi, Fitən 23; İbn Macə, Fitən 9

❁

١٩٢ـ عَنِ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِيَّاكُمْ وَالْجُلُوسَ فِي الطُّرُقَاتِ» فَقَالُوا: يَا رَسُولَ اللَّهِ ، مَا لَنَا مِنْ مَجَالِسِنَا بُدٌّ ، نَتَحَدَّثُ فِيهَا. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «فَإِذَا أَبَيْتُمْ إِلاَّ الْمَجْلِسَ فَأَعْطُوا الطَّرِيقَ حَقَّهُ» قَالُوا وَمَا حَقُّ الطَّرِيقِ يَا رَسُولَ اللَّهِ؟ قَالَ : «غَضُّ الْبَصَرِ ، وَكَفُّ الْأَذَى ، وَرَدُّ السَّلاَمِ، وَالْأَمْرُ بِالْمَعْرُوفِ وَالنَّهْيُ عَنِ الْمُنْكَرِ» . مُتَّفَقٌ عَلَيْهِ .

192. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm*:

“Yolda və küçədə oturmaqdan uzaq durun”, - buyurdu. Səhabələr:

- Ya Rəsulallah, bizim yolda və küçədə oturmaqdan imtina etməyimiz mümkün deyil, çünki lazımi işlərimizi orada müzakirə edirik,- dedilər. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **“Buna məcbursunuzsa və mütləq oturmalısınızsa, onda yolun haqqını verin”, -** buyurdu.

- Yolun haqqı nədir, ya Rəsulallah? - dedilər. Həzrət Peyğəmbər belə buyurdu:

- **“Gözü haramdan qorumaq, gəlib-gedənə əziyyət verməmək, verilən salamı almaq, yaxşılığı tövsiyə edib pislikdən çəkindirmə vəzifəsini yerinə yetirmək”.**

Buxari, Məzalim 22, İstizan 2; Müslim, Libas 114. Həmçinin bax. Əbu Davud, Ədəb 12

❁

١٩٣ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ رَأَى خَاتَمًا مِنْ ذَهَبٍ فِي يَدِ رَجُلٍ فَنَزَعَهُ فَطَرَحَهُ ، وَقَالَ: «يَعْمِدُ أَحَدُكُمْ إِلَى جَمْرَةٍ مِنْ نَارٍ فَيَجْعَلُهَا فِي يَدِهِ!» فَقِيلَ لِلرَّجُلِ بَعْدَ مَاذَهَبَ رَسُولُ اللَّهِ ﷺ : خُذْ خَاتَمَكَ انْتَفِعْ بِهِ . قَالَ: لاَ واللَّهِ ، لاَ آخُذُهُ أَبَدًا وَقَدْ طَرَحَهُ رَسُولُ اللَّهِ ﷺ . رَوَاهُ مُسْلِمٌ .

193. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* bir nəfərin əlində qızıl üzük gördü və onu çıxardıb atdı. Sonra da belə buyurdu:

“Sizdən biriniz qızmar közü əlinə alarmı?” Həzrət Peyğəmbər gedəndən sonra həmin adama:

- Üzüyünü götür, ondan başqa cür istifadə et,- dedilər. O isə:

- Xeyr, Allaha and olsun ki, Allah Rəsulu onu atdıqdan sonra əbədiyyən götürmərəm,- dedi.

Müslim, Libas 53

❁

١٩٤ ـ عَنْ أَبِي سَعِيدٍ الْحَسنِ الْبَصْرِيِّ أَنَّ عَائِذَ بْنَ عَمْرٍو رَضِيَ اللَّهُ عَنْهُ دَخَلَ عَلَى عُبَيْدِ اللَّهِ بْنِ زِيَادٍ فَقَالَ: أَيْ بُنَيَّ ، إِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ شَرَّ الرِّعَاءِ الْحُطَمَةُ » فَإِيَّاكَ أَنْ تَكُونَ مِنْهُمْ . فَقَالَ لَهُ: اجْلِسْ فَإِنَّمَا أَنْتَ مِنْ نُخَالَةِ أَصْحَابِ مُحَمَّدٍ ﷺ فَقَالَ: وَهَلْ كَانَتْ لَهُمْ نُخَالَةٌ؟ إِنَّمَا كَانَتِ النُّخَالَةُ بَعْدَهُمْ وَفِي غَيْرِهِمْ! رَوَاهُ مُسْلِمٌ .

194. Əbu Səid Həsən əl-Bəsridən rəvayət edildiyinə görə Aiz bin Amr *radiyallahu anh* Übeydullah bin Ziyadın yanına girdi və belə dedi:

- Ey oğlum, mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* "Ən pis idarəçi rəiyyətindəki insanlara qarşı qatı və kobud rəftar edəndir" buyurduğunu eşitdim. Diqqət et, onlardan olma!

Übeydullah bin Ziyad Aizə:

- Sən otur! Çünki sən Muhammməd *səllallahu əleyhi və səlləmin* əshabının unun kəpəyi kimi tökülən qismindənsən,- dedi. Aiz bin Amr:

- Onların arasında unun kəpəyi kimi tökülənlərimi var? Unun kəpəyi kimi töküntü qismindən olanlar onlardan sonra və onların xaricindəkilərdən çıxdı,- dedi.

Müslim, İmarə 23

❁

١٩٥ ـ عَنْ حُذَيْفَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «وَالَّذِي نَفْسِي بِيَدِهِ ، لَتَأْمُرُنَّ بِالْمَعْرُوفِ ، وَلَتَنْهَوُنَّ عَنِ الْمُنْكَرِ ، أَوْ لَيُوشِكَنَّ اللَّهُ أَنْ يَبْعَثَ عَلَيْكُمْ عِقَابًا مِنْهُ ، ثُمَّ تَدْعُونَهُ فَلاَ يُسْتَجَابُ لَكُمْ» . رَوَاهُ التِّرْمِذِيُّ .

195. Hüzeyfə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Nəfsimi qüdrət əlində tutan Allaha and içirəm ki, ya yaxşılığı əmr edər, pisliklərdən çəkindirərsiniz; ya da Allah tezliklə üzərinizə əzab göndərər. Sonra Allaha yalvarıb dua etsəniz də duanız qəbul olunmaz".

Tirmizi, Fitən 9

١٩٦ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أَفْضَلُ الْجِهَادِ كَلِمَةُ عَدْلٍ عِنْدَ سُلْطَانٍ جَائِرٍ». رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ.

196. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cihadın ən fəzilətlisi zalım sultan qarşısında haqqı və ədaləti söyləməkdir".

Əbu Davud, Məlahim 17; Tirmizi, Fitən 13. Həmçinin bax. Nəsai, Beyət 37; İbn Macə, Fitən 20

❁

١٩٧ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ طَارِقِ بْنِ شِهَابٍ الْبَجَلِيِّ الْأَحْمَسِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلاً سَأَلَ النَّبِيَّ ﷺ وَقَدْ وَضَعَ رِجْلَهُ فِي الْغَرْزِ: أَيُّ الْجِهَادِ أَفْضَلُ؟ قَالَ: «كَلِمَةُ حَقٍّ عِنْدَ سُلْطَانٍ جَائِرٍ» . رَوَاهُ النَّسَائِيُّ.

197. Əbu Abdullah Tariq bin Şihab əl-Bəcəli əl-Əhməsi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* ayağını üzəngiyə qoymuş vəziyyətdə ikən bir nəfər soruşdu:

- Hansı cihad daha fəzilətlidir? Peyğəmbərimiz:

- **"Zalım sultan qarşısında söylənən haqq söz", -** buyurdu.

Nəsai, Beyət 37. Həmçinin əvvəlki hədisin qaynaqlarına bax.

❁

١٩٨ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ أَوَّلَ مَا دَخَلَ النَّقْصُ عَلَى بَنِي إِسْرَائِيلَ أَنَّهُ كَانَ الرَّجُلُ يَلْقَى الرَّجُلَ فَيَقُولُ: يَاهَذَا اتَّقِ اللَّهَ وَدَعْ مَا تَصْنَعُ ، فَإِنَّهُ لاَ يَحِلُّ لَكَ . ثُمَّ يَلْقَاهُ مِنَ الْغَدِ وَهُوَ عَلَى حَالِهِ ، فَلاَ يَمْنَعُهُ ذَلِكَ أَنْ يَكُونَ أَكِيلَهُ وَ شَرِيبَهُ وَقَعِيدَهُ. فَلَمَّا فَعَلُوا ذَلِكَ ضَرَبَ اللَّهُ قُلُوبَ بَعْضِهِمْ بِبَعْضٍ» ثُمَّ قَالَ: ﴿**لُعِنَ الَّذِينَ كَفَرُوا مِنْ بَنِي إِسْرَائِيلَ عَلَى لِسَانِ**

دَاوُودَ وَعِيسَى بْنِ مَرْيَمَ ذَلِكَ بِمَا عَصَوْا وَكَانُوا يَعْتَدُونَ. كَانُوا لاَ يَتَنَاهَوْنَ عَنْ مُنْكَرٍ فَعَلُوهُ لَبِئْسَ مَاكَانُوا يَفْعَلُونَ. تَرَى كَثِيرًا مِنْهُمْ يَتَوَلَّوْنَ الَّذِينَ كَفَرُوا لَبِئْسَ مَا قَدَّمَتْ لَهُمْ أَنْفُسُهُمْ﴾ إِلَى قَوْلِهِ ﴿فَاسِقُونَ﴾. ثُمَّ قَالَ: «كَلاَّ وَاللَّهِ، لَتَأْمُرُنَّ بِالْمَعْرُوفِ، ولَتَنْهَوُنَّ عَنِ الْمُنْكَرِ ، ولَتَأْخُذُنَّ عَلَى يَدِ الظَّالِمِ ، ولَتَأْطِرُنَّهُ عَلَى الْحَقِّ أَطْرًا ، وَلَتَقْصُرُنَّهُ عَلَى الْحَقِّ قَصْرًا ، أَوْ لَيَضْرِبَنَّ اللَّهُ بِقُلُوبِ بَعْضِكُمْ عَلَى بَعْضٍ ثُمَّ لَيَلْعَنُكُمْ كَمَا لَعَنَهُمْ» . رَوَاهُ أَبُو دَاوُودَ والتِّرْمِذِيُّ.

وَلَفْظُ التِّرْمِذِيِّ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لَمَّا وَقَعَتْ بَنُو إِسْرَائِيلَ فِي الْمَعَاصِي نَهَتْهُمْ عُلَمَاؤُهُمْ ، فَلَمْ يَنْتَهُوا ، فَجَالَسُوهُمْ فِي مَجَالِسِهِمْ ، وَوَاكَلُوهُمْ وَشَارَبُوهُمْ فَضَرَبَ اللَّهُ قُلُوبَ بَعْضِهِمْ بِبَعْضٍ ، وَلَعَنَهُمْ عَلَى لِسَانِ دَاوُدَ وَعِيسَى بْنِ مَرْيَمَ ، ذَلِكَ بِمَا عَصَوْا وَكَانُوا يَعْتَدُونَ». فَجَلَسَ رَسُولُ اللَّهِ ﷺ وَكَانَ مُتَّكِئًا فَقَالَ: «لاَ وَالَّذِي نَفْسِي بِيَدِهِ ، حَتَّى تَأْطِرُوهُمْ عَلَى الْحَقِّ أَطْرًا».

198. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İsrail oğulları arasında dindən yayınma ilk dəfə belə başladı:

Bir nəfər başqa biri ilə rastlaşar və belə deyərdi:

Mənə bax! Allahdan qorx və etdiyin bu (pis) **əməli tərk et. Çünki bu, sənə halal deyil. Ertəsi gün yenə onunla eyni əməli işləyərkən qarşılaşır və onu işlədiyi pis əməldən çəkindirmədiyi kimi, onunla yeyib-içməkdən və birlikdə olmaqdan da çəkinməzdi. Onlar belə etdiyi üçün Allah-Təala qəlblərini bir-birinə bənzətdi. Sonra Rəsuli-Əkrəm bu ayələri oxudu:**

"İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu. Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi. Onlar bir-birini etdikləri pis əməldən çəkindirmirdilər. Onların gördükləri iş necə də pis idi! Onların (kitab əhlinin) **bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən. Gör nəfs-**

lərinin əvvəlcədən onlar üçün hazırladığı şey (küfr) **necə pisdir ki, Allahın onlara qəzəbi tutmuşdur. Onlar əbədi əzaba düçar olanlardır! Əgər onlar Allaha, Peyğəmbərə və ona nazil olana inansaydılar, onları** (kafirləri) **özlərinə dost tutmazdılar. Lakin onların çoxu itaətdən çıxmış fasiqdirlər!"** (əl-Maidə, 78-81)

Hz. Peyğəmbər bu ayələri oxuduqdan sonra belə buyurdu:

Xeyr, Allaha and içirəm ki, ya yaxşılığı əmr edər, pislikdən çəkindirər, zalımın əlindən tutub zülmünə mane olar, onu haqqa qaytarar və haqq üzrə tutarsınız, ya da Allah-Təala qəlblərinizi bir-birinə bənzədər, sonra da İsrail oğullarına lənət etdiyi kimi sizə də lənət edər".

Əbu Davud, Məlahim 17; Tirmizi, Təfsiru-surə (5), 6, 7

Yuxarıdakı tərcümə Əbu Davudun mətninə aiddir. Tirmizinin mətninin tərcüməsi isə belədir:

"İsrail oğulları günahlara daldıqda alimləri onları bundan çəkindirsə də, onlar işlədikləri günahları tərk etmədilər. Bu dəfə alimlər də onlarla birlikdə oturub-durdular, birlikdə yedilər, içdilər. Belə olan təqdirdə Allah-Təala da onların qəlblərini bir-birinə bənzətdi. Davud və Məryəm oğlu İsanın dili ilə onlara lənət etdi. Bu, həddi aşmaları və üsyan etmələri səbəbi ilə idi".

Rəsulullah *səllallahu əleyhi və səlləm* söykəndiyi yerdən doğrularaq:

"Xeyr! Nəfsim qüdrət əlində olan Allaha and olsun ki, onları haqqa boyun əydirənə qədər bu belə davam edəcəkdir", - buyurdu.

❁

١٩٩ ـ عَنْ أَبِي بَكْرٍ الصِّدِّيقِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: يَا أَيُّهَا النَّاسُ ، إِنَّكُمْ تَقْرَؤُونَ هَذِهِ الْآيَةَ: ﴿**يَاأَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ لاَ يَضُرُّكُمْ مَنْ ضَلَّ إِذَا اهْتَدَيْتُمْ**﴾. وإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ النَّاسَ إِذَا رَأَوُا الظَّالِمَ فَلَمْ يَأْخُذُوا عَلَى يَدَيْهِ أَوْشَكَ أَنْ يَعُمَّهُمُ اللَّهُ بِعِقَابٍ مِنْهُ». رَوَاهُ أَبُوا دَاوُودَ ، والتِّرْمِذِيُّ.

199. Əbu Bəkr Siddiq *radiyallahu anh* belə dedi:

Ey insanlar, şübhəsiz ki, siz bu ayəni oxuyursunuz:

"Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin borcunuzdur. Siz doğru yolda olsanız, yoldan azanlar sizə heç bir zərər yetirə bilməzlər. Hamınızın axır dönüşü Allahadır. Allah etdiyiniz əməllər barəsində sizə xəbər verəcəkdir!" (əl-Maidə, 105) Və mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitdim:

"Şübhəsiz ki, insanlar zalımı görüb onun zülmünə mane olmazlarsa, Allahın öz qatından göndərəcəyi bir əzabı bütünlüklə hamısına şamil etməsi yaxındır".

Əbu Davud, Məlahim 17; Tirmizi, Fitən 8, Təfsiru surə (5), 17. Həmçinin bax. İbn Macə, Fitən 20

YAXŞILIĞI TÖVSİYƏ ETDİYİ, PİSLİKDƏN ÇƏKİNDİRDİYİ HALDA SÖZÜ İLƏ ƏMƏLİ ZİDD OLAN ADAMIN ACI AQİBƏTİ

Ayələr

أَتَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ وَتَنْسَوْنَ أَنْفُسَكُمْ وَأَنْتُمْ تَتْلُونَ الْكِتَابَ أَفَلاَ تَعْقِلُونَ .

1. "Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki özünüz kitab oxuyursunuz. Məgər (çirkin əməllərinizi) **başa düşmürsünüz?"**

(əl-Bəqərə, 44)

يَا أَيُّهَا الَّذِينَ اَمَنُوا لِمَ تَقُولُونَ مَالاَ تَفْعَلُونَ كَبُرَ مَقْتًا عِنْدَ اللَّهِ أَنْ تَقُولُوا مَا لاَ تَفْعَلُونَ.

2. "Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar".

(əs-Saff, 2-3)

وَمَا أُرِيدُ أَنْ أُخَالِفَكُمْ إِلَى مَا أَنْهَاكُمْ عَنْهُ.

3. "Mən sizə yasaq buyurduğum şeyin əksinə gedib onu özüm etmək istəmirəm".

(Hud, 88)

Hədislər

٢٠٠ ـ عَنْ أَبِي زَيْدٍ أُسَامَةَ بْنِ زَيْدِ بْنِ حَارِثَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «يُؤْتَى بِالرَّجُلِ يَوْمَ الْقِيَامَةِ ، فَيُلْقَى فِي النَّارِ ، فَتَنْدَلِقُ أَقْتَابُ بَطْنِهِ ، فَيَدُورُ بِهَا كَمَا يَدُورُ الْحِمَارُ فِي الرَّحَا ، فَيَجْتَمِعُ إِلَيْهِ أَهْلُ النَّارِ فَيَقُولُونَ: يَا فُلاَنُ ، مَالَكَ؟ أَلَمْ تَكُنْ تَأْمُرُ بِالْمَعْرُوفِ وَتَنْهَى عَنِ الْمُنْكَرِ؟ فَيَقُولُ: بَلَى ، كُنْتُ اٰمُرُ بِالْمَعْرُوفِ وَلاَ اٰتِيهِ ، وَأَنْهَى عَنِ الْمُنْكَرِ وَاٰتِيهِ» . مُتَّفَقٌ عَلَيْهِ .

200. Əbu Zeyd Usamə bin Zeyd əl-Harisə *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim:

"Qiyamət günü bir nəfər gətirilər və cəhənnəm oduna atılar. Bağırsaqları qarnından çölə çıxar və onlarla birlikdə dəyirman fırladan uzunqulaq kimi fırlanıb durar. Cəhənnəm əhli onun başına toplaşıb deyər:

- Sənə nə oldu belə? Sən yaxşılığı əmr edib, pislikdən çəkindirmirdinmi?" O isə bu cavabı verər:

- Bəli, yaxşılığı əmr edərdim, lakin özüm əməl etməzdim. Pislikdən çəkindirərdim, lakin özüm işləyərdim".

Buxari, Bədul-xalq 10, Fitən 17; Müslim, Zöhd 51

ƏMANƏTƏ RİAYƏT ETMƏK

Ayələr

إِنَّ اللَّهَ يَأْمُرُكُمْ أَنْ تُؤَدُّوا الْأَمَانَاتِ إِلَى أَهْلِهَا.

1. "Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı əmr edir".
(ən-Nisa, 58)

إِنَّا عَرَضْنَا الْأَمَانَةَ عَلَى السَّمَوَاتِ وَالْأَرْضِ وَالْجِبَالِ فَأَبَيْنَ أَنْ يَحْمِلْنَهَا وَأَشْفَقْنَ مِنْهَا ، وَحَمَلَهَا الْإِنْسَانُ ، إِنَّهُ كَانَ ظَلُومًا جَهُولاً .

2. "Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) **göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən** (götürüb özləri ilə daşımaqdan) **qorxub çəkindilər. Onu insan yükləndi".**
(əl-Əhzab, 72)

Hədislər

٢٠١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «آيَةُ الْمُنَافِقِ ثَلاَثٌ: إِذَا حَدَّثَ كَذَبَ ، وَإِذَا وَعَدَ أَخْلَفَ ، وَإِذَا اؤْتُمِنَ خَانَ» . مُتَّفَقٌ عَلَيْهِ .
وَفِي رِوَايَةٍ: «وَإِنْ صَامَ وَصَلَّى وَزَعَمَ أَنَّهُ مُسْلِمٌ».

201. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Münafiqin əlaməti üçdür: yalan danışar, verdiyi sözü tutmaz, verilən əmanətə xəyanət edər".

Buxari, İman 24; Müslim, İman 107-108. Həmçinin bax. Buxari, Şəhadət 28, Vəsaya 8; Məzalim 17, Cizyə 17, Ədəb 69; Tirmizi, İman 14

Bir rəvayətdə: **"Oruc tutsa, namaz qılsa və özünü mömin zənn etsə də", -** buyurulur. (Müslim, İman 109)

٢٠٢ ـ عَنْ حُذَيْفَةَ بْنِ الْيَمَانِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: حَدَّثَنَا رَسُولُ اللَّهِ ﷺ حَدِيثَيْنِ قَدْ رَأَيْتُ أَحَدَهُمَا وَأَنَا أَنْتَظِرُ الْاٰخَرَ ، حَدَّثَنَا أَنَّ الْأَمَانَةَ نَزَلَتْ فِي جَذْرِ قُلُوبِ الرِّجَالِ ، ثُمَّ نَزَلَ الْقُرْاٰنُ فَعَلِمُوا مِنَ الْقُرْاٰنِ وَعَلِمُوا مِنَ السُّنَّةِ. ثُمَّ حَدَّثَنَا عَنْ رَفْعِ الْأَمَانَةِ فَقَالَ: «يَنَامُ الرَّجُلُ النَّوْمَةَ فَتُقْبَضُ الْأَمَانَةُ مِنْ قَلْبِهِ ، فَيَظَلُّ أَثَرُهَا مِثْلَ الْوَكْتِ ، ثُمَّ يَنَامُ النَّوْمَةَ فَتُقْبَضُ الْأَمَانَةُ مِنْ قَلْبِهِ ، فَيَظَلُّ أَثَرُهَا مِثْلَ أَثَرِ الْمَجْلِ كَجَمْرٍ دَحْرَجْتَهُ عَلَى رِجْلِكَ فَنَفِطَ فَتَرَاهُ مُنْتَبِرًا و لَيْسَ فِيهِ شَيْءٌ. ثُمَّ أَخَذَ حَصَاةً فَدَحْرَجَهَا عَلَى رِجْلِهِ ، فَيُصْبِحُ النَّاسُ يَتَبَايَعُونَ ، فَلاَ يَكَادُ أَحَدٌ يُؤَدِّي الْأَمَانَةَ ، حَتَّى يُقَالَ: إِنَّ فِي بَنِي فُلاَنٍ رَجُلاً أَمِينًا ، حَتَّى يُقَالَ لِلرَّجُلِ: مَا أَجْلَدَهُ مَا أَظْرَفَهُ مَا أَعْقَلَهُ! وَمَا فِي قَلْبِهِ مِثْقَالُ حَبَّةٍ مِنْ خَرْدَلٍ مِنْ إِيمَانٍ! وَلَقَدْ أَتَى عَلَيَّ زَمَانٌ وَمَا أُبَالِي أَيَّكُمْ بَايَعْتُ: لَئِنْ كَانَ مُسْلِمًا لَيَرُدَّنَّهُ عَلَيَّ دِينُهُ ، وَإِنْ كَانَ نَصْرَانِيًّا أَوْ يَهُودِيًّا لَيَرُدَّنَّهُ عَلَيَّ سَاعِيهِ. وَأَمَّا الْيَوْمَ فَمَا كُنْتُ أُبَايِعُ مِنْكُمْ إِلاَّ فُلاَنًا وَ فُلاَنًا». مُتَّفَقٌ عَلَيْهِ.

202. Hüzeyfə İbnul Yəman *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə iki hadisədən xəbər verdi. Onlardan birini gördüm, digərini isə gözləyirəm. Hz. Peyğəmbər bizə belə dedi:

"Şübhəsiz ki, əmanət insanların qəlbinin ta dərinliklərinə kök atıb yerləşdi. Sonra Quran nazil oldu. Bu sayədə insanlar Qurandan və sünnədən əmanəti öyrəndilər". Sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* əmanətin ortadan qalxmasından bəhs etdi və belə buyurdu:

"İnsan bir dəfə yatar və qəlbindən əmanət (şüuru) çəkilər, ondan bir az iz qalar. Sonra bir dəfə də yatar, yenə qəlbindən əmanət alınar. Bu dəfə də ayağının üstündə yuvarladığı qorun buraxdığı izə (suluqlanmış yaraya) bənzər iz qalar. İçində heç nə olmadığı halda sən onu qabarıq görərsən". Sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* əlinə çınqıl daşları götürüb ayağının üstündə yuvarladı. Sözünə belə davam etdi:

“Nəhayət, insan o hala gələr ki, insanlar alver edərlər, lakin demək olar ki, əmanətə riayət edəcək bir nəfər də olsun qalmaz. Hətta belə deyərlər:

“Filankəs oğulları arasında bir nəfər varmış”. Başqa biri haqqında da “nə qədər cəsur, nə qədər zərif və ağıllı adamdır” deyərlər. Halbuki qəlbində xardal dənəsi qədər iman yoxdur”.

Şübhəsiz ki, bir vaxtlar sizin hansınızla alver edəcəyimə o qədər də əhəmiyyət verməzdim. Çünki alver etdiyim adam müsəlman idisə, özünü mənim haqqımı verməyə sövq edirdi. Yox, əgər yəhudi və xristiandırsa, valisi onu mənim haqqımı verməyə sövq edərdi. Lakin bu gün yalnız sizdən bir neçə adamla alver edirəm.

Buxari, Riqaq 35, Fitən 13; Müslim, İman 230. Həmçinin bax. Tirmizi, Fitən 17; İbn Macə, Fitən 27

❁

٢٠٣ ـ عَنْ حُذَيْفَةَ وَأَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالاَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ :
«يَجْمَعُ اللَّهُ تَبَارَكَ وَتَعَالَى النَّاسَ فَيَقُومُ الْمُؤْمِنُونَ حَتَّى تُزْلَفَ لَهُمُ الْجَنَّةُ ، فَيَأْتُونَ
اٰدَمَ صَلَوَاتُ اللَّهِ عَلَيْهِ فَيَقُولُونَ: يَا أَبَانَا اسْتَفْتِحْ لَنَا الْجَنَّةَ فَيَقُولُ: وَهَلْ
أَخْرَجَكُمْ مِنَ الْجَنَّةِ إِلاَّ خَطِيئَةُ أَبِيكُمْ؟ لَسْتُ بِصَاحِبِ ذَلِكَ ، اذْهَبُوا إِلَى ابْنِي
إِبْرَاهِيمَ خَلِيلِ اللَّهِ. قَالَ فَيَأْتُونَ إِبْرَاهِيمَ فَيَقُولُ: لَسْتُ بِصَاحِبِ ذَلِكَ. إِنَّمَا كُنْتُ
خَلِيلاً مِنْ وَرَاءَ وَرَاءَ. اعْمِدُوا إِلَى مُوسَى الَّذِي كَلَّمَهُ اللَّهُ تَكْلِيمًا ، فَيَأْتُونَ
مُوسَى فَيَقُولُ: لَسْتُ بِصَاحِبِ ذَلِكَ ، اذْهَبُوا إِلَى عِيسَى كَلِمَةِ اللَّهِ وَرُوحِهِ ،
فَيَقُولُ عِيسَى : لَسْتُ بِصَاحِبِ ذَلِكَ ، فَيَأْتُونَ مُحَمَّدًا ﷺ فَيَقُومُ فَيُؤْذَنُ لَهُ ،
وَتُرْسَلُ الْأَمَانَةُ وَالرَّحِمُ ، فَيَقُومَانِ جَنْبَتَيِ الصِّرَاطِ يَمِينًا وَشِمَالاً ، فَيَمُرُّ أَوَّلُكُمْ
كَالْبَرْقِ». قُلْتُ: بِأَبِي وَأُمِّي ، أَيُّ شَيْءٍ كَمَرِّ الْبَرْقِ؟ قَالَ: «أَلَمْ تَرَوْا كَيْفَ يَمُرُّ
وَيَرْجِعُ فِي طَرْفَةِ عَيْنٍ ، ثُمَّ كَمَرِّ الرِّيحِ ، ثُمَّ كَمَرِّ الطَّيْرِ؟ وَأَشَدُّ الرِّجَالِ تَجْرِي بِهِمْ
أَعْمَالُهُمْ ، وَنَبِيُّكُمْ قَائِمٌ عَلَى الصِّرَاطِ يَقُولُ: رَبِّ سَلِّمْ سَلِّمْ ، حَتَّى تَعْجِزَ أَعْمَالُ

الْعِبَادِ ، حَتَّى يَجِيءَ الرَّجُلُ لاَ يَسْتَطِيعُ السَّيْرَ إِلاَّ زَحْفًا ، وَفِي حَافَتَى الصِّرَاطِ كَلاَلِيبُ مُعَلَّقَةٌ مَأْمُورَةٌ بِأَخْذِ مَنْ أُمِرَتْ بِهِ: فَمَخْدُوشٌ نَاجٍ ، وَمُكَرْدَسٌ فِي النَّارِ». وَالَّذِي نَفْسُ أَبِي هُرَيْرَةَ بِيَدِهِ إِنَّ قَعْرَ جَهَنَّمَ لَسَبْعُونَ خَرِيفًا. رَوَاهُ مُسْلِمٌ.

203.Hüzeyfə və Əbu Hüreyrə *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Şanı uca və ali olan Allah insanları bir yerə toplayar. Möminlər ayağa qalxarlar və cənnət onlara yaxınlaşdırılar. Adəm əleyhissalamın yanına gəlib deyərlər ki;

- Ey atamız, bizim üçün cənnətin açılmasını istə! Adəm deyər:

- Sizi cənnətdən atanızın xətasından başqa nə çıxartdı ki? Bu iş mənim görə biləcəyim iş deyil. Siz Allahın dostu olan oğlum İbrahimin yanına gedin. İbrahim əleyhissalamın yanına gedərlər, o da:

- Bu, mənim görə biləcəyim iş deyil. Mən uzaqdan-uzağa xəlil idim. Siz Allahın danışdığı Musanın yanına gedin,- deyər. Onlar Musanın yanına gedərlər. Musa onlara:

- Bu, mənim işim deyil. Siz Allahın kəlməsi və ruhu olan İsanın yanına gedin,- deyər. İsanın yanına getdikləri zaman:

- Bu iş mənim görəcəyim iş deyil,- cavabını verər. Bu zaman Muhəmməd *səllallahu əleyhi və səlləmin* yanına gedərlər. O da dərhal ayağa qalxar və ona şəfaət etmək üçün izin verilər. Əmanət və rəhim (qohumluq əlaqələri) göndərilər. Onlar sirat körpüsünün sağ və sol tərəfində durarlar. Sizin ilk qafiləniz şimşək kimi keçər. Mən:

- Atam-anam sənə fəda olsun, şimşək kimi keçmək nədir? - dedim. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Şimşəyi görməmisiniz? Göz açıb-yumana qədər bir anda keçər", -** buyurdu. **Sonrakılar külək kimi, quş kimi, qaçaraq gəlib keçərlər. Onları əməlləri belə sürətli keçirər. Peyğəmbərimiz siratın üstündə dayanıb belə deyər:**

- "Ey Rəbbim, salamat et, salamat et".

Nəticədə qulların əməlləri onları siratdan keçirməkdən aciz qalar. Hətta yeriməyə gücü çatmayan bir nəfər oturacağı üstündə sü-

rünərək gələr. Siratın iki tərəfində əmr olunanı yaxalamaq üçün hazır vəziyyətdə asılmış qarmaqlar vardır. Bəziləri yaralanmış halda xilas olar, bəziləri isə cəhənnəmə yuvarlanarlar".

Əbu Hüreyrənin nəfsi əlində olan Allaha and içirəm ki, cəhənnəmin dibi yetmiş illik məsafə dərinliyindədir.

Müslim, İman 329

❁

٢٠٤. عَنْ أَبِي خُبَيْبٍ «بِضَمِّ الْخَاءِ الْمُعْجَمَةِ» عَبْدِ اللَّهِ بْنِ الزُّبَيْرِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: لَمَّا وَقَفَ الزُّبَيْرُ يَوْمَ الْجَمَلِ دَعَانِي فَقُمْتُ إِلَى جَنْبِهِ ، فَقَالَ: يَا بُنَيَّ، إِنَّهُ لاَ يُقْتَلُ الْيَوْمَ إِلاَّ ظَالِمٌ أَوْ مَظْلُومٌ ، وَإِنِّي لاَ أُرَانِي إِلاَّ سَأُقْتَلُ الْيَوْمَ مَظْلُومًا . وإِنَّ مِنْ أَكْبَرِ هَمِّي لَدَيْنِي ، أَفَتَرَى دَيْنَنَا يُبْقِي مِنْ مَالِنَا شَيْئًا؟ ثُمَّ قَالَ: يَا بُنَيَّ ، بِعْ مَالَنَا وَاقْضِ دَيْنِي . وَأَوْصَى بِالثُّلُثِ وَثُلُثِهِ لِبَنِيهِ ، يَعْنِي : لِبَنِي عَبْدِ اللَّهِ بْنِ الزُّبَيْرِ ثُلُثُ الثُّلُثِ . قَالَ: فَإِنْ فَضَلَ مِنْ مَالِنَا بَعْدَ قَضَاءِ الدَّيْنِ شَيْءٌ فَثُلُثُهُ لِبَنِيكَ. قَالَ هِشَامٌ: وَكَانَ وَلَدُ عَبْدِ اللَّهِ قَدْ رَأَى بَعْضَ بَنِي الزُّبَيْرِ خُبَيْبٍ وَ عَبَّادٍ، وَلَهُ يَوْمَئِذٍ تِسْعَةُ بَنِينَ وَتِسْعُ بَنَاتٍ . قَالَ عَبْدُ اللَّهِ: فَجَعَلَ يُوصِينِي بِدَيْنِهِ وَيَقُولُ: يَا بُنَيَّ ، إِنْ عَجَزْتَ عَنْ شَيْءٍ مِنْهُ فَاسْتَعِنْ عَلَيْهِ بِمَوْلاَيَ . قَالَ: فَوَاللَّهِ مَا دَرَيْتُ مَا أَرَادَ حَتَّى قُلْتُ: يَا أَبَتِ ، مَنْ مَوْلاَكَ؟ قَالَ: اللَّهُ. قَالَ : مَا وَقَعْتُ فِي كُرْبَةٍ مِنْ دَيْنِهِ إِلاَّ قُلْتُ: يَامَوْلَى الزُّبَيْرِ ، اقْضِ عَنْهُ دَيْنَهُ ، فَيَقْضِيهُ. قَالَ: فَقُتِلَ الزُّبَيْرُ وَلَمْ يَدَعْ دِينَارًا وَلاَ دِرْهَماً إِلاَّ أَرَضِينَ: مِنْهَا الْغَابَةُ وَإِحْدَى عَشْرَةَ دَارًا بِالْمَدِينَةِ ، وَدَارَيْنِ بِالْبَصْرَةِ، وَدَارًا بِالْكُوفَةِ ، وَدَارًا بِمِصْرَ ، قَالَ: وَإِنَّمَا كَانَ دَيْنُهُ الَّذِي كَانَ عَلَيْهِ أَنَّ الرَّجُلَ كَانَ يَأْتِيهِ فَيَسْتَوْدِعُهُ إِيَّاهُ، فَيَقُولُ الزُّبَيْرُ: لاَ، وَلَكِنْ هُوَ سَلَفٌ ، إِنِّي أَخْشَى عَلَيْهِ الضَّيْعَةَ ، وَمَا وَلِيَ إِمَارَةً قَطُّ وَلاَ جِبَايَةً وَلاَ شَيْئًا إِلاَّ

أَنْ يَكُونَ فِي غَـزْوٍ مَعَ رَسُـولِ اللَّهِ ﷺ أَوْ مَعَ أَبِي بَكْرٍ وَعُمَـرَ وَعُثْمَانَ رَضِيَ اللَّهُ عَنْهُمْ. قَـالَ عَبْدُ اللَّهِ: فَحَسَبْتُ مَـا كَـانَ عَلَيْهِ مِنَ الدَّيْـنِ ، فَوَجَـدْتُهُ أَلْفَيْ أَلْفٍ وَمِئَتَيْ أَلْفٍ! فَلَقِيَ حَكِيمُ بْنُ حِـزَامٍ عَبْدَ اللَّهِ بْنِ الزُّبَيْرِ فَقَـالَ: يَا ابْنَ أَخِي ، كَمْ عَلَى أَخِي مِنَ الدَّيْنِ؟ فَكَتَمْتُـهُ وَقُلْـتُ: مِئَةُ أَلْفٍ . فَقَـالَ حَكِيمٌ: وَاللَّهِ مَـا أَرَى أَمْوَالَكُمْ تَسَعُ هَذِهِ . فَقَالَ عَبْدُ اللَّهِ: أَرَأَيْتُكَ إِنْ كَانَتْ أَلْفَيْ أَلْفٍ؟ وَمِئَتَيْ أَلْفٍ؟ قَـالَ: مَا أَرَاكُـمْ تُطِيقُونَ هَذَا ؛ فَإِنْ عَجَـزْتُمْ عَنْ شَيْءٍ مِنْهُ فَـاسْتَعِينُوا بِي. قَـالَ: وَكَانَ الزُّبَيْرُ قَـدِ اشْتَرَى الْغَابَةَ بِسَبْعِينَ وَمِئَةِ أَلْفٍ ، فَبَاعَهَـا عَبْدُ اللَّهِ بِأَلْفِ أَلْفٍ وَسِتِّ مِئَةِ أَلْفٍ ، ثُمَّ قَـامَ فَقَـالَ: مَنْ كَانَ لَهُ عَلَى الزُّبَيْرِ شَيْءٌ فَلْيُـوَافِنَا بِالْغَـابَةِ ، فَأَتَاهُ عَبْدُ اللَّهِ بْنُ جَعْفَـرٍ ، وَكَانَ لَهُ عَلَى الزُّبَيْرِ أَرْبَعُ مِئَةِ أَلْفٍ ، فَقَـالَ لِعَبْدِ اللَّهِ : إِنْ شِئْتُمْ تَرَكْتُهَـا لَكُـمْ؟ قَـالَ عَبْـدُ اللَّهِ: لاَ ، قَـالَ: فَـإِنْ شِئْتُمْ جَعَلْتُمُـوهَا فِيمَا تُؤَخِّرُونَ إِنْ أَخَّرْتُمْ. فَقَالَ عَبْدُ اللَّهِ: لاَ ، قَالَ: فَاقْطَعُوا لِي قِطْعَةً ، قَالَ عَبْدُ اللَّهِ: لَكَ مِنْ هٰهُنَا إِلَى هٰهُنَا. فَبَاعَ عَبْـدُ اللَّهِ مِنْهَا فَقَضَى عَنْهُ دَيْنَهُ ، وَأَوْفَـاهُ وَبَقِيَ مِنْهَا أَرْبَعَـةُ أَسْهُمٍ وَنِصْفٌ ، فَقَـدِمَ عَلَى مُعَـاوِيَـةَ وَعِنْدَهُ عَمْـرُو بْنُ عُثْمَانَ وَالْمُنْذِرُ بْنُ الزُّبَيْرِ وَابْنُ زَمْعَـةَ ، فَقَـالَ لَهُ مُعَاوِيَةُ: كَمْ قُـوِّمَتِ الْغَـابَةُ؟ قَـالَ: كُلُّ سَهْمٍ بِمِئَةِ أَلْفٍ. قَالَ: كَمْ بَقِيَ مِنْهَا؟ قَالَ: أَرْبَعَةُ أَسْهُمٍ وَنِصْفٌ. فَقَالَ الْمُنْذِرُ بْنُ الزُّبَيْرِ: قَدْ أَخَذْتُ مِنْهَا سَهْمًا بِمِئَةِ أَلْفٍ ، وَقَالَ عَمْرُو بْنُ عُثْمَانَ: قَدْ أَخَذْتُ مِنْهَا سَهْمًا بِمِئَةِ أَلْفٍ. وَقَالَ ابْنُ زَمْعَةَ: قَدْ أَخَذْتُ سَهْمًا بِمِئَةِ أَلْفٍ. فَقَالَ مُعَاوِيَةُ: كَمْ بَقِيَ مِنْهَا؟ قَالَ: سَهْمٌ وَنِصْفُ سَهْمٍ. قَالَ: قَدْ أَخَـذْتُهُ بِخَمْسِينَ وَمِئَةِ أَلْفٍ. قَالَ: وَبَاعَ عَبْدُ اللَّهِ بْنُ جَعْفَـرٍ نَصِيبَـهُ مِنْ مُعَـاوِيَةَ بِستِّ مِئَةِ أَلْفٍ. فَلَمَّا فَـرَغَ ابْنُ الزُّبَيْرِ مِنْ قَضَـاءِ دَيْنِهِ قَـالَ بَنُو الزُّبَيْرِ: اقْسِمْ بَيْنَنَا مِيرَاثَنَا. قَـالَ: وَاللَّهِ لاَ أَقْسِمُ بَيْنَكُمْ حَتَّى

أُنَادِيَ بِالْمَوْسِمِ أَرْبَعَ سِنِينَ : أَلاَ مَنْ كَانَ لَهُ عَلَى الزُّبَيْرِ دَيْنٌ فَلْيَأْتِنَا فَلْنَقْضِهِ. جَعَلَ كُلَّ سَنَةٍ يُنَادِي فِي الْمَوْسِمِ ، فَلَمَّا مَضَى أَرْبَعُ سِنِينَ قَسَمَ بَيْنَهُمْ ، وَدَفَعَ الثُّلُثَ. وَكَانَ لِلزُّبَيْرِ أَرْبَعُ نِسْوَةٍ ، فَأَصَابَ كُلَّ امْرَأَةٍ أَلْفُ أَلْفٍ وَمِئَتَا أَلْفٍ ، فَجَمِيعُ مَالِهِ خَمْسُونَ أَلْفَ أَلْفٍ وَمِئَتَا أَلْفٍ . رَوَاهُ الْبُخَارِيُّ .

204. Əbu Hübeyb Abdullah bin Zübeyr *radiyallahu anhumə* belə dedi:

Cəməl müharibəsi günü döyüş səngidiyi zaman (atam) Zübeyr məni çağırdı. Mən də dərhal ayağa qalxıb yanına getdim, dedi ki:

- Oğlum, bu gün öldürülənlər ya zalım, ya da məzlumdurlar. Mənə gəldikdə isə, bu gün məzlum olaraq öldürüləcəyim qənaətindəyəm. Fikir etdiyim ən böyük şeylərdən biri təbii ki, borclarımdır. Nə deyirsən, borclarımızı ödəyəndən sonra malımızdan geriyə nə isə qalarmı? Sonra sözünə belə davam etdi:

- Oğlum, malımı sat, borcumu ödə.

- Malının qalanı olarsa, üçdə birini vəsiyyət etdi. Vəsiyyət etdiyi üçdə birinin də Abdullahın uşaqları olan nəvələrinə verilməsini istədi və:

- Borclar ödəndikdən sonra malımızdan nə isə qalsa, üçdə biri sənin uşaqlarına aiddir,- dedi.

Hişam deyir ki;

- Abdullahın uşaqları Zübeyr, Hübeyb və Abbad kimi uşaqlarla tay-tuş idilər. Həmin gün onun doqquz oğlu, doqquz qızı vardı.

Abdullah deyir ki:

- Elə hey borcunu vəsiyyət edir və:

- Oğlum, əgər borcumun bir hissəsini ödəməkdə acizlik çəksən, Mövlamdan yardım istə,- deyirdi. Allaha and olsun ki, mən nə demək istədiyini tam anlaya bilmədim və:

- Atacan, Mövlan kimdir? - dedim. O:

- Mövlam Allahdır,- dedi.

- Allaha and olsun ki, onun borcunu ödəməkdə çətinlik çəkdikcə:

- Ey Zübeyrin Mövlası, onun bordunu ödə deyirdim. Dərhal ödəyirdi.

Zübeyrin oğlu Abdullah sözünün davamında deyir:

Zübeyr öldürülərkən qızıl və gümüş miras qoymamışdı. Ondan sadəcə bir hissəsi Ğabə adlanan yerə düşən ərazi qalmışdı. Bir də Mədinədə on bir, Bəsrədə iki, Kufədə bir və Misirdə bir evi qalmışdı. Abdullah sözünə belə davam edir:

Atamın borca girmə səbəbi belə idi: Bir nəfər yanına gələr və ona bir əmanət vermək istəyər, atam Zübeyr isə:

- Xeyr, əmanət olmaz, amma borc qoya bilərsən. Çünki mən onun tələf olmasından qorxuram,- deyərdi.

Zübeyr ömrü boyu nə bir valilik, nə vergi yığan məmur, nə də hər hansı bir idarəçi vəzifədə çalışmadı. Sadəcə Rəsulullah *səllallahu əleyhi və səlləm*, Əbu Bəkr, Ömər və Osman ilə birlikdə cihad etmişdi.

Abdullah deyir:

Atamın borclarını hesabladım, ortaya iki milyon iki yüz minlik rəqəm çıxdı.

Hakim bin Hizam Abdullah bin Zübeyr ilə qarşılaşdı və:

- Ey qardaşım oğlu, qardaşımın nə qədər borcu var? - deyə soruşdu. Borcun məbləğini gizlətdim və:

- Yüz min,- dedim. Bu zaman Hakim:

- Allaha and olsun ki, malınızın bunu qarşılayacağını düşünmürəm. Borcları ödəməkdə çətinlik çəksəniz, deyin sizə kömək edim. Sonra ayağa qalxdı və:

- Kimin Zübeyrdə alacağı varsa, Ğabədə bizim yanımıza gəlsin,- deyə elan etdi. Bu zaman Zübeyrdən dörd yüz min alacağı olan Abdullah bin Cəfər Zübeyrin oğlu Abdullahın yanına gəldi və:

- İstəsəniz alacağımdan imtina edə bilərəm,- dedi. Abdullah:

- Xeyr,- dedi. Abdullah bin Cəfər:

- Əgər borcunuzun bir hissəsini təxirə salmaq istəsəniz, mənim alacağımı gecikdirə bilərsiniz,- dedi. Zübeyrin oğlu Abdullah:

- Xeyr, bunu da istəmirik, - dedikdə Abdullah bin Cəfər:

Elə isə ərazinin bir hissəsini mənə ayırın,- dedi. Abdullah bin Zübeyr də:

- Buradan buraya qədər olan ərazi sənin olsun,- dedi.

Abdullah qalan ərazinin bir hissəsini də satdı. Atası Zübeyrin qalan bütün borclarını ödəyib qurtardı. Ərazidən dörd yarım (4,5) səhm qalmışdı.Abdullah Müaviyənin hüzuruna getdi. Amr bin Osman, Münzir bin Zübeyr və İbn Zəma da orada idi. Müaviyə Abdullah bin Zübeyrdən:

- Ğabəyə nə qədər qiymət qoyuldu? - deyə soruşdu. Abdullah:

- Hər səhmə yüz min,- dedi. Müaviyə:

- Nə qədər səhm qaldı? - dedi. Abdullah:

- Dörd yarım,- cavabını verdi. Bu zaman Munzir bin Zübeyr:

- Səhmlərdən birini yüz minə aldım,- dedi. Amr bin Osman:

- Bir səhmi də mən yüz minə aldım,- dedi. İbn Zəma:

- Bir səhmini də mən yüz minə aldım,- dedi. Müaviyə:

- İndi geriyə nə qədər qaldı? - deyə soruşdu. Abdullah bin Zübeyr:

- Bir yarım,- dedi. Müaviyə:

- Geri qalan səhmi də yüz əlli minə mən aldım,- dedi. Abdullah bin Cəfər öz hissəsini altı yüz minə Müaviyəyə satdı.

Abdullah bin Zübeyr atasının borclarını ödəyib qurtardıqdan sonra Zübeyrin digər uşaqları Abdullaha:

- Mirasımızı aramızda böl,- dedilər. Abdullah:

- Allaha and olsun ki, dörd il həcc mövsümündə:

Kimin Zübeyrdə alacağı varsa, yanımıza gəlsin, borcunu ödəyək,- deyə elan etmədikcə Zübeyrin mirasını bölüşdürməyəcəyəm,- dedi. Dörd il bu cür elan etdi. Dörd ildən sonra mirası bölüşdürdü və (atası Zübeyrin vəsiyyəti olan) üçdə birini ayırdı. Zübeyrin dörd həyat yoldaşı vardı. Onların hər birinə bir milyon iki yüz min düşdü. Buna görə Zübeyrin bütün malı əlli milyon iki yüz min edirdi.

Buxari, Fərzul-xumus 13

ZÜLM

ZÜLMÜN HARAM OLMASI VƏ HAQSIZ ƏLDƏ EDİLƏN ŞEYLƏRİ GERİ QAYTARMAĞIN ZƏRURİLİYİ

Ayələr

مَا لِلظَّالِمِينَ مِنْ حَمِيمٍ وَلاَ شَفِيعٍ يُطَاعُ.

1. "(O gün) **zalımların nə bir dostu, nə də sözü keçən bir şəfaətçisi olar!"**

(əl-Ğafir, 18)

وَمَا لِلظَّالِمِينَ مِنْ نَصِيرٍ.

2. "Zalımlara heç bir yardım edən olmaz!"

(əl-Həcc, 71)

Hədislər

٢٠٥ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «اتَّقُوا الظُّلْمَ فَإِنَّ الظُّلْمَ ظُلُمَاتٌ يَوْمَ الْقِيَامَةِ ، وَاتَّقُوا الشُّحَّ فَإِنَّ الشُّحَّ أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ: حَمَلَهُمْ عَلَى أَنْ سَفَكُوا دِمَاءَهُمْ وَاسْتَحَلُّوا مَحَارِمَهُمْ» . رَوَاهُ مُسْلِمٌ .

205. Cabir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Zülmdən uzaq durun. Çünki zülm qiyamət günü zalıma qatı qaranlıq olacaq. Xəsislikdən də uzaq olun. Çünki xəsislik sizdən əvvəlki ümmətləri həlak etmiş, onları haqsız yerə bir-birinin qanını tökməyə, haramları halal saymağa sövq etmişdir".

Müslim, Birr 56

٢٠٦ ـ عَنْ أَبِي هُرَيْـرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُـولَ اللَّهِ ﷺ قَـالَ: «لَتُـؤَدَّنَّ الْحُقُوقُ إِلَى أَهْلِهَا يَوْمَ الْقِيَامَةِ حَتَّى يُقَادَ لِلشَّاةِ الْجَلْحَاءِ مِنَ الشَّاةِ الْقَرْنَاءِ». رَوَاهُ مُسْلِمٌ.

206. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qiyamət günündə haqlar mütləq sahiblərinə qaytarılacaqdır. Hətta buynuzsuz qoyunun haqqı buynuzlu qoyundan qisas yolu ilə alınacaqdır".

Müslim, Birr 60. Həmçinin bax. Tirmizi, Qiyamət 2

❁

٢٠٧ ـ عَنِ ابْنِ عُمَـرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كُنَّا نَتَحَدَّثُ عَـنْ حَجَّةِ الْوَدَاعِ، والنَّبِيُّ ﷺ بَيْنَ أَظْهُـرِنَا وَلاَ نَدْرِي مَا حَجَّـةُ الْوَدَاعِ، حَتَّى حَمِدَ اللَّهَ رَسُـولُ اللَّهِ ﷺ وَأَثْنَى عَلَيْـهِ، ثُمَّ ذَكَرَ الْمَسِيحَ الدَّجَّـالَ، فَأَطْنَبَ فِي ذِكْـرِهِ وَقَالَ: «مَـا بَعَثَ اللَّهُ مِنْ نَبِيٍّ إِلاَّ أَنْذَرَهُ أُمَّتَـهُ، نُوحٌ وَالنَّبِيُّـونَ مِنْ بَعْـدِهِ، وَإِنَّهُ إِنْ يَخْرُجْ فِيكُمْ فَمَا خَفِيَ عَلَيْكُمْ مِنْ شَأْنِهِ فَلَيْسَ يَخْفَى عَلَيْكُمْ. إِنَّ رَبَّكُـمْ لَيْسَ بِأَعْوَرَ، وَإِنَّهُ أَعْـوَرُ عَيْنِ الْيُمْنَى، كَأَنَّ عَيْنَهُ عِنَبَةٌ طَافِيَةٌ! أَلاَ إِنَّ اللَّهَ حَـرَّمَ عَلَيْكُمْ دِمَاءَكُـمْ وَأَمْوَالَكُمْ كَحُرْمَةِ يَوْمِكُمْ هَذَا فِي شَهْرِكُمْ هَذَا، أَلاَ هَلْ بَلَّغْتُ؟» قَالُوا: نَعَمْ. قَالَ: «اللَّهُمَّ اشْهَـدْ» ثَلاَثًا. «وَيْلَكُمْ أَوْ وَيْحَكُـمْ، انْظُرُوا: لاَ تَرْجِعُـوا بَعْـدِي كُفَّـارًا يَضْرِبُ بَعْضُكُمْ رِقَابَ بَعْضٍ». رَوَاهُ الْبُخَارِيُّ.

207. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* aramızda ikən Vida Həcci haqqında danışırdıq, amma Vida Həccinin nə olduğunu bilmirdik. Nəhayət, Rəsulullah *səllallahu əleyhi və səlləm* Allaha həmd-səna etdi, sonra Dəccaldan bəhs edərək onun haqqında uzun-uzadı məlumat verdi. Belə buyurdu:

“Allah-Təalanın göndərdiyi hər bir peyğəmbər ümmətinə Dəccal haqda xəbərdarlıq etmişdir. Nuh və ondan sonrakı peyğəmbərlər ümmətlərinə bu haqda xəbər verib onları qorxutdular. Şübhəsiz ki, o, sizin aranızdan çıxarsa, onun daha əvvəl gizli qalan halı artıq sizə gizli qalmaz. Rəbbinizin bir gözünün kor olmadığı nə sizə gizlidir, nə də bu barədə məlumatsızsınız. Halbuki Dəccalın sağ gözü kordur, salxımından çölə çıxmış üzüm giləsinə bənzəyir. Ayıq-sayıq olun. Allah-Təala bir-birinizin qanlarını və mallarını bu ayınızda bugününüzü haram qıldığı kimi sizə haram qılmışdır. Diqqət edin, sizə təbliğ etdimmi?

Əshabi-kiram:

- Bəli, təbliğ etdin,- dedi. Peyğəmbərimiz:

- **“Allahım, şahid ol”, -** deyərək üç dəfə təkrarladı. Sonra da:

“Halınız pərişan olar, diqqət edin, məndən sonra bir-birinizin boynunu vuraraq kafirlərə bənzəməyin”, - buyurdu”.

Buxari, Məğazi 77. Bir hissəsi üçün bax. Müslim, İman 274, Fitən 100

❁

٢٠٨ ـ عَنْ عَائِشَـةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَـالَ: «مَنْ ظَلَمَ قِيدَ شِبْرٍ مِنَ الْأَرْضِ طُوِّقَهُ مِنْ سَبْعِ أَرَضِينَ» . مُتَّفَقٌ عَلَيْهِ .

208. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Kim bir qarış yeri haqsız yerə əldə edərsə, həmin yerin yeddi qatı boynuna keçirilər”.

Buxari, Məzali 13, Bədul-xalq 2; Müslim, Müsaqat 139-142. Həmçinin bax. Tirmizi, Diyət 21

❁

٢٠٩ ـ عَنْ أَبِي مُـوسَى رَضِيَ اللَّهُ عَنْهُ قَـالَ: قَالَ رَسُـولُ اللَّهِ ﷺ :«إِنَّ اللَّهَ لَيُمْلِي لِلظَّالِمِ فَإِذَا أَخَذَهُ لَمْ يُفْلِتْـهُ» ، ثُمَّ قَرَأَ: ﴿وَكَذَلِكَ أَخْذُ رَبِّـكَ إِذَا أَخَذَ الْقُرَى وَهِيَ ظَالِمَةٌ إِنَّ أَخْذَهُ أَلِيمٌ شَدِيدٌ﴾. مُتَّفَقٌ عَلَيْهِ .

209. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Şübhəsiz ki, Allah zalıma möhlət verər. Onu yaxaladığı zaman isə qaçmağa fürsət verməz". Sonra bu ayeyi-kəriməni oxudu:

"Rəbbin zülmkar məmləkətləri əzabla yaxalayanda belə yaxalayar. Onun cəzası, doğrudan da, ağrılı-acılıdır, şiddətlidir!"(Hud, 102)

Buxari, Təfsir (11), 5; Müslim, Birr 61. Həmçinin bax. Tirmizi, Təfsiru-surə (11); İbn Macə, Fitən 22

❁

٢١٠ ـ عَنْ مُعَـاذٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: بَعَثَنِـي رَسُولُ اللَّهِ ﷺ فَقَـالَ: «إِنَّكَ تَأْتِي قَـوْمًا مِنْ أَهْلِ الْكِتَـابِ فَـادْعُهُمْ إِلَى شَهَادَةِ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنِّي رَسُـولُ اللَّهِ، فَإِنْ هُـمْ أَطَاعُوا لِذَلِـكَ فَأَعْلِمْهُمْ أَنَّ اللَّهَ قَدِ افْتَرَضَ عَلَيْهِمْ خَمْسَ صَلَوَاتٍ فِي كُلِّ يَوْمٍ وَلَيْلَةٍ ، فَإِنْ هُـمْ أَطَـاعُوا لِـذَلِكَ فَأَعْلِمْهُمْ أَنَّ اللَّهَ قَـدِ افْتَرَضَ عَلَيْهِمْ صَـدَقَةً تُؤْخَـذُ مِنْ أَغْنِيَائِهِمْ فَتُرَدُّ عَلَى فُقَـرَائِهِمْ ، فَإِنْ هُـمْ أَطَاعُـوا لِذَلِكَ فَإِيَّاكَ وَكَرَائِمَ أَمْوَالِهِمْ. وَاتَّقِ دَعْوَةَ الْمَظْلُومِ ، فَإِنَّهُ لَيْسَ بَيْنَهَا وَبَيْنَ اللَّهِ حِجَابٌ». مُتَّفَقٌ عَلَيْهِ .

210. Muaz *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* məni (Yəmənə idarəçi) göndərdi və belə buyurdu:

"Kitab əhli olan bir topluma gedirsən. Onları Allahdan başqa ilah olmadığına və mənim Allahın Rəsulu olduğuma şahidlik etməyə dəvət et. Əgər bu dəvətə qulaq verib itaət etsələr, Allahın onlara bir gün və gecə ərzində beş vaxt namazı fərz qıldığını bildir. Əgər buna da riayət etsələr, Allah-Təalanın varlılarından alınıb kasıblarına verilmək şərti ilə onlara zəkatı mütləq şəkildə fərz qıldığını bildir. Buna da riayət edəcəkləri təqdirdə mallarının ən gözəgəlimli və qiymətli olanlarını almaqdan çəkin. Məzlumun bədduasını almaqdan da son dərəcə ehtiyat et. Çünki onun bədduası ilə Allah arasında heç bir pərdə yoxdur".

Buxari, Zəkat 41, 63, Məğazi 60, Tövhid 1; Müslim, İman 29, 31. Həmçinin bax. Əbu Davud, Zəkat 5; Tirmizi, Zəkat 6; Nəsai, Zəkat 46; İbn Macə, Zəkat 1

❁

٢١١ ـ عَنْ أَبِي حُمَيْدٍ عَبْدِ الرَّحْمَنِ بْنِ سَعْدِ السَّاعِدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: اسْتَعْمَلَ النَّبِيُّ ﷺ رَجُلاً مِنَ الْأَزْدِ يُقَالُ لَهُ ابْنُ اللُّتْبِيَّةِ عَلَى الصَّدَقَةِ ، فَلَمَّا قَدِمَ قَالَ: هَذَا لَكُمْ وَهَذَا أُهْدِيَ إِلَيَّ ، فَقَامَ رَسُولُ اللَّهِ ﷺ عَلَى الْمِنْبَرِ فَحَمِدَ اللَّهَ وَأَثْنَى عَلَيْهِ ، ثُمَّ قَالَ: «أَمَّا بَعْدُ ، فَإِنِّي أَسْتَعْمِلُ الرَّجُلَ مِنْكُمْ عَلَى الْعَمَلِ مِمَّا وَلاَّنِي اللَّهُ ، فَيَأْتِي فَيَقُولُ: هَذَا لَكُمْ وَهَذَا هَدِيَّةٌ أُهْدِيَتْ إِلَيَّ! أَفَلاَ جَلَسَ فِي بَيْتِ أَبِيهِ أَوْ أُمِّهِ حَتَّى تَأْتِيَهُ هَدِيَّتُهُ إِنْ كَانَ صَادِقًا؟ وَاللَّهِ لاَ يَأْخُذُ أَحَدٌ مِنْكُمْ شَيْئًا بِغَيْرِ حَقِّهِ إِلاَّ لَقِيَ اللَّهَ تَعَالَى يَحْمِلُهُ يَوْمَ الْقِيَامَةِ! فَلاَ أَعْرِفَنَّ أَحَدًا مِنْكُمْ لَقِيَ اللَّهَ يَحْمِلُ بَعِيرًا لَهُ رُغَاءٌ أَوْ بَقَرَةً لَهَا خُوَارٌ أَوْ شَاةً تَيْعَرُ». ثُمَّ رَفَعَ يَدَيْهِ حَتَّى رُئِيَ بَيَاضُ إِبْطَيْهِ ، فَقَالَ: «اللَّهُمَّ هَلْ بَلَّغْتُ؟» . مُتَّفَقٌ عَلَيْهِ.

211. Əbu Humeyd Əbdürrəhman İbn əs-Səidi *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Əzd qəbiləsindən İbn Lütbiyyə adlı bir nəfəri zəkat yığmaqla vəzifələndirmişdi. Həmin adam vəzifəsini icra edib Rəsulullahın hüzuruna gələndə:

- Bu mallar sizindir, bunlar da mənə hədiyyə verildi,- dedi. Bunun üzərinə Rəsulullah *səllallahu əleyhi və səlləm* minbərdən ayağa qalxdı və Allaha həmd-səna etdikdən sonra belə buyurdu:

"Sizə deyəcəklərimə gəldikdə: Allah-Təalanın mənim idarəmə verdiyi işlərdən birində sizdən birinə vəzifə verirəm. Sonra həmin adam yanıma qayıdıb deyir ki:

- Bunlar sizə aid olanlardır, bunlar da mənə hədiyyə edildi.

Əgər həmin adam sözündə doğrudursa, atasının və ya anasının evində oturardı, hədiyyəsi ayağına gələrdi. Allaha and olsun ki, siz-

dən biri haqsız yerə bir şey götürərsə, qiyamət günü götürdüyü həmin şeylə yüklənmiş vəziyyətdə Allahın hüzuruna çıxar. Mən hər hansı biriniz Allahın hüzuruna böyürən dəvə və ya inək, yaxud da mələyən qoyun yüklənmiş haldamı çıxacaqdəqiq bilmirəm".

Sonra Rəsulullah əllərini qoltuqlarının altı görünəcək qədər yuxarı qaldırıb:

"Allahım, təbliğ etdimmi?" - buyurdu.

Buxari, Hiyəl 15, Zəkat 3, Hibə 17, Cihad 189, Əyman 3, Əhkam 24; Müslim, İmarə 26-27. Həmçinin bax. Əbu Davud, İmarə 11; Nəsai, Zəkat 6

❁

٢١٢ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ كَانَتْ عِنْدَهُ مَظْلِمَةٌ لِأَخِيهِ مِنْ عِرْضِهِ ، أَوْ مِنْ شَيْءٍ ، فَلْيَتَحَلَّلْهُ مِنْهُ الْيَوْمَ قَبْلَ أَلاَّ يَكُونَ دِينَارٌ وَلاَ دِرْهَمٌ: إِنْ كَانَ لَهُ عَمَلٌ صَالِحٌ أُخِذَ مِنْهُ بِقَدْرِ مَظْلِمَتِهِ ، وَإِنْ لَمْ يَكُنْ لَهُ حَسَنَاتٌ أُخِذَ مِنْ سَيِّئَاتِ صَاحِبِهِ فَحُمِلَ عَلَيْهِ». رَوَاهُ الْبُخَارِيُّ .

212. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kimin üzərində din qardaşının namusu və ya malı ilə bağlı bir zülm varsa qızıl və gümüşün olmayacağı qiyamət günü gəlməmişdən onunla halallaşsın. Yoxsa saleh əməlləri varsa, etdiyi zülm miqdarında savablarından alınar (haqq sahibinə verilər). Əgər yaxşı əməlləri yoxdursa, zülm etdiyi qardaşının günahlarından alınaraqonun üzərinə yüklənər".

Buxari, Məzalim 10, Riqaq 48

❁

٢١٣ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْمُسْلِمُ مَنْ سَلِمَ الْمُسْلِمُونَ مِنْ لِسَانِهِ وَيَدِهِ ، وَالْمُهَاجِرُ مَنْ هَجَرَ مَا نَهَى اللَّهُ عَنْهُ» . مُتَّفَقٌ عَلَيْهِ .

213. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Müsəlman dilindən və əlindən müsəlmanların zərər görmədiyi kəsdir. Əsl mühacir[19] isə Allahın qadağan etdiyi şeylərdən uzaq duran kəsdir".

Buxari, İman 4-5, Riqaq 26; Müslim, İman 64-65. Həmçinin bax. Əbu Davud, Cihad 2; Tirmizi, Qiyamət 52, İman 12; Nəsai, İman 8, 9, 11

❁

٢١٤ ـ عَنْهُ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ عَلَى ثَقَلِ النَّبِيِّ ﷺ رَجُلٌ يُقَالُ لَهُ كِرْكِرَةُ فَمَاتَ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «هُوَ فِي النَّارِ». فَذَهَبُوا يَنْظُرُونَ إِلَيْهِ فَوَجَدُوا عَبَاءَةً قَدْ غَلَّهَا . رَوَاهُ الْبُخَارِيُّ.

214. Abdullah bin Amr bin As *radiyallahu anhumə* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləmin* səfər əsnasında bəzi yükləri ilə maraqlanan Kirkirə adlı bir nəfər vardı. O, öldü. Bunun üzərinə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

"O, cəhənnəmdədir", - buyurdu.

Səhabələr gedib onun evdəki əşyalarına baxdılar və qənimət malından oğurladığı bir əba tapdılar.

Buxari, Cihad 190. Həmçinin bax. İbn Macə, Cihad 34

❁

٢١٥ ـ عَنْ أَبِي بَكْرَةَ نُفَيْعِ بْنِ الْحَارِثِ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ الزَّمَانَ قَدِ اسْتَدَارَ كَهَيْئَتِهِ يَوْمَ خَلَقَ اللَّهُ السَّمَوَاتِ وَالْأَرْضَ: السَّنَةُ اثْنَا عَشَرَ شَهْرًا مِنْهَا أَرْبَعَةٌ حُرُمٌ: ثَلَاثٌ مُتَوَالِيَاتٌ ذُو الْقَعْدَةِ وَذُو الْحِجَّةِ وَالْمُحَرَّمُ وَرَجَبُ مُضَرَ الَّذِي بَيْنَ جُمَادَى وَشَعْبَانَ ، أَيُّ شَهْرٍ هَذَا؟» قُلْنَا: اللَّهُ وَرَسُولُهُ

19. Mühacir dinin əmrlərini yerinə yetirə bilmək üçün bu imkanların olmadığı vətənini tərk edərək dinini yaşaya biləcəyi yerə köçən adama deyilir.

أَعْلَمُ ، فَسَكَتَ حَتَّى ظَنَنَّا أَنَّهُ سَيُسَمِّيهِ بِغَيْرِ اسْمِهِ ؛ قَالَ: «أَلَيْسَ ذَا الْحِجَّةِ؟» قُلْنَا: بَلَى. قَالَ: «فَأَيُّ بَلَدٍ هَذَا؟» قُلْنَا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ ، فَسَكَتَ حَتَّى ظَنَنَّا أَنَّهُ سَيُسَمِّيهِ بِغَيْرِ اسْمِهِ. قَالَ: «أَلَيْسَ الْبَلْدَةَ»؟ قُلْنَا: بَلَى. قَالَ: «فَأَيُّ يَوْمٍ هَذَا؟» قُلْنَا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ ، فَسَكَتَ حَتَّى ظَنَنَّا أَنَّهُ سَيُسَمِّيهِ بِغَيْرِ اسْمِهِ . فَقَالَ: «أَلَيْسَ يَوْمَ النَّحْرِ»؟ قُلْنَا: بَلَى. قَالَ: «فَإِنَّ دِمَاءَكُمْ وَأَمْوَالَكُمْ وَأَعْرَاضَكُمْ عَلَيْكُمْ حَرَامٌ كَحُرْمَةِ يَوْمِكُمْ هَذَا فِي بَلَدِكُمْ هَذَا فِي شَهْرِكُمْ هَذَا. وَسَتَلْقَوْنَ رَبَّكُمْ فَيَسْأَلُكُمْ عَنْ أَعْمَالِكُمْ. أَلاَ فَلاَ تَرْجِعُوا بَعْدِي كُفَّارًا يَضْرِبُ بَعْضُكُمْ رِقَابَ بَعْضٍ ، أَلاَ لِيُبَلِّغِ الشَّاهِدُ الْغَائِبَ ، فَلَعَلَّ بَعْضَ مَنْ يُبَلَّغُهُ أَنْ يَكُونَ أَوْعَى لَهُ مِنْ بَعْضِ مَنْ سَمِعَهُ» ثُمَّ قَالَ: «أَلاَ هَلْ بَلَّغْتُ»؟ قُلْنَا: نَعَمْ. قَالَ: «اللَّهُمَّ اشْهَدْ». مُتَّفَقٌ عَلَيْهِ .

215. Əbu Bəkrə Nüfey bin Haris *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Zaman Allahın göyləri və yeri yaratdığı günkü kimi dövr etməkdədir. Bir il on iki aydır. Bunlardan dördü haram aylardır. Üçü bir-birini təqib edən zilqədə, zilhiccə və məhərrəmdir. Biri isə cəmaziyəl-axir ilə şabanın arasındakı və Mudar qəbiləsinin daha çox dəyər verdiyi rəcəb ayıdır". Peyğəmbərimiz:

- **"İçində olduğumuz ay hansı aydır?" -** deyə soruşdu. Biz:

- Allah və Rəsulu daha yaxşı bilir,- dedik. Bunun üzərinə Hz. Peyğəmbər susdu. Bu sükut o qədər çəkdi ki, hətta aya başqa ad verəcəyini zənn etdik.

- **"Bu ay zilhiccə deyilmi?" -** dedi. Biz:

- Bəli,- dedik.

- **"Bu şəhər hansı şəhərdir?" -** deyə soruşdu. Biz:

- Allah və Rəsulu daha yaxşı bilir, dedik. Bunun üzərinə Hz. Peyğəmbər bir müddət susdu. Şəhərə başqa ad verəcəyini zənn etdik.

- **“Bura Bəldeyi-Həram (Məkkə) deyilmi?” -** dedi. Biz:

- Bəli,- dedik.

- **“Bu gün hansı gündür?” -** deyə soruşdu. Biz:

- Allah və Rəsulu daha yaxşı bilir,- dedik. Bir müddət susdu. Hətta o günə başqa ad verəcəyini zənn etdik.

- **“Bu gün qurban günü deyilmi?” -** dedi. Biz:

- Bəli,- cavabını verdik. Sonra Rəsulullah sözlərinə belə davam etdi:

“Şübhəsiz ki, sizin qanlarınız, mallarınız, namusunuz, şərəf və heysiyyətiniz bu gününüzün, bu şəhərinizin və bu ayınızın haram olduğu kimi bir-birinizə haram qılınmışdır. Rəbbinizə qovuşacaqsınız və o sizdən işlədiyiniz əməllərinizi soruşacaq. Əsla məndən sonra bir-birinizin boynunu vuraraq kafirlərə bənzəməyin. Diqqət edin! Burada olanlar sözlərimi olmayanlara çatdırsın. Umulur ki, sözlərimin çatdırıldığı bəzi insanlar sözümü eşidən bəzi kəslərdən daha yaxşı anlayıb qoruyarlar”. Sonra Hz. Peyğəmbər:

- **“Diqqət edin, təbliğ etdimmi?”** - deyə soruşdu. Biz:

- Bəli,- cavabını verdik. Rəsuli-Əkrəm:

- **“Allahım, şahid ol!” -** buyurdu.

Buxari, Həcc 132; Müslim, Qasamə 29

❁

٢١٦ ـ عَنْ أَبِي أُمَامَةَ إِيَاسِ بْنِ ثَعْلَبَةَ الْحَارِثِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنِ اقْتَطَعَ حَقَّ امْرِىءٍ مُسْلِمٍ بِيَمِينِهِ فَقَدْ أَوْجَبَ اللَّهُ لَهُ النَّارَ ، وَحَرَّمَ عَلَيْهِ الْجَنَّةَ». فَقَالَ رَجُلٌ: وَإِنْ كَانَ شَيْئًا يَسِيرًا يَا رَسُولَ اللَّهِ؟ فَقَالَ: «وَإِنْ قَضِيبًا مِنْ أَرَاكٍ». رَوَاهُ مُسْلِمٌ .

216. Əbu Umamə İyas bin Sələbə əl-Harisi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“And içərək bir müsəlmanın haqqını alan kəsə Allah cəhənnəmi vacib qılar, cənnəti də haram edər”.

Bir nəfər soruşdu:

- Ya Rəsulallah, əgər həmin şey kiçik və dəyərsizdirsə?

Həzrət Peyğəmbər:

“Misvak ağacından bir budaq da olsa, elədir”, - buyurdu.

Müslim, İman 218. Həmçinin bax. Nəsai, Qudat 30; İbn Macə, Əhkam 8

❁

٢١٧ ـ عَنْ عَدِيِّ بْنِ عَمِيرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنِ اسْتَعْمَلْنَاهُ مِنْكُمْ عَلَى عَمَلٍ فَكَتَمَنَا مِخْيَطًا ؛ فَمَا فَوْقَهُ كَانَ غُلُولاً يَأْتِي بِهِ يَوْمَ الْقِيَامَةِ» ! فَقَامَ إِلَيْهِ رَجُلٌ أَسْوَدُ مِنَ الْأَنْصَارِ ـ كَأَنِّي أَنْظُرُ إِلَيْهِ ـ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، اقْبَلْ عَنِّي عَمَلَكَ ، قَالَ: «وَمَالَكَ» ؟ قَالَ: سَمِعْتُكَ تَقُولُ كَذَا وَ كَذَا. قَالَ: «وَأَنَا أَقُولُ الْآنَ: مَنِ اسْتَعْمَلْنَاهُ عَلَى عَمَلٍ فَلْيَجِيءْ بِقَلِيلِهِ وَكَثِيرِهِ ، فَمَا أُوتِيَ مِنْهُ أَخَذَ ، وَمَا نُهِيَ عَنْهُ انْتَهَى» . رَوَاهُ مُسْلِمٌ .

217. Adiy bin Amirə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim:

“Mal toplamaq üçün məmur təyin etdiyimiz bir adam bizdən iynəni və ya ondan daha xırda bir şeyi gizlətsə, bu, xəyanət sayılar və qiyamət günü onu (gizlətdiyini) gətirər”.

Bu zaman ənsardan qarabuğdayı bir nəfər ayağa qalxdı. Hələ də gözümün önündədir- və belə dedi:

- Ya Rəsulallah, məni vəzifədən azad et.

Peyğəmbərimiz:

- **“Sənə nə oldu?” -** deyə soruşdu. O:

- Sənin dediklərini eşitdim,- cavabını verdi. Hz. Peyğəmbər:

- **“Mən həmin sözü yenə deyirəm: Sizdən kimi mal yığmaqla bağlı bir işə təyin etsək, o malın azını da, çoxunu da gətirsin. Vəzifəsinin əvəzində ona veriləni alsın, alması qadağan olanı isə almasın”.**

Müslim, İmarə 30. Həmçinin bax. Əbu Davud, Əqdiyyə 5

٢١٨ ـ عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَمَّا كَانَ يَوْمُ خَيْبَرَ أَقْبَلَ نَفَرٌ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ فَقَالُوا: فُلاَنٌ شَهِيدٌ ، وَفُلاَنٌ شَهِيدٌ ، حَتَّى مَرُّوا عَلَى رَجُلٍ فَقَالُوا: فُلاَنٌ شَهِيدٌ. فَقَالَ النَّبِيُّ ﷺ: «كَلاَّ ، إِنِّي رَأَيْتُهُ فِي النَّارِ فِي بُرْدَةٍ غَلَّهَا ـ أَوْ عَبَاءَةٍ ـ » . رَوَاهُ مُسْلِمٌ .

218. Ömər bin Xəttab *radiyallahu anh* belə dedi:

Xeybər Qəzvəsi günü idi. Nəbi *səllallahu əleyhi və səlləmin* əshabından bir qrup gəldi və:

- Filankəs şəhiddir, filankəs də şəhiddir,- dedilər

Sonra bir nəfərin yanından keçdilər.

- Filankəs də şəhiddir,- dedilər. Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"Xeyr, mən onu qənimətdən oğurladığı bir arxalıq -və ya əba- içində cəhənnəmdə gördüm", -** buyurdu.

Müslim, İman 182. Həmçinin bax. Darimi, Siyər 48

❁

٢١٩ ـ عَنْ أَبِي قَتَادَةَ الْحَارِثِ بْنِ رِبْعِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَامَ فِيهِمْ ، فَذَكَرَ لَهُمْ أَنَّ الْجِهَادَ فِي سَبِيلِ اللَّهِ وَالْإِيمَانَ بِاللَّهِ أَفْضَلُ الْأَعْمَالِ ، فَقَامَ رَجُلٌ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، أَرَأَيْتَ إِنْ قُتِلْتُ فِي سَبِيلِ اللَّهِ أَتُكَفَّرُ عَنِّي خَطَايَايَ؟ فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ : «نَعَمْ ، إِنْ قُتِلْتَ فِي سَبِيلِ اللَّهِ وَأَنْتَ صَابِرٌ مُحْتَسِبٌ ، مُقْبِلٌ غَيْرُ مُدْبِرٍ! ، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ : «كَيْفَ قُلْتَ»؟ قَالَ: أَرَأَيْتَ إِنْ قُتِلْتُ فِي سَبِيلِ اللَّهِ أَتُكَفَّرُ عَنِّي خَطَايَايَ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «نَعَمْ ، إِنْ قُتِلْتَ وَأَنْتَ صَابِرٌ مُحْتَسِبٌ ، مُقْبِلٌ غَيْرُ مُدْبِرٍ إِلاَّ الدَّيْنَ ، فَإِنَّ جِبْرِيلَ قَالَ لِي ذَلِكَ» . رَوَاهُ مُسْلِمٌ .

219. Əbu Qatadə Haris bin Rəbi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* əshabın arasında ayağa qalxaraq onlara əməllərin ən üstününün Allah yolunda cihad və Allaha iman olduğundan bəhs etdi. Əshabdan bir nəfər ayağa qalxaraq:

- Ya Rəsulallah, əgər mən Allah yolunda öldürülsəm, bu şəhidlik günahlarıma kəffarə olarmı? - deyə soruşdu. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Bəli, əgər səbir edərək, qarşılığını yalnız Allahdan umaraq, cəbhdən qaçmadan Allah yolunda öldürülsən, günahlarına kəffarə olar", -** buyurdu.

Sonra Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Necə demişdin?" -** deyə soruşdu. Həmin adam dedi:

- Əgər Allah yolunda öldürülsəm, bu şəhidlik günahlarıma kəffarə olarmı? - demişdim.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Bəli, əgər səbir edərək, əcrini yalnız Allahdan gözləyərək və cəbhədən qaçmadan Allah yolunda öldürülsən, günahlarına kəffarə olar. Ancaq borcların bundan müstəsnadır. Bunu mənə Cəbrayıl dedi", -** buyurdu.

Müslim, İmarə 117

❁

٢٢٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «أَتَدْرُونَ مَنِ الْمُفْلِسُ؟» قَالُوا: الْمُفْلِسُ فِينَا مَنْ لاَ دِرْهَمَ لَهُ وَلاَ مَتَاعَ. فَقَالَ: «إِنَّ الْمُفْلِسَ مِنْ أُمَّتِي مَنْ يَأْتِي يَوْمَ الْقِيَامَةِ بِصَلاَةٍ وَصِيَامٍ وَزَكَاةٍ ، وَيَأْتِي وَقَدْ شَتَمَ هَذَا ، وَقَذَفَ هَذَا ، وَأَكَلَ مَالَ هَذَا ، وَسَفَكَ دَمَ هَذَا ، وَضَرَبَ هَذَا . فَيُعْطَى هَذَا مِنْ حَسَنَاتِهِ، وَهَذَا مِنْ حَسَنَاتِهِ ، فَإِنْ فَنِيَتْ حَسَنَاتُهُ قَبْلَ أَنْ يُقْضَى مَا عَلَيْهِ أُخِذَ مِنْ خَطَايَاهُمْ، فَطُرِحَتْ عَلَيْهِ ، ثُمَّ طُرِحَ فِي النَّارِ». رَوَاهُ مُسْلِمٌ .

220. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah səllallahu əleyhi və səlləm:

"Bilirsinizmi, müflis kimdir?" - deyə soruşdu. Əshab:

- Bizə görə müflis pulu və malı olmayan kəsdir,- dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

"Şübhəsiz ki, ümmətimin müflisi qiyamət günü namaz, oruc və zəkat savabı ilə gələn, lakin buna söydüyü, ona zina iftirası atdığı, bunun malını yediyi, onun qanını tökdüyü, başqa birini döydüyü üçün yaxşılıqlarının savabı ona-buna verilən və üzərindəki haqları ödəmədən savabları bitərsə, haqq sahiblərinin günahlarını yüklənib sonra da cəhənnəmə atılan kəsdir", - buyurdu.

Müslim, Birr 59. Həmçinin bax. Tirmizi, Qiyamət 2

❁

٢٢١ ـ عَنْ أُمِّ سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّمَا أَنَا بَشَرٌ، وَإِنَّكُمْ تَخْتَصِمُونَ إِلَيَّ ، وَلَعَلَّ بَعْضَكُمْ أَنْ يَكُونَ أَلْحَنَ بِحُجَّتِهِ مِنْ بَعْضٍ ، فَأَقْضِيَ لَهُ بِنَحْوَ مَا أَسْمَعُ ، فَمَنْ قَضَيْتُ لَهُ بِحَقِّ أَخِيهِ فَإِنَّمَا أَقْطَعُ لَهُ قِطْعَةً مِنَ النَّارِ». مُتَّفَقٌ عَلَيْهِ .

221. Ümmü Sələmə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mən sadəcə olaraq bəşərəm. Siz mənə şikayətlə gəlirsiniz. Ola bilər ki, sizdən biri dəlil gətirmək xüsusunda digərinizdən daha bacarıqlı və daha yaxşı izah etmə qabiliyyətinə malik olar. Mən də qulaq asdığıma görə onun lehinə hökm verərəm. Kimin qardaşının haqqını almaq surəti ilə lehinə hökm vermişəmsə, ona cəhənnəmdən bir parça ayırmış sayılıram".

Buxari, Şəhadət 27, Hiyəl 10, Əhkam 20; Müslim, Əqdiyyə 4. Həmçinin bax. Əbu Davud, Əqdiyyə 7; Tirmizi, Əhkam 11, 18; Nəsai, Qudat 12, 33; İbn Macə, Əhkam 5

❁

٢٢٢ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «لَنْ يَزَالَ الْمُؤْمِنُ فِي فُسْحَةٍ مِنْ دِينِهِ مَا لَمْ يُصِبْ دَمًا حَرَامًا». رَوَاهُ الْبُخَارِيُّ .

222. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Haram qan tökmədikcə mömin Allahın rəhmətini ummağa davam edər".

Buxari, Diyət 1

٢٢٣ ـ عَنْ خَوْلَةَ بِنْتِ ثَامِرٍ الْأَنْصَارِيَّةِ وَهِيَ امْرَأَةُ حَمْزَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَتْ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ رِجَالاً يَتَخَوَّضُونَ فِي مَالِ اللَّهِ بِغَيْرِ حَقٍّ ، فَلَهُمُ النَّارُ يَوْمَ الْقِيَامَةِ». رَوَاهُ الْبُخَارِيُّ .

223. Həmzənin xanımı Havlə binti Samir əl-Ənsariyə *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim:

"Şübhəsiz ki, haqsız yerə Allahın malından istifadə edənlər qiyamət günü cəhənnəmlik olarlar".

Buxari, Xums 7

MÜSƏLMANLARIN TOXUNULMAZ HAQLARI

MÜSƏLMANLARIN TOXUNULMAZ HAQLARINA HÖRMƏT ETMƏK, HAQLARIN İZAHI VƏ ONLARA QARŞI ŞƏFQƏT VƏ MƏRHƏMƏTLİ OLMAĞIN ZƏRURƏTİ

Ayələr

وَمَنْ يُعَظِّمْ حُرُمَاتِ اللَّهِ فَهُوَ خَيْرٌ لَهُ عِنْدَ رَبِّهِ.

1. "Kim Allahın hörmət edilməsini əmr etdiklərinə hörmət (riayət) **etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar".**

(əl-Həcc, 30)

وَمَنْ يُعَظِّمْ شَعَائِرَ اللَّهِ فَإِنَّهَا مِنْ تَقْوَى الْقُلُوبِ.

2. "Kim Allahın nişanələrinə[20] hörmət etsə, bu (hörmət), şübhəsiz ki, qəlblərin təqvasındadır". (əl-Həcc, 32)

وَاخْفِضْ جَنَاحَكَ لِلْمُؤْمِنِينَ.

3. "Möminləri şəfqət və təvazö qanadının altına al!" (əl-Hicr, 88)

مَنْ قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الْأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا.

4. "Kim bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) **və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Kim belə bir kimsəni diriltsə** (ölümdən qurtarsa)**, o, bütün insanları diriltmiş kimi olur".**

(əl-Maidə, 32)

Hədislər

٢٢٤ ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «الْمُؤْمِنُ لِلْمُؤْمِنِ كَالْبُنْيَانِ يَشُدُّ بَعْضُهُ بَعْضًا» وَشَبَّكَ بَيْنَ أَصَابِعِهِ. مُتَّفَقٌ عَلَيْهِ .

224. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mömin digər mömin üçün bir hissəsi digərinə möhkəm keçmiş və bir-birini sıx tutan binalar kimidir".

Hz. Peyğəmbər bunu izah etmək üçün iki əlinin barmaqlarını bir-birinə keçirərək sıxdı.

Buxari, Salət 88, Məsalim 5; Müslim, Birr 65. Həmçinin bax. Tirmizi, Birr 18; Nəsai, Zəkat 67

20. Burada xüsusilə həcdə riayət ediləcək qaydalar, həcdə kəsilən qurban, həcdə ehtiramla yanaşılacaq yerlər qəsd olunur.

٢٢٥ ـ وعَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ مَرَّ فِي شَيْءٍ مِنْ مَسَاجِدِنَا أَوْ أَسْوَاقِنَا وَمَعَهُ نَبْلٌ فَلْيُمْسِكْ ، أَوْ لِيَقْبِضْ عَلَى نِصَالِها بِكَفِّهِ ، أَنْ يُصِيبَ أَحَدًا مِنَ الْمُسْلِمِينَ مِنْهَا بِشَيْءٍ» . مُتَّفَقٌ عَلَيْهِ .

225. Əbu Musa *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yanında ox olduğu halda məscidlərimizə və ya bazarımıza girən kəs müsəlmanlara zərər verməmək üçün oxunun ucundakı dəmiri əli ilə tutsun".

Buxari, Salət 66, Fitən 7; Müslim, Birr 120-124. Həmçinin bax. Əbu Davud, Cihad 65; Nəsai, Məsacid 26; İbn Macə, Ədəb 51

❁

٢٢٦ ـ عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَثَلُ الْمُؤْمِنِينَ فِي تَوَادِّهِمْ وَتَرَاحُمِهِمْ وَتَعَاطُفِهِمْ مَثَلُ الْجَسَدِ ، إِذَا اشْتَكَى مِنْهُ عُضْوٌ تَدَاعَى لَهُ سَائِرُ الْجَسَدِ بِالسَّهَرِ وَالْحُمَّى» . مُتَّفَقٌ عَلَيْهِ .

226. Numan bin Bəşir *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Möminlər bir-birilərini sevməkdə, bir-birilərinin halına acımaqda və bir-birilərini qorumaqda bir vücud kimidirlər. Vücudun bir üzvü xəstə olduğu zaman digər üzvlər də bu səbəblə yuxusuzluğa və hərarətli xəstəliyə tutulurlar".

Buxari, Ədəb 27; Müslim, Birr 66

❁

٢٢٧ ـ وعَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَبَّلَ النَّبِيُّ ﷺ الْحَسَنَ بْنَ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُمَا وَعِنْدَهُ الْأَقْرَعُ بْنُ حَابِسٍ، فَقَالَ الْأَقْرَعُ: إِنَّ لِي عَشَرَةً مِنَ الْوَلَدِ مَا قَبَّلْتُ مِنْهُمْ أَحَدًا. فَنَظَرَ إِلَيْهِ رَسُولُ اللَّهِ ﷺ فَقَالَ «مَنْ لاَ يَرْحَمْ لاَ يُرْحَمْ». مُتَّفَقٌ عَلَيْهِ .

227. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* Əli *radiyallahu anhın* oğlu Həsəni öpmüşdü. Bu zaman Əqra bin Habis də Peyğəmbərimizin yanında idi. Əqra:

- Mənim on uşağım var, onlardan heç birini öpməmişəm,- dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm* heyrətlə ona baxdı və belə buyurdu:

"Mərhəmət etməyənə mərhəmət olunmaz".

Buxari, Ədəb 18; Müslim, Fəzail 65. Həmçinin bax. Əbu Davud, Ədəb 145; Tirmizi, Birr 12

❁

٢٢٨ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ:قَدِمَ نَاسٌ مِنَ الْأَعْرَابِ عَلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالُوا: أَتُقَبِّلُونَ صِبْيَانَكُمْ؟ فَقَالَ: «نَعَمْ». قَالُوا: لَكِنَّا وَاللَّهِ مَا نُقَبِّلُ، فَقَالَ رَسُولِ اللَّهِ«أَوَ أَمْلِكُ إِنْ كَانَ اللَّهُ نَزَعَ مِنْ قُلُوبِكُمُ الرَّحْمَةَ». مُتَّفَقٌ عَلَيْهِ .

228. Aişə *radiyallahu anhə* belə dedi:

Səhrada yaşayan bədəvilərdən bir qrup Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Siz uşaqlarınızı öpürsünüz? - deyə soruşdular. Peyğəmbərimiz:

- "**Bəli", -** buyurdu. Onlar:

- Lakin Allaha and olsun ki, biz onları öpmürük,- dedilər. Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

- **"Allah sizin qəlbinizdən mərhəmət duyğusunu çıxarıb alıbsa, mən nə edə bilərəm?!"**

Buxari, Ədəb 18; müslim, Fəzail 64. Həmçinin bax. İbn Macə, Ədəb 3

❁

٢٢٩ ـ عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ لاَ يَرْحَمِ النَّاسَ لاَ يَرْحَمْهُ اللَّهُ» . مُتَّفَقٌ عَلَيْهِ .

229. Cərir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanlara mərhəmət etməyənə Allah da mərhəmət etməz".

Buxari, Ədəb 18, Tövhid 2; Müslim, Fəzail 66. Həmçinin bax. Tirmizi, Birr 16, Zöhd 48

❁

٢٣٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا صَلَّى أَحَدُكُمْ لِلنَّاسِ فَلْيُخَفِّفْ ، فَإِنَّ فِيهِمُ الضَّعِيفَ وَالسَّقِيمَ وَالْكَبِيرَ ، وَإِذَا صَلَّى أَحَدُكُمْ لِنَفْسِهِ فَلْيُطَوِّلْ مَا شَاءَ». مُتَّفَقٌ عَلَيْهِ .

230. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən biri camaata imam olduğu zaman namazı uzatmasın. Çünki onların arasında zəif, xəstə və yaşlılar var. Hər hansı biriniz təkbaşına namaz qıldığı zaman isə istədiyi qədər uzatsın".

Buxari, Elm 28, Azan 61, 62; Müslim, Salət 183-186. Həmçinin bax. Tirmizi, Salət 61; Nəsai, İmamət 35; İbn Macə, İqamə 48, 49

❁

٢٣١ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: «إِنْ كَانَ رَسُولُ اللَّهِ ﷺ لَيَدَعُ الْعَمَلَ وَهُوَ يُحِبُّ أَنْ يَعْمَلَ بِهِ خَشْيَةَ أَنْ يَعْمَلَ بِهِ النَّاسُ فَيُفْرَضَ عَلَيْهِمْ». مُتَّفَقٌ عَلَيْهِ .

231. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bir işi görməyi həddən artıq çox istədiyi halda camaatın da onu etməsindən və bu səbəblə üzərlərinə fərz qılınmasından qorxaraq onu etməkdən vaz keçərdi.

Buxari, Təhəccüd 5; Müslim, Müsafirin 77. Həmçinin bax. Əbu Davud, Tatavvu 12

٢٣٢ ـ وعَنْهَا رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: نَهَاهُمُ النَّبِيُّ ﷺ عَنِ الْوِصَالِ رَحْمَةً لَهُمْ، فَقَالُوا: إِنَّكَ تُوَاصِلُ ؟ قَالَ: «إِنِّي لَسْتُ كَهَيْئَتِكُمْ ، إِنِّي أَبِيْتُ يُطْعِمُنِي رَبِّي وَيَسْقِينِي» . مُتَّفَقٌ عَلَيْهِ .

232. Aişə *radiyallahu anhə* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* şəfqət etdiyi üçün səhabələrin iftar etmədən ard-arda oruc tutmalarını qadağan etdi. Onlar:

- Amma sən özün bunu edirsən,- dedikdə:

- **"Mən sizin kimi deyiləm. Rəbbim məni yedirib-içirmiş halda gecələyirəm", -** buyurdu.

Buxari, Savm 20, 48; Müslim, Siyam 55, 61

❁

٢٣٣ ـ وعَنْ أَبِي قَتَادَةَ الْحَارِثِ بْنِ رِبْعِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنِّي لَأَقُومُ إِلَى الصَّلاَةِ ، وَأُرِيدُ أَنْ أُطَوِّلَ فِيهَا ، فَأَسْمَعُ بُكَاءَ الصَّبِيِّ، فَأَتَجَوَّزُ فِي صَلاَتِي كَرَاهِيةَ أَنْ أَشُقَّ عَلَى أُمِّهِ» . رَوَاهُ الْبُخَارِيُّ .

233. Əbu Qatadə Haris bin Rəbi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mən uzun qılmaq arzusu ilə namaza dururam, lakin bir körpənin ağladığını eşitdikdə anasını çətin vəziyyətdə qoymamaq üçün namazı qısa kəsirəm".

Buxari, Azan 61, 163; Həmçinin bax. Əbu Davud, Salət 123; İbn Macə, İqamə 49

❁

٢٣٤ ـ عَنْ جُنْدَبِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ صَلَّى صَلاَةَ الصُّبْحِ فَهُوَ فِي ذِمَّةِ اللَّهِ ، فَلاَ يَطْلُبَنَّكُمُ اللَّهُ مِنْ ذِمَّتِهِ بِشَيْءٍ ،

فَإِنَّهُ مَنْ يَطْلُبْهُ مِنْ ذِمَّتِهِ بِشَيْءٍ يُدْرِكْهُ ، ثُمَّ يَكُبَّهُ عَلَى وَجْهِهِ فِي نَارِ جَهَنَّمَ».

رَوَاهُ مُسْلِمٌ.

234. Cündüb bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sübh namazını qılan adam Allahın himayəsindədir. Allah şəxsən himayəsində olduğu məsələdə sizi sorğulamasın. Allah himayəsindəki bir məsələyə görə sorğuya çəkdiyi adamı cəzalandırar, sonra da onu üzü üstə cəhənnəmə atar".

Müslim, Məsacid 262. Həmçinin bax. Tirmizi, Salət 51, Fitən 6; İbn Macə, Fitən 6

❁

٢٣٥ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ: لاَ يَظْلِمُهُ وَلاَ يُسْلِمُهُ. مَنْ كَانَ فِي حَاجَةِ أَخِيهِ كَانَ اللَّهُ فِي حَاجَتِهِ ، وَمَنْ فَرَّجَ عَنْ مُسْلِمٍ كُرْبَةً فَرَّجَ اللَّهُ عَنْهُ بِهَا كُرْبَةً مِنْ كُرَبِ يَوْمِ الْقِيَامَةِ ، وَمَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ» . مُتَّفَقٌ عَلَيْهِ .

235. Abdullah bin Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

"Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, haqsızlıq etməz, onu düşmənə təslim etməz. Müsəlman qardaşının ehtiyacını təmin edənin Allah ehtiyacını təmin edər. Kim bir müsəlmanı hər hansı bir dərddən qurtararsa, Allah-Təala o kimsəni qiyamət günündəki dərdlərindən birindən xilas edər. Kim bir müsəlmanın ayıb və qüsurlarını örtərsə, Allah-Təala da onun ayıb və qüsurlarını örtər".

Buxari, Məzalim 3; Müslim, Birr 58. Həmçinin bax. Əbu Davud, Ədəb 38, 60; Tirmizi, Hüdud 3, Birr 19; İbn Macə, Müqəddimə 17

❁

٢٣٦ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ ، لاَ يَخُونُهُ وَلاَ يَكْذِبُهُ وَلاَ يَخْذُلُهُ، كُلُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ حَرَامٌ: عِرْضُهُ وَمَالُهُ وَدَمُهُ . التَّقْوَى هٰهُنَا ، بِحَسْبِ امْرِىءٍ مِنَ الشَّرِّ أَنْ يَحْقِرَ أَخَاهُ الْمُسْلِمَ». رَوَاهُ التِّرْمِذِيُّ .

236. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Müsəlman müsəlmanın qardaşıdır. Ona xəyanət etməz, yalan danışmaz və köməyini əsirgəməz. Hər bir müsəlmanın digər müsəlmana namusu, malı və qanı haramdır. Təqva bax buradadır.[21] Müsəlman qardaşını xor görməsi bir adama şər olaraq kifayətdir".

Tirmizi, Birr 18

❁

٢٣٧ ـ وعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لاَ تَحَاسَدُوا وَلاَ تَنَاجَشُوا وَلاَ تَبَاغَضُوا وَلاَ تَدَابَرُوا ، وَلاَ يَبِعْ بَعْضُكُمْ عَلَى بَيْعِ بَعْضٍ ، وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا. الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ: لاَ يَظْلِمُهُ وَلاَ يَحْقِرُهُ وَلاَ يَخْذُلُهُ. التَّقْوَى هٰهُنَا ـ وَيُشِيرُ إِلَى صَدْرِهِ ثَلاَثَ مَرَّاتٍ ـ بِحَسْبِ امْرِىءٍ مِنَ الشَّرِّ أَنْ يَحْقِرَ أَخَاهُ الْمُسْلِمَ. كُلُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ حَرَامٌ: دَمُهُ وَمَالُهُ وَعِرْضُهُ» . رَوَاهُ مُسْلِمٌ .

237. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir-birinizə həsəd etməyin. Müştərini qızışdırmaq üçün almayacağınız bir malın qiymətini artırmayın. Bir-birinizə kin və nifrət bəsləməyin. Bir-birinizdən küsüb üz çevirməyin. Birinizin satışı üzərinə başqa biriniz satış etməsin. Ey Allahın qulları, beləliklə qardaş olun! Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm və haqsızlıq etməz, köməyi əsirgəməz və onu xor görməz. –Peyğəmbər üç dəfə sinəsinə

21. Hədisin bəzi rəvayətlərinə görə (Müslim, Birr 32) Həzrət Peyğəmbər "Təqva bax buradadır" deyərkən üç dəfə sinəsinə işarə etmişdir.

işarə edərək buyurdu ki- təqva bax buradadır. Müsəlman qardaşını xor görməsi bir kimsəyə şər olaraq kifayətdir. Hər bir müsəlmanın qanı, malı və namusu digərinə haramdır".

Müslim, Birr 32. Həmçnin bax. Buxari, Ədəb 57; Əbu Davud, Ədəb 47; Tirmizi, Birr 24; İbn Macə, Dua 5 (Müslimin rəvayəti xaric, digərləri Ənəs bin Malikdən gəlmişdir).

❁

٢٣٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لاَ يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى يُحِبَّ لأَخِيهِ مَا يُحِبُّ لِنَفْسِهِ». مُتَّفَقٌ عَلَيْهِ .

238. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən biri özü üçün sevib arzuladığını din qardaşı üçün də sevib arzu etmədikcə həqiqi mənada iman gətirmiş olmaz".

Buxari, İman 7; Müslim, İman 71-72. Həmçinin bax. Qiyamət 59; Nəsai, İman 19, 33; İbn Macə, Müqəddimə 9

❁

٢٣٩ ـ وعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «اُنْصُرْ أَخَاكَ ظَالِمًا أَوْ مَظْلُومًا». فَقَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ ، أَنْصُرُهُ إِذَا كَانَ مَظْلُومًا ، أَرَأَيْتَ إِنْ كَانَ ظَالِمًا ، كَيْفَ أَنْصُرُهُ؟ قَالَ: «تَحْجُزُهُ ـ أَوْ تَمْنَعُهُ ـ مِنَ الظُّلْمِ ، فَإِنَّ ذَلِكَ نَصْرُهُ». رَوَاهُ الْبُخَارِيُّ .

239. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Din qardaşın zalım da olsa, məzlum da olsa ona kömək et".

Bir nəfər:

- Ya Rəsulallah, qardaşım məzlumdursa ona kömək edim. Amma zalıma necə kömək edim, bunu izah edərdinizmi? - dedi. Peyğəmbərimiz buyurdu:

- **“Onu zülmdən çəkindirər, zülmünə mane olarsan. Əlbəttə ki, bu, ona kömək etməkdir”**.

Buxari, Məzalim 4; İkrah 7. Həmçinin bax. Tirmizi, Fitən 68

❁

٢٤٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ خَمْسٌ: رَدُّ السَّلاَمِ، وَعِيَادَةُ الْمَرِيضِ، وَاتِّبَاعُ الْجَنَائِزِ، وَإِجَابَةُ الدَّعْوَةِ، وَتَشْمِيتُ الْعَاطِسِ» . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: «حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ سِتٌّ : إِذَا لَقِيْتَهُ فَسَلِّمْ عَلَيْهِ ، وَإِذَا دَعَاكَ فَأَجِبْهُ ، وَإِذَا اسْتَنْصَحَكَ فَانْصَحْ لَهُ ، وَإِذَا عَطَسَ فَحَمِدَ اللَّهَ فَشَمِّتْهُ ، وَإِذَا مَرِضَ فَعُدْهُ ، وَإِذَا مَاتَ فَاتَّبِعْهُ».

240. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Müsəlmanın müsəlman üzərində beş haqqı var: Verilən salamı almaq, xəstəni ziyarət etmək, cənazədə iştirak etmək, dəvətə getmək, asqırana “yərhəmukəllah” demək”.

Buxari, Cənaiz 2; Müslim, Salam 4. Həmçinin bax. İbn Macə, Cənaiz 1

Müslimin başqa bir rəvayəti belədir:

“Müsəlmanın müsəlman üzərində altı haqqı var: Qarşılaşdığın zaman salam ver, səni dəvət edərsə get, səndən nəsihət istəyərsə nəsihət ver, asqıranda Allaha həmd edərsə yərhəmukəllah de, xəstələnəndə ziyarət et, öldüyü zaman cənazəsinin ardınca get”. Müslim, Salam 5

❁

٢٤١ ـ عَنْ أَبِي عُمَارَةَ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَمَرَنَا رَسُولُ اللَّهِ ﷺ بِسَبْعٍ وَنَهَانَا عَنْ سَبْعٍ: أَمَرَنَا بِعِيَادَةِ الْمَرِيضِ ، وَاتِّبَاعِ الْجَنَائِزِ ، وَتَشْمِيتِ

الْعَاطِسِ ، وَإِبْرَارِ الْمُقْسِمِ ، وَنَصْرِ الْمَظْلُومِ ، وَإِجَابَةِ الدَّاعِي ، وإِفْشَاءِ السَّلاَمِ ؛ وَنَهَانَا عَنْ خَوَاتِيمَ أَوْ تَخَتُّمٍ بِالذَّهَبِ ، وَعَنْ شُرْبٍ بِالْفِضَّةِ ، وَعَنِ الْمَيَاثِرِ الْحُمْرِ ، وعَنِ الْقَسِّيِّ ، وَعَنْ لُبْسِ الْحَرِيرِ وَالإِسْتَبْرَقِ وَالدِّيبَاجِ. مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: وَإِنْشَادِ الضَّالَّةِ فِي السَّبْعِ الأُوَلِ.

241. Əbu Umarə Bəra bin Azib *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə yeddi şeyi əmr etdi, yeddi şeyi də yasaqladı. Bizə bunları əmr etdi: xəstəni ziyarət etmək, cənazədə iştirak etmək, asqırana "yərhəmukəllah" demək, andını pozmayıb ona sadiq qalmaq, zülmə məruz qalana yardım etmək, dəvət edənin dəvətinə getmək, salamı yaymaq.

Rəsulullah bunları bizə qadağan etdi: qızıl üzüklər və ya üzük taxmaq, gümüş qabdan su içmək, ipək döşəkçədən istifadə etmək, ipəkdən hazırlanan paltar geyinmək, incə ipək geyinmək, qalın ipək geyinmək, xalis ipək parçadan paltar geyinmək.

Buxari, Cənaiz 2; Məzalim 5, Nikah 71, Əşribə 28; Müslim, Libas 3. Həmçinin bax. Tirmizi, Ədəb 45; Nəsai, Cənaiz 53

AYIBLARI ÖRTMƏK

MÜSƏLMANLARIN AYIBLARINI ÖRTMƏK VƏ MƏCBUR QALMADIQCA ORTAYA ÇIXARMAQDAN ÇƏKİNMƏK

Ayə

إِنَّ الَّذِينَ يُحِبُّونَ أَنْ تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذَابٌ أَلِيمٌ فِي الدُّنْيَا وَالآخِرَةِ.

1. "Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) **pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir".** (ən-Nur, 19)

Hədislər

٢٤٢ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لاَ يَسْتُرُ عَبْدٌ عَبْدًا فِي الدُّنْيَا إِلاَّ سَتَرَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ». رَوَاهُ مُسْلِمٌ .

242. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir qul bu dünyada başqa bir qulun ayıbını örtərsə, Allah da qiyamət günü onun ayıbını örtər".

Müslim, Birr 72. Həmçinin bax. Buxari, Məzalim 3; Əbu Davud, Ədəb 38; Tirmizi, Birr 19; İbn Macə, Müqəddimə 17

❁

٢٤٣ ـ وعَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «كُلُّ أُمَّتِي مُعَافًى إِلاَّ الْمُجَاهِرِينَ ، وإِنَّ مِنَ الْمُجَاهَرَةِ أَنْ يَعْمَلَ الرَّجُلُ بِاللَّيْلِ عَمَلاً ، ثُمَّ يُصْبِحَ وَقَدْ سَتَرَهُ اللَّهُ عَلَيْهِ ، فَيَقُولَ : يَا فُلاَنُ ، عَمِلْتُ الْبَارِحَةَ كَذَا و كَذَا ، وَقَدْ بَاتَ يَسْتُرُهُ رَبُّهُ ، وَيُصْبِحُ يَكْشِفُ سِتْرَ اللَّهِ عَلَيْهِ» . مُتَّفَقٌ عَلَيْهِ .

243. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İşlədiyi günahları açığa vuranlardan başqa bütün ümmətim əfv edilmişdir. Bir adamın gecə pis bir əməl işlədiyi və Allah da onu örtdüyü halda, səhər qalxıb:

"Ey filankəs, mən dünən gecə belə-belə etdim" deməsi açıq günahlardandır. Halbuki həmin adam Rəbbi tərəfindən pis əməli örtüldüyü halda gecələmişdi. Lakin o, Allahın örtdüyünü açaraq sabahlayır".

Buxari, Ədəb 60; Müslim, Zöhd 52

٢٤٤ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِذَا زَنَتِ الْأَمَةُ فَتَبَيَّنَ زِنَاهَا فَلْيَجْلِدْهَا الْحَدَّ وَلاَ يُثَرِّبْ عَلَيْهَا ، ثُمَّ إِنْ زَنَتِ الثَّانِيَةَ فَلْيَجْلِدْهَا الْحَدَّ وَلاَ يُثَرِّبْ عَلَيْهَا ، ثُمَّ إِنْ زَنَتِ الثَّالِثَةَ فَلْيَبِعْهَا وَلَوْ بِحَبْلٍ مِنْ شَعَرٍ». مُتَّفَقٌ عَلَيْهِ .

244. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir cariyə zina edər və zina etdiyi dəqiqləşərsə, sahibi ona həd cəzası tətbiq etsin.[22] Lakin günahını başına qaxmasın. Sonra ikinci dəfə zina edərsə, eyni şəkildə həd tətbiq etsin, amma yenə də günahını üzünə vurub pis sözlərlə qınamasın. Sonra bu cariyə üçüncü dəfə zina edərsə, artıq sahibi onu qıldan bir ip qarşılığında da olsa satsın".

Buxari, İtq 17, Hüdud, 35, 36, Büyu 66, 110; Müslim, Hüdud 30. Həmçinin bax. Əbu davud, Hüdud 32; Tirmizi, Hüdud 8; İbn Macə, Hüdud 14

❁

٢٤٥ ـ وعَنْهُ قَالَ: أُتِيَ النَّبِيُّ ﷺ بِرَجُلٍ قَدْ شَرِبَ خَمْرًا. قَالَ: «اضْرِبُوهُ». قَالَ أَبُو هُرَيْرَةَ: فَمِنَّا الضَّارِبُ بِيَدِهِ ، وَالضَّارِبُ بِنَعْلِهِ ، وَالضَّارِبُ بِثَوْبِهِ: فَلَمَّا انْصَرَفَ قَالَ بَعْضُ الْقَوْمِ : أَخْزَاكَ اللَّهُ. قَالَ: «لاَ تَقُولُوا هَكَذَا ، لاَ تُعِينُوا عَلَيْهِ الشَّيْطَانَ» . رَوَاهُ الْبُخَارِيُّ .

245. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləmin* hüzuruna şərab içmiş bir adam gətirdilər. Həzrət Peyğəmbər:

"Ona həd cəzası verin", - buyurdu. Əbu Hüreyrə deyir ki;

Bizdən əli ilə, ayaqqabısı ilə və paltarı ilə vuranlar oldu. Həd tətbiq edildikdən sonra həmin adam ayrılıb getdikdə səhabələrdən biri:

- Allah səni xəcalətli qılsın, rəzil etsin,- dedi. Bu zaman Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

22. Dövlətin onu cəzalandırmasını təmin etsin.

- "Elə deməyin, onun əleyhinə şeytana kömək etməyin", - buyurdu.

Buxari, Hüdud 4,5. Həmçinin bax. Əbu Davud, Hüdud 35

MÜSƏLMANLARIN EHTİYACINI TƏMİN ETMƏK

Ayə

وَافْعَلُوا الْخَيْرَ لَعَلَّكُمْ تُفْلِحُونَ.

1. "Xeyir əməl işləyin ki, qurtuluşa nail olasınız". (əl-Həcc, 77)

Hədislər

٢٤٦ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ ، لاَ يَظْلِمُهُ وَلاَ يُسْلِمُهُ. مَنْ كَانَ فِي حَاجَةِ أَخِيهِ كَانَ اللَّهُ فِي حَاجَتِهِ ، وَمَنْ فَرَّجَ عَنْ مُسْلِمٍ كُرْبَةً فَرَّجَ اللَّهُ عَنْهُ بِهَا كُرْبَةً مِنْ كُرَبِ يَوْمِ الْقِيَامَةِ ، وَمَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ» . مُتَّفَقٌ عَلَيْهِ .

246. Abdullah bin Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu düşmənə təslim etməz. Din qardaşının ehtiyacını təmin edənin Allah da ehtiyacını təmin edər. Müsəlmanın bir dərdinə çarə olanın Allah da qiyamət günü dərdlərindən birini həll edər. Bir müsəlmanın ayıbını örtənin Allah da qiyamət günü ayıbını örtər".

Buxari, Məzalim 3; Müslim, Birr 58. Həmçinin bax. Əbu Davud, Ədəb 38; Tirmizi, Hüdud 3, Birr 19; İbn Macə, Müqəddimə 17

٢٤٧ ـ عَنْ أَبِي هُرَيْـرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِـيِّ ﷺ قَـالَ: «مَنْ نَفَّـسَ عَنْ مُؤْمِنٍ كُـرْبَةً مِنْ كُرَبِ الدُّنْيَا نَفَّسَ اللَّـهُ عَنْهُ كُرْبَةً مِنْ كُرَبِ يَوْمِ الْقِيَـامَةِ ، وَمَنْ يَسَّرَ عَلَى مُعْسِرٍ يَسَّرَ اللَّهُ عَلَيْهِ فِي الدُّنْيَـا وَالْآخِرَةِ ، وَمَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللَّهُ فِي الدُّنْيَا وَالْآخِـرَةِ ، وَاللَّهُ فِي عَوْنِ الْعَبْدِ مَـا كَانَ الْعَبْدُ فِي عَـوْنِ أَخِيهِ. وَمَنْ سَلَكَ طَرِيقًا يَلْتَمِسُ فِيهِ عِلْمًا سَهَّلَ اللَّهُ لَهُ بِهِ طَرِيقًا إِلَى الْجَنَّةِ ، وَمَا اجْتَمَعَ قَوْمٌ فِي بَيْتٍ مِنْ بُيُـوتِ اللَّهِ تَعَالَى يَتْلُـونَ كِتَابَ اللَّهِ ، وَيَتَـدَارَسُـونَهُ بَيْنَهُمْ إِلاَّ نَزَلَتْ عَلَيْهِمُ السَّكِينَةُ ، وَ غَشِيَتْهُمُ الـرَّحْمَةُ ، وَحَفَّتْهُمُ الْمَلاَئِكَةُ ، وَذَكَـرَهُمُ اللَّـهُ فِيمَنْ عِنْدَهُ ، وَمَنْ بَطأَ بِهِ عَمَلُهُ لَمْ يُسْرِعْ بِهِ نَسَبُهُ». رَوَاهُ مُسْلِمٌ .

247. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim bir möminin dünya müşküllərindən birini həll edərsə, Allah da qiyamət günü həmin möminin problemlərindən birini aradan qaldırar. Hər kim darda qalana asanlıq göstərərsə, Allah da ona dünya və axirətdə asanlıq təmin edər. Hər kim müsəlmanın ayıbını örtərsə, Allah da onun dünya və axirətdəki ayıblarını örtər. Mömin bir qul din qardaşına yardım etdiyi müddətdə Allah da o qula yardım edər. Hər kim elm öyrənmək üçün bir yola girərsə, Allah ona cənnətin yolunu asanlaşdırar. Bir camaat Allah-Təalanın evlərindən bir evdə toplaşıb Allahın Kitabını oxuyar və aralarında onu müzakirə edər, anlayıb qavramağa çalışarlarsa, üzərlərinə səkinə enər (qəlbləri hüzura qovuşar) və onları rəhmət bürüyər. Mələklər onları əhatə edərlər, Allah-Təala da onları öz qatındakı mələklərin yanında anar. Əməlinin geridə qoyduğu adamı əsil-nəcabəti önə keçirməz".

Müslim, Zikr 38. Həmçinin bax. İbn Macə, Müqəddimə 17

ŞƏFAƏT

Ayə

مَنْ يَشْفَعْ شَفَاعَةً حَسَنَةً يَكُنْ لَهُ نَصِيبٌ مِنْهَا.

1. "Yaxşı işə vasitəçi olana (onun savabından) **bir pay düşür"**.

(ən-Nisa, 85)

Hədislər

٢٤٨ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَتَاهُ طَالِبُ حَاجَةٍ أَقْبَلَ عَلَى جُلَسَائِهِ فَقَالَ: «اشْفَعُوا تُؤْجَرُوا ، وَيَقْضِي اللّٰهُ عَلَى لِسَانِ نَبِيِّهِ مَا أَحَبَّ». مُتَّفَقٌ عَلَيْهِ .

248. Əbu Musa əl-Əşari *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına ehtiyac içində olan bir adam gələndə yanıdakılara tərəf çevrilər və:

"Bu adama kömək edin, savab qazanarsınız. Allah-Təala istədiyi şeyi Peyğəmbərinə söylədir", - buyurardı.

Buxari, Zəkat 21, Ədəb 36, 37, Tövhid 31; Müslim, Birr 145. Həmçinin bax. Əbu Davud, Ədəb 117; Tirmizi, Elm 14; Nəsai, Zəkat 65

❁

٢٤٩ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللّٰهُ عَنْهُمَا فِي قِصَّةِ بَرِيرَةَ وَزَوْجِهَا قَالَ: قَالَ لَهَا النَّبِيُّ ﷺ: «لَوْ رَاجَعْتِهِ؟» قَالَتْ : يَا رَسُولَ اللّٰهِ ، تَأْمُرُنِي؟ قَالَ: «إِنَّمَا أَشْفَعُ» قَالَتْ: لاَ حَاجَةَ لِي فِيهِ . رَوَاهُ الْبُخَارِيُّ.

249. İbn Abbas *radiyallahu anhumə* Bərirə ilə əri arasında baş verən hadisəyə dair belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* Bərirəyə:

- **"Kaş təkrar ərinin yanına qayıtsan!"** - buyurdu.

Bərirə:

- Ya Rəsulallah, belə etməyi mənə əmr edirsiniz? - deyə soruşdu.

Rəsuli-Əkrəm:

- **"Xeyr, sadəcə aranızı düzəltməyə çalışıram"**, - buyurdu.

Bərirə:

- Mənim ona ehtiyacım yoxdur,- dedi.

Buxari, Talaq 16. Həmçinin bax. Buxari, Talaq 15; Əbu Davud, Talaq 21; Nəsai, Ədəbul-qudat 28; İbn Macə, Talaq 29

İNSANLARI BARIŞDIRMAQ

Ayələr

لَا خَيْرَ فِي كَثِيرٍ مِنْ نَجْوَاهُمْ إِلاَّ مَنْ أَمَرَ بِصَدَقَةٍ أَوْ مَعْرُوفٍ أَوْ إِصْلاَحٍ بَيْنَ النَّاسِ.

1. "Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq sədəqə verməyi, yaxud yaxşılıq etməyi və ya insanlar arasında sülh yaratmağı əmr edən kimsənin söhbətindədir". (ən-Nisa, 114)

وَالصُّلْحُ خَيْرٌ.

2. "Barışmaq daha xeyirlidir". (ən-Nisa, 128)

فَاتَّقُوا اللَّهَ وَأَصْلِحُوا ذَاتَ بَيْنِكُمْ.

3. "Əgər (həqiqi) **möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin".** (əl-Ənfal, 1)

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ.

4. "Həqiqətən, möminlər (dində) **qardaşdırlar. Buna görə də** (aralarında bir mübahisə düşsə) **iki qardaşınızın arasını düzəldin".**

(əl-Hucurat, 10)

Hədislər

٢٥٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «كُلُّ سُلَامَى مِنَ النَّاسِ عَلَيْهِ صَدَقَةٌ ، كُلَّ يَوْمٍ تَطْلُعُ فِيهِ الشَّمْسُ : تَعْدِلُ بَيْنَ الْإِثْنَيْنِ صَدَقَةٌ، وَتُعِينُ الرَّجُلَ فِي دَابَّتِهِ فَتَحْمِلُهُ عَلَيْهَا أَوْ تَرْفَعُ لَهُ عَلَيْهَا مَتَاعَهُ صَدَقَةٌ ، وَالْكَلِمَةُ الطَّيِّبَةُ صَدَقَةٌ ، وَبِكُلِّ خَطْوَةٍ تَمْشِيهَا إِلَى الصَّلَاةِ صَدَقَةٌ ، وَتُمِيطُ الْأَذَى عَنِ الطَّرِيقِ صَدَقَةٌ». مُتَّفَقٌ عَلَيْهِ .

250. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanın hər bir oynaq sümüyü üçün üzərinə günəş doğan hər gün bir sədəqə vermək lazımdır.

İki nəfərin arasını düzəltməyin (haqlarında ədalətlə hökm verməyin) sədəqədir.

Miniyinə minən bir adama kömək etməyin və ya yükünü heyvanına yükləməsinə yardım etməyin sədəqədir.

Gözəl bir söz söyləmək sədəqədir.

Namaza gedərkən atdığın hər addıma bir sədəqə savabı vardır.

Gəlib-keçənləri narahat edən bir şeyi yoldan kənarlaşdırmaq sədəqədir".

Buxari, Sülh 11, Cihad 72, 128; Müslim, Zəkat 56. Həmçinin bax. Müslim, Müsafirin 84, Əbu Davud, Tatavvu 12, Ədəb 160

❁

٢٥١ ـ عَنْ أُمِّ كُلْثُومٍ بِنْتِ عُقْبَةَ بْنِ أَبِي مُعَيْطٍ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «لَيْسَ الْكَذَّابُ الَّذِي يُصْلِحُ بَيْنَ النَّاسِ ، فَيَنْمِي خَيْرًا أَوْ يَقُولُ خَيْرًا». مُتَّفَقٌ عَلَيْهِ .

وفِي رِوَايَةِ مُسْلِمٍ زِيَادَةٌ قَالَتْ: وَلَمْ أَسْمَعْهُ يُرَخِّصُ فِي شَيْءٍ مِمَّا يَقُولُهُ النَّاسُ إِلاَّ فِي ثَلاَثٍ: تَعْنِي الْحَرْبَ ، وَالإِصْلاَحَ بَيْنَ النَّاسِ ، وَحَدِيثَ الرَّجُلِ امْرَأَتَهُ ، وَحَدِيثَ الْمَرْأَةِ زَوْجَهَا.

251. Ümmü Gülsüm binti Uqbə bin Əbu Muayt *radiyallahu anhə* Rəsulullah *səllallahu əleyhi və səlləmi* belə deyərkən eşitdiyini bildirir:

"İnsanların arasını düzəltmək üçün xeyirli xəbər aparan (və ya xeyirli söz söyləyən) **kəs yalançı sayılmaz".**

Buxari, Sülh 2; Müslim, Birr 101. Həmçinin bax. Əbu Davud, Ədəb 50; Tirmizi, Birr 26

Müslimin rəvayətin də belə bir əlavə var:

Ümmü Gülsüm dedi ki, Hz. Peyğəmbər *səllallahu əleyhi və səlləmin* insanların danışdığı yalanlardan yalnız üçünə izin verdiyini eşitdim. Bunlar:

Müharibədə (düşməni aldatmaq üçün),

İki nəfəri barışdırmaq məqsədi ilə,

Ərinin arvadına, arvadın da ərinə (ailə nizamını qorumaq məqsədi ilə) söylədiyi yalandır.

❁

٢٥٢ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: سَمِعَ رَسُولُ اللَّهِ ﷺ صَوْتَ خُصُومٍ بِالْبَابِ عَالِيَةً أَصْوَاتُهُمَا ، إِذَا أَحَدُهُمَا يَسْتَوْضِعُ الآخَرَ وَيَسْتَرْفِقُهُ فِي شَيْءٍ، وَهُوَ يَقُولُ : وَاللَّهِ لاَ أَفْعَلُ ، فَخَرَجَ عَلَيْهِمَا رَسُولُ اللَّهِ ﷺ فَقَالَ: «أَيْنَ الْمُتَأَلِّي عَلَى اللَّهِ لاَ يَفْعَلُ الْمَعْرُوفَ؟». فَقَالَ: أَنَا يَا رَسُولَ اللَّهِ ، وَلَهُ أَيُّ ذَلِكَ أَحَبَّ. مُتَّفَقٌ عَلَيْهِ .

252. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bir-biri ilə xüsuməti olan iki nəfərin qapıda qışqır-bağır saldıqlarını eşitdi.

Borclu adam borc sahibindən alacağının bir hissəsini bağışlamasını və anlayış göstərməsini istəyirdi. Alacağı olan isə:

- Vallahi, etmərəm,- deyirdi.

Onların yanına çıxan Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Yaxşılıq etməməyə and içən adam hardadır?" -** deyə soruşdu.

Alacağı olan:

- Buradayam, ey Allahın Rəsulu! Necə istəyir elə olsun,- dedi.

Buxari, Sülh 10; Müslim, Müsaqat 19

❁

٢٥٣ ـ عَنْ أَبِي الْعَبَّاسِ سَهْلِ بْنِ سَعْدٍ السَّاعِدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَلَغَهُ أَنَّ بَنِي عَمْرِو بْنِ عَوْفٍ كَانَ بَيْنَهُمْ شَرٌّ ، فَخَرَجَ رَسُولُ اللَّهِ ﷺ يُصْلِحُ بَيْنَهُمْ فِي أُنَاسٍ مَعَهُ ، فَحُبِسَ رَسُولُ اللَّهِ ﷺ وَحَانَتِ الصَّلاَةُ، فَجَاءَ بِلاَلٌ إِلَى أَبِي بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا فَقَالَ: يَا أَبَا بَكْرٍ ، إِنَّ رَسُولَ اللَّهِ ﷺ قَدْ حُبِسَ، وَحَانَتِ الصَّلاَةُ ، فَهَلْ لَكَ أَنْ تَؤُمَّ النَّاسَ؟ قَالَ: نَعَمْ إِنْ شِئْتَ. فَأَقَامَ بِلاَلٌ الصَّلاَةَ ، وَتَقَدَّمَ أَبُو بَكْرٍ فَكَبَّرَ وَكَبَّرَ النَّاسُ ، وَجَاءَ رَسُولُ اللَّهِ ﷺ يَمْشِي فِي الصُّفُوفِ حَتَّى قَامَ فِي الصَّفِّ ، فَأَخَذَ النَّاسُ فِي التَّصْفِيقِ ، وَكَانَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ لاَ يَلْتَفِتُ فِي الصَّلاَةِ . فَلَمَّا أَكْثَرَ النَّاسُ التَّصْفِيقَ الْتَفَتَ ، فَإِذَا رَسُولُ اللَّهِ ﷺ ، فَأَشَارَ إِلَيْهِ رَسُولُ اللَّهِ ﷺ فَرَفَعَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ يَدَهُ ، فَحَمِدَ اللَّهَ وَرَجَعَ الْقَهْقَرَى وَرَاءَهُ حَتَّى قَامَ فِي الصَّفِّ ، فَتَقَدَّمَ رَسُولُ اللَّهِ ﷺ فَصَلَّى لِلنَّاسِ، فَلَمَّا فَرَغَ أَقْبَلَ عَلَى النَّاسِ فَقَالَ: «أَيُّهَا النَّاسُ ، مَالَكُمْ حِينَ نَابَكُمْ شَيْءٌ فِي الصَّلاَةِ أَخَذْتُمْ فِي التَّصْفِيقِ ؟ إِنَّمَا التَّصْفِيقُ لِلنِّسَاءِ . مَنْ نَابَهُ شَيْءٌ فِي صَلاَتِهِ فَلْيَقُلْ: سُبْحَانَ اللَّهِ ، فَإِنَّهُ لاَ يَسْمَعُهُ أَحَدٌ حِينَ يَقُولُ سُبْحَانَ اللَّهِ إِلاَّ

الْتَفَتَ. يَا أَبَابَكْرٍ ، مَا مَنَعَكَ أَنْ تُصَلِّيَ بِالنَّاسِ حِينَ أَشَرْتُ إِلَيْكَ؟». فَقَالَ أَبُو بَكْرٍ: مَا كَانَ يَنْبَغِي لاِبْنِ أَبِي قُحَافَةَ أَنْ يُصَلِّيَ بِالنَّاسِ بَيْنَ يَدَيْ رَسُولِ اللَّهِ ﷺ .

مُتَّفَقٌ عَلَيْهِ .

253. Əbul-Abbas Səhl bin Sad əs-Səidi *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Amr bin Əvf oğulları arasında bir dava düşdüyünü eşitdi. Onları barışdırmaq üçün bir qrup səhabə ilə birlikdə ora yollandı. Onları barışdırmaq üçün bir müddət orada qaldı.

Bu zaman namaz vaxtı gəlmişdi. Bilal Əbu Bəkr *radiyallahu anhdan*:

- Ey Əbu Bəkr, Rəsulullah *səllallahu əleyhi və səlləm* gəlib çıxmadı. Namaz vaxtı da girdi. İmamlıq edib namaz qıldırarsanmı? - deyə soruşdu.

Hz. Əbu Bəkr də:

- İstəyirsənsə, qılaq,- dedi.

Bilal azan oxudu. Əbu Bəkr önə keçib təkbir gətirdi. Müsəlmanlar da ona uydular.

Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* səflərin arasından önə keçdi.

Belə olan təqdirdə camaat (Hz. Peyğəmbərin gəldiyini imama xəbər vermək üçün) əl çırpmağa başladı.

Əbu Bəkr namaz qılarkən başını çevirib heç bir yerə baxmazdı. Camaat davamlı əl çırpdığına görə çevrilib baxmaq məcburiyyətində qaldı və Rəsulullahın yanında olduğunu gördü.

Rəsulullah *səllallahu əleyhi və səlləm* ona yerində qalması üçün işarə etdi. Lakin Əbu Bəkr əllərini qaldırıb Allaha həmd etdi və arxa səfə girənə qədər geri çəkildi. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* önə keçib namazı qıldırdı. Namaz başa çatdıqdan sonra camaata üz tutub belə dedi:

- **"Camaat, nə üçün namazda bir hadisə baş verəndə əl çırpmağa başladınız? Əl çırpmaq qadınlara məxsusdur. Namazda hər hansı (qeyri-adi) bir hadisə ilə qarşılaşan sübhanallah desin. Onun sübhanallah dediyini eşidən çevrilib baxar".**

Sonra üzünü Əbu Bəkrə tutaraq:

- **"Ey Əbu Bəkr, yerində qalmana işarə etdiyim halda nə üçün namazı qıldırmadın?" -** deyə soruşdu.

Hz. Əbu Bəkr:

- Əbu Kuhafənin oğluna Rəsulullah *səllallahu əleyhi və səlləmin* önünə keçib namaz qıldırmaq yaraşmazdı,- cavabını verdi.

Buxari, Azan 48, Aməl fis-salət 3, 16, Səhv 9, Sülh 1, Əhkam 36; Müslim, Salət 102. Həmçinin bax. Əbu Davud, Salət 169; Nəsai, İmamət 7

GÜCSÜZ MÜSƏLMANLARLA KASIBLARIN VƏ AD-SANI OLMAYANLARIN DƏYƏRİ

Ayə

وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ ، يُرِيدُونَ وَجْهَهُ ، وَلاَ تَعْدُ عَيْنَاكَ عَنْهُمْ.

"Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru). Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan (yoxsul möminlərdən) çevirmə".

(əl-Kəhf, 28)

Hədislər

٢٥٤ ـ عَنْ حَارِثَةَ بْنِ وَهْبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «أَلاَ أُخْبِرُكُمْ بِأَهْلِ الْجَنَّةِ؟ كُلُّ ضَعِيفٍ مُتَضَعَّفٍ لَوْ أَقْسَمَ عَلَى اللَّهِ لَأَبَرَّهُ أَلاَ أُخْبِرُكُمْ بِأَهْلِ النَّارِ؟ كُلُّ عُتُلٍّ جَوَّاظٍ مُسْتَكْبِرٍ». مُتَّفَقٌ عَلَيْهِ .

254. Harisə bin Vəhb *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə dediyini eşitdiyini söyləyir:

“Sizə cənnətliklərin kimlər olduğunu xəbər verimmi? Onlar həm zəif olduqları, həm də insanlar tərəfindən zəif görüldükləri üçün heç kimin əhəmiyyət vermədiyi, lakin belə olacaq deyə and içsələr, istəklərinin Allah tərəfindən gerçəkləşəcəyi kəslərdir.

Sizə cəhənnəmliklərin kimlər olduğunu xəbər verimmi? Qatı qəlbli, kobud, xəsis və lovğalanaraq təkəbbürlü gəzən kəslərdir”.

Buxari, Əyman 9, Təfsiru surə (68), 1, Ədəb 61; Müslim, Cənnət 47. Həmçinin bax. Tirmizi, Cəhənnəm 13; İbn Macə, Zöhd 4

❁

٢٥٥ ـ عَنْ أَبِي الْعَبَّاسِ سَهْلِ بْنِ سَعْدٍ السَّاعِدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: مَرَّ رَجُلٌ عَلَى النَّبِيِّ ﷺ فَقَالَ لِرَجُلٍ عِنْدَهُ جَالِسٍ: «مَا رَأْيُكَ فِي هَذَا؟». فَقَالَ: رَجُلٌ مِنْ أَشْرَافِ النَّاسِ: هَذَا وَاللَّهِ حَرِيٌّ إِنْ خَطَبَ أَنْ يُنْكَحَ وَإِنْ شَفَعَ أَنْ يُشَفَّعَ: فَسَكَتَ رَسُولُ اللَّهِ ﷺ ، ثُمَّ مَرَّ رَجُلٌ آخَرُ ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ : «مَا رَأْيُكَ فِي هَذَا»؟ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، هَذَا رَجُلٌ مِنْ فُقَرَاءِ الْمُسْلِمِينَ ، هَذَا حَرِيٌّ إِنْ خَطَبَ أَلاَّ يُنْكَحَ ، وَإِنْ شَفَعَ أَلاَّ يُشَفَّعَ ، وَإِنْ قَالَ أَلاَّ يُسْمَعَ لِقَوْلِهِ . فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «هَذَا خَيْرٌ مِنْ مِلْءِ الْأَرْضِ مِثْلَ هَذَا». مُتَّفَقٌ عَلَيْهِ .

255. Əbul-Abbas Səhl bin Sad əs-Səidi *radiyallahu anh* belə dedi:

Bir gün Hz. Peyğəmbərin yanından bir nəfər keçdi. Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* yanında oturan adamdan soruşdu:

- **“Bu adam haqqında nə deyərsən?”** O da:

- Bu, şöhrətli adamlardan biridir. Vallahi, belə bir adam hansı qızı istəsə, evləndirilməyə, ara düzəltsə sözü dinlənməyə layiqdir,- cavabını verdi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* heç nə demədi.

Sonra oradan başqa bir adam keçdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* bu dəfə də yanında oturandan:

- **“Bəs bu adam haqqında nə deyə bilərsən?” -** deyə soruşdu. Həmin adam bu dəfə:

- Ya Rəsulallah, bu adam kasıb müsəlmanlardandır. Bir qız istəsə istədiyi qızı verməzlər. Ara düzəltməyə çalışsa, ricası qəbul edilməz. Söz söyləsə dinlənməz,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Bu sonuncu adam digəri kimi dünya dolusu adamdan daha xeyirlidir".**

Buxari, Nikah 15, Riqaq 16. Hədis Müslimdə yoxdur. Həmçinin bax. İbn Macə, Zöhd 5

❁

٢٥٦ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «احْتَجَّتِ الْجَنَّةُ وَالنَّارُ ، فَقَالَتِ النَّارُ : فِيَّ الْجَبَّارُونَ وَالْمُتَكَبِّرُونَ. وَقَالَتِ الْجَنَّةُ: فِيَّ ضُعَفَاءُ النَّاسِ وَمَسَاكِينُهُمْ. فَقَضَى اللَّهُ بَيْنَهُمَا: إِنَّكِ الْجَنَّةُ رَحْمَتِي أَرْحَمُ بِكِ مَنْ أَشَاءُ ، وَإِنَّكِ النَّارُ عَذَابِي أُعَذِّبُ بِكِ مَنْ أَشَاءُ ، وَلِكِلَيْكُمَا عَلَيَّ مِلْؤُهَا». رَوَاهُ مُسْلِمٌ .

256. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cənnət ilə cəhənnəm mübahisə etdilər.

Cəhənnəm:

- Məndə təkəbbürlülər və qoluzorlular var,- dedi.

Cənnət:

- Məndə yalnız zəiflər və yoxsullar var,- dedi.

Allah-Təala onların mübahisəsini belə həll etdi:

- Ey cənnət, sən Mənim rəhmətimsən, istədiyimə sənin lə mərhəmət edərəm. Ey cəhənnəm, sən də Mənim əzabımsan. İstədiyimə sənin lə əzab edərəm. Mən hər ikinizi dolduracağam".

Müslim, Cənnət 34; Buxari, Təfsiru surə (50), 1, Tövhid 25. Həmçinin bax. Tirmizi, Cənnət 22

❁

٢٥٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «إِنَّهُ لَيَأْتِي الرَّجُلُ الْعَظِيمُ السَّمِينُ يَوْمَ الْقِيَامَةِ لاَ يَزِنُ عِنْدَ اللَّهِ جَنَاحَ بَعُوضَةٍ». مُتَّفَقٌ عَلَيْهِ.

257. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qiyamət günü dünyada böyüklüyü ilə tanınan iri cüssəli bir nəfər gələr. Halbuki onun Allah qatında milçəyin qanadı qədər dəyəri yoxdur".

Buxari, Təfsiru surə (18), 6; Müslim, Münafiqun 18

❁

٢٥٨ ـ وَعَنْهُ أَنَّ امْرَأَةً سَوْدَاءَ كَانَتْ تَقُمُّ الْمَسْجِدَ ـ أَوْ شَابًّا ـ فَفَقَدَهَا أَوْ فَقَدَهُ رَسُولُ اللَّهِ ﷺ فَسَأَلَ عَنْهَا أَوْ عَنْهُ ، فَقَالُوا : مَاتَ. قَالَ: «أَفَلاَ كُنْتُمْ آذَنْتُمُونِي بِهِ». فَكَأَنَّهُمْ صَغَّرُوا أَمْرَهَا أَوْ أَمْرَهُ فَقَالَ: «دُلُّونِي عَلَى قَبْرِهِ» ، فَدَلُّوهُ فَصَلَّى عَلَيْهِ، ثُمَّ قَالَ: «إِنَّ هَذِهِ الْقُبُورَ مَمْلُوءَةٌ ظُلْمَةً عَلَى أَهْلِهَا. وَإِنَّ اللَّهَ تَعَالَى يُنَوِّرُهَا لَهُمْ بِصَلاَتِي عَلَيْهِمْ». مُتَّفَقٌ عَلَيْهِ .

258. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə qaradərili bir qadın – və ya qaradərili bir gənc – Məscidi-Nəbəvini süpürürdü. Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləm* onu görməyib harada olduğunu soruşdu.

- Öldü,- dedilər. Hz. Peyğəmbər:

- **"Gərək mənə xəbər verəydiniz", -**buyurdu. Səhabələr o qadına – və ya gəncə – o qədər də əhəmiyyət verməmişdilər. Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* sözünə davam edərək "məzarını mənə göstərin", - buyurdu. Məzarını göstərdilər. Rəsulullah *səllallahu əleyhi və səlləm* cənazə namazını qıldıqdan sonra belə buyurdu:

“Bu qəbirlər orada yatanlar üçün zülmət qaranlıqdır. Onların üzərinə qılacağım namaz səbəbi ilə Allah-Təala qəbirlərini nurlandırar”.

Buxari, Salət 72, Cənaiz 67; Müslim, Cənaiz 71. Həmçinin bax. Əbu Davud, Cənaiz 57; İbn Macə, Cənaiz 32

❁

٢٥٩ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «رُبَّ أَشْعَثَ أَغْبَرَ مَدْفُوعٍ بِالْأَبْوَابِ لَوْ أَقْسَمَ عَلَى اللَّهِ لَأَبَرَّهُ». رَوَاهُ مُسْلِمٌ .

259. Yenə Əbu Hüreyrə *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu söylədi:

“Saçı-başı dağınıq, əli-üzü tozlu, qapılardan qovulmuş elə adamlar var ki, filan şey belə olacaq deyə and içsələr, Allah onların istədiyini edər”.

Müslim, Birr 138, Cənnət 48

❁

٢٦٠ ـ عَنْ أُسَامَةَ رَضِيَ اللّٰهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «قُمْتُ عَلَى بَابِ الْجَنَّةِ فَإِذَا عَامَّةُ مَنْ دَخَلَهَا الْمَسَاكِينُ ، وَأَصْحَابُ الْجَدِّ مَحْبُوسُونَ. غَيْرَ أَنَّ أَصْحَابَ النَّارِ قَدْ أُمِرَ بِهِمْ إِلَى النَّارِ ، وَقُمْتُ عَلَى بَابِ النَّارِ ، فَإِذَا عَامَّةُ مَنْ دَخَلَهَا النِّسَاءُ». مُتَّفَقٌ عَلَيْهِ .

260. Üsamə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Cənnətin qapısında durub baxdım. Bir də gördüm ki, içəri girənlərin əksəriyyəti yoxsullardır. Zənginlərsə hesaba çəkilmək üçün saxlanmışdılar. Cəhənnəmlik olduğu dəqiqləşənlərin də oda atılması əmr olunmuşdu.

Cəhənnəmin də qapısında durub baxdım. Bir də gördüm ki, cəhənnəmə girənlərin əksəriyyəti qadınlardır”.

Buxari, Riqaq 51, Nikah 87; Müslim, Zikr 93

٢٦١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَمْ يَتَكَلَّمْ فِي الْمَهْدِ إِلاَّ ثَلاَثَةٌ: عِيسَى بْنُ مَرْيَمَ ، وَصَاحِبُ جُرَيْجٍ ، وَكَانَ جُرَيْجٌ رَجُلاً عَابِدًا فَاتَّخَذَ صَوْمَعَةً ، فَكَانَ فِيهَا فَأَتَتْهُ أُمُّهُ وَهُوَ يُصَلِّي فَقَالَتْ: يَا جُرَيْجُ. فَقَالَ: يَا رَبِّ ، أُمِّي وَصَلاَتِي! فَأَقْبَلَ عَلَى صَلاَتِهِ ، فَانْصَرَفَتْ. فَلَمَّا كَانَ مِنَ الْغَدِ أَتَتْهُ وَهُوَ يُصَلِّي فَقَالَتْ: يَا جُرَيْجُ. فَقَالَ: أَيْ رَبِّ ، أُمِّي وَصَلاَتِي! فَأَقْبَلَ عَلَى صَلاَتِهِ ، فَلَمَّا كَانَ مِنْ الْغَدِ أَتَتْهُ وَهُوَ يُصَلِّي. فَقَالَتْ: يَا جُرَيْجُ ، فَقَالَ: أَيْ رَبِّ ، أُمِّي وَصَلاَتِي! فَأَقْبَلَ عَلَى صَلاَتِهِ ، فَقَالَتْ: اللَّهُمَّ لاَ تُمِتْهُ حَتَّى يَنْظُرَ إِلَى وُجُوهِ الْمُومِسَاتِ . فَتَذَاكَرَ بَنُو إِسْرَائِيلَ جُرَيْجًا وَعِبَادَتَهُ ، وَكَانَتِ امْرَأَةٌ بَغِيٌّ يُتَمَثَّلُ بِحُسْنِهَا ، فَقَالَتْ: إِنْ شِئْتُمْ لَأَفْتِنَنَّهُ. فَتَعَرَّضَتْ لَهُ ، فَلَمْ يَلْتَفِتْ إِلَيْهَا ، فَأَتَتْ رَاعِيًا كَانَ يَأْوِي إِلَى صَوْمَعَتِهِ ، فَأَمْكَنَتْهُ مِنْ نَفْسِهَا ، فَوَقَعَ عَلَيْهَا فَحَمَلَتْ ، فَلَمَّا وَلَدَتْ قَالَتْ: هُوَ مِنْ جُرَيْجٍ ، فَأَتَوْهُ فَاسْتَنْزَلُوهُ ، وَهَدَمُوا صَوْمَعَتَهُ ، وَجَعَلُوا يَضْرِبُونَهُ. فَقَالَ: مَا شَأْنُكُمْ؟ قَالُوا: زَنَيْتَ بِهَذِهِ الْبَغِيِّ فَوَلَدَتْ مِنْكَ. قَالَ: أَيْنَ الصَّبِيُّ؟ فَجَاؤُوا بِهِ فَقَالَ: دَعُونِي حَتَّى أُصَلِّي. فَصَلَّى ، فَلَمَّا انْصَرَفَ أَتَى الصَّبِيَّ فَطَعَنَ فِي بَطْنِهِ وَقَالَ: يَا غُلاَمُ ، مَنْ أَبُوكَ؟ قَالَ: فُلاَنٌ الرَّاعِي. فَأَقْبَلُوا عَلَى جُرَيْجٍ يُقَبِّلُونَهُ وَيَتَمَسَّحُونَ بِهِ ، وَقَالُوا: نَبْنِي لَكَ صَوْمَعَتَكَ مِنْ ذَهَبٍ. قَالَ: لاَ. أَعِيدُوهَا مِنْ طِينٍ كَمَا كَانَتْ، فَفَعَلُوا. وَبَيْنَا صَبِيٌّ يَرْضَعُ مِنْ أُمِّهِ فَمَرَّ رَجُلٌ رَاكِبٌ عَلَى دَابَّةٍ فَارِهَةٍ وَشَارَةٍ حَسَنَةٍ ، فَقَالَتْ أُمُّهُ: اللَّهُمَّ اجْعَلِ ابْنِي مِثْلَ هَذَا ، فَتَرَكَ الثَّدْيَ وَأَقْبَلَ إِلَيْهِ ، فَنَظَرَ إِلَيْهِ فَقَالَ: اَللَّهُمَّ لاَ تَجْعَلْنِي مِثْلَهُ . ثُمَّ أَقْبَلَ عَلَى ثَدْيِهِ ، فَجَعَلَ يَرْضَعُ ، فَكَأَنِّي أَنْظُرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ وَهُوَ يَحْكِي ارْتِضَاعَهُ بِأُصْبُعِهِ السَّبَّابَةِ فِي فِيهِ فَجَعَلَ يَمُصُّهَا ، ثُمَّ قَالَ: وَمَرُّوا بِجَارِيَةٍ وَهُمْ يَضْرِبُونَهَا ،

وَيَقُولُونَ: زَنَيْتِ سَرَقْتِ ، وَهِيَ تَقُولُ: حَسْبِيَ اللَّهُ وَنِعْمَ الْوَكِيلُ ، فَقَالَتْ أُمُّهُ: اللَّهُمَّ لاَ تَجْعَلِ ابْنِي مِثْلَهَا. فَتَرَكَ الرَّضَاعَ وَنَظَرَ إِلَيْهَا ، فَقَالَ: اللَّهُمَّ اجْعَلْنِي مِثْلَهَا. فَهُنَالِكَ تَرَاجَعَا الْحَدِيثَ. فَقَالَتْ: مَرَّ رَجُلٌ حَسَنُ الْهَيْئَةِ ، فَقُلْتُ: اللَّهُمَّ اجْعَلِ ابْنِي مِثْلَهُ ، فَقُلْتَ: اللَّهُمَّ لاَ تَجْعَلْنِي مِثْلَهُ ، وَمَرُّوا بِهَذِهِ الأَمَةِ وَهُمْ يَضْرِبُونَهَا وَيَقُولُونَ: زَنَيْتِ سَرَقْتِ. فَقُلْتُ: اللَّهُمَّ لاَ تَجْعَلِ ابْنِي مِثْلَهَا ، فَقُلْتَ: اللَّهُمَّ اجْعَلْنِي مِثْلَهَا ! قَالَ: إِنَّ ذَلِكَ الرَّجُلَ جَبَّارٌ ، فَقُلْتُ: اللَّهُمَّ لاَ تَجْعَلْنِي مِثْلَهُ ، وَإِنَّ هَذِهِ يَقُولُونَ زَنَيْتِ وَلَمْ تَزْنِ ، وَسَرَقْتِ وَلَمْ تَسْرِقْ ، فَقُلْتُ: اللَّهُمَّ اجْعَلْنِي مِثْلَهَا» . مُتَّفَقٌ عَلَيْهِ .

261. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yalnız üç nəfər beşikdə ikən danışmışdır. Onlardan biri Məryəmin oğlu Hz. İsa, digəri Cüreyc ilə macərası olan uşaqdır.

Cüreyc ibadətə çox düşkün idi. Bir məbədə yerləşib orada ibadət etməyə başladı. Bir gün anası gəlib:

- Cüreyc! - deyə səsləndi.

Cüreyc öz-özünə: "Ya Rəbb, görəsən, anama cavab verim, yoxsa namazıma davam edim" –dedi. Sonra namazına davam etdi. Anası da çıxıb getdi.

Ertəsi gün yenə Cüreyc namaz qılarkən anası gəldi və:

- Cüreyc! - deyə səsləndi.

Yenə Cüreyc öz-özünə "Ya Rəbb, anama cavab verim, yoxsa namazıma davam edim" deyə düşündü. Sonra namazına davam etdi. Bir gün sonra anası yenə Cüreyc namaz qılarkən gəldi və:

- Cüreyc! - deyə səsləndi.

Cüreyc öz-özünə "Ya Rəbb, anama cavab verim, yoxsa namazıma davam edim" deyə düşündü. Sonra namazına davam etdi.

Anası ona:

- Allahım, fahişələrin üzünə baxmadan onun canını alma! - deyə bəddua etdi.

Bir gün İsrail oğulları Cüreycin ibadətə düşkünlüyü haqda söhbət edirdilər. Gözəlliyi ilə məşhur bir fahişə də orada idi.

- Əgər istəsəniz, mən onu başdan çıxarda bilərəm,- dedi. Vaxt itirmədən Cüreycin yanına getdi.Lakin Cüreyc heç onun üzünə də baxmadı.

Cüreycin ibadətxanasında qalan bir çoban vardı. Qadın onunla münasibətə girərək çobandan hamilə qaldı. Uşağını dünyaya gətirdi və onun Cüreycdən olduğunu iddia etdi. Bunu eşidən camaat Cüreycin yanına gəlib onu çölə çıxardıb döyməyə başladılar və ibadətxanasını yandırdılar. Cüreyc:

- Nə üçün belə edirsiniz? - dedikdə:

- Sən bu fahişə ilə zina etmisən və sənin uşağını doğub,- dedilər. Cüreyc:

- Hardadı uşaq? - deyə soruşdu. Uşağı ona gətirdilər. Cüreyc: "Yaxamı buraxın, namaz qılım", - dedi. Namazını qılıb qurtarandan sonra uşağın yanına gəldi və qarnına toxunub: "Balaca, de görüm atan kimdir?" - deyə soruşdu.

Uşaq:

- Atam filan çobandır,- cavabını verdi.

Bunu görən camaat Cüreycin əlini öpməyə və əllərini ona sürtərək əfv diləməyə başladı.

- Sənə qızıldan məbəd tikəcəyik,- dedilər. Cüreyc:

- Xeyr, əvvəl necə idisə, yenə də kərpicdən tikin,- dedi. Ona kərpicdən bir məbəd tikdilər.

(Beşikdə danışan üçüncü şəxsin macərası belədir)

Bir uşaq anasından süd əmərkən cins ata minmiş və şıq geyimli yaraşıqlı bir nəfər oradan keçdi. Onu görən ana:

- Allahım, mənim oğlumu da belə et! - deyə dua etdi.

Süd əmməyi kəsən körpə həmin adama baxaraq:

- Allahım, məni onun kimi etmə,- dedi və əmməyə davam etdi.

Əbu Hüreyrə deyir ki:

- Uşağın süd əmməsindən söz edərkən Rəsulullah *səllallahu əleyhi və səlləmin* şəhadət barmağını ağzına alıb əmməsi hələ də gözümün qabağındadır. Rəsuli-Əkrəm sözünə belə davam etdi:

"Bu zaman bir qrup insan "zina etdin, oğurluq etdin" deyərək bir cariyəni döyə-döyə oradan keçirdi. Cariyə isə:

- Mənə Allah kifayətdir, o nə gözəl vəkildir (hasbiyallahu və nimələl-vəkil) deyirdi.

Bunu görən ana:

- Allahım, uşağımı onun kimi etmə! - deyə dua etdi.

Məməni ağzından çxıardan uşaq cariyəyə baxdı və:

- Allahım, məni onun kimi et! - dedi.

Bu zaman ana-bala danışmağa başladılar. Ana:

- Yaraşıqlı bir adam keçdi. Mən də "Allahım, mənim oğlumu da belə et!" - deyə dua etdim. Sən isə "Allahım, məni onun kimi etmə!" - dedin. O cariyəni oğurluq və zina etdin deyərək döyə-döyə apardılar. Mən: "Allahım, uşağımı onun kimi etmə!" - deyə dua etdim. Sən isə: "Allahım, məni onun kimi et!" - dedin. Nə üçün? - deyə soruşdu.

Uşaq cavab verdi:

- O adam zalım biri idi. Ona görə də mən "Allahım, məni onun kimi zalım etmə!" - deyə dua etdim. O cariyə zina etmədiyi halda zina etdin deyib döyürdülər. Oğurluq etmədiyi halda oğurluq etdin deyirdilər. Ona görə də "Allahım, məni onun kimi et!" - deyə dua etdim.

Buxari, Əməl fis-salət 7, Məzalim 35, Ənbiya 48, 54; Müslim, Birr 7, 8

YETİM VƏ KİMSƏSİZLƏRİ QORUMAQ

YETİMLƏRİ, QIZ UŞAQLARINI, ZƏİF, YOXSUL VƏ QƏLBİQIRIQLARIN KÖNLÜNÜ XOŞ ETMƏK, ONLARA YAXŞILIQ EDİB ŞƏFQƏT GÖSTƏRMƏK, MÜTƏVAZİ DAVRANIB QOL-QANAD GƏRMƏK

Ayələr

وَاخْفِضْ جَنَاحَكَ لِلْمُؤْمِنِينَ.

1. "Möminləri qanadın altına al". (əl-Hicr, 88)

وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ وَلاَ تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا.

2. "Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru). **Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan** (yoxsul möminlərdən) **çevirmə".**

(əl-Kəhf, 28)

فَأَمَّا الْيَتِيمَ فَلاَ تَقْهَرْ وَأَمَّا السَّائِلَ فَلاَ تَنْهَرْ .

3. "Elə isə yetimə zülm etmə! Dilənçini də (qapıdan) **qovma!"**

(əd-Duha, 9-10)

أَرَأَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ فَذَلِكَ الَّذِي يَدُعُّ الْيَتِيمَ وَلاَ يَحُضُّ عَلَى طَعَامِ الْمِسْكِينِ.

4. "(Ya Peyğəmbər!) **Dini** (haqq-hesab gününü) **yalan hesab edəni gördünmü? O elə adamdır ki, yetimi itələyib qovar** (haqqını verməz); **Və** (xalqı) **yoxsulu yedirtməyə rəğbətləndirməz** (nə özü fəqiri yedirdər, nə də özgəsini qoyar)**".** (əl-Maun, 1-3)

Hədislər

٢٦٢ ـ عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنَّا مَعَ النَّبِيِّ ﷺ سِتَّةَ نَفَرٍ ، فَقَالَ الْمُشْرِكُونَ لِلنَّبِيِّ ﷺ: اطْرُدْ هَؤُلاَءِ لاَ يَجْتَرِئُونَ عَلَيْنَا ، وَكُنْتُ أَنَا وَابْنُ مَسْعُودٍ وَرَجُلٌ مِنْ هُذَيْلٍ وَبِلاَلٌ وَرَجُلاَنِ لَسْتُ أُسَمِّيهِمَا ، فَوَقَعَ فِي نَفْسِ رَسُولِ اللَّهِ ﷺ مَا شَاءَ اللَّهُ أَنْ يَقَعَ فَحَدَّثَ نَفْسَهُ ، فَأَنْزَلَ اللَّهُ تَعَالَى: ﴿**وَلاَ تَطْرُدِ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ ، يُرِيدُونَ وَجْهَهُ**﴾. رَوَاهُ مُسْلِمٌ.

262. Sad bin Əbu Vaqqas *radiyallahu anh* belə dedi:

Biz altı nəfər Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə oturmuşduq. Bizi görən müşriklər Peyğəmbər *səllallahu əleyhi və səlləmə*:

- Bunları yanından qov. Bizə qarşı hörmətsizlik etməsinlər,- dedilər.

Orada məndən başqa Abdullah bin Məsud, Hüzeyl qəbiləsindən bir nəfər, Bilal və adlarını vermək istəmədiyim iki nəfər də vardı.

Müşriklərin bu təklifi qarşısında Rəsulullah *səllallahu əleyhi və səlləmin* qəlbindən (ondan inciməyəcəyimizdən əmin olduğu üçün) bizi oradan uzaqlaşdırmaq fikri keçdi. Belə olan təqdirdə Allah-Təala bu ayəni nazil etdi:

"Rəbbinin camalını (rizasını) **diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma".** (əl-Ənam, 52)

Müslim, Fəzailus səhabə 46

❁

٢٦٣ـ عَنْ أَبِي هُبَيْرَةَ عَائِذِ بْنِ عَمْرٍو الْمُزَنِيِّ ـ وَهُوَ مِنْ أَهْلِ بَيْعَةِ الرِّضْوَانِ رَضِيَ اللَّهُ عَنْهُ ـ أَنَّ أَبَا سُفْيَانَ أَتَى عَلَى سَلْمَانَ وَصُهَيْبٍ وَبِلاَلٍ فِي نَفَرٍ ، فَقَالُوا : مَا أَخَذَتْ سُيُوفُ اللَّهِ مِنْ عَدُوِّ اللَّهِ مَأْخَذَهَا ، فَقَالَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ: أَتَقُولُونَ هَذَا لِشَيْخِ قُرَيْشٍ وَسَيِّدِهِمْ؟ فَأَتَى النَّبِيَّ ﷺ فَأَخْبَرَهُ فَقَالَ: «يَا أَبَا بَكْرٍ،

لَعَلَّكَ أَغْضَبْتَهُمْ؟ لَئِنْ كُنْتَ أَغْضَبْتَهُمْ لَقَدْ أَغْضَبْتَ رَبَّكَ!». فَأَتَاهُمْ فَقَالَ: يَا إِخْوَتَاهُ، أَغْضَبْتُكُمْ؟ قَالُوا: لاَ؛ يَغْفِرُ اللَّهُ لَكَ يَا أَخِي. رَوَاهُ مُسْلِمٌ.

263. Ridvan beyətində iştirak edən səhabələrdən Əbu Hübeyrə Aiz bin Amr əl-Muzəni *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir gün Əbu Süfyan aralarında Salman Farisi, Süheyb Rumi və Bilal Həbəşinin də olduğu bir qrup müsəlmanın yanından keçdi. Onu görən həmin müsəlmanlar:

- Allahın qılıncı Allah düşmənini haqlamadı,- dedilər.

Bunu eşidən Əbu Bəkr *radiyallahu anh*:

- Bu sözü Qüreyşin böyüyünə deyirsiniz? - dedi və sonra Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gedib bu hadisəni ona danışdı.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Ey Əbu Bəkr, bəlkə də bu sözünlə onları incitdin. Əgər onları incitmisənsə, deməli, Rəbbini də incitdin", -** buyurdu.

Hz. Əbu Bəkr dərhal həmin yoxsul müsəlmanların yanına gedib:

- "Qardaşlarım, məndən incidinizmi?" - deyə soruşdu.

Onlar:

- Xeyr, səndən incimədik. Allah səni bağışlasın,- dedilər

Müslim, Fəzailus-səhabə 170

❁

٢٦٤ ـ عَنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَنَا وَكَافِلُ الْيَتِيمِ فِي الْجَنَّةِ هَكَذَا»، وَأَشَارَ بِالسَّبَّابَةِ وَالْوُسْطَى، وَفَرَّجَ بَيْنَهُمَا. رَوَاهُ الْبُخَارِيُّ.

264. Səhl bin Sad *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

"Mən və yetimi himayə edən kəs cənnətdə bax beləcə birlikdə olacağıq", - buyurdu və şəhadət barmağı ilə orta barmağının arasını bir az açaraq göstərdi.

Buxari, Talaq 25, Ədəb 24. Həmçinin bax. Əbu Davud, Ədəb 123; Tirmizi, Birr 14

❁

٢٦٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «كَافِلُ الْيَتِيمِ ـ لَهُ أَوْ لِغَيْرِهِ ـ أَنَا وَهُوَ كَهَاتَيْنِ فِي الْجَنَّةِ» ، وَأَشَارَ الرَّاوِي ـ وَهُوَ مَالِكُ بْنُ أَنَسٍ ـ بِالسَّبَّابَةِ وَالْوُسْطَى. رَوَاهُ مُسْلِمٌ .

265. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Öz yetimini və ya başqasına aid bir yetimi himayə edənlə mən cənnətdə bax belə yanaşı olacağıq".

Hədisin ravisi Malik bin Ənəs - Peyğəmbər *səllallahu əleyhi və səlləmin* etdiyi kimi - şəhadət və orta barmağını göstərdi.

Müslim, Zöhd 42

❁

٢٦٦ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لَيْسَ الْمِسْكِينُ الَّذِي يَرُدُّهُ التَّمْرَةُ وَالتَّمْرَتَانِ ، وَلاَ اللُّقْمَةُ وَاللُّقْمَتَانِ ، إِنَّمَا الْمِسْكِينُ الَّذِي يَتَعَفَّفُ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ فِي الصَّحِيحَيْنِ: «لَيْسَ الْمِسْكِينُ الَّذِي يَطُوفُ عَلَى النَّاسِ ، تَرُدُّهُ اللُّقْمَةُ وَاللُّقْمَتَانِ ، وَالتَّمْرَةُ وَالتَّمْرَتَانِ ، وَلَكِنَّ الْمِسْكِينَ الَّذِي لاَ يَجِدُ غِنًى يُغْنِيهِ، وَلاَ يُفْطَنُ بِهِ فَيُتَصَدَّقَ عَلَيْهِ ، وَلاَ يَقُومُ فَيَسْأَلَ النَّاسَ».

266. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir-iki xurma və ya bir-iki loğma ilə yola verilən adam yoxsul deyil. Əsl yoxsul möhtac olduğu halda dilənməyən kəsdir".

Buxari, Təfsiru-surə (2), 48; Müslim, Zəkat 102. Həmçinin bax. Əbu Davud, Zəkat 24; Nəsai, Zəkat 76

Səhih-Buxari və Səhih-Müslimdəki başqa bir rəvayətə görə Rəsulullah səllallahu əleyhi və səlləm belə buyurdu:

"Qapı-qapı gəzib bir-iki loğma, bir-iki xurma ilə yola verilən kəs yoxsul deyil. Əsl yoxsul özünə kifayət edəcək qədər malı olmayan, möhtac olduğu bilindiyi halda sədəqə verilməyən və başqalarından heç nə dilənməyən kəsdir".

Buxari, Zəkat 53; Müslim, Zəkat 101. Həmçinin bax. Nəsai, Zəkat 76

❁

٢٦٧ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «السَّاعِي عَلَى الْأَرْمَلَةِ وَالْمِسْكِينِ كَالْمُجَاهِدِ فِي سَبِيلِ اللَّهِ؛ وَأَحْسَبُهُ قَالَ: وَكَالْقَائِمِ الَّذِي لاَ يَفْتُرُ وَكَالصَّائِمِ الَّذِي لاَ يُفْطِرُ!». مُتَّفَقٌ عَلَيْهِ .

267. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ərsiz qadınlarla yoxsulların işlərinə yardım edən kəs Allah yolunda cihad etmiş kimi savab qazanar".

Ravi deyir ki, hətta Hz. Peyğəmbərin:

"Həmin kəs eynən gecələr dayanmadan namaz qılan, gündüzlər ara vermədən oruc tutan adam kimidir" buyurduğunu da zənn edirəm.

Buxari, Nəfəqat 1, Ədəb 25, 26; Müslim, Zöhd 41. Həmçinin bax. Tirmizi, Birr 44; Nəsai, Zəkat 78; İbn Macə, Ticarət 1

❁

٢٦٨ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «شَرُّ الطَّعَامِ طَعَامُ الْوَلِيمَةِ ، يُمْنَعُهَا مَنْ يَأْتِيهَا ، وَيُدْعَى إِلَيْهَا مَنْ يَأْبَاهَا ، وَمَنْ لَمْ يُجِبِ الدَّعْوَةَ فَقَدْ عَصَى اللَّهَ وَرَسُولَهُ». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةِ الصَّحِيحَيْنِ عَنْ أَبِي هُرَيْرَةَ مِنْ قَوْلِهِ : «بِئْسَ الطَّعَامُ طَعَامُ الْوَلِيمَةِ ، يُدْعَى إِلَيْهَا الْأَغْنِيَاءُ وَيُتْرَكُ الْفُقَرَاءُ».

268. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ən pis ziyafət dəvət edildiyi zaman gələcək olanların çağırılmadığı, gəlməyə o qədər də can atmayanların dəvət edildiyi toy ziyafətləridir. (Ürəyi istəmədiyi üçün) dəvətə getməyən kəs Allaha və Rəsuluna qarşı gəlmiş sayılır".

Müslim, Nikah 110. Həmçinin bax. Əbu Davud, Ətimə 1

Səhih Buxari və Səhih Müslimdə Əbu Hüreyrənin belə dediyi rəvayət olunmuşdur:

"Zənginlərin çağırılıb, kasıbların çağırılmadığı toy ziyafəti nə pis bir ziyafətdir".

Buxari, Nikah 72; Müslim, Nikah 107. Həmçinin bax. İbn Macə, Nikah 25

❁

٢٦٩ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ عَالَ جَارِيَتَيْنِ حَتَّى تَبْلُغَا جَاءَ يَوْمَ الْقِيَامَةِ أَنَا وَهُوَ كَهَاتَيْنِ» ، وَضَمَّ أَصَابِعَهُ. رَوَاهُ مُسْلِمٌ .

269. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim iki qız uşağını həddi-büluğ çağına qədər böyüdüb tərbiyə edərsə, qiyamət günü o adamla mən beləcə yan-yana olacağıq", - buyurdu və barmaqlarını bitişdirdi.

Müslim, Birr 149. Həmçnin bax. Tirmizi, Birr 13

❁

٢٧٠ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: دَخَلَتْ عَلَيَّ امْرَأَةٌ وَمَعَهَا ابْنَتَانِ لَهَا تَسْأَلُ ، فَلَمْ تَجِدْ عِنْدِي شَيْئًا غَيْرَ تَمْرَةٍ وَاحِدَةٍ ، فَأَعْطَيْتُهَا إِيَّاهَا ، فَقَسَمَتْهَا بَيْنَ ابْنَتَيْهَا وَلَمْ تَأْكُلْ مِنْهَا ، ثُمَّ قَامَتْ فَخَرَجَتْ ، فَدَخَلَ النَّبِيُّ ﷺ عَلَيْنَا ، فَأَخْبَرْتُهُ فَقَالَ: «مَنِ ابْتُلِيَ مِنْ هَذِهِ الْبَنَاتِ بِشَيْءٍ فَأَحْسَنَ إِلَيْهِنَّ كُنَّ لَهُ سِتْرًا مِنَ النَّارِ». مُتَّفَقٌ عَلَيْهِ .

270. Aişə *radiyallahu anhə* belə dedi:

Yanında iki qız olan bir qadın gəlib nə isə istədi. Evdə bir dənə xurmadan başqa heç nə yox idi. Onu da gətirib qadına verdim. Özü dadmadan xurmanı iki yerə bölüb uşaqlarına verdikdən sonra çıxıb getdi. Bu zaman Peyğəmbər *səllallahu əleyhi və səlləm* gəldi. Mən baş verənləri ona danışdım.

"Hər kim qız uşaqları səbəbi ilə bir çətinliklə qarşılaşar və onlara yaxşı baxarsa, bu uşaqlar onu cəhənnəm alovundan qoruyan qalxan olarlar".

Buxari, Zəkat 10, Ədəb 18; Müslim, Birr 147. Həmçinin bax. Tirmizi, Birr 13

❁

٢٧١ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: جَاءَتْنِي مِسْكِينَةٌ تَحْمِلُ ابْنَتَيْنِ لَهَا، فَأَطْعَمْتُهَا ثَلاَثَ تَمَرَاتٍ ، فَأَعْطَتْ كُلَّ وَاحِدَةٍ مِنْهُمَا تَمْرَةً ، وَرَفَعَتْ إِلَى فِيهَا تَمْرَةً لِتَأْكُلَهَا ، فَاسْتَطْعَمَتْهَا ابْنَتَاهَا ، فَشَقَّتِ التَّمْرَةَ الَّتِي كَانَتْ تُرِيدُ أَنْ تَأْكُلَهَا بَيْنَهُمَا، فَأَعْجَبَنِي شَأْنُهَا ، فَذَكَرْتُ الَّذِي صَنَعَتْ لِرَسُولِ اللَّهِ ، فَقَالَ: «إِنَّ اللَّهَ قَدْ أَوْجَبَ لَهَا بِهَا الْجَنَّةَ أَوْ أَعْتَقَهَا بِهَا مِنَ النَّارِ». رَوَاهُ مُسْلِمٌ .

271. Aişə *radiyallahu anhə* belə dedi:

İki körpəsini belinə almış bir qadın gəldi. Ona üç xurma verdim. O da uşaqların hər birinə bir xurma verdi. O biri xurmanı yemək üçün ağzına aparmışdı ki, uşaqlar onu da istədilər. Qadın yemək istədiyi bu xurmanı da uşaqları arasında böldü. Qadının bu hərəkəti məni heyran etdi və etdiyini Rəsulullaha danışdım. Belə buyurdu:

"Allah-Təala bu şəfqəti səbəbi ilə ona mütləq cənnəti vermiş (və ya) bu səbəblə onu cəhənnəmdən azad etmişdir".

Müslim, Birr 148

❁

٢٧٢ ـ عَنْ أَبِي شُرَيْحٍ خُوَيْلِدِ بْنِ عَمْرٍو الْخُزَاعِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «اللَّهُمَّ إِنِّي أُحَرِّجُ حَقَّ الضَّعِيفَيْنِ: الْيَتِيمِ وَالْمَرْأَةِ». رَوَاهُ النَّسَائِيُّ.

272. Əbu Şüreyh Xüveylid bin Amr əl-Hüzai *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahım, iki zəifin – yetimlə qadının haqqını yeməkdən hər kəsi çəkindirirəm".

Nəsai, əs-Sünənul-Kübra, İşratun-Nisa, 64, (V, 363). Həmçinin bax. İbn Macə, Ədəb 6

❁

٢٧٣ ـ عَنْ مُصْعَبِ بْنِ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: رَأَى سَعْدٌ أَنَّ لَهُ فَضْلاً عَلَى مَنْ دُونَهُ ، فَقَالَ النَّبِيُّ ﷺ: «هَلْ تُنْصَرُونَ وَتُرْزَقُونَ إِلاَّ بِضُعَفَائِكُمْ؟» .رَوَاهُ الْبُخَارِيُّ .

273. Sad bin Əbu Vəqqasın oğlu Musab *radiyallahu anhumə* belə dedi:

(Atam)Sad aşağı səviyyədəkilərlə nisbətdə özünün üstün olduğunu düşünürmüş. Bunun üzərinə Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurmuşdu:

"Allah sizə yardım edib ruzi verirsə, bu, aranızakı zəiflər sayəsində deyilmi?"

Buxari, Cihad 76

❁

٢٧٤ ـ عَنْ أَبِي الدَّرْدَاءِ عُوَيْمِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «ابْغُونِي فِي الضُّعَفَاءِ فَإِنَّمَا تُنْصَرُونَ وَتُرْزَقُونَ بِضُعَفَائِكُمْ». رَوَاهُ أَبُو دَاوُدَ.

274. Əbud-Dərda Uveymir *radiyallahu anh* belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə buyurduğunu eşitdim:

"Kasıbları himayə edin. Aranızdakı zəiflər sayəsində Allahdan yardım görüb ruziləndiyinizdən şübhəniz olmasın".

Əbu Davud, Cihad 70. Həmçinin bax. Tirmizi, Cihad 24; Nəsai, Cihad 43

QADINLARA QARŞI XOŞ RƏFTAR

Ayələr

وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ.

1. "Onlarla gözəl rəftar edin". (ən-Nisa, 19)

وَلَنْ تَسْتَطِيعُوا أَنْ تَعْدِلُوا بَيْنَ النِّسَاءِ وَلَوْ حَرَصْتُمْ فَلاَ تَمِيلُوا كُلَّ الْمَيْلِ فَتَذَرُوهَا كَالْمُعَلَّقَةِ وَإِنْ تُصْلِحُوا وَتَتَّقُوا فَإِنَّ اللَّهَ كَانَ غَفُورًا رَحِيمًا.

2. "Siz nə qədər çox istəsəniz də, heç vaxt arvadlar arasında ədalətlə rəftar etməyi bacarmazsınız. Barı, (birisinə) **tamamilə meyl göstərib, digərini asılı vəziyyətdə** (nə ərli kimi ərli, nə də boşanmış kimi boşanmış) **qoymayın. Əgər özünüzü islah edib** (belə hərəkətlərdən) **çəkinsəniz** (Allah sizi bağışlayar). **Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!"**

(ən-Nisa, 129)

Hədislər

٢٧٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «اسْتَوْصُوا بِالنِّسَاءِ خَيْرًا ، فَإِنَّ الْمَرْأَةَ خُلِقَتْ مِنْ ضِلَعٍ ، وَإِنَّ أَعْوَجَ مَا فِي الضِّلَعِ أَعْلاَهُ. فَإِنْ ذَهَبْتَ تُقِيمُهُ كَسَرْتَهُ وَإِنْ تَرَكْتَهُ لَمْ يَزَلْ أَعْوَجَ فَاسْتَوْصُوا بِالنِّسَاءِ» مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ فِي الصَّحِيحَيْنِ: «الْمَرْأَةُ كَالضِّلَعِ إِنْ أَقَمْتَهَا كَسَرْتَهَا ، وَإِنِ اسْتَمْتَعْتَ بِهَا اسْتَمْتَعْتَ بِهَا وَفِيهَا عِوَجٌ».

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: «إِنَّ الْمَرْأَةَ خُلِقَتْ مِنْ ضِلَعٍ لَنْ تَسْتَقِيمَ لَكَ عَلَى طَرِيقَةٍ ، فَإِنِ اسْتَمْتَعْتَ بِهَا اسْتَمْتَعْتَ بِهَا وَفِيهَا عِوَجٌ ، وَإِنْ ذَهَبْتَ تُقِيمُهَا كَسَرْتَهَا. وَكَسْرُهَا طَلاَقُهَا».

275. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qadınlara qarşı xoş rəftar etməyi tövsiyə edirəm. Vəsiyyətimə qulaq asın. Çünki qadın qismi qabırğa sümüyündən yaradılmışdır. Qabırğa sümüyünün ən əyri yeri üst tərəfidir. Əyri sümüyü düzəltməyə çalışsan, qırarsan. Özbaşına buraxsan, əyri qalar. Elə isə qadınlar haqqında tövsiyəmə riayət edin".

Buxari, Ənbiya 1, Nikah 80; Müslim, Rada 60. Həmçinin bax. Tirmizi, Rada 11, Təfsiru surə (9) 2; İbn Macə, Nikah 3

Buxari ilə Müslimdə keçən başqa bir rəvayətə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qadın qabırğa sümüyü kimidir. Onu düzəltməyə çalışsan, qırarsan. Əgər ondan faydalanmaq istəsən, bu halı ilə də faydalana bilərsən".

Buxari, Nikah 79; Rada 65; Müslim, Rada 60

Müslimdə keçən digər bir rəvayətə görə isə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qadın qabırğa sümüyündən yaradılmışdır. Hər zaman səni razı salmaya bilər. Əgər ondan faydalanmaq istəsən, bu halı ilə də faydalana bilərsən. Əgər düzəltmək istəsən, qırarsan. Qadının qırılması da boşanmasıdır".

Müslim, Rada 59

❁

٢٧٦ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ زَمْعَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَخْطُبُ ـ وَذَكَرَ النَّاقَةَ وَالَّذِي عَقَرَهَا ـ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ ﴿إِذِ انْبَعَثَ أَشْقٰهَا﴾: «انْبَعَثَ لَهَا رَجُلٌ عَزِيزٌ عَارِمٌ مَنِيعٌ فِي رَهْطِهِ» ، ثُمَّ ذَكَرَ النِّسَاءَ ، فَوَعَظَ فِيهِنَّ ، فَقَالَ: «يَعْمِدُ أَحَدُكُمْ فَيَجْلِدُ امْرَأَتَهُ جَلْدَ الْعَبْدِ ، فَلَعَلَّهُ يُضَاجِعُهَا مِنْ آخِرِ يَوْمِهِ» ! ثُمَّ وَعَظَهُمْ فِي ضَحِكِهِمْ مِنَ الضَّرْطَةِ ، وَقَالَ: «لِمَ يَضْحَكُ أَحَدُكُمْ مِمَّا يَفْعَلُ؟». مُتَّفَقٌ عَلَيْهِ .

276. Abdullah bin Zəma *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləmi* bir gün xütbə oxuyarkən dinlədim.

Rəsulullah *səllallahu əleyhi və səlləm* Saleh əleyhissalamın dişi dəvəsindən və onu öldürən adamdan söz açaraq:

"Onların ən azğını irəli atıldı" ayəsini oxudu və Səmud qövmündə güclü-qüvvətli olması ilə tanınan, pislikdə həddi aşan bir nəfər dəvəni öldürmək üçün irəli atıldı,- deyə izah etdi.

Sonra qadınlardan bəhs etdi. Onlar haqqında nəsihət edərək belə buyurdu:

"Biriniz xanımını kölə kimi döyməyə qalxır. Bəlkə də həmin axşam onunla eyni yataqda yatacaq".

Sonra qaz çıxarmağa görə gülməmələrini tövsiyə edərək belə buyurdu:

"İnsan özünün də etdiyi bir şeyə nə üçün gülər?"

Buxari, Təfsiru surə (91) 1; Müslim, Cənnət 49. Həmçinin bax Tirmizi, Təfsiru surə 91; İbn Macə, Nikah 51

❁

٢٧٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لاَ يَفْرَكْ مُؤْمِنٌ مُؤْمِنَةً ، إِنْ كَرِهَ مِنْهَا خُلُقًا رَضِيَ مِنْهَا آخَرَ» أَوْ قَالَ «غَيْرَهُ». رَوَاهُ مُسْلِمٌ.

277. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Heç kim xanımına kin bəsləməsin. Onun bir xasiyyəti xoşuna gəlmirsə, başqa bir xasiyyətini bəyənər".

Müslim, Rada 61

❁

٢٧٨ ـ عَنْ عَمْرِو بْنِ الْأَحْوَصِ الْجُشَمِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ فِي حَجَّةِ الْوَدَاعِ يَقُولُ ـ بَعْدَ أَنْ حَمِدَ اللَّهَ تَعَالَى وَأَثْنَى عَلَيْهِ وَذَكَّرَ وَوَعَظَ ـ ثُمَّ قَالَ: أَلاَ وَاسْتَوْصُوا بِالنِّسَاءِ خَيْرًا ، فَإِنَّمَا هُنَّ عَوَانٍ عِنْدَكُمْ ، لَيْسَ تَمْلِكُونَ مِنْهُنَّ شَيْئًا غَيْرَ ذَلِكَ ، إِلاَّ أَنْ يَأْتِينَ بِفَاحِشَةٍ مُبَيِّنَةٍ ، فَإِنْ فَعَلْنَ فَاهْجُرُوهُنَّ فِي

الْمَضَاجِعِ ، وَاضْرِبُوهُنَّ ضَرْبًا غَيْرَ مُبَرِّحٍ ، فَإِنْ أَطَعْنَكُمْ فَلاَ تَبْغُوا عَلَيْهِنَّ سَبِيلاً؛ أَلاَ إِنَّ لَكُمْ عَلَى نِسَائِكُمْ حَقًّا ، وَلِنِسَائِكُمْ عَلَيْكُمْ حَقًّا ؛ فَحَقُّكُمْ عَلَيْهِنَّ أَلاَّ يُوطِئْنَ فُرُشَكُمْ مَنْ تَكْرَهُونَ ، وَلاَ يَأْذَنَّ فِي بُيُوتِكُمْ لِمَنْ تَكْرَهُونَ. أَلاَ وَحَقُّهُنَّ عَلَيْكُمْ أَنْ تُحْسِنُوا إِلَيْهِنَّ فِي كِسْوَتِهِنَّ وَطَعَامِهِنَّ» . رَوَاهُ التِّرْمِذِيُّ .

278. Amr bin Əhvas əl-Cuşəmi *radiyallahu anh* Vida Həccində Peyğəmbər *səllallahu əleyhi və səlləmə* qulaq asdığını, Allaha həmd-səna edib camaata öyüd verdikdənsonra Rəsulullahın belə buyurduğunu deyir:

"Əshabım, qadınlara qarşı xoş rəftar etmənizi tövsiyə edirəm. Vəsiyyətimi yerinə yetirin. Çünki onlar sizin idarəçilik və himayənizə verilmişdir.

Qəti olaraq bildiyiniz bir əxlaqsızlıq etmədikləri təqdirdə onlara qarşı kobudluq etməyə haqqınız yoxdur. Əgər əxlaqsızlıq etsələr, onları yataqlarında yalnız qoyun. (Hər hansı bir orqanını) incitməyəcək şəkildə döyün. Əgər sizə itaət etsələr, artıq onlara zərər verəcək bir şey etməyin.

Bilin ki, sizin qadınlar üzərində haqqınız olduğu kimi onların da sizin üzərinizdə haqları var.

Sizin onlar üzərindəki haqlarınız yatağınızı yadlardan qorumaları, istəmədiyiniz adamları evinizə qəbul etməmələridir.

Onların sizin üzərinizdəki haqları isə geyim-keçim və yeyib-içmək cəhətindən onları yaxşı təmin etməyinizdir".

Tirmizi, Rada 11. Həmçinin bax. İbn Macə, Nikah 3

❁

٢٧٩ ـ عَنْ مُعَاوِيَةَ بْنِ حَيْدَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قُلْتُ يَا رَسُولَ اللَّهِ ، مَا حَقُّ زَوْجَةِ أَحَدِنَا عَلَيْهِ؟ قَالَ: «أَنْ تُطْعِمَهَا إِذَا طَعِمْتَ ، وَتَكْسُوهَا إِذَا اكْتَسَيْتَ. وَلاَ تَضْرِبِ الْوَجْهَ ، وَلاَ تُقَبِّحْ ، وَلاَ تَهْجُرْ إِلاَّ فِي الْبَيْتِ». رَوَاهُ أَبُو دَاوُدَ.

279. Müaviyə bin Haydə *radiyallahu anh* belə dedi:

- Ya Rəsulallah, qadınlarımızın bizim üstümüzdəki haqqı nədir? - deyə soruşdum. Belə buyurdu:

- **"Yediyinizdən yedirmək, geydiyiniz səviyyədə geyindirmək, gördükləri işin və özlərinin çirkin olduğunu deməmək, onları yataqlarında tək qoymaq lazım gələrsə, bu işi yalnız evdə etməkdir".**

Əbu Davud, Nikah 41. Həmçinin bax. İbn Macə, Nikah 3

❁

٢٨٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَكْمَلُ الْمُؤْمِنِينَ إِيمَانًا أَحْسَنُهُمْ خُلُقًا ، وَخِيَارُكُمْ خِيَارُكُمْ لِنِسَائِهِمْ». رَوَاهُ التِّرْمِذِيُّ .

280. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İman baxımından möminlərin ən mükəmməli xasiyyəti ən yaxşı olandır. Xeyirliniz qadınlarına qarşı xeyirli olanınızdır".

Tirmizi, Rada 11. Həmçinin bax. Əbu Davud, Sünnət 15; İbn Macə, Nikah 50

❁

٢٨١ ـ عَنْ إِيَاسِ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي ذُبَابٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَضْرِبُوا إِمَاءَ اللَّهِ». فَجَاءَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: ذَئِرْنَ النِّسَاءُ عَلَى أَزْوَاجِهِنَّ. فَرَخَّصَ فِي ضَرْبِهِنَّ ، فَأَطَافَ بِآلِ رَسُولِ اللَّهِ ﷺ نِسَاءٌ كَثِيرٌ يَشْكُونَ أَزْوَاجَهُنَّ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «لَقَدْ أَطَافَ بِآلِ بَيْتِ مُحَمَّدٍ نِسَاءٌ كَثِيرٌ يَشْكُونَ أَزْوَاجَهُنَّ لَيْسَ أُولَئِكَ بِخِيَارِكُمْ». رَوَاهُ أَبُو دَاوُدَ.

281. İyas bin Abdullah bin Əbu Zübab *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Qadınları döyməyin", -** buyurmuşdu.

Hz. Ömər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* hüzuruna çıxaraq:

- Qadınlar ərlərini eşitməz oldular,- dedi. Bu zaman Peyğəmbər *səllallahu əleyhi və səlləm* qadınların döyülməsinə izin verdi.

Bu dəfə bir çox qadın Rəsulullah *səllallahu əleyhi və səlləmin* xanımlarının yanına gəlib ərlərindən şikayət etməyə başladılar.

Bunun üzərinə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Bir çox qadın Muhammməd ailəsinə gəlib ərlərindən şikayət edir. Qadınlarını döyən o kəslər sizin xeyirliniz deyil".**

Əbu Davud, Nikah 42. Həmçinin bax. İbn Macə, Nikah 51

❁

٢٨٢ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «الدُّنْيَا مَتَاعٌ ، وَخَيْرُ مَتَاعِهَا الْمَرْأَةُ الصَّالِحَةُ». رَوَاهُ مُسْلِمٌ .

282. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dünya keçici faydadan ibarətdir. Onun fayda verən ən xeyirli varlığı dindar qadındır".

Müslim, Rada 64. Həmçinin bax. Nəsai, Nikah 15; İbn macə, Nikah 5

ƏRİN ARVADI ÜZƏRİNDƏKİ HAQLARI

Ayə

اَلرِّجَالُ قَوَّامُونَ عَلَى النِّسَاءِ بِمَا فَضَّلَ اللَّهُ بَعْضَهُمْ عَلَى بَعْضٍ وَبِمَا أَنْفَقُوا مِنْ أَمْوَالِهِمْ فَالصَّالِحَاتُ قَانِتَاتٌ حَافِظَاتٌ لِلْغَيْبِ بِمَا حَفِظَ اللَّهُ.

"Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər (onların hamisidirlər)**. Bu, Allahın onlardan birini digərinə üstün etməsi və** (kişilərin) **öz mallarından** (qadınlar üçün) **sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar".**

(ən-Nisa, 34)

Hədislər

٢٨٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا دَعَا الرَّجُلُ امْرَأَتَهُ إِلَى فِرَاشِهِ فَلَمْ تَأْتِهِ فَبَاتَ غَضْبَانَ عَلَيْهَا لَعَنَتْهَا الْمَلاَئِكَةُ حَتَّى تُصْبِحَ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لَهُمَا: «إِذَا بَاتَتِ الْمَرْأَةُ هَاجِرَةً فِرَاشَ زَوْجِهَا لَعَنَتْهَا الْمَلاَئِكَةُ حَتَّى تُصْبِحَ» .

وَفِي رِوَايَةٍ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «وَالَّذِي نَفْسِي بِيَدِهِ ، مَا مِنْ رَجُلٍ يَدْعُو امْرَأَتَهُ إِلَى فِرَاشِهِ فَتَأْبَى عَلَيْهِ إِلاَّ كَانَ الَّذِي فِي السَّمَاءِ سَاخِطًا عَلَيْهَا حَتَّى يَرْضَى عَنْهَا».

283. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əgər bir kişi arvadını yatağına çağırar, arvadı gəlməz və kişi gecəni ona küsülü keçirərsə, səhərə qədər mələklər o qadına lənət edərlər".

Buxari, Bədul-xalq 7; Müslim, Nikah 122. Həmçinin bax. Əbu Davud, Nikah 40

Buxari və Müslimin başqa bir rəvayəti belədir:

"Qadın gecəni ərinin yatağını tərk edərək keçirərsə, mələklər səhərə qədər ona lənət edərlər".

Buxari, Nikah 85; Müslim, Nikah 120

Başqa bir rəvayətə görə isə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Nəfsimi əlində tutan Allaha and içirəm ki, bir kişi arvadını yatağına çağırar, qadın gəlməzsə, əri ondan razı qalana qədər kainatın sahibi o qadına lənət edər".

Müslim, Nikah 121

٢٨٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَيْضًا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لاَ يَحِلُّ لامْرَأَةٍ أَنْ تَصُومَ وَزَوْجُهَا شَاهِدٌ إِلاَّ بِإِذْنِهِ ، وَلاَ تَأْذَنَ فِي بَيْتِهِ إِلاَّ بِإِذْنِهِ». مُتَّفَقٌ عَلَيْهِ .

284. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir qadın əri yanında ola-ola ondan izin almadan oruc tuta bilməz. Ərinin izni olmadan heç kimi evinə qəbul edə bilməz".

Buxari, Nikah 84, 86; Müslim, Zəkat 84. Həmçinin bax. Əbu Davud, Savm 74; Tirmizi, Savm 65; İbn Macə, Siyam 53

❁

٢٨٥ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «كُلُّكُمْ رَاعٍ ، وَكُلُّكُمْ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ ، وَالأَمِيرُ رَاعٍ ، وَالرَّجُلُ رَاعٍ عَلَى أَهْلِ بَيْتِهِ ، وَالْمَرْأَةُ رَاعِيَةٌ عَلَى بَيْتِ زَوْجِهَا وَوَلَدِهِ ، فَكُلُّكُمْ رَاعٍ وَكُلُّكُمْ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ». مُتَّفَقٌ عَلَيْهِ .

285. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hamınız çobansınız. Hamınız güddüyünüz sürüdən məsulsunuz. Əmir (idarəçi) məmurlarının çobanıdır. Kişi ailəsinin çobanıdır. Qadın da evinin və uşağının çobanıdır. Nəticədə hamınız çobansınız və hamınız idarə etdiklərinizdən məsulsunuz".

Buxari, Cümə 11, İstiqraz 20, İtq 17, 19, Vəsaya 9, Nikah 81, 90, Əhkam 1; Müslim, İmarə 20. Həmçinin bax. Əbu Davud, İmarə 1, 13; Tirmizi, Cihad 27

❁

٢٨٦ ـ عَنْ أَبِي عَلِيٍّ طَلْقِ بْنِ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا دَعَا الرَّجُلُ زَوْجَتَهُ لِحَاجَتِهِ فَلْتَأْتِهِ وَإِنْ كَانَتْ عَلَى التَّنُّورِ». رَوَاهُ التِّرْمِذِيُّ .

286. Əbu Əli Talq bin Əli *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir kişi arvadına ehtiyac hiss edib onu yanına çağırdıqda qadın ocaq başında da olsa dərhal ərinin yanına gəlsin".

Tirmizi, Rada 10; Nəsai, əs-Sünənul-kübra, İşrətun-nisa babı.

❁

٢٨٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَوْ كُنْتُ آمِرًا أَحَدًا أَنْ يَسْجُدَ لِأَحَدٍ لَأَمَرْتُ الْمَرْأَةَ أَنْ تَسْجُدَ لِزَوْجِهَا». رَوَاهُ التِّرْمِذِيُّ .

287. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanın insana səcdə etməsini əmr etməli olsaydım, qadının ərinə səcdə etməsini əmr edərdim".

Tirmizi, Rada 10. Həmçinin bax. Əbu Davud, Nikah 40; İbn Macə, Nikah 4

❁

٢٨٨ ـ عَنْ أُمِّ سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَيُّمَا امْرَأَةٍ مَاتَتْ وَزَوْجُهَا عَنْهَا رَاضٍ دَخَلَتِ الْجَنَّةَ». رَوَاهُ التِّرْمِذِيُّ .

288. Ümmü Sələmə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ərini razı salaraq ölən qadın cənnətlikdir".

Tirmizi, Rada 10. Həmçinin bax. İbn Macə, Nikah 4

❁

٢٨٩ ـ عَنْ مُعَاذِ بْنِ جَبَلٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لاَ تُؤْذِي امْرَأَةٌ زَوْجَهَا فِي الدُّنْيَا إِلاَّ قَالَتْ زَوْجَتُهُ مِنَ الْحُورِ الْعِينِ: لاَ تُؤْذِيهِ قَاتَلَكِ اللَّهُ ! فَإِنَّمَا هُوَ عِنْدَكِ دَخِيلٌ يُوشِكُ أَنْ يُفَارِقَكِ إِلَيْنَا». رَوَاهُ التِّرْمِذِيُّ .

289. Muaz bin Cəbəl *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir qadın dünyada ərinə əziyyət verərsə, həmin kişinin hurilərdən olan xanımı o qadına belə səslənər:

- Allah canını alsın. İncitmə onu. O sənin yanında müvəqqəti qonaqdır. Tezliklə səndən ayrılıb bizə qovuşacaq".

Tirmizi, Rada 19. Həmçinin bax. İbn Macə, Nikah 62

❁

٢٩٠ ـ عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَا تَرَكْتُ بَعْدِي فِتْنَةً هِيَ أَضَرُّ عَلَى الرِّجَالِ مِنَ النِّسَاءِ». مُتَّفَقٌ عَلَيْهِ .

290. Usamə bin Zeyd *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Məndən sonra kişilərə qadınlardan daha zərərli bir fitnə səbəbi buraxmadım".

Buxari, Nikah 17; Müslim, Zikr 97, 98. Həmçinin bax. Tirmizi, Ədəb 31; İbn Macə, Fitən 19

AİLƏNİN DOLANIŞIĞI

Ayələr

وَعَلَى الْمَوْلُودِ لَهُ رِزْقُهُنَّ وَكِسْوَتُهُنَّ بِالْمَعْرُوفِ.

1. "Analaların yeməyi və geyimi öz qüvvəsi dairəsində (uşağın) **atasının üzərinə düşür".**

(əl-Bəqərə, 233)

لِيُنْفِقْ ذُو سَعَةٍ مِنْ سَعَتِهِ ، وَمَنْ قُدِرَ عَلَيْهِ رِزْقُهُ فَلْيُنْفِقْ مِمَّا آتَاهُ اللَّهُ ، لاَ يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلاَّ مَا آتَاهَا.

2. "Varlı-karlı olan öz varına görə (süd haqqı) **versin. İmkanı az olan isə Allahın ona verdiyindən versin. Allah heç kəsi Özünün ona verdiyindən artıq xərcləməyə məcbur etməz. Allah hər bir çətinlikdən sonra asanlıq** (yoxsulluqdan sonra dövlət) **əta edər".**

(ət-Talaq, 7)

وَمَا أَنْفَقْتُمْ مِنْ شَيْءٍ فَهُوَ يُخْلِفُهُ.

3. "(Allah yolunda) **nə xərcləsəniz, Allah onun əvəzini verər".**

(əs-Səbə, 39)

Hədislər

٢٩١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «دِينَارٌ أَنْفَقْتَهُ فِي سَبِيلِ اللَّهِ وَدِينَارٌ أَنْفَقْتَهُ فِي رَقَبَةٍ وَدِينَارٌ تَصَدَّقْتَ بِهِ عَلَى مِسْكِينٍ وَدِينَارٌ أَنْفَقْتَهُ عَلَى أَهْلِكَ أَعْظَمُهَا أَجْرًا الَّذِي أَنْفَقْتَهُ عَلَى أَهْلِكَ». رَوَاهُ مُسْلِمٌ.

291. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah yolunda (cihad edilməsi üçün) **xərclədiyin pul, kölə azad etmək üçün xərclədiyin pul, kasıba sədəqə verdiyin pul və ailə üzvlərinin ehtiyacını qarşılamaq üçün xərclədiyin pul ki var, məhz onların içində sənə ən çox savab qazandıracaq olanı ailən üçün xərclədiyin puldur".**

Müslim, Zəkat 39

❁

٢٩٢ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ (وَيُقَالُ أَبِي عَبْدِ الرَّحْمَنِ) ، ثَوْبَانَ بْنِ بُجْدُدٍ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَفْضَلُ دِينَارٍ يُنْفِقُهُ الرَّجُلُ دِينَارٌ يُنْفِقُهُ عَلَى عِيَالِهِ وَدِينَارٌ يُنْفِقُهُ عَلَى دَابَّتِهِ فِي سَبِيلِ اللَّهِ وَدِينَارٌ يُنْفِقُهُ عَلَى أَصْحَابِهِ فِي سَبِيلِ اللَّهِ» .رَوَاهُ مُسْلِمٌ.

292. Rəsuli-Əkrəmin azad etdiyi kölə Əbu Abdullah (Əbu Əbdürrəhman da deyilir) Səvban bin Bücdüddən rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Bir adamın xərclədikləri içində ən fəzilətlisi ailəsinin ehtiyaclarına xərclədiyidir. Sonra Allah yolunda cihad etmək üçün bəslədiyi atına xərclədiyi pul və birlikdə Allah yolunda cihad etdiyi yoldaşlarına xərclədiyidir”.

Müslim, Zəkat 38. Həmçinin bax. Tirmizi, Birr 42; İbn Macə, Cihad 4

❁

٢٩٣ ـ عَنْ أُمِّ سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ هَلْ لِي فِي بَنِي أَبِي سَلَمَةَ أَجْرٌ أَنْ أُنْفِقَ عَلَيْهِمْ وَلَسْتُ بِتَارِكَتِهِمْ هَكَذَا وَلاَ هَكَذَا إِنَّمَاهُمْ بَنِيَّ؟ فَقَالَ: «نَعَمْ لَكِ أَجْرُمَا أَنْفَقْتِ عَلَيْهِمْ». مُتَّفَقٌ عَلَيْهِ.

293. Ümmü Sələmə *radiyallahu anhə* belə dedi:

- Ey Allahın Rəsulu, (əvvəlki ərim) Əbu Sələmənin uşaqlarına pul xərcləmək mənə savab qazandırarmı? Onları ehtiyac içində qoya bilmərəm axı. Onlar mənim öz uşaqlarımdır,- deyə soruşdum.

Rəsulullah belə buyurdu:

- “Bəli, onlara xərclədiklərinin savabı sənindir”.

Buxari, Nəfaqat 14; Müslim, Zəkat 47

❁

٢٩٤ ـ عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ رَضِيَ اللَّهُ عَنْهُ فِي حَدِيثِهِ الطَّوِيلِ الَّذِي قَدَّمْنَاهُ فِي أَوَّلِ الْكِتَابِ فِي بَابِ النِّيَّةِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ لَهُ : «وَإِنَّكَ لَنْ تُنْفِقَ نَفَقَةً تَبْتَغِي بِهَا وَجْهَ اللَّهِ إِلَّا أُجِرْتَ بِهَا ، حَتَّى مَا تَجْعَلُ فِي فِي امْرَأَتِكَ ». مُتَّفَقٌ عَلَيْهِ .

294. Sad bin Əbu Vaqqas *radiyallahu anhın* rəvayət etdiyi və bu kitabın əvvəlindəki ixlas və niyyət mövzusunda keçən uzun hədisdə Rəsulullah *səllallahu əleyhi və səlləm* Sada xitab edərək belə buyurmuşdu:

“Allahın rizasını düşünərək xərclədiklərinə, hətta yemək yeyərkən xanımının ağzına qoyduğun loğmalara qədər hər birinin mükafatını görəcəksən”.

Buxari, İman 41, Cənaiz 36, Vəsaya 2, Nəfəqat 1, Mərda 16, Dəavat 43, Fəraiz 6; Müslim, Vəsiyyət 5. Həmçinin bax. Əbu Davud, Fəraiz 3; Tirmizi, Vəsaya 1; Nəsai, Vəsaya 3; İbn Macə, Vəsaya 5

❁

٢٩٥ ـ عَنْ أَبِي مَسْعُودٍ الْبَدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِذَا أَنْفَقَ الرَّجُلُ عَلَى أَهْلِهِ نَفَقَةً يَحْتَسِبُهَا فَهِيَ لَهُ صَدَقَةٌ». مُتَّفَقٌ عَلَيْهِ.

295. Əbu Məsud əl-Bədri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* buyurdu:

"Hər kim Allahın rizasını ümid edərək ailəsinin dolanışığını təmin edərsə, xərclədikləri onun üçün sədəqə olar".

Buxari, İman 41, Məğazi 12, Nafaqat 1; Müslim, Zəkat 48, Həmçinin bax. Nəsai, Zəkat 60.

❁

٢٩٦ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِوبْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «كَفَى بِالْمَرْءِ إِثْمًا أَنْ يُضَيِّعَ مَنْ يَقُوتُ» . رَوَاهُ أَبُو دَاوُدَ.

وَرَوَاهُ مُسْلِمٌ فِي صَحِيحِهِ بِمَعْنَاهُ قَالَ: «كَفَى بِالْمَرْءِ إِثْمًا أَنْ يَحْبِسَ عَمَّنْ يَمْلِكُ قُوتَهُ» .

296. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dolanışığını təmin etməklə məsul olduqlarını məhrum etməsi insana günah olaraq kifayətdir".

Əbu Davud, Zəkat 45

Müslimin Səhihində bu mənada keçən hədisdə isə:

"Kölələrinin nəfəqəsini verməmək insana günah olaraq yetər", - buyurulur.

Müslim, Zəkat 40

٢٩٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَا مِنْ يَوْمٍ يُصْبِحُ الْعِبَادُ فِيهِ إِلَّا مَلَكَانِ يَنْزِلاَنِ فَيَقُولُ أَحَدُهُمَا: اَللَّهُمَّ أَعْطِ مُنْفِقًا خَلَفًا وَيَقُولُ الْاٰخَرُ: اللَّهُمَّ أَعْطِ مُمْسِكًا تَلَفًا». مُتَّفَقٌ عَلَيْهِ.

297. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahın hər günü yer üzünə iki mələk nazil olar. Onlardan biri:

- Allahım, malını verənə yenisini ver! - deyə dua edər. Digəri isə:

- Allahım, xəsislik edənin malını yox et! - deyə bəddua edər".

Buxari, Zəkat 27, Müslim, Zəkat 57,

❁

٢٩٨ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْيَدُ الْعُلْيَا خَيْرٌ مِنَ الْيَدِ السُّفْلَى وَابْدَأْ بِمَنْ تَعُولُ. وَخَيْرُ الصَّدَقَةِ مَا كَانَ عَنْ ظَهْرِ غِنًى وَمَنْ يَسْتَعْفِفْ يُعِفَّهُ اللَّهُ، وَمَنْ يَسْتَغْنِ يُغْنِهِ اللَّهُ» . رَوَاهُ الْبُخَارِيُّ.

298. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Verən əl alan əldən xeyirlidir. Yardım etməyə dolanışığından məsul olduğun adamlardan başla. Sədəqənin xeyirlisi malın ehtiyacdan artığından veriləndir. Kim insanlardan heç nə istəməzsə, Allah onu heç kimə möhtac etməz. Kim gözütoxluq edərsə, Allah onu zəngin edər".

Buxari, Zəkat 18, Nafaqat 2; Müslim, Zəkat 94-97, 106, 124. Həmçinin bax. Əbu Davud, Zəkat 28, 39; Tirmizi, Zəkat 38, Birr 77, Zöhd 32; Nəsai, Zəkat 53, 60

SEVİLƏN QİYMƏTLİ MALLARI İNFAQ ETMƏK

Ayələr

لَنْ تَنَالُوا الْبِرَّ حَتَّى تُنْفِقُوا مِمَّا تُحِبُّونَ.

1. "Sevdiyiniz şeylərdən (haqq yolunda) **sərf etmədikcə savaba çatmazsınız".** (Ali-İmran, 92)

يَا أَيُّهَا الَّذِينَ اٰمَنُوا أَنْفِقُوا مِنْ طَيِّبَاتِ مَا كَسَبْتُمْ وَمِمَّا أَخْرَجْنَا لَكُمْ مِنَ الْأَرْضِ وَلاَ تَيَمَّمُوا الْخَبِيثَ مِنْهُ تُنْفِقُونَ.

2. "Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin (ən pak, halal və) **yaxşılarından** (Allah yolunda) **sərf edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın!"**

(əl-Bəqərə, 267)

Hədislər

٢٩٩ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَال: كَانَ أَبُو طَلْحَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَكْثَرَ ٱلْأَنْصَارِ بِالْمَدِينَةِ مَالًا مِنْ نَخْلٍ وَكَانَ أَحَبُّ أَمْوَالِهِ إِلَيْهِ بَيْرُحَاءَ وَكَانَتْ مُسْتَقْبِلَةَ الْمَسْجِدِ وَكَانَ رَسُولُ اللَّهِ ﷺ يَدْخُلُهَا وَيَشْرَبُ مِنْ مَاءٍ فِيهَا طَيِّبٍ. قَالَ أَنَسٌ: فَلَمَّا نَزَلَتْ هَذِهِ ٱلاٰيَةُ: ﴿**لَنْ تَنَالُوا الْبِرَّ حَتَّى تُنْفِقُوا مِمَّا تُحِبُّونَ**﴾ جَاءَ أَبُو طَلْحَةَ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ : يَا رَسُولَ اللَّهِ ، إِنَّ اللَّهَ تَعَالَى أَنْزَلَ عَلَيْكَ ﴿**لَنْ تَنَالُوا الْبِرَّ حَتَّى تُنْفِقُوا مِمَّا تُحِبُّونَ**﴾ وَإِنَّ أَحَبَّ مَالِي إِلَيَّ بَيْرُحَاءُ وَإِنَّهَا صَدَقَةٌ لِلَّهِ تَعَالَى أَرْجُو بِرَّهَا وَذُخْرَهَا عِنْدَ اللَّهِ تَعَالَى فَضَعْهَا يَا رَسُولَ اللَّهِ ، حَيْثُ أَرَاكَ اللَّهُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «بَخْ ذَلِكَ مَالٌ رَابِحٌ ذَلِكَ مَالٌ رَابِحٌ وَقَدْ سَمِعْتُ مَا قُلْتَ وَإِنِّي أَرَى أَنْ تَجْعَلَهَا فِي ٱلْأَقْرَبِينَ» فَقَالَ أَبُو طَلْحَةَ: أَفْعَلُ يَا رَسُولَ اللَّهِ؛ فَقَسَمَهَا أَبُو طَلْحَةَ فِي أَقَارِبِهِ وَبَنِي عَمِّهِ . مُتَّفَقٌ عَلَيْهِ.

299. Ənəs *radiyallahu anh* belə dedi:

Mədinədə ənsardan ən çox xurmalığı olan Əbu Talha idi. Ən çox sevdiyi malı da Məscidi-Nəbəvinin qarşısındakı Beyruha adlı xurma bağçası idi. Rəsulullah *səllallahu əleyhi və səlləm* bu bağçaya gedər və oradakı sudan içərdi.

Ənəs (sözünün davamında) dedi:

"Sevdiyiniz şeylərdən Allah yolunda xərcləmədikcə (infaq etmədikcə) yaxşılığın zirvəsinə çatmazsınız" ayeyi-kəriməsi nazil olanda Əbu Talha Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Ya Rəsulallah, Allah-Təala sənə "Sevdiyiniz şeylərdən Allah yolunda xərcləmədikcə yaxşılığın zirvəsinə çatmazsınız" ayəsini nazil etdi. Ən çox sevdiyim malım Beyruha bağçasıdır. Onu Allah rizası üçün sədəqə edirəm. Allahdan onun savabını və axirət azuqəsi olmasını istəyirəm. Beyruhadan Allahın sənə göstərdiyi kimi istifadə et,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Afərin sənə! Karlı mal bax budur! Səni eşitdim, Əbu Talha. Onu qohumlarına verməyini münasib bilirəm".**

Əbu Talha:

- Elə edərəm, ey Allahın Rəsulu,- dedi və bağçanı qohumları və əmisi oğulları arasında bölüşdürdü.

Buxari, Zəkat 44, Vəkalət 15, Vəsaya 10, 17, 26, Təfsiru surə (3) 5, Əşribə 13; Müslim, Zəkat 42, 43

AİLƏDƏ DİN TƏRBİYƏSİ

AİLƏ ÜZVLƏRİNƏ, UŞAQLARINA VƏ İDARƏSİ ALTINDA OLANLARA ALLAHA İTAƏTKAR OLMAĞI ƏMR ETMƏK VƏ ONLARI ALLAHA QARŞI GƏLMƏKDƏN ÇƏKİNDİRMƏK, ONLARA TƏRBİYƏ VERMƏK, DİNİN QADAĞALARINDAN UZAQLAŞDIRMAQ

Ayələr

وَأْمُرْ أَهْلَكَ بِالصَّلاَةِ وَاصْطَبِرْ عَلَيْهَا.

1. "Ailənə namaz qılmağı əmr et, özün də ona (namaza) **səbirlə davam et".** (Taha, 132)

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنْفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا.

2. "Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlardır".

(ət-Təhrim, 6)

Hədislər

٣٠٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَخَذَ الْحَسَنُ بْنُ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُمَا تَمْرَةً مِنْ تَمْرِ الصَّدَقَةِ فَجَعَلَهَا فِي فِيهِ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «كَخْ كَخْ إِرْمِ بِهَا، أَمَا عَلِمْتَ أَنَّا لاَ نَأْكُلُ الصَّدَقَةَ!» . مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ: «أَنَّا لاَ تَحِلُّ لَنَا الصَّدَقَةُ».

300. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Hz. Əlinin oğlu Həsən *radiyallahu anhumə* sədəqə edilmiş xurmalardan birini götürüb ağzına aparmışdı.

Bunu görən Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- "Kıx-kıx! At onu! Bilmirsənmi biz sədəqə yemirik?" - buyurdu. [24]

24. Hədisdə keçən **"Biz"** dən məqsəd Əhli-beytdir.

Buxari, Zəkat 60, Cihad 188; Müslim, Zəkat 161

Başqa bir rəvayətə görə belə buyurdu:

“Bizə sədəqə halal deyil, bilmirsənmi?”

Müslim, Zəkat 161

❁

٣٠١ ـ عَنْ أَبِي حَفْصٍ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ عَبْدِ اللَّهِ بْنِ عَبْدِ الْأَسَدِ ، رَبِيبِ رَسُولِ اللَّهِ ﷺ قَالَ: كُنْتُ غُلَامًا فِي حَجْرِ رَسُولِ اللَّهِ ﷺ ، وَكَانَتْ يَدِي تَطِيشُ فِي الصَّحْفَةِ ، فَقَالَ لِي رَسُولُ اللَّهِ ﷺ : «يَا غُلَامُ ، سَمِّ اللَّهَ تَعَالَى ، وَكُلْ بِيَمِينِكَ ، وَكُلْ مِمَّا يَلِيكَ». فَمَا زَالَتْ تِلْكَ طِعْمَتِي بَعْدُ». مُتَّفَقٌ عَلَيْهِ .

301. Rəsulullah *səllallahu əleyhi və səlləmin* ögey oğlu Əbu Sələmə Abdullah bin Abduləsədin doğma oğlu Əbu Hafs Ömər belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* himayəsində böyüyən uşaq idim. Yemək yeyərkən əlim yemək qabının hər tərəfini gəzərdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyurdu:

“Oğul, bismillah de, sağ əlinlə və önündən ye!”

O gündən sonra buyurduğu kimi yedim.

Buxari, Ətimə 2, 3; Müslim, Əşribə 108. Həmçinin bax. İbn Macə, Ətimə 8

❁

٣٠٢ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «كُلُّكُمْ رَاعٍ ، وَكُلُّكُمْ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ: الْإِمَامُ رَاعٍ وَمَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ ، وَالرَّجُلُ رَاعٍ فِي أَهْلِهِ وَمَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ ، وَالْمَرْأَةُ رَاعِيَةٌ فِي بَيْتِ زَوْجِهَا وَمَسْؤُولَةٌ عَنْ رَعِيَّتِهَا ، وَالْخَادِمُ رَاعٍ فِي مَالِ سَيِّدِهِ وَمَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ، فَكُلُّكُمْ رَاعٍ وَمَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ». مُتَّفَقٌ عَلَيْهِ .

302. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitmişdir:

“Hamınız çobansınız və güddüyünüz sürüdən məsulsunuz. Dövlət başçısı da çobandır, sürüsündən məsuldur. Kişi ailəsinin çobanıdır və sürüsündən məsuldur. Qadın ərinin evinin çobanıdır və sürüsündən məsuldur. Xidmətçi sahibinin malının çobanıdır, o da sürüsündən məsuldur. Bir sözlə, hər biriniz çobansınız və güddüyünüz sürüdən məsulsunuz”.

Buxari, Cümə 11, İstiqraz 20, İtq 17, 19, Vəsaya 9, Nikah 81, 90, Əhkam 1; Müslim, İmarə 20. Həmçinin bax. Əbu Davud, İmarə 1, 13; Tirmizi, Cihad 27

❁

٣٠٣ ـ عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مُرُوا أَوْلاَدَكُمْ بِالصَّلاَةِ وَهُمْ أَبْنَاءُ سَبْعِ سِنِينَ ، وَاضْرِبُوهُمْ عَلَيْهَا وَهُمْ أَبْنَاءُ عَشْرٍ ، وَفَرِّقُوا بَيْنَهُمْ فِي الْمَضَاجِعِ». رَوَاهُ أَبُو دَاوُ دَ.

303. Amr bin Şueyb atası Şueybdən, o da babası Abdullah bin Amr bin As *radiyallahu anhdan* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu rəvayət etdi:

“Uşaqlarınıza yeddi yaşında namaz qılmalarını deyin. On yaşına girdikləri halda qılmazlarsa, onları cəzalandırın, yataqlarını da ayırın”.

Əbu Davud, Salət 26

❁

٣٠٤ ـ عَنْ أَبِي ثُرَيَّةَ سَبْرَةَ بْنِ مَعْبَدٍ الْجُهَنِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «عَلِّمُوا الصَّبِيَّ الصَّلاَةَ لِسَبْعِ سِنِينَ ، وَاضْرِبُوهُ عَلَيْهَا ابْنَ عَشْرِ سِنِينَ». رَوَاهُ أَبُو دَاوُدَ.

وَالتِّرْمِذِيُّ. وَلَفْظُ اَبِى دَاوُدَ: مُرُوا الصَّبِيَّ بِالصَّلاَةِ اِذَا بَلَغَ سَبْعَ سِنِينَ».

304. Əbu Süreyyə Səbirə bin Məbəd əl-Cühəni *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Uşağa yeddi yaşında namaz qılmağı öyrədin. On yaşına girdiyi halda qılmazsa cəzalandırın”.

Əbu Davud, Salət 26; Tirmizi, Məvaqit 182

Əbu Davudda keçən hədisdə belədir:

“Uşaq yeddi yaşına girəndə namaz qılmasını tapşırın”.

QONŞU HAQQI VƏ BUNUNLA BAĞLI TÖVSİYƏLƏR

Ayə

وَاعْبُدُوا اللَّهَ وَلاَ تُشْرِكُوا بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَبِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَى وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ بِالْجَنْبِ وَابْنِ السَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ.

“Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-ana-ya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qo-num-qonşuya, yaxın (yoldaş və) **dosta,** (pulu qurtarıb yolda qalan) **müsafirə** (yolçulara)**, əlinizin altında olana** (sahib olduğunuz qul və kənizlərə) **yaxşılıq edin!”** (ən-Nisa, 36)

Hədislər

٣٠٥ ـ عَنِ ابْنِ عُمَرَ وَعَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالاَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَازَالَ جِبْرِيلُ يُوصِينِي بِالْجَارِ حَتَّى ظَنَنْتُ أَنَّهُ سَيُوَرِّثُهُ». مُتَّفَقٌ عَلَيْهِ.

305. İbn Ömər və Aişə *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Cəbrayıl mənə qonşuya yaxşılq etməyi o qədər tövsiyə etdi ki, qonşunu qonşuya varis təyin edəcəyini zənn etdim”.

Buxari, Ədəb 28; Müslim, Birr 140-141. Həmçinin bax. Tirmizi, Birr 28; İbn Macə, Ədəb 4

٣٠٦ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «يَا أَبَا ذَرٍّ ، إِذَا طَبَخْتَ مَرَقَةً فَأَكْثِرْ مَاءَهَا وَتَعَاهَدْ جِيْرَانَكَ». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لَهُ عَنْ أَبِي ذَرٍّ قَالَ: إِنَّ خَلِيلِي ﷺ أَوْصَانِي «إِذَا طَبَخْتَ مَرَقَةً فَأَكْثِرْ مَاءَهَا ، ثُمَّ انْظُرْ أَهْلَ بَيْتٍ مِنْ جِيرَانِكَ ، فَأَصِبْهُمْ مِنْهَا بِمَعْرُوفٍ».

306. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ey Əbu Zərr, şorba bişirdiyin zaman suyunu çox tök və qonşularını da nəzərə al!"

Müslim, Birr 142. Həmçinin bax. İbn Macə, Ətimə 58; Tirmizi, Ətimə 30

Müslimin Əbu Zərdən başqa bir rəvayəti belədir:

Dostum Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə vəsiyyət etdi:

"Şorba bişirdiyin zaman suyunu çox tök. Sonra da qonşularını gözdən keçir, lazım bildiklərinə gözəl şəkildə ver".

Müslim, Birr 143

❁

٣٠٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «وَاللَّهِ لاَ يُؤْمِنُ ، وَاللَّهِ لاَ يُؤْمِنُ ، وَاللَّهِ لاَ يُؤْمِنُ!» قِيلَ: مَنْ يَا رَسُولَ اللَّهِ ؟ قَالَ: «الَّذِي لاَ يَأْمَنُ جَارُهُ بَوَائِقَهُ!» .مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: «لاَ يَدْخُلُ الْجَنَّةَ مَنْ لاَ يَأْمَنُ جَارُهُ بَوَائِقَهُ».

307. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Vallahi, iman etimiş olmaz. Vallahi, iman etmiş olmaz. Vallahi iman etmiş olmaz", -** buyurdu.

Səhabələr:

- Kim iman etmiş olmaz, ya Rəsulallah? - deyə soruşdular.

- **"İşləyəcəyi pis əməllərindən qonşusu əmin olmayan kəs", -** buyurdu.

Buxari, Ədəb 29; Müslim, İman 73. Həmçinin bax. Tirmizi, Qiyamət 60

Müslimin bir rəvayətinə görə isə:

"İşləyəcəyi pis əməllərdən qonşusu əmin olmayan cənnətə girə bilməz", - buyurdu

Müslim, İman 73

❁

٣٠٨ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَا نِسَاءَ الْمُسْلِمَاتِ ، لَا تَحْقِرَنَّ جَارَةٌ لِجَارَتِهَا وَلَوْ فِرْسِنَ شَاةٍ». مُتَّفَقٌ عَلَيْهِ .

308. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ey müsəlman qadınlar, alıb-verdikləri bir qoyun ayağı da olsa, qonşu xanımlar bir-biri ilə hədiyyələşməyi kiçik (əməl) saymasın".

Buxari, Hibə 1, Ədəb 30; Müslim, Zəkat 90. Həmçinin bax. Tirmizi, Vəla 60

❁

٣٠٩ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لَا يَمْنَعْ جَارٌ جَارَهُ أَنْ يَغْرِزَ خَشَبَةً فِي جِدَارِهِ». ثُمَّ يَقُولُ أَبُو هُرَيْرَةَ: مَالِي أَرَاكُمْ عَنْهَا مُعْرِضِينَ! وَاللَّهِ لَأَرْمِيَنَّ بِهَا بَيْنَ أَكْتَافِكُمْ! مُتَّفَقٌ عَلَيْهِ .

309. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən heç kim divarına ağac vurmaq istəyən qonşusuna mane olmasın".

Əbu Hüreyrə hədisi rəvayət etdikdən sonra oradakılara:

Nə üçün bu sünnəni yerinə yetirməkdən çəkinirsiniz? Vallahi, mən bu sünnəni sizə mənimsədənə qədər əlimdən gələni edəcəyəm,- dedi.

Buxari, Məzalim 20, Əşribə 24; Müslim, Musaqat 136. Həmçinin bax. Əbu Davud, Əqdiyyə 31; Tirmizi, Əhkam 18; İbn Macə, Əhkam 15

٣١٠ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلاَ يُؤْذِ جَارَهُ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَسْكُتْ». مُتَّفَقٌ عَلَيْهِ .

310. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allaha və axirət gününə iman edən kəs qonşusunu narahat etməsin. Allaha və axirət gününə iman edən kəs qonağına ikram etsin. Allaha və axirət gününə iman edən kəs ya faydalı söz söyləsin, yaxud sussun!"

Buxari, Nikah 80, Ədəb 31, 85, Riqaq 23; Müslim, İman 74, 75. Həmçinin bax. Əbu Davud, Ədəb 123; Tirmizi, Qiyamət 50; İbn Macə, Ədəb 4

❁

٣١١ ـ عَنْ أَبِي شُرَيْحٍ الْخُزَاعِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلْيُحْسِنْ إِلَى جَارِهِ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَسْكُتْ». رَوَاهُ مُسْلِمٌ .

311. Əbu Şüreyh əl-Hüzai *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allaha və axirət gününə iman edən kəs qonşusuna yaxşılıq etsin. Allaha və axirət gününə iman edən kəs qonağına ikram etsin. Allaha və axirət gününə iman edən kəs ya faydalı söz söyləsin, yaxud sussun!"

Müslim, İman 77

❁

٣١٢ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ إِنَّ لِي جَارَيْنِ، فَإِلَى أَيِّهِمَا أُهْدِي؟ قَالَ: «إِلَى أَقْرَبِهِمَا مِنْكِ بَابًا». رَوَاهُ الْبُخَارِيُّ .

312. Hz. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə belə dedi:

- Ya Rəsulallah, iki qonşum var, hansına hədiyyə verim? - deyə soruşdum.

- **"Qapısı sənə daha yaxın olana ver", -** buyurdu.

Buxari, Şufa 3, Hibə 16, Ədəb 32

❁

٣١٣ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «خَيْرُ الْأَصْحَابِ عِنْدَ اللَّهِ تَعَالَى خَيْرُهُمْ لِصَاحِبِهِ ، وَخَيْرُ الْجِيرَانِ عِنْدَ اللَّهِ تَعَالَى خَيْرُهُمْ لِجَارِهِ» . رَوَاهُ التِّرْمِذِيُّ .

313. Abdullah bin Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təalaya görə dostların xeyirlisi dostuna faydası toxunandır. Həmçinin Allah-Təalaya görə qonşuların xeyirlisi qonşusuna faydalı olandır".

Tirmizi, Birr 28

ATA-ANAYA YAXŞILIQ VƏ QOHUM-ƏQRƏBA ZİYARƏTİ

Ayələr

وَاعْبُدُوا اللَّهَ وَلاَ تُشْرِكُوا بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَبِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَى وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ بِالْجَنْبِ وَابْنِ السَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ.

1. "Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) **dosta,** (pulu qurtarıb yolda qalan) **müsafirə** (yolçulara)**, əlinizin altında olana** (sahib olduğunuz qul və kənizlərə) **yaxşılıq edin!"** (ən-Nisa, 36)

وَاتَّقُوا اللَّهَ الَّذِي تَسَاءَلُونَ بِهِ وَالْأَرْحَامَ.

2. "(Adı ilə) **bir-birinizdən** (cürbəcür şeylər) **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin!"**

(ən-Nisa, 1)

وَالَّذِينَ يَصِلُونَ مَا أَمَرَ اللَّهُ بِهِ أَنْ يُوصَلَ.

3. "O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir (qohumluq əlaqələrini qoruyub saxlayır, möminlərə hörmət edir)**, Rəbbindən və** (qiyamət günü çəkiləcək) **pis haqq-hesabdan qorxurlar".** (ər-Rad, 21)

وَوَصَّيْنَا الْإِنْسَانَ بِوَالِدَيْهِ حُسْنًا.

4. "Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) **tövsiyə etdik".** (əl-Ənkəbut, 8)

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُوا إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِنْدَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُلْ لَهُمَا أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُلْ لَهُمَا قَوْلاً كَرِيمًا وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُلْ رَبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا.

5. "Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) **buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında** (yaşayıb) **qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb: "Ey Rəbbim! Onlar məni körpəliyimdən** (nəvazişlə) **tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de".** (əl-İsra, 23-24)

وَوَصَّيْنَا الْإِنْسَانَ بِوَالِدَيْهِ حَمَلَتْهُ أُمُّهُ وَهْنًا عَلَى وَهْنٍ وَفِصَالُهُ فِي عَامَيْنِ أَنِ اشْكُرْ لِي وَلِوَالِدَيْكَ.

6. "Biz insana ata-anasına (yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) **tövsiyə etdik. Anası onu** (bətnində) **çox zəif bir halda daşımışdı.** (Uşağın süddən) **kəsilməsi isə iki il ərzində olur.** (Biz insana buyurduq:) **"Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir!"** (Loğman, 14)

Hədislər

٣١٤ - عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ سَأَلْتُ النَّبِيَّ ﷺ : أَيُّ الْعَمَلِ أَحَبُّ إِلَى اللَّهِ تَعَالَى؟ قَالَ: «الصَّلاَةُ عَلَى وَقْتِهَا» ، قُلْتُ: ثُمَّ أَيٌّ؟ قَالَ «بِرُّ الْوَالِدَيْنِ» ، قُلْتُ: ثُمَّ أَيٌّ؟ قَالَ: «الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ» . مُتَّفَقٌ عَلَيْهِ .

314. Əbu Əbdürrəhman Abdullah bin Məsud *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmdən*:

- Allahın ən çox bəyəndiyi əməl hansıdır? - deyə soruşdum.

- **"Vaxtında qılınan namazdır", -** cavabını verdi.

- Sonra hansı ibadət gəlir? - dedim.

- **"Ata-anaya yaxşılıq və itaət etmək", -** buyurdu.

- Sonra hansı əməl gəlir? - deyə soruşdum.

- **"Allah yolunda cihad etmək", -** buyurdu.

Buxari, Məvaqit 5, Cihad 1, Ədəb 1, Tövhid 48; Müslim, İman 137-139. Həmçinin bax. Tirmizi, Salət 14, Birr 2; Nəsai, Məvaqit 51

❁

315. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Heç bir övlad atasının haqqını ödəyə bilməz. Əgər onu kölə kimi tapar və satın alıb azad edərsə, atalıq haqqını ödəmiş olar".

Müslim, İtq 25. Həmçinin bax. Əbu Davud, Ədəb 120; Tirmizi, Birr 8; İbn Macə, Ədəb 1

٣١٦ ـ وَعَنْهُ أَيْضًا رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَصِلْ رَحِمَهُ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَصْمُتْ». مُتَّفَقٌ عَلَيْهِ

316. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allaha və axirət gününə iman edən kəs qonağına ikram etsin. Allaha və axirət gününə iman edən kəs qohumlarına yaxşılıq etsin. Allaha və axirət gününə iman edən kəs ya faydalı söz söyləsin, yaxud da sussun!"

Buxari Ədəb 85, Muslim İman 74, 75. Həmçinin bax. Buxari, Nikah 80, Ədəb 31, Əbu Davud, Ədəb 123. Tirmizi, Qiyamət 50, İbn Macə; Ədəb 4.

❁

٣١٧ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ اللَّهَ تَعَالَى خَلَقَ الْخَلْقَ ، حَتَّى إِذَا فَرَغَ مِنْهُمْ قَامَتِ الرَّحِمُ فَقَالَتْ: هَذَا مَقَامُ الْعَائِذِ بِكَ مِنَ الْقَطِيعَةِ ، قَالَ: نَعَمْ ، أَمَا تَرْضَيْنَ أَنْ أَصِلَ مَنْ وَصَلَكِ ، وَأَقْطَعَ مَنْ قَطَعَكِ؟ قَالَتْ: بَلَى ، قَالَ: فَذَلِكَ لَكِ ، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ : «اقْرَؤُوا إِنْ شِئْتُمْ: ﴿فَهَلْ عَسَيْتُمْ إِنْ تَوَلَّيْتُمْ أَنْ تُفْسِدُوا فِي الْأَرْضِ وَتُقَطِّعُوا أَرْحَامَكُمْ أُولَئِكَ الَّذِينَ لَعَنَهُمُ اللَّهُ فَأَصَمَّهُمْ وَأَعْمَى أَبْصَارَهُمْ﴾. مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِلْبُخَارِيِّ : فَقَالَ اللَّهُ تَعَالَى : «مَنْ وَصَلَكِ وَصَلْتُهُ ، وَمَنْ قَطَعَكِ قَطَعْتُهُ» .

317. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala varlıqları yaradıb qurtardıqdan sonra qohumluq bağı (rəhim) ayağa qalxaraq:

- (Hüzurundakı) bu duruş qohumluq əlaqəsini kəsən adamdan sənə sığınanın duruşudur,- dedi.

Allah-Təala:

- Səni qoruyub riayət edəni himayə etməyimə, sənin ilə əlaqəsini kəsəndən rəhmətimi kəsməyimə razı deyilsənmi? - deyə soruşdu.

Qohumluq bağı:

- Bəli, razıyam,- dedi.

Bu zaman Allah-Təala:

- Bu haqq sənə verilmişdir,- buyurdu.

Bunları danışandan sonra Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- İstəyirsiniz (bunu təsdiq edən) bu ayəni oxuyun,- buyurdu:

"Əgər (Muhammməd əleyhissəlamdan) **üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və** (Cahiliyyət dövründə olduğu kimi) **qohumluq tellərini qırmaq gözlənilməzmi?! Onlar** (münafiqlər, fitnə-fəsad törədənlər) **Allahın lənət etdiyi** (qulaqlarını) **kar və gözlərini kor etdiyi kimsələrdir!"** (Muhammməd, 22-23)

Buxari, Təfsiru surə 47, Ədəb 13, Tövhid 35; Müslim, Birr 16

Buxarinin bir rəvayətinə görə Allah-Təala belə buyurur:

"Ey qohumluq əlaqəsi, sənə riayət edəni himayə edərəm. Sənin ilə əlaqəsini kəsəndən Mən də əlaqəmi kəsərəm".

Buxari, Ədəb 13

❁

٣١٨ ـ وَعَنْهُ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: «يَا رَسُولَ اللَّهِ ، مَنْ أَحَقُّ النَّاسِ بِحُسْنِ صَحَابَتِي؟ قَالَ: «أُمُّكَ» قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: «أُمُّكَ» قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: «أُمُّكَ» قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: «أَبُوكَ» . مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ: يَا رَسُولَ اللَّهِ ، مَنْ أَحَقُّ بِحُسْنِ الصُّحْبَةِ؟ قَالَ: «أُمُّكَ ثُمَّ أُمُّكَ ثُمَّ أُمُّكَ ثُمَّ أَبُوكَ ثُمَّ أَدْنَاكَ أَدْنَاكَ».

318. Yenə Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Bir nəfər Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gələrək:

- Ən yaxşı rəftar edəcəyim adam kimdir? - deyə soruşdu.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Anan!" -** buyurdu.

Həmin adam:

- Ondan sonra kimdir? - deyə soruşdu.

- **"Anan!" -** dedi.

Həmin adam təkrar:

- Sonra kim gəlir? - dedi.

- **"Anan!" -** buyurdu.

Həmin adam bir daha:

- Sonra kimdir? - deyə soruşdu.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Atan!" -** cavabını verdi.

Buxari, Ədəb 2; Müslim, Birr 1. Həmçinin bax. İbn Macə, Vəsaya 4; Əbu Davud, Ədəb 120; Tirmizi, Birr 1

Bir rəvayətə görə həmin adam:

- Ey Allahın Rəsulu, Ən yaxşı rəftar etməli olduğum adam kimdir? - deyə soruşdu.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Anan, sonra anan, daha sonra yenə anan, sonra atan, sonra da sənə ən yaxın olan qohumların", -** buyurdu.

Müslim, Birr 2

❁

٣١٩ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «رَغِمَ أَنْفُ ، ثُمَّ رَغِمَ أَنْفُ ، ثُمَّ رَغِمَ أَنْفُ مَنْ أَدْرَكَ أَبَوَيْهِ عِنْدَ الْكِبَرِ: أَحَدَهُمَا أَوْ كِلَيْهِمَا فَلَمْ يَدْخُلِ الْجَنَّةَ» . رَوَاهُ مُسْلِمٌ .

319. Yenə Əbu Hüreyrədən rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ata-anasına və ya onlardan sadəcə birinə ixtiyar çağlarında yetişdiyi halda cənnətə girə bilməyən adam pərişan olsun, pərişan olsun, pərişan olsun".

Müslim, Birr 9, 10

٣٢٠ ـ وَعَنْهُ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلاً قَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنَّ لِي قَرَابَةً أَصِلُهُمْ وَيَقْطَعُونَنِي ، وَأُحْسِنُ إِلَيْهِمْ وَيُسِيئُونَ إِلَيَّ ، وَأَحْلُمُ عَنْهُمْ وَيَجْهَلُونَ عَلَيَّ. فَقَالَ: «لَئِنْ كُنْتَ كَمَا قُلْتَ فَكَأَنَّمَا تُسِفُّهُمُ الْمَلَّ ، وَلاَ يَزَالُ مَعَكَ مِنَ اللَّهِ ظَهِيرٌ عَلَيْهِمْ مَا دُمْتَ عَلَى ذَلِكَ» . رَوَاهُ مُسْلِمٌ .

320. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir nəfər:

- Ya Rəsulallah, mənim qohumlarım var. Mən onları ziyarət edirəm, onlar isə mənim yanıma gəlib-getmirlər. Mən onlara yaxşılıq edirəm, onlar mənə pislik edirlər. Mən onlara anlayış göstərirərm, onlarsa mənimlə kobud rəftar edirlər,- dedi.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Əgər dediyin kimidirsə, onlara qızmar kül uddurmuş olursan.** [5] Sən belə hərəkət etdikcə Allahın yardımı sənin ilədir".

Müslim, Birr 22

❁

٣٢١ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ أَحَبَّ أَنْ يُبْسَطَ لَهُ فِي رِزْقِهِ وَيُنْسَأَلَهُ فِي أَثَرِهِ فَلْيَصِلْ رَحِمَهُ» مُتَّفَقٌ عَلَيْهِ .

321. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ruzisinin artmasını, ömrünün uzanmasını istəyən sileyi-rəhmə riayət etsin".

Buxari, Ədəb 12, Büyu 13; Müslim, Birr 20, 21. Həmçinin bax. Əbu Davud, Zəkat 45

25. Bu ifadə "sənin yaxınların bu davranışları səbəbi ilə gələcəkdə çox peşman olacaq, qızmar külün mədəni yandırdığı kimi iztirab çəkəcəklər" mənasına gələn təşbehdir.

٣٢٢ ـ وَعَنْهُ قَالَ: كَانَ أَبُو طَلْحَةَ أَكْثَرَ الْأَنْصَارِ بِالْمَدِينَةِ مَالًا مِنْ نَخْلٍ ، وَكَانَ أَحَبُّ أَمْوَالِهِ إِلَيْهِ بَيْرُحَاءَ ، وَكَانَتْ مُسْتَقْبِلَةَ الْمَسْجِدِ ، وَكَانَ رَسُولُ اللَّهِ ﷺ يَدْخُلُهَا وَيَشْرَبُ مِنْ مَاءٍ فِيهَا طَيِّبٍ ، فَلَمَّا نَزَلَتْ هَذِهِ الْآيَةُ: ﴿لَنْ تَنَالُوا الْبِرَّ حَتَّى تُنْفِقُوا مِمَّا تُحِبُّونَ﴾ قَامَ أَبُو طَلْحَةَ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنَّ اللَّهَ تَبَارَكَ وَتَعَالَى يَقُولُ: ﴿لَنْ تَنَالُوا الْبِرَّ حَتَّى تُنْفِقُوا مِمَّا تُحِبُّونَ﴾. وَإِنَّ أَحَبَّ مَالِي إِلَيَّ بَيْرُحَاءُ ، وَإِنَّهَا صَدَقَةٌ لِلَّهِ أَرْجُو بِرَّهَا وَذُخْرَهَا عِنْدَ اللَّهِ تَعَالَى ، فَضَعْهَا يَا رَسُولَ اللَّهِ حَيْثُ أَرَاكَ اللَّهُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «بَخٍ ذَلِكَ مَالٌ رَابِحٌ ، ذَلِكَ مَالٌ رَابِحٌ! وَقَدْ سَمِعْتُ مَا قُلْتَ ، وَإِنِّي أَرَى أَنْ تَجْعَلَهَا فِي الْأَقْرَبِينَ». فَقَالَ أَبُو طَلْحَةَ : أَفْعَلُ يَا رَسُولَ اللَّهِ. فَقَسَّمَهَا أَبُو طَلْحَةَ فِي أَقَارِبِهِ وَبَنِي عَمِّهِ. مُتَّفَقٌ عَلَيْهِ .

322. Yenə Ənəs *radiyallahu anh* belə dedi:

Mədinədə ənsardan ən çox xurmalığı olan Əbu Talha idi. Ən çox sevdiyi malı da Məscidi-Nəbəvinin qarşısındakı Beyruha adlı xurma bağçası idi. Rəsulullah *səllallahu əleyhi və səlləm* bu bağçaya gedər və oradakı sudan içərdi.

Ənəs (sözünün davamında) dedi:

"Sevdiyiniz şeylərdən Allah yolunda xərcləmədikcə (infaq etmədikcə) yaxşılığın zirvəsinə çatmazsınız" ayeyi-kəriməsi nazil olanda Əbu Talha Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Ya Rəsulallah, Allah-Təala sənə "Sevdiyiniz şeylərdən Allah yolunda xərcləmədikcə yaxşılığın zirvəsinə çatmazsınız" ayəsini nazil etdi. Ən çox sevdiyim malım Beyruha bağçasıdır. Onu Allah rizası üçün sədəqə edirəm. Allahdan onun savabını və axirət azuqəsi olmasını istəyirəm. Beyruhadan Allahın sənə göstərdiyi kimi istifadə et,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Afərin sənə! Karlı mal bax budur! Səni eşitdim, Əbu Talha. Onu qohumlarına verməyini münasib bilirəm".**

Əbu Talha:

- Elə edərəm, ey Allahın Rəsulu,- dedi və bağçanı qohumları və əmisi oğulları arasında bölüşdürdü.

Buxari, Zəkat 44, Vəkalət 15, Vəsaya 10, 17, 26, Təfsiru surə (3) 5, Əşribə 13; Müslim, Zəkat 42, 43

❁

٣٢٣ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَقْبَلَ رَجُلٌ إِلَى نَبِيِّ اللَّهِ ﷺ فَقَالَ: أُبَايِعُكَ عَلَى الْهِجْرَةِ ، وَالْجِهَادِ ، أَبْتَغِي الْأَجْرَ مِنَ اللَّهِ تَعَالَى. فَقَالَ: «هَلْ لَكَ مِنْ وَالِدَيْكَ أَحَدٌ حَيٌّ؟! قَالَ: نَعَمْ ، بَلْ كِلاَهُمَا. قَالَ: «فَتَبْتَغِي الْأَجْرَ مِنَ اللَّهِ تَعَالَى؟» قَالَ: نَعَمْ. قَالَ: «فَارْجِعْ إِلَى وَالِدَيْكَ فَأَحْسِنْ صُحْبَتَهُمَا» . مُتَّفَقٌ عَلَيْهِ .

وَهَذَا لَفْظُ مُسْلِمٍ. وَفِي رِوَايَةٍ لَهُمَا: جَاءَ رَجُلٌ فَاسْتَأْذَنَهُ فِي الْجِهَادِ. فَقَالَ: «أَحَيٌّ وَالِدَاكَ؟» قَالَ نَعَمْ. «فَفِيهِمَا فَجَاهِدْ!»

323. Abdullah bin Amr bin As *radiyallahu anhumə* belə dedi:

Bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələrək:

- Hicrət və cihad etmək üçün sənə beyət edirəm. Bunların savabını Allahdan istəyirəm,- dedi.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Ata-anandan həyatda olan varmı?" -** deyə soruşdu.

Həmin adam:

- Bəli, hər ikisi həyatdadır,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Allahdan savab istəyirsən, eləmi?" -** deyə soruşdu.

Adam:

- Bəli,- dedi. Rəsulullah:

- **"Ata-ananın yanına qayıt. Onlara yaxşı bax!" -** buyurdu.

Buxari, Cihad 138; Müslim, Birr 6

Bu rəvayət Səhihi-Müslimdən götürülmüşdür. Buxari və Müslimin başqa bir rəvayəti isə belədir:

Bir nəfər Rəsulullahın yanına gələrək cihad etmək üçün ondan izin istədi. Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Ata-anan sağdırmı?" -** deyə soruşdu.

O:

- Bəli,- cavabını verdikdə:

- **"Elə isə onlara xidmət etməyə çalış!" -** buyurdu.

Buxari, Cihad 138, Ədəb 3; Müslim, Birr 5. Həmçinin bax. Tirmizi, Cihad 2; Nəsai, Cihad 5

❁

٣٢٤ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَيْسَ الْوَاصِلُ بِالْمُكَافِيءِ وَلَكِنَّ الْوَاصِلَ الَّذِي إِذَا قَطَعَتْ رَحِمُهُ وَصَلَهَا» . رَوَاهُ الْبُخَارِيُّ .

324. Yenə Abdullah bin Amr bin Asdan rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qohumlarının etdiyi yaxşılığa eynilə qarşılıq verən onların haqlarına riayət etmiş sayılmaz. Qohumlarını qoruyub himayə edən onunla əlaqələrini kəsdikləri vaxt da onlara yaxşılıq etməyə davam edəndir".

Buxari, Ədəb 15. Həmçinin bax. Əbu Davud, Zəkat 45; Tirmizi, Birr 10

❁

٣٢٥ ـ عَنْ عَائِشَةَ قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «الرَّحِمُ مُعَلَّقَةٌ بِالْعَرْشِ تَقُولُ: مَنْ وَصَلَنِي وَصَلَهُ اللَّهُ ، وَمَنْ قَطَعَنِي قَطَعَهُ اللَّهُ». مُتَّفَقٌ عَلَيْهِ .

325. Hz. Aişədən rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sileyi-rəhm (qohumluq əlaqəsi) **Ərşi-Ələdan tutaraq belə demişdir: Mənə riayət edəni Allah qoruyub himayə etsin. Mənimlə əlaqəsini kəsəndən Allah rəhmətini kəssin".**

Buxari, ədəb 13; Müslim, Birr 17

❁

٣٢٦ - عَنْ أُمِّ الْمُؤْمِنِينَ مَيْمُونَةَ بِنْتِ الْحَارِثِ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّهَا أَعْتَقَتْ وَلِيدَةً ، وَلَمْ تَسْتَأْذِنِ النَّبِيَّ ﷺ. فَلَمَّا كَانَ يَوْمُهَا الَّذِي يَدُورُ عَلَيْهَا فِيهِ قَالَتْ: أَشَعَرْتَ يَا رَسُولَ اللَّهِ أَنِّي أَعْتَقْتُ وَلِيدَتِي؟ قَالَ: «أَوَ فَعَلْتِ؟» قَالَتْ: نَعَمْ. قَالَ: «أَمَا إِنَّكِ لَوْ أَعْطَيْتِهَا أَخْوَالَكِ كَانَ أَعْظَمَ لِأَجْرِكِ». مُتَّفَقٌ عَلَيْهِ .

326. Möminlərin anası Meymunə binti Haris *radiyallahu anhədən* rəvayət edildiyinə görə Hz. Meymunə Peyğəmbər *səllallahu əleyhi və səlləmə* xəbər vermədən bir cariyə azad etmişdi. Rəsulullahın onun yanında gecələmə növbəsi çatıb yanına gələndə:

- Ya Rəsulallah, diqqətini çəkdimi, cariyəmi azad etdim,- dedi. Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- "Doğrudanmı?" - dedi. Hz. Meymunə:

- Bəli, həqiqətən azad etdim,- dedikdə:

- **"Əgər cariyəni dayılarına hədiyyə etsəydin, daha çox savab qazanardın", -** buyurdu.

Buxari, Hibə 15, 16; Müslim, Zəkat 44

❁

٣٢٧ - عَنْ أَسْمَاءَ بِنْتِ أَبِي بَكْرٍ الصِّدِّيقِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَتْ: قَدِمَتْ عَلَيَّ أُمِّي وَهِيَ مُشْرِكَةٌ فِي عَهْدِ رَسُولِ اللَّهِ ﷺ فَاسْتَفْتَيْتُ رَسُولَ اللَّهِ ﷺ قُلْتُ: قَدِمَتْ عَلَيَّ أُمِّي وَهِيَ رَاغِبَةٌ ، أَفَأَصِلُ أُمِّي؟ قَالَ : «نَعَمْ ، صِلِي أُمَّكِ» . مُتَّفَقٌ عَلَيْهِ.

327. Hz. Əbu Bəkrin qızı Əsma *radiyallahu anhumə* belə dedi:

İslamı qəbul etməmiş anam Rəsulullahın sağlığında yanıma gəlmişdi. Rəsulullahın fikrini öyrənmək üçün:

- Anam mənimçün darıxıb yanıma gəlib. Ona ikram edə bilərəmmi? - deyə sual verdim.

Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Bəli, ananla yaxşı rəftar et!" -** buyurdu.

Buxari, Hibə 29, Cizyə 18, Ədəb 8; Müslim, Zəkat 50. Həmçinin bax. Əbu Davud, Zəkat 34

❁

٣٢٨ ـ عَنْ زَيْنَبَ الثَّقَفِيَّةِ امْرَأَةِ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ وَعَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «تَصَدَّقْنَ يَامَعْشَرَ النِّسَاءِ وَلَوْ مِنْ حُلِيِّكُنَّ» قَالَتْ: فَرَجَعْتُ إِلَى عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ فَقُلْتُ لَهُ: إِنَّكَ رَجُلٌ خَفِيفُ ذَاتِ الْيَدِ وَإِنَّ رَسُولَ اللَّهِ ﷺ قَدْ أَمَرَنَا بِالصَّدَقَةِ فَأْتِهِ فَاسْأَلْهُ فَإِنْ كَانَ ذَلِكَ يُجْزِئُ عَنِّي وَإِلَّا صَرَفْتُهَا إِلَى غَيْرِكُمْ . فَقَالَ عَبْدُ اللَّهِ: بَلِ ائْتِيهِ أَنْتِ فَانْطَلَقْتُ فَإِذَا امْرَأَةٌ مِنَ الْأَنْصَارِ بِبَابِ رَسُولِ اللَّهِ ﷺ حَاجَتِي حَاجَتُهَا وَكَانَ رَسُولُ اللَّهِ ﷺ قَدْ أُلْقِيَتْ عَلَيْهِ الْمَهَابَةُ فَخَرَجَ عَلَيْنَا بِلاَلٌ فَقُلْنَا لَهُ ائْتِ رَسُولَ اللَّهِ ﷺ فَأَخْبِرْهُ أَنَّ امْرَأَتَيْنِ بِالْبَابِ تَسْأَلاَنِكَ: أَتُجْزِئُ الصَّدَقَةُ عَنْهُمَا عَلَى أَزْوَاجِهِمَا وَعَلَى أَيْتَامٍ فِي حُجُورِهِمَا وَلاَ تُخْبِرْهُ مَنْ نَحْنُ . فَدَخَلَ بِلاَلٌ عَلَى رَسُولِ اللَّهِ ﷺ فَسَأَلَهُ فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ هُمَا؟» قَالَ: امْرَأَةٌ مِنَ الْأَنْصَارِ وَزَيْنَبُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَيُّ الزَّيَانِبِ ؟ » قَالَ: امْرَأَةُ عَبْدِ اللَّهِ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَهُمَا أَجْرَانِ أَجْرُ الْقَرَابَةِ وَأَجْرُ الصَّدَقَةِ» . مُتَّفَقٌ عَلَيْهِ.

328. Abdullah bin Məsud *radiyallahu anhın* xanımı Zeynəb əs-Səqafiyyə *radiyallahu anhədən* rəvayət edildiyinə görə bir gün Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Ey qadınlar, zinət əşyanızdan da olsa sədəqə verin", -** buyurmuşdu.

Zeynəb sözünün davamında dedi: Bu zaman mən Abdullah bin Məsudun yanına gedərək:

- Sənin əlin aşağıdır. Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə sədəqə verməyi əmr etdi. Onun yanına gedib soruş. Sədəqəmi sənə verməklə bu əmri yerinə yetirmiş olaram? Əgər bu mümkün deyilsə, başqasına verim,- dedim. Abdullah:

- Get, özün soruş,- dedi, mən də getdim. Hz. Peyğəmbərin qapısına çatanda ənsardan bir qadının orada gözlədiyini gördüm. Sən demə onun da dərdi mənim dərdim kimi idi. Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna girməkdən də çəkinirdik.

Bilal içəridən çıxan kimi ona:

- Hz. Peyğəmbərin yanına get, "qapıda iki qadın gözləyir və ərləri ilə öz yetimlərinə verəcəkləri sədəqənin qəbul olub-olmayacağını soruşurlar,- de. Amma bizim kim olduğumuzu demə", - dedik.

Bilal dərhal Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna girib məsələni ona danışdı.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Onlar kimdir?" -** deyə soruşdu.

Bilal da:

- Ənsardan bir qadınla Zeynəb,- cavabını verdikdə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Hansı Zeynəb?" -** deyə soruşdu. Bilal:

- Abdullahın arvadı,- dedi.

Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Onlar belə etməklə iki savabı birdən qazanarlar. Biri, yaxınlarını himayə etmə savabı, digəri isə sədəqə savabı".

Buxari, Zəkat 48; Müslim, Zəkat 45. Həmçinin bax. Buxari, Zəkat 44; Nəsai, Zəkat 82; İbn Macə, Zəkat 24

٣٢٩ ـ عَنْ أَبِي سُفْيَانَ صَخْرِ بْنِ حَرْبٍ رَضِيَ اللَّهُ عَنْهُ فِي حَدِيثِهِ الطَّوِيلِ فِي قِصَّةِ هِرَقْلَ ، أَنَّ هِرَقْلَ قَالَ لِأَبِي سُفْيَانَ: فَمَاذَا يَأْمُرُكُمْ بِهِ؟ يَعْنِي النَّبِيَّ ﷺ. (قَالَ) قُلْتُ: يَقُولُ: «اعْبُدُوا اللَّهَ وَحْدَهُ وَلَا تُشْرِكُوا بِهِ شَيْئًا ، وَاتْرُكُوا مَا يَقُولُ آبَاؤُكُمْ ، وَيَأْمُرُنَا بِالصَّلاَةِ وَالصِّدْقِ وَالْعَفَافِ وَالصِّلَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

329. Əbu Süfyan Saxr bin Hərb *radiyallahu anhdan* –Heraklla bağlı uzun bir hədisdə- rəvayət edildiyinə görə Herakl Əbu Süfyandan Peyğəmbər *səllallahu əleyhi və səlləmi* qəsd edərək:

- O sizə nəyi əmr edir? - deyə soruşdu.

Əbu Süfyan deyir ki;

- Mən də onun bizə yalnız Allaha ibadət edin, ona heç nəyi şərik qoşmayın, babalarınızın sitayiş etdiklərinə sitayiş etməyin dediyini, bizə namaz qılmağı, doğru və iffətli olmağı, qohumluq haqqına riayət etməyi əmr etdiyini dedim.

Buxari, Bədul-vəhy 6, Zəkat 1, Cihad 102, Şəhadət 28, Ədəb 8, Təfsiru surə (3) 4; Müslim, Cihad 74

❁

٣٣٠ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّكُمْ سَتَفْتَحُونَ أَرْضًا يُذْكَرُ فِيهَا الْقِيرَاطُ».

وَفِي رِوَايَةٍ: «سَتَفْتَحُونَ مِصْرَ ، وَهِيَ أَرْضٌ يُسَمَّى فِيهَا الْقِيرَاطُ ، فَاسْتَوْصُوا بِأَهْلِهَا خَيْرًا ، فَإِنَّ لَهُمْ ذِمَّةً وَرَحِمًا».

وَفِي رِوَايَةٍ: «فَإِذَا افْتَتَحْتُمُوهَا فَأَحْسِنُوا إِلَى أَهْلِهَا ، فَإِنَّ لَهُمْ ذِمَّةً وَرَحِمًا» أَوْ قَالَ: «ذِمَّةً وَصِهْرًا » . رَوَاهُ مُسْلِمٌ .

330. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Siz (pul vahidi olan) qıratın istifadə olunduğu yeri mütləq fəth edəcəksiniz”.

Başqa bir rəvayətə görə isə belə buyurdu:

“Siz qıratın istifadə olunduğu Misiri mütləq fəth edəcəksiniz. Oranın əhalisinə yaxşı rəftar etmənizi tövsiyə edirəm, vəsiyyətimə riayət edin. Çünki onlara bir əhd və aman borcumuz, bir də qohumluq əlaqələrimiz var”.

Başqa bir rəvayətdə belə buyurdu:

“Siz oranı fəth etdiyiniz zaman əhali ilə yaxşı rəftar edin. Çünki onlara bir əhd və aman borcumuz, bir də qohumluq əlaqəmiz var” və ya **“əhd və aman borcumuz və qohumluq bağı var”, -** buyurdu.

Müslim, Fəzailus-səhabə 226, 227

❁

٣٣١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَمَّا نَزَلَتْ هَذِهِ الْآيَةُ: ﴿وَأَنْذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ﴾ دَعَا رَسُولُ اللَّهِ ﷺ قُرَيْشًا ، فَاجْتَمَعُوا فَعَمَّ وَخَصَّ ، وَقَالَ: «يَا بَنِي عَبْدِ شَمْسٍ ، يَا بَنِي كَعْبِ بْنِ لُؤَيٍّ ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ ، يَا بَنِي مُرَّةَ بْنِ كَعْبٍ ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ ، يَا بَنِي عَبْدِ مَنَافٍ ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ ، يَا بَنِي هَاشِمٍ ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ ، يَا بَنِي عَبْدِ الْمُطَّلِبِ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ ، يَافَاطِمَةُ ، أَنْقِذِي نَفْسَكِ مِنَ النَّارِ ، فَإِنِّي لَا أَمْلِكُ لَكُمْ مِنَ اللَّهِ شَيْئًا ؛ غَيْرَ أَنَّ لَكُمْ رَحِمًا سَأَبُلُّهَا بِبِلاَلِهَا» . رَوَاهُ مُسْلِمٌ .

331. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

“Yaxın qohumlarını (Allahın əzabı ilə) **qorxut!”** (əş-Şuəra, 214) ayəsi nazil olandaRəsulullah *səllallahu əleyhi və səlləm* Qüreyş qəbiləsini yığıncağa çağırdı. Onlar da gəldilər. Rəsulullah *səllallahu əleyhi və səlləm* kimisinə xüsusi, kimisinə də ümumi olaraq belə xitab etdi:

“Ey Əbdu Şəms oğulları, ey Kab bin Lüey oğulları, özünüzü cəhənnəmdən qurtarın!

Ey Əbdu Manaf oğulları, özünüzü cəhənnəmdən qurtarın!

Ey Haşim oğulları, özünüzü cəhənnəmdən qurtarın!

Ey Əbdülmüttəlib oğulları, özünüzü cəhənnəmdən qurtarın! Özünüzü cəhənnəmdən qurtarın!

Ey Fatimə, özünü cəhənnəmdən qurtar! Çünki sizi Allahın əzabından qurtarmağa mənim gücüm çatmaz. Amma aramızdakı qohumluq əlaqələri səbəbi ilə sizinlə münasibətimi kəsməyəcəyəm".

Müslim, İman 348, 351. Həmçinin bax. Buxari, Təfsiru surə (26) 2; Tirmizi, Təfsiru surə (27) 2; Nəsai, Vəsaya 6

❁

٣٣٢ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ جِهَارًا غَيْرَ سِرٍّ يَقُولُ: «إِنَّ آلَ بَنِي فُلاَنٍ لَيْسُوا بِأَوْلِيَائِي ، إِنَّمَا وَلِيِّيَ اللَّهُ وَصَالِحُ الْمُؤْمِنِينَ ، وَلَكِنْ لَهُمْ رَحِمٌ أَبُلُّهَا بِبِلاَلِهَا» . مُتَّفَقٌ عَلَيْهِ .

332. Əbu Abdullah Amr bin As *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* gizlin deyil, açıq-aşkar belə dediyini eşitdim:

"(Qohumum) Filankəs oğulları ailəsi mənim dostum deyil. Mənim dostum Allah-Təala və saleh möminlərdir. Lakin digərləri ilə aramızda qohumluq əlaqələri olduğuna görə onlarla münasibəti kəsməyəcəyəm".

Buxari, Ədəb 14; Müslim, İman 366

❁

٣٣٣ ـ عَنْ أَبِي أَيُّوبَ خَالِدِ بْنِ زَيْدٍ الْأَنْصَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلًا قَالَ: يَا رَسُولَ اللَّهِ ، أَخْبِرْنِي بِعَمَلٍ يُدْخِلُنِي الْجَنَّةَ وَيُبَاعِدُنِي مِنَ النَّارِ. فَقَالَ النَّبِيُّ ﷺ : «تَعْبُدُ اللَّهَ وَلاَ تُشْرِكُ بِهِ شَيْئًا ، وَتُقِيمُ الصَّلاَةَ ، وَتُؤْتِي الزَّكَاةَ ، وَتَصِلُ الرَّحِمَ». مُتَّفَقٌ عَلَيْهِ.

333. Əbu Əyyub Xalid bin Zeyd əl-Ənsari *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir nəfər:

- Ya Rəsulallah, elə bir əməl de ki, məni cənnətə aparsın, cəhənnəmdən uzaqlaşdırsın,- dedi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Allaha ibadət et, ona heç nəyi şərik qoşma. Namazı qıl, zəkatı ver və qohumluq əlaqələrini qoru!"

Buxari, Ədəb 10; Müslim, İman 14. Həmçinin bax. Nəsai, Salət 10

❁

٣٣٤ ـ عَنْ سَلْمَانَ بْنِ عَامِرٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ: «إِذَا أَفْطَرَ أَحَدُكُمْ فَلْيُفْطِرْ عَلَى تَمْرٍ فَإِنَّهُ بَرَكَةٌ، فَإِنْ لَمْ يَجِدْ تَمْرًا فَالْمَاءُ فَإِنَّهُ طَهُورٌ» وَقَالَ: «الصَّدَقَةُ عَلَى الْمِسْكِينِ صَدَقَةٌ، وَعَلَى ذِي الرَّحِمِ ثِنْتَانِ: صَدَقَةٌ وَصِلَةٌ» . رَوَاهُ التِّرْمِذِيُّ .

334. Salman bin Amir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən biri orucunu açacağı zaman xurma ilə açsın. Çünki xurma bərəkətlidir. Əgər xurma tapmasa, orucunu su ilə açsın, çünki su təmizdir".

Peyğəmbər *səllallahu əleyhi və səlləm* sözünün davamında belə buyurdu:

"Yoxsula verilən sədəqə bir, qohuma verilən sədəqə isə iki sədəqə yerinə keçər: biri, sədəqə savabı, digəri isə qohumu himayə etmə savabıdır".

Tirmizi, Zəkat 26. Həmçinin bax. Əbu davud, Savm 21; Nəsai, Zəkat 824 İbn Macə, Siyam 25

❁

٣٣٥ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كَانَتْ تَحْتِي امْرَأَةٌ ، وَكُنْتُ أُحِبُّهَا، وَكَانَ عُمَرُ يَكْرَهُهَا ، فَقَالَ لِي : طَلِّقْهَا ، فَأَبَيْتُ ، فَأَتَى عُمَرُ رَضِيَ اللَّهُ تَعَالَى عَنْهُ النَّبِيَّ ﷺ ، فَذَكَرَ ذٰلِكَ لَهُ ، فَقَالَ النَّبِيُّ ﷺ : «طَلِّقْهَا». رَوَاهُ أَبُو دَاوُدَ، وَالتِّرْمِذِيُّ.

335. İbn Ömər *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə dedi:

Çox sevdiyim bir qadınla evli idim. Atam Hz. Ömər həmin qadını bəyənmirdi. Bu səbəblə mənə:

- Onu boşa! - dedi.

Mən boşamaq istəmədim.

Ömər *radiyallahu anh* Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələrək məsələni ona açdı.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* də:

- **"O qadını boşa!" -** deyə əmr etdi. [26]

❁

٣٣٦ ـ عَنْ أَبِي الدَّرْدَاءِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلاً أَتَاهُ فَقَالَ: إِنَّ لِي امْرَأَةً ، وَإِنَّ أُمِّي تَأْمُرُنِي بِطَلَاقِهَا . فَقَالَ : سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «اَلْوَالِدُ أَوْسَطُ أَبْوَابِ الْجَنَّةِ ، فَإِنْ شِئْتَ فَأَضِعْ ذَلِكَ الْبَابَ أَوِ احْفَظْهُ» . رَوَاهُ التِّرْمِذِيُّ.

336. Əbud-Dərda *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir nəfər onun yanına gələrək:

- Mənim arvadım var. Anam isə onu boşamağımı əmr edir. Nə etməliyəm? - deyə soruşdu.

Əbud-Dərda *radiyallahu anh* bu cavabı verdi:

- Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

"Ana və ata cənnətə ən ortadakı qapıdan girməyə vəsilədir", - buyurduğunu eşitdim. Artıq istəyirsən o qapını əlində saxla, istəyirsən burax.

Tirmizi, Birr 3. Həmçinin bax. İbn Macə, Talaq 36

❁

٣٣٧ ـ عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ «اَلْخَالَةُ بِمَنْزِلَةِ الْأُمِّ». رَوَاهُ التِّرْمِذِيُّ .

26. Hz. Ömər gəlinində bağışlanmaz qüsur müşahidə etdiyi üçün onu boşamasını tövsiyə etmişdir. Abdullah isə xanımına olan sevgisindən dolayı onun səhvlərini görmürdü. Bu hədisi əsas alaraq bir möminin ata-anasının hər şikayətinə qulaq asaraq arvadını boşaması doğru olmaz.

337. Bəra bin Azib *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Xala ana sayılır".

Tirmizi, Birr 6. Həmçinin bax. Buxari, Sülh 6, Məğazi 43; Əbu davud, Talaq 35

Riyazus-Salihin müəllifi Nəvəvi bu mövzunu bitirərkən belə deyir:

"Ata-anaya yaxşılıq və qohumları ziyarət" mövzusunda bir çox məşhur hədis var. Daha əvvəl mağaraya sığınan üç nəfərlə bağlı zikr edilən hədis (№ 13) ilə Cüreyc hədisi (№ 261) bu mövzu ilə əlaqədardır. Bəhsi uzatmamaq üçün buraya almadığım məşhur hədislərin ən mühümlərindən biri Amr bin Abəsə tərəfindən rəvayət edilən və İslam əsaslarına, İslam ədəblərinə dair bir çox mövzunu əhatə edən və tam halı "Allahın Rəhmətini Ümid Etmək" bəhsində zikr ediləcək olan (bax. № 439) hədisdir:

عَنْ عَمْرِو بْنِ عَبَسَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: دَخَلْتُ عَلَى النَّبِيِّ ﷺ بِمَكَّةَ ـ يَعْنِي فِي أَوَّلِ النُّبُوَّةِ ـ فَقُلْتُ لَهُ: مَا أَنْتَ ؟ قَالَ: «نَبِيٌّ» ؟ فَقُلْتُ : وَمَا نَبِيٌّ ؟ قَالَ: «أَرْسَلَنِيَ اللَّهُ تَعَالَى» فَقُلْتُ : بِأَيِّ شَيْءٍ أَرْسَلَكَ ؟ قَالَ: «أَرْسَلَنِي بِصِلَةِ الْأَرْحَامِ ، وَكَسْرِ الْأَوْثَانِ ، وَأَنْ يُوَحَّدَ اللَّهُ لَا يُشْرَكُ بِهِ شَيْءٌ» . رَوَاهُ مُسْلِمٌ.

Amr bin Abəsə deyir:

Məkkədə peyğəmbərliyin gəldiyi ilk günlərdə Peyğəmbər *səllallahu əleyhi və səlləmin* hüzuruna getdim və ondan:

- Sən kimsən, nəçisən? - deyə soruşdum.

- **"Peyğəmbərəm", -** cavabını verdi.

- Peyğəmbər nə deməkdir? dedim.

- **"Məni Allah göndərdi", -** dedi.

- Səni hansı vəzifə ilə göndərdi? - deyə soruşdum.

- **"Qohumların haqlarına riayət, bütləri qırmaq və Allahın bir olduğunu təsdiq edib ona şərik qoşulmamasının vacibliyini çatdırmaqla vəzifələndirdi", -** dedi.

ATA-ANAYA QARŞI GƏLMƏYİN VƏ QOHUMLARLA ƏLAQƏNİ KƏSMƏYİN HARAM OLMASI

Ayələr

فَهَلْ عَسَيْتُمْ إِنْ تَوَلَّيْتُمْ أَنْ تُفْسِدُوا فِي الْأَرْضِ وَتُقَطِّعُوا أَرْحَامَكُمْ أُولَئِكَ الَّذِينَ لَعَنَهُمُ اللَّهُ فَأَصَمَّهُمْ وَأَعْمَى أَبْصَارَهُمْ.

1. "Əgər (Muhammməd əleyhissəlamdan) **üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və** (Cahiliyyət dövründə olduğu kimi) **qohumluq tellərini qırmaq gözlənilməzmi?! Onlar** (münafiqlər, fitnə-fəsad törədənlər) **Allahın lənət etdiyi** (qulaqlarını) **kar və gözlərini kor etdiyi kimsələrdir!"**

(Muhammməd, 22-23)

وَالَّذِينَ يَنْقُضُونَ عَهْدَ اللَّهِ مِنْ بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَا أَمَرَ اللَّهُ بِهِ أَنْ يُوصَلَ وَيُفْسِدُونَ فِي الْأَرْضِ أُولَئِكَ لَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ.

2. "Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) **qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları pis yurd** (Cəhənnəm, o biri dünyanın çətinlikləri) **gözləyir".**

(ər-Rad, 25)

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُوا إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِنْدَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُلْ لَهُمَا أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُلْ لَهُمَا قَوْلاً كَرِيمًا وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُلْ رَبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا.

3."Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) **buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında** (yaşayıb) **qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb: "Ey Rəbbim! Onlar məni körpəliyimdən** (nəvazişlə) **tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de".** (əl-İsra, 23-24)

Hədislər

٣٣٨ ـ عَنْ أَبِي بَكْرَةَ نُفَيْعِ بْنِ الْحَارِثِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَلاَ أُنَبِّئُكُمْ بِأَكْبَرِ الْكَبَائِرِ؟» ـ ثَلاَثًا ـ قُلْنَا: بَلَى يَا رَسُولَ اللَّهِ. قَالَ: «الْإِشْرَاكُ بِاللَّهِ ، وَعُقُوقُ الْوَالِدَيْنِ» وَكَانَ مُتَّكِئًا فَجَلَسَ فَقَالَ: «أَلاَ وَقَوْلُ الزُّورِ ، وَشَهَادَةُ الزُّورِ». فَمَا زَالَ يُكَرِّرُهَا حَتَّى قُلْنَا: لَيْتَهُ سَكَتَ! مُتَّفَقٌ عَلَيْهِ .

338. Əbu Bəkrə Nüfey bin Haris *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Böyük günahların ən ağırını sizə xəbər verimmi?" -** deyə üç dəfə soruşdu.

Biz:

- Bəli, ya Rəsulallah,- dedik.

Rəsuli-Əkrəm:

- **"Allaha şərik qoşmaq, ata-anaya itaətsizlik etmək"** buyurduqdan sonra söykəndiyi yerdən doğrulub oturdu və **"diqqət edin, bir də yalan danışmaq və yalançı şahidlik etmək"** buyurdu. Bu sözü durmadan təkrarladı. Daha çox narahat olmasını istəmədiyimiz üçün susmasını arzu etdik.

Buxari, Şəhadət 10, Ədəb 6, İstizan 35, İstitabə 1; Müslim, İman 143. Həmçinin bax. Tirmizi, Şəhadət 3, Birr 4, Təfsiru surə (4) 5

❁

٣٣٩ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْكَبَائِرُ: الْإِشْرَاكُ بِاللَّهِ ، وَعُقُوقُ الْوَالِدَيْنِ ، وَقَتْلُ النَّفْسِ ، وَالْيَمِينُ الْغَمُوسُ» . رَوَاهُ الْبُخَارِيُّ .

339. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Böyük günahlar bunlardır: Allaha şərik qoşmaq, ata-anaya itaətsizlik etmək, haqsız yerə adam öldürmək və yalandan and içmək".

Buxari, Əyman vən-nüzur 16, Diyat 2, İstitabətul-murtəddin 1. Həmçinin bax. Tirmizi, Təfsiru surə (4) 6; Nəsai, Təhrim 4, Qasamə 48

٣٤٠ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مِنَ الْكَبَائِرِ شَتْمُ الرَّجُلِ وَالِدَيْهِ!» قَالُوا: يَا رَسُولَ اللَّهِ ، وَهَلْ يَشْتُمُ الرَّجُلُ وَالِدَيْهِ؟ قَالَ: «نَعَمْ ، يَسُبُّ أَبَا الرَّجُلِ فَيَسُبُّ أَبَاهُ ، وَيَسُبُّ أُمَّهُ فَيَسُبُّ أُمَّهُ» . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: «إِنَّ مِنْ أَكْبَرِ الْكَبَائِرِ أَنْ يَلْعَنَ الرَّجُلُ وَالِدَيْهِ!» قِيلَ: يَا رَسُولَ اللَّهِ ، كَيْفَ يَلْعَنُ الرَّجُلُ وَالِدَيْهِ؟! قَالَ: «يَسُبُّ أَبَا الرَّجُلِ فَيَسُبُّ أَبَاهُ ، وَيَسُبُّ أُمَّهُ فَيَسُبُّ أُمَّهُ».

340. Yenə Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Bir adamın öz ata-anasına söyməsi böyük günahlardandır", -** buyurmuşdu.

Əshabi-kiram:

- Ya Rəsulallah, insan öz ata-anasına söyərmi? - dedikdə:

- **"Bəli, birinin atasına söyər, o da onun atasına söyər. Birinin anasına söyər, o da onun anasına söyər", -** buyurdu.

Müslim, İman 146. Həmçinin bax. Tirmizi, Birr 4

Başqa bir rəvayətə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"İnsanın öz ata-anasına lənət etməsi ən böyük günahlardandır", -** buyurmuşdu.

Əshabi-kiram:

- "Ya Rəsulallah, bir adam öz ata-anasına necə lənət edər?" dedikdə:

- **"Birinin atasına söyər, o da onun atasına söyər. Birinin anasına söyər, o da onun anasına söyər", -** buyurdu.

Buxari, Ədəb 4. Həmçinin bax. Əbu Davud, Ədəb 120

❁

٣٤١ ـ عَنْ أَبِي مُحَمَّدٍ جُبَيْرِ بْنِ مُطْعِمٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لَا يَدْخُلُ الْجَنَّةَ قَاطِعٌ» قَالَ سُفْيَانُ فِي رِوَايَتِهِ: يَعْنِي قَاطِعَ رَحِمٍ. مُتَّفَقٌ عَلَيْهِ .

341. Əbu Muhammməd Cübeyr bin Mutim *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qohumları ilə əlaqəsini kəsən adam cənnətə girə bilməz".

Buxari, Ədəb 11; Müslim, Birr 18, 19. Həmçinin bax. Əbu Davud, Zəkat 45; Tirmizi, Birr 10

❁

٣٤٢ ـ عَنْ أَبِي عِيْسَى الْمُغِيرَةِ بْنِ شُعْبَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ «إِنَّ اللَّهَ تَعَالَى حَرَّمَ عَلَيْكُمْ عُقُوقَ الْأُمَّهَاتِ ، وَمَنْعًا وَهَاتِ ، وَوَأْدَ الْبَنَاتِ ، وَكَرِهَ لَكُمْ قِيلَ وَقَالَ ، وَكَثْرَةَ السُّؤَالِ ، وَإِضَاعَةَ الْمَالِ» . مُتَّفَقٌ عَلَيْهِ .

342. Əbu İsa Muğirə bin Şöbə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala sizə ata-anaya itaətsizlik etməyi, verilməli olanı verməyib almağa haqqı olmayan şeyi istəməyi və qız uşaqlarını diri-diri torpağa basdırmağı haram qılmış, dedi-qodu etməyi, çox sual verməyi və malı israf etməyi də məkruh qılmışdır".

Buxari, İstiqraz 19, Ədəb 6, Zəkat 53; Müslim, Əqdiyyə 10-14

ATANIN DOSTLARINA YAXŞILIQ ETMƏK

ATA-ANANIN DOSTLARINA, QOHUMLARA, HƏYAT YOLDAŞINA VƏ İKRAMA LAYİQ OLANLARA YAXŞILIQ ETMƏYİN FƏZİLƏTİ

Hədislər

٣٤٣ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «أَبَرُّ الْبِرِّ أَنْ يَصِلَ الرَّجُلُ وُدَّ أَبِيهِ» .

وَعَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَجُلاً مِنَ الْأَعْرَابِ لَقِيَهُ بِطَرِيقِ مَكَّةَ ، فَسَلَّمَ عَلَيْهِ عَبْدُ اللَّهِ بْنُ عُمَرَ ، وَحَمَلَهُ عَلَى حِمَارٍ كَانَ

يَرْكَبُهُ وَأَعْطَاهُ عِمَامَةً كَـانَتْ عَلَى رَأْسِهِ. قَالَ ابْنُ دِينَارٍ: فَقُلْنَا لَهُ: أَصْلَحَكَ اللَّهُ ، إِنَّهُمُ الْأَعْرَابُ ، وَهُمْ يَرْضَوْنَ بِالْيَسِيرِ! فَقَالَ عَبْـدُ اللَّهِ بْنُ عُمَرَ: إِنَّ أَبَا هَذَا كَانَ وُدًّا لِعُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ ، وَإِنِّي سَمِعْتُ رَسُـولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ أَبَـرَّ الْبِرِّ صِلَةُ الرَّجُلِ أَهْلَ وُدِّ أَبِيهِ» .

وَفِي رِوَايَةٍ عَنِ ابْنِ دِينَارٍ عَنِ ابْنِ عُمَرَ أَنَّهُ كَانَ إِذَا خَرَجَ إِلَى مَكَّةَ كَانَ لَهُ حِمَارٌ يَتَرَوَّحُ عَلَيْهِ إِذَا مَلَّ رُكُوبَ الرَّاحِلَةِ ، وَعِمَامَةٌ يَشُـدُّ بِهَا رَأْسَهُ ، فَبَيْنَا هُوَ يَوْمًا عَلَى ذَلِكَ الْحِمَارِ ، إِذْ مَرَّ بِـهِ أَعْرَابِيٌّ فَقَالَ: أَلَسْتَ فُـلَانَ بْنَ فُلَانٍ؟ قَـالَ: بَلَى. فَأَعْطَاهُ الْحِمَارَ ، فَقَالَ : ارْكَبْ هَذَا ، وَأَعْطَاهُ الْعِمَامَةَ ، وَقَالَ: اشْدُدْ بِهَا رَأْسَكَ. فَقَالَ لَهُ بَعْضُ أَصْحَابِهِ: غَفَرَ اللَّهُ لَكَ! أَعْطَيْتَ هَذَا الْأَعْرَابِيَّ حِمَارًا كُنْتَ تَرَوَّحُ عَلَيْهِ ، وَعِمَامَةً كُنْتَ تَشُدُّ بِهَا رَأْسَكَ! فَقَالَ: إِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ مِنْ أَبَـرِّ الْبِرِّ أَنْ يَصِلَ الرَّجُلُ أَهْلَ وُدِّ أَبِيهِ بَعْدَ أَنْ يُوَلِّيَ» ؛ وإِنَّ أَبَاهُ كَانَ صَدِيقًا لِعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ . رَوَى هَذِهِ الرِّوَايَاتِ كُلَّهَا مُسْلِمٌ.

343. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yaxşılığın ən məqbul olanı ata dostunu himayə etməkdir".

Abdullah bin Dinardan rəvayət edildiyinə görə Abdullah bin Ömər *radiyallahu anhumə* belə dedi:

Bədəvilərdən biri Məkkə yolunda Abdullah bin Ömərlə qarşılaşdı. Abdullah bin Ömər ona salam verdi. Mindiyi eşşəyə onu mindirdi və başındakı sarığı da ona verdi.

Abdullah bin Dinar sözünün davamında deyir: Biz İbn Ömərə:

- Allah səni islah etsin, bu adam bədəvilərdən biridir. Onlar aza qane olarlar,- dedikdə,

- Bu adamın atası Ömər bin Xəttabın (atamın) dostu idi. Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitdim:

"Yaxşılığın ən məqbul olanı ata dostunun ailəsini himayə edib ona yaxşı rəftar etməkdir", dedi.

Abdullah bin Dinarın Abdullah bin Ömərdən etdiyi başqa bir rəvayəti də belədir:

Bir dəfə İbn Ömər Məkkəyə getmək üçün yola çıxdı. Dəvəyə minməkdən yorulanda üstündə istirahət edəcəyi ulağı və başına bağladığı bir sarığı vardı. Bir gün İbn Ömər ulağın üstündə yorğunluğunu çıxarkən bir bədəvi ilə rastlaşdı. Ondan soruşdu:

- Sən filankəsin oğlu filankəs deyilsən?

O:

- Bəli,- dedikdə ulağı ona verdi və:

- Buna min,- dedi. Sarığını uzadıb, bunu da başına bağla,- dedi.

Dostlarından biri İbn Ömərə:

- Allah səni bağışlasın. Üstündə dincini aldığın ulaqla başına bağladığın sarığı bu bədəviyə nahaq verdin,- dedilər. İbn Ömər belə dedi:

- Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* **"Yaxşılıqların ən dəyərlisi bir adamın atası öldükdən sonra ata dostunun ailəsini himayə etməsidir", -** buyurduğunu eşitdim. Bu adamın atası Ömər *radiyallahu anhın*(atam) dostu idi.

Müslim, Birr 11-13. Həmçinin bax. Əbu Davud, Ədəb 120; Tirmizi, Birr 5

❁

٣٤٤ ـ عَنْ أَبِي أُسَيْدٍ مَالِكِ بْنِ رَبِيعَةَ السَّاعِدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَال: بَيْنَا نَحْنُ جُلُوسٌ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ إِذْ جَاءَهُ رَجُلٌ مِنْ بَنِي سَلَمَةَ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، هَلْ بَقِيَ مِنْ بِرِّ أَبَوَيَّ شَيْءٌ أَبَرُّهُمَا بِهِ بَعْدَ مَوْتِهِمَا؟ فَقَالَ: «نَعَمْ ، الصَّلاَةُ عَلَيْهِمَا وَالاِسْتِغْفَارُ لَهُمَا ، وَإِنْفَاذُ عَهْدِهِمَا مِنْ بَعْدِهِمَا ، وَصِلَةُ الرَّحِمِ الَّتِي لَا تُوصَلُ إِلاَّ بِهِمَا ، وَإِكْرَامُ صَدِيقِهِمَا» . رَوَاهُ أَبُو دَاوُدَ.

344. Əbu Üseyd Malik bin Rəbia əs-Səidi *radiyallahu anh* belə dedi:

Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzurunda oturmuşduq. Sələmə oğulları qəbiləsindən bir nəfər gəldi və:

- Ya Rəsulallah, ata-anam öləndən sonra onlar üçün edə biləcəyim hər hansı bir yaxşılıq varmı? - sualını verdi.

Rəsuli-Əkrəm belə buyurdu:

- **"Bəli, onlara dua et, günahlarının bağışlanmasını istə. Vəsiyyətlərini yerinə yetir, qohumları ilə əlaqəni kəsmə, dostlarına da ikram et".**

Əbu Davud, Ədəb 120. Həmçinin bax. İbn Macə, Ədəb 2

❁

٣٤٥ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَا غِرْتُ عَلَى أَحَدٍ مِنْ نِسَاءِ النَّبِيِّ ﷺ مَا غِرْتُ عَلَى خَدِيجَةَ رَضِيَ اللَّهُ عَنْهَا ، وَمَا رَأَيْتُهَا قَطُّ ، وَلَكِنْ كَانَ يُكْثِرُ ذِكْرَهَا ، وَرُبَّمَا ذَبَحَ الشَّاةَ ثُمَّ يُقَطِّعُهَا أَعْضَاءً ، ثُمَّ يَبْعَثُهَا فِي صَدَائِقِ خَدِيجَةَ ، فَرُبَّمَا قُلْتُ لَهُ: كَأَنْ لَمْ يَكُنْ فِي الدُّنْيَا امْرَأَةٌ إلاَّ خَدِيجَةُ! فَيَقُولُ: «إِنَّهَا كَانَتْ وَكَانَتْ ، وَكَانَ لِي مِنْهَا وَلَدٌ» . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ : وَإِنْ كَانَ لَيَذْبَحُ الشَّاةَ فَيُهْدِي فِي خَلاَئِلِهَا مِنْهَا مَا يَسَعُهُنَّ .

وَفِي رِوَايَةٍ : كَانَ إِذَا ذَبَحَ الشَّاةَ يَقُولُ: «أَرْسِلُوا بِهَا إِلَى أَصْدِقَاءِ خَدِيجَةَ».

وَفِي رِوَايَةٍ قَالَتِ: اسْتَأْذَنَتْ هَالَةُ بِنْتُ خُوَيْلِدٍ أُخْتُ خَدِيجَةَ عَلَى رَسُولِ اللَّهِ ﷺ فَعَرَفَ اسْتِئْذَانَ خَدِيجَةَ ، فَارْتَاحَ لِذٰلِكَ فَقَالَ: «اللَّهُمَّ ، هَالَةُ بِنْتُ خُوَيْلِدٍ».

345. Aişə *radiyallahu anhə* belə dedi:

Xədicəni qısqandığım qədər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* xanımlarından heç birini qısqanmadım. Üstəlik onu heç (Rəsuli-Əkrəmin yanında) görmədim. Lakin Rəsuli-Əkrəm tez-tez ondan söz açardı. Bir

qoyun kəsib ətini doğrayanda çox vaxt Xədicənin rəfiqələrinə göndərərdi. Bəzən (dözə bilməyib) Rəsuli-Əkrəmə:

- Sanki dünyada Xədicədən başqa qadın qalmadı! - deyərdim.

Rəsuli-Əkrəm isə Xədicənin bir çox üstün xüsusiyyətini sayar və:

- **"O, həm də uşaqlarımın anası idi", -** deyərdi.

Buxari, Mənaqibul-ənsar 20; Müslim, Fəzailus-səhabə 74-76. Həmçinin bax. Tirmizi, Birr 70, Mənaqib 61

Başqa bir rəvayətə görə isə Hz. Aişə belə dedi:

Rəsuli-Əkrəm qoyun kəsdiyi zaman "Ondan Xədicənin rəfiqələrinə də göndərin", - deyərdi.

Müslim, Fəzailus-səhabə 75

Başqa bir rəvayətə görə Hz. Aişə dedi:

Bir gün Xədicənin bacısı Halə binti Xuveylid Rəsulullahın hüzuruna girmək üçün izin istəmişdi. Rəsuli-Əkrəm Xədicənin səsini xatırladı və:

"Allahım, bu, Xuveylidin qızı Halədir!" - deyə həyəcanlandı.

Buxari, Mənaqibul-ənsar 20; Müslim, Fəzailus-səhabə 78

❁

٣٤٦ ـ عَنْ أَنَسِ بْنِ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَرَجْتُ مَعَ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ الْبَجَلِيِّ رَضِيَ اللَّهُ عَنْهُ فِي سَفَرٍ ، فَكَانَ يَخْدُمُنِي ، فَقُلْتُ لَهُ: لَا تَفْعَلْ ، فَقَالَ: إِنِّي قَدْ رَأَيْتُ الْأَنْصَارَ تَصْنَعُ بِرَسُولِ اللَّهِ ﷺ شَيْئًا آلَيْتُ عَلَى نَفْسِي أَنْ لَا أَصْحَبَ أَحَدًا مِنْهُمْ إِلَّا خَدَمْتُهُ . مُتَّفَقٌ عَلَيْهِ .

346. Ənəs bin Malik *radiyallahu anh* belə dedi:

Cərir bin Abdullah əl-Bəcəli ilə səfərə çıxmışdım. (Yaşca məndən böyük olsa da) Cərir mənə xidmət edirdi. Ona:

- Belə etmə,- dedim. Mənə bu cavabı verdi:

- Mən ənsarın Rəsulullah *səllallahu əleyhi və səlləmə* xidmət etdiyini çox gördüm. Öz-özümə "Əgər ənsardan biri ilə yoldaşlıq etsəm, mən də ona xidmət edəcəyəm", - deyə and içmişdim.

Buxari, Cihad 71; Müslim, Fəzailus-səhabə 181

ƏHLİ-BEYTƏ EHTİRAM

HZ. PEYĞƏMBƏRİN ƏHLİ-BEYTİNƏ HÖRMƏT VƏ ONLARIN ÜSTÜNLÜKLƏRİ

Ayələr

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا.

1. "Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!" (əl-Əhzab, 33)

وَمَنْ يُعَظِّمْ شَعَائِرَ اللَّهِ فَإِنَّهَا مِنْ تَقْوَى الْقُلُوبِ.

2. "Hər kim Allahın dininə hörmət etsə, bu (hörmət), şübhəsiz ki, qəlblərin təqvasındandır". (əl-Həcc, 32)

Hədislər

٣٤٧ ـ عَنْ يَزِيدَ بْنِ حَيَّانَ قَالَ: انْطَلَقْتُ أَنَا وَحُصَيْنُ بْنُ سَبْرَةَ وَعَمْرُو بْنُ مُسْلِمٍ إِلَى زَيْدِ بْنِ أَرْقَمَ رَضِيَ اللَّهُ عَنْهُمْ ، فَلَمَّا جَلَسْنَا إِلَيْهِ قَالَ لَهُ حُصَيْنٌ: لَقَدْ لَقِيتَ يَا زَيْدُ خَيْرًا كَثِيرًا، رَأَيْتَ رَسُولَ اللَّهِ ﷺ وَسَمِعْتَ حَدِيثَهُ، وَغَزَوْتَ مَعَهُ، وَصَلَّيْتَ خَلْفَهُ: لَقَدْ لَقِيتَ يَا زَيْدُ خَيْرًا كَثِيرًا! حَدِّثْنَا يَا زَيْدُ مَا سَمِعْتَ مِن رَسُولِ اللَّهِ ﷺ قَالَ: يَا بْنَ أَخِي، وَاللَّهِ لَقَدْ كَبِرَتْ سِنِّي، وَقَدُمَ عَهْدِي، وَنَسِيتُ بَعْضَ الَّذِي كُنْتُ أَعِي مِنْ رَسُولِ اللَّهِ ﷺ ، فَمَا حَدَّثْتُكُمْ فَاقْبَلُوا ، وَمَا لَا فَلاَ

تُكَلِّفُونِيهِ. ثُمَّ قَالَ: قَامَ رَسُولُ اللَّهِ ﷺ يَوْمًا فِينَا خَطِيبًا بِمَاءٍ يُدْعَى خُمًّا بَيْنَ مَكَّةَ وَالْمَدِينَةِ ، فَحَمِدَ اللَّهَ وَأَثْنَى عَلَيْهِ ، وَوَعَظَ وَذَكَّرَ ، ثُمَّ قَالَ: «أَمَّا بَعْدُ ، أَلاَ أَيُّهَا النَّاسُ ، فَإِنَّمَا أَنَا بَشَرٌ ، يُوشِكُ أَنْ يَأْتِيَ رَسُولُ رَبِّي فَأُجِيبَ ، وَأَنَا تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ: أَوَّلُهُمَا كِتَابُ اللَّهِ فِيهِ الْهُدَى وَالنُّورُ، فَخُذُوا بِكِتَابِ اللَّهِ وَاسْتَمْسِكُوا بِهِ!»، فَحَثَّ عَلَى كِتَابِ اللَّهِ وَرَغَّبَ فِيهِ ، ثُمَّ قَالَ: «وَأَهْلُ بَيْتِي ، أُذَكِّرُكُمُ اللَّهَ فِي أَهْلِ بَيْتِي ، أُذَكِّرُكُمُ اللَّهَ فِي أَهْلِ بَيْتِي». فَقَالَ لَهُ حُصَيْنٌ: وَمَنْ أَهْلُ بَيْتِهِ يَا زَيْدُ ؟ أَلَيْسَ نِسَاؤُهُ مِنْ أَهْلِ بَيْتِهِ ؟ قَالَ: نِسَاؤُهُ مِنْ أَهْلِ بَيْتِهِ ، وَلَكِنْ أَهْلُ بَيْتِهِ مَنْ حُرِمَ الصَّدَقَةَ بَعْدَهُ . قَالَ: وَمَنْ هُمْ؟ قَالَ: هُمْ آلُ عَلِيٍّ ، وَآلُ عَقِيلٍ، وَآلُ جَعْفَرَ ، وَآلُ عَبَّاسٍ ، قَالَ: كُلُّ هَؤُلَاءِ حُرِمَ الصَّدَقَةَ ؟ قَالَ: نَعَمْ . رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ: «أَلَا وَإِنِّي تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ : أَحَدُهُمَا كِتَابُ اللَّهِ وَهُوَ حَبْلُ اللَّهِ، مَنِ ٱتَّبَعَهُ كَانَ عَلَى الْهُدَى ، وَمَنْ تَرَكَهُ كَانَ عَلَى ضَلَالَةٍ».

347. Yezid bin Həyyan belə dedi:

Bir gün Husayn bin Səbirə və Amr bin Müslim ilə birlikdə Zeyd bin Ərqamın evinə getdik. Yanında oturduğumuz zaman Husayn bin Səbirə dedi ki;

- Zeyd, sən çox lütfə nail olmuş adamsan. Rəsulullah *səllallahu əleyhi və səlləmi* gördün, sözünü dinlədin, onunla birlikdə döyüşlərdə iştirak etdin və arxasında namaz qıldın. Sözün düzü, böyük səadətə qovuşdun, ey Zeyd. Rəsulullah *səllallahu əleyhi və səlləmdən* eşitdiklərindən bizə də danış.

Zeyd belə dedi:

- Ey qardaşım oğlu, vallahi, çox yaşlandım. Aradan çox vaxt keçib. Rəsulullah *səllallahu əleyhi və səlləmdən* eşitdib öyrəndiklərimin bir hissəsini unutmuşam. Ona görə də sizə danışdıqlarımı öyrənin, danışmadıqlarım xüsusunda məcbur etməyin.

Zeyd sözünün davamında dedi:

Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləm* Məkkə və Mədinə arasındakı Xum suyunun başında ayağa qalxaraq bizə bir söhbət etdi. Allaha həmd-səna etdikdən sinra bizə öyüd-nəsihət verdi. Sonra da belə buyurdu:

- **"Ey insnalar, mən də bir insanam. Tezliklə Rəbbimin elçisi mənə də gələcək və mən onun dəvətini eşidib gedəcəyəm. Sizə iki mühüm şey qoyub gedirəm. Biri, insanı doğruya aparan rəhbər və nur olan Allahın Kitabı Qurandır. Ondan bərk yapışın və möhkəm sarılın!"**

Peyğəmbər *səllallahu əleyhi və səlləm* Qurana sarılmaq və ona bağlanmaq xüsusunda tövsiyələr etdi. Sonra sözünün davamında belə buyurdu:

"Bir də sizə əhli-beytimi qoyub gedirəm. Allahdan qorxun, əhli-beytimə hörmət edin. Allahdan qorxun və əhli-beytimə hörmət edin!"

Husayn bin Səbirə:

- Ey Zeyd, Peyğəmbərin əhli-beyti kimdir? Xanımları da əhli-beytdən deyilmi? - sualını verdikdə Zeyd belə dedi:

- Xanımları da əhli-beytindəndir. Lakin onun əsl əhli-beyti özündən sonra da sədəqə almaları haram olanlardır.

Husayn:

- Sədəqə almaları haram olanlar kimlərdir? - deyə soruşdu.

Zeyd:

- Əlinin ailəsi, Aqilin ailəsi, Cəfərin ailəsi və Abbasın ailəsidir,- dedi.

Husayn:

- Bunların hamısına sədəqə almaq haramdır? -dedi. Zeyd bin Ərqam:

- Bəli,- cavabını verdi.

Müslim, Fəzailus-səhabə 36

Başqa bir rəvayətə görə Rəsuli-Əkrəm belə buyurdu:

- **"Sizə iki mühüm şey qoyub gedirəm. Onlardan biri Allahın Kitabıdır. O, Allahın ipidir. Ondan yapışan doğru yolu tapar. Onu buraxan da yolundan çıxar".**

Müslim, Fəzailus-səhabə, 37

٣٤٨ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنْ أَبِي بَكْرٍ الصِّدِّيقِ رَضِيَ اللَّهُ عَنْهُ مَوْقُوفًا عَلَيْهِ أَنَّهُ قَالَ: ارْقُبُوا مُحَمَّدًا ﷺ فِي أَهْلِ بَيْتِهِ. رَوَاهُ الْبُخَارِيُّ .

348. İbn Ömər *radiyallahu anhumə* Əbu Bəkr Siddiq *radiyallahu anhın* belə buyurduğunu rəvayət etdi:

Əhli-beyti sevib ehtiram etmək xüsusunda Peyğəmbər *səllallahu əleyhi və səlləmin* əmrinə riayət edin.

Buxari, Fəzailus-səhabə 12, 22

ALİMLƏRƏ EHTİRAM

ALİMLƏRƏ, BÖYÜKLƏRƏ VƏ FƏZİLƏT SAHİBİ OLANLARA EHTİRAM GÖSTƏRMƏK, ONLARI BAŞQALARINDAN ÜSTÜN TUTMAQ, MƏCLİSLƏRDƏ ÖNƏ KEÇİRMƏK VƏ ÜSTÜNLÜKLƏRİNİ DİLƏ GƏTİRMƏK, TƏQDİR ETMƏK

Ayə

قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُولُوا الْأَلْبَابِ.

"De: Heç bilənlərlə bilməyənlər (alimlə cahil) **eyni ola bilərmi?!** (Allahın ayələrindən, dəlillərindən**) yalnız ağıl sahibləri ibrət alar!"**

(əz-Zumər, 9)

Hədislər

٣٤٩ ـ عَنْ أَبِي مَسْعُودٍ عُقْبَةَ بْنِ عَمْرٍو الْبَدْرِيِّ الْأَنْصَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَؤُمُّ الْقَوْمَ أَقْرَؤُهُمْ لِكِتَابِ اللَّهِ ، فَإِنْ كَانُوا فِي الْقِرَاءَةِ سَوَاءً فَأَعْلَمُهُمْ بِالسُّنَّةِ ، فَإِنْ كَانُوا فِي السُّنَّةِ سَوَاءً فَأَقْدَمُهُمْ هِجْرَةً ، فَإِنْ كَانُوا فِي الْهِجْرَةِ سَوَاءً فَأَقْدَمُهُمْ سِنًّا. وَلاَ يَؤُمَّنَّ الرَّجُلُ الرَّجُلَ فِي سُلْطَانِهِ ، وَلاَ

يَقْعُدْ فِي بَيْتِهِ عَلَى تَكْرِمَتِهِ إِلَّا بِإِذْنِهِ» . رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لَهُ: «فَأَقْدَمُهُمْ سِلْمًا» بَدَلَ «سِنًّا»: أَيْ إِسْلَامًا.

وَفِي رِوَايَةٍ: «يَؤُمُّ الْقَوْمَ أَقْرَؤُهُمْ لِكِتَابِ اللَّهِ وَأَقْدَمُهُمْ قِرَاءَةً ؛ فَإِنْ كَانَتْ قِرَاءَتُهُمْ سَوَاءً فَلْيَؤُمَّهُمْ أَقْدَمُهُمْ هِجْرَةً ، فَإِنْ كَانُوا فِي الْهِجْرَةِ سَوَاءً فَلْيَؤُمَّهُمْ أَكْبَرُهُمْ سِنًّا».

349. Əbu Məsud Uqbə bin Amr əl-Bədri əl-Ənsari *radiyallahu anhdan* rəvayət edildiyinə örə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Camaata imamlığı aralarında Quranı yaxşı bilən və oxuyanlar etsinlər. Quranı bilməkdə eyni səviyyədədirlərsə, sünnəni ən yaxşı bilən, əgər sünnədə də bərabər olsalar, daha əvvəl hicrət edənlər, hicrət etməkdə də eyni olsalar, yaşca ən böyükləri imam olsun. Bir yerdə hakim və səlahiyyətli adam varsa, onun izni olmadan başqası imamlıq etməyə qalxmasın. Heç kim başqasının evində (ev sahibinin) izni olmadıqca ev sahibinə xas yerdə oturmasın".

Müslim, Məsacid 290

Müslimin bir rəvayətində **"yaşca ən böyük olan"** yerinə **"daha əvvəl müsəlman olan"** ifadəsi yer alır.

Yenə bir rəvayətdə (Müslim, Məsacid 291) **"Camaata Allahın kitabını ən yaxşı bilən və qiraətdə öndə olan imamlıq etsin. Əgər oxuyuşları eynidirsə, əvvəlcə hicrət edən imam olsun. Əgər hicrətdə də eyni olsalar, yaşca ən böyükləri imam olsun", -** buyurulmuşdur.

❁

٣٥٠ ـ وَعَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَمْسَحُ مَنَاكِبَنَا فِي الصَّلَاةِ وَيَقُولُ: «اسْتَوُوا وَلَا تَخْتَلِفُوا فَتَخْتَلِفَ قُلُوبُكُمْ ، لِيَلِنِي مِنْكُمْ أُولُو الْأَحْلَامِ وَالنُّهَى ، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ ، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ» . رَوَاهُ مُسْلِمٌ .

350. Yenə Əbu Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* namaza başlayacağımız zaman çiyinlərimizə toxunaraq belə buyurdu:

- **"Düz durun, qarışıq durmayın. Sonra qəlbləriniz də qarışıq olar. Namazda mənim arxamda yaşca böyüklər dursun. Arxalarında onlardan sonra gələnlər, daha sonra da onlardan sonra gələnlər dursun".**

Müslim, Salət 122. Həmçinin bax. Əbu Davud, Salət 95; Nəsai, İmamət 23, 25, 26

❁

٣٥١ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لِيَلِنِي مِنْكُمْ أُولُو الْأَحْلَامِ وَالنُّهَى ، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ» ـ ثَلاَثًا ـ «وإِيَّاكُمْ وَهَيْشَاتِ الْأَسْوَاقِ» . رَوَاهُ مُسْلِمٌ .

351. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mənim arxamda imamlıq etmə qabiliyyəti olanlarınız dursun. Onların arxasında da digərləri yerlərini tutsun". Peyğəmbər *səllallahu əleyhi və səlləm* bu cümləni üç dəfə təkrar etdi. **"Namazda bazardakı dağınıqlıqdan uzaq olun!"**

Müslim, Salət 123. Həmçinin bax. Əbu Davud, Salət 95; Nəsai, Salət 54; İmamət 23, 26; İbn Macə, İqamət 45

❁

٣٥٢ ـ عَنْ أَبِي يَحْيَى ـ وَقِيلَ أَبِي مُحَمَّدٍ سَهْلِ بْنِ أَبِي حَثْمَةَ: بِفَتْحِ الْحَاءِ الْمُهْمَلَةِ وَإِسْكَانِ الثَّاءِ الْمُثَلَّثَةِ ـ الْأَنْصَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: انْطَلَقَ عَبْدُ اللَّهِ بْنُ سَهْلٍ وَمُحَيِّصَةُ بْنُ مَسْعُودٍ إِلَى خَيْبَرَ ـ وَهِيَ يَوْمَئِذٍ صُلْحٌ ـ فَتَفَرَّقَا ، فَأَتَى مُحَيِّصَةُ إِلَى عَبْدِ اللَّهِ بْنِ سَهْلٍ وَهُوَ يَتَشَحَّطُ فِي دَمِهِ قَتِيلاً ، فَدَفَنَهُ ثُمَّ قَدِمَ الْمَدِينَةَ ، فَانْطَلَقَ عَبْدُ الرَّحْمَنِ بْنُ سَهْلٍ وَمُحَيِّصَةُ وَحُوَيِّصَةُ ابْنَا مَسْعُودٍ إِلَى النَّبِيِّ ﷺ ، فَذَهَبَ عَبْدُ الرَّحْمَنِ يَتَكَلَّمُ فَقَالَ: «كَبِّرْ كَبِّرْ» وَهُوَ أَحْدَثُ الْقَوْمِ ، فَسَكَتَ فَتَكَلَّمَا فَقَالَ: «أَتَحْلِفُونَ وَتَسْتَحِقُّونَ قَاتِلَكُمْ ؟» وَذَكَرَ تَمَامَ الْحَدِيثِ. مُتَّفَقٌ عَلَيْهِ .

352. Əbu Yəhya (yaxud) Əbu Muhammməd Səhl bin Əbu Hasmə əl-Ənsari *radiyallahu anh* belə dedi:

Abdullah bin Səhl və Muhayyisa bin Məsud sülh günləri Xeybərə getmişdilər. (İşlərini görmək üçün bir-birindən) ayrıldılar. Muhayyisa (görüşəcəkləri yerə gələndə) Abdullah bin Səhli qan-rəvan içində can verərkən gördü. Onu dəfn edib Mədinəyə qayıtdı. (Abdullahın qardaşı) Əbdürrəhman bin Səhl (hadisədən xəbər tutan kimi) Məsudun oğulları Muhayyisa və Huveyyisanı da götürüb Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına yollandı. Oradakıların yaşca ən kiçiyi olan Əbdürrəhman hadisəni danışmağa başladı. Bu zaman Hz. Peyğəmbər:

"Sözü böyüyünüzə ver, sözü böyüyünüzə ver!" - buyurdu.

Əbdürrəhman susdu və digərləri hadisəni danışmağa başladılar. Sonda Peyğəmbər belə buyurdu:

"Qatilin üzərində haqq sahibi ola bilmək üçün and içərsinizmi?"

(Əbu Yəhya hədisin tamamını nəql etdi)

Buxari, Cizyə 12, Ədəb 89, Diyət 22; Müslim, Qasamə 1, 3, 6. Həmçinin bax. Əbu Davud, Diyat 8; Nəsai, Qasamə, 3, 4; İbn Macə, Diyət 28

❁

٣٥٣ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَجْمَعُ بَيْنَ الرَّجُلَيْنِ مِنْ قَتْلَى أُحُدٍ ـ يَعْنِي فِي الْقَبْرِ ـ ثُمَّ يَقُولُ: «أَيُّهُمَا أَكْثَرُ أَخْذًا لِلْقُرْآنِ؟» فَإِذَا أُشِيرَ لَهُ إِلَى أَحَدِهِمَا قَدَّمَهُ فِي اللَّحْدِ. رَوَاهُ الْبُخَارِيُّ .

353. Cabir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* Uhud döyüşündə şəhid olanları hər məzara iki nəfəri qoyacaq şəkildə toplatdı. Sonra:

"Bunların hansı Quranı daha çox bilirdi?" - deyə soruşdu.

Şəhidlərdən hansını göstərsələr, əvvəlcə onu qibləyə yaxın qoydu.

Buxari, Cənaiz 72, 75, 78, Məğazi 26. Həmçinin bax. Əbu davud, Cənaiz 27; Nəsai, Cənaiz 62; İbn Macə, Cənaiz 28; Tirmizi, Cənaiz 31

❁

٣٥٤ ـ عَنِ ابْنِ عُمَـرَ رَضِيَ اللَّـهُ عَنْهُمَا أَنَّ النَّبِيَّ ﷺ قَـالَ: «أَرَانِي فِي الْمَنَامِ أَتَسَـوَّكُ بِسِوَاكٍ ، فَجَـاءَنِي رَجُـلاَنِ أَحَدُهُمَا أَكْبَرُ مِنَ الْآخَـرِ ، فَنَاوَلْتُ السِّـوَاكَ الْأَصْغَرَ ، فَقِيلَ لِي: كَبِّرْ ، فَدَفَعْتُهُ إِلَى الْأَكْبَرِ مِنْهُمَا» . رَوَاهُ مُسْلِمٌ .

354. İbn Ömər *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yuxuda gördüm ki, dişlərimi misvaklayıram. Yanıma biri digərindən yaşlı olan iki nəfər gəldi. Misvakı kiçiyinə vermək istədim". Mənə "Böyüyə ver" deyildi, mən də böyüyə verdim".

Buxari, Vudu 74; Müslim, Röya 19, Zöhd 70

❁

٣٥٥ ـ عَنْ أَبِي مُـوسَى رَضِيَ اللَّهُ عَنْهُ قَـالَ: قَالَ رَسُـولُ اللَّهِ ﷺ : «إِنَّ مِنْ إِجْـلاَلِ اللَّهِ تَعَـالَى إِكْـرَامَ ذِي الشَّيْبَةِ الْمُسْلِـمِ ، وَحَامِلِ الْقُـرْآنِ غَيْرِ الْغَـالِي فِيـهِ وَالْجَافِي عَنْهُ ، وإِكْرَامَ ذِي السُّلْطَانِ الْمُقْسِطِ» . رَوَاهُ أَبُو دَاوُدَ.

355. Əbu Musa *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Saç-saqqalı ağarmış müsəlmana, Quranı üsuluna görə oxuyan və hökmləri ilə əməl edən Quran hafizinə və adil hökmdara hörmət etmək Allah-Təalaya duyulan təzim və ehtiramdan irəli gəlir".

Əbu Davud, Ədəb 20

❁

٣٥٦ ـ عَنْ عَمْـرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَـدِّهِ رَضِيَ اللَّهُ عَنْهُمْ قَالَ: قَـالَ رَسُولُ اللَّهِ ﷺ : «لَيْسَ مِنَّا مَنْ لَمْ يَـرْحَمْ صَغِيرَنَا وَيَعْرِفْ شَرَفَ كَبِيرِنَا» . رَوَاهُ أَبُو دَاوُدَ، والتِّرْمِذِيُّ.

وَفِي رِوَايَةِ أَبِي دَاوُدَ «حَقَّ كَبِيرِنَا».

356. Amr bin Şuaybın atası vasitəsi ilə babasından rəvayət etdiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kiçiklərimizə rəhm etməyən, böyüklərimizin şərəfini tanımayan bizdən deyil".

Əbu Davud, Ədəb 58; Tirmizi, Birr 15

Hədisin son hissəsi Əbu Davudun rəvayətində **"böyüklərin haqqını tanımayan"** şəklindədir.

❁

٣٥٧ ـ عَنْ مَيْمُونِ بْنِ أَبِي شَبِيبٍ رَحِمَهُ اللَّهُ أَنَّ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا مَرَّ بِهَا سَائِلٌ فَأَعْطَتْـهُ كِسْرَةً ، وَمَرَّ بِهَا رَجُلٌ عَلَيْهِ ثِيَـابٌ وَهَيْئَةٌ فَأَقْعَدَتْهُ ، فَأَكَلَ فَقِيلَ لَهَا فِي ذَلِكَ . فَقَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَنْزِلُوا النَّاسَ مَنَازِلَهُمْ». رَوَاهُ أَبُو دَاوُدَ .

357. Məymun bin Əbu Şəbib rahiməhullahdan rəvayət edilmişdir. O, belə demişdir:

Bir gün Hz. Aişənin yanına bir dilənçi gəldi. Aişə *radiyallahu anhə* ona bir parça çörək verdi. Əyin-başı yaxşı olan başqa bir adam gəldi. Onu da süfrədə oturdub yemək verdi. Onlara fərqli rəftarının səbəbini soruşanlara Hz. Aişə bu cavabı verdi:

Rəsulullah *səllallahu əleyhi və səlləm***"İnsanlara məqam və səviyyələrinə görə rəftar edin", -** buyurmuşdur.

Əbu Davud, Ədəb 20

Əbu Davud Məymun bin Əbu Şəbibin Hz. Aişə ilə görüşmədiyini deyir.

Müslim Səhihinin baş tərəflərində (I, 6) bu hədisi sənədsiz olaraq belə nəql edir:

Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə "İnsanlara səviyyələrinə görə rəftar etməmizi tövsiyə etdi", - demişdir.

Hakim Əbu Abdullah bu hədisi Mərifətu Ulumil-Hadis adlı əsərində (s. 49) nəql etmiş və səhih olduğunu demişdir.

❁

٣٥٨ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَدِمَ عُيَيْنَةُ بْنُ حِصْنٍ فَنَزَلَ عَلَى ابْنِ أَخِيهِ الْحُرِّ بْنِ قَيْسٍ ، وَكَانَ مِنَ النَّفَرِ الَّذِينَ يُدْنِيهِمْ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ ، وَكَانَ الْقُرَّاءُ أَصْحَابَ مَجْلِسِ عُمَرَ وَمُشَاوَرَتِهِ ـ كُهُولًا كَانُوا أَوْ شُبَّانًا ـ فَقَالَ عُيَيْنَةُ لابْنِ أَخِيهِ: يَاابْنَ أَخِي ، لَكَ وَجْهٌ عِنْدَ هَذَا الْأَمِيرِ ، فَاسْتَأْذِنْ لِي عَلَيْهِ ، فَاسْتَأْذَنَ لَهُ ، فَأَذِنَ لَهُ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ ، فَلَمَّا دَخَلَ: قَالَ هِي يَا بْنَ الْخَطَّابِ ، فَوَاللَّهِ مَا تُعْطِينَا الْجَزْلَ ، وَلَا تَحْكُمُ فِينَا بِالْعَدْلِ. فَغَضِبَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ حَتَّى هَمَّ أَنْ يُوقِعَ بِهِ ، فَقَالَ لَهُ الْحُرُّ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ ، إِنَّ اللَّهَ تَعَالَى قَالَ لِنَبِيِّهِ ﷺ **﴿خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ﴾**. وَإِنَّ هَذَا مِنَ الْجَاهِلِينَ. وَاللَّهِ مَا جَاوَزَهَا عُمَرُ حِينَ تَلَاهَا عَلَيْهِ ، وَكَانَ وَقَّافًا عِنْدَ كِتَابِ اللَّهِ تَعَالَى. رَوَاهُ الْبُخَارِيُّ .

358. Abdullah bin Abbas *radiyallahu anhumə* belə dedi:

Üyeynə bin Hısn Mədinəyə gəldi və qardaşı oğlu Hürr bin Qeysin qonağı oldu. Hürr Hz. Ömərin məşvərət məclisi üzvlərindən idi. Zatən, gənc-yaşlı bütün alimlər (qurra) Hz. Ömərin məşvərət məclisində idilər. Bu səbəblə Üyeynə qardaşı oğlu Hürr bin Qeysə:

- Qardaşoğlu, sənin dövlət rəisinin yanında xüsusi yerin var. Məni onunla görüşdür,- dedi.

Hürr Ömərdən izin aldı. Üyeynə Ömərin yanına girib:

- Ey Xəttab oğlu Ömər, Allaha and içirəm ki, bizə artıq heç nə vermirsən. Aramızda ədalətlə hökm etmirsən,- dedi.

Ömər qəzəbləndi, Üyeynəyə cəza vermək istədi.

Bu zaman Hürr:

- Ey möminlərin əmiri, Allah Peyğəmbərinə "əfv yolunu tut, yaxşılığı əmr et, cahilləri cəzalandırmaqdan daşın!" - buyurdu. Mənim əmim də cahillərdəndir,- dedi.

(Ravi deyir) Allaha and olsun ki, Hürr bu ayəni oxuduqda Ömər Üyeynəni cəzalandırmaqdan daşındı. Zatən Ömər Allahın kitabına son dərəcə bağlı idi. Buxari, Təfsiru-surə (7), 5, İtisam 2

٣٥٩ ـ عَنْ أَبِي سَعِيدٍ سَمُـرَةَ بْنِ جُنْدَبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَـالَ: لَقَدْ كُنْتُ عَلَى عَهْدِ رَسُـولِ اللَّهِ ﷺ غُلاَمًا ، فَكُنْتُ أَحْفَـظُ عَنْهُ ، فَمَا يَمْنَعُنِي مِنَ الْقَوْلِ إِلاَّ أَنَّ هَهُنَا رِجَالاً هُمْ أَسَنُّ مِنِّي . مُتَّفَقٌ عَلَيْهِ .

359. Əbu Səid Səmurə bin Cundəb *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* həyatda ikən mən uşaq sayılacaq yaşda idim. Yaşım az olduğu üçün ondan eşitdiklərimi əzbərləyirdim. Sadəcə olaraq bu dəqiqə buradakı yaşlı adamlara qoyduğum hörmət eşitdiklərimi nəql etməmə mane olur.

Müslim, Cənaiz 88

❁

٣٦٠ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَـالَ رَسُولُ اللَّهِ ﷺ : «مَا أَكْـرَمَ شَابٌّ شَيْخًا لِسِنِّهِ إِلاَّ قَيَّضَ اللَّهُ لَهُ مَنْ يُكْرِمُهُ عِنْدَ سِنِّهِ». رَوَاهُ التِّرْمِذِيُّ .

360. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala yaşına görə bir qocaya hörmət edən gəncə yaşlandığı vaxt xidmət edəcək adamlar lütf edər".

Tirmizi, Birr 75

FƏZİLƏTLİ İNSANLARI ZİYARƏT ETMƏK

FƏZİLƏTLİ İNSANLARI ZİYARƏT, ONLARLA BİRLİKDƏ OLUB SÖHBƏT ETMƏK, ONLARA SEVGİ BƏSLƏMƏK, DUALARINI İSTƏMƏK VƏ MÜBARƏK YERLƏRİ ZİYARƏT

Ayələr

وَ اِذْ قَالَ مُوسٰى لِفَتٰيهُ لَآ اَبْرَحُ حَتّٰى اَبْلُغَ مَجْمَعَ الْبَحْرَيْنِ اَوْ اَمْضِيَ حُقُبًا . فَلَمَّا بَلَغَا مَجْمَعَ بَيْنِهِمَا نَسِيَا حُوتَهُمَا فَاتَّخَذَ سَبِيلَهُ فِي الْبَحْرِ سَرَبًا . فَلَمَّا جَاوَزَا قَالَ

لِفَتٰىهُ اٰتِنَا غَدَآءَنَا لَقَدْ لَقِيْنَا مِنْ سَفَرِنَا هٰذَا نَصَبًا .قَالَ اَرَاَيْتَ اِذْ اَوَيْنَآ اِلَى الصَّخْرَةِ
فَاِنِّي نَسِيتُ الْحُوتَ وَمَآ اَنْسَانِيهُ اِلَّا الشَّيْطَانُ اَنْ اَذْكُرَهُ وَاتَّخَذَ سَبِيلَهُ فِي الْبَحْرِ
عَجَبًا . قَالَ ذٰلِكَ مَا كُنَّا نَبْغِ فَارْتَدَّا عَلٰى اٰثَارِهِمَا قَصَصًا. فَوَجَدَا عَبْدًا مِنْ
عِبَادِنَآ اٰتَيْنَاهُ رَحْمَةً مِنْ عِنْدِنَا وَعَلَّمْنَاهُ مِنْ لَدُنَّا عِلْمًا . قَالَ لَهُ مُوسٰى هَلْ اَتَّبِعُكَ
عَلٰى اَنْ تُعَلِّمَنِ مِمَّا عُلِّمْتَ رُشْدًا .

1. “(Ya Rəsulum!) **Yadına sal ki, bir zaman Musa öz gənc dostuna** (xidmətində olan Yuşə ibn Nuna) **belə demişdi: “Mən** (Xızırla görüşmək üçün) **iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolanmayınca** (bu səfərdən) **geri dönməyəcəyəm!”**

Onlar iki dənizin qovuşduğu yerə gəlib çatdıqda (yeməyə götürdükləri) **balığı unutmuşdular, balıq isə** (dirilib suya atılmış) **dənizdə bir yarğana tərəf üz tutmuşdu.**

Onlar (iki dənizin qovuşduğu yerdən) **keçib getdikləri zaman (Musa) gənc dostuna dedi: “Nahar yeməyimizi gətir. Bu səfərimiz bizi lap əldən saldı!”**

O isə: “Görürsənmi, biz (həmin yerdə) **qayanın yanında gizləndiyimiz zaman mən balığı unutdum. Doğrusu, onu xatırlamağı mənə yalnız Şeytan unutdurdu.** (Balıq dirilib) **əcaib bir şəkildə dənizə yollanmışdır!” – deyə cavab verdi.**

(Musa:) **“Elə istədiyimiz də** (axtardığımız da) **budur!” – dedi və onlar öz ləpirlərinin izinə düşüb gəldikləri yolla geri (iki dənizin qovuşduğu yerə) qayıtdılar.**

(Musa və Yuşə orada) **Öz dərgahımızdan mərhəmət** (peyğəmbərlik və vəhy, yaxud ilham və kəramət) **əta etdiyimiz və Öz tərəfimizdən elm** (qeybə dair bəzi biliklər) **öyrətdiyimiz bəndələrimizdən birini (Xızırı) tapdılar.**

Musa ondan soruşdu: “Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?”

(əl-Kəhf, 60-66)

وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ.

2. "Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru)". (əl-Kəhf, 28)

Hədislər

٣٦١ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ أَبُو بَكْرٍ لِعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا بَعْدَ وَفَاةِ رَسُولِ اللَّهِ ﷺ: انْطَلِقْ بِنَا إِلَى أُمِّ أَيْمَنَ رَضِيَ اللَّهُ عَنْهَا نَزُورُهَا كَمَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يَزُورُهَا .. فَلَمَّا انْتَهَيَا إِلَيْهَا بَكَتْ ؛ فَقَالاَ لَهَا: مَا يُبْكِيكِ ؟ أَمَا تَعْلَمِينَ أَنَّ مَا عِنْدَ اللَّهِ خَيْرٌ لِرَسُولِ اللَّهِ ﷺ ، فَقَالَتْ: إِنِّي لاَ أَبْكِي ، إِنِّي لَأَعْلَمُ أَنَّ مَا عِنْدَ اللَّهِ تَعَالَى خَيْرٌ لِرَسُولِ اللَّهِ ﷺ وَلَكِنْ أَبْكِي أَنَّ الْوَحْيَ قَدِ انْقَطَعَ مِنَ السَّمَاءِ . فَهَيَّجَتْهُمَا عَلَى الْبُكَاءِ ، فَجَعَلاَ يَبْكِيَانِ مَعَهَا . رَوَاهُ مُسْلِمٌ .

361. Ənəs *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* vəfatından sonra Əbu Bəkr Ömərə:

- Qalx, Ümmü Eymən *radiyallahu anhənin* yanına gedək. Rəsulullah *səllallahu əleyhi və səlləm* kimi biz də onu ziyarət edək,- dedi.

Yanına gedəndə Ümmü Eymən ağladı. Onlar:

- Nə üçün ağlayırsan? Allah qatındakı nemətin Rəsulullah *səllallahu əleyhi və səlləm* üçün daha xeyirli olduğunu bilmirsənmi? - dedilər. Ümmü Eymən:

- Mən ona görə ağlamıram. Əlbəttə ki, Allah qatındakı nemətlərin Peyğəmbər *səllallahu əleyhi və səlləm* üçün daha xeyirli olduğunu bilirəm. Mən vəhy kəsildiyi üçün ağlayıram,- dedi. Bu sözləri ilə Əbu Bəkr və Öməri də duyğulandırdı. Ümmü Eymənlə birlikdə ağlamağa başladılar.

Müslim, Fəzailus-səhabə 103. Həmçinin bax. İbn Macə, Cənaiz 65

❁

٣٦٢ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ: «أَنَّ رَجُلاً زَارَ أَخًا لَهُ فِي قَرْيَةٍ أُخْرَى ، فَأَرْصَدَ اللَّهُ تَعَالَى عَلَى مَدْرَجَتِهِ مَلَكًا ، فَلَمَّا أَتَى عَلَيْهِ قَالَ: أَيْنَ تُرِيدُ؟ قَالَ: أُرِيدُ أَخًا لِي فِي هَذِهِ الْقَرْيَةِ . قَالَ: هَلْ لَكَ عَلَيْهِ مِنْ نِعْمَةٍ تَرُبُّهَا عَلَيْهِ؟

قَالَ: لاَ ، غَيْرَ أَنِّي أَحْبَبْتُـهُ فِي اللَّهِ تَعَالَى. قَالَ: فَإِنِّي رَسُـولُ اللَّهِ إِلَيْكَ ، بِأَنَّ اللَّهَ قَدْ أَحَبَّكَ كَمَا أَحْبَبْتَهُ فِيهِ» . رَوَاهُ مُسْلِمٌ .

362. Əbu Hüreyrə *radiyallahu anhdan* Hz. Peyğəmbər *səllallahu əleyhi və səlləmin* belə buyurduğu nəql edilmişdir:

"Bir nəfər başqa kənddə yaşayan din qardaşını ziyarət etmək üçün yola çıxdı. Allah-Təala ona nəzarət etmək üçün yolunun üstündə bir mələyi vəzifələndirdi. O, mələyin yanına çatanda mələk soruşdu:

- Hara gedirsən?

- Bu qarşı kənddəbir din qardaşım yaşayır, onu ziyarət etməyə gedirəm,- cavabını verdi. Mələk:

- Ondan əldə etmək istədiyin bir mənfəətin varmı? - deyə soruşdu. Adam:

- Xeyr, yoxdur. Mən onu sırf Allah rizası üçün sevirəm, buna görə də ziyarətinə gedirəm,- dedi. Bu zaman mələk:

- Sən onu necə sevirsənsə, Allah da səni elə sevir. Mən səni bununla müjdələmək üçün Allahın göndərdiyi elçisiyəm,- dedi".

Müslim, Birr 38

❁

٣٦٣ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ عَادَ مَرِيضًا أَوْ زَارَ أَخًا لَهُ فِي اللَّهِ نَادَاهُ مُنَادٍ: بِأَنْ طِبْتَ وَطَابَ مَمْشَاكَ ، وَتَبَوَّأْتَ مِنَ الْجَنَّةِ مَنْزِلًا» . رَوَاهُ التِّرْمِذِيُّ.

363. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* nəql edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Hər kim bir xəstənin halını soruşmağa gedər və ya Allah üçün sevdiyi bir adamı ziyarət edərsə, bir mələk ona belə nida edər:

Sən necə də xoşbəxtsən! Gözəl bir yol qət etdin. Özün üçün cənnətdə mənzil hazırladın".

Tirmizi, Birr 64. Həmçinin bax. İbn Macə, Cənaiz 2

٣٦٤ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِنَّمَا مَثَلُ الْجَلِيسِ الصَّالِحِ وَجَلِيسِ السُّوءِ كَحَامِلِ الْمِسْكِ وَنَافِخِ الْكِيرِ. فَحَامِلُ الْمِسْكِ إِمَّا أَنْ يُحْذِيَكَ ، وَإِمَّا أَنْ تَبْتَاعَ مِنْهُ ، وَإِمَّا أَنْ تَجِدَ مِنْهُ رِيحًا طَيِّبَةً. وَنَافِخُ الْكِيرِ إِمَّا أَنْ يُحْرِقَ ثِيَابَكَ ، وَإِمَّا أَنْ تَجِدَ مِنْهُ رِيحًا مُنْتِنَةً». مُتَّفَقٌ عَلَيْهِ .

364. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Yaxşı və pis yoldaşın halı gözəl ətir (müşk) satanla körük çəkənin halına bənzəyir: Müşk satan ya sənə gözəl ətrindən hədiyyə edər, yaxud pul verib-alarsan. Yaxud da (ən azından onunla birlikdə olduğun müddətdə) gözəl ətir qoxulamış olarsan. Körük çəkən adam isə ya patlarını yandırar, yaxud da (ən azından) körüyün pis iyi səni narahat edər".

Buxari, Zəbaih 31, Büyu 38; Müslim, Birr 146. Həmçinin bax. Əbu Davud, Ədəb 16

❁

٣٦٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «تُنْكَحُ الْمَرْأَةُ لِأَرْبَعٍ: لِمَالِهَا، وَلِحَسَبِهَا ، وَلِجَمَالِهَا ، وَلِدِينِهَا ، فَاظْفَرْ بِذَاتِ الدِّينِ تَرِبَتْ يَدَاكَ». مُتَّفَقٌ عَلَيْهِ .

365. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qadınla dörd səbəbdən evlənərlər: Malı, əsil-nəcabəti, gözəlliyi və dindarlığı. Sən dindar olanı seç, yoxsa çətinlik çəkərsən".

Buxari, Nikah 15; Müslim, Rada 53. Həmçinin bax. Əbu Davud, Nikah 2; Nəsai, Nikah 13; İbn Macə, Nikah 6

❁

٣٦٦ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ النَّبِيُّ ﷺ لِجِبْرِيلَ: «مَا يَمْنَعُكَ أَنْ تَزُورَنَا أَكْثَرَ مِمَّا تَزُورُنَا؟» فَنَزَلَتْ: ﴿وَمَا نَتَنَزَّلُ إِلاَّ بِأَمْرِ رَبِّكَ. لَهُ مَا بَيْنَ أَيْدِينَا وَمَا خَلْفَنَا وَمَا بَيْنَ ذَلِكَ﴾. رَوَاهُ الْبُخَارِيُّ .

366. Abdullah bin Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* Cəbrayıl əleyhissalamdan soruşdu:

- **"Bizi tez-tez ziyarət etməyinə nə mane olur?"** Bu hadisədən sonra aşağıdakı ayə nazil oldu:

- **"Biz (dünyaya) yalnız sənin Rəbbinin əmri ilə enirik. Önümüzdə, arxamızda və onların arasında nə varsa ancaq Ona məxsusdur".**

(Məryəm, 64) Buxari, Təfsiru surə (19), 2

❁

٣٦٧ ـ عَنْ أَبِي سَعِيـــدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْـهُ عَنِ النَّبِيِّ ﷺ قَـــالَ: «لاَ تُصَاحِبْ إِلاَّ مُؤْمِنًا ، وَلاَ يَأْكُلْ طَعَامَكَ إِلاَّ تَقِيٌّ». رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ.

367. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* Nəbi *səllallahu əleyhi və səlləmin* belə buyurduğu rəvayət edilmişdir:

"Mömindən başqası ilə dostluq etmə, yeməyini müttəqidən başqası yeməsin".

Əbu Davud, Ədəb 16; Tirmizi, Zöhd 56

❁

٣٦٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّـهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَـــالَ: «الرَّجُلُ عَلَى دِينِ خَلِيلِهِ ، فَلْيَنْظُرْ أَحَدُكُمْ مَنْ يُخَالِلُ». رَوَاهُ أَبُو دَاوُدَ والتِّرْمِذِيُّ.

368. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsan dostunun həyat tərzindən təsirlənir. Ona görə də hər biriniz kiminlə dost olacağınıza diqqət edin!"

Əbu Davud, Ədəb 16; Tirmizi, Zöhd 45

❁

٣٦٩ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «الْمَرْءُ مَعَ مَنْ أَحَبَّ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ قَالَ: قِيلَ لِلنَّبِيِّ ﷺ: الرَّجُلُ يُحِبُّ الْقَوْمَ وَلَمَّا يَلْحَقْ بِهِمْ؟ قَالَ: «الْمَرْءُ مَعَ مَنْ أَحَبَّ» !

369. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsan sevdiyi ilə bərabərdir".

Buxari, Ədəb 96; Müslim, Birr 165. Həmçinin bax. Tirmizi, Zöhd 50; Dəavat 98

Başqa bir rəvayətdə Peyğəmbər *səllallahu əleyhi və səlləmdən*:

Bir adam bir qövmü sevdiyi halda onların səviyyəsinə çata bilməzsə, onun haqqında nə buyurursunuz? - deyə soruşulduğu, onun da:

"İnsan sevdiyi ilə bərabərdir", - buyurduğu nəql edilmişdir.

❁

٣٧٠ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ أَعْرَابِيًّا قَالَ لِرَسُولِ اللَّهِ ﷺ: مَتَى السَّاعَةُ ؟ قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَا أَعْدَدْتَ لَهَا ؟» قَالَ: حُبَّ اللَّهِ وَرَسُولِهِ. قَالَ: «أَنْتَ مَعَ مَنْ أَحْبَبْتَ» . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لَهُمَا: مَا أَعْدَدْتُ لَهَا مِنْ كَثِيرِ صَوْمٍ وَلاَ صَلاَةٍ وَلاَ صَدَقَةٍ ؛ وَلَكِنِّي أُحِبُّ اللَّهَ وَرَسُولَهُ.

370. Ənəs *radiyallahu anhdan* belə dediyi rəvayət olunmuşdur:

Bir bədəvi Rəsulullah *səllallahu əleyhi və səlləmdən* soruşdu:

- Qiyamət nə zaman qopacaq? Rəsulullah:

- **"Qiyamət üçün nə hazırladın?" -** buyurdu.

- Allah və Rəsulunun sevgisini,- dedi. Bu zaman Hz. Peyğəmbər:

- **"Elə isə sən sevdiyinlə bərabərsən", -** buyurdu.

Buxari, Ədəb 96; Müslim, Birr 161, 163

Bu, Müslimin rəvayətidir. Buxari (Ədəb 96) və Müslimin (Birr 164) bir rəvayətlərində də bədəvinin cavabı**"Axirət üçün bir o qədər oruc,**

namaz və sədəqə hazırlamamışam. Ancaq mən Allahı və peyğəmbərini sevirəm" cümlələrindən ibarətdir.

❁

٣٧١ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، كَيْفَ تَقُولُ فِي رَجُلٍ أَحَبَّ قَوْمًا وَلَمْ يَلْحَقْ بِهِمْ ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «الْمَرْءُ مَعَ مَنْ أَحَبَّ» . مُتَّفَقٌ عَلَيْهِ .

371. Abdullah bin Məsud *radiyallahu anh* belə dedi:

Bir nəfər Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Ey Allahın Rəsulu, bir qövmü sevən, lakin onların işlədiyi əməlləri işləyə bilməyən adam haqqında nə buyurursunuz? - dedi. Hz. Peyğəmbər də:

- **"İnsan sevdiyi ilə bərabərdir", -** cavabını verdi.

Buxari, Ədəb 96; Müslim, Birr 165. Həmçinin bax. Tirmizi, Zöhd 50, Dəavat 98

❁

٣٧٢ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «النَّاسُ مَعَادِنُ كَمَعَادِنِ الذَّهَبِ وَالْفِضَّةِ ، خِيَارُهُمْ فِي الْجَاهِلِيَّةِ خِيَارُهُمْ فِي الْإِسْلَامِ إِذَا فَقُهُوا ، وَالْأَرْوَاحُ جُنُودٌ مُجَنَّدَةٌ ، فَمَا تَعَارَفَ مِنْهَا ائْتَلَفَ ، وَمَا تَنَاكَرَ مِنْهَا اخْتَلَفَ». رَوَاهُ مُسْلِمٌ .

372. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanlar qızıl və gümüş mədənləri kimidirlər. İslamdan əvvəlki dövrdə xeyirli olanlar İslamın olduğu dövrdə də İslamı qavrayışları ilə xeyirlidirlər. Ruhlar əsgəri birliklərə bənzəyir. Bir-biri ilə tanış olan ruhlar bir-biri ilə qaynayıb-qarışarlar, tanış olmayanlar ayrılığa düşərlər".

Buxari, Ənbiya 2 (Sadəcə ruhlarla bağlı hissə Hz. Aişədən rəvayət edilmişdir.); Müslim, Birr 159, 160. Həmçinin bax. Əbu Davud, Ədəb 16

٣٧٣ ـ عَنْ أُسَيْرِ بْنِ عَمْـرٍو ـ وَيُقَـالُ ابْنُ جَـابِرٍ ، وَهُوَ «بِضَمِّ الْهَمْـزَةِ وَفَتْحِ السِّينِ الْمُهْمَلَةِ» ـ قَالَ: كَـانَ عُمَرُ بْنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ إِذَا أَتَى عَلَيْـهِ أَمْدَادُ أَهْلِ الْيَمَنِ سَأَلَهُمْ: أَفِيكُمْ أُوَيْسُ بْنُ عَامِرٍ ؟ حَتَّى أَتَى عَلَى أُوَيْسٍ رَضِيَ اللَّهُ عَنْهُ فَقَالَ لَهُ: أَنْـتَ أُوَيْسُ بْنُ عَامِـرٍ؟ قَالَ: نَعَمْ ، قَالَ: مِـنْ مُرَادٍ ثُمَّ مِنْ قَـرَنٍ؟ قَالَ: نَعَمْ ، قَـالَ: فَكَانَ بِكَ بَرَصٌ فَبَرَأْتَ مِنْهُ إِلاَّ مَـوْضِعَ دِرْهَمٍ ؟ قَـالَ: نَعَمْ ، قَـالَ: لَكَ وَالِدَةٌ ؟ قَـالَ: نَعَمْ ، قَـالَ : سَمِعْـتُ رَسُـولَ اللَّهِ ﷺ يَقُـولُ: «يَأْتِي عَلَيْكُمْ أُوَيْسُ بْنُ عَامِـرٍ مَعَ أَمْدَادِ أَهْلِ الْيَمَنِ مِنْ مُرَادٍ ثُمَّ مِنْ قَـرَنٍ ، كَانَ بِهِ بَرَصٌ فَبَرَأَ مِنْهُ إِلاَّ مَـــوْضِعَ دِرْهَـمٍ ، لَهُ وَالِدَةٌ هُـوَ بِهَا بَرٌّ لَـوْ أَقْسَمَ عَلَى اللَّهِ لَأَبَـرَّهُ ، فَإِنِ اسْتَطَعْتَ أَنْ يَسْتَغْفِرَ لَكَ فَافْعَلْ» فَاسْتَغْفِرْ لِي ، فَـاسْتَغْفَرَ لَهُ ، فَقَالَ لَهُ عُمَرُ: أَيْنَ تُرِيدُ ؟ قَـالَ: الْكُوفَـةَ ، قَالَ: أَلاَ أَكْتُبُ لَكَ إِلَى عَـامِلِهَـا ؟ قَالَ: أَكُـونُ فِي غَبْرَاءِ النَّاسِ أَحَبُّ إِلَيَّ. فَلَمَّا كَـانَ مِنَ الْعَـامِ الْمُقْبِلِ حَجَّ رَجُلٌ مِنْ أَشْرَافِهِـمْ ، فَـوَافَقَ عُمَـرَ، فَسَأَلَهُ عَنْ أُوَيْسٍ فَقَـالَ: تَرَكْتُـهُ رَثَّ الْبَيْتِ قَلِيلَ الْمَتَـاعِ ، قَـالَ: سَمِعْتُ رَسُـولَ اللَّهِ ﷺ يَقُولُ: «يَأْتِي عَلَيْكُمْ أُوَيْسُ بْنُ عَـامِرٍ مَعَ أَمْـدَادٍ مِنْ أَهْلِ الْيَمَنِ مِنْ مُرَادٍ ثُمَّ مِنْ قَرَنٍ ، كَانَ بِهِ بَرَصٌ فَبَرَأَ مِنْهُ إِلاَّ مَوْضِعَ دِرْهَمٍ ، لَهُ وَالِدَةٌ هُوَ بِهَا بَرٌّ ، لَوْ أَقْسَمَ عَلَى اللَّهِ لَأَبَرَّهُ ، فَإِنِ اسْتَطَعْتَ أَنْ يَسْتَغْفِرَ لَكَ فَـافْعَلْ. فَأَتَى أُوَيْسًا فَقَالَ: اسْتَغْفِـرْلِي ، قَالَ: أَنْـتَ أَحْدَثُ عَهْدًا بِسَفَـرٍ صَالِـحٍ فَاسْتَغْفِـرْ لِي ، قَالَ : لَقِيتَ عُمَرَ ؟ قَـالَ: نَعَمْ ، فَاسْتَغْفَرَ لَهُ ، فَفَطِنَ لَهُ النَّاسُ ، فَـانْطَلَقَ عَلَى وَجْهِهِ». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ أَيْضًـا عَنْ أُسَيْرِ بْنِ جَـابِـرٍ رَضِيَ اللَّهُ عَنْهُ: أَنَّ أَهْلَ الْكُوفَـةِ وَفَـدُوا عَلَى عُمَـرَ رَضِيَ اللَّهُ عَنْهُ وَفِيهِمْ رَجُلٌ مِمَّنْ كَـانَ يَسْخَـرُ بِأُوَيْسٍ ، فَقَـالَ

عُمَرُ: هَلْ هٰهُنَا أَحَـدٌ مِنَ الْقَرَنِيِّينَ ؟ فَجَاءَ ذَلِكَ الرَّجُلُ ، فَقَالَ عُمَـرَ: إِنَّ رَسُولَ اللَّهِ ﷺ قَـدْ قَالَ: «إِنَّ رَجُـلاً يَأْتِيكُمْ مِنَ الْيَمَنِ يُقَـالُ لَهُ أُوَيْسٌ ، لاَ يَدَعُ بِالْيَمَنِ غَيْرَ أُمٍّ لَهُ ، قَـدْ كَانَ بِهِ بَيَـاضٌ ، فَدَعَـا اللَّهَ تَعَـالَى فَأَذْهَبَهُ إِلاَّ مَـوْضِعَ الدِّينَارِ أَوِ الدِّرْهَمِ ، فَمَنْ لَقِيَهُ مِنْكُمْ فَلْيَسْتَغْفِرْ لَكُمْ».

وَفِي رِوَايَةٍ لَهُ عَنْ عُمَـرَ رَضِيَ اللَّهُ عَنْهُ قَـالَ: إِنِّي سَمِعْتُ رَسُـولَ اللَّهِ ﷺ يَقُـولُ: «إِنَّ خَيْرَ التَّابِعِينَ رَجُلٌ يُقَـالُ لَهُ أُوَيْسٌ ، وَلَهُ وَالِدَةٌ ، وَكَـانَ بِهِ بَيَـاضٌ ، فَمُرُوهُ فَلْيَسْتَغْفِرْ لَكُمْ».

373. İbn Cabir kimi tanınan Useyr bin Amr belə demişdir:

Ömər bin Xəttab *radiyallahu anh*Yəməndən dəstək qrupları gəldikcə:

- Üveys bin Amir aranızdadır? - deyə soruşardı. Nəhayət, Üveysi tapdı və ondan soruşdu:

- Sən Üveys bin Amirsənmi? O da:

- Bəli,- dedi. (Sonra aralarında bu dialoq baş verdi)

- Murad qəbiləsinin Qarən qolundansan?

- Bəli.

- Səndə dəri (ala-bula) xəstəliyi vardı. Xəstəliyin keçdi, lakin bir dirhəm böyüklüyündə bir yerdə qaldı, eləmi?

- Bəli.

- Anan varmı?

- Bəli.

- Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* **"Üveys bin Amir yəmənli dəstək birlikləri arasında yanınıza gələcək. O, Murad qəbiləsinin Qarən qolundandır. Dəri xəstəliyinə tutulsa da, sağalmışdır. Sadəcə bir dirhəm böyüklükdə qalmışdır. Onun bir anası var, ona hədsiz dərəcə yaxşı baxır. O, (bir şeyin olması üçün) Allaha dua etsə, Allah duasını qəbul edər. Sənin üçün məğfirət diləməsini təmin edə bilsən, fürsəti qaçırtma, bunu et!" -** buyurduğunu eşitdim. İndi mənim üçün istiğfar et.

Üveys Ömər üçün istiğfar etdi.

Sonra Həzrət Ömər:

- Hara getmək istəyirsən? - sualını verdi. O:

- Kufəyə,- dedi. Ömər:

- Sənin üçün Kufə valisinə məktub yazım? - dedi. O:

- Fəqir-füqəra xalqın arasında olmağı üstün tuturam,- cavabını verdi.

Aradan bir il keçəndən sonra Kufə tərəflərdən bir nəfər həccə gəldi. Ömər *radiyallahu anh*la qarşılaşdı. Ömər ondan Üveysi soruşdu. O da:

- Mən bura gələrkən o, daxma sayılacaq yıxıq-sökük evdə yaşayırdı,- dedi. Ömər:

- Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

"Üveys bin Amirsizə yəmənli dəstək bölüklərlə gələcək. O, Murad qəbiləsinin Qarən qolundandır. Alaca xəstəliyinə tutulsa da, sağalmışdır. Sadəcə bir dirhəmlik yerdə qalmışdır. Onun bir anası var, ona hədsiz dərəcə yaxşı baxar. O, (bir şeyin olması üçün) Allaha dua edəcək olsa, Allah onun duasını qəbul edər. Sənin üçün məğfirət diləməsinə nail olsan, bu fürsəti qaçırtma, bunu et!" - buyurduğunu eşitdim,- dedi.

Həmin kufəli adam həcdən qayıdanda Üveysə baş çəkib:

- Mənim üçün məğfirət dilə,- deyə rica etdi. Üveys:

- Sən gözəl, mübarək bir səfərdən yeni gəldin. Sən mənə dua et! - dedi. (Həmin adam israrla dua istədikdə) Üveys:

- Sən Ömərlə qarşılaşmısan? - dedi. O da:

- Bəli,- dedi.

Üveys həmin adam üçün əfv və bağışlanma dilədi.

Bu hadisədən sonra camaat Üveysin kim olduğunu öyrəndi. O da baş götürüb Kufədən getdi.

Müslim, Fəzailus-səhabə 225

Müslimin Übey bin Cabirdən etdiyi bir rəvayətə görə (Birr 223) aralarında Üveysi məxsərəyə qoyan tanınmış bir nəfərin də olduğu kufəli bir qrup Ömərin yanına gəldi. Ömər:

- Burada kufəlilərdən kimsə var? – deyə soruşdu. Məsxərəyə qoyan adam dərhal Ömərin yanına gəldi. Ömər radiyallahu anh belə dedi:

- Şübhəsiz ki, Rəsulullah səllallahu əleyhi və səlləm belə buyurdu: **"Yəməndən yanınıza Üveys adlı bir nəfər gələcək. Anasından başqa heç kimi olmayan həmin adam (yalnız anasına xidmət məqsədi ilə) Yəməndən ayrılmırdı. O, alaca xəstəliyinə yaxalanmışdı. Allaha dua etdi, Allah onu dinar və ya dirhəm böyüklükdə yeri xaric bu xəstəlikdən qurtardı. Hansınız onunla rastlaşsa, sizin üçün istiğfar etsin!"**

Həmçinin Müslimin başqa bir rəvayətində (Birr 224) Hz. Ömərin belə dediyi nəql edilir:

Mən Rəsulullah səllallahu əleyhi və səlləmin belə dediyini eşitdim:

"Şübhə yoxdur ki, tabeunun ən xeyirlisi Üveys adlı bir nəfərdir. Onun bir anası var, alaca xəstəliyinə tutulub. (Onunla rastlaşsanız), sizin üçün istiğfar etməsini istəyin!"

❁

٣٧٤ ـ عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: اسْتَأْذَنْتُ النَّبِيَّ ﷺ فِي الْعُمْرَةِ فَأَذِنَ لِي وَقَالَ: «لاَ تَنْسَنَا يَا أُخَيَّ مِنْ دُعَائِكَ». فَقَالَ كَلِمَةً مَا يَسُرُّنِي أَنَّ لِي بِهَا الدُّنْيَا.

وَفِي رِوَايَةٍ قَالَ: أَشْرِكْنَا يَا أُخَيَّ فِي دُعَائِكَ». رَوَاهُ أَبُو دَاوُدَ والتِّرْمِذِيُّ.

374. Ömər bin Xəttab *radiyallahu anhdan* belə dediyi rəvayət olunmuşdur:

Peyğəmbər *səllallahu əleyhi və səlləmdən* ümrə etmək üçün izin istədim. İzin verdi və:

"Əziz qardaşım, duanda bizi də unutma!" - buyurdu.

Hz. Peyğəmbərin bu sözü mənim üçün dünyaya bərabər oldu.

Bir rəvayətdə (Əbu Davud, Vit 23; Tirmizi, Dəavat 109) Hz. Peyğəmbər **"Əziz qardaşım, bizi də duana şərik et!"** - buyurmuşdur.

Əbu Davud, Vitr 23; Tirmizi, Dəavat 109. Həmçinin bax. İbn Macə, Mənasik 5

❁

٣٧٥ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَزُورُ قُبَاءً رَاكِبًا وَمَاشِيًا ، فَيُصَلِّي فِيهِ رَكْعَتَيْنِ . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: كَانَ النَّبِيُّ ﷺ يَأْتِي مَسْجِدَ قُبَاءٍ كُلَّ سَبْتٍ رَاكِبًا وَمَاشِيًا ، وَكَانَ ابْنُ عُمَرَ يَفْعَلُهُ.

375. Abdullah bin Ömər *radiyallahu anhum* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* miniklə, yaxud da piyada Quba [27] məscidini ziyarət edər və orada iki rükət namaz qılardı.

Buxari, əs-Salət fi məscidi Məkkə vəl-Mədinə 4; Müslim, Həcc 516

Bir rəvaytədə (əs-Sələt fi məscidi Məkkə vəl-Mədinə 3; Müslim, Həcc 521) Peyğəmbər *səllallahu əleyhi və səlləm* hər şənbə günü miniklə və ya piyada Quba məscidinə gedərdi. Abdullah bin Ömər də belə edərdi,- deyilir.

ALLAH ÜÇÜN SEVMƏK

ALLAH ÜÇÜN SEVMƏYİN, BUNA TƏŞVİQ ETMƏYİN FƏZİLƏTİ, BİR ADAMIN SEVDİYİNƏ ONU ALLAH ÜÇÜN SEVDİYİNİ SÖYLƏMƏSİ VƏ SEVİLDİYİNİ ÖYRƏNƏN ADAMIN DEYƏCƏYİ SÖZLƏR

Ayələr

مُحَمَّدٌ رَسُولُ اللّٰهِ وَالَّذِينَ مَعَهُ اَشِدَّآءُ عَلَى الْكُفَّارِ رُحَمَآءُ بَيْنَهُمْ تَرٰيهُمْ رُكَّعًا سُجَّدًا يَبْتَغُونَ فَضْلاً مِنَ اللّٰهِ وَرِضْوَانًا سِيمَاهُمْ فِي وُجُوهِهِمْ مِنْ اَثَرِ السُّجُودِ ذٰلِكَ مَثَلُهُمْ فِي التَّوْرٰيةِ وَمَثَلُهُمْ فِي الْاِنْجِيلِ كَزَرْعٍ اَخْرَجَ شَطْئَهُ فَاٰزَرَهُ فَاسْتَغْلَظَ فَاسْتَوٰى عَلٰى سُوقِهِ يُعْجِبُ الزُّرَّاعَ لِيَغِيظَ بِهِمُ الْكُفَّارَ وَعَدَ اللّٰهُ الَّذِينَ اٰمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ مِنْهُمْ مَغْفِرَةً وَاَجْرًا عَظِيمًا

27. Mədinə yaxınlığında yer adı

1. "Muhammməd (əleyhissəlam) **Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar** (möminlər) **kafirlərə qarşı sərt, bir-birinə** (öz aralarında) **isə mərhəmətlidirlər. Sən onları** (namaz vaxtı) **rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir.** (Qiyamət günü onlar üzlərindəki möminlik nuru ilə tanınırlar). **Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da** (o cücərti də) **möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur.** (Allahın bu təşbihi) **kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət** (günahlardan bağışlanma) **və böyük mükafat** (Cənnət) **vəd buyurmuşdur!"**

(əl-Fəth, 29)

وَالَّذِينَ تَبَوَّؤُوا الدَّارَ وَالْإِيمَانَ مِنْ قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ.

2. "Onlardan (mühacirlərdən) **əvvəl** (Mədinədə) **yurd salmış və** (Muhammməd əleyhissəlama qəlbən) **iman gətirirmiş kimsələr (ənsar) öz yanlarına** (şəhərlərinə) **mühacirət edənləri sevərlər".**

(əl-Həşr, 9)

Hədislər

٣٧٦ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ «ثَلاَثٌ مَنْ كُنَّ فِيهِ وَجَدَ بِهِنَّ حَلاَوَةَ الْإِيمَانِ: أَنْ يَكُونَ اللَّهُ وَرَسُولُهُ أَحَبَّ إِلَيْهِ مِمَّا سِوَاهُمَا ، وَأَنْ يُحِبَّ الْمَرْءَ لاَ يُحِبُّهُ إِلاَّ لِلَّهِ ، وَأَنْ يَكْرَهَ أَنْ يَعُودَ فِي الْكُفْرِ بَعْدَ أَنْ أَنْقَذَهُ اللَّهُ مِنْهُ كَمَا يَكْرَهُ أَنْ يُقْذَفَ فِي النَّارِ» . مُتَّفَقٌ عَلَيْهِ .

376. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Üç xislət var ki, kimdə olsa, həmin adam imanın ləzzətini dadar:

Allah və Rəsulunu onlardan başqa hər kəsdən və hər şeydən daha çox sevmək.

Sevdiyini Allah üçün sevmək.

Allah onu küfr bataqlığından qurtardıqdan sonra yenidən küfrə düşməyi oda atılmaq kimi çirkin və təhlükəli görmək".

Buxari, İman 9, 14, İkrah 1, Ədəb 42; Müslim, İman 67. Həmçinin bax. Tirmizi, İman 10

٣٧٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «سَبْعَةٌ يُظِلُّهُمُ اللَّهُ فِي ظِلِّهِ يَوْمَ لاَ ظِلَّ إِلاَّ ظِلُّهُ: إِمَامٌ عَادِلٌ ، وَشَابٌّ نَشَأَ فِي عِبَادَةِ اللَّهِ عَزَّ وَجَلَّ ، وَرَجُلٌ قَلْبُهُ مُعَلَّقٌ بِالْمَسَاجِدِ ، وَرَجُلاَنِ تَحَابَّا فِي اللَّهِ اجْتَمَعَا عَلَيْهِ وَتَفَرَّقَا عَلَيْهِ ، وَرَجُلٌ دَعَتْهُ امْرَأَةٌ ذَاتُ مَنْصِبٍ وَجَمَالٍ فَقَالَ: إِنِّي أَخَافُ اللَّهَ ، وَرَجُلٌ تَصَدَّقَ بِصَدَقَةٍ فَأَخْفَاهَا حَتَّى لاَ تَعْلَمَ شِمَالُهُ مَا تُنْفِقُ يَمِينُهُ ، وَرَجُلٌ ذَكَرَ اللَّهَ خَالِيًا فَفَاضَتْ عَيْنَاهُ». مُتَّفَقٌ عَلَيْهِ .

377. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Heç bir kölgənin olmadığı Qiyamət günündə Allah-Təala yeddi (qrup) insanı Öz ərşinin kölgəsi altında kölgələndirəcəkdir:

Adil dövlət başçısı,"

Rəbbinə qulluq edərək, təmiz həyat sürərək böyüyüb yetişən gənc,

Qəlbi məscidlərə bağlı olan müsəlman,

Bir-birilərini Allah üçün sevib, görüşmələri də, ayrılmaları da Allah üçün olan iki insan,

Gözəl və məqam sahibi bir qadının birlikdə olmaq təklifinə "Mən Allahdan qorxuram", - deyərək yaxınlaşmayan kişi,

Sağ əlinin verdiyindən sol əlinin xəbəri olmayacaq qədər gizli sədəqə verən kəs,

Tənha qalanda Allahı yada salıb göz yaşı tökən adam".

Buxari, Azan 36, Zəkat 16, Riqaq 24, Hüdud 19; Müslim, Zəkat 91. Həmçinin bax. Tirmizi, Zöhd 53; Nəsai, Qudat 2

❁

٣٧٨ ـ وعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ اللَّهَ تَعَالَى يَقُولُ يَوْمَ الْقِيَامَةِ : أَيْنَ الْمُتَحَابُّونَ بِجَلاَلِي الْيَوْمَ أُظِلُّهُمْ فِي ظِلِّي يَوْمَ لاَ ظِلَّ إِلاَّ ظِلِّي». رَوَاهُ مُسْلِمٌ .

378. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

Şübhəsiz ki, Allah-Təala qiyamət günü belə buyurar:

"Mənim rizam üçün bir-birini sevənlər hardadır? Kölgəmdən başqa heç bir kölgənin olmadığı bu gün onları öz ərşimin kölgəsi altında kölgələndirəcəyəm".

Müslim, Birr 37. Həmçinin bax. Tirmizi, Zöhd 53

❁

٣٧٩ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «وَالَّذِي نَفْسِي بِيَدِهِ ، لاَ تَدْخُلُوا الْجَنَّةَ حَتَّى تُؤْمِنُوا وَلاَ تُؤْمِنُوا حَتَّى تَحَابُّوا . أَوَلاَ أَدُلُّكُمْ عَلَى شَيْءٍ إِذَا فَعَلْتُمُوهُ تَحَابَبْتُمْ؟ أَفْشُوا السَّلاَمَ بَيْنَكُمْ». رَوَاهُ مُسْلِمٌ .

379. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, iman etmədikcə cənnətə girə bilməzsiniz. Bir-birinizi sevmədikcə də iman etmiş olmazsınız. Edəcəyiniz təqdirdə bir-birinizi sevəcəyiniz bir əməli xəbər verimmi? Aranızda salamı yayın!"

Müslim, İman 93-94. Həmçinin bax. Tirmizi, Ətimə 45, Qiyamət 56; İbn mAcə, Müqəddimə 9, Ədəb 11

❁

٣٨٠ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ : «أَنَّ رَجُلاً زَارَ أَخًا لَهُ فِي قَرْيَةٍ أُخْرَى ، فَأَرْصَدَ اللَّهُ لَهُ عَلَى مَدْرَجَتِهِ مَلَكًا» وَذَكَرَ الْحَدِيثَ إِلَى قَوْلِهِ: «إِنَّ اللَّهَ قَدْ أَحَبَّكَ كَمَا أَحْبَبْتَهُ فِيهِ». رَوَاهُ مُسْلِمٌ .

380. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir nəfər başqa bir kənddəki (din) qardaşını ziyarət etmək üçün yola çıxdı. Allah-Təala onun yolu üzərində bir mələyi vəzifələndirdi.

Əbu Hüreyrə əvvəlki mövzuda keçən 362 nömrəli hədisi **"Sən onu necə sevirsənsə, Allah da səni elə sevir"** cümləsinə qədər rəvayət etdi".

Müslim, Birr 38

❁

٣٨١ ـ عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ فِي الْأَنْصَارِ : «لاَ يُحِبُّهُمْ إِلاَّ مُؤْمِنٌ ، وَلاَ يُبْغِضُهُمْ إِلاَّ مُنَافِقٌ ، مَنْ أَحَبَّهُمْ أَحَبَّهُ اللَّهُ ، وَمَنْ أَبْغَضَهُمْ أَبْغَضَهُ اللَّهُ ». مُتَّفَقٌ عَلَيْهِ .

381. Bəra bin Azib *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* mədinəli müsəlmanlar haqqında belə buyurdu:

"Ənsarı (mədinəli müsəlmanları) ancaq mömin olan sevər, onlara ancaq münafiq olan düşmənçilik edər. Ənsarı sevəni Allah da sevər, onlara düşmənlik edənə Allah da düşmənlik edər".

Buxari, Mənaqibul-ənsar 4; Müslim, İman 129. Həmçinin bax. Tirmizi, Mənaqib 65

❁

٣٨٢ ـ عَنْ مُعَاذٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ : «قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: الْمُتَحَابُّونَ فِي جَلاَلِي لَهُمْ مَنَابِرُ مِنْ نُورٍ ، يَغْبِطُهُمُ النَّبِيُّونَ وَالشُّهَدَاءُ». رَوَاهُ التِّرْمِذِيُّ .

382. Muaz *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim,- dedi:

Allah-Təala **"Mənim rizam üçün bir-birini sevənlərə peyğəmbərlərin və şəhidlərin belə köks ötürəcəyi nurdan minbərlər vardır",** - buyurmuşdur.

Tirmizi, Zöhd 53

❁

٣٨٣ ـ عَنْ أَبِي إِدْرِيسَ الْخَوْلاَنِيِّ رَحِمَهُ اللَّهُ قَالَ: دَخَلْتُ مَسْجِدَ دِمَشْقَ ، فَإِذَا فَتًى بَرَّاقُ الثَّنَايَا ، وَإِذَا النَّاسُ مَعَهُ ، فَإِذَا اخْتَلَفُوا فِي شَيْءٍ أَسْنَدُوهُ إِلَيْهِ وَصَدَرُوا عَنْ رَأْيِهِ ، فَسَأَلْتُ عَنْهُ فَقِيلَ: هَذَا مُعَاذُ بْنُ جَبَلٍ رَضِيَ اللَّهُ عَنْهُ ، فَلَمَّا كَانَ مِنَ

الْغَدِ هَجَّرْتُ فَوَجَدْتُهُ قَدْ سَبَقَنِي بِالتَّهْجِيرِ ، وَوَجَدْتُهُ يُصَلِّي ، فَانْتَظَرْتُهُ حَتَّى قَضَى صَلاَتَهُ ثُمَّ جِئْتُهُ مِنْ قِبَلِ وَجْهِهِ ، فَسَلَّمْتُ عَلَيْهِ ، ثُمَّ قُلْتُ : وَاللَّهِ إِنِّي لأُحِبُّكَ . فَقَالَ : آللَّهِ ؟ فَقُلْتُ : أَللَّهِ . فَقَالَ: آللَّهِ ؟ فَقُلْتُ: أَللَّهِ ، فَأَخَذَنِي بِحَبْوَةِ رِدَائِي فَجَبَذَنِي إِلَيْهِ ، فَقَالَ: أَبْشِرْ ، فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «قَالَ اللَّهُ تَعَالَى: وَجَبَتْ مَحَبَّتِي لِلْمُتَحَابِّينَ فِيَّ، وَالْمُتَجَالِسِينَ فِيَّ، وَالْمُتَزَاوِرِينَ فِيَّ ، وَالْمُتَبَاذِلِينَ فِيَّ». رَوَاهُ مَالِكٌ.

383. Əbu İdris əl-Hövlani [28] rəhiməhullahdan nəql edildiyinə görə belə demişdir:

Dəməşq məscidinə girmişdim. Gülərüz bir gəncin başına toplaşmış bir qrup gördüm. Bir məsələdə fikir ayrılığına düşəndə həmin gəncə müraciət edir və onun fikrini qəbul edirdilər. Həmin gəncin kim olduğunu soruşdum. Muaz bin Cəbəl *radiyallahu anh* olduğunu dedilər.

Ertəsi gün erkəndən məscidə qaçdım. Gördüm ki, məndən əvvəl gəlib namaz qılır. Namazı qılıb qurtarana qədər gözlədim. Sonra qarşısına keçib salam verdim və:

- Allaha and olsun ki, səni sevirəm,- dedim.

- Allah üçün sevirsən? - dedi.

- Bəli, Allah üçün,- dedim. O yenə:

- Doğrudan Allah üçün sevirsən? - dedi. Mən də:

- Bəli, doğrudan Allah üçün sevirəm,- cavabını verdim.

Bu zaman patlarımdan tutub məni özünə tərəf çəkdi və belə dedi:

- Müjdələr olsun. Çünki mən Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə dediyini eşitdim:

Allah-Təala "Sırf Mənim üçün bir-birini sevən, Mənim rizam üçün toplaşan, Mənim rizam üçün bir-birini ziyarət edən və yalnız Mənim rizam üçün sədəqə verib yaxşılıq edənlər sevgimə layiqdirlər", buyurmuşdur.

Muvatta, Şar 16

28. Tabeun nəslinin qabaqcıl alimlərindən sayılır.

٣٨٤ ـ عَنْ أَبِي كَرِيمَةَ الْمِقْدَادِ بْنِ مَعْدِيكَرِبَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِذَا أَحَبَّ الرَّجُلُ أَخَاهُ فَلْيُخْبِرْهُ أَنَّهُ يُحِبُّهُ». رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ.

384. Əbu Kərimə Miqdad bin Mədikərib *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Din qardaşını sevən adam ona olan sevgisini bildirsin!"

Əbu Davud, Ədəb 113; Tirmizi, Zöhd 54

❁

٣٨٥ ـ عَنْ مُعَاذٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَخَذَ بِيَدِهِ ، وَقَالَ: «يَا مُعَاذُ ، وَاللَّهِ إِنِّي لَأُحِبُّكَ ، ثُمَّ أُوصِيكَ يَا مُعَاذُ : لاَ تَدَعَنَّ فِي دُبُرِ كُلِّ صَلاَةٍ تَقُولُ: اَللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ وَشُكْرِكَ وَحُسْنِ عِبَادَتِكَ». رَوَاهُ أَبُو دَاوُدَ وَالنَّسَائِيُّ.

385. Muaz bin Cəbəl *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Muazın əlindən tutub belə buyurmuşdur:

"Ey Muaz, Allaha and olsun ki, gerçəkdən səni sevirəm,- demiş, ardınca da: ey Muaz, sənə hər namazdan sonra "Allahım, səni anmaq, sənə şükür etmək və sənə gözəl qulluq etməkdə mənə yardım et!" - duasını əsla tərk etməməyi tövsiyə edirəm", - demişdi.

Əbu Davud, Vitr 26; Nəsai, Səhv 60

❁

٣٨٦ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلاً كَانَ عِنْدَ النَّبِيِّ ﷺ فَمَرَّ رَجُلٌ بِهِ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنِّي لَأُحِبُّ هَذَا . فَقَالَ لَهُ النَّبِيُّ ﷺ: «أَأَعْلَمْتَهُ؟» قَالَ: لاَ، قَالَ: «أَعْلِمْهُ» ، فَلَحِقَهُ فَقَالَ: إِنِّي أُحِبُّكَ فِي اللَّهِ . فَقَالَ: أَحَبَّكَ اللَّهُ الَّذِي أَحْبَبْتَنِي لَهُ. رَوَاهُ أَبُو دَاوُدَ.

386. Ənəs bin Malik *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmin* hüzurunda bir nəfər vardı. Bir nəfər də ona baş çəkib getdi. (Peyğəmbərin hüzurundakı adam):

- Ey Allahın Rəsulu, mən həqiqətən bu adamı sevirəm,- dedi. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Bəs sevdiyini ona bildirdinmi?" -** buyurdu. O:

- Xeyr,- dedi. Hz. Peyğəmbər:

- **"Bunu ona bildir", -** buyurdu.

O da dərhal yerindən qalxıb həmin adamın ardınca getdi və:

- Mən səni Allah üçün sevirəm,- dedi. O da:

- Məni rizası üçün sevdiyin Allah da səni sevsin,- cavabını verdi.

Əbu Davud, Ədəb113

ALLAHIN QULUNU SEVMƏSİ

ALLAHIN QULUNU SEVMƏSİNİN NİŞANƏLƏRİ, BUNLARI QAZANMAĞA VƏ VƏRDİŞ ETMƏYƏ TƏŞVİQ

Ayələr

قُلْ اِنْ كُنْتُمْ تُحِبُّونَ اللّٰهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّٰهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّٰهُ غَفُورٌ رَحِيمٌ.

1. "(Ya Rəsulum!) **De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!"** (Ali-İmran, 31)

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا مَنْ يَرْتَدَّ مِنْكُمْ عَنْ دِينِهِ فَسَوْفَ يَأْتِي اللّٰهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَ يُحِبُّونَهُ اَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ اَعِزَّةٍ عَلَى الْكَافِرِينَ يُجَاهِدُونَ فِي سَبِيلِ اللّٰهِ وَلَا يَخَافُونَ لَوْمَةَ لاٰئِمٍ ذٰلِكَ فَضْلُ اللّٰهِ يُؤْتِيهِ مَنْ يَشَآءُ وَاللّٰهُ وَاسِعٌ عَلِيمٌ

2.“Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki) **Allah** (onun yerinə) **elə bir tayfa gətirər ki,** (Allah) **onları, onlar da** (Allahı) **sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah** (öz lütfü ilə) **genişdir,** (O, hər şeyi) **biləndir!**”

(əl-Maidə, 54)

Hədislər

٣٨٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ تَعَالَى قَالَ : مَنْ عَادَى لِي وَلِيًّا فَقَدْ آذَنْتُهُ بِالْحَرْبِ! وَمَا تَقَرَّبَ إِلَيَّ عَبْدِي بِشَيْءٍ أَحَبَّ إِلَيَّ مِمَّا افْتَرَضْتُ عَلَيْهِ . وَمَا يَزَالُ عَبْدِي يَتَقَرَّبُ إِلَيَّ بِالنَّوَافِلِ حَتَّى أُحِبَّهُ ، فَإِذَا أَحْبَبْتُهُ كُنْتُ سَمْعَهُ الَّذِي يَسْمَعُ بِهِ ، وَبَصَرَهُ الَّذِي يُبْصِرُ بِهِ ، وَيَدَهُ الَّتِي يَبْطِشُ بِهَا، وَرِجْلَهُ الَّتِي يَمْشِي بِهَا، وَإِنْ سَأَلَنِي أَعْطَيْتُهُ، وَلَئِنِ اسْتَعَاذَنِي لَأُعِيذَنَّهُ». رَوَاهُ الْبُخَارِيُّ .

387. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah “Allah-Təala belə buyurmuşdur”, - dedi:

“Hər kim bir dostuma düşmənçilik edərsə, Mən ona qarşı hərb elan edərəm. Qulum ona əmr etdiyim fərzlərdən daha sevimli hər hansı bir şeylə Mənə yaxınlaşa bilməz. Qulum Mənə (fərzlərdən əlavə işlədiyi) nafilə ibadətlərlə durmadan yaxınlaşar, nəhayət, Mən onu sevərəm. Qulumu sevdiyim zaman da (sanki) eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən nə istəsə, onu mütləq verərəm, Mənə sığınarsa, onu qoruyaram”.

Buxari, Riqaq 38

❁

٣٨٨ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِذَا أَحَبَّ اللَّهُ تَعَالَى الْعَبْدَ نَادَى جِبْرِيلَ: إِنَّ اللَّهَ تَعَالَى يُحِبُّ فُلَانًا فَأَحْبِبْهُ ، فَيُحِبُّهُ جِبْرِيلُ ، فَيُنَادِي فِي أَهْلِ السَّمَاءِ : إِنَّ اللَّهَ

يُحِبُّ فلاَنًا فَأَحِبُّوهُ ، فَيُحِبُّهُ أَهْلُ السَّمَاءِ ، ثُمَّ يُوضَعُ لَهُ الْقَبُولُ فِي الْأَرْضِ».
مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ اللَّهَ تَعَالَى إِذَا أَحَبَّ عَبْدًا دَعَا جِبْرِيلَ فَقَالَ: إِنِّي أُحِبُّ فُلاَنًا فَأَحْبِبْهُ ، فَيُحِبُّهُ جِبْرِيلُ ، ثُمَّ يُنَادِي فِي السَّمَاءِ فَيَقُولُ: إِنَّ اللَّهَ يُحِبُّ فُلاَنًا فَأَحِبُّوهُ ، فَيُحِبُّهُ أَهْلُ السَّمَاءِ ، ثُمَّ يُوضَعُ لَهُ الْقَبُولُ فِي الْأَرْضِ. وَإِذَا أَبْغَضَ عَبْدًا دَعَا جِبْرِيلَ فَيَقُولُ : إِنِّي أُبْغِضُ فُلاَنًا فَأَبْغِضْهُ ، فَيُبْغِضُهُ جِبْرِيلُ ، ثُمَّ يُنَادِي فِي أَهْلِ السَّمَاءِ: إِنَّ اللَّهَ يُبْغِضُ فُلاَنًا فَأَبْغِضُوهُ ، ثُمَّ تُوضَعُ لَهُ الْبَغْضَاءُ فِي الْأَرْضِ».

388. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

Allah-Təala bir qulu sevdiyi zaman Cəbrayıla:

"Allah filankəsi sevir, sən də onu sev!" - deyə əmr edər. Cəbrayıl da həmin qulu sevər və göy əhlinə:

Həqiqətən Allah filankəsi sevir, siz də onu sevin! - deyə xitab edər.

Göydəkilər də o adamı sevərlər. Sonra da yer üzündəkilərin qəlbində o adama qarşı sevgi oyanar.

Buxari, Bədul-xalq 6, Ədəb 41, Tövhid 33; Müslim, Birr 157. Həmçinin bax. Tirmizi, Təfsiru surə (19), 7

Müslimin rəvayətində (Birr 157) Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğu qeyd edilir:

Allah-Təala bir qulu sevdiyi zaman Cəbrayıla:

- "Mən filan qulumu sevirəm, sən də onu sev,- deyə əmr edər. Cəbrayıl onu sevər və göy əhlinə:

- Allah filankəsi sevir, siz də onu sevin,- deyə səslənər. Göy əhli də o adamı sevər, sonra yer üzündəkilərin qəlbində ona qarşı sevgi oyanar.

Allah-Təala bir qula qəzəbləndiyi zaman Cəbrayıla:

“Mən filankəsi sevmirəm, sən də onu sevmə”, - deyə əmr edər. Cəbrayıl da onu sevməz. Sonra da göy əhlinə:

- Allah filan adamı sevmir, siz də onu sevməyin,- deyər. Göydəkilər də o adamı sevməzlər. Sonra da yer üzündəkilərdə o adama qarşı kin və nifrət oyanar.

❁

٣٨٩ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَعَثَ رَجُلاً عَلَى سَرِيَّةٍ، فَكَانَ يَقْرَأُ لأَصْحَابِهِ فِي صَلاَتِهِمْ ، فَيَخْتِمُ بِ «قُلْ هُوَ اللَّهُ أَحَدٌ» ، فَلَمَّا رَجَعُوا ذَكَرُوا ذٰلِكَ لِرَسُولِ اللَّهِ ﷺ فَقَالَ: «سَلُوهُ ، لِأَيِّ شَيْءٍ يَصْنَعُ ذٰلِكَ؟» فَسَأَلُوهُ ، فَقَالَ: لِأَنَّهَا صِفَةُ الرَّحْمٰنِ ، فَأَنَا أُحِبُّ أَنْ أَقْرَأَ بِهَا. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَخْبِرُوهُ أَنَّ اللَّهَ تَعَالَى يُحِبُّهُ». مُتَّفَقٌ عَلَيْهِ .

389. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* əshabdan bir nəfəri hərbi birliyə komandir təyin edib qəzaya göndərmişdi.

Həmin adam hər dəfə əsgərlərinə namaz qıldıranda (ikinci rükətdə) İxlas surəsini oxuyaraq qiraətini bitirirdi. Geri qayıdanda komandirin namazı İxlas surəsi ilə qıldırmağı adət halına gətirdiyini Rəsulullah *səllallahu əleyhi və səlləmə* xəbər verdilər. O da:

- “Ondan nə üçün belə etdiyini soruşun!” - buyurdu. Soruşdular.

- “İxlas surəsi Rəhmanın sifətlərini özündə cəmləşdirir. Bu səbəblə onu oxumağı çox sevirəm”, - dedi. Hz. Peyğəmbər:

- “Allah-Təalanın da onu sevdiyini müjdələyin!” - buyurdu.

Buxari, Tövhid 1; Müslim, Salətul-müsafirin 263. Həmçinin bax. Nəsai, İftitah 69

YAXŞI ADAMLARA ƏZİYYƏT VERMƏMƏK

YAXŞILARA, ZƏİFLƏRƏ VƏ KASIBLARA ƏZİYYƏT VERMƏKDƏN ÇƏKİNMƏK

Ayələr

وَالَّذِينَ يُؤْذُونَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ بِغَيْرِ مَا اكْتَسَبُوا فَقَدِ احْتَمَلُوا بُهْتَانًا وَإِثْمًا مُبِينًا.

1. "Mömin kişiləri və qadınları etmədikləri bir işdən (günahdan) **ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər!"** (əl-Əhzab, 58)

فَأَمَّا الْيَتِيمَ فَلاَ تَقْهَرْ وَأَمَّا السَّائِلَ فَلاَ تَنْهَرْ .

2. "Elə isə yetimə zülm etmə! Dilənçini də (qapıdan) qovma!" (əd-Duha, 9-10)

Hədislər

Mövzu ilə bağlı xeyli sayda hədis var. Məsələn, əvvəlki mövzuda Əbu Hüreyrədən rəvayət olunan (387 nömrəli) **"Hər kim dostuma düşmənçilik edərsə, Mən də ona qarşı hərb elan edərəm"** hədisi bu mənadadır.

Həmçinin **yetimi himayə etmək** mövzusunda yer alan Sad bin Əbu Vaqqasın (263 nömrəli) rəvayəti və Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

"Ey Əbu Bəkr, əgər o kasıbları hirsləndirmisənsə, bil ki, Rəbbini də qəzəbləndirmisən" sözü…

❁

٣٩٠ ـ عَنْ جُنْدَبِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ :
«مَنْ صَلَّى صَلاَةَ الصُّبْحِ فَهُوَ فِي ذِمَّةِ اللَّهِ ، فَلاَ يَطْلُبَنَّكُمُ اللَّهُ مِنْ ذِمَّتِهِ بِشَيْءٍ فَإِنَّهُ مَنْ يَطْلُبْهُ مِنْ ذِمَّتِهِ بِشَيْءٍ يُدْرِكْهُ ثُمَّ يَكُبَّهُ عَلَى وَجْهِهِ فِي نَارِ جَهَنَّمَ». رَوَاهُ مُسْلِمٌ .

390. Cündəb bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sübh namazını camaatla qılan adam Allahın himayəsinə girmiş sayılır. Diqqət edin, Allah əhd aldığı bir şeyə görə sizi təqib etməsin. Çünki Allah aldığı əhdə uymadığı üçün kimi təqib edərsə, onu haqlayar və üzü üstə cəhənnəmə atar".

Müslim, Məsacid 261, 262. Həmçinin bax. Tirmizi, Salət 51, Fitən 6; İbn Macə, Fitən 6

ZAHİRƏ GÖRƏ HÖKM VERMƏK

İNSANLARIN ZAHİRİ GÖRÜNÜŞÜNƏ BAXARAQ HAQLARINDA HÖKM VERMƏK VƏ GİZLİ HALLARINI ALLAHA HƏVALƏ ETMƏK

Ayə

فَإِنْ تَابُوا وَأَقَامُوا الصَّلاَةَ وَآتَوُا الزَّكَاةَ فَخَلُّوا سَبِيلَهُمْ.

"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın (işiniz olmasın)**".**

(ət-Tövbə, 5)

Hədislər

٣٩١ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «أُمِرْتُ أَنْ أُقَاتِلَ النَّاسَ حَتَّى يَشْهَدُوا أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ ، وَيُقِيمُوا الصَّلاَةَ ، وَيُؤْتُوا الزَّكَاةَ . فَإِذَا فَعَلُوا ذٰلِكَ عَصَمُوا مِنِّي دِمَاءَهُمْ وَأَمْوَالَهُمْ إِلاَّ بِحَقِّ الْإِسْلاَمِ . وَحِسَابُهُمْ عَلَى اللَّهِ تَعَالَى». مُتَّفَقٌ عَلَيْهِ .

391. Abdullah bin Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın rəsulu olduğuna şəhadət edib, namazı qılana, zəkatı verənə qədər insanlarla döyüşməklə əmr olundum. Bunları edəcəkləri təqdirdə qanlarını və mallarını məndən qorumuş olarlar. İslamın tələb etdiyi haqlar isə bunlardan xaricdir. Onların gizli hallarının hesabı Allaha aiddir".

Buxari, İman 17, Salət 28, Zəkat 1, Etisam 2, 28; Müslim, İman 32-36. Həmçinin bax. Əbu Davud, Cihad 95; Tirmizi, Təfsiru surə (88); Nəsai, Zəkat 3; İbn Macə, Fitən 1

❁

٣٩٢ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ طَارِقِ بْنِ أَشْيَمَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَكَفَرَ بِمَا يُعْبَدُ مِنْ دُونِ اللَّهِ حَرُمَ مَالُهُ وَدَمُهُ ، وَحِسَابُهُ عَلَى اللَّهِ تَعَالَى». رَوَاهُ مُسْلِمٌ .

392. Əbu Abdullah Tariq bin Əşyəm *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitmişdir:

"Kim Allahdan başqa ilah yoxdur deyər və Allahdan başqa ibadət edilənləri inkar edərsə, o adamın malı və qanı haram olar. Gizli hallarının hesabı isə Allaha aiddir".

Müslim, İman 37

❁

٣٩٣ ـ عَنْ أَبِي مَعْبَدٍ الْمِقْدَادِ بْنِ الْأَسْوَدِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قُلْتُ لِرَسُولِ اللَّهِ ﷺ : أَرَأَيْتَ إِنْ لَقِيتُ رَجُلاً مِنَ الْكُفَّارِ فَاقْتَتَلْنَا ، فَضَرَبَ إِحْدَى يَدَيَّ بِالسَّيْفِ فَقَطَعَهَا ، ثُمَّ لاَذَ مِنِّي بِشَجَرَةٍ فَقَالَ: أَسْلَمْتُ لِلَّهِ ، أَأَقْتُلُهُ يَا رَسُولَ اللَّهِ بَعْدَ أَنْ قَالَهَا ؟ فَقَالَ: «لاَ تَقْتُلْهُ» . فَقُلْتُ : يَا رَسُولَ اللَّهِ ، قَطَعَ إِحْدَى يَدَيَّ ، ثُمَّ قَالَ ذَلِكَ بَعْدَ مَا قَطَعَهَا ؟ فَقَالَ: «لاَ تَقْتُلْهُ ، فَإِنْ قَتَلْتَهُ فَإِنَّهُ بِمَنْزِلَتِكَ قَبْلَ أَنْ تَقْتُلَهُ، وَإِنَّكَ بِمَنْزِلَتِهِ قَبْلَ أَنْ يَقُولَ كَلِمَتَهُ الَّتِي قَالَ». مُتَّفَقٌ عَلَيْهِ .

393. Əbu Məbəd Miqdad bin Əsvəd *radiyallahu anh* belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləmə* dedim ki:

- Kafirlərdən biri ilə qarşılaşsam və onunla vuruşsaq, bir əlimi qılınla kəssə, sonra da mənim əlimdən xilas olmaq üçün bir ağacın arxasına sığınsa və:

- Mən Allah üçün müsəlman oldum desə, bu sözündən sonra onu öldürə bilərəmmi, ya Rəsulallah?

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* buyurdu:

- "Əsla onu öldürmə!" Mən:

- Ey Allahın Rəsulu, o mənim iki əlimdən birini qopartdıqdan sonra bu sözü söylədi,- dedim. Bu cavabı verdi:

- **"Əsla öldürmə. Əgər onu öldürsən, o, sənin onu öldürməzdən əvvəlki halındadır. Sən isə onun həmin sözü söyləməzdən əvvəlki vəziyyətinə düşərsən", -** buyurdu.

Buxari, Məğazi 12; Müslim, İman 155. Həmçinin bax. Əbu Davud, Cihad 95

❁

٣٩٤ ـ عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: بَعَثَنَا رَسُولُ اللَّهِ ﷺ إِلَى الْحُرَقَةِ مِنْ جُهَيْنَةَ ، فَصَبَّحْنَا الْقَوْمَ عَلَى مِيَاهِهِمْ ، وَلَحِقْتُ أَنَا وَرَجُلٌ مِنَ الْأَنْصَارِ رَجُلاً مِنْهُمْ ، فَلَمَّا غَشِينَاهُ قَالَ : لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، فَكَفَّ عَنْهُ الْأَنْصَارِيُّ وَطَعَنْتُهُ بِرُمْحِي حَتَّى قَتَلْتُهُ. فَلَمَّا قَدِمْنَا الْمَدِينَةَ بَلَغَ ذَلِكَ النَّبِيَّ ﷺ فَقَالَ لِي: «يا أُسَامَةُ ، أَقَتَلْتَهُ بَعْدَ مَا قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ؟» قُلْتُ : يَا رَسُولَ اللَّهِ ، إِنَّمَا كَانَ مُتَعَوِّذًا. فَقَالَ: «أَقَتَلْتَهُ بَعْدَ مَا قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ؟!» فَمَا زَالَ يُكَرِّرُهَا عَلَيَّ حَتَّى تَمَنَّيْتُ أَنِّي لَمْ أَكُنْ أَسْلَمْتُ قَبْلَ ذَلِكَ الْيَوْمِ. مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : أَقَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَقَتَلْتَهُ؟» قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، إِنَّمَا قَالَهَا خَوْفًا مِنَ السِّلاَحِ . قَالَ: «أَفَلاَ شَقَقْتَ عَنْ قَلْبِهِ حَتَّى تَعْلَمَ أَقَالَهَا أَمْ لاَ ؟!» فَمَا زَالَ يُكَرِّرُهَا حَتَّى تَمَنَّيْتُ أَنِّي أَسْلَمْتُ يَوْمَئِذٍ .

394. Üsamə bin Zeyd *radiyallahu anhumə* belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bizi Cüheynə qəbiləsinin yaşadığı Huraqaya göndərmişdi. Səhər vaxtı onlar su hövzələrinin başında ikən hücum etdik. Mən və ənsardan bir nəfər onlardan birini haqladıq. Üstünə getdiyimiz zaman "Lə iləhə illəllah – Allahdan başqa ilah yoxdur", - dedi. Bu zaman ənsardan olan yoldaşım ona hücumu dayandırdı. Mən isə nizəmlə onu öldürdüm. Biz Mədinəyə qayıdandan sonra bu hadisə Rəsulullah *səllallahu əleyhi və səlləmin* qulağına çatdı. Mənə:

- **"Ey Üsamə, lə iləhə illəllah dedikdən sonra onu öldürdünmü?"** - buyurdu. Mən:

- Ya Rəsulallah, bu sözü canını qurtarmaq üçün söylədi,- dedim. Həzrət Peyğəmbər təkrar soruşdu:

- **"Lə iləhə illəllah dedikdən sonra onu öldürdünmü?"** Bu sözü o qədər təkrar etdi ki, hətta mən daha əvvəl müsəlman olmamış olmağı arzuladım.

Buxari, Diyət 2, Məğazi 45; İman 158-159

Müslimin bir rəvayəti belədir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"O, lə iləhə illəllah dedi və sən onu öldürdün, eləmi?"** Mən:

- Ya Rəsulallah, o, bu sözü sadəcə olaraq silahdan qorxduğu üçün söylədi,- dedim. Həzrət Peyğəmbər:

- **"Bu səbəblə deyib-demədiyini bilmək üçün qəlbini yardınmı?"** - buyurdu.

Bu sözü o qədər təkrarladı ki, ilk dəfə həmin gün müsəlman olmağı arzuladım.

Müslim, İman 158

❁

٣٩٥ ـ عَنْ جُنْدَبِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَعَثَ بَعْثًا مِنَ الْمُسْلِمِينَ إِلَى قَوْمٍ مِنَ الْمُشْرِكِينَ ، وأَنَّهُمُ الْتَقَوْا ، فَكَانَ رَجُلٌ مِنَ الْمُشْرِكِينَ إِذَا

شَاءَ أَنْ يَقْصِدَ إِلَى رَجُلٍ مِنَ الْمُسْلِمِينَ قَصَدَ لَهُ فَقَتَلَهُ ، وَأَنَّ رَجُلاً مِنَ الْمُسْلِمِينَ قَصَدَ غَفْلَتَهُ ـ وَكُنَّا نَتَحَدَّثُ أَنَّهُ أُسَامَةُ بْنُ زَيْدٍ ـ فَلَمَّا رَفَعَ عَلَيْهِ السَّيْفَ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، فَقَتَلَهُ ، فَجَاءَ الْبَشِيرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَسَأَلَهُ وَأَخْبَرَهُ ، حَتَّى أَخْبَرَهُ خَبَرَ الرَّجُلِ كَيْفَ صَنَعَ ، فَدَعَاهُ فَسَأَلَهُ فَقَالَ: «لِمَ قَتَلْتَهُ؟» فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، أَوْجَعَ فِي الْمُسْلِمِينَ ، وَقَتَلَ فُلاَنًا وَفُلاَنًا ـ وسَمَّى لَهُ نَفَرًا ـ وَإِنِّي حَمَلْتُ عَلَيْهِ ، فَلَمَّا رَأَى السَّيْفَ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ. قَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَقَتَلْتَهُ؟» قَالَ: نَعَمْ. قَالَ: «فَكَيْفَ تَصْنَعُ بِلاَ إِلَهَ إِلاَّ اللَّهُ إِذَا جَاءَتْ يَوْمَ الْقِيَامَةِ؟» قَالَ: يَا رَسُولَ اللَّهِ، اسْتَغْفِرْ لِي . قَالَ: «وَكَيْفَ تَصْنَعُ بِلاَ إِلَهَ إِلاَّ اللَّهُ إِذَا جَاءَتْ يَوْمَ الْقِيَامَةِ؟» فَجَعَلَ لاَ يَزِيدُ عَلَى أَنْ يَقُولَ: «كَيْفَ تَصْنَعُ بِلاَ إِلَهَ إِلاَّ اللَّهُ إِذَا جَاءَتْ يَوْمَ الْقِيَامَةِ»؟ رَوَاهُ مُسْلِمٌ .

395. Cündəb bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* müşrik olan bir qövmə müsəlmanlardan ibarət hərbi bölük göndərmişdi. Müsəlman əsgərlər müşriklərlə qarşı-qarşıya gəldilər. Müşriklərdən bir nəfər müsəlmanlardan kimi istəsə ona hücum edib öldürürdü. Müsəlmanlardan biri onun zəif olduğu anı gözləyirdi. Biz onun Üsamə bin Zeyd olduğunu deyirdik. Üsamə qılıncını çəkib onu öldürəcəyi əsnada həmin adam "lə iləhə illəllah" dedi. Lakin Üsamə yenə də onu öldürdü. Müjdəçi, Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələndə ondan ordunun nə halda olduğunu soruşdu. O da baş verənləri danışdı. Hətta həmin adamla Üsamənin hadisəsini də danışdı. Peyğəmbər Üsaməni yanına çağırdı və ondan soruşdu:

- **"O adamı nə üçün öldürdün?"**Üsamə:

- Ya Rəsulallah, o, müsəlmanlara əziyyət verdi, filankəsləri öldürdü,- deyərək bir neçə şəhidin adını saydı. Sonra:

- Mən də ona hücum etdim. Qılıncı görüb "lə iləhə illəllah" dedi.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* soruşdu:

- **“Bu sözü deyən adamı öldürdünmü?”**O:

- Bəli,- dedi. Bu zaman Hz. Peyğəmbər:

- **“Qiyamət günü lə iləhə illəllah kəlməsi qarşına çıxdığı zaman nə edəcəksən?” -** dedi. Üsamə bin Zeyd:

- Ya Rəsulallah, Allahdan məni bağışlamasını istə,- dedi. Rəsuli-Əkrəm elə-hey:

- **“Qiyamət günü lə iləhə illəllah kəlməsi qarşına çıxdığı zaman nə edəcəksən?” “Qiyamət günü lə iləhə illəllah sözü qarşına çıxanda nə edəcəksən?”** deyir, başqa heç nə söyləmirdi.

Müslim, İman 160

❁

٣٩٦ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عُتْبَةَ بْنِ مَسْعُودٍ قَالَ: سَمِعْتُ عُمَرَ بْنَ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ يَقُولُ: «إِنَّ نَاسًا كَانُوا يُؤْخَذُونَ بِالْوَحْيِ فِي عَهْدِ رَسُولِ اللَّهِ ﷺ، وَإِنَّ الْوَحْيَ قَدِ انْقَطَعَ ، وَإِنَّمَا نَأْخُذُكُمُ الْآنَ بِمَا ظَهَرَ لَنَا مِنْ أَعْمَالِكُمْ. فَمَنْ أَظْهَرَ لَنَا خَيْرًا أَمَّنَّاهُ وَقَرَّبْنَاهُ وَلَيْسَ لَنَا مِنْ سَرِيرَتِهِ شَيْءٌ. اللَّهُ يُحَاسِبُهُ فِي سَرِيرَتِهِ . وَمَنْ أَظْهَرَ لَنَا سُوءًا لَمْ نَأْمَنْهُ وَلَمْ نُصَدِّقْهُ ، وَإِنْ قَالَ إِنَّ سَرِيرَتَهُ حَسَنَةٌ» . رَوَاهُ الْبُخَارِيُّ

396. Abdullah bin Utbə bin Məsud deyir: Ömər bin Xəttab *radiyallahu anhın* belə dediyini eşitdim:

“Rəsulullah *səllallahu əleyhi və səlləmin* dövründə insanlar Allahdan gələn vəhy sayəsində gizli hallarından da məsul tutulurdular. Şübhə yoxdur ki, vəhy kəsilib. Biz isə hazırkı vəziyyətdə sizi açıq-aşkar davranışlarınıza görə hesaba çəkirik. Nəticə olaraq da yaxşı əməllərini gördüklərimizi əmin bilib ona yaxınlaşırıq. Onun gizli hallarından hər hansı bir şeyi araşdırmaq bizim işimiz deyil. O adamın gizli hallarının hesabını Allah soruşacaqdır. Bizə qarşı pis əməl sərgiləyən adamı da əmin saymırıq. Hər nə qədər məqsədinin yaxşı olduğunu desə də, ondan əmin olmaz və hərəkətini xoş qarşılamarıq”.

Buxari, Şəhadət 5

ALLAH QORXUSU

Ayələr

وَإِيَّايَ فَارْهَبُونِ.

1. "Yalnız Məndən qorxun!" (əl-Bəqərə, 40)

إِنَّ بَطْشَ رَبِّكَ لَشَدِيدٌ .

2. "Həqiqətən, sənin Rəbbinin intiqamı çox şiddətlidir!"

(əl-Buruc, 12)

وَكَذٰلِكَ اَخْذُ رَبِّكَ اِذَا اَخَذَ الْقُرٰى وَهِيَ ظَالِمَةٌ اِنَّ اَخْذَهُ اَلِيمٌ شَدِيدٌ اِنَّ فِي ذٰلِكَ لَاٰيَةً لِمَنْ خَافَ عَذَابَ الْاٰخِرَةِ ذٰلِكَ يَوْمٌ مَجْمُوعٌ لَهُ النَّاسُ وَذٰلِكَ يَوْمٌ مَشْهُودٌ وَمَا نُؤَخِّرُهُ اِلَّا لِاَجَلٍ مَعْدُودٍ يَوْمَ يَاْتِ لَا تَكَلَّمُ نَفْسٌ اِلَّا بِاِذْنِهِ فَمِنْهُمْ شَقِيٌّ وَسَعِيدٌ فَاَمَّا الَّذِينَ شَقُوا فَفِي النَّارِ لَهُمْ فِيهَا زَفِيرٌ وَشَهِيقٌ .

3. "Rəbbin zülmkar məmləkətləri əzabla yaxalayanda belə yaxalayar. Onun cəzası, doğrudan da, ağrılı-acılıdır, şiddətlidir! Bütün bu deyilənlərdə axirət əzabından qorxan şəxs üçün həqiqi bir ibrət dərsi vardır. Bu (bütün) **insanların bir yerə cəm ediləcəyi, hamının şahid olacağı bir gündür. Biz onu yalnız müəyyən bir müddət üçün təxirə salmışıq.** (Qiyamət) **gəldiyi gün** (Allahın) **izni olmadan heç kəs danışa bilməz.** (O gün) **insanların bir qismi bədbəxt, bir qismi isə xoşbəxt olacaqdır! Bədbəxt olanlar od içərisində** (Cəhənnəmdə) **qalacaqlar. Onları orada ah-fəryad gözləyir".**

(Hud, 102-106)

وَيُحَذِّرُكُمُ اللَّهُ نَفْسَهُ .

4. "Allah sizi Öz əzabından çəkindirir". (Ali-İmran, 28)

يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ أَخِيهِ وَأُمِّهِ وَأَبِيهِ وَصَاحِبَتِهِ وَبَنِيهِ لِكُلِّ امْرِيءٍ مِنْهُمْ يَوْمَئِذٍ شَأْنٌ يُغْنِيهِ .

5. "O gün insan qaçacaq öz qardaşından; Anasından, atasından; Zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır!"

(əl-Əbəsə, 34-47)

يَآ اَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمْ اِنَّ زَلْزَلَةَ السَّاعَةِ شَيْءٌ عَظِيمٌ يَوْمَ تَرَوْنَهَا تَذْهَلُ كُلُّ مُرْضِعَةٍ عَمَّآ اَرْضَعَتْ وَتَضَعُ كُلُّ ذَاتِ حَمْلٍ حَمْلَهَا وَتَرَى النَّاسَ سُكَارٰى وَمَا هُمْ بِسُكَارٰى وَلٰكِنَّ عَذَابَ اللّٰهِ شَدِيدٌ .

6. "Ey insanlar! Rəbbinizdən qorxun. (Allahın əzabından qorxub pis əməllərdən çəkinin, yalnız Ona ibadət və itaət edin). **Həqiqətən, qiyamət gününün** (axır saatın) **zəlzələsi dəhşətli şeydir! Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyi uşağını unudar, hər bir hamilə qadın bari-həmlini** (vaxtından əvvəl) **yerə qoyar** (uşaq salar). **İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Ancaq Allahın əzabı çox şiddətlidir!"**

(əl-Həcc, 1-2)

وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِ جَنَّتَانِ .

7. "Şübhəsiz ki, Rəbbinin məqamından (hüzurunda haqq-hesab üçün durmaqdan) **qorxanları iki cənnət** (Ədn və Nəim cənnətləri) **gözləyir!"**

(ər-Rəhman, 46)

وَاَقْبَلَ بَعْضُهُمْ عَلٰى بَعْضٍ يَتَسَآءَلُونَ قَالُوآ اِنَّا كُنَّا قَبْلُ فِي اَهْلِنَا مُشْفِقِينَ فَمَنَّ اللّٰهُ عَلَيْنَا وَوَقٰينَا عَذَابَ السَّمُومِ اِنَّا كُنَّا مِنْ قَبْلُ نَدْعُوهُ اِنَّهُ هُوَ الْبَرُّ الرَّحِيمُ.

8. "Onlar (dünyada gördükləri işlər barəsində) **bir-birindən hal-əhval tutmağa başlayacaqlar. Və** (söhbət əsnasında) **belə deyəcəklər: "Biz bundan əvvəl** (dünyada) **ailəmiz içində olarkən** (Rəbbimizin əzabından) **qorxardıq. Artıq Allah bizə mərhəmət buyurub** (minnət qoyub) **bizi cəhənnəm**

(səmum) **əzabından qorudu. Biz bundan əvvəl** (dünyada) **Ona ibadət edirdik. Şübhəsiz ki, O,** (vədinə sadiq) **kərəm sahibidir, rəhm edəndir!"**

(ət-Tur, 25-28)

Hədislər

٣٩٧ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: حَدَّثَنَا رَسُولُ اللَّهِ ﷺ وَهُوَ الصَّادِقُ الْمَصْدُوقُ: «إِنَّ أَحَدَكُمْ يُجْمَعُ خَلْقُهُ فِي بَطْنِ أُمِّهِ أَرْبَعِينَ يَوْمًا نُطْفَةً ، ثُمَّ يَكُونُ عَلَقَةً مِثْلَ ذَلِكَ ، ثُمَّ يَكُونُ مُضْغَةً مِثْلَ ذَلِكَ ، ثُمَّ يُرْسَلُ الْمَلَكُ فَيَنْفُخُ فِيه الرُّوحَ ، وَيُؤْمَرُ بِأَرْبَعِ كَلِمَاتٍ : رِزْقِهِ ، وَأَجَلِهِ ، وَعَمَلِهِ ، وَشَقِيٌّ أَوْ سَعِيدٌ . فَوَ الَّذِي لاَ إِلَهَ غَيْرُهُ إِنَّ أَحَدَكُمْ لَيَعْمَلُ بِعَمَلِ أَهْلِ الْجَنَّةِ ، حَتَّى مَا يَكُونُ بَيْنَهُ وَبَيْنَهَا إِلاَّ ذِرَاعٌ ، فَيَسْبِقُ عَلَيْهِ الْكِتَابُ فَيَعْمَلُ بِعَمَلِ أَهْلِ النَّارِ ، فَيَدْخُلُهَا ، وإِنَّ أَحَدَكُمْ لَيَعْمَلُ بِعَمَلِ أَهْلِ النَّارِ ، حَتَّى مَا يَكُونُ بَيْنَهُ وَبَيْنَهَا إِلاَّ ذِرَاعٌ ، فَيَسْبِقُ عَلَيْهِ الْكِتَابُ ، فَيَعْمَلُ بِعَمَلِ أَهْلِ الْجَنَّةِ فَيَدْخُلُهَا» . مُتَّفَقٌ عَلَيْهِ .

397. İbn Məsud *radiyallahu anh* deyir:

Bizə doğru sözlü olan və doğruluğu hər kəs tərəfindən təsdiqlənmiş olan Rəsulullah *səllallahu əleyhi və səlləm* xəbər verdi və belə buyurdu:

"Sizdən birinin yaradılışı anasının bətnində qırx gündə nütfə halında tamamlanır. Sonra ikinci qırx günlük müddət ərzində qan laxtası halında olur. Sonra bir o qədər zaman ərzində bir parça ət olur. Ondan sonra Allah bir mələk göndərir və mələk ona ruh üfürür. Həmin mələk dörd şeylə: ana bətnindəki canlının ruzisini, əcəlini, əməlini, yaxşı, yoxsa pis adam olacağını yazmaqla əmr olunur. Özündən başqa ilah olmayan Allaha and içirəm ki, hər hansı biriniz cənnətliklərin işlədiyi əməlləri işləyər və onunla cənnətin arasında yalnız bir arşın məsafə qalar, lakin həmin yazının hökmü önə keçər, cəhənnəmliklərin işlədiyi əməlləri işləyərək cəhənnəmə gedər. Həmçinin sizdən biri cəhənnəmliklərin əməlini işləyər və onunla cəhənnəm arasında bir arşın məsafə qalar, sonra da o yazının hökmü önə keçər və həmin adam cənnətliklərin əməlini işləməyə davam edər, nəticədə cənnətə girər". [29]

29. Bir insanın işlədiyi əməllərə görə, qəti şəkildə cənnətlik və ya cəhənnəmlik olduğunu söyləmək doğru deyil. Çünki aqibətimiz məçhuldur.

Buxari, Bədul-xalq 6, Ənbiya 1, Qədər 1; Müslim, Qədər 1. Həmçinin bax. Əbu Davud, Sünnət 16; Tirmizi, Qədər 4; İbn Macə, Müqəddimə 10

٣٩٨ ـ وَعَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يُؤْتَى بِجَهَنَّمَ يَوْمَئِذٍ لَهَا سَبْعُونَ أَلْفَ زِمَامٍ ، مَعَ كُلِّ زِمَامٍ سَبْعُونَ أَلْفَ مَلَكٍ يَجُرُّونَهَا» . رَوَاهُ مُسْلِمٌ .

398. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hesab günü cəhənnəm gətirilər. Cəhənnəmin yetmiş min yüyəni və hər yüyəni çəkən yetmiş min mələk var".

Müslim, Cənnət 29. Həmçinin bax. Tirmizi, Cəhənnəm 1

❁

٣٩٩ ـ عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ : «إِنَّ أَهْوَنَ أَهْلِ النَّارِ عَذَابًا يَوْمَ الْقِيَامَةِ لَرَجُلٌ يُوضَعُ فِي أَخْمَصِ قَدَمَيْهِ جَمْرَتَانِ يَغْلِي مِنْهُمَا دِمَاغُهُ ، مَا يَرَى أَنَّ أَحَدًا أَشَدُّ مِنْهُ عَذَابًا ، وَإِنَّهُ لَأَهْوَنُهُمْ عَذَابًا!». مُتَّفَقٌ عَلَيْهِ .

399. Numan bin Bəşir *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitmişdir:

"Şübhəsiz ki, qiyamət günü cəhənnəmliklər arasında əzabı ən yüngül olan ayaqları altına iki qor qoyulan, bu səbəblə də beyni qaynayan adamdır. Halbuki o, heç kimin özündən daha şiddətli əzab gördüyünü zənn etməz. Əslində isə cəhənnəmliklər arasında əzabı ən yüngül olanı odur".

Buxari, Riqaq 51; Müslim, İman 362-364. Həmçinin bax. Tirmizi, Cəhənnəm 12

❁

٤٠٠ ـ عَنْ سَمُرَةَ بْنِ جُنْدَبٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ نَبِيَّ اللَّهِ ﷺ قَالَ: «مِنْهُمْ مَنْ تَأْخُذُهُ النَّارُ إِلَى كَعْبَيْهِ ، وَمِنْهُمْ مَنْ تَأْخُذُهُ إِلَى رُكْبَتَيْهِ ، وَمِنْهُمْ مَنْ تَأْخُذُهُ إِلَى حُجْزَتِهِ ، وَمِنْهُمْ مَنْ تَأْخُذُهُ إِلَى تَرْقُوَتِهِ ». رَوَاهُ مُسْلِمٌ .

400. Səmurə bin Cundəb *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cəhənnəm alovu cəhənnəm əhlinin bəzisinin topuqlarına, bəzisinin dizlərinə, bəzisinin qurşağına, bəzisinin də köprücük sümüyünə qədər yüksələr".

Müslim, Cənnət 33

❁

٤٠١ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يَقُومُ النَّاسُ لِرَبِّ الْعَالَمِينَ ، حَتَّى يَغِيبَ أَحَدُهُمْ فِي رَشْحِهِ إِلَى أَنْصَافِ أُذُنَيْهِ». مُتَّفَقٌ عَلَيْهِ .

401. İbn Ömər *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanlar aləmlərin Rəbbinin hüzurunda hesab vermək üçün qəbirlərindən qalxarlar. Onlardan bəziləri qulaqlarının yarısına qədər tər içində olacaqlar".

Buxari, Riqaq 47, Təfsiru surə 83; Müslim, Cənnət 60. Həmçinin bax. Tirmizi, Qiyamət 2, Təfsiru surə 83; İbn Macə, Zöhd 33

❁

٤٠٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَطَبَنَا رَسُولُ اللَّهِ ﷺ خُطْبَةً مَا سَمِعْتُ مِثْلَهَا قَطُّ ، فَقَالَ: «لَوْ تَعْلَمُونَ مَا أَعْلَمُ لَضَحِكْتُمْ قَلِيلاً وَلَبَكَيْتُمْ كَثِيرًا». فَغَطَّى أَصْحَابُ رَسُولِ اللَّهِ ﷺ وُجُوهَهُمْ وَلَهُمْ خَنِينٌ . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: بَلَغَ رَسُولَ اللَّهِ ﷺ عَنْ أَصْحَابِهِ شَيْءٌ فَخَطَبَ فَقَالَ: «عُرِضَتْ عَلَيَّ الْجَنَّةُ وَالنَّارُ فَلَمْ أَرَ كَالْيَوْمِ فِي الْخَيْرِ وَالشَّرِّ ، وَلَوْ تَعْلَمُونَ مَا أَعْلَمُ لَضَحِكْتُمْ قَلِيلًا وَلَبَكَيْتُمْ كَثِيرًا» فَمَا أَتَى عَلَى أَصْحَابِ رسولِ اللَّهِ ﷺ يَوْمٌ أَشَدُّ مِنْهُ غَطَّوْا رُؤُسَهُمْ وَلَهُمْ خَنِينٌ.

402. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə daha əvvəl duymadığımız bir xütbə söylədi və belə buyurdu:

“Əgər mənim bildiklərimizi bilsəydiniz, az gülər, çox ağlayardınız”. Bu sözdən sonra Rəsulullahın səhabələri üzünü tutub hıçqıraraq ağladılar.

Buxari, Təfsiru surə (5), 12; Müslim, Fəzail 134

Müslimin rəvayəti belədir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* əshabının halı ilə bağlı bir xəbər aldıqda belə bir söhbət etdi:

“Cənnət və cəhənnəm gözlərimin önünə sərilib mənə göstərildi. Xeyir və şər baxımından bu gün kimisini görmədim. Əgər siz mənim bildiklərimi bilsəydiniz, az gülər, çox ağlayardınız”, - buyurdu. Rəsulullahın əshabına bundan daha ağır gələn bir gün olmamışdı. Başlarını örtərək hıçqıra-hıçqıra ağladılar.

Müslim, Fəzail 134

❁

٤٠٣ ـ عَنِ الْمِقْدَادِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «تُدْنَى الشَّمْسُ يَوْمَ الْقِيَامَةِ مِنَ الْخَلْقِ حَتَّى تَكُونَ مِنْهُمْ كَمِقْدَارِ مِيلٍ». قَالَ سُلَيْمُ بْنُ عَامِرٍ الرَّاوِي عَنِ الْمِقْدَادِ: فَوَاللَّهِ مَا أَدْرِي مَا يَعْنِي بِالْمِيلِ: أَمَسَافَةَ الْأَرْضِ أَمِ الْمِيلَ الَّذِي تُكْتَحَلُ بِهِ الْعَيْنُ ـ «فَيَكُونُ النَّاسُ عَلَى قَدْرِ أَعْمَالِهِمْ فِي الْعَرَقِ. فَمِنْهُمْ مَنْ يَكُونُ إِلَى كَعْبَيْهِ ، وَمِنْهُمْ مَنْ يَكُونُ إِلَى رُكْبَتَيْهِ ، وَمِنْهُمْ مَنْ يَكُونُ إِلَى حِقْوَيْهِ ، وَمِنْهُمْ مَنْ يُلْجِمُهُ الْعَرَقُ إِلْجَامًا» . وَأَشَارَ رَسُولُ اللَّهِ ﷺ بِيَدِهِ إِلَى فِيهِ. رَوَاهُ مُسْلِمٌ .

403. Miqdad *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Qiyamət günü günəş insanlara bir mil məsafə qalana qədər yaxınlaşdırılar”.

Hədisi Miqdaddan rəvayət edən Süleym bin Amir deyir ki:

Allaha and olsun ki, Rəsulullahın mil ilə yer üzündəki məsafə ölçüsünü, yoxsa gözə sürmə çəkmək üçün istifadə olunan mili qəsd etdiyini bilmirəm. Rəsuli-Əkrəm:

“İnsanlar işlədikləri pis əməlləri qədərində tərə batarlar. Onların bəzisi topuqlarına, bəzisi dizlərinə, bəzisi qurşağına, bəzisi də ağzına qədər tər içində qalar”, - buyuraraq əliylə ağzına işarə etdi.

Müslim, Cənnət 62. Həmçinin bax. Tirmizi, Qiyamət 2

❁

٤٠٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يَعْرَقُ النَّاسُ يَوْمَ الْقِيَامَةِ حَتَّى يَذْهَبَ عَرَقُهُمْ فِي الْأَرْضِ سَبْعِينَ ذِرَاعًا ، وَيُلْجِمُهُمْ حَتَّى يَبْلُغَ آذَانَهُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

404. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Qiyamət günü insanlar o qədər tərləyərlər ki, onların təri yerin yetmiş arşın dərinliyinə çatar. Tər sanki ağızlarına yüyən vurar, ta qulaqlarına qədər çıxar”.

Buxari, Riqaq 47; Müslim, Cənnət 61

❁

٤٠٥ ـ وَعَنْهُ قَالَ: كُنَّا مَعَ رَسُولِ اللَّهِ ﷺ إِذْ سَمِعَ وَجْبَةً فَقَالَ: «هَلْ تَدْرُونَ مَا هَذَا؟» قُلْنَا : اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ . قَالَ: «هَذَا حَجَرٌ رُمِيَ بِهِ فِي النَّارِ مُنْذُ سَبْعِينَ خَرِيفًا ، فَهُوَ يَهْوِي فِي النَّارِ الْآنَ ، حَتَّى انْتَهَى إِلَى قَعْرِهَا ، فَسَمِعْتُمْ وَجْبَتَهَا» . رَوَاهُ مُسْلِمٌ .

405. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləmlə* birlikdə idik. Həmin əsnada yerə düşən nəyinsə gurultusunu eşitdik. Rəsulullah:

- **“Bu gurultunun nə olduğunu bilirsinizmi?” -** deyə sual verdi. Biz:

- Allah və Rəsulu daha yaxşı bilir,- dedik. Rəsuli-Əkrəm:

- **"Bu, yetmiş il əvvəl cəhənnəmə atılmış bir daşdır. İndiyə qədər cəhənnəmdə yuvarlanaraq yol qət edirdi, nəhayət, dibinə çatdı. Siz onun gurultusunu eşitdiniz", -** buyurdu.

Müslim, Cənnət 31

❁

٤٠٦ ـ عَنْ عَدِيِّ بْنِ حَاتِمٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ : مَا مِنْكُمْ مِنْ أَحَدٍ إِلَّا سَيُكَلِّمُهُ رَبُّهُ لَيْسَ بَيْنَهُ وَبَيْنَهُ تَرْجُمَانٌ ، فَيَنْظُرُ أَيْمَنَ مِنْهُ فَلَا يَرَى إِلَّا مَا قَدَّمَ ، وَيَنْظُرُ أَشْأَمَ مِنْهُ فَلَا يَرَى إِلَّا مَا قَدَّمَ ، وَيَنْظُرُ بَيْنَ يَدَيْهِ فَلَا يَرَى إِلَّا النَّارَ تِلْقَاءَ وَجِهِهِ ، فَاتَّقُوا النَّارَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ». مَتَّفَقٌ عَلَيْهِ .

406. Adiy bin Hatim *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Rəbbiniz arada heç bir tərcüməçi olmadan hər birinizlə danışacaqdır. İnsan sağ tərəfinə baxar, daha əvvəl göndərdiyi yaxşı işləri görər. Soluna baxar, vaxtı ilə işlədiyi pis əməlləri görər. Önünə baxar, yalnız cəhənnəmi görər. Yarım xurma ilə də olsa, cəhənnəmdən qorunun".

Buxari, Zəkat 9; Müslim, Zəkat 67. Həmçinin bax. Buxari, Mənaqib 25, Tövhid 24, 36; Tirmizi, Qiyamət 1; İbn Macə, Müqəddimə 13, Zəkat 28

❁

٤٠٧ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنِّي أَرَى مَا لاَ تَرَوْنَ : أَطَّتِ السَّمَاءُ ، وَحُقَّ لَهَا أَنْ تَئِطَّ ، مَا فِيهَا مَوْضِعُ أَرْبَعِ أَصَابِعَ إِلاَّ وَمَلَكٌ وَاضِعٌ جَبْهَتَهُ سَاجِدًا لِلَّهِ تَعَالَى. وَاللَّهِ لَوْ تَعْلَمُونَ مَا أَعْلَمُ لَضَحِكْتُمْ قَلِيلاً وَلَبَكَيْتُمْ كَثِيرًا ، وَمَا تَلَذَّذْتُمْ بِالنِّسَاءِ عَلَى الْفُرُشِ ، وَلَخَرَجْتُمْ إِلَى الصُّعُدَاتِ تَجْأَرُونَ إِلَى اللَّهِ تَعَالَى». رَوَاهُ التِّرْمِذِيُّ .

407. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Şübhəsiz ki, mən sizin görmədiklərinizi görür və bilirəm. Göy üzü qıcırtı ilə inlədi. Qıcırdayıb inləməyə haqqı da var. Göy üzündə dörd barmaq qədər elə bir yer yoxdur ki, oraya bir mələk Allaha səcdə üçün alnını qoymasın. Allaha and olsun ki, əgər mənim bildiklərimi bilsəydiniz, az gülər, çox ağlayardınız. Yataqda qadınlardan da həzz ala bilməzdiniz. Yüksək səslə Allaha yalvararaq yollara və səhralara çıxardınız”.

Tirmizi, Zöhd 9. Həmçinin bax. İbni Macə, Zöhd 19

❁

٤٠٨ـ عَنْ أَبِي بَرْزَةَ نَضْلَةَ بْنِ عُبَيْدٍ الأَسْلَمِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ : قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَزُولُ قَدَمَا عَبْدٍ يَوْمَ الْقِيَامَةِ حَتَّى يُسْأَلَ عَنْ عُمُرِهِ فِيمَ أَفْنَاهُ ، وَعَنْ عِلْمِهِ فِيمَ فَعَلَ فِيهِ ، وَعَنْ مَالِهِ مِنْ أَيْنَ اكْتَسَبَهُ وَفِيمَ أَنْفَقَهُ ، وَعَنْ جِسْمِهِ فِيمَ أَبْلاَهُ؟». رَوَاهُ التِّرْمِذِيُّ .

408. Əbu Bərzə Nədlə bin Übeyd əl-Əsləmi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Qiyamət günü heç bir qul ömrünü harada keçirdiyindən, elmi ilə nə kimi işlər etdiyindən, malını haradan qazanıb hara xərclədiyindən, bədənini harada tükətdiyindən hesaba çəkilmədikcə yerindən tərpənməz”.

Tirmizi, Qiyamət 1

❁

٤٠٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَرَأَ رَسُولُ اللَّهِ ﷺ : «يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا» ، ثُمَّ قَالَ: «أَتَدْرُونَ مَا أَخْبَارُهَا؟» قَالُوا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ. قَالَ: «فَإِنَّ أَخْبَارَهَا أَنْ تَشْهَدَ عَلَى كُلِّ عَبْدٍ أَوْ أَمَةٍ بِمَا عَمِلَ عَلَى ظَهْرِهَا ، تَقُولُ: عَمِلْتَ كَذَا وَكَذَا فِي يَوْمِ كَذَا وَكَذَا ، فَهَذِهِ أَخْبَارُهَا». رَوَاهُ التِّرْمِذِيُّ .

409. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm*: **“Məhz o gün (yer) öz xəbərlərini söyləyəcəkdir”** ayəsini oxudu, sonra:

- "Yerin xəbərlərinin nə olduğunu bilirsinizmi?" - deyə soruşdu. Səhabələr:

- Allah və Rəsulu daha yaxşı bilir,- dedilər. Hz. Peyğəmbər:

- "Onun xəbərləri hər bir kişi və qadının yer üzündə nələr etdiyinə şahidlik edərək, "sən filan gün belə etmişdin" deməsidir. Bəli, yerin xəbərləri budur", - buyurdu.

Tirmizi, Qiyamət 9

❁

٤١٠ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «كَيْفَ أَنْعَمُ وَصَاحِبُ الْقَرْنِ قَدِ الْتَقَمَ الْقَرْنَ ، وَاسْتَمَعَ الْإِذْنَ ! مَتَى يُؤْمَرُ بِالنَّفْخِ فَيَنْفُخُ؟» فَكَأَنَّ ذَلِكَ ثَقُلَ عَلَى أَصْحَابِ رَسُولِ اللَّهِ ﷺ فَقَالَ لَهُمْ: «قُولُوا: حَسْبُنَا اللَّهُ وَنِعْمَ الْوَكِيلُ» . رَوَاهُ التِّرْمِذِيُّ .

410. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sur sahibi borusunu ağzına qoyub ona üfürmə əmrinin nə zaman veriləcəyini gözləyərkən mən necə sevinə bilərəm? "Bu xəbər Rəsulullah *səllallahu əleyhi və səlləmin* əshabına ağır gəldi. Belə olan təqdirdə Rəsulullah:

"Hasbunəllahu və nimәl-vəkil – Allah bizə kifayətdir, o nə gözəl vəkildir deyin", - buyurdu.

Tirmizi, Qiyamət 8; Təfsiru surə (39)

❁

٤١١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ خَافَ أَدْلَجَ ، وَمَنْ أَدْلَجَ بَلَغَ الْمَنْزِلَ . أَلاَ إِنَّ سِلْعَةَ اللَّهِ غَالِيَةٌ ، أَلاَ إِنَّ سِلْعَةَ اللَّهِ الْجَنَّةُ». رَوَاهُ التِّرْمِذِيُّ .

411. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qorxan adam gecə yol qət edər. Gecə yol qət edən kəs də gedəcəyi yerə çatar. Yaxşı bilin ki, Allahın (satdığı) malı çox bahadır. Yaxşı bilin ki, Allahın malı cənnətdir". [30] Tirmizi, Qiyamət 18

30. Hədisdə yoldakı təhlükələrdən qorxaraq gecə yola çıxan adamın misalı verilmiş-

٤١٢ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «يُحْشَرُ النَّاسُ يَوْمَ الْقِيَامَةِ حُفَاةً عُرَاةً غُرْلاً» . قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، اَلرِّجَالُ وَالنِّسَاءُ جَمِيعًا ، يَنْظُرُ بَعْضُهُمْ إِلَى بَعْضٍ؟ قَالَ: «يَا عَائِشَةُ ، اَلْأَمْرُ أَشَدُّ مِنْ أَنْ يُهِمَّهُمْ ذَلِكَ» .

وفِي رِوَايَةٍ: «اَلْأَمْرُ أَهَمُّ مِنْ أَنْ يَنْظُرَ بَعْضُهُمْ إِلَى بَعْضٍ» ! مُتَّفَقٌ عَلَيْهِ .

412. Aişə *radiyallahu anhə* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə buyurarkən eşitdiyini demişdir:

"Qiyamət günü insanlar ayaqyalın, çılpaq və sünnətsiz halda Allahın hüzurunda toplaşarlar". Mən:

- Ya Rəsulallah, qadınlar və kişilər bir yerdə olduqları halda bir-birilərinə baxmayacaqlar? - dedim. Həzrət Peyğəmbər:

- **"Ey Aişə, vəziyyət o qədər ciddi olacaq ki, bu, onların ağılına gəlməyəcək.", -** buyurdu.

Başqa bir rəvayətdə:

"İş bir-birilərinə baxmayacaqları dərəcədə şiddətlidir", - buyurdu.

Buxari, Riqaq 45; Cənnət 56. Həmçinin bax. Buxari, Ənbiya 8, 48, Təfsiru surə (5), 14; Tirmizi, Qiyamət 3, Təfsiru surə (80), 2; Nəsai, Cənaiz 118-119; İbn Macə, Zöhd 33

ALLAHIN RƏHMƏTİNİ ÜMİD ETMƏK

Ayələr

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنْفُسِهِمْ لاَ تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ .

dir. Məqsəd insanın aqibəti üçün təhlükə sayılacaq xüsusları göz önündə tutaraq bir an öncə Rəbbinə yönəlməsini ifadə etməkdir.

1. "De: "Ey Mənim (günah törətməklə) **özlərinə zülm etmək-də həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah** (tövbə etdikdə) **bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!"**

(əz-Zümər, 53)

وَهَلْ نُجَازِي إِلاَّ الْكَفُورَ.

2. "Onları nankorluqlarına görə belə cəzalandırdıq. Biz heç nankordan başqasına cəzamı verərik?"

(əs-Səba, 17)

إِنَّا قَدْ أُوحِيَ إِلَيْنَا أَنَّ الْعَذَابَ عَلَى مَنْ كَذَّبَ وَتَوَلَّى.

3. "Bizə vəhy olundu ki, (Allahın vəhdaniyyətini və ayələrini, qiyaməti və peyğəmbərləri) **yalan hesab edənləri və (haqdan) üz döndərənləri** (axirətdə) **əzab gözləyir!"**

(Taha, 48)

وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ.

4. "Mərhəmətim hər şeyi ehtiva etmişdir".

(əl-Əraf, 156)

Hədislər

٤١٣ ـ عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ :
«مَنْ شَهِدَ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ ، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ ، وَأَنَّ عِيْسَى عَبْدُ اللَّهِ ، وَرَسُولُهُ ، وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ ، وَرُوحٌ مِنْهُ ، وَأَنَّ الْجَنَّةَ حَقٌّ وَالنَّارَ حَقٌّ ، أَدْخَلَهُ اللَّهُ الْجَنَّةَ عَلَى مَا كَانَ مِنَ الْعَمَلِ» . مُتَّفَقٌ عَلَيْهِ .

413. Übadə bin Samit *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Kim Allahdan başqa ilah yoxdur, yalnız Allah var, şəriki yoxdur; Muhammməd Allahın qulu və rəsuludur. İsa da Allahın qulu və elçisi, Məryəmə ilqa etdiyi sözü və Allah tərəfindən (həyat verilən) bir

ruhdur. Cənnət haqq və gerçəkdir, cəhənnəm də haqq və gerçəkdir" deyərək şəhadət edərsə, Allah həmin adamı əməli nə olursa-olsun, cənnətə qoyar".

Buxari, Ənbiya 47; Müslim, İman 46

Müslimin başqa bir rəvayətində (İman 47) belə buyurulur:

"Allah "Allahdan başqa ilah yoxdur və Muhammməd Allahın rəsuludur" deyərək şəhadət edən adama cəhənnəmi haram edər".

❁

٤١٤ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «يَقُولُ اللَّهُ عَزَّ وَجَلَّ: ﴿مَنْ جَاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا﴾ أَوْ أَزِيدُ ﴿وَمَنْ جَاءَ بِالسَّيِّئَةِ فَجَزَاءُ سَيِّئَةٍ سَيِّئَةٌ مِثْلُهَا﴾ أَوْ أَغْفِرُ . وَمَنْ تَقَرَّبَ مِنِّي شِبْرًا تَقَرَّبْتُ مِنْهُ ذِرَاعًا ، وَمَنْ تَقَرَّبَ مِنِّي ذِرَاعًا تَقَرَّبْتُ مِنْهُ بَاعًا ، وَمَنْ أَتَانِي يَمْشِي أَتَيْتُهُ هَرْوَلَةً ، وَمَنْ لَقِيَنِي بِقُرَابِ الْأَرْضِ خَطِيئَةً لاَ يُشْرِكُ بِي شَيْئًا لَقِيتُهُ بِمِثْلِهَا مَغْفِرَةً» . رَوَاهُ مُسْلِمٌ .

414. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* Allah-Təalanın belə buyurduğunu xəbər vermişdir:

"Hər kim xeyirli bir iş görərsə, ona on misli (qarşılığı) vardır və ya daha da artıraram. Kim pis bir əməl işləyərsə, ona da həmin əməlin misli var. Yaxud da tamamən əfv edərəm. Kim Mənə bir qarış yaxınlaşarsa, Mən ona bir arşın yaxınlaşaram. Kim Mənə bir arşın yaxınlaşarsa, Mən ona bir qulac yaxınlaşaram. Kim Mənə tərəf addımlayaraq gələrsə, Mən ona qaçaraq gedərəm. Kim mənə heç nəyi şərik qoşmamaq şərti ilə dünya dolu günahla hüzuruma gələrsə, mən onu bir o qədər məğfirətlə qarşılayaram".

Müslim, Zikr 22

❁

٤١٥ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ أَعْرَابِيٌّ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، مَا الْمُوجِبَتَانِ ؟ قَالَ: «مَنْ مَاتَ لاَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ الْجَنَّةَ ، وَمَنْ مَاتَ يُشْرِكُ بِهِ شَيْئًا دَخَلَ النَّارَ» . رَوَاهُ مُسْلِمٌ .

415. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına bir bədəvi gəldi və:

- Ey Allahın Rəsulu, insanın cənnətə və ya cəhənnəmə girməsini vacib edən iki əsas nədir? - deyə soruşdu.

Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Allaha şərik qoşmadan ölən cənnətə girər. Allaha şərik qoşaraq ölən də cəhənnəmə gedər", -** buyurdu.

Müslim, İman 151

❁

٤١٦ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ ـ وَمُعَاذٌ رَدِيفُهُ عَلَى الرَّحْلِ ـ قَالَ: «يَا مُعَاذُ» ، قَالَ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ ، قَالَ: «يَا مُعَاذُ» قَالَ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ. قَالَ: «يَا مُعَاذُ» قَالَ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ ـ ثَلاَثًا ـ قَالَ: «مَا مِنْ عَبْدٍ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ ، صِدْقًا مِنْ قَلْبِهِ ، إِلاَّ حَرَّمَهُ اللَّهُ عَلَى النَّارِ» ! قَالَ: يَا رَسُولَ اللَّهِ ، أَفَلاَ أُخْبِرُ بِهَا النَّاسَ فَيَسْتَبْشِرُوا ؟ قَالَ: «إِذَنْ يَتَّكِلُوا» . فَأَخْبَرَ بِهَا مُعَاذٌ عِنْدَ مَوْتِهِ تَأَثُّمًا. مُتَّفَقٌ عَلَيْهِ .

416. Ənəs (İbn Malik) *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* (bir səfər əsnasında) tərkinə aldığı Muaza xitab edərək üç dəfə:

- "Ey Muaz", - deyə səslənmiş, o da hər dəfə:

- Buyur, ey Allahın Rəsulu,- deyə cavab vermişdi. Sonra Həzrət Peyğəmbər:

- **"Kim Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın qulu və peyğəmbəri olduğuna sidq ürəklə şəhadət edərsə, Allah onu cəhənnəmə haram edər", -** buyurmuşdur. Muaz:

- Ey Allahın Rəsulu, müsəlmanları sevindirmək üçün onları bu xəbərlə müjdələyimmi? - deyə izin istəmiş, Peyğəmbər *səllallahu əleyhi və səlləm* də:

- **"Belə etsən, buna güvənərək** (xeyirli işlər görməkdə) **tənbəllik edərlər", -** buyurmuşdu.

Muaz (İbn Cəbəl) belə bir məlumatı gizlətməyin günahından qurtulmaq üçün bu xəbəri vəfatına yaxın vermişdir.

Buxari, Elm 49; Müslim, İman 53

٤١٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ ، أَوْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ، رَضِيَ اللَّهُ عَنْهُمَا ـ شَكَّ الرَّاوِي ، وَلاَ يَضُرُّ الشَّكُّ فِي عَيْنِ الصَّحَابِيِّ ، لِأَنَّهُمْ كُلَّهُمْ عُدُولٌ: لَمَّا كَانَ يَوْمُ غَزْوَةِ تَبُوكَ أَصَابَ النَّاسَ مَجَاعَةٌ ، فَقَالُوا: يَا رَسُولَ اللَّهِ ، لَوْ أَذِنْتَ لَنَا ، فَنَحَرْنَا نَوَاضِحَنَا ، فَأَكَلْنَا وَادَّهَنَّا. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «اِفْعَلُوا». فَجَاءَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنْ فَعَلْتَ قَلَّ الظَّهْرُ ، ولَكِنِ ادْعُهُمْ بِفَضْلِ أَزْوَادِهِمْ ، ثُمَّ ادْعُ اللَّهَ لَهُمْ عَلَيْهَا بِالْبَرَكَةِ ، لَعَلَّ اللَّهَ أَنْ يَجْعَلَ لَهُمْ فِي ذَلِكَ الْبَرَكَةَ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «نَعَمْ». فَدَعَا بِنِطْعٍ فَبَسَطَهُ ، ثُمَّ دَعَا بِفَضْلِ أَزْوَادِهِمْ ، فَجَعَلَ الرَّجُلُ يَجِيءُ بِكَفِّ ذُرَةٍ ، وَيَجِيءُ الْآخَرُ بِكَفِّ تَمْرٍ ، وَيَجِيءُ الْآخَرُ بِكِسْرَةٍ، حَتَّى اجْتَمَعَ عَلَى النِّطْعِ مِنْ ذَلِكَ شَيْءٌ يَسِيرٌ ، فَدَعَا رَسُولُ اللَّهِ ﷺ بِالْبَرَكَةِ ، ثُمَّ قَالَ: «خُذُوا فِي أَوْعِيَتِكُمْ» ، فَأَخَذُوا فِي أَوْعِيَتِهِمْ حَتَّى مَا تَرَكُوا فِي الْعَسْكَرِ وِعَاءً إِلاَّ مَلَؤُوهُ ، وَأَكَلُوا حَتَّى شَبِعُوا ، وَفَضَلَ فَضْلَةٌ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَأَنِّي رَسُولُ اللَّهِ ، لاَ يَلْقَى اللَّهَ بِهِمَا عَبْدٌ غَيْرُ شَاكٍّ فَيُحْجَبَ عَنِ الْجَنَّةِ» . رَوَاهُ مُسْلِمٌ .

417. Əbu Hüreyrə və ya Əbu Səid əl-Xudri *radiyallahu anhumədən* (ravi burada hədisin bu iki səhabədən hansı tərəfindən rəvayət edildiyi xüsusunda tərəddüd etmişdir. Səhabələrin hamısı adil olduğu üçün onların kimliyi haqqında tərəddüd hədisin səhhətinə zərər verməz) rəvayət edildiyinə görə belə demişdir:

Səhabələr Təbuk Qəzvəsində şiddətli aclıq çəkdikləri üçün:

- Ey Allahın Rəsulu, izin versəniz dəvələrimizi kəsib yeyər və piy əldə edərdik,- dedilər. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Yaxşı, elə edin!" -** buyurdu. Bu zaman Həzrət Ömər gəldi və belə dedi:

- Ey Allahın Rəsulu, əgər dəvələrini kəsmələrinə izin versən, orduda minik azalar. Lakin (istəyirsinizsə) onlara əllərindəki azuqələrini gətirmələrini əmr edin, sonra da Allaha dua edərək bərəkət verməsini istəyin. Ümidvaram ki, Allah bərəkət ehsan edər.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Yaxşı, elə edək!" -** buyurdu və dəridən hazırlanmış bir örtük gətizdirib yerə sərdirdi. Sonra da səhabələrə əllərində qalan ərzaqları gətirmələrini əmr etdi.

Əsgərlərdən kimisi bir ovuc darı, kimisi bir ovuc xurma, kimisi də çörək qırıntıları gətirdi. Həqiqətən örtüyün üstünə çox az şey yığılmışdı. Rəsulullah *səllallahu əleyhi və səlləm* bərəkət verməsi üçün Allaha dua etdi, sonra isə:

- **"Qablarınızı gətirib bundan götürün!" -** buyurdu. Əsgərlər qablarını doldurdular. Doldurulmayan bircə dənə də olsa qab qalmadı. Sonra doyunca yedilər, lakin yenə də xeyli yemək qaldı.

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Allahdan başqa ilah olmadığına və mənim Allahın rəsulu olduğuma şəhadət edirəm. Allahın birliyinə və Muhammədin peyğəmbərliyinə şəksiz-şübhəsiz inanmış olaraq Allaha qovuşmayan kəs mütləq cənnətdən uzaqlaşdırılır"**.

Müslim, İman 45

❁

٤١٨ ـ عَنْ عِتْبَانَ بْنِ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُ ـ وَهُوَ مِمَّنْ شَهِدَ بَدْرًا ـ قَالَ: كُنْتُ أُصَلِّي لِقَوْمِي بَنِي سَالِمٍ ، وَكَانَ يَحُولُ بَيْنِي وَبَيْنَهُمْ وَادٍ إِذَا جَاءَتِ الْأَمْطَارُ ، فَيَشُقُّ عَلَيَّ اجْتِيَازُهُ قِبَلَ مَسْجِدِهِمْ ، فَجِئْتُ رَسُولَ اللَّهِ ﷺ فَقُلْتُ لَهُ: إِنِّي أَنْكَرْتُ بَصَرِي ، وَإِنَّ الْوَادِيَ الَّذِي بَيْنِي وَبَيْنَ قَوْمِي يَسِيلُ إِذَا جَاءَتِ الْأَمْطَارُ ، فَيَشُقُّ عَلَيَّ اجْتِيَازُهُ ، فَوَدِدْتُ أَنَّكَ تَأْتِي فَتُصَلِّيَ فِي بَيْتِي مَكَانًا أَتَّخِذُهُ مُصَلًّى. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «سَأَفْعَلُ». فَغَدَا رَسُولُ اللَّهِ وَأَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ بَعْدَمَا اشْتَدَّ النَّهَارُ ، وَاسْتَأْذَنَ رَسُولُ اللَّهِ ﷺ فَأَذِنْتُ لَهُ ، فَلَمْ يَجْلِسْ حَتَّى قَالَ: «أَيْنَ تُحِبُّ أَنْ أُصَلِّيَ مِنْ بَيْتِكَ ؟» فَأَشَرْتُ لَهُ إِلَى الْمَكَانِ الَّذِي أُحِبُّ أَنْ يُصَلِّيَ فِيه ، فَقَامَ

رَسُولُ اللَّهِ ﷺ فَكَبَّرَ وَصَفَفْنَا وَرَاءَهُ ، فَصَلَّى رَكْعَتَيْنِ ، ثُمَّ سَلَّمَ ، وَسَلَّمْنَا حِينَ سَلَّمَ ، فَحَبَسْتُهُ عَلَى خَزِيرَةٍ تُصْنَعُ لَهُ ، فَسَمِعَ أَهْلُ الدَّارِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ فِي بَيْتِي ، فَثَابَ رِجَالٌ مِنْهُمْ ، حَتَّى كَثُرَ الرِّجَالُ فِي الْبَيْتِ ، فَقَالَ رَجُلٌ: مَا فَعَلَ مَالِكٌ؟ لاَ أَرَاهُ ! فَقَالَ رَجُلٌ: ذَلِكَ مُنَافِقٌ لاَ يُحِبُّ اللَّهَ وَرَسُولَهُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَقُلْ ذَلِكَ ، أَلاَ تَرَاهُ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، يَبْتَغِي بِذَلِكَ وَجْهَ اللَّهِ تَعَالَى ؟». فَقَالَ: اَللَّهُ وَرَسُولُهُ أَعْلَمُ. أَمَّا نَحْنُ فَوَ اللَّهِ مَا نَرَى وُدَّهُ وَلاَ حَدِيثَهُ إِلاَّ إِلَى الْمُنَافِقِينَ ! فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «فَإِنَّ اللَّهَ قَدْ حَرَّمَ عَلَى النَّارِ مَنْ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، يَبْتَغِي بِذَلِكَ وَجْهَ اللَّهِ». مُتَّفَقٌ عَلَيْهِ .

418. Bədir döyüşündə iştirak etmiş səhabələrdən İtban bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Öz qəbiləm olan Salim oğullarına imamlıq edirdim. Mənim (evim) lə onların arasında bir vadi vardı. Yağış yağanda vadidən keçib onların məscidinə getməkdə çətinlik çəkirdim. Bu səbəblə Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəlib belə dedim:

- Ey Allahın Rəsulu, gözlərim yaxşı seçmir. Yağış yağanda onlarla aramızda olan vadinin dərəsi daşır, onu keçməkdə çətinlik çəkirəm. Evimə təşrif edib hər hansı bir yerində namaz qılsanız, mən də həmin yeri namazgah etsəm çox yaxşı olar.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- "(İnşallah) **bu arzunu həyata keçirərəm", -** buyurdu.

Ertəsi gün günəş yüksəldiyi vaxt Rəsulullah *səllallahu əleyhi və səlləm* Əbu Bəkr ilə birlikdə bizə gəldi. İçəri girmək üçün izin istədi. İzin verdikdən sonra içəri girdi və oturmadan:

- **"Evinin harasında namaz qılmağımı istəyirsən?" -** deyə soruşdu. Namaz qılmasını istədiyim yeri göstərdim. Rəsulullah *səllallahu əleyhi və səlləm* orada təkbir alaraq namaza başladı. Biz də arxasında səf tutduq. İki rükət namaz qılandan sonra salam verdi, biz də verdik. Namazı qıldıqdan sonra Rəsulullah *səllallahu əleyhi və səlləmi* onun üçün hazırlanmış **hazirə** yeməyi üçün ləngitdik. Rəsulullah *səllallahu əleyhi və*

səlləmin bizdə olduğunu eşidən məhəllə camaatından bir qrup kişi bizə gəldi. Evə xeyli adam toplaşdı. Aralarından bir nəfər:

- Malik (bin Duhşum) nə etdi? Onu görə bilmirəm,- dedi. Başqa bir nəfər:

- O, Allah və Rəsulunu sevməyən münafiq adamdır,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* dərhal müdaxilə edərək:

- **"Elə demə, görmürsənmi o, Allahın rizasını istəyərək Lə iləhə illəllah deyir", -** buyurdu.

Bu zaman həmin adam:

- Allah və Rəsulu daha yaxşı bilir. Ancaq Allaha and olsun ki, biz onun münafiqləri sevdiyini və onlarla oturub-durduğunu görürük,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Allah-Təala rizasını ümid edərək "Lə iləhə illəllah" deyən adamı cəhənnəmə haram qılmışdır".**

Buxari, Salət 45, 46, Azan 4, 5, 153, Təhəccüd 25, 33, 36, Məğazi, 12, 13, Ətimə 15, Riqaq 6, İsabətul-Murtəddin 9; Müslim, İman 54, 55, Məsacid 263, 264, 265.

Həmçinin bax. Nəsai, İmamə 10, 46, Səhv 73; İbn Macə, Məsacid 8

❁

٤١٩ ـ عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَدِمَ رَسُولُ اللَّهِ ﷺ بِسَبْيٍ، فَإِذَا امْرَأَةٌ مِنَ السَّبْيِ تَسْعَى ، إِذْ وَجَدَتْ صَبِيًّا فِي السَّبْيِ أَخَذَتْهُ فَأَلْزَقَتْهُ بِبَطْنِهَا فَأَرْضَعَتْهُ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَتَرَوْنَ هَذِهِ الْمَرْأَةَ طَارِحَةً وَلَدَهَا فِي النَّارِ؟» قُلْنَا: لاَ وَاللَّهِ. فَقَالَ: «اَللَّهُ أَرْحَمُ بِعِبَادِهِ مِنْ هَذِهِ بِوَلَدِهَا». مُتَّفَقٌ عَلَيْهِ.

419. Ömər bin Xəttab *radiyallahu anh* belə dedi:

"(Bir dəfə) Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna bir qrup əsir gətirdilər. Onların arasında ayrı düşdüyü uşağının həsrəti ilə qarşısına çıxan hər uşağı qucaqlayan, bağrına basıb əmizdirən bir qadın da vardı. Rəsulullah *səllallahu əleyhi və səlləm* yanındakılara (həmin qadını göstərib):

- **“Bu qadının övladını oda atacağını ehtimal edirsiniz?” -** deyə soruşdu.

- Əsla, atmaz! - dedik.

Bu zaman Hz. Peyğəmbər:

- **“Allah da qullarına bu qadının balasına olan şəfqətindən daha mərhəmətlidir”, -** buyurdu.

Buxari, ədəb 18; Müslim, Tövbə 22. Həmçnin bax. Əbu Davud, Cənaiz 1; İbn Macə, Zöhd 35

❁

٤٢٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لَمَّا خَلَقَ اللَّهُ الْخَلْقَ كَتَبَ فِي كِتَابٍ فَهُوَ عِنْدَهُ فَوْقَ الْعَرْشِ: «إِنَّ رَحْمَتِي تَغْلِبُ غَضَبِي».

وَفِي رِوَايَةٍ: «غَلَبَتْ غَضَبِي».

وَفِي رِوَايَةٍ: «سَبَقَتْ غَضَبِي». مُتَّفَقٌ عَلَيْهِ .

420. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

“Allah varlıqları yaratdığı zaman öz qatında ərşin üstündə olan kitabına “Həqiqətən rəhmətim qəzəbimə üstün gəlir” yazmışdır.”

Bir rəvayətdə (Buxari, Bədul-xalq 1) **“Rəhmətim qəzəbimə üstün gəldi”**

Başqa bir rəvayətdə isə (Buxari, Tövhid 22, 28, 55; Müslim, Tövbə 15) **“Rəhmətim qəzəbimi keçdi”** ifadələri yer alır.

Buxari, Tövhid 15, 22, 28, 55, Bədul-xalq 1; Müslim, Tövbə 14-16. Həmçinin bax. İbn Macə, Zöhd 35

❁

٤٢١ ـ وَعَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «جَعَلَ اللَّهُ الرَّحْمَةَ مِئَةَ جُزْءٍ ، فَأَمْسَكَ عِنْدَهُ تِسْعَةً وَتِسْعِينَ ، وَأَنْزَلَ فِي الْأَرْضِ جُزْءًا وَاحِدًا ، فَمِنْ ذَلِكَ الْجُزْءِ يَتَرَاحَمُ الْخَلَائِقُ ، حَتَّى تَرْفَعُ الدَّابَّةُ حَافِرَهَا عَنْ وَلَدِهَا خَشْيَةَ أَنْ تُصِيبَهُ».

وَفِي رِوَايَةٍ: «إِنَّ لِلَّهِ تَعَالَى مِئَةَ رَحْمَةٍ أَنْزَلَ مِنْهَا رَحْمَةً وَاحِدَةً بَيْنَ الْجِنِّ وَالْإِنْسِ وَالْبَهَائِمِ وَالْهَوَامِّ ، فَبِهَا يَتَعَاطَفُونَ ، وَبِهَا يَتَرَاحَمُونَ ، وَبِهَا تَعْطِفُ الْوَحْشُ عَلَى وَلَدِهَا ! وَأَخَّرَ اللَّهُ تَعَالَى تِسْعًا وَتِسْعِينَ رَحْمَةً يَرْحَمُ بِهَا عِبَادَهُ يَوْمَ الْقِيَامَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

رَوَاهُ مُسْلِمٌ أَيْضًا مِنْ رِوَايَةِ سَلْمَانَ الْفَارِسِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ لِلَّهِ تَعَالَى مِئَةَ رَحْمَةٍ ، فَمِنْهَا رَحْمَةٌ يَتَرَاحَمُ بِهَا الْخَلْقُ بَيْنَهُمْ ، وَتِسْعٌ وَتِسْعُونَ لِيَوْمِ الْقِيَامَةِ».

وَفِي رِوَايَةٍ: «إِنَّ اللَّهَ تَعَالَى خَلَقَ ـ يَوْمَ خَلَقَ السَّمَوَاتِ وَالْأَرْضَ ـ مِئَةَ رَحْمَةٍ ، كُلُّ رَحْمَةٍ طِبَاقُ مَا بَيْنَ السَّمَاءِ إِلَى الْأَرْضِ ، فَجَعَلَ مِنْهَا فِي الْأَرْضِ رَحْمَةً ، فِيهَا تَعْطِفُ الْوَالِدَةُ عَلَى وَلَدِهَا ، وَالْوَحْشُ وَالطَّيْرُ بَعْضُهَا عَلَى بَعْضٍ ، فَإِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ أَكْمَلَهَا بِهَذِهِ الرَّحْمَةِ» !

421. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə "Mən Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə buyurarkən eşitdim" demişdir:

"Allah rəhmətini yüz hissəyə bölmüşdür. Doxsan doqquz hissəsini öz qatında saxlamış, birini yer üzünə endirmişdir. Məhz varlıqlar həmin bir parça rəhmət səbəbi ilə bir-birinə mərhəmət edirlər. Hətta heyvanlar balasını tapdalamaqdan qorxaraq ayağını yuxarı qaldırırlar"

Başqa bir rəvayətdə (Müslim, Tövbə 19) belə buyurulmuşdur:

"Allah-Təalanın yüz rəhməti vardır. Onlardan birini insanlar, cinlər, heyvanlar və böcəklər arasına endirmişdir. Onlar bu səbəblə bir-birilərini sevər və bir-birilərinə mərhəmət edərlər. Vəhşi heyvan bu səbəblə balasına şəfqət göstərir. Allah digər doxsan doqquz rəhmətini qiyamət günü qullarına mərhəmət etmək üçün yanında saxlamışdır".

Buxari, Ədəb 19; Müslim, Tövbə 17, 19. Həmçinin bax. Tirmizi, Dəavat 99; İbn Macə, Zöhd 35

Müslimin Salman Farisidən nəql etdiyi başqa bir hədisdə (Tövbə 20) Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Şübhə yoxdur ki, Allah-Təalanın yüz rəhməti vardır. Həmin rəhmətdən biri səbəbi ilə varlıqlar bir-birilərinə mərhəmət edərlər. Doxsan doqquzu isə qiyamət gününə saxlanmışdır".

Müslimdə keçən başqa bir rəvayətdə (Tövbə 21) Hz. Peyğəmbər belə buyurmuşdur:

"Allah göyləri və yeri yaratdığı gün yüz rəhmət xəlq etmişdir. Hər bir rəhmət göylərlə yerin arasını dolduracaq qədər genişdir. Onlardan sadəcə birini yer üzünə endirmişdir. Məhz bu sayədə ana balasına şəfqət göstərər. Yırtıcı heyvanlar və quşlar bunun nəticəsində bir-birilərinə mərhəmət edərlər. Allah-Təala qiyamət günü həmin bir rəhmətini doxsan doqquza qataraq rəhmətini yüzə tamamlayacaqdır".

❁

٤٢٢ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ فِيمَا يَحْكِي عَنْ رَبِّهِ تَبَارَكَ وَتَعَالَى ، قَالَ: « أَذْنَبَ عَبْدٌ ذَنْبًا فَقَالَ: اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي . فَقَالَ اللَّهُ تَبَارَكَ وَتَعَالَى: أَذْنَبَ عَبْدِي ذَنْبًا فَعَلِمَ أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ وَيَأْخُذُ بِالذَّنْبِ ، ثُمَّ عَادَ فَأَذْنَبَ فَقَالَ: أَيْ رَبِّ ، اغْفِرْ لِي ذَنْبِي . فَقَالَ تَبَارَكَ وَتَعَالَى: أَذْنَبَ عَبْدِي ذَنْبًا فَعَلِمَ أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ وَيَأْخُذُ بِالذَّنْبِ. ثُمَّ عَادَ فَأَذْنَبَ فَقَالَ: أَيْ رَبِّ اغْفِرْ لِي ذَنْبِي ، فَقَالَ تَبَارَكَ وَتَعَالَى: أَذْنَبَ عَبْدِي ذَنْبًا فَعَلِمَ أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ وَيَأْخُذُ بِالذَّنْبِ، قَدْ غَفَرْتُ لِعَبْدِي فَلْيَفْعَلْ مَا شَاءَ». مُتَّفَقٌ عَلَيْهِ .

422. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* Allah Təbərakə və Təaladan nəql edərək belə buyurmuşdur:

Hər hansı bir qul bir günah işlədikdən sonra **"Allahım, günahımı bağışla"** dedimi, Allah Təbərakə və Təala:

- **"Qulum bir günah işlədi, lakin günahı bağışlayacaq və ya bu səbəbdən onu hesaba çəkəcək bir Rəbbi olduğunu bildi", -** deyər.

Sonra qul yenə günah işləyər və "Rəbbim, günahımı bağışla" dedimi, Allah Təbərakə və Təala:

- **"Qulum bir günah işlədi, lakin günahı bağışlayacaq və ya bu səbəbdən onu hesaba çəkəcək bir Rəbbi olduğunu bildi", -** deyər.

Sonra qul təkrar günah işləyər və "Rəbbim, günahımı bağışla" dedimi, Allah Təbərakə və Təala:

- **"Qulum bir günah işlədi, lakin günahı bağışlayacaq və ya bu səbəbdən onu hesaba çəkəcək bir Rəbbi olduğunu bildi. Mən qulumu bağışladım, artıq istədiyini etsin", -** buyurar.

Buxari, Tövhid 35; Müslim, Tövbə 29

❁

٤٢٣ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «وَالَّذِي نَفْسِي بِيَدِهِ ، لَوْ لَمْ تُذْنِبُوا لَذَهَبَ اللَّهُ بِكُمْ ، وَجَاءَ بِقَوْمٍ يُذْنِبُونَ فَيَسْتَغْفِرُونَ اللَّهَ تَعَالَى ، فَيَغْفِرُ لَهُمْ » .

رَوَاهُ مُسْلِمٌ .

423. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, siz heç günah işləməmiş olsaydınız, Allah sizi yox edər, yerinizə günah işləyib Allahdan bağışlanma diləyəcək bir qövm gətirər və onları bağışlayardı".

Müslim, Tövbə 11

❁

٤٢٤ ـ عَنْ أَبِي أَيُّوبَ الْأَنْصَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «لَوْلاَ أَنَّكُمْ تُذْنِبُونَ لَخَلَقَ اللَّهُ خَلْقًا يُذْنِبُونَ فَيَسْتَغْفِرُونَ فَيَغْفِرُ لَهُمْ» .

رَوَاهُ مُسْلِمٌ .

424. Əbu Əyyub Xalid bin Zeyd *radiyallahu anhdan* rəvayət edildiyinə görə "mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim", - demişdir:

“Əgər siz heç günah işləməsəydiniz, Allah günah işləyən, günahlarına tövbə və istiğfar edən bir qövm yaradar, onları bağışlayardı”.

Müslim, Tövbə 9, 10

❁

٤٢٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنَّا قُعُودًا مَعَ رَسُولِ اللَّهِ ﷺ ، مَعَنَا أَبُو بَكْرٍ وَعُمَرُ رَضِيَ اللَّهُ عَنْهُمَا فِي نَفَرٍ ، فَقَامَ رَسُولُ اللَّهِ ﷺ مِنْ بَيْنِ أَظْهُرِنَا فَأَبْطَأَ عَلَيْنَا ، فَخَشِينَا أَنْ يُقْتَطَعَ دُونَنَا ، فَفَزِعْنَا فَقُمْنَا ، فَكُنْتُ أَوَّلَ مَنْ فَزِعَ ، فَخَرَجْتُ أَبْتَغِي رَسُولَ اللَّهِ ﷺ حَتَّى أَتَيْتُ حَائِطًا لِلْأَنْصَارِ ؛ وَذَكَرَ الْحَدِيثَ بِطُولِهِ ، إِلَى قَوْلِهِ: فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «اذْهَبْ ، فَمَنْ لَقِيتَ وَرَاءَ هَذَا الْحَائِطِ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، مُسْتَيْقِنًا بِهَا قَلْبُهُ ، فَبَشِّرْهُ بِالْجَنَّةِ».

رَوَاهُ مُسْلِمٌ.

425. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Aramızda Əbu Bəkr, Ömər və bir neçə nəfər olduğu halda Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə oturmuşduq. Bir ara Rəsulullah *səllallahu əleyhi və səlləm* aramızdan ayrıldı. Geri qayıtmaqda gecikdiyi üçün nə isə baş verməsindən təlaşa düşdük. Bu təlaş hissini keçirən ilk adam mən idim. Yerimdən qalxıb onu axtarmağa başladım. Axtara-axtara mədinəlilərə aid bir bağçaya gəlib çıxdım. -Əbu Hüreyrə hadisəni başdan-axıra danışdı-. Ən sonda Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu xəbər verdi:

- **“Get, bu bostandan kənarda Allahdan başqa ilah olmadığına səmimi qəlblə inanaraq şəhadət gətirən kimə rastlasan ona cənnətlik olduğu müjdəsini ver!”**

Müslim, İman 52

❁

٤٢٦ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ النَّبِيَّ ﷺ تَلاَ قَوْلَ اللَّهِ عَزَّ وَجَلَّ فِي إِبْرَاهِيمَ ﷺ ﴿رَبِّ إِنَّهُنَّ أَضْلَلْنَ كَثِيرًا مِنَ النَّاسِ فَمَنْ

تَبِعَنِي فَإِنَّهُ مِنِّي﴾ الْآيَةَ ، وَقَوْلَ عِيسَى ﷺ ﴿إِنْ تُعَذِّبْهُمْ فَإِنَّهُمْ عِبَادُكَ وَإِنْ تَغْفِرْ لَهُمْ فَإِنَّكَ أَنْتَ الْعَزِيزُ الْحَكِيمُ﴾ . فَرَفَعَ يَدَيْهِ وَقَالَ: «اللَّهُمَّ أُمَّتِي أُمَّتِي» وَبَكَى ، فَقَالَ اللَّهُ عَزَّ وَجَلَّ: «يَا جِبْرِيلُ ، اذْهَبْ إِلَى مُحَمَّدٍ ـ وَرَبُّكَ أَعْلَمُ ـ فَسَلْهُ مَا يُبْكِيكَ ؟ فَأَتَاهُ جِبْرِيلُ فَأَخْبَرَهُ رَسُولُ اللَّهِ ﷺ بِمَا قَالَ ـ وَهُوَ أَعْلَمُ ـ فَقَالَ اللَّهُ تَعَالَى: «يَا جِبْرِيلُ ، اذْهَبْ إِلَى مُحَمَّدٍ فَقُلْ: إِنَّا سَنُرْضِيكَ فِي أُمَّتِكَ وَلاَ نَسُوؤُكَ» .

رَوَاهُ مُسْلِمٌ .

426. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* Allah-Təalanın İbrahim əleyhissalam haqqındakı:

"Ey Rəbbim! Onlar (bütlər)**, həqiqətən, çox insanı** (haqq yoldan) **azdırıblar. İndi kim arxamca gəlsə, o, şübhəsiz ki, məndəndir"** (İbrahim 36) ayəsini və İsa əleyhissalamın:

"Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən"məalındakı sözünü oxudu, əllərini qaldırdı və:

"Allahım, ümmətimi qoru, onların halına acı!" - deyə dua etdi və ağladı.

Allah-Təala:

- "Ey Cəbrayıl, -Rəbbin hər şeyi daha yaxşı bilir- get Muhammədən nə üçün ağladığını soruş! - buyurdu. Cəbrayıl gəldi, Rəsulullah *səllallahu əleyhi və səlləm* də ümməti üçün keçirdiyi narahatlıq səbəbi ilə ağladığını söylədi. Onsuz da Allah hər şeyi ən yaxşı biləndir. (Cəbrayıl qayıdıb vəziyyəti xəbər verdikdə) Allah-Təala:

- "Ey Cəbrayıl, Muhammədin yanına get və bu sözümü ona çatdır!" - buyurdu:

"Ümmətin mövzusunda səni razı edəcəyik və əsla kədərləndirməyəcəyik".

Müslim, İman 346

❁

٤٢٧ ـ عَنْ مُعَاذِ بْنِ جَبَلٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنْتُ رِدْفَ النَّبِيِّ ﷺ عَلَى حِمَارٍ

فَقَالَ: «يَا مُعَاذُ، هَلْ تَدْرِي مَا حَقُّ اللَّهِ عَلَى عِبَادِهِ، وَمَا حَقُّ الْعِبَادِ عَلَى اللَّهِ ؟» . قُلْتُ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ . قَالَ: «فَإِنَّ حَقَّ اللَّهِ عَلَى الْعِبَادِ أَنْ يَعْبُدُوهُ، وَلاَ يُشْرِكُوا بِهِ شَيْئًا، وَحَقَّ الْعِبَادِ عَلَى اللَّهِ أَلاَّ يُعَذِّبَ مَنْ لاَ يُشْرِكُ بِهِ شَيْئًا». فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَفَلاَ أُبَشِّرُ النَّاسَ ؟ قَالَ: «لاَ تُبَشِّرْهُمْ فَيَتَّكِلُوا». مُتَّفَقٌ عَلَيْهِ .

427. Muaz bin Cəbəl *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Mən Rəsulullahın tərkində, uzunqulağın belində idim. Hz. Peyğəmbər:

- **"Ey Muaz bilirsənmi, Allahın qulları üzərində, qulların da Allah üzərində nə haqqı var?" -** buyurdu. Mən:

- Allah və Rəsulu daha yaxşı bilir,- dedim. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Allahın qulları üzərindəki haqqı onların yalnız Allaha qulluq etmələri və Ona heç nəyi ortaq qoşmamalarıdır. Qulların da Allah üzərindəki haqqı ona heç nəyi şərik qoşmayanlara əzab etməməsidir", -** buyurdu. Mən o dəqiqə:

- Ey Allahın Rəsulu, insanları bununla müjdələyimmi? - dedim.

- **"Müjdələmə, onlar buna arxayın olub tənbəllik edərlər", -** buyurdu.

Buxari, Cihad 46; Müslim, İman 48, 49. Həmçinin bax. Buxari, Libas 101, İstizan 30, Tövhid 1; Tirmizi, İman 18; İbn Macə, Zöhd 35

❁

٤٢٨ ـ عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْمُسْلِمُ إِذَا سُئِلَ فِي الْقَبْرِ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، فَذَلِكَ قَوْلُهُ تَعَالَى: ﴿يُثَبِّتُ اللَّهُ الَّذِينَ آمَنُوا بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الْآخِرَةِ﴾. مُتَّفَقٌ عَلَيْهِ .

428. Bəra bin Azib *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Müsəlman qəbirdə hesaba çəkildiyi zaman Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın rəsulu olduğuna şəhadət edər. Məhz bu şəhadət Qurani-Kərimdəki *"Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə sabitqədəm edər"* (İbrahim 27) **ayəsinin işarə etdiyi mənadır"**.

Buxari, Cənaiz 87, Təfsiru surə (14), 2; Müslim, Cənnət 73

❁

٤٢٩ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «إِنَّ الْكَافِرَ إِذَا عَمِلَ حَسَنَةً أُطْعِمَ بِهَا طُعْمَةً مِنَ الدُّنْيَا ، وَأَمَّا الْمُؤْمِنُ فَإِنَّ اللَّهَ تَعَالَى يَدَّخِرُ لَهُ حَسَنَاتِهِ فِي الْآخِرَةِ ، وَيُعْقِبُهُ رِزْقًا فِي الدُّنْيَا عَلَى طَاعَتِهِ».

وَفِي رِوَايَةٍ : «إِنَّ اللَّهَ لاَ يَظْلِمُ مُؤْمِنًا حَسَنَةً يُعْطَى بِهَا فِي الدُّنْيَا ، وَيُجْزَى بِهَا فِي الْآخِرَةِ . وَأَمَّا الْكَافِرُ فَيُطْعَمُ بِحَسَنَاتِ مَا عَمِلَ بِهَا لِلَّهِ تَعَالَى فِي الدُّنْيَا ، حَتَّى إِذَا أَفْضَى إِلَى الْآخِرَةِ لَمْ يَكُنْ لَهُ حَسَنَةٌ يُجْزَى بِهَا» . رَوَاهُ مُسْلِمٌ .

429. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Bu bir həqiqətdir ki, kafir yaxşılıq etdiyi zaman ona bunun əvəzində dünyalıq bir nemət verilər. Möminə gəldikdə isə Allah onun yaxşılıqlarını axirətə saxlayar, dünyada da etdiyi qulluğa görə ruzi verər".

Müslim, Münafiqin 57

Bir rəvayətə görə də (Müslim, Münafiqin 56) Rəsuli-Əkrəm belə buyurmuşdur:

"Şübhəsiz ki, Allah heç bir möminin yaxşı əməlini qarşılıqsız qoymaz. Mömin etdiyi yaxşılıq səbəbi ilə həm dünyada, həm də axirətdə mükafatlandırılar. Kafirə gəldikdə isə dünyada Allah üçün etdiyi yaxşılıqların əvəzində ona ruzi verilər. Axirətdə isə mükafata layiq görüləcək heç bir əməli qalmaz".

❁

٤٣٠ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَثَلُ الصَّلَوَاتِ الْخَمْسِ كَمَثَلِ نَهَرٍ جَارٍ غَمْرٍ عَلَى بَابِ أَحَدِكُمْ ، يَغْتَسِلُ مِنْهُ كُلَّ يَوْمٍ خَمْسَ مَرَّاتٍ» . رَوَاهُ مُسْلِمٌ .

430. Cabir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Beş vaxt namaz sizdən birinizin qapısının ağzından gurul-gurul axan və gündə beş dəfə içində yuyunduğu çaya bənzəyir".

Müslim, Məsacid 284

❁

٤٣١ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَا مِنْ رَجُلٍ مُسْلِمٍ يَمُوتُ فَيَقُومُ عَلَى جَنَازَتِهِ أَرْبَعُونَ رَجُلاً لاَ يُشْرِكُونَ بِاللَّهِ شَيْئًا إِلاَّ شَفَّعَهُمُ اللَّهُ فِيهِ». رَوَاهُ مُسْلِمٌ .

431. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim demişdir:

"Hansı müsəlmanın cənazəsində Allaha şərik qoşmayan qırx kişi iştirak edər və namaz qılarsa, Allah onların ölü haqqındakı şəfaətini mütləq qəbul edər".

Müslim, Cənaiz 59

❁

٤٣٢ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنَّا مَعَ رَسُولِ اللَّهِ ﷺ فِي قُبَّةٍ نَحْوًا مِنْ أَرْبَعِينَ ، فَقَالَ: «أَتَرْضَونَ أَنْ تَكُونُوا رُبُعَ أَهْلِ الْجَنَّةِ ؟» . قُلْنَا: نَعَمْ. «أَتَرْضَوْنَ أَنْ تَكُونُوا ثُلُثَ أَهْلِ الْجَنَّةِ ؟» . قُلْنَا: نَعَمْ . قَالَ: «وَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ ، إِنِّي لَأَرْجُو أَنْ تَكُونُوا نِصْفَ أَهْلِ الْجَنَّةِ ، وَذَلِكَ أَنَّ الْجَنَّةَ لاَ يَدْخُلُهَا إِلاَّ نَفْسٌ مُسْلِمَةٌ ، وَمَا أَنْتُمْ فِي أَهْلِ الشِّرْكِ إِلاَّ كَالشَّعْرَةِ الْبَيْضَاءِ فِي جِلْدِ الثَّوْرِ الْأَسْوَدِ ، أَوْ كَالشَّعْرَةِ السَّوْدَاءِ فِي جِلْدِ الثَّوْرِ الْأَحْمَرِ» . مُتَّفَقٌ عَلَيْهِ .

432. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Biz qırx nəfər dəridən hazırlanan çadırda Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə idik. Hz. Peyğəmbər bizdən:

- **"Siz (müsəlmanlar) cənnətliklərin dörddə biri olmağa razısınızmı?" -** deyə soruşdu. Biz:

- Bəli,- dedik. Hz. Peyğəmbər:

- **"Cənnətliklərin üçdə biri olmağa razısınızmı?" -** buyurdu. Biz:

- Bəli,- dedik.

Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Muhammədin canı qüdrət əlində olan Allaha and içirəm ki, mən sizin cənnətliklərin yarısı olacağınızı ümid edirəm. Çünki müsəlman olmayan cənnətə girə bilməz. Siz müşriklərə nisbətdə qara öküzün dərisindəki ağ xal, yaxud da qızılı rəngli öküzün dərisindəki qara xal kimisiniz".**

Buxari, Riqaq 45, Ənbiya 7, Əyman 3, Təfsiru surə (22), 1; Müslim, İman 377. Həmçinin bax. Tirmizi, Cənnət 13; İbn Macə, Zöhd 34

❁

٤٣٣ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ :
«إِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ دَفَعَ اللَّهُ إِلَى كُلِّ مُسْلِمٍ يَهُودِيًّا أَوْ نَصْرَانِيًّا ، فَيَقُولُ: هَذَا فِكَاكُكَ مِنَ النَّارِ».

وَفِي رِوَايَةٍ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «يَجِيءُ يَوْمَ الْقِيَامَةِ نَاسٌ مِنَ الْمُسْلِمِينَ بِذُنُوبٍ أَمْثَالِ الْجِبَالِ يَغْفِرُهَا اللَّهُ لَهُمْ» . رَوَاهُ مُسْلِمٌ .

433. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Qiyamət günü Allah hər müsəlmana bir yəhudi və ya xristian verər və "bu sənin cəhənnəmdən qurtuluş fidyəndir", - buyurar".

Müslim, Tövbə 49

Müslimin Əbu Musa *radiyallahu anhdan* gələn başqa bir rəvayətində (Tövbə 51) Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

“Qiyamət günü bəzi müsəlmanlar dağlar qədər günahla gələrlər, Allah da onları bağışlayar”.

❁

٤٣٤ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «يُدْنَى الْمُؤْمِنُ يَوْمَ الْقِيَامَةِ مِنْ رَبِّهِ حَتَّى يَضَعَ كَنَفَهُ عَلَيْهِ ، فَيُقَرِّرُهُ بِذُنُوبِهِ فَيَقُولُ: أَتَعْرِفُ ذَنْبَ كَذَا ؛ أَتَعْرِفُ دَنْبَ كَذَا ؟ فَيَقُولُ: رَبِّ أَعْرِفُ . قَالَ: فَإِنِّي قَدْ سَتَرْتُهَا عَلَيْكَ فِي الدُّنْيَا ، وَأَنَا أَغْفِرُهَا لَكَ الْيَوْمَ. فَيُعْطَى صَحِيفَةَ حَسَنَاتِهِ». مُتَّفَقٌ عَلَيْهِ .

434. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim demişdir:

“Mömin qiyamət günü Rəbbinin lütf və kərəminə o qədər yaxın olar ki, Allah onu insanlardan gizlədər və günahlarını etiraf etdirər:

- Filan günahını bilirsənmi, filan günahını bilirsənmi? - deyər.

Mömin:

- Bilirəm, ya Rəbb,- deyər. Haqq-Təala da:

- Mən bu günahlarını dünyada örtüb gizləmişdim, bu gün də bağışlayıram”, - buyurar.

Bunun üzərinə həmin adama yaxşı əməllərinin qeyd olunduğu dəftər verilər.

Buxari, Təfsiru surə (11), 4, Ədəb 60, Tövhid 36; Müslim, Tövbə 52. Həmçinin bax. İbn Macə, Müqəddimə 13.

❁

٤٣٥ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلاً أَصَابَ مِنِ امْرَأَةٍ قُبْلَةً ، فَأَتَى النَّبِيَّ ﷺ فَأَخْبَرَهُ ، فَأَنْزَلَ اللَّهُ تَعَالَى: ﴿وَأَقِمِ الصَّلاَةَ طَرَفَيِ النَّهَارِ وَزُلَفًا مِنَ اللَّيْلِ، إِنَّ الْحَسَنَاتِ يُذْهِبْنَ السَّيِّئَاتِ﴾. فَقَالَ الرَّجُلُ: أَلِي هَذَا يَا رَسُولَ اللَّهِ ؟ قَالَ: «لِجَمِيعِ أُمَّتِي كُلِّهِمْ». مُتَّفَقٌ عَلَيْهِ .

435. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Bir qadını öpən kişi Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələrək etdiyi hərəkəti ona danışdı. Bunun üzərinə Allah-Təala **"Gündüzün iki başında və gecənin (gündüzə yaxın) bəzi saatlarında namaz qıl. Həqiqətən, yaxşı əməllər pis işləri yuyub aparar"** (Hud (11), 114) ayəsini nazil etdi. O adam:

- Ey Allahın Rəsulu, bu hökm mənə aiddir? - dedi. Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Bütün ümmətimə aiddir", -** buyurdu.

Buxari, Məvaqit 4; Təfsiru surə (11), 6; Müslim, Tövbə 39-43. Həmçinin bax. Tirmizi, Təfsiru surə (11), 6

❁

٤٣٦ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، أَصَبْتُ حَدًّا فَأَقِمْهُ عَلَيَّ ، وَحَضَرَتِ الصَّلاَةُ فَصَلَّى مَعَ رَسُولِ اللَّهِ ﷺ ، فَلَمَّا قَضَى الصَّلاَةَ قَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنِّي أَصَبْتُ حَدًّا فَأَقِمْ فِيَّ كِتَابَ اللَّهِ. قَالَ: «هَلْ حَضَرْتَ مَعَنَا الصَّلاَةَ ؟ » قَالَ: نَعَمْ. قَالَ: «قَدْ غُفِرَ لَكَ» . مُتَّفَقٌ عَلَيْهِ .

436. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Ey Allahın Rəsulu, mən cəzaya layiq bir əməl işlədim, cəzamı ver! - dedi.

O əsnada namaz vaxtı girmişdi. Həmin adam Rəsulullah ilə birlikdə namaz qıldı. Namazdan sonra:

- Ey Allahın Rəsulu! Mən cəzaya layiq əməl işlədim, cəzamı ver! - dedi.

Hz. Peyğəmbər:

- **"Sən bizimlə birlikdə namaz qıldınmı?" -** buyurdu. O:

- Bəli,- dedi. Hz. Peyğəmbər də:

- **"Elə isə sən bağışlandın", -** buyurdu.

Buxari, Hüdud 27; Müslim, Tövbə 44, 45. Həmçinin bax. Əbu Davud, Hüdud 10

٤٣٧ ـ وعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ اللَّهَ لَيَرْضَى عَنِ الْعَبْدِ أَنْ يَأْكُلَ الْأَكْلَةَ ، فَيَحْمَدُهُ عَلَيْهَا ، أَوْ يَشْرَبَ الشَّرْبَةَ فَيَحْمَدُهُ عَلَيْهَا». رَوَاهُ مُسْلِمٌ .

437. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Allah-Təala qulunun nə isə yeyib-içməsindən sonra həmd etməsindən razı qalar".

Müslim, Zikr 89. Həmçinin bax. Tirmizi, Ətimə 18

❁

٤٣٨ ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ اللَّهَ تَعَالَى يَبْسُطُ يَدَهُ بِاللَّيْلِ لِيَتُوبَ مُسِيءُ النَّهَارِ ، وَيَبْسُطُ يَدَهُ بِالنَّهَارِ لِيَتُوبَ مُسِيءُ اللَّيْلِ حَتَّى تَطْلُعَ الشَّمْسُ مِنْ مَغْرِبِهَا». رَوَاهُ مُسْلِمٌ .

438. Əbu Musa *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

"Əziz və Cəlil olan Allah gündüz günah işləyənin tövbəsini qəbul etmək üçün gecə rəhmət qapısını açıq tutar, gecə günah işləyənin tövbəsini qəbul etmək üçün gündüz rəhmət qapısını açıq tutar. Bu hal günəşin qərbdən doğmasına qədər davam edər".

Müslim, Tövbə 31

❁

٤٣٩ ـ عَنْ أَبِي نَجِيحٍ عَمْرِو بْنِ عَبَسَةَ السُّلَمِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنْتُ وَأَنَا فِي الْجَاهِلِيَّةِ أَظُنُّ أَنَّ النَّاسَ عَلَى ضَلَالَةٍ ، وَأَنَّهُمْ لَيْسُوا عَلَى شَيْءٍ وَهُمْ يَعْبُدُونَ الْأَوْثَانَ ، فَسَمِعْتُ بِرَجُلٍ بِمَكَّةَ يُخْبِرُ أَخْبَارًا ، فَقَعَدْتُ عَلَى رَاحِلَتِي ، فَقَدِمْتُ عَلَيْهِ ، فَإِذَا رَسُولُ اللَّهِ ﷺ مُسْتَخْفِيًا ، جُرَآءُ عَلَيْهِ قَوْمُهُ ، فَتَلَطَّفْتُ حَتَّى دَخَلْتُ عَلَيْهِ بِمَكَّةَ ، فَقُلْتُ لَهُ: مَا أَنْتَ ؟ قَالَ: «أَنَا نَبِيٌّ». قُلْتُ: وَمَا نَبِيٌّ؟ قَالَ: «أَرْسَلَنِي

اللَّهُ». قُلْتُ: وَبِأَيِّ شَيْءٍ أَرْسَلَكَ ؟ قَالَ: «أَرْسَلَنِي بِصِلَةِ الْأَرْحَامِ ، وَكَسْرِ الْأَوْثَانِ ، وَأَنْ يُوَحَّدَ اللَّهُ لاَ يُشْرَكُ بِهِ شَيْءٌ». قُلْتُ: فَمَنْ مَعَكَ عَلَى هَذَا؟ قَالَ: «حُرٌّ وَعَبْدٌ» ـ وَمَعَهُ يَوْمَئِذٍ أَبُو بَكْرٍ وَبِلاَلٌ رَضِيَ اللَّهُ عَنْهُمَا ـ قُلْتُ: إِنِّي مُتَّبِعُكَ. قَالَ: «إِنَّكَ لَنْ تَسْتَطِيعَ ذَلِكَ يَوْمَكَ هَذَا ، أَلاَ تَرَى حَالِي وَحَالَ النَّاسِ ؟ وَلَكِنِ ارْجِعْ إِلَى أَهْلِكَ ، فَإِذَا سَمِعْتَ بِي ظَهَرْتُ فَأْتِنِي». قَالَ: فَذَهَبْتُ إِلَى أَهْلِي ، وَقَدِمَ رَسُولُ اللَّهِ ﷺ الْمَدِينَةَ ، وَكُنْتُ فِي أَهْلِي ، فَجَعَلْتُ أَتَخَبَّرُ الْأَخْبَارَ ، وَأَسْأَلُ النَّاسَ حِينَ قَدِمَ الْمَدِينَةَ ، حَتَّى قَدِمَ نَفَرٌ مِنْ أَهْلِ الْمَدِينَةَ. فَقُلْتُ: مَا فَعَلَ هَذَا الرَّجُلُ الَّذِي قَدِمَ الْمَدِينَةَ ؟ فَقَالُوا: النَّاسُ إِلَيْهِ سِرَاعٌ ، وَقَدْ أَرَادَ قَوْمُهُ قَتْلَهُ فَلَمْ يَسْتَطِيعُوا ذَلِكَ . فَقَدِمْتُ الْمَدِينَةَ فَدَخَلْتُ عَلَيْهِ ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، أَتَعْرِفُنِي ؟ قَالَ: «نَعَمْ ، أَنْتَ الَّذِي لَقِيتَنِي بِمَكَّةَ». (قَالَ) فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، أَخْبِرْنِي عَمَّا عَلَّمَكَ اللَّهُ وَأَجْهَلُهُ ، أَخْبِرْنِي عَنِ الصَّلاَةِ ؟ قَالَ: «صَلِّ صَلاَةَ الصُّبْحِ ، ثُمَّ اقْصُرْ عَنِ الصَّلاَةِ حَتَّى تَرْتَفِعَ الشَّمْسُ قِيدَ رُمْحٍ ، فَإِنَّهَا تَطْلُعُ حِينَ تَطْلُعُ بَيْنَ قَرْنَيْ شَيْطَانٍ ، وَحِينَئِذٍ يَسْجُدُ لَهَا الْكُفَّارُ ، ثُمَّ صَلِّ فَإِنَّ الصَّلاَةَ مَشْهُودَةٌ مَحْضُورَةٌ حَتَّى يَسْتَقِلَّ الظِّلُّ بِالرُّمْحِ ، ثُمَّ اقْصُرْ عَنِ الصَّلاَةِ فَإِنَّهُ حِينَئِذٍ تُسْجَرُ جَهَنَّمُ ، فَإِذَا أَقْبَلَ الْفَيْءُ فَصَلِّ ، فَإِنَّ الصَّلاَةَ مَشْهُودَةٌ مَحْضُورَةٌ حَتَّى تُصَلِّيَ الْعَصْرَ ، ثُمَّ اقْصُرْ عَنِ الصَّلاَةِ حَتَّى تَغْرُبَ الشَّمْسُ ، فَإِنَّهَا تَغْرُبُ بَيْنَ قَرْنَيْ شَيْطَانٍ ، وَحِينَئِذٍ يَسْجُدُ لَهَا الْكُفَّارُ». (قَالَ) فَقُلْتُ: يَا نَبِيَّ اللَّهِ ، فَالْوُضُوءُ حَدِّثْنِي عَنْهُ ؟ فَقَالَ: «مَا مِنْكُمْ رَجُلٌ يُقَرِّبُ وَضُوءَهُ فَيَتَمَضْمَضُ وَيَسْتَنْشِقُ فَيَسْتَنْثِرُ إِلاَّ خَرَّتْ خَطَايَا وَجْهِهِ وَفِيهِ وَخَيَاشِيمِهِ ، ثُمَّ إِذَا غَسَلَ وَجْهَهُ كَمَا أَمَرَهُ اللَّهُ إِلاَّ خَرَّتْ خَطَايَا وَجْهِهِ مِنْ أَطْرَافِ لِحْيَتِهِ مَعَ الْمَاءِ ، ثُمَّ يَغْسِلُ يَدَيْهِ إِلَى الْمِرْفَقَيْنِ إِلاَّ خَرَّتْ خَطَايَا

يَدَيْهِ مِنْ أَنَامِلِهِ مَعَ الْمَاءِ ، ثُمَّ يَمْسَحُ رَأْسَهُ إِلاَّ خَرَّتْ خَطَايَا رَأْسِهِ مِنْ أَطْرَافِ شَعْرِهِ مَعَ الْمَاءِ ، ثُمَّ يَغْسِلُ قَدَمَيْهِ إِلَى الْكَعْبَيْنِ إِلَّا خَرَّتْ خَطَايَا رِجْلَيْهِ مِنْ أَنَامِلِهِ مَعَ الْمَاءِ ، فَإِنْ هُوَ قَامَ فَصَلَّى فَحَمِدَ اللَّهَ تَعَالَى وَأَثْنَى عَلَيْهِ وَمَجَّدَهُ بِالَّذِي هُوَ لَهُ أَهْلٌ ، وَفَرَّغَ قَلْبَهُ لِلَّهِ تَعَالَى ، إِلاَّ انْصَرَفَ مِنْ خَطِيئَتِهِ كَهَيْئَتِهِ يَوْمَ وَلَدَتْهُ أُمُّهُ». فَحَدَّثَ عَمْرُو بْنُ عَبَسَةَ بِهَذَا الْحَدِيثِ أَبَا أُمَامَةَ صَاحِبَ رَسُولِ اللَّهِ ﷺ ، فَقَالَ لَهُ أَبُو أُمَامَةَ: يَا عَمْرَو بْنَ عَبَسَةَ ، أُنْظُرْ مَا تَقُولُ فِي مَقَامٍ وَاحِدٍ يُعْطَى هَذَا الرَّجُلُ؟ فَقَالَ عَمْرٌو: يَا أَبَا أُمَامَةَ ، لَقَدْ كَبِرَتْ سِنِّي ، وَرَقَّ عَظْمِي ، وَاقْتَرَبَ أَجَلِي ، وَمَا بِي حَاجَةٌ أَنْ أَكْذِبَ عَلَى اللَّهِ تَعَالَى ، وَلاَ عَلَى رَسُولِ اللَّهِ ﷺ لَوْ لَمْ أَسْمَعْهُ مِنْ رَسُولِ اللَّهِ ﷺ إِلاَّ مَرَّةً أَوْ مَرَّ تَيْنِ أَوْ ثَلاَثًا ، حَتَّى عَدَّ سَبْعَ مَرَّاتٍ «مَا حَدَّثْتُ أَبَدًا بِهِ ، وَلَكِنِّي سَمِعْتُهُ أَكْثَرَ مِنْ ذَلِكَ». رَوَاهُ مُسْلِمٌ .

439. Əbu Nəcih Amr bin Abəsə əs-Süləmi *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Mən cahiliyyət dövründə insanların düz yolda olmadığını bilirdim. Çünki onlar bütlərə sitayiş edirdilər. Bu əsnada bir nəfərin Məkkədə mühüm xəbərlər verdiyini eşitdim. Miniyimə minib dərhal onun yanına getdim. Rəsulullah *səllallahu əleyhi və səlləmin* gizləndiyini gördüm. Müşriklər ona qarşı düşmənçilik edirdilər. Onunla görüşmək üçün yollar axtardım. Nəhayət, Məkkədə onu tapdım və:

- Sən kimsən, nəçisən? - dedim.

- **"Mən Peyğəmbərəm", -** cavabını verdi.

- Peyğəmbər nə deməkdir?

- **"Allah məni elçi olaraq göndərdi", -** dedi.

- Səni nə ilə göndərdi? - dedim.

- **"Qohum-əqrəbanın haqlarına riayət edilməsi, bütlərin qırılması, Allahın bir olaraq qəbul edilməsi, ona heç nəyin şərik qoşulmaması vəzifəsi ilə göndərdi", -** buyurdu.

- Bu işdə yanında sənə kömək edəcək kim var? - dedim.

- **"Azad bir kişi və bir kölə", -** cavabını verdi. O gün möminlərdən yanında sadəcə Əbu Bəkr və Bilal vardı. Mən:

- Mən də sənə tabe olub yardım etmək üçün yanında qalmaq istəyirəm,- dedim.

- **"Sən bu gün dediyini edə bilməzsən. Mənim halımı və mövcud vəziyyəti görmürsənmi? İndi ailənin yanına qayıt. Mənim meydana çıxdığımı eşidəndə yanıma gəl", -** buyurdu.

Mən ailəmin yanına qayıtdım. Rəsulullah *səllallahu əleyhi və səlləm* Mədinəyə hicrət etdi. Mən hələ də ailəmin yanında idim. Onun Mədinəyə gəlişini və xəbərlərini almağa çalışırdım. Bu əsnada mədinəlilərdən bir neçə nəfər yanıma gəldi.

- Mədinəyə gələn o adam nə etdi? - deyə soruşdum.

- Camaat yanına qaçır, qövmü onu öldürmək istəsə də buna nail ola bilməyib,- cavabını verdilər.

Mədinəyə gedib Peyğəmbərin hüzuruna çıxdım və:

- Ey Allahın Rəsulu, məni tanıdınızmı? - dedim.

- **"Bəli, Məkkədə mənimlə görüşmüşdün", -** buyurdu.

- Bəli,- cavabını verdim. Sonra da:

- Ya Rəsulallah, Allahın sənə öyrətdiyi və mənim bilmədiyim şeyləri mənə öyrət. Mənə namazı öyrət,- dedim.

- **"Sübh namazını qıl. Sonra günəş çıxıb bir mizraq boyu yüksələnə qədər namaz qılma. Çünki günəş şeytanın iki buynuzu arasından (təpəsindən) doğar. Kafirlər də həmin vaxt ona səcdə edərlər. Sonra yerə basdırılan mizrağın kölgəsi azalıb yox olana qədər (nafilə olmaq şərti ilə) namaz qıl. Çünki namaz isbatlı, şahidlidir. Sonra namaza ara ver. Çünki o vaxt cəhənnəm qızdırılır. Sonra kölgə çevrildiyi zaman günorta namazını qıl. Çünki namaz isbatlı və şahidlidir. İkindiyə qədər onu qılmağa davam et. İkindi namazını qılandan sonra günəş batana qədər namaza ara ver, çünki günəş şeytanın iki buynuzu arasından (təpəsindən) batar, kafirlər də o zaman günəşə səcdə edərlər", -** buyurdu. Mən:

- Ya Nəbiyyallah, mənə dəstəmazdandanış,- dedim.

- **"Sizdən hər kim dəstəmaz suyunu hazırlayıb ağzına və burnuna su verib təmizləyərsə, mütləq üzünün, ağzının və burnunun günahları tökülər. Sonra Allahın əmr etdiyi kimi üzünü yuyarsa üzünün günahları su ilə birlikdə saqqalının kənarlarından tökülər. Sonra dirsəkləri ilə bir-**

likdə əllərini yuyarsa, əlinin günahları su ilə birlikdə barmaq uclarından axıb tökülər. Sonra başına məsh edərsə, başının günahları su ilə birlikdə saçlarının ucundan tökülər. Sonra topuqları ilə birlikdə ayaqlarını yuyarsa, ayaqlarının günahları su ilə birlikdə ayaq barmaqlarının ucundan axar. Əgər (bu cür dəstəmaz alan) həmin adam qalxıb namaz qılar, Allaha həmd-səna edər, onu layiq olduğu vəsfləri ilə ucaldar və qəlbini tam mənada Allaha bağlayarsa, mütləq anasından doğulduğu günkü kimi günahlarından təmizlənmiş olar", - buyurdu.

Amr bin Abəsə bu hədisi səhabədən Əbu Ümaməyə danışmışdır. Əbu Ümamə:

- Ey Amr, dəstəmaz və namaz səbəbi ilə adama verilən böyük mükafatla bağlı sözlərini yaxşı fikirləş,- deyə xəbərdarlıq etmişdir. Amr:

- Ey Əbu Ümamə, and olsun ki, sümüklərim zəiflədi, əcəlim yaxınlaşdı. Nə Allaha, nə də Rəsulullaha yalan deyəcək halım var. Mən bu hədisi Rəsulullah *səllallahu əleyhi və səlləmdən* bir, iki, üç, hətta yeddi dəfə eşitməmiş olsaydım əsla rəvayət etməzdim. Mən bu hədisi Rəsulullahdan daha çox eşitmişəm", - demişdir.

Müslim, Müsafirin 294

❁

٤٤٠ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِذَا أَرَادَ اللَّهُ تَعَالَى رَحْمَةَ أُمَّةٍ قَبَضَ نَبِيَّهَا قَبْلَهَا فَجَعَلَهُ لَهَا فَرَطًا وَسَلَفًا بَيْنَ يَدَيْهَا . وَإِذَا أَرَادَ هَلَكَةَ أُمَّةٍ عَذَّبَهَا وَنَبِيُّهَا حَيٌّ فَأَهْلَكَهَا وَهُوَ حَيٌّ يَنْظُرُ ، فَأَقَرَّ عَيْنَهُ بِهَلاَكِهَا حِينَ كَذَّبُوهُ وَعَصَوْا أَمْرَهُ». رَوَاهُ مُسْلِمٌ .

440. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala bir ümmətə rəhməti ilə davranmaq istəyərsə, o ümmətin peyğəmbərini onlardan əvvəl öldürər. Qiyamətdə onlar üçün öndər və bələdçi edər. Allah-Təala bir ümməti həlak etmək istədikdə isə peyğəmbərləri həyatda ikən o millətə əzab edər, onları peyğəmbərlərinin gözü önündə məhv edər.Peyğəmbəri yalanlayıb əmrinə qarşı gəldikləri üçün onları həlak etməklə peyğəmbərini də məmnun və təsəlli edər".

Müslim, Fəzail 24

ALLAHIN RƏHMƏTİNİ ÜMİD ETMƏYİN FAYDASI

Ayə

Allah-Təala yaxşı bəndəsinin söylədiklərini xəbər verərkən belə buyurmuşdur:

وَأُفَوِّضُ أَمْرِي إِلَى اللَّهِ إِنَّ اللَّهَ بَصِيرٌ بِالْعِبَادِ فَوَقَاهُ اللَّهُ سَيِّئَاتِ مَا مَكَرُوا.

"Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah bəndələrini görəndir!"Beləliklə, Allah onu (o mömin şəxsi) **onların qurduğu hiylələrin şərindən qorudu".**

(əl-Ğafir, 44-45)

Hədislər

٤٤١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ: «قَالَ اللَّهُ عَزَّ وَجَلَّ أَنَا عِنْدَ ظَنِّ عَبْدِي بِي وَأَنَا مَعَهُ حَيْثُ يَذْكُرُنِي وَاللَّهِ،اَللَّهُ أَفْرَحُ بِتَوْبَةِ عَبْدِهِ مِنْ أَحَدِكُمْ يَجِدُ ضَالَّتَهُ بِالْفَلاَةِ وَمَنْ تَقَرَّبَ إِلَيَّ شِبْرًا تَقَرَّبْتُ إِلَيْهِ ذِرَاعًا وَمَنْ تَقَرَّبَ إِلَيَّ ذِرَاعًا تَقَرَّبْتُ إِلَيْهِ بَاعًا وَإِذَا أَقْبَلَ إِلَيَّ يَمْشِي أَقْبَلْتُ إِلَيْهِ أُهَرْوِلُ !». مُتَّفَقٌ عَلَيْهِ .

441. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

Əziz və Cəlil olan Allah "Mən qulumun məni düşündüyü kimiyəm, Məni zikr etdiyi hər yerdə onunlayam (rəhmət və yardımım onunladır)", - buyurmuşdur.

Allaha and olsun ki, qulunun tövbə etməsi səbəbi ilə Allahın keçirdiyi sevinc hissi hər hansı birinizin ucsuz-bucaqsız səhrada itirdiyi dəvəsini tapdığı zaman keçirdiyi sevinchissindən daha böyükdür". (Necə ki, Allah belə buyurmuşdur):

"Mənə bir qarış yaxınlaşana bir arşın [31] yaxınlaşaram, bir arşın yaxınlaşana bir qulac yaxınlaşaram. Mənə tərəf addımlayaraq gələnə qaçaraq gedərəm".

31. Arşın 65 santimetrlik uzunluq vahididir.

Buxari, Tövhid 15, 35, 55; Müslim, Tövbə 1, Zikr 2, 19. Həmçinin bax. Tirmizi, Zöhd 51, Dəavat 131; İbn Macə, Ədəb 58

❁

٤٤٢ ـ عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ قَبْلَ مَوْتِهِ بِثَلاَثَةِ أَيَّامٍ يَقُولُ: «لاَ يَمُوتَنَّ أَحَدُكُمْ إِلاَّ وَهُوَ يُحْسِنُ الظَّنَّ بِاللَّهِ عَزَّ وَجَلَّ». رَوَاهُ مُسْلِمٌ .

442. Cabir bin Abdullah *radiyallahu anhumə* belə dedi:

Vəfatından üç gün əvvəl Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitdim:

"Əsla heç biriniz Allaha hüsnü-zənn [32] **bəsləmədən ölməyin!"**

Müslim, Cənnət 81, 82. Həmçinin bax. Əbu Davud, Cənaiz 13

❁

٤٤٣ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «قَالَ اللَّهُ تَعَالَى : يَابْنَ اٰدَمَ ، إِنَّكَ مَا دَعَوْتَنِي وَرَجَوْتَنِي غَفَرْتُ لَكَ عَلَى مَا كَانَ مِنْكَ وَلاَ أُبَالِي . يَا بْنَ اٰدَمَ ، لَوْ بَلَغَتْ ذُنُوبُكَ عَنَانَ السَّمَاءِ ثُمَّ اسْتَغْفَرْتَنِي غَفَرْتُ لَكَ. يَا ابْنَ اٰدَمَ ، إِنَّكَ لَوْ أَتَيْتَنِي بِقُرَابِ الْأَرْضِ خَطَايَا ثُمَّ لَقِيتَنِي لاَ تُشْرِكُ بِي شَيْئًا لَأَتَيْتُكَ بِقُرَابِهَا مَغْفِرَةً !». رَوَاهُ التِّرْمِذِيُّ .

443. Ənəs *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə dediyini eşitdim,- demişdir:

"Allah-Təala:

Ey Adəm oğlu, sən Mənə dua edib əfvini umduğun müddətdə işlədiyin günahlar nə qədər çox olsa da onların böyüklüyünə baxmadan səni bağışlayaram.

Ey Adəm oğlu, günahların göyləri dolduracaq qədər olsa da, sən Məndən bağışlanmanı istəsən, günahlarını əfv edərəm.

32. Allahın bəndəsinə əfv və mərhəməti ilə rəftar edəcəyinə inanmaq

Ey Adəm oğlu, sən yer üzünü dolduracaq qədər günahla hüzuruma gəlsən, lakin Mənə heç nəyi şərik qoşmamış, şirkə batmamış olsan, Mən də səni yer üzü dolusu əfv və məğfirətlə bağışlayaram", - buyurmuşdur.

Tirmizi, Dəavat 98

QORXU VƏ ÜMİD ARASINDA YAŞAMAQ

İnsanın səhhəti yerində olarkən qorxu və ümidi bərabər ölçüdə olmalıdır. Xəstəlik zamanında isə ümidi daha çox olmalıdır. Kitab, Sünnə və digər nəslərdən çıxarılan şəri hökmlər bu mövzuda bir-birini dəstəkləyir.

Ayələr

فَلاَ يَأْمَنُ مَكْرَ اللَّهِ إِلاَّ الْقَوْمُ الْخَاسِرُونَ.

1. "Allahın (bu yolla) **dolaşdırıb bəla toruna salmayacağına özlərinə zərər eləyənlərdən başqa heç kəs arxayın ola bilməz!"**

(əl-Əraf, 99)

إِنَّهُ لاَ يَيْأَسُ مِنْ رَوْحِ اللَّهِ إِلاَّ الْقَوْمُ الْكَافِرُونَ .

2. "Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər!"

(Yusuf, 87)

يَوْمَ تَبْيَضُّ وُجُوهٌ وَتَسْوَدُّ وُجُوهٌ.

3. "O gün bəzi üzlər ağ, bəzi üzlərsə qara olacaq".

(Ali-İmran, 106)

إِنَّ رَبَّكَ لَسَرِيعُ الْعِقَابِ وَإِنَّهُ لَغَفُورٌ رَحِيمٌ.

4. "Həqiqətən, Rəbbin (günahkarlara) **tezliklə əzab verəndir. Sözsüz ki, O, həm də** (tövbəkarları) **bağışlayandır, rəhm edəndir!"**

(əl-Əraf, 167)

إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ وَإِنَّ الْفُجَّارَ لَفِي جَحِيمٍ.

5. "Həqiqətən, yaxşı əməl və itaət sahibləri (möminlər) **Cənnətdə qərar tutacaqlar.Pis əməl sahibləri** (kafirlər) **isə Cəhənnəmdə olacaqlar"**.

(əl-İnfitar, 13-14)

فَأَمَّا مَنْ ثَقُلَتْ مَوَازِينُهُ فَهُوَ فِي عِيشَةٍ رَاضِيَةٍ وَأَمَّا مَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُمُّهُ هَاوِيَةٌ.

6. "(O gün) **tərəzisi ağır gələn** (yaxşı əməlləri pis əməllərdən çox olan) **kimsə,** (Cənnətdə) **xoş güzəran içində olacaq!Tərəzisi yüngül gələn** (yaxşı əməlləri pis əməllərdən az olan) **kimsənin isə,Məskəni Haviyə** (Cəhənnəmin dibi) **olacaqdır!"**

(əl-Qariə, 6-9)

Hədislər

٤٤٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لَوْ يَعْلَمُ الْمُؤْمِنُ مَا عِنْدَ اللَّهِ مِنْ الْعُقُوبَةِ مَا طَمِعَ بِجَنَّتِهِ أَحَدٌ، وَلَوْ يَعْلَمُ الْكَافِرُ مَا عِنْدَ اللَّهِ مِنَ الرَّحْمَةِ مَا قَنَطَ مِنْ جَنَّتِهِ أَحَدٌ». رَوَاهُ مُسْلِمٌ.

444. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əgər mömin Allahın əzabının necə olduğunu bilsəydi, cənnəti ümid etməzdi. Kafir də Allahın rəhmətinin necə olduğunu tam mənada dərk edə bilsəydi, onun cənnətindən əsla ümidini kəsməzdi".

Müslim, Tövbə 23

❁

٤٤٥ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا وُضِعَتِ الْجَنَازَةُ وَاحْتَمَلَهَا النَّاسُ ـ أَوِ الرِّجَالُ ـ عَلَى أَعْنَاقِهِمْ، فَإِنْ كَانَتْ صَالِحَةً قَالَتْ:قَدِّمُونِي قَدِّمُونِي، وَإِنْ كَانَتْ غَيْرَ صَالِحَةٍ قَالَتْ:يَا وَيْلَهَا!أَيْنَ تَذْهَبُونَ بِهَا؟ يَسْمَعُ صَوْتَهَا كُلُّ شَيْءٍ إِلاَّ الْإِنْسَانَ، وَلَوْ سَمِعَهُ لَصَعِقَ». رَوَاهُ الْبُخَارِيُّ.

445. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ölən adam tabuta qoyulub insanlar (və ya kişilər) onu çiyinlərinə aldıqda əgər yaxşı adamdırsa, "Məni tez aparın, məni tez aparın", - deyər. Əgər yaxşı adam deyilsə, "Vay! Bu tabutu hara aparırsınız?" - deyər. Həmin cənazənin səsini insandan başqa bütün varlıqlar eşidər. Əgər insan bu səsi eşitsəydi özündən gedərdi".

Buxari, Cənaiz 50, 90. Həmçinin bax. Nəsai, Cənaiz 44

❁

٤٤٦ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «الْجَنَّةُ أَقْرَبُ إِلَى أَحَدِكُمْ مِنْ شِرَاكِ نَعْلِهِ ، وَالنَّارُ مِثْلُ ذَلِكَ». رَوَاهُ الْبُخَارِيُّ .

446. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cənnət sizə ayaqqabılarınızın bağından daha yaxındır. Cəhənnəm də elədir".

Buxari, Riqaq 29

AĞLAMAQ

Ayələr

وَيَخِرُّونَ لِلْأَذْقَانِ يَبْكُونَ وَيَزِيدُهُمْ خُشُوعًا.

1. "Onlar üzüstə səcdəyə qapanıb ağlayar, (Qurandakı öyüd-nəsihət isə) **onların** (Allaha) **itaətini daha da artırar".**

(əl-İsra, 109)

أَفَمِنْ هَذَا الْحَدِيثِ تَعْجَبُونَ وَتَضْحَكُونَ وَلاَ تَبْكُونَ .

2. "İndi siz bu kəlama (Qurana) **təəccübmü edirsiniz? Həm də gülürsünüz, heç ağlamırsınız!"**

(ən-Nəcm, 59-60)

Hədislər

٤٤٧ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ لِيَ النَّبِيُّ ﷺ: «اقْرَأْ عَلَيَّ الْقُرْآنَ». قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، أَقْرَأُ عَلَيْكَ وَعَلَيْكَ أُنْزِلَ ؟ قَالَ: «إِنِّي أُحِبُّ أَنْ أَسْمَعَهُ مِنْ غَيْرِي» . فَقَرَأْتُ عَلَيْهِ سُورَةَ النِّسَاءِ حَتَّى جِئْتُ إِلَى هَذِهِ الْآيَةِ: ﴿فَكَيْفَ إِذَا جِئْنَا مِنْ كُلِّ أُمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَى هَؤُلَاءِ شَهِيدًا﴾ . قَالَ: «حَسْبُكَ الْآنَ» . فَالْتَفَتُّ إِلَيْهِ ، فَإِذَا عَيْنَاهُ تَذْرِفَانِ» . مُتَّفَقٌ عَلَيْهِ .

447. Abdullah bin Məsud *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Mənə Quran oxu!" -** buyurdu. Mən:

- Ey Allahın Rəsulu, Quran sənə nazil olduğu halda mənmi sənə Quran oxuyum? - dedim. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Quranı başqasından dinləməkdən çox xoşum gəlir", -** buyurdu.

Mən Nisa surəsini oxumağa başladım. **"Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid təyin edəcəyimiz zaman halları nə cür olacaq?"** (ən-Nisa, 41) ayəsinə çatanda:

- **"İndilik bu qədər kifayətdir!" -** buyurdu. Bir də gördüm ki, iki gözündən sel kimi yaş axır.

Buxari, Təfsiru surə (4), 9, Fəzailul-Quran 33, 35; Müslim, Müsafirin 247. Həmçinin bax. Əbu Davud, Elm 13; Tirmizi, Təfsir 4

❁

٤٤٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَطَبَ رَسُولُ اللَّهِ ﷺ خُطْبَةً مَا سَمِعْتُ مِثْلَهَا قَطُّ ، فَقَالَ: «لَوْ تَعْلَمُونَ مَا أَعْلَمُ لَضَحِكْتُمْ قَلِيلاً وَلَبَكَيْتُمْ كَثِيرًا». (قَالَ): فَغَطَّى أَصْحَابُ رَسُولِ اللَّهِ ﷺ وُجُوهَهُمْ ، وَلَهُمْ خَنِينٌ . مُتَّفَقٌ عَلَيْهِ .

448. Ənəs bin Malik *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* daha əvvəl heç eşitmədiyim çox təsirli bir xütbə verdi və belə buyurdu:

"Əgər siz mənim bildiklərimi bilsəydiniz, əlbəttə ki, az gülər, çox ağlayardınız".

Ənəs deyir ki, bu sözü eşidən səhabələr üzlərini tutub hıçqıra-hıçqıra ağladılar.

Buxari, Küsuf 2, Təfsiru surə (5), 12, Hikah 107, Riqaq 27, Əyman 3; Müslim, Salət 112, Küsuf 1, Fəzail 134. Həmçinin bax. Tirmizi, Zöhd 9; Nəsai, Səhv 102, Küsuf 11, 23; İbn Macə, Zöhd 19

❁

٤٤٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ يَلِجُ النَّارَ رَجُلٌ بَكَى مِنْ خَشْيَةِ اللَّهِ حَتَّى يَعُودَ اللَّبَنُ فِي الضَّرْعِ ، وَلاَ يَجْتَمِعُ غُبَارٌ فِي سَبِيلِ اللَّهِ وَدُخَانُ جَهَنَّمَ». رَوَاهُ التِّرْمِذِيُّ .

449. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah qorxusundan göz yaşı tökən kəs sağılan süd məməyə girmədikcə cəhənnəmə girməz. Allah yolunda qaldırılan tozla cəhənnəmin dumanı əsla bir yerdə olmaz".

Tirmizi, Fəzailul-cihad 8; Zöhd 8. Həmçinin bax. Nəsai, Cihad 8; İbn Macə, Cihad 9

❁

٤٥٠ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «سَبْعَةٌ يُظِلُّهُمْ اللَّهُ فِي ظِلِّهِ يَوْمَ لاَ ظِلَّ إِلاَّ ظِلُّهُ: إِمَامٌ عَادِلٌ ، وَشَابٌّ نَشَأَ فِي عِبَادَةِ اللَّهِ تَعَالَى ، وَرَجُلٌ قَلْبُهُ مُعَلَّقٌ بِالْمَسَاجِدِ ، وَرَجُلاَنِ تَحَابَّا فِي اللَّهِ اجْتَمَعَا عَلَيْهِ وَتَفَرَّقَا عَلَيْهِ ، وَرَجُلٌ دَعَتْهُ امْرَأَةٌ ذَاتُ مَنْصِبٍ وَجَمَالٍ فَقَالَ: إِنِّي أَخَافُ اللَّهَ ، وَرَجُلٌ تَصَدَّقَ بِصَدَقَةٍ فَأَخْفَاهَا حَتَّى لاَ تَعْلَمَ شِمَالُهُ مَا تُنْفِقُ يَمِينُهُ ، وَرَجُلٌ ذَكَرَ اللَّهَ خَالِيًا فَفَاضَتْ عَيْنَاهُ». مُتَّفَقٌ عَلَيْهِ .

450. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Heç bir kölgənin olmadığı Qiyamət günündə Allah-Təala yeddi (qrup) insanı Öz ərşinin kölgəsi altında kölgələndirəcəkdir:

Adil dövlət başçısı,

Rəbbinə qulluq edərək, təmiz həyat sürərək böyüyüb yetişən gənc,

Qəlbi məscidlərə bağlı olan müsəlman,

Bir-birilərini Allah üçün sevib, görüşmələri də, ayrılmaları da Allah üçün olan iki insan,

Gözəl və məqam sahibi bir qadının birlikdə olmaq təklifinə "Mən Allahdan qorxuram", - deyərək yaxınlaşmayan kişi,

Sağ əlinin verdiyindən sol əlinin xəbəri olmayacaq qədər gizli sədəqə verən kəs,

Tənha qalanda Allahı yada salıb göz yaşı tökən adam".

Buxari, Azan 36, Zəkat 16, Riqaq 24, Hüdud 19; Müslim, Zəkat 91. Həmçinin bax. Tirmizi, Zöhd 53; Nəsai, Qudat 2

❁

٤٥١ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ الشِّخِّيرِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَيتُ رَسُولَ اللَّهِ ﷺ وَهُوَ يُصَلِّي وَلِجَوْفِهِ أَزِيزٌ كَأَزِيزِ الْمِرْجَلِ مِنَ الْبُكَاءِ. رَوَاهُ أَبُو دَاوُدَ.

451. Abdullah bin Şihhir *radiyallahu anh* belə demişdir:

Bir dəfə Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına getdim. Namaz qılır və ağladığı üçün sinəsindən qaynayan qazan səsi kimi səslər gəlirdi.

Əbu Davud, Salət 156, 157. Həmçinin bax. Nəsai, Səhv 18

❁

٤٥٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ لِأُبَيِّ بْنِ كَعْبٍ رَضِيَ اللَّهُ عَنْهُ: «إِنَّ اللَّهَ عَزَّ وَجَلَّ أَمَرَنِي أَنْ أَقْرَأَ عَلَيْكَ: لَمْ يَكُنِ الَّذِينَ كَفَرُوا»

قَالَ: وَسَمَّانِي ؟ قَالَ «نَعَمْ». فَبَكَى أُبَيٌّ. مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: فَجَعَلَ أُبَيٌّ يَبْكِي.

452. Ənəs bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Übey bin Kab *radiyallahu anha* belə buyurmuşdu:

- "Allah-Təala **ləm yəkunilləzinə kəfəru** surəsini sənə oxumağımı əmr etdi".

Übey bin Kab soruşdu:

- Allah mənim adını çəkdimi? Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Bəli", -** buyurdu.

Übey bin Kab təsirlənərək ağladı.

Buxari, Mənaqibul-ənsar 16, Təfsiru surə (98), 1, 3; Müslim, Müsafirin 246

Müslimin başqa bir rəvayətində (Müsafirin 245) **"Übey ağlamağa başladı"** ifadəsi yer alır.

❁

٤٥٣ ـ وَعَنْهُ قَالَ: قَالَ أَبُو بَكْرٍ لِعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا بَعْدَ وَفَاةِ رَسُولِ اللَّهِ ﷺ : «انْطَلِقْ بِنَا إِلَى أُمِّ أَيْمَنَ رَضِيَ اللَّهُ عَنْهَا نَزُورُهَا كَمَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يَزُورُهَا، فَلَمَّا انْتَهَيَا إِلَيْهَا بَكَتْ ، فَقَالاَ لَهَا: مَا يُبْكِيكِ ؟ أَمَا تَعْلَمِينَ أَنَّ مَا عِنْدَ اللَّهِ تَعَالَى خَيْرٌ لِرَسُولِ اللَّهِ ﷺ ! قَالَتْ: إِنِّي لاَ أَبْكِي أَنِّي لاَ أَعْلَمُ أَنَّ مَا عِنْدَ اللَّهِ خَيْرٌ لِرَسُولِ اللَّهِ ﷺ ، وَلَكِنِّي أَبْكِي أَنَّ الْوَحْيَ قَدِ انْقَطَعَ مِنَ السَّمَاءِ ؛ فَهَيَّجَتْهُمَا عَلَى الْبُكَاءِ ، فَجَعَلاَ يَبْكِيَانِ مَعَهَا» . رَوَاهُ مُسْلِمٌ .

453. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* vəfatından sonra Əbu Bəkr Ömərə:

- Qalx, Ümmü Eymən *radiyallahu anhənin* yanına gedək. Rəsulullah *səllallahu əleyhi və səlləm* kimi biz də onu ziyarət edək,- dedi.

Yanına gedəndə Ümmü Eymən ağladı. Onlar:

- Nə üçün ağlayırsan? Allah qatındakı nemətin Rəsulullah *səllallahu əleyhi və səlləm* üçün daha xeyirli olduğunu bilmirsənmi? - dedilər. Ümmü Eymən:

- Mən ona görə ağlamıram. Əlbəttə ki, Allah qatındakı nemətlərin Peyğəmbər *səllallahu əleyhi və səlləm* üçün daha xeyirli olduğunu bilirəm. Mən vəhy kəsildiyi üçün ağlayıram,- dedi. Bu sözləri ilə Əbu Bəkr və Öməri də duyğulandırdı. Onlar da Ümmü Eymənlə birlikdə ağlamağa başladılar.

Müslim, Fəzailus-səhabə 103. Həmçinin bax. İbn Macə, Cənaiz 65

❁

٤٥٤ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: لَمَّا اشْتَدَّ بِرَسُولِ اللَّهِ ﷺ وَجَعُهُ قِيلَ لَهُ فِي الصَّلاَةِ. قَالَ: «مُرُوا أَبَا بَكْرٍ فَلْيُصَلِّ بِالنَّاسِ». فَقَالَتْ عَائِشَةُ رَضِيَ اللَّهُ عَنْهَا: إِنَّ أَبَا بَكْرٍ رَجُلٌ رَقِيقٌ إِذَا قَرَأَ الْقُرْآنَ غَلَبَهُ الْبُكَاءُ. فَقَالَ: «مُرُوهُ فَلْيُصَلِّ». مُتَّفَقٌ عَلَيْهِ .

454. Abdullah bin Ömər *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* xəstəliyi ağırlaşdığı zaman ondan namaz (ı kimin qıldırmasını istədiyini) soruşdular.

- **"Əbu Bəkrə deyin, namazı qıldırsın!" -** buyurdu.

Aişə *radiyallahu anhə*:

- Əbu Bəkr ürəyiyumşaq adamdır. Quran oxuyanda özünü saxlaya bilməyib ağlayır (Bəlkə başqasına əmr edəsiniz),- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Əbu Bəkrə deyin, namazı qıldırsın!" -** buyurdu.

Buxari, Azan 39; Müslim, Salət 94

❁

٤٥٥ ـ عَنْ إِبْرَاهِيمَ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ أَنَّ عَبْدَ الرَّحْمَنِ بْنَ عَوْفٍ رَضِيَ

اللَّهُ عَنْهُ أُتِيَ بِطَعَامٍ ، وَكَانَ صَائِمًا ، فَقَالَ: قُتِلَ مُصْعَبُ بْنُ عُمَيْرٍ رَضِيَ اللَّهُ عَنْهُ، وَهُوَ خَيْرٌ مِنِّي ، فَلَمْ يُوجَدْ لَهُ مَا يُكَفَّنُ فِيهِ إِلاَّ بُرْدَةٌ إِنْ غُطِّيَ بِهَا رَأْسُهُ بَدَتْ رِجْلاَهُ ، وَإِنْ غُطِّيَ بِهَا رِجْلاَهُ بَدَا رَأْسُهُ ، ثُمَّ بُسِطَ لَنَا مِنَ الدُّنْيَا مَا بُسِطَ ـ أَوْ قَالَ أُعْطِينَا مِنَ الدُّنْيَا مَا أُعْطِينَا ـ قَدْ خَشِينَا أَنْ تَكُونَ حَسَنَاتُنَا عُجِّلَتْ لَنَا . ثُمَّ جَعَلَ يَبْكِي حَتَّى تَرَكَ الطَّعَامَ. رَوَاهُ الْبُخَارِيُّ .

455. İbrahim bin Əbdürrəhman bin Əvfdən rəvayət edildiyinə görə oruclu olduğu bir gün Əbdürrəhman bin Əvf *radiyallahu anhın* önünə (yeməklə zəngin iftar) süfrəsi açdılar. O, (süfrəyə baxdı, sonra) belə dedi:

Musab bin Ümeyr Uhud döyüşündə şəhid edildi. O, məndən daha yaxşı idi. Amma kəfən olaraq bircə kaftandan başqa heç nəyi yox idi. Onunla da başını örtəndə ayaqları, ayaqları örtüləndə başı açıq qalırdı. Sonra dünyalıq olaraq hər şey önümüzə qoyuldu –ya da dünyalıq olaraq bizə hər şey verildi (indi bu qədər naz-nemət önümə sərilir). Yaxşı əməllərimizin qarşılığı dünyada verilir deyəsən. Bundan qorxuruq deyib ağlamağa başladı. Hətta iftar yeməyini də yemədi.

Buxari, Cənaiz 16, 17, Məğazi 17

❁

٤٥٦ ـ عَنْ أَبِي أُمَامَةَ صُدَيِّ بْنِ عَجْلاَنَ الْبَاهِلِيِّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَيْسَ شَيْءٌ أَحَبَّ إِلَى اللَّهِ تَعَالَى مِنْ قَطْرَتَيْنِ وَأَثَرَيْنِ: قَطْرَةِ دُمُوعٍ مِنْ خَشْيَةِ اللَّهِ ، وَقَطْرَةِ دَمٍ تُهْرَاقُ فِي سَبِيلِ اللَّهِ . وَأَمَّا الْأَثَرَانِ فَأَثَرٌ فِي سَبِيلِ اللَّهِ تَعَالَى ، وَأَثَرٌ فِي فَرِيضَةٍ مِنْ فَرَائِضِ اللَّهِ تَعَالَى». رَوَاهُ التِّرْمِذِيُّ .

456. Əbu Ümamə Suday bin Əclan əl-Bahili *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah qatında heç nə iki damla və iki izdən daha sevimli deyil: Allah qorxusu ilə axıdılan göz yaşı damlası və Allah yolunda tökülən qan damlası. İki iz isə Allah yolunda vuruşarkən alınan yara izi və

Allahın əmr etdiyi fərzlərdən birini yerinə yetirməkdən yaranan qulluq izi".

Tirmizi, Fəzailul-cihad 26

❁

٤٥٧ ـ وَفِي الْبَابِ أَحَادِيثُ كَثِيرَةٌ ، مِنْهَا حَدِيثُ الْعِرْبَاضِ بْنِ سَارِيَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: وَعَظَنَا رَسُولُ اللَّهِ ﷺ مَوْعِظَةً وَجِلَتْ مِنْهَا الْقُلُوبُ ، وَذَرِفَتْ مِنْهَا الْعُيُونُ . وَقَدْ سَبَقَ فِي بَابِ النَّهْيِ عَنِ الْبِدَعِ.

457. "Allah qorxusu ilə ağlamaq" mövzusunda xeyli hədis vardır. Məsələn, **bidətlərdən çəkindirmək** mövzusunda keçən İbraz bin Sariyə *radiyallahu anhın* "Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə qəlbləri ürpərdən, gözləri yaşardan bir vəz verdi, nəsihət etdi" rəvayəti bunlardan biridir.

Əbu Davud, Sünnət 5; Tirmizi, Elm 16; İbn Macə, Müqəddimə 6

ZÖHDÜN ÜSTÜNLÜYÜ

DÜNYAYA QARŞI ZAHİD OLMAĞIN FƏZİLƏTİ, DÜNYA VARINA DÜŞKÜNLÜYÜ AZALTMAĞA TƏŞVİQ EDƏN KASIBLIĞIN ÜSTÜNLÜYÜ

Ayələr

إِنَّمَا مَثَلُ الْحَيَاةِ الدُّنْيَا كَمَاءٍ أَنْزَلْنَاهُ مِنَ السَّمَاءِ فَاخْتَلَطَ بِهِ نَبَاتُ الْأَرْضِ مِمَّا يَأْكُلُ النَّاسُ وَالْأَنْعَامُ حَتَّى إِذَا أَخَذَتِ الْأَرْضُ زُخْرُفَهَا وَازَّيَّنَتْ وَظَنَّ أَهْلُهَا أَنَّهُمْ قَادِرُونَ عَلَيْهَا أَتَيْهَا أَمْرُنَا لَيْلاً أَوْ نَهَارًا فَجَعَلْنَاهَا حَصِيدًا كَأَنْ لَمْ تَغْنَ بِالْأَمْسِ كَذَلِكَ نُفَصِّلُ الْآيَاتِ لِقَوْمٍ يَتَفَكَّرُونَ.

1. "Həqiqətən, dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib (əlvan çiçəklər və müxtəlif meyvələrlə) **bir-birinə qarışar.**

Nəhayət, yer üzü bəzəklənib süsləndiyi və sakinləri də (onun məhsulunu, meyvəsini) **yığmağa qadir olduqlarını zənn etdikləri vaxt gecə, yaxud gündüz əmrimiz** (bəlamız) **gələr və Biz onu, dünən üzərində bol məhsul olmamış kimi,** (yolunub) **biçilmiş bir hala gətirərik. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik!"**

(Yunus, 24)

وَاضْرِبْ لَهُمْ مَثَلَ الْحَيَاةِ الدُّنْيَا كَمَاءٍ أَنْزَلْنَاهُ مِنَ السَّمَاءِ فَاخْتَلَطَ بِهِ نَبَاتُ الْأَرْضِ فَأَصْبَحَ هَشِيمًا تَذْرُوهُ الرِّيَاحُ وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ مُقْتَدِرًا اَلْمَالُ وَالْبَنُونَ زِينَةُ الْحَيَاةِ الدُّنْيَا وَالْبَاقِيَاتُ الصَّالِحَاتُ خَيْرٌ عِنْدَ رَبِّكَ ثَوَابًا وَخَيْرٌ أَمَلاً.

2. "Onlara bu dünyanı misal çək: (Bu dünya) **göydən yağdırdığımız yağmura bənzər. Yerdəki bitkilər onunla qarışıb** (onu içib) **yetişər, sonra isə dönüb küləyin sovurduğu quru çör-çöp** (həşəm) **olar. Allah hər şeyə** (hər şeyi yaratmağa və məhv etməyə) **qadirdir!** (Bəzi adamların fəxr etdiyi) **mal-dövlət, oğul-uşaq** (oğullar) **bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də** (Allahın mərhəmətinə) **ümid etibarilə daha xeyirlidir!"**

(əl-Kəhf, 45-46)

اعْلَمُوا أَنَّمَا الْحَيَاةُ الدُّنْيَا لَعِبٌ وَلَهْوٌ وَزِينَةٌ وَتَفَاخُرٌ بَيْنَكُمْ وَتَكَاثُرٌ فِي الْأَمْوَالِ وَالْأَوْلاَدِ كَمَثَلِ غَيْثٍ أَعْجَبَ الْكُفَّارَ نَبَاتُهُ ثُمَّ يَهِيجُ فَتَرَاهُ مُصْفَرًّا ثُمَّ يَكُونُ حُطَامًا وَفِي الْآخِرَةِ عَذَابٌ شَدِيدٌ وَمَغْفِرَةٌ مِنَ اللَّهِ وَرِضْوَانٌ وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلاَّ مَتَاعُ الْغُرُورِ.

3. "(Ey insanlar!) **Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çox-altmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki** (məhsul) **əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən.** (Dünya malına aldananları) **axirətdə şiddətli əzab,** (dünya malına uymayanları isə) **Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan** (yalandan) **başqa bir şey deyildir".**

(əl-Hədid, 20)

زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَوَاتِ مِنَ النِّسَاءِ وَالْبَنِينَ وَالْقَنَاطِيرِ الْمُقَنْطَرَةِ مِنَ الذَّهَبِ وَالْفِضَّةِ وَالْخَيْلِ الْمُسَوَّمَةِ وَالْأَنْعَامِ وَالْحَرْثِ ذَلِكَ مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَاللَّهُ عِنْدَهُ حُسْنُ الْمَآبِ.

4. "Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. (Lakin bütün) **bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır".**

(Ali-İmran, 14)

يَا أَيُّهَا النَّاسُ إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ فَلَا تَغُرَّنَّكُمُ الْحَيَاةُ الدُّنْيَا وَلَا يَغُرَّنَّكُمْ بِاللَّهِ الْغَرُورُ.

5. "Ey insanlar! Şübhəsiz ki, Allahın (qiyamət barəsindəki) **vədi haqdır. Dünya həyatı sizi aldatmasın. O tovlayan** (Şeytan) **da sizi tovlayıb yoldan çıxartmasın!"**

(əl-Fatir, 5)

أَلْهٰيكُمُ التَّكَاثُرُ حَتَّى زُرْتُمُ الْمَقَابِرَ كَلَّا سَوْفَ تَعْلَمُونَ ثُمَّ كَلَّا سَوْفَ تَعْلَمُونَ. كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ،

6. "Çoxluq (mal-dövlət, oğul-uşaq və qohum-əqrəba çoxluğu) **ilə öyünmək sizi o qədər şirnikləndirdi ki, hətta** (məzarlarda yatan ölülərinizi sayıb, onların da çoxluğu ilə fəxr etməyiniz üçün) **qəbirləri ziyarət etdiniz. Xeyr!** (Belə yaramaz!). **Siz (öləndən sonra bu yaramaz əməllərinizin aqibətini) mütləq biləcəksiniz! Xeyr, xeyr!** (Belə yaramaz). **Siz** (öləndən sonra bu yaramaz əməllərinizin aqibətini) **mütləq biləcəksiniz! Xeyr, əgər** (qiyamət günü sizə nə ediləcəyini) **tam yəqinliklə bilsəydiniz** (fani dünya malına uymazdınız)**!"**

(ət-Təkasur, 1-5)

وَمَا هَذِهِ الْحَيَاةُ الدُّنْيَا إِلَّا لَهْوٌ وَلَعِبٌ وَإِنَّ الدَّارَ الْآخِرَةَ لَهِيَ الْحَيَوَانُ لَوْ كَانُوا يَعْلَمُونَ.

“Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır. Kaş biləydilər!”

(əl-Ənkəbut, 64)

Hədislər

٤٥٨ ـ عَنْ عَمْرِو بْنِ عَوْفٍ الْأَنْصَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَعَثَ أَبَا عُبَيْدَةَ بْنَ الْجَرَّاحِ رَضِيَ اللَّهُ عَنْهُ إِلَى الْبَحْرَيْنِ يَأْتِي بِجِزْيَتِهَا ، فَقَدِمَ بِمَالٍ مِنَ الْبَحْرَيْنِ ، فَسَمِعَتِ الْأَنْصَارُ بِقُدُومِ أَبِي عُبَيْدَةَ ؛ فَوَافَوْا صَلاَةَ الْفَجْرِ مَعَ رَسُولِ اللَّهِ ﷺ ، فَلَمَّا صَلَّى رَسُولُ اللَّهِ ﷺ انْصَرَفَ ، فَتَعَرَّضُوا لَهُ ، فَتَبَسَّمَ رَسُولُ اللَّهِ ﷺ حِينَ رَآهُمْ ، ثُمَّ قَالَ: «أَظُنُّكُمْ سَمِعْتُمْ أَنَّ أَبَا عُبَيْدَةَ قَدِمَ بِشَيْءٍ مِنَ الْبَحْرَيْنِ؟» فَقَالُوا: أَجَلْ يَا رَسُولَ اللَّهِ. فَقَالَ: «أَبْشِرُوا وَأَمِّلُوا مَا يَسُرُّكُمْ ، فَوَاللَّهِ ، مَا الْفَقْرَ أَخْشَى عَلَيْكُمْ وَلَكِنِّي أَخْشَى أَنْ تُبْسَطَ الدُّنْيَا عَلَيْكُمْ كَمَا بُسِطَتْ عَلَى مَنْ كَانَ قَبْلَكُمْ، فَتَنَافَسُوهَا كَمَا تَنَافَسُوهَا ، فَتُهْلِكَكُمْ كَمَا أَهْلَكَتْهُمْ».

مُتَّفَقٌ عَلَيْهِ .

458. Amr bin Avf əl-Ənsari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Əbu Übeydə bin Cərrah *radiyallahu anhı* cizyə toplamaq üçün Bəhreynə göndərdi. Əbu Übeydə cizyə olaraq topladığı mal ilə Bəhreyndən qayıtdı. Ənsar Əbu Übeydənin qayıtdığını eşidib sübh namazını Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə qılmaq üçün gəldi. Rəsulullah *səllallahu əleyhi və səlləm* namazı qıldıqdan sonra getmək üçün ayağa qalxanda ənsar onun qarşısında dayandı. Rəsulullah *səllallahu əleyhi və səlləm* onların bu halına gülümsədi və:

- **“Belə zənn edirəm ki, Əbu Übeydənin Bəhreyndən nə isə gətirdiyini eşitmisiniz”, -** dedi. Ənsar:

- Bəli, ya Rəsulallah,- deyə cavab verdi. Bu zaman Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **“Sevinin və sizi sevindirəcək şeyləri ümid edin. Allaha and içirəm ki, sizin üçün kasıblıqdan qorxmuram. Lakin mən dünyanın sizdən**

əvvəlkilərin önünə sərildiyi kimi sizin də önünüzə sərilməsindən, onların dünya üçün yarışdıqları kimi sizin də yarışa girməyinizdən, dünyanın onları həlak etdiyi kimi sizi də həlak etməsindən qorxuram", - buyurdu.

Buxari, Riqaq 7; Müslim, Zöhd 6. Həmçinin bax. Buxari, Cizyə 1, Məğazi 12; Tirmizi, Qiyamət 28; İbn Macə, Fitən 18

٤٥٩ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَلَسَ رَسُولُ اللَّهِ ﷺ عَلَى الْمِنْبَرِ وَجَلَسْنَا حَوْلَهُ، فَقَالَ: «إِنَّ مِمَّا أَخَافُ عَلَيْكُمْ مِنْ بَعْدِي مَا يُفْتَحُ عَلَيْكُمْ مِنْ زَهْرَةِ الدُّنْيَا وَزِينَتِهَا» . مُتَّفَقٌ عَلَيْهِ .

459. Əbu Səid əl-Xudri *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* minbərdə, biz də ətrafında oturmuşduq. Rəsulullah belə buyurdu:

"Məndən sonra dünya nemətlərinin və zinətlərinin sizə açılmasından və qəlbinizi onlara qapdırmanızdan qorxuram".

Buxari, Zəkat 47, Cihad 37; Müslim, Zəkat 121-123. Həmçinin bax. Nəsai, Zəkat 81; İbn Macə, Fitən 18

❁

٤٦٠ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّ الدُّنْيَا حُلْوَةٌ خَضِرَةٌ ، وَإِنَّ اللَّهَ تَعَالَى مُسْتَخْلِفُكُمْ فِيهَا فَيَنْظُرُ كَيْفَ تَعْمَلُونَ ، فَاتَّقُوا الدُّنْيَا وَاتَّقُوا النِّسَاءَ» . رَوَاهُ مُسْلِمٌ .

460. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dünya şirindir və mənzərəsi xoşdur. Şübhəsiz ki, Allah dünyanın idarə olunmasını sizə həvalə edəcək və necə davranacağınıza, nə kimi işlər görəcəyinizə baxacaqdır. Elə isə dünyadan çəkinin və qadınlardan qorunun".

❁

٤٦١ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «اللَّهُمَّ لاَ عَيْشَ إِلاَّ عَيْشُ الْآخِرَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

461. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahım, əsl həyat yalnız axirət həyatıdır".

Buxari, Riqaq 1, Cihad 33, 110, Mənaqibul-ənsar 9, Məğazi 29; Müslim, Cihad 126. Həmçinin bax. Tirmizi, Mənaqib 55; İbn Macə, Məsacid 3

❁

٤٦٢ ـ وَعَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «يَتْبَعُ الْمَيِّتَ ثَلاَثَةٌ: أَهْلُهُ وَمَالُهُ وَعَمَلُهُ، فَيَرْجِعُ اثْنَانِ وَيَبْقَى وَاحِدٌ: يَرْجِعُ أَهْلُهُ وَمَالُهُ، وَيَبْقَى عَمَلُهُ». مُتَّفَقٌ عَلَيْهِ .

462. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ölən adamı üç şey təqib edər: ailəsi, malı və əməli. Bunlardan ikisi geri qayıdar, biri isə onunla birlikdə qalar. Ailəsi və malı geri qayıdar, əməli isə onunla birlikdə qalar".

Buxari, Riqaq 42; Müslim, Zöhd 5. Həmçinin bax. Tirmizi, Zöhd 46; Nəsai, Cənaiz 52

❁

٤٦٣ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يُؤْتَى بِأَنْعَمِ أَهْلِ الدُّنْيَا مِنْ أَهْلِ النَّارِ يَوْمَ الْقِيَامَةِ ، فَيُصْبَغُ فِي النَّارِ صَبْغَةً ، ثُمَّ يُقَالُ: يَا ابْنَ اٰدَمَ ، هَلْ رَأَيْتَ خَيْرًا قَطُّ ؟ هَلْ مَرَّ بِكَ نَعِيمٌ قَطُّ ؟ فَيَقُولُ: لا واللَّهِ ، يَا رَبِّ ! وَيُؤْتَى بِأَشَدِّ النَّاسِ بُؤْسًا فِي الدُّنْيَا مِنْ أَهْلِ الْجَنَّةِ ، فَيُصْبَغُ صَبْغَةً فِي الْجَنَّةِ ، فَيُقَالُ لَهُ: يَا ابْنَ اٰدَمَ ، هَلْ رَأَيْتَ بُؤْسًا قَطُّ ؟ هَلْ مَرَّ بِكَ شِدَّةٌ قَطُّ ؟ فَيَقُولُ: لاَ وَاللَّهِ ، مَا مَرَّ بِي بُؤْسٌ قَطُّ ، وَلاَ رَأَيْتُ شِدَّةً قَطُّ» ! رَوَاهُ مُسْلِمٌ .

463. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cəhənnəm əhlindən olan, dünyada ikən nemətlər içində üzən bir nəfər qiyamət günü bir dəfə cəhənnəmə daldırılıb çıxarıldıqdan sonra:

- Ey Adəm oğlu, sən xeyirli bir gün gördünmü? Hər hansı bir nemətə sahib oldunmu? - deyilər. O da:

- Xeyr, vallahi Rəbbim! Elə bir şey görmədim,- deyər. Cənnət əhlindən olan, dünyada ikən ən yoxsul olan bir nəfəri də gətirib bir dəfə cənnətə daldırıb çıxardıqdan sonra:

- Ey Adəm oğlu, sən yoxsulluq və sıxıntı gördünmü? Heç qıtlıq və çətinlik gördünmü? - deyilər. O da:

- Xeyr, vallahi Rəbbim! Heç bir yoxsulluq və sıxıntı görmədim, çətinlik və qıtlıq da çəkmədim,- deyər".

Müslim, Münafiqin 55

❁

٤٦٤ ـ عَنِ الْمُسْتَوْرِدِ بْنِ شَدَّادٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَا الدُّنْيَا فِي الْآخِرَةِ إِلاَّ مِثْلُ مَا يَجْعَلُ أَحَدُكُمْ أُصْبُعَهُ فِي الْيَمِّ فَلْيَنْظُرْ بِمَ يَرْجِعُ». رَوَاهُ مُسْلِمٌ .

464. Müstəvrid bin Şəddad *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Axirətə nəzərən dünya sizdən birinin barmağını dənizə salmasına bənzəyir. Həmin adam barmağının nə qədər su ilə geri qayıtdığına baxsın".

Müslim, Cənnət 55

❁

٤٦٥ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ بِالسُّوقِ وَالنَّاسُ كَنَفَيْهِ ، فَمَرَّ بِجَدْيٍ أَسَكَّ مَيِّتٍ ، فَتَنَا وَلَهُ فَأَخَذَ بِأُذُنِهِ ، ثُمَّ قَالَ: «أَيُّكُمْ يُحِبُّ أَنْ يَكُونَ هَذَا لَهُ بِدِرْهَمٍ ؟» . فَقَالُوا: مَا نُحِبُّ أَنَّهُ لَنَا بِشَيْءٍ ، وَمَا نَصْنَعُ بِهِ !؟ ثُمَّ قَالَ: «أَتُحِبُّونَ أَنَّهُ لَكُمْ ؟» قَالُوا: وَاللَّهِ ، لَوْ كَانَ حَيًّا كَانَ عَيْبًا. إِنَّهُ أَسَكُّ ، فَكَيْفَ وَهُوَ مَيِّتٌ! فَقَالَ: «فَوَاللَّهِ، لَلدُّنْيَا أَهْوَنُ عَلَى اللَّهِ مِنْ هَذَا عَلَيْكُمْ». رَوَاهُ مُسْلِمٌ

465. Cabir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* bir gün bazara çıxmışdı. Səhabələr də yanında idilər. Rəsulullah qulağıkəsik bir oğlaq ölüsü gördü. Onun qulağından tutaraq:

- **“Sizdən kim bunu bir dirhəmə almaq istəyər?” -** buyurdu. Səhabələr:

- Ondan da ucuza almarıq, onu neyləyəcəyik ki? - dedilər. Sonra Rəsuli-Əkrəm:

- **“Sizə havayı verilsə, istəyərsinizmi?” -** deyə soruşdu. Onlar:

- Allaha and içirik ki, o diri də olsa qulaqsız olduğuna görə qüsurludur. Ölüsünü nə edəcəyik ki? - cavabını verdilər. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **“Allaha and içirəm ki, Allaha görə dünya qarşınızdakı bu ölmüş oğlaqdan daha dəyərsizdir”, -** buyurdu.

Müslim, Zöhd 2

❁

٤٦٦ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنْتُ أَمْشِي مَعَ النَّبِيِّ ﷺ فِي حَرَّةٍ بِالْمَدِينَةِ، فَاسْتَقْبَلَنَا أُحُدٌ ، فَقَالَ: «يَا أَبَاذَرٍّ» ، قُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ. فَقَالَ: «مَا يَسُرُّنِي أَنَّ عِنْدِي مِثْلَ أُحُدٍ هَذَا ذَهَبًا ، تَمْضِي عَلَيَّ ثَلاَثَةُ أَيَّامٍ وَعِنْدِي مِنْهُ دِينَارٌ إِلاَّ شَيْءٌ أُرْصِدُهُ لِدَيْنٍ ، إِلاَّ أَنْ أَقُولَ بِهِ فِي عِبَادِ اللَّهِ هَكَذَا وَهَكَذَا وَهَكَذَا» عَنْ يَمِينِهِ وَعَنْ شِمَالِهِ وَمِنْ خَلْفِهِ ، ثُمَّ سَارَ فَقَالَ: «إِنَّ الْأَكْثَرِينَ هُمُ الْأَقَلُّونَ يَوْمَ الْقِيَامَةِ إِلاَّ مَنْ قَالَ بِالْمَالِ هَكَذَا وَهَكَذَا وَهَكَذَا» عَنْ يَمِينِهِ وَعَنْ شِمَالِهِ وَمِنْ خَلْفِهِ «وَقَلِيلٌ مَا هُمُ» ! ثُمَّ قَالَ لِي: «مَكَانَكَ ! لاَ تَبْرَحْ حَتَّى آتِيَكَ». ثُمَّ انْطَلَقَ فِي سَوَادِ اللَّيْلِ حَتَّى تَوَارَى ، فَسَمِعْتُ صَوْتًا قَدِ ارْتَفَعَ ، فَتَخَوَّفْتُ أَنْ يَكُونَ أَحَدٌ عَرَضَ لِلنَّبِيِّ ﷺ، فَأَرَدْتُ أَنْ آتِيَهُ ، فَذَكَرْتُ قَوْلَهُ: «لاَ تَبْرَحْ حَتَّى آتِيَكَ» ، فَلَمْ أَبْرَحْ حَتَّى أَتَانِي فَقُلْتُ: لَقَدْ سَمِعْتُ صَوْتًا تَخَوَّفْتُ مِنْهُ ، فَذَكَرْتُ لَهُ ، فَقَالَ: «وَهَلْ سَمِعْتَهُ ؟» قُلْتُ: نَعَمْ ، قَالَ: «ذَاكَ جِبْرِيلُ أَتَانِي فَقَالَ: مَنْ مَاتَ مِنْ أُمَّتِكَ لاَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ الْجَنَّةَ ، قُلْتُ: وَإِنْ زَنَى وَإِنْ سَرَقَ ؟ قَالَ: «وَإِنْ زَنَى وَإِنْ سَرَقَ» ! مُتَّفَقٌ عَلَيْهِ .

466. Əbu Zərr *radiyallahu anh* belə demişdir:

Nəbi *səllallahu əleyhi və səlləmlə* Mədinənin Harra adlanan ərazisində gedirdik. Birdən Uhud dağı qarşımıza çıxdı. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Ey Əbu Zərr!" -** dedi. Mən:

- Buyur, ya Rəsulallah! Əmrinizdəyəm,- dedim. Rəsulullah:

"Yanımda bu Uhud dağı qədər qızıl olsa, məni sevindirməz. Bir borcu ödəmək üçün ayırdığım xaric, yanımda bir dinar ola-ola üç günümün keçməsini istəmərəm. -Rəsulullah önünə, sağına, soluna və arxasına əlləri ilə nə isə vermək işarəsi edərək- yanımda olanları Allahın qullarına belə-belə paylamaq istəyirəm", - buyurdu. Sonra yoluna davam etdi və:

"Dünyada var-dövləti çox olanlar axirətdə savabı az olanlardır. Yalnız sağına, soluna və ardına belə, belə və belə verənlər başqadır. Lakin elələri də çox azdır", - buyurdu. Sonra mənə:

"Mən yanına gələnə qədər yerindən tərpənmə", - deyə xəbərdarlıq edərək gecənin qaranlığında gedərək gözdən itdi. Güclü gurultu səsi eşitdim. Kiminsə Nəbi *səllallahu əleyhi və səlləmə* hücum etməsindən qorxdum. Yanına getmək istədim, lakin "mən yanına gələnə qədər yerindən tərpənmə" sözünü yadıma salıb yerimdən ayrılmadım. Rəsuli-Əkrəm yanıma gələndə:

- Bir səs eşitdim və qorxdum,- deyib eşitdiyim səsdən danışdım. Hz. Peyğəmbər:

- **"Sən o səsi eşitdinmi?" -** deyə soruşdu.

- Bəli,- cavabını verdim. Rəsuli-Əkrəm belə buyurdu:

- **"O gələn Cəbrayıl idi. Ümmətimdən Allaha şərik qoşmayaraq ölən kəsin cənnətə girəcəyini dedi".** Mən:

- Zina və oğurluq etsə də? - dedim. Rəsuli-Əkrəm:

- **"Zina da etsə, oğurluq da etsə nəticədə cənnətə girər", -** buyurdu. [33]

Buxari, İstiqraz 3, Riqaq 14; Müslim, Zəkat 32

33. Cəzasını çəkdikdən sonra cənnətə girər.

٤٦٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «لَوْ كَانَ لِي مِثْلُ أُحُدٍ ذَهَبًا لَسَرَّنِي أَلاَّ تَمُرَّ عَلَيَّ ثَلاَثُ لَيَالٍ وَعِنْدِي مِنْهُ شَيْءٌ إلاَّ شَيْءٌ أُرْصِدُهُ لِدَيْنٍ». مُتَّفَقٌ عَلَيْهِ .

467. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əgər Uhud dağı qədər qızılım olsa, borc ödəmək üçün saxladığım xaric, ondan yanımda bir miqdar ola-ola üç gecəmin keçməməsi məni sevindirər".

Buxari, Təmənni 2, İstizan 30, Riqaq 14; Müslim, Zəkat 31. Həmçinin bax. İbn Macə, Zöhd 8

❁

٤٦٨ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «انْظُرُوا إِلَى مَنْ هُوَ أَسْفَلَ مِنْكُمْ ، وَلاَ تَنْظُرُوا إِلَى مَنْ هُوَ فَوْقَكُمْ ، فَهُوَ أَجْدَرُ أَلاَّ تَزْدَرُوا نِعْمَةَ اللَّهِ عَلَيْكُمْ». مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةِ الْبُخَارِيِّ: «إِذَا نَظَرَ أَحَدُكُمْ إِلَى مَنْ فُضِّلَ عَلَيْهِ فِي الْمَالِ وَالْخَلْقِ فَلْيَنْظُرْ إِلَى مَنْ هُوَ أَسْفَلَ مِنْهُ».

468. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Həyat şərtləri sizinkindən daha aşağı olanlara baxın, sizdən daha üstün olanlara baxmayın. Bu, Allahın sizə olan nemətini xor görməməyiniz üçün daha münasib davranışdır".

Müslim, Zöhd 9. Həmçinin bax. Tirmizi, Qiyamət 58, Libas 38; İbn Macə, Zöhd 9

Buxarinin rəvayəti belədir:

"Sizdən biri mal və yaradılış baxımından özündən üstün olana baxarsa, dərhal özündən daha aşağı dərəcədə olana baxsın".

Buxari, Riqaq 30. Həmçinin bax. Müslim, Zöhd 8

٤٦٩ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «تَعِسَ عَبْدُ الدِّينَارِ وَالدِّرْهَمِ وَالْقَطِيفَةِ وَالْخَمِيصَةِ ، إِنْ أُعْطِيَ رَضِيَ ، وَإِنْ لَمْ يُعْطَ لَمْ يَرْضَ». رَوَاهُ الْبُخَارِيُّ .

469. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qızıl, gümüş, məxmər və ipəyə qul olanlar həlak oldular. Əgər onlara istədikləri verilərsə razı olar, verilməzsə razı olmazlar".

Buxari, Riqaq 10. Həmçinin bax. Buxari, Cihad 70; İbn Macə, Zöhd 8

❁

٤٧٠ ـ وَعَنْهُ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَقَدْ رَأَيْتُ سَبْعِينَ مِنْ أَهْلِ الصُّفَّةِ ، مَا مِنْهُمْ رَجُلٌ عَلَيْهِ رِدَاءٌ: إِمَّا إِزَارٌ وإِمَّا كِسَاءٌ ، قَدْ رَبَطُوا فِي أَعْنَاقِهِمْ ، فَمِنْهَا مَا يَبْلُغُ نِصْفَ السَّاقَيْنِ ، وَمِنْهَا مَا يَبْلُغُ الْكَعْبَيْنِ ، فَيَجْمَعُهُ بِيَدِهِ كَرَاهِيَةَ أَنْ تُرَى عَوْرَتُهُ». رَوَاهُ الْبُخَارِيُّ .

470. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Mən Suffə əhlindən yetmiş nəfər gördüm. Heç birinin əynində bütün bədənini örtən paltar yox idi. Ya beldən aşağısını örtən izarları, ya da bir ucunu boyunlarına bağladıqları köynəkləri vardı. Bunların bəzisi baldırlarının yarısına, bəzisi də topuqlarına çatırdı. Övrət yerləri görülməsin deyə patlarlarını əlləri ilə toplayardılar.

Buxari, Salət 58

❁

٤٧١ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «الدُّنْيَا سِجْنُ الْمُؤْمِنِ وَجَنَّةُ الْكَافِرِ». رَوَاهُ مُسْلِمٌ .

471. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Dünya möminin zindanı, kafirin cənnətidir”. [34]

Müslim, Zöhd 1. Həmçinin bax. Tirmizi, zöhd 16; İbn Macə, Zöhd 3

٤٧٢ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَخَذَ رَسُولُ اللَّهِ ﷺ بِمَنْكِبَيَّ فَقَالَ: «كُنْ فِي الدُّنْيَا كَأَنَّكَ غَرِيبٌ أَوْ عَابِرُ سَبِيلٍ». وَكَانَ ابْنُ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا يَقُولُ: إِذَا أَمْسَيْتَ فَلاَ تَنْتَظِرِ الصَّبَاحَ ، وَإِذَا أَصْبَحْتَ فَلاَ تَنْتَظِرِ الْمَسَاءَ ، وَخُذْ مِنْ صِحَّتِكَ لِمَرَضِكَ ، وَمِنْ حَيَاتِكَ لِمَوْتِكَ . رَوَاهُ الْبُخَارِيُّ .

472. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənim iki çiynimdən tutdu və belə dedi:

“Dünyada sanki bir qərib, yaxud da yol keçən adam kimi ol”. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Axşama çıxanda səhəri gözləmə, səhərə qovuşanda da axşamı gözləmə. Sağlam vaxtı xəstəliyin, ömrün boyu da ölümün üçün tədbir al.

Buxari, Riqaq 3. Həmçinin bax. Tirmizi, Zöhd 25; İbn Macə, Zöhd 3

❁

٤٧٣ ـ عَنْ أَبِي الْعَبَّاسِ سَهْلِ بْنِ سَعْدٍ السَّاعِدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، دُلَّنِي عَلَى عَمَلٍ إِذَا عَمِلْتُهُ أَحَبَّنِي اللَّهُ وَأَحَبَّنِي النَّاسُ . فَقَالَ: «ازْهَدْ فِي الدُّنْيَا يُحِبَّكَ اللَّهُ ، وَازْهَدْ فِيمَا عِنْدَ النَّاسِ يُحِبَّكَ النَّاسُ» . رَوَاهُ ابْنُ مَاجَهْ .

473. Əbul-Abbas Səhl bin Sad əs-Səidi *radiyallahu anhın* dediyinə görə bir nəfər Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Ya Rəsulallah, mənə elə bir əməl de ki, onu etdiyim zaman həm Allah, həm də insanlar məni sevsin,- dedi. Rəsuli-Əkrəm buyurdu:

34. Möminlər üçün cənnətdə hazırlanan nemətlərlə müqayisədə dünyadakı ən dəbdəbəli həyat belə zindan kimidir. Kafirləri cəhənnəmdə gözləyən əzab ilə müqayisədə isə dünyanın ən acınacaqlı halı belə cənnət kimidir.

- **“Dünya və dünyalıqlardan üz çevir, Allah səni sevsin. Camaatın əlindəkindən üz çevir insanlar səni sevsin”.**

İbn Macə, Zöhd 1

٤٧٤ ـ عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: ذَكَرَ عُمَرُ بْنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ مَا أَصَابَ النَّاسُ مِنَ الدُّنْيَا ، فَقَالَ: لَقَدْ رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ يَظَلُّ الْيَوْمَ يَلْتَوِي ، مَا يَجِدُ مِنَ الدَّقَلِ مَا يَمْلأُ بِهِ بَطْنَهُ. رَوَاهُ مُسْلِمٌ .

474. Numan bin Bəşir *radiyallahu anhumə* belə dedi:

Ömər bin Xəttab insanların dünyadan əldə etdiklərindən danışdı və:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* gün uzunu aclıqdan qıvrandığını, qarnını doyduracaq adi xurma tapa bilmədiyini gördüm,- dedi.

Müslim, Zöhd 36. Həmçinin bax. İbn Macə, Zöhd 10

❁

٤٧٥ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: تُوُفِّيَ رَسُولُ اللَّهِ ﷺ وَمَا فِي بَيْتِي مِنْ شَيْءٍ يَأْكُلُهُ ذُو كَبِدٍ إِلاَّ شَطْرُ شَعِيرٍ فِي رَفٍّ لِي ، فَأَكَلْتُ مِنْهُ حَتَّى طَالَ عَلَيَّ ، فَكِلْتُهُ فَفَنِيَ. مُتَّفَقٌ عَلَيْهِ .

475. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* vəfat etmişdi. Həmin vaxt mənim evimin rəfində bir az arpadan başqa hər hansı canlının yeyə biləcəyi heç nə yox idi. Mən uzun müddət ondan yedim. Sonra onu (tərəzidə) çəkdim, tükəndi.

Buxari, Xumus 3, Riqaq 16; Müslim, Zöhd 27. Həmçinin bax. İbn Macə, Ətimə 49

❁

٤٧٦ ـ عَنْ عَمْرِو بْنِ الْحَارِثِ ـ أَخِي جُوَيْرِيَةَ بِنْتِ الْحَارِثِ أُمِّ الْمُؤْمِنِينَ رَضِيَ اللَّهُ عَنْهُمَا ـ قَالَ: مَا تَرَكَ رَسُولُ اللَّهِ ﷺ عِنْدَ مَوْتِهِ دِينَارًا وَلاَ دِرْهَمًا وَلاَ عَبْدًا وَلاَ أَمَةً وَلاَ شَيْئًا ، إِلاَّ بَغْلَتَهُ الْبَيْضَاءَ الَّتِي كَانَ يَرْكَبُهَا ، وَسِلاَحَهُ ، وَأَرْضًا جَعَلَهَا لاِبْنِ السَّبِيلِ صَدَقَةً. رَوَاهُ الْبُخَارِيُّ .

476. Möminlərin anası Cüveyriyyə binti Harisin qardaşı Amr bin Haris *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* vəfat etdiyi zaman mindiyi ağ qatırı, silahı, yol keçənlər üçün vəqf etdiyi ərazi xaricində nə qızıl, nə gümüş, nə kölə, nə cariyə, nə də başqa bir şey miras qoydu.

Buxari, Vəsaya 1, Cihad 61, 86, Xumus 3, Məğazi 83. Həmçinin bax. Nəsai, İhbas 1

❁

٤٧٧ ـ عَنْ خَبَّابِ بْنِ الْأَرَتِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: هَاجَرْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ نَلْتَمِسُ وَجْهَ اللَّهِ تَعَالَى ، فَوَقَعَ أَجْرُنَا عَلَى اللَّهِ ، فَمِنَّا مَنْ مَاتَ وَلَمْ يَأْكُلْ مِنْ أَجْرِهِ شَيْئًا ـ مِنْهُمْ مُصْعَبُ بْنُ عُمَيْرٍ رَضِيَ اللَّهُ عَنْهُ قُتِلَ يَوْمَ أُحُدٍ ، وَتَرَكَ نَمِرَةً. فَكُنَّا إِذَا غَطَّيْنَا بِهَا رَأْسَهُ بَدَتْ رِجْلاَهُ ، وَإِذَا غَطَّيْنَا بِهَا رِجْلَيْهِ بَدَا رَأْسُهُ ؟ فَأَمَرَنَا رَسُولُ اللَّهِ ﷺ أَنْ نُغَطِّيَ رَأْسَهُ ، وَنَجْعَلَ عَلَى رِجْلَيْهِ شَيْئًا مِنَ الْإِذْخِرِ ـ وَمِنَّا مَنْ أَيْنَعَتْ لَهُ ثَمَرَتُهُ فَهُوَ يَهْدِبُهَا. مُتَّفَقٌ عَلَيْهِ .

477. Habbab bin Ərət *radiyallahu anh* belə dedi:

Biz Allah-Təalanın rizasını qazanmağı arzulayaraq Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə Mədinəyə hicrət etdik. Allahın bizə maddi və mənəvi imkanlar verəcəyi dəqiqləşdi. Bizdən bəziləri bu imkanlardan istifadə etmədən dünyasını dəyişdi. Onlardan biri də Musab bin Ümeyr *radiyallahu anh*dır. O, Uhud günü şəhid edilmişdi. Ondan geriyə sadəcə cızıqlı yun kaftan qaldı. Həmin kaftanla başını örtəndə ayaqları çöldə qalır, ayaqlarını örtəndə isə başı açılırdı. Nəhayət, Rəsulullah *səllallahu əleyhi və səlləm* başını örtməyi, ayaqlarına da bir az izxir otu qoymağı əmr etdi. Bizdən bəzilərininsə hicrətinin meyvəsi bar vermiş və onu toplamışdır.

Buxari, Cənaiz 27, Mənaqibul-ənsar 45, Məğazi 17, 26; Müslim, Cənaiz 44. Həmçinin bax. Nəsai, Cənaiz 40

❁

٤٧٨ ـ عَنْ سَهْلِ بْنِ سَعْدٍ السَّاعِدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لَوْ كَانَتِ الدُّنْيَا تَعْدِلُ عِنْدَ اللَّهِ جَنَاحَ بَعُوضَةٍ مَا سَقَى كَافِرًا مِنْهَا شَرْبَةَ مَاءٍ» ! رَوَاهُ التِّرْمِذِيُّ .

478. Səhl bin Sad *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əgər dünyanın Allah qatında ağcaqanadın qanadı qədər qiyməti olsaydı, ondan kafirə bir udum da su verməzdi".

Tirmizi, Zöhd 13. Həmçinin bax. İbn Macə, Zöhd 3

❁

٤٧٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «أَلاَ إِنَّ الدُّنْيَا مَلْعُونَةٌ مَلْعُونٌ مَا فِيهَا إِلاَّ ذِكْرَ اللَّهِ تَعَالَى وَمَا وَالاَهُ ، وَعَالِمًا وَمُتَعَلِّمًا». رَوَاهُ التِّرْمِذِيُّ .

479. Əbu Hüreyrə *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini demişdir:

"Ayıq-sayıq olun, şübhəsiz ki, dünya dəyərsizdir. Dünyadakı var-dövlət də qiymətsizdir. Yalnız Allah-Təalanın zikri və ona yaxınlaşdıran şeylərlə, öyrədən və öyrənən olmaq başqa".

Tirmizi, Zöhd 14. Həmçinin bax. İbn Macə, Zöhd 3

❁

٤٨٠ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَتَّخِذُوا الضَّيْعَةَ فَتَرْغَبُوا فِي الدُّنْيَا» . رَوَاهُ التِّرْمِذِيُّ .

480. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

"Özünüzü dünya malına qapdırmayın. Əks təqdirdə ona bağlanıb qalarsınız".

Tirmizi, Zöhd 20. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd I, 377, 426, 443

❁

٤٨١ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: مَرَّ عَلَيْنَا رَسُولُ اللَّهِ ﷺ وَنَحْنُ نُعَالِجُ خُصًّا لَنَا ، فَقَالَ: «مَا هَذَا ؟» فَقُلْنَا: قَدْ وَهَى ، فَنَحْنُ نُصْلِحُهُ. فَقَالَ: «مَا أَرَى الْأَمْرَ إِلاَّ أَعْجَلَ مِنْ ذَلِكَ» ! رَوَاهُ أَبُو دَاوُدَ.

481. Abdullah bin Amr bin As *radiyallahu anhumə* belə dedi:

Bizə aid daxmanı təmir edərkən Rəsulullah *səllallahu əleyhi və səlləm* yanımızdan keçmişdi.

- **"Nə edirsiniz?" -** deyə soruşdu. Biz:

- Yıxılmaq üzrəydi, təmir edirik,- dedik.

- **"Əcəlin bundan daha erkən olacağını zənn edirəm", -** buyurdu.

Əbu Davud, Ədəb 156, 157; Tirmizi, Zöhd 25

❁

٤٨٢ ـ عَنْ كَعْبِ بْنِ عِيَاضٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ لِكُلِّ أُمَّةٍ فِتْنَةً ، وَفِتْنَةُ أُمَّتِي: الْمَالُ» . رَوَاهُ التِّرْمِذِيُّ .

482. Kab bin İyaz *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitmişdir:

"Şübhəsiz ki, hər ümmətin bir fitnəsi vardır. Ümmətimin fitnəsi (imtahanı) də maldır".

Tirmizi, Zöhd 26

❁

٤٨٣ ـ عَنْ أَبِي عَمْرٍو ـ وَيُقَالُ أَبُو عَبْدِ اللَّهِ، وَيُقَالُ أَبُو لَيْلَى ـ عُثْمَانَ بْنِ عَفَّانَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «لَيْسَ لابْنِ اٰدَمَ حَقٌّ فِي سِوَى هَذِهِ الْخِصَالِ: بَيْتٌ يَسْكُنُهُ ، وَثَوْبٌ يُوَارِي عَوْرَتَهُ ، وَجِلْفُ الْخُبْزِ ، وَالْمَاءُ». رَوَاهُ التِّرْمِذِيُّ .

483. Əbu Amr (ona Əbu Abdullah və Əbu Leyla da deyilir) Osman bin Affan *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Adəm oğlunun bunlardan başqa heç bir haqqı yoxdur: yaşayacağı ev, bədənini örtəcək paltar, yeyəcəyi çörək və su dolduracağı qab".

Tirmizi, Zöhd 30

❁

٤٨٤ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ الشِّخِّيرِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ وَهُوَ يَقْرَأُ: ﴿اَلْهٰيكُمُ التَّكَاثُرُ﴾ قَالَ: «يَقُولُ ابْنُ اٰدَمَ: مَالِي مَالِي ! وَهَلْ لَكَ يَاابْنَ اٰدَمَ مِنْ مَالِكَ إلاَّ مَا أَكَلْتَ فَأَفْنَيْتَ ، أَوْ لَبِسْتَ فَأَبْلَيْتَ ، أَوْ تَصَدَّقْتَ فَأَمْضَيْتَ !؟».

رَوَاهُ مُسْلِمٌ .

484. Abdullah bin Şihhir *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına getmişdim. "Əlhə-kumut-təkəsur" surəsini oxuyurdu.Surəni oxuyub qurtaran kimi belə dedi:

"Adəm oğlu malım-malım deyib durur. Ey Adəm oğlu, yeyib tükətdiyin, geyib köhnəltdiyin və ya sədəqə verib savab qazanmaq üçün öncədən göndərdiyindən başqa malın varmı?"

Müslim, Zöhd 3-4. Həmçinin bax. Tirmizi, Zöhd 31, Təfsiru surə (102) 1; Nəsai, Vəsaya 1

❁

٤٨٥ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ مُغَفَّلٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَجُلٌ لِلنَّبِيِّ ﷺ: يَا رَسُولَ اللَّهِ ، وَاللَّهِ إِنِّي لَأُحِبُّكَ. فَقَالَ: «انْظُرْ مَاذَا تَقُولُ ؟ » قَالَ: وَاللَّهِ إِنِّي لَأُحِبُّكَ ، ثَلاَثَ مَرَّاتٍ. فَقَالَ: «إِنْ كُنْتَ تُحِبُّنِي فَأَعِدَّ لِلْفَقْرِ تِجْفَافًا ، فَإِنَّ الْفَقْرَ أَسْرَعُ إِلَى مَنْ يُحِبُّنِي مِنَ السَّيْلِ إِلَى مُنْتَهَاهُ» . رَوَاهُ التِّرْمِذِيُّ .

485. Abdullah bin Muğaffəl *radiyallahu anh* belə dedi:

Bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləmə*:

- Ey Allahın Rəsulu, Allaha and içirəm ki, mən səni sevirəm,- dedi. Rəsulullah ona:

- **"Sən nə dediyini bilirsənmi?" -** buyurdu. O:

- Allaha and içirəm ki, səni sevirəm,- dedi və bu sözü üç dəfə təkrar etdi. Rəsuli-Əkrəm:

- **“Əgər məni sevirsənsə, onda kasıblığa qarşı özünə bir zireh hazırla. Çünki kasıblıq məni sevəni axan seldən daha tez haqlayır”,** - buyurdu.

Tirmizi, Zöhd 36

٤٨٦ ـ عَنْ كَعْبِ بْنِ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَا ذِئْبَانِ جَائِعَانِ أُرْسِلاَ فِي غَنَمٍ بِأَفْسَدَ لَهَا مِنْ حِرْصِ الْمَرْءِ عَلَى الْمَالِ وَالشَّرَفِ لِدِينِهِ» . رَوَاهُ التِّرْمِذِيُّ .

486. Kab bin Malik *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Bir qoyun sürüsünə soxulan iki ac qurdun o sürüyə vurduğu ziyan mala və vəzifəyə düşkün bir adamın dininə verdiyi zərərdən daha böyük deyil”.

Tirmizi, Zöhd 43

❁

٤٨٧ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: نَامَ رَسُولُ اللَّهِ ﷺ عَلَى حَصِيرٍ فَقَامَ وَقَدْ أَثَّرَ فِي جَنْبِهِ ، قُلْنَا: يَا رَسُولَ اللَّهِ لَوِ اتَّخَذْنَا لَكَ وِطَاءً. فَقَالَ: «مَالِي وَلِلدُّنْيَا ؟ مَا أَنَا فِي الدُّنْيَا إِلاَّ كَرَاكِبٍ اسْتَظَلَّ تَحْتَ شَجَرَةٍ ثُمَّ رَاحَ وَتَرَكَهَا». رَوَاهُ التِّرْمِذِيُّ .

487. Abdullah bin Məsud *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bir həsirin üstündə yatmışdı. Yuxudan duranda həsir bədəninin bir tərəfinə iz salmışdı. Biz:

- Ya Rəsulallah sənin üçün bir döşək hazırlasaq necə olar? - dedik. Rəsuli-Əkrəm:

“Mənim dünya ilə münasibətim nə qədərdir ki? Mən bu dünyada bir ağacın altında kölgələnən, sonra da oradan qalxıb gedən bir atlı kimiyəm”, - buyurdu.

Tirmizi, Zöhd 44

❁

٤٨٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَدْخُلُ الْفُقَرَاءُ الْجَنَّةَ قَبْلَ الْأَغْنِيَاءِ بِخَمْسِ مِئَةِ عَامٍ». رَوَاهُ التِّرْمِذِيُّ .

488. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kasıblar cənnətə varlılardan beş yüz il tez girərlər".

Tirmizi, Zöhd 37. Həmçinin bax. İbn Macə, Zöhd 6

❁

٤٨٩ ـ عَنِ ابْنِ عَبَّاسٍ وَعِمْرَانَ بْنِ الْحُصَيْنِ رَضِيَ اللَّهُ عَنْهُمْ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «اطَّلَعْتُ فِي الْجَنَّةِ ، فَرَأَيْتُ أَكْثَرَ أَهْلِهَا الْفُقَرَاءَ ، وَاطَّلَعْتُ فِي النَّارِ فَرَأَيْتُ أَكْثَرَ أَهْلِهَا النِّسَاءَ». مُتَّفَقٌ عَلَيْهِ .

489. İbn Abbas və İmran bin Husayn *radiyallahu anhumdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cənnəti yaxından tanıdım, oradakıların çoxunun kasıblar olduğunu gördüm. Cəhənnəmi də yaxından tanıdım, orada olanların da çoxunun qadınlar olduğunu gördüm".

Buxari, Nikah 88, Riqaq 16, 51, Bədul-xalq 8; Müslim, Zikr 94. Həmçinin bax. Tirmizi, Cəhənnəm 11

❁

٤٩٠ ـ عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «قُمْتُ عَلَى بَابِ الْجَنَّةِ ، فَكَانَ عَامَّةُ مَنْ دَخَلَهَا الْمَسَاكِينَ ! وَأَصْحَابُ الْجَدِّ مَحْبُوسُونَ ! غَيْرَ أَنَّ أَصْحَابَ النَّارِ قَدْ أُمِرَ بِهِمْ إِلَى النَّارِ» . مُتَّفَقٌ عَلَيْهِ .

490. Üsamə bin Zeyd *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cənnətin qapısında dayandım, ora girənlərin əksəriyyəti dünyada heç nəyi olmayan yoxsullar idi. İmkanlı adamlar hesaba çəkilmək üçün

gözləyirdilər. Cəhənnəmlik olanlarınsa cəhənnəmə atılmaları əmr olunmuşdu".

Buxari, Nikah 87, Riqaq 51; Müslim, Zikr 93

٤٩١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أَصْدَقُ كَلِمَةٍ قَالَهَا شَاعِرٌ كَلِمَةُ لَبِيدٍ: أَلاَ كُلُّ شَيْءٍ مَا خَلاَ اللَّهَ بَاطِلٌ». مُتَّفَقٌ عَلَيْهِ .

491. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Şairlərin söylədiyi sözlərin ən doğrusu Ləbidin bu sözüdür: Bilin ki, Allahdan başqa hər şey yox olacaqdır".

Buxari, Mənaqibul-ənsar 26, Ədəb 90, Riqaq 29; Müslim, Şi'r 2-6. Həmçinin bax. Tirmizi, Ədəb 70; İbn Macə, Ədəb 41

ACLIĞIN VƏ SADƏ YAŞAMAĞIN ÜSTÜNLÜYÜ

YEMƏK-İÇMƏK, GEYİM VƏ BUNLARDAN ƏLAVƏ NƏFSİN XOŞLANDIĞI ŞEYLƏRDƏ ORTA YOLU TUTMAĞIN VƏ ŞƏHVANİ ARZULARI TƏRK ETMƏYİN ÜSTÜNLÜYÜ

Ayələr

فَخَلَفَ مِنْ بَعْدِهِمْ خَلْفٌ أَضَاعُوا الصَّلاَةَ وَاتَّبَعُوا الشَّهَوَاتِ فَسَوْفَ يَلْقَوْنَ غَيًّا إِلاَّ مَنْ تَابَ وَاٰمَنَ وَعَمِلَ صَالِحًا فَأُولَئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلاَ يُظْلَمُونَ شَيْئًا.

1. "Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar öz əməllərinin cəzasını alacaqlar. Tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Onlar heç bir zülm (haqsızlıq) **görmədən Cənnətə daxil olacaqlar".**

(Məryəm, 59-60)

فَخَرَجَ عَلَى قَوْمِهِ فِي زِينَتِهِ قَالَ الَّذِينَ يُرِيدُونَ الْحَيَاةَ الدُّنْيَا يَا لَيْتَ لَنَا مِثْلَ مَا أُوتِيَ قَارُونُ إِنَّهُ لَذُو حَظٍّ عَظِيمٍ وَقَالَ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَيْلَكُمْ ثَوَابُ اللَّهِ خَيْرٌ لِمَنْ آمَنَ وَعَمِلَ صَالِحًا.

2. "(Bir gün Qarun) **Ehtişamlı libas geyib öz zinəti içində** (dörd min vəznəli-çuxalı əyanın, qızıl-gümüş yəhərli atların müşayiətilə) **qövmünün qarşısına çıxdı. Dünyaya həris olanlar dedilər: "Kaş ki, Qaruna verilən (dövlət) bizə də veriləydi. Həqiqətən, o, böyük bəxt (qismət) sahibidir!"** (Axirət barəsində) **elm verilmiş kəslər isə belə dedilər: "Vay halınıza!** (Ay yazıqlar!) **İman gətirib yaxşı əməl edən kimsə üçün Allahın mükafatı** (təmənnasında olduğunuz var-dövlətdən, dəbdəbədən) **daha yaxşıdır. Buna** (bu nemətə) **yalnız səbir edənlər** (Allaha itaət və ibadət etməyi fani dünya malından üstün tutanlar, həyatın çətinliklərinə dözənlər) **qovuşarlar!"**

(əl-Qasas, 79-80)

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ.

3. "Sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) **nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!"**

(ət-Təkasur, 8)

مَنْ كَانَ يُرِيدُ الْعَاجِلَةَ عَجَّلْنَا لَهُ فِيهَا مَا نَشَاءُ لِمَنْ نُرِيدُ ثُمَّ جَعَلْنَا لَهُ جَهَنَّمَ يَصْلاَهَا مَذْمُومًا مَدْحُورًا.

4. "Hər kəs fani dünyanı istəsə, dilədiyimiz şəxsə istədiyimiz neməti orada tezliklə verərik. Sonra isə (axirətdə) **ona Cəhənnəmi məskən edərik. O,** (Cəhənnəmə) **qınanmış,** (Allahın mərhəmətindən) **qovulmuş bir vəziyyətdə daxil olar!"**

(əl-İsra, 18)

٤٩٢ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَا شَبِعَ آلُ مُحَمَّدٍ ﷺ مِنْ خُبْزِ شَعِيرٍ يَوْمَيْنِ مُتَتَابِعَيْنِ حَتَّى قُبِضَ ! مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: مَا شَبِعَ آلُ مُحَمَّدٍ ﷺ مُنْذُ قَدِمَ الْمَدِينَةَ مِنْ طَعَامِ الْبُرِّ ثَلاَثَ لَيَالٍ تِبَاعًا حَتَّى قُبِضَ !

492. Aişə *radiyallahu anhə* belə dedi:

Muhammməd *səllallahu əleyhi və səlləmin* ailəsi onun vəfatına qədər iki gün ard-arda arpa çörəyi ilə qarnını doydurmadı.

Buxari, Əyman 22; Müslim, Zöhd 22. Həmçinin bax. Buxari, Ətimə 23, 27; Nəsai, Dahaya 37; İbn Macə, Ətimə 48, 49

Müslimin bir rəvayəti belədir:

Muhammməd *səllallahu əleyhi və səlləmin* ailə üzvləri Mədinəyə gəldiyi gündən vəfat etdiyi ana qədər üç gün ard-arda buğda çörəyi ilə qarınlarını doydurmadılar.

Müslim, Zöhd 20. Həmçinin bax. Buxari, Riqaq 17

❁

٤٩٣ ـ عَنْ عُرْوَةَ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّهَا كَانَتْ تَقُولُ وَاللَّهِ يَا ابْنَ أُخْتِي، إِنْ كُنَّا لَنَنْظُرُ إِلَى الْهِلاَلِ ، ثُمَّ الْهِلاَلِ ، ثُمَّ الْهِلاَلِ: ثَلاَثَةُ أَهِلَّةٍ فِي شَهْرَيْنِ وَمَا أُوقِدَ فِي أَبْيَاتِ رَسُولِ اللَّهِ ﷺ نَارٌ ! قُلْتُ: يَا خَالَةُ ، فَمَا كَانَ يُعِيشُكُمْ ؟ قَالَتِ: الْأَسْوَدَانِ: التَّمْرُ وَالْمَاءُ ، إِلاَّ أَنَّهُ قَدْ كَانَ لِرَسُولِ اللَّهِ ﷺ جِيرَانٌ مِنَ الْأَنْصَارِ ، وَكَانَتْ لَهُمْ مَنَايِحُ ، وَكَانُوا يُرْسِلُونَ إِلَى رَسُولِ اللَّهِ ﷺ مِنْ أَلْبَانِهَا فَيَسْقِينَا . مُتَّفَقٌ عَلَيْهِ .

493. Urvənin Aişə *radiyallahu anhədən* rəvayət etdiyinə görə o:

Ey bacım oğlu, Allaha and olsun ki, bir hilalı, sonra digərini, sonra başqasını, yəni iki ayda üç hilal görürdük, lakin Rəsulullah *səllallahu əleyhi və səlləmin* evində ocaq yanmazdı,- demişdi. Mən:

- Xalacan, bəs nə ilə dolanırdınız? - dedim. Xalam:

- İki qara ilə, yəni xurma və su. Lakin Rəsulullah *səllallahu əleyhi və səlləmin* sağmal heyvanları olan qonşuları vardı. Onlar həmin heyvanların südündən Rəsulullah *səllallahu əleyhi və səlləmə* göndərirdilər, o da bizə içirdirdi,- dedi.

Buxari, Hibə 1; Riqaq 17; Müslim, Zöhd 28

❁

٤٩٤ ـ عَنْ أَبِي سَعِيدٍ الْمَقْبُرِيِّ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ مَرَّ بِقَوْمٍ بَيْنَ أَيْدِيهِمْ شَاةٌ مَصْلِيَّةٌ ، فَدَعَوْهُ فَأَبَى أَنْ يَأْكُلَ ، وَقَالَ: خَرَجَ رَسُولُ اللَّهِ ﷺ مِنَ الدُّنْيَا وَلَمْ يَشْبَعْ مِنْ خُبْزِ الشَّعِيرِ. رَوَاهُ الْبُخَارِيُّ .

494. Əbu Səid əl-Məqburinin Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət etdiyinə görə Əbu Hüreyrə önlərində qızardılmış qoyun olan bir qrup adamla qarşılaşdı. Onu dəvət etdilər, lakin o yemək istəmədi və:

Rəsulullah *səllallahu əleyhi və səlləm* arpa çörəyindən doymadan bu dünyanı tərk etdi,- dedi.

Buxari, Ətimə 23

❁

٤٩٥ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَمْ يَأْكُلِ النَّبِيُّ ﷺ عَلَى خِوَانٍ حَتَّى مَاتَ، وَمَا أَكَلَ خُبْزًا مُرَقَّقًا حَتَّى مَاتَ . رَوَاهُ الْبُخَارِيُّ .

وَفِي رِوَايَةٍ لَهُ : وَلاَ رَأَى شَاةً سَمِيطًا بِعَيْنِهِ قَطُّ.

495. Ənəs *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* vəfat etdiyi günə qədər təkəbbür süfrəsində yemək yemədi. Həmçinin vəfat edənə qədər saf undan bişirilmiş çörək də yemədi.

Buxarinin bir rəvayəti isə belədir:

Hz. Peyğəmbər qızardılmış bütöv qoyun görmədi.

Buxari, Ətimə 8, Riqaq 16. Həmçinin bax. Tirmizi, Ətimə 1, Zöhd 38; İbn Macə, Ətimə 20

❁

٤٩٦ ـ عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: لَقَدْ رَأَيْتُ نَبِيَّكُمْ ﷺ وَمَا يَجِدُ مِنَ الدَّقَلِ مَا يَمْلَأُ بِهِ بَطْنَهُ ! رَوَاهُ مُسْلِمٌ .

496. Numan bin Bəşir *radiyallahu anhumə* belə dedi:

Mən Peyğəmbərimiz *səllallahu əleyhi və səlləmin* qarnını doyduracaq adi bir xurma belə tapmadığını gördüm.

Müslim, Zöhd 34, 36. Həmçinin bax. Tirmizi, Zöhd 39; İbn Macə, Zöhd 10

❁

٤٩٧ ـ عَنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: مَارَأَى رَسُولُ اللَّهِ ﷺ النَّقِيَّ مِنْ حِينَ ابْتَعَثَهُ اللَّهُ تَعَالَى حَتَّى قَبَضَهُ اللَّهُ تَعَالَى. فَقِيلَ لَهُ: هَلْ كَانَ لَكُمْ فِي عَهْدِ رَسُولِ اللَّهِ ﷺ مَنَاخِلُ ؟ قَالَ: مَا رَأَى رَسُولُ اللَّهِ ﷺ مُنْخُلاً مِنْ حِينَ ابْتَعَثَهُ اللَّهُ تَعَالَى حَتَّى قَبَضَهُ اللَّهُ تَعَالَى . فَقِيلَ لَهُ : كَيْفَ كُنتُمْ تَأْكُلُونَ الشَّعِيرَ غَيْرَ مَنْخُولٍ؟ قَالَ: كُنَّا نَطْحَنُهُ وَنَنْفُخُهُ فَيَطِيرُ مَا طَارَ، وَمَا بَقِيَ ثَرَّيْنَاهُ. رَوَاهُ الْبُخَارِيُّ.

497. Səhl bin Sad *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Allah tərəfindən peyğəmbər göndərildiyi andan vəfat etdirildiyi günə qədər ələkdən keçmiş (kəpəksiz) xalis un görmədi. Səhldən soruşdular:

- Siz Rəsulullah *səllallahu əleyhi və səlləmin* dövründə ələkdən istifadə edirdiniz? Səhl:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* Allah tərəfindən peyğəmbər göndərildiyi andan vəfat etdirildiyi günə qədər ələk də görmədi,- dedi. Səhl bin Sada:

- Ələnməmiş arpa ununu necə yeyirdiniz? - dedilər. Bu cavabı verdi:

- Biz arpanı üyüdür, sonra isə sovururduq. Kəpəyin havaya uçanı uçar, qalanını da isladıb xəmir yoğurardıq.

Buxari, Ətimə 23

❁

٤٩٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَرَجَ رَسُولُ اللَّهِ ﷺ ذَاتَ يَوْمٍ أَوْ لَيْلَةٍ ، فَإِذَا هُوَ بِأَبِي بَكْرٍ وَعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا فَقَالَ: «مَا أَخْرَجَكُمَا مِنْ بُيُوتِكُمَا هَذِهِ السَّاعَةَ ؟» قَالَا: الْجُوعُ ، يَا رَسُولَ اللَّهِ. قَالَ: «وَأَنَا وَالَّذِي نَفْسِي بِيَدِهِ ، لَأَخْرَجَنِي الَّذِي أَخْرَجَكُمَا ! قُومَا». فَقَامَا مَعَهُ فَأَتَى رَجُلاً مِنَ الْأَنْصَارِ ، فَإِذَا هُوَ لَيْسَ فِي بَيْتِهِ ، فَلَمَّا رَأَتْهُ الْمَرْأَةُ قَالَتْ: مَرْحَبًا وَأَهْلاً. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَيْنَ فُلَانٌ ؟» قَالَتْ: ذَهَبَ يَسْتَعْذِبُ لَنَا الْمَاءَ. إِذْ جَاءَ الْأَنْصَارِيُّ ،

فَنَظَرَ إِلَى رَسُولِ اللَّهِ ﷺ وَصَاحِبَيْهِ ، ثُمَّ قَالَ: الْحَمْدُ لِلَّهِ ، مَا أَحَدٌ الْيَوْمَ أَكْرَمَ أَضْيَافًا مِنِّي ، فَانْطَلَقَ فَجَاءَهُمْ بِعِذْقٍ فِيهِ بُسْرٌ وَتَمْرٌ وَرُطَبٌ فَقَالَ: كُلُوا. وَأَخَذَ الْمُدْيَةَ ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ : «إِيَّاكَ وَالْحَلُوبَ». فَذَبَحَ لَهُمْ. فَأَكَلُوا مِن الشَّاةِ ، وَمِنْ ذَلِكَ الْعِذْقِ ، وَشَرِبُوا. فَلَمَّا أَنْ شَبِعُوا وَرَوُوْا قَالَ رَسُولُ اللَّهِ ﷺ لِأَبِي بَكْرٍ وَعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا: «وَالَّذِي نَفْسِي بِيَدِهِ ، لَتُسْأَلُنَّ عَنْ هَذَا النَّعِيمِ يَوْمَ الْقِيَامَةِ ! أَخْرَجَكُمْ مِنْ بُيُوتِكُمُ الْجُوعُ ، ثُمَّ لَمْ تَرْجِعُوا حَتَّى أَصَابَكُمْ هَذَا النَّعِيمُ». رَوَاهُ مُسْلِمٌ .

498. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Bir gün (və ya bir gecə) Rəsulullah *səllallahu əleyhi və səlləm* evdən çölə çıxmışdı. Əbu Bəkr və Ömər *radiyallahu anhumənin* orada olduğunu gördü. Onlardan soruşdu:

- "Bu saatda sizi evdən çölə çıxmağa vadar edən səbəb nədir?" Onlar:

- Acıq, ya Rəsulallah! - dedilər. Peyğəmbərimiz:

"Güc-qüdrəti ilə canımı əlində tutan Allaha and içirəm ki, sizi evinizdən çıxaran səbəb məni də evimdən çıxmağa vadar etdi. Haydı, qalxın", - buyurdu. İkisi də ayağa qalxıb Rəsuli-Əkrəmlə birlikdə ənsardan bir nəfərin evinə getdilər. Lakin həmin adam da evdə yox idi. Xanımı Rəsulullahı görən kimi:

- Xoş gəldiniz, buyurun,- dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm* ərini qəsd edərək:

- "Filankəs hardadır?" - deyə soruşdu. Qadın:

- Bizə içməli su gətirməyə gedib,- dedi. Elə bu əsnada evin sahibi olan mədinəli səhabə gəldi, Rəsulullah *səllallahu əleyhi və səlləmə* və iki yoldaşına baxdıqdan sonra:

- Allaha həmd olsun, bu gün heç kim qonaq cəhətdən məndən xoşbəxt ola bilməz,- dedi. Dərhal gedib üstündə qorası, yetişmişi və yaşı olan xurma salxımı gətirdi.

- Buyurun, yeyin, dedikdən sonra bıçağı əlinə aldı. Rəsulullah *səllallahu əleyhi və səlləm* ona:

- **“Sağmal heyvanlara toxunma”, -** dedi. Ev sahibi onlar üçün bir qoyun kəsdi. Onlar da qoyunun ətindən və xurmadan yedilər, içməli sudan içdilər. Hamısı yeməkdən doyub susuzluğunu yatırdıqdan sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* Əbu Bəkr və Ömər *radiyallahu anhuməyə* belə dedi:

- **“Güc-qüdrəti ilə canımı əlində tutan Allaha and içirəm ki, qiyamət günü bu nemətlərdən hesaba çəkiləcəksiniz. Sizi evinizdən aclıq çıxardı, sonra isə evinizə qayıtmadan bu nemətlərə nail oldunuz”.**

Müslim, Əşribə 140

❁

٤٩٩ ـ وَعَنْ خَالِدِ بْنِ عُمَرَ الْعَدَوِيِّ قَالَ: خَطَبَنَا عُتْبَةُ بْنُ غَزْوَانَ ـ وَكَانَ أَمِيرًا عَلَى الْبَصْرَةِ ـ فَحَمِدَ اللَّهَ وَأَثْنَى عَلَيْهِ ثُمَّ قَالَ: أَمَّا بَعْدُ ، فَإِنَّ الدُّنْيَا قَدْ آذَنَتْ بِصُرْمٍ ، وَوَلَّتْ حَذَّاءَ ، وَلَمْ يَبْقَ مِنْهَا إِلاَّ صُبَابَةٌ كَصُبَابَةِ الْإِنَاءِ يَتَصَابُّهَا صَاحِبُهَا ! وَإِنَّكُمْ مُنْتَقِلُونَ مِنْهَا إِلَى دَارٍ لاَ زَوَالَ لَهَا ، فَانْتَقِلُوا بِخَيْرِ مَا بِحَضْرَتِكُمْ ، فَإِنَّهُ قَدْ ذُكِرَ لَنَا أَنَّ الْحَجَرَ يُلْقَى مِنْ شَفِيرِ جَهَنَّمَ ، فَيَهْوِي فِيهَا سَبْعِينَ عَامًا لاَ يُدْرِكُ لَهَا قَعْرًا ! وَاللَّهِ لَتُمْلَأَنَّ ! أَفَعَجِبْتُمْ ؟ وَلَقَدْ ذُكِرَ لَنَا أَنَّ مَا بَيْنَ مِصْرَاعَيْنِ مِنْ مَصَارِيعِ الْجَنَّةِ مَسِيرَةُ أَرْبَعِينَ عَامًا ، وَلَيَأْتِيَنَّ عَلَيْهَا يَوْمٌ وَهُوَ كَظِيظٌ مِنَ الزِّحَامِ. وَلَقَدْ رَأَيْتُنِي سَابِعَ سَبْعَةٍ مَعَ رَسُولِ اللَّهِ ﷺ مَا لَنَا طَعَامٌ إِلاَّ وَرَقُ الشَّجَرِ ، حَتَّى قَرِحَتْ أَشْدَاقُنَا فَالْتَقَطْتُ بُرْدَةً ، فَشَقَقْتُهَا بَيْنِي وَبَيْنَ سَعْدِ بْنِ مَالِكٍ ، فَاتَّزَرْتُ بِنِصْفِهَا وَاتَّزَرَ سَعْدٌ بِنِصْفِهَا ، فَمَا أَصْبَحَ الْيَوْمَ مِنَّا أَحَدٌ إِلاَّ أَصْبَحَ أَمِيرًا عَلَى مِصْرٍ مِنَ الْأَمْصَارِ. وَإِنِّي أَعُوذُ بِاللَّهِ أَنْ أَكُونَ فِي نَفْسِي عَظِيمًا ، وَعِنْدَ اللَّهِ صَغِيرًا . رَوَاهُ مُسْلِمٌ .

499. Xalid bin Ömər əl-Ədəvi belə dedi:

Bəsrə əmiri olan Utbə bin Qəzvan bizə bir xütbə oxudu. Əvvəlcə Allaha həmd-səna etdi. Sonra sözünə belə davam etdi:

Şübhəsiz ki, dünya fani olduğunu bildirdi və elə hey arxasını çevirib gedir. Ondan geriyə qalan miqdar sahibinin içdikdən sonra qabın dibində

saxladığı su qədərdir. Siz bu dünyadan fani olmayan dünyaya köçəcəksiniz. Ora xeyirli, yaxşı və gözəl əməllərinizlə köçməyə çalışın. Çünki bizə deyilənə görə cəhənnəmin kənarından atılan bir daş yetmiş il yol qət etdikdən sonra da onun dibinə çatmayacaqdır. Allaha and içirəm ki, cəhənnəm mütləq doldurulacaqdır. Bu sizi təəccübləndirdimi? Həmçinin bizə deyilənə görə cənnətin qapılarının iki tayı arasında qırx illik məsafə var. Elə bir gün gələcək ki, izdihamdan qapısına qədər dolacaqdır. Mən Rəsulullah *səllallahu əleyhi və səlləmlə* birlikdə olan yeddi nəfərin yedincisi olduğumu görmüşəm. Bizim ağac yaprağından başqa qidalanacağımız heç nəyimiz yox idi. Bu səbəbdən dodaqlarımız yara olmuşdu. Mən əynimə geyinmək üçün bir örtü tapmışdım, onu da ikiyə bölüb Sad bin Maliklə paylaşmışdıq. Yarısını mən, digər yarısını isə Sad belinə bağlamışdı. Bu gün hər birimiz bir şəhərdə vali olmuşuq. Mən özümü böyük görüb, Allah qatında kiçik olmaqdan Haqq-Təalaya sığınıram.

Müslim, Zöhd 14

❁

٥٠٠ ـ عَـنْ أَبِي مُوسَـى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَخْرَجَتْ لَنَا عَائِشَةُ رَضِيَ اللَّـهُ عَنْهَا كِسَاءً وَإِزَارًا غَلِيظًا. قَالَتْ: قُبِضَ رَسُولُ اللَّهِ ﷺ فِي هَذَيْنِ مُتَّفَقٌ عَلَيْهِ .

500. Əbu Musa əl-Əşari *radiyallahu anh* belə dedi:

Aişə *radiyallahu anhə* bizim üçün bir arxalıq, bir də qalın izar[35] çıxardı və:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bu ikisinin arasında vəfat etdi,- dedi.

Buxari, Xumus 5; Libas 19; Müslim, Libas 35. Həmçinin bax. Əbu Davud, Libas 5; Tirmizi, Libas 10; İbn Macə, Libas 1

❁

٥٠١ ـ عَـنْ سَـعْدِ بْـنِ أَبِي وَقَّـاصٍ رَضِيَ اللَّـهُ عَنْهُ قَالَ: إِنِّي لَأَوَّلُ الْعَرَبِ رَمَـى بِسَـهْمٍ فِي سَـبِيلِ اللَّهِ. وَلَقَدْ كُنَّا نَغْزُو مَعَ رَسُولِ اللَّهِ ﷺ مَا لَنَا طَعَامٌ إِلاَّ وَرَقُ الْحُبْلَـةِ وَهَـذَا السَّمُرُ، حَتَّى إِنْ كَانَ أَحَدُنَا لَيَضَعُ كَمَا تَضَعُ الشَّاةُ، مَا لَهُ خِلْطٌ. مُتَّفَقٌ عَلَيْهِ .

35. Beldən aşağı geyilən geyim

501. Sad bin Əbu Vaqqas *radiyallahu anh* belə dedi:

Ərəblər arasında ilk dəfə Allah yolunda ox atan mənəm. Biz Rəsulullah *səllallahu əleyhi və səlləmlə* birlikdə döyüşərdik. Bildiyiniz Hublə və Səmur ağacının yarpaqlarından başqa yeməyə heç nəyimiz olmazdı. Hətta bu ağac yarpaqlarından yediyimiz üçün dəstəmaz pozarkən eynilə qoyun kimi qığlayardıq.

Buxari, Ətimə 23, Riqaq 17; Müslim, Zöhd 12-13. Həmçinin bax. Tirmizi, Zöhd 39; İbn Macə, Zöhd 12

❁

٥٠٢ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «اللَّهُمَّ اجْعَلْ رِزْقَ آلِ مُحَمَّدٍ قُوتًا». مُتَّفَقٌ عَلَيْهِ .

502. Əbu Hüreyrə *radiyallahu anhddan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahım, Muhammməd ailəsinə kifayət edəcək qədər ruzi ver!"

Buxari, Riqaq 17; Müslim, Zöhd 18, 19. Həmçinin bax. Tirmizi, Zöhd 38

❁

٥٠٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: وَاللَّهِ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ إِنْ كُنْتُ لَأَعْتَمِدُ بِكَبِدِي عَلَى الْأَرْضِ مِنَ الْجُوعِ ، وَإِنْ كُنْتُ لَأَشُدُّ الْحَجَرَ عَلَى بَطْنِي مِنَ الْجُوعِ. وَلَقَدْ قَعَدْتُ يَوْمًا عَلَى طَرِيقِهِمُ الَّذِي يَخْرُجُونَ مِنْهُ ، فَمَرَّ بِي النَّبِيُّ ﷺ فَتَبَسَّمَ حِينَ رَآنِي ، وَعَرَفَ مَا فِي وَجْهِي وَمَا فِي نَفْسِي ، ثُمَّ قَالَ: «أَبَا هِرٍّ». قُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ ، قَالَ: «الْحَقْ» ، وَمَضَى فَاتَّبَعْتُهُ ، فَدَخَلَ فَاسْتَأْذَنَ فَأَذِنَ لِي فَدَخَلْتُ ، فَوَجَدَ لَبَنًا فِي قَدَحٍ فَقَالَ: «مِنْ أَيْنَ هَذَا اللَّبَنُ ؟ » قَالُوا: أَهْدَاهُ لَكَ فُلاَنٌ ـ أَوْ فُلاَنَةُ ـ قَالَ: «أَبَا هِرٍّ» ، قُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ ، قَالَ: «الْحَقْ إِلَى أَهْلِ الصُّفَّةِ فَادْعُهُمْ لِي» (قَالَ): وَأَهْلُ الصُّفَّةِ أَضْيَافُ الْإِسْلاَمِ ، لاَ يَأْوُونَ عَلَى أَهْلٍ وَلاَ مَالٍ وَلاَ عَلَى أَحَدٍ ، وَكَانَ إِذَا أَتَتْهُ صَدَقَةٌ بَعَثَ بِهَا إِلَيْهِمْ ، وَلَمْ يَتَنَاوَلْ مِنْهَا شَيْئًا ؛ وَإِذَا أَتَتْهُ هَدِيَّةٌ أَرْسَلَ إِلَيْهِمْ

وَأَصَابَ مِنْهَا وَأَشْرَكَهُمْ فِيهَا. فَسَائَنِي ذَلِكَ ، فَقُلْتُ: وَمَا هَذَا اللَّبَنُ فِي أَهْلِ الصُّفَّةِ ! كُنْتُ أَحَقَّ أَنْ أُصِيبَ مِنْ هَذَا اللَّبَنِ شَرْبَةً أَتَقَوَّى بِهَا ، فَإِذَا جَاؤُوا وَأَمَرَنِي فَكُنْتُ أَنَا أُعْطِيهِمْ ؛ وَمَا عَسَى أَنْ يَبْلُغَنِي مِنْ هَذَا اللَّبَنِ ! وَلَمْ يَكُنْ مِنْ طَاعَةِ اللَّهِ وَطَاعَةِ رَسُولِ اللَّهِ ﷺ بُدٌّ. فَأَتَيْتُهُمْ فَدَعَوْتُهُمْ ، فَأَقْبَلُوا وَاسْتَأْذَنُوا ، فَأَذِنَ لَهُمْ وَأَخَذُوا مَجَالِسَهُمْ مِنَ الْبَيْتِ . قَالَ: «أَبَا هِرٍّ» ، قُلْتُ لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ. قَالَ: «خُذْ فَأَعْطِهِمْ». (قَالَ): فَأَخَذْتُ الْقَدَحَ فَجَعَلْتُ أُعْطِيهِ الرَّجُلَ فَيَشْرَبُ حَتَّى يَرْوَى ثُمَّ يَرُدُّ عَلَيَّ الْقَدَحَ فَأُعْطِيهِ الْآخَرَ فَيَشْرَبُ حَتَّى يَرْوَى ، ثُمَّ يَرُدُّ عَلَيَّ الْقَدَحَ حَتَّى انْتَهَيْتُ إِلَى النَّبِيِّ ﷺ وَقَدْ رَوِيَ الْقَوْمُ كُلُّهُمْ ، فَأَخَذَ الْقَدَحَ فَوَضَعَهُ عَلَى يَدِهِ ، فَنَظَرَ إِلَيَّ فَتَبَسَّمَ فَقَالَ: «أَبَا هِرٍّ» ، قُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ ، قَالَ: «بَقِيتُ أَنَا وَأَنْتَ» ، قُلْتُ: صَدَقْتَ يَا رَسُولَ اللَّهِ ، قَالَ: «اقْعُدْ فَاشْرَبْ» فَقَعَدْتُ فَشَرِبْتُ. فَقَالَ: «اشْرَبْ»، فَشَرِبْتُ ، فَمَا زَالَ يَقُولُ: «اشْرَبْ» حَتَّى قُلْتُ: لاَ وَالَّذِي بَعَثَكَ بِالْحَقِّ لاَ أَجِدُ لَهُ مَسْلَكًا ، قَالَ: «فَأَرِنِي» ، فَأَعْطَيْتُهُ الْقَدَحَ ، فَحَمِدَ اللَّهَ تَعَالَى وَسَمَّى وَشَرِبَ الْفَضْلَةَ. رَوَاهُ الْبُخَارِيُّ .

503. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Özündən başqa ilah olmayan Allaha and içirəm ki, bəzən acından qarnımı yerə dirəyər, bəzən də mədəmə daş bağlayardım. Bir gün səhabələrin keçdiyi yolun üstündə oturmuşdum. Rəsulullah *səllallahu əleyhi və səlləm* yanımdan keçdi və məni görüb gülümsədi. Ürəyimdən keçəni üzümdən oxudu və:

- **"Ey Əbu Hüreyrə", -** dedi.

- Buyurun, ya Rəsulallah! - dedim. Rəsuli-Əkrəm:

- **"Ardımca gəl", -** buyurdu və yoluna davam etdi. Mən də onu təqib etdim. Hz. Peyğəmbər evinə girdi, mən də girmək üçün izin istədim. İzin verdi, içəri girdim. Bir qabda süd tapdı və:

- **“Bu süd hardan gəlib?” -** deyə soruşdu.

- Filan kişi və ya qadın onu sizə hədiyyə etdi,- dedilər. Rəsuli-Əkrəm:

- **“Əbu Hüreyrə!” -** deyə mənə səsləndi.

- Buyurun, ya Rəsulallah,- dedim.

- **“Suffə əhlinin yanına get, onları bura çağır”, -** buyurdu. Əbu Hüreyrə deyir ki:

Suffə əhli İslamın qonaqları idilər. Onların nə sığınacaq ailəsi, nə malı, nə də kimsələri vardı. Peyğəmbərə bir sədəqə gətiriləndə onlara göndərər, özü isə ondan götürməzdi. Lakin hədiyyə gəldikdə isəonlara da göndərər, özü də ondan bir az götürər və beləliklə gələn hədiyyəni onlarla bölüşərdi. Hz. Peyğəmbərin suffə əhlini dəvət etməsi xoşuma gəlmədi. Öz-özümə: Bu süd suffə əhlindən kimə çatacaq ki! Onu içib güc toplamaq daha çox mənim haqqım idi. Halbuki onlar gələndə Rəsulullah mənə əmr edəcək mən də onlara verəcəyəm. Bəlkə heç həmin süddən mənə qalmayacaq. Lakin Allah Rəsulunun əmrinə itaət etməmək də olmaz,- dedim. Onların yanına gedib dəvət etdim. Dəvəti qəbul edib içəri girmək üçün izin istədilər. İzin veriləndən sonra evə girib yerlərində oturdular. Hz. Peyğəmbər:

- **“Əbu Hüreyrə!” -** deyə səsləndi.

- Buyurun, ya Rəsulallah! - dedim.

- **“Götür onlara ver!” -** buyurdu. Mən də süd qabını götürüb hər kəsə verməyə başladım. Qabı kimə versəm, doyunca içir, sonra geri verirdi. Mən başqasına verirdim, o da doyunca içir, sonra geri verirdi. Ən sonda qabı Nəbi *səllallahu əleyhi və səlləmə* verdim. Hər kəs süddən doymuşdu. Rəsulullah qabı əlinə aldı, mənə baxıb gülümsədi. Sonra:

- **“Əbu Hüreyrə!” -** dedi.

- Buyurun, ya Rəsulallah,- dedim.

- **“Bir mən qaldım, bir də sən”, -** buyurdu. Mən:

- Doğru söylədiniz, ya Rəsulallah,- dedim.

- **“Otur, iç!” -** buyurdu. Mən də oturub içdim. Sonra yenə:

- **“Otur, iç!” -** buyurdu. Yenə oturub içdim. Rəsuli-Əkrəm elə hey:

- **“İç, iç”, -** buyururdu. Nəhayət, mən:

- Xeyr. Səni haqq peyğəmbər göndərən Allaha and olsun ki, artıq içəcək yerim qalmadı,- dedim.

- **"Mənə ver", -** buyurdu. Qabı Rəsuli-Əkrəmə verdim. Allah-Təalaya həmd etdi, bismillah deyib qalan südü özü içdi.

Buxari, Riqaq 17

❁

٥٠٤ ـ عَنْ مُحَمَّدِ بْنِ سِيرِينَ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَقَدْ رَأَيْتُنِي وَإِنِّي لَأَخِرُّ فِيمَا بَيْنَ مِنْبَرِ رَسُولِ اللَّهِ ﷺ إِلَى حُجْرَةِ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا مَغْشِيًّا عَلَيَّ ، فَيَجِيءُ الْجَائِي فَيَضَعُ رِجْلَهُ عَلَى عُنُقِي ، وَيَرَى أَنِّي مَجْنُونٌ وَمَا بِي مِنْ جُنُونٍ مَا بِي إِلاَّ الْجُوعُ. رَوَاهُ الْبُخَارِيُّ .

504. Muhammməd bin Sirindən nəql edildiyinə görə Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* minbəri ilə Aişənin otağı arasında özümdən gedib yıxıldığımıbilirəm. Biri gəlib məni dəli zənn edərək ayağını boynuma qoyardı. Halbuki mən dəli deyildim və aclıqdan başqa dərdim yox idi.

Buxari, Etisam 16. Həmçinin bax. Tirmizi, Zöhd 39

❁

٥٠٥ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: تُوُفِّيَ رَسُولُ اللَّهِ ﷺ وَدِرْعُهُ مَرْهُونَةٌ عِنْدَ يَهُودِيٍّ فِي ثَلاَثِينَ صَاعًا مِنْ شَعِيرٍ. مُتَّفَقٌ عَلَيْهِ .

505. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* vəfat edəkən zirehi otuz ölçək arpa qaşılığında bir yəhudinin yanında girov idi.

Buxari, Cihad 89, Məğazi 86, Büyu 14; Müslim, Müsaqat 124-126. Həmçinin bax. Tirmizi, Büyu 7; Nəsai, Büyu 58, 83; İbn Macə, Ruhun 1

❁

٥٠٦ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَهَنَ النَّبِيُّ ﷺ دِرْعَهُ بِشَعِيرٍ، وَمَشَيْتُ إِلَى النَّبِيِّ ﷺ بِخُبْزِ شَعِيرٍ وَإِهَالَةٍ سَنِخَةٍ ، وَلَقَدْ سَمِعْتُهُ يَقُولُ: «مَا أَصْبَحَ لِاٰلِ مُحَمَّدٍ صَاعٌ وَلاَ أَمْسَى» وَإِنَّهُمْ لَتِسْعَةُ أَبْيَاتٍ ! رَوَاهُ الْبُخَارِيُّ .

506. Ənəs *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* arpa almaq üçün zirehini girov qoymuşdu. Mən Nəbi *səllallahu əleyhi və səlləmə* bir arpa çörəyi və ərimiş boyat piy aparmışdım. Onun belə buyurduğunu eşitdim:

"Muhammməd ailəsinin doqquz ev olduğu halda yanlarında bir ölçək yemək olmadan səhərə çıxdıqları və axşamladıqları olur".

Buxari, Büyu 14, Rəhin 1. Həmçinin bax. Tirmizi, Büyu 7

❁

٥٠٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَقَدْ رَأَيْتُ سَبْعِينَ مِنْ أَهْلِ الصُّفَّةِ مَا مِنْهُمْ رَجُلٌ عَلَيْهِ رِدَاءٌ ، إِمَّا إِزَارٌ وَإِمَّا كِسَاءٌ ، قَدْ رَبَطُوا فِي أَعْنَاقِهِمْ: مِنْهَا مَا يَبْلُغُ نِصْفَ السَّاقَيْنِ ، وَمِنْهَا مَا يَبْلُغُ الْكَعْبَيْنِ ، فَيَجْمَعُهُ بِيَدِهِ كَرَاهِيَةَ أَنْ تُرَى عَوْرَتُهُ.رَوَاهُ الْبُخَارِيُّ .

507. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Mən Suffə əhlindən yetmiş nəfər gördüm. Heç birinin əynində bütün bədənini örtən paltar yox idi. Ya beldən aşağısını örtən izarları, ya da bir ucunu boyunlarına bağladıqları köynəkləri vardı. Bunların bəzisi baldırlarının yarısına, bəzisi də topuqlarına çatırdı. Övrət yerləri görülməsin deyə patlarlarını əlləri ilə toplayardılar.

Buxari, Salət 58

❁

٥٠٨ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ فِرَاشُ رَسُولِ اللَّهِ ﷺ مِنْ أَدَمٍ حَشْوُهُ لِيفٌ . رَوَاهُ الْبُخَارِيُّ .

508. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* yatağının üzü aşılanmış dəridən, içi isə yumşaq xurma lifindən idi.

Buxari, Riqaq 17. Həmçinin bax. Müslim, Libas 38; Əbu Davud, Libas 42; Tirmizi, Libas 27; İbn Macə, Zöhd 11

٥٠٩ ـ عَـنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كُنَّا جُلُوسًا مَعَ رَسُولِ اللَّهِ ﷺ إِذْ جَـاءَ رَجُلٌ مِنَ الْأَنْصَارِ فَسَلَّمَ عَلَيْهِ ، ثُمَّ أَدْبَرَ الْأَنْصَارِيُّ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَـا أَخَـا الْأَنْصَـارِ ، كَيْـفَ أَخِـي سَـعْدُ بْنُ عُبَادَةَ ؟» فَقَالَ: صَالِحٌ ، فَقَـالَ رَسُـولُ اللَّـهِ ﷺ : «مَـنْ يَعُودُهُ مِنكُمْ ؟» فَقَامَ وَقُمْنَا مَعَهُ وَنَحْنُ بِضْعَةَ عَشَرَ مَا عَلَيْنَا نِعَالٌ وَلاَ خِفَافٌ وَلاَ قَلاَنِسُ وَلاَ قُمُصٌ ، نَمْشِي فِي تِلْكَ السِّبَاخ حَتَّـى جِئْنَـاهُ ، فَاسْـتَأْخَرَ قَوْمُهُ مِنْ حَوْلِهِ حَتَّى دَنَا رَسُولُ اللَّهِ ﷺ وَأَصْحَابُه الَّذِينَ مَعَهُ. رَوَاهُ مُسْلِمٌ .

509. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Biz Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə oturmuşduq. Bu əsnada ənsardan bir nəfər gəlib ona salam verdi, sonra geri qayıtdı. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- "Ey ənsardan olan qardaş, qardaşım Sad bin Übadə necədir?" - deyə soruşdu. O da:

- Yaxşılaşmağa doğru gedir,- cavabını verdi. Bu cavabı alan Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Sizdən kim onu ziyarət edəcək?" -** deyərək ayağa qalxdı. Biz də on-on beş nəfər onunla birlikdə ayağa durduq. Nə ayağımızda ayaqqabı və məst, nə başımızda bir şey, nə də əynimizdə köynək vardı. Bu quraq ərazidə gedirdik. Nəhayət, Sadın yanına çatdıq. Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə əshabının yaxınlaşması üçün qövmü onun ətrafından geri çəkildi.

Müslim, Cənaiz 13

❁

٥١٠ ـ عَـنْ عِمْـرَانَ بْـنِ حُصَيْنٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ: «خَيْرُكُـمْ قَـرْنِي ، ثُـمَّ الَّذِيـنَ يَلُونَهُـمْ ، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ» . ـ قَالَ عِمْرَانُ : فَمَا أَدْرِي قَـالَ النَّبِـيُّ ﷺ مَرَّتَـيْنِ أَوْ ثَلاَثًـا ـ ثُـمَّ يَكُـونُ بَعْدَهُـمْ قَوْمٌ يَشْهَدُونَ وَلاَ يُسْتَشْـهَدُونَ ، وَيَخُونُـونَ وَلاَ يُؤْتَمَنُـونَ ، وَيَنْـذُرُونَ وَلاَ يُوفُـونَ ، وَيَظْهَـرُ فِيهِـم السِّمَنُ». مُتَّفَقٌ عَلَيْهِ .

510. İmran bin Husayn *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizin xeyirli olanlarınız mənim dövrümdə yaşayanlarınızdır. Sonra mənim dövrümdə yaşayanlara yaxın olanlar, sonra da onlara yaxın olanlardır". İmran deyir ki:

Nəbi *səllallahu əleyhi və səlləmin* **"Sonra onlara yaxın olanlardır"** sözünü iki, yoxsa üç dəfə dediyini bilmirəm. Rəsulullah *səllallahu əleyhi və səlləm* sözünə belə davam etdi:

"Onlardan sonra elə bir topluluq gələr ki, onlardan şahidlik istənmədiyi halda şahidlik edərlər, xəyanət etdikləri üçün onlara güvənilməz, nəzir deyərlər, lakin yerinə yetirməzlər. Həmçinin onlarda köklük təzahür edər".

Buxari, Şəhadət 9, Fəzailu əshabin-Nəbi 1, Riqaq 7, Əyman 10, 27; Müslim, Fəzailus-səhabə 214. Həmçinin bax. Tirmizi, Fitən 45, Şəhadət 4, Mənaqib 56; İbn Macə, Əhkam 27

❁

٥١١ ـ عَنْ أَبِي أُمَامَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَا ابْنَ آدَمَ ، إِنَّكَ أَنْ تَبْذُلَ الْفَضْلَ خَيْرٌ لَكَ وَأَنْ تُمْسِكْهُ شَرٌّ لَكَ ، وَلاَ تُلاَمُ عَلَى كَفَافٍ ، وَابْدَأْ بِمَنْ تَعُولُ». رَوَاهُ التِّرْمِذِيُّ .

511. Əbu Ümamə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ey Adəm oğlu, ehtiyacından artıq malını sədəqə verməyin sənin üçün xeyirlidir. Əgər verməyib əlində saxlasan, sənin üçün zərərlidir. Kifayət miqdarı mala sahib olduğun üçün Allah qatında məsul olmazsan. Xərcləməyə baxmaqla mükəlləf olduqlarından başla".

Tirmizi, Zöhd 32. Həmçinin bax. Müslim, Zəkat 97

❁

٥١٢ ـ عَنْ عُبَيْدِ اللَّهِ بْنِ مِحْصَنٍ الْأَنْصَارِيِّ الْخَطْمِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ أَصْبَحَ مِنْكُمْ آمِنًا فِي سِرْبِهِ ، مُعَافًى فِي جَسَدِهِ ، عِنْدَهُ قُوتُ يَوْمِهِ ، فَكَأَنَّمَا حِيزَتْ لَهُ الدُّنْيَا بِحَذَافِيرِهَا». رَوَاهُ التِّرْمِذِيُّ .

512. Übeydullah bin Mihsan əl-Ənsari əl-Xətmi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən hər kim canı və malı əmniyyət içində, vücudu səhhət və afiyətdə, gündəlik qidası da yanında olduğu halda sabahlayarsa, sanki bütün dünya ona verilmiş kimidir".

Tirmizi, Zöhd 34. Həmçinin bax. İbn Macə, Zöhd 9

❁

٥١٣ ـ عَـنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَـالَ : « لَقَدْ أَفْلَحَ مَنْ أَسْلَمَ ، وَكَانَ رِزْقُهُ كَفَافًا ، وَقَنَّعَهُ اللَّهُ بِمَا آتَاهُ». رَوَاهُ مُسْلِمٌ .

513. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Müsəlman olan, kifayət qədər ruzi verilən, Allahın verdiyi nemətə qənaət edən kəs şübhəsiz ki, qurtuluşa çatmışdır".

Müslim, Zəkat 125. Həmçinin bax. Tirmizi, Zöhd 35; İbn Macə, Zöhd 9

❁

٥١٤ ـ عَـنْ أَبِي مُحَمَّدٍ فَضَالَةَ بْنِ عُبَيْدٍ الْأَنْصَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ سَمِعَ رَسُـولَ اللَّـهِ ﷺ يَقُـولُ: «طُوبَـى لِمَـنْ هُـدِيَ لِلْإِسْـلَامِ ، وَكَانَ عَيْشُهُ كَفَافًا ، وَقَنَعَ». رَوَاهُ التِّرْمِذِيُّ .

514. Əbu Muhammməd Fədalə bin Übeyd əl-Ənsari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İslamın yoluna hidayət olunan və dolanışığı kifayət miqdarında olduğu halda buna qane olan kəs necə də xoşbəxtdir".

Tirmizi, Zöhd 35

❁

٥١٥ ـ عَـنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَبِيتُ اللَّيَـالِيَ الْمُتَتَابِعَـةَ طَاوِيًـا ، وَأَهْلُـهُ لاَ يَجِـدُونَ عَشَـاءً ، وَكَانَ أَكْثَرُ خُبْزِهِمْ خُبْزَ الشَّعِيرِ. رَوَاهُ التِّرْمِذِيُّ .

515. İbn Abbas *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* yemək yemədən ard-arda bir neçə günü ac keçirərdi. Ailəsi də yemək üçün şam yeməyi tapmazdı. Çox vaxt yedikləri çörək arpa çörəyi olardı.

Tirmizi, Zöhd 38. Həmçinin bax. İbn Macə, Ətimə 49

❁

٥١٦ ـ عَـنْ فَضَالَـةَ بْـنِ عُبَيْـدٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ إِذَا صَـلَّى بِالنَّـاسِ يَخِـرُّ رِجَـالٌ مِـنْ قَـامَتِهِمْ فِي الصَّـلاَةِ مِـنَ الْخَصَاصَـةِ ـ وَهُـمْ أَصْحَـابُ الصُّفَّةِ ـ حَتَّى يَقُولَ الْأَعْرَابُ: هَؤُلاَءِ مَجَانِينُ ! فَإِذَا صَلَّى رَسُولُ اللَّهِ ﷺ انْـصَرَفَ إِلَيْهِـمْ فَقَـالَ: «لَـوْ تَعْلَمُـونَ مَا لَكُمْ عِنْدَ اللَّهِ تَعَالَى لَأَحْبَبْتُمْ أَنْ تَزْدَادُوا فَاقَةً وَحَاجَةً». رَوَاهُ التِّرْمِذِيُّ .

516. Fədalə bin Übeyd *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* əshabına namaz qıldırarkən onlardan bəzisi alcığın verdiyi taqətsizlik üzündən ayaq üstə dayana bilməz, yıxılıb özündən gedərdi. Onlar Suffə əshabı idi. Səhradan gələn bədəvilər onlara dəli deyərdilər. Rəsulullah *səllallahu əleyhi və səlləm* namazdan sonra acından bayılanların yanına gedər və onlara:

"Allah-Təalanın yanında sizin üçün nələr hazırlandığını bilsəydiniz, daha yoxsul və möhtac olmağı istəyərdiniz", - buyurardı.

Tirmizi, Zöhd 39

❁

٥١٧ ـ عَـنْ أَبِي كَرِيمَةَ الْمِقْدَادِ بْنِ مَعْدِيكَرِبَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُـولَ اللَّـهِ ﷺ يَقُـولُ: «مَـا مَـلَأَ آدَمِيٌّ وِعَاءً شَرًّا مِنْ بَطْنِهِ. بِحَسْبِ ابْنِ آدَمَ أُكُـلاَتٌ يُقِمْـنَ صُلْبَـهُ ، فَـإِنْ كَـانَ لاَ مَحَالَـةَ فَثُلُـثٌ لِطَعَامِهِ ، وَثُلُثٌ لِشَرَابِهِ ، وَثُلُثٌ لِنَفَسِهِ». رَوَاهُ التِّرْمِذِيُّ .

517. Əbu Kərimə Miqdad bin Madikərib *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Heç kim mədəsindən daha təhlükəli bir qab doldurmamışdır. Halbuki insana özünü ayaq üstə tutacaq bir neçə loğma kifayətdir. Əgər çox yeyəcəksə, mədəsinin üçdə birini yeməyə, üçdə birini suya, üçdə birini də nəfəsinə ayırmalıdır".

Tirmizi, Zöhd 47. Həmçinin bax. İbn Macə, Ətimə 50

❁

٥١٨ ـ عَـنْ أَبِي أُمَامَـةَ إِيَـاسِ بْنِ ثَعْلَبَةَ الْأَنْصَارِيِّ الْحَارِثِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَـالَ: ذَكَـرَ أَصْحَابُ رَسُولِ اللَّهِ ﷺ يَوْمًا عِنْدَهُ الدُّنْيَا ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَلاَ تَسْـمَعُونَ ؟ أَلاَ تَسْـمَعُونَ ؟ إِنَّ الْبَـذَاذَةَ مِـنَ الْإِيـمَانِ ، إِنَّ الْبَذَاذَةَ مِنَ الْإِيمَانِ ». رَوَاهُ أَبُو دَاوُدَ.

518. Əbu Ümamə İyas bin Sələbə əl-Harisi *radiyallahu anh* belə dedi:

Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləmin* əshabı onun yanında dünyadan söz açdılar. Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Siz eşitmirsiniz? Eşitmirsiniz? Sadə yaşamaq imandandır, bəli, sadə yaşamaq imandandır".

Əbu Davud, Tərəccül 1; Həmçinin bax. İbn Macə, Zöhd 4

❁

٥١٩ ـ عَـنْ أَبِي عَبْـدِ اللَّـهِ جَـابِرِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: بَعَثَنَا رَسُـولُ اللَّـهِ ﷺ وَأَمَّـرَ عَلَيْنَـا أَبَـا عُبَيْـدَةَ رَضِيَ اللَّـهُ عَنْـهُ نَتَلَقَّى عِيرًا لِقُرَيْشٍ وَزَوَّدَنَـا جِرَابًـا مِنْ تَمْرٍ لَمْ يَجِدْ لَنَا غَيْرَهُ. فَكَانَ أَبُو عُبَيْدَةَ يُعْطِينَا تَمْرَةً تَمْرَةً. فَقِيلَ: كَيْـفَ كُنْتُـمْ تَصْنَعُـونَ بِهَا؟ قَالَ: نَمَصُّهَا كَمَا يَمَصُّ الصَّبِيُّ، ثُمَّ نَشْرَبُ عَلَيْهَا مِـنَ الْمَـاءِ، فَتَكْفِينَـا يَوْمَنَـا إِلَى اللَّيْلِ. وَكُنَّا نَضْرِبُ بِعِصِيِّنَا الْخَبَطَ ثُمَّ نَبُلُّهُ بِالْمَاءِ فَنَأْكُلُـهُ. قَـالَ: وَانْطَلَقْنَـا عَـلَى سَاحِلِ الْبَحْرِ فَرُفِعَ لَنَا عَلَى سَاحِلِ الْبَحْرِ كَهَيْئَةِ الْكَثِيـبِ الضَّخْـمِ، فَأَتَيْنَـاهُ فَإِذَا هِيَ دَابَّةٌ تُدْعَى الْعَنْبَرَ، فَقَالَ أَبُو عُبَيْدَةَ: مَيْتَةٌ ثُـمَّ قَـالَ: لاَ ، بَـلْ نَحْنُ رُسُلُ رَسُولِ اللَّهِ ﷺ وَفِي سَبِيلِ اللَّهِ، وَقَدْ اضْطُرِرْتُمْ فَكُلُـوا ، فَأَقَمْنَـا عَلَيْـهِ شَهْرًا وَنَحْنُ ثَلاَثُ مِئَةٍ حَتَّى سَمِنَّا. وَلَقَدْ رَأَيْتُنَا نَغْتَرِفُ مِـنْ وَقْـبِ عَيْنِهِ بِالْقِلاَلِ الدُّهْنَ، وَنَقْطَعُ مِنْهُ الْفِدَرَ كَالثَّوْرِ أَوْ كَقَدْرِ الثَّوْرِ، وَلَقَدْ أَخَـذَ مِنَّا أَبُو عُبَيْدَةَ ثَلاَثَةَ عَشَرَ رَجُلًا فَأَقْعَدَهُمْ فِي وَقْبِ عَيْنِهِ، وَأَخَذَ ضِلَعًا مِنْ أَضْلاَعِـهِ فَأَقَامَهَـا، ثُـمَّ رَحَلَ أَعْظَمَ بَعِيرٍ مَعَنَا، فَمَرَّ مِنْ تَحْتِهَا وَتَزَوَّدْنَا مِنْ لَحْمِهِ وَشَـائِقَ ، فَلَمَّا قَدِمْنَا الْمَدِينَةَ أَتَيْنَا رَسُولَ اللَّهِ ﷺ فَذَكَرْنَا ذَلِكَ لَهُ ، فَقَالَ: «هُوَ رِزْقٌ أَخْرَجَـهُ اللَّـهُ لَكُمْ ، فَهَلْ مَعَكُمْ مِنْ لَحْمِهِ شَيْءٌ فَتُطْعِمُونَا ؟» فَأَرْسَلْنَا إِلَى رَسُولِ اللَّهِ ﷺ مِنْهُ فَأَكَلَهُ. رَوَاهُ مُسْلِمٌ .

519. Əbu Abdullah Cabir bin Abdullah *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Əbu Übeydə *radiyallahu anh*ı başımıza əmir təyin edərək bizi Qüreyş karvanının qarşısına çıxmağa göndərdi. Bizə azuqə olaraq da bir xurcun xurma verdi. Vermək üçün başqa heç nə tapmamışdı. Əbu Übeydə bizə xurmanı bir-bir verirdi. Qulaq asanlardan biri soruşdu:

- O xurmalarla necə dolanırdınız? Cabir:

- Uşaq məməni əmdiyi kimi onları əmir, sonra da üstündən su içirdik. Həmin gün gecəyə kimi bizə kifayət edirdi. Əsalarımızla ağac yarpaqlarını silkələyir, sonra onları su ilə isladıb yeyirdik,- dedi. Sonra

sözünə belə davam etdi: Biz dəniz sahili boyu getdik. Sahildə qarşımıza böyük qum təpəsi kimi bir şey çıxdı. Onun yanına getdik. Bir də gördük ki, Ənbər adlanan balıqdır. Əbu Übeydə:

- Bu, ölüdür (yemək olmaz),- dedi. Sonra da: Xeyr, biz Rəsulullahın elçiləriyik və Allah yolundayıq. Siz hədsiz dərəcə çətinlik içindəsiniz, haydı yeyin,- dedi. Biz üç yüz nəfər idik və bir ay ərzində onun ətindən yeyərək orada qaldıq. Hətta kökəldik. Balığın göz çuxurundan sinilərlə yağ götürdüyümüzü xatırlayıram. Biz ondan öküz böyüklükdə tikələr kəsirdik. Əbu Übeydə bizdən on üç nəfəri onun göz çuxuruna oturtdu. Onun qabırğa sümüklərindən birini də götürüb yerə basdırdı. Sonra yanımızdakı ən böyük dəvəyə minib qabırğa sümüyünün altından keçdi. Balığın ətindən basdırma da hazırladıq. Mədinəyə qayıdanda Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gedib baş verənləri danışdıq. Rəsuli-Əkrəm:

"O, Allahın sizin üçün çıxardığı bir ruzidir. Yanınızda onun ətindən qalıbmı? Qalıbsa bizə də verin, dadına baxaq", - buyurdu. Biz ondan bir tikə Rəsulullah *səllallahu əleyhi və səlləmə* göndərdik, o da yedi.

Müslim, Sayd 17

❁

٥٢٠ ـ عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ كُمُّ قَمِيصِ رَسُولِ اللَّهِ ﷺ إِلَى الرُّسْغِ. رَوَاهُ أَبُو دَاوُدَ .

520. Əsma binti Yezid *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* köynəyinin qolu biləyinə qədər idi.

Əbu Davud, Libas 3; Tirmizi, Libas 28

❁

٥٢١ ـ وَعَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: إِنَّا كُنَّا يَوْمَ الْخَنْدَقِ نَحْفِرُ فَعَرَضَتْ كُدْيَةٌ شَدِيدَةٌ فَجَاؤُا إِلَى النَّبِيِّ ﷺ فَقَالُوا: هَذِهِ كُدْيَةٌ عَرَضَتْ فِي الْخَنْدَقِ. فَقَالَ: «أَنَا نَازِلٌ» ثُمَّ قَامَ وَبَطْنُهُ مَعْصُوبٌ بِحَجَرٍ وَلَبِثْنَا ثَلاَثَةَ أَيَّامٍ لاَ نَذُوقُ ذَوَاقًا فَأَخَذَ النَّبِيُّ ﷺ الْمِعْوَلَ فَضَرَبَ فَعَادَ كَثِيبًا أَهْيَلَ أَوْ أَهْيَمَ، فَقُلْتُ: يَا

رَسُولَ اللَّهِ ائْذَنْ لِي إِلَى الْبَيْتِ فَقُلْتُ لامْرَأَتِي: رَأَيْتُ بِالنَّبِيِّ ﷺ شَيْئًا مَا فِي ذَلِكَ صَبْرٌ فَعِنْدَكِ شَيْءٌ؟ فَقَالَتْ: عِنْدِي شَعِيرٌ وَعَنَاقٌ فَذَبَحْتُ الْعَنَاقَ وَطَحَنْتُ الشَّعِيرَ حَتَّى جَعَلْنَا اللَّحْمَ فِي الْبُرْمَةِ ثُمَّ جِئْتُ النَّبِيَّ ﷺ وَالْعَجِينُ قَدِ انْكَسَرَ وَالْبُرْمَةُ بَيْنَ الْأَثَافِيِّ قَدْ كَادَتْ تَنْضَجُ فَقُلْتُ: طُعَيِّمٌ لِي فَقُمْ أَنْتَ يَارَسُولَ اللَّهِ وَرَجُلٌ أَوْ رَجُلاَنِ، قَالَ: «كَمْ هُوَ؟» فَذَكَرْتُ لَهُ فَقَالَ «كَثِيرٌ طَيِّبٌ قُلْ لَهَا لاَ تَنْزِعِ الْبُرْمَةَ وَلاَ الْخُبْزَ مِنَ التَّنُّورِ حَتَّى آتِيَ» فَقَالَ «قُومُوا» فَقَامَ الْمُهَاجِرُونَ وَالْأَنْصَارُ فَدَخَلْتُ عَلَيْهَا فَقُلْتُ: وَيْحَكِ قَدْ جَاءَ النَّبِيُّ ﷺ وَالْمُهَاجِرُونَ وَالْأَنْصَارُ وَمَنْ مَعَهُمْ قَالَتْ: هَلْ سَأَلَكَ؟ قُلْتُ: نَعَمْ قَالَ: «ادْخُلُوا وَلاَ تَضَاغَطُوا» فَجَعَلَ يَكْسِرُ الْخُبْزَ وَيَجْعَلُ عَلَيْهِ اللَّحْمَ وَيُخَمِّرُ الْبُرْمَةَ وَالتَّنُّورَ إِذَا أَخَذَ مِنْهُ وَيُقَرِّبُ إِلَى أَصْحَابِهِ ثُمَّ يَنْزِعُ، فَلَمْ يَزَلْ يَكْسِرُ وَيَغْرِفُ حَتَّى شَبِعُوا وَبَقِيَ مِنْهُ فَقَالَ: «كُلِي هَذَا وَأَهْدِي، فَإِنَّ النَّاسَ أَصَابَتْهُمْ مَجَاعَةٌ» . مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ قَالَ جَابِرٌ: لَمَّا حُفِرَ الْخَنْدَقُ رَأَيْتُ بِالنَّبِيِّ ﷺ خَمَصًا فَانْكَفَأْتُ إِلَى امْرَأَتِي فَقُلْتُ: هَلْ عِنْدَكِ شَيْءٌ؟ فَإِنِّي رَأَيْتُ بِرَسُولِ اللَّهِ ﷺ خَمَصًا شَدِيدًا، فَأَخْرَجَتْ إِلَيَّ جِرَابًا فِيهِ صَاعٌ مِنْ شَعِيرٍ وَلَنَا بُهَيْمَةٌ دَاجِنٌ فَذَبَحْتُهَا وَطَحَنَتِ الشَّعِيرَ فَفَرَغَتْ إِلَى فَرَاغِي وَقَطَّعْتُهَا فِي بُرْمَتِهَا ثُمَّ وَلَّيْتُ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَتْ: لاَ تَفْضَحْنِي بِرَسُولِ اللَّهِ ﷺ وَمَنْ مَعَهُ، فَجِئْتُ فَسَارَرْتُهُ فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ذَبَحْنَا بُهَيْمَةً لَنَا وَطَحَنْتُ صَاعًا مِنْ شَعِيرٍ، فَتَعَالَ أَنْتَ وَنَفَرٌ مَعَكَ. فَصَاحَ رَسُولُ اللَّهِ ﷺ فَقَالَ: «يَا أَهْلَ الْخَنْدَقِ: إِنَّ جَابِرًا قَدْ صَنَعَ سُؤْرًا فَحَيَّهَلًا بِكُمْ» فَقَالَ النَّبِيُّ ﷺ: لاَ تُنْزِلُنَّ بُرْمَتَكُمْ وَلاَ تَخْبِزُنَّ عَجِينَكُمْ حَتَّى أَجِئَ» فَجِئْتُ وَجَاءَ النَّبِيُّ ﷺ يَقْدُمُ النَّاسَ حَتَّى جِئْتُ امْرَأَتِي فَقَالَتْ: بِكَ

وَبِـكَ! فَقُلْـتُ قَدْ فَعَلْتُ الَّذِي قُلْتِ، فَأَخْرَجَتْ عَجِينًا فَبَسَقَ فِيهِ وَبَارَكَ، ثُمَّ عَمَـدَ إِلَى بُرْمَتِنَـا فَبَصَـقَ وَبَارَكَ ثُمَّ قَالَ: «ادْعِي خَابِزَةً فَلْتَخْبِزْ مَعَكِ، وَاقْدَحِي مِـنْ بُرْمَتِكُمْ وَلاَ تُنْزِلُوهَا» وَهُمْ أَلْفٌ فَأُقْسِمُ بِاللَّهِ لَأَكَلُوا حَتَّى تَرَكُوهُ وَانْحَرَفُو وَإِنَّ بُرْمَتَنَا لَتَغِطُّ كَمَا هِيَ وَإِنَّ عَجِينَنَا لَيُخْبَزُ كَمَا هُوَ.

521. Cabir *radiyallahu anh* belə dedi:

Biz Xəndək Döyüşü günü xəndək qazırdıq. Qarşımıza hədsiz dərəcədə sərt bir qaya çıxdı. Səhabələr Nəbi *səllallahu əleyhi və səlləmə*:

- Qarşımıza bu qaya çıxdı,- dedilər. Rəsuli-Əkrəm:

"Mən xəndəyə düşüb baxım", - buyurdu və ayağa qalxdı. Acından qarnına daş bağlamışdı. Biz üç gün ərzində dilimizə heç nə vurmadan orada qalmışdıq. Peyğəmbər *səllallahu əleyhi və səlləm* külüngü əlinə aldı və sərt qayaya vurdu. Qaya parça-parça olub qum kimi dağıldı. Mən:

- Ya Rəsulallah, evə getmək üçün mənə izin verin,- dedim. Evdə yoldaşımdan:

- Nəbi *səllallahu əleyhi və səlləmi* dözülməz halda gördüm. Yanında yeməyə nə isə varmı? - deyə soruşdum. Yoldaşım:

- Bir az arpa, bir də oğlaq var,- dedi. Mən oğlağı kəsdim, arpanı da üyütdüm. Əti qazana qoyduq. Sonra çörək bişərkən, qazanda daşın üzərində qaynayarkən Nəbi *səllallahu əleyhi və səlləmin* yanına getdim.

- Ey Allahın Rəsulu, bir az yeməyim var. Bir-iki nəfərlə bizə gedək,- dedim. Rəsuli-Əkrəm:

- **"Yemək nə qədərdir?" -** deyə soruşdu. Mən də olanı dedim. Bu zaman:

- **"Ooo! Həm çoxdur, həm də əla. Yoldaşına de ki, mən gələnə qədər qazanı ocaqdan götürməsin, çörəyi də təndirdən çıxartmasın!" -** buyurdu. Sonra səhabələrə:

- **"Qalxın", -** dedi. Mühacirlər və ənsar birlikdə ayağa qalxdılar. Mən tələşlə yoldaşımın yanına gedib:

- Vay başımıza gələnlər, Rəsulullah *səllallahu əleyhi və səlləm* mühacirlər, ənsar və özləri ilə onlarla birlik olduğu halda bizə gəlirlər,- dedim. Yoldaşım:

- Səndən nə qədər yemək olduğunu soruşdumu? - dedi.

- Bəli,- dedim.

Rəsuli-Əkrəm səhabələrə:

- **"İçəri girin, bir-birinizi sıxışdırmayın", -** buyurdu. Rəsuli-Əkrəm çörəkdən qopardır, üstünə ət qoyur və hər dəfə qazanın və təndirin ağzını örtür, oradan götürdüyünü əshabına verirdi. Sonra yenə eyni hərəkəti edirdi. Hamı doyana qədər çörəyi qopardıb üstünə ət qoymağa davam etdi. Axırda bir az yemək artıq qaldı. Rəsuli-Əkrəm xanımıma:

- **"Bundan ye, qonum-qonşuya da ikram et, çünki aclıq insanları pərişan etdi", -** buyurdu.

Buxari, Məğazi 29

Başqa bir rəvayətdə Cabir belə demişdir:

Xəndək qazılarkən Nəbi *səllallahu əleyhi və səlləmin* ac olduğunu gördüm. Tez xanımımın yanına gedib:

- Yanında yeməyə nə isə varmı? Çünki Rəsulullah *səllallahu əleyhi və səlləmin* çox acdığını gördüm,- dedim. Yoldaşım içində bir az arpa olan bir xurcun çıxartdı. Bir dənə də bəslədiyimiz quzumuz vardı. Tez quzunu kəsdim, yoldaşım da arpanı üyütdü. Mən işimi qurtarana qədər o da işini görmüşdü. Əti doğrayıb qazana qoydum. Sonra Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gedərkən yoldaşım mənə:

- Məni Rəsulullah *səllallahu əleyhi və səlləm* və yanındakılar qarşısında xəcalətli etmə,- dedi. Ona görə də vəziyyəti Rəsulullah *səllallahu əleyhi və səlləmə* gizlicə deyərək:

- Ya Rəsulallah bir dənə balaca quzumuz vardı, onu kəsdik. Bir az da arpa üyütdüm. Bir neçə nəfərlə birlikdə buyurun,- dedim. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Ey Xəndək əhli, Cabir ziyafət hazırlayıb, haydı, buyurun!" -** deyə yüksək səslə xəbər verdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* mənə tərəf çevrilərək:

"Əsla mən gələnə qədər qazanı ocaqdan götürməyin, xəmirdən də çörək bişirməyin", - buyurdu. Mən evə gəldim. Peyğəmbər *səllallahu əleyhi və səlləm* də camaatın önündə gəldi. Yoldaşımın yanına getdim, mənə:

- Ax səni, ax səni,- dedi. Mən:

- Sən necə demişdinsə, elə etdim,- dedim. Yoldaşım xəmiri çıxartdı. Rəsuli-Əkrəm ona üfürdü və bərəkətli olması üçün dua etdi, sonra qazana da üfürdü və bərəkətli olması üçün dua etdi. Yoldaşıma:

“Çörək bişirən bir qadın çağır, sənlə çörək bişirsin. Qazandan yeməyi çömçə ilə qoy, onu ocaqdan götürməyin”, - buyurdu. Gələnlər min nəfər idilər. Allaha and olsun ki elə idi. Yaxşıca yedilər, hətta artıq qalanı da qoyub getdilər. Qazanımız əskilmədən qaynayır, azalmayan xəmirimizdən də iki nəfər qadın davamlı çörək bişirirdi.

Müslim, Əşribə 141

❁

٥٢٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ أَبُو طَلْحَةَ لِأُمِّ سُلَيْمٍ: قَدْ سَمِعْتُ صَوْتَ رَسُولِ اللَّهِ ﷺ ضَعِيفًا أَعْرِفُ فِيهِ الْجُوعَ ، فَهَلْ عِنْدَكِ مِنْ شَيْءٍ ؟ فَقَالَتْ: نَعَمْ ، فَأَخْرَجَتْ أَقْرَاصًا مِنْ شَعِيرٍ ، ثُمَّ أَخَذَتْ خِمَارًا لَهَا فَلَفَّتِ الْخُبْزَ بِبَعْضِهِ ، ثُمَّ دَسَّتْهُ تَحْتَ ثَوْبِي وَرَدَّتْنِي بِبَعْضِهِ ، ثُمَّ أَرْسَلَتْنِي إِلَى رَسُولِ اللَّهِ ﷺ ، فَذَهَبْتُ بِهِ فَوَجَدْتُ رَسُولَ اللَّهِ ﷺ جَالِسًا فِي الْمَسْجِدِ وَمَعَه النَّاسُ ، فَقُمْتُ عَلَيْهِمْ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَرْسَلَكَ أَبُو طَلْحَةَ ؟ » فَقُلْتُ: نَعَمْ ، فَقَالَ: «أَلِطَعَامٍ» ؟ فَقُلْتُ: نَعَمْ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «قُومُوا» ، فَانْطَلَقُوا وَانْطَلَقْتُ بَيْنَ أَيْدِيهِمْ حَتَّى جِئْتُ أَبَا طَلْحَةَ ، فَأَخْبَرْتُهُ ، فَقَالَ أَبو طَلْحَةَ: يَا أُمَّ سُلَيْمٍ: قَدْ جَاءَ رَسُولُ اللَّهِ ﷺ بِالنَّاسِ ، وَلَيْسَ عِنْدَنَا مَا نُطْعِمُهُمْ ؟ فَقَالَتْ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ . فَانْطَلَقَ أَبُو طَلْحَةَ حَتَّى لَقِيَ رَسُولَ اللَّهِ ﷺ فَأَقْبَلَ رَسُولُ اللَّهِ ﷺ مَعَهُ حَتَّى دَخَلاَ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «هَلُمِّي ، مَا عِنْدَكِ يَا أُمَّ سُلَيْمٍ». فَأَتَتْ بِذَلِكَ الْخُبْزِ فَأَمَرَ بِهِ رَسُولُ اللَّهِ ﷺ ، فَفُتَّ وَعَصَرَتْ عَلَيْهِ أُمُّ سُلَيْمٍ عُكَّةً فَآدَمَتْهُ، ثُمَّ قَالَ فِيهِ رَسُولُ اللَّهِ ﷺ مَا شَاءَ اللَّهُ أَنْ يَقُولَ ، ثُمَّ قَالَ: «ائْذَنْ لِعَشَرَةٍ» ، فَأَذِنَ لَهُمْ فَأَكَلُوا حَتَّى شَبِعُوا ثُمَّ خَرَجُوا ، ثُمَّ قَالَ: «ائْذَنْ لِعَشْرَةٍ» ، فَأَذِنَ لَهُمْ فَأَكَلُوا ثُمَّ خَرَجُوا. ثُمَّ قَالَ: «ائْذَنْ لِعَشَرَةٍ» حَتَّى أَكَلَ الْقَوْمُ كُلُّهُمْ وَشَبِعُوا ، وَالْقَوْمُ سَبْعُونَ رَجُلاً أَوْ ثَمَانُونَ. مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَـةٍ: فَـمَا زَالَ يَدْخُـلُ عَشَرَةٌ وَيَخْرُجُ عَشَرَةٌ حَتَّى لَمْ يَبْقَ مِنْهُمْ أَحَدٌ إِلاَّ دَخَلَ فَأَكَلَ حَتَّى شَبِعَ ، ثُمَّ هَيَّأَهَا فَإِذَا هِيَ مِثْلُهَا حِينَ أَكَلُوا مِنْهَا.

وَفِي رِوَايَـةٍ: فَـأَكَلُوا عَـشَرَةً عَـشَرَةً ، حَتَّى فَعَلَ ذَلِكَ بِثَمَانِينَ رَجُلاً، ثُمَّ أَكَلَ النَّبِيُّ ﷺ بَعْدَ ذَلِكَ وَأَهْلُ الْبَيْتِ وَتَرَكُوا سُؤْرًا.

وَفِي رِوَايَةٍ: ثُمَّ أَفْضَلُوا مَا بَلَغُوا جِيرَانَهُمْ.

وَفِي رِوَايَـةٍ عَـنْ أَنَـسٍ قَالَ: جِئْتُ رَسُولَ اللَّهِ ﷺ يَوْمًا فَوَجَدْتُهُ جَالِسًا مَعَ أَصْحَابِهِ وَقَدْ عَصَبَ بَطْنَهُ بِعِصَابَةٍ ، فَقُلْتُ لِبَعْضِ أَصْحَابِهِ: لِمَ عَصَبَ رَسُولُ اللَّـهِ ﷺ بَطْنَـهُ ؟ فَقَـالُوا: مِنَ الْجُوعِ ، فَذَهَبْتُ إِلَى أَبِي طَلْحَةَ ـ وَهُوَ زَوْجُ أُمِّ سُـلَيْمٍ (بِنْـتِ مِلْحَـانَ) ـ فَقُلْـتُ: يَـا أَبَتَاهُ ، قَدْ رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ عَصَبَ بَطْنَـهُ بِعِصَابَـةٍ ، فَسَـأَلْتُ بَعْـضَ أَصْحَابِـهِ ، فَقَالُوا : مِنَ الْجُوعِ . فَدَخَلَ أَبُو طَلْحَـةَ عَـلَى أُمِّـي فَقَـالَ: هَلْ مِنْ شَيْءٍ ؟ قَالَتْ: نَعَمْ ، عِنْدِي كِسَرٌ مِنْ خُبْزٍ وَتَمْـرَاتٌ ، فَـإِنْ جَاءَنَا رَسُولُ اللَّهِ ﷺ وَحْدَهُ أَشْبَعْنَاهُ ، وَإِنْ جَاءَ آخَرُ مَعَهُ قَلَّ عَنْهُمْ ، وَذَكَرَ تَمَامَ الْحَدِيثِ .

522. Ənəs *radiyallahu anh* belə dedi:

(Ögey atam) Əbu Talha, (anam) Ümmü Süleymə:

- Rəsulullah *səllallahu əleyhi və səlləmin* səsi qulağıma çox zəif gəldi. Bilirəm ki, acdır. Yanında yeməyə nə isə var? - dedi. Ümmü Süleym:

- Bəli, var,- dedi və arpa unundan bişirilmiş bir neçə çörək çıxartdı. Sonra baş örtüklərindən birini götürüb çörəyi ona büküb patlarımın altına yerləşdirdi. Örtüyün bir ucunu da belimə sarıdıqdan sonra məni Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına göndərdi. Mən çörəyi apardım. Rəsulullah *səllallahu əleyhi və səlləmi* məsciddə camaatla otururkən gördüm. Onların yanında ayaq üstə durdum. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Səni Əbu Talha göndərdi?" -** buyurdu.

- Bəli,- dedim.

- **"Yemək üçün göndərdi?" -** buyurdu.

- Bəli,- cavabını verdim. Rəsulullah *səllallahu əleyhi və səlləm* yanındakılara:

- **"Qalxın", -** dedi, onlar da qalxıb getməyə başladılar. Mən onlardan qabaq getdim. Əbu Talhanın yanına gəlib vəziyyəti xəbər verdim. Bu zaman Əbu Talha:

- Ey Ümmü Süleym, Rəsulullah *səllallahu əleyhi və səlləm* camaatla birlikdə gəldi, halbuki bizim onları doyuracaq qədər yeməyimiz yoxdur,- dedi. Ümmü Süleym:

- Allah və Rəsulu daha yaxşı bilir,- dedi. Əbu Talha da dərhal gedib Rəsulullah *səllallahu əleyhi və səlləmi* qarşıladı. Rəsuli-Əkrəm Əbu Talha ilə birlikdə gəldi, evə girdilər. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Ey Ümmü Süleym, yanında olanları gətir", -** buyurdu. O da həmin çörəyi gətirdi. Rəsulullah əmr edib çörəkləri böldürdü. Ümmü Süleym yağ tuluğunu sıxıb çörək parçalarının üstünə yağ sürtdü. Sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* də onun içinə Allahın söyləməsini istədiyi duanı oxudu. Bundan sonra:

- **"On nəfərə izin ver", -** buyurdu. Əbu Talha on nəfərə izin verdi, onlar doyunca yedikdən sonra çıxdılar. Rəsuli-Əkrəm:

- **"On nəfərə də izin ver", -** buyurdu. Əbu Talha on nəfərə izin verdi, onlar da yeyib çıxdılar. Hz. Peyğəmbər:

- **"Daha on nəfərə izin ver", -** buyurdu. Nəticədə camaatın hamısı yeyib doydu. Yetmiş və ya səksən nəfər idilər.

Buxari, Mənaqib 25; Müslim, Əşribə 142

Başqa bir rəvayətsə belədir:

On nəfər dayanmadan girir, on nəfər də çıxırdı. Nəhayət, onlardan içəri girib qarnını doydurmayan heç kim qalmadı. Sonra Əbu Talha yenidən süfrəni hazırladı. Bir də nə görsə yaxşıdır? Yeməklər sanki camaatın yeməyə başladığı an necə idisə elə də qalırdı.

Müslim, Əşribə 143

Başqa bir rəvayət belədir:

On-on yedilər. Səksən nəfər belə etdi. Sonra Nəbi *səllallahu əleyhi və səlləm* ilə ev sahibləri yedilər. Yenə də artıq qaldı.

Müslim, Əşribə 143

Başqa bir rəvayət belədir:

Sonra qonşulara kifayət edəcək qədər artıq qaldı.

Müslim, Əşribə 143

Ənəs bir rəvayətində belə demişdir:

Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına getmişdim. Onu əshabı ilə oturarkən gördüm. Qarnına sarıq bağlamışdı. Bəzi səhabələrdən:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* nə üçün qarnını bağlayıb? - deyə soruşdum. Onlar:

- Aclıqdan,- dedilər. Anam Ümmü Süleym binti Milhanın əri Əbu Talhanın yanına getdim və:

- Atacan, Rəsulullah *səllallahu əleyhi və səlləmin* qarnını sarıqla bağladığını gördüm. Bəzi səhabələrdən səbəbini soruşdum, acından belə etdiyini söylədilər,- dedim. Əbu Talha anamın yanına getdi və:

- Yeməyə nə isə varmı? - deyə soruşdu. Anam da:

- Bəli, evdə bir tikə çörək və bir neçəxurma var. Əgər Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə təkbaşına gəlsə qarnını doydurarıq. Əgər onunla birlikdə başqası da gəlsə, onlara azlıq edər. Ənəs hədisin davamını zikr etdi.

Müslim, Əşribə 143

QƏNAƏT VƏ GÖZÜTOXLUQ

QƏNAƏT, GÖZÜTOXLUQ, DOLANIŞIQ ÜÇÜN ORTA YOLU SEÇMƏK, İNFAQ ETMƏK VƏ MƏCBUR QALMADIQCA DİLƏNMƏYİ PİSLƏMƏK

Ayələr

وَمَا مِنْ دَابَّةٍ فِي الْأَرْضِ إِلاَّ عَلَى اللَّهِ رِزْقُهَا.

1. "Yer üzündə yaşayan elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin".

(Hud, 6)

لِلْفُقَرَاءِ الَّذِينَ أُحْصِرُوا فِي سَبِيلِ اللَّهِ لاَ يَسْتَطِيعُونَ ضَرْبًا فِي الْأَرْضِ يَحْسَبُهُمُ الْجَاهِلُ أَغْنِيَاءَ مِنَ التَّعَفُّفِ تَعْرِفُهُمْ بِسِيمَاهُمْ لاَ يَسْأَلُونَ النَّاسَ إِلْحَافًا.

2. "(Sədəqə) **Allah yolunda canından keçərək** (dolanmaq, ruzi kəsb etmək üçün) **yer üzündə hərəkət edə bilməyən** (və ya buna imkanı olmayan) **yoxsullar üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə nadanlar onları dövlətli hesab edirlər.** (Ya Rəsulum!) **Sən isə onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan** (bunlara) **nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!"**

(əl-Bəqərə, 273)

وَالَّذِينَ إِذَا أَنْفَقُوا لَمْ يُسْرِفُوا وَلَمْ يَقْتُرُوا وَكَانَ بَيْنَ ذَلِكَ قَوَامًا .

3. "Onlar (mallarını) **xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar".**

(əl-Furqan, 67)

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلاَّ لِيَعْبُدُونِ. مَا أُرِيدُ مِنْهُمْ مِنْ رِزْقٍ وَمَا أُرِيدُ أَنْ يُطْعِمُونِ .

4. "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım! Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm!"

(əz-Zariyat, 56-57)

Hədislər

٥٢٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ : «لَيْسَ الْغِنَى عَنْ كَثْرَةِ الْعَرَضِ ، وَلَكِنَّ الْغِنَى غِنَى النَّفْسِ». مُتَّفَقٌ عَلَيْهِ .

523. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əsl zənginlik mal çoxluğu deyil, qəlb toxluğudur".

Buxari, Riqaq 15; Müslim, Zəkat 120. Həmçinin bax. Tirmizi, Zöhd 40; İbn Macə, Zöhd 9

٥٢٤ ـ عَـنْ عَبْـدِ اللَّـهِ بْنِ عَمْرٍو رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «قَدْ أَفْلَحَ مَنْ أَسْلَمَ ، وَرُزِقَ كَفَافًا ، وَقَنَّعَهُ اللَّهُ بِمَا آتَاهُ». رَوَاهُ مُسْلِمٌ .

524. Abdullah bin Amr *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Müsəlman olan, kifayət qədər dolanışığa sahib və Allahın verdiklərinə qənaət etməyi bilən qurtulmuşdur".

Müslim, Zəkat 125. Həmçinin bax. Tirmizi, Zöhd 35

❁

٥٢٥ ـ عَـنْ حَكِيـمِ بْـنِ حِزَامٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَأَلْتُ رَسُولَ اللَّهِ ﷺ فَأَعْطَـانِي ، ثُـمَّ سَأَلْتُهُ فَأَعْطَانِي ، ثُمَّ سَأَلْتُهُ فَأَعْطَانِي ، ثُمَّ قَالَ «يَا حَكِيمُ ، إِنَّ هَـذَا الْمَـالَ خَـضِرٌ حُلْـوٌ: فَمَـنْ أَخَذَهُ بِسَخَاوَةِ نَفْسٍ بُوْرِكَ لَهُ فِيهِ ، وَمَنْ أَخَذَهُ بِـإِشْرَافِ نَفْـسٍ لَمْ يُبَـارَكْ لَـهُ فِيهِ ، وَكَانَ كَالَّذِي يَأْكُلُ وَلاَ يَشْبَعُ ، وَالْيَدُ الْعُلْيَا خَـيْرٌ مِـنَ الْيَـدِ السُّـفْلَى» . قَـالَ حَكِيمٌ: فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، وَالَّذِي بَعَثَكَ بِـالْحَقِّ لاَ أَرْزَأُ أَحَـدًا بَعْدَكَ شَيْئًا حَتَّى أُفَارِقَ الدُّنْيَا . فَكَانَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْـهُ يَدْعُـو حَكِيمًا لِيُعْطِيَهُ الْعَطَاءَ فَيَأْبَى أَنْ يَقْبَلَ مِنْهُ شَيْئًا ؛ ثُمَّ إِنَّ عُمَرَ رَضِي اللَّـهُ عَنْـهُ دَعَـاهُ لِيُعْطِيَهُ فَأَبَى أَنْ يَقْبَلَهُ ، فَقَالَ: يَا مَعْشَرَ الْمُسْلِمِينَ ، أُشْهِدُكُمْ عَـلَى حَكِيـمٍ أَنِّي أَعْرِضُ عَلَيْهِ حَقَّهُ الَّذِي قَسَمَهُ اللَّهُ لَهُ فِي هَذَا الْفَيْءِ ، فَيَأْبَى أَنْ يَـأْخُذَهُ .فَلَـمْ يَرْزَأْ حَكِيمٌ أَحَدًا مِنَ النَّاسِ بَعْدَ النَّبِيِّ ﷺ حَتَّى تُوُفِّيَ. مُتَّفَقٌ عَلَيْهِ .

525. Hakim bin Hizam *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmdən* (mal) istədim, verdi. Bir daha istədim, yenə verdi. Təkrar istədim, təkrar verdi. Sonra belə buyurdu:

- **"Ey Hakim, həqiqətən bu mal cəzbedici və şirindir. Kim onu hərislik etmədən alarsa, həmin malda onun üçün bərəkət verilər. Hər**

kim ona göz dikərək hərisliklə alarsa, həmin malın bərəkəti olmaz. Bu cür insan yediyi halda doymayan adama bənzəyər. Yuxarıdakı (verən) əl aşağıdakı (alan) əldən daha xeyirlidir".

Hakim deyir ki, bu sözdən sonra mən:

- Ey Allahın Rəsulu, səni haqq din ilə göndərən Allaha and olsun ki, ömrüm boyu səndən başqa heç kimdən heç nə qəbul etməyəcəyəm,- dedim.

Gün gəldi, Hz. Əbu Bəkr Hakimə qənimət malından vermək üçün onu yanına çağırdı. Lakin Hakim onu almaqdan imtina etdi. Daha sonra Hz. Ömər ona nə isə vermək üçün yanına çağırdı. Hakim bu dəfə də qəbul etmədi. Hz. Ömər:

- Ey müsəlmanlar, sizi Hakimə şahid tuturam. Mən qənimətdən Allahın ona ayırdığını verirəm, amma o almaq istəmir,- dedi.

Nəticə etibarilə Hakim Rəsulullah *səllallahu əleyhi və səlləmin* vəfatından sonra ölənə qədər başqalarından heç nə qəbul etmədi.

Buxari, Vəsaya 9, ZƏkat 47, 50, Xumus 19, Riqaq 7, 11; Müslim, Zəkat 96. Həmçinin bax. Tirmizi, Fitən 26, Zöhd 41; Nəsai, ZƏkat 50, 80, 93; İbn Macə, Fitən 19

❁

٥٢٦ ـ عَنْ أَبِي بُرْدَةَ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَرَجْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ فِي غَزْوَةٍ وَنَحْنُ سِتَّةُ نَفَرٍ ، بَيْنَنَا بَعِيرٌ نَعْتَقِبُهُ فَنَقِبَتْ أَقْدَامُنَا وَنَقِبَتْ قَدَمِي ، وَسَقَطَتْ أَظْفَارِي ، فَكُنَّا نَلُفُّ عَلَى أَرْجُلِنَا مِنَ الْخِرَقِ فَسُمِّيَتْ غَزْوَةَ ذَاتِ الرِّقَاعِ لِمَا كُنَّا نَعْصِبُ عَلَى أَرْجُلِنَا مِنَ الْخِرَقِ . قَالَ أَبُو بُرْدَةَ: فَحَدَّثَ أَبُو مُوسَى بِهَذَا الْحَدِيثِ ، ثُمَّ كَرِهَ ذَلِكَ وَقَالَ: مَا كُنْتُ أَصْنَعُ بِأَنْ أَذْكُرَهُ ! (قَالَ) كَأَنَّهُ كَرِهَ أَنْ يَكُونَ شَيْئًا مِنْ عَمَلِهِ أَفْشَاهُ.مُتَّفَقٌ عَلَيْهِ .

526. Əbu Bürdədən Əbu Musa əl-Əşari *radiyallahu anhın* belə dediyi rəvayət edilmişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə bir müharibəyə getmişdik. Altı nəfərdən ibarət bir qrup növbə ilə bir dəvəyə minirdik. Ayaqlarım deşildi və dırnaqlarım qopdu. Ayaqlarımıza əski parçaları

bağlayırdıq. Ayaqlarımızı parça ilə bağladığımız üçün həmin müharibəyə **Zaturriqa** adı verildi.

Əbu Bürdə deyir ki: "Əbu Musa bunları dedikdən sonra bu əməlini bəyənmədi və "bunları söyləməklə heç də yaxşı iş görmədim", - deyə peşmanlığını dilə gətirdi.

Əbu Bürdə Əbu Musanın bu hərəkətini belə izah edir: "hər halda göstərdiyi bir igidliyi ifşa etdiyinə görə bu halı bəyənmədi".

Buxari, Məğazi 31; Müslim, Cihad 149

❁

٥٢٧ ـ عَنْ عَمْرِو بْنِ تَغْلِبَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أُتِيَ بِمَالٍ أَوْ سَبْيٍ فَقَسَمَهُ فَأَعْطَى رِجَالًا وَتَرَكَ رِجَالًا فَبَلَغَهُ أَنَّ الَّذِينَ تَرَكَ عَتَبُوا، فَحَمِدَ اللَّه ثُمَّ أَثْنَى عَلَيْهِ ثُمَّ قَالَ «أَمَّا بَعْدُ فَوَاللَّهِ إِنِّي لَأُعْطِي الرَّجُلَ وَأَدَعُ الرَّجُل وَالَّذِي أَدَعُ أَحَبُّ إِلَيَّ مِنَ الَّذِي أُعْطِي وَلَكِنْ إِنَّمَا أُعْطِي أَقْوَامًا لِمَا أَرَى فِي قُلُوبِهِمْ مِنَ الْجَزَعِ وَالْهَلَعِ وَأَكِلُ أَقْوَامًا إِلَى مَا جَعَلَ اللَّهُ فِي قُلُوبِهِمْ مِنَ الْغِنَى وَالْخَيْرِ؛ مِنْهُمْ عَمْرُو بْنُ تَغْلِبَ» قَالَ عَمْرُو بْنُ تَغْلِبَ: فَوَاللَّهِ مَا أُحِبُّ أَنَّ لِي بِكَلِمَةِ رَسُولِ اللَّهِ ﷺ حُمْرَ النَّعَمِ. رَوَاهُ الْبُخَارِيُّ

527. Amr bin Təğlib *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmə* qənimət malları –yaxud da əsirlər- gətirilmişdi. O, bunları kimisinə vermək, kimisinə verməmək surəti ilə paylamışdı. Mal vermədiyi adamların artıq-əskik danışdığından xəbər tutanda Allaha həmd-səna etdikdən sonra belə buyurdu:

"Allaha and içirəm ki, mən bəzilərinə (mal) verirəm, bəzilərinə vermirəm. Əslində mal vermədiyim adamlar verdiklərimdən daha əzizdir. Mən bəzilərinin qəlbində səbirsizlik və mal hərisliyi gördüyüm üçün verirəm. Bəzilərini də Allahın qəlblərində yaratdığı qənaət və xeyirlə baş-başa qoyuram. Amr bin Təğlib də onlardan biridir".

Amr bin Təğlib deyir ki, "vallahi, Hz. Peyğəmbərin haqqımda dediyi bu söz mənim üçün bütün dünyaya bərabərdir".

Buxari, Cümə 29, Xumus 19, Tövhid 49

٥٢٨ ـ عَنْ حَكِيمِ بْنِ حِزَامٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «اَلْيَدُ الْعُلْيَا خَيْرٌ مِنَ الْيَدِ السُّفْلَى وَابْدَأْ بِمَنْ تَعُولُ، وَخَيْرُ الصَّدَقَةِ مَا كَانَ عَنْ ظَهْرِ غِنًى، وَمَنْ يَسْتَعْفِفْ يُعِفَّهُ اللَّهُ، وَمَنْ يَسْتَغْنِ يُغْنِهِ اللَّهُ». مُتَّفَقٌ عَلَيْهِ وَهَذَا لَفْظُ الْبُخَارِيِّ.

528. Hakim bin Hizam *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yuxarıdakı əl aşağıdakı əldən daha xeyirlidir. Xərcləmək üçün dolanışığını boynuna götürdüklərindən başla. Sədəqənin xeyirlisi ehtiyacdan əlavə maldan veriləndir. Dilənməkdən çəkinmək istəyənləri Allah iffətli edər. İnsanlara qarşı gözütox olmaq istəyənləri də Allah onlara möhtac olmaqdan qoruyar".

Buxari, Zəkat 18, Vəsaya 9, Nəfəqat 2; Müslim, Zəkat 95. Həmçinin bax. Əbu Davud, Zəkat 39; Nəsai, Zəkat 50-53, 60

❁

٥٢٩ ـ عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ مُعَاوِيَةَ بْنِ أَبِي سُفْيَانَ صَخْرِ بْنِ حَرْبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تُلْحِفُوا فِي الْمَسْأَلَةِ ، فَوَاللَّهِ لاَ يَسْأَلُنِي أَحَدٌ مِنْكُمْ شَيْئًا فَتُخْرِجَ لَهُ مَسْأَلَتُهُ مِنِّي شَيْئًا وَأَنَا لَهُ كَارِهٌ ، فَيُبَارَكَ لَهُ فِيمَا أَعْطَيْتُهُ» . رَوَاهُ مُسْلِمٌ .

529. Əbu Əbdürrəhman Müaviyə bin Əbu Süfyan Saxr bin Hərb *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dilənməkdə israr etməyin. Allaha and içirəm ki, sizdən kim məndən nə isə istəyər, xoşum gəlməsə də məndən bir şey qopararsa, verdiyim malın bərəkətini görməz".

Müslim, Zəkat 99

❁

٥٣٠ ـ عَـنْ أَبِي عَبْـدِ الرَّحْمَـنِ عَـوْفِ بْـنِ مَالِكٍ الْأَشْجَعِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَـالَ: كُنَّـا عِنْـدَ رَسُـولِ اللَّـهِ ﷺ تِسْعَةً أَوْ ثَمَانِيَةً أَوْ سَبْعَةً فَقَالَ: «أَلاَ تُبَايِعُونَ رَسُـولَ اللَّهِ ﷺ ؟» وَكُنَّا حَدِيثِي عَهْدٍ بِبَيْعَةٍ ، فَقُلْنَا: قَدْ بَايَعْنَاكَ يَا رَسُولَ اللَّهِ ثُـمَّ قَـالَ : « أَلاَ تُبَـايِعُونَ رَسُـولَ اللَّـهِ؟» فَبَسَـطْنَا أَيْدِيَنَا وَقُلْنَا: قَدْ بَايَعْنَاكَ يَا رَسُـولَ اللَّـهِ ، فَعَـلاَمَ نُبَـايِعُكَ ؟ قَالَ: «أَنْ تَعْبُدُوا اللَّهَ ، وَلاَ تُشْرِكُوا بِهِ شَيْئًا وَالصَّلَـوَاتِ الْخَمْـسَ وَتُطِيعُـوا اللَّـهَ». وَأَسَرَّ كَلِمَةً خَفِيفَةً: «وَلاَ تَسْأَلُوا النَّاسَ شَـيْئًا». فَلَقَـدْ رَأَيْتُ بَعْضَ أُولَئِكَ النَّفَرِ يَسْقُطُ سَوْطُ أَحَدِهِمْ ، فَمَا يَسْأَلُ أَحَدًا يُنَاوِلُهُ إِيَّاهُ. رَوَاهُ مُسْلِمٌ .

530. Əbu Əbdürrəhman Əvf bin Malik əl-Əşcai *radiyallahu anh* belə dedi:

Biz doqquz, yaxud səkkiz və ya yeddi nəfərdən ibarət bir qrup Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanında oturmuşduq. Bizə:

- **"Allahın elçisinə biət etməzsinizmi?" -** buyurdu. Halbuki yeni biət etmişdik. Bu səbəblə:

- Ey Allahın Rəsulu biz sənə biət etdik axı,- dedik. O, təkrar:

- **"Allahın elçisinə biət etməzsinizmi?" -** buyurdu.

Bu dəfə biət üçün əllərimizi uzadaraq:

- Ey Allahın Rəsulu, biz sənə biət etmişdik. İndi nə üzərinə biət edəcəyik? - dedik.

- **"Allaha qulluq edib Ona heç nəyi şərik qoşmamaq, beş vaxt namazı qılmaq, itaət etmək, -səsini alçaldaraq bir cümlə söylədi və- başqalarından heç nə istəməmək üzrə biət edəcəksiniz!" -** buyurdu.

Əvf bin Malik deyir ki: And olsun, həmin qrupdan elələrini gördüm ki, qamçısı yerə düşsə, heç kimdən onu verməsini istəməzdi.

Müslim, Zəkat 108. Həmçinin bax. Əbu Davud, Zəkat 27; Nəsai, Salət 5; Biət 18; İbn Macə, Cihad 41

٥٣١ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «لاَ تَزَالُ الْمَسْأَلَةُ بِأَحَدِكُمْ حَتَّى يَلْقَى اللَّهَ تَعَالَى وَلَيْسَ فِي وَجْهِهِ مُزْعَةُ لَحْمٍ» . مُتَّفَقٌ عَلَيْهِ .

531. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən bəzilərinin üzündə bir parça ət qalmadığı halda Allahın hüzuruna çıxacağı günə qədər aranızda dilənçilik davam edəcəkdir".

Buxari, Zəkat 52; Müslim, Zəkat 103, 104

❁

٥٣٢ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ ـ وَهُوَ عَلَى الْمِنْبَرِ، وَذَكَرَ الصَّدَقَةَ وَالتَّعَفُّفَ عَنِ الْمَسْأَلَةِ ـ : «الْيَدُ الْعُلْيَا خَيْرٌ مِنَ الْيَدِ السُّفْلَى . وَالْيَدُ الْعُلْيَا هِيَ الْمُنْفِقَةُ ، وَالسُّفْلَى هِيَ السَّائِلَةُ». مُتَّفَقٌ عَلَيْهِ .

532. Yenə İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* minbərdə ikən sədəqə verməkdən, dilənmədən iffətli yaşamaqdan söz açmış və belə buyurmuşdu:

"Yuxarıdakı əl aşağıdakı əldən xeyirlidir. Yuxarıdakı əl verən, aşağıdakı əl isə dilənib alan əldir".

Buxari, Zəkat 18, 50; Müslim, Zəkat 94, 95, 96, 97, 106. Həmçinin bax. Əbu Davud, Zəkat 28. Tirmizi, Zöhd 32, Qiyamət 29; Nəsai, Zəkat 50, 51, 52, 53, 93

❁

٥٣٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ سَأَلَ النَّاسَ تَكَثُّرًا فَإِنَّمَا يَسْأَلُ جَمْرًا فَلْيَسْتَقِلَّ أَوْ لِيَسْتَكْثِرْ». رَوَاهُ مُسْلِمٌ .

533. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mal yığmaq üçün dilənən əslində qor istəyir. Artıq istər az dilənsin, istər çox".

Müslim, Zəkat 105. Həmçinin bax. İbn Macə, Zəkat 26

٥٣٤ ـ عَـنْ سَـمُرَةَ بْـنِ جُنْدَبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ الْمَسْـأَلَةَ كَـدٌّ ، يَكُدُّ بِهَا الرَّجُلُ وَجْهَهُ ، إِلاَّ أَنْ يَسْأَلَ الرَّجُلُ سُلْطَانًا أَوْ فِي أَمْرٍ لاَ بُدَّ مِنْهُ». رَوَاهُ التِّرْمِذِيُّ .

534. Səmurə bin Cundəb *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dilənmək üz qarasıdır. İnsan dilənərək öz üzünü ləkələyər. Sadəcə dövlət başçısından haqqını istəmək, yaxud da zərurət səbəbi ilə dilənmək belə deyildir".

Tirmizi, Zəkat 38. Həmçinin bax. Nəsai, Zəkat 93

❁

٥٣٥ ـ عَـنِ ابْـنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ أَصَابَتْـهُ فَاقَـةٌ فَأَنْزَلَهَـا بِالنَّـاسِ لَمْ تُسَدَّ فَاقَتُهُ ، وَمَنْ أَنْزَلَهَا بِاللَّهِ فَيُوشِكُ اللَّهُ لَهُ بِرِزْقٍ عَاجِلٍ أَوْ آجِلٍ». رَوَاهُ أَبُوا دَاوُد.

535. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kimə ehtiyac üz göstərər, o da bunu insanlara açarsa, ehtiyacı qurtarmaz. Kim ehtiyacını Allaha ərz edərsə, umulur ki, Allah tezliklə, yaxud gələcəkdə ona ruzi verər".

Əbu davud, Zəkat 28. Həmçinin bax. Tirmizi, Zöhd 18

❁

٥٣٦ ـ عَـنْ ثَوْبَـانَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ تَكَفَّلَ لِي أَلاَّ يَسْـأَلَ النَّـاسَ شَـيْئًا وَأَتَكَفَّـلُ لَـهُ بِالْجَنَّةِ؟» فَقُلْتُ: أَنَا ، فَكَانَ لاَ يَسْأَلُ أَحَدًا شَيْئًا. رَوَاهُ أَبُو دَاوُدَ.

536. Səvban *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Kim mənə insanlardan heç nə istəməyəcəyinə dair söz verərsə, mən də onun cənnətə girməyinə zəmanət verərəm", -** buyurdu. Bu sözü eşidib:

- Mən söz verirəm,- dedim.

Ravi deyir ki, Səvban heç kimdən heç nə istəməzdi.

Əbu Davud, Zəkat 27. Həmçinin bax. Tirmizi, Zöhd 61

❁

٥٣٧ ـ عَـنْ أَبِي بِشْرٍ قَبِيصَةَ بْنِ الْمُخَارِقِ رَضِيَ اللَّهُ عَنْهُ قَال: تَحَمَّلْتُ حَمَالَةً فَـأَتَيْتُ رَسُـولَ اللَّـهِ ﷺ أَسْـأَلُ فِيهَا فَقَالَ: «أَقِمْ حَتَّى تَأْتِيَنَا الصَّدَقَةُ فَنَأْمُرَ لَـكَ بِهَـا». ثُـمَّ قَـالَ: «يَـا قَبِيصَةُ ، إِنَّ الْمَسْأَلَةَ لاَ تَحِلُّ إِلاَّ لأَحَدِ ثَلاَثَةٍ: رَجُل تَحَمَّـلَ حَمَالَـةً ، فَحَلَّتْ لَهُ الْمَسْأَلَةُ حَتَّى يُصِيبَهَا ، ثُمَّ يُمْسِكُ ، وَرَجُلٍ أَصَابَتْهُ جَائِحَـةٌ اجْتَـاحَتْ مَالَـهُ فَحَلَّتْ لَهُ الْمَسْأَلَةُ حَتَّى يُصِيبَ قِوَامًا مِنْ عَيْشٍ ، أَوْ قَـالَ: سِـدَادًا مِـنْ عَيْـشٍ ـ وَرَجُـلٍ أَصَابَتْـهُ فَاقَـةٌ حَتَّى يَقُولَ ثَلاَثَةٌ مِنْ ذَوِي الْحِجَـى مِـنْ قَوْمِـهِ: لَقَدْ أَصَابَتْ فُلاَنًا فَاقَةٌ ، فَحَلَّتْ لَهُ الْمَسْأَلَةُ حَتَّى يُصِيبَ قِوَامًـا مِـنْ عَيْـشٍ ـ أَوْ قَـالَ: سِـدَادًا مِـنْ عَيْشٍ ـ فَمَا سِوَاهُنَّ مِنَ الْمَسْأَلَةِ ، يَا قَبِيصَةُ ، سُحْتٌ يَأْكُلُهَا صَاحِبُهَا سُحْتًا » . رَوَاهُ مُسْلِمٌ .

537. Əbu Bişr Qabisa bin Muxariq *radiyallahu anh* belə dedi:

Yüklədiyim zaminlik borcu səbəbindən Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına getdim. Mənə:

- **"Bir az gözlə, sədəqə malı gəlsin, sənə ondan verilməsini əmr edərik", -** dedi. Sonra belə buyurdu:

- **"Ey Qabisa, dilənmək yalnız üç nəfərə halaldır:**

Başqasına zamin olan adamın borcunu ödəyənə qədər dilənməsi halaldır. Sonra dilənməkdən vaz keçməlidir.

Bütün mal varlığını tələf edən böyük fəlakətə düçar olan adamın dolanışığını bərpa edəcək qədər -yaxud ehtiyacını təmin edəcək qədər- dilənməsi halaldır.

Onu tanıyan üç ağıllı adamın haqqında "filankəsə kasıblıq üz verdi" deyəcəkləri qədər kasıblığa düçar olan adamın dolanışığını

təmin edəcək qədər dilənməsi halaldır. Ey Qabisa, bu hallar xaricində dilənmək haramdır. Dilənən haram yemiş olar".

Müslim, Zəkat 109. Həmçinin bax. Əbu Davud, Zəkat 26; Tirmizi, Zəkat 23; Nəsai, Zəkat 80

٥٣٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لَيْسَ الْمِسْكِينُ الَّذِي يَطُوفُ عَلَى النَّاسِ ، تَرُدُّهُ اللُّقْمَةُ وَاللُّقْمَتَانِ ، وَالتَّمْرَةُ وَالتَّمْرَتَانِ ، وَلَكِنَّ الْمِسْكِينَ الَّذِي لاَ يَجِدُ غِنًى يُغْنِيهِ ، وَلاَ يُفْطَنُ لَهُ فَيُتَصَدَّقَ عَلَيْهِ ، وَلاَ يَقُومُ فَيَسْأَلَ النَّاسَ». مُتَّفَقٌ عَلَيْهِ .

538. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Miskin bir-iki loğma və ya bir-iki xurma üçün qapı-qapı gəzən adam deyil. Əsl miskin ehtiyacını təmin edəcək heç nəyi olmadığı halda vəziyyəti məlum olmadığı üçün sədəqə verilməyən və özü də qalxıb insanlardan heç nə istəməyən kəsdir".

Buxari, Zəkat 53; Təfsiru surə (2) 48; Müslim, Zəkat 101, 102. Həmçinin bax. Əbu Davud, Zəkat 24; Nəsai, Zəkat 76

DİLƏNMƏDƏN VƏ GÖZ DİKMƏDƏN SƏDƏQƏ ALMAQ

Hədis

٥٣٩ ـ عَنْ سَالِمِ بْنِ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ عَنْ أَبِيهِ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ عَنْ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمْ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يُعْطِينِي الْعَطَاءَ فَأَقُولُ: أَعْطِهِ مَنْ هُوَ أَفْقَرُ إِلَيْهِ مِنِّي. فَقَالَ: «خُذْهُ: إِذَا جَاءَكَ مِنْ هَذَا الْمَالِ شَيْءٌ وَأَنْتَ غَيْرُ مُشْرِفٍ وَلاَ سَائِلٍ فَخُذْهُ فَتَمَوَّلْهُ فَإِنْ شِئْتَ كُلْهُ وَإِنْ شِئْتَ تَصَدَّقْ بِهِ وَمَا لاَ فَلاَ تُتْبِعْهُ نَفْسَكَ» قَالَ سَالِمٌ فَكَانَ عَبْدُ اللَّهِ لاَ يَسْأَلُ أَحَدًا شَيْئًا وَلاَ يَرُدُّ شَيْئًا أُعْطِيَهُ». مُتَّفَقٌ عَلَيْهِ.

539. Salim bin Abdullah bin Ömər atası Abdullah bin Ömərdən, o da Ömər *radiyallahu anhumdan* rəvayət etdiyinə görə Ömər belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* hərdən mənə qazilik bəxşişi verirdi. Mən də ona:

- Bunu məndən daha kasıb, ehtiyac içində olan birinə versəniz yaxşı olardı,- deyirdim. Rəsulullah *səllallahu əleyhi və səlləm* isə cavabında:

- **"Sən bunu götür.Göz dikmədiyin və istəmədiyin halda sənə gələn belə malı al. Öz malın et, istəyirsən ye, istəyirsən sədəqə ver. Lakin belə olmayan bir malın ardınca düşmə!"**

Buxari, Zəkat 51, Əhkam 17; Müslim, Zəkat 110. Həmçinin bax. Nəsai, Zəkat 94

ƏL ƏMƏYİ İLƏ YAŞAMAQ

ƏL ƏMƏYİ İLƏ DOLANIŞIĞINI TƏMİN EDƏRƏK İFFƏTLİ YAŞAMAĞA VƏ HEÇ KİMDƏN DİLƏNMƏMƏYƏ TƏŞVİQ

Ayə

فَإِذَا قُضِيَتِ الصَّلاَةُ فَانْتَشِرُوا فِي الْأَرْضِ وَابْتَغُوا مِنْ فَضْلِ اللَّهِ.

1. "Namaz qılınıb qurtardıqdan sonra yer üzünə dağılın və Allahın lütfündən ruzi diləyib axtarın!"

(əl-Cumuə, 10)

Hədislər

٥٤٠ ـ عَـنْ أَبِي عَبْدِ اللَّهِ الزُّبَيْرِ بْنِ الْعَوَّامِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُول اللَّـهِ ﷺ : «لَأَنْ يَـأْخُذَ أَحَدُكُمْ أَحْبُلَهُ ثُمَّ يَأْتِيَ الْجَبَلَ فَيَأْتِيَ بِحُزْمَةٍ مِنْ حَطَبٍ عَـلَى ظَهْرِهِ فَيَبِيعَهَا ، فَيَكُفَّ اللَّهُ بِهَا وَجْهَهُ خَيْرٌ لَهُ مِنْ أَنْ يَسْأَلَ النَّاسَ أَعْطَوْهُ أَوْ مَنَعُوهُ». رَوَاهُ الْبُخَارِيُّ .

540. Əbu Abdullah Zübeyr bin Avvam *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Sizdən birinin əlinə ip alıb dağa getməsi və belinə yüklədiyi bir bağ odunu gətirib satması, bu səbəblə Allahın onun üzünün suyunu qoruması, versələr də, verməsələr də insanlardan nə isə dilənməsindən daha xeyirlidir”.

Buxari, Zəkat 50, 53; Büyu 15, Müsaqat 13. Həmçinin bax. Nəsai, Zəkat 85; İbn Macə, Zəkat 25

٥٤١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَأَنْ يَحْتَطِبَ أَحَدُكُمْ حُزْمَةً عَلَى ظَهْرِهِ خَيْرٌ لَهُ مِنْ أَنْ يَسْأَلَ أَحَدًا فَيُعْطِيَهُ أَوْ يَمْنَعَهُ». مُتَّفَقٌ عَلَيْهِ .

541. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Hər hansı birinizin belinə bir bağ odun yükləyib satması kimdənsə dilənməsindən xeyirlidir. Həmin adam ya verər, yaxud da verməz”.

Buxari, Zəkat 50, 53; Müslim, Zəkat 106. Həmçinin bax. Tirmizi, Zəkat 38

❁

٥٤٢ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «كَانَ دَاوُودُ عَلَيْهِ السَّلَامُ لَا يَأْكُلُ إِلَّا مِنْ عَمَلِ يَدِهِ». رَوَاهُ الْبُخَارِيُّ .

542. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurmuşdur:

“Davud əleyhissalam yalnız əlinin əməyi ilə qazandığını yeyərdi”.

Buxari, Büyu 15

❁

٥٤٣ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «كَانَ زَكَرِيَّا عَلَيْهِ السَّلَامُ نَجَّارًا». رَوَاهُ مُسْلِمٌ .

543. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Zəkəriyya əleyhissalam dülgər idi”.

Mülsim, Fəzail 169. Həmçinin bax. İbn Macə, Ticarət 5

❁

٥٤٤ ـ عَنِ الْمِقْدَادِ بْنِ مَعْدِيكَرِبَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَا أَكَلَ أَحَدٌ طَعَامًا قَطُّ خَيْرًا مِنْ أَنْ يَأْكُلَ مِنْ عَمَلِ يَدِهِ ، وَإِنَّ نَبِيَّ اللَّهِ دَاوُدَ ﷺ كَانَ يَأْكُلُ مِنْ عَمَلِ يَدِهِ » . رَوَاهُ الْبُخَارِيُّ .

544. Miqdad bin Madikərib *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Heç kim əsla əməyinin bəhrəsindən daha xeyirli yemək yeməmişdir. Allahın Peyğəmbəri Davud əleyhissalam da əl əməyinin bəhrəsini yeyərdi”.

Buxari, Büyu 15, Ənbiya 37

SƏXAVƏT

KƏRƏM, SƏXAVƏT VƏ ALLAHA GÜVƏNƏRƏK XEYİR İŞLƏRDƏ İNFAQ ETMƏK

Ayələr

وَمَا أَنْفَقْتُمْ مِنْ شَيْءٍ فَهُوَ يُخْلِفُهُ.

1.“(Allah yolunda) **nə xərcləsəniz, Allah onun əvəzini verər”.**

(əs-Səba, 39)

وَمَا تُنْفِقُوا مِنْ خَيْرٍ فَلِأَنْفُسِكُمْ ، وَمَا تُنْفِقُونَ إِلاَّ ابْتِغَاءَ وَجْهِ اللَّهِ ، وَمَا تُنْفِقُوا مِنْ خَيْرٍ يُوَفَّ إِلَيْكُمْ ، وَأَنْتُمْ لاَ تُظْلَمُونَ .

2. “Malınızdan sərf etdiyiniz hər hansı bir şeyin (mənfəəti) ancaq özünüz üçündür. Siz onu yalnız Allahın razılığını qazanmaq üçün verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz!”

(əl-Bəqərə, 272)

وَمَا تُنْفِقُوا مِنْ خَيْرٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ .

3. "Etdiyiniz hər bir xeyri Allah bilir". (əl-Bəqərə, 273)

Hədislər

٥٤٥ ـ وَعَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لاَحَسَدَ إِلَّا فِي اثْنَتَيْنِ: رَجُلٌ اٰتَاهُ اللَّهُ مَالًا فَسَلَّطَهُ عَلَى هَلَكَتِهِ فِي الْحَقِّ، وَرَجُلٌ اٰتَاهُ اللَّهُ حِكْمَةً فَهُوَ يَقْضِي بِهَا وَيُعَلِّمُهَا». مُتَّفَقٌ عَلَيْهِ.

545. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ancaq iki nəfər qibtə edilməyə layiqdir:

Allahın verdiyi malı haqq yolunda xərcləməyi bacaran adam.

Allahın verdiyi elm və hikmət ilə yerli-yerində hökm verən və onu başqasına öyrədən adam."

Buxari, Elm 15, Zəkat 5, Əhkam 3, Təmənni 5, Etisam 13, Tövhid 45; Müslim, Müsafirin 268

❁

٥٤٦ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَيُّكُمْ مَالُ وَارِثِهِ أَحَبُّ إِلَيْهِ مِنْ مَالِهِ؟» قَالُوا: يَارَسُولَ اللَّهِ مَا مِنَّا أَحَدٌ إِلَّا مَالُهُ أَحَبُّ إِلَيْهِ. قَالَ «فَإِنَّ مَالَهُ مَا قَدَّمَ وَمَالَ وَارِثِهِ مَا أَخَّرَ». رَوَاهُ الْبُخَارِيُّ.

546. Yenə İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* əshabından:

- **"Hansınıza varisinin malı öz malından daha sevimlidir?" -** deyə soruşdu. Onlar:

- Ey Allahın Rəsulu, hamımız öz malımızı hər şeydən daha çox sevirik,- dedilər.

Hz. Peyğəmbər:

- **"İnsanın öz malı xeyir işləyərək əvvəlcədən göndərdiyi, varisinin malı isə xərcləməyib geridə qoyduğudur", -** buyurdu.

Buxari, Riqaq 12

٥٤٧ ـ عَنْ عَدِيِّ بْنِ حَاتِمٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «اِتَّقُوا النَّارَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ». مُتَّفَقٌ عَلَيْهِ.

547. Adiy bin Hatim *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yarım xurma ilə də olsa özünüzü cəhənnəmdən qoruyun!"

Buxari, Zəkat 10, Mənaqib 25, Riqaq 49, 51, Ədəb 34, Tövhid 36; Müslim, Zəkat 66-68. Həmçinin bax. Tirmizi, Qiyamət 1, Zöhd 37; Nəsai, Zəkat 63; İbn Macə, Müqəddimə 13; Zəkat 28

❁

٥٤٨ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: مَا سُئِلَ رَسُولُ اللَّهِ ﷺ شَيْئًا قَطُّ فَقَالَ: لاَ. مُتَّفَقٌ عَلَيْهِ.

548. Cabir *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmdən* nə isə istəndikdə əsla "yox" deməzdi.

Buxari, Ədəb 39; Müslim, Fəzail 56

❁

٥٤٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَا مِنْ يَوْمٍ يُصْبِحُ الْعِبَادُ فِيهِ إِلَّا مَلَكَانِ يَنْزِلاَنِ فَيَقُولُ أَحَدُهُمَا: اللَّهُمَّ اَعْطِ مُنْفِقًا خَلَفًا وَيَقُولُ الْاٰخَرُ: اللَّهُمَّ أَعْطِ مُمْسِكًا تَلَفًا». مُتَّفَقٌ عَلَيْهِ.

549. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər səhər iki mələk enər. Biri:

- Ya Rəbb, yaxşılıq edənə malının əvəzini ver. Digəri isə:

- Ya Rəbb, xəsislik edənin malını tələf et,- deyə dua edər".

Buxari, Zəkat 27; Müslim, Zəkat 57

٥٥٠ ـ وَعَنْـهُ أَنَّ رَسُـولَ اللَّـهِ ﷺ قَـالَ: «قَالَ اللَّهُ تَعَالَى: أَنْفِقْ يَا ابْنَ اٰدَمَ يُنْفَقْ عَلَيْكَ». مُتَّفَقٌ عَلَيْهِ.

550. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* "Allah-Təala belə buyurdu" demişdir:

"Ey Adəm oğlu, Allah üçün infaq et ki, sənə də infaq olunsun!"

Buxari, Təfsiru surə (11) 2; Nəfəqat 1; Tövhid 35; Müslim, Zəkat 36, 37. Həmçinin bax. İbn Macə, Kəffarət 15

❁

٥٥١ ـ عَـنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَجُلًا سَأَلَ رَسُـولَ اللَّهِ ﷺ أَيُّ الْإِسْلَامِ خَيْرٌ؟ قَالَ: «تُطْعِمُ الطَّعَامَ، وَتَقْرَأُ السَّلَامَ عَلَى مَنْ عَرَفْتَ وَمَنْ لَمْ تَعْرِفْ». مُتَّفَقٌ عَلَيْهِ.

551. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə bir nəfər Rəsulullah *səllallahu əleyhi və səlləmdən* soruşdu:

- Müsəlmanın hansı əməli daha xeyirlidir? Hz. Peyğəmbər belə buyurdu:

- **"Tanıdığın-tanımadığın hər kəsə yemək yedirmək və salam vermək dir".**

Buxari, İman 6, 20, İstizan 9; Müslim, İman 63. Həmçinin bax. Nəsai, İman 12; İbn Macə, Ətimə 1

❁

٥٥٢ ـ وَعَنْـهُ قَـالَ: قَـالَ رَسُـولُ اللَّهِ ﷺ: «أَرْبَعُونَ خَصْلَةً أَعْلَاهَا مَنِيحَةُ الْعَـنْزِ مَـا مِـنْ عَـامِلٍ يَعْمَـلُ بِخَصْلَـةٍ مِنْهَا رَجَاءَ ثَوَابِهَا وَتَصْدِيقَ مَوْعُودِهَا إِلَّا أَدْخَلَهُ اللَّهُ تَعَالَى بِهَا الْجَنَّةَ». رَوَاهُ الْبُخَارِيُّ.

552. Yenə Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qırx (cür) **yaxşılıq var. Bunların ən üstünü sağıb südündən faydalanması üçün bir adama sağmal bir keçi verməkdir. Hər kim savabını umaraq və mükafatını Allahın verəcəyinə inanaraq bu qırx xeyirdən birini işləyərsə, Allah-Təala bu səbəblə onu cənnətə qoyar".**

Buxari, Hibə 35. Həmçinin bax. Əbu Davud, Zəkat 42

٥٥٣ ـ عَـنْ أَبِي أُمَامَةَ صُدَيِّ بْنِ عَجْلاَنَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُول اللَّـهِ ﷺ: «يَـا ابْـنَ اٰدَمَ إِنَّـكَ إِنْ تَبْذُلِ الْفَضْلَ خَيْرٌلَكَ، وَإِنْ تُمْسِكْهُ شَرٌّلَكَ وَلاَ تُـلاَمُ عَـلَى كَفَـافٍ، وَابْـدَأْ بِمَنْ تَعُولُ. وَالْيَدُ الْعُلْيَا خَيْرٌمِنَ الْيَدِ السُّفْلَى» . رَوَاهُ مُسْلِمٌ.

553. Əbu Ümamə Sudey İbn Əclan *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ey Adəm oğlu, ehtiyacından artıq malı sədəqə vermək sənin üçün yaxşı, verməməksə pisdir. Ehtiyacını təmin edəcək qədərini əlində tutduğun üçün qınanmazsan. Yaxşılıq etmək üçün dolanışığını təmin etməli olduqlarından başla. Verən əl alan əldən üstündür (unutma)".

Müslim, Zəkat 97. Həmçinin bax. Tirmizi, Zöhd 32

❁

٥٥٤ ـ عَـنْ أَنَـسٍ رَضِيَ اللَّـهُ عَنْـهُ قَـالَ: مَـا سُـئِلَ رَسُـولُ اللَّهِ ﷺ عَلَى الْإِسْـلاَمِ شَـيْئًا إِلَّا أَعْطَـاهُ، وَلَقَـدْ جَاءَهُ رَجُلٌ فَأَعْطَاهُ غَنَمًا بَيْنَ جَبَلَيْنِ فَرَجَعَ إِلَى قَوْمِـهِ فَقَـالَ: يَـا قَوْمِ أَسْلِمُوا فَإِنَّ مُحَمَّدًا يُعْطِي عَطَاءَ مَنْ لاَ يَخْشَى الْفَقْرَ، وَإِنْ كَـانَ الرَّجُـلُ لَيُسْلِمُ مَا يُرِيدُ إِلَّا الدُّنْيَا فَمَا يَلْبَثُ إِلَّا يَسِيرًا حَتَّى يَكُونَ الْإِسْلاَمَ أَحَبَّ إِلَيْهِ مِنَ الدُّنْيَا وَمَا عَلَيْهَا» . رَوَاهُ مُسْلِمٌ.

554. Ənəs *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* İslam üçün nə istənsə mütləq verərdi. Hələ bir dəfə yanına gələn adama iki dağ arasını dolduracaq qədər qoyun sürüsü verdi… Həmin adam qəbiləsinin yanına qayıdanda belə dedi:

- Ey qövmüm, (tələsin) müsəlman olun. Çünki Muhammməd kasıblıq və ehtiyac qorxusu hiss etmədən böyük lütf və ehsanlar edir.

(Hədisi rəvayət edən Ənəs deyir ki), bəziləri sırf dünyalıq əldə etmək üçün müsəlman olurdu. Lakinçox keçmədən onların gözündə müsəlmanlıq dünyadan və dünyadakı hər şeydən daha qiymətli hala gəlirdi.

Müslim, Fəzail 57-58

❁

٥٥٥ ـ عَنْ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَسَمَ رَسُولُ اللَّهِ ﷺ قَسْمًا فَقُلْتُ: يَارَسُولَ اللَّهِ لَغَيْرُ هَؤُلاَءِ كَانُوا أَحَقَّ بِهِ مِنْهُمْ؟ فَقَالَ: «إِنَّهُمْ خَيَّرُونِي أَنْ يَسْأَلُونِي بِالْفُحْشِ فَأُعْطِيَهُمْ أَوْ يُبَخِّلُونِي وَلَسْتُ بِبَاخِلٍ» . رَوَاهُ مُسْلِمٌ.

555. Ömər *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mal bölüşdürmüşdü. Mən:

- Ey Allahın Rəsulu, həmin mala bu adamlardan başqası daha layiqdir,- dedim. Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Onlar məni iki hal qarşısında qoydular: ya nalayiq sözlə məndən mal istəyəcəklər, verəcəyəm. Yaxud da verməyəcəyəm, məni xəsisliklə ittiham edəcəklər. Mən xəsis deyiləm".**

Müslim, Zəkat 127

❁

٥٥٦ ـ عَنْ جُبَيْرِ بْنِ مُطْعِمٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ قَالَ: بَيْنَمَا هُوَ يَسِيرُ مَعَ النَّبِيِّ ﷺ مَقْفَلَهُ مِنْ حُنَيْنٍ فَعَلِقَهُ الْأَعْرَابُ يَسْأَلُونَهُ حَتَّى اضْطَرُّوهُ إِلَى سَمُرَةٍ فَخَطِفَتْ رِدَاءَهُ فَوَقَفَ النَّبِيُّ ﷺ فَقَالَ: «أَعْطُونِي رِدَائِي فَلَوْ كَانَ لِي عَدَدُ هَذِهِ الْعِضَاهِ نَعَمًا لَقَسَمْتُهُ بَيْنَكُمْ ثُمَّ لاَ تَجِدُونِي بَخِيلًا وَلاَ كَذَّابًا وَلاَ جَبَانًا» . رَوَاه الْبُخَارِيُّ.

556. Cübeyr bin Mutim *radiyallahu anh* belə dedi:

Hüneyn Döyüşündən qayıdanda Peyğəmbər *səllallahu əleyhi və səlləm* ilə birlikdə gedərkən bədəvilər israrla qənimətin bölüşdürülməsi-

ni istədilər. Nəticədə Hz. Peyğəmbəri Səmurə ağacının altında dayandırdılar. Ridası (arxalığı) ağaca ilişib qaldı. Peyğəmbər *səllallahu əleyhi və səlləm* dəvəsini saxlayıb:

"Arxalığımı verin! Əgər gördüyünüz bu ağaclar qədər heyvanım olsaydı, hamısını aranızda bölüşdürərdim. Siz də mənim xəsis, yalançı və qorxaq olmadığımı görərdiniz", - buyurdu.

Buxari, Cihad 24, Xumus 19

❁

٥٥٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَا نَقَصَتْ صَدَقَةٌ مِنْ مَالٍ، وَمَا زَادَ اللَّهُ عَبْدًا بِعَفْوٍ إِلَّا عِزًّا، وَمَا تَوَاضَعَ أَحَدٌ لِلَّهِ إِلَّا رَفَعَه اللَّهُ عَزَّ وَجَلَّ» . رَوَاهُ مُسْلِمٌ.

557. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sədəqə vermək malı azaltmaz. Qul başqalarının xətalarını bağışladıqca Allah da onun şərəfini artırar. Kim Allah üçün təvazökarlıq edərsə, Allah da onu ucaldar".

Müslim, Birr 69. Həmçinin bax. Tirmizi, Birr 82

❁

٥٥٨ ـ عَنْ أَبِي كَبْشَةَ عَمْرِوبْنِ سَعْدٍ الْأَنْمَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «ثَلَاثَةٌ أُقْسِمُ عَلَيْهِنَّ وَأُحَدِّثُكُمْ حَدِيثًا فَاحْفَظُوهُ: مَا نَقَصَ مَالُ عَبْدٍ مِنْ صَدَقَةٍ، وَلاَ ظُلِمَ عَبْدٌ مَظْلِمَةً صَبَرَ عَلَيْهَا إِلَّا زَادَهُ اللَّه عِزًّا، وَلاَ فَتَحَ عَبْدٌ بَابَ مَسْأَلَةٍ إِلاَّ فَتَحَ اللَّهُ عَلَيْهِ بَابَ فَقْرٍ أَوْ كَلِمَةً نَحْوَهَا، وَأُحَدِّثُكُمْ حَدِيثًا فَاحْفَظُوهُ قَالَ: إِنَّمَا الدُّنْيَا لِأَرْبَعَةِ نَفَرٍ: عَبْدٌ رَزَقَهُ اللَّهُ مَالًا وَعِلْمًا فَهُوَ يَتَّقِي فِيهِ رَبَّهُ وَيَصِلُ فِيهِ رَحِمَهُ وَيَعْلَمُ لِلَّهِ فِيهِ حَقّاً فَهَذَا بِأَفْضَلِ الْمَنَازِلِ، وَعَبْدٌ رَزَقَهُ اللَّهُ عِلْمًا وَلَمْ يَرْزُقْهُ مَالًا فَهُوَ صَادِقُ النِّيَّةِ يَقُولُ لَوْ أَنَّ لِي مَالًا لَعَمِلْتُ بِعَمَلِ فُلاَنٍ فَهُوَ نِيَّتُهُ فَأَجْرُهُمَا سَوَاءٌ، وَعَبْدٌ رَزَقَهُ اللَّهُ مَالًا وَلَمْ يَرْزُقْهُ

عِلْـمًا فَهُـوَ يَخْبِطُ فِي مَالِهِ بِغَيْرِ عِلْمٍ لاَ يَتَّقِي فِيهِ رَبَّهُ وَلاَ يَصِلُ فِيهِ رَحِمَهُ وَلاَ يَعْلَم لِلَّـهِ فِيـهِ حَقّاً فَهَذَا بِأَخْبَثِ الْمَنَازِلِ، وَعَبْدٌ لَمْ يَرْزُقْهُ اللَّهُ مَالًا وَلاَ عِلْمًا فَهُوَ يَقُولُ لَوْ أَنَّ لِي مَالًا لَعَمِلْتُ فِيهِ بِعَمَلِ فُلاَنٍ فَهُوَ نِيَّتُهُ فَوِزْرُهُمَا سَوَاءٌ». رَوَاهُ التِّرْمِذِيُّ .

558. Əbu Kəbşə Amr bin Sad əl-Ənmari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitmişdir:

"Haqqında and içərək deyəcəyim üç gerçək var, yaxşı qavrayın!

Sədəqə verməklə insanın malı azalmaz.

Düçar olduğu haqsızlığa səbir edənin şərəfini Allah artırar.

Dilənmək qapısını açana Allah kasıblıq qapısı açar (və ya buna bənzər bir cümlə söylədi).

Sizə bir söz də deyəcəyəm, onu da yaxşı qavrayın", - dedi və belə buyurdu:

"Dünyada dörd cür insan var:

(Birincisi) **Allahın mal və elm verdiyi kəsdir. O, Allaha qarşı təqvalıdır, qohumlarını himayə edir, Allahın həmin maldakı haqqını yerinə yetirir. Bu, ən üstün dərəcədir.**

(İkincisi) **Allahın elm verib, mal vermədiyi yaxşı niyyətli adamdır. O, xoş niyyətlə "əgər malım olsaydı, mən də filankəs kimi edərdim", - deyər. Bu xoş niyyətinin əvəzini görəcəkdir. İkisinin də savabı bərabərdir.**

(Üçüncüsü) **Allahın mal verib elm vermədiyi adamdır. O, cahilliyi ucbatından malını necə gəldi xərcləyər, Allaha qarşı məsuliyyətini bilməz, qohumlarını himayə etməz, həmin malda Allahın haqqı olduğunu bilməz. Belə bir adam ən pis vəziyyətdədir.**

(Dördüncüsü isə) **Allahın nə mal, nə də elm verdiyi kəsdir. Həmin adam deyər ki, "əgər malım olsaydı mən də filankəs kimi yeyib-içərdim". O da niyyətinin əvəzini görər. Bu ikisinin günahı bərabərdir".**

Tirmizi, Zöhd 17

٥٥٩ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّهُمْ ذَبَحُوا شَاةً ، فَقَالَ النَّبِيُّ ﷺ: «مَا بَقِيَ مِنْهَا ؟». قَالَتْ: مَا بَقِيَ مِنْهَا إِلاَّ كَتِفُهَا . قَالَ: « بَقِيَ كُلُّهَا غَيْرَ كَتِفِهَا » ! رَوَاهُ التِّرْمِذِيُّ .

559. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsuli-Əkrəmin ailəsi bir qoyun kəsmişdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* soruşdu:

- **"Ondan nə qaldı?"** Hz. Aişə:

- Sadəcə bir kürək sümüyü qaldı,- cavabını verdi.

Bu zaman Hz. Peyğəmbər:

- **"Bir kürək sümüyü xaric hamısı bizə qalıb ki", -** buyurdu.

Tirmizi, Sifatul-qiyamə 33

❁

٥٦٠ ـ عَنْ أَسْمَاءَ بِنْتِ أَبِي بَكْرٍ الصِّدِّيقِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَتْ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: «لاَ تُوكِي فَيُوكِيَ اللَّهُ عَلَيْكِ»

وَفِي رِوَايَةٍ «أَنْفِقِي أَوِ انْفَحِي أَوِ انْضَحِي وَلاَ تُحْصِي فَيُحْصِيَ اللَّهُ عَلَيْكِ، وَلاَ تُوعِي فَيُوعِيَ اللَّهُ عَلَيْكِ». مُتَّفَقٌ عَلَيْهِ.

560. Əsma binti Əbu Bəkr *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Əsma "Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu" demişdir:

- **"Kisənin ağzını sıxma, Allah da sənə sıxaraq verər!"** Bir rəvayətdə (Müslim, Zəkat 88) belə buyurduğu nəql edilmişdir:

"İnfaq et, sayıb durma. Allah da sənə qarşı nemətini sayıb əsirgəyər. Pulunu küpdə saxlama, Allah da səndən əsirgəyər".

Buxari, Zəkat 21; Müslim, Zəkat 88. Həmçinin bax. Əbu Davud, Zəkat 46; Tirmizi, Birr 40; Nəsai, Zəkat 62

❁

٥٦١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَثَلُ الْبَخِيلِ وَالْمُنْفِقِ كَمَثَلِ رَجُلَيْنِ عَلَيْهِمَا جُبَّتَانِ مِنْ حَدِيدٍ مِنْ ثُدِيِّهِمَا إِلَى تَرَاقِيهِمَا. فَأَمَّا الْمُنْفِقُ فَلاَ يُنْفِقُ إِلَّا سَبَغَتْ أَوْ وَفَرَتْ عَلى جِلْدِهِ حَتَّى تُخْفِيَ بَنَانَهُ وَتَعْفُوَ أَثَرَهُ. وَأَمَّا الْبَخِيلُ فَلاَ يُرِيدُ أَنْ يُنْفِقَ شَيْئًا إِلَّا لَزِقَتْ كُلُّ حَلْقَةٍ مَكَانَهَا فَهُوَ يُوَسِّعُهَا فَلاَ تَتَّسِعُ». مُتَّفَقٌ عَلَيْهِ.

561. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə o, Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitmişdir:

"Xəsislə səxavətli adam sinəsi ilə körpücük sümüyü arasına zireh geyinmiş adama bənzəyir. Səxavətli adam sədəqə verdikcə əynindəki zireh genişlənər, uzanar, ayaq barmaqlarını da örtər və ayaq izlərini silər. Xəsis isə bir şey vermək istəyəndə zirehin halqaları bir-birinə möhkəm girər, onu sıxar. Genəltmək üçün nə qədər çalışsa da bacarmaz".

Buxari, Cihad 89; Zəkat 28, Talaq 24; Libas 9; Müslim, Zəkat 75-77. Həmçini bax. Nəsai, Zəkat 61

❁

٥٦٢ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ تَصَدَّقَ بِعَدْلِ تَمْرَةٍ مِنْ كَسْبٍ طَيِّبٍ، وَلاَ يَقْبَلُ اللَّهُ إِلَّا الطَّيِّبَ، فَإِنَّ اللَّهَ يَقْبَلُهَا بِيَمِينِهِ ثُمَّ يُرَبِّيهَا لِصَاحِبِهَا كَمَا يُرَبِّي أَحَدُكُمْ فَلُوَّهُ حَتَّى تَكُونَ مِثْلَ الْجَبَلِ». مُتَّفَقٌ عَلَيْهِ.

562. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kim Halal qazancından bir xurma qədər sədəqə verərsə -onsuz da Allah halaldan başqasını qəbul etməz- Allah həmin sədəqəni qəbul edər. Sonra onu sahibi üçün eynilə sizdən birinin dayçasını böyütdüyü kimi, dağ boyda olana qədər böyüdər".

Buxari, Zəkat 8; Tövhid 23; Müslim, ZƏkat 63, 64. Həmçinin bax. Tirmizi, Zəkat 28, Nəsai, Zəkat 48; İbn Macə, Zəkat 28

٥٦٣ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: بَيْنَمَا رَجُلٌ يَمْشِي بِفَلاَةٍ مِنَ الْأَرْضِ فَسَمِعَ صَوْتًا فِي سَحَابَةٍ: اِسْقِ حَدِيقَةَ فُلاَنٍ فَتَنَحَّى ذَلِكَ السَّحَابُ فَأَفْرَغَ مَاءَهُ فِي حَرَّةٍ فَإِذَا شَرْجَةٌ مِنْ تِلْكَ الشِّرَاجِ قَدِ اسْتَوْعَبَتْ ذَلِكَ الْمَاءَ كُلَّهُ فَتَتَبَّعَ الْمَاءَ فَإِذَا رَجُلٌ قَائِمٌ فِي حَدِيقَتِهِ يُحَوِّلُ الْمَاءَ بِمِسْحَاتِهِ فَقَالَ لَهُ: يَا عَبْدَ اللَّهِ مَا اسْمُكَ؟ قَالَ: فُلاَنٌ لِلْاِسْمِ الَّذِي سَمِعَ فِي السَّحَابَةِ فَقَالَ لَهُ: يَا عَبْدَ اللَّهِ لِمَ تَسْأَلُنِي عَنِ اسْمِي؟ فَقَالَ: إِنِّي سَمِعْتُ صَوْتًا فِي السَّحَابِ الَّذِي هَذَا مَاؤُهُ يَقُولُ: اِسْقِ حَدِيقَةَ فُلاَنٍ لاسْمِكَ فَمَا تَصْنَعُ فِيهَا؟ فَقَالَ: أَمَا إِذْ قُلْتَ هَذَا فَإِنِّي أَنْظُرُ إِلَى مَا يَخْرُجُ مِنْهَا فَأَتَصَدَّقُ بِثُلُثِهِ وَآكُلُ أَنَا وَعِيَالِي ثُلُثًا وَأَرُدُّ فِيهَا ثُلُثَهُ. رَوَاهُ مُسْلِمٌ.

563. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

Səhrada yol gedən bir nəfər səfər əsnasında buludun içindən "filankəsin bağçasını sula!" - deyə bir səs eşitdi. Həmin bulud qaradaşlıq bir yerə yönəldi və suyunu ora boşaltdı. Adam bir dərənin həmin suyun hamısını özündə topladığını görüb heyrətə düşdü və suyu izləməyə başladı. Bir də gördü ki, bir nəfər əlindəki bel ilə suyu ora-bura istiqamətləndirərək bağçasını suyalır. Ondan soruşdu:

- Ey Allahın qulu, adın nədir?

O da həmin adamın daha əvvəl buluddan eşitdiyi adı söylədi və:

- Ey Allahın qulu, adımı niyə soruşdun? - dedi.

- Mən bu suyu yağdıran buluddan "sənin adını verərək filankəsin bağçasını sula" deyə bir səs eşitmişdim. Ona görə soruşuram. Sən nə edirsən ki, belə bir diqqət və qayğı görürsən? - dedi. Bağçanın sahibi:

- Madam ki, öyrənməkdə bu qədər maraqlısan, deyim: "Mən bu bağçanın məhsulunu hesablayıram. Üçdə birini sədəqə verirəm, üçdə birini ailə üzvlərimlə birlikdə yeyirəm, üçdə birini isə toxumluq ayırıram", - dedi.

Müslim, Zöhd 45

XƏSİSLİK VƏ ACGÖZLÜKDƏN UZAQ OLMAQ

Ayələr

وَأَمَّـا مَـنْ بَخِلَ وَاسْتَغْنٰى وَكَذَّبَ بِالْحُسْنٰى فَسَنُيَسِّرُهُ لِلْعُسْرٰى وَمَا يُغْنِي عَنْهُ مَالُهُ إِذَا تَرَدَّى.

1. "Amma kim (malını Allah yolunda xərcləməyə) **xəsislik etsə,** (mal-dövlətinə güvənib Allaha) **möhtac olmadığını sansa,Və ən gözəl sözü** (la ilahə illallah kəlməsini) **yalan saysa,Biz ona ən çətin olanı müyəssər edəcəyik.** (O, Cəhənnəmə) **düşəcəyi zaman mal-dövləti ona heç bir fayda verməz".**

(əl-Leyl, 8-11)

وَمَنَ يُوقَ شُحَّ نَفْسِهِ فَأُولَئِكَ هُمُ الْمُفْلِحُونَ.

2. "Özünü nəfsinin xəsisliyindən (tamahından) **qorunan kimsələr - məhz onlar nicat tapıb səadətə qovuşanlardır!"**

(ət-Təğabun, 16)

Hədis

٥٦٤ ـ عَـنْ جَـابِرٍ رَضِيَ اللَّـهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «اتَّقُوا الظُّلْمَ فَـإِنَّ الظُّلْـمَ ظُلُـمَاتٌ يَـوْمَ الْقِيَامَـةِ، وَاتَّقُـوا الشُّـحَّ فَإِنَّ الشُّحَّ أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ ، حَمَلَهُمْ عَلَى أَنْ سَفَكُوا دِمَاءَهُمْ ، وَاسْتَحَلُّوا مَحَارِمَهُمْ». رَوَاهُ مُسْلِمٌ.

564. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Zülm etməkdən çəkinin. Çünki zülm qiyamət günü zalım üçün zülmət qaranlıq olacaq. Xəsislikdən də uzaq olun. Çünki xəsislik sizdən əvvəl yaşayan insanları bir-birinin qanını tökmək və toxunulmaz haqlarını tapdamaq surəti ilə həlak etmişdir".

Müslim, Birr 56

BAŞQASINI ÖZÜNDƏN ÜSTÜN TUTMAQ

BAŞQASINI ÖZÜNƏ TƏRCİH ETMƏK
VARINI, YOXUNU MÖHTACLARA VERMƏK

Ayələr

وَيُؤْثِرُونَ عَلَى أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ.

1. "Özləri ehtiyac içində olsalar belə, başqalarını özlərindən üstün tutarlar".

(əl-Həşr, 9)

وَ يُطْعِمُونَ الطَّعَامَ عَلٰى حُبِّهٖ مِسْكِينًا وَيَتِيمًا وَاَسِيرًا اِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللّٰهِ لَا نُرِيدُ مِنْكُمْ جَزَآءً وَلَا شُكُورًا اِنَّا نَخَافُ مِنْ رَبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا فَوَقٰيهُمُ اللّٰهُ شَرَّ ذٰلِكَ الْيَوْمِ وَلَقّٰيهُمْ نَضْرَةً وَسُرُورًا .

2. "Onlar öz iştahaları çəkdiyi halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və sonra da yedirdikləri kimsələrə belə deyərlər:) **"Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən nə bir mükafat, nə də bir təşəkkür istəyirik. Həqiqətən, biz Rəbbimizdən, çox sərt, çətin gündən** (üzlərin dəhşətdən eybəcər kökə düşəcəyi, çöhrələrin tutulub qaralacağı qiyamət günündən) **qorxuruq!"Allah da onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir".**

(əl-İnsan, 8-11)

Hədislər

٥٦٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: إِنِّي مَجْهُودٌ فَأَرْسَلَ إِلَى بَعْضِ نِسَائِهِ فَقَالَتْ: وَالَّذِي بَعَثَكَ بِالْحَقِّ مَا عِنْدِي إِلَّا مَاءٌ، ثُمَّ أَرْسَلَ إِلَى أُخْرَى فَقَالَتْ مِثْلَ ذَلِكَ حَتَّى قُلْنَ كُلُّهُنَّ مِثْلَ ذَلِكَ لاَ وَالَّذِي بَعَثَكَ بِالْحَقِّ مَا عِنْدِي إِلَّا مَاءٌ. فَقَالَ النَّبِيُّ ﷺ: «مَنْ يُضِيفُ هَذَا اللَّيْلَةَ؟» فَقَالَ رَجُلٌ مِنَ الْأَنْصَارِ: أَنَا يَا رَسُولَ اللَّهِ فَانْطَلَقَ بِهِ إِلَى رَحْلِهِ

فَقَالَ لِامْرَأَتِهِ: أَكْرِمِي ضَيْفَ رَسُولِ اللَّهِ ﷺ.

وَفِي رِوَايَةٍ قَالَ لِامْرَأَتِهِ: هَلْ عِنْدَكِ شَيْءٌ؟ قَالَتْ: لاَ، إِلَّا قُوتُ صِبْيَانِي. قَالَ: فَعَلِّلِيهِمْ بِشَيْءٍ وَإِذَا أَرَادُوا الْعَشَاءَ فَنَوِّمِيهِمْ وَإِذَا دَخَلَ ضَيْفُنَا فَأَطْفِئِي السِّرَاجَ وَأَرِيهِ أَنَّا نَأْكُلُ. فَقَعَدُوا وَأَكَلَ الضَّيْفُ وَبَاتَا طَاوِيَيْنِ؛ فَلَمَّا أَصْبَحَ غَدَا عَلَى النَّبِيِّ ﷺ: فَقَالَ: «لَقَدْ عَجِبَ اللَّهُ مِنْ صَنِيعِكُمَا بِضَيْفِكُمَا اللَّيْلَةَ».

مُتَّفَقٌ عَلَيْهِ.

565. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələrək:

- Mən acam,- dedi.

Allah Rəsulu xanımlarından birinə xəbər verərək yeməyə nə isə göndərməsini istədi. O da:

- Səni peyğəmbər göndərən Allaha and içirəm ki, evdə sudan başqa heç nə yoxdur,- dedi.

Hz. Peyğəmbər başqa xanımından yeməyə nə isə istədi. O da eyni cavabı verdi. Digər bütün xanımlarından "Səni peyğəmbər göndərən Allaha and olsun ki, evdə sudan başqa heç nə yoxdur" cavabını aldıqdan sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* üzünü əshabına tutaraq:

- "Bu gecə bu adamı kim qonaq etmək istəyir?" - dedi.

Ənsardan bir nəfər:

- Mən qonaq edərəm, ya Rəsulallah,- deyərək həmin yoxsulu evinə apardı. Evdə xanımına Rəsulullah *səllallahu əleyhi və səlləmin* qonağını qəbul et,- dedi.

Başqa bir rəvayətə görə xanımından soruşdu:

Evdə yeməyə nə isə var?

Xanımı:

- Xeyr, yalnız uşaqların yeyəcəyi qədər yemək var,- dedi.

Səhabə:

- Elə isə uşaqların başını qat. Süfrəyə gəlmək istəsələr onları yatırt. Qonaq içəri girən kimi lampanı söndür. Biz də süfrədə özümüzü elə aparaq ki, guya yemək yeyirik,- dedi.

Süfrəyə oturdular. Qonaq qarnını doydurdu, onlar isə ac yatdılar.

Ertəsi gün həmin səhabə Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına getdi. Onu görən Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Allah-Təala bu gecə qonağınıza etdiklərinizdən razı qaldı".

Buxari, Mənaqibul-ənsar 10, Təfsiru-surə (59), 6; Müslim, Əşribə 172

❁

٥٦٦ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «طَعَامُ الِاثْنَيْنِ كَافِي الثَّلَاثَةِ، وَطَعَامُ الثَّلَاثَةِ كَافِي الْأَرْبَعَةِ». مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «طَعَامُ الْوَاحِدِ يَكْفِي الِاثْنَيْنِ وَطَعَامُ الِاثْنَيْنِ يَكْفِي الْأَرْبَعَةَ وَطَعَامُ الْأَرْبَعَةِ يَكْفِي الثَّمَانِيَةَ»

566. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İki nəfərin yeməyi üç nəfərə, üç nəfərin yeməyi də dörd nəfərə kifayət edər".

Buxari, Ətimə 11; Müslim, Əşribə 178. Həmçinin bax. Tirmizi, Ətimə 21

Müslimin Cabir bin Abdullahdan rəvayət etdiyi bir hədisə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir nəfərin yeməyi iki nəfərə, iki nəfərin yeməyi dörd nəfərə, dörd nəfərin yeməyi isə səkkiz nəfərə kifayətdir".

Müslim, Əşribə 179-181. Həmçinin bax. Tirmizi, Ətimə 21; İbn Macə, Ətimə 2

❁

٥٦٧ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: بَيْنَمَا نَحْنُ فِي سَفَرٍ مَعَ النَّبِيِّ ﷺ إِذْ جَاءَ رَجُلٌ عَلَى رَاحِلَةٍ لَهُ فَجَعَلَ يَصْرِفُ بَصَرَهُ يَمِينًا وَشِمَالًا فَقَالَ

رَسُـولُ اللَّـهِ ﷺ: «مَنْ كَانَ مَعَهُ فَضْلُ ظَهْرٍ فَلْيَعُدْ بِهِ عَلَى مَنْ لاَ ظَهْرَ لَهُ، وَمَنْ كَـانَ لَـهُ فَضْلٌ مِنْ زَادٍ فَلْيَعُدْ بِهِ عَلَى مَنْ لاَ زَادَ لَهُ» فَذَكَرَ مِنْ أَصْنَافِ الْمَالِ مَا ذَكَرَ حَتَّى رَأَيْنَا أَنَّهُ لاَ حَقَّ لِأَحَدٍ مِنَّا فِي فَضْلٍ». رَوَاهُ مُسْلِمٌ.

567. Əbu Səid əl-Xudri *radiyallahu anh* belə dedi:

Bir dəfə Peyğəmbər *səllallahu əleyhi və səlləmlə* səfərdə idik. Dəvəsinə minmiş bir nəfər gəldi. Nə isə umaraq sağa-sola baxmağa başladı.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

"Yanında ehtiyacından artıq minik heyvanı olanlar olmayanlara versinlər. Artıq azuqəsi olanlar olmayanlara versinlər", - buyurdu.

Hz. Peyğəmbər bir çox mal növü saydı. Məhz o zaman başa düşdük ki, heç kim ehtiyacından artığını saxlamaq haqqına sahib deyil.

Müslim, Luqata 18. Həmçinin bax. Əbu Davud, Zəkat 32

❁

٥٦٨ ـ عَـنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ امْرَأَةً جَاءَتْ إِلَى رَسُولِ اللَّهِ ﷺ بِـبُرْدَةٍ مَنْسُـوجَةٍ فَقَـالَتْ: نَسَـجْتُهَا بِيَـدَيَّ لِأَكْسُـوَكَهَا فَأَخَذَهَا النَّبِيُّ ﷺ مُحْتَاجًـا إِلَيْهَـا فَخَـرَجَ إِلَيْنَا وَإِنَّهَا إِزَارُهُ فَقَالَ فُلاَنٌ: اُكْسُنِيهَا مَاأَحْسَنَهَا! فَقَالَ: «نَعَـمْ» فَجَلَـسَ النَّبِـيُّ ﷺ فِي الْمَجْلِـسِ ثُـمَّ رَجَـعَ فَطَوَاهَا ثُمَّ أَرْسَلَ بِهَا إِلَيْهِ. فَقَـالَ لَهُ الْقَوْمُ: مَا أَحْسَنْتَ! لَبِسَهَا النَّبِيُّ ﷺ مُحْتَاجًا إِلَيْهَا ثُمَّ سَأَلْتَهُ وَعَلِمْتَ أَنَّـهُ لاَ يَـرُدُّ سَـائِلًا، فَقَـالَ: إِنِّي وَاللَّهِ مَا سَأَلْتُهُ لِأَلْبَسَهَا، إِنَّمَا سَأَلْتُهُ ، لِتَكُونَ كَفَنِي. قَالَ سَهْلٌ: فَكَانَتْ كَفَنَهُ. رَوَاهُ الْبُخَارِيُّ.

568. Səhl bin Sad *radiyallahu anh* belə dedi:

Bir qadın toxuduğu parçanı(arxalığı) gətirib Rəsulullah *səllallahu əleyhi və səlləmə* verdi və:

- Bunu sənin üçün öz əllərimlə toxudum,- dedi.

Belə bir parçaya ehtiyacı olan Peyğəmbər *səllallahu əleyhi və səlləm* onu qəbul etdi, izar (beldən aşağı geyilən paltar) kimi geyinib yanımıza gəldi.

Bunu görən bir nəfər Hz. Peyğəmbərə:

- Necə də gözəldir! Bunu ver mən geyinim,- dedi.

Rəsuli-Əkrəm:

- Yaxşı,- dedi. Bir az orada oturandan sonra evinə getdi. Parçanı qatlayıb həmin adama göndərdi.

Əshabi-kiram həmin səhabəyə:

- Heç yaxşı iş görmədin. Peyğəmbər *səllallahu əleyhi və səlləmin* ona ehtiyacı vardı, ona görə geyinmişdi. Özün də bilirsən ki, Hz. Peyğəmbər kim nə istəsə onu verir. Buna baxmayaraq yenə də ondan istədin,- dedilər.

O da bu cavabı verdi:

- Vallahi, mən onu geyinmək üçün yox, özümə kəfən etmək üçün istədim.

Hədisin ravisi Səhl bin Sadın dediyinə görə həmin parça o adamın kəfəni oldu.

Buxari, Büyu 31, Libas 18, Ədəb 39. Həmçinin bax. Nəsai, Zİnət 97; İbn Macə, Libas 1

❁

٥٦٩ ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ الْأَشْعَرِيِّينَ إِذَا أَرْمَلُوا فِي الْغَزْوِ أَوْ قَلَّ طَعَامُ عِيَالِهِمْ بِالْمَدِينَةِ جَمَعُوا مَا كَانَ عِنْدَهُمْ فِي ثَوْبٍ وَاحِدٍ ثُمَّ اقْتَسَمُوهُ بَيْنَهُمْ فِي إِنَاءٍ وَاحِدٍ بِالسَّوِيَّةِ فَهُمْ مِنِّي وَأَنَا مِنْهُمْ». مُتَّفَقٌ عَلَيْهِ.

569. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cihad səfərində azuqələri azalan, yaxud da Mədinədə ailələrinin ərzağı azalan əşarilər əllərində olanı gətirib bir örtüyün üstünə tökürlər. Sonra da həmin ərzağı bir qabla aralarında bərabər miqdarda bölüşürlər. Məhz bu səbəbdən əşarilər məndəndir, mən də onlardanam".

Buxari, Şirkət 1; Müslim, Fəzailus-səhabə 167

AXİRƏT HAZIRLIĞI

YARIŞARAQ AXİRƏTƏ HAZIRLAŞMAQ VƏ XEYİR ƏMƏLİ ARTIRMAQ

Ayə

وَفِي ذَلِكَ فَلْيَتَنَافَسِ الْمُتَنَافِسُونَ.

1. "Qoy yarışanlar onun üçün yarışsınlar".

(əl-Mutaffifin, 26)

Hədislər

٥٧٠ ـ عَنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أُتِيَ بِشَرَابٍ فَشَرِبَ مِنْهُ ، وَعَنْ يَمِينِهِ غُلاَمٌ وَعَنْ يَسَارِهِ الْأَشْيَاخُ . فَقَالَ لِلْغُلاَمِ: «أَتَأْذَنُ لِي أَنْ أُعْطِيَ هَؤُلاَءِ ؟» فَقَالَ الْغُلاَمُ: لاَ وَاللَّهِ يَا رَسُولَ اللَّهِ ، لاَ أُوثِرُ بِنَصِيبِي مِنْكَ أَحَدًا . فَتَلَّهُ رَسُولُ اللَّهِ ﷺ فِي يَدِهِ. مُتَّفَقٌ عَلَيْهِ .

570. Səhl bin Sad *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmə* içmək üçün bir şey gətirdilər. O da içdi. Bu zaman sağ tərəfində bir uşaq, sol tərəfində isə yaşlılar oturmuşdu.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* uşağa baxaraq:

- "Bunu yaşlılara verə bilərəm?" - deyə soruşdu.

Uşaq:

- Xeyr, vallahi olmaz, ya Rəsulallah! Səndən gələcək xeyri heç kimə bağışlaya bilmərəm,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* də qabı uşağa verdi.

Buxari, Şirb vəl-müsaqat 1, 10, Məzalim 12, Hibə 22, 23; Əşribə, 19; Müslim, Əşribə 127

٥٧١ ـ عَـنْ أَبِي هُرَيْـرَةَ رَضِيَ اللَّـهُ عَنْـهُ عَـنِ النَّبِـيِّ ﷺ قَالَ: «بَيْنَا أَيُّوبُ عَلَيْـهِ السَّـلاَمُ يَغْتَسِـلُ عُرْيَانًا فَخَرَّ عَلَيْهِ جَرَادٌ مِنْ ذَهَبٍ ، فَجَعَلَ أَيُّوبُ يَحْثِي فِي ثَوْبِـهِ ، فَنَـادَاهُ رَبُّـهُ عَزَّ وَجَلَّ : يَا أَيُّوبُ ، أَلَمْ أَكُنْ أَغْنَيْتُكَ عَمَّا تَرَى ؟ قَالَ: بَلَى وَعِزَّتِكَ ، وَلَكِنْ لاَ غِنَى بِي عَنْ بَرَكَتِكَ» . رَوَاهُ الْبُخَارِيُّ .

571. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir gün Əyyub peyğəmbər çılpaq halda yuyunarkən üstünə qızıl çəyirtkələr düşməyə başladı. Əyyub onları yığıb patlarına doldurdu.

Bu zaman Rəbbi belə səsləndi:

- Ey Əyyub, mən səni bu gördüklərinə baxmayacaq qədər zəngin etmədimmi?"

Əyyub da:

- Bəli, izzətinə and içirəm ki, məni çox zəngin etdin. Lakin mən sənin lütf etdiyin bərəkətdən doymuram,- dedi.

Buxari, Qüsl 20, Ənbiya 20, Təvhid 35. Həmçinin bax. Nəsai, Qüsl 7

ŞÜKÜR EDƏN ZƏNGİNİN FƏZİLƏTİ

MALINI HALALDAN QAZANIB XƏRCLƏNMƏSİ ƏMR OLUNAN YERLƏRƏ XƏRCLƏMƏK SURƏTİ İLƏ ŞÜKÜR EDƏN ZƏNGİNİN FƏZİLƏTİ

Ayələr

فَأَمَّا مَنْ أَعْطٰى وَاتَّقٰى وَصَدَّقَ بِالْحُسْنٰى فَسَنُيَسِّرُهُ لِلْيُسْرٰى.

1. "Kim (malını Allah yolunda) **versə,** (Allahdan) **qorxsa, və ən gözəl sözü** (lə ilahə illallah kəlməsini) **təsdiq etsə,Biz ona ən asan olanı** (Cənnəti) **müyəssər edəcəyik!"**

(əl-Leyl, 5-7)

وَسَيُجَنَّبُهَا الْأَتْقَى الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّى وَمَا لِأَحَدٍ عِنْدَهُ مِنْ نِعْمَةٍ تُجْزَى
إِلاَّ ابْتِغَاءَ وَجْهِ رَبِّهِ الْأَعْلَى وَلَسَوْفَ يَرْضَى.

2. "Allahdan qorxub pis əməllərdən çəkinən isə ondan (cəhənnəmdən) **uzaqlaşdırılar. O kimsə ki, malını** (Allah yolunda) **verib** (günahlardan) **təmizlənər, O şəxsin boynunda heç kəsin bir minnəti (neməti) yoxdur ki, onun əvəzi verilsin** (etdiyi yaxşılıq ona əvəz olsun; və ya: o, etdiyi yaxşılıq müqabilində heç kəsdən bir mükafat gözləməz). **O ancaq ən uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər.And olsun ki, o** (öz Rəbbindən Cənnətdə ona verəcəyi nemətlərə görə) **razı olacaqdır!"**

(əl-Leyl, 17-21)

إِنْ تُبْدُوا الصَّدَقَاتِ فَنِعِمَّا هِيَ وَإِنْ تُخْفُوهَا وَتُؤْتُوهَا الْفُقَرَاءَ فَهُوَ خَيْرٌ لَكُمْ
وَيُكَفِّرُ عَنْكُمْ مِنْ سَيِّئَاتِكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ.

3. "Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir işdən xəbərdardır!"

(əl-Bəqərə, 271)

لَنْ تَنَالُوا الْبِرَّ حَتَّى تُنْفِقُوا مِمَّا تُحِبُّونَ وَمَا تُنْفِقُوا مِنْ شَيْءٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ.

4. "Sevdiyiniz şeylərdən (haqq yolunda) **sərf etməyincə savaba çatmazsınız. Şübhəsiz ki, Allah** (Onun yolunda) **xərclədiyiniz hər bir şeyi biləndir!"**

(Ali-İmran, 92)

Hədislər

٥٧٢ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ:
«لاَحَسَدَ إِلَّا فِي اثْنَتَيْنِ: رَجُلٌ اٰتَاهُ اللَّهُ مَالًا فَسَلَّطَهُ عَلَى هَلَكَتِهِ فِي الْحَقِّ، وَرَجُلٌ
اٰتَاهُ اللَّهُ حِكْمَةً فَهُوَ يَقْضِي بِهَا وَيُعَلِّمُهَا» . مُتَّفَقٌ عَلَيْهِ.

572. Abdullah bin Məsud *radiyallahuanhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Yalnız bu iki adama qibtə etmək olar:

Biri, Allahın verdiyi malı haqq yolunda xərcləyib istehlak edən kəs, digəri, Allahın verdiyi elmlə yerli-yerində hökm edən və onu başqalarına öyrədən kəs”.

Buxari, Elm 15, Zəkat 5, Əhkam 3, Etisam 13; Müslim, Müsafirin 268. Həmçinin bax. İbn Macə, Zöhd 22

❁

٥٧٣ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لاَ حَسَدَ إِلاَّ فِي اثْنَتَيْنِ: رَجُلٌ آتَاهُ اللَّهُ الْقُرْآنَ ، فَهُوَ يَقُومُ بِهِ آنَاءَ اللَّيْلِ وَآنَاءَ النَّهَارِ ؛ وَرَجُلٌ آتَاهُ اللَّهُ مَالاً ، فَهُوَ يُنْفِقُهُ آنَاءَ اللَّيْلِ وَآنَاءَ النَّهَارِ». مُتَّفَقٌ عَلَيْهِ .

573. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Yalnız bu iki adama qibtə etmək olar:

Biri, Allahın verdiyi Quran ilə gecə-gündüz məşğul olan kəs, digəri, Allahın verdiyi malı gecə-gündüz xərcləyən kəs”.

Buxari, Təmənni 5, Tövhid 45; Müslim, Müsafirin 266, 267. Həmçinin bax. İbn Macə, Zöhd 22

❁

٥٧٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ فُقَرَاءَ الْمُهَاجِرِينَ أَتَوْا رَسُولَ اللَّهِ ﷺ فَقَالُوا: ذَهَبَ أَهْلُ الدُّثُورِ بِالدَّرَجَاتِ الْعُلَى وَالنَّعِيمِ الْمُقِيمِ ، فَقَالَ: «وَمَا ذَاكَ؟» فَقَالُوا: يُصَلُّونَ كَمَا نُصَلِّي ، وَيَصُومُونَ كَمَا نَصُومُ ، وَيَتَصَدَّقُونَ وَلا نَتَصَدَّقُ ، وَيَعْتِقُونَ وَلَا نَعْتِقُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَفَلَا أُعَلِّمُكُمْ شَيْئًا تُدْرِكُونَ بِهِ مَنْ سَبَقَكُمْ ، وَتَسْبِقُونَ بِهِ مَنْ بَعْدَكُمْ ، وَلَا يَكُونُ أَحَدٌ أَفْضَلَ مِنْكُمْ ، إِلَّا مَنْ صَنَعَ مِثْلَ مَا صَنَعْتُمْ؟». قَالُوا: بَلَى ، يَا رَسُولَ اللَّهِ ، قَالَ «تُسَبِّحُونَ ، وَتُكَبِّرُونَ ، وَتَحْمَدُونَ دُبُرَ كُلِّ صَلَاةٍ ، ثَلَاثًا وَثَلَاثِينَ مَرَّةً». فَرَجَعَ فُقَرَاءُ الْمُهَاجِرِينَ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالُوا: سَمِعَ إِخْوَانُنَا أَهْلُ الْأَمْوَالِ بِمَا

فَعَلْنَا ، فَفَعَلُوا مِثْلَهُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «ذٰلِكَ فَضْلُ اللَّهِ يُؤتِيهِ مَنْ يَشَاءُ». مُتَّفَقٌ عَلَيْهِ.

574. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Məkkədən Mədinəyə hicrət edən müsəlmanların arasındakı kasıblar Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəlib:

- Varlı müsəlmanlar cənnətdəki yüksək dərəcələri və əbədi nemətləri yığışdırıb apardılar,- dedilər.

Rəsulullah *səllallahu əleyhi və səlləm* soruşdu:

- **"Xeyir ola! Onlar nə etdilər ki?"**

Kasıb mühacirlər bu cavabı verdilər:

- Onlar da bizim qıldığımız namazı qılır, tutduğumuz orucu tuturlar. Üstəlik sədəqə verirlər, bizsə verə bilmirik. Kölə azad edirlər, bizsə edə bilmirik.

Rəsulullah *səllallahu əleyhi və səlləm* onlardan soruşdu:

- **"Sizdən öndə gedənlərə yetişəcəyiniz, sizdən sonra gələnləri keçəcəyiniz, sizin etdiyinizi edənlərdən başqa hər kəsdən üstün olacağınız bir əməli xəbər verimmi?"**

- Bəli, söylə, ya Rəsulallah! - dedilər.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Hər fərz namazın ardından otuz üç dəfə sübhanallah, əlhəmdulilləh və Allahu əkbərdeyin".**

Bir neçə gün sonra kasıb mühacirlər yenə Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gələrək:

- Zəngin olan qardaşlarımız bizim etdiyimiz zikrdən xəbər tutublar. Onlar da eynisini edirlər,- dedilər.

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Nə edək! Artıq bu Allahın bir lütfüdür, onu istədiyinə verər".

Buxari, Azan 155, Dəavat 18; Müslim, Məsacid 142. Həmçinin bax. Əbu Davud, Vitr 24

ÖLÜMÜ ANMAQ VƏ NƏFSİN HƏDSİZ İSTƏKLƏRİNİ CİLOVLAMAQ

Ayələr

كُـلُّ نَفْـسٍ ذَائِقَةُ الْمَوْتِ وَإِنَّمَا تُوَفَّوْنَ أُجُورَكُمْ يَوْمَ الْقِيَامَةِ فَمَنْ زُحْزِحَ عَنِ النَّارِ وَأُدْخِلَ الْجَنَّةَ فَقَدْ فَازَ وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلاَّ مَتَاعُ الْغُرُورِ.

1. "Hər bir kəs (canlı) **ölümü dadacaqdır. Şübhəsiz ki, mükafatlarınız qiyamət günü tamamilə veriləcəkdir. Oddan** (Cəhənnəmdən) **uzaqlaşdırılıb, Cənnətə daxil edilən kimsə muradına çatacaqdır. Dünya həyatı isə aldadıcı həzdən** (əyləncədən) **başqa bir şey deyildir".**

(Ali-İmran, 185)

وَمَا تَدْرِي نَفْسٌ مَاذَا تَكْسِبُ غَدًا وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ.

2. "Heç kəs səhər nə kəsb edəcəyini (savab, yaxud günah qazanacağını)**, heç kəs harada öləcəyini bilməz".**

(Loğman, 34)

فَإِذَا جَاءَ أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ .

3. "Əcəlləri gəlib çatdıqda isə (ondan) **bircə saat belə nə geri qalar, nə də irəli keçə bilərlər".**

(ən-Nəhl, 61)

يَـا أَيُّهَـا الَّذِيـنَ آمَنُـوا لاَ تُلْهِكُـمْ أَمْوَالُكُـمْ وَلاَ أَوْلاَدُكُـمْ عَنْ ذِكْرِ اللَّهِ وَمَنْ يَفْعَـلْ ذَلِـكَ فَـأُولَئِكَ هُـمُ الْخَـاسِرُونَ وَأَنْفِقُـوا مِمَّـا رَزَقْنَـاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ أَحَدَكُـمُ الْمَوْتُ، فَيَقُولَ رَبِّ لَوْلاَ أَخَّرْتَنِي إِلَى أَجَلٍ قَرِيبٍ فَأَصَّدَّقَ وَأَكُنْ مِنَ الصَّالِحِينَ وَلَنْ يُؤَخِّرَ اللَّهُ نَفْسًا إِذَا جَاءَ أَجَلُهَا وَاللَّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ .

4. "Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kim bunu etsə (Allahı yada salmasa)**, bələləri əsl ziyana uğrayanlardır.Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən**

olardım! – deməmişdən əvvəl sizə verdiyim ruzidən (Allah yolunda) **xərcləyin.Və** (bilin ki) **Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!"**

(əl-Munafiqun, 9-11)

حَتّٰى اِذَا جَآءَ اَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ لَعَلِّى اَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ كَلاَّ اِنَّهَا كَلِمَةٌ هُوَ قَآئِلُهَا وَمِنْ وَرَآئِهِمْ بَرْزَخٌ اِلٰى يَوْمِ يُبْعَثُونَ فَاِذَا نُفِخَ فِي الصُّورِ فَلاَ اَنْسَابَ بَيْنَهُمْ يَوْمَئِذٍ وَلاَ يَتَسَآءَلُونَ فَمَنْ ثَقُلَتْ مَوَازِينُهُ فَاُولٰٓئِكَ هُمُ الْمُفْلِحُونَ وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَاُولٰٓئِكَ الَّذِينَ خَسِرُوآ اَنْفُسَهُمْ فِي جَهَنَّمَ خَالِدُونَ تَلْفَحُ وُجُوهَهُمُ النَّارُ وَهُمْ فِيهَا كَالِحُونَ .

اَ لَمْ تَكُنْ اٰيَاتِي تُتْلٰى عَلَيْكُمْ فَكُنْتُمْ بِهَا تُكَذِّبُونَ قَالُوا رَبَّنَا غَلَبَتْ عَلَيْنَا شِقْوَتُنَا وَكُنَّا قَوْمًا ضَآلِّينَ رَبَّنَآ اَخْرِجْنَا مِنْهَا فَاِنْ عُدْنَا فَاِنَّا ظَالِمُونَ قَالَ اخْسَؤُا فِيهَا وَلاَ تُكَلِّمُونِ اِنَّهُ كَانَ فَرِيقٌ مِنْ عِبَادِي يَقُولُونَ رَبَّنَآ اٰمَنَّا فَاغْفِرْ لَنَا وَارْحَمْنَا وَاَنْتَ خَيْرُ الرَّاحِمِينَ فَاتَّخَذْتُمُوهُمْ سِخْرِيًّا حَتّٰى اَنْسَوْكُمْ ذِكْرِي وَكُنْتُمْ مِنْهُمْ تَضْحَكُونَ اِنِّي جَزَيْتُهُمُ الْيَوْمَ بِمَا صَبَرُوآ اَنَّهُمْ هُمُ الْفَآئِزُونَ قَالَ كَمْ لَبِثْتُمْ فِي الْاَرْضِ عَدَدَ سِنِينَ قَالُوا لَبِثْنَا يَوْمًا اَوْ بَعْضَ يَوْمٍ فَسْئَلِ الْعَآدِّينَ قَالَ اِنْ لَبِثْتُمْ اِلاَّ قَلِيلاً لَوْ اَنَّكُمْ كُنْتُمْ تَعْلَمُونَ اَفَحَسِبْتُمْ اَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَاَنَّكُمْ اِلَيْنَا لاَ تُرْجَعُونَ .

5. "Nəhayət, (müşriklərdən) **birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Ey Rəbbim! Məni geri (dünyaya) qaytar! Bəlkə, (indiyə qədər) zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm! (Yaxud, bu günə qədər tərk etdiyim imana qayıdıb saleh bir əməl edim!) Xeyr, bu onun dediyi boş** (faydasız) **bir sözdür. Onların önündə dirilib duracaqları günə** (qiyamət gününə) **qədər maneə vardır. Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar.Məhz tərəziləri ağır gələnlər** (dünya-

da yaxşı əməlləri çox olanlar) **nicat taparlar.Tərəziləri yüngül gələnlər** (dünyada çoxlu günah qazananlar) **isə özlərinə ziyan edənlərdir. Onlar Cəhənnəmdə əbədi qalarlar.Cəhənnəm odu onların üzünü yandırar. Onlar orada dişləri ağarmış vəziyyətdə dururlar.(Onlara deyilər:) "Məgər Mənim ayələrim sizlərə oxunmurdumu? Siz isə onları yalan hesab edirsiniz!"Onlar deyərlər: "Ey Rəbbimiz! Rəzil taleyimiz bizə qələbə çaldı və biz haqq yoldan azan bir camaat olduq!Ey Rəbbimiz! Bizi buradan çıxart! Əgər bir də** (Sənin xoşuna gəlməyən pis işlərə) **qayıtsaq, şübhəsiz ki, özümüzə zülm etmiş olarıq".** (Allah) **buyurar: "Orada zəlil** (məyus) **vəziyyətdə durub qalın və Mənə heç bir şey deməyin!"**Çünki bəndələrimdən bir zümrə (möminlər) var idi ki, onlar: "Ey Rəbbimiz! Biz (Sənə) iman gətirdik. Artıq bizi bağışla, bizə rəhm et. Sən rəhm edənlərin ən yaxşısısan!" – deyirdilər.Siz isə onları məsxərəyə qoyurdunuz. (Bu halınız) Məni yada salmağı belə sizə unutdurmuşdu. Siz onlara gülürdünüz.Həqiqətən, Mən səbir etdiklərinə görə onları mükafatlandırdım. Onlar nicat tapanlardır!" (Allah qiyamət günü kafirlərə) **belə buyuracaqdır: "Yer üzündə neçə il qaldınız?"Onlar: "Bir gün, bir gündən də az, hər halda, sayanlardan** (insanların əməllərini sayan mələklərdən) **soruş!" – deyə cavab verəcəklər.Allah buyuracaq: "Əgər** (həqiqəti) **bilirsinizsə, siz** (orada) **çox az qaldınız! Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?"**

(əl-Muminun, 99-115)

أَلَمْ يَـأْنِ لِلَّذِيـنَ آمَنُـوا أَنْ تَخْشَـعَ قُلُوبُهُـمْ لِذِكْرِ اللَّهِ وَمَا نَزَلَ مِنَ الْحَقِّ وَلاَ يَكُونُـوا كَـالَّذِينَ أُوتُـوا الْكِتَـابَ مِنْ قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ، وَكَثِيرٌ مِنْهُمْ فَاسِقُونَ.

6. "İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) **üçün yumşalması vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr kimi olmasınlar. Onlarla** (öz peyğəmbərləri arasında) **uzun bir müddət keçmiş və** (öyüd-nəsihəti unutduqları üçün) **qəlbləri sərtləşmişdir. Onların çoxu fasiqlərdir!"**

(əl-Hədid, 16)

Hədislər

٥٧٥ ـ عَـنِ ابْـنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَخَذَ رَسُولُ اللَّهِ ﷺ بِمَنْكِبِي فَقَـالَ: «كُـنْ فِي الدُّنْيَا كَأَنَّكَ غَرِيبٌ أَوْ عَابِرُ سَبِيلٍ». وَكَانَ ابْنُ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُـمَا يَقُـولُ: إِذَا أَمْسَيْتَ فَلاَ تَنْتَظِرِ الصَّبَاحَ ، وَإِذَا أَصْبَحْتَ فَلاَ تَنْتَظِرِ الْمَسَاءَ وَخُذْ مِنْ صِحَّتِكَ لِمَرَضِكَ ، وَمِنْ حَيَاتِكَ لِمَوْتِكَ». رَوَاهُ الْبُخَارِيُّ .

575. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* çiynimdən tutub belə dedi:

"Dünyada sanki bir qərib, yaxud da yol keçən adam kimi ol". İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Axşama çıxanda səhəri gözləmə, səhərə qovuşanda da axşamı gözləmə. Sağlam vaxtı xəstəliyin, ömrün boyu da ölümün üçün tədbir ar.

Buxari, Riqaq 3. Həmçinin bax. Tirmizi, Zöhd 25; İbn Macə, Zöhd 3

❁

٥٧٦ ـ وَعَنْـهُ أَنَّ رَسُـولَ اللَّـهِ ﷺ قَـالَ: «مَـا حَـقُّ امْرِيءٍ مُسْلِمٍ لَهُ شَيْءٌ يُوْصِي فِيهِ، يَبِيتُ لَيْلَتَيْنِ إِلاَّ وَوَصِيَّتُهُ مَكْتُوبَةٌ عِنْدَهُ». مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَـةٍ لِمُسْـلِمٍ: «يَبِيـتُ ثَـلاَثَ لَيَالٍ». قَالَ ابْنُ عُمَرَ: مَا مَرَّتْ عَلَيَّ لَيْلَةٌ مُنْذُ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ قَالَ ذَلِكَ إِلاَّ وَعِنْدِي وَصِيَّتِي.

576. Yenə İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Vəsiyyət edəcəyi malı olan müsəlmanın iki gecəni yazılı vəsiyyəti yanında olmadan keçirməsi doğru deyil".

Buxari, Vəsaya 1; Müslim, Vəsiyyət 1, 4. Həmçinin bax. Əbu Davud, Vəsaya 1; Tirmizi, Vəsaya 3; Nəsai, Vəsaya 1; İbn Macə, Vəsaya 2

Müslimin bir rəvayətində "üç gecə keçirməsi" deyilir.

İbn Ömər *radiyallahu anhumə* deyir ki:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* bu sözünü eşitdiyimdən bəri vəsiyyətim yanımda olmadan bircə gecə keçirmədim.

Müslim, Vəsiyyət 4

❁

٥٧٧ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَطَّ النَّبِيُّ ﷺ خُطُوطًا فَقَالَ: «هَذَا الْإِنْسَانُ ، وَهَذَا أَجَلُهُ. فَبَيْنَمَا هُوَ كَذَلِكَ إِذْ جَاءَ الْخَطُّ الْأَقْرَبُ» . رَوَاه الْبُخَارِيُّ .

577. Ənəs *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* yerə bir neçə xətt çəkdi. Sonra da çəkdiklərini göstərib belə buyurdu:

"Bunlar insanın arzu-istəkləri, bu da onun əcəlidir. İnsan xəyal içində ömür sürərkən bir də görər ki, ən yaxın ölüm xətti qarşısına gəlib".

Buxari, Riqaq 4

❁

٥٧٨ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَطَّ النَّبِيُّ ﷺ خَطًّا مُرَبَّعًا وَخَطَّ خَطًّا فِي الْوَسَطِ خَارِجًا مِنْهُ ، وَخَطَّ خُطُطًا صِغَارًا إِلَى هَذَا الَّذِي فِي الْوَسَطِ مِنْ جَانِبِهِ الَّذِي فِي الْوَسَطِ ، فَقَالَ: هَذَا الْإِنْسَانُ ، وَهَذَا أَجَلُهُ مُحِيطًا بِهِ ـ أَوْ قَدْ أَحَاطَ بِهِ ـ وَهَذَا الَّذِي هُوَ خَارِجٌ أَمَلُهُ ، وَهَذِهِ الْخُطُطُ الصِّغَارُ الْأَعْرَاضُ: فَإِنْ أَخْطَأَهُ هَذَا نَهَشَهُ هَذَا ، وَإِنْ أَخْطَأَهُ هَذَا نَهَشَهُ هَذَا». رَوَاه الْبُخَارِيُّ .

578. İbn Məsud *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* yerə bir dördbucaqlı çəkdi. Dördbucaqlının ortasına, bir kənarından kəsərək çölə çıxan bir xətt çəkdi. Ortadakı həmin xəttin iki tərəfindən ona doğru bir neçə kiçik xətlər də çəkdi. Sonra xətləri göstərərək belə buyurdu:

"Bu, insan, bu da onu əhatə edən (yaxud əhatə etmiş) əcəlidir. Dördbucağı kəsərək çölə çıxan insanın arzularıdır. Ortadakı xəttə

doğru çəkilmiş kiçik xətlər dərd və iztirablardır. İnsan bu dərdlərin birindən xilas olsa, o biri toxunar. Bundan xilas olsa, obiri yaxalayar".

Buxari, Riqaq 4. Həmçinin bax. Tirmizi, Qiyamət 22; İbn Macə, Zöhd 27

❁

٥٧٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «بَادِرُوا بِالْأَعْمَالِ سَبْعًا: هَلْ تَنْتَظِرُونَ إِلاَّ فَقْرًا مُنْسِيًا ، أَوْ غِنًى مُطْغِيًا ، أَوْ مَرَضًا مُفْسِدًا ، أَوْ هَرَمًا مُفَنِّدًا ، أَوْ مَوْتًا مُجْهِزًا ، أَوِ الدَّجَّالَ فَشَرُّ غَائِبٍ يُنْتَظَرُ ، أَوِ السَّاعَةَ فَالسَّاعَةُ أَدْهَى وَأَمَرُّ ؟!». رَوَاهُ التِّرْمِذِيُّ .

579. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yeddi şey gəlmədən yaxşı işlər görməyə tələsin. Yoxsa siz insana vəzifələrini unutduran kasıblıqdan, azdıran zənginlikdən, haldan salan xəstəlikdən, sərsəmlədən qocalıqdan, qəfil yaxalayan ölümdən, gəlməsi gözlənən şeylərin ən pisi olan dəccaldan, bəlası daha böyük və daha acı olan qiyamətdən başqa nə isə gözləyirsiniz?"

Tirmizi, Zöhd 3

❁

٥٨٠ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَكْثِرُوا مِنْ ذِكْرِ هَاذِمِ اللَّذَّاتِ» يَعْنِي الْمَوْتَ. رَوَاهُ التِّرْمِذِيُّ .

580. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Zövqləri bıçaq kimi kəsəni -ölümü- çox xatırlayın!"

Tirmizi, Zöhd 4. Həmçinin bax. Nəsai, Cənaiz 3; İbn Macə, Zöhd 31

٥٨١ ـ عَـنْ أُبَيٍّ بْنِ كَعْبٍ رَضِيَ اللَّهُ عَنْهُ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا ذَهَبَ ثُلُـثُ اللَّيْـلِ قَامَ فَقَالَ: «يَا أَيُّهَا النَّاسُ ، اذْكُرُوا اللَّهَ ، جَاءَتِ الرَّاجِفَةُ ، تَتْبَعُهَا الرَّادِفَـةُ ، جَـاءَ الْمَـوْتُ بِـمَا فِيهِ ، جَاءَ الْمَوْتُ بِمَا فِيهِ !» قُلْتُ: يَا رَسُولَ اللَّهِ إِنِّي أُكْـثِرُ الصَّلاَةَ عَلَيْكَ ، فَكَمْ أَجْعَلُ لَكَ مِنْ صَلاَتِي ؟ فَقَالَ: «مَا شِئْتَ» . قُلْـتُ: الرُّبُعَ ؟ قَالَ: «مَا شِئْتَ ، فَإِنْ زِدْتَ فَهُوَ خَيْرٌ لَكَ». قُلْتُ: فَالنِّصْفَ ؟ قَـالَ: «مَا شِئْتَ ، فَإِنْ زِدْتَ فَهُوَ خَيْرٌ لَكَ». قُلْتُ: فَالثُّلُثَيْنِ ؟ قَالَ: «مَا شِئْتَ فَـإِنْ زِدْتَ فَهُـوَ خَـيْرٌ لَـكَ». قُلْـتُ: أَجْعَـلُ لَـكَ صَلاَتِي كُلَّهَا ؟ قَالَ: «إِذَنْ تُكْفَى هَمَّكَ وَيُغْفَرَ لَكَ ذَنْبُكَ». رَوَاهُ التِّرْمِذِيُّ .

581. Übey bin Kab *radiyallahu anh* belə dedi:

Gecənin üçdə biri keçəndən sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* oyanıb qalxdı və belə buyurdu:

"Ey insanlar, Allahı zikr edin! Yeri yerindən oynadan birinci sura üfürüləcək. Ardınca ikincisi gələcək. Ölüm bütün şiddəti ilə gəlib çatacaq. Ölüm bütün şiddəti ilə gəlib çatacaq".

Übey deyir ki, Hz. Peyğəmbərdən:

- Ya Rəsulallah, mən sənə çox salavati-şərif gətirirəm. Əcəba, bunu nə qədər etməliyəm? - deyə soruşdum.

- **"İstədiyin qədər", -** buyurdu.

- Dualarımın dörddə birini salavati-şərifə ayırsam uyğun olarmı? - deyə soruşdum.

- **"İstədiyin qədərini ayır. Amma daha çox vaxt ayırsan, sənin üçün yaxşı olar", -** buyurdu.

- Elə isə duamın yarısını salavati-şərifə ayırım,- dedim.

- **"İstədiyin qədər et. Amma daha çox vaxt ayırsan, sənin üçün xeyirli olar", -** buyurdu.

Mən yenə soruşdum:

- Elə isə üçdə ikisi kifayətdirmi?

- **"İstədiyin qədər. Ancaq artırsan sənin üçün xeyirlidir", -** buyurdu.

- Elə isə duaya ayırdığım vaxtın hamısında sənə salavati-şərif gətirsəm, necə olar? - dedim.

- **"Elə olan təqdirdə Allah bütün dərdlərini dağıdar və günahlarını bağışlayar", -** buyurdu.

Tirmizi, Qiyamət 23

QƏBİR ZİYARƏTİ

KİŞİLƏRƏ QƏBİR ZİYARƏTİNİN MÜSTƏHƏB OLMASI VƏ ZİYARƏTÇİNİN DEYƏCƏKLƏRİ

Hədislər

٥٨٢ ـ عَنْ بُرَيْدَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «كُنْتُ نَهَيْتُكُمْ عَنْ زِيَارَةِ الْقُبُورِ فَزُورُوهَا». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ: «فَمَنْ أَرَادَ أَنْ يَزُورَ الْقُبُورَ فَلْيَزُرْ فَإِنَّهَا تُذَكِّرُنَا الآخِرَةَ ».

582. Büreydə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim. Lakin artıq ziyarət edə bilərsiniz".

Müslim, Cənaiz 106, Ədahi 37. Həmçinin bax. Əbu Davud, Cənaiz 77; Tirmizi, Cənaiz 60; Nəsai, Cənaiz 100

Başqa bir rəvayətə görə belə buyurdu:

"Qəbirləri ziyarət etmək istəyən ziyarət etsin. Çünki qəbir ziyarəti bizə axirəti xatırladır". [36]

Tirmizi, Cənaiz 60; Əbu Davud, Cənaiz 77

٥٨٣ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ كُلَّمَا كَانَ

36. Əvvəlcə qəbir ziyarətlərinin qadağan olunmasının səbəbi insanların hələ cahiliyyə adətlərindən təmizlənməmiş olmaları idi. İslam inancı formalaşdıqdan və xurafələr unudulduqdan sonra isə qəbir ziyarətinə izin verilmişdir.

لَيْلَتُهَا مِنْ رَسُولِ اللَّهِ ﷺ يَخْرُجُ مِنْ آخِرِ اللَّيْلِ إِلَى الْبَقِيعِ ، فَيَقُولُ: «السَّلاَمُ عَلَيْكُمْ ، دَارَ قَوْمٍ مُؤْمِنِينَ ، وَأَتَاكُمْ مَا تُوعَدُونَ ، غَدًا مُؤَجَّلُونَ ، وَإِنَّا إِنْ شَاء اللَّهُ بِكُمْ لاَحِقُونَ ! اللَّهُمَّ اغْفِرْ لِأَهْلِ بَقِيعِ الْغَرْقَدِ». رَوَاهُ مُسْلِمٌ .

583. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Aişənin yanında qaldığı gecələrin sonuna doğru Baqi məzarlığına gedərək belə deyərdi:

"Salam olsun sizə, ey möminlər diyarı! Başınıza gələcəyi deyilən şeylərlə nəhayət, qarşılaşdınız. Əsas hesabınız gələcəkdə olacaqdır. İnşallah biz də tezliklə aranıza qatılacağıq.

Allahım, Baqiul-ğarqad məzarlığında yatanları bağışla!"

Müslim, Cənaiz 102. Həmçinin bax. Əbu Davud, Cənaiz 79; Nəsai, Cənaiz 103; İbn Macə, Cənaiz 36, Zöhd 36

❁

٥٨٤ ـ عَنْ بُرَيْدَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يُعَلِّمُهُمْ إِذَا خَرَجُوا إِلَى الْمَقَابِرِ أَنْ يَقُولَ قَائِلُهُمْ: «السَّلاَمُ عَلَيْكُمْ أَهْلَ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ ، وَإِنَّا إِنْ شَاءَ اللَّهُ بِكُمْ لَلاَحِقُونَ ، أَسْأَلُ اللَّهَ لَنَا وَلَكُمُ الْعَافِيَةَ». رَوَاهُ مُسْلِمٌ .

584. Büreydə *radiyallahu anh* belə edi:

Hz. Peyğəmbər əshabi-kirama qəbiristanlığa getdikləri zamanbelə demələrini öyrədirdi:

"Salam sizə, ey bu diyarın mömin və müsəlman xalqı! İnşallah tezliklə biz də aranıza qatılacağıq. Allahdan bizi də, sizi də bağışlamasını diləyirəm".

Müslim, Cənaiz 104. Həmçinin bax. Nəsai, Cənaiz 103; İbn Macə, Cənaiz 36

❁

٥٨٥ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: مَرَّ رَسُولُ اللَّهِ ﷺ بِقُبُورٍ

بِالْمَدِينَةِ ، فَأَقْبَلَ عَلَيْهِمْ بِوَجْهِهِ فَقَالَ: «السَّلاَمُ عَلَيْكُمْ يَا أَهْلَ الْقُبُورِ ، يَغْفِرُ اللَّهُ لَنَا وَلَكُمْ ، أَنْتُمْ سَلَفُنَا وَنَحْنُ بِالْأَثَرِ». رَوَاهُ التِّرْمِذِيُّ .

585. İbn Abbas *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Mədinədə bəzi qəbirləri ziyarət etdi. Üzünü onlara tutaraq belə buyurdu:

"Salam sizə, ey bu qəbirdə yatanlar! Allah bizi də sizi də bağışlasın. Siz bizdən əvvəl getdiniz. Biz ardınızca gələcəyik".

Tirmizi, Cənaiz 59

ÖLÜMÜ ARZULAMAĞIN DOĞRU OLMADIĞI

BAŞA GƏLƏN BƏLAYA GÖRƏ ÖLÜMÜ ARZULAMAĞIN DOĞRU OLMADIĞI, LAKİN DİNİ YAŞAMAQDA ÇƏTİNLİK BAŞ VERDİKDƏ BELƏ BİR ARZUNUN GÜNAH SAYILMADIĞI

Hədislər

٥٨٦ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لاَ يَتَمَنَّيَنَّ أَحَدُكُمُ الْمَوْتَ، إِمَّا مُحْسِنًا فَلَعَلَّهُ يَزْدَادُ، وَإِمَّا مُسِيئًا فَلَعَلَّهُ يَسْتَعْتِبُ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «لاَ يَتَمَنَّيَنَّ أَحَدُكُمُ الْمَوْتَ ، وَلاَ يَدْعُ بِهِ مِنْ قَبْلِ أَنْ يَأْتِيَهُ ؛ إِنَّهُ إِذَا مَاتَ انْقَطَعَ عَمَلُهُ ، وَإِنَّهُ لاَ يَزِيدُ الْمُؤْمِنَ عُمُرُهُ إِلاَّ خَيْرًا».

586. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən heç kim ölümü arzulamasın. Çünki ölümü istəyən əgər yaxşı adamdırsa, bəlkə daha çox xeyir iş görər. Əgər pis adamdırsa, bəlkə tövbə edib Allahın rizasını qazanmağa çalışar".

Buxari, Təmənni 6; Müslim, Zikr 10. Həmçinin bax. Nəsai, Cənaiz 1; İbn macə, Zöhd 31

٥٨٧ ـ عَـنْ أَنَـسٍ رَضِيَ اللَّـهُ عَنْـهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ يَتَمَنَّيَنَّ أَحَدُكُـمُ الْمَـوْتَ لِـضُرٍّ أَصَابَـهُ ، فَـإِنْ كَانَ لاَ بُدَّ فَاعِلاً فَلْيَقُلِ: اللَّهُمَّ أَحْيِنِي مَا كَانَتِ الْحَيَاةُ خَيْرًا لِي ، وَتَوَفَّنِي إِذَا كَانَتِ الْوَفَاةُ خَيْرًا لِي». مُتَّفَقٌ عَلَيْهِ .

587. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən heç kim başına gələn zərərə görə ölümü arzulamasın. Əgər ölümü istəmək məcburiyyətində qalarsa belə desin:

Allahım, mənim üçün yaşamaq xeyirli olduğu müddətdə yaşat. Mənim üçün ölmək daha xeyirli olduğu zaman canımı al!"

Buxari, Mərda 19, Dəavat 30; Müslim, Zikr 10. Həmçinin bax. Əbu Davud, Cənaiz 9; Nəsai, Cənaiz 1, 2; İbn macə, Zöhd 31

❁

٥٨٨ ـ عَـنْ قَيْـسِ بْنِ أَبِي حَازِمٍ قَالَ: دَخَلْنَا عَلَى خَبَّابِ بْنِ الْأَرَتِّ رَضِيَ اللَّـهُ عَنْـهُ نَعُودُهُ ، وَقَدِ اكْتَوَى سَبْعَ كَيَّاتٍ ، فَقَالَ: إِنَّ أَصْحَابَنَا الَّذِينَ سَلَفُوا مَضَـوْا وَلَمْ تَنْقُصْهُمُ الدُّنْيَا ، وَإِنَّا أَصَبْنَا مَا لاَ نَجِدُ لَهُ مَوْضِعًا إِلاَّ التُّرَابَ. وَلَوْلا أَنَّ النَّبِـيَّ ﷺ نَهَانَـا أَنْ نَدْعُـوَ بِـالْمَوْتِ لَدَعَـوْتُ بِهِ. ثُمَّ أَتَيْنَاهُ مَرَّةً أُخْرَى وَهُوَ يَبْنِـي حَائِطًـا لَهُ. فَقَالَ: إِنَّ الْمُسْلِمَ لَيُؤْجَرُ فِي كُلِّ شَيْءٍ يُنْفِقُهُ إِلاَّ فِي شَيْءٍ يَجْعَلُهُ فِي هَذَا التُّرَابِ. مُتَّفَقٌ عَلَيْهِ .

588. Qays bin Əbu Hazim belə dedi:

Həbbəb bin Ərət xəstələnmişdi. Onu ziyarət etmək üçün yanına getdik. Bədənini yeddi yerdən dağlamışdı.

Habab belə dedi:

Köhnə dostlarımız dünyaya qapılmadan köçüb getdilər. Biz isə o qədər çox mala sahib olduq ki, onu qoymağa yer tapmayıb toprağa basdırdıq. Əgər Peyğəmbər *səllallahu əleyhi və səlləm* ölmək üçün dua etməyi yasaqlamasaydı, Allahdan canımı almasını istəyərdim.

(Ravi Qays bin Əbu Hazim deyir ki:)

Başqa bir vaxt Habbabın yanına getmişdik, gördük ki, divar hörür. Bizə belə dedi:

Müsəlman Allah üçün xərclədiyi hər şeydən savab qazanar. Lakin bu palçığa verdiklərindən əlinə heç nə keçməz.

Buxari, Mərda 19, Dəavat 30, Riqaq 7, Təmənni 6; Müslim, Zikr 12. Həmçinin bax. Tirmizi, Qiyamət 40, Nəsai, Cənaiz 2

GÜNAHDAN ÇƏKİNMƏK, GÜNAHA APARACAQ ƏMƏLLƏRDƏN UZAQLAŞMAQ

Ayələr

وَتَحْسَبُونَهُ هَيِّنًا وَهُوَ عِنْدَ اللَّهِ عَظِيمٌ.

1. "O zaman ki, siz (münafiqlərin yaydığı) **yalanı dilinizə gətirir, bilmədiyiniz sözü ağzınıza alır və onu yüngül bir şey sanırdınız. Halbuki bu, Allah yanında çox böyük günahdır!"**

(ən-Nur, 15)

إِنَّ رَبَّكَ لَبِالْمِرْصَادِ.

2. "Şübhəsiz ki, Rəbbin (bəndələrinin bütün əməllərini) **baxıb görür".**

(əl-Fəcr, 14)

Hədislər

٥٨٩ ـ عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ الْحَلاَلَ بَيِّنٌ ، وَإِنَّ الْحَرَامَ بَيِّنٌ ، وَبَيْنَهُمَا مُشْتَبِهَاتٌ لاَ يَعْلَمُهُنَّ كَثِيرٌ مِنَ النَّاسِ ، فَمَنِ اتَّقَى الشُّبُهَاتِ اسْتَبْرَأَ لِدِينِهِ وَعِرْضِهِ ، وَمَنْ وَقَعَ فِي

الشُّبُهَاتِ وَقَعَ فِي الْحَرَامِ ، كَالرَّاعِي يَرْعَى حَوْلَ الْحِمَى يُوشِكُ أَنْ يَرْتَعَ فِيهِ ، أَلاَ وَإِنَّ لِكُلِّ مَلِكٍ حِمًى ، أَلاَ وَإِنَّ حِمَى اللَّهِ مَحَارِمُهُ ، أَلاَ وَإِنَّ فِي الْجَسَدِ مُضْغَةً إِذَا صَلَحَتْ صَلَحَ الْجَسَدُ كُلُّهُ ، وَإِذَا فَسَدَتْ فَسَدَ الْجَسَدُ كُلُّهُ: أَلاَ وَهِيَ الْقَلْبُ ». مُتَّفَقٌ عَلَيْهِ .

589. Numan bin Bəşir *radiyallahu anhumə* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə söylədiyini eşitdim,- dedi:

"Halal da bəllidir, haram da. Bu ikisinin arasında əksər insanın halal, yoxsa haram olduğunu bilmədiyi şübhəli olanlar var.

Şübhəlilərdən uzaq duranlar dinlərini və namusunu qorumuş olarlar. Şübhəlilərdən çəkinməyənlər get-gedə harama dalarlar. Eynilə sürüsünü başqasına aid ərazinin ətrafında otaran çoban kimi. Hansı ki, həmin sürünün bu əraziyə girmə təhlükəsi var.

Diqqətli olun! Hər bir padşahın yasaq ərazisi var, ora girmək qadağandır. Unutmayın ki, Allahın yasaq ərazisi də haram qıldığı şeylərdir.

Yaxşı bilin ki, insan vücudunda kiçik bir ət parçası var. Əgər o ət parçası yaxşı olarsa, bütün vücud yaxşı olar. Əgər o pozularsa, bütün vücud pozular. Həmin ət parçası qəlbdir".

Buxari, İman 39, Büyu 2; Müslim, Müsaqat 107, 108. Həmçinin bax. Əbu davud, Büyu 3; Tirmizi, Büyu 1; Nəsai, Büyu 2, Qudat 11; İbn Macə, Fitən 14

❁

٥٩٠ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ وَجَدَ تَمْرَةً فِي الطَّرِيقِ فَقَالَ: «لَوْلاَ أَنِّي أَخَافُ أَنْ تَكُونَ مِنَ الصَّدَقَةِ لَأَكَلْتُهَا». مُتَّفَقٌ عَلَيْهِ .

590. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* yolda bir xurma tapdı və:

"Bu xurmanın sədəqə olma ehtimalından qorxmasaydım, onu yeyərdim", - buyurdu.

Buxari, Büyu 4, Luqata 6; Müslim, Zəkat 154-166. Həmçinin bax. Əbu Davud, Zəkat 29

٥٩١ ـ عَـنِ النَّـوَّاسِ بْنِ سِمْعَانَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْبِرُّ حُسْـنُ الْخُلُـقِ ، وَالْإِثْـمُ مَـا حَـاكَ فِي نَفْسِكَ وَكَرِهْتَ أَنْ يَطَّلِعَ عَلَيْهِ النَّاسُ». رَوَاهُ مُسْلِمٌ .

591. Nəvvas bin Səman *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yaxşılıqgözəl əxlaqdan ibarətdir. Günah isə daxilən narahatlıq verən və insanların bilməsini istəmədiyin şeydir".

Müslim, Birr 14, 15. Həmçinin bax. Tirmizi, Zöhd 52

❁

٥٩٢ ـ عَـنْ وَابِصَـةَ بْـنِ مَعْبَدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَيْتُ رَسُولَ اللَّهِ ﷺ فَقَـالَ: «جِئْتَ تَسْأَلُ عَنِ الْبِرِّ؟» قُلْتُ: نَعَمْ ، فَقَالَ: «اسْتَفْتِ قَلْبَكَ ، الْبِرُّ مَا اطْمَـأَنَّتْ إِلَيْـهِ النَّفْـسُ وَاطْمَأَنَّ إِلَيْهِ الْقَلْبُ ، وَالْإِثْمُ مَاحَاكَ فِي النَّفْسِ وَتَرَدَّدَ فِي الصَّدْرِ ، وَإِنْ أَفْتَاكَ النَّاسُ وَأَفْتَوْكَ ». رَوَاهُ أَحْمَدُ وَالدَّارِمِيُّ.

592. Vabisa bin Məbəd *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna getmişdim. Mənə:

- **"Yaxşılığın nə olduğunu soruşmağa gəlmisən?" -** buyurdu.

- Bəli,- dedim.

Bu zaman belə dedi:

- "Qəlbindən soruş.

Yaxşılıq nəfsin xoş gördüyü və edilməsini qəlbin təsdiqlədiyi şeydir.

Günah isə daxilən narahatçılıq verən və başqaları sənə etməyin üçün fitva versələr də, yenə içində şübhə və tərəddüd oyandıran şeydir".

Əhməd bin Hənbəl, Müsnəd IV, 227-228; Darimi, Büyu 2

❁

٥٩٣ ـ عَـنْ أَبِي سِرْوَعَـةَ عُقْبَـةَ ابْـنِ الْحَارِثِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ تَزَوَّجَ ابْنَةً لِأَبِي إِهَـابِ بْـنِ عَزِيزٍ ، فَأَتَتْهُ امْرَأَةٌ فَقَالَتْ: إِنِّي قَدْ أَرْضَعْتُ عُقْبَةَ ، وَالَّتِي قَد تَـزَوَّجَ بِهَـا ، فَقَالَ لَهَا عُقْبَةُ : مَا أَعْلَمُ أَنَّكِ أَرْضَعْتِنِي وَلاَ أَخْبَرْتِنِي ، فَرَكِبَ إِلَى رَسُـولِ اللَّهِ ﷺ بِالْمَدِينَةِ ، فَسَأَلَهُ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «كَيْفَ وَقَدْ قِيلَ ؟» فَفَارَقَهَا عُقْبَةُ وَنَكَحَتْ زَوْجًا غَيْرَهُ . رَوَاهُ الْبُخَارِيُّ .

593. Əbu Sirvaa Uqbə bin Haris *radiyallahu anhdan* rəvayət edildiyinə görə o, Əbu İhab bin Əzizin qızı ilə evlənmişdi. Bir qadın gələrək:

- Mən Uqbəni də, evləndiyi qadını da əmizdirmişdim,- dedi.

Uqbə həmin qadına:

- Məni əmizdirdiyini bilmirəm. Üstəlik bunu mənə heç deməmisən,- dedi. Sonra miniyinə minib Rəsulullah *səllallahu əleyhi və səlləmdən* məsləhət almaq üçün Mədinəyə getdi. Ora çatan kimi məsələni Peyğəmbər *səllallahu əleyhi və səlləmə* açdı.

Allahın Rəsulu:

- **"Madan ki, elə deyilir, o qadınla necə evli qala bilərsən?"** - buyurdu. Uqbə arvadından ayrıldı və qadın başqası ilə evləndi.

Buxari, Elm 26, Büyu 3, Şəhadət 4, 13, 14, Nikah 23. Həmçinin bax. Əbu Davud, Əqdiyyə 18; Tirmizi, Rada 4

❁

٥٩٤ ـ عَـنِ الْحَسَنِ بْنِ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: حَفِظْتُ مِنْ رَسُولِ اللَّهِ ﷺ: «دَعْ مَا يَرِيبُكَ إِلَى مَالاَ يَرِيبُكَ». رَوَاهُ التِّرْمِذِيُّ .

594. Həsən bin Əli *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu ondan eşidib əzbərlədim:

"Sənə şübhə verən şeyi tərk et, şübhə verməyənə bax!"

Tirmizi, Qiyamət 60. Həmçinin bax. Buxari, Büyu 3; Nəsai, Qəza 11

٥٩٥ ـ عَـنْ عَائِشَـةَ رَضِيَ اللَّـهُ عَنْهَا قَالَتْ: كَانَ لِأَبِي بَكْرٍ الصِّدِّيقِ رَضِيَ اللَّـهُ عَنْهُ غُلَامٌ يُخْرِجُ لَهُ الْخَرَاجَ ، وَكَانَ أَبُو بَكْرٍ يَأْكُلُ مِنْ خَرَاجِهِ ، فَجَاءَ يَوْمًا بِـشَيْءٍ فَأَكَلَ مِنْهُ أَبُو بَكْرٍ ، فَقَالَ لَهُ الْغُلَامُ: تَدْرِي مَا هَذَا ؟ فَقَالَ أَبُو بَكْرٍ: وَمَا هُـوَ ؟ فَقَالَ: كُنْتُ تَكَهَّنْتُ لِإِنْسَانٍ فِي الْجَاهِلِيَّةِ ، وَمَا أُحْسِنُ الْكَهَانَةَ ، إِلاَّ أَنِّي خَدَعْتُـهُ فَلَقِيَنِـي فَأَعْطَـانِي ـ لِذَلِـكَ ـ هَذَا الَّذِي أَكَلْتَ مِنْهُ . فَأَدْخَلَ أَبُو بَكْرٍ يَدَهُ ، فَقَاءَ كُلَّ شَيْءٍ فِي بَطْنِهِ . رَوَاهُ الْبُخَارِيُّ .

595. Aişə *radiyallahu anhə* belə dedi:

Əbu Bəkr əs-Siddiq *radiyallahu anhın* bir köləsi vardı. Həmin kölə qazancından müəyyən qədərini Əbu Bəkrə verər, o da bundan yeyərdi.

Bir gün həmin kölə yenə qazancından gətirmişdi. Əbu Bəkr ondan yeməyə başladı. Kölə Əbu Bəkrdən:

- Yediyin şeyin nə olduğunu bilirsənmi? - deyə soruşdu. Əbu Bəkr də:

- De görüm, nədir? - deyə açıqlamasını istədi. Kölə belə dedi:

- Fala baxa bilmədiyim halda cahiliyyə dövründə bir nəfərin falına baxaraq onu aldatmışdım. Bu gün həmin adamla qarşılaşdıq. O vaxt gördüyüm işin müqabilində bu yediyini verdi.

Əbu Bəkr bu sözü eşidən kimi barmağını ağzına soxub yediklərinin hamısını qusdu.

Buxari, Mənaqibul-ənsar 26

❁

٥٩٦ ـ عَـنْ نَـافِعٍ أَنَّ عُمَـرَ بْـنَ الْخَطَّـابِ رَضِيَ اللَّـهُ عَنْـهُ كَـانَ فَـرَضَ لِلْمُهَـاجِرِينَ الْأَوَّلِـينَ أَرْبَعَةَ آلَافٍ ، وَفَرَضَ لِابْنِهِ ثَلَاثَةَ آلَافٍ وَخَمْسِمِائَةٍ ، فَقِيلَ لَـهُ : هُـوَ مِنَ الْمُهَاجِرِينَ فَلِمَ نَقَصْتَهُ ؟ فَقَالَ: إِنَّمَا هَاجَرَ بِهِ أَبُوهُ ! يَقُولُ : لَيْسَ هُوَ كَمَنْ هَاجَرَ بِنَفْسِهِ . رَوَاهُ الْبُخَارِيُّ .

596. Nafidən rəvayət edildiyinə görə:

Ömər bin Xəttab *radiyallahu anh* ilk hicrət edən səhabələrə dörd min, oğlu Abdullaha da üç min beş yüz dirhəm maaş təyin etmişdi.

Hz. Ömərdən soruşdular:

- Oğlun da ilk hicrət edənlərdəndir. Nə üçün onun haqqını kəsirsən?

Hz. Ömər bu cavabı verdi:

- Oğlum atası ilə birlikdə hicrət etdi. Ona görə də təkbaşına hicrət edənlərlə bir tutulmaz.

Buxari, Mənaqibul-ənsar 45

٥٩٧ ـ عَنْ عَطِيَّةَ بْنِ عُرْوَةَ السَّعْدِيِّ الصَّحَابِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ يَبْلُغُ الْعَبْدُ أَنْ يَكُونَ مِنَ الْمُتَّقِينَ حَتَّى يَدَعَ مَالاَ بَأْسَ بِهِ حَذَرًا مِمَّا بِهِ بَأْسٌ ». رَوَاهُ التِّرْمِذِيُّ .

597. Atiyyə bin Urvə əs-Sədi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir qul günaha düşmək qorxusu səbəbi ilə edilməsində qəbahət olmayan bəzi şeylərdən də uzaq durmadıqca müttəqilər dərəcəsinə yüksəlməz".

Tirmizi, Qiyamət 19. Həmçinin bax. İbn Macə, Zöhd 24

İNSANLARDAN UZAQ YAŞAMAQ

ZƏMANƏ DƏYİŞDİKDƏ VƏ YA DİNİ YAŞAMAMAQDAN VƏ HARAMLARADÜŞMƏKDƏN QORXDUQDA BİR KƏNARA ÇƏKİLMƏYİN YAXŞI OLACAĞI

Ayə

فَفِرُّوا إِلَى اللَّهِ إِنِّي لَكُمْ مِنْهُ نَذِيرٌ مُبِينٌ .

1. "Allaha tərəf qaçın (yönəlin)**! Mən sizi Ondan** (Allahın əzabından) **açıq-aşkar qorxudan bir peyğəmbərəm!"**

(əz-Zariyat, 50)

Hədislər

٥٩٨ ـ عَـنْ سَـعْدِ بْنِ أَبِي وَقَّاصٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ اللَّهَ يُحِبُّ الْعَبْدَ التَّقِيَّ الْغَنِيَّ الْخَفِيَّ». رَوَاهُ مُسْلِمٌ.

598. Sad bin Vaqqas *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini dedi:

"Allah-Təala təqva sahibi, qəlbi geniş, öz işi və ibadəti ilə məşğul olan qulunu sevər".

Müslim, Zöhd 11

❁

٥٩٩ ـ عَـنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَجُلٌ: أَيُّ النَّاسِ أَفْضَـلُ يَـا رَسُولَ اللَّهِ ؟ قَالَ: «مُؤْمِنٌ مُجَاهِدٌ بِنَفْسِهِ وَمَالِهِ فِي سَبِيلِ اللَّهِ». قَالَ: ثُمَّ مَنْ ؟ قَالَ: «ثُمَّ رَجُلٌ مُعْتَزِلٌ فِي شِعْبٍ مِنَ الشِّعَابِ يَعْبُدُ رَبَّهُ».

وَفِي رِوَايَةٍ: «يَتَّقِي اللَّهَ ، وَيَدَعُ النَّاسَ مِنْ شَرِّهِ ». مُتَّفَقٌ عَلَيْهِ .

599. Əbu Səid əl-Xudri *radiyallahu anh* belə dedi:

Səhabələrdən biri soruşdu:

- Ya Rəsulallah, hansı insan daha dəyərlidir?

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Canı və malı ilə Allah yolunda cihad edən mömin", -** buyurdu. Həmin səhabə:

- Sonra kimdir? - deyə soruşdu.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* buyrudu:

- **"Dağların arasına çəkilib Rəbbinə ibadət edən kəs".**

Başqa bir rəvayətdə isə:

“Allaha qarşı gəlməkdən çəkinən və heç kimə zərəri dəyməyən adam”, - buyurdu.

Buxari, Cihad 2, Riqaq 34; Müslim, İmarə 122, 123. Həmçinin bax. Əbu Davud, Cihad 5; Tirmizi, Fəzailul-cihad 24; Nəsai, Cihad 7; İbn Macə, Fitən 13

❁

٦٠٠ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «يُوشِكُ أَنْ يَكُونَ خَيْرَ مَالِ الْمُسْلِمِ غَنَمٌ يَتَتَبَّعُ بِهَا شَعَفَ الْجِبَالِ، وَمَوَاقِعَ الْقَطْرِ يَفِرُّ بِدِينِهِ مِنَ الْفِتَنِ». رَوَاه الْبُخَارِيُّ.

600. Yenə Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Müsəlmanın ən xeyirli malının dinini fitnələrdən qorumaq üçün yanına alıb dağ başına və otlaq ərazilərə aparacağı qoyunu olacağı yaxındır”.

Buxari, İman 12, Bədul-xalq 15, Mənaqib 25, Riqaq 34, Fitən 14. Həmçini bax. Əbu Davud, Fitən 4, Nəsai, İman 30, İbn Macə, Fitən 13

❁

٦٠١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَا بَعَثَ اللَّه نَبِيًّا إِلاَّ رَعَى الْغَنَمَ». فَقَالَ أَصْحَابُهُ: وَأَنْتَ ؟ قَالَ: «نَعَمْ ، كُنْتُ أَرْعَاهَا عَلَى قَرَارِيطَ لِأَهْلِ مَكَّةَ». رَوَاهُ الْبُخَارِيُّ .

601. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* buyurdu:

- **“Allah-Təalanın göndərdiyi hər peyğəmbər mütləq qoyun otarmışdır”.** Səhabələr soruşdular:

- Sən də qoyun otarmısanmı, ya Rəsulallah? Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* bu cavabı verdi:

- “Bəli, Qararit bölgəsində məkkəlilərin qoyunlarını otarmışam”.

Buxari, İcarə 2, Ənbiya 29, Ətimə 50. Həmçinin bax. İbn Macə, Ticarət 5

٦٠٢ ـ وَعَنْـهُ عَـنْ رَسُـولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ: «مِنْ خَيْرِ مَعَاشِ النَّاسِ رَجُلٌ مُمْسِـكٌ عِنَـانَ فَرَسِهِ فِي سَبِيلِ اللَّهِ ، يَطِيرُ عَلَى مَتْنِهِ ، كُلَّمَا سَمِعَ هَيْعَةً ـ أَوْ فَزْعَةً ـ طَـارَ عَلَيْـهِ يَبْتَغِـي الْقَتْلَ أَوِ الْمَوْتَ مَظَانَّهُ ؛ أَوْ رَجُلٌ فِي غُنَيْمَةٍ فِي رَأْسِ شَعَفَةٍ مِـنْ هَـذِهِ الشَّـعَفِ ، أَوْ بَطْـنِ وَادٍ مِـنْ هَـذِهِ الْأَوْدِيَةِ ، يُقِيمُ الصَّلَاةَ ، وَيُؤْتِي الزَّكَـاةَ ، وَيَعْبُـدُ رَبَّـهُ حَتَّـى يَأْتِيَـهُ الْيَقِينُ ، لَيْسَ مِنَ النَّاسِ إِلَّا فِي خَيْرٍ». رَوَاهُ مُسْلِمٌ.

602. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İnsanların ən xeyirli dolanışıq yollarından birini tutan, Allah üçün döyüşmək üzrə atının cilovundan yapışan kəsdir. Həmin adam döyüşə çağıran, yaxud yardım istəyən bir səs eşidən kimi ölümü gözə alaraq atının belində həmin tərəfə doğru uçar və ya ölümün meydan suladığı yerlərə dalar.

Yaxud bir təpənin başında və ya bir vadidə qoyunlarını otaran kəsdir. Həmin adam namazını qılar, zəkatını verər, ölənə qədər Rəbbinə itaət edər və insanlara yaxşılığı toxunar".

Müslim, İmarət 125. Həmçinin bax. İbn Macə, Fitən 13

İNSANLARLA BİRLİKDƏ YAŞAMAĞIN ƏHƏMİYYƏTİ

İNSANLARA YAXŞILIĞI ƏMR EDİB, PİSLİKDƏN ÇƏKİNDİRƏ BİLƏCƏK, ONLARI İNCİTMƏYƏCƏK VƏ ONLARDAN GƏLƏCƏK PİSLİKLƏRƏ QATLANACAQ ADAMLARIN İNSANLARLA BİRLİKDƏ YAŞAMASININ, CÜMƏ NAMAZINA GEDİB, YIĞINCAQLARINDA İŞTİRAK ETMƏYİN, ONLARLA BİRLİKDƏ XEYİR VƏ ZİKR MƏCLİSLƏRİNDƏ OLMAĞIN, XƏSTƏLƏRİ ZİYARƏT EDİB, CƏNAZƏLƏRİNDƏ İŞTİRAK ETMƏYİN, MÖHTACLARA YARDIM EDİB CAHİLLƏRƏ YOL GÖSTƏRMƏYİN VƏ BU KİMİ YAXŞILIQLARIN ƏHƏMİYYƏTİ

(Nəvəvi deyir ki:)

Bil ki, söylədiyim şəkildə insanlara əziyyət vermədən onların arasına qarışmaq Rəsulullah *səllallahu əleyhi və səlləmin* və digər peyğəmbərlərin, xüləfayi-raşidinin, onlardan sonra gələn əshab və tabeunun, eyni zamanda daha sonra gələn müsəlman alimlərlə fəzilətli kəslərin tutduğu yoldur. Tabeun və onlardan sonra gələnlərin əksəriyyəti bu fikri mənimsəmişlər. İmam Şafei, Əhməd bin Hənbəl və fəqihlərin böyük əksəriyyəti də belə düşünürlər. Allah hamısından razı olsun.

Allah-Təala belə buyurur:

"Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun".

(əl-Maidə, 2)

TƏVAZÖKARLIQ ETMƏK VƏ MÖMİNLƏRƏ QOL-QANAD GƏRMƏK

Ayələr

وَاخْفِضْ جَنَاحَكَ لِمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ.

1. "Sənə tabe olan möminləri qanadın altına al!"

(əş-Şuəra, 215)

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا مَنْ يَرْتَدَّ مِنْكُمْ عَنْ دِينِهِ فَسَوفَ يَأْتِي اللَّهُ بِقَوْمٍ يُحِبُّهُم وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ .

2. "Ey iman gətirənlər! Sizdən hər kim dinindən dönsə, (bilsin ki) **Allah** (onun yerinə) **elə bir tayfa gətirər ki,** (Allah) **onları, onlar da** (Allahı) **sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah** (öz lütfü ilə) **genişdir,** (O, hər şeyi) **biləndir!"**

(əl-Maidə, 54)

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ .

3. "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) **yaratdıq. Sonra bir-birinizi tanıyasınız** (kimliyinizi biləsiniz) **deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır".**

(əl-Hucurat, 13)

فَلاَ تُزَكُّوا أَنْفُسَكُمْ هُوَ أَعْلَمُ بِمَنِ اتَّقَى .

4. "Özünüzü təmizə çıxartmayın. O, Allahdan qorxub pis əməllərdən çəkinənin kim olduğunu ən gözəl biləndir!"

(ən-Nəcm, 32)

وَنَادَى أَصْحَابُ الْأَعْرَافِ رِجَالاً يَعْرِفُونَهُمْ بِسِيمَاهُمْ قَالُوامَا أَغْنَى عَنْكُمْ جَمْعُكُمْ وَمَا كُنْتُمْ تَسْتَكْبِرُونَ أَهَؤُلاَءِ الَّذِينَ أَقْسَمْتُمْ لاَ يَنَالُهُمُ اللَّهُ بِرَحْمَةٍ ادْخُلُوا الْجَنَّةَ لاَ خَوْفٌ عَلَيْكُمْ وَلاَ أَنْتُمْ تَحْزَنُونَ .

5. "Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib: "Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi", - deyəcək. (Və fağır, yoxsul möminləri kafirlərin böyüklərinə göstərərək:) **"Allah onları Öz mərhəmətinə nail etməyəcək, -deyə and içdiyiniz kəslər bunlarmıdır?" – söyləyəcəklər.** (O anda Allah həmin möminlərə müraciətlə belə buyuracaq:) **"Cənnətə daxil olun. Sizin heç bir qorxunuz yoxdur və siz qəm-qüssə görməyəcəksiniz!"**

(əl-Əraf, 48-49)

Hədislər

٦٠٣ ـ عَنْ عِيَاضِ بْنِ حِمَارٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ أَوْحَى إِلَيَّ أَنْ تَوَاضَعُوا ، حَتَّى لاَ يَفْخَرَ أَحَدٌ عَلَى أَحَدٍ ، وَلاَ يَبْغِيَ أَحَدٌ عَلَى أَحَدٍ» . رَوَاهُ مُسْلِمٌ .

603. İyaz bin Himar *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah mənə: O qədər təvazökar olun ki, heç kim başqasına qarşı lovğalanmasın, heç kim başqasına zülm etməsin,- deyə bildirdi".

Müslim, Cənnət 64. Həmçinin bax. Ədəb 40; İbn Macə, Zöhd 16, 23

صَدَقَةٌ مِنْ مَالٍ، وَمَا زَادَ اللَّهُ عَبْدًا بِعَفْوٍ إِلَّا عِزًّا، وَمَا تَوَاضَعَ أَحَدٌ لِلَّهِ إِلَّا رَفَعَه اللَّهُ». رَوَاهُ مُسْلِمٌ.

604. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sədəqə verməklə mal azalmaz. Allah-Təala əfv edən qulunun dəyərini artırar. Allah rizası üçün təvazökarlıq edəni Allah ucaldar".

Müslim, Birr 69. Həmçinin bax. Tirmizi, Birr 82

❁

٦٠٥ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ مَرَّ عَلَى صِبْيَانٍ ، فَسَلَّمَ عَلَيْهِمْ ، وَقَالَ: كَانَ النَّبِيُّ ﷺ يَفْعَلُهُ . مُتَّفَقٌ عَلَيْهِ .

605. Ənəs *radiyallahu anh* uşaqların yanından keçərkən onlara salam verdi və:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* də uşaqlara belə salam verərdi,- dedi.

Buxari, İstizan 15; Müslim, Salam 15. Həmçinin bax. Əbu Davud, Ədəb 136; Tirmizi, İstizan 8; İbn Macə, Ədəb 14

❁

٦٠٦ ـ وَعَنْهُ قَالَ: إِنْ كَانَتِ الْأَمَةُ مِنْ إِمَاءِ الْمَدِينَةِ لَتَأْخُذُ بِيَدِ النَّبِيِّ ﷺ فَتَنْطَلِقُ بِهِ حَيْثُ شَاءَتْ ! رَوَاهُ الْبُخَارِيُّ .

606. Yenə Ənəs *radiyallahu anh* belə dedi:

Mədinəli xidmətçi qız uşaqlarından biri Peyğəmbər *səllallahu əleyhi və səlləmin* əlindən tutaraq onu istədiyi yerə qədər aparardı. [37]

Buxari, Ədəb 61. Həmçinin bax. İbn Macə, Zöhd 16

❁

37. Burada "əlindən tutmaq" məcazi mənada işlədilmişdir. Çünki Hz. Peyğəmbərin heç bir naməhrəm qadının əlindən tutmadığı haqqında xeyli rəvayət vardır. Bunlardan biri belədir. Hz. Aişə anamız buyurur: "Allaha and olsun ki, Rəsulullahın əli əsla başqa bir (naməhrəm) qadının əlinə dəyməmişdir." (Buxari, Talaq, 20)

٦٠٧ ـ عَـنِ الْأَسْـوَدِ بْـنِ يَزِيدَ قَالَ: سُئِلَتْ عَائِشَةُ رَضِيَ اللَّهُ عَنْهَا: مَا كَانَ النَّبِـيُّ ﷺ يَصْنَـعُ فِي بَيْتِـهِ ؟ قَالَتْ : كَانَ يَكُونُ فِي مِهْنَةِ أَهْلِهِ ، يَعْنِي خِدْمَةِ أَهْلِهِ، فَإِذَا حَضَرَتِ الصَّلاَةُ خَرَجَ إِلَى الصَّلاَةِ . رَوَاهُ الْبُخَارِيُّ .

607. Əsvəd bin Yezid belə dedi:

Hz. Aişədən soruşdular:

- Peyğəmbər *səllallahu əleyhi və səlləm* evində nə edərdi?

O da bu cavabı verdi:

- Ailəsinə xidmət edərdi. Namaz vaxtı girəndə isə namaza gedərdi.

Buxari, Azan 44, Nəfəqat 8, Ədəb 40. Həmçinin bax. Tirmizi, Qiyamət 45

❁

٦٠٨ ـ عَـنْ أَبِي رِفَاعَـةَ تَمِيـمِ بْنِ أُسَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: انْتَهَيْتُ إِلَى رَسُولِ اللَّـهِ ﷺ وَهُـوَ يَخْطُـبُ ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، رَجُلٌ غَرِيبٌ جَاءَ يَسْأَلُ عَنْ دِينِـهِ ، لاَ يَـدْرِي مَـا دِينُـهُ ؟ فَأَقْبَلَ عَلَيَّ رَسُولُ اللَّهِ ﷺ وَتَرَكَ خُطْبَتَهُ ، حَتَّى انْتَهَـى إِلَيَّ ، فَـأُتِيَ بِكُرْسِيٍّ فَقَعَدَ عَلَيْهِ ، وَجَعَلَ يُعَلِّمُنِي مِمَّا عَلَّمَهُ اللَّهُ ، ثُمَّ أَتَى خُطْبَتَهُ فَأَتَمَّ آخِرَهَا . رَوَاهُ مُسْلِمٌ .

608. Əbu Rifa Təmim bin Üseyd *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* xütbə oxuyarkən yanına getdim və:

Ya Rəsulallah, dinini bilməyən qərib bir adam gəldi. Dini haqqında sual verib öyrənmək istəyir,- dedim.

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə baxdı. Xütbəni yarıda kəsib yanıma gəldi. Tez ona bir oturacaq gətirdilər. Üzərinə oturdu və Allah-Təalanın ona öyrətdiyi bəzi şeyləri mənə öyrətməyə başladı. Sonra yenə xütbəsinə davam etdi və sözünü tamamladı.

Müslim, Cümə 60. Həmçinin bax. Nəsai, Zinət 122

❁

٦٠٩ ـ عَـنْ أَنَـسٍ رَضِيَ اللَّـهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ إِذَا أَكَلَ طَعَامًا لَعِـقَ أَصَابِعَـهُ الثَّلاَثَ. (قَالَ) : وَقَالَ «إِذَا سَقَطَتْ لُقْمَةُ أَحَدِكُمْ فَلْيُمِطْ عَنْهَا الْأَذَى ، وَلْيَأْكُلْهَـا ، وَلاَ يَدَعْهَـا لِلشَّـيْطَانِ». وَأَمَـرَ أَنْ تُسْـلَتَ الْقَصْعَةُ ، قَالَ «فَإِنَّكُمْ لاَ تَدْرُونَ فِي أَيِّ طَعَامِكُمُ الْبَرَكَةُ». رَوَاهُ مُسْلِمٌ .

609. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* yemək yeyəndə üç barmağını yalayar və bu haqda belə buyurardı:

"Hər hansı birinizin loğması yerə düşəndə bulaşan yerini təmizləyib onu yesin. Şeytana saxlamasın".

Rəsuli-Əkrəm boşqabın sıyrılmasını əmr edərək:

"Bərəkətin yeməyin harasında olduğunu bilməzsiniz", - buyurardı.

Müslim, Əşribə 136. Həmçinin bax. Əbu Davud, Ətimə 49; Tirmizi, Ətimə 11

❁

٦١٠ ـ عَـنْ أَبِي هُرَيْـرَةَ رَضِيَ اللَّـهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَا بَعَثَ اللَّهُ نَبِيًّـا إِلاَّ رَعَى الْغَنَمَ». قَالَ أَصْحَابُهُ: وَأَنْتَ ؟ فَقَالَ: «نَعَمْ ، كُنْتُ أَرْعَاهَا عَلَى قَرَارِيطَ لِأَهْلِ مَكَّةَ» . رَوَاهُ الْبُخَارِيُّ .

610. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* buyurdu:

- **"Allah-Təalanın göndərdiyi hər peyğəmbər mütləq qoyun otarmışdır".** Səhabələr soruşdular:

- Sən də qoyun otarmısanmı, ya Rəsulallah? Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* bu cavabı verdi:

- "Bəli, Qararit bölgəsində məkkəlilərin qoyunlarını otarmışam".

Buxari, İcarə 2, Ənbiya 29, Ətimə 50. Həmçinin bax. İbn Macə, Ticarət 5

❁

٦١١ ـ وَعَنْـهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ : «لَوْ دُعِيتُ إِلَى كُرَاعٍ أَوْ ذِرَاعٍ لَأَجَبْتُ ، وَلَوْ أُهْدِي إِلَيَّ ذِرَاعٌ أَوْ كُرَاعٌ لَقَبِلْتُ» . رَوَاهُ الْبُخَارِيُّ .

611. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əgər kəlləpaça və ya kürək yeməyinə dəvət edilsəm, dərhal gedərəm. Əgər mənə kürək və ya kəlləpaça hədiyyə edilsə, dərhal qəbul edərəm". [38]

Buxari, Hibə 2; Nikah 73

❁

٦١٢ ـ عَـنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَتْ نَاقَةُ رَسُولِ اللَّهِ ﷺ الْعَضْبَاءُ لاَ تُسْـبَقُ أَوْ لاَ تَكَـادُ تُسْبَقُ ، فَجَاءَ أَعْرَابِيٌّ عَلَى قَعُودٍ لَهُ ، فَسَبَقَهَا ، فَشَقَّ ذَلِكَ عَـلَى الْمُسْلِمِينَ ، حَتَّى عَرَفَهُ النَّبِيُّ ، فَقَالَ: «حَقٌّ عَلَى اللَّهِ أَلاَّ يَرْتَفِعَ شَيْءٌ مِن الدُّنْيَا إِلاَّ وَضَعَهُ». رَوَاهُ الْبُخَارِيُّ .

612. Ənəs *radiyallahu anh* belə dedi:

Rəsulullahın dəvəsi Ədba yarışda birinciliyi başqasına verməzdi; yaxud başqasının keçməsinə imkan verməzdi. Bir gün minik dəvəsinə minmiş bir bədəvi gəldi və yarışda onu keçdi. Bu vəziyyət müsəlmanlara çox ağır təsir bağışladı. Vəziyyəti görən Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dünyada yüksələn bir şeyi alçaltmaq Allahın dəyişməz qanunudur".

Buxari, Cihad 59, Riqaq 38. Həmçinin bax. Əbu davud, Ədəb 8; Nəsai, Xayl 14



38. Buradakı ifadələr hədiyyənin maddi dəyərinə əhəmiyyət vermədən hədiyyə sahibinin könlünü xoş etməkdir.

TƏKƏBBÜRLƏNMƏYİN VƏ ÖZÜNÜ BƏYƏNMƏYİN HARAM OLMASI

Ayələr

تِلْكَ الدَّارُ الْآخِرَةُ نَجْعَلُهَا لِلَّذِينَ لاَ يُرِيدُونَ عُلُوًّا فِي الْأَرْضِ وَلاَ فَسَادًا وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ.

1. "Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. (Ən gözəl) **aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!"**

(əl-Qasas, 83)

وَلاَ تَمْشِ فِي الْأَرْضِ مَرَحًا.

2. "Yer üzündə təkəbbürlə gəzib dolanma".

(əl-İsra, 37)

وَلاَ تُصَعِّرْ خَدَّكَ لِلنَّاسِ وَلاَ تَمْشِ فِي الْأَرْضِ مَرَحًا إِنَّ اللَّهَ لاَ يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ.

3. "Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!"

(Loğman, 18)

اِنَّ قَارُونَ كَانَ مِنْ قَوْمِ مُوسٰى فَبَغٰى عَلَيْهِمْ وَاٰتَيْنَاهُ مِنَ الْكُنُوزِ مَآ اِنَّ مَفَاتِحَهُ لَتَنُوٓأُ بِالْعُصْبَةِ اُولِي الْقُوَّةِ اِذْ قَالَ لَهُ قَوْمُهُ لاَ تَفْرَحْ اِنَّ اللّٰهَ لاَ يُحِبُّ الْفَرِحِينَ وَابْتَغِ فِيمَآ اٰتٰيكَ اللّٰهُ الدَّارَ الْاٰخِرَةَ وَلاَ تَنْسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا وَاَحْسِنْ كَمَآ اَحْسَنَ اللّٰهُ اِلَيْكَ وَلاَ تَبْغِ الْفَسَادَ فِي الْاَرْضِ اِنَّ اللّٰهَ لاَ يُحِبُّ الْمُفْسِدِينَ .

قَالَ اِنَّمَآ اُوتِيتُهُ عَلٰى عِلْمٍ عِنْدِيۤ اَوَلَمْ يَعْلَمْ اَنَّ اللّٰهَ قَدْ اَهْلَكَ مِنْ قَبْلِهِ مِنَ الْقُرُونِ

مَنْ هُوَ اَشَدُّ مِنْهُ قُوَّةً وَاَكْثَرُ جَمْعًا وَلاَ يُسْئَلُ عَنْ ذُنُوبِهِمُ الْمُجْرِمُونَ فَخَرَجَ عَلٰى قَوْمِهِ فِي زِينَتِهِ قَالَ الَّذِينَ يُرِيدُونَ الْحَيٰوةَ الدُّنْيَا يَا لَيْتَ لَنَا مِثْلَ مَآ اُوتِيَ قَارُونُ اِنَّهُ لَذُو حَظٍّ عَظِيمٍ وَقَالَ الَّذِينَ اُوتُوا الْعِلْمَ وَيْلَكُمْ ثَوَابُ اللّٰهِ خَيْرٌ لِمَنْ اٰمَنَ وَعَمِلَ صَالِحًا وَلاَ يُلَقّٰيهَآ اِلاَّ الصَّابِرُونَ فَخَسَفْنَا بِهِ وَبِدَارِهِ الْاَرْضَ فَمَا كَانَ لَهُ مِنْ فِئَةٍ يَنْصُرُونَهُ مِنْ دُونِ اللّٰهِ وَمَا كَانَ مِنَ الْمُنْتَصِرِينَ .

4. “Həqiqətən, Qarun Musa qövmündən idi. Onlara qarşı həddini aşmışdı. Biz ona açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik. Qövmü ona belə dedi: “(Malına qürrələnib) **sevinmə. Şübhəsiz ki, Allah** (malına qürrələnib) **sevinənləri sevməz! Allahın sənə verdiyindən özünə axirət qazan** (malını Allah yolunda sərf et). **Dünyadakı nəsibini də unutma. Allah sənə** (sərvət verməklə) **yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!”** (Qarun) **dedi: “Bu** (var-dövlət) **mənə yalnız məndə olan elm sayəsində verilmişdir. Məgər o** (Qarun) **Allahın ondan əvvəl özündən daha qüvvətli və daha varlı olan neçə-neçə kəsləri məhv etdiyini bilmirdimi? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmazlar.** (Bir gün Qarun) **görkəmli libas geyib öz zinəti** (ehtişamı) **içində** (dörd min vəznəli-çuxalı əyanın, qızıl-gümüş yəhərli atların müşayiətilə) **qövmünün qarşısına çıxdı. Dünyaya həris olanlar dedilər: “Kaş ki, Qaruna verilən (dövlət) bizə də veriləydi. Həqiqətən, o, böyük bəxt** (qismət) **sahibidir!”** (Axirət barəsində) **elm verilmiş kəslər isə belə dedilər: “Vay halınıza!** (Ay yazıqlar!) **İman gətirib yaxşı əməl edən kimsə üçün Allahın mükafatı (təmənnasında olduğunuz var-dövlətdən, dəbdəbədən) daha yaxşıdır. Buna (bu nemətə) yalnız səbir edənlər qovuşarlar!”Nəhayət,** (Musanın duasını qəbul buyurub bir zəlzələ nəticəsində) **onu** (Qarunu) **sarayı ilə birlikdə yerə gömdük. Allaha qarşı ona yardım edə biləcək bir camaat da yox idi. O özü də özünə heç bir kömək edə bilmədi”.**

(əl-Qasas, 76-81)

Hədislər

٦١٣ ـ عَـنْ عَبْـدِ اللَّـهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لاَ يَدْخُـلُ الْجَنَّـةَ مَـنْ كَـانَ فِي قَلْبِهِ مِثْقَالُ ذَرَّةٍ مِنْ كِبْرٍ». فَقَالَ رَجُلٌ: إِنَّ الرَّجُلَ يُحِـبُّ أَنْ يَكُـونَ ثَوْبُهُ حَسَنًا وَنَعْلُهُ حَسَنَةً ! قَالَ: «إِنَّ اللَّهَ جَمِيلٌ يُحِبُّ الْجَمَالَ الْكِبْرُ بَطَرُ الْحَقِّ وَغَمْطُ النَّاسِ». رَوَاهُ مُسْلِمٌ .

613. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Qəlbində zərrə qədər təkəbbür olan cənnətə girə bilməz".

Səhabələrdən biri:

- İnsan patlarının və ayaqqabısının gözəl olmasını arzu edir,- dedi. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Allah gözəldir, gözəli sevər. Təkəbbür isə haqqı qəbul etməmək və insanları xor görməkdir".

Müslim, İman 147. Həmçinin bax. Əbu davud, Libas 26; Tirmizi, Birr 61

❁

٦١٤ ـ عَـنْ سَـلَمَةَ بْـنِ الْأَكْـوَعِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلًا أَكَلَ عِنْدَ رَسُولِ اللَّـهِ ﷺ بِشِـمَالِهِ فَقَـالَ: «كُـلْ بِيَمِينِـكَ». قَـالَ: لاَ أَسْـتَطِيعُ. قَـالَ: «لاَ اسْتَطَعْتَ» ، مَا مَنَعَهُ إِلاَّ الْكِبْرُ ! قَالَ: فَمَا رَفَعَهَا إِلَى فِيهِ. رَوَاهُ مُسْلِمٌ .

614. Sələmə bin Əkva *radiyallahu anh* belə dedi

Bir nəfər Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləmin* yanında sol əli ilə yemək yeyirdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* ona:

- **"Sağ əlinlə ye", -** buyurdu. O:

- Heç cür elə edə bilmirəm,- dedi. Bunun üzərinə Peyğəmbərimiz:

- **"Edə bilməz ol", -** dedi.

Sələmənin dediyinə görə həmin adam lovğalığı səbəbi ilə belə demişdi. Bundan sonra əlini ağzına apara bilmədi.

Müslim, Əşribə 107.

٦١٥ ـ عَـنْ حَارِثَـةَ بْنِ وَهْبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «أَلاَ أُخْبِرُكُمْ بِأَهْلِ النَّارِ؟ كُلُّ عُتُلٍّ جَوَّاظٍ مُسْتَكْبِرٍ». مُتَّفَقٌ عَلَيْهِ.

615. Harisə bin Vəhb *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə buyurarkən eşitdiyini dedi:

"Sizə cəhənnəmliklərin kim olduğunu deyimmi? Onlar qatı qəlbli, kobud, xəsis və lovğalanaraq yeriyənlərdir".

Buxari, Əyman 9, Təfsiru surə (68), 1, Ədəb 61; Müslim, Cənnət 47. Həmçinin bax. Tirmizi, Cəhənnəm 13; İbn Macə, Zöhd 4

❁

٦١٦ ـ عَـنْ أَبِي سَـعِيدٍ الْخُـدْرِيِّ رَضِيَ اللَّـهُ عَنْـهُ عَـنِ النَّبِـيِّ ﷺ قَـالَ «احْتَجَّـتِ الْجَنَّةُ وَالنَّارُ، فَقَالَتِ النَّارُ: فِيَّ الْجَبَّارُونَ وَالْمُتَكَبِّرُونَ . وَقَالَتِ الْجَنَّةُ فِيَّ ضُعَفَـاءُ النَّـاسِ وَمَسـاكِينُهُمْ . فَقَضَى اللَّهُ بَيْنَهُمَا: إِنَّكِ الْجَنَّةُ رَحْمَتِي أَرْحَمُ بِـكِ مَـنْ أَشَـاءُ ، وَإِنَّـكِ النَّـارُ عَـذَابِي أُعَـذِّبُ بِكِ مَنْ أَشَاءُ ، وَلِكِلَيْكُمَا عَلَيَّ مِلْؤُهَا». رَوَاهُ مُسْلِمٌ .

616. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Cənnət ilə cəhənnəm mübahisə etdi.

Cəhənnəm dedi:

- Məndə təkəbbürlülər və qoluzorbalar var.

Cənnət:

- Məndə yalnız zəiflər və yoxsullar var,- dedi.

Allah-Təala onların münaqişəsini belə həll etdi:

- Ey cənnət, sən mənim rəhmətimsən, istədiyimə sənin lə mərhəmət edərəm.

Ey cəhənnəm, sən də Mənim əzabımsan, istədiyimə sənin lə əzab edərəm. Mən hər ikinizi dolduracağam".

Müslim, Cənnət 34; Buxari, Təfsiru surə (50), 1, Tövhid 25. Həmçinin bax. Tirmizi, Cənnət 22

٦١٧ ـ عَـنْ أَبِي هُرَيْـرَةَ رَضِيَ اللَّـهُ عَنْـهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لاَ يَنْظُرُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ إِلَى مَنْ جَرَّ إِزَارَهُ بَطَرًا». مُتَّفَقٌ عَلَيْهِ .

617. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala qiyamət günü lovğalanaraq paltarını yerlə sürüyən adamın üzünə baxmaz".

Buxari, Libas 1, 2, 5, Fəzailus-səhabə 5; Müslim, Libas 42-48. Həmçinin bax. Əbu Davud, Libas 25, 27; Tirmizi, Libas 8-9; ibn Macə, Libas 6, 7, 9

❁

٦١٨ ـ وَعَنْـهُ قَـالَ: قَـالَ رَسُـولُ اللَّـهِ ﷺ : «ثَلاَثَـةٌ لاَ يُكَلِّمُهُمُ اللَّهُ يَوْمَ الْقِيَامَـةِ ، وَلاَ يُزَكِّيهِمْ ، وَلاَ يَنْظُرُ إِلَيْهِمْ ، وَلَهُمْ عَذَابٌ أَلِيمٌ: شَيْخٌ زَانٍ ، وَمَلِكٌ كَذَّابٌ ، وَعَائِلٌ مُسْتَكْبِرٌ». رَوَاهُ مُسْلِمٌ .

618. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala qiyamət günü üç adamla danışmaz, onları təmizə çıxarmaz, üzlərinə də baxmaz. Üstəlik onları qorxunc bir əzaba düçar edər.

Bunlar zina edən qoca, yalan danışan hökmdar, lovğalanan kasıbdır".

Müslim, İman 172. Həmçinin bax. Tirmizi, Cənnət 25; Nəsai, Zəkat 75, 77

❁

٦١٩ ـ وَعَنْـهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: اَلْعِزُّ إِزَارِي وَالْكِبْرِيَاءُ رِدَائِي ، فَمَنْ نَازَعَنِي فِي وَاحِدٍ مِنْهُمَا فَقَدْ عَذَّبْتُهُ». رَوَاهُ مُسْلِمٌ .

619. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə dedi:

"Allah-Təala belə buyurdu:

Ucalıq və qüdrət Mənim izarım,[39] böyüklük də ridam[40] **sayılır. Sanki bunlardan birinə sahib kimi davrananın cəzasını verərəm".**

Müslim, Birr 136. Həmçinin bax. Əbu Davud, Libas 26; İbn Macə, Zöhd 16

❁

٦٢٠ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «بَيْنَمَا رَجُلٌ يَمْشِي فِي حُلَّةٍ تُعْجِبُهُ نَفْسُهُ، مُرَجِّلٌ رَأْسَهُ ، يَخْتَالُ فِي مِشْيَتِهِ ، إِذْ خَسَفَ اللَّهُ بِهِ فَهُوَ يَتَجَلْجَلُ فِي الْأَرْضِ إِلَى يَوْمِ الْقِيَامَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

620. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Vaxtı ilə özündənrazı bir nəfər gözəl paltarını geyinmiş, saçını daramış, lovğalanaraq addımlayırdı. Allah onu yerin dibinə batırdı. Qiyamətə qədər yerin dibinə doğru yuvarlanmağa davam edəcəkdir".

Buxari, Ənbiya 54, Libas 5; Müslim, Libas 49, 50. Həmçinin bax. Tirmizi, Qiyamət 47; Nəsai, Zinət 101.

❁

٦٢١ ـ عَنْ سَلَمَةَ بْنِ الْأَكْوَعِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لَا يَزَالُ الرَّجُلُ يَذْهَبُ بِنَفْسِهِ حَتَّى يُكْتَبَ فِي الْجَبَّارِينَ ، فَيُصِيبُهُ مَا أَصَابَهُمْ». رَوَاهُ التِّرْمِذِيُّ .

621. Sələmə bin Əkva *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir adam o qədər lovğalanar ki, nəhayət, zalımlar dəstəsinə yazılar. Beləliklə zalımlara verilən cəza ona da verilər".

Tirmizi, Birr 61

39. Beldən aşağı geyilən geyim.
40. Çiyinə atılan geyim.

GÖZƏL ƏXLAQ

Ayələr

وَإِنَّكَ لَعَلَى خُلُقٍ عَظِيمٍ

1. "Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!"

(əl-Qələm, 4)

وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ .

2. "O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) **xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər".**

(Ali-İmran, 134)

Hədislər

٦٢٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ أَحْسَنَ النَّاسِ خُلُقًا. مُتَّفَقٌ عَلَيْهِ .

622. Ənəs radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* insanların ən əxlaqlısı idi.

Buxari, Ədəb 112; Müslim, Məsacid 267, Ədəb 30. Həmçinin bax. Əbu Davud, Ədəb 1; Tirmizi, Birr 69

❁

٦٢٣ ـ وَعَنْهُ قَالَ: مَا مَسِسْتُ دِيبَاجًا وَلاَ حَرِيرًا أَلْيَنَ مِنْ كَفِّ رَسُولِ اللَّهِ ﷺ وَلاَ شَمِمْتُ رَائِحَةً قَطُّ أَطْيَبَ مِنْ رَائِحَةِ رَسُولِ اللَّهِ ﷺ ، وَلَقَدْ خَدَمْتُ رَسُولَ اللَّهِ ﷺ عَشْرَ سِنِينَ فَمَا قَالَ لِي قَطُّ: «أُفٍّ» ، وَلاَ قَالَ لِشَيْءٍ فَعَلْتُهُ: «لِمَ فَعَلْتَهُ؟» وَلاَ لِشَيْءٍ لَمْ أَفْعَلْهُ: «أَلاَ فَعَلْتَ كَذَا ؟». مُتَّفَقٌ عَلَيْهِ .

623. Yenə Ənəs radiyallahu anh belə dedi:

Mən Rəsulullahın əllərindən yumşaq nə bir atlasa, nə də ipəyə toxundum.

Elə bir ətir iyləmədim ki, Rəsulullahın ətrindən xoş olsun.

Düz on il Rəsulullaha xidmət etdim. Mənə bir dəfə də olsa "uf" demədi. Etdiyim bir işə görə "niyə belə etdin?" etmədiyim bir şeyə görə də "belə etsəydin olmazdı?" demədi.

Buxari, Savm 53, Mənaqib 23; Müslim, Fəzail 82: Tirmizi, Birr 69

❁

٦٢٤ ـ عَنِ الصَّعْبِ بْنِ جَثَّامَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَهْدَيْتُ رَسُولَ اللَّهِ ﷺ حِمَارًا وَحْشِيًّا فَرَدَّهُ عَلَيَّ ، فَلَمَّا رَأَى مَا فِي وَجْهِي قَالَ: «إِنَّا لَمْ نَرُدَّهُ عَلَيْكَ إِلاَّ لِأَنَّا حُرُمٌ». مُتَّفَقٌ عَلَيْهِ .

624. Sad bin Cəssamə radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmə* vəhşi uzunqulaq hədiyyə etmişdim. Lakin Rəsulullah onu qəbul etmədi, geri qaytardı. Üzümə baxanda kədərləndiyimi gördü və:

"Ehramda olduğumuz üçün hədiyyəni almadıq", - buyurdu. [41]

Bəxari, Cəzaus-sayd 6, Hibə 6, 17. Müslim, Həcc 50-54. Həmçinin bax. Əbu Davud, Mənasik 40; Tirmizi, Həcc 26; Nəsai, Mənasik 79; İbn Macə, Mənasik 92

❁

٦٢٥ ـ عَنِ النَّوَّاسِ بْنِ سَمْعَانَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَأَلْتُ رَسُولَ اللَّهِ ﷺ عَنِ الْبِرِّ وَالْإِثْمِ ، فَقَالَ: «الْبِرُّ حُسْنُ الْخُلُقِ ، وَالْإِثْمُ مَا حَاكَ فِي صَدْرِكَ ، وَكَرِهْتَ أَنْ يَطَّلِعَ عَلَيْهِ النَّاسُ». رَوَاهُ مُسْلِمٌ .

625. Nəvvas bin Səman radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmdən* yaxşılığın və pisliyin nə olduğunu soruşdum. Belə buyurdu:

"Yaxşılıq gözəl əxlaqdan ibarətdir.

Günah isə daxili narahatçılıq verən və insanların bilməsini istəmədiyin şeydir".

Müslim, Birr 14, 15. Həmçinin bax. Tirmizi, Zöhd 52

41. Həcc və ya ümrə üçün ehrama girən adamın ov etməsinin haram olduğu kimi başqasının ovladığı ov ətindən yeməsi də haramdır.

٦٢٦ ـ عَـنْ عَبْـدِ اللَّـهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: لَمْ يَكُنْ رَسُـولُ اللَّـهِ ﷺ فَاحِشًا وَلاَ مُتَفَحِّشًا. وَكَانَ يَقُولُ: «إِنَّ مِنْ خِيَارِكُمْ أَحْسَنكُمْ أَخْلاَقًا». مُتَّفَقٌ عَلَيْهِ .

626. Abdullah bin Amr bin As radiyallahu anhumə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* sözlərində və hərəkətlərində heç bir çirkinlik olmadığı kimi çirkin olan şeylərin heç birinə can atmazdı. Belə buyurardı:

"Sizin xeyirliniz əxlaqı gözəl olandır".

Buxari, Mənaqib 23, Fəzailu əshabin-nəbi 27, Ədəb 38-39; Müslim, Fəzail 68. Həmçinin bax. Tirmizi, Birr 47, 69

❁

٦٢٧ ـ عَـنْ أَبِي الـدَّرْدَاءِ رَضِيَ اللَّهُ عَنْهُ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَا مِنْ شَيْءٍ أَثْقَـلَ فِي مِـيزَانِ الْعَبْـدِ الْمُؤْمِنِ يَوْمَ الْقِيَامَةِ مِنْ حُسْنِ الْخُلُقِ ، وَإِنَّ اللَّهَ يُبْغِضُ الْفَاحِشَ الْبَذِيَّ». رَوَاهُ التِّرْمِذِيُّ .

627. Əbu Dərda *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qiyamət günü mömin qulun tərəzisində gözəl əxlaqdan ağır heç nə olmaz. Allah-Təala çirkin hərəkətlər edən, çirkin söz söyləyən adama nifrət edər".

Tirmizi, Birr 62

❁

٦٢٨ ـ عَـنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سُئِلَ رَسُولُ اللَّهِ ﷺ عَنْ أَكْثَرِ مَـا يُدْخِلُ النَّاسَ الْجَنَّةَ ، قَالَ: «تَقْوَى اللَّهِ وَحُسْنُ الْخُلُقِ». وَسُئِلَ عَنْ أَكْثَرِ مَا يُدْخِلُ النَّاسَ النَّارَ، فَقَالَ: «الْفَمُ وَالْفَرْجُ». رَوَاهُ التِّرْمِذِيُّ .

628. Əbu Hüreyrə radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmdən* soruşdular:

- İnsanları ən çox nə (hansı əməl) cənnətə aparar?

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Allah qorxusu (təqva) və gözəl əxlaq".

- İnsanları ən çox cəhənnəmə aparan nədir? - deyə soruşduqda isə:

- **"Ağız və cinsiyyət üzvü", -** buyurdu.

Tirmizi, Birr 62. Həmçinin bax. İbn Macə, Zöhd 29

❁

٦٢٩ ـ وَعَنْـهُ قَـالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَكْمَلُ الْمُؤْمِنِينَ إِيمَانًا أَحْسَنُهُمْ خُلُقًا، وَخِيَارُكُمْ خِيَارُكُمْ لِنِسَائِهِمْ». رَوَاهُ التِّرْمِذِيُّ .

629. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Möminlərin iman baxımından ən mükəmməli əxlaqı ən yaxşı olandır. Sizin xeyirliniz qadınlarına qarşı xeyirli olandır".

Tirmizi, Rada 11. Həmçinin bax. Əbu Davud, Sünnə 15; İbn Macə, Nikah 50

❁

٦٣٠ ـ عَـنْ عَائِشَـةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «إِنَّ الْمُؤْمِنَ لَيُدْرِكُ بِحُسْنِ خُلُقِهِ دَرَجَةَ الصَّائِمِ الْقَائِمِ». رَوَاهُ أَبُو دَاوُدَ.

630. Aişə radiyallahu anhə deyir: Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitdim:

"Bir mömin gözəl əxlaqı sayəsində gündüz oruc tutub gecə namaz qılanların dərəcəsinə yüksələr".

Əbu Davud, Ədəb 7. Həmçinin bax. Tirmizi, Birr 62

❁

٦٣١ ـ عَـنْ أَبِي أُمَامَـةَ الْبَاهِلِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَنَـا زَعِيـمٌ بِبَيْـتٍ فِي رَبَـضِ الْجَنَّـةِ لِمَـنْ تَرَكَ الْمِرَاءَ وَإِنْ كَانَ مُحِقًّا ، وَبِبَيْتٍ فِي

وَسَطِ الْجَنَّةِ لِمَنْ تَرَكَ الْكَذِبَ وَإِنْ كَانَ مَازِحًا ، وَبِبَيْتٍ فِي أَعْلَى الْجَنَّةِ لِمَنْ حَسُنَ خُلُقُهُ». رَوَاهُ أَبُو دَاوُدَ.

631. Əbu Ümamə əl-Bahili *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mən haqlı da olsa mübahisəni tərk edən adama cənnətin kənarında bir köşk veriləcəyinə zaminəm.

Zarafatla da olsa yalan danışmayan adama cənnətin ortasında bir köşk veriləcəyinə zaminəm.

Yaxşı əxlaqlı adama da cənnətin ən yüksək yerində bir köşk veriləcəyinə zaminəm".

Əbu Davud, Ədəb 7. Həmçinin bax. Tirmizi, Birr 58; İbn Macə, Müqəddimə 7

❁

٦٣٢ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّ مِنْ أَحَبِّكُم إِلَيَّ وَأَقْرَبِكُمْ مِنِّي مَجْلِسًا يَوْمَ الْقِيَامَةِ أَحَاسِنَكُمْ أَخْلاَقًا ، وَإِنَّ أَبْغَضَكُمْ إِلَيَّ وَأَبْعَدَكُمْ مِنِّي يَوْمَ الْقِيَامَةِ الثَّرْثَارُونَ وَالْمُتَشَدِّقُونَ وَالْمُتَفَيْهِقُونَ». قَالُوا: يَا رَسُولَ اللَّهِ ، قَدْ عَلِمْنَا «الثَّرْثَارُونَ وَالْمُتَشَدِّقُونَ » فَمَا الْمُتَفَيْهِقُونَ ؟ قَالَ: «الْمُتَكَبِّرُونَ». رَوَاهُ التِّرْمِذِيُّ .

632. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yaxşı əxlaqlı olanlarınız aranızda ən çox sevdiyim və qiyamət günü mənə ən yaxın olacaq kəslərdir. Gözəl söhbət edən adam kimi görünmək, sözünü bəyəndirmək üçün ovurdunu şişirdə-şişirdə söhbət edənlər və özünü çoxbilmiş göstərmək üçün bir sıra kəlmələr işlədənlər isə heç sevmədiyim və qiyamət günü mənə ən uzaq məsafədə olacaq kəslərdir".

Əshabi-kiram:

- Ya Rəsulallah, gözəl söhbət edən adam kimi görünmək üçün uzun-uzadı danışanları, sözünü bəyəndirmək üçün ovurdunu şişirdə-şişirdə söhbət edənləri bilirik. Bəs özünü çoxbilmiş göstərmək üçün bir sıra kəlmələr işlədənlər (mütəfeyhiq) kimlərdir? - deyə soruşduqda,

- **"Təkəbbürlənən kəslərdir", -** cavabını verdi.

Tirmizi, Birr 71

MÜLAYİM XASİYYƏTLİ VƏ TƏMKİNLİ OLMAQ, GÜZƏŞTƏ GETMƏK

Ayələr

وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ ۗ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ

1. "O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) **xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər".**

(Ali-İmran, 134)

خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ

2. "Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!"

(əl-Əraf, 199)

وَلَا تَسْتَوِي الْحَسَنَةُ وَلَا السَّيِّئَةُ ۚ ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ فَإِذَا الَّذِي بَيْنَكَ وَبَيْنَهُ عَدَاوَةٌ كَأَنَّهُ وَلِيٌّ حَمِيمٌ وَمَا يُلَقَّاهَا إِلَّا الَّذِينَ صَبَرُوا وَمَا يُلَقَّاهَا إِلَّا ذُو حَظٍّ عَظِيمٍ.

3. "Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) **yaxşılıqla dəf et!** (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlanmaqla cavab ver!) **Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! Bu** (xislət) **yalnız** (dünyada məşəqqətlərə) **səbir edənlərə verilir və yalnız böyük qismət** (savab, fəzilət) **sahiblərinə əta olunur!"**

(əl-Fussilət, 34-35)

وَلَمَنْ صَبَرَ وَغَفَرَ إِنَّ ذَٰلِكَ لَمِنْ عَزْمِ الْأُمُورِ

4. "Əlbəttə, hər kəim (pisliyə) **səbir edib** (qisası) **bağışlasa,** (onun bu hərəkəti şəriətcə) **çox bəyənilən əməllərdəndir!"**

(əş-Şura, 43)

Hədislər

٦٣٣ ـ عَـنِ ابْـنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ لِأَشَجِّ عَبْدِ الْقَيْسِ: «إِنَّ فِيكَ خَصْلَتَيْنِ يُحِبُّهُمَا اللَّهُ: الْحِلْمُ وَالْأَنَاةُ». رَوَاهُ مُسْلِمٌ .

633. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Abdulqeys oğullarından Əşəcə belə buyurdu:

"Səndə Allahın sevdiyi iki xüsusiyyət var: mülayimlik və ehtiyatlı olmaq".

Müslim, İman 25, 26. Həmçinin bax. Əbu Davud, Ədəb 149; Tirmizi, Birr 66; İbn Macə, Zöhd 18

❁

٦٣٤ ـ عَـنْ عَائِشَـةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ رَفِيقٌ يُحِبُّ الرِّفْقَ فِي الْأَمْرِ كُلِّهِ». مُتَّفَقٌ عَلَيْهِ .

634. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala qullarına güzəşt edəndir. Hər işdə onlara güzəştə gedilməsindən (asanlıq göstərilməsindən) razı qalar".

Buxari, İstiabə 4, İstizan 22, Ədəb 35; Müslim, Birr 77, Salam 10. Həmçinin bax. Tirmizi, İstizan 12; İbn Macə, Ədəb 9

❁

٦٣٥ ـ وَعَنْهَـا أَنَّ النَّبِـيَّ ﷺ قَـالَ: «إِنَّ اللَّـهَ رَفِيـقٌ يُحِبُّ الرِّفْقَ ، وَيُعْطِي عَلَى الرِّفْقِ مَا لاَ يُعْطِي عَلَى الْعُنْفِ وَمَالاَ يُعْطِي عَلَى مَا سِوَاهُ». رَوَاهُ مُسْلِمٌ .

635. Yenə Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala qullarına güzəşt edəndir. Onlara güzəştə gedilməsindən razı olar. Çətinlik çıxaranlara və başqalarına vermədiyi savabı güzəşt edənlərə verər".

Müslim, Birr 77. Həmçinin bax. Əbu Davud, Ədəb 10; İbn Macə, Ədəb 9

٦٣٦ ـ وَعَنْهَا أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِنَّ الرِّفْقَ لاَ يَكُونُ فِي شَيْءٍ إِلاَّ زَانَهُ ، وَلاَ يُنْزَعُ مِنْ شَيْءٍ إِلاَّ شَانَهُ». رَوَاهُ مُسْلِمٌ .

636. Yenə Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hansı işdə asanlıq varsa, orada gözəllik var. Asanlığın olmadığı hər şey çirkindir".

Müslim, Birr 78. Həmçinin bax. Əbu Davud, Ədəb 10

❁

٦٣٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: بَالَ أَعْرَابِيٌّ فِي الْمَسْجِدِ ، فَقَامَ النَّاسُ إِلَيْهِ لِيَقَعُوا فِيهِ ، فَقَالَ النَّبِيُّ ﷺ: «دَعُوهُ وَأَرِيقُوا عَلَى بَوْلِهِ سَجْلاً مِنْ مَاءٍ أَوْ ذَنُوبًا مِنْ مَاءٍ ، فَإِنَّمَا بُعِثْتُمْ مُيَسِّرِينَ وَلَمْ تُبْعَثُوا مُعَسِّرِينَ» ! رَوَاه الْبُخَارِيُّ .

637. Əbu Hüreyrə radiyallahu anh belə dedi:

Bir bədəvi Məscidi-Nəbəvidə bövl etmişdi. Səhabələr onu danlamaq istəyirdilər ki, Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Onu rahat buraxın. Bövl etdiyi yerə bir vedrə (və ya böyük bir vedrə) su tökün. Siz çətinlik çıxarmaq üçün yox, asanlıq göstərmək üçün göndərildiniz".

Buxari, Vudu 58, Ədəb 80. Həmçinin bax. Müslim, Təharət 98-100; Əbu Davud, Təharət 136; Tirmizi, Təharət 112; İbn Macə, Təharət 78.

❁

٦٣٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «يَسِّرُوا وَلاَ تُعَسِّرُوا وَبَشِّرُوا وَلاَ تُنَفِّرُوا». مُتَّفَقٌ عَلَيْهِ .

638. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin".

Buxari, Elm 11, Ədəb 80, Cihad 164; Müslim, Cihad 6-7. Həmçinin bax. Əbu Davud, Ədəb 17

٦٣٩ ـ عَـنْ جَرِيـرِ بْـنِ عَبْـدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ يُحْرَمِ الرِّفْقَ يُحْرَمِ الْخَيْرَ كُلَّهُ» . رَوَاهُ مُسْلِمٌ .

639. Cərir bin Abdullah *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini dedi:

"Mülayim rəftardan məhrum qalan bütün xeyirlərdən məhrum qalmış sayılır".

Müslim, Birr 74-76. Həmçinin bax. Əbu Davud, Ədəb 10; Tirmizi, Birr 67; İbn Macə, Ədəb 9

❁

٦٤٠ ـ عَـنْ أَبِي هُرَيْـرَةَ رَضِيَ اللَّـهُ عَنْـهُ أَنَّ رَجُلاً قَالَ لِلنَّبِيِّ ﷺ: أَوْصِنِي. قَالَ: «لاَ تَغْضَبْ» ، فَرَدَّدَ مِرَارًا ؛ قَالَ: «لاَ تَغْضَبْ». رَوَاهُ الْبُخَارِيُّ .

640. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləmə*:

- Mənə nəsihət et,- dedi. O da:

- **"Qəzəblənmə!" -** buyurdu.

Həmin adam istəyini bir neçə dəfə təkrar etdi.

Rəsuli-Əkrəm də hər dəfə **"qəzəblənmə", -** buyurdu.

Buxari, Ədəb 76. Həmçinin bax. Tirmizi, Birr 73

❁

٦٤١ ـ عَـنْ أَبِي يَعْـلَى شَـدَّادِ بْـنِ أَوْسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَـالَ: «إِنَّ اللَّـهَ كَتَـبَ الإِحْسَـانَ عَلَى كُلِّ شَيْءٍ ، فَإِذَا قَتَلْتُمْ فَأَحْسِنُوا الْقِتْلَةَ ، وَإِذَا ذَبَحْتُـمْ فَأَحْسِنُوا الذِّبْحَةَ ، وَلْيُحِدَّ أَحَدُكُمْ شَفْرَتَهُ ، وَلْيُرِحْ ذَبِيحَتَهُ». رَوَاهُ مُسْلِمٌ .

641. Əbu Yalə Şəddad bin Övs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Allah-Təala hər bir varlığa xoş rəftar edilməsini əmr etdi. Elə isə hər hansı bir canlını öldürəcək olsanız, bu işi onu incitmədən edin. Bir heyvan kəsəcəyiniz zaman ona əziyyət verməyəcək şəkildə gözəl kəsin. Bu işi edəcək adam bıçağını yaxşı itiləsin, heyvana əziyyət verməsin”.

Müslim, Sayd 57. Həmçinin bax. Əbu Davud, Ədahi 11; Tirmizi, Diyat 14; Nəsai, Dahaya 22, 26, 27; İbn Macə, Zəbaih 3.

❁

٦٤٢ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَا خُيِّرَ رَسُولُ اللَّهِ ﷺ بَيْنَ أَمْرَيْنِ قَطُّ إِلاَّ أَخَذَ أَيْسَرَهُمَا مَا لَمْ يَكُنْ إِثْمًا ، فَإِنْ كَانَ إِثْمًا كَانَ أَبْعَدَ النَّاسِ مِنْهُ. وَمَا انْتَقَمَ رَسُولُ اللَّهِ ﷺلِنَفْسِهِ فِي شَيءٍ قَطُّ إِلَّا أَنْ تُنْتَهَكَ حُرْمَةُ اللَّهِ فَيَنْتَقِمَ لِلَّهِ تَعَالَى . مُتَّفَقٌ عَلَيْهِ .

642. Aişə radiyallahu anhə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* iki şeydən birini etmək xüsusunda sərbəst buraxıldığı zaman günah olmadığı təqdirdə mütləq onların ən asanını seçərdi. Həmin şey günah isə ondan ən çox uzaq duran özü olardı. Rəsulullah *səllallahu əleyhi və səlləm* Allahın yasaqları tapdanmadığı təqdirdə əsla özü üçün (özünə qarşı edilənlərə görə) intiqam almamışdır. Allahın yasağı tapdandıqda onun cəzasını mütləq vermişdir.

Buxari, Mənaqib 23, Ədəb 80, Hüdud 10; Müslim, Fəzail 77, 78. Həmçinin bax. Əbu Davud, Ədəb 4

❁

٦٤٣ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَلاَ أُخْبِرُكُمْ بِمَنْ يَحْرُمُ عَلَى النَّارِ ـ أَوْ بِمَنْ تَحْرُمُ عَلَيْهِ النَّارُ ؟ ـ تَحْرُمُ عَلَى كُلِّ قَرِيبٍ هَيِّنٍ لَيِّنٍ سَهْلٍ». رَوَاهُ التِّرْمِذِيُّ .

643. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Kimin cəhənnəmə girməyəcəyini, yaxud cəhənnəmin kimi yandırmayacağını sizə xəbər verimmi? Cana yaxın olan, hamı ilə xoş

rəftar edən, mülayim davranıb insanlara asanlıq göstərənləri cəhənnəm yandırmaz".

Tirmizi, Qiyamət 45



XƏTALARI BAĞIŞLAMAQ VƏ CAHİLLƏRƏ UYMAMAQ

Ayələr

خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ

1. "Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!"

(əl-Əraf, 199)

فَاصْفَحِ الصَّفْحَ الْجَمِيلَ

2. "Hələlik onları alicənablıqla bağışla".

(əl-Hicr, 85)

وَلْيَعْفُوا وَلْيَصْفَحُوا أَلَا تُحِبُّونَ أَنْ يَغْفِرَ اللَّهُ لَكُمْ

3. "(Onları) **əfv edib,** (cəzalandırmaqdan) **vaz keçsinlər! Məgər Allahın sizi** (günahlarınızı) **bağışlamağını istəmirsiniz?"**

(ən-Nur, 22)

وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ

4. "İnsanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər".

(Ali-İmran, 134)

وَلَمَنْ صَبَرَ وَغَفَرَ إِنَّ ذَلِكَ لَمِنْ عَزْمِ الْأُمُورِ

5. "Əlbəttə, hər kəs səbir edib bağışlasa, (onun bu hərəkəti) çox bəyənilən əməllərdəndir!"

(əş-Şura, 43)

Hədislər

٦٤٤ ـ عَـنْ عَائِشَـةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّهَا قَالَتْ لِلنَّبِيِّ ﷺ: هَلْ أَتَى عَلَيْكَ يَـوْمٌ كَـانَ أَشَـدَّ مِـنْ يَـوْمِ أُحُدٍ ؟ قَالَ: «لَقَدْ لَقِيتُ مِنْ قَوْمِكِ ، وَكَانَ أَشَدَّ مَا لَقِيتُـهُ مِنْهُـمْ يَوْمَ الْعَقَبَةِ ، إِذْ عَرَضْتُ نَفْسِي عَلَى ابْنِ عَبْدِ يَالِيلَ بْنِ عَبْدِ كُلاَلٍ فَلَـمْ يُجِبْنِـي إِلَى مَا أَرَدْتُ ، فَانْطَلَقْتُ وَأَنَا مَهْمُومٌ على وَجْهِي ، فَلَمْ أَسْتَفِقْ إِلاَّ وَأَنَـا بِقَرْنِ الثَّعَالِبِ ، فَرَفَعْتُ رَأْسِي وَإِذَا أَنَا بِسَحَابَةٍ قَدْ أَظَلَّتْنِي ، فَنَظَرْتُ فَإِذَا فِيهَـا جِبْرِيـلُ عَلَيْهِ السَّلاَمُ ، فَنَادَانِي فَقَالَ: إِنَّ اللَّهَ تَعَالَى قَدْ سَمِعَ قَوْلَ قَوْمِكَ لَـكَ وَمَـا رَدُّوا عَلَيْـكَ ، وَقَـدْ بَعَثَ إِلَيْكَ مَلَكَ الْجِبَالِ لِتَأْمُرَهُ بِمَا شِئْتَ فِيهِمْ ! فَنَـادَانِي مَلَـكُ الْجِبَالِ ، فَسَلَّمَ عَلَيَّ ، ثُمَّ قَالَ: يَا مُحَمَّدُ ، إِنَّ اللَّهَ قَدْ سَمِعَ قَوْلَ قَوْمِـكَ لَـكَ ، وَأَنَـا مَلَـكُ الْجِبَـالِ ، وَقَـدْ بَعَثَنِي رَبِّي إِلَيْكَ لِتَأْمُرَنِي بِأَمْرِكَ ، فَمَا شِـئْتَ ؟ إِنْ شِـئْتَ أَطْبَقْتُ عَلَيْهِمُ الْأَخْشَبَيْنِ. فَقَالَ النَّبِيُّ ﷺ : «بَلْ أَرْجُو أَنْ يُخْرِجَ اللَّهُ مِنْ أَصْلاَبِهِمْ مَنْ يَعْبُدُ اللَّهَ وَحْدَهُ لاَ يُشْرِكُ بِهِ شَيْئًا». مُتَّفَقٌ عَلَيْهِ .

644. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə bir gün o, Peyğəmbər *səllallahu əleyhi və səlləmdən* soruşdu:

- Uhud döyüşü baş verən gündən daha ağır bir gün yaşadınmı?

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə cavab verdi:

- **"Bəli, sənin qövmündən çox pislik gördüm. Bu pisliklərin ən pisi isə onların Aqabə günü mənə etdikləridir. Taifli Abdukülalın oğlu İbn Abduyalilin himayəsinə girmək istəmişdim, məni qəbul etməmişdi. Mən də geri qayıtmışdım. Kədərli halda gedirdim. Qarnussəalibə çatana qədər özümə gələ bilmədim. Orada başımı qaldırıb baxanda gördüm ki, bir bulud mənə kölgə salır. Diqqətlə baxanda buludun içində Cəbrayıl əleyhissalamı gördüm. Mənə səslənərək:**

- Allah-Təala qövmünün sənə dediyini və səni himayə etməkdən necə boyun qaçırdığını eşitdi. Onlara istədiyin cəzanı vermək üçün Dağlar mələyini yanına göndərib,- dedi.

Dağlar mələyi mənə salam verdi və:

- Ey Muhammməd, qövmünün sənə nə dediyini Allah-Təala eşitdi. Mən Dağlar mələyiyəm. Allah-Təala əmr etdiyin hər şeyi yerinə yetirmək üçün məni sənin yanına göndərib. Əgər istəsən bu iki dağı onların başına keçirərəm. Bu zaman:

- Xeyr, mən Allah-Təalanın onların nəslindən yalnız Allaha ibadət edəcək və Ona heç nəyi şərik qoşmayacaq kimsələr çıxarmasını istəyirəm,- dedim".

Buxari, Bədul-xalq 7; Müslim, Cihad 111

❁

٦٤٥ ـ وَعَنْهَا قَالَتْ: مَا ضَرَبَ رَسُولُ اللَّهِ ﷺ شَيْئًا قَطُّ بِيَدِهِ ، وَلاَ امْرَأَةً وَلاَ خَادِمًا ، إِلاَّ أَنْ يُجَاهِدَ فِي سَبِيلِ اللَّهِ ، وَمَا نِيلَ مِنْهُ شَيْءٌ قَطُّ فَيَنْتَقِمَ مِنْ صَاحِبِهِ إِلاَّ أَنْ يُنْتَهَكَ شَيْءٌ مِنْ مَحَارِمِ اللَّهِ تَعَالَى ، فَيَنْتَقِمَ لِلَّهِ تَعَالَى . رَوَاهُ مُسْلِمٌ .

645. Yenə Aişə radiyallahu anhə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ömrü boyu Allah yolunda girdiyi müharibə xaricində nə bir qadına, nə xidmətçiyə, qısacası heç kimə əli ilə vurmadı. Ona pislik edəndən intiqam almadı. Yalnız Allahın qadağan etdiyi şeylər tapdandığı zaman həmin yasağı işləyən adamdan Allah adına intiqam aldı.

Müslim, Fəzail 79. Həmçinin bax. Əbu Davud, Ədəb 4; İbn Macə, Nikah 51

❁

٦٤٦ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنْتُ أَمْشِي مَعَ رَسُولِ اللَّهِ ﷺ وَعَلَيْهِ بُرْدٌ نَجْرَانِيٌّ غَلِيظُ الْحَاشِيَةِ ، فَأَدْرَكَهُ أَعْرَابِيٌّ فَجَبَذَهُ بِرِدَائِهِ جَبْذَةً شَدِيدَةً فَنَظَرْتُ إِلَى صَفْحَةِ عَاتِقِ النَّبِيِّ ﷺ وَقَدْ أَثَّرَتْ بِهَا حَاشِيَةُ الْبُرْدِ مِنْ شِدَّةِ جَبْذَتِهِ ، ثُمَّ قَالَ: يَا مُحَمَّدُ ، مُرْ لِي مِنْ مَالِ اللَّهِ الَّذِي عِنْدَكَ. فَالْتَفَتَ إِلَيْهِ فَضَحِكَ ثُمَّ أَمَرَ لَهُ بِعَطَاءٍ. مُتَّفَقٌ عَلَيْهِ .

646. Ənəs radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə gedirdik. Əynində Nəcran qumaşından tikilmiş, kənarları sərt və qalın xirqə (arxalıq) vardı. Bədəvilərdən biri Rəsulullah *səllallahu* əleyhi və səlləmə çatıb xirqəsini sərt şəkildə dartdı. Rəsulullah *səllallahu əleyhi və səlləmin* boynuna baxdım. Bədəvi paltarını sərt çəkdiyi üçün boynuna iz düşmüşdü. Sonra bədəvi:

- Ey Muhammməd, əlində olan Allaha aid maldan mənə də verilməsini tapşır,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* bədəviyə tərəf çevrildi və güldü. Sonra ona nə isə verilməsini əmr etdi.

Buxari, Xumus 19, Libas 18, Ədəb 68; Müslim, Zəkat 128. Həmçinin bax. Əbu Davud, Ədəb 1; Nəsai, Qasamə 24; İbn Macə, Libas 1

❁

٦٤٧ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَال: كَأَنِّي أَنْظُرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ يَحْكِي نَبِيًّا مِنَ الْأَنْبِيَاءِ ـ صَلَوَاتُ اللَّهِ وَسَلاَمُهُ عَلَيْهِمْ ـ ضَرَبَهُ قَوْمُهُ فَأَدْمَوْهُ ، وَهُوَ يَمْسَحُ الدَّمَ عَنْ وَجْهِهِ وَيَقُولُ: «اللَّهُمَّ اغْفِرْ لِقَوْمِي فَإِنَّهُمْ لاَ يَعْلَمُونَ» ! مُتَّفَقٌ عَلَيْهِ .

647. Abdullah bin Məsud radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* peyğəmbərlərdən biri haqda danışması hələ də gözümün önündədir. Qövmü həmin peyğəmbəri döyüb qan-rəvan içində qoymuşdu. O, bu halda ola-ola üzündəki qanı silərək belə deyirdi:

"Allahım, qövmümü bağışla! Çünki onlar doğrunu bilmirlər".

Buxari, Ənbiya 54, İstitabətul-murtəddin 5; Müslim, Cihad 105. Həmçinin bax. İbn Macə, Fitən 23

❁

٦٤٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لَيْسَ الشَّدِيدُ بِالصُّرَعَةِ ، إِنَّمَا الشَّدِيدُ الَّذِي يَمْلِكُ نَفْسَهُ عِنْدَ الْغَضَبِ». مُتَّفَقٌ عَلَيْهِ .

648. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İgid güləşdə rəqibini məğlub edən deyil, əsl igid qəzəbləndiyi zaman hirsini boğan adamdır".

Buxari, Ədəb 76; Müslim, Birr 107, 108

ÇƏTİNLİKLƏRƏ SİNƏ GƏRMƏK

Ayələr

وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ .

1. "O müttəqilər ki, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər".

(Ali-İmran, 134)

وَلَمَنْ صَبَرَ وَغَفَرَ إِنَّ ذَلِكَ لَمِنْ عَزْمِ الْأُمُورِ

2. "Əlbəttə, hər kəs səbir edib bağışlasa, (onun bu hərəkəti) çox bəyənilən əməllərdəndir!"

(əş-Şura, 43)

Hədis

٦٤٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلاً قَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنَّ لِي قَرَابَةً أَصِلُهُمْ وَيَقْطَعُونِي ، وَأُحْسِنُ إِلَيْهِمْ وَيُسِيئُونَ إِلَيَّ ، وَأَحْلُمُ عَنْهُمْ وَيَجْهَلُونَ عَلَيَّ ! فَقَالَ: «لَئِنْ كُنْتَ كَمَا قُلْتَ فَكَأَنَّمَا تُسِفُّهُمُ الْمَلَّ ! وَلاَ يَزَالُ مَعَكَ مِنَ اللَّهِ تَعَالَى ظَهِيرٌ عَلَيْهِمْ مَا دُمْتَ عَلَى ذَلِكَ». رَوَاهُ مُسْلِمٌ .

649. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə bir nəfər:

- Ya Rəsulallah, mənim qohumlarım var. Mən onları ziyarət edirəm, onlar isə mənim yanıma gəlib-getmirlər. Mən onlara yaxşılıq edirəm, onlar mənə pislik edirlər. Mən onlara anlayış göstərirərm, onlarsa mənimlə kobud rəftar edirlər,- dedi.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Əgər dediyin kimidirsə, onlara qızmar kül uddurmuş olursan. Sən belə hərəkət etdikcə Allahın yardımı sənindədir".** [42]

Müslim, Birr 22

DİN ÜÇÜN QƏZƏBLƏNMƏK

DİNİN QADAĞALARI TAPDANDIĞI ZAMAN QƏZƏBLƏNMƏK VƏ ALLAHIN DİNİNƏ YARDIM ETMƏK

Ayələr

وَمَنْ يُعَظِّمْ حُرُمَاتِ اللَّهِ فَهُوَ خَيْرٌ لَهُ عِنْدَ رَبِّهِ.

1. "Hər kim Allahın haram buyurduqlarına hörmət (riayət) **etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar".**

(əl-Həcc, 30)

إِنْ تَنْصُرُوا اللَّهَ يَنْصُرْكُمْ وَيُثَبِّتْ أَقْدَامَكُمْ

2. "Əgər siz Allaha (Allahın dininə və Peyğəmbərinə) **yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm edər".**

(Muhammməd, 7)

42. Yəni sənə pislik edənlərə alicanablıq etməyin onları utandıracaqdır.

Hədislər

٦٥٠ ـ عَنْ أَبِي مَسْعُودٍ عُقْبَةَ بْنِ عَمْرٍو الْبَدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ : إِنِّي لَأَتَأَخَّرُ عَنْ صَلاَةِ الصُّبْحِ مِنْ أَجْلِ فُلاَنٍ مِمَّا يُطِيلُ بِنَا ! فَمَا رَأَيْتُ النَّبِيَّ ﷺ غَضِبَ فِي مَوْعِظَةٍ قَطُّ أَشَدَّ مِمَّا غَضِبَ يَوْمَئِذٍ ! فَقَالَ : «يَا أَيُّهَا النَّاسُ ، إِنَّ مِنْكُمْ مُنَفِّرِينَ ، فَأَيُّكُمْ أَمَّ النَّاسَ فَلْيُوجِزْ ، فَإِنَّ مِنْ وَرَائِهِ الْكَبِيرَ وَالصَّغِيرَ وَذَا الْحَاجَةِ !» . مُتَّفَقٌ عَلَيْهِ .

650. Əbu Məsud Uqbə bin Amr əl-Bədri *radiyallahu anh* belə dedi:

Bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələrək:

- Filankəs bizə namaz qıldırarkən o qədər uzadır ki, bəzən bu səbəbdən sübh namazına gedə bilmirəm,- dedi.

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmi* heç bir söhbətində o günkü qədər hirsli görmədim. Belə buyurdu:

- "Ey insanlar, aranızda nifrət etdirənlər var. Kim imamlıq edərsə, namazı qısa qıldırsın. Çünki arxasındakı camaatın arasında yaşlılar, uşaqlar, işi-gücü olanlar var".

Buxari, Elm 28, Azan 61-63, Ədəb 75, Əhkam 13; Müslim, Salət 182-185. Həmçinin bax. İbn Macə, İqamə 48

❁

٦٥١ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَدِمَ رَسُولُ اللَّهِ ﷺ مِنْ سَفَرٍ وَقَدْ سَتَرْتُ سَهْوَةً لِي بِقِرَامٍ فِيهِ تَمَاثِيلُ ، فَلَمَّا رَآهُ رَسُولُ اللَّهِ ﷺ هَتَكَهُ وَتَلَوَّنَ وَجْهُهُ ، وَقَالَ: «يَا عَائِشَةُ ، أَشَدُّ النَّاسِ عَذَابًا عِنْدَ اللَّهِ يَوْمَ الْقِيَامَةِ الَّذِينَ يُضَاهُونَ بِخَلْقِ اللَّهِ». مُتَّفَقٌ عَلَيْهِ .

651. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* səfərdən qayıtmışdı. Həmin gün otağımın qapısından üstündə şəkillər olan pərdə asmışdım. Rəsu-

lullah şəkilli örtüyü gördükdə üzü rəng verib rəng aldı və onu dartıb qopartdı. Sonra belə dedi:

- "Aişə, qiyamət günü insanların ən şiddətli əzab görənləri etdiklərini Allahın yaratdıqlarına oxşadanlardır".

Buxari, Libas 91; Müslim, Libas 91-92. Həmçinin bax. Əbu Davud, Libas 45; Nəsai, Zinət 112

❁

٦٥٢ ـ وَعَنْهَا أَنَّ قُرَيْشًا أَهَمَّهُمْ شَأْنُ الْمَرْأَةِ الْمَخْزُومِيَّةِ الَّتِي سَرَقَتْ فَقَالُوا: مَنْ يُكَلِّمُ فِيهَا رَسُولَ اللَّهِ ﷺ ؟ فَقَالُوا: مَنْ يَجْتَرِيءُ عَلَيْهِ إِلاَّ أُسَامَةُ بْنُ زَيْدٍ حِبُّ رَسُولِ اللَّهِ ﷺ ؟ فَكَلَّمَهُ أُسَامَةُ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَتَشْفَعُ فِي حَدٍّ مِنْ حُدُودِ اللَّهِ تَعَالَى ؟! . ثُمَّ قَامَ فَاخْتَطَبَ ، ثُمَّ قَالَ: «إِنَّمَا أَهْلَكَ الَّذِينَ مِنْ قَبْلِكُمْ أَنَّهُمْ كَانُوا إِذَا سَرَقَ فِيهِمُ الشَّرِيفُ تَرَكُوهُ ، وَإِذَا سَرَقَ فِيهِمُ الضَّعِيفُ أَقَامُوا عَلَيْهِ الْحَدَّ ! وَايْمُ اللَّهِ ، لَوْ أَنَّ فَاطِمَةَ بِنْتَ مُحَمَّدٍ سَرَقَتْ لَقَطَعْتُ يَدَهَا» ! مُتَّفَقٌ عَلَيْهِ .

652. Yenə Hz. Aişədən rəvayət edildiyinə görə qüreyşlilər Məhzum qəbiləsindən olan və oğurluq edən bir qadının düşdüyü vəziyyətə görə çox pis olmuşdular. Öz aralarında:

- Bu barədə Rəsulullahla kim danışa bilər? - deyə götür-qoy etdilər. Bəziləri:

- Buna Rəsulullahın sevimlisi Üsamə bin Zeyddən başqa heç kim cürət edə bilməz,- dedilər.

Üsamə də onların istədiyi kimi Peyğəmbər *səllallahu əleyhi və səlləmlə* danışdı.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* Üsaməyə:

- "**Allahın qoyduğu cəzalardan birinin yerinə yetirilməməsi üçün şəfaət edirsən?" -** dedi və ayağa qalxıb xütbə oxudu və belə dedi:

“Sizdən əvvəlki qövmlərin həlak olmasının səbəbi aralarında əsil-nəcabətli biri oğurluq etdikdə ona toxunmamaları, zəif və kimsəsiz biri oğurluq etdikdə isə onu cəzalandırmaları idi. Allaha and içirəm ki, Muhammədin qızı Fatimə oğurluq etsəydi, onun da əlini kəsərdim”.

Buxari, Ənbiya 54, Məğazi 53, Hüdud 11, 12; Müslim, Hüdud 8, 9. Həmçinin bax. Əbu Davud, Hüdud 4; Tirmizi, Hüdud 6; Nəsai, Sariq 6; İbn Macə, Hüdud 6

❁

٦٥٣ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ رَأَى نُخَامَةً فِي الْقِبْلَةِ ، فَشَقَّ ذَلِكَ عَلَيْهِ حَتَّى رُؤِيَ فِي وَجْهِهِ ، فَقَامَ فَحَكَّهُ بِيَدِهِ فَقَالَ: «إِنَّ أَحَدَكُمْ إِذَا قَامَ فِي صَلاَتِهِ فَإِنَّهُ يُنَاجِي رَبَّهُ ، وَإِنَّ رَبَّهُ بَيْنَهُ وَبَيْنَ الْقِبْلَةِ ، فَلاَ يَبْزُقَنَّ أَحَدُكُمْ قِبَلَ الْقِبْلَةِ، وَلَكِنْ عَنْ يَسَارِهِ أَوْ تَحْتَ قَدَمِهِ». ثُمَّ أَخَذَ طَرَفَ رِدَائِهِ فَبَصَقَ فِيهِ ، ثُمَّ رَدَّ بَعْضَهُ عَلَى بَعْضٍ فَقَالَ: «أَوْ يَفْعَلُ هَكَذَا». مُتَّفَقٌ عَلَيْهِ .

653. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* məscidin qiblə divarında tüpürcək gördü. Bundan çox təsirləndiyi üzündən hiss olundu. Dərhal qalxıb əlinə götürdüyü çınqıl daşla onu təmizlədi. Sonra belə dedi:

“İnsan namaza durduğu zaman Rəbbinə yönəlmiş olur. Rəbbi isə onunla qiblə arasındadır. Elə isə sizdən heç kim qiblə istiqamətinə tüpürməsin. Məcbur qaldıqda sol tərəfinə və ya ayağının altına tüpürsün”. [43] Sonra cübbəsinin bir ucunu tutdu içinə tüpürüb qatladı **“yaxud da belə etsin”, -**buyurdu.

Buxari, Salət 34-36, 39, Azan 94, əl-Aməl fis-salət 12, Ədəb 75; Müslim, Məsacid 50-53, Zöhd 74. Həmçinin bax. Əbu Davud, Salət 22; Nəsai, Məsacid 32, 35; İbn Macə, Məsacid 10, İqamə 61

43. Həmin vaxt Məscidi-Nəbəvinin zəmini qum və çınqıl daşdan ibarət idi.

İDARƏÇİLƏRİN RƏİYYƏTƏ ŞƏFQƏTİ

İDARƏÇİLƏRİN RƏİYYƏTLƏ XOŞ RƏFTARI, ONLARIN YAXŞILIĞINI İSTƏMƏSİ, ŞƏFQƏT GÖSTƏRMƏSİ, ONLARI ALDATMAQDAN, ONLARA QARŞI PİS RƏFTARDAN İŞLƏRİNƏ VƏ EHTİYACLARINA SƏHLƏNKAR YANAŞMAQDAN ÇƏKİNMƏK

Ayələr

وَاخْفِضْ جَنَاحَكَ لِمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ.

1. "Sənə tabe olan möminləri qanadın altına al!"

(əş-Şuəra, 215)

إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالْإِحْسَانِ وَإِيتَاءِ ذِي الْقُرْبَى وَيَنْهَى عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ وَالْبَغْيِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ.

2. "Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) **verməyi buyurur, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir.** (Allah) **sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!"**

(ən-Nəhl, 90)

Hədislər

٦٥٤ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «كُلُّكُمْ رَاعٍ وَكُلُّكُمْ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ: اَلْإِمَامُ رَاعٍ وَمَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ ، وَالرَّجُلُ رَاعٍ فِي أَهْلِهِ وَمَسْؤولٌ عَنْ رَعِيَّتِهِ ، وَالْمَرْأَةُ رَاعِيَةٌ فِي بَيْتِ زَوْجِهَا وَمَسْؤُولَةٌ عَنْ رَعِيَّتِهَا ، وَالْخَادِمُ رَاعٍ فِي مَالِ سَيِّدِهِ وَمَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ ، وَكُلُّكُمْ رَاعٍ وَمَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ» . مُتَّفَقٌ عَلَيْهِ .

654. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyini eşitmişdir:

"Hamınız çobansınız və güddüyünüz sürüdən məsulsunuz. Dövlət başçısı da çobandır, sürüsündən məsuldur. Kişi ailəsinin çobanıdır və sürüsündən məsuldur. Qadın ərinin evinin çobanıdır və sürüsündən məsuldur. Xidmətçi sahibinin malının çobanıdır, o da sürüsündən məsuldur. Bir sözlə, hər biriniz çobansınız və güddüyünüz sürüdən məsulsunuz".

Buxari, Cümə 11, İstiqraz 20, İtq 17, 19, Vəsaya 9, Nikah 81, 90, Əhkam 1; Müslim, İmarə 20. Həmçinin bax. Əbu Davud, İmarə 1, 13; Tirmizi, Cihad 27

٦٥٥ ـ عَنْ أَبِي يَعْلَى مَعْقِلِ بْنِ يَسَارٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَا مِنْ عَبْدٍ يَسْتَرْعِيهِ اللَّهُ رَعِيَّةً يَمُوتُ يَوْمَ يَمُوتُ وَهُوَ غَاشٌّ لِرَعِيَّتِهِ إِلاَّ حَرَّمَ اللَّهُ عَلَيْهِ الْجَنَّةَ» . مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: «فَلَمْ يَحُطْهَا بِنُصْحِهِ لَمْ يَجِدْ رَائِحَةَ الْجَنَّةِ»

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: «مَا مِنْ أَمِيرٍ يَلِي أُمُورَ الْمُسْلِمِينَ ، ثُمَّ لاَ يَجْهَدُ لَهُمْ ، وَيَنْصَحُ لَهُمْ ، إِلاَّ لَمْ يَدْخُلْ مَعَهُمُ الْجَنَّةَ».

655. Əbu Yalə Maqil bin Yəsar radiyallahu anh Rəsulullah *səllallahu əleyhi və səlləmin*belə buyurduğunu eşitdim,- dedi:

"Allah-Təalanın idarəçi etdiyi bir adam rəiyyətindəki insanları aldadaraq ölərsə, Allah ona cənnətin üzünü göstərməz".

Buxari, Əhkam 8; Müslim, İman 227-228, İmarə 21

Başqa bir rəvayət belədir:

"Onlara sahib çıxıb qorumazsa, cənnətin iyini ala bilməz".

Müslimin bir rəvayəti isə belədir:

"Müsəlmanların işlərini üzərinə götürdüyü halda onlar üçün çalışıb çabalamayan heç bir idarəçi onlarla birlikdə cənnətə girə bilməz".

Müslim, İman 229, İmarə 22

٦٥٦ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ فِي بَيْتِي هَذَا: «اللَّهُمَّ مَنْ وَلِيَ مِنْ أَمْرِ أُمَّتِي شَيْئًا فَشَقَّ عَلَيْهِمْ فَاشْقُقْ عَلَيْهِ ، وَمَنْ وَلِيَ مِنْ أَمْرِ أُمَّتِي شَيْئًا فَرَفَقَ بِهِمْ فَارْفُقْ بِهِ». رَوَاهُ مُسْلِمٌ .

656. Aişə radiyallahu anhə belə dedi:

Mənim bu evimdə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allahım, ümmətimi idarə etməyi boynuna götürən, lakin onlara çətinlik çıxardana sən də çətinlik çıxar. Ümmətimi idarə etməyi boynuna götürdüyü halda onlarla mülayim rəftar edənlə sən də mülayim rəftar et!"

Müslim, İmarə 19. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd VI, 93, 258

❁

٦٥٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «كَانَتْ بَنُو إِسْرَائِيلَ تَسُوسُهُمُ الْأَنْبِيَاءُ ، كُلَّمَا هَلَكَ نَبِيٌّ خَلَفَهُ نَبِيٌّ ، وَإِنَّهُ لاَ نَبِيَّ بَعْدِي ، وَسَيَكُونُ بَعْدِي خُلَفَاءُ فَيَكْثُرُونَ». قَالُوا: يَا رَسُولَ اللَّهِ ، فَمَا تَأْمُرُنَا ؟ قَالَ: «أَوْفُوا بِبَيْعَةِ الْأَوَّلِ فَالْأَوَّلِ ، ثُمَّ أَعْطُوهُمْ حَقَّهُمْ ، وَاسْأَلُوا اللَّهَ الَّذِي لَكُمْ ، فَإِنَّ اللَّهَ سَائِلُهُمْ عَمَّا اسْتَرْعَاهُمْ» . مُتَّفَقٌ عَلَيْهِ .

657. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"İsrail oğullarını peyğəmbərlər idarə edirdi. Bir peyğəmbər öldükdə yerinə başqa peyğəmbər keçərdi. Lakin məndən sonra peyğəmbər gəlməyəcək, bir çox xəlifə gələcək".**

Səhabələr:

- Ya Rəsulallah, bu xüsusda bizə nə əmr edirsən? - deyə soruşdular.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* belə buyurdu:

Buxari, Ənbiya 50, Müslim, İmarə 44. Ayrıca bk. İbn Macə, Cihad 42

- **"Başa keçmə sırasına görə xəlifələrə beyət edin. Sonra onlara qarşı vəzifənizi yerinə yetirib itaət edin. Onlar sizə qarşı vəzifələrini icra etməsələr, Allahdan sizə yardım etməsini istəyin. Çünki sizə qarşı vəzifələrini edib-etmədiklərini Allah onlardan soruşacaqdır".**

Buxari, Ənbiya 50; Müslim, imarə 44. Həmçinin bax. İbn Macə, Cihad 42

❁

٦٥٨ ـ عَنْ عَائِذِ بْنِ عَمْرٍو رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ دَخَلَ عَلَى عُبَيْدِ اللَّهِ بْنِ زِيَادٍ ، فَقَالَ لَهُ: أَيْ بُنَيَّ ، إِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ شَرَّ الرِّعَاءِ الْحُطَمَةُ ، فَإِيَّاكَ أَنْ تَكُونَ مِنْهُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

658. Aiz bin Amrdan rəvayət edildiyinə görə Bəsrə valisi Übeydullah bin Ziyadın yanına girmiş və ona belə demişdir:

- Oğlum, mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* **"İdarəçilərin ən pisi insafsız və qatı qəlbli olandır"** buyurduğunu eşitdim. Əsla onlardan olma!

Müslim, İmarə 23. Hədisin müttəfəqun-əleyh olduğu deyilsə də, bu rəvayət Səhih Buxaridə yoxdur.

❁

٦٥٩ ـ عَنْ أَبِي مَرْيَمَ الْأَزْدِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ قَالَ لِمُعَاوِيَةَ رَضِيَ اللَّهُ عَنْهُ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ وَلاَّهُ اللَّهُ شَيْئًا مِنْ أُمُورِ الْمُسْلِمِينَ فَاحْتَجَبَ دُونَ حَاجَتِهِمْ وَخَلَّتِهِمْ وَفَقْرِهِمْ ، اِحْتَجَبَ اللَّهُ دُونَ حَاجَتِهِ وَخَلَّتِهِ وَفَقْرِهِ يَوْمَ الْقِيَامَةِ». فَجَعَلَ مُعَاوِيَةُ رَجُلاً عَلَى حَوَائِجِ النَّاسِ. رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

659. Əbu Məryəm əl-Əzdi *radiyallahu anhdan* rəvayət edildiyinə görə o, Muaviyə *radiyallahu anha* belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim:

"Allah-Təala bir adamı müsəlmanların başına idarəçi edər, o da xalqın işinin tamamlanmasına, ehtiyac və müşküllərin həllinə əngəl olmağa qalxarsa, qiyamət gün Allah-Təala da onun işlərinin tamamlanmasına, ehtiyac və müşküllərinin həllinə mane olar".

Bundan sonra Müaviyə bir nəfəri xalqın ehtiyaclarını müəyyənləşdirmək üçün vəzifələndirdi. Əbu Davud, İmarə 13, Tirmizi, Əhkam 6

ƏDALƏTLİ DÖVLƏT BAŞÇISI

Ayələr

إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالْإِحْسَانِ .

1. "Allah ədalətli olmağı və yaxşılıq etməyi əmr edir".

(ən-Nəhl, 90)

وَأَقْسِطُوا إِنَّ اللَّهَ يُحِبُّ الْمُقْسِطِينَ.

2. "Daima adil davranın. Şübhəsiz ki, Allah ədalətliləri sevər".

(əl-Hucurat, 9)

Hədislər

٦٦٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «سَبْعَةٌ يُظِلُّهُمُ اللَّهُ فِي ظِلِّهِ يَوْمَ لاَ ظِلَّ إِلاَّ ظِلُّهُ: إِمَامٌ عَادِلٌ ، وَشَابٌّ نَشَأَ فِي عِبَادَةِ اللَّهِ تَعَالَى ، وَرَجُلٌ قَلْبُهُ مُعَلَّقٌ فِي الْمَسَاجِدِ ، وَرَجُلاَنِ تَحَابَّا فِي اللَّهِ اجْتَمَعَا عَلَيْهِ وَتَفَرَّقَا عَلَيْهِ ، وَرَجُلٌ دَعَتْهُ امْرَأَةٌ ذَاتُ مَنْصِبٍ وَجَمَالٍ فَقَالَ: إِنِّي أَخَافُ اللَّهَ ، وَرَجُلٌ تَصَدَّقَ بِصَدَقَةٍ فَأَخْفَاهَا حَتَّى لاَ تَعْلَمَ شِمَالُهُ مَا تُنْفِقُ يَمِينُهُ ، وَرَجُلٌ ذَكَرَ اللَّهَ خَالِيًا فَفَاضَتْ عَيْنَاهُ». مُتَّفَقٌ عَلَيْهِ .

660. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Heç bir kölgənin olmadığı Qiyamət günündə Allah-Təala yeddi nəfəri öz ərşinin kölgəsi altında kölgələndirəcəkdir. Bunlar:

Ədalətli dövlət başçısı, Rəbbinə ibadət edərək yetişən gənc, qəlbi məscidlərə bağlı olan müsəlman, bir-birilərini Allah üçün sevən, görüş-

mələri də, ayrılmaları da Allah üçün olan iki insan, gözəl və məqam sahibi bir qadının birlikdə olmaq təklifindən "Mən Allahdan qorxuram", - deyərək boyun qaçıran kişi, sağ əlinin verdiyindən sol əlinin xəbəri olmayacaq qədər gizli sədəqə verən kəs, tənha qalanda Allahı yada salıb göz yaşı tökən adam".

Buxari, Azan 36, Zəkat 16, Riqaq 24, Hüdud 19; Müslim, Zəkat 91. Həmçinin bax. Tirmizi, Zöhd 53; Nəsai, Qudat 2

❁

٦٦١ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ الْمُقْسِطِينَ عِنْدَ اللَّهِ عَلَى مَنَابِرَ مِنْ نُورٍ: الَّذِينَ يَعْدِلُونَ فِي حُكْمِهِمْ وَأَهْلِيهِمْ وَمَا وُلُّوا». رَوَاهُ مُسْلِمٌ .

661. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Verdiyi hökmlərdə, ailəsinin və xalqının idarə edilməsində ədalətli olan idarəçilər qiyamət günü Allah-Təalanın yanında nurdan hazırlanmış yüksək taxtlarda otururlar".

Müslim, İmarə 18. Həmçinin bax. Nəsai, Ədəbul-qudat 1

❁

٦٦٢ ـ عَنْ عَوْفِ بْنِ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «خِيَارُ أَئِمَّتِكُمُ الَّذِينَ تُحِبُّونَهُمْ وَيُحِبُّونَكُمْ ، وَتُصَلُّونَ عَلَيْهِمْ وَيُصَلُّونَ عَلَيْكُمْ. وَشِرَارُ أَئِمَّتِكُمُ الَّذِينَ تُبْغِضُونَهُمْ وَيُبْغِضُونَكُمْ،وَتَلْعَنُونَهُمْ وَيَلْعَنُونَكُمْ!» (قَالَ): قُلْنَا : يَا رَسُولَ اللَّهِ ، أَفَلاَ نُنَابِذُهُمْ ؟ قَالَ: «لاَ ، مَا أَقَامُوا فِيكُمُ الصَّلاَةَ ، لاَ ، مَا أَقَامُوا فِيكُمُ الصَّلاَةَ» . رَوَاهُ مُسْلِمٌ .

662. Əvf bin Malik radiyallahu anh Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdim,- dedi:

"Dövlət başçılarınızın ən xeyirlisi sizi sevən və sizin tərəfinizdən sevilən, sizə dua edən və sizin duanızı alanlardır. Dövlət rəhbərlərin-

izin ən pisi sizi sevməyən, sizin də sevmədiyiniz, sizə lənət edən, sizin də lənət etdiyiniz kəslərdir".

Bu zaman:

- Ya Rəsulallah, onlara qarşı gələkmi? - deyə soruşduq. Bizə bu cavabı verdi:

- **"Aranızda namaz qıldıqları müddətdə yox.** Aranızda namaz qıldıqları müddətdə yox".

Əhməd bin Hənbəl, Müsnəd VI, 24, 28; Darimi, Riqaq 78; Müslim, İmarə 65, 66

❁

٦٦٣ ـ عَنْ عِيَاضِ بْنِ حِمَارٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «أَهْلُ الْجَنَّةِ ثَلاَثَةٌ: ذُو سُلْطَانٍ مُقْسِطٌ مُوَفَّقٌ ، وَرَجُلٌ رَحِيمٌ رَقِيقُ الْقَلْبِ لِكُلِّ ذِي قُرْبَى وَمُسْلِمٍ ، وَعَفِيفٌ مُتَعَفِّفٌ ذُو عِيَالٍ». رَوَاهُ مُسْلِمٌ .

663. İyaz bin Himar radiyallahu anh Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim,- dedi:

"Cənnətliklər üç qrupdur. Bunlar:

Adil və bacarıqlı dövlət başçısı,

Yaxınlarına və müsəlmanlara qarşı mərhəmətli və ürəyiyumşaq olan kəs,

Ailəsi böyük olduğu halda haram qazancdan çəkinən, heç kimdən bir şey istəməyən adamdır". Müslim, Cənnət 63

İDARƏÇİLƏRƏ İTAƏT

GÜNAH OLMAYAN XÜSUSLARDA DÖVLƏT BAŞÇISINA İTAƏTİN ŞƏRT, GÜNAH İŞLƏRDƏ İSƏ HARAM OLMASI

Ayə

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ .

“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) **sahiblərinə itaət edin!”**

(ən-Nisa, 59)

Hədislər

٦٦٤ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «عَلَى الْمَرْءِ الْمُسْلِمِ السَّمْعُ وَالطَّاعَةُ فِيمَا أَحَبَّ وَكَرِهَ إِلاَّ أَنْ يُؤْمَرَ بِمَعْصِيَةٍ ، فَإِذَا أُمِرَ بِمَعْصِيَةٍ فَلاَ سَمْعَ وَلاَ طَاعَةَ !». مُتَّفَقٌ عَلَيْهِ .

664. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Günah işləməsi əmr olunmadığı müddətdə bir müsəlmanın sevdiyi və ya sevmədiyi bütün məsələlərdə dövləti idarə edən adama itaət etməsi şərtdir. Günah işləməsi əmr edildikdə isə nə qulaq asar, nə də itaət edər”.

Buxari, Əhkam 4, Cihad 108; Müslim, İmarə 38. Həmçinin bax. Əbu Davud, Cihad 87; Tirmizi, Cihad 29; Nəsai, Beyət 34; İbn Macə, Cihad 40

❁

٦٦٥ ـ وَعَنْهُ قَالَ: كُنَّا إِذَا بَايَعْنَا رَسُولَ اللَّهِ ﷺ عَلَى السَّمْعِ وَالطَّاعَةِ يَقُولُ لَنَا: «فِيمَا اسْتَطَعْتُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

665. Yenə İbn Ömər radiyallahu anhumə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmə* sözünü eşidib itaət etmək üzrə beyət etdiyimiz zaman bizə:

“Gücünüz çatan qədər” buyurardu.

Buxari, Əhkam 43; Müslim, İmarə 90. Həmçinin bax. Nəsai, Beyət 24; İbn Macə, Cihad 41

❁

٦٦٦ ـ وَعَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ خَلَعَ يَدًا مِنْ طَاعَةٍ لَقِيَ اللَّهَ يَوْمَ الْقِيَامَةِ وَلاَ حُجَّةَ لَهُ ، وَمَنْ مَاتَ وَلَيْسَ فِي عُنُقِهِ بَيْعَةٌ مَاتَ مِيتَةً

جَاهِلِيَّةً». رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لَهُ: «وَمَنْ مَاتَ وَهُوَ مُفَارِقٌ لِلْجَمَاعَةِ فَإِنَّهُ يَمُوتُ مِيتَةً جَاهِلِيَّةً».

666. Yenə İbn Ömər radiyallahu anhumə Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə buyurarkən eşitdim,- dedi:

"Kim bağlı olacağına söz verdiyi dövlət başçısına səbəbsiz yerə itaətsizlik edərsə, qiyamət günü Allah-Təalanın hüzuruna tutunacağı heç bir dəlili olmadan çıxar. Dövlət başçısına beyət etmədən ölən cahiliyyə dövründə ölmüş kimidir".

Müslim, İmarə 58

Müslimin başqa bir rəvayəti isə belədir:

"Camaatdan ayrılaraq ölən cahiliyyə dövründə ölmüş kimidir".

Müslim, İmarə 53, 54

❁

٦٦٧ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «اسْمَعُوا وَأَطِيعُوا وَإِنِ اسْتُعْمِلَ عَلَيْكُمْ عَبْدٌ حَبَشِيٌّ كَأَنَّ رَأْسَهُ زَبِيبَةٌ !». رَوَاهُ الْبُخَارِيُّ .

667. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizə təyin edilən idarəçi başı qurumuş üzüm kimi qara bir kölə də olsa, sözünü eşidin və ona itaət edin".

Buxari, azan 54, 56, Əhkam 4

❁

٦٦٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «عَلَيْكَ السَّمْعُ وَالطَّاعَةُ فِي عُسْرِكَ وَيُسْرِكَ ، وَمَنْشَطِكَ وَمَكْرَهِكَ ، وَأَثَرَةٍ عَلَيْكَ». رَوَاهُ مُسْلِمٌ .

668. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Varlı ikən, kasıb ikən, sevinc anında, kədrəli ikən, hətta başqası sənə tərcih edildiyi zaman sözə qulaq asıb itaət etmən şərtdir".

Müslim, İmarə 35, 41, 42. Həmçinin bax. Buxari, Fitən 2; Nəsai, Beyət 1-5; İbn Macə, Cihad 41

❁

٦٦٩ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كُنَّا مَعَ رَسُولِ اللَّهِ ﷺ فِي سَفَرٍ فَنَزَلْنَا مَنْزِلاً ، فَمِنَّا مَنْ يُصْلِحُ خِبَاءَهُ ، وَمِنَّا مَنْ يَنْتَضِلُ ، وَمِنَّا مَنْ هُوَ فِي جَشَرِهِ ، إِذْ نَادَى مُنَادِي رَسُولِ اللَّهِ ﷺ: الصَّلاَةُ جَامِعَةٌ. فَاجْتَمَعْنَا إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: «إِنَّهُ لَمْ يَكُنْ نَبِيٌّ قَبْلِي إِلاَّ كَانَ حَقًّا عَلَيْهِ أَنْ يَدُلَّ أُمَّتَهُ عَلَى خَيْرِ مَا يَعْلَمُهُ لَهُمْ ، وَيُنْذِرَهُمْ شَرَّ مَا يَعْلَمُهُ لَهُمْ. وَإِنَّ أُمَّتَكُمْ هَذِهِ جُعِلَ عَافِيَتُهَا فِي أَوَّلِهَا ، وَسَيُصِيبُ آخِرَهَا بَلاَءٌ وَأُمُورٌ تُنْكِرُونَهَا ، وَتَجِيءُ فِتْنَةٌ يُرَقِّقُ بَعْضُهَا بَعْضًا ، وَتَجِيءُ الْفِتْنَةُ فَيَقُولُ الْمُؤْمِنُ: هَذِهِ مُهْلِكَتِي ، ثُمَّ تَنْكَشِفُ ، وَتَجِيءُ الْفِتْنَةُ فَيَقُولُ الْمُؤْمِنُ : هَذِهِ هَذِهِ ! فَمَنْ أَحَبَّ أَنْ يُزَحْزَحَ عَنِ النَّارِ ، وَيُدْخَلَ الْجَنَّةَ فَلْتَأْتِهِ مَنِيَّتُهُ وَهُوَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ ، وَلْيَأْتِ إِلَى النَّاسِ الَّذِي يُحِبُّ أَنْ يُؤْتَى إِلَيْهِ. وَمَنْ بَايَعَ إِمَامًا فَأَعْطَاهُ صَفْقَةَ يَدِهِ وَثَمَرَةَ قَلْبِهِ فَلْيُطِعْهُ إِنِ اسْتَطَاعَ ، فَإِنْ جَاءَ آخَرُ يُنَازِعُهُ فَاضْرِبُوا عُنُقَ الْآخَرِ». رَوَاهُ مُسْلِمٌ .

669. Abdullah bin Amr radiyallahu anhumə belə dedi:

Bir səfərdə Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə idik. Bir yerdə qonaqladıq. Kimimiz çadırını düzəldir, kimimiz oxatma təlimi ilə məşğul olur, kimimiz də otlayan heyvanlara nəzarət edirdik. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləmin* müəzzini "Haydı namaza!" - deyə səsləndi. Biz də Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına toplaşdıq. Rəsuli-Əkrəm belə buyurdu:

"Məndən əvvəlki bütün peyğəmbərlərin vəzifəsi ümmətlərini yaxşı olduğunu bildikləri şeyə dəvət etmək, pis olduğunu bil-

diklərindən də çəkindirmək idi. Ümmətinizin hüzur və sükunəti əvvəlcə gələnlər zamanındadır. Sonrakıların başına müxtəlif bəlalar və bilmədiyiniz pisliklər gələcək. Elə fitnələr çıxacaq ki, bu fitnələrin bəzisi digərlərindən daha yüngül olacaq. Yenə elə fitnə və qarışıqlıq çıxacaq ki, onu görən mömin "bu məni məhv edər" deyəcək. Sonra ara sakitləşəcək. Ardından elə bir fitnə çıxacaq ki, mömin "bax bundan qurtuluş yoxdur" deyəcək.

Kim cəhənnəmdən qurtulub cənnətə girmək istəyirsə, Allaha və axirət gününə iman etmiş olaraq ölməlidir. Özünə edilməsini istədiyini o da başqasına etməlidir. Hər kim dövlət başçısına beyət edər, əlini tutub səmimiyyətlə ona bağlanarsa, gücü çatdığı qədər ona itaət etməlidir. Əgər başqa biri ortaya çıxıb idarəçiliyi ələ keçirməyə çalışarsa, dərhal boynunu vurun!"

Müslim, İmarə 46. Həmçinin bax. Nəsai, Beyət 25; İbn Macə, Fitən 9

❁

٦٧٠ ـ عَنْ أَبِي هُنَيْدَةَ وَائِلِ بْنِ حُجْرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَأَلَ سَلَمَةُ بْنُ يَزِيدَ الْجُعْفِيُّ رَسُولَ اللَّهِ ﷺ فَقَالَ: يَا نَبِيَّ اللَّهِ ، أَرَأَيْتَ إِنْ قَامَتْ عَلَيْنَا أُمَرَاءُ يَسْأَلُونَا حَقَّهُمْ وَيَمْنَعُونَا حَقَّنَا فَمَا تَأْمُرُنَا ؟ فَأَعْرَضَ عَنْهُ ، ثُمَّ سَأَلَهُ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «اسْمَعُوا وَأَطِيعُوا ، فَإِنَّمَا عَلَيْهِمْ مَا حُمِّلُوا ، وَعَلَيْكُمْ مَا حُمِّلْتُمْ». رَوَاهُ مُسْلِمٌ.

670. Əbu Hüneydə Vail bin Hucr radiyallahu anh belə dedi:

Sələmə bin Yezid əl-Cufi Rəsulullah *səllallahu əleyhi və səlləmdən*:

- Ya Nəbiyyallah, başımıza öz haqlarını bizdən istəyən, lakin bizim haqqımızı verməyən idarəçilər təyin olunarsa, bizə nə etməyi əmr edirsən? - deyə soruşdu.

Rəsuli-Əkrəm onun bu sualına cavab vermədi. Bir daha soruşanda Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Onların sözünə qulaq asın, itaət edin. Onlar etməli olduqlarından, siz də etməli olduğunuzdan məsulsunuz".

Müslim, İmarə 49-50. Həmçinin bax. Tirmizi, Fitən 30

❁

٦٧١ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّهَا سَتَكُونُ بَعْدِي أَثَرَةٌ وَأُمُورٌ تُنْكِرُونَهَا !» قَالُوا: يَا رَسُولَ اللَّهِ ، كَيْفَ تَأْمُرُ مَنْ أَدْرَكَ مِنَّا ذَلِكَ ؟ قَالَ: «تُؤَدُّونَ الْحَقَّ الَّذِي عَلَيْكُمْ ، وَتَسْأَلُونَ اللَّهَ الَّذِي لَكُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

671. Abdullah bin Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- **"Məndən sonra tərəfkeşlik və yadırğadığınız bəzi işlər olacaq",** -buyurdu. Əshabi-kiram:

- Ya Rəsulallah, bizdən o günləri görənlərə nə əmr edirsiniz? - deyə soruşdu.

Bu cavabı verdi:

- "Məsul olduğunuz vəzifələri yerinə yetirərsiniz, haqqınız olan şeyin sizə verilməsini Allahdan istəyərsiniz".

Buxari, Fitən 2, Müslim, İmarə 45. Həmçinin bax. Tirmizi, Fitən 25

❁

٦٧٢ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ أَطَاعَنِي فَقَدْ أَطَاعَ اللَّهَ ، وَمَنْ عَصَانِي فَقَدْ عَصَى اللَّهَ ، وَمَنْ يُطِعِ الْأَمِيرَ فَقَدْ أَطَاعَنِي ، وَمَنْ يَعْصِ الْأَمِيرَ فَقَدْ عَصَانِي». مُتَّفَقٌ عَلَيْهِ .

672. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mənə itaət edən Allaha itaət etmiş, mənə qarşı gələn Allaha qarşı gəlmiş olar. Dövlət başçısına itaət edən mənə itaət etmiş, dövlət başçısına qarşı gələn mənə qarşı gəlmiş olar".

Buxari, Cihad 109, Əhkam 1; Müslim, İmarə 32, 33. Həmçinin bax. Nəsai, Beyət 27; İbn Macə, Müqəddimə 1, Cihad 39

❁

٦٧٣ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ كَرِهَ مِنْ أَمِيرِهِ شَيْئًا فَلْيَصْبِرْ ، فَإِنَّهُ مَنْ خَرَجَ مِنَ السُّلْطَانِ شِبْرًا مَاتَ مِيتَةً جَاهِلِيَّةً». مُتَّفَقٌ عَلَيْهِ .

673. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dövlət başçısında xoşagəlməz hal görən səbir etsin. Kim dövlət başçısına itaətdən bir qarış kənara çıxarsa, cahiliyyə dövründə ölmüş kimi olar".

Buxari, Fitən 2; Müslim, İmarə 56

❁

٦٧٤ ـ عَنْ أَبِي بَكْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ أَهَانَ السُّلْطَانَ أَهَانَهُ اللَّهُ». رَوَاهُ التِّرْمِذِيُّ .

674. Əbu Bəkrə *radiyallahu anh*, Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə buyurduğunu eşitdim,- dedi:

"Hər kim dövlət başçısını kiçik (xor) görərsə, Allah da onu kiçildər".

Tirmizi, Fitən 47. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd V, 42, 49

İDARƏÇİLİYƏ CAN ATMAMAQ

VƏZİFƏ ÖZÜNƏ QALMADIQCA ONU İSTƏMƏMƏK VƏ İDARƏÇİ OLMAQDAN UZAQ DURMAĞA ÇALIŞMAQ

Ayə

تِلْكَ الدَّارُ الْآخِرَةُ نَجْعَلُهَا لِلَّذِينَ لاَ يُرِيدُونَ عُلُوًّا فِي الْأَرْضِ وَلاَ فَسَادًا وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ.

"Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. (Ən gözəl) **aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!"**

(əl-Qasas, 83)

Hədislər

٦٧٥ ـ عَنْ أَبِي سَعِيدٍ عَبْدِ الرَّحْمٰنِ بْنِ سَمُرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ : «يَا عَبْدَ الرَّحْمٰنِ بْنَ سَمُرَةَ ، لاَ تَسْأَلِ الْإِمَارَةَ: فَإِنَّكَ إِنْ أُعْطِيتَهَا عَنْ غَيْرِ مَسْأَلَةٍ أُعِنْتَ عَلَيْهَا ، وَإِنْ أُعْطِيتَهَا عَنْ مَسْأَلَةٍ وُكِلْتَ إِلَيْهَا ، وَإِذَا حَلَفْتَ عَلَى يَمِينٍ فَرَأَيْتَ غَيْرَهَا خَيْرًا مِنْهَا فَأْتِ الَّذِي هُوَ خَيْرٌ ، وَكَفِّرْ عَنْ يَمِينِكَ ». مُتَّفَقٌ عَلَيْهِ .

675. Əbu Səid Əbdürrəhman bin Səmurə radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyurdu:

"Ey Əbdürrəhman bin Səmurə, heç kimdən idarəçilik vəzifəsi istəmə! Əgər bu vəzifə sən istəmədən verilərsə, Allah yardımçın olar. Əgər sən istədiyinə görə verilərsə, Allahdan yardım görməzsən.

Bir də, hər hansı bir şeyə and içdikdən sonra başqa bir əməli daha xeyirli görsən, xeyirli olanı işlə, andına görə kəffarə ödə!"

Buxari, Əhkam 5, 6, Əyman 1, Kəffarət 10; Müslim, Əyman 19, İmarə 13. Həmçinin bax. Əbu Davud, İmarə 2; Tirmizi, Nüzur 5; Nəsai, Ədəbul-qudat 5

❁

٦٧٦ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «يَا أَبَا ذَرٍّ ، إِنِّي أَرَاكَ ضَعِيفًا ، وَإِنِّي أُحِبُّ لَكَ مَا أُحِبُّ لِنَفْسِي. لاَ تَأَمَّرَنَّ عَلَى اثْنَيْنِ وَلاَ تَوَلَّيَنَّ مَالَ يَتِيمٍ» . رَوَاهُ مُسْلِمٌ .

676. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ey Əbu Zərr, sənin həqiqətən zəif olduğunu görürəm. Özüm üçün nə istəyirəmsə sənin üçün də onu istəyirəm. Əsla iki nəfərə də olsa başçı olma. Yetim malına da idarəçilik etmə!"

Müslim, İmarə 17. Həmçinin bax. Əbu Davud, Vəsaya 4; Nəsai, Vəsaya 10

٦٧٧ ـ وَعَنْهُ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، أَلاَ تَسْتَعْمِلُنِي ؟ فَضَرَبَ بِيَدِهِ عَلَى مَنْكِبِي ثُمَّ قَالَ : «يَا أَبَا ذَرٍّ ، إِنَّكَ ضَعِيفٌ ، وَإِنَّهَا أَمَانَةٌ ، وَإِنَّهَا يَوْمَ الْقِيَامَةِ خِزْيٌ وَنَدَامَةٌ ، إِلاَّ مَنْ أَخَذَهَا بِحَقِّهَا ، وَأَدَّى الَّذِي عَلَيْهِ فِيهَا». رَوَاهُ مُسْلِمٌ .

677. Yenə Əbu Zərr radiyallahu anh belə dedi:

- Ya Rəsulallah, məni vali təyin etməzsənmi? - demişdim.

Əli ilə çiynimə vurub belə buyurdu:

- "Ey Əbu Zərr, sən zəif adamsan, istədiyin vəzifə isə böyük əmanətdir. Bu əmanəti layiq olaraq alan və boynuna düşəni edənlər xaric, əslində bu vəzifə qiyamət günü rəzillik və peşmançılıqdır".

Müslim, İmarət 16

❁

٦٧٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّكُمْ سَتَحْرِصُونَ عَلَى الْإِمَارَةِ ، وَسَتَكُونُ نَدَامَةً يَوْمَ الْقِيَامَةِ» . رَوَاهُ الْبُخَارِيُّ .

678. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Siz idarəçi olmaq məsələsində çox istəkli olacaqsınız. Halbuki can atdığınız vəzifə qiyamət günü peşmanlıq səbəbi olacaqdır".

Buxari, Əhkam 7. Həmçinin bax. Nəsai, Beyət 39, Qudat 5

İDARƏÇİLƏRİN YAXŞI KÖMƏKÇİ SEÇMƏSİ

DÖVLƏT BAŞÇISI VƏ QAZI KİMİ İDARƏÇİLƏRİ YAXŞI KÖMƏKÇİ SEÇMƏYƏ TƏŞVİQ ETMƏK VƏ ONLARI PİS YOLDAŞLARLA YAXINLIQ EDİB ONLARIN TÖVSİYƏLƏRİNİ YERİNƏ YETİRMƏKDƏN ÇƏKİNDİRMƏK

Ayə

اَلْأَخِلاَّءُ يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلاَّ الْمُتَّقِينَ .

“Müttəqilər müstəsna olmaqla, o gün dostlar bir-birinə düşmən kəsiləcəklər!”

(əz-Zuxruf, 67)

Hədislər

٦٧٩ ـ عَنْ أَبِي سَعِيدٍ وَأَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَا بَعَثَ اللَّهُ مِنْ نَبِيٍّ وَلاَ اسْتَخْلَفَ مِنْ خَلِيفَةٍ إِلاَّ كَانَتْ لَهُ بِطَانَتَانِ: بِطَانَةٌ تَأْمُرُهُ بِالْمَعْرُوفِ وَتَحُضُّهُ عَلَيْهِ ، وَبِطَانَةٌ تَأْمُرُهُ بِالشَّرِّ وَتَحُضُّهُ عَلَيْهِ ، وَالْمَعْصُومُ مَنْ عَصَمَ اللَّهُ» . رَوَاهُ الْبُخَارِيُّ .

679. Əbu Səid əl-Xudri və Əbu Hüreyrə *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Allah-Təalanın göndərdiyi hər peyğəmbərin və başa gətirdiyi hər xəlifənin mütləq iki cür yardımçısı olmuşdur. Bunlardan biri ona doğru yolu göstərər və buna təşviq edər. Digəri pis yolu göstərib ona təşviq edər. Allahın qoruduğu kəs günahdan uzaq durandır”.

Buxari, Əhkam 42, Qədər 8, Həmçinin bax. Nəsai, Beyət 32

❁

٦٨٠ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا أَرَادَ اللَّهُ بِالْأَمِيرِ خَيْرًا جَعَلَ لَهُ وَزِيرَ صِدْقٍ ، إِنْ نَسِيَ ذَكَّرَهُ ، وَإِنْ ذَكَرَ أَعَانَهُ ، وَإِذَا أَرَادَ بِهِ غَيْرَ ذٰلِكَ جَعَلَ لَهُ وَزِيرَ سُوءٍ ، إِنْ نَسِيَ لَمْ يُذَكِّرْهُ ، وَإِنْ ذَكَرَ لَمْ يُعِنْهُ». رَوَاهُ أَبُو دَاوُدَ.

680. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Allah-Təala bir dövlət başçısı haqqında xeyir murad etdiyi zaman ona unutduğunu xatırladan, xatırladığını həyata keçirməyə yardım edən doğru sözlü köməkçi verər. Əgər Allah-Təala həmin dövlət başçısı üçün xeyir murad etməzsə, ona unutduğunu xatırlatmayan, xatırladığını həyata keçirməyə yardım etməyən pis köməkçi verər”.

Əbu Davud, İmarə 4. Həmçinin bax. Nəsai, Beyət 33

İDARƏÇİLİYƏ CAN ATANLARA VƏZİFƏ VERMƏMƏK

DÖVLƏT İDARƏSİ VƏ QAZILIQ KİMİ VƏZİFƏLƏRİ İSTƏYƏN VƏ BU VƏZİFƏLƏRƏ HƏDDƏN ARTIQ CAN ATANLARI TƏYİN ETMƏMƏK

Hədis

٦٨١ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: دَخَلْتُ عَلَى النَّبِيِّ ﷺ أَنَا وَرَجُلاَنِ مِنْ بَنِي عَمِّي ، فَقَالَ أَحَدُهُمَا: يَا رَسُولَ اللَّهِ ، أَمِّرْنَا عَلَى بَعْضِ مَا وَلاَّكَ اللَّهُ عَزَّ وَجَلَّ ، وَقَالَ الْآخَرُ مِثْلَ ذٰلِكَ. فَقَالَ: «إِنَّا وَاللَّهِ لَا نُوَلِّي هَذَا الْعَمَلَ أَحَدًا سَأَلَهُ ، أَوْ أَحَدًا حَرَصَ عَلَيْهِ». مُتَّفَقٌ عَلَيْهِ .

681. Əbu Musa əl-Əşari *radiyallahu anh* belə dedi:

Əmimin oğullarından ikisi ilə Peyğəmbər *səllallahu əleyhi və səlləmin* hüzuruna çıxmışdım. Onlardan biri:

- Ya Rəsulallah, bizi Allah-Təalanın idarəsini sənə verdiyi vəzifələrdən birinə təyin et,- dedi. Digər əmim oğlu da buna bənzər söz söylədi.

Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Vallahi, biz istəyəni və ya vəzifəyə həris olanı idarəçi etmirik".

Buxari, Əhkam 7, İcarə 1, İstitabətul-murtəddin 2; Müslim, İmarə 15

ƏDƏB BÖLÜMÜ

UTANMA DUYĞUSU (HƏYA), DƏYƏRİ VƏ BU DUYĞUYA SAHİB OLMAĞA TƏŞVİQ ETMƏK

Hədislər

٦٨٢ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ عَلَى رَجُلٍ مِنَ الْأَنْصَارِ ، وَهُوَ يَعِظُ أَخَاهُ فِي الْحَيَاءِ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «دَعْهُ ، فَإِنَّ الْحَيَاءَ مِنَ الْإِيمَانِ». مُتَّفَقٌ عَلَيْهِ .

682. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* utancaq qardaşına bu xasiyyətini tərgitməsini söyləyən mədinəli bir müsəlmanın yanından keçərkən ona:

"Onu öz halı ilə baş-başa burax. Çünki həya imandandır".

Buxari, İman 16, Ədəb 77; Müslim, İman 57-49. Həmçinin bax. Tirmizi, İman 7; Nəsai, İman 27; İbn Macə, Müqəddimə 9, Zöhd 17

❁

٦٨٣ ـ عَنْ عِمْرَانَ بْنِ حُصَيْنٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «الْحَيَاءُ لاَ يَأْتِي إِلاَّ بِخَيْرٍ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: «الْحَيَاءُ خَيْرٌ كُلُّهُ» أَوْ قَالَ: «الْحَيَاءُ كُلُّهُ خَيْرٌ».

683. İmran bin Husayn *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Həya yalnız xeyir gətirər".

Buxari, Ədəb 77; Müslim, İman 60

Müslimin bir rəvayətinə görə isə:

“Həyanın hamısı xeyirdir”, - buyurdu.

Müslim, İman 61

❁

٦٨٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «الْإِيمَانُ بِضْعٌ وَسَبْعُونَ ـ أَوْ بِضْعٌ وَسِتُّونَ شُعْبَةً ـ فَأَفْضَلُهَا قَوْلُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَأَدْنَاهَا إِمَاطَةُ الْأَذَى عَنِ الطَّرِيقِ. وَالْحَيَاءُ شُعْبَةٌ مِنَ الْإِيمَانِ». مُتَّفَقٌ عَلَيْهِ .

684. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“İman yetmiş və ya altmış şöbədən ibarətdir. Onların ən yüksəyi lə iləhə illəllah demək, ən aşağısı isə insanlara zərər verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imanın şöbələrindən biridir”.

Buxari, İman 3; Müslim, İman 58. Həmçinin bax. Əbu Davud, Sünnət 14; Tirmizi, Birr 65; Nəsai, İman 16; İbn Macə, Müqəddimə 9

❁

٦٨٥ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ أَشَدَّ حَيَاءً مِنَ الْعَذْرَاءِ فِي خِدْرِهَا ، فَإِذَا رَأَى شَيْئًا يَكْرَهُهُ عَرَفْنَاهُ فِي وَجْهِهِ . مُتَّفَقٌ عَلَيْهِ.

685. Əbu Səid əl-Xudri radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* örtünmə çağına girmiş gənc qızdan daha həyalı idi. Xoşuna gəlməyən bir şey gördüyü zaman üzünə baxanda hiss edərdik.

Buxari, Mənaqib 23, Ədəb 72, 77; Müslim, Fəzail 67. Həmçinin bax. İbn Macə, Zöhd 17

SİRR SAXLAMAQ

Ayə

وَأَوْفُوا بِالْعَهْدِ إِنَّ الْعَهْدَ كَانَ مَسْؤُولاً.

"Əhdə vəfa edin. Çünki (insan) **əhd barəsində (qiyamət günü) cavabdehdir".**

(əl-İsra, 34)

Hədislər

٦٨٦ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ مِنْ أَشَرِّ النَّاسِ عِنْدَ اللَّهِ مَنْزِلَةً يَوْمَ الْقِيَامَةِ الرَّجُلَ يُفْضِي إِلَى الْمَرْأَةِ وَتُفْضِي إِلَيْهِ ثُمَّ يَنْشُرُ سِرَّهَا». رَوَاهُ مُسْلِمٌ.

686. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Qiyamət günü Allah-Təalanın nəzərində ən pis adam arvadı ilə birlikdə olduqdan sonra onun sirrini ifşa edəndir".

Müslim, Nikah 123, 124. Həmçinin bax. Əbu Davud, Ədəb 32

❁

٦٨٧ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ حِينَ تَأَيَّمَتْ بِنْتُهُ حَفْصَةُ قَالَ: لَقِيتُ عُثْمَانَ بْنَ عَفَّانَ رَضِيَ اللَّهُ عَنْهُ، فَعَرَضْتُ عَلَيْهِ حَفْصَةَ، فَقُلْتُ: إِنْ شِئْتَ أَنْكَحْتُكَ حَفْصَةَ بِنْتَ عُمَرَ؟ قَالَ: سَأَنْظُرُ فِي أَمْرِي. فَلَبِثْتُ لَيَالِيَ، ثُمَّ لَقِيَنِي فَقَالَ: قَدْ بَدَا لِي أَلاَّ أَتَزَوَّجَ يَوْمِي هَذَا، فَلَقِيتُ أَبَا بَكْرٍ الصِّدِّيقَ رَضِيَ اللَّهُ عَنْهُ، فَقُلْتُ: إِنْ شِئْتَ أَنْكَحْتُكَ حَفْصَةَ بِنْتَ عُمَرَ. فَصَمَتَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ، فَلَمْ يَرْجِعْ إِلَيَّ شَيْئًا! فَكُنْتُ عَلَيْهِ أَوْجَدَ مِنِّي عَلَى

عُثْمَانَ ، فَلَبِثْتُ لَيَالِي ، ثُمَّ خَطَبَهَا النَّبِيُّ ﷺ فَأَنْكَحْتُهَا إِيَّاهُ ، فَلَقِيَنِي أَبُو بَكْرٍ ، فَقَالَ: لَعَلَّكَ وَجَدْتَ عَلَيَّ حِينَ عَرَضْتَ عَلَيَّ حَفْصَةَ فَلَمْ أَرْجِعْ إِلَيْكَ شَيْئًا ؟ فَقُلْتُ: نَعَمْ ، قَالَ: فَإِنَّهُ لَمْ يَمْنَعْنِي أَنْ أَرْجِعَ إِلَيْكَ فِيمَا عَرَضْتَ عَلَيَّ إِلاَّ أَنِّي كُنْتُ عَلِمْتُ أَنَّ النَّبِيَّ ﷺ ذَكَرَهَا ، فَلَمْ أَكُنْ لِأُفْشِيَ سِرَّ رَسُولِ اللَّهِ ﷺ . وَلَوْ تَرَكَهَا النَّبِيُّ ﷺ لَقَبِلْتُهَا. رَوَاهُ الْبُخَارِيُّ .

687. Abdullah bin Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Hz. Ömər qızı Hafsanın dul qaldığı zamandan söz açaraq belə dedi:

- Osman bin Affanla qarşılaşdım və ona Hafsadan söz açaraq "istəyirsən Hafsanı sənin nikahlayım", - dedim. Osman:

- Bir az fikirləşim,- dedi. Aradan bir neçə gün keçəndən sonra qarşılaşdığımız zaman "hələlik evlənə bilməyəcəyəm", - dedi. Sonra Əbu Bəkrlə rastlaşdım. Ona da:

- İstəyirsən, qızım Hafsanı sənə nikahlayım,- dedim. O isə susdu, ağzını açıb bir kəlmə də demədi. Bu səbəblə Osmandan incidiyimdən çox ona əsəbiləşdim.

Aradan bir neçə gün keçdikdən sonra Nəbi *səllallahu əleyhi və səlləm* Hafsanı istədi. Mən də qızımı ona nikahladım. Həmin günlərdə Əbu Bəkrlə qarşılaşdığımız zaman mənə:

- Hər halda Hafsa ilə evlənmə təklifi edəndə mənim cavab verməməyimə görə incimisən,- dedi. Mən:

- Bəli,- cavabını verdim. Əbu Bəkr belə dedi:

- Mənə bu məsələni açanda sənə cavab verməməyimin səbəbi Hz. Peyğəmbərin Hafsa ilə evlənməkdən söz açması idi. Əlbəttə ki, Rəsulullahın sirrini açа bilməzdim. Əgər Nəbiyyi-Əkrəm Hafsa ilə evlənməkdən vaz keçsəydi, əlbəttə ki, onunla evlənərdim.

Buxari, Nikah 33, 46, Məğazi 12. Həmçinin bax. Nəsai, Nikah 30

٦٨٨ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كُنَّ أَزْوَاجُ النَّبِي ﷺ عِنْدَهُ ، فَأَقْبَلَتْ فَاطِمَةُ رَضِيَ اللَّهُ عَنْهَا تَمْشِي مَا تُخْطِىءُ مِشْيَتُهَا مِنْ مِشْيَةِ رَسُولِ اللَّهِ ﷺ شَيْئًا ، فَلَمَّا رَآهَا رَحَّبَ بِهَا وَقَالَ: «مَرْحَبًا بِابْنَتِي» ، ثُمَّ أَجْلَسَهَا عَنْ يَمِينِهِ أَوْ عَنْ شِمَالِهِ ، ثُمَّ سَارَّهَا فَبَكَتْ بُكَاءً شَدِيدًا ، فَلَمَّا رَأَى جَزَعَهَا سَارَّهَا الثَّانِيَةَ فَضَحِكَتْ، فَقُلْتُ لَهَا خَصَّكِ رَسُولُ اللَّهِ ﷺ مِنْ بَيْنِ نِسَائِهِ بِالسِّرَارِ ثُمَّ أَنْتِ تَبْكِينَ ؟ فَلَمَّا قَامَ رَسُولُ اللَّهِ ﷺ سَأَلْتُهَا: مَا قَالَ لَكِ رَسُولُ اللَّهِ ﷺ ؟ قَالَتْ: مَا كُنْتُ لِأُفْشِيَ عَلَى رَسُولِ اللَّهِ ﷺ سِرَّهُ ! فَلَمَّا تُوُفِّيَ رَسُولُ اللَّهِ ﷺ قُلْتُ: عَزَمْتُ عَلَيْكِ بِمَا لِي عَلَيْكِ مِنَ الْحَقِّ لَمَا حَدَّثْتِنِي مَا قَالَ لَكِ رَسُولُ اللَّهِ ﷺ ؟ فَقَالَتْ: أَمَّا الْآنَ فَنَعَمْ. أَمَّا حِينَ سَارَّنِي فِي الْمَرَّةِ الْأُولَى فَأَخْبَرَنِي أَنَّ جِبْرِيلَ كَانَ يُعَارِضُهُ الْقُرْآنَ فِي كُلِّ سَنَةٍ مَرَّةً أَوْ مَرَّتَيْنِ ، وَأَنَّهُ عَارَضَهُ الْآنَ مَرَّتَيْنِ ، «وَإِنِّي لاَ أَرَى الْأَجَلَ إِلاَّ قَدِ اقْتَرَبَ ، فَاتَّقِي اللَّهَ وَاصْبِرِي ، فَإِنَّهُ نِعْمَ السَّلَفُ أَنَا لَكِ». فَبَكَيْتُ بُكَائِي الَّذِي رَأَيْتِ. فَلَمَّا رَأَى جَزَعِي سَارَّنِي الثَّانِيَةَ فَقَالَ: «يَا فَاطِمَةُ ، أَمَا تَرْضَيْنَ أَنْ تَكُونِي سَيِّدَةَ نِسَاءِ الْمُؤْمِنِينَ ، أَوْ سَيِّدَةَ نِسَاءِ هَذِهِ الْأُمَّةِ ؟» فَضَحِكْتُ ضَحِكِي الَّذِي رَأَيْتِ . مُتَّفَقٌ عَلَيْهِ .

688. Aişə *radiyallahu anhə* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmin* xanımları yanında oturmuşdular. Bu zaman Fatimə eynilə Rəsulullah *səllallahu əleyhi və səlləm* kimi yeriyərək gəldi. Rəsuli-Əkrəm onu görəndə sevindi və "xoş gəldin, qızım" deyərək sağ və ya sol tərəfində oturtdu. Sonra Fatimənin qulağına nə isə pıçıldadı. Fatimə yüksək səslə ağlamağa başladı. Onun çox kədərləndiyini görüb qulağına başqa bir söz dedi. Bu dəfə Fatimə güldü. Fatiməyə:

- Xanımları yanında olanda Rəsulullah *səllallahu əleyhi və səlləm* sadəcə sənə bir sirr verdi, sən də ağladın,- dedim və Rəsulullah gedəndən son-

ra ondan: “Rəsulullah *səllallahu əleyhi və səlləm* sənə nə söylədi?” - deyə soruşdum. Fatimə:

- Rəsulullah *səllallahu əleyhi və səlləmin* sirrini heç kimə açmaram,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* vəfat edəndən sonra:

- Üstündəki analıq haqqıma əsaslanaraq Rəsulullahın sənə verdiyi sirri mənə açmağını istəyirəm,- dedim. Fatimə:

- İndi ola bilər,- dedikdən sonra bunları söylədi: “Rəsuli-Əkrəm ilk dəfə qulağıma pıçıldayanda Cəbrayılın nazil olan Quran ayələrini başdan-ayağa oxumaq üçün hər il bir –və ya iki- dəfə gəldiyini, lakin bu il eyni məqsədlə iki dəfə gəldiyini dedi və **“Əcəlimin yaxınlaşdığını bilirəm. Allaha qarşı təqvalı ol və səbir et. Mənim səndən əvvəl getməyim yaxşı oldu”, -** buyurdu. Gördüyün kimi bunu eşidib çox ağlamışdım. Mənim kədərləndiyimi görüb təkrar qulağıma **“Ey Fatimə, mömin xanımların** – və ya **bu ümmətin qadınlarının – seyyidəsi olmaq istəməzsənmi?” -** buyurdu. Gördüyün kimi onda da güldüm.

Buxari, Mənaqib 25, Fəzailu əshabin-nəbi 12, Məğazi 83, İstizan 43; Müslim, Fəzailus-səhabə 97-99. Həmçinin bax. İbn Macə, Cənaiz 64

❁

٦٨٩ ـ عَنْ ثَابِتٍ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَى عَلَيَّ رَسُولُ اللَّهِ ﷺ وَأَنَا أَلْعَبُ مَعَ الْغِلْمَانِ ، فَسَلَّمَ عَلَيْنَا فَبَعَثَنِي فِي حَاجَةٍ ، فَأَبْطَأْتُ عَلَى أُمِّي . فَلَمَّا جِئْتُ قَالَتْ: مَا حَبَسَكَ ؟ فَقُلْتُ: بَعَثَنِي رَسُولُ اللَّهِ ﷺ لِحَاجَةٍ ، قَالَتْ: مَا حَاجَتُهُ ؟ قُلْتُ: إِنَّهَا سِرٌّ. قَالَتْ: لاَ تُخْبِرَنَّ بِسِرِّ رَسُولِ اللَّهِ ﷺ أَحَدًا.

قَالَ أَنَسٌ: وَاللَّهِ لَوْ حَدَّثْتُ بِهِ أَحَدًا لَحَدَّثْتُكَ بِهِ يَاثَابِتُ. رَوَاهُ مُسْلِمٌ .

689. Sabit əl-Bünaninin rəvayət etdiyinə görə Ənəs bin Malik ona belə dedi:

Mən uşaqlarla oynayarkən Rəsulullah *səllallahu əleyhi və səlləm* yanıma gəldi, bizə salam verdi və məni bir iş dalınca göndərdi. Bu səbəblə anamın yanına qayıdarkən gecikdim. Evə çatanda anam soruşdu:

- Nə üçün gecikdin?

- Rəsulullah məni bir iş dalınca göndərmişdi, ona görə gecikdim,- dedim. Anam:

- Nə iş idi? - deyə soruşduqda:

- Bu, sirdir,- dedim. Anam:

- Rəsulullahın sirrini heç kimə açma,- dedi.

Ənəs bu hadisəni danışandan sonra Sabit əl-Bünaniyə belə dedi:

- Sabit, əgər bu sirri kiməsə açsaydım, vallahi, sənə açardım.

Müslim, Fəzailus-səhabə 145, 146



SÖZÜNDƏ DURMAQ VƏ VƏDİNİ YERİNƏ YETİRMƏK

Ayələr

وَأَوْفُوا بِالْعَهْدِ إِنَّ الْعَهْدَ كَانَ مَسْؤُولاً.

1. "Əhdə vəfa edin. Çünki (insan) **əhd barəsində** (qiyamət günü) **cavabdehdir".**

(əl-İsra, 34)

وَأَوْفُوا بِعَهْدِ اللَّهِ إِذَا عَاهَدْتُمْ.

2. "Əhd etdiyiniz zaman Allaha verdiyiniz əhdi yerinə yetirin".

(ən-Nəhl, 91)

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَوْفُوا بِالْعُقُودِ.

3. "Ey iman gətirənlər! Əhdlərə sadiq olun".

(əl-Maidə, 1)

يَا أَيُّهَا الَّذِينَ اَمَنُوا لِمَ تَقُولُونَ مَالاَ تَفْعَلُونَ كَبُرَ مَقْتًا عِنْدَ اللَّهِ أَنْ تَقُولُوا مَا لاَ تَفْعَلُونَ.

4. "Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz?Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar".

(əs-Saf, 2-3)

Hədislər

٦٩٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «آيَةُ الْمُنَافِقِ ثَلَاثٌ: إِذَا حَدَّثَ كَذَبَ ، وَإِذَا وَعَدَ أَخْلَفَ ، وَإِذَا اؤْتُمِنَ خَانَ». مُتَّفَقٌ عَلَيْهِ.

زَادَ فِي رِوَايَةٍ لِمُسْلِمٍ: «وَإِنْ صَامَ وَصَلَّى وَزَعَمَ أَنَّهُ مُسْلِمٌ».

690. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Münafiqin əlaməti üçdür:

Danışanda yalan deyər.

Söz verəndə sözündə durmaz.

Nə isə əmanət edildikdə xəyanət edər".

Buxari, İman 24, Şəhadət 28, Vəsaya 8, Ədəb 69; Müslim, İman 107-108. Həmçinin bax. Tirmizi, İman 14; Nəsai, İman 20

Müslimin bir rəvayətində bu əlavə var:

"Oruc tutsa, namaz qılsa, müsəlman olduğunu desə də"

(Müslim, İman 109-110)

❁

٦٩١ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «أَرْبَعٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقًا خَالِصًا ، وَمَنْ كَانَتْ فِيهِ خَصْلَةٌ مِنْهُنَّ كَانَتْ فِيهِ خَصْلَةٌ مِنَ النِّفَاقِ حَتَّى يَدَعَهَا: إِذَا اؤْتُمِنَ خَانَ ، وَإِذَا حَدَّثَ كَذَبَ ، وَإِذَا عَاهَدَ غَدَرَ ، وَإِذَا خَاصَمَ فَجَرَ». مُتَّفَقٌ عَلَيْهِ .

691. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dörd xasiyyət kimdə cəmləşərsə, həmin adam tam münafiq olar. Bir adamda bu xasiyyətlərdən biri olarsa, həmin xasiyyəti tərgidənə qədər onda münafiqliyin xüsusiyyətlərindən biri var. Həmin dörd xasiyyətə sahib olan adam:

Əmanət verilən şeyə xəyanət edər.

Danışanda yalan söyləyər.

Əhdinə sadiq qalmaz.

Düşmənçilik edəndə həddi aşar".

Buxari, İman 24, Məzalim 17, Cizyə 17; Müslim, İman 106. Həmçinin bax. Tirmizi, İman 14; Nəsai, İman 20

❁

٦٩٢ ـ عَنْ جابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ : «لَوْ قَدْ جَاءَ مَالُ الْبَحْرَيْنِ أَعْطَيْتُكَ هَكَذَا وَهَكَذَا وَهَكَذَا». فَلَمْ يَجِىءْ مَالُ الْبَحْرَيْنِ حَتَّى قُبِضَ النَّبِيُّ ﷺ ، فَلَمَّا جَاءَ مَالُ الْبَحْرَيْنِ أَمَرَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ فَنَادَى: مَنْ كَانَ لَهُ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ عِدَةٌ أَوْ دَيْنٌ فَلْيَأْتِنَا ، فَأَتَيْتُهُ وَقُلْتُ لَهُ: إِنَّ النَّبِيَّ ﷺ قَالَ لِي كَذَا وَكَذَا ، فَحَثَى لِي حَثْيَةً ، فَعَدَدْتُهَا فَإِذَا هِيَ خَمْسُ مِئَةٍ، فَقَالَ لِي: خُذْ مِثْلَيْهَا. مُتَّفَقٌ عَلَيْهِ .

692. Cabir *radiyallahu anhdan* belə dediyi rəvayət edilmişdir:

Bir gün Peyğəmbər *səllallahu əleyhi və səlləm* mənə:

"Əgər Bəhreyndən zəkat malı gəlsə, sənə belə-belə doldurub verərəm", - buyurdu. Lakin Peyğəmbər *səllallahu əleyhi və səlləm* vəfat edənə qədər Bəhreyndən mal gəlmədi.

Bəhreyndən mal gələndə Əbu Bəkr radiyallahu anh:

- Rəsulullah *səllallahu əleyhi və səlləmin* kiməsə vədi və ya borcu varsa, bizə müraciət etsin,- deyə elan etdi. Onun hüzuruna gedib:

- Peyğəmbər *səllallahu əleyhi və səlləm* mənə belə-belə demişdi,- dedim.

Əbu Bəkr əlini qənimət malına salıb bir ovuc çıxartdı. Onları sayanda 500 olduğunu gördüm. Bu zaman Əbu Bəkr mənə:

- Bunun iki qatını da götür,- dedi.

Buxari, Kəfalə 3, Hibə 18, Şəhadət 28, Fərzul-xumus 15, Cizyə 4, Məğazi 73; Müslim, Fəzail 60-61

YAXŞI ƏMƏLİ DAVAM ETDİRMƏK

Ayələr

إِنَّ اللَّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُوا مَا بِأَنْفُسِهِمْ.

1. "Hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə (pozmadıqca)**, Allah da onun tövrünü** (onda olanları, onun əhvalını) **dəyişməz".**

(ər-Rad, 11)

وَلَا تَكُونُوا كَالَّتِي نَقَضَتْ غَزْلَهَا مِنْ بَعْدِ قُوَّةٍ أَنْكَاثًا .

2. "Möhkəm əyirdiyi ipliyi sonradan açıb sökən qadın kimi olmayın".

(ən-Nəhl, 92)

وَلاَ يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِنْ قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ.

3. "Möminlər özlərindən əvvəl kitab verilən kimsələr kimi olmasınlar. Onlarla (öz peyğəmbərləri arasında) **uzun bir müddət keçmiş və qəlbləri sərtləşmişdir".**

(əl-Hədid, 16)

فَمَا رَعَوْهَا حَقَّ رِعَايَتِهَا.

4. "Lakin uydurduqlarına layiqincə əməl (riayət) etmədilər".

(əl-Hədid, 27)

Hədislər

٦٩٣ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: «يَا عَبْدَ اللَّهِ، لاَ تَكُنْ مِثْلَ فُلاَنٍ، كَانَ يَقُومُ اللَّيْلَ فَتَرَكَ قِيَامَ اللَّيْلِ!». مُتَّفَقٌ عَلَيْهِ.

693. Abdullah bin Amr bin As *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Abdullah, filankəs kimi olma! Çünki o gecə ibadətinə davam etdiyi halda artıq onu tərk etdi".

Buxari, Təhəccüd 19; Müslim, Siyam 185. Həmçinin bax. Nəsai, Qiyamul-leyl 59; ibn Macə, iqamə 174

QARŞISINA ÇIXANA GÖZƏL SÖZ SÖYLƏMƏK, GÜLƏR ÜZ GÖSTƏRMƏK

Ayələr

وَاخْفِضْ جَنَاحَكَ لِلْمُؤْمِنِينَ.

1. "Möminləri qanadın altına al".

(əl-Hicr, 88)

وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ.

2. "Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər".

(Ali-İmran, 159)

Hədislər

٦٩٤ ـ عَنْ عَدِيِّ بْنِ حَاتِمٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «اِتَّقُوا النَّارَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ، فَمَنْ لَمْ يَجِدْ فَبِكَلِمَةٍ طَيِّبَةٍ». مُتَّفَقٌ عَلَيْهِ.

694. Adiy bin Hatim *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yarım xurma verməklə də olsa özünüzü cəhənnəm odundan qoruyun. O qədərini tapmayanlar gözəl sözlə də olsa özlərini qorusunlar".

Buxari, Ədəb 34, Zəkat 10, Riqaq 49, 51, Tövhid 36; Müslim, Zəkat 66-70. Həmçinin bax. Tirmizi, Qiyamət 1; Nəsai, Zəkat 63-64; İbn Macə, Müqəddimə 13, Zəkat 28

٦٩٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «وَالْكَلِمَةُ الطَّيِّبَةُ صَدَقَةٌ». مُتَّفَقٌ عَلَيْهِ .

695. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Gözəl söz sədəqədir".

Buxari, Ədəb 34, Cihad 128, Müslim, Zəkat 56

❁

٦٩٦ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئًا وَلَوْ أَنْ تَلْقَى أَخَاكَ بِوَجْهٍ طَلْقٍ». رَوَاهُ مُسْلِمٌ .

696. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

"Din qardaşını gülər üzlə qarşılamaqdan ibarət də olsa heç bir yaxşılığı xor görmə".

Müslim, Birr 144. Həmçinin bax. Tirmizi, Ətimə 30, Birr 45

BAŞADÜŞÜLƏN TƏRZDƏ DANIŞMAQ

QARŞIDAKI ADAMA SÖZÜ AÇIQ-AYDIN SÖYLƏMƏK
VƏ LAZIM GƏLƏRSƏ BAŞA DÜŞMƏSİ ÜÇÜN TƏKRARLAMAQ

Hədislər

٦٩٧ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ: أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا تَكَلَّمَ بِكَلِمَةٍ أَعَادَهَا ثَلاَثًا حَتَّى تُفْهَمَ عَنْهُ ، وَإِذَا أَتَى عَلَى قَوْمٍ فَسَلَّمَ عَلَيْهِمْ سَلَّمَ عَلَيْهِمْ ثَلاَثًا . رَوَاهُ الْبُخَارِيُّ .

697. Ənəs *radiyallahu anhın* bildirdiyinə görə:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* sözünün yaxşı başa düşülməsi üçün dediyini üç dəfə təkrarlayardı. Bir qrup insanın yanına gəlib onları salamlayacağı zaman üç dəfə salam verərdi.

Buxari, Elm 30, İstizan 13. Həmçinin bax. Tirmizi, İstizan 28

❁

٦٩٨ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ كَلاَمُ رَسُولِ اللَّهِ ﷺ كَلاَمًا فَصْلاً يَفْهَمُهُ كُلُّ مَنْ يَسْمَعُهُ. رَوَاهُ أَبُو دَاوُدَ.

698. Aişə radiyallahu anhə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* sözü hər kəsin başa düşəcəyi şəkildə açıq-aydın idi.

Əbu Davud, Ədəb 18

ALİMİN DİNLƏYİCİLƏRİ SUSDURMASI

BİR ADAMIN YANINDAKILARIN HARAM OLMAYAN SÖZÜNƏ QULAQ ASMASI; ALİM VƏ YA VAİZİN DİNLƏYİCİLƏRİ SUSDURMASI

Hədis

٦٩٩ ـ عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ فِي حَجَّةِ الْوَدَاعِ: «وَاسْتَنْصِتِ النَّاسَ» ثُمَّ قَالَ: «لاَ تَرْجِعُوا بَعْدِي كُفَّارًا يَضْرِبُ بَعْضُكُمْ رِقَابَ بَعْضٍ». مُتَّفَقٌ عَلَيْهِ.

699. Cərir bin Abdullah *radiyallahu anhdan*:

Vida Həccində Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə:

"Camaatı sakitləşdir, qulaq assınlar", - dedikdən sonra belə buyurdu:

"Məndən sonra bir-birinizin boynunu vuraraq kafirlərə bənzəməyin".

Buxari, Elm 43, Məğazi 77, Diyət 2, Ədahi 5; Müslim, İman 118-120, Qasamə 29. Həmçinin bax. Buxari, Həcc 132, Hüdud 9, Tövhid 24; Əbu Davud, Sünnət 15; Tirmizi, Fitən 28

ÖYÜD VERƏRKƏN HƏDDİ AŞMAMAQ

Ayə

أُدْعُ إِلَى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ .

"İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna dəvət et".

(ən-Nəhl, 125)

Hədislər

٧٠٠ ـ عَنْ أَبِي وَائِلٍ شَقِيقِ بْنِ سَلَمَةَ قَالَ: كَانَ ابْنُ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ يُذَكِّرُنَا فِي كُلِّ خَمِيسٍ مَرَّةً. فَقَالَ لَهُ رَجُلٌ: يَا أَبَا عَبْدِ الرَّحْمَنِ ، لَوَدِدْتُ أَنَّكَ ذَكَّرْتَنَا كُلَّ يَوْمٍ ، فَقَالَ: أَمَا إِنَّهُ يَمْنَعُنِي مِنْ ذٰلِكَ أَنِّي أَكْرَهُ أَنْ أُمِلَّكُمْ ، وَإِنِّي أَتَخَوَّلُكُمْ بِالْمَوْعِظَةِ كَمَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يَتَخَوَّلُنَا بِهَا مَخَافَةَ السَّآمَةِ عَلَيْنَا. مُتَّفَقٌ عَلَيْهِ .

700. Əbu Vail Şəqiq bin Sələmə belə dedi:

İbn Məsud *radiyallahu anh* cümə axşamı günləri bizə vəz edərdi. Bir nəfər ona:

- Ey Əbu Əbdürrəhman, kaş bizə hər gün vəz verəydin,- dedi.

İbn Məsud ona belə dedi:

- Sizi bezdirməmək üçün hər gün vəz etmirəm. Necə ki, Rəsulullah *səllallahu əleyhi və səlləm* də bizi bezdirməmək üçün qulaq asmağa istəkli olduğumuz günləri seçərdi.

Buxari, Elm 11, 12, Dəavat 69; Müslim, Münafiqin 82, 83. Həmçinin bax. Tirmizi, Ədəb 72

٧٠١ ـ عَنْ أَبِي الْيَقْظَانِ عَمَّارِ بْنِ يَاسِرٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ طُولَ صَلاَةِ الرَّجُلِ ، وَقِصَرَ خُطْبَتِهِ مَئِنَّةٌ مِنْ فِقْهِهِ ، فَأَطِيلُوا الصَّلاَةَ وَأَقْصِرُوا الْخُطْبَةَ». رَوَاهُ مُسْلِمٌ .

701. Əbul-Yaqzan Ammar bin Yasir *radiyallahu anhumə* Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurarkən eşitdim,- dedi:

"Bir adamın namazı uzun qıldırıb xütbəni qısa kəsməsi dini yaxşı bildiyini göstərir. Ona görə də namazı uzun qıldırın, xütbəni qısa edin".

Müslim, Cümə 47

❁

٧٠٢ ـ عَنْ مُعَاوِيَةَ بْنِ الْحَكَمِ السُّلَمِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: «بَيْنَا أَنَا أُصَلِّي مَعَ رَسُولِ اللَّهِ ﷺ إِذْ عَطَسَ رَجُلٌ مِنَ الْقَوْمِ ، فَقُلْتُ: يَرْحَمُكَ اللَّهُ ، فَرَمَانِي الْقَوْمُ بِأَبْصَارِهِمْ ! فَقُلْتُ: وَاثُكْلَ أُمِّيَاهُ ، مَا شَأْنُكُمْ تَنْظُرُونَ إِلَيَّ ؟ فَجَعَلُوا يَضْرِبُونَ بِأَيْدِيهِمْ عَلَى أَفْخَاذِهِمْ ، فَلَمَّا رَأَيْتُهُمْ يُصَمِّتُونَنِي لَكِنِّي سَكَتُّ ، فَلَمَّا صَلَّى رَسُولُ اللَّهِ ﷺ ـ فَبِأَبِي هُوَ وَأُمِّي مَا رَأَيْتُ مُعَلِّمًا قَبْلَهُ وَلاَ بَعْدَهُ أَحْسَنَ تَعْلِيمًا مِنْهُ ، فَوَاللَّهِ مَا كَهَرَنِي وَلاَ ضَرَبَنِي وَلاَ شَتَمَنِي ـ قَالَ : «إِنَّ هَذِهِ الصَّلاَةَ لاَ يَصْلُحُ فِيهَا شَيْءٌ مِنْ كَلاَمِ النَّاسِ ، إِنَّمَا هِيَ التَّسْبِيحُ وَالتَّكْبِيرُ ، وَقِرَاءَةُ الْقُرْآنِ» ، أَوْ كَمَا قَالَ رَسُولُ اللَّهِ ﷺ . قُلْتُ: يَا رَسُولَ اللَّهِ ، إِنِّي حَدِيثُ عَهْدٍ بِجَاهِلِيَّةٍ ، وَقَدْ جَاءَ اللَّهُ بِالْإِسْلاَمِ ، وَإِنَّ مِنَّا رِجَالًا يَأْتُونَ الْكُهَّانَ. قَالَ: «فَلاَ تَأْتِهِمْ». قُلْتُ: وَمِنَّا رِجَالٌ يَتَطَيَّرُونَ. قَالَ: ذَاكَ شَيْءٌ يَجِدُونَهُ فِي صُدُورِهِمْ ، فَلاَ يَصُدَّنَّهُمْ». رَوَاهُ مُسْلِمٌ .

702. Müaviyə bin Hakəm əs-Süləmi *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* arxasında namaz qılarkən camaatdan biri asqırdı. Mən də tez "yərhəmukəllah" dedim. Camaat mənə tərs-tərs baxmağa başladı. Buzaman:

- Vay başıma gələnlər! Mənə niyə elə baxırsınız? -dedim. Əllərini dizlərinə vurmağa başladılar. Onların məni susdurmağa çalışdığını görüb hirsləndim, amma yenə də susdum.

Atam-anam Rəsuli-Əkrəmə fəda olsun. Nə əvvəl, nə də sonra ondan daha yaxşı müəllim görmədim. Vallahi, məni nə qınadı, nə döydü, nə də söydü. Namazı qıldırandan sonra mənə:

- **"Bu ibadətin adı namazdır. Namaz qılarkən dünya kəlamı danışmaq olmaz. Çünki namaz təsbih, təkbir və Quran oxumaqdan ibarətdir", -** dedi və ya buna bənzər söz söylədi. Mən də:

- Ya Rəsulallah, mən yeni müsəlman oldum. Allah-Təala İslamı göndərdikdən sonra hələ də kahinlərin yanına gedənlərimiz var,- dedim. Mənə:

- **"Sən kahinlərin yanına getmə!" -** buyurdu. Mən təkrar:

- Aramızda uğursuzluğa inanan adamlar var,- dedikdə isə:

- **"Bu, onların qəlblərində hiss etdikləri duyğudur. Bu duyğu onları işlərindən soyutmasın", -** buyurdu.

Müslim, Məsacid 33. Həmçinin bax. Əbu Davud, Salət 167

❁

٧٠٣ ـ عَنِ الْعِرْبَاضِ بْنِ سَارِيَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: وَعَظَنَا رَسُولُ اللَّهِ ﷺ مَوْعِظَةً وَجِلَتْ مِنْهَا الْقُلُوبُ ، وَذَرِفَتْ مِنْهَا الْعُيُونُ. وَذَكَرَ الْحَدِيثَ ، وَقَدْ سَبَقَ بِكَمَالِهِ فِي بَابِ الْأَمْرِ بِالْمُحَافَظَةِ عَلَى السُّنَّةِ . رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ.

703. İrbaz bin Sariyə *radiyallahu anh*:

"Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə çox təsirli bir öyüd verdi. Verdiyi öyüd səbəbi ilə qəlblər ürpərdi, gözlər yaşardı deyərək davamı və tam mətni "Sünnəni Qorumaq" bəhsində keçən hədisi rəvayət etdi.

Tirmizi, Elm 16; Əbu Davud, Sünnət 5. Həmçinin bax. İbn Macə, Müqəddimə 6

VÜQAR VƏ TƏMKİN

Ayə

وَعِبَادُ الرَّحْمَنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا .

"Rəhmanın (əsl) **bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə gəzər, cahillər onlara söz atdıqları zaman "salam" deyərlər".**

(əl-Furqan, 63)

Hədis

٧٠٤ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَا رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ مُسْتَجْمِعًا قَطُّ ضَاحِكًا حَتَّى تُرَى مِنْهُ لَهَوَاتُهُ ، إِنَّمَا كَانَ يَتَبَسَّمُ. مُتَّفَقٌ عَلَيْهِ .

704. Aişə radiyallahu anhə belə dedi:

Hz. Peyğəmbərin dilçəyi görünəcək dərəcədə qəhqəhə ilə güldüyünü görmədim. O, ancaq təbəssüm edərdi.

Buxari, Təfsiru surə (46) 2, Ədəb 68; Müslim, İstiska 16. Həmçinin bax. Əbu Davud, Ədəb 194

NAMAZA, ELM MƏCLİSİNƏ VƏ BU KİMİ İBADƏTLƏRƏ TƏMKİN VƏ VÜQARLA ÇAĞIRMAQ

Ayə

وَمَنْ يُعَظِّمْ شَعَائِرَ اللَّهِ فَإِنَّهَا مِنْ تَقْوَى الْقُلُوبِ.

"Hər kim Allahın hökmlərinə hörmət etsə, bu (hörmət)**, şübhəsiz ki, qəlblərin təqvasındadır".**

(əl-Həcc, 32)

Hədislər

٧٠٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِذَا أُقِيمَتِ الصَّلاَةُ فَلاَ تَأْتُوهَا وَأَنْتُمْ تَسْعَوْنَ وَائْتُوهَا وَأَنْتُمْ تَمْشُونَ ، وَعَلَيْكُمُ السَّكِينَةُ ، فَمَا أَدْرَكْتُمْ فَصَلُّوا ، وَمَا فَاتَكُمْ فَأَتِمُّوا». مُتَّفَقٌ عَلَيْهِ .

زَادَ مُسْلِمٌ فِي رِوَايَةٍ لَهُ : «فَإِنَّ أَحَدَكُمْ إِذَا كَانَ يَعْمِدُ إِلَى الصَّلاَةِ فَهُوَ فِي صَلاَةٍ».

705. Əbu Hüreyrə radiyallahu anh Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim,- dedi:

"İqamə oxunduğu zaman namaza qaçaraq deyil, təmkinlə yeriyərək gəlin. Çata bildiyiniz qədərini imamla qılın, qaçırdığınız rükətləri də özünüz tamamlayın".

Müslimin rəvayətində belə bir əlavə var:

"Hər hansı biriniz namaz qılmağa qərar verdikdə artıq namazda sayılır".

Buxari, Azan 20, 21, Cümə 18; Müslim, Məsacid 151-155. Həmçinin bax. Əbu davud, Salət 54; Tirmizi, Salət 127; Nəsai, İmamə 57; İbn Macə, Məsacid 14

❁

٧٠٦ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّهُ دَفَعَ مَعَ النَّبِيِّ ﷺ يَوْمَ عَرَفَةَ ، فَسَمِعَ النَّبِيُّ ﷺ وَرَاءَهُ زَجْرًا شَدِيدًا، وَضَرْبًا ، وَصَوْتًا لِلْإِبِلِ ، فَأَشَارَ بِصَوْتِهِ إِلَيْهِمْ ، وَقَالَ: «أَيُّهَا النَّاسُ ، عَلَيْكُمْ بِالسَّكِينَةِ ، فَإِنَّ الْبِرَّ لَيْسَ بِالْإِيضَاعِ» . رَوَاهُ الْبُخَارِيُّ وَمُسْلِمٌ.

706. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə o, Ərəfə günü Peyğəmbər *səllallahu əleyhi və səlləm* ilə birlikdə (Ərəfatdan Müzdəlifəyə) qayıdırdı. Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* arxada bəzi insanların çığır-bağır saldığını, dəvəsini döydüyünü və dəvələrin böyürtüsünü eşitdikdə qamçısı ilə onlara işarə edərək belə buyurdu:

“Ey insanlar, yavaş olun. Tələsərək savab qazanılmır”.

Buxari, Həcc 94; Müslim, Həcc 268. Həmçinin bax. Əbu Davud, Mənsaik 63; Nəsai, Mənasik 203

QONAĞA İKRAM ETMƏK

Ayələr

هَلْ أَتَاكَ حَدِيثُ ضَيْفِ إِبْرَاهِيمَ الْمُكْرَمِينَ إِذْ دَخَلُوا عَلَيْهِ فَقَالُوا سَلاَمًا قَالَ سَلاَمٌ قَوْمٌ مُنْكَرُونَ فَرَاغَ إِلَى أَهْلِهِ فَجَاءَ بِعِجْلٍ سَمِينٍ فَقَرَّبَهُ إِلَيْهِمْ قَالَ أَلاَ تَأْكُلُونَ .

1. “(Ya Rəsulum!) **İbrahimin möhtərəm qonaqlarının** (mələklərin) **söhbəti sənə gəlib çatdımı?Onlar** (İbrahimin) **yanına gəlib salam verdikdə** (İbrahim) **salamı alıb** (öz-özünə): **“Bunlar tanımadığım kimsələrdir!” - dedi.O** (bir bəhanə ilə) **ailəsinin yanına getdi və bir buzov** (kəsib qızardaraq) **gətirdi.Onu qabaqlarına** (qonaqların qabağına) **qoyub: “Bəlkə, yeyəsiniz!” – dedi”**.

(əz-Zariyat, 24-27)

وَجَاءَهُ قَوْمُهُ يُهْرَعُونَ إِلَيْهِ وَمِنْ قَبْلُ كَانُوا يَعْمَلُونَ السَّيِّئَاتِ قَالَ يَا قَوْمِ هَؤُلاَءِ بَنَاتِي هُنَّ أَطْهَرُ لَكُمْ فَاتَّقُوا اللَّهَ وَلاَ تُخْزُونِ فِي ضَيْفِي أَلَيْسَ مِنْكُمْ رَجُلٌ رَشِيدٌ .

2. “Tayfası tələsik (Lutun) **yanına gəldi. Onlar əvvəl də pis işlər görürdülər.** (Lut onlara) **dedi: “Ey qövmüm! Bunlar** (balalarım və ya ümmətimin qadınları) **mənim qızlarımdır** (onlarla evlənin). **Onlar (nikah baxımından) sizin üçün daha təmizdirlər. Allahdan qorxun və məni qonaqların yanında rüsvay etməyin. Məgər aranızda ağlı başında bir adam yoxdur?”**

(Hud, 78)

Hədislər

٧٠٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَصِلْ رَحِمَهُ ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَصْمُتْ». مُتَّفَقٌ عَلَيْهِ .

707.Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allaha və axirət gününə iman edən kəs qonağına ikram etsin. Allaha və axirət gününə iman edən kəs qohumlarına yaxşılıq etsin. Allaha və axirət gününə iman edən kəs ya faydalı söz söyləsin, yaxud da sussun!"

Buxari, Ədəb 31, 85, Riqaq 23; Müslim, İman 74, 75, 77. Həmçinin bax. Əbu davud, Ədəb 123; Tirmizi, Qiyamət 50; İbn Macə, Ədəb 4

❁

٧٠٨ ـ عَنْ أَبِي شُرَيْحٍ خُوَيْلِدِ بْنِ عَمْرٍو الْخُزَاعِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ جَائِزَتَهُ». قَالُوا: وَمَا جَائِزَتُهُ يَا رَسُولَ اللَّهِ ؟ قَالَ: «يَوْمُهُ وَلَيْلَتُهُ ، وَالضِّيَافَةُ ثَلاَثَةُ أَيَّامٍ ، فَمَا كَانَ وَرَاءَ ذَلِكَ فَهُوَ صَدَقَةٌ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: «لاَ يَحِلُّ لِمُسْلِمٍ أَنْ يُقِيمَ عِنْدَ أَخِيهِ حَتَّى يُؤَثِّمَهُ». قَالُوا: يَا رَسُولَ اللَّهِ ، كَيْفَ يُؤَثِّمُهُ؟ قَالَ: «يُقِيمُ عِنْدَهُ وَلاَ شَيْءَ لَهُ يُقْرِيهِ بِهِ».

708. Əbu Şüreyh Xuveylid bin Amr əl-Hüzai *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini dedi:

- **"Allaha və axirət gününə iman edən kəs qonağına caizəsini versin".**

Əshabi-kiram soruşdu:

- Ya Rəsulallah, qonağın caizəsi nədir?

Peyğəmbər *səllallahu əleyhi və səlləm*:

- **"Onu bir gün və gecə qonaq saxlamaqdır. Qonaq üç gündür. Qonağı üç gündən artıq saxlamaq isə sədəqədir".**

Buxari, Ədəb 31, 85, Riqaq 23; Müslim, Luqata 14. Həmçinin bax. Əbu Davud, ətimə 5; Tirmizi, Birr 43; İbn Macə, Ədəb 5

Müslimin başqa bir rəvayətinə görə belə buyurdu:

- **"Bir müsəlmanın din qardaşını günaha soxacaq qədər qalması halal deyil".**

Əshabi-kiram soruşdu:

- Ya Rəsulallah, insan din qardaşını günaha necə soxar?

- **"Qonağına verməyə heç nə tapmayan adamın yanında oturub qalmaqla"**, - buyurdu.

Müslim, Luqata 15, 16

XEYİRLİ İŞLƏRƏ GÖRƏ MÜJDƏLƏMƏK VƏ TƏBRİK ETMƏK

Ayələr

فَبَشِّرْ عِبَادِ الَّذِينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ

1. "Allaha tərəf qayıdanları müjdə gözləyir. (Ya Peyğəmbər!) **Bəndələrimə** (Cənnətlə) **müjdə ver! ".**

(əz-Zumər, 17)

يُبَشِّرُهُمْ رَبُّهُمْ بِرَحْمَةٍ مِنْهُ وَرِضْوَانٍ وَجَنَّاتٍ لَهُمْ فِيهَا نَعِيمٌ مُقِيمٌ.

2. "Rəbbi onları Özündən bir mərhəmət (bağışlanma)**, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələr".**

(ət-Tövbə, 21)

وَأَبْشِرُوا بِالْجَنَّةِ الَّتِي كُنْتُمْ تُوعَدُونَ

3. "Sizə vəd olunan Cənnətlə sevinin!" (əl-Fussilət, 30)

فَبَشَّرْنَاهُ بِغُلَامٍ حَلِيمٍ.

4. "Biz də ona həlim xasiyyətli bir oğlan uşağı ilə müjdə verdik".

(əs-Saffət, 101)

وَلَقَدْ جَائَتْ رُسُلُنَا إِبْرَاهِيمَ بِالْبُشْرَى.

5. "Həqiqətən, elçilərimiz (mələklər) **İbrahimə müjdə gətirdilər".**

(Hud, 69)

وَامْرَأَتُهُ قَائِمَةٌ فَضَحِكَتْ فَبَشَّرْنَاهَا بِإِسْحَاقَ وَمِنْ وَرَاءِ إِسْحَاقَ يَعْقُوبَ.

6. "(İbrahimin) **arvadı** (pərdə arxasında) **durmuşdu. O** (bu sözləri eşidib) **güldü. Bundan sonra Biz onu İshaqla, İshaqın da ardınca Yaqubla müjdələdik".**

(Hud, 71)

فَنَادَتْهُ الْمَلَائِكَةُ وَهُوَ قَائِمٌ يُصَلِّي فِي الْمِحْرَابِ أَنَّ اللَّهَ يُبَشِّرُكَ بِيَحْيَى.

7. "(Zəkəriyya) **mehrabda ayaq üstə durub namaz qılarkən mələklər ona müraciət edib dedilər: "Allah sənə Özü tərəfindən gələn kəlməni** (İsanı) **təsdiq edən,** (hörmət sahibi) **rəhbər, nəfsinə hakim və əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın** (dünyaya gələcəyi) **xəbərini müjdə verir".**

(Ali-İmran, 39)

إِذْ قَالَتِ الْمَلَائِكَةُ يَا مَرْيَمُ إِنَّ اللَّهَ يُبَشِّرُكِ بِكَلِمَةٍ مِنْهُ اسْمُهُ الْمَسِيحُ

8. "Mələklər dedilər: "Ya Məryəm! Həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir. Onun adı Məryəm oğlu İsa əl-Məsihdir".

(Ali-İmran, 45)

Hədislər

٧٠٩ ـ عَنْ أَبِي إِبْرَاهِيمَ ـ وَيُقَالُ أَبُو مُحَمَّدٍ ، وَيُقَالُ أَبُو مُعَاوِيَةَ ـ عَبْدِ اللَّهِ بْنِ أَبِي أَوْفَى رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَشَّرَ خَدِيجَةَ رَضِيَ اللَّهُ عَنْهَا «بِبَيْتٍ فِي الْجَنَّةِ مِنْ قَصَبٍ ، لاَ صَخَبَ فِيهِ وَلاَ نَصَبَ». مُتَّفَقٌ عَلَيْهِ .

709. Əbu İbrahim və ya Əbu Muhammməd, yaxud Əbu Abdullah bin Əbu Əvfa *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Xədicə radiyallahu anhəni cənnətdə heç bir gurultunun olmadığı və heç bir yorğunluğun hiss edilməyəcəyi, incidən tikilmiş bir köşklə müjdələdi.

Buxari, Ümrə 11, Mənaqibul-ənsar 20, Nikah 108, Ədəb 23, Tövhid 32, 35; Müslim, Fəzailus-səhabə, 71-74. Həmçinin bax. Tirmizi, Mənaqib 61; İbn Macə, Nikah 56

❁

٧١٠ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ تَوَضَّأَ فِي بَيْتِهِ ، ثُمَّ خَرَجَ فَقَالَ: لَأَلْزَمَنَّ رَسُولَ اللَّهِ ﷺ وَلَأَكُونَنَّ مَعَهُ يَوْمِي هَذَا ، فَجَاءَ الْمَسْجِدَ ، فَسَأَلَ عَنِ النَّبِيِّ ﷺ ، فَقَالُوا: وَجَّهَ هٰهُنَا ، (قَالَ): فَخَرَجْتُ عَلَى أَثَرِهِ أَسْأَلُ عَنْهُ ، حَتَّى دَخَلَ بِئْرَ أَرِيسٍ ، فَجَلَسْتُ عِنْدَ الْبَابِ حَتَّى قَضَى رَسُولُ اللَّهِ ﷺ حَاجَتَهُ وَتَوَضَّأَ ، فَقُمْتُ إِلَيْهِ ، فَإِذَا هُوَ قَدْ جَلَسَ عَلَى بِئْرِ أَرِيسٍ ، وَتَوَسَّطَ قُفَّهَا، وَكَشَفَ عَنْ سَاقَيْهِ وَدَلَّاهُمَا فِي الْبِئْرِ، فَسَلَّمْتُ عَلَيْهِ ، ثُمَّ انْصَرَفْتُ فَجَلَسْتُ عِنْدَ الْبَابِ ، فَقُلْتُ: لَأَكُونَنَّ بَوَّابَ رَسُولِ اللَّهِ ﷺ الْيَوْمَ ، فَجَاءَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ فَدَفَعَ الْبَابَ ، فَقُلْتُ: مَنْ هَذَا ؟ فَقَالَ: أَبُو بَكْرٍ ، فَقُلْتُ: عَلَى رِسْلِكَ ! ثُمَّ ذَهَبْتُ فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، هَذَا أَبُو بَكْرٍ يَسْتَأْذِنُ ، فَقَالَ: «ائْذَنْ لَهُ وَبَشِّرْهُ بِالْجَنَّةِ». فَأَقْبَلْتُ حَتَّى قُلْتُ لِأَبِي بَكْرٍ: ادْخُلْ ، رَسُولُ اللَّهِ يُبَشِّرُكَ بِالْجَنَّةِ. فَدَخَلَ أَبُو بَكْرٍ حَتَّى جَلَسَ عَنْ يَمِينِ النَّبِيِّ ﷺ مَعَهُ فِي الْقُفِّ ، وَدَلَّى رِجْلَيْهِ فِي الْبِئْرِ كَمَا صَنَعَ رَسُولُ اللَّهِ ﷺ ، وَكَشَفَ عَنْ سَاقَيْهِ. ثُمَّ رَجَعْتُ وَجَلَسْتُ وَقَدْ تَرَكْتُ أَخِي يَتَوَضَّأُ وَيَلْحَقُنِي ، فَقُلْتُ: إِنْ يُرِدِ اللَّهُ بِفُلَانٍ ـ يُرِيدُ أَخَاهُ ـ خَيْرًا يَأْتِ بِهِ. فَإِذَا إِنْسَانٌ يُحَرِّكُ الْبَابَ ، فَقُلْتُ: مَنْ هَذَا ؟ فَقَالَ: عُمَرُ بْنُ الْخَطَّابِ. فَقُلْتُ: عَلَى رِسْلِكَ ! ثُمَّ جِئْتُ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَسَلَّمْتُ عَلَيْهِ وَقُلْتُ: هَذَا عُمَرُ يَسْتَأْذِنُ. فَقَالَ: «ائْذَنْ لَهُ وَبَشِّرْهُ بِالْجَنَّةِ». فَجِئْتُ عُمَرَ فَقُلْتُ: أَذِنَ ، وَيُبَشِّرُكَ رَسُولُ اللَّهِ ﷺ بِالْجَنَّةِ. فَدَخَلَ فَجَلَسَ مَعَ رَسُولِ اللَّهِ ﷺ فِي الْقُفِّ عَنْ يَسَارِهِ ، وَدَلَّى رِجْلَيْهِ فِي الْبِئْرِ. ثُمَّ رَجَعْتُ فَجَلَسْتُ فَقُلْتُ: إِنْ يُرِدِ اللَّهُ بِفُلَانٍ خَيْرًا ـ يَعْنِي أَخَاهُ ـ يَأْتِ

بِهِ ، فَجَاءَ إِنْسَانٌ فَحَرَّكَ الْبَابَ ، فَقُلْتُ: مَنْ هَذَا ؟ فَقَالَ: عُثْمَانُ بْنُ عَفَّانَ. فَقُلْتُ: عَلَى رِسْلِكَ ! وَجِئْتُ النَّبِيَّ ﷺ فَأَخْبَرْتُهُ. فَقَالَ: «ائْذَنْ لَهُ وَبَشِّرْهُ بِالْجَنَّةِ مَعَ بَلْوَى تُصِيبُهُ». فَجِئْتُ فَقُلْتُ: ادْخُلْ ، وَيُبَشِّرُكَ رَسُولُ اللَّهِ ﷺ بِالْجَنَّةِ مَعَ بَلْوَى تُصِيبُكَ ! فَدَخَلَ فَوَجَدَ الْقُفَّ قَدْ مُلِيءَ ، فَجَلَسَ وِجَاهَهُمْ مِنْ الشِّقِّ الْآخَرِ. قَالَ سَعِيدُ بْنُ الْمُسَيِّبِ: فَأَوَّلْتُهَا قُبُورَهُمْ ! مُتَّفَقٌ عَلَيْهِ .

وَزَادَ فِي رِوَايَةٍ: وَأَمَرَنِي رَسُولُ اللَّهِ ﷺ بِحِفْظِ الْبَابِ. وَفِيهَا: أَنَّ عُثْمَانَ حِينَ بَشَّرَهُ حَمِدَ اللَّهَ تَعَالَى ، ثُمَّ قَالَ: اللَّهُ الْمُسْتَعَانُ.

710. Əbu Musa əl-Əşarinin nəql etdiyinə görə bir gün dəstəmaz alıb evindən çıxarkən öz-özünə: "bu gün Rəsulullah *səllallahu əleyhi və səlləmdən* ayrılmayacağam, ancaq onun yanında olacağam", - dedi. Sonra məscidə gedib səhabələrdən Peyğəmbər *səllallahu əleyhi və səlləmin* harada olduğunu soruşdu. Onlar da:

- Bu tərəfə getdi,- dedilər.

Əbu Musa baş verənləri belə danışdı:

Rəsuli-Əkrəmin getdiyi yeri soruşa-soruşa nəhayət Əris quyusunun yerləşdiyi bağçada olduğunu öyrəndim. Mən də bağça qapısının yanında oturdum. Peyğəmbər *səllallahu əleyhi və səlləm* ayaqyolu ehtiyacından sonra dəstəmaz aldı. Mən də qalxıb yanına getdim. Gördüm ki, Əris quyusunun kənarındakı daşların üstündə oturub, baldırlarını açaraq ayaqlarını quyuya sallayıb. Ona salam verəndən sonra geri qayıdıb qapının yanında oturdum. Öz-özümə: "bu gün Rəsulullah *səllallahu əleyhi və səlləmin* qapıçısı olacağam", - dedim. Bu zamanƏbu Bəkr radiyallahu anh gəlib qapını döydü.

- Kimdir? - soruşdum.

- Əbu Bəkr,- dedi.

- Bir az gözlə,- dedim, Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına getdim və: Ya Rəsulallah, Əbu Bəkr gəlib, hüzura girmək üçün izin istəyir,- dedim.

- **"İzin ver və onu cənnətlə müjdələ"**, - buyurdu.

Geri qayıdıb Əbu Bəkrə:

- İçəri gir, Rəsulullah səni cənnətlə müjdələyir,- dedim.

Əbu Bəkr içəri girdi. Peyğəmbər *səllallahu əleyhi və səlləmin* sağ tərəfinə keçib onun yanında, quyunun ağzındakı daşın üstündə oturdu və eynilə Rəsulullah kimi baldırlarını açaraq ayaqlarını suya salladı.

Mən də geri qayıdıb yerimdə oturdum. Mən evdən çıxarkən dəstəmaz alan qardaşım arxamdan çatacaqdı. Onu fikirləşərək öz-özümə: "Əgər Allah-Təala filankəs üçün xeyir diləyərsə, onu bura gətirər", - dedim. Bu zaman kiminsə qapını itələdiyini görüb soruşdum:

- Kimdir?

- Ömər bin Xəttab,- dedi.

- Bir az gözlə,- dedim, sonra Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gedərək salam verdim və: Ömər gəlib, hüzura girmək üçün izin istəyir,- dedim.

- **"İzin ver və onu cənnətlə müjdələ"**, - buyurdu.

Ömərin yanına gedərək:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* içəri girmən üçün izin verdi və səni cənnətlə müjdələyir,- dedim.

Ömər içəri girdi, Rəsulullah *səllallahu əleyhi və səlləmin* sol tərəfinə keçərək quyunun ağzındakı daşın üstündə oturdu və ayaqlarını quyuya salladı.

Mən də qayıdıb qapının yanında oturdum. Qardaşımı fikirləşərək özözümə "Əgər Allah filankəs üçün xeyir diləyərsə, onu bura gətirər", - dedim. Bu zaman bir nəfər gəlib qapını itələdi.

- Kimdir? - deyə soruşdum.

- Osman bin Affan,- dedi.

- Bir az gözlə, deyərək Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına getdim və onun gəldiyini xəbər verdim.

- **"İzin ver, başına bəla gələcəyini bildir və onu cənnətlə müjdələ"**, - buyurdu.

Geri qayıtdım və:

- İçəri gir, Rəsulullah *səllallahu əleyhi və səlləm* başına gələcək olanla birlikdə səni cənnətlə müjdələyir,- dedim.

Osman içəri girdi. Quyunun başında oturmağa yer qalmadığı üçün onların qarşısında başqa bir yerdə oturdu.

Səid bin Müseyyəb dedi ki: Mən bu oturuş şəklini onların qəbirlərinə yozdum.

Buxari, Fəzailus-səhabə 5, Ədəb 119, Fitən 17, Əxbərul-əhəd 3; Müslim, Fəzailus-səhabə 29. Həmçinin bax. Tirmizi, Mənaqib 18

Buxarinin bir rəvayətində bu əlavə var:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə qapını qorumağı əmr etdi.

Həmin rəvayətdə bu əlavə də var:

Osman müjdəni eşidəndə həmd etdi, sonra da Allah yardımçım olsun,- dedi.

Buxari, Fəzailus-səhabə 6

❁

٧١١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنَّا قُعُودًا حَوْلَ رَسُولِ اللَّهِ ﷺ وَمَعَنَا أَبُو بَكْرٍ وَعُمَرُ رَضِيَ اللَّهُ عَنْهُمَا فِي نَفَرٍ ، فَقَامَ رَسُولُ اللَّهِ ﷺ مِنْ بَيْنِ أَظْهُرِنَا ، فَأَبْطَأَ عَلَيْنَا وَخَشِينَا أَنْ يُقْتَطَعَ دُونَنَا وَفَزِعْنَا فَقُمْنَا ، فَكُنْتُ أَوَّلَ مَنْ فَزِعَ، فَخَرَجْتُ أَبْتَغِي رَسُولَ اللَّهِ ﷺ حَتَّى أَتَيْتُ حَائِطًا لِلْأَنْصَارِ لِبَنِي النَّجَّارِ ، فَدُرْتُ بِهِ: هَلْ أَجِدُ لَهُ بَابًا ؟ فَلَمْ أَجِدْ ! فَإِذَا رَبِيعٌ يَدْخُلُ فِي جَوْفِ حَائِطٍ مِنْ بِئْرٍ خَارِجَهُ ـ وَالرَّبِيعُ: الْجَدْوَلُ الصَّغِيرُ ـ فَاحْتَفَزْتُ فَدَخَلْتُ عَلَى رَسُولِ اللَّهِ ﷺ ، فَقَالَ «أَبُو هُرَيْرَةَ ؟» فَقُلْتُ: نَعَمْ يَا رَسُولَ اللَّهِ. قَالَ: «مَا شَأْنُكَ ؟» قُلْتُ: كُنْتَ بَيْنَ أَظْهُرِنَا فَقُمْتَ فَأَبْطَأْتَ عَلَيْنَا ، فَخَشِينَا أَنْ تُقْتَطَعَ دُونَنَا فَفَزِعْنَا ، فَكُنْتُ أَوَّلَ مَنْ فَزِعَ ، فَأَتَيْتُ هَذَا الْحَائِطَ ، فَاحْتَفَزْتُ كَمَا يَحْتَفِزُ الثَّعْلَبُ ، وَهَؤُلاَءِ النَّاسُ مِنْ وَرَائِي. قَالَ: «يَا أَبَا هُرَيْرَةَ» ـ وَأَعْطَانِي نَعْلَيْهِ ، فَقَالَ: «اذْهَبْ بِنَعْلَيَّ هَاتَيْنِ ، فَمَنْ لَقِيتَ مِنْ وَرَاءِ هَذَا الْحَائِطِ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ مُسْتَيْقِنًا بِهَا قَلْبُهُ فَبَشِّرْهُ بِالْجَنَّةِ». رَوَاهُ مُسْلِمٌ .

711. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* ətrafında Əbu Bəkr və Ömər *radiyallahu anhumənin* də olduğu bir qrup adamla oturmuşduq. Birdən Rəsulullah *səllallahu əleyhi və səlləm* ayağa qalxıb getdi. Xeyli vaxt keçdiyi halda qayıtmadığını görüb qorxduq. Tələşlə yerimizdən qalxdıq. Bu tələşı ilk dəfə mən hiss etdim. Rəsulullah *səllallahu əleyhi və səlləmi* axtara-axtara Nəccar oğullarına aid bir bağçaya gəldim. Giriş qapısını axtarmaq üçün bağçanın ətrafını dolaşdım, lakin tapmadım. Bağçanın çölündəki bir quyudan içəri su verən kiçik bir arx gördüm. Oradan əyilib Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına girdim.

- "Əbu Hüreyrə, sənsən?" - deyə soruşdu.

- Bəli, ya Rəsulallah! - dedim.

- **"Nə xəbərdir?"** - dedi.

- Bizimlə oturduğun halda qalxıb getdin. Geri qayıtmadığını görüb sənə bir pislik ediləcəyindən qorxduq. Bu tələşı ilk keçirən də mən oldum. Yerimdən qalxıb bu bağçaya gəldim və tülkü kimi ikiqat olub içəri girdim. Digərləri də ardımca gəlir,- dedim.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm*:

- **"Əbu Hüreyrə!"** - deyə səsləndikdən sonra ayaqqabılarını çıxardıb mənə verdi və belə dedi: **"Ayaqqabılarımı götür, geri qayıt. Bu divarın arxasında könüldən inanaraq "lə ilə illəllah"** deyən kimə rast gəlsən, onu cənnətlə müjdələ!"

Müslim, İman 52

❁

٧١٢ ـ عَنِ ابْنِ شُمَاسَةَ قَالَ : حَضَرْنَا عَمْرَو بْنَ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُ ـ وَهُوَ فِي سِيَاقَةِ الْمَوْتِ ، فَبَكَى طَوِيلاً ، وَحَوَّلَ وَجْهَهُ إِلَى الْجِدَارِ ، فَجَعَلَ ابْنُهُ يَقُولُ: يَا أَبَتَاهُ ، أَمَا بَشَّرَكَ رَسُولُ اللَّهِ ﷺ بِكَذَا ؟ أَمَا بَشَّرَكَ رَسُولُ اللَّهِ ﷺ بِكَذَا ؟ فَأَقْبَلَ بِوَجْهِهِ فَقَالَ: إِنَّ أَفْضَلَ مَا نُعِدُّ شَهَادَةُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ. إِنِّي قَدْ كُنْتُ عَلَى ثَلاَثَةِ أَطْبَاقٍ: لَقَدْ رَأَيْتُنِي وَمَا أَحَدٌ أَشَدَّ بُغْضًا لِرَسُولِ اللَّهِ ﷺ مِنِّي ، وَلاَ أَحَبَّ إِلَيَّ مِنْ أَنْ أَكُونَ قَدِ اسْتَمْكَنْتُ مِنْهُ فَقَتَلْتُهُ ، فَلَوْ مِتُّ عَلَى تِلْكَ

الْحَالِ لَكُنْتُ مِنْ أَهْلِ النَّارِ ، فَلَمَّا جَعَلَ اللَّهُ الْإِسْلاَمَ فِي قَلْبِي أَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: ابْسُطْ يَمِينَكَ فَلْأُبَايِعْكَ ، فَبَسَطَ يَمِينَهُ ، فَقَبَضْتُ يَدِي ، فَقَالَ: «مَالَكَ يَا عَمْرُو ؟» قُلْتُ: أَرَدْتُ أَنْ أَشْتَرِطَ. قَالَ: «تَشْتَرِطُ مَاذَا ؟» قُلْتُ: أَنْ يُغْفَرَ لِي ، قَالَ: «أَمَا عَلِمْتَ أَنَّ الْإِسْلاَمَ يَهْدِمُ مَا كَانَ قَبْلَهُ ، وَأَنَّ الْهِجْرَةَ تَهْدِمُ مَا كَانَ قَبْلَهَا، وَأَنَّ الْحَجَّ يَهْدِمُ مَا كَانَ قَبْلَهُ ؟» وَمَا كَانَ أَحَدٌ أَحَبَّ إِلَيَّ مِنْ رَسُولِ اللَّهِ ﷺ وَلاَ أَجَلَّ فِي عَيْنِي مِنْهُ ، وَمَا كُنْتُ أُطِيقُ أَنْ أَمْلأَ عَيْنِي مِنْهُ إِجْلاَلاً لَهُ ؛ وَلَوْ سُئِلْتُ أَنْ أَصِفَهُ مَا أَطَقْتُ ، لِأَنِّي لَمْ أَكُنْ أَمْلأُ عَيْنِي مِنْهُ ، وَلَوْ مِتُّ عَلَى تِلْكَ الْحَالِ لَرَجَوْتُ أَنْ أَكُونَ مِنْ أَهْلِ الْجَنَّةِ . ثُمَّ وُلِّينَا أَشْيَاءَ مَا أَدْرِي مَا حَالِي فِيهَا ؟ فَإِذَا أَنَا مِتُّ فَلاَ تَصْحَبَنِّي نَائِحَةٌ وَلاَنَارٌ ، فَإِذَا دَفَنْتُمُونِي فَشُنُّوا عَلَيَّ التُّرَابَ شَنًّا ، ثُمَّ أَقِيمُوا حَوْلَ قَبْرِي قَدْرَ مَا تُنْحَرُ جَزُورٌ ، وَيُقْسَمُ لَحْمُهَا حَتَّى أَسْتَأْنِسَ بِكُمْ ، وَأَنْظُرَ مَا أُرَاجِعُ بِهِ رُسُلَ رَبِّي ! رَوَاهُ مُسْلِمٌ .

712. İbn Şümasə belə dedi:

Amr bin As ölüm döşəyində ikən yanına getdik. Üzünü divara çevirib uzun-uzadı ağladı. Bu zaman oğlu:

- Atacan, Rəsulullah *səllallahu əleyhi və səlləm* sənə bu müjdəni vermədimi? Rəsulullah *səllallahu əleyhi və səlləm* səni belə müjdələmədimi? - deməyə başladı.

Amr bin As üzünü bizə çevirərək belə dedi:

- Axirət üçün ən qiymətli tədarükümüz "Lə iləhə illəllah Muhammədun Rasulullah" sözüdür. Həyatımın üç mərhələsi var. Bir vaxtlar Rəsulullah *səllallahu əleyhi və səlləmə* məndən çox kin bəsləyən yox idi. Ən çox arzuladığım şey bir yolunu tapıb onu öldürmək idi. Əgər o halda ölsəydim, mütləq cəhənnəmlik olardım. Allah-Təala qəlbimə İslamın sevgisini yerləşdirdikdə Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələrək: Əlini uzat, sənə beyət edəcəyəm,- dedim. O əlini uzadanda mən əlimi geri çəkdim.

Bu zaman Rəsuli-Əkrəm:

- **"Nə oldu, Amr?"**- deyə soruşdu.

- Şərtim var,- dedim.

- **"Nə şərt kəsəcəksən?"** - buyurdu.

- Bağışlanmağımı,- dedim.

- **"Müsəlman olmağın əvvəlki günahları silib-süpürdüyünü, hicrət etməyin daha əvvəlki günahları yox etdiyini, həccin əvvəl işlənən günahları yox etdiyini bilmirsənmi?"** - buyurdu.

Artıq Rəsulullah *səllallahu əleyhi və səlləmdən* daha çox sevdiyim biri yox idi. Gözümdə heç kim ondan daha böyük deyildi. Ona qarşı duyduğum ehtiram səbəbi ilə gözlərimi qaldırıb doyunca üzünə baxa bilməzdim. Kimsə məndən onun haqqında danışmağımı istəsə, üzünə doya-doya baxa bilmədiyim üçün danışa bilməzdim. Əgər bu halda ölsəydim, cənnətlik olmağı ümid edərdim. Sonra elə işlərə qarışdıq ki, o işlər qarşısında halımın necə olduğunu bilmirəm.

Öləndən sonra arxamdan nə ağı deyilsin, nə də tonqal yandırılsın. Məni basdıranda üstümə torpağı yavaş-yavaş tökün. Sonra bir dəvə kəsib ətini bölüşdürəcək qədər zaman keçənə kimi qəbrimin yanından ayrılmayın. Ayrılmayın ki, qəbrimə alışım və Rəbbimin elçilərinə necə cavab verəcəyimi fikirləşim.

Müslim, İman 192

VİDALAŞMAQ

SƏFƏR VƏ BU KİMİ SƏBƏBLƏRLƏ AYRILIB GEDƏCƏK OLANIN YOLDAŞI İLƏ VİDALAŞMASI, ONA VƏSİYYƏT VƏ DUA ETMƏSİ, DUA İSTƏMƏSİ

Ayə

وَوَصّٰى بِهَا إِبْرٰاهِيمُ بَنِيهِ وَيَعْقُوبُ يَا بَنِيَّ إِنَّ اللَّهَ اصْطَفٰى لَكُمُ الدِّينَ فَلاَ تَمُوتُنَّ إِلاَّ وَأَنْتُمْ مُسْلِمُونَ أَمْ كُنْتُمْ شُهَدٰاءَ إِذْ حَضَرَ يَعْقُوبَ الْمَوْتُ إِذْ قَالَ لِبَنِيهِ مَا تَعْبُدُونَ مِنْ بَعْدِي قَالُوا نَعْبُدُ إِلٰهَكَ وَإِلٰهَ آبَائِكَ إِبْرٰاهِيمَ وإِسْمٰاعِيلَ وَإِسْحٰاقَ إِلٰهًا وَاحِدًا وَنَحْنُ لَهُ مُسْلِمُونَ.

1. "İbrahim və (sonra da) **Yaqub bunu** (müsəlman olmağı) **öz oğlanlarına vəsiyyət edib** (hər biri dedi) : **"Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün (belə bir) din** (islam dini) **seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz! "Yoxsa Yaqubun ölümü yetişdikdə siz onun yanında idiniz?! O: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" – deyə oğlanlarından soruşduğu zaman, onlar: "Sənin Allahına və ataların – İbrahimin, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olacağıq** (Ona ibadət edəcəyik)**!" - dedilər".**

(əl-Bəqərə, 132-133)

Hədislər

٧١٣ ـ عَنْ زَيْدِ بْنِ أَرْقَمَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَامَ رَسُولُ اللَّهِ ﷺ فِينَا خَطِيبًا ، فَحَمِدَ اللَّهَ وَأَثْنَى عَلَيْهِ وَوَعَظَ وَذَكَّرَ ، ثُمَّ قَالَ : «أَمَّا بَعْدُ ، أَلاَ أَيُّهَا النَّاسُ ، إِنَّمَا أَنَا بَشَرٌ يُوشِكُ أَنْ يَأْتِيَ رَسُولُ رَبِّي فَأُجِيبَ ، وَأَنَا تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ أَوَّلُهُمَا: كِتَابُ اللَّهِ فِيهِ الْهُدَى وَالنُّورُ. فَخُذُوا بِكِتَابِ اللَّهِ وَاسْتَمْسِكُوا بِهِ» ، فَحَثَّ عَلَى كِتَابِ اللَّهِ وَرَغَّبَ فِيهِ ، ثُمَّ قَالَ: «وَأَهْلُ بَيْتِي، أُذَكِّرُكُمُ اللَّهَ فِي أَهْلِ بَيْتِي». رَوَاهُ مُسْلِمٌ.

713. Zeyd bin Ərqam radiyallahu anh belə dedi:

Bir gün Rəsulullah *səllallahu əleyhi və səlləm* ayağa qalxıb bizə xütbə oxudu. Allaha həmd-səna etdikdən sonra bizə öyüd verdi. Sonra isə belə buyurdu:

- "Ey insanlar, mən də bir bəşərəm. Tezliklə Rəbbimin elçisi mənim də yanıma gələcək və mən onun dəvətinə qulaq asıb gedəcəyəm. Sizə iki mühüm əsas qoyuram. Biri, insanı doğru yola aparan rəhbər və nur olan Allahın Kitabı Qurandır. Allahın kitabından yapışın və ona sarılın!"

Peyğəmbər *səllallahu əleyhi və səlləm* Qurana sarılma və ona bağlanma xüsusunda tövsiyələr etdi. Sonra sözünə belə davam etdi:

"Bir də sizə Əhli-beyti miras qoyuram. Allahdan qorxun, Əhli-beytimə hörmət edin".

Müslim, Fəzailus-səhabı 36

٧١٤ ـ عَنْ أَبِي سُلَيْمَانَ مَالِكِ بْنِ الْحُوَيْرِثِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَيْنَا رَسُولَ اللَّهِ ﷺ وَنَحْنُ شَبَبَةٌ مُتَقَارِبُونَ ، فَأَقَمْنَا عِنْدَهُ عِشْرِينَ لَيْلَةً ، وَكَانَ رَسُولُ اللَّهِ ﷺ رَحِيمًا رَفِيقًا ، فَظَنَّ أَنَّا قَدِ اشْتَقْنَا أَهْلَنَا ، فَسَأَلَنَا عَمَّنْ تَرَكْنَا مِنْ أَهْلِنَا ، فَأَخْبَرْنَاهُ ، فَقَالَ: «ارْجِعُوا إِلَى أَهْلِيكُمْ فَأَقِيمُوا فِيهِمْ ، وَعَلِّمُوهُمْ ، وَمُرُوهُمْ ، وَصَلُّوا صَلاَةَ كَذَا فِي حِينِ كَذَا ، وَصَلُّوا كَذَا فِي حِينِ كَذَا ، فَإِذَا حَضَرَتِ الصَّلاَةُ فَلْيُؤَذِّنْ لَكُمْ أَحَدُكُمْ ، وَلْيَؤُمَّكُمْ أَكْبَرُكُمْ». مُتَّفَقٌ عَلَيْهِ .

زَادَ الْبُخَارِيُّ فِي رِوَايَةٍ لَهُ: « وَصَلُّوا كَمَا رَأَيْتُمُونِي أُصَلِّي. »

714. Əbu Süleyman Malik bin Huveyris *radiyallahu anh* belə dedi:

Həmyaşıd gənclər olaraq qrup halında Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəlmiş və iyirmi gün ərzində yanında qalmışdıq. Rəsulullah *səllallahu əleyhi və səlləm* çox mərhəmətli və şəfqətli bir adam idi. Bizim ailəmiz üçün darıxdığımızı hiss etdiyi zaman evdə ailəmizdən kimlərin qaldığını soruşdu. Biz də bu barədə ona məlumat verdik. O zaman belə buyurdu:

"Haydı, ailənizin yanına qayıdın və onların yanında qalaraq məlumatlandırın. Onlara bu namazı bu vaxtda, bu namazı bu vaxtda qılmalarını tapşırın. Namaz vaxtı girəndə sizdən biri azan oxusun, ən yaşlınız da imamlıq etsin".

Buxari, Azan 17, 18, 49, 140, Cihad 42, Ədəb 27, Ahad 1; Müslim, Məsacid 292. Həmçinin bax. Nəsai, Azan 8

Buxari bir rəvayətində bunu əlavə etmişdir:

"Məni necə namaz qılarkən görmüsünüzsə, siz də namazı elə qılın".

Buxari, Ahad 1

❁

٧١٥ ـ عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: اسْتَأْذَنْتُ النَّبِيَّ ﷺ فِي الْعُمْرَةِ ، فَأَذِنَ وَقَالَ: «لاَ تَنْسَنَا يَا أُخَيَّ مِنْ دُعَائِكَ .» فَقَالَ كَلِمَةً مَا يَسُرُّنِي أَنَّ لِي بِهَا الدُّنْيَا.

وَفِي رِوَايَةٍ قَالَ: «أَشْرِكْنَا يَا أُخَيَّ فِي دُعَائِكَ». رَوَاهُ التِّرْمِذِيُّ .

715. Ömər bin Xəttab *radiyallahu anhdan* belə dediyi rəvayət olunmuşdur:

Peyğəmbər *səllallahu əleyhi və səlləmdən* ümrə etmək üçün izin istədim. İzin verdi və:

"Əziz qardaşım, duanda bizi də unutma!" - buyurdu.

Hz. Peyğəmbərin bu sözü mənim üçün dünyaya bərabər oldu.

(Əbu Davud, Vitr 23)

Başqa bir rəvayətdə belə buyurdu:

"Əziz qardaşım, bizi də duana şərik et!" - buyurmuşdur.

Tirmizi, Dəavat 109. Həmçinin bax. Əbu Davud, Vitr 23; İbn Macə, Mənasik 5

❁

٧١٦ ـ عَنْ سَالِمِ بْنِ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ أَنَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا كَانَ يَقُولُ لِلرَّجُلِ إِذَا أَرَادَ سَفَرًا: أُدْنُ مِنِّي حَتَّى أُوَدِّعَكَ ، كَمَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يُوَدِّعُنَا فَيَقُولُ : «أَسْتَوْدِعُ اللَّهَ دِينَكَ ، وَأَمَانَتَكَ ، وَخَوَاتِيمَ عَمَلِكَ». رَوَاهُ التِّرْمِذِيُّ .

716. Salim bin Abdullah bin Ömərin dediyinə görə (atası) Abdullah bin Ömər *radiyallahu anhuma* səfərə çıxacaq olan adama belə deyərdi:

Yanıma gəl, Rəsulullah *səllallahu əleyhi və səlləmin* bizimlə vidalaşdığı kimi sənin də vidalaşım. Rəsuli-Əkrəm belə vidalaşardı:

"Dinini qoruyub əmanətləri yerinə yetirməyin və əməllərini xeyirlə nəticələndirməyin xüsusunda səni Allaha əmanət edirəm".

Tirmizi, Dəavat 43. Həmçinin bax. Bu Davud, Cihad 73; İbn Macə, Cihad 24

❁

٧١٧ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ يَزِيدَ الْخَطْمِيِّ الصَّحَابِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ

رَسُولُ اللَّهِ ﷺ إِذَا أَرَادَ أَنْ يُوَدِّعَ الْجَيْشَ يَقُولُ: «أَسْتَوْدِعُ اللَّهَ دِينَكُمْ وَأَمَانَتَكُمْ ، وَخَوَاتِيمَ أَعْمَالِكُمْ». رَوَاهُ أَبُو دَاوُدَ.

717. Səhabə Abdullah bin Yezid əl-Xatimi *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ordu ilə vidalaşmaq istədiyi zaman:

"Dininizi qoruyub əmanətlərinizi yerinə yetirməyiniz və əməllərinizi xeyirlə nəticələndirməyiniz xüsusunda sizi Allaha əmanət edirəm", - deyərdi.

Əbu Davud, Cihad 73

❁

٧١٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ ، إِنِّي أُرِيدُ سَفَرًا فَزَوِّدْنِي ، فَقَالَ: «زَوَّدَكَ اللَّهُ التَّقْوَى». قَالَ: زِدْنِي ، قَالَ: «وَغَفَرَ ذَنْبَكَ» ، قَالَ: زِدْنِي ، قَالَ: «وَيَسَّرَ لَكَ الْخَيْرَ حَيْثُمَا كُنْتَ». رَوَاهُ التِّرْمِذِيُّ .

718. Ənəs *radiyallahu anh* belə dedi:

Bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləmin* yanına gələrək:

- Ya Rəsulallah, səfərə çıxıram, mənə dua et,- dedi. Rəsuli-Əkrəm:

- **"Allah sənə təqva nəsib etsin"**, - buyurdu. Həmin adam təkrar:

- Mənə dua et,- dedikdə

- **"Allah günahını bağışlasın"**, - buyurdu. O yenə:

- Mənə dua et,- dedikdə isə:

- **"Olduğun hər yerdə xeyir işləməyini asanlaşdırsın!"** - buyurdu.

Tirmizi, Dəavat 44

İSTİXARƏ VƏ MƏŞVƏRƏT

Ayələr

وَشَاوِرْهُمْ فِي الْأَمْرِ.

1. "İşdə onlarla məsləhətləş".

(Ali-İmran, 159)

وَأَمْرُهُمْ شُورَى بَيْنَهُمْ.

2. "Onlar işlərini öz aralarında məsləhət-məşvərətlə görərlər".

(əş-Şura, 38)

Hədis

٧١٩ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يُعَلِّمُنَا الْإِسْتِخَارَةَ فِي الْأُمُورِ كُلِّهَا كَالسُّورَةِ مِنَ الْقُرْآنِ ، يَقُولُ: «إِذَا هَمَّ أَحَدُكُمْ بِالْأَمْرِ فَلْيَرْكَعْ رَكْعَتَيْنِ مِنْ غَيْرِ الْفَرِيضَةِ ، ثُمَّ لْيَقُلِ: اللَّهُمَّ إِنِّي أَسْتَخِيرُكَ بِعِلْمِكَ ، وَأَسْتَقْدِرُكَ بِقُدْرَتِكَ ، وَأَسْأَلُكَ مِنْ فَضْلِكَ الْعَظِيمِ ، فَإِنَّكَ تَقْدِرُ وَلاَ أَقْدِرُ ، وَتَعْلَمُ وَلاَ أَعْلَمُ ، وَأَنْتَ عَلاَّمُ الْغُيُوبِ. اللَّهُمَّ إِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الْأَمْرَ خَيْرٌ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةِ أَمْرِي ـ أَوْ قَالَ: عَاجِلِ أَمْرِي وَآجِلِهِ ـ فَاقْدُرْهُ لِي وَيَسِّرْهُ لِي ، ثُمَّ بَارِكْ لِي فِيهِ . وَإِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الْأَمْرَ شَرٌّ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةِ أَمْرِي ـ أَوْ قَالَ: عَاجِلِ أَمْرِي وَآجِلِهِ ـ فَاصْرِفْهُ عَنِّي وَاصْرِفْنِي عَنْهُ ، وَاقْدُرْ لِيَ الْخَيْرَ حَيْثُ كَانَ ، ثُمَّ رَضِّنِي بِهِ». قَالَ: وَيُسَمِّي حَاجَتَهُ. رَوَاهُ الْبُخَارِيُّ .

719. Cabir *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* eynilə Qurandan surə öyrətdiyi kimi bizə hər işdə istixarə etməyi öyrədərdi. Belə buyurardı:

"Hər hansı biriniz bir iş görmək istədikdə fərz namazlardan əlavə iki rükət namaz qılsın, sonra da belə desin:

Allahım, Sən hər şeyi bildiyin üçün haqqımda xeyirli olanı mənə də bildirməyini, Sənin gücün hər şeyə çatdığı üçün məni müvəffəq etməyini və xeyirli olanı nəsib etməyini böyük kərəmindən istəyirəm. Çünki Sənin gücün hər şeyə çatar, mənim gücüm çatmaz. Sən hər şeyi bilirsən, mən bilmirəm. Şübhəsiz ki, Sən görülməyəni və bilinməyəni də bilirsən.

Allahım, Əgər bu işin mənim dünyam və axirətim üçün xeyirli olduğunu bilirsənsə (ravi sözün başında Hz. Peyğəmbərin hansı ifadəni işlətdiyində tərəddüd etdi. Onun belə demiş olacağını ehtimal etdi: "indi və ya daha sonrası üçün xeyirli olduğunu bilirsənsə") **onu görməyi nəsib et, asanlıq ver və onu mənim üçün mübarək qıl. Əgər bu işin mənim dinim, dünyam və axirətim üçün pis olduğunu bilirsənsə** (yenə ravi sözün burasında Hz. Peyğəmbərin hansı ifadəni işlətdiyində tərəddüd etdi. Onun belə deyə biləcəyini söylədi: "indi və daha sonrası üçün pis olduğunu bilirsənsə") **onu məndən, məni ondan uzaqlaşdır. Xeyir hardadırsa, mənə onu nəsib et, sonra da qəlbimi bu nəticəyə ram et!"** deyər və istəyəcəyi şeyi dilə gətirərdi.

Buxari, Dəavat 48, Tövhid 10. Həmçinin bax. Tirmizi, Vitr 18; İbn Macə, İqamə 188

BƏZİ İBADƏTLƏRİ ETMƏK ÜÇÜN MÜXTƏLİF YOLLARDAN İSTİFADƏ EDƏRƏK GEDİB-GƏLMƏK

BAYRAM ANAMAZINA, XƏSTƏ ZİYARƏTİNƏ, HƏCC, CİHAD, CƏNAZƏ NAMAZI VƏ BU KİMİ YERLƏRƏ ÇOX SAVAB QAZANMAQ MƏQSƏDİ İLƏ BİR YOLLA GEDİB BAŞQA YOLLA QAYITMAQ

Hədislər

٧٢٠ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا كَانَ يَوْمُ عِيدٍ خَالَفَ الطَّرِيقَ. رَوَاهُ الْبُخَارِيُّ .

720. Cabir *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* bayram günləri başqa-başqa yollarla gedib geri qayıdardı. Buxari, İydeyn 24

٧٢١ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَخْرُجُ مِنْ طَرِيقِ الشَّجَرَةِ ، وَيَدْخُلُ مِنْ طَرِيقِ الْمُعَرَّسِ ، وَإِذَا دَخَلَ مَكَّةَ دَخَلَ مِنَ الثَّنِيَّةِ الْعُلْيَا ، وَيَخْرُجُ مِنَ الثَّنِيَّةِ السُّفْلَى. مُتَّفَقٌ عَلَيْهِ .

721. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Mədinədən çıxarkən Şəcərə yolu ilə çıxar, Muarrəs yolu ilə qayıdardı. Məkkəyə də yuxarı Səniyyə yolundan girər, aşağı Səniyyə yolu ilə çıxardı.

Buxari, Həcc 15; Müslim, Həcc 223. Həmçinin bax. Əbu Davud, Mənasik 44

BƏZİ İŞLƏRƏ SAĞDAN BAŞLAMAQ

(Dəstəmaz, qüsl, təyəmmüm alarkən, paltar, ayaqqabı, məst və şalvar geyinərkən, məscidə girərkən, dişləri fırçalayarkən, sürmə çəkərkən, dırnaq kəsərkən, bığı qısaldarkən, qoltuq altını təmizləyib başı təraş edərkən, namazdan çıxarkən, yeyib-içərkən, salamlaşarkən, Həcərul-Əsvədi salamlayarkən, ayaqyolundan çıxarkən, nə isə alıb-verərkən və bu kimi yaxşı işlərdə sağ tərəfdəki orqanlardan istifadənin məqbul olduğu; burun silərkən, tüpürərkən, ayaqyoluna girərkən, məsciddən çıxarkən, məst, ayaqqabı, şalvar və paltar çıxardarkən, təharət edərkən və bu kimi işlərdə sol orqanlardan istifadənin məqbul olduğu bəhsi)

Ayələr

فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَيَقُولُ هَاؤُمُ اقْرَؤُا كِتَابِيَهْ

1. "Əməl dəftəri sağ əlinə verilən kimsə deyəcəkdir: "Alın, əməl dəftərimi oxuyun!"

(əl-Haqqə, 19)

فَأَصْحَابُ الْمَيْمَنَةِ مَا أَصْحَابُ الْمَيْمَنَةِ وَأَصْحَابُ الْمَشْأَمَةِ مَا أَصْحَابُ الْمَشْأَمَةِ

2. "Sağ tərəf sahibləri (əməl dəftərləri sağ əllərinə verilənlər). **Kimdir o sağ tərəf sahibləri?** (Nə uğurludur onlar!) **Sağ tərəf sahibləri** (əməl dəftərləri sağ əllərinə verilənlər). **Kimdir o sağ tərəf sahibləri?** (Nə uğurludur onlar!)".

(əl-Vaqiə, 8-9)

Hədislər

٧٢٢ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ : كَانَ رَسُولُ اللَّهِ ﷺ يُعْجِبُهُ التَّيَمُّنُ فِي شَأْنِهِ كُلِّهِ: فِي طُهُورِهِ ، وَتَرَجُّلِهِ ، وَتَنَعُّلِهِ ». مُتَّفَقٌ عَلَيْهِ .

722. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* hər işdə, hətta təmizlik, daranmaq, ayaqqabısını geyinməkdə də sağdan başlamağı çox sevərdi.

Buxari, Vudu 31, Salət 47, Ətimə 5, Libas 38, 77; Müslim, Təharət 66, 67. Həmçinin bax. Əbu Davud, Libas 41; Tirmizi, Cümə 75; Nəsai, Təharət 90, Qüsl 17, Zinət 8, 63; İbn Macə, Təharət 42

❁

٧٢٣ ـ وَعَنْهَا قَالَتْ: كَانَتْ يَدُ رَسُولِ اللَّهِ ﷺ الْيُمْنَى لِطُهُورِهِ وَطَعَامِهِ، وَكَانَتْ يَدُهُ الْيُسْرَى لِخَلَائِهِ وَمَا كَانَ مِنْ أَذًى. رَوَاهُ أَبُو دَاوُدَ.

723. Yenə Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm*təmizlik və yemək üçün sağ əlindən, ayaqyolunda təmizlənmək və bu kimi işlər üçün isə sol əlindən istifadə edərdi.

Əbu Davud, Təharət 18

❁

٧٢٤ ـ عَنْ أُمِّ عَطِيَّةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ النَّبِيَّ ﷺ قَالَ لَهُنَّ فِي غُسْلِ ابْنَتِهِ زَيْنَبَ رَضِيَ اللَّهُ عَنْهَا: «ابْدَأْنَ بِمَيَامِنِهَا وَمَوَاضِعِ الْوُضُوءِ مِنْهَا». مُتَّفَقٌ عَلَيْهِ .

724. Ümmü Atiyə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* qızı Zeynəb radiyallahu anhəni yuyan qadınlara belə buyurdu:

“Sağ tərəfindən və dəstəmaz üzvlərindən başlayın”.

Buxari, Vudu 31, Cənaiz 10-11, Müslim, Cənaiz 42-43. Həmçinin bax. Əbu Davud, Cənaiz 29; Nəsai, Cənaiz 31; İbn Macə, Cənaiz 8

❁

٧٢٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا انْتَعَلَ أَحَدُكُمْ فَلْيَبْدَأْ بِالْيُمْنَى ، وَإِذَا نَزَعَ فَلْيَبْدَأْ بِالشِّمَالِ. لِتَكُنِ الْيُمْنَى أَوَّلَهُمَا تُنْعَلُ، وَأَخِرُهُمَا تُنْزَعُ». مُتَّفَقٌ عَلَيْهِ .

725. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Sizdən biri ayaqqabısını geyinəcəyi zaman əvvəlcə sağ ayağından, ayaqqabısını çıxardacağı zaman da əvvəlcə sol ayağından başlasın. Beləliklə sağ ayaq ilk geyinilən, ən son çıxarılan ayaq olsun”.

Buxari, Libas 39; Müslim, Libas 67. Həmçinin bax. Əbu davud, Libas 41; Tirmizi, Libas 37; İbn Macə, Libas 28

❁

٧٢٦ ـ عَنْ حَفْصَةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَجْعَلُ يَمِينَهُ لِطَعَامِهِ وَشَرَابِهِ وَثِيَابِهِ ، وَيَجْعَلُ يَسَارَهُ لِمَا سِوَى ذٰلِكَ. رَوَاهُ أَبُو دَاوُدَ .

726. Hafsa *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* yeyərkən, içərkən və əynini geyinərkən sağ əlindən, digər işləri görərkən isə sol əlindən istifadə edərdi.

Əbu Davud, Təharət 18

❁

٧٢٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا لَبِسْتُمْ وَإِذَا تَوَضَّأْتُمْ فَابْدَؤُوا بِأَيَامِنِكُمْ». رَوَاهُ أَبُو دَاوُدَ والتِّرْمِذِيُّ.

727. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Paltar geyinəndə və dəstəmaz alanda sağ tərəfinizdən başlayın".

Əbu Davud, Libas 41; Tirmizi, Libas 37 (mənən). Həmçinin bax. İbn Macə, Təharət 42

❁

٧٢٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَتَى مِنًى فَأَتَى الْجَمْرَةَ فَرَمَاهَا ، ثُمَّ أَتَى مَنْزِلَهُ بِمِنًى وَنَحَرَ ، ثُمَّ قَالَ لِلْحَلاَّقِ: «خُذْ» وَأَشَارَ إِلَى جَانِبِهِ الْأَيْمَنِ ، ثُمَّ الْأَيْسَرِ، ثُمَّ جَعَلَ يُعْطِيهِ النَّاسَ. مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ: لَمَّا رَمَى الْجَمْرَةَ ، وَنَحَرَ نُسُكَهُ ، وَحَلَقَ ، نَاوَلَ الْحَلاَّقَ شِقَّهُ الْأَيْمَنَ فَحَلَقَهُ ، ثُمَّ دَعَا أَبَا طَلْحَةَ الْأَنْصَارِيَّ رَضِيَ اللَّهُ عَنْهُ فَأَعْطَاهُ إِيَّاهُ ، ثُمَّ نَاوَلَهُ الشِّقَّ الْأَيْسَرَ ، فَقَالَ: «احْلِقْ». فَحَلَقَهُ فَأَعْطَاهُ أَبَا طَلْحَةَ فَقَالَ: «اقْسِمْهُ بَيْنَ النَّاسِ».

728. Ənəs *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Minaya gələn kimi cəmrəyə getdi və daşları atdı. Sonra Minadakı istirahət yerinə getdi və qurbanını kəsdi. Bu işləri tamamlayandan sonra bərbəri çağırdı və əvvəlcə başının sağ tərəfini, sonra sol tərəfini göstərərək:

"Buralardan kəs!" - buyurdu. Sonra kəsilən saçlarını camaata payladı.

Buxari, Vudu 33; Müslim, Həcc 323-325. Həmçinin bax. Əbu Davud, Mənasik 78.

Başqa bir rəvayət isə belədir:

Rəsuli-Əkrəm cəmrədə daşları atıb qurbanını kəsəndən sonra təraş olmaq istədi. Başının sağ tərəfini bərbərə uzatdı, o da təraş etdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* Əbu Talha əl-Ənsarini çağıraraq kəsilən saçlarını ona verdi. Sonra başının sol tərəfini bərbərə uzadaraq:

"Təraş et!" - buyurdu. Bərbər də təraş etdi. Rəsuli-Əkrəm bu dəfə də kəsilən saçları Əbu Talhaya verib:

"Bunları camaata payla!" - buyurdu.

Müslim, Həcc 326. Həmçinin bax. Tirmizi, Həcc 73

YEMƏK QAYDALARI BÖLÜMÜ

YEMƏYƏ BAŞLAYARKƏN BİSMİLLAH, SONUNDA ƏLHƏMDULİLLƏH DEMƏK

Hədislər

٧٢٩ ـ عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: سَمِّ اللَّهَ وَكُلْ بِيَمِينِكَ، وَكُلْ مِمَّا يَلِيكَ». مُتَّفَقٌ عَلَيْهِ .

729. Ömər bin Əbu Sələmə *radiyallahu anhumə* Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyrudu,- dedi:

"Bismillah de, sağ əlinlə və önündən ye!"

Buxari, Ətimə 2, 3; Müslim, Əşribə 108. Həmçinin bax. Tirmizi, Ətimə 47; İbn Macə, Ətimə 8

❁

٧٣٠ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا أَكَلَ أَحَدُكُمْ فَلْيَذْكُرِ اسْمَ اللَّهِ تَعَالَى ، فَإِنْ نَسِيَ أَنْ يَذْكُرَ اسْمَ اللَّهِ تَعَالَى فِي أَوَّلِهِ فَلْيَقُلْ: بِسْمِ اللَّهِ أَوَّلَهُ وَآخِرَهُ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

730. Aişə radiyallahu anhə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu söylədi:

"Sizdən biri yemək yeyərkən bismillah desin. Əgər yeməyə başlayarkən bismillah deməyi unudarsa, yadına düşdüyü an "başdan sona bismillah" (bismilləhi fi əvvəlihi və axirihi) **desin".**

Əbu Davud, Ətimə 15; Tirmizi, Ətimə 47

٧٣١ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِذَا دَخَلَ الرَّجُلُ بَيْتَهُ فَذَكَرَ اللَّهَ تَعَالَى عِنْدَ دُخُولِهِ وَعِنْدَ طَعَامِهِ ، قَالَ الشَّيْطَانُ لِأَصْحَابِهِ: لاَ مَبِيتَ لَكُمْ وَلاَ عَشَاءَ . وَإِذَا دَخَلَ فَلَمْ يَذْكُرِ اللَّهَ تَعَالَى عِنْدَ دُخُولِهِ، قَالَ الشَّيْطَانُ: أَدْرَكْتُمُ الْمَبِيتَ. وَإِذَا لَمْ يَذْكُرِ اللَّهَ تَعَالَى عِنْدَ طَعَامِهِ قَالَ: أَدْرَكْتُمُ الْمَبِيتَ وَالْعَشَاءَ». رَوَاهُ مُسْلِمٌ .

731. Cabir *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmdən* belə eşitdiyini dedi:

“Kişi evinə girərkən və yemək yeyərkən bismillah deyərsə, şeytan adamlarına “burada nə gecələyə bilərsiniz, nə də yemək yeyə bilərsiniz”, - deyər. Əgər o, evə girərkən bismillah deməzsə, şeytan adamlarına “gecəni keçirməyə yer tapdınız”, - deyər. Həmin adam yemək yeyərkən bismillah çəkməzsə, şeytan öz adamlarına “həm qalmağa yer, həm də yemək tapdınız”,- deyər”.

Müslim, Əşribə 103. Həmçinin bax. Əbu Davud, Ətimə 15; İbn Macə, Dua 19

❁

٧٣٢ ـ عَنْ حُذَيْفَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنَّا إِذَا حَضَرْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ طَعَامًا لَمْ نَضَعْ أَيْدِيَنَا حَتَّى يَبْدَأَ رَسُولُ اللَّهِ ﷺ فَيَضَعَ يَدَهُ. وَإِنَّا حَضَرْنَا مَعَهُ مَرَّةً طَعَامًا ، فَجَاءَتْ جَارِيَةٌ كَأَنَّهَا تُدْفَعُ ، فَذَهَبَتْ لِتَضَعَ يَدَهَا فِي الطَّعَامِ ، فَأَخَذَ رَسُولُ اللَّهِ ﷺ بِيَدِهَا ؛ ثُمَّ جَاءَ أَعْرَابِيٌّ كَأَنَّمَا يُدْفَعُ ، فَأَخَذَ بِيَدِهِ ؛ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ الشَّيْطَانَ يَسْتَحِلُّ الطَّعَامَ أَنْ لَا يُذْكَرَ اسْمُ اللَّهِ تَعَالَى عَلَيْهِ ، وَإِنَّهُ جَاءَ بِهَذِهِ الْجَارِيَةِ لِيَسْتَحِلَّ بِهَا ، فَأَخَذْتُ بِيَدِهَا ، فَجَاءَ بِهَذَا الْأَعْرَابِيِّ لِيَسْتَحِلَّ بِهِ فَأَخَذْتُ بِيَدِهِ ، وَالَّذِي نَفْسِي بِيَدِهِ ، إِنَّ يَدَهُ فِي يَدِي مَعَ يَدَيْهِمَا». ثُمَّ ذَكَرَ اسْمَ اللَّهِ تَعَالَى وَأَكَلَ. رَوَاهُ مُسْلِمٌ .

732. Hüzeyfə radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ilə birlikdə yemək yeyəcəyimiz vaxt o yeməyə toxunmadan əlimizi süfrəyə uzatmazdıq. Yenə bir gün onunla birlikdə yemək yeyəcəkdik. Bu zaman kiçik bir qız uşağı gəldi. Sanki kimsə onu arxadan itələyirdi. Dərhal əlini yeməyə uzatdı, lakin Rəsulullah *səllallahu əleyhi və səlləm* əlindən tutdu. Sonra bir bədəvi gəldi. Sanki onu da arxadan kimsə itələyirdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* onun da əlindən tutdu. Sonra belə buyurdu:

"Şeytan bismillah çəkilmədən başlanan yeməyə ortaq olmağı çox arzu edər. Bu yeməyə qatılmaq üçün azyaşlı qızı gətirdi. Lakin mən əlindən tutdum. Bu bədəvi sayəsində yeməyə ortaq olmaq üçün onu gətirdi, onun da əlindən tutdum. Nəfsimi qüdrət əlində tutan Allaha and içirəm ki, onların əli ilə birlikdə şeytanın da əli ovcumda idi".

Sonra Peyğəmbər *səllallahu əleyhi və səlləm* bismillah çəkib yeməyə başladı.

Müslim, Əşribə 102. Həmçinin bax. Əbu Davud, Ətimə 15

❁

٧٣٣ ـ عَنْ أُمَيَّةَ بْنِ مَخْشِيٍّ الصَّحَابِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ جَالِسًا ، وَرَجُلٌ يَأْكُلُ ، فَلَمْ يُسَمِّ اللَّهَ حَتَّى لَمْ يَبْقَ مِنْ طَعَامِهِ لُقْمَةٌ ، فَلَمَّا رَفَعَهَا إِلَى فِيهِ قَالَ: بِسْمِ اللَّهِ أَوَّلَهُ وَآخِرَهُ. فَضَحِكَ النَّبِيُّ ﷺ ثُمَّ قَالَ: «مَا زَالَ الشَّيْطَانُ يَأْكُلُ مَعَهُ ، فَلَمَّا ذَكَرَ اسْمَ اللَّهِ اسْتَقَاءَ مَا فِي بَطْنِهِ». رَوَاهُ أَبُو دَاوُدَ وَالنَّسَائِيُّ.

733. Səhabədən Ümeyyə bin Məxşi radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanında bir nəfər yemək yeyirdi. Həmin adam sonuncu loğmaya qədər bismillah demədi. Son loğmanı ağzına apararkən "bismillahi əvvələhu və axirəhu" (başdan-axıra bismillah)dedi. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* güldü və belə buyurdu:

"Şeytan onunla birlikdə yemək yeyirdi. O bismillah deyəndə şeytan yediklərini qusdu".

Əbu Davud, Ətimə 15; Nəsai, əs-Sünənul-kübra, Adabul-əkl 15

❁

٧٣٤ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَأْكُلُ طَعَامًا

فِي سِتَّةٍ مِنْ أَصْحَابِهِ ، فَجَاءَ أَعْرَابِيٌّ فَأَكَلَهُ بِلُقْمَتَيْنِ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «أَمَا إِنَّهُ لَوْ سَمَّى لَكَفَاكُمْ». رَوَاهُ التِّرْمِذِيُّ.

734. Aişə radiyallahu anhə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* əshabından altı nəfərlə birlikdə yemək yeyirdi. Bu zaman bir bədəvi gəldi və iki loğma ilə yeməyi yeyib qurtardı. Bu zaman Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Əgər o, bismillah desəydi, yemək hamınıza çatardı".

Tirmizi, Ətimə 47. Həmçinin bax. İbn Macə, Ətimə 7

❁

٧٣٥ ـ عَنْ أَبِي أُمَامَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا رَفَعَ مَائِدَتَهُ قَالَ: «الْحَمْدُ لِلَّهِ حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ ، غَيْرَ مَكْفِيٍّ وَلاَ مُسْتَغْنًى عَنْهُ ! رَبَّنَا». رَوَاهُ الْبُخَارِيُّ .

735. Əbu Ümamə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* süfrəsini yığışdıranda belə deyərdi:

"Ey Rəbbimiz, Sənə tərtəmiz duyğularla, azalmadan artan, hüzurundan geri çevrilməyib qəbul edilən saysız-hesabsız həmd ilə həmd edirik".

Buxari, Ətimə 54. Həmçinin bax. Əbu Davud, Ətimə 52; Tirmizi, Dəavat 55; İbn Macə, Ətimə 16

❁

٧٣٦ ـ عَنْ مُعَاذِ بْنِ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ أَكَلَ طَعَامًا فَقَالَ: الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنِي هَذَا ، وَرَزَقَنِيهِ ، مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلاَ قُوَّةٍ ، غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ». رَوَاهُ أَبُو دَاوُدَ، وَالتِّرْمِذِيُّ.

736. Muaz bin Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Hər kim yemək yeyəndən sonra “bu yeməyi mənə yedirən, nəticəyə təsir edəcək güc-qüvvətim olmadan onu mənə qismət edən Allaha həmd olsun”, - deyərsə, keçmiş günahları bağışlanar”.

Əbu Davud, Libas 1; Tirmizi, Dəavat 56. Həmçinin bax. İbn Macə, Ətimə 16

YEMƏKDƏ QÜSUR AXTARMAMAQ VƏ ONU BƏYƏNDİYİNİ DİLƏ GƏTİRMƏK

Hədislər

٧٣٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: مَا عَابَ رَسُولُ اللَّهِ ﷺ طَعَامًا قَطُّ: إِنِ اشْتَهَاهُ أَكَلَهُ ، وَإِنْ كَرِهَهُ تَرَكَهُ. مُتَّفَقٌ عَلَيْهِ .

737. Əbu Hüreyrə radiyallahu anh belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* heç vaxt yeməkdə nöqsan axtarmazdı. İştahı çəkərsə yeyər, çəkməzsə yeməzdi.

Buxari, Mənaqib 23; Ətimə, 21; Müslim, Əşribə 187, 188. Həmçinin bax. Əbu Davud, Ətimə 13; Tirmizi, Birr 84

❁

٧٣٨ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ سَأَلَ أَهْلَهُ الْأُدُمَ فَقَالُوا: مَا عِنْدَنَا إِلاَّ خَلٌّ ، فَدَعَا بِهِ ، فَجَعَلَ يَأْكُلُ وَيَقُولُ: «نِعْمَ الْأُدُمُ الْخَلُّ ، نِعْمَ الْأُدُمُ الْخَلُّ » ! رَوَاهُ مُسْلِمٌ .

738. Cabir radiyallahu anh belə dedi:

Bir gün Peyğəmbər *səllallahu əleyhi və səlləm* ev əhlindən çörəklə yeməyə yavanlıq istədi. Onlar da:

- Evdə sirkədən başqa heç nə yoxdur,- dedilər.

Rəsuli-Əkrəm onu gətirmələrini tapşırdı və:

- "Sirkə nə gözəl yavanlıqdır, sirkə nə gözəl yavanlıqdır!" - deyərək yeməyini yeməyə başladı.

Müslim, Əşribə 167-169. Həmçinin bax. Əbu Davud, Ətimə 39; Tirmizi, Ətimə 35; İbn Macə, Ətimə 33

SÜFRƏDƏ OTURAN ORUCLU YEMƏK YEMƏDİYİ ZAMAN NƏ ETMƏLİDİR?

Hədis

٧٣٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا دُعِيَ أَحَدُكُمْ فَلْيُجِبْ ، فَإِنْ كَانَ صَائِمًا فَلْيُصَلِّ ، وَإِنْ كَانَ مُفْطِرًا فَلْيَطْعَمْ » .

رَوَاهُ مُسْلِمٌ .

739. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən hər kim yeməyə dəvət edilərsə, getsin. Əgər orucludursa yemək sahibinə dua etsin, oruclu deyilsə yesin".

Müslim, Nikah 106. Həmçinin bax. Müslim, Siyam 159; Əbu Davud, Ətimə 1, Savm 75

DƏVƏTƏ GEDƏN ADAMA BAŞQASI QOŞULARSA DEYƏCƏYİ SÖZ

Hədislər

٧٤٠ ـ عَنْ أَبِي مَسْعُودٍ الْبَدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: دَعَا رَجُلٌ النَّبِيَّ ﷺ لِطَعَامٍ صَنَعَهُ لَهُ خَامِسَ خَمْسَةٍ ، فَتَبِعَهُمْ رَجُلٌ ، فَلَمَّا بَلَغَ الْبَابَ قَالَ لَهُ النَّبِيُّ ﷺ: «إِنَّ هَذَا تَبِعَنَا، فَإِنْ شِئْتَ أَنْ تَأْذَنَ ، وَإِنْ شِئْتَ رَجَعَ». قَالَ: بَلْ آذَنُ لَهُ يَا رَسُولَ اللَّهِ . مُتَّفَقٌ عَلَيْهِ .

740. Əbu Məsud əl-Bədri *radiyallahu anh* belə dedi:

Səhabədən bir nəfər Peyğəmbər *səllallahu əleyhi və səlləm* üçün yemək hazırladı və onu dörd nəfərlə dəvət etdi. Lakin bir nəfər də onların ardınca düşüb gəldi. Qapıya çatanda Peyğəmbər *səllallahu əleyhi və səlləm* ev sahibinə belə dedi:

- **"Bu, bizim ardımızca düşüb gəldi. İstəyirsənsə girməsinə izin ver, istəmirsənsə geri qayıtsın",** - dedi.

Ev sahibi:

- Xeyr, ona izin verirəm, ya Rəsulallah! - dedi.

Buxari, Büyu 21, Məzalim 14, Ətimə 34, 57; Müslim, Əşribə 138

YEMƏYİ ÖNÜNDƏN YEMƏK, SÜFRƏ ƏDƏBİNİ BİLMƏYƏNƏ ÖYRƏTMƏK

Hədislər

٧٤١ ـ عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كُنْتُ غُلَامًا فِي حِجْرِ رَسُولِ اللَّهِ ﷺ ، وَكَانَتْ يَدِي تَطِيشُ فِي الصَّحْفَةِ ، فَقَالَ لِي رَسُولُ اللَّهِ ﷺ : «يَا غُلَامُ ، سَمِّ اللَّهَ ، وَكُلْ بِيَمِينِكَ ، وَكُلْ مِمَّا يَلِيكَ». مُتَّفَقٌ عَلَيْهِ .

741. Ömər bin Əbu Sələmə radiyallahu anhumə belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* himayəsində böyüyən uşaq idim. Yemək yeyərkən əlim boşqabın hər tərəfinə uzanırdı. Ona görə Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyurdu:

"Oğlum, bismillah de! Sağ əlinlə ye! Ancaq önündən ye!" .

Buxari, Ətimə 2, 3; Müslim, Əşribə 108. Həmçinin bax. İbn Macə, Ətimə 8

❁

٧٤٢ ـ عَنْ سَلَمَةَ بْنِ الْأَكْوَعِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَجُلاً أَكَلَ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ بِشِمَالِهِ ، فَقَالَ: «كُلْ بِيَمِينِكَ». قَالَ: لاَ أَسْتَطِيعُ. قَالَ: «لاَ اسْتَطَعْتَ» ! مَا مَنَعَهُ إِلاَّ الْكِبْرُ ! فَمَا رَفَعَهَا إِلَى فِيهِ . رَوَاهُ مُسْلِمٌ .

742. Sələmə bin Əkva *radiyallahu anh* belə dedi

Bir nəfər Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləmin* yanında sol əli ilə yemək yeyirdi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* ona:

- **"Sağ əlinlə ye", -** buyurdu. O:

- Heç cür elə edə bilmirəm,- dedi. Bunun üzərinə Peyğəmbərimiz:

- **"Edə bilməz ol", -** deyə bəddua etdi.

Sələmənin dediyinə görə həmin adam lovğalığı səbəbi ilə belə demişdi. Bundan sonra əlini ağzına apara bilmədi.

Müslim, Əşribə 107.

XURMA KİMİ BİR-BİR YEYİLƏCƏK MEYVƏLƏRİ SÜFRƏDƏKİLƏRİN İZNİ OLMADAN CÜT-CÜT YEMƏMƏK

Hədis

٧٤٣ ـ عَنْ جَبَلَةَ بْنِ سُحَيْمٍ قَالَ: أَصَابَنَا عَامُ سَنَةٍ مَعَ ابْنِ الزُّبَيْرِ ، فَرُزِقْنَا تَمْرًا، وَكَانَ عَبْدُ اللَّهِ بْنُ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا يَمُرُّ بِنَا وَنَحْنُ نَأْكُلُ ، فَيَقُولُ: لاَ تُقَارِنُوا، فَإِنَّ النَّبِيَّ ﷺ نَهَى عَنِ الْقِرَانِ ؛ ثُمَّ يَقُولُ: «إِلاَّ أَنْ يَسْتَأْذِنَ الرَّجُلُ أَخَاهُ» . مُتَّفَقٌ عَلَيْهِ .

743. Cəbələ bin Süheym belə dedi:

İbn Zübeyr ilə birlikdə vuruşduğumuz il qıtlıq oldu. Ərzaq yerinə bizə xurma payladılar. Xurmanı yeyərkən Abdullah bin Ömər yanımızdan keçər və belə deyərdi:

Xurmanı cüt-cüt yeməyin. Çünki Peyğəmbər *səllallahu əleyhi və səlləm* bizə xurmanı cüt-cüt yeməyi qadağan etdi. Sonra İbn Ömər sözünün davamında: ancaq yoldaşı izin verərsə, cüt-cüt yeyə bilər,- dedi.

Buxari, Ətimə 44, Şirkət 4, Məzaim 14; Müslim, Əşribə 150. Həmçinin bax. Əbu Davud, Ətimə 43; Tirmizi, Ətimə 16; İbn Macə, Ətimə 41

YEMƏKDƏN DOYMAYAN ADAM

YEDİYİNDƏN DOYMAYAN ADAM NƏ DEMƏLİ, NƏ ETMƏLİ?

Hədislər

٧٤٤ـ عَنْ وَحْشِيِّ بْنِ حَرْبٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ أَصْحَابَ رَسُولِ اللَّهِ ﷺ قَالُوا : يَا رَسُولَ اللَّهِ ، إِنَّا نَأْكُلُ وَلاَ نَشْبَعُ. قَالَ: «فَلَعَلَّكُمْ تَفْتَرِقُونَ» قَالُوا:

نَعَمْ. قَالَ: «فَاجْتَمِعُوا عَلَى طَعَامِكُمْ ، وَاذْكُرُوا اسْمَ اللَّهِ ، يُبَارَكْ لَكُمْ فِيهِ».
رَوَاهُ أَبُو دَاوُدَ.

744. Vəhşi bin Hərb belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* əshabı:

- Ya Rəsulallah, yemək yeyirik, amma doymuruq,- dedi.

Rəsuli-Əkrəm onlara:

- **"Hər halda ayrı-ayrı yeyirsiniz!"** - deyə soruşduqda:

- Bəli,elə edirik,- dedilər.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* də:

- "Yeməyi birlikdə yeyin, bismillah deyin, yeməyiniz bərəkətlənsin", - buyurdu.

Əbu Davud, Ətimə 14. Həmçinin bax. İbn Macə, Ətimə 17

YEMƏYİN BOŞQABIN ORTASINDAN DEYİL, KƏNARINDAN YEYİLMƏSİ

Hədislər

٧٤٥ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْبَرَكَةُ تَنْزِلُ وَسَطَ الطَّعَامِ ؛ فَكُلُوا مِنْ حَافَتَيْهِ ، وَلاَ تَأْكُلُوا مِنْ وَسَطِهِ». رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ.

745. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bərəkət yeməyin ortasına nazil olar. Ona görə də boşqabın ortasından deyil, kənarlarından başlayaraq yeyin".

Əbu Davud, Ətimə 17; Tirmizi, Ətimə 12. Həmçinin bax. İbn Macə, Ətimə 12

٧٤٦ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ لِلنَّبِيِّ ﷺ قَصْعَةٌ يُقَالُ لَهَا الْغَرَّاءُ ، يَحْمِلُهَا أَرْبَعَةُ رِجَالٍ ؛ فَلَمَّا أَضْحَوْا وَسَجَدُوا الضُّحَى أُتِيَ بِتِلْكَ الْقَصْعَةِ ـ يَعْنِي وَقَدْ ثُرِدَ فِيهَا ـ فَالْتَفُّوا عَلَيْهَا ، فَلَمَّا كَثُرُوا جَثَا رَسُولُ اللَّهِ ﷺ ؛ فَقَالَ أَعْرَابِيٌّ: مَا هَذِهِ الْجِلْسَةُ ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّ اللَّهَ جَعَلَنِي عَبْدًا كَرِيمًا ، وَلَمْ يَجْعَلْنِي جَبَّارًا عَنِيدًا !» ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ : «كُلُوا مِنْ حَوَالَيْهَا ، وَدَعُوا ذِرْوَتَهَا ، يُبَارَكْ فِيهَا». رَوَاهُ أَبُو دَاوُدَ.

746. Abdullah bin Busr *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmin* dörd nəfərin qaldıra biləcəyi böyüklükdə qarra adlı bir yemək qabı vardı. Duha vaxtı duha namazı qılındıqdan sonra içində tirid yeməyi olan qabı gətirdilər. Əshabi-kiram da ətrafına yığışdı. Səhabələr artdıqda Rəsulullah *səllallahu əleyhi və səlləm* diz çökdü.

Bunu görən bir bədəvi:

- Bu necə oturuşdur? - deyə soruşdu.

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- **"Allah-Təala məni inadçı və qoluzorlu deyil, şərəfli qul kimi yaratdı"**. Sonra Rəsulullah *səllallahu əleyhi və səlləm* sözünə belə davam etdi: **"Yemək qabının kənarından başlayaraq yeyin. Ortasından yeməyin ki, yemək bərəkətli olsun"**.

Əbu Davud, Ətimə 17. Həmçini bax. İbn Macə, Ətimə 6, 12

DİRSƏKLƏNƏRƏK YEMƏK YEMƏYİN MƏKRUH OLMASI

Hədislər

٧٤٧ ـ عَنْ أَبِي جُحَيْفَةَ ، وَهْبِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ آكُلُ مُتَّكِئًا» . رَوَاهُ الْبُخَارِيُّ .

747. Əbu Cüheyfə Vəhb bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Mən söykənərək yemək yemirəm". [44]

Buxari, Ətimə 13. Həmçinin bax. Əbu Davud, Ətimə 16; Tirmizi, Ətimə 28; İbn Macə Ətimə 6

❁

٧٤٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: «رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ جَالِسًا مُقْعِيًا يَأْكُلُ تَمْرًا» . رَوَاهُ مُسْلِمٌ .

748. Ənəs *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmi* dizləri dik halda oturub xurma yeyərkən gördüm.

Müslim, Əşribə 148

44. Burada söykənməkdən məqsəd mütəkkə və s. Kimi şeylərə dirsəklənib yeməkdir.

YEMƏYİ ÜÇ BARMAQLA YEMƏK

YEMƏYİ ÜÇ BARMAQLAYEMƏYİN, BARMAQLARI YALAYIB YEMƏK QABINI SIYIRMAĞIN, YERƏ DÜŞƏN LOĞMANI GÖTÜRÜB YEMƏYİN, YEMƏK QABINI SIYIRDIQDAN SONRA SİLMƏYİN SÜNNƏYƏ UYĞUN OLMASI. YEMƏK QABINI SIYIRMADAN ƏVVƏL SİLMƏYİNSƏ SÜNNƏYƏ UYĞUN OLMAMASI

Hədislər

٧٤٩ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا أَكَلَ أَحَدُكُمْ طَعَامًا فَلاَ يَمْسَحْ أَصَابِعَهُ حَتَّى يَلْعَقَهَا أَوْ يُلْعِقَهَا». مُتَّفَقٌ عَلَيْهِ .

749. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən biri yemək yediyi zaman barmaqlarını yalamadan silməsin". [45]

Buxari, Ətimə 52; Müslim, Əşribə 129. Həmçinin bax. Əbu Davud, Ətimə 51; İbn Macə, Ətimə 9

❁

٧٥٠ ـ عَنْ كَعْبِ بْنِ مَالِكٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ يَأْكُلُ بِثَلاَثِ أَصَابِعَ ، فَإِذَا فَرَغَ لَعِقَهَا». رَوَاهُ مُسْلِمٌ .

750. Kab bin Malik *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* üç barmağı ilə yemək yediyini, yeməkdən sonra da barmaqlarını yaladığını gördüm.

Müslim, Əşribə 131, 132. Həmçinin bax. Əbu Davud, Ətimə 49; Tirmizi, Ətimə 11

❁

٧٥١ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَمَرَ بِلَعْقِ الْأَصَابِعِ وَالصَّحْفَةِ ، وَقَالَ: «إِنَّكُمْ لاَ تَدْرُونَ فِي أَيِّ طَعَامِكُمُ الْبَرَكَةُ». رَوَاهُ مُسْلِمٌ .

751. Cabir bin Abdullah radiyallahu anh belə dedi:

45. Bu tövsiyə əl ilə yemək adəti olanlara aiddir.

Rəsulullah *səllallahu əleyhi və səlləm* barmaqları yalayıb boşqabı silməyi əmr edərək belə buyurdu:

"Yeməyinizin harasında bərəkət olduğunu bilməzsiniz".

Müslim, Əşribə 133

٧٥٢ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا وَقَعَتْ لُقْمَةُ أَحَدِكُمْ فَلْيَأْخُذْهَا فَلْيُمِطْ مَا كَانَ بِهَا مِنْ أَذًى ، وَلْيَأْكُلْهَا ، وَلاَ يَدَعْهَا لِلشَّيْطَانِ ، وَلاَ يَمْسَحْ يَدَهُ بِالْمِنْدِيلِ حَتَّى يَلْعَقَ أَصَابِعَهُ ، فَإِنَّهُ لاَ يَدْرِي فِي أَيِّ طَعَامِهِ الْبَرَكَةُ».رَوَاهُ مُسْلِمٌ .

752. Cabir bin Abdullah *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən birinin loğması yerə düşəndə onu götürüb bulaşan şeyi təmizlədikdən sonra yesin. Loğmasını şeytana saxlamasın. Barmaqlarını yalamadıqca da əlini dəsmala silməsin. Çünki yeməyin harasında bərəkət olduğunu bilməz".

Müslim, Əşribə 136. Həmçinin bax. Əbu Davud, Ətimə 49; Tirmizi, Ətimə 11

❁

٧٥٣ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّ الشَّيْطَانَ يَحْضُرُ أَحَدَكُمْ عِنْدَ كُلِّ شَيْءٍ مِنْ شَأْنِهِ ، حَتَّى يَحْضُرَهُ عِنْدَ طَعَامِهِ ، فَإِذَا سَقَطَتْ لُقْمَةُ أَحَدِكُمْ فَلْيَأْخُذْهَا فَلْيُمِطْ مَا كَانَ بِهَا مِنْ أَذًى ثُمَّ لْيَأْكُلْهَا وَلاَ يَدَعْهَا لِلشَّيْطَانِ . فَإِذَا فَرَغَ فَلْيَلْعَقْ أَصَابِعَهُ ، فَإِنَّهُ لاَ يَدْرِي فِي أَيِّ طَعَامِهِ الْبَرَكَةُ». رَوَاهُ مُسْلِمٌ .

753. Yenə Cabir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Şübhəsiz, şeytan sizdən birinin gördüyü hər işdə hazır olar. Hətta yemək yeyərkən də yanında dayanar. Sizdən kimin loğması yerə düşərsə, onu götürsün, üstünə yapışan şeyləri təmizlədikdən sonra yesin, onu şeytana qoymasın. Yeməyini yedikdən sonra barmaqlarını yalasın, çünki o yeməyin harasında bərəkət olduğunu bilməz".

Müslim, Əşribə 133-135. Həmçinin bax. Əbu Davud, Ətimə 49; Tirmizi, Ətimə 10, 11; İbn Macə, Ətimə 9

٧٥٤ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا أَكَلَ طَعَامًا لَعِقَ أَصَابِعَهُ الثَّلاَثَ ، وَقَالَ: «إِذَا سَقَطَتْ لُقْمَةُ أَحَدِكُمْ فَلْيَأْخُذْهَا ، وَلْيُمِطْ عَنْهَا الْأَذَى ، وَلْيَأْكُلْهَا ، وَلاَ يَدَعْهَا لِلشَّيْطَانِ». وَأَمَرَنَا أَنْ نَسْلُتَ الْقَصْعَةَ ، وَقَالَ: «إِنَّكُمْ لاَ تَدْرُونَ فِي أَيِّ طَعَامِكُمُ الْبَرَكَةُ ». رَوَاهُ مُسْلِمٌ .

754. Ənəs *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* yemək yediyi zaman üç barmağını da yalayar və belə buyurardı:

"Sizdən birinin loğması yerə düşəndə onu götürsün, üstünə yapışan şeyləri təmizlədikdən sonra yesin. Onu şeytana saxlamasın".

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* boşqabın sıyrılmasını əmr edərək:

"Çünki yeməyin harasında bərəkət olduğunu bilməzsiniz", - deyərdi.

Müslim, Əşribə 136. Həmçinin bax. Əbu Davud, Ətimə 49; Tirmizi, Ətimə 11

❁

٧٥٥ ـ عَنْ سَعِيدِ بْنِ الْحَارِثِ أَنَّهُ سَأَلَ جَابِرًا رَضِيَ اللَّهُ عَنْهُ عَنِ الْوُضُوءِ مِمَّا مَسَّتِ النَّارُ ، فَقَالَ: لاَ ، قَدْ كُنَّا زَمَنَ النَّبِيِّ ﷺ لاَ نَجِدُ مِثْلَ ذَلِكَ الطَّعَامِ إِلاَّ قَلِيلاً، فَإِذَا نَحْنُ وَجَدْنَاهُ لَمْ يَكُنْ لَنَا مَنَادِيلُ إِلاَّ أَكُفُّنَا وَسَوَاعِدُنَا وَأَقْدَامُنَا ، ثُمَّ نُصَلِّي وَلاَ نَتَوَضَّأُ». رَوَاهُ الْبُخَارِيُّ .

755. Səid bin Haris Cabir bin Abdullahdan soruşdu:

- Odda bişən hər hansı bir yeməyi yedikdən sonra dəstəmaz almaq lazımdır? O da:

- Xeyr, lazım deyil. Biz Peyğəmbər *səllallahu əleyhi və səlləmin* dövründə nadir hallarda odda bişən yemək görürdük. Onu yediyimiz zaman əlimizi silməyə parça tapmadığımıza görə ovuclarımıza, biləklərimizə və ayaqlarımıza silərdik. Yeməkdən sonra da dəstəmaz almadan namaz qılardıq,- cavabını verdi.

Buxari, Əşribə 53. Həmçinin bax. İbn Macə, Ətimə 15

YEMƏYİ BİRLİKDƏ YEMƏK

Hədislər

٧٥٦ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «طَعَامُ الْإِثْنَيْنِ كَافِي الثَّلَاثَةِ ، وَطَعَامُ الثَّلَاثَةِ كَافِي الْأَرْبَعَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

756. ƏbuHüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İki nəfərlik yemək üç nəfərə, üç nəfərlik yemək də dörd nəfərə kifayətdir".

Buxari, Ətimə 11; Müslim, Əşribə 179-181. Həmçinin bax. Tirmizi, Ətimə 21; İbn Macə, Ətimə 2

❁

٧٥٧ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «طَعَامُ الْوَاحِدِ يَكْفِي الْإِثْنَيْنِ ، وَطَعَامُ الْإِثْنَيْنِ يَكْفِي الْأَرْبَعَةَ ، وَطَعَامُ الْأَرْبَعَةِ يَكْفِي الثَّمَانِيَةَ». رَوَاهُ مُسْلِمٌ .

757. Cabir bin Abdullah *radiyallahu anh* belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

"Bir nəfərin yeməyi iki nəfərə, iki nəfərin yeməyi dörd nəfərə, dörd nəfərin yeməyi də səkkiz nəfərə kifayətdir", - buyurduğunu eşitdim.

Müslim, Əşribə 179-181. Həmçinin bax. Tirmizi, Ətimə 21; İbn Macə, Ətimə 2

İÇKİLƏRLƏ BAĞLI ƏDƏBLƏR

QABIN İÇİNƏ ÜFÜRMƏDƏN ÜÇ DƏFƏ NƏFƏS ALARAQ İÇMƏYİN VƏ QABI İLK İÇƏNDƏN ETİBARƏN NÖVBƏ İLƏ SAĞ TƏRƏFDƏ OTURANLARA VERMƏYİN MÜNASİB OLMASI

Hədislər

٧٥٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَتَنَفَّسُ فِي الشَّرَابِ ثَلاَثًا. مُتَّفَقٌ عَلَيْهِ .

758. Ənəs *radiyallahu anhın* dediyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* suyu və digər içkiləri üç nəfəsə içərdi.

Buxari, Əşribə 26; Müslim, Əşribə 123. Həmçinin bax. Əbu Davud, Əşribə 19; Tirmizi, Əşribə 13; İbn Macə, Əşribə 18

❁

٧٥٩ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَشْرَبُوا وَاحِدًا كَشُرْبِ الْبَعِيرِ ، وَلَكِنْ اشْرَبُوا مَثْنَى وَثُلاَثَ ، وَسَمُّوا إِذَا أَنْتُمْ شَرِبْتُمْ ، وَاحْمَدُوا إِذَا أَنْتُمْ رَفَعْتُمْ». رَوَاهُ التِّرْمِذِيُّ .

759. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dəvə kimi birnəfəsə içməyin. İki, üç nəfəsə için. Nə isə içəcəyiniz zaman bismillah deyin. İçəndən sonra da əlhəmdulillah deyin".

Tirmizi, Əşribə 13

❁

٧٦٠ ـ عَنْ أَبِي قَتَادَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ نَهَى أَنْ يُتَنَفَّسَ فِي الْإِنَاءِ . مُتَّفَقٌ عَلَيْهِ .

760. Əbu Qatadə *radiyallahu anhın* söylədiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* qabın içinə nəfəs alıb-verməyi qadağan etdi.

Buxari, Vudu 19; Müslim, Təharət 65, Əşribə 121. Həmçinin bax. Əbu Davud, Əşribə 20; Tirmizi, Əşribə 15, 16; Nəsai, Təharət 42

❁

٧٦١ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أُتِيَ بِلَبَنٍ قَدْ شِيبَ بِمَاءٍ ، وَعَنْ يَمِينِهِ أَعْرَابِيٌّ ، وَعَنْ يَسَارِهِ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ ، فَشَرِبَ ، ثُمَّ أَعْطَى الْأَعْرَابِيَّ ، وَقَالَ: «الْأَيْمَنَ فَالْأَيْمَنَ». مُتَّفَقٌ عَلَيْهِ .

761. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmə* su qatılmış süd gətirdilər. Həmin əsnada Peyğəmbər *səllallahu əleyhi və səlləmin* sağında bir bədəvi, solunda isə Əbu Bəkr radiyallahu anh otururdu. Süddən içəndən sonra onu bədəviyə verdi və:

"Hamı sağındakına versin!" - buyurdu.

Buxari, Əşribə 14, 18; Müslim, Əşribə 124. Həmçinin bax. Əbu Davud, Əşribə 19; Tirmizi, Əşribə 19; İbn Macə, Əşribə 22

❁

٧٦٢ ـ عَنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أُتِيَ بِشَرَابٍ ، فَشَرِبَ مِنْهُ ، وَعَنْ يَمِينِهِ غُلَامٌ ، وَعَنْ يَسَارِهِ أَشْيَاخٌ ، فَقَالَ لِلْغُلَامِ: «أَتَأْذَنُ لِي أَنْ أُعْطِيَ هَؤُلَاءِ ؟». فَقَالَ الْغُلَامُ: لاَ وَاللَّهِ ، لاَ أُوثِرُ بِنَصِيبِي مِنْكَ أَحَدًا. فَتَلَّهُ رَسُولُ اللَّهِ ﷺ فِي يَدِهِ. مُتَّفَقٌ عَلَيْهِ .

762. Səhl bin Sad *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmə* içmək üçün bir şey gətirdilər. O da içdi. Bu zaman sağ tərəfində bir uşaq, sol tərəfində isə yaşlılar oturmuşdu.

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* uşağa baxaraq:

- **"Bunu yaşlılara verə bilərəm?"** - deyə soruşdu.

Uşaq:

- Xeyr, vallahi olmaz, ya Rəsulallah! Səndən gələcək xeyri heç kimə bağışlaya bilmərəm,- dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* də qabı uşağa verdi.

Buxari, Şirb vəl-müsaqat 1, 10, Məzalim 12, Hibə 22, 23; Əşribə, 19; Müslim, Əşribə 127

SU TULUĞUNA AĞZI DİRƏYİB İÇMƏMƏK

SU TULUĞU KİMİ QABLARA AĞZI DİRƏYİB SU İÇMƏYİN DOĞRU OLMADIĞI, BUNUN HARAM DEYİL, MƏKRUH OLDUĞU

Hədislər

٧٦٣ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ عَنِ اخْتِنَاثِ الْأَسْقِيَةِ. مُتَّفَقٌ عَلَيْهِ .

763. Əbu Səid *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ağzı çatlaq su qablarından su içməyi qadağan etdi.

Buxari, Əşribə 23; Müslim, Əşribə 110, 111. Həmçinin bax. Əbu Davud, Əşribə 15; Tirmizi, Əşribə 17; İbn Macə, Əşribə 19

❁

٧٦٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ أَنْ يُشْرَبَ مِنْ فِي السِّقَاءِ أَوِ الْقِرْبَةِ. مُتَّفَقٌ عَلَيْهِ .

764. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* su tuluğu, yaxud səhəngin ağzından su içməyi qadağan etdi.

Buxari, Əşribə 24; Həmçinin bax. Əbu Davud, Əşribə 14; Nəsai, Dahaya 44; İbn Macə, Əşribə 20

٧٦٥ ـ عَنْ أُمِّ ثَابِتٍ ، كَبْشَةَ بِنْتِ ثَابِتٍ أُخْتِ حَسَّانَ بْنِ ثَابِتٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَتْ: دَخَلَ عَلَيَّ رَسُولُ اللَّهِ ﷺ فَشَرِبَ مِنْ فِي قِرْبَةٍ مُعَلَّقَةٍ قَائِمًا ، فَقُمْتُ إِلَى فِيهَا فَقَطَعْتُهُ . رَوَاهُ التِّرْمِذِيُّ .

765. Hassan bin Sabitin bacısı Ümmü Sabit Kəbşə binti Sabit *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* evimə gəldi. Divardan asılmış tuluğun ağzından ayaq üstə su içdi. Mən dərhal qalxıb tuluğun ağzını kəsdim. [46]

Tirmizi, Əşribə 18

İÇKİYƏ ÜFÜRMƏMƏK

Hədislər

٧٦٦ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ نَهَى عَنِ النَّفْخِ فِي الشَّرَابِ ، فَقَالَ رَجُلٌ: الْقَذَاةُ أَرَاهَا فِي الْإِنَاءِ ؟ فَقَالَ «أَهْرِقْهَا». قَالَ: إِنِّي لاَ أَرْوَى مِنْ نَفَسٍ وَاحِدٍ ؟ قَالَ: «فَأَبِنِ الْقَدَحَ إِذًا عَنْ فِيكَ». رَوَاهُ التِّرْمِذِيُّ .

766. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* içiləcək şeyə üfürməyi qadağan etmişdi.

Bu zaman bir nəfər:

- Qaba çör-çöp düşsə nə edim? - dedi.

- **"Qaba düşəni tök!"** - buyurdu.

Bu dəfə həmin adam:

- Birnəfəsə içəndə sudan doymuram,- dedi.

Rəsuli-Əkrəm də:

- **"Elə isə su qabını ağzından çək!"** - buyurdu.

Tirmizi, Əşribə 15

46. Bu hərəkət Hz. Peyğəmbərin ağzını dəydiyi yeri xatirə saxlamaq üçündür.

٧٦٧ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ النَّبِيَّ ﷺ نَهَى أَنْ يُتَنَفَّسَ فِي الْإِنَاءِ أَوْ يُنْفَخَ فِيهِ. رَوَاهُ التِّرْمِذِيُّ .

767. İbn Abbas *radiyallahu anhumənin* rəvayətinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* qabın içinə nəfəs alıb-verməyi və ya qaba üfürməyi qadağan etdi.

Tirmizi, Əşribə 15. Həmçinin bax. 760 nömrəli hədisin qaynaqları

AYAQ ÜSTƏ İÇMƏYİN MÜMKÜNLÜYÜ, OTURARAQ İÇMƏYİN İSƏ DAHA MÜNASİB OLMASI

Hədislər

٧٦٨ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَقَيْتُ النَّبِيَّ ﷺ مِنْ زَمْزَمَ فَشَرِبَ وَهُوَ قَائِمٌ. مُتَّفَقٌ عَلَيْهِ .

768. İbn Abbas *radiyallahu anhumə* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmə* zəmzəm verdim. Ayaq üstə içdi.

Buxari, Həcc 76, Əşribə 16; Müslim, Əşribə 117-119. Həmçinin bax. Nəsai, Mənasik 166; İbn Macə, Əşribə 21

٧٦٩ ـ عَنِ النَّزَّالِ بْنِ سَبْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَى عَلِيٌّ رَضِيَ اللَّهُ عَنْهُ بَابَ الرَّحَبَةِ فَشَرِبَ قَائِمًا ، وَقَالَ: إِنِّي رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ فَعَلَ كَمَا رَأَيْتُمُونِي فَعَلْتُ. رَوَاهُ الْبُخَارِيُّ .

769. Nəzzal bin Səbirə *radiyallahu anh* belə dedi:

Əli radiyallahu anh Bəbur-rahbəyə girdi və ayaq üstə su içdi. Sonra belə dedi:

Mənim içdiyimi gördüyünüz kimi Rəsulullah *səllallahu əleyhi və səlləmin* su içdiyini gördüm.

Buxari, Əşribə 16

٧٧٠ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كُنَّا عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ نَأْكُلُ وَنَحْنُ نَمْشِي وَنَشْرَبُ وَنَحْنُ قِيَامٌ. رَوَاهُ التِّرْمِذِيُّ .

770. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Biz Rəsulullah *səllallahu əleyhi və səlləmin* dövründə yol gedərkən nə isə yeyər və ayaq üstə su içərdik.

Tirmizi, Əşribə 11. Həmçinin bax. İbn Macə, Ətimə 25

❁

٧٧١ ـ عَنِ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ يَشْرَبُ قَائِمًا وَقَاعِدًا. رَوَاهُ التِّرْمِذِيُّ .

771. Amr bin Şuaybın atasından, onun da babasından rəvayət etdiyinə görə babası (Abdullah bin Amr bin As) belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* ayaq üstə və oturaraq su içdiyini gördüm.

Tirmizi, Əşribə 12. Həmçinin bax. Nəsai, Səhv 100

❁

٧٧٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ نَهَى أَنْ يَشْرَبَ الرَّجُلُ قَائِمًا. قَالَ قَتَادَةُ: فَقُلْنَا لأَنَسٍ : فَالأَكْلُ ؟ قَالَ: ذَلِكَ أَشَرُّ ، أَوْ أَخْبَثُ. رَوَاهُ مُسْلِمٌ .

وَفِي رِوَايَةٍ لَهُ أَنَّ النَّبِيَّ ﷺ زَجَرَ عَنِ الشُّرْبِ قَائِمًا.

772. Ənəs *radiyallahu anhın* rəvayətinə görə Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* ayaq üstə su içməyi qadağan etmişdir.

Ravi Qatadə belə dedi:

- Biz Ənəsdən ayaq üstə yemək necə? - deyə soruşduq. Ənəs:

- Ayaq üstə yemək daha pisdir,- dedi.

Müslim, Əşribə 113. Həmçinin bax. Tirmizi, Əşribə 11

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* "ayaq üstə su içməyi qadağan etmişdir" ifadəsi Müslmin başqa bri rəvayətində "ayaq üstə su içməyə mane olmuşdur" (zəcərə) şəklində keçir.

Müslim, Əşribə 112, 114

٧٧٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهَ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «لاَ يَشْرَبَنَّ أَحَدٌ مِنْكُمْ قَائِمًا ، فَمَنْ نَسِيَ فَلْيَسْتَقِيءْ». رَوَاهُ مُسْلِمٌ .

773. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən heç kim ayaq üstə su içməsin. Unudaraq içən də qussun!"[47]

Müslim, Əşribə 116

CAMAATA SU PAYLAYANIN ƏN AXIRDA İÇMƏSİ

Hədis

٧٧٤ ـ عَنْ أَبِي قَتَادَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «سَاقِي الْقَوْمِ آخِرُهُمْ». يَعْنِي «آخِرُهُمْ شُرْبًا». رَوَاهُ التِّرْمِذِيُّ .

774. Əbu Qatadədən rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Camaata su paylayan suyu ən axırda içər".

Tirmizi, Əşribə 20. Həmçinin bax. Müslim, Məsacid 311; Əbu Davud, Əşribə 19; İbn Macə, Əşribə 26

47. Bu tövsiyə mütləq belə edilməlidir mənasına gəlmir. Ayaq üstə su içməkdən çəkindirmək məqsədi daşıyır.

TƏMİZ QABLARDAN SU İÇMƏK

QIZIL VƏ GÜMÜŞ OLMAYAN BÜTÜN TƏMİZ QABLARDAN, STƏKAN VƏ YA ƏLİNDƏN İSTİFADƏ ETMƏDƏN AĞIZLA ÇAYDAN SU İÇMƏYİN CAİZ OLMASI. QIZIL VƏ GÜMÜŞ QABLARDA YEMƏK YEMƏYİN, TƏMİZLİK VƏ DİGƏR İŞLƏRDƏ ONLARDAN İSTİFADƏNİN HARAM OLMASI.

Hədislər

٧٧٥ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: حَضَرَتِ الصَّلاَةُ ، فَقَامَ مَنْ كَانَ قَرِيبَ الدَّارِ إِلَى أَهْلِهِ ، وَبَقِيَ قَوْمٌ فَأُتِيَ رَسُولُ اللَّهِ ﷺ بِمِخْضَبٍ مِنْ حِجَارَةٍ ، فَصَغُرَ الْمِخْضَبُ أَنْ يَبْسُطَ فِيهِ كَفَّهُ ، فَتَوَضَّأَ الْقَوْمُ كُلُّهُمْ. قَالُوا: كَمْ كُنْتُمْ ؟ قَالَ: ثَمَانِينَ وَزِيَادَةً . مُتَّفَقٌ عَلَيْهِ .

هَذِهِ رِوَايَةُ الْبُخَارِيِّ ، وَ فِي رِوَايَةٍ لَهُ وَلِمُسْلِمٍ أَنَّ النَّبِيَّ ﷺ دَعَا بِإِنَاءٍ مِنْ مَاءٍ ، فَأُتِيَ بِقَدَحٍ رَحْرَاحٍ فِيهِ شَيْءٌ مِنْ مَاءٍ ، فَوَضَعَ أَصَابِعَهُ فِيهِ. قَالَ أَنَسٌ: فَجَعَلْتُ أَنْظُرُ إِلَى الْمَاءِ يَنْبُعُ مِنْ بَيْنِ أَصَابِعِهِ ، فَحَزَرْتُ مَنْ تَوَضَّأَ مَا بَيْنَ السَّبْعِينَ إِلَى الثَّمَانِينَ.

775. Ənəs *radiyallahu anh* belə dedi:

Namaz vaxtı girəndə evi yaxında olanlar evlərinə getdilər. Bəziləri isə olduqları yerdə qaldılar. Rəsulullah *səllallahu əleyhi və səlləmə* daşdan düzəldilmiş bir qab gətirdilər. Orada olanların hamısı, içinə Rəsuli-Əkrəmin əli sığmayacaq qədər dar olan həmin qabdan dəstəmaz aldı.

Bəziləri Ənəsdən:

- Orada neçə nəfər idiniz? - deyə soruşdular. Ənəs:

- Səksən nəfərdən çox idik,- dedi.

Buxari, Vudu 32, 45, Mənaib 25; Müslim, Fəzail 5

Buxari və Müslimin başqa bir rəvayəti belədir:

Peyğəmbər *səllallahu əleyhi və səlləm* bir qab su istədi. İçində bir az su olan, lakin dərin olmayan geniş bir qab gətirdilər. Rəsuli-Əkrəm əlini suya soxdu.

Ənəs belə dedi:

Rəsuli-Əkrəmin barmaqları arasından qaynayan suya baxmağa başladım. Həmin su ilə yetmiş-səksən nəfər dəstəmaz aldı.

Buxari, Vudu 46; Müslim, Fəzail 4. Həmçinin bax. Nəsai, Təharət 61; Tirmizi, Mənaqib 6

❁

٧٧٦ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ زَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَانَا النَّبِيُّ ﷺ فَأَخْرَجْنَا لَهُ مَاءً فِي تَوْرٍ مِنْ صُفْرٍ ، فَتَوَضَّأَ. رَوَاهُ الْبُخَارِيُّ .

776. Abdullah bin Zeyd *radiyallahu anh* belə dedi:

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* bizə gəldi. Ona mis qabda su gətirdik. Dəstəmaz aldı.

Buxari, Vudu 45. Həmçinin bax. Əbu Davud, Təharət 47; İbn Macə, Təharət 61

❁

٧٧٧ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: إِنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ عَلَى رَجُلٍ مِنَ الْأَنْصَارِ ، وَمَعَهُ صَاحِبٌ لَهُ ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِنْ كَانَ عِنْدَكَ مَاءٌ بَاتَ هَذِهِ اللَّيْلَةَ فِي شَنٍّ ، وَإِلاَّ كَرَعْنَا». رَوَاهُ الْبُخَارِيُّ .

777. Cabir bin Abdullah *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bir səhabə ilə ənsardan bir nəfərin yanına getdi və belə buyurdu:

"Bu gecə qabda soyumuş suyun varsa gətir, yoxsa əyilib dərədən içərik".

Buxari, Əşribə 14, 20. Həmçinin bax. Əbu Davud, Əşribə 18; İbn Macə, Əşribə 25

❁

٧٧٨ ـ عَنْ حُذَيْفَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: إِنَّ النَّبِيَّ ﷺ نَهَانَا عَنِ الْحَرِيرِ

وَالدِّيبَاجِ وَالشُّرْبِ فِي آنِيَةِ الذَّهَبِ وَالْفِضَّةِ ، وَقَالَ: «هِيَ لَهُمْ فِي الدُّنْيَا ، وَهِيَ لَكُمْ فِي الْآخِرَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

778. Hüzeyfə *radiyallahu anh* belə dedi:

Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* bizə xalis ipək və atlas parçadan paltar geyinməyi, qızıl və gümüş qabdan su içməyi qadağan etdi və belə buyurdu:

"Bunlar dünyada kafirlərin, axirətdə isə sizin olacaq".

Buxari, Əşribə 28, Libas 27; Müslim, Libas 3, 4. Həmçinin bax. Əbu Davud, Əşribə 17; Tirmizi, Əşribə 10; İbn Macə, Əşribə 17

❁

٧٧٩ ـ عَنْ أُمِّ سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «الَّذِي يَشْرَبُ فِي آنِيَةِ الْفِضَّةِ إِنَّمَا يُجَرْجِرُ فِي بَطْنِهِ نَارَ جَهَنَّمَ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِمُسْلِمٍ: «إِنَّ الَّذِي يَأْكُلُ أَوْ يَشْرَبُ فِي آنِيَةِ الْفِضَّةِ وَالذَّهَبِ».

وَفِي رِوَايَةٍ لَهُ: «مَنْ شَرِبَ فِي إِنَاءٍ مِنْ ذَهَبٍ أَوْ فِضَّةٍ فَإِنَّمَا يُجَرْجِرُ فِي بَطْنِهِ نَارًا مِنْ جَهَنَّمَ».

779. Ümmü Sələmə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Gümüş qabdan su içən adam qarnına cəhənnəm odu doldurmuş olar".

Buxari, Əşribə 28; Müslim, Libas 1. Həmçinin bax. İbn Macə, Əşribə 17

Müslimin bir rəvayətinə görə:

"Gümüş və qızıl qabdan yeyib-içən kəs", - buyurdu.

(Libas 1)

Həmçinin Müslimin bir rəvayətinə görə:

"Qızıl və ya gümüş qabdan su içən kəs qarnına cəhənnəm odu doldurmuş olar", - buyurdu.

(Əşribə 2)

GEYİM-KEÇİM BÖLÜMÜ

AĞ PALTAR GEYİNMƏYİN MÜSTƏHƏB OLMASI. QIRMIZI, YAŞIL, SARI, QARA RƏNGLİ VƏ İPƏK XARİCİNDƏ PAMBIQ, KƏTAN, YUN VƏ BAŞQA MADDƏDƏN TİKİLƏN PALTARLARIN GEYİLMƏSİNİN MÜMKÜNLÜYÜ

Ayələr

يَا بَنِي آدَمَ قَدْ أَنْزَلْنَا عَلَيْكُمْ لِبَاسًا يُوَارِي سَوْآتِكُمْ وَرِيشًا وَلِبَاسُ التَّقْوٰى ذَلِكَ خَيْرٌ.

1. "Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bir də bəzəkli libas (və ya mal-dövlət) **nazil etdik. Lakin təqva libası daha yaxşıdır** (xeyirlidir)**".**

(əl-Əraf, 26)

وَجَعَلَ لَكُمْ سَرَابِيلَ تَقِيكُمُ الْحَرَّ وَسَرَابِيلَ تَقِيكُمْ بَأْسَكُمْ.

2. "Sizi istidən (və soyuqdan) **saxlayacaq köynəklər,** (sizi müharibədə) **qoruyacaq zirehli geyimlər düzəltdi".**

(ən-Nəhl, 81)

Hədislər

٧٨٠ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِلْبَسُوا مِنْ ثِيَابِكُمُ الْبَيَاضَ ، فَإِنَّهَا مِنْ خَيْرِ ثِيَابِكُمْ ، وَكَفِّنُوا فِيهَا مَوْتَاكُمْ». رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ .

780. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

"Ağ rəngli paltarlar geyinin. Çünki paltarların xeyirlisi ağ olandır. Ölülərinizi də ağ kəfənə bükün".

Əbu Davud, Tibb 14, Libas 1; Tirmizi, Cənaiz 18, Ədəb 46. Həmçinin bax. Nəsai, Cənaiz 38, Zinət 97; İbn Macə, Cənaiz 12, Libas 5

❁

٧٨١ ـ عَنْ سَمُرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِلْبَسُوا الْبَيَاضَ، فَإِنَّهَا أَطْهَرُ وَأَطْيَبُ ، وَكَفِّنُوا فِيهَا مَوْتَاكُمْ». رَوَاهُ النِّسَائِيُّ ، وَالْحَاكِمُ.

781. Səmurə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ağ rəngli paltar geyinin. Çünki ağ daha təmiz və daha xoşdur. Ölülərinizi də ağ ilə kəfənləyin".

Nəsai, Cənaiz 38, Zinət 97; Hakim, Müstədrək IV, 185. Həmçinin bax. Ədəb 46; İbn Macə, Libas 5

❁

٧٨٢ ـ عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ مَرْبُوعًا، وَلَقَدْ رَأَيْتُهُ فِي حُلَّةٍ حَمْرَاءَ مَا رَأَيْتُ شَيْئًا قَطُّ أَحْسَنَ مِنْهُ . مُتَّفَقٌ عَلَيْهِ .

782. Bəra bin Azib *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* orta boylu idi. Mən onu qırmızı paltarda gördüm. Həyatımda Rəsuli-Əkrəmdən daha gözəl heç nə görmədim.

Buxari, Mənaqib 23, Libas 35; Müslim, Fəzail 91. Həmçinin bax. Nəsai, Zinət 59

❁

٧٨٣ ـ عَنْ أَبِي جُحَيْفَةَ وَهْبِ بْنِ عَبْدِ اللَّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَأَيْتُ النَّبِيَّ ﷺ بِمَكَّةَ وَهُوَ بِالْأَبْطَحِ فِي قُبَّةٍ لَهُ حَمْرَاءَ مِنْ أَدَمٍ فَخَرَجَ بِلَالٌ بِوَضُوئِهِ ، فَمِنْ

نَاضِحٍ وَمِنْ نَائِلٍ ، فَخَرَجَ النَّبِيُّ ﷺ وَعَلَيْهِ حُلَّةٌ حَمْرَاءُ ، كَأَنِّي أَنْظُرُ إِلَى بَيَاضِ سَاقَيْهِ ، فَتَوَضَّأَ ، وَأَذَّنَ بِلاَلٌ ، فَجَعَلْتُ أَتَتَبَّعُ فَاهُ هَهُنَا وَهَهُنَا ، يَقُولُ يَمِينًا وَشِمَالاً: حَيَّ عَلَى الصَّلاَةِ ، حَيَّ عَلَى الْفَلاَحِ. ثُمَّ رُكِزَتْ لَهُ عَنَزَةٌ ، فَتَقَدَّمَ فَصَلَّى يَمُرُّ بَيْنَ يَدَيْهِ الْكَلْبُ وَالْحِمَارُ ، لاَ يُمْنَعُ. مُتَّفَقٌ عَلَيْهِ .

783. Əbu Cüheyfə Vəhb bin Abdullah *radiyallahu anh* belə dedi:

Peyğəmbər *səllallahu əleyhi və səlləmi* Məkkədə Əbtah adlanan yerdə dəridən hazırlanmış qırmızı çadırda gördüm. Bilal əlində Rəsuli-Əkrəmin dəstəmaz aldığı su qabı ilə çadırdan çıxdı. Səhabələrdən bəzisi həmin su ilə bədənini isladır, bəzisi isə ondan ovucla götürürdü. Bu zaman Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* əynində qırmızı paltar olduğu halda çölə çıxdı. Ağappaq baldırı hələ də gözümün önündədir. Sonra dəstəmaz aldı. Bilal azan oxudu. Məndə ora və bura, yəni sağa və sola çevrilərkən Bilalın ağzından çıxanları izləməyə başladım: hayyə aləs-saləh, hayyə aləl-fələh deyirdi. Sonra sütrə məqsədi ilə Rəsuli-Əkrəmin önünə ucu iti dəmirdən bir əsa sancıldı. Peyğəmbərimiz qabağa keçib namaz qıldırdı. Sütrənin qarşısından it və eşşək keçirdi, lakin onların keçməsinə mane olmurdular.

Buxari, Salət 17; Müslim, Salət 259. Həmçinin bax. Buxari, Vudu 40, Libas 42; Əbu Davud, Salət 34

❁

٧٨٤ ـ عَنْ أَبِي رِمْثَةَ رِفَاعَةَ التَّمِيمِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ وَعَلَيْهِ ثَوْبَانِ أَخْضَرَانِ. رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ.

784. Əbu Rimsə Rifaə ət-Təmimi *radiyallahu anh* belə demişdir:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmi* əynindəki iki yaşıl paltarla gördüm.

Əbu Davud, Libas 16; Tirmizi, Ədəb 48

❁

٧٨٥ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ يَوْمَ فَتْحِ مَكَّةَ وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ. رَوَاهُ مُسْلِمٌ .

785. Cabir *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Məkkənin fəth olunduğu gün başında qara əmmamə olduğu halda Məkkəyə girdi.

Müslim, Həcc 451. Həmçinin bax. Əbu Davud, Libas 21; Tirmizi, Libas 11; Nəsai, Mənasik 107, Zinət 109; İbn Macə, Libas 14

❁

٧٨٦ ـ عَنْ أَبِي سَعِيدٍ عَمْرِو بْنِ حُرَيْثٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَأَنِّي أَنْظُرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ ، قَدْ أَرْخَى طَرَفَيْهَا بَيْنَ كَتِفَيْهِ. رَوَاهُ مُسْلِمٌ.

وَفِي رِوَايَةٍ لَهُ: أَنَّ رَسُولَ اللَّهِ ﷺ خَطَبَ النَّاسَ وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ.

786. Əbu Səid Amr bin Hureys *radiyallahu anh* belə deyir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* başında qara əmmamə, əmmamənin iki ucu çiyinlərinin arasına sallanmış halda hələ də gözümün qabağındadır.

Müslimin başqa bir rəvayəti belədir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* başında qara əmmamə olduğu halda insanlara xütbə oxudu.

Müslim, Həcc 452-453. Həmçinin bax. 785 nömrəli hədisin qaynaqları

❁

٧٨٧ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كُفِّنَ رَسُولُ اللَّهِ ﷺ فِي ثَلاَثَةِ أَثْوَابٍ بِيضٍ سَحُولِيَّةٍ مِنْ كُرْسُفٍ ، لَيْسَ فِيهَا قَمِيصٌ وَلاَ عِمَامَةٌ . مُتَّفَقٌ عَلَيْهِ .

787. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* pambıqdan toxunmuş üç parçadan ibarət ağ Səhuliyyə qumaşı ilə kəfənləndi. Bu üç parçanın arasında köynək və əmmamə yox idi.

Buxari, Cənaiz 19, 24; Müslim, Cənaiz 45. Həmçinin bax. Nəsai, Cənaiz 39

٧٨٨ ـ وَعَنْهَا قَالَتْ: خَرَجَ رَسُولُ اللَّهِ ﷺ ذَاتَ غَدَاةٍ وَعَلَيْهِ مِرْطٌ مُرَحَّلٌ مِنْ شَعَرٍ أَسْوَدَ. رَوَاهُ مُسْلِمٌ .

788. Yenə Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bir səhər əynində dəvə səməri şəkli olan qara qıldan toxunmuş bəzəkli paltarla evdən çölə çıxdı.

Müslim, Libas 36. Həmçinin bax. Əbu Davud, Libas 5; Tirmizi, Ədəb 49

❁

٧٨٩ ـ عَنِ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كُنْتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ ذَاتَ لَيْلَةٍ فِي مَسِيرِهِ ، فَقَالَ لِي: «أَمَعَكَ مَاءٌ» ؟ قُلْتُ: نَعَمْ ، فَنَزَلَ عَنْ رَاحِلَتِهِ ، فَمَشَى حَتَّى تَوَارَى فِي سَوَادِ اللَّيْلِ ، ثُمَّ جَاءَ فَأَفْرَغْتُ عَلَيْهِ مِنَ الْإِدَاوَةِ ، فَغَسَلَ وَجْهَهُ وَعَلَيْهِ جُبَّةٌ مِنْ صُوفٍ ، فَلَمْ يَسْتَطِعْ أَنْ يُخْرِجَ ذِرَاعَيْهِ مِنْهَا حَتَّى أَخْرَجَهُمَا مِنْ أَسْفَلِ الْجُبَّةِ ، فَغَسَلَ ذِرَاعَيْهِ وَمَسَحَ بِرَأْسِهِ ، ثُمَّ أَهْوَيْتُ لِأَنْزِعَ خُفَّيْهِ ، فَقَالَ: «دَعْهُمَا ، فَإِنِّي أَدْخَلْتُهُمَا طَاهِرَتَيْنِ». وَمَسَحَ عَلَيْهِمَا. مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ : وَعَلَيْهِ جُبَّةٌ شَامِيَّةٌ ضَيِّقَةُ الْكُمَّيْنِ .

وَفِي رِوَايَةٍ: أَنَّ هَذِهِ الْقَضِيَّةَ كَانَتْ فِي غَزْوَةِ تَبُوكَ.

789. Muğirə bin Şöbə *radiyallahu anh* belə dedi:

Bir gecə Nəbi *səllallahu əleyhi və səlləm* ilə səfərdə idim. Mənə:

- **"Yanında su varmı?"** - dedi. Mən:

- Bəli,- cavabını verdim. Bunun üzərinə dəvəsindən düşüb irəlilədi və gecənin qaranlığında gözdən itdi. Sonra qayıtdı. Mən tuluqdan əlinə su tökdüm, üzünü yudu. Əynində yundan tikilmiş cübbə vardı. Qollarını qol yerindən çıxarda bilmədiyi üçün cübbənin altından çıxarıb yudu və başına məsh çəkdi. Mən məstlərini çıxartmaq üçün əlimi uzatdım.

- **"Onlara toxunma, çünki məstlərimi dəstəmazlı ikən geyindim"** buyurdu və üstünə məsh çəkdi.

Başqa bir rəvayətdə: "Əynində qolları dar Şam cübbəsi vardı" deyilir.
(Nəsai, Təharət 66)

Başqa bir rəvayətdə isə bu hadisənin Təbuk qəzvəsində baş verdiyi deyilir.
(Nəsai, Təharət 63)

Buxari, Salət 7, Libas 11; Müslim, Təharət 77. Həmçinin bax. Nəsai, Təharət 66

KÖYNƏK GEYİNMƏK

Hədis

٧٩٠ ـ عَنْ أُمِّ سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ أَحَبَّ الثِّيَابِ إِلَى رَسُولِ اللَّهِ ﷺ الْقَمِيصُ. رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ.

790. Ümmü Sələmə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* ən çox sevdiyi paltar köynək idi.
Əbu Davud, Libas 3; Tirmizi, Libas 27

PALTARLARIN UZUN VƏ QISA OLMASI

KÖYNƏYİN QOLUNUN, PALTAR VƏ ƏMMAMƏNİN UZUNLUĞU, BUNLARDAN HƏR HANSI BİRİNİN TƏKƏBBÜR VƏ LOVĞALIQ MƏQSƏDİ İLƏ UZADILMASININ HARAM OLMASI, BELƏ BİR MƏQSƏD OLMADAN UZATMAĞIN MƏKRUHLUĞU

Hədislər

٧٩١ ـ عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ الْأَنْصَارِيَّةِ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ كُمُّ قَمِيصِ رَسُولِ اللَّهِ ﷺ إِلَى الرُّسْغِ. رَوَاهُ أَبُو دَاوُدَ، والتِّرْمِذِيُّ.

791. Əsma bin Yezid əl-Ənsariyyə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* köynəyinin qolu biləyinə qədər idi.

Əbu Davud, Libas 3; Tirmizi, Libas 27

❁

٧٩٢ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ جَرَّ ثَوْبَهُ خُيَلاَءَ لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ يَوْمَ الْقِيَامَةِ» ! فَقَالَ أَبُو بَكْرٍ: يَا رَسُولَ اللَّهِ ، إِنَّ إِزَارِي يَسْتَرْخِي إِلاَّ أَنْ أَتَعَاهَدَهُ . فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ : «إِنَّكَ لَسْتَ مِمَّنْ يَفْعَلُهُ خُيَلاَءَ». رَوَاهُ الْبُخَارِيُّ وَرَوَى مُسْلِمٌ بَعْضَهُ.

792. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala qiyamət günü lovğalanaraq təkəbbürlə paltarının ətəyini yerlə sürüyən adamın üzünə baxmaz". Bu zaman Əbu Bəkr:

- Ya Rəsulallah, diqqət etmədiyim zaman mənim də paltarımın ətəyi yerlə sürünür,- dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

- **"Şübhəsiz ki, sən bunu lovğalanmaq üçün etmirsən".**

Buxari, Libas 2, Fəzailus-səhabə 5; Müslim, Libas 43-44. Həmçinin bax. Əbu Davud, Libas 25

❁

٧٩٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لاَ يَنْظُرُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ إِلَى مَنْ جَرَّ إِزَارَهُ بَطَرًا» ! مُتَّفَقٌ عَلَيْهِ .

793. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah qiyamət günü lovğalanaraq paltarının ətəyini yerlə sürüyən adamın üzünə baxmaz".

Buxari, Libas 1, 5; Müslim, Libas 43 (Həmçinin bax 617 nömrəli hədisin qaynaqları)

٧٩٤ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَا أَسْفَلَ مِنَ الْكَعْبَيْنِ مِنَ الْإِزَارِ فَفِي النَّارِ». رَوَاهُ الْبُخَارِيُّ .

794. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Paltarın topuqdan aşağı olan hissəsi cəhənnəmdədir".

Buxari, Libas 4. Həmçinin bax. Əbu Davud, Libas 27

❁

٧٩٥ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «ثَلاَثَةٌ لاَ يُكَلِّمُهُمُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ ، وَلاَ يَنْظُرُ إِلَيْهِمْ ، وَلاَ يُزَكِّيهِمْ ، ولَهُمْ عَذَابٌ أَلِيمٌ». (قَالَ) : فَقَرَأَهَا رَسُولُ اللَّهِ ﷺ ثَلاَثَ مِرَارٍ ، قَالَ أَبُو ذَرٍّ: خَابُوا وَخَسِرُوا ، مَنْ هُمْ يَا رَسُولَ اللَّهِ ؟ قَالَ: «الْمُسْبِلُ ، وَالْمَنَّانُ ، وَالْمُنْفِقُ سِلْعَتَهُ بِالْحَلِفِ الْكَاذِبِ». رَوَاهُ مُسْلِمٌ.

وَفِي رِوَايَةٍ لَهُ: «الْمُسْبِلُ إِزَارَهُ».

795. Əbu Zərr *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Üç qrup insan vardır ki, Allah-Təala qiyamət günü onlarla danışmaz, üzlərinə baxmaz və onları təmizə çıxarmaz. Onlar üçün yandırıcı əzab vardır".

Hədisin ravisi deyir ki;

Rəsulullah *səllallahu əleyhi və səlləm* bu sözü üç dəfə təkrarladı. Bu zaman Əbu Zərr:

- Ziyana düçar oldular və zərər etdilər, onlar kimlərdir, ya Rəsulallah? - dedi. Rəsuli-Əkrəm belə buyurdu:

"Paltarının ətəyini yerlə sürüyən, etdiyi yaxşılığı başa qaxan və ticarət malını yalandan and içərək satmağa çalışan adam".

Müslimin başqa bir rəvayətində **"izarını sürüyən"** deyilir. (Eyni nömrəli hədisin eyni yerdəki başqa təriqidir)

Müslim, İman 171. Həmçinin bax. Əbu Davud, Libas 25; Nəsai, Büyu 5

٧٩٦ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: «اَلْإِسْبَالُ فِي الْإِزَارِ وَالْقَمِيصِ وَالْعِمَامَةِ. مَنْ جَرَّ شَيْئًا خُيَلاَءَ لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ يَوْمَ الْقِيَامَةِ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالنَّسَائِيُّ.

796. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Uzadıla biləcək paltarlar izar, köynək və əmmamədir. Hər kim bunlardan birini lovğalanmaq üçün uzadarsa, Allah-Təala qiyamət günü onun üzünə baxmaz".

Əbu Davud, Libas 27; Nəsai, Zinət 104. Həmçinin bax. İbn Macə, Libas 9

❁

٧٩٧ ـ عَنْ أَبِي جُرَيٍّ جَابِرِ بْنِ سُلَيْمٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَأَيْتُ رَجُلاً يَصْدُرُ النَّاسُ عَنْ رَأْيِهِ ، لاَ يَقُولُ شَيْئًا إِلاَّ صَدَرُوا عَنْهُ ؛ قُلْتُ: مَنْ هَذَا ؟ قَالُوا: رَسُولُ اللَّهِ ﷺ . قُلْتُ: عَلَيْكَ السَّلاَمُ يَا رَسُولَ اللَّهِ ـ مَرَّتَيْنِ ـ قَالَ: «لاَ تَقُلْ: عَلَيْكَ السَّلاَمُ ـ عَلَيْكَ السَّلاَمُ تَحِيَّةُ الْمَوْتَى ـ قُلِ :السَّلاَمُ عَلَيْكَ». (قَالَ) قُلْتُ: أَنْتَ رَسُولُ اللَّهِ ؟ قَالَ: «أَنَا رَسُولُ اللَّهِ الَّذِي إِذَا أَصَابَكَ ضُرٌّ فَدَعَوْتَهُ كَشَفَهُ عَنْكَ ، وَإِذَا أَصَابَكَ عَامُ سَنَةٍ فَدَعَوْتَهُ أَنْبَتَهَا لَكَ ، وَإِذَا كُنْتَ بِأَرْضٍ قَفْرٍ ـ أَوْفَلاَةٍ ـ فَضَلَّتْ رَاحِلَتُكَ فَدَعَوْتَهُ رَدَّهَا عَلَيْكَ». (قَالَ): قُلْتُ: اِعْهَدْ إِلَيَّ. قَالَ: «لاَ تَسُبَّنَ أَحَدًا». (قَالَ) : فَمَا سَبَبْتُ بَعْدَهُ حُرًّا ، وَلاَ عَبْدًا ، وَلاَ بَعِيرًا ، وَلاَ شَاةً. «وَلَا تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئًا ؛ وَأَنْ تُكَلِّمَ أَخَاكَ وَأَنْتَ مُنْبَسِطٌ إِلَيْهِ وَجْهُكَ : إِنَّ ذَلِكَ مِنَ الْمَعْرُوفِ ؛ وَارْفَعْ إِزَارَكَ إِلَى نِصْفِ السَّاقِ ، فَإِنْ أَبَيْتَ فَإِلَى الْكَعْبَيْنِ ؛ وَإِيَّاكَ وَإِسْبَالَ الْإِزَارِ فَإِنَّهَا مِنَ الْمَخِيلَةِ ، وَإِنَّ اللَّهَ لاَ يُحِبُّ الْمَخِيلَةَ. وَإِنِ امْرُؤٌ

شَتَمَكَ أَوْ عَيَّرَكَ بِمَا يَعْلَمُ فِيكَ فَلاَ تُعَيِّرْهُ بِمَا تَعْلَمُ فِيهِ ، فَإِنَّمَا وَبَالُ ذَلِكَ عَلَيْهِ» !

رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ .

797. Əbu Cüreym Cabir bin Süleym *radiyallahu anh* belə dedi:

İnsanların fikrini aldıqları bir nəfər gördüm. Onun dediyi hər sözü qəbul edib yerinə yetirirdilər.

- Bu adam kimdir? - deyə soruşdum.

- Allahın Rəsulu *səllallahu əleyhi və səlləm*dir,- dedilər. Mən iki dəfə:

- Aleykəs-səlam ya Rəsulallah – Sənə salam olsun, ey Allahın Rəsulu,- dedim. Rəsuli-Əkrəm:

- **"Aleykəs-səlam demə. Aleykəs-səlam ölülərə verilən salamdır. əs-Səlamu aleykə - salam sənə olsun de"**, - buyurdu. Mən soruşdum:

- Sən Allahın Rəsulusan? Rəsuli-Əkrəm buyurdu:

- **"Mən sənə bir zərər toxunanda dua etdiyin zaman səndən həmin zərəri uzaqlaşdıran, qıtlıq zamanı dua etdikdə sənə məhsul verən, çöldə və ya səhrada dəvən itəndə dua etdiyin zaman dəvəni sənə geri verən o Allahın Rəsuluyam"**. Bu zaman mən:

- Mənə tövsiyə edin,- dedim. Hz. Peyğəmbər:

- **"Heç kimə söymə"**, - buyurdu. Mən də ondan sonra nə hür, nə kölə heç kimə, nə dəvə, nə də qoyun heç bir heyvana söymədim. Sonra tövsiyəsinə belə davam etdi: **"Heç bir yaxşılığı xor görmə, qardaşınla gülər üzlə danış. Çünki bu da bir yaxşılıqdır. Paltarının ətəyini (balağını) dizinin altına qədər qaldır. Əgər bundan xoşun gəlməsə topuqlarına qədər sal.Lakin paltarını yerdə sürünəcək qədər uzatma, çünki bu təkəbbürdən və özünü bəyənməkdən irəli gəlir. Allah təkəbbürlənən və özünü bəyənənləri sevməz. Əgər kimsə sənə söyər və ya səndə olduğunu bildiyi bir səbəblə səni ayıblayarsa, sən onun haqqında bildiyin şeylər səbəbi ilə onu ayıblama. Onun bu hərəkətinin vəbalı özünə aiddir".**

Əbu Davud, Libas 25; Tirmizi, İstizan 28 (Tirmizinin rəvayəti müxtəsərdir)

٧٩٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: بَيْنَمَا رَجُلٌ يُصَلِّي ، مُسْبِلاً إِزَارَهُ ، قَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ : «اذْهَبْ فَتَوَضَّأْ». فَذَهَبَ فَتَوَضَّأَ ، ثُمَّ جَاءَ ، فَقَالَ: «اذْهَبْ فَتَوَضَّأْ». فَقَالَ لَهُ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ ، مَالَكَ أَمَرْتَهُ أَنْ يَتَوَضَّأَ ثُمَّ سَكَتَّ عَنْهُ ؟ قَالَ: «إِنَّهُ كَانَ يُصَلِّي وَهُوَ مُسْبِلٌ إِزَارَهُ ، إِنَّ اللَّهَ لاَ يَقْبَلُ صَلاَةَ رَجُلٍ مُسْبِلٍ». رَوَاهُ أَبُو دَاوُدَ.

798. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Bir nəfər paltarının ətəyini yerlə sürüyərək namaz qılırdı. Rəsulullah *səllallahu əleyhi və səlləm* ona:

- **"Get, dəstəmaz al!"** - buyurdu. O da gedib dəstəmaz alıb gəldi. Hz. Peyğəmbər təkrar:

- **"Get, dəstəmaz al!"** - deyə əmr etdi. Bu zaman orada olanlardan biri:

- Ya Rəsulallah, nə üçün ona dəstəmaz almasını əmr etdiniz, lakin sonra susdunuz? - deyə soruşdu. Rəsuli-Əkrəm belə buyurdu:

- **"O, paltarını yerdə sürüyərək namaz qılırdı. Şübhəsiz ki, Allah paltarının ətəyini yerlə sürüyən adamın namazını qəbul etməz".**

Əbu Davud, Libas 25. Həmçinin bax. Əbu Davud, Salət 82; Əhməd bin Hənbəl, Müsnəd V, 379

❁

٧٩٩ ـ عَنْ قَيْسِ بْنِ بِشْرٍ التَّغْلِبِيِّ قَالَ: أَخْبَرَنِي أَبِي ـ وَكَانَ جَلِيسًا لأَبِي الدَّرْدَاءِ ـ قَالَ: كَانَ بِدِمَشْقَ رَجُلٌ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ يُقَالُ لَهُ ابْنُ الْحَنْظَلِيَّةِ ، وَكَانَ رَجُلاً مُتَوَحِّدًا قَلَّمَا يُجَالِسُ النَّاسَ ، إِنَّمَا هُوَ صَلاَةٌ ، فَإِذَا فَرَغَ فَإِنَّمَا هُوَ تَسْبِيحٌ وَتَكْبِيرٌ ، حَتَّى يَأْتِيَ أَهْلَهُ ؛ فَمَرَّ بِنَا وَنَحْنُ عِنْدَ أَبِي الدَّرْدَاءِ ، فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلاَ تَضُرُّكَ ! قَالَ: بَعَثَ رَسُولُ اللَّهِ ﷺ سَرِيَّةً فَقَدِمَتْ ، فَجَاءَ رَجُلٌ

مِنْهُمْ فَجَلَسَ فِي الْمَجْلِسِ الَّذِي يَجْلِسُ فِيهِ رَسُولُ اللَّهِ ﷺ ، فَقَالَ لِرَجُلٍ إِلَى جَنْبِهِ: لَوْ رَأَيْتَنَا حِينَ الْتَقَيْنَا نَحْنُ والْعَدُوُّ ، فَحَمَلَ فُلاَنٌ فَطَعَنَ ، فَقَالَ: خُذْهَا مِنِّي وَأَنَا الْغُلاَمُ الْغِفَارِيُّ ، كَيْفَ تَرَى فِي قَوْلِهِ هَذَا ؟ فَقَالَ: مَا أُرَاهُ إِلاَّ قَدْ بَطَلَ أَجْرُهُ. فَسَمِعَ بِذَلِكَ آخَرُ ، فَقَالَ: مَا أَرَى بِذَلِكَ بَأْسًا ؛ فَتَنَازَعَا حَتَّى سَمِعَ رَسُولُ اللَّهِ ﷺ فَقَالَ: «سُبْحَانَ اللَّهِ ! لاَ بَأْسَ أَنْ يُؤْجَرَ وَيُحْمَدَ». فَرَأَيْتُ أَبَا الدَّرْدَاءِ سُرَّ بِذَلِكَ ، وَجَعَلَ يَرْفَعُ رَأْسَهُ إِلَيْهِ وَيَقُولُ: أَأَنْتَ سَمِعْتَ ذَلِكَ مِنْ رَسُولِ اللَّهِ ﷺ؟ فَيَقُولُ: نَعَمْ ؛ فَمَا زَالَ يُعِيدُ عَلَيْهِ حَتَّى إِنِّي لَأَقُولُ: لَيَبْرَكَنَّ عَلَى رُكْبَتَيْهِ . (قَالَ) : فَمَرَّ بِنَا يَوْمًا آخَرَ ، فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلاَ تَضُرُّكَ ! قَالَ: قَالَ لَنَا رَسُولُ اللَّهِ ﷺ : «الْمُنْفِقُ عَلَى الْخَيْلِ كَالْبَاسِطِ يَدَهُ بِالصَّدَقَةِ لاَ يَقْبِضُهَا». ثُمَّ مَرَّ بِنَا يَوْمًا آخَرَ ، فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلاَ تَضُرُّكَ ! قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «نِعْمَ الرَّجُلُ خُرَيْمٌ الأُسَيْدِيُّ ! لَوْلاَ طُولُ جُمَّتِهِ وَإِسْبَالُ إِزَارِهِ !» فَبَلَغَ ذَلِكَ خُرَيْمًا فَعَجَّلَ ، فَأَخَذَ شَفْرَةً فَقَطَعَ بِهَا جُمَّتَهُ إِلَى أُذُنَيْهِ ، وَرَفَعَ إِزَارَهُ إِلَى أَنْصَافِ سَاقَيْهِ. ثُمَّ مَرَّ بِنَا يَوْمًا آخَرَ ، فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلاَ تَضُرُّكَ ! قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّكُمْ قَادِمُونَ عَلَى إِخْوَانِكُمْ ، فَأَصْلِحُوا رِحَالَكُمْ ، وَأَصْلِحُوا لِبَاسَكُمْ ، حَتَّى تَكُونُوا كَأَنَّكُمْ شَامَةٌ فِي النَّاسِ ؛ فَإِنَّ اللَّهَ لاَ يُحِبُّ الْفُحْشَ وَلاَ التَّفَحُّشَ» ! رَوَاهُ أَبُو دَاوُدَ.

799. Qeys bin Bişr ət-Təğlibi belə demişdir:

Mənə Əbu Dərdanın dostu olan atam xəbər verdi və belə dedi:

Dəməşqdə Peyğəmbər *səllallahu əleyhi və səlləmin* əshabından İbnul-Hanzaliyyə adlı bir nəfər vardı. O, təkbaşına yaşayır və insanlarla çox az görüşürdü. Daima namaz qılar və namazdan ayrılıb ailəsinin yanına gedərkən də təkbir və təsbihlə məşğul olardı. Bir dəfəƏbu Dər-

danın yanında oturmuşduq, həmin adam bizə baş çəkdi. Əbu Dərda ona:

- Bizə faydalı olacaq, sənə zərəri toxunmayacaq bir söz söylə,- dedi. İbn Hanzaliyyə belə dedi:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* hərbi birlik göndərmişdi, bir müddət sonra birlikdəkilər geri qayıtmışdılar. Onların arasından bir əsgər gəlib Rəsulullah *səllallahu əleyhi və səlləmin* oturduğu yerə oturdu və yanındakı adama belə dedi:

- Düşmənlə qarşılaşdığımız zaman bizi görməli idin. Filankəs düşmənə hücum etdi, mizrağı ilə onu vurub:

- Al, bu da məndən sənə! Mən Qifardan olan gəncəm,- dedi. Onun bu sözünü necə qiymətləndirirsən? - deyə soruşdu. O biri adam:

- Mənə elə gəlir ki, həmin adamın bütün savabı puç olmuşdur, -cavabını verdi. Bu sözü eşidən başqa biri:

- Burada heç bir qəbahət görmürəm,- dedi. Bu barədə ikisi arasında mübahisə düşdü. Nəticədə baş verənləri Rəsulullah *səllallahu əleyhi və səlləm* eşitdi və:

"**Sübhanallah! O adamın savab qazanmasında və tərifləmməsində heç bir qəbahət görmürəm!**" - buyurdu. Mən Əbu Dərdanın sevindiyini və başını qaldırıb həmin adama:

- Sən bunu Rəsulullah *səllallahu əleyhi və səlləmdən* şəxsən özün eşitdinmi? - deyə soruşduğunu gördüm. O da:

- Bəli, şəxsən eşitdim,- dedi. Əbu Dərda elə hey eyni sualı verirdi. Hətta mən öz-özümə dizləri üstə çökəcək deyirdim. Atam sözlərinə belə davam etdi:

- Başqa bir gün İbn Hanzaliyyə yenə yanımıza gəlmişdi. Əbu Dərda bu dəfə ona:

- Bizə faydalı olacaq, sənə zərəri toxunmayacaq bir söz söylə,- dedi. O da belə dedi:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə belə buyurdu:

"Cihad üçün saxladığı atı yedirib-içirən, ona yaxşı baxan adam sədəqə vermək üçün əlini açıb heç bağlamayan adam kimidir".

Həmin adam bir gün yenə bizim yanımıza gəlmişdi. Əbu Dərda yenə ona:

- Bizə faydalı olacaq, sənə isə zərəri toxunmayacaq bir söz söylə,- dedi. İbn Hanzaliyyə belə dedi:

- Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hüreym əl-Üseydi nə yaxşı adamdır. Kaş zülfü ilə paltarının balağını uzatmayaydı". Rəsuli-Əkrəmin bu sözü Hüreymə çatan kimi dərhal əlinə ülgücü götürüb zülflərini qulaq məməsi bərabərində kəsdi. Paltarının balağını da baldırını örtəcək qədər qısaltdı. İbn Hanzaliyyə bir gün yenə yanımıza gəlmişdi. Əbu Dərda ona:

- Bizə faydalı olacaq, sənə zərəri toxunmayacaq bir söz söylə,- dedi. O da bu cavabı verdi:

- Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim:

"Siz qardaşlarınızın yanına gedəcəksiniz. Minik heyvanlarınızı sazlayın, paltarlarınızı nizamlayın ki, insanlar arasında üzdəki gözəllik əlaməti olan xal kimi olasınız. Çünki Allah çirkin görünüşü və pis sözü sevməz".

Əbu Davud, Libas 25. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd IV, 179-180

❁

٨٠٠ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ :
«إِزْرَةُ الْمُسْلِمِ إِلَى نِصْفِ السَّاقِ ، وَلاَ حَرَجَ ـ أَوْ لاَ جُنَاحَ ـ فِيمَا بَيْنَهُ وَبَيْنَ الْكَعْبَيْنِ.
مَا كَانَ أَسْفَلَ مِنَ الْكَعْبَيْنِ فَهُوَ فِي النَّارِ ، وَمَنْ جَرَّ إِزَارَهُ بَطَرًا لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ» !
رَوَاهُ أَبُو دَاوُدَ.

800. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir müsəlmanın gözəl geyinməsi paltarının ətəyinin baldırlarını örtəcək şəkildə olması ilədir. Paltarını topuqlarına qədər uzatmasında heç bir günah yoxdur. Topuqlardan aşağıda olan hissə isə cəhənnəmdədir. Allah lovğalıq edərək paltarının ətəyini yerlə sürüyən adamın üzünə baxmaz".

Əbu Davud, Libas 27. Həmçinin bax. İbn Macə, Libas 7; Muvatta, Libas 12

٨٠١ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: مَرَرْتُ عَلَى رَسُولِ اللَّهِ ﷺ وَفِي إِزَارِي اسْتِرْخَاءٌ ، فَقَالَ: «يَا عَبْدَ اللَّهِ ، ارْفَعْ إِزَارَكَ». فَرَفَعْتُهُ ، ثُمَّ قَالَ: «زِدْ». فَزِدْتُ، فَمَا زِلْتُ أَتَحَرَّاهَا بَعْدُ. فَقَالَ بَعْضُ الْقَوْمِ: إِلَى أَيْنَ ؟ فَقَالَ: إِلَى أَنْصَافِ السَّاقَيْنِ. رَوَاهُ مُسْلِمٌ .

801. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Paltarımın balaqları topuqlarımdan aşağı düşmüş vəziyyətdə Rəsulullah *səllallahu əleyhi və səlləmin* hüzuruna çıxmışdım. Rəsuli-Əkrəm:

"Abdullah, paltarının balağını yuxarı qaldır!" - buyurdu. Mən dərhal qaldırdım. Sonra:

"Bir az da qaldır!" - buyurdu, mən bir az da qaldırdım. Ondan sonra paltarımın Rəsuli-Əkrəmin uyğun gördüyü şəkildə olmasına diqqət edirəm. Camaatdan bir nəfər soruşdu:

- Hara qədər qaldırmışdın? İbn Ömər:

- Baldırımın yarısına qədər qaldırmışdım,- cavabını verdi.

Müslim, Libas 47

❁

٨٠٢ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ جَرَّ ثَوْبَهُ خُيَلاَءَ لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ يَوْمَ الْقِيَامَةِ» ! فَقَالَتْ أُمُّ سَلَمَةَ: فَكَيْفَ تَصْنَعُ النِّسَاءُ بِذُيُولِهِنَّ ؟ قَالَ: «يُرْخِينَ شِبْرًا». قَالَتْ: إِذَنْ تَنْكَشِفَ أَقْدَامُهُنَّ. قَالَ: «فَيُرْخِينَهُ ذِرَاعًا لا يَزِدْنَ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

802. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim özünü bəyəndiyi üçün paltarını yerlə sürüyərsə, Allah qiyamət günü o adamın üzünə baxmaz". Bu zaman Ümmü Sələmə:

- Bəs qadınlar ətəklərini necə etməlidirlər? - deyə soruşdu. Rəsuli-Əkrəm:

- **"Onlar bir qarış aşağı uzatsınlar"**, - buyurdu. Ümmü Sələmə:

- Elə olsa ayaqları açılar,- dedi. Həzrət Peyğəmbər:

- **"Onda bir arşın uzatsınlar, bundan artıq uzada bilməzlər"**, - buyurdu.

Əbu Davud, Libas 37; Tirmizi, Libas 9. Həmçinin bax. Nəsai, Zinət 105; İbn Macə, Libas 13

TƏVAZÖ SƏBƏBİ İLƏ DƏBDƏBƏLİ GEYİNMƏMƏK

Mövzu ilə əlaqəli bəzi hədislər daha əvvəl "Aclığın və sadə yaşamağın üstünlüyü" bəhsində keçmişdir.

Hədis

٨٠٣ ـ عَنِ مُعَاذِ بْنِ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ تَرَكَ اللِّبَاسَ تَوَاضُعًا لِلَّهِ وَهُوَ يَقْدِرُ عَلَيْهِ دَعَاهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ عَلَى رُؤُوسِ الْخَلَائِقِ حَتَّى يُخَيِّرَهُ مِنْ أَيِّ حُلَلِ الْإِيمَانِ شَاءَ يَلْبَسُهَا». رَوَاهُ التِّرْمِذِيُّ.

803. Muaz bin Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim imkanı olduğu halda təvazökarlıq edərək dəbdəbəli paltar geyinməyi tərk edərsə, Allah qiyamət günü həmin adamı yaratdıqlarının ən başında hüzuruna çağırar və onu iman əhlinin geyinəcəyi paltarlardan istədiyini geyinməkdə sərbəst buraxar".

Tirmizi, Sifətul-qiyamət 39

ORTA SƏVİYYƏDƏ GEYİNMƏK

HƏR HANSI BİR EHTİYAC VƏ ŞƏRİ MƏQSƏD OLMADAN LAĞ EDİLƏCƏK DƏRƏCƏDƏ BƏSİT PALTAR GEYİNMƏMƏK

Hədis

٨٠٤ ـ عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ يُحِبُّ أَنْ يَرَى أَثَرَ نِعْمَتِهِ عَلَى عَبْدِهِ». رَوَاهُ التِّرْمِذِيُّ.

804. Amr bin Şueyb atası vasitəsi ilə babası Abdullah bin Amr *radiyallahu anhdan* rəvayət etdiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Şübhəsiz ki, Allah verdiyi nemətinin nişanəsini qulunun üstündə görməyi sevər".

Tirmizi, Ədəb 54. Həmçinin bax. Əbu Davud, Libas 14

İPƏK GEYİNMƏYİN KİŞİLƏRƏ HARAM OLMASI

İPƏK ÜSTÜNDƏ OTURMAĞIN VƏ SÖYKƏNMƏYİN KİŞİLƏRƏ HARAM, QADINLARA HALAL OLMASI

Hədis

٨٠٥ ـ عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَلْبَسُوا الْحَرِيرَ ، فَإِنَّ مَنْ لَبِسَهُ فِي الدُّنْيَا لَمْ يَلْبَسْهُ فِي الْآخِرَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

805. Ömər bin Xəttab *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İpək paltar geyinməyin. Çünki dünyada ipək geyinən axirətdə geyinə bilməz".

Buxari, Libas 25; Müslim, Libas 11. Həmçinin bax. Tirmizi, Ədəb 52; İbn Macə, Libas 16

٨٠٦ ـ وَعَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّمَا يَلْبَسُ الْحَرِيرَ مَنْ لاَ خَلاَقَ لَهُ». مُتَّفَقٌ عَلَيْهِ .

وَفِي رِوَايَةٍ لِلْبُخَارِيِّ: «مَنْ لاَ خَلاَقَ لَهُ فِي الْآخِرَةِ» .

806. Ömər bin Xəttab *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

"İpək paltarı yalnız ondan qismәti olmayanlar geyinər", - buyurduğunu eşitdim.

Buxarinin bir rəvayətində **"Axirətdə ondan nəsibi olmayan"** ifadəsi yer alır.

Buxari, Ədəb 66; Müslim, 7, 10. Həmçinin bax. İbn Macə, Libas 16

❁

٨٠٧ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ لَبِسَ الْحَرِيرَ فِي الدُّنْيَا لَمْ يَلْبَسْهُ فِي الْآخِرَةِ». مُتَّفَقٌ عَلَيْهِ .

807. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Dünyada ipək geyinən adam axirətdə onu geyinə bilməz".

(Bax. 805 nömrəli hədisin qaynaqları)

❁

٨٠٨ ـ عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ أَخَذَ حَرِيرًا فَجَعَلَهُ فِي يَمِينِهِ ، وَذَهَبًا فَجَعَلَهُ فِي شِمَالِهِ. ثُمَّ قَالَ: «إِنَّ هَذَيْنِ حَرَامٌ عَلَى ذُكُورِ أُمَّتِي». رَوَاهُ أَبُو دَاوُدَ.

808. Əli *radiyallahu anh* belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləmi* sağ əlində ipək, sol əlində qızıl tutarkən gördüm.

“Şübhəsiz ki, bu ikisi ümmətimin kişilərinə haram qılınmışdır”, - buyurdu.

Əbu Davud, Libas 11. Həmçinin bax. Nəsai, Zinət 40; İbn Macə, Libas 19

❁

٨٠٩ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «حُرِّمَ لِبَاسُ الْحَرِيرِ وَالذَّهَبِ عَلَى ذُكُورِ أُمَّتِي ، وَأُحِلَّ لِإِنَاثِهِمْ». رَوَاهُ التِّرْمِذِيُّ.

809. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“İpək geyinmək və qızıldan istifadə etmək ümmətimin kişilərinə haram, qadınlarına isə halal qılındı”.

Tirmizi, Libas 1. Həmçinin bax. İbn Macə, Libas 19

❁

٨١٠ ـ عَنْ حُذَيْفَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: نَهَانَا النَّبِيُّ ﷺ أَنْ نَشْرَبَ فِي آنِيَةِ الذَّهَبِ وَالْفِضَّةِ ، وَأَنْ نَأْكُلَ فِيهَا ، وَعَنْ لُبْسِ الْحَرِيرِ وَالدِّيبَاجِ ، وَأَنْ نَجْلِسَ عَلَيْهِ. رَوَاهُ الْبُخَارِيُّ .

810. Hüzeyfə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* qızıl və gümüş qablardan içməyi, onlarda yemək yeməyi, ipək və atlas geyinməyi və üstündə oturmağı bizə qadağan etdi.

Buxari, Libas 27. Həmçinin bir çox rəvayətdən bəzisi üçün bax. Buxari, Ətimə 29, 32, Əşribə 27, 28; Müslim, Libas 4, 5; Əbu Davud, Əşribə 17; Tirmizi, Əşribə 10

QOTUR XƏSTƏLİYİ OLANIN İPƏK GEYİNMƏSİ

Hədis

٨١١ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: رَخَّصَ رَسُولُ اللَّهِ ﷺ لِلزُّبَيْرِ وَعَبْدِ الرَّحْمٰنِ بْنِ عَوْفٍ رَضِيَ اللَّهُ عَنْهُمَا فِي لُبْسِ الْحَرِيرِ لِحِكَّةٍ كَانَتْ بِهِمَا . مُتَّفَقٌ عَلَيْهِ .

811. Ənəs *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* Zübeyr və Əbdürrəhman bin Avf *radiyallahu anhuməyə* yaxalandıqları qotur xəstəliyi səbəbi ilə ipək paltar geyinməyə icazə verdi.

Buxari, Libas 29; Müslim, Libas 24-25. Həmçinin bax. Buxari, Cihad 91; Əbu Davud, Libas 10; Nəsai, Zİnət 92

PƏLƏNG DƏRİSİNDƏN İSTİFADƏ

PƏLƏNG DƏRİSİNDƏN YATAQ HAZIRLAMAĞIN VƏ ONU YƏHƏRİN ÜSTÜNƏ QOYMAĞIN QADAĞAN OLMASI

Hədislər

٨١٢ ـ عَنْ مُعَاوِيَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ تَرْكَبُوا الْخَزَّ وَلاَ النِّمَارَ». رَوَاهُ أَبُو دَاوُدَ .

812. Müaviyə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İpəklə və pələng dərisi ilə üzlənmiş yəhərə minməyin!"

Əbu Davud, Libas 40. Həmçinin bax. İbn Macə, Libas 47

❁

٨١٣ ـ عَنْ أَبِي الْمَلِيحِ عَنْ أَبِيهِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنْ جُلُودِ السِّبَاعِ. رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ ، وَالنَّسَائِيُّ.

وَفِي رِوَايَةٍ لِلتِّرْمِذِيِّ: نَهَى عَنْ جُلُودِ السِّبَاعِ أَنْ تُفْتَرَشَ.

813. Əbul-Məlih atası (Üsamə bin Ümeyr) *radiyallahu anhdan* rəvayət etdiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* yırtıcı heyvanların dərisindən istifadə etməyi qadağan etdi.

Əbu Davud, Libas 40; Tirmizi, Libas 32; Nəsai, Fər 7

Tirmizinin bir rəvayətində "yırtıcı heyvan dərilərindən yataq düzəldilməsini qadağan etdi", - deyilir.

YENİ PALTAR, AYAQQABI VƏ S. GEYİNƏNDƏ EDİLƏCƏK DUA

Hədis

٨١٤ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا اسْتَجَدَّ ثَوْبًا سَمَّاهُ بِاسْمِهِ ـ عِمَامَةً ، أَوْ قَمِيصًا ، أَوْرِدَاءً ـ يَقُولُ: «اللَّهُمَّ لَكَ الْحَمْدُ، كَمَا كَسَوْتَنِيهِ، أَسْأَلُكَ خَيْرَهُ وَخَيْرَ مَا صُنِعَ لَهُ ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهِ وَشَرِّمَا صُنِعَ لَهُ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

814. Əbu Səid əl-Xudri *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* yeni paltar geyindiyi zaman əmmamə, köynək, cübbə kimi geyindiyi libasın adını çəkərək belə dua edərdi:

"Allahummə ləkəl-hamdu kəmə kəsəvtənihi, əsəlukə xayrahu və xayra mə sunia ləhu və əuzu bikə min şərrihi və şərri mə sunia ləhu:

Allahım, həmd Sənə məxsusdur! Onu mənə geydirdiyin kimi Səndən onu xeyirli etməni və məqsədinə uyğun istifadə etməyi istəyirəm. Şərindən və məqsəddən kənar istifadə etməkdən də Sənə sığınıram".

Əbu Davud, Libas 1; Tirmizi, Libas 29

SAĞDAN GEYİNMƏK

Bu başlıqdan məqsədin nə olduğuna dair daha əvvəl **"Qüsl, dəstəmaz, təyəmmüm, paltar geyinmək və bunlara sağdan başlamaq"** mövzusunda yer verilmişdir. Mövzu ilə əlaqəli səhih hədisləri orada zikr etmişdik.

YUXU ƏDƏBİ BÖLÜMÜ

YUXULAMAQ, DİRSƏKLƏNİB YATMAQ VƏ BİR MƏCLİSDƏOTURMAQ ƏDƏBİ

Hədislər

٨١٥ ـ عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا أَوَى إِلَى فِرَاشِهِ نَامَ عَلَى شِقِّهِ الْأَيْمَنِ ، ثُمَّ قَالَ: «اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ ، لاَ مَلْجَأَ وَلاَ مَنْجَا مِنْكَ إِلاَّ إِلَيْكَ. آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ ، وَنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ». رَوَاهُ الْبُخَارِيُّ.

815. Bəra bin Azib *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* yatağına girdikdə sağ tərəfi üstə uzanar və belə dua edərdi:

"Allahummə əsləmtu nəfsi ileykə və vəccəhtu vəchi ileykə və fəvvədtu əmri ileykə və əlcətu zahri ileykə rağbətən və rahbətən ileykə. Lə məlcəə və lə məncə minkə illə ileykə. Əməntu bikitəbikəlləzi ənzəltə və nəbiyyikəlləzi ərsəltə:

Allahım, Sənə təslim oldum. Üzümü Sənə çevirdim. İşimi Sənə həvalə etdim. Rizanı istəyərək, əzabından qorxaraq arxamı Sənə dayadım, Sənə sığındım. Sənə qarşı Səndən başqa heç bir sığınacaq yoxdur. Nazil etdiyin kitaba və göndərdiyin peyğəmbərə inandım".

Buxari, Dəavat 7. Həmçinin bax. Buxari, Vudu 75; Müslim, Zikr 56-58; Əbu Davud, Ədəb 98

٨١٦ ـ وَعَنْهُ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ : «إِذَا أَتَيْتَ مَضْجَعَكَ فَتَوَضَّأْ وُضُوءَكَ لِلصَّلاَةِ ، ثُمَّ اضْطَجِعْ عَلَى شِقِّكَ الْأَيْمَنِ ، وَقُلْ» ، وَذَكَرَ نَحْوَهُ ، وَفِيهِ «وَاجْعَلْهُنَّ آخِرَ مَا تَقُولُ». مُتَّفَقٌ عَلَيْهِ .

816. Bəra bin Azib *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyurdu:

"Yatmaq istədiyin zaman namaza aldığın kimi dəstəmaz al, sonra sağ tərəfin üstə yat və bu duanı oxu. Yatmadan əvvəl son sözün bu dua olsun".

Buxari, Vudu 75; Müslim, Zikr 56

❁

٨١٧ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ يُصَلِّي مِنَ اللَّيْلِ إِحْدَى عَشْرَةَ رَكْعَةً ، فَإِذَا طَلَعَ الْفَجْرُ صَلَّى رَكْعَتَيْنِ خَفِيفَتَيْنِ ، ثُمَّ اضْطَجَعَ عَلَى شِقِّهِ الْأَيْمَنِ ، حَتَّى يَجِيءَ الْمُؤَذِّنُ فَيُؤْذِنَهُ. مُتَّفَقٌ عَلَيْهِ .

817. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* gecə on bir rükət namaz qılardı. Səhər dan yeri ağaranda da iki rükət qısa namaz qılar, sonra müəzzin gəlib sübh azanını oxuyana qədər sağ tərəfi üstə yatardı.

Buxari, Dəavat 5; Müslim, Müsafirin 121-122

❁

٨١٨ ـ عَنْ حُذَيْفَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَخَذَ مَضْجَعَهُ مِنَ اللَّيْلِ وَضَعَ يَدَهُ تَحْتَ خَدِّهِ ، ثُمَّ يَقُولُ: «اللَّهُمَّ بِاسْمِكَ أَمُوتُ وَأَحْيَا». وَإِذَا اسْتَيْقَظَ قَالَ: « الْحَمْدُ لِلَّهِ الَّذِي أَحْيَانَا مِنْ بَعْدِ مَا أَمَاتَنَا ، وَإِلَيْهِ النُّشُورُ» . رَوَاهُ الْبُخَارِيُّ .

818. Hüzeyfə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* gecə yatmaq istədiyi zaman əlini yanağının altına qoyar və:

"Allahummə bismikə əmutu və əhyə: Allahım, sənin adınla ölürəm, sənin adınla dirilirəm", - deyərdi. Yuxudan oyananda da: **"Əlhamdulilləhilləzi əhyənə min bədi mə əmətənə və ileyhin-nuşur: Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. Qiyamət günü onun hüzurunda toplanacağıq"**, - buyurardı.

Buxari, Dəavat 7, 8, 16. Həmçinin bax. Müslim, Zikr 59; Əbu Davud, Ədəb 98; Tirmizi, Dəavat 28; İbn Macə, Dua 16

❁

٨١٩ ـ عَنْ يَعِيشَ بْنِ طِخْفَةَ الْغِفَارِيِّ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ أَبِي: بَيْنَمَا أَنَا مُضْطَجِعٌ فِي الْمَسْجِدِ عَلَى بَطْنِي إِذَا رَجُلٌ يُحَرِّكُنِي بِرِجْلِهِ ، فَقَالَ: «إِنَّ هَذِهِ ضَجْعَةٌ يُبْغِضُهَا اللَّهُ». قَالَ: فَنَظَرْتُ ، فَإِذَا رَسُولُ اللَّهِ ﷺ . رَوَاهُ أَبو دَاوُدَ.

819. Yəiş bin Tixfə əl-Qifari *radiyallahu anhumə* atam mənə belə dedi,- deyərək nəql etmişdir:

Bir dəfə məsciddə üzüqoyulu halda yatmışdım. Bir də gördüm ki, kimsə ayağı ilə məni tərpədərək:

"Bu, Allahın qəzəbinə səbəb olan yatış tərzidir", - deyir. Baxanda gördüm ki, həmin adam Rəsulullah *səllallahu əleyhi və səlləm*dir.

Əbu Davud, Ədəb 95. Həmçinin bax. Tirmizi, Ədəb 21

❁

٨٢٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «مَنْ قَعَدَ مَقْعَدًا لَمْ يَذْكُرِ اللَّهَ تَعَالَى فِيهِ كَانَتْ عَلَيْهِ مِنَ اللَّهِ تَعَالَى تِرَةٌ ، وَمَنِ اضْطَجَعَ مُضْطَجَعًا لَا يَذْكُرُ اللَّهَ تَعَالَى فِيهِ كَانَتْ عَلَيْهِ مِنَ اللَّهِ تِرَةٌ». رَوَاهُ أَبُو دَاوُدَ.

820. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Hər kim bir məclisdə oturar, lakin orada Allahın adını anmazsa Allaha qarşı əskik iş görmüş və bir günah işləmiş olar. Hər kim yatağına yatar, orada Allah-Təalanı anmazsa, yenə əskik iş görmüş və bir günah işləmiş olar”.

Əbu Davud, Ədəb 25. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd, II, 422

YATMAQ VƏ OTURMAQ ƏDƏBİ

ARXASI ÜSTƏ YATMAQ, ÖVRƏT YERİNİN AÇILMA QORXUSU OLMADIQDA AYAĞINI AYAQ ÜSTƏ ATMAQ, BARDAŞ QURARAQ VƏ HƏR HANSI BİR ŞEYƏ BÜRÜNÜB OTURMAQ CAİZDİR

Hədislər

٨٢١ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ يَزِيدَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ رَأَى رَسُولَ اللَّهِ ﷺ مُسْتَلْقِيًا فِي الْمَسْجِدِ وَاضِعًا إِحْدَى رِجْلَيْهِ عَلَى الْأُخْرَى. مُتَّفَقٌ عَلَيْهِ .

821. Abdullah bin Yezid *radiyallahu anhdan* rəvayət edildiyinə görə o, Rəsulullah *səllallahu əleyhi və səlləmi* məsciddə bir ayağını obirinin üstünə ataraq arxası üstə yatarkən görmüşdür.

Buxari, Salət 85, İstizan 44; Müslim, Libas 75. Həmçinin bax. Tirmizi, Ədəb 19; Nəsai, Məsacid 28

❁

٨٢٢ ـ عَنْ جَابِرِ بْنِ سَمُرَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا صَلَّى الْفَجْرَ تَرَبَّعَ فِي مَجْلِسِهِ حَتَّى تَطْلُعَ الشَّمْسُ حَسْنَاءَ. رَوَاهُ أَبُو دَاوُدَ.

822. Cabir bin Səmurə *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* sübh namazını qılandan sonra günəş doğana qədər olduğu yerdə bardaş qurub oturardı.

Əbu Davud, Ədəb 26. Buna bənzər rəvayətlər üçün bax. Müslim, Məsacid 286

٨٢٣ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ بِفِنَاءِ الْكَعْبَةِ مُحْتَبِيًا بِيَدَيْهِ هَكَذَا ، وَوَصَفَ بِيَدَيْهِ الْإِحْتِبَاءَ ، وَهُوَ الْقُرْفُصَاءُ. رَوَاهُ الْبُخَارِيُّ .

823. İbn Ömər *radiyallahu anhumə*:

Rəsulullah *səllallahu əleyhi və səlləmi* Kəbənin həndəvərində əlləri ilə dizlərini qucaqlayaraq oturarkən gördüm, dedi və dizlərini qarnına dirəyib qolları ilə dizlərini tutub oturaraq Rəsulullahın oturuş şəklini göstərdi.

Buxari, İstizan 34

❁

٨٢٤ ـ عَنْ قَيْلَةَ بِنْتِ مَخْرَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: رَأَيْتُ النَّبِيَّ وَهُوَ قَاعِدٌ الْقُرْفُصَاءَ ، فَلَمَّا رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ الْمُتَخَشِّعَ فِي الْجَلْسَةِ أُرْعِدْتُ مِنَ الْفَرَقِ. رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ.

824. Qaylə binti Məhrəmə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmi* dizlərini qarnına dirəmiş, əllərini qoltuqlarının altına qoyub oturmuş vəziyyətdə gördüm. Rəsulullah *səllallahu əleyhi və səlləmin* Allaha qarşı dərin ehtiram içində və təvazökar şəkildə oturduğunu görüb qorxudan diksindim.

Əbu Davud, Ədəb 22

❁

٨٢٥ ـ عَنِ الشَّرِيدِ بْنِ سُوَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: مَرَّ بِي رَسُولُ اللَّهِ ﷺ وَأَنَا جَالِسٌ هَكَذَا ، وَقَدْ وَضَعْتُ يَدِي الْيُسْرَى خَلْفَ ظَهْرِي ، واتَّكَأْتُ عَلَى إِلْيَةِ يَدِي ، فَقَالَ: «أَتَقْعُدُ قِعْدَةَ الْمَغْضُوبِ عَلَيْهِمْ» ! رَوَاهُ أَبُو دَاوُدَ.

825. Şərid bin Süveyd *radiyallahu anh* belə dedi:

Bir gün sol əlimi arxaya qoyub ovcumun içinə söykənmiş vəziyyətdə oturmuşdum. Rəsulullah *səllallahu əleyhi və səlləm* yanımdan keçdi və:

"Allahın qəzəbinə düçar olanlar kimi otursan?" - buyurdu.

Əbu Davud, Ədəb 22

MƏCLİS ƏDƏBİ

MƏCLİS VƏ MƏCLİSDƏ OTURMAQ ƏDƏBİ

Hədislər

٨٢٦ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «لاَ يُقِيمَنَّ أَحَدُكُمْ رَجُلاً مِنْ مَجْلِسِهِ ثُمَّ يَجْلِسُ فِيهِ ، وَلَكِنْ تَوَسَّعُوا وَتَفَسَّحُوا». وَكَانَ ابْنُ عُمَرَ إِذَا قَامَ لَهُ رَجُلٌ مِنْ مَجْلِسِهِ لَمْ يَجْلِسْ فِيهِ. مُتَّفَقٌ عَلَيْهِ .

826. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən heç kim başqa birini oturduğu yerdən qaldırıb onun yerində oturmasın. Lakin açılaraq halqanı genişləndirin".

İbn Ömər ona yer vermək üçün qalxan adamın yerində oturmazdı.

Buxari, Cümə 20; İstizan 31; Müslim, Salam 28-29. Həmçinin bax. Tirmizi, Ədəb 9

❁

٨٢٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا قَامَ أَحَدُكُمْ مِنْ مَجْلِسٍ ثُمَّ رَجَعَ إِلَيْهِ فَهُوَ أَحَقُّ بِهِ». رَوَاهُ مُسْلِمٌ .

827. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən kim oturduğu yerdən qalxar, sonra yenidən geri qayıdarsa, oraya oturmaq haqqı hamıdan çox ona aiddir".

Müslim, Salam 31

❁

٨٢٨ ـ عَنْ جَابِرِ بْنِ سَمُرَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: كُنَّا إِذَا أَتَيْنَا النَّبِيَّ ﷺ جَلَسَ أَحَدُنَا حَيْثُ يَنْتَهِي. رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ.

828. Cabir bin Səmurə *radiyallahu anh* belə demişdir:

Biz Nəbiyyi-Əkrəm *səllallahu əleyhi və səlləmin* hüzuruna gedəndə hər birimiz hardan yer tapsaq orada oturardıq.

Əbu Davud, Ədəb 14; Tirmizi, İstizan 29

❁

٨٢٩ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ سَلْمَانَ الْفَارِسِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «لاَ يَغْتَسِلُ رَجُلٌ يَوْمَ الْجُمُعَةِ ، وَيَتَطَهَّرُ مَا اسْتَطَاعَ مِنْ طُهْرٍ، وَيَدَّهِنُ مِنْ دُهْنِهِ، أَوْ يَمَسُّ مِنْ طِيبِ بَيْتِهِ، ثُمَّ يَخْرُجُ فَلاَ يُفَرِّقُ بَيْنَ اثْنَيْنِ، ثُمَّ يُصَلِّي مَا كُتِبَ لَهُ، ثُمَّ يُنْصِتُ إِذَا تَكَلَّمَ الْإِمَامُ ، إِلاَّ غُفِرَ لَهُ مَا بَيْنَهُ وَبَيْنَ الْجُمُعَةِ الْأُخْرَى». رَوَاهُ الْبُخَارِيُّ .

829. Əbu Abdullah Salman əl-Farisi *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim cümə günü qüsl alar, əlindən gəldiyi qədər təmizlənər, ya özünə aid ətirdən, yaxud da evində olan gözəl ətirdən sürtər və evindən çıxarsa, iki nəfərin arasına girmədən üzərinə fərz olan namazı qılar, imam xütbə oxuyarkən susaraq ona qulaq asarsa, həmin cümə ilə digər cümə arasındakı günahları bağışlanar".

Buxari, Cümə 6, 19. Həmçinin bax. Darimi, Salət 191

❁

٨٣٠ ـ عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لاَ يَحِلُّ لِرَجُلٍ أَنْ يُفَرِّقَ بَيْنَ اثْنَيْنِ إِلاَّ بِإِذْنِهِمَا». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

وَفِي رِوَايَةٍ لِأَبِي دَاوُدَ: «لَا يَجْلِسُ بَيْنَ رَجُلَيْنِ إِلَّا بِإِذْنِهِمَا».

830. Amr bin Şueybin atası vasitəsi ilə babası Abdullah bin Amr bin As *radiyallahu anhdan* rəvayət etdiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Bir adama özləri izin verməmədikcə iki nəfərin arasında oturmaq halal olmaz”.

Əbu Davud, Ədəb 21; Tirmizi, Ədəb 11

Əbu Davudun bir rəvayətində belədir:

“İzinləri olmadan iki nəfərin arasında oturmaq olmaz”.

Əbu Davud, Ədəb 21

❁

٨٣١ ـ عَنْ حُذَيْفَةَ بْنِ الْيَمَانِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ لَعَنَ مَنْ جَلَسَ وَسَطَ الْحَلْقَةِ. رَوَاهُ أَبُو دَاوُدَ.

وَرَوَى التِّرْمِذِيُّ عَنْ أَبِي مِجْلَزٍ أَنَّ رَجُلاً قَعَدَ وَسَطَ حَلْقَةٍ ، فَقَالَ حُذَيْفَةُ: مَلْعُونٌ عَلَى لِسَانِ مُحَمَّدٍ ﷺ ـ أَوْ لَعَنَ اللَّهُ عَلَى لِسَانِ مُحَمَّدٍ ﷺ ـ مَنْ جَلَسَ وَسَطَ الْحَلْقَةِ.

831. Hüzeyfə bin Yəman *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* halqa şəklində oturanların ortasında oturan adama lənət etmişdir.

Əbu Davud, Ədəb 14

Tirmizinin Əbu Micləzdən etdiyi rəvayətə görə bir nəfər gəlib halqanın ortasında oturmuşdu. Bu zaman Hüzeyfə belə dedi:

Halqanın ortasında oturan adam Muhammməd *səllallahu əleyhi və səlləmin* dili ilə və Allah tərəfindən Muhammməd *səllallahu əleyhi və səlləmin* diliylə lənətlənmişdir.

Tirmizi, Ədəb 12

❁

٨٣٢ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «خَيْرُ الْمَجَالِسِ أَوْسَعُهَا». رَوَاهُ أَبُو دَاوُدَ.

832. Əbu Səid əl-Xudri *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

“Məclislərin ən xeyirlisi ən geniş olanıdır”, - buyurduğunu eşitdim.

Əbu Davud, Ədəb 12. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd III, 18, 69

٨٣٣ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَنْ جَلَسَ فِي مَجْلِسٍ ، فَكَثُرَ فِيهِ لَغَطُهُ ، فَقَالَ قَبْلَ أَنْ يَقُومَ مِنْ مَجْلِسِهِ ذَلِكَ: سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ ، إِلاَّ غُفِرَ لَهُ مَا كَانَ فِي مَجْلِسِهِ ذَلِكَ». رَوَاهُ التِّرْمِذِيُّ .

833. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim bir məclisdə oturar, orada faydasız və mənasız sözlərlə vaxt keçirər və həmin məclisdən qalxmadan əvvəl *sübhanəkə Allahummə və bihamdikə əşhədu ən lə iləhə illə əntə əstəğfirukə və ətubu ileykə:* Allahım, Səni hər cür nöqsan sifətlərdən uzaq tutaraq həmdinlə təsbih edirəm. Səndən başqa heç bir ilah olmadığına qətiyyətlə şahidlik edirəm. Səndən bağışlanmağımı istəyir və tövbə edirəm,- deyərsə, həmin məclisdə işlədiyi xətaları bağışlanar".

Tirmizi, Dəavat 38

❁

٨٣٤ ـ عَنْ أَبِي بَرْزَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَقُولُ بِأَخَرَةٍ إِذَا أَرَادَ أَنْ يَقُومَ مِنَ الْمَجْلِسِ: «سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ. أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ». فَقَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ ، إِنَّكَ لَتَقُولُ قَوْلاً مَا كُنْتَ تَقُولُهُ فِيمَا مَضَى. قَالَ: «ذَلِكَ كَفَّارَةٌ لِمَا يَكُونُ فِي الْمَجْلِسِ». رَوَاهُ أَبُو دَاوُدَ .

834. Əbu Bərzə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* məclisdən qalxmaq istəyəndə son sözü belə olardı:

"*Sübhanəkə Allahummə və bihamdikə əşhədu ən lə iləhə illə əntə əstəğfirukə və ətubu ileykə:* Allahım, Səni hər cür nöqsan sifətlərdən uzaq tutaraq həmdinlə təsbih edirəm. Səndən başqa heç bir ilah olmadığına qətiyyətlə şahidlik edirəm. Səndən bağışlanmağımı istəyir və tövbə edirəm". Bir nəfər:

- Ey Allahın Rəsulu, şübhəsiz ki, sən daha əvvəl söyləmədiyin bir söz söyləyirsən,- dedi. Rəsuli-Əkrəm buyurdu:

"Dediyim bu sözlər məclisdə işlənən xəta və qüsurların bağışlanmasına səbəb olur".

Əbu Davud, Ədəb 27

❁

٨٣٥ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: قَلَّمَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يَقُومُ مِنْ مَجْلِسٍ حَتَّى يَدْعُوَ بِهَؤُلاَءِ الدَّعَوَاتِ: «اللَّهُمَّ اقْسِمْ لَنَا مِنْ خَشْيَتِكَ مَا تَحُولُ بِهِ بَيْنَنَا وَبَيْنَ مَعْصِيَتِكَ ، وَمِنْ طَاعَتِكَ مَا تُبَلِّغُنَا بِهِ جَنَّتَكَ ، وَمِنَ الْيَقِينِ مَا تُهَوِّنُ بِهِ عَلَيْنَا مَصَائِبَ الدُّنْيَا. اللَّهُمَّ مَتِّعْنَا بِأَسْمَاعِنَا، وَأَبْصَارِنَا، وقُوَّتِنَا مَا أَحْيَيْتَنَا ، وَاجْعَلْهُ الْوَارِثَ مِنَّا ، وَاجْعَلْ ثَأْرَنَا عَلَى مَنْ ظَلَمَنَا ، وَانْصُرْنَا عَلَى مَنْ عَادَانَا ، وَلاَ تَجْعَلْ مُصِيبَتَنَا فِي دِينِنَا ، وَلاَ تَجْعَلِ الدُّنْيَا أَكْبَرَ هَمِّنَا وَلاَ مَبْلَغَ عِلْمِنَا ، وَلاَ تُسَلِّطْ عَلَيْنَا مَنْ لاَ يَرْحَمُنَا». رَوَاهُ التِّرْمِذِيُّ .

835. İbn Ömər *radiyallahu anhumə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* nadir hallarda bu duaları etmədən məclisdən qalxardı:

"Allahım, bizə günahla aramıza əngəl olacaq qədər qorxundan pay ver. Bizi cənnətinə qovuşduracaq qədər itaətini qismət et. Dünya müsibətlərini xəfiflədəcək güclü iman ver. Allahım, bizi yaşadığımız müddətdə qulaqlarımız, gözlərimiz və gücümüzdən faydalandır, onları ölümümüzə qədər davam etdir. Bizə zülm edənlərdən intiqamımızı Özün al. Düşmənlik edənlərə qarşı bizə yardım et. Bizi dinimizdə müsibətə düçar etmə. Dünyanı ən böyük düşüncəmiz və qayəmiz etmə. Elmimizi dünya ilə məhdudlaşdırma. Bizə rəhm etməyənləri başımıza bəla etmə".

Tirmizi, Dəavat 79

❁

٨٣٦ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «مَا مِنْ قَوْمٍ يَقُومُونَ مِنْ مَجْلِسٍ لاَ يَذْكُرُونَ اللَّهَ تَعَالَى فِيهِ إِلاَّ قَامُوا عَنْ مِثْلِ جِيفَةِ حِمَارٍ ، وَكَانَ لَهُمْ حَسْرَةً » ! رَوَاهُ أَبُو دَاوُدَ.

836. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir qrup insan oturduqları məclisdən Allahı zikr etmədən qalxarsa, uzunqulaq leşi yanından qalxmış kimi olar. Həmin məclis də onlar üçün peşmançılıq olar".

Əbu Davud, Ədəb 25

❁

٨٣٧ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَا جَلَسَ قَوْمٌ مَجْلِسًا لَمْ يَذْكُرُوا اللَّهَ تَعَالَى فِيهِ ، وَلَمْ يُصَلُّوا عَلَى نَبِيِّهِمْ فِيهِ ، إِلاَّ كَانَ عَلَيْهِمْ تِرَةً ؛ فَإِنْ شَاءَ عَذَّبَهُمْ ، وَإِنْ شَاءَ غَفَرَ لَهُمْ». رَوَاهُ التِّرْمِذِيُّ .

837. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Bir camaat oturduğu məclisdə Allahı zikr etməz və peyğəmbərlərinə salətu-salam gətirməzsə, həmin məclis onlar üçün peşmanlıq səbəbi olar. Allah istəyərsə onlara əzab edər, istəyərsə bağışlayar".

Tirmizi, Dəavat 8

❁

٨٣٨ ـ وَعَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «مَنْ قَعَدَ مَقْعَدًا لَمْ يَذْكُرِ اللَّهَ تَعَالَى فِيهِ كَانَتْ عَلَيْهِ مِنَ اللَّهِ تِرَةٌ ، وَمَنِ اضْطَجَعَ مُضْطَجَعًا لاَ يَذْكُرُ اللَّهَ تَعَالَى فِيهِ كَانَتْ عَلَيْهِ مِنَ اللَّهِ تِرَةٌ». رَوَاهُ أَبُو دَاوُدَ.

838. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim bir məclisdə oturar və orada Allah-Təalanın ismini zikr etməzsə, Allaha qarşı nöqsan iş görmüş, bir günah işləmiş olar. Hər kim yatağına uzanar və orada Allah-Təalanı zikr etməzsə, yenə nöqsan iş görmüş və bir günah işləmiş olar".

Əbu Davud, Ədəb 25, 98

YUXU VƏ YUXU İLƏ BAĞLI ƏSASLAR

Ayə

وَمِنْ آيَاتِهِ مَنَامُكُمْ بِاللَّيْلِ وَالنَّهَارِ.

1. "Gecə və gündüz yatıb dincəlməyiniz (gecə istirahət etməyiniz, gündüz əlləşib çalışmağınız)**, nemətindən ruzi** (qismətinizi) **axtarmağınız da Onun qüdrət əlamətlərindəndir".**

(ər-Rum, 23)

Hədislər

٨٣٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «لَمْ يَبْقَ مِنَ النُّبُوَّةِ إِلاَّ الْمُبَشِّرَاتُ». قَالُوا : وَمَا الْمُبَشِّرَاتُ ؟ قَالَ: «الرُّؤْيَا الصَّالِحَةُ». رَوَاهُ الْبُخَارِيُّ.

839. Əbu Hüreyrə *radiyallahu anh* Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim, -dedi:

- **"Peyğəmbərlikdən sonra ümmətə yalnız mübəşşirat qalmışdır".**

Səhabələr:

- Mübəşşirat nədir? - deyə soruşduqda Rəsuli-Əkrəm belə buyurdu:

- **"Saleh röyadır".**

Buxari, Təbir 5. Həmçinin bax. Müslim, Salət 207-208; Tirmizi, Röya 2; Nəsai, Tətbiq 9; İbn Macə, Röya 1

❁

٨٤٠ ـ وَعَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِذَا اقْتَرَبَ الزَّمَانُ لَمْ تَكَدْ رُؤْيَا الْمُؤْمِنِ تَكْذِبُ، وَرُؤْيَا الْمُؤْمِنِ جُزْءٌ مِنْ سِتَّةٍ وَأَرْبَعِينَ جُزْءًا مِنَ النُّبُوَّةِ». مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةٍ: «أَصْدَقُكُمْ رُؤْيًا أَصْدَقُكُمْ حَدِيثًا».

840. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Qiyamət yaxınlaşdıqda möminin yuxusu yalan çıxmaz. Möminin röyası peyğəmbərliyin qırx altıda biridir”.

Buxari, Təbir 26; Müslim, Röya 6. Həmçinin bax. Əbu Davud, Ədəb 88; Tirmizi, Röya 1; İbn Macə, Röya 9

Müslimin bir rəvayəti də belədir:

“Sizin ən sadiq röya görəniniz ən doğru danışanlarınızdır”.

Müslim, Röya 6

❁

٨٤١ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ: «مَنْ رَآنِي فِي الْمَنَامِ فَسَيَرَانِي فِي الْيَقَظَةِ ـ أَوْ كَأَنَّمَا رَآنِي فِي الْيَقَظَةِ ـ لاَ يَتَمَثَّلُ الشَّيْطَانُ بِي». مُتَّفَقٌ عَلَيْهِ.

841. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Məni yuxuda görən adam ayıq vaxtında da elə görəcəkdir -və ya sanki məni ayıq ikən görmüş kimidir- . Çünki şeytan mənim cildimə girə bilməz”.

Buxari, Elm 38; Təbir 10; Müslim, Röya 11. Həmçinin bax. Əbu Davud, ədəb 88; Tirmizi, Röya 4, 7; İbn Macə, Röya 2

❁

٨٤٢ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: «إِذَا رَأَى أَحَدُكُمْ رُؤْيَا يُحِبُّهَا فَإِنَّمَا هِيَ مِنَ اللَّهِ تَعَالَى ، فَلْيَحْمَدِ اللَّهَ عَلَيْهَا وَلْيُحَدِّثْ بِهَا».

وَفِي رِوَايَةٍ: «فَلاَ يُحَدِّثْ بِهَا إِلاَّ مَنْ يُحِبُّ ؛ وإِذَا رَأَى غَيْرَ ذَلِكَ مِمَّا يَكْرَهُ فَإِنَّمَا هِيَ مِنَ الشَّيْطَانِ ، فَلْيَسْتَعِذْ مِنْ شَرِّهَا وَلاَ يَذْكُرْهَا لأَحَدٍ ، فَإِنَّهَا لاَ تَضُرُّهُ ». مُتَّفَقٌ عَلَيْهِ .

842. Əbu Səid əl-Xudri *radiyallahu anh* Nəbi *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitmişdir:

“Sizdən kim xoşuna gələn yuxu görərsə, həmin yuxu Allah-Təaladandır. Ona görə də Allaha həmd etsin və həmin yuxusunu danışsın”.

Başqa bir rəvayət belədir:

“Həmin yuxunu yalnız sevdiyi adama danışsın. Xoşuna gəlməyən yuxu görərsə o şeytandandır. Onun şərindən Allaha sığınsın və heç kimə danışmasın. O zaman həmin yuxu ona zərər verməz”.

Buxari, Təbir 3, 46; Müslim, Röya 3. Həmçinin bax. Tirmizi, Dəavat 52; İbn Macə, Təbirur-röya 3

❁

٨٤٣ ـ عَنْ أَبِي قَتَادَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «الرُّؤْيَا الصَّالِحَةُ» ـ وَفِي رِوَايَةٍ : «الرُّؤْيَا الْحَسَنَةُ» ـ مِنَ اللَّهِ ، وَالْحُلُمُ مِنَ الشَّيْطَانِ ، فَمَنْ رَأَى شَيْئًا يَكْرَهُهُ فَلْيَنْفُثْ عَنْ شِمَالِهِ ثَلاَثًا وَلْيَتَعَوَّذْ مِنَ الشَّيْطَانِ ، فَإِنَّهَا لاَ تَضُرُّهُ».

مُتَّفَقٌ عَلَيْهِ .

843. Əbu Qatadə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Saleh yuxu -başqa bir rəvayətə görə gözəl yuxu- Allahdandır. Pis yuxu da şeytandandır. Kim xoşuna gəlməyən bir yuxu görərsə, üç dəfə sol tərəfinə üfürsün və şeytandan Allaha sığınsın. Belə olan təqdirdə həmin yuxu ona zərər verməz”.

Buxari, Təbir 4; Müslim, Röya 1

❁

٨٤٤ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «إِذَا رَأَى أَحَدُكُمُ الرُّؤْيَا يَكْرَهُهَا فَلْيَبْصُقْ عَنْ يَسَارِهِ ثَلاَثًا ، وَلْيَسْتَعِذْ بِاللَّهِ مِنَ الشَّيْطَانِ ثَلاَثًا ، وَلْيَتَحَوَّلْ عَنْ جَنْبِهِ الَّذِي كَانَ عَلَيْهِ». رَوَاهُ مُسْلِمٌ.

844. Cabir *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Sizdən kim xoşuna gəlməyən yuxu görərsə, üç dəfə sol tərəfinə tüpürsün. Şeytanın şərindən də üç dəfə Allaha sığınsın, uzandığı tərəfdən obiri yanına çevrilsin”.

Müslim, Röya 5. Həmçinin bax. Əbu Davud, Ədəb 88; İbn Macə, Təbirur-röya 4

❁

٨٤٥ ـ عَنْ أَبِي الْأَسْقَعِ وَاثِلَةَ بْنِ الْأَسْقَعِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ مِنْ أَعْظَمِ الْفِرَى أَنْ يَدَّعِيَ الرَّجُلُ إِلَى غَيْرِ أَبِيهِ ، أَوْ يُرِيَ عَيْنَهُ مَا لَمْ تَرَ ، أَوْ يَقُولُ عَلَى رَسُولِ اللَّهِ ﷺ مَالَمْ يَقُلْ» . رَوَاهُ الْبُخَارِيُّ.

845. Əbul-Əsqa Vasilə bin Əsqa *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Ən böyük iftiralar bir adamın atasından başqasına ata deməsi, görmədiyi yuxunu gördüyünü iddia etməsi və Rəsulullah *səllallahu əleyhi və səlləmin* demədiyi bir sözü söylədiyini deməsidir”.

Buxari, Mənaqib 5. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd II, 118

SALAM BÖLÜMÜ

SALAMIN VƏ SALAMLAŞMAĞI YAYMAĞIN FƏZİLƏTİ

Ayələr

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لاَ تَدْخُلُوا بُيُوتًا غَيْرَ بُيُوتِكُمْ حَتَّى تَسْتَأْنِسُوا وَتُسَلِّمُوا عَلَى أَهْلِهَا.

1. "Ey iman gətirənlər! Başqalarının evlərinə (sizin olmayan evlərə) **sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin".**

(ən-Nur, 27)

فَإِذَا دَخَلْتُمْ بُيُوتًا فَسَلِّمُوا عَلَى أَنْفُسِكُمْ تَحِيَّةً مِنْ عِنْدِ اللَّهِ مُبَارَكَةً طَيِّبَةً .

2. "Evlərə daxil olduğunuz zaman özünüzü (bir-birinizi, qohum-əqrəbanızı, dostlarınızı və dindaşlarınızı) **Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın".**

(ən-Nur, 61)

وَإِذَا حُيِّيتُمْ بِتَحِيَّةٍ فَحَيُّوا بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا .

3. "Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) **qaytarın!"**

(ən-Nisa, 86)

هَلْ أَتَاكَ حَدِيثُ ضَيْفِ إِبْرَاهِيمَ الْمُكْرَمِينَ إِذْ دَخَلُوا عَلَيْهِ فَقَالُوا سَلاَمًا قَالَ سَلاَمٌ .

4. "İbrahimin möhtərəm qonaqlarının (mələklərin) **söhbəti sənə gəlib çatdımı? Onlar** (İbrahimin) **yanına gəlib salam verdikdə (İbrahim) salamı alıb** (öz-özünə): **"Bunlar tanımadığım kimsələrdir!" – dedi".**

(əz-Zariyat, 24-25)

Hədislər

٨٤٦ ـ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَجُلاً سَأَلَ رَسُولَ اللَّهِ ﷺ: أَيُّ الْإِسْلاَمِ خَيْرٌ ؟ قَالَ: «تُطْعِمُ الطَّعَامَ ، وَتَقْرَأُ السَّلاَمَ عَلَى مَنْ عَرَفْتَ وَمَنْ لَمْ تَعْرِفْ » . مُتَّفَقٌ عَلَيْهِ.

846. Abdullah bin Amr bin As *radiyallahu anhumə* belə dedi:

Bir nəfər Rəsulullah *səllallahu əleyhi və səlləmdən* soruşdu:

- İslama xas olan hansı xüsusiyyət daha xeyirlidir? Rəsuli-Əkrəm buyurdu:

- "Tanıdığın və tanımadığın hər kəsə yemək yedirməyin və salam verməyin".

Buxari, İman 20, İstizan 9; Müslim, İman 63. Həmçinin bax. Əbu Davud, Ədəb 131; Nəsai, İman 12

❁

٨٤٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَمَّا خَلَقَ اللَّهُ آدَمَ ﷺ قَالَ: اذْهَبْ فَسَلِّمْ عَلَى أُولَئِكَ ـ نَفَرٍ مِنَ الْمَلاَئِكَةِ جُلُوسٍ ـ فَاسْتَمِعْ مَا يُحَيُّونَكَ ، فَإِنَّهَا تَحِيَّتُكَ وَتَحِيَّةُ ذُرِّيَّتِكَ. فَقَالَ : السَّلاَمُ عَلَيْكُمْ: فَقَالُوا : السَّلاَمُ عَلَيْكَ وَرَحْمَةُ اللَّهِ ، فَزَادُوهُ: وَرَحْمَةُ اللَّهِ». مُتَّفَقٌ عَلَيْهِ.

847. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala Adəm əleyhissalamı yaradanda ona:

- Get orada oturan mələklərə salam ver və sənin salamını necə alacaqlarına yaxşı qulaq as. Çünki sənin və övladlarının salamı o olacaq", - buyurdu. Adəm əleyhissalam mələklərə:

- əs-Sələmu aleykum, - dedi. Mələklər:

- əs-Sələmu aleykə və rahmətullah, - cavabını verdilər. Onun salamına "və rahmətullah"ı əlavə etdilər".

Buxari, Ənbiya 1; İstizan 1; Müslim, Cənnət 28

٨٤٨ ـ عَنْ أَبِي عُمَارَةَ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَمَرَنَا رَسُولُ اللَّهِ ﷺ بِسَبْعٍ: بِعِيَادَةِ الْمَرِيضِ ، وَاتِّبَاعِ الْجَنَائِزِ ، وَتَشْمِيتِ الْعَاطِسِ ، وَنَصْرِ الضَّعِيفِ ، وَعَوْنِ الْمَظْلُومِ ، وَإِفْشَاءِ السَّلاَمِ ، وَإِبْرَارِ الْمُقْسِمِ. مُتَّفَقٌ عَلَيْهِ.

848. Əbu Ümarə Bəra bin Azib *radiyallahu anh* belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə bu yeddi əməli əmr etdi: xəstə ziyarətini, cənazədə iştirak etməyi, asqırana xeyir diləməyi, zəifə yardım etməyi, məzluma kömək əlini uzatmağı, salamı yaymağı və and içənin andını pozmadan yerinə yetirməsini.

Buxari, Məzalim 5; Müslim, Libas 3. Həmçinin bax. Tirmizi, Ədəb 45; Nəsai, Cənaiz 53

❁

٨٤٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «لاَ تَدْخُلُوا الْجَنَّةَ حَتَّى تُؤْمِنُوا ، ولاَ تُؤْمِنُوا حَتَّى تَحَابُّوا. أَوَ لاَ أَدُلُّكُمْ عَلَى شَيْءٍ إِذَا فَعَلْتُمُوهُ تَحَابَبْتُمْ ؟ أَفْشُوا السَّلاَمَ بَيْنَكُمْ». رَوَاهُ مُسْلِمٌ.

849. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İman etmədikcə cənnətə girə bilməzsiniz, bir-birinizi sevmədikcə də iman etmiş olmazsınız. Edəcəyiniz zaman bir-birinizi sevəcəyiniz bir şey deyimmi? Aranızda salamı yayın".

Müslim, İman 93. Həmçinin bax. Əbu Davud, Ədəb 131; Tirmizi, İstizan 1; İbn Macə, Ədəb 11

❁

٨٥٠ ـ عَنْ أَبِي يُوسُفَ عَبْدِ اللَّهِ بْنِ سَلاَمٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «يَا أَيُّهَا النَّاسُ ، أَفْشُوا السَّلاَمَ ، وَأَطْعِمُوا الطَّعَامَ ، وَصِلُوا الْأَرْحَامَ ، وَصَلُّوا وَالنَّاسُ نِيَامٌ ، تَدْخُلُوا الْجَنَّةَ بِسَلاَمٍ». رَوَاهُ التِّرْمِذِيُّ.

850. Əbu Yusif Abdullah bin Salam radiyallahu anh belə dedi:

Mən Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

"Ey müsəlmanlar, salamı yayın, yemək yedirin, qohumlarınızla əlaqələrinizi və onlara yardımı davam etdirin. İnsanlar yuxuda ikən namaz qılın. Bu sayədə salamatlıqla cənnətə girərsiniz", - buyurduğunu eşitdim.

Tirmizi, Qiyamət 42. Həmçinin bax. İbn Macə, İqamət 174, Ətimə 1

❁

٨٥١ ـ عَنِ الطُّفَيْلِ بْنِ أُبَيِّ بْنِ كَعْبٍ أَنَّهُ كَانَ يَأْتِي عَبْدَ اللَّهِ بْنَ عُمَرَ ، فَيَغْدُو مَعَهُ إِلَى السُّوقِ.(قَالَ): فَإِذَا غَدَوْنَا إِلَى السُّوقِ لَمْ يَمُرَّ عَبْدُ اللَّهِ عَلَى سَقَّاطٍ ، وَلاَ صَاحِبِ بَيْعَةٍ وَلاَ مِسْكِينٍ وَلاَ أَحَدٍ إِلاَّ سَلَّمَ عَلَيْهِ. قَالَ الطُّفَيْلُ: فَجِئْتُ عَبْدَ اللَّهِ ابْنَ عُمَرَ يَوْمًا ، فَاسْتَتْبَعَنِي إِلَى السُّوقِ ، فَقُلْتُ لَهُ: مَا تَصْنَعُ بِالسُّوقِ وَأَنْتَ لاَ تَقِفُ عَلَى الْبَيْعِ ، وَلاَ تَسْأَلُ عَنِ السِّلَعِ ، وَلاَ تَسُومُ بِهَا ، وَلاَ تَجْلِسُ فِي مَجَالِسِ السُّوقِ ؟ وَأَقُولُ: اجْلِسْ بِنَا هَهُنَا نَتَحَدَّثْ ، فَقَالَ: يَا أَبَا بَطْنٍ ـ وَكَانَ الطُّفَيْلُ ذَا بَطْنٍ ـ إِنَّمَا نَغْدُو مِنْ أَجْلِ السَّلاَمِ ! نُسَلِّمُ عَلَى مَنْ لَقِينَاهُ! رَوَاهُ مَالِكٌ .

851. Tüfeyl bin Übey bin Kabın dediyinə görə Abdullah bin Ömərin yanına gedir və onunla birlikdə bazara çıxırlar. Tüfeyl sözünə belə davam edir:

Biz bazara çıxanda Abdullah köhnə əşya satan, qiymətli mal satan, yoxsul və ya hər hansı bir adamla rastlaşsa mütləq salam verirdi. Bir gün yenə Abdullah bin Ömərin yanına getmişdim. Bazara getmək üçün ona yol yoldaşı olmağımı istədi. Ona:

- Bazarda nə edəcəksən? Alver etmirsən, malların qiymətini soruşmursan, heç nə almaq istəmirsən, bazardakı söhbət məkanlarında da oturmursan. Burada otur, söhbət edək, - dedim. Abdullah bu cavabı verdi:

- Ey gonbul! – Tüfeyl kök olduğuna görə belə demişdir – Biz sadəcə olaraq salam vermək üçün bazara çıxırıq, qarşımıza çıxanlara da salam veririk.

Malik, Muvatta, Salam 6

SALAM ALIB-VERMƏYİN QAYDASI

Salam verən adam qarşısındakı şəxs bir nəfər də olsa cəm şəkilçisindən istifadə edərək "əs-sələmu aleykum və rahmətullahi və bərakətuh: Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun" deməlidir. Salamı alan da "və aleykumus-sələm və rahmətullahi və bərakətuh" deməlidir. "Aleykum"un əvvəlinə vav hərfi qoyulur. Salamın bu cür verilməsi və alınması müstəhəbdir.

Hədislər

٨٥٢ ـ عَنْ عِمْرَانَ بْنِ الْحُصَيْنِ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: السَّلاَمُ عَلَيْكُمْ ، فَرَدَّ عَلَيْهِ ثُمَّ جَلَسَ ، فَقَالَ النَّبِيُّ ﷺ : «عَشْرٌ». ثُمَّ جَاءَ آخَرُ ، فَقَالَ: السَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ. فَرَدَّ عَلَيْهِ ، فَجَلَسَ ، فَقَالَ: «عِشْرُونَ». ثُمَّ جَاءَ آخَرُ فَقَالَ: السَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ ، فَرَدَّ عَلَيْهِ فَجَلَسَ ، فَقَالَ: «ثَلاَثُونَ». رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ.

852. İmran bin Husayn *radiyallahu anhumə* belə dedi:

Bir nəfər Nəbi *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- əs-Sələmu aleykum, - dedi. Hz. Peyğəmbər onun salamına eynilə cavab verdikdən sonra gələn adam oturdu. Nəbi *səllallahu əleyhi və səlləm*:

- **"On savab qazandı"**, - buyurdu. Sonra başqa bir nəfər gəldi, o da:

- əs-Sələmu aleykum və rahmətullah, - dedi. Peyğəmbərimiz onun da salamını eynilə o cür aldı. O da yerinə oturdu. Hz. Peyğəmbər:

- **"İyirmi savab qazandı"**, - buyurdu. Sonra başqa bir nəfər gəldi və:

- əs-Sələmu aleykum və rahmətullahi və bərakətuh, - dedi. Hz. Peyğəmbər onun da salamını eynilə verdiyi kimi aldı. O da yerinə oturduqdan sonra Rəsulullah:

- **"Otuz savab qazandı"**, - buyurdu.

Əbu Davud, Ədəb 132; Tirmizi, İstizan 2

٨٥٣ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: «هَذَا جِبْرِيلُ يَقْرَأُ عَلَيْكِ السَّلاَمَ» (قَالَتْ) قُلْتُ: وَعَلَيْهِ السَّلاَمُ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ. مُتَّفَقٌ عَلَيْهِ.

853. Aişə *radiyallahu anhə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə:

- **"Bu, Cəbrayıl əleyhissalamdır, sənə salam verir"**, - buyurdu. Mən də:

- Və aleyhis-salam və rahmətullahi və bərakətuh, - dedim. [48]

Buxari, Bədul-xalq 6; İstizan 16; Müslim, Fəzailus-səhabə 90-91

❁

٨٥٤ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا تَكَلَّمَ بِكَلِمَةٍ أَعَادَهَا ثَلاَثًا حَتَّى تُفْهَمَ عَنْهُ ، وَإِذَا أَتَى عَلَى قَوْمٍ فَسَلَّمَ عَلَيْهِمْ سَلَّمَ عَلَيْهِمْ ثَلاَثًا. رَوَاهُ الْبُخَارِيُّ.

854. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* bir söz dediyi zaman həmin sözlə nə qəsd etdiyi yaxşı başa düşülsün deyə üç dəfə təkrar edərdi. Bir qrup insanın yanına gələndə də üç dəfə salam verərdi.

Buxari, Elm 30; İstizan 13. Həmçinin bax. Tirmizi, İstizan 28

❁

٨٥٥ ـ عَنِ الْمِقْدَادِ رَضِيَ اللَّهُ عَنْهُ فِي حَدِيثِهِ الطَّوِيلِ قَالَ: كُنَّا نَرْفَعُ لِلنَّبِيِّ ﷺ نَصِيبَهُ مِنَ اللَّبَنِ ، فَيَجِيءُ مِنَ اللَّيْلِ فَيُسَلِّمُ تَسْلِيمًا لاَ يُوقِظُ نَائِمًا وَيُسْمِعُ الْيَقْظَانَ ، فَجَاءَ النَّبِيُّ ﷺ فَسَلَّمَ كَمَا كَانَ يُسَلِّمُ. رَوَاهُ مُسْلِمٌ.

855. Miqdad *radiyallahu anh* nəql etdiyi uzun bir rəvayətdə belə dedi:

48. Bu hədis Buxari və Müslimin bəzi rəvayətlərində buradakı şəkildə "və bərakətuh" əlavəsi ilə, bəzi rəvayətlərdə isə "və bərakətuh" olmadan nəql edilmişdir. Qaydaya görə güvənilən ravilərin əlavəsi məqbuldur.

Biz Nəbi *səllallahu əleyhi və səlləmin* süd payını ayırıb saxlayırdıq.

Rəsuli-Əkrəm gecə ikən gəlir, yatanı oyandırmayacaq, ayıq olanlara eşitdirəcək şəkildə salam verirdi. Nəbi *səllallahu əleyhi və səlləm* bir gecə gəldi, yenə həmişəki kimi salam verdi.

Müslim, Əşribə 174. Həmçinin bax. Tirmizi, İstizan 26

❁

٨٥٦ ـ عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ فِي الْمَسْجِدِ يَوْمًا وَعُصْبَةٌ مِنَ النِّسَاءِ قُعُودٌ ، فَأَلْوَى بِيَدِهِ بِالتَّسْلِيمِ. رَوَاهُ التِّرْمِذِيُّ.

856. Əsma binti Yezid *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* bir gün məscidə baş çəkdi. Qadınlardan ibarət bir qrup orada oturmuşdu. Hz. Peyğəmbər əli ilə onlara işarə edərək salam verdi.

Tirmizi, İstizan 9. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd VI, 458

❁

٨٥٦ ـ عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ فِي الْمَسْجِدِ يَوْمًا وَعُصْبَةٌ مِنَ النِّسَاءِ قُعُودٌ ، فَأَلْوَى بِيَدِهِ بِالتَّسْلِيمِ. رَوَاهُ التِّرْمِذِيُّ.

857. Əbu Ümamə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah qatında insanların ən dəyərlisi salamı əvvəlcə verəndir".

Əbu Davud, Ədəb 133. Buna bənzər bir rəvayət üçün bax. Tirmizi, İstizan 6

❁

٨٥٨ ـ عَنْ أَبِي جُرَيٍّ الْهُجَيْمِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَيْتُ رَسُولَ اللَّهِ ﷺ فَقُلْتُ: عَلَيْكَ السَّلاَمُ يَا رَسُولَ اللَّهِ. فَقَالَ: «لاَ تَقُلْ عَلَيْكَ السَّلاَمُ ، فَإِنَّ عَلَيْكَ السَّلاَمُ تَحِيَّةُ الْمَوْتَى». رَوَاهُ أَبُو دَاوُدَ والتِّرْمِذِيُّ.

858. Əbu Cürey əl-Hüceymi *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəldim və:

- Aleykəs-səlam ya Rəsulallah, - dedim. Həzrət Peyğəmbər belə buyurdu:

- **"Aleykəs-səlam demə, çünki aleykəs-səlam ölülərə verilən salamdır".**

Əbu Davud, Libas 24; Tirmizi, İstizan 28

SALAM ƏDƏBİ

Hədislər

٨٥٩ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يُسَلِّمُ الرَّاكِبُ عَلَى الْمَاشِي ، وَالْمَاشِي عَلَى الْقَاعِدِ ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ». مُتَّفَقٌ عَلَيْهِ.

وَفِي رِوَايَةِ الْبُخَارِيِّ: «وَالصَّغِيرُ عَلَى الْكَبِيرِ».

859. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Minikdə olan piyadaya, piyada oturana, say baxımından az olan çox olana salam verməlidir".

Buxari, İstizan 5, 6; Müslim, Salam 1; Adab 46. Həmçinin bax. Əbu Davud, Ədəb 134; Tirmizi, İstizan 14

Buxarinin bir rəvayətində **"Kiçik böyüyə salam verməlidir"** əlavəsi yer alır.

Buxari, İstizan 7

❁

٨٦٠ ـ عَنْ أَبِي أُمَامَةَ صُدَيِّ بْنِ عَجْلاَنَ الْبَاهِلِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ أَوْلَى النَّاسِ بِاللَّهِ مَنْ بَدَأَهُمْ بِالسَّلاَمِ». رَوَاهُ أَبُو دَاوُدَ.

وَرَوَاهُ التِّرْمِذِيُّ عَنْ أَبِي أُمَامَةَ رَضِيَ اللَّهُ عَنْهُ ، قِيلَ: يَا رَسُولَ اللَّهِ ، الرَّجُلاَنِ يَلْتَقِيَانِ ، أَيُّهُمَا يَبْدَأُ بِالسَّلاَمِ؟ قَالَ: «أَوْلاَهُمَا بِاللَّهِ تَعَالَى».

860. Əbu Ümamə Sudey bin Əclan əl-Bahili *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah qatında insanların ən dəyərlisi salamı əvvəlcə verəndir".

Əbu Davud, Ədəb 133

Tirmizinin Əbu Ümamə *radiyallahu anhdan* rəvayətinə görə bir nəfər soruşdu:

- Ya Rəsulallah, iki nəfər bir-biri ilə qarşılaşdıqda onlardan hansı daha əvvəl salam verməlidir? Həzrət Peyğəmbər belə buyurdu:

- "Allah-Təalaya daha yaxın olan".

Tirmizi, İstizan 6

SALAMI TƏKRARLAMAQ

BİR YERƏ DƏFƏLƏRLƏ GİRİB-ÇIXAN VƏ YA ARALARINA AĞAC KİMİ MANEƏ GİRMƏSİ SƏBƏBİ İLƏ YENİDƏN QARŞILAŞAN ADAMLARIN HƏR DƏFƏ SALAM VERMƏLƏRİNİN MÜSTƏHƏB OLMASI

Hədislər

٨٦١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ فِي حَدِيثِ الْمُسِيءِ صَلاَتَهُ: أَنَّهُ جَاءَ فَصَلَّى ، ثُمَّ جَاءَ إِلَى النَّبِيِّ ﷺ فَسَلَّمَ عَلَيْهِ ، فَرَدَّ عَلَيْهِ السَّلاَمَ ، فَقَالَ: «ارْجِعْ فَصَلِّ ، فَإِنَّكَ لَمْ تُصَلِّ». فَرَجَعَ فَصَلَّى ، ثُمَّ جَاءَ فَسَلَّمَ عَلَى النَّبِيِّ ﷺ حَتَّى فَعَلَ ذَلِكَ ثَلاَثَ مَرَّاتٍ. مُتَّفَقٌ عَلَيْهِ.

861. Əbu Hüreyrə *radiyallahu anhın* namazını qaydalara riayət etmədən qılan adam haqqındakı hədisində bildirdiyinə görə həmin adam məscidə gedib namaz qıldı, sonra Nəbi *səllallahu əleyhi və səlləmin* yanına gəldi və ona salam verdi. Rəsuli-Əkrəm onun salamını aldı və:

"Geri qayıt və namaz qıl, çünki sən namaz qılmadın", - buyurdu. Həmin adam geri qayıdıb yenidən namaz qıldı, sonra Nəbi *səllallahu əleyhi və səlləmin* hüzuruna gəlib bir daha salam verdi. Nəticə olaraq bu hal üç dəfə təkrarlandı.

Buxari, Azan 95, 122; Əyman 15; İstizan 18; Müslim, Salət 45. Həmçinin bax. Tirmizi, Salət 110; İstizan 4; Nəsai, İftitah 7; Tətbiq 15; Səhv 67; ibn Macə, İqamət 72

٨٦٢ ـ وَعَنْهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: «إِذَا لَقِيَ أَحَدُكُمْ أَخَاهُ فَلْيُسَلِّمْ عَلَيْهِ ، فَإِنْ حَالَتْ بَيْنَهُمَا شَجَرَةٌ أَوْ جِدَارٌ أَوْ حَجَرٌ ثُمَّ لَقِيَهُ فَلْيُسَلِّمْ عَلَيْهِ». رَوَاهُ أَبُو دَاوُدَ.

862. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən biri din qardaşı ilə rastlaşdığı zaman ona salam versin. Əgər onların arasına ağac, divar və daş girsə, yenidən qarşılaşsalar, təkrar salam versin".

Əbu Davud, Ədəb 135

EVİNƏ GİRƏN ADAMIN SALAM VERMƏSİ

Ayə

فَإِذَا دَخَلْتُمْ بُيُوتًا فَسَلِّمُوا عَلَى أَنْفُسِكُمْ تَحِيَّةً مِنْ عِنْدِ اللَّهِ مُبَارَكَةً طَيِّبَةً.

"Evlərə daxil olduğunuz zaman özünüzü (bir-birinizi, qohum-əqrəbanızı, dostlarınızı və dindaşlarınızı) **Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın".**

(ən-Nur, 61)

Hədis

٨٦٣ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: «يَا بُنَيَّ ، إِذَا دَخَلْتَ عَلَى أَهْلِكَ فَسَلِّمْ يَكُنْ بَرَكَةً عَلَيْكَ وَعَلَى أَهْلِ بَيْتِكَ». رَوَاهُ التِّرْمِذِيُّ.

863. Ənəs *radiyallahu anh* belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyurdu:

"Oğlum, ailənin yanına girəndə onlara salam ver ki, sənə və ailənə bərəkət olsun".

UŞAQLARA SALAM VERMƏK

Hədis

٨٦٤ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ مَرَّ عَلَى صِبْيَانٍ فَسَلَّمَ عَلَيْهِمْ ، وَقَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَفْعَلُهُ. مُتَّفَقٌ عَلَيْهِ.

864. Ənəs *radiyallahu anh* uşaqlarla rastlaşanda onlara salam verər və:

Rəsulullah *səllallahu əleyhi və səlləm* belə edərdi, - deyərdi.

Buxari, İstizan 15; Müslim, Salam 15. Həmçinin bax. Əbu Davud, Ədəb 1364 Tirmizi, İstizan 8; İbn Macə, Ədəb 14

KİŞİNİN QADINA SALAM VERMƏSİ

KİŞİNİN ÖZ HAYAT YOLDAŞINA, MƏHRƏMİ OLAN QADINLARDAN BİRİNƏ, HAQQINDA FİTNƏ QORXUSU OLMAYAN YAD BİR QADINA VƏ YA QADINLARA SALAM VERMƏSİ VƏ BU ŞƏRTLƏRLƏ QADINLARIN DA SALAM VERMƏSİ

Hədislər

٨٦٥ ـ عَنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَتْ فِينَا امْرَأَةٌ ـ وَفِي رِوَايَةٍ: كَانَتْ لَنَا عَجُوزٌ ـ تَأْخُذُ مِنْ أُصُولِ السِّلْقِ ، فَتَطْرَحُهُ فِي الْقِدْرِ ، وَتُكَرْكِرُ حَبَّاتٍ مِنْ شَعِيرٍ ، فَإِذَا صَلَّيْنَا الْجُمُعَةَ وَانْصَرَفْنَا نُسَلِّمُ عَلَيْهَا ، فَتُقَدِّمُهُ إِلَيْنَا. رَوَاهُ الْبُخَارِيُّ.

865. Səhl bin Sad *radiyallahu anh* belə demişdir:

Aramızda bir qadın – başqa bir rəvayətdə yaşlı bir qadın – vardı. Çuğundur köklərini götürərək qazana qoyub bişirir, bir az da arpa üyüdürdü. Biz cümə namazını qılıb qayıdanda ona salam verirdik. O da hazırladığı yeməyi önümüzə qoyurdu.

Buxari, İstizan 16, Cümə 40; Hars 21; Ətimə 17

٨٦٦ ـ عَنْ أُمِّ هَانِيءٍ فَاخِتَةَ بِنْتِ أَبِي طَالِبٍ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: أَتَيْتُ النَّبِيَّ ﷺ يَوْمَ الْفَتْحِ ، وَهُوَ يَغْتَسِلُ وَفَاطِمَةُ تَسْتُرُهُ بِثَوْبٍ ، فَسَلَّمْتُ. وَذَكَرَتِ الْحَدِيثَ. رَوَاهُ مُسْلِمٌ.

866. Ümmü Hani Faxitə binti Əbu Talib *radiyallahu anhə* belə dedi:

Məkkənin fəthi günü Nəbi *səllallahu əleyhi və səlləmin* yanına getmişdim. Rəsuli-Əkrəm çimir, Fatimə də əlindəki örtüklə ona pərdə tuturdu. Mən salam verdim. Ümmü Hani hadisəni sonuna qədər danışdı.

Müslim, Heyz 70-71, Salətul-müsafirin 81-82. Həmçinin bax. Buxari, Qüsl 21; Salət 4; Tirmizi, İstizan 34

❁

٨٦٧ ـ عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَرَّ عَلَيْنَا النَّبِيُّ ﷺ فِي نِسْوَةٍ فَسَلَّمَ عَلَيْنَا. رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ.

وَهَذَا لَفْظُ أَبِي دَاوُدَ ؛ وَلَفْظُ التِّرْمِذِيِّ: أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ فِي الْمَسْجِدِ يَوْمًا، وَعُصْبَةٌ مِنَ النِّسَاءِ قُعُودٌ ، فَأَلْوَى بِيَدِهِ بِالتَّسْلِيمِ.

867. Əsma binti Yezid *radiyallahu anhə* belə dedi:

Qadınlarla birlikdə oturmuşduq, Nəbi *səllallahu əleyhi və səlləm* yanımızdan keçdi və bizə salam verdi.

Əbu Davud, Ədəb 137; Tirmizi, İstizan 9. Həmçinin bax. İbn Macə, Ədəb 14

Yuxarıdakı mətn Əbu Davuda aiddir. Tirmizinin mətni isə belədir: Rəsulullah *səllallahu əleyhi və səlləm* bir gün məscidə gəldi. Qadınlardan ibarət bir camaat məsciddə oturmuşdu. Hz. Peyğəmbər əli ilə onlara işarə edərək salam verdi.

İMAN ETMƏYƏNLƏRƏ SALAM VERİB-ALMAQ

İNANMAYANLARA İLK NÖVBƏDƏ BİZİM SALAM VERMƏYİMİZİN HARAM OLDUĞU, ONLARIN SALAMLARINA NECƏ CAVAB VERİLƏCƏYİ, MÜSƏLMANLARLA MÜSƏLMAN OLMAYANLARIN BİRLİKDƏ OTURDUĞU MƏCLİSƏ SALAM VERMƏYİN MÜSTƏHƏB OLMASI

Hədislər

٨٦٨ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لاَ تَبْدَؤُوا الْيَهُودَ وَلاَ النَّصَارَى بِالسَّلاَمِ ، فَإِذَا لَقِيتُمْ أَحَدَهُمْ فِي طَرِيقٍ فَاضْطَرُّوهُ إِلَى أَضْيَقِهِ». رَوَاهُ مُسْلِمٌ.

868. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yəhudi və xristianlara əvvəlcə siz salam verməyin. Yolda onlardan biri ilə qarşılaşdığınız zaman əziyyət verməmək şərti ilə onları yolun kənarı ilə getməyə məcbur edin".

Müslim, Salam 13. Həmçinin bax. Əbu Davud Ədəb 138; Tirmizi, İstizan 12; İbn Macə, ədəb 13

❁

٨٦٩ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا سَلَّمَ عَلَيْكُمْ أَهْلُ الْكِتَابِ فَقُولُوا: وَعَلَيْكُمْ». مُتَّفَقٌ عَلَيْهِ.

869. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kitab əhlindən olanlar sizə salam verəndə onlara "və aleykum" deyin".

Buxari, İstizan 22, Mürtəddin 4; Müslim, Salam 6-9

❁

٨٧٠ ـ عَنْ أُسَامَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ مَرَّ عَلَى مَجْلِسٍ فِيهِ أَخْلاَطٌ مِنَ الْمُسْلِمِينَ وَالْمُشْرِكِينَ ـ عَبَدَةِ الْأَوْثَانِ ـ وَالْيَهُودِ فَسَلَّمَ عَلَيْهِمُ النَّبِيُّ ﷺ. مُتَّفَقٌ عَلَيْهِ.

870. Üsamə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* müsəlmanlar, müşriklər – bütə sitayiş edənlər – və yəhudilərdən ibarət bir toplumla rastlaşdı və onlara salam verdi.

Buxari, İstizan 20; Müslim, Cihad 116

AYRILARKƏN SALAM VERMƏK

BİR ADAMIN MƏCLİSDƏN QALXARKƏN VƏ YA DAHA ÇOX YOLDAŞINDAN AYRILDIĞI ZAMAN SALAM VERMƏSİNİN MÜSTƏHƏB OLMASI

Hədis

٨٧١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا انْتَهَى أَحَدُكُمْ إِلَى الْمَجْلِسِ فَلْيُسَلِّمْ ، فَإِذَا أَرَادَ أَنْ يَقُومَ فَلْيُسَلِّمْ. فَلَيْسَتِ الْأُولَى بِأَحَقَّ مِنَ الْآخِرَةِ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

871. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən hər kim bir məclisə girərsə, salam versin. Oturduğu məclisdən qalxmaq istədiyi zaman da salam versin. Əvvəl verdiyi salam sonrakı salamından üstün deyil".

Əbu Davud, Ədəb 139; Tirmizi, İstizan 15

BİR EVƏ GİRƏNDƏ İZİN İSTƏMƏYİN VACİBLİYİ VƏ RİAYƏT OLUNACAQ ƏDƏBLƏR

Ayələr

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لاَ تَدْخُلُوا بُيُوتًا غَيْرَ بُيُوتِكُمْ حَتَّى تَسْتَأْنِسُوا وَتُسَلِّمُوا عَلَى أَهْلِهَا.

1. "Ey iman gətirənlər! Başqalarının evlərinə (sizin olmayan evlərə) **sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin".**

(ən-Nur, 27)

وَإِذَا بَلَغَ الْأَطْفَالُ مِنْكُمُ الْحُلُمَ فَلْيَسْتَأْذِنُوا كَمَا اسْتَأْذَنَ الَّذِينَ مِنْ قَبْلِهِمْ.

2. "Sizdən olan uşaqlar da həddi-buluğa çatanda (yanınıza daxil olmaq istədikləri zaman) **özlərindən əvvəlkilər kimi izin istəsinlər".**

(ən-Nur, 59)

Hədislər

٨٧٢ ـ عَنْ أَبِي مُوسَى الْأَشْعَرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «الِاسْتِئْذَانُ ثَلَاثٌ ، فَإِنْ أُذِنَ لَكَ وَإِلاَّ فَارْجِعْ». مُتَّفَقٌ عَلَيْهِ.

872. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Üç dəfə izin istənməlidir. İzin verilərsə, girərsən, verilməzsə, geri qayıdarsan".

Buxari, İstizan 13; Müslim, Ədəb 33-37. Həmçinin bax. Əbu Davud, Ədəb 127, 130; Tirmizi, İstizan 3; İbn Macə, Ədəb 17

❁

٨٧٣ ـ عَنْ سَهْلِ بْنِ سَعْدٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: إِنَّمَا جُعِلَ الْإِسْتِئْذَانُ مِنْ أَجْلِ الْبَصَرِ» . مُتَّفَقٌ عَلَيْهِ.

873. Səhl bin Sad *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İzin istəmək göz(ün evin eyiblərini görməməsi) üçün şərt qılınmışdır".

Buxari, İstizan 11; Müslim, Ədəb 41. Həmçinin bax. Tirmizi, İstizan 17

❁

٨٧٤ ـ عَنْ رِبْعِيٍّ بْنِ حِرَاشٍ قَالَ: حَدَّثَنَا رَجُلٌ مِنْ بَنِي عَامِرٍ أَنَّهُ اسْتَأْذَنَ عَلَى النَّبِيِّ ﷺ وَهُوَ فِي بَيْتٍ ، فَقَالَ: أَ أَلِجُ ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ لِخَادِمِهِ: «اُخْرُجْ إِلَى هَذَا فَعَلِّمْهُ الْإِسْتِئْذَانَ ، فَقُلْ لَهُ: قُلِ: السَّلاَمُ عَلَيْكُمْ ، أَ أَدْخُلُ ؟» فَسَمِعَهُ الرَّجُلُ فَقَالَ: السَّلاَمُ عَلَيْكُمْ ، أَأَدْخُلُ ؟ فَأَذِنَ لَهُ النَّبِيُّ ﷺ فَدَخَلَ. رَوَاهُ أَبُو دَاوُدَ.

874. Ribi bin Hiraş belə dedi:

Bəni-Amirdən bir nəfərin bizə xəbər verdiyinə görə o, Nəbi *səllallahu əleyhi və səlləm* evdə olarkən "içəri girə bilərəm?" – deyə izin istəmişdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* xidmətçisinə:

"Çıx, bu adama izin istəməyi öyrət. Əvvəlcə əs-Sələmu aleykum desin, sonra girə bilərəmmi, - deyə soruşsun",- buyurdu. Həmin adam Peyğəmbərimizin dediklərini eşidib:

əs-Sələmu aleykum, girə bilərəm? – dedi. Bu zaman Nəbi *səllallahu əleyhi və səlləm* ona izin verdi, o da içəri girdi.

Əbu Davud, Ədəb 127. Həmçinin bax. Əhməd bin Hənbəl, Müsnəd V, 369

❁

٨٧٥ ـ عَنْ كِلْدَةَ بْنِ الْحَنْبَلِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ فَدَخَلْتُ عَلَيْهِ وَلَمْ أُسَلِّمْ ، فَقَالَ النَّبِيُّ ﷺ : «ارْجِعْ فَقُلِ: السَّلاَمُ عَلَيْكُمْ ، أَأَدْخُلُ ؟». رَوَاهُ أَبُو دَاوُدَ وَالتِّرْمِذِيُّ.

875. Kildə bin Hənbəl *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləmin* yanına getdim və salam vermədən hüzuruna girdim. Nəbi *səllallahu əleyhi və səlləm*:

“Geri qayıt və əs-Sələmu aleykum, girə bilərəmmi, - de”, - buyurdu.

Əbu Davud, Ədəb 127; Tirmizi, İstizan 18

İZİN İSTƏYƏRKƏN ADINI DEMƏK

İZİN ALAN ADAMA “KİMDİR?” – DEYİLƏNDƏ TANINAN ADI VƏ YA KÜNYƏSİ İLƏ “FİLANKƏSƏM” DEMƏYİN SÜNNƏ OLMASI. “MƏN” VƏ YA BUNA BƏNZƏR CAVAB VERMƏYİNSƏ MƏKRUH OLMASI

Hədislər

٨٧٦ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ فِي حَدِيثِهِ الْمَشْهُورِ فِي الْإِسْرَاءِ ، قَالَ رَسُولُ اللَّهِ ﷺ: «ثُمَّ صَعِدَ بِي جِبْرِيلُ إِلَى السَّمَاءِ الدُّنْيَا ، فَاسْتَفْتَحَ ، فَقِيلَ: مَنْ هَذَا ؟ قَالَ: جِبْرِيلُ ؛ قِيلَ: وَمَنْ مَعَكَ ؟ قَالَ: مُحَمَّدٌ. ثُمَّ صَعِدَ إِلَى السَّمَاءِ الثَّانِيَةِ فَاسْتَفْتَحَ ، قِيلَ: مَنْ هَذَا ؟ قَالَ: جِبْرِيلُ ، قِيلَ: وَمَنْ مَعَكَ ؟ قَالَ: مُحَمَّدٌ ، وَإِلَى الثَّالِثَةِ وَالرَّابِعَةِ وَسَائِرِهِنَّ، وَيُقَالُ فِي بَابِ كُلِّ سَمَاءٍ:مَنْ هَذَا ؟ فَيَقُولُ: جِبْرِيلُ». مُتَّفَقٌ عَلَيْهِ.

876. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə məşhur Merac hədisində Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Sonra Cibril məni ən yaxın səmaya çıxardı və qapının açılmasını istədi”.

- Kimdir? – deyləndə:

- Mən Cibriləm, - dedi.

- Yanındakı kimdir? – deyildi.

- Muhammməd,- cavabını verdi. Sonra məni səmanın ikinci qatına çıxardı və qapının açılmasını istədi.

- Kimdir? – dedilər.

- Mən Cibriləm, - cavabını verdi.

- Yanındakı kimdir? – deyə soruşdular.

- Muhammməddir, - dedi. Səmanın üçüncü, dördüncü və digər qatlarına yüksəldikcə hər birinin qapısında:

- Kimdir? – deyə soruşurdular. O da:

- Mən Cibriləm, - cavabını verirdi.

Buxari, Bədul-xalq 6; Ənbiya 43; Mənaqibul-ənsar 42; Müslim, İman 259-264. Həmçinin bax. Nəsai, Salət 1

❁

٨٧٧ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: خَرَجْتُ لَيْلَةً مِنَ اللَّيَالِي ، فَإِذَا رَسولُ اللَّهِ ﷺ يَمْشِي وَحْدَهُ ، فَجَعَلْتُ أَمْشِي فِي ظِلِّ الْقَمَرِ ، فَالْتَفَتَ فَرَآنِي ، فَقَالَ: «مَنْ هَذَا؟». فَقُلْتُ: أَبُو ذَرٍّ. مُتَّفَقٌ عَلَيْهِ.

877. Əbu Zərr *radiyallahu anh* belə dedi:

Bir gecə çölə çıxmışdım. Bir də gördüm ki, Rəsulullah *səllallahu əleyhi və səlləm* təkbaşına gedir. Mən də ay işığında getməyə başladım. Rəsulullah üzünü çevirdi və məni gördü.

- **"Kimdir?"**, - deyə soruşdu. Mən:

- Əbu Zərr, - dedim.

Buxari, Riqaq 13; Müslim, Zəkat 33

❁

٨٧٨ ـ عَنْ أُمِّ هَانِىءٍ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: أَتَيْتُ النَّبِيَّ ﷺ وَهُوَ يَغْتَسِلُ وَفَاطِمَةُ تَسْتُرُهُ ، فَقَالَ: «مَنْ هَذِهِ ؟ فَقُلْتُ: أَنَا أُمُّ هَانِىءٍ. مُتَّفَقٌ عَلَيْهِ.

878. Ümmü Hani (Faxitə binti Əbu Talib) *radiyallahu anhə* belə dedi:

(Məkkənin fəthi günü) Nəbi *səllallahu əleyhi və səlləmin* yanına getmişdim. Rəsuli-Əkrəm çimir, Fatimə də əlindəki örtüklə ona pərdə tuturdu. (Mən salam verdim.) Peyğəmbərimiz:

- **"Kimdir?"** – dedi. Mən:

- Ümmü Haniyəm, - cavabını verdim.

Müslim, Heyz 70-71, Müsafirin 81-82. Həmçinin bax. Buxari, Qüsl 21; Salət 4; Tirmizi, İstizan 34

❁

٨٧٩ ـ عَنْ جَابِرٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ فَدَقَقْتُ الْبَابَ ، فَقَالَ: «مَنْ هَذَا ؟» فَقُلْتُ: أَنَا فَقَالَ: «أَنَا أَنَا ؟!» كَأَنَّهُ كَرِهَهَا. مُتَّفَقٌ عَلَيْهِ.

879. Cabir *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləmin* yanına gəldim və qapını döydüm. Rəsuli-Əkrəm:

- **"Kimdir gələn?"** – dedi.

- Mənəm, - cavabını verdim. Hz. Peyğəmbər:

- "Mənəm, mənəm!" – deyə təkrar etdi. Deyəsən bu cavabdan xoşu gəlməmişdi.

Buxari, İstizan 17; Müslim, Adab 38-39. Həmçinin bax. Əbu Davud, Ədəb 128

ASQIRANA YƏRHAMUKƏLLAH DEMƏK

ASQIRAN ADAM ƏLHAMDULİLLAH DEYƏRSƏ ONA YƏRHAMUKƏLLAH DEMƏYİN MÜTƏHƏB, ALLAHA HƏMD ETMƏDİKDƏ YƏRHAMUKƏLLAH DEMƏYİN MƏKRUH OLDUĞU, ASQIRANA CAVAB VERMƏK, ASQIRMAQ VƏ ƏSNƏMƏK ƏDƏBİ

Hədislər

٨٨٠ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِنَّ اللَّهَ يُحِبُّ الْعُطَاسَ وَيَكْرَهُ التَّثَاؤُبَ ، فَإِذَا عَطَسَ أَحَدُكُمْ وَحَمِدَ اللَّهَ تَعَالَى كَانَ حَقًّا عَلَى كُلِّ مُسْلِمٍ سَمِعَهُ أَنْ يَقُولَ لَهُ: يَرْحَمُكَ اللَّهُ . وَأَمَّا التَّثَاؤُبُ فَإِنَّمَا هُوَ مِنَ الشَّيْطَانِ فَإِذَا تَثَاءَبَ أَحَدُكُمْ فَلْيَرُدَّهُ مَااسْتَطَاعَ؛ فَإِنَّ أَحَدَكُمْ إِذَا تَثَاءَبَ ضَحِكَ مِنْهُ الشَّيْطَانُ». رَوَاهُ الْبُخَارِيُّ.

880. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Şübhəsiz ki, Allah asqıranı sevər, lakin əsnəyəni sevməz. Sizdən kim asqırar və "əlhamdulilləh" deyərsə, onun bu sözünü eşidən hər bir müsəlmanın borcudur ki, yərhamukəllah desin. Əsnəmək isə şeytandandır. Sizdən birinin əsnəməyi gələndə bacardığı qədər ona mane olmağa çalışsın. Çünki sizdən biri əsnədiyi zaman şeytan ona gülər".

Buxari, Ədəb 125, 128; Bədul-xalq 11. Həmçinin bax. Tirmizi, Ədəb 7

٨٨١ ـ وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: إِذَا عَطَسَ أَحَدُكُمْ فَلْيَقُلِ: الْحَمْدُ لِلَّهِ ، وَلْيَقُلْ لَهُ أَخُوهُ أَوْ صَاحِبُهُ: يَرْحَمُكَ اللَّهُ. فَإِذَا قَالَ لَهُ: يَرْحَمُكَ اللَّهُ ، فَلْيَقُلْ: يَهْدِيكُمُ اللَّهُ وَيُصْلِحُ بَالَكُمْ». رَوَاهُ الْبُخَارِيُّ.

881. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən hər kim asqırarsa, əlhamdulillah desin. Qardaşı və ya dostu ona yərhamukəllah desin. Asqıran da cavabında yəhdikumullahu və yuslihu bələkum – Allah sizə hidayət versin və qəlbinizi islah etsin,- desin".

Buxari, Ədəb 126. Həmçinin bax. Tirmizi, ədəb 3; İbn Macə, ədəb 20

❁

٨٨٢ ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ : « إِذَا عَطَسَ أَحَدُكُمْ فَحَمِدَ اللَّهَ فَشَمِّتُوهُ ، فَإِنْ لَمْ يَحْمَدِ اللَّهَ فَلاَ تُشَمِّتُوهُ». رَوَاهُ مُسْلِمٌ.

882. Əbu Musa *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin*:

"Sizdən biri asqıranda əlhamdulilləh deyərsə, ona yərhamukəllah deyin. Əgər Allaha həmd etməzsə, siz də yərhamukəllah deməyin", - buyurduğunu eşitdim.

Müslim, Zöhd 54

❁

٨٨٣ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: عَطَسَ رَجُلاَنِ عِنْدَ النَّبِيِّ ﷺ فَشَمَّتَ أَحَدَهُمَا وَلَمْ يُشَمِّتِ الآخَرَ، فَقَالَ الَّذِي لَمْ يُشَمِّتْهُ:عَطَسَ فُلاَنٌ فَشَمَّتَّهُ، وَعَطَسْتُ فَلَمْ تُشَمِّتْنِي ؟ فَقَالَ: «هَذَا حَمِدَ اللَّهَ ، وَإِنَّكَ لَمْ تَحْمَدِ اللَّهَ». مُتَّفَقٌ عَلَيْهِ.

883. Ənəs *radiyallahu anh* belə demişdir:

Nəbi *səllallahu əleyhi və səlləmin* yanında iki nəfər asqırdı. Onlardan birinə yərhamukəllah dedi, digərinə isə demədi. Yərhamukəllah demədiyi adam:

- Filankəs asqırdı, ona yərhamukəllah dedin, mən asqırdım, mənə isə demədin, - dedi. Peyğəmbərimiz:

- **"O, əlhamdulillah dedi, sən isə demədin"**, - buyurdu.

Buxari, Ədəb 127; Müslim, Zöhd 53. Həmçinin bax. Əbu Davud, Ədəb 94; Tirmizi, Ədəb 4

❁

٨٨٤ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا عَطَسَ وَضَعَ يَدَهُ أَوْ ثَوْبَهُ عَلَى فِيهِ ، وَخَفَضَ ـ أَوْ غَضَّ ـ بِهَا صَوْتَهُ . رَوَاهُ أَبُو دَاوُدَ ، والتِّرْمِذِيُّ.

884. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* asqıranda əlini və ya paltarını ağzına tutar, bununla da səsini azaltmağa – və ya ağzını yummağa – çalışardı.

Əbu Davud, Ədəb 90; Tirmizi, Ədəb 6

❁

٨٨٥ ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ الْيَهُودُ يَتَعَاطَسُونَ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ يَرْجُونَ أَنْ يَقُولَ لَهُمْ : «يَرْحَمُكُمُ اللَّهُ » ، فَيَقُولُ: «يَهْدِيكُمُ اللَّهُ وَيُصْلِحُ بَالَكُمْ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

885. Əbu Musa *radiyallahu anh* belə dedi:

Yəhudilər Rəsulullahın onlara **yərhamukəllah** deyəcəyini ümid edərək onun yanında yalandan asqırırdılar. Peyğəmbər *səllallahu əleyhi və səlləm* də onlara:

"Yəhdikumullahu və yuslihu bələkum – Allah sizə hidayət versin və sizi islah etsin",- buyurardı.

Əbu Davud, Ədəb 93; Tirmizi, Ədəb 3

٨٨٦ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا تَثَاءَبَ أَحَدُكُمْ فَلْيُمْسِكْ بِيَدِهِ عَلَى فِيهِ ، فَإِنَّ الشَّيْطَانَ يَدْخُلُ فِيهِ». رَوَاهُ مُسْلِمٌ.

886. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Sizdən biri əsnədiyi zaman əli ilə ağzını tutsun. Yoxsa şeytan ağzına girər".

Müslim, Zöhd 57-58. Həmçinin bax. Əbu Davud, Ədəb 89

MÜSAFİHƏ ETMƏK (GÖRÜŞMƏK)

BİR-BİRİ İLƏ QARŞILAŞAN MÜSƏLMANLARIN MÜSAFİHƏ ETMƏSİ, GÜLƏR ÜZ GÖSTƏRMƏSİ, SALEH BİR ADAMIN ƏLİNİ ÖPMƏYİN, UŞAĞINI ŞƏFQƏTLƏ ÖPMƏYİN, SƏFƏRDƏN QAYIDANLA QUCAQLAŞMAĞIN MÜBAH, BAŞQASININ ÖNÜNDƏ ƏYİLMƏYİNSƏ MƏKRUH OLMASI

Hədislər

٨٨٧ ـ عَنْ أَبِي الْخَطَّابِ قَتَادَةَ قَالَ: قُلْتُ لأَنَسٍ: أَكَانَتِ الْمُصَافَحَةُ فِي أَصْحَابِ رَسُولِ اللَّهِ ﷺ ؟ قَالَ: نَعَمْ. رَوَاهُ الْبُخَارِيُّ.

887. Əbul-Xəttab Qatadə belə dedi:

Mən Ənəsdən Rəsulullah *səllallahu əleyhi və səlləmin* əshabı arasında əl uzadıb sıxışmaq adəti olub-olmadığını soruşdum. O da:

- Bəli, - dedi.

Buxari, İstizan 27

٨٨٨ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَمَّا جَاءَ أَهْلُ الْيَمَنِ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «قَدْ جَاءَكُمْ أَهْلُ الْيَمَنِ ، وَهُمْ أَوَّلُ مَنْ جَاءَ بِالْمُصَافَحَةِ». رَوَاهُ أَبُو دَاوُدَ.

888. Ənəs *radiyallahu anh* belə dedi:

Yəməndən gələnlərə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Yəmən camaatı yanınıza gəldi, əllə görüşmək adətini ilk dəfə başladan onlardır".

Əbu Davud, Ədəb 143

❁

٨٨٩ ـ عَنِ الْبَرَاءِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَا مِنْ مُسْلِمَيْنِ يَلْتَقِيَانِ فَيَتَصَافَحَانِ إِلاَّ غُفِرَ لَهُمَا قَبْلَ أَنْ يَفْتَرِقَا». رَوَاهُ أَبُو دَاوُدَ.

889. Bəra *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"İki müsəlman qarşılaşdığı zaman əl uzadıb görüşərlərsə, bir-birindən ayrılmadan əvvəl günahları bağışlanar".

Əbu Davud, Ədəb 143. Həmçinin bax. İstizan 31; İbn Macə, Ədəb 15

❁

٨٩٠ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ : قَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ ، الرَّجُلُ مِنَّا يَلْقَى أَخَاهُ أَوْ صَدِيقَهُ ، أَيَنْحَنِي لَهُ ؟ قَالَ: «لاَ». قَالَ: أَفَيَلْتَزِمُهُ وَيُقَبِّلُهُ قَالَ: «لاَ». قَالَ: فَيَأْخُذُ بِيَدِهِ وَيُصَافِحُهُ ؟ قَالَ: «نَعَمْ». رَوَاهُ التِّرْمِذِيُّ.

890. Ənəs *radiyallahu anh* belə dedi:

Bir nəfər soruşdu:

- Ya Rəsulallah, hər hansı birimiz qardaşı və ya dostu ilə qarşılaşanda onun üçün əyilə bilərmi? Peyğəmbərimiz:

- **"Xeyr, əyilə bilməz"**, - buyurdu. Həmin adam:

- Onu qucaqlayıb öpə bilərmi? – deyə soruşdu. Hz. Peyğəmbər:

- **"Xeyr"**, - buyurdu. Bu dəfə həmin adam:

- Əlindən tutub salamlaşa bilərmi? – dedi. Peyğəmbərimiz:

- **"Bəli"**, - buyurdu.

Tirmizi, İstizan 31. Həmçinin bax. İbn Macə, Ədəb 15; Əhməd bin Hənbəl, Münəd III, 198

٨٩١ ـ عَنْ صَفْوَانَ بْنِ عَسَّالٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ يَهُودِيٌّ لِصَاحِبِهِ: اذْهَبْ بِنَا إِلَى هَذَا النَّبِيِّ ، فَأَتَيَا رَسُولَ اللَّهِ ﷺ فَسَأَلَاهُ عَنْ تِسْعِ آيَاتٍ بَيِّنَاتٍ ، فَذَكَرَ الْحَدِيثَ إِلَى قَوْلِهِ : فَقَبَّلاَ يَدَهُ وَرِجْلَهُ ، وَقَالَا: نَشْهَدُ أَنَّكَ نَبِيٌّ . رَوَاهُ التِّرْمِذِيُّ.

891. Səfvan bin Əssal *radiyallahu anh* belə dedi:

Yəhudilərdən biri özü kimi yəhudi olan dostuna:

- Gəl bu peyğəmbərin yanına gedək, - dedi. Birlikdə Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəldilər və müsəlmanlarla yəhudilər arasında müştərək olan doqquz ayə haqqında soruşdular. Peyğəmbərimiz onların sualını cavabladıqdan sonra əlini və ayağını öpərək:

- Şəhadət edirik ki, sən həqiqətən peyğəmbərsən, - dedilər. [49]

Tirmizi, İstizan 33. Həmçinin bax. İbn Macə, Ədəb 16; Əhməd bin Hənbəl, Müsnəd IV, 240

❁

49. İmam Nəvəvi Tirmizinin Sünənindən təxric etdiyi bu hədisi də ixtisar edərək sadəcə mövzu ilə əlaqəli hissəni zikr etməyi kifayət bilmişdir. Tirmizidə keçən hədisə görə Peyğəmbərimiz yəhudilərin soruşduğu doqquz şeyi və onların gizlətdiyi bir məsələni izah etmiş, bundan sonra əlini və ayağını öpmüşdülər. Hz. Peyğəmbərin onlara izah etdiyi özlərinin də çox yaxşı bildikləri on əmrdir. Onlardan doqquzunda müsəlmanlarla yəhudilər müştərəkdirlər. Biri isə yalnız yəhudilərə aiddir. Hədisdən öyrəndiyimizə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* onlara belə buyurmuşdur:
"Allaha heç nəyi şərik qoşmayın, oğurluq etməyin, zina etməyin, Allahın haram qıldığı bir nəfsi haqsız yerə öldürməyin, bir adamı öldürtmək üçün güc-qüdrət sahibinin yanına getməyin, sehr etməyin, faiz yeməyin, evli və namuslu qadına iffətsiz olduğuna dair iftira atmayın, döyüşün qızğın vaxtı müharibə meydanından qaçmayın. Bir də xüsusilə siz yəhudilərə fərz olan şənbə gününə hörmətsizlik etməyin". Müsəlmanlarla yəhudilər arasında müştərək olmayan yeganə şey onların şənbə gününü müqəddəs saymaları idi. Məhz bu cavabı alan kimi Peyğəmbərimizin əl-ayağını öpmüşdülər. Hətta Rəsuli-Əkrəm onlardan nə üçün özünə tabe olmadıqlarını və İslamı qəbul etmədiklərini də soruşmuş, onlar da belə etsələr digər yəhudilər tərəfindən öldürüləcəklərindən qorxduqlarını demişdilər.

٨٩٢ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا قِصَّةٌ قَالَ فِيهَا: فَدَنَوْنَا مِنَ النَّبِيِّ ﷺ فَقَبَّلْنَا يَدَهُ. رَوَاهُ أَبُو دَاوُدَ.

892. İbn Ömər *radiyallahu anhumə* başına gələn bir hadisəni danışarkən belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləmə* yaxınlaşdıq və əlini öpdük.

Əbu Davud, Cihad 96; Ədəb148. Həmçinin bax. Tirmizi, Cihad 36; İbn Macə, Ədəb 16

❁

٨٩٣ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَدِمَ زَيْدُ بْنُ حَارِثَةَ الْمَدِينَةَ وَرَسُولُ اللَّهِ ﷺ فِي بَيْتِي ، فَأَتَاهُ فَقَرَعَ الْبَابَ. فَقَامَ إِلَيْهِ النَّبِيُّ ﷺ يَجُرُّ ثَوْبَهُ ، فَاعْتَنَقَهُ وَقَبَّلَهُ. رَوَاهُ التِّرْمِذِيُّ.

893. Aişə *radiyallahu anhə* belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənim evimdə olarkən Zeyd bin Harisə Mədinəyə gəlmişdi. Sonra Rəsuli-Əkrəmi görməyə gələrək qapını döydü. Nəbi *səllallahu əleyhi və səlləm* paltarını sürüyərək ayağa qalxdı, onu qucaqlayıb öpdü.

Tirmizi, İstizan 32

❁

٨٩٤ ـ عَنْ أَبِي ذَرٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ «لاَ تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئًا وَلَوْ أَنْ تَلْقَى أَخَاكَ بِوَجْهٍ طَلِيقٍ». رَوَاهُ مُسْلِمٌ.

894. Əbu Zərr *radiyallahu anh* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* mənə belə buyurdu:

"Qardaşını gülər üzlə qarşılamaq da olsa, heç bir yaxşılığı xor görmə".

Müslim, Birr 144. Həmçinin bax. Tirmizi, Ətimə 30

٨٩٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَبَّلَ النَّبِيُّ ﷺ الْحَسَنَ بْنَ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُمَا ؛ فَقَالَ الْأَقْرَعُ بْنُ حَابِسٍ: إِنَّ لِي عَشَرَةً مِنَ الْوَلَدِ مَا قَبَّلْتُ مِنْهُمْ أَحَدًا. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ لاَ يَرْحَمْ لاَ يُرْحَمْ !». مُتَّفَقٌ عَلَيْهِ.

895. Əbu Hüreyrə *radiyallahu anh* belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləm* Hz. Əlinin oğlu Həsən radiyallahu anhuməni öpmüşdü. Əqra bin Habis:

- Mənim on övladım var, lakin onlardan heç birini öpməmişəm, - dedi. Rəsulullah *səllallahu əleyhi və səlləm* buyurdu:

- "Mərhəmət etməyənə mərhəmət olunmaz".

Buxari, Ədəb 18; Müslim, Fəzail 65. Həmçinin bax. Əbu Davud, Ədəb 145; Tirmizi, Birr 12

XƏSTƏ ZİYARƏTİ BÖLÜMÜ

XƏSTƏNİ ZİYARƏT ETMƏK, CƏNAZƏNİ YOLA SALMAQ, CƏNAZƏ NAMAZI QILIB QƏBRƏ QOYULARKƏN ORADA İŞTİRAK ETMƏK VƏ DƏFN EDİLDİKDƏN SONRA BİR MÜDDƏT MƏZARIN BAŞINDA GÖZLƏMƏK

Hədislər

٨٩٦ ـ عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَمَرَنَا رَسُولُ اللَّهِ ﷺ بِعِيَادَةِ الْمَرِيضِ ، وَاتِّبَاعِ الْجَنَازَةِ ، وَتَشْمِيتِ الْعَاطِسِ ، وَإِبْرَارِ الْمُقْسِمِ ، وَنَصْرِ الْمَظْلُومِ ، وَإِجَابَةِ الدَّاعِي ، وَإِفْشَاءِ السَّلاَمِ. مُتَّفَقٌ عَلَيْهِ.

896. Bəra bin Azib *radiyallahu anhumdan rəvayət olunduğuna görə* belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* bizə xəstə ziyarətini, cənazənin ardınca getməyi, asqırana "yərhəmukəllah" deməyi, and içənin andını pozmayıb ona sadiq qalmasını, haqsızlığa uğrayana yardım etməyi, dəvət edənin dəvətinə getməyi və salamı yaymağı tövsiyə etdi.

Buxari, Cənaiz 2; Məzalim 5, Nikah 71, Əşribə 28; Müslim, Libas 3. Həmçinin bax. Tirmizi, Ədəb 45; Nəsai, Cənaiz 53

❁

٨٩٧ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ خَمْسٌ: رَدُّ السَّلاَمِ ، وَعِيَادَةُ الْمَرِيضِ، واتِّبَاعُ الْجَنَائِزِ، وَإِجَابَةُ الدَّعْوَةِ، وَتَشْمِيتُ الْعَاطِسِ». مُتَّفَقٌ عَلَيْهِ.

897. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Müsəlmanın müsəlman üzərindəki haqqı beşdir: salam almaq, xəstə ziyarət etmək, cənazənin ardınca getmək, dəvətə getmək və asqırana "yərhəmukəllah" demək".

Buxari, Cənaiz 2; Müslim, Salam 4. Həmçinin bax. İbn Macə, Cənaiz 1

❁

٨٩٨ ـ وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ اللَّهَ عَزَّ وَجَلَّ يَقُولُ يَوْمَ الْقِيَامَةِ: يَا بْنَ اٰدَمَ ، مَرِضْتُ فَلَمْ تَعُدْنِي ! قَالَ: يَا رَبِّ كَيْفَ أَعُودُكَ وَأَنْتَ رَبُّ الْعَالَمِينَ؟ قَالَ: أَمَا عَلِمْتَ أَنَّ عَبْدِي فُلاَنًا مَرِضَ فَلَمْ تَعُدْهُ ! أَمَا عَلِمْتَ أَنَّكَ لَوْ عُدْتَهُ لَوَجَدْتَنِي عِنْدَهُ ؟ يَا بْنَ آدَمَ ، اسْتَطْعَمْتُكَ فَلَمْ تُطْعِمْنِي! قَالَ: يَا رَبِّ ، كَيْفَ أُطْعِمُكَ وَأَنْتَ رَبُّ الْعَالَمِينَ ! قَالَ: أَمَا عَلِمْتَ أَنَّهُ اسْتَطْعَمَكَ عَبْدِي فُلاَنٌ فَلَمْ تُطْعِمْهُ ! أَمَا عَلِمْتَ أَنَّكَ لَوْ أَطْعَمْتَهُ لَوَجَدْتَ ذَلِكَ عِنْدِي ؟ يَا بْنَ اٰدَمَ ، اسْتَسْقَيْتُكَ فَلَمْ تَسْقِنِي ! قَالَ : يَا رَبِّ كَيْفَ أَسْقِيكَ وَأَنْتَ رَبُّ الْعَالَمِينَ ؟ قَالَ: اسْتَسْقَاكَ عَبْدِي فُلاَنٌ ، فَلَمْ تَسْقِهِ ! أَمَا عَلِمْتَ أَنَّكَ لَوْ سَقَيْتَهُ لَوَجَدْتَ ذٰلِكَ عِنْدِي ؟». رَوَاهُ مُسْلِمٌ.

898. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Allah-Təala qiyamət günü belə buyurar:

- **"Ey Adəm oğlu, xəstələnmişdim, məni ziyarət etmədin"**. Adəm oğlu:

- Sən aləmlərin Rəbbi ola-ola mən Səni necə ziyarət edə bilərəm? – deyər. Allah-Təala:

- **"Filan qulum xəstələndi, ziyarətinə getmədin. Onu ziyarət etsəydin, Məni onun yanında tapardın. Bunu bilmirsənmi? Ey Adəm oğlu, Məni doydurmanı istədim, doydurmadın"**, - buyurar. Adəm oğlu:

- Sən aləmlərin Rəbbi ola-ola mən Səni necə doydura bilərdim? – deyər. Allah-Təala:

- **“Filan qulum səndən yemək istədi, vermədin. Əgər ona yemək versəydin, verdiyini Mənim qatımda mütləq tapacağını bilmirsənmi? Ey Adəm oğlu, səndən su istədim, vermədin”**, - buyurar. Adəm oğlu:

- Ey Rəbbim, Sən aləmlərin Rəbbi ola-ola mən Sənə necə su verə bilərdim? – deyər. Allah-Təala:

- **“Filan qulum səndən su istədi, vermədin. Əgər ona istədiyini versəydin, verdiyinin savabını dərgahımda görərdin. Bunu bilmirsənmi?”** – buyurar.

Müslim, Birr 43

❁

٨٩٩ ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «عُودُوا الْمَرِيضَ ، وَأَطْعِمُوا الْجَائِعَ ، وَفُكُّوا الْعَانِيَ». رَوَاهُ الْبُخَارِيُّ.

899. Əbu Musa *radiyallahu anhdan* rvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Xəstəni ziyarət edin, ac olanın qarnını doydurun, əsiri azad edin!”

Buxari, Cihad 171, Ətimə 1, Nikah 71, Mərda 4

❁

٩٠٠ ـ عَنْ ثَوْبَانَ رَضِيَ اللَّهُ عَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ الْمُسْلِمَ إِذَا عَادَ أَخَاهُ الْمُسْلِمَ لَمْ يَزَلْ فِي خُرْفَةِ الْجَنَّةِ حَتَّى يَرْجِعَ». قِيلَ: يَا رَسُولَ اللَّهِ ، وَمَا خُرْفَةُ الْجَنَّةِ؟ قَالَ: «جَنَاهَا». رَوَاهُ مُسْلِمٌ.

900. Səvban *radiyallahu anhdan* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Bir müsəlman xəstə olan müsəlman qardaşını ziyarətə gedərsə, qayıdana qədər cənnət xurfəsi içindədir”.

- Ey Allahın elçisi, cənnət xurfəsi nədir? – deyə soruşdular. Rəsuli-Əkrəm:

- **“Cənnət yeməyidir”,** - buyurdu.

Müslim, Birr 40-42. Həmçinin bax. Tirmizi, Cənaiz 2

٩٠١ ـ عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَا مِنْ مُسْلِمٍ يَعُودُ مُسْلِمًا غُدْوَةً إِلاَّ صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُمْسِيَ ، وَإِنْ عَادَهُ عَشِيَّةً صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُصْبِحَ ، وَكَانَ لَهُ خَرِيفٌ فِي الْجَنَّةِ». رَوَاهُ التِّرْمِذِيُّ.

901. Əli *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitmişdir:

"Bir müsəlman xəstə olan müsəlman qardaşını səhər ziyarətə gedərsə, yetmiş min mələk axşama qədər ona rəhmət oxuyar. Əgər axşam vaxtı ziyarət edərsə, yetmiş min mələk səhərə qədər onun üçün istiğfar edər. Həmin adam üçün cənnətdə yığılmış meyvələr də var".

Tirmizi, Cənaiz 2. Həmçinin bax. Əbu Davud, Cənaiz 3; İbn Macə, Cənaiz 2

❁

٩٠٢ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ غُلاَمٌ يَهُودِيٌّ يَخْدُمُ النَّبِيَّ ﷺ فَمَرِضَ ، فَأَتَاهُ النَّبِيُّ ﷺ يَعُودُهُ ، فَقَعَدَ عِنْدَ رَأْسِهِ ، فَقَالَ لَهُ: «أَسْلِمْ». فَنَظَرَ إِلَى أَبِيهِ وَهُوَ عِنْدَهُ . فَقَالَ: أَطِعْ أَبَا الْقَاسِمِ ، فَأَسْلَمَ ، فَخَرَجَ النَّبِيُّ ﷺ وَهُوَ يَقُولُ: «الْحَمْدُ لِلَّهِ الَّذِي أَنْقَذَهُ مِنَ النَّارِ». رَوَاهُ الْبُخَارِيُّ.

902. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə dedi:

Nəbi *səllallahu əleyhi və səlləmə* xidmət edən yəhudi bir uşaq vardı. Bir gün həmin uşaq xəstələndi. Peyğəmbər *səllallahu əleyhi və səlləm* onu ziyarətə getdi, baş ucunda oturdu və ona:

- **"Müsəlman ol!"** – buyurdu. Uşaq yanında dayanan atasının fikrini öyrənmək üçün ona baxdı. Atası:

- Əbul-Qasimin dəvətini qəbul et, - dedi. Uşaq müsəlman oldu.

Bu zaman Hz. Peyğəmbər:

"Bu uşağı cəhənnəmdən qurtaran Allaha həmd olsun", - deyərək çölə çıxdı.

Buxari, Cənaiz 80, Mərda 11. Həmçinin bax. Əbu Davud, Cənaiz 2

XƏSTƏYƏ DUA ETMƏK

XƏSTƏYƏ NECƏ DUA EDİLİR?

Hədislər

٩٠٣ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا اشْتَكَى الْإِنْسَانُ الشَّيْءَ مِنْهُ ـ أَوْ كَانَتْ بِهِ قَرْحَةٌ أَوْ جُرْحٌ ـ قَالَ النَّبِيُّ ﷺ بِأُصْبُعِهِ هَكَذَا ، وَوَضَعَ سُفْيَانُ بْنُ عُيَيْنَةَ الرَّاوِي سَبَّابَتَهُ بِالْأَرْضِ ، ثُمَّ رَفَعَهَا وَقَالَ: «بِسْمِ اللَّهِ ، تُرْبَةُ أَرْضِنَا ، بِرِيقَةِ بَعْضِنَا ، يُشْفَى بِهِ سَقِيمُنَا بِإِذْنِ رَبِّنَا». مُتَّفَقٌ عَلَيْهِ.

903. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə kiminsə hər hansı bir yeri ağrıyanda və ya yarası olanda Hz. Peyğəmbər barmağı ilə belə edər – ravi Süfyan bin Üyeynə şəhadət barmağını yerə vurub qaldıraraq Hz. Peyğəmbərin necə etdiyini göstərdi – və:

- **"Bismillah, bu, bizdən birinin tüpürcəyi ilə qarışmış yurdumuzun torpağıdır, Rəbbimizin izni ilə xəstələrimizə şəfa olur"**, - buyurardı.

Buxari, Tibb 38; Müslim, Salam 54. Həmçinin bax. Əbu Davud, Tibb 19; İbn Macə, Tibb 36

❁

٩٠٤ ـ وَعَنْهَا أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَعُودُ بَعْضَ أَهْلِهِ ، يَمْسَحُ بِيَدِهِ الْيُمْنَى وَيَقُولُ: «اللَّهُمَّ رَبَّ النَّاسِ ، أَذْهِبِ الْبَاسَ ، إِشْفِ أَنْتَ الشَّافِي لاَ شِفَاءَ إِلاَّ شِفَاؤُكَ ، شِفَاءً لاَ يُغَادِرُ سَقَمًا». مُتَّفَقٌ عَلَيْهِ.

904. Yenə Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* ailə üzvlərindən biri xəstələnəndə sağ əli ilə xəstəyə məsh çəkər və belə dua edərdi:

"Bütün insanların Rəbbi olan Allahım, bunun iztirabını apar və şəfa ver. Şəfa verən ancaq Sənsən. Sənin şəfandan başqa şəfa yoxdur. Bunda heç bir xəstəlik izi qoymayacaq qədər şəfa ver!"

Buxari, Mərda 20, Tibb 38, 40; Müslim, Salam 46-49. Həmçinin bax. Əbu Davud, Tibb 17, 19; Tirmizi, Dəavat 111; İbn Macə, Cənaiz 64, Tibb 36, 39

٩٠٥ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ قَالَ لِثَابِتٍ رَحِمَهُ اللَّهُ: أَلاَ أَرْقِيكَ بِرُقْيَةِ رَسُولِ اللَّهِ ﷺ ؟ قَالَ: بَلَى: قَالَ: «اللَّهُمَّ رَبَّ النَّاسِ ، مُذْهِبَ الْبَاسِ ، إِشْفِ أَنْتَ الشَافِي ، لاَ شَافِيَ إِلاَّ أَنْتَ ، شِفَاءً لاَ يُغَادِرُ سَقَمًا». رَوَاهُ الْبُخَارِيُّ.

905. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə (tələbəsi) Sabitdən –Allah ona rəhmət eləsin-

- Sənə Hz. Peyğəmbərin xəstəyə oxuduğu duanı oxuyummu? – deyə soruşdu. Sabit də:

- Oxu! – dedi. Bu zaman Ənəs bu duanı oxudu:

"Ey insanların, iztirabları aparan Rəbbi Allahım! Səndən başqa şəfa verəcək yoxdur. Buna heç bir iz qalmayacaq şəkildə şəfa ver, şəfa verən yalnız sənsən".

Buxari, Tibb 38, 40. Həmçinin bax. Əbu Davud, Tibb 19

❁

٩٠٦ ـ عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: عَادَنِي رَسُولُ اللَّهِ ﷺ فَقَالَ : «اللَّهُمَّ اشْفِ سَعْدًا ؛ اللَّهُمَّ اشْفِ سَعْدًا ، اللَّهُمَّ اشْفِ سَعْدًا. رَوَاهُ مُسْلِمٌ.

906. Sad bin Əbu Vaqqas *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə dedi:

Xəstə olduğum vaxt Rəsulullah *səllallahu əleyhi və səlləm* məni ziyarətə gəldi və üç dəfə:

"Allahım, Sada şəfa ver", - deyərək dua etdi.

Müslim, Vəsaya 8. Həmçinin bax. Buxari, Mərda 13

❁

٩٠٧ ـ عَنْ أَبِي عَبْدِ اللَّهِ عُثْمَانَ بْنِ أَبِي الْعَاصِ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّهُ شَكَا إِلَى رَسُولِ اللَّهِ ﷺ وَجَعًا يَجِدُهُ فِي جَسَدِهِ ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: «ضَعْ يَدَكَ عَلَى

الَّذِي يَأْلَمُ مِنْ جَسَدِكَ ، وَقُلْ: بِسْمِ اللَّهِ ـ ثَلاَثًا ـ وَقُلْ سَبْعَ مَرَّاتٍ: أَعُوذُ بِعِزَّةِ اللَّهِ وَقُدْرَتِهِ مِنْ شَرِّ مَا أَجِدُ وَأُحَاذِرُ». رَوَاهُ مُسْلِمٌ.

907. Əbu Abdullah Osman bin Əbul-As *radiyallahu anhdan* rəvayət edildiyinə görə (müsəlman olduğundan bəri) bədənində hiss etdiyi bir ağrı səbəbi ilə Rəsulullah *səllallahu əleyhi və səlləmə* şikayət etdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* də ona belə tövsiyə etdi:

- **"Əlini bədəninin ağrıyan yerinə qoy və üç dəfə "bismillah" de, yeddi dəfə də "məndəki bu xəstəliyin şərindən və gələcəkdə yenidən ağrı və hüzn verməsindən Allahın izzət və qüdrətinə sığınıram, - de!"**

Müslim, Salam 67. Həmçinin bax. Əbu Davud, Tibb 19; Tirmizi, Tibb 29, Dəavat 125; İbn Macə, Tibb 36

❁

٩٠٨ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا عَنِ النَّبِيِّ ﷺ قَالَ: مَنْ عَادَ مَرِيضاً لَمْ يَحْضُرْهُ أَجَلُهُ فَقَالَ عِنْدَ هُ سَبْعَ مَرَّاتٍ: أَسْأَلُ اللَّهَ الْعَظِيمَ ، رَبَّ الْعَرْشِ الْعَظِيمِ ، أَنْ يَشْفِيَكَ ، إِلاَّ عَافَاهُ اللَّهُ مِنْ ذَلِكَ الْمَرَضِ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

908. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Peyğəmbər *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Kim əcəli çatmayan bir xəstəni ziyarət edər və onun baş ucunda yeddi dəfə "böyük ərşin sahibi olan uca Allahdan sənə şəfa verməsini istəyirəm" deyərək dua edərsə, Allah həmin xəstəni sağaldar".

Əbu Davud, Cənaiz8; Tirmizi, Tibb 32

❁

٩٠٩ ـ وَعَنْهُ أَنَّ النَّبِيَّ ﷺ دَخَلَ عَلَى أَعْرَابِيٍّ يَعُودُهُ ، وَكَانَ إِذَا دَخَلَ عَلَى مَنْ يَعُودُهُ قَالَ: «لاَ بَأْسَ ؛ طَهُورٌ إِنْ شَاءَ اللَّهُ». رَوَاهُ الْبُخَارِيُّ.

909. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Nəbi *səllallahu əleyhi və səlləm* xəstə bir bədəvini ziyarət etdi. Bütün xəstə zi-

yarətində etdiyi kimi ona da “Keçmiş olsun, inşallah xəstəliyin günahlarına kəffarə olar”, - buyurdu.

Buxari, Tövhid 31, Mənaqib 25, Mərda 10, 14

❁

٩١٠ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ جِبْرِيلَ أَتَى النَّبِيَّ ﷺ فَقَالَ: يَا مُحَمَّدُ ، اشْتَكَيْتَ ؟ قَالَ «نَعَمْ» ، قَالَ: بِسْمِ اللَّهِ أَرْقِيكَ مِنْ كُلِّ شَيْءٍ يُؤْذِيكَ: مِنْ شَرِّ كُلِّ نَفْسٍ أَوْ عَيْنٍ حَاسِدٍ ! اللَّهُ يَشْفِيكَ ، بِسْمِ اللَّهِ أَرْقِيكَ».

رَوَاهُ مُسْلِمٌ.

910. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Cəbrayıl əleyhissalam Nəbi *səllallahu əleyhi və səlləmin* yanına gələrək:

- Ey Muhammməd, xəstəsənmi? – deyə soruşdu. Hz. Peyğəmbər də:

- Bəli, - dedi. Cəbrayıl əleyhissalam:

- Allahın adı ilə səni narahat edən hər şeydən sənə dua edirəm. Hər nəfsin və ya həsəd edən hər gözün şərindən Allah sənə şəfa versin. Allahın adı ilə sənə dua edirəm, - deyərək dua etdi.

Müslim, Salam 40

❁

٩١١ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ وَأَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّهُمَا شَهِدَا عَلَى رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ: «مَنْ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَاللَّهُ أَكْبَرُ ، صَدَّقَهُ رَبُّهُ ، فَقَالَ: لاَ إِلَهَ إِلاَّ أَنَا ، وَأَنَا أَكْبَرُ. وَإِذَا قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ ، قَالَ: يَقُولُ: لاَ إِلَهَ إِلاَّ أَنَا وَحْدِي لاَ شَرِيكَ لِي. وَإِذَا قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ ، قَالَ: لاَ إِلَهَ إِلاَّ أَنَا لِيَ الْحَمْدُ وَلِيَ الْمُلْكُ. وَإِذَا قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ ، قَالَ: لاَ إِلَهَ إِلاَّ أَنَا ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِي». وَكَانَ يَقُولُ: «مَنْ قَالَهَا فِي مَرَضِهِ ثُمَّ مَاتَ لَمْ تَطْعَمْهُ النَّارُ». رَوَاهُ التِّرْمِذِيُّ.

911. Əbu Səid əl-Xudri və Əbu Hüreyrə *radiyallahu anhumədən* rəvayət edildiyinə görə hər ikisi Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə dediyinə şahid oldular:

- "Kim "Allahdan başqa ilah yoxdur və Allah böyükdür",- deyərsə, Allah onun sözünü təsdiqləyərək "Məndən başqa ilah yoxdur, Mən böyüyəm", - buyurar.

- "Allahdan başqa ilah yoxdur, o təkdir, şəriki yoxdur", - dedikdə Allah-Təala (onu təsdiq edərək) "Məndən başqa ilah yoxdur, Mən təkəm, tayım-bərabərim yoxdur", - buyurar. Qul:

- "Allahdan başqa ilah yoxdur. Mülk də, həmd də Onundur" dedikdə Allah-Təala:

- "Məndən başqa ilah yoxdur, həmd də, mülk də Mənimdir", - buyurar. Qul:

- "Allahdan başqa ilah yoxdur, güc-qüdrət yalnız Allahındır" dedikdə, Allah-Təala:

- "Məndən başqa ilah yoxdur, qüvvət də, qüdrət də yalnız Mənə məxsusdur, Mənimlədir", - buyurar.

Bu izahatdan sonra Rəsuli-Əkrəm *səllallahu əleyhi və səlləm* sözünə davam edərək **"Hər kim bu duaları xəstə olarkən edər, sonra ölərsə, cəhənnəm odu ona toxunmaz", -** buyurdu.

Tirmizi, Dəavat 36

XƏSTƏNİN YAXINLARINDAN HALINI SORUŞMAQ

Hədis

٩١٢ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ عَلِيَّ بْنَ أَبِي طَالِبٍ رَضِيَ اللَّهُ عَنْهُ خَرَجَ مِنْ عِنْدِ رَسُولِ اللَّهِ ﷺ فِي وَجَعِهِ الَّذِي تُوُفِّيَ فِيهِ ، فَقَالَ النَّاسُ: «يَا أَبَا الْحَسَنِ ، كَيْفَ أَصْبَحَ رَسُولُ اللَّهِ ﷺ ؟ قَالَ: أَصْبَحَ بِحَمْدِ اللَّهِ بَارِئًا». رَوَاهُ الْبُخَارِيُّ.

912. İbn Abbas *radiyalahu anhumədən* rəvayət edildiyinə görə Əli bin Əbu Talib radiyallahu anh Rəsulullah *səllallahu əleyhi və səlləmin* vəfatına səbəb olan xəstəlik günlərində yanından çıxdı. Səhabələr soruşdular:

- Ey Əbul-Həsən, Rəsulullah *səllallahu əleyhi və səlləm* necə oldu, gecəni necə keçirdi? O da:

- Allaha həmd olsun, xəstəliyi sovuşdu, - cavabını verdi.

Buxari, Məğazi 83, İstizan 29

ÖLƏCƏYİNİ HİSS EDƏN ADAMIN DUASI

Hədislər

٩١٣ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ:سَمِعْتُ النَّبِيَّ ﷺ وَهُوَ مُسْتَنِدٌ إِلَيَّ يَقُولُ: «اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الْأَعْلَى». مُتَّفَقٌ عَلَيْهِ.

913. Aişə *radiyallahu anhə* belə demişdir:

Nəbi *səllallahu əleyhi və səlləm* mənə söykənib belə dua etdiyini eşitdim:

"Allahım, məni bağışla, mənə mərhəmət et və məni rəfiqi-əlaya qovuşdur!"

Buxari, Mərda 19, Məğazi 83, 84, Riqaq 42, Dəavat 28; Müslim, Salam 46, Fəzailus-səhabə 85, 87. Həmçinin bax. Tirmizi, Dəavat 76; İbn Macə, Cənaiz 64

❁

٩١٤ ـ وَعَنْهَا قَالَتْ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ وَهُوَ بِالْمَوْتِ ، عِنْدَهُ قَدَحٌ فِيهِ مَاءٌ، وَهُوَ يُدْخِلُ يَدَهُ فِي الْقَدَحِ ، ثُمَّ يَمْسَحُ وَجْهَهُ بِالْمَاءِ ، ثُمَّ يَقُولُ: «اللَّهُمَّ أَعِنِّي عَلَى غَمَرَاتِ الْمَوْتِ وَسَكَرَاتِ الْمَوْتِ». رَوَاهُ التِّرْمِذِيُّ.

914. Yenə Aişə radiyallahu anhə belə demişdir:

Rəsulullah *səllallahu əleyhi və səlləm* ölüm döşəyində ikən yanındakı su qabına əlini batırıb üzünə sürtdüyünü gördüm. Belə etdikdən son-

ra da **“Allahım, ölümün şiddət və iztirabına qarşı mənə kömək ol”**, - deyərək dua edirdi.

Tirmizi, Cənaiz 8. Həmçinin bax. İbn Macə, Cənaiz 64



XƏSTƏYƏ VƏ ÖLÜMƏ MƏHKUM EDİLƏNLƏRƏ YAXŞI BAXMAQ

XƏSTƏ YAXINLARINA VƏ BAXICILARINA ONA YAXŞI BAXMALARINI VƏ ONUN RƏFTARLARINA SƏBİR ETMƏLƏRİNİ TÖVSİYƏ ETMƏK, HƏMÇİNİN QİSAS VƏ BU KİMİ CƏZALARA MƏHKUM EDİLİB ÖLÜMÜ YAXINLAŞANLARA XOŞ RƏFTAR EDİLMƏSİNİ XATIRLATMAQ

Hədis

٩١٥ ـ عَنْ عِمْرَانَ بْنِ حُصَيْنٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ امْرَأَةً مِنْ جُهَيْنَةَ أَتَتِ النَّبِيَّ ﷺ وَهِيَ حُبْلَى مِنَ الزِّنَى فَقَالَتْ: يَا رَسُولَ اللَّهِ ، أَصَبْتُ حَدًّا فَأَقِمْهُ عَلَيَّ، فَدَعَا رَسُولُ اللَّهِ ﷺ وَلِيَّهَا ، فَقَالَ: «أَحْسِنْ إِلَيْهَا ، فَإِذَا وَضَعَتْ فَائْتِنِي بِهَا». فَفَعَلَ، فَأَمَرَ بِهَا النَّبِيُّ ﷺ فَشُدَّتْ عَلَيْهَا ثِيَابُهَا ، ثُمَّ أَمَرَ بِهَا فَرُجِمَتْ ثُمَّ صَلَّى عَلَيْهَا. رَوَاهُ مُسْلِمٌ.

915. İmran bin Husayn *radiyallahu anhdan* rəvayət edildiyinə görə Cüheynə qəbiləsindən bir qadın zinadan hamilə qaldığı halda Nəbi *səllallahu əleyhi və səlləmin* yanına gəldi və:

- Ey Allahın Rəsulu, həd cəzasını vacib edən günah işlədim. Cəzamı ver! – dedi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* qadının vəlisini yanına çağırtdırdı və ona:

- “**Bu qadına yaxşı bax, körpəsi doğulandan sonra yanıma gətir!”** – buyurdu.

O da tapşırıldığı kimi etdi və uşaq doğulandan sonra qadını gətirdi.

Rəsulullah *səllallahu əleyhi və səlləm* qadının paltarının möhkəm bağlanmasını istədi, dediyi kimi etdilər. Sonra Peyğəmbərin əmri ilə daş-qalaq edilərək öldürüldü. Sonra da Rəsuli-Əkrəm qadının cənazə namazını qıldı.

Müslim, Hudud 24. Həmçinin bax. Əbu Davud, Hudud 24; Tirmizi, Hudud 9; Nəsai, Cənaiz 64

XƏSTƏNİN HALINI DİLƏ GƏTİRMƏSİ

XƏSTƏ OLANIN "XƏSTƏYƏM, ŞİDDƏTLİ AĞRIM VAR, VAY BAŞIM" KİMİ SÖZLƏR DEMƏSİNİN CAİZ OLDUĞU, ŞİKAYƏT ETMƏDİYİ MÜDDƏTDƏ BU CÜR DEMƏSİNİN MÜMKÜNLÜYÜ

Hədislər

٩١٦ ـ عَنِ ابْنِ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: دَخَلْتُ عَلَى النَّبِيِّ ﷺ وَهُوَ يُوعَكُ فَمَسِسْتُهُ ، فَقُلْتُ: إِنَّكَ لَتُوعَكُ وَعْكًا شَدِيدًا ، فَقَالَ: «أَجَلْ ، إِنِّي أُوعَكُ كَمَا يُوعَكُ رَجُلاَنِ مِنْكُمْ». مُتَّفَقٌ عَلَيْهِ.

916. İbn Məsud *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Bir dəfə Nəbi *səllallahu əleyhi və səlləmin* yanına girdim, qızdırmaya (malyariya) tutulmuşdu, əlimi bədəninə vurdum və:

- Şiddətli malyariya qızdırmasına tutulmusunuz, - dedim.

- **"Bəli, sizdən iki nəfərin çəkə biləcəyi qədər iztirab çəkirəm"**, - buyurdu.

Buxari, Mərda 3, 13, 16; Müslim, Birr 45

٩١٧ ـ عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: جَاءَنِي رَسُولُ اللَّهِ ﷺ يَعُودُنِي مِنْ وَجَعٍ اشْتَدَّ بِي ، فَقُلْتُ: بَلَغَ بِي مَا تَرَى ، وَأَنَا ذُو مَالٍ وَلاَ يَرِثُنِي إِلاَّ ابْنَتِي ـ وَذَكَرَ الْحَدِيثَ ـ مُتَّفَقٌ عَلَيْهِ.

917. Sad bin Əbu Vaqqas *radiyallahu anhdan* rəvayət edildiyinə görə belə demişdir:

Tutulduğum şiddətli xəstəliyə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* ziyarətimə gəldi. Ona:

- Gördüyün kimi çox narahatam. Mən imkanlı adamam. Bircə qızımdan başqa varisim də yoxdur..." – dedim.

(Ravi hədisin davamını nəql etmişdir.)

Buxari, Cənaiz 37, Vəsaya 2, Mərda 16, Dəavat 43, Fəraiz 6; Müslim, Vəsaya 5. Həmçinin bax. Əbu Davud, Fəraiz 3; Tirmizi, Vəsaya 1; Nəsai, Vəsaya 3; İbn Macə, Vəsaya 5

❁

٩١٨ ـ عَنِ الْقَاسِمِ بْنِ مُحَمَّدٍ قَالَ: قَالَتْ عَائِشَةُ رَضِيَ اللَّهُ عَنْهَا: وَارَأْسَاهُ ! فَقَالَ النَّبِيُّ ﷺ: «بَلْ أَنَا، وَارَ أْسَاهُ !» ـ وَذَكَرَ الْحَدِيثَ ـ رَوَاهُ الْبُخَارِيُّ.

918. Qasim bin Muhammədən rəvayət edildiyinə görə belə dedi:

Aişə *radiyallahu anhə* bir dəfə şiddətli baş ağrısına tutulduğu üçün "vay başım, ölürəm", - dedi. Nəbi *səllallahu əleyhi və səlləm*:

"Əslində mən "vay başım" deməliyəm", [50] - buyurdu.

(Ravi hədisin davamını nəql etdi.)

Buxari, Mərda 16

ÖLMƏK ÜZRƏ OLAN ADAMA KƏLMEYİ-TÖVHİDİ TƏLQİN ETMƏK

Hədislər

٩١٩ ـ عَنْ مُعَاذٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ كَانَ آخِرَ كَلاَمِهِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ دَخَلَ الْجَنَّةَ». رَوَاهُ أَبُو دَاوُدَ.

919. Muaz *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

50. Həmin əsnada Rəsulullah (s.ə.s) vəfatı ilə nəticələnəcək xəstəlik səbəbi ilə şiddətli baş ağrısı keçirirdi.

“Kimin son sözü “Allahdan başqa ilah yoxdur” (lə iləhə illəllah) cümləsi olarsa, cənnətə girər”.

Əbu Davud, Cənaiz 15-16; Hakim, əl-Müstədrək, I, 351

❁

٩٢٠ ـ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَقِّنُوا مَوْتَاكُمْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ». رَوَاهُ مُسْلِمٌ.

920. Əbu Səid əl-Xudri *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

“Ölmək üzrə olanlarınıza lə iləhə illəllah deməyi təlqin edin!” [51]

Müslim, Cənaiz 1, 2. Həmçinin bax. Əbu Davud, Cənaiz 16; Tirmizi, Cənaiz 7; Nəsai, Cənaiz 4; İbn Macə, Cənaiz 3

ÖLÜNÜN GÖZLƏRİNİ QAPAYANDAN SONRA DEYİLƏCƏK SÖZ

Hədis

٩٢١ ـ عَنْ أُمِّ سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: دَخَلَ رَسُولُ اللَّهِ ﷺ عَلَى أَبِي سَلَمَةَ وَقَدْ شَقَّ بَصَرُهُ ، فَأَغْمَضَهُ ثُمَّ قَالَ: «إِنَّ الرُّوحَ إِذَا قُبِضَ تَبِعَهُ الْبَصَرُ». فَضَجَّ نَاسٌ مِنْ أَهْلِهِ ، فَقَالَ: «لاَ تَدْعُوا عَلَى أَنْفُسِكُمْ إِلاَّ بِخَيْرٍ ، فَإِنَّ الْمَلاَئِكَةَ يُؤَمِّنُونَ عَلَى مَا تَقُولُونَ». ثُمَّ قَالَ: «اللَّهُمَّ اغْفِرْ لأَبِي سَلَمَةَ ، وَارْفَعْ دَرَجَتَهُ فِي الْمَهْدِيِّينَ ، وَاخْلُفْهُ فِي عَقِبِهِ فِي الْغَابِرِينَ ، وَاغْفِرْ لَنَا وَلَهُ يَا رَبَّ الْعَالَمِينَ ، وَافْسَحْ لَهُ فِي قَبْرِهِ وَنَوِّرْ لَهُ فِيهِ» ، رَوَاهُ مُسْلِمٌ.

51. Ölmək üzrə olan adama təlqin “sən də de” kimi sözlərlə məcbur etmədən, onun eşidəcəyi səslə lə iləhə illəllah deməkdir.

921. Ümmü Sələmə *radiyallahu anhədən* rəvayət edildiyinə görə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləm* (vəfat edən) Əbu Sələmənin yanına girdi. Gözləri açıq qalmışdı, onları qapadı. Sonra belə buyurdu:

"Ruh çıxanda gözlər onu izləyər".

Elə bu zaman Əbu Sələmənin ailəsindən bəziləri çığır-bağır salaraq ağlamağa başladılar. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

"Dua edərkən özünüzə xeyirdən başqa heç nə istəməyin. Çünki mələklər dualarınıza amin deyirlər", - buyurdu. Sonra belə dua etdi:

"Allahım, Əbu Sələməni bağışla. Dərəcəsini hidayətə çatanların dərəcəsinə yüksəlt! Geridə qoyduqları üçün də sən vəkili ol! Ey aləmlərin Rəbbi, bizi də onu da bağışla! Qəbrini genişləndir və nurla doldur".

Müslim, Cənaiz 7

ÖLÜNÜN BAŞINDA DEYİLƏCƏK SÖZ

ÖLÜNÜN BAŞINDA DEYİLƏCƏK SÖZ VƏ CƏNAZƏ SAHİBİNİN DEYƏCƏKLƏRİ

Hədislər

٩٢٢ ـ عَنْ أُمِّ سَلَمَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا حَضَرْتُمُ الْمَرِيضَ ـ أَوِ الْمَيِّتَ ـ فَقُولُوا خَيْرًا ، فَإِنَّ الْمَلاَئِكَةَ يُؤَمِّنُونَ عَلَى مَا تَقُولُونَ». قَالَتْ: فَلَمَّا مَاتَ أَبُو سَلَمَةَ أَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ ، إِنَّ أَبَا سَلَمَةَ قَدْ مَاتَ: قَالَ: «قُولِي: اللَّهُمَّ اغْفِرْ لِي وَلَهُ ، وَأَعْقِبْنِي مِنْهُ عُقْبَى حَسَنَةً». فَقُلْتُ ، فَأَعْقَبَنِي اللَّهُ مَنْ هُوَ خَيْرٌ لِي مِنْهُ: مُحَمَّدًا ﷺ. رَوَاهُ مُسْلِمٌ.

922. Ümmü Sələmə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

- "Xəstə və ya ölünün başında gözəl sözlər deyin. Çünki mələklər sizin dualarınıza amin deyirlər".

Ümmü Sələmə deyir ki, Əbu Sələmə vəfat edəndə Rəsulullah *səllallahu əleyhi və səlləmin* yanına gəlib dedim:

- Ey Allahın Rəsulu, Əbu Sələmə öldü.

Rəsulullahmənə belə buyurdu:

"Allahım, məni və onu bağışla! Mənə ondan daha yaxşı birini qismət et!" – deyərək Allaha yalvar". Hz. Peyğəmbərin dediyi kimi etdim. Allah-Təala da mənə Əbu Sələmədən daha xeyirli olan Muhammməd *səllallahu əleyhi və səlləmi* ər olaraq verdi.

Müslim, Cənaiz 6. Həmçinin bax. Əbu Davud, Cənaiz 15; Tirmizi, Cənaiz 7; Nəsai, Cənaiz 3; İbn Macə, Cənaiz 4

❁

٩٢٣ ـ وَعَنْهَا قَالَتْ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَا مِنْ عَبْدٍ تُصِيبُهُ مُصِيبَةٌ فَيَقُولُ: إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ ، اللَّهُمَّ اؤْجُرْنِي فِي مُصِيبَتِي وَاخْلُفْ لِي خَيْرًا مِنْهَا ، إِلاَّ أَجَرَهُ اللَّهُ تَعَالَى فِي مُصِيبَتِهِ وَأَخْلَفَ لَهُ خَيْرًا مِنْهَا». (قَالَتْ): فَلَمَّا تُوُفِّيَ أَبُو سَلَمَةَ قُلْتُ كَمَا أَمَرَنِي رَسُولُ اللَّهِ ﷺ ، فَأَخْلَفَ اللَّهُ لِي خَيْرًا مِنْهُ: رَسُولَ اللَّهِ ﷺ. رَوَاهُ مُسْلِمٌ.

923. Yenə Ümmü Sələmə *radiyallahu anhədən* rəvayət edildiyinə görə belə dedi:

Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim:

"Hər hansı bir qul müsibətə düşər və "Allahdan gəlmişik, Allaha qayıdacağıq. Allahım, başıma gələn müsibətin əcrini ver və mənə bundan daha xeyirlisini lütf et" deyə dua edərsə, Allah-Təala onu düçar olduğu müsibətə görə mükafatlandırar və ona itirdiyindən daha xeyirlisini verər".

Ümmü Sələmə dedi ki, Əbu Sələmə öləndə mən Rəsulullah *səllallahu əleyhi və səlləmin* öyrətdiyi kimi dua etdim. Allah da mənə Əbu Sələmədən daha xeyirlisini, Rəsulullah *səllallahu əleyhi və səlləmi* verdi.

Müslim, Cənaiz 4

٩٢٤ ـ عَنْ أَبِي مُوسَى رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا مَاتَ وَلَدُ الْعَبْدِ قَالَ اللَّهُ تَعَالَى لِمَلَائِكَتِهِ : قَبَضْتُمْ وَلَدَ عَبْدِي ؟ فَيَقُولُونَ: نَعَمْ ، فَيَقُولُ: قَبَضْتُمْ ثَمَرَةَ فُؤَادِهِ ؟ فَيَقُولُونَ: نَعَمْ. فَيَقُولُ: فَمَاذَا قَالَ عَبْدِي ؟ فَيَقُولُونَ: حَمِدَكَ وَاسْتَرْجَعَ. فَيَقُولُ اللَّهُ تَعَالَى: ابْنُوا لِعَبْدِي بَيْتًا فِي الْجَنَّةِ ، وَسَمُّوهُ بَيْتَ الْحَمْدِ». رَوَاهُ التِّرْمِذِيُّ.

924. Əbu Musa *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

Bir qulun uşağı öldüyü zaman Allah-Təala mələklərinə buyurar:

- **Qulumun uşağının ruhunu aldınız?** Mələklər:

- Bəli, - deyərlər. Allah-Təala:

- **Bəs qulum nə dedi?** – buyurar. Mələklər:

- Sənə həmd etdi və innə lilləhi və innə ileyhi raciun deyərək istirca etdi (qarşılıq verdi), - deyərlər. Bu zaman Allah-Təala belə buyurar:

- Elə isə qulum üçün cənnətdə bir ev tikin, adını da "həmd evi" qoyun!

Tirmizi, Cənaiz 36

❁

٩٢٥ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يَقُولُ اللَّهُ تَعَالَى: مَا لِعَبْدِي الْمُؤْمِنِ عِنْدِي جَزَاءٌ إِذَا قَبَضْتُ صَفِيَّهُ مِنْ أَهْلِ الدُّنْيَا ثُمَّ احْتَسَبَهُ إِلاَّ الْجَنَّةَ». رَوَاهُ الْبُخَارِيُّ.

925. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* Allah-Təalanın belə buyurduğunu söyləmişdir:

"Mömin bir qulumun dünyada sevdiklərindən birini aldığım zaman buna səbir edib savabını Allahdan gözləyərsə, bu hərəkətinin mənim yanımdakı qarşılığı mütləq cənnətdir".

Buxari, Riqaq 6. Həmçinin bax. Nəsai, Cənaiz 23

٩٢٦ ـ عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: أَرْسَلَتْ إِحْدَى بَنَاتِ النَّبِيِّ ﷺ إِلَيْهِ تَدْعُوهُ وَتُخْبِرُهُ أَنَّ صَبِيًّا لَهَا ـ أَوِ ابْنًا ـ فِي الْمَوْتِ فَقَالَ لِلرَّسُولِ: «ارْجِعْ إِلَيْهَا فَأَخْبِرْهَا أَنَّ لِلَّهِ تَعَالَى مَا أَخَذَ وَلَهُ مَا أَعْطَى ، وَكُلُّ شَيْءٍ عِنْدَهُ بِأَجَلٍ مُسَمًّى، فَمُرْهَا فَلْتَصْبِرْ وَلْتَحْتَسِبْ» ـ وَذَكَرَ تَمَامَ الْحَدِيثِ . مُتَّفَقٌ عَلَيْهِ.

926. Üsamə bin Zeyd *radiyallahu anhumədən* rəvayət edildiyinə görə belə demişdir:

Rəsulullahın qızlarından biri (Zeynəb) Nəbi *səllallahu əleyhi və səlləmin* yanına adam göndərib uşağının (və ya oğlunun) ölmək üzrə olduğunu xəbər verdi. Rəsulullah *səllallahu əleyhi və səlləm* xəbər gətirən adama belə buyurdu:

"Onun yanına qayıt və bildir ki, alan da, verən də Allahdır. Onun qatında hər şeyin müəyyən bir əcəli vardır. Səbir etsin və əcrini Allahdan gözləsin".

Ravi hədisin davamını nəql etdi

Buxari, Cənaiz 33, Müslim, Cənaiz 11. Həmçinin bax. Buxari, Əyman 9, Mərda 9, Tövhid 25; Əbu Davud, Cənaiz 24, ədəb 58; Nəsai, Cənaiz 22; İbn Macə, Cənaiz 53

ÇIĞIR-BAĞIR SALMADAN ÖLÜNÜN ARDINCA AĞLAMAQ

Növhə (şivən qoparmaq, fəryad etmək, "ah belə idi, vay elə idi" deyərək ağı söyləmək haramdır. Bu məsələ inşallah yasaqlar bölümündə ayrıca ələ alınacaqdır. (bax. 1660-1670 nömrəli hədislər) Ölüyə ağlamaqdan çəkindirmək mövzusunda "Ailə üzvlərinin ağlaması səbəbi ilə ölü əzab görər" mənasında hədislər olmaqla yanaşı, bu kimi hədislər özü üçün ağlamalarını vəsiyyət edən adam üçün keçərlidir. Həmçinin bu qadağa çığır-bağır salaraq, şivən qopararaq ağlamaqla əlaqəlidir. Şivən qoparmadan ağlamağın caiz olduğuna dair bir çox hədis vardır. Aşağıda verilən üç hədis də bu qəbildəndir:

Hədislər

٩٢٧ ـ عَنِ ابْنِ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ عَادَ سَعْدَ بْنَ عُبَادَةَ، وَمَعَهُ عَبْدُ الرَّحْمَنِ بْنُ عَوْفٍ وَسَعْدُ بْنُ أَبِي وَقَّاصٍ وَعَبْدُ اللَّهِ بْنُ مَسْعُودٍ رَضِيَ اللَّهُ عَنْهُمْ ، فَبَكَى رَسُولُ اللَّهِ ﷺ ، فَلَمَّا رَأَى الْقَوْمُ بُكَاءَ رَسُولِ اللَّهِ ﷺ بَكَوْا . فَقَالَ: «أَلاَ تَسْمَعُونَ ؟ إِنَّ اللَّهَ لاَ يُعَذِّبُ بِدَمْعِ الْعَيْنِ وَلاَ بِحُزْنِ الْقَلْبِ ، وَلٰكِنْ يُعَذِّبُ بِهَذَا أَوْ يَرْحَمُ !» وَأَشَارَ إِلَى لِسَانِهِ. مُتَّفَقٌ عَلَيْهِ.

927. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm*Əbdürrəhman bin Avf, Sad bin Əbu Vaqqas və Abdullah bin Məsud -Allah onlardan razı olsun- ilə birlikdə Sad bin Übadəni ziyarət etdi. Onun vəziyyətini görən Rəsulullah *səllallahu əleyhi və səlləm* ağladı. Onun ağladığını görən səhabələr də ağlamağa başladılar. Bu zaman Hz. Peyğəmbər:

"Bilmirsinizmi, Allah göz yaşı və qəlbin hüznü səbəbi ilə insana əzab etməz. Lakin – dilini göstərərək- buna görə əzab edər və ya bağışlayar", - buyurdu.

Buxari, Cənaiz 44, Talaq 24; Müslim, Cənaiz 12

❁

٩٢٨ ـ عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ رَضِيَ اللَّهُ عَنْهُمَا أَنَّ رَسُولَ اللَّهِ ﷺ رُفِعَ إِلَيْهِ ابْنُ ابْنَتِهِ وَهُوَ فِي الْمَوْتِ ، فَفَاضَتْ عَيْنَا رَسُولِ اللَّهِ ﷺ فَقَالَ لَهُ سَعْدٌ: مَا هَذَا يَا رَسُولَ اللَّهِ ؟ قَالَ: «هَذِهِ رَحْمَةٌ جَعَلَهَا اللَّهُ تَعَالَى فِي قُلُوبِ عِبَادِهِ ، وَإِنَّمَا يَرْحَمُ اللَّهُ مِنْ عِبَادِهِ الرُّحَمَاءَ». مُتَّفَقٌ عَلَيْهِ.

928. Üsamə bin Zeyd *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmə* qızının ölmək üzrə olan oğlunu verdikləri vaxt Peyğəmbərin gözləri doldu. Bu zaman Sad bin Übadə:

- Ey Allahın Rəsulu, bu nə haldır? – dedi. Hz. Peyğəmbər:

- "Bu, Allahın qullarının qəlbinə qoyduğu rəhmət duyğusudur. Allah rəhm edən qullarına mərhəmət edər", - buyurdu.

Buxari, Cənaiz 33, Müslim, Cənaiz 11. Həmçinin bax. Buxari, Əyman 9, Mərda 9, Tövhid 25; Əbu Davud, Cənaiz 24, Ədəb 58; Nəsai, Cənaiz 22; İbn Macə, Cənaiz 53

❁

٩٢٩ ـ عَنْ أَنَسٍ رَضِيَ اللَّهُ عَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ عَلَى ابْنِهِ إِبْرَاهِيمَ رَضِيَ اللَّهُ عَنْهُ وَهُوَ يَجُودُ بِنَفْسِهِ ، فَجَعَلَتْ عَيْنا رَسُولِ اللَّهِ ﷺ تَذْرِفَانِ. فَقَالَ لَهُ عَبْدُ الرَّحْمَنِ بْنُ عَوْفٍ: وَأَنْتَ يَا رَسُولَ اللَّهِ ؟ فَقَالَ: «يَا بْنَ عَوْفٍ ، إِنَّهَا رَحْمَةٌ». ثُمَّ أَتْبَعَهَا بِأُخْرَى ، فَقَالَ: «إِنَّ الْعَيْنَ تَدْمَعُ ، وَالْقَلْبَ يَحْزَنُ ، وَلاَ نَقُولُ إِلاَّ مَا يُرْضِي رَبَّنَا ، وَإِنَّا لِفِرَاقِكَ يَا إِبْرَاهِيمُ لَمَحْزُونُونَ». رَوَاهُ الْبُخَارِيُّ .

929. Ənəs *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* ruhunu təslim etmək üzrə olan oğlu İbrahimin yanına girəndə gözlərindən yaş axmağa başladı. Bu zaman Əbdürrəhman bin Avf:

- Ey Allahın Rəsulu, siz də ağlayırsınız? – deyə soruşdu. Hz. Peyğəmbər ona:

- "Ey İbn Avf, bu gördüyün göz yaşları rəhmət və şəfqət nişanəsidir", - cavabını verdi. Sonra belə buyurdu:

- "Göz yaşarar, qəlb hüznlənər. Biz yalnız Rəbbimizin razı qalacağı sözlər söyləyərik. Ey İbrahim həqiqətən də səni itirdiyimiz üçün kədərliyik".

Buxari, Cənaiz 44; Müslim, Fəzail 62. Həmçinin bax. İbn Macə, Cənaiz 53

ÖLÜNÜN EYİBİNİ GİZLƏTMƏK

ÖLƏN ADAMDA MÜŞAHİDƏ OLUNAN PİS HALLARI GİZLƏTMƏK

Hədis

٩٣٠ ـ عَنْ أَبِي رَافِعٍ أَسْلَمَ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ غَسَّلَ مَيِّتًا فَكَتَمَ عَلَيْهِ غَفَرَ اللَّهُ لَهُ أَرْبَعِينَ مَرَّةً». رَوَاهُ الْحَاكِمُ.

930. Peyğəmbər *səllallahu əleyhi və səlləmin* azad etdiyi köləsi Əbu Rafi Əsləm *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Ölünü yuyan və onda gördüyü pis halları gizlədən adamı Allah-Təala qırx dəfə bağışlayar".

Hakim, Müstədrək, I, 362. Həmçinin bax. Beyhəqi, əs-Sünənul-kübra, III, 395

CƏNAZƏ NAMAZI QILMAQ

CƏNAZƏ NAMAZI QILMAĞIN, QƏBRƏ KİMİ GEDƏRƏK CƏNAZƏNİN MƏZARA QOYULMASINDA İŞTİRAK ETMƏYİN YAXŞI ƏMƏL OLMASI, QADINLARIN CƏNAZƏDƏ İŞTİRAKININ İSƏ MƏKRUH OLMASI

Hədislər

Cənazəni təqib etməyə dair bir az əvvəl 896 və 897 nömrəli hədislərdə keçdi.

٩٣١ ـ عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ شَهِدَ الْجَنَازَةَ حَتَّى يُصَلَّى عَلَيْهَا فَلَهُ قِيرَاطٌ ، وَمَنْ شَهِدَهَا حَتَّى تُدْفَنَ فَلَهُ قِيرَاطَانِ». قِيلَ: وَمَا الْقِيرَاطَانِ ؟ قَالَ: «مِثْلُ الْجَبَلَيْنِ الْعَظِيمَيْنِ». مُتَّفَقٌ عَلَيْهِ.

931. Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim bir cənazədə cənazə namazı qılınana qədər iştirak edərsə, bir qırat, dəfn olunana qədər iştirak edərsə, iki qırat savab alar".

- İki qırat nə qədərdir? – deyə soruşdular. Rəsulullah *səllallahu əleyhi və səlləm*:

- "İki böyük dağ qədər", - cavabını verdi.

Buxari, Cənaiz 59; Müslim, Cənaiz 52, 53. Həmçinin bax. Nəsai, Cənaiz 79; İbn Macə, Cənaiz 34

❁

٩٣٢ ـ وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنِ اتَّبَعَ جَنَازَةَ مُسْلِمٍ إِيمَانًا وَاحْتِسَابًا، وَكَانَ مَعَهُ حَتَّى يُصَلَّى عَلَيْهَا وَيُفْرَغَ مِنْ دَفْنِهَا ، فَإِنَّهُ يَرْجِعُ مِنَ الْأَجْرِ بِقِيرَاطَيْنِ كُلُّ قِيرَاطٍ مِثْلُ أُحُدٍ ، وَمَنْ صَلَّى عَلَيْهَا ثُمَّ رَجَعَ قَبْلَ أَنْ تُدْفَنَ فَإِنَّهُ يَرْجِعُ بِقِيرَاطٍ». رَوَاهُ الْبُخَارِيُّ.

932. Yenə Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər kim savabına inanaraq, əvəzini yalnız Allahdan gözləyərək bir müsəlmanın cənazəsini təqib edər və namazı qılınıb dəfn olunana qədər gözləyərsə, hər biri Uhud dağı boyda olan iki qırat savabla qayıdar. Hər kim cənazə namazını qılar, dəfn olunmadan əvvəl ayrılarsa, bir qırat savabla qayıdar".

Buxari, İman 35. Həmçinin bax. Müslim, Cənaiz 56; İbn Macə, Cənaiz 34

❁

٩٣٣ ـ عَنْ أُمِّ عَطِيَّةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: نُهِينَا عَنِ اتِّبَاعِ الْجَنَائِزِ ، وَلَمْ يُعْزَمْ عَلَيْنَا». مُتَّفَقٌ عَلَيْهِ.

933. Ümmü Atiyyə *radiyallahu anhədən* rəvayət olunduğuna görə belə demişdir:

Qəbrə kimi cənazənin ardınca getmək biz qadınlara qadağan olundu. Lakin bu, bizə haram qılınmadı.

Buxari, Cənaiz 30, İtisam 27; Müslim, Cənaiz 34-35. Həmçinin bax. Əbu Davud, Cənaiz 40; İbn Macə, Cənaiz 50

CƏNAZƏ NAMAZINDA SƏF TUTMAQ

CƏNAZƏ NAMAZI QILANLARIN ÇOX OLMASI, CAMAATIN ÜÇ VƏ YA DAHA ÇOX SƏF TUTMASI

Hədislər

٩٣٤ ـ عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَا مِنْ مَيِّتٍ يُصَلِّي عَلَيْهِ أُمَّةٌ مِنَ الْمُسْلِمِينَ يَبْلُغُونَ مِئَةً ، كُلُّهُمْ يَشْفَعُونَ لَهُ إلاَّ شُفِّعُوا فِيهِ». رَوَاهُ مُسْلِمٌ.

934. Aişə *radiyallahu anhədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləm* belə buyurdu:

"Hər hansı bir ölüyə sayı yüzə çatan bir camaat namaz qılar və hamısı ona şəfaətçi olarsa, onların duaları qəbul olunar".

Müslim, Cənaiz 58. Həmçinin bax. Tirmizi, Cənaiz 40; Nəsai, Cənaiz 78; İbn Macə, Cənaiz 19

٩٣٥ ـ عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَا مِنْ رَجُلٍ مُسْلِمٍ يَمُوتُ فَيَقُومُ عَلَى جَنَازَتِهِ أَرْبَعُونَ رَجُلاً لاَ يُشْرِكُونَ بِاللَّهِ شَيْئًا إلاَّ شَفَّعَهُمُ اللَّهُ فِيهِ». رَوَاهُ مُسْلِمٌ.

935. İbn Abbas *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *səllallahu əleyhi və səlləmin* belə buyurduğunu eşitdim, -dedi:

“Bir müsəlman ölər, Allaha şərik qoşmayan qırx nəfər cənazə namazını qılarsa, Allah onların cənazə haqqındakı dualarını qəbul edər”.

Müslim, Cənaiz 59. Həmçinin bax. Əbu Davud, Cənaiz 41; İbn Macə, Cənaiz 19

❁

٩٣٦ ـ عَنْ مَرْثَدِ بْنِ عَبْدِ اللَّهِ الْيَزَنِيِّ قَالَ: كَانَ مَالِكُ بْنُ هُبَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ إِذَا صَلَّى عَلَى الْجَنَازَةِ ، فَتَقَالَّ النَّاسَ عَلَيْهَا ، جَزَّأَهُمْ عَلَيْهَا ثَلاَثَةَ أَجْزَاءٍ ، ثُمَّ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ صَلَّى عَلَيْهِ ثَلاَثَةُ صُفُوفٍ فَقَدْ أَوْجَبَ». رَوَاهُ أَبُو دَاوُدَ ، وَالتِّرْمِذِيُّ.

936. Mərsəd bin Abdullah əl-Yəzənidən rəvayət edildiyinə görə o, belə dedi:

Malik bin Hübeyrə *radiyallahu anh* cənazə namazı qılacağı zaman camaatın az olduğunu gördükdə onları üç səf edər və belə deyərdi:

Rəsulullah *səllallahu əleyhi və səlləm*: **“Üç səf camaat tərəfindən cənazə namazı qılınan adama cənnət vacib olar”** buyurdu.

Əbu Davud, Cənaiz 39; Tirmizi, Cənaiz 40; İbn Macə, Cənaiz 19

MÜNDƏRİCAT

Hədis – Sünnə 7
İmam Nəvəvinin Həyatı 25
Riyazus-Salihin 27
Müəllifin Müqəddiməsi 32

Müsəlmanın Həyat Ölçüləri Bölümü 35

Tövbə 47
Səbir 72
Doğru Danışmaq 99
Qulların Allahın Nəzarətində Olması 103
Təqva 113
Tərəddüdsüz İman Və Allaha Tam Bel Bağlamaq 116
Doğruluq 127
Təfəkkür 129
Xeyirli İşlərə Can Atmaq 131
Mücahidə 136
Ömrün Sonlarında Xeyir Əməlləri 148
Artırmağa Təşviq 148
Xeyrə Aparan Yolların 153
Saysız-Hesabsız Olması 153
Allahın Əmrlərinə İtaətdə Ölçülü Olmaq 168
İbadətdə Və Xeyir Əməllərdə 181
Davamlılıq Prinsipi 181
Sünnəni Qorumaq 183
Allahın Hökmünə Boyun Əymək 193
Bidətlərdən Çəkinmək 196
Yaxşı Və Pis Cığır Açanlar 198
Xeyrə Öndər Olmaq 201

Yaxşılıq Və Təqvada Yardımlaşmaq 205
Nəsihət 207
Yaxşılığı Əmr Etmək, Pislikdən Çəkindirmək 209
Yaxşılığı Tövsiyə Etdiyi, Pislikdən 220
Çəkindirdiyi Halda Sözü İlə Əməli 220
Zidd Olan Adamın Acı Aqibəti 220
Əmanətə Riayət Etmək 222
Zülm 231
Müsəlmanların Toxunulmaz Haqları 244
Ayıbları Örtmək 254
Müsəlmanların Eehtiyacını Təmin Etmək 257
Şəfaət 259
İnsanları Barışdırmaq 260
Gücsüz Müsəlmanlarla Kasıbların və
Ad-Sanı Olmayanların Dəyəri 265
Yetim Və Kimsəsizləri Qorumaq 274
Qadınlara Qarşı Xoş Rəftar 282
Ərin Arvadı Üzərindəki Haqları 287
Ailənin Dolanışığı 291
Sevilən Qiymətli Malları İnfaq Etmək 296
Ailədə Din Tərbiyyəsi 298
Qonşu Haqqı Və Bununla Bağlı Tövsiyələr 301
Ata-Anaya Yaxşılıq Və Qohum-Əqrəba Ziyarəti 305
Ata-Anaya Qarşı Gəlməyin Və Qohumlarla
Əlaqəni Kəsməyin Haram Olması 324
Atanın Dostlarına Yaxşılıq Etmək 327
Əhli-Beytə Ehriram 332
Alimlərə Ehtiram 335
Fəzilətli İnsanları Ziyarət Etmək 342
Allah Üçün Sevmək 354
Allahın Qulunu Sevməsi 361
Yaxşı Adamlara Əziyyət Verməmək 365

Zahirə Görə Hökm Vermək 366
Allah Qorxusu 372
Allahın Rəhmətini Ümid Etmək 382
Allahın Rəhmətini Ümid Etməyin Faydası 407
Qorxu Və Ümid Arasında Yaşamaq 409
Ağlamaq 411
Zöhdün Üstünlüyü 418
Acılığın Və Sadə Yaşamağın Üstünlüyü 437
Qənaət Və Gözütoxluq 463
Dilənmədən Və Göz Dikmədən Sədəqə Almaq 473
Əl Əməyi İlə Yaşamaq 474
Səxavət 476
Xəsislik Və Acgözlükdən Uzaq Olmaq 487
Başqasını Özündən Üstün Tutmaq 488
Axirət Hazırlığı 493
Şükür Edən Zənginin Fəziləti 494
Ölümü Anmaq Və Nəfsin Hədsiz İstəklərini Cilovlamaq 498
Qəbir Ziyarəti 505
Günahdan Çəkinmək, Günaha Aparacaq Əməllərdən Uzaqlaşmaq 509
İnsanlardan Uzaq Yaşamaq 514
İnsanlarla Birlikdə Yaşamağın Əhəmiyyəti 517
Təvəzökarlıq Etmək və Möminlərə Qol-Qanad Gərmək 518
Təkəbbürlənməyin və Özünü Bəyənməyin Haram Olması 524
Gözəl Əxlaq 530
Mülayim Xasiyyətli və Təmkinli Olmaq, Güzəştə Getmək 535
Xətaları Bağışlamaq və Cahillərə Uymamaq 540
Çətinliklərə Sinə Gərmək 544
Din Ücün Qəzəblənmək 545
İdarəçilərin Rəiyyətə Şəfqəti 549
Ədalətli Dövlət Başçısı 553
İdarəçilərə İtaət 555

İdarəçiliyə Can Atmamaq 561
İdarəçilərin Yaxşı Köməkçi Seçməsi 563
İdarəçiliyə Can Atanlara Vəzifə Verməmək 565

Ədəb Bölümü 566

Sirr Saxlamaq 568
Sözündə Durmaq və Vədini Yerinə Yetirmək 572
Yaxşı Əməli Davam Etdirmək 575
Qarşısına Çıxana Gözəl Söz Söyləmək, Gülər Üz Göstərmək 576
Başadüşülən Tərzdə Danışmaq 577
Alimin Dinləyiciləri Susdurması 578
Öyüd Verərkən Həddi Aşmamaq 579
Vüqar və Təmkin 582
Namaza, Elm Məclisinə və Bu Kimi İbadətlərə
Təmkin və Vüqarla Çağırmaq 582
Qonağa İkram Etmək 584
Xeyirli İşlərə Görə Müjdələmək və Təbrik Etmək 586
Vidalaşmaq 594
İstixarə və Məşvərət 599
Bəzi İbadətləri Etmək Üçün Müxtəlif Yollardan
İstifadə Edərək Gedib-Gəlmək 600
Bəzi İşlərə Sağdan Başlamaq 601

Yemək Qaydaları Bölümü 605

Yeməkdə Qüsur Axtarmamaq və
Onu Bəyəndiyini Dilə Gətirmək 609
Süfrədə Oturan Oruclu Yemək Yemədiyi Zamaz Nə Etməlidir? 610
Dəvətə Gedən Adama Başqası Qoşularsa Deyəcəyi Söz 611
Yeməyi Önündən Yemək,
Süfrə Ədəbini Bbilməyənə Öyrətmək 611
Xurma Kimi Bir-Bir 613
Yeyiləcək Meyvələri Süfrədəkilərin
İzni Olmadan Cüt-Cüt Yeməmək 613

Yeməkdən Doymayan Adam 613
Yeməyin Boşqabın Ortasından Deyil, Kənarından Yeyilməsi 614
Dirsəklənərək Yemək 616
Yeməyin Məkruh Olması 616
Yeməyi Üç Barmaqla Yemək 617
Yeməyi Birlikdə Yemək 620
İçkilərlə Bağlı Ədəblər 621
Su Tuluğuna Ağzı Dirəyib İçməmək 623
İçkiyə Üfürməmək 624
Ayaq Üstə İçməyin Mümkünlüyü,
Oturaraq İçməyin İsə Daha Münasib Olması 625
Cammata Su Paylayanın Ən Axırda İçməsi 627
Təmiz Qablardan Su İçmək 628
Geyim-Keçim Bölümü 631
Köynək Ggeyinmək 636
Paltarların Uzun və Qısa Olması 636
Orta Səviyyədə Geyinmək 647
İpək Geyinməyin Kişilərə Haram Olması 647
Qotur Xəstəliyi Olanın İpək Geyinməsi 649
Pələng Dərisindən İstifadə 650
Yeni Paltar, Ayaqqabı və s. Geyinəndə Ediləcək Dua 651
Sağdan Geyinmək 651

Yuxu Ədəbi Bölümü 652

Yatmaq və Oturmaq Ədəbi 655
Məclis Ədəbi 657
Yuxu və Yuxu İlə Bağlı Əsaslar 663
Salam Bölümü 667
Salam Alıb-Verməyin Qaydası 671
Salam Ədəbi 674
Salamı Təkrarlamaq 675
Evinə Girən Adamın Salam Verməsi 676

Uşaqlara Salam Vermək 677
Kişinin Qadına Salam Verməsi 677
İman Etməyənlərə Salam Verib-Almaq 679
Ayrılarkən Salam Vermək 680
Bir Evə Girəndə İzin İstəməyin 681
Vacibliyi və Riayət Olunacaq Ədəblər 681
İzin İstəyərkən Adını Demək 683
Asqırana Yərhamukəllah Demək 685
Müsafihə Etmək (Görüşmək) 688

Xəstə Ziyarəti Bölümü 693

Xəstəyə Dua Etmək 697
Xəstənin Yaxınlarından Halını Soruşmaq 701
Öləcəyini Hiss Edən Adamın Duası 702
Xəstəyə və Ölümə Məhkum Edilənlərə Yaxşı Baxmaq 703
Xəstənin Halını Dilə Gətirməsi 704
Ölmək Üzrə Olan Adama Kəlmeyi-Tövhidi Təlqin Etmək 705
Ölünün Gözlərini Qapayandan Sonra Deyiləcək Söz 706
Ölünün Başında Deyiləcək Söz 707
Çığır-Bağır Salmadan Ölünün Ardınca Ağlamaq 710
Ölünün Eyibini Gizlətmək 713
Cənazə Namazı Qılmaq 713
Cənazə Namazında Səf Tutmaq 715

QEYDLƏR